Safarli, E. & Gumush, G. K. (2012). The effect of macroenomic factors on the performance of Azerbaijan banking system, *Journal of Money, Investment and Banking, 25,* 59-69.

Sealey, C.W. Jr. & Lindley, J.T. (1977). Inputs, Outputs, and a Theory of Production and Cost at Depository Financial Institutions. *Journal of Finance 32*(4), 1251-1266

Seiford, L.M. & Thrall, R.M., (1990). Recent Developments in DEA: the Mathematical Programming Appoach to Frontier Analysis, *J Econometrics*, 4, s.7-38.

System bankowy w Polsce w latach dziewięćdziesiątych, National Bank of Poland, December 2001, p. 2.

Solarz, J. K., Wybra*ne aspekty dostosowania polskiego systemu bankowego do wymogów Wspólnot Europejskich i OECD*, "Bank i Kredyt" 1996, No 5, p. 32–37.

Torun, N. (2020), *Sağlık Hizmetlerinde etkinlik ölçümü*, Ankara: Gazi

Tsionas, M.G. (2020). A coherent approach to Bayesian data envelopment analysis, *European Journal of Operational Research, 281*(2), 439-448, Doi:10.1016/j.ejor.2019.08.039

Ustawa Prawo bankowe z dnia 29 sierpnia 1997 r. (Dz.U. 1997, nr 140, poz. 939).

Yagubov, S. & Yagubov, U. (2020). The efficiency of Azerbaijani banks: an empiric analysis, *55th International Scientific Conference on Economic and Social Development – Baku/Azerbaijan*, 581-587.

Yeşilyurt, Ö., & Salamov, F. (2017). Evaluation of Efficiency and Factors influencing the Efficiency in the Health Systems of Turkic States with Super-efficiency and Tobit Models. Balkan and Near Eastern Journal of Social Sciences, 3(2), 128–138.

Yuksel, S., Mukhtarov, S., & Mammadov, E. (2016). Comparing the efficiency of Turkish and Azerbaijani banks: An application with data envelopment analysis, *International Journal of Economics and Financial Issues, 6*(3), 1059-1067.

# İşğaldan Azad Edilmiş Ərazilərin İnkişafi Üçün Müsair Trendlər: Yeni İnkişaf Modeli və Asimmetrik Nəticələr.

**Baba Məmmədov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**baba.mammadov89@gmail.com**

## Xülasə

Tədqiqatın əsas məqsədi asimmetriyanı iqtisadiyyatda bir fenomen kimi nəzərdən keçirməkdir. Tədqiqat işi asimmetriyanın nəzəri və qlobal aspektləri əsasında aparılmışdır. Tədqiqat həm də asimmetriyanın təkcə iqtisadi sahədə deyil, həyatın siyasi, mənəvi və sosial sahələrində də müşahidə olunduğuna diqqət çəkib. Mikro, makro və qlobal səviyyədə asimmetriyanın müəyyən edilməsi mühüm aspektlərdən biridir. Asimmetriyanın təsnifatı, o cümlədən bir subyektin resurslarının digər mövzu üzərində üstünlük təşkil etməsi ilə özünü göstərən informasiya asimmetriyasına verilən ən böyük əhəmiyyət təsvir edilmişdir. Tədqiqat nəticəsində dünya qaz bazarı təhlil edilmiş, qaz hasilatı göstəriciləri verilmiş, nəticədə mavi yanacaqla zəngin ölkələr müəyyənləşdirilmişdir ki, bunun da nəticəsində bir ölkənin digər ölkədən asılılığı özünü büruzə verir. İşğaldan azad edilmiş ərazilərin əsas prioritet sahələri, o cümlədən bəzi ərazilərdə görülən işlər nəzərdən keçirilmişdir. Yeni yaradılan ağıllı kəndlər də bu məqalədə öz aktuallığını qoruyur. Məqalənin praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, iqtisadi sistemdə asimmetiryaların aradan qaldırılmasının vacibliyi öz aktuallığını qoruyub saxlayır. Belə ki, asimmetriyanın mövcudluğu ölkə iqtisadiyyatında iqtisadi artımın ləngiməsinə səbəb olan amildir.

**Açar sözlər:** asimmetriya, ağıllı kənd, ağıllı şəhər, iqtisadiyyat modeli

## Abstract

The main purpose of the study is to consider asymmetry as a phenomenon in the economy. Research work was carried out on the basis of theoretical and global aspects of asymmetry. The study also drew attention to the fact that asymmetry is observed not only in the economic sphere, but also in the political, moral and social spheres of life. Identification of asymmetry at the micro, macro and global levels is one of the important aspects. The classification of asymmetry is described, including the greatest importance given to information asymmetry, which is manifested by the predominance of resources by one subject over another subject. As a result of the study, the world gas market was analyzed, gas production indicators were given, as a result, countries rich in blue fuel were identified, as a result of which the dependence of one country on another country is manifested. The main priority areas of the territories liberated from occupations, as well as the work done in some areas, are considered. The created smart villages are also relevant in this article. The practical importance of the article is that the importance of eliminating asymmetries in the economic system remains relevant. Thus, the existence of asymmetry is a factor that slows down economic growth in the country's economy.

**Key words:** asymmetry, smart village, smart city, economy model

## Giriş

Azərbaycan xalqı tarixinin ən şanlı dönəmlərindən birini yaşayır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu bütün dünyaya öz qüdrətini göstərdi. Ermənistan və havadarları tərəfindən işğal olunmuş torpaqlarımız əsgər və zabitlərimizin canı, qanı bahasına azad olundu. Şanlı qələbəmizlə ərazi bütövlüyümüz təmin edildi. Azərbaycan Ordusunun şücaətindən, mərdliyindən, zəfərindən yazmaq nə qədər qürurverici hiss, nə böyük xoşbəxtlikdirsə, eləcə də 30 il ayrı düşdüyümüz ərazilərimizin iqtisadi potensialını araşdırmaq bir o qədər sevindirici haldır. Əlbəttə,

işğaldan azad olunan regionun iqtisadi, tarixi və mədəni əhəmiyyəti ölçüyəgəlməzdir (Şəkərəliyev, 2009).

Yuxarı Qarabağ və işğal edilmiş ətraf rayonlarımız tarixi-mədəni dəyəri, füsünkar təbiəti ilə yanaşı, yeraltı və yerüstü sərvətlərə, zəngin iqtisadi potensiala, geniş turizm imkanlarına malikdir. Bu rayonlarımız aqrar üstünlüyü, xammal bazası və emaledici sənaye istehsalı baxımından əlverişlidir. Həmin ərazilərin iqtisadi potensialının əsas parametrlərinə diqqət yetirsək görərik ki, Ermənistanın talançılığı, istismarı nəticəsində regionun infrastrukturu yox səviyyəsinə gətirilib. İşğal nəticəsində minlərlə hektar əkinəyararlı ərazi hərbi tullantılarla çirkləndirilmiş, Azərbaycan iqtisadiyyatına və dünyanın genofonduna milyardlarla manat həcmində ziyan vurulmuşdur.

Təxminən 30 il ərzində mənfür düşmənlərimizin təcavüzkar əməllərindən əziyyət çəkmiş, region inteqrasiya proseslərinin intensivləşməsindən məhrum olmuş torpaqlarımızda Ermənistanın işğalına son qoyan 44 günlük Vətən Müharibəsi zamanı Azərbaycanın Böyük Qələbəsindən sonra ölkəmizin iqtisadiyyatı üçün yeni dövr başlayır (Hüseynov, 2015).

Bu zaman belə bir sual yaranır ki, Qarabağ iqtisadiyyatının və ya yeni iqtisadi modelin inkişafının əsas prioritetləri necə asimmetriyaya səbəb ola bilər?

**İşğaldan Azad Edilmiş Ərazilərin İqtisadi Potensialı**

Azərbaycan Respublikasının ərazisinin, xüsusilə işğaldan azad edilən ərazilərimizin kifayət qədər böyük iqtisadi potensialı var. İnfrastrukturun bərpası proseslərindən sonra işğaldan azad olunmuş bölgələrimizin, xüsusilə Laçın və Kəlbəcər rayonlarının iqtisadi potensialı, o cümlədən, ölkə üzrə ümumi daxili məhsuldakı payını qiymətləndirsək görərik ki, həmin ərazilərdə iqtisadiyyatın hədsiz inkişaf potensialının mümkünlüyünü görərik. İşğaldan azad edilmiş torpaqlarımızın iqtisadi potensialı çoxspektrli olub, kənd təsərrüfatının, sənayenin və turizmin müxtəlif sahələrini əhatə edir. Bu torpaqlar kənd təsərrüfatının üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlıq sahələrinin inkişafı üçün böyük potensiala sahibdir. Bu regionun xarekterik bitkiləri sırasına qarğıdalı, noxud və üzümü aid etmək olar. Qeyd edim ki, işğaldan əvvəlki dövrlərdə Füzuli və Ağdam rayonları pambıq, taxıl, üzüm istehsalına görə ölkədə aparıcı sıralarda idilər. Üzümçülük sahəsində fərqlənən rayonlar siyahısında Cəbrayıl, Qubadlı, Zəngilan rayonları da vardır. Bundan başqa Laçın, Kəlbəcər, Qubadlı və Zəngilanda daha çox heyvandarlıq inkişaf etmişdir. Məlumdur ki, işğaldan azad edilən torpaqlarımızın təbii imkanları və kənd təsərrüfatı potensialı bölgədə iqtisadiyyatın daha sürətli inkişafına təkanverici qüvvə ola bilər. Alimlərin tədqiqatlarının nəticələrinə əsasən Qarabağ bölgəsi bir sıra efiryağlı, aromatik, dərman, bəzək və digər qeyri-ənənəvi bitkilərin də vətənidir (Hüseynov, 2015).

Dağlıq Qarabağ və onun ətrafında olan Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Füzuli inzibati rayonları böyük xammal ehtiyatlarına malikdir. İşğaldan azad edilmiş Cəbrayılın yenidən tikilməsi üçün əksər tikinti materiallarının ehtiyatları elə bu rayonun özündə də var. Zəngilan, Ağdərə, Kəlbəcər rayonlarında sənaye ehtiyatları ilə zəngin qızıl yataqları mövcuddur .

Yeni təbii resurslarını dövriyyəyə cəlb etməklə Azərbaycanın qərb bölgəsinin inkişaf etdirmək, dağ-mədən sənayesinin və eləcə də, metallurgiya kompleksinin yüksəlişini təmin etmək potensialına malikdir. Metallurgiyanı inkişaf etdirmək isə Azərbaycanın sənaye sahələri ilə yanaşı, həm də hərbi sənayenin inkişafına böyük təkan vermiş olar (Şəkərəliyev, 2009).

İşğaldan azad edilmiş regionların sənaye potensialını 4 istiqamətdə qiymətləndirə bilərik: zəngin su təchizatı, elektrik enerjisi, sənaye rekreasiya imkanları və zəngin faydalı qazıntıların emalı (Hüseynov, 2015).

Bu torpaqlar həm elektrik enerjisi istehsalı, həm meliorasiya, həm də içməli su kimi istifadə oluna bilən mineral və termal su mənbələri ilə zəngindir. Qeyd edək ki, Azərbaycanın mineral su ehtiyatlarının 40 faizə qədəri yenidən azadlığına qovuşmuş torpaqlarımızda olub.

Turizm Azərbaycan iqtisadiyyatının inkişafının əsas sahələrindən biridir və doğma torpaqlarımız azad edildikdən sonra həm yerli əhalinin, həm də yerli olmayan əhalinin bu əraziyə səfər etmək istəyəcəyini nəzərə alsaq, bununla bağlı turizm zonaları aktual olacaq. Müzəffər Ali Baş Komandan, Prezident, Cənab İlham Əliyevin tapşırığına əsasən turizm marşrutlarının inkişafı istiqamətində işlər davam etdirilir və bu bölgələrdə turizm sənayesinin yüksək səviyyədə inkişafı nəzərdə tutulur (https://www.baki-xeber.com/iqtisadiyyat/119439.html,14.04.2023).

Möhkəm bünövrə üzərində qurulan infrastruktur və məskunlaşmanı təmin etməklə bölgənin ölkə üzrə iqtisadi fəaliyyətdə payını artırmaq olar. Qeyd edilənlərlə yanaşı regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artıraraq, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcək, Zəngilan şəhəri nəqliyyat logistika mərkəzi olacaq (Şəkərəliyev, 2009).

**Asimmetriya İqtisadi Fenomen Kimi**

Termin olaraq asimmetriya yunan sözü olan “disproporsiya” sözündəndir və insan həyatının bütün sahələrində mövcuddur. Asimmetriya anlayışı insan fəaliyyətinin müxtəlif sahələrində, məsələn, musiqi, xoreoqrafiya, memarlıq, rəssamlıq, riyaziyyat, fizika, məntiq, canlı orqanizmlərin və bitkilərin quruluşu və s. geniş tətbiq olunur (Гулиева, 2016)

Paylanma asimmetriyasının ölçüsü kimi asimmetriya anlayışı 1895-ci ildə K.Pirson tərəfindən elmi dövriyyəyə daxil edilmişdir. Vladimir Dal hesab edirdi ki, asimmetriyanın mənbəyi qeyri-müəyyənlikdir, naməlum, araşdırılmamış, hesablanmamış, ölçülməmiş və hər cəhətdən təsvir olunmamış kimi ifadə edilir (Даль,1994). Mövcud təriflərdə asimmetriyanın əsas xüsusiyyəti önə çıxır – hər hansı bir başlıqda bir mövzunun digərindən üstünlüyü. Bu halda asimmetriya, əlaqənin bir subyektinin digərindən üstün olduğu, bilmədiyi (və ya bildiyi) və öhdəsindən gələ bilmədiyi bir vəziyyət kimi müəyyən edilə bilər. Asimmetriyanın təzahürü istər-istəməz iqtisadi sistemi, iqtisadiyyatda gedən prosesləri və hadisələri xarakterizə etmək üçün istifadə olunur.

Mikro səviyyədə asimmetriya informasiya asimmetriyası kimi, yəni mallar, xidmətlər, fiziki şəxslər, bazarlar haqqında məlumatların təsərrüfat subyektləri arasında qeyri-bərabər paylanması kimi ifadə edilir. Başqa sözlə, bir təsərrüfat subyektinin digər subyekt qarşısında üstünlüyə malik olduğu, digər subyektin bundan xəbəri olmayan bir vəziyyətin yaranmasını qeyd edirik. Belə bir vəziyyət, yəni açıq-aşkar asimmetriya təsərrüfat subyektləri arasında ziddiyyətlərə səbəb olur.

Beləliklə, asimmetriya müəyyən resursların təsərrüfat münasibətlərinin iştirakçıları arasında qeyri-bərabər bölüşdürülməsi mühiti kimi təqdim olunur ki, bu da subyektlər üçün imkanların məhdudlaşmasına gətirib çıxarır (Гулиева,2016).

Asimmetriyaların ortaya çıxması nəticəsində iştirakçılar risk və qeyri-müəyyənliyi aradan qaldırmaq üçün bilik və məlumatlılıq uğrunda əbədi və maneəsiz yarışda olurlar. Makro səviyyədə asılılıq daha mürəkkəb görünür, çünki müxtəlif səviyyələrdə və cəmiyyətin müxtəlif sahələri haqqında böyük həcmdə məlumatların verilməsinə ehtiyac var. 1980-ci illərdə və 1990-cı illərin birinci yarısında iqtisadiyyatda biznes dövrlərinin ekonometrik ölçülərinin etibarlılığını artırmaq üçün makroiqtisadiyyata asimmetriyaların daxil edilməsinin mümkünlüyü haqqında müzakirələr başladı. Bunun üçün dövrün müvafiq fazasında bərpa və artım fazasının vaxtının və sürətlərinin azalma səviyyəsindən asılılığı müəyyən edilmiş və bununla bağlı asimmetriyalar müəyyən edilmişdir. Beləliklə, nəinki biznes dövrlərində simmetriyaların mövcudluğu sübut olundu, həm də bu simmetriyaların onların axınına təsiri aydınlaşdırıldı (Əhmədov, Hüseyn,2011).

Makro səviyyədə məlumat asimmetriyasının səbəblərini adlandırmaq olar:

- hədəf auditoriyanı müəyyən etmək və ona çatmaqda çətinlik (əhatə dairəsinin geniş olması səbəbindən bütün istehlakçılar üçün qavrayış, adət-ənənə, təhsil, din və s. fərqlər nəzərə alınmaqla məlumatı düzgün və tam çatdırmaq çətindir);

– siyasi və iqtisadi maneələr (məsələn, sanksiyalar);

- tarixi faktlar, hər bir konkret ölkə haqqında sabit fikirlər səbəbindən yaranmış sosial və mənəvi maneələr;

- məlumatlara, məhsullara və ya xidmətlərə çıxışın müxtəlif səviyyələri (məsələn, ölkədəki turizm haqqında məlumat digər ölkələrdən olan insanlara paylana bilər, lakin turistlərin sayı artmayacaq, həmçinin ölkəyə səfərlərin tezliyi yolun yüksək qiymətinə).

Mikro səviyyədə asimmetriyanın artması ilə məhsul və xidmətlərin istehlakının həcminin azaldığını və makro səviyyədə iqtisadi artımın yavaşladığını qeyd etmək olar (Гулиева, 2016)

Asimmetriyanın aşağıdakı növləri var:

1. Bazar qeyri-müəyyənliyi regionlar və ayrı-ayrı təsərrüfat subyektləri səviyyəsinə qədər uzanan milli və qlobal idarəetmə səviyyələrində obyektin dəyişməsi ilə əlaqədardır.

2. İnstitusional asimmetriya tənzimləmə obyekti kimi formal və qeyri-rəsmi məhdudiyyətlərin və stimulların və mexanizmlərin uyğunsuzluğu, gecikməsi və ya irəliləməsi nəticəsində yaranır.

3. Müvəqqəti retrospektiv, cari və perspektiv dəyişikliklərin obyektin vəziyyətinə təsirini nəzərdə tutur.

4. Resurs texnoloji qeyri-müəyyənliyin təsiri altında irrasional bölgü və ehtiyacların dəyişməsi ilə bağlıdır.

5. Siyasi olan təsərrüfat subyektlərinin fəaliyyətini müəyyən edən siyasi münasibətlərin dəyişməsi ilə bağlıdır.

6. İnformasiya asimmetriyası, bu da öz növbəsində baş vermə səbəbləri ilə əlaqədar aşağıdakı alt növlərə bölünür:

A) obyektiv informasiya asimmetriyaları, bir qayda olaraq, qeyri-kamil rəqabətin nəticəsidir və ya inhisarçı rəqabət, oliqopoliya, xalis inhisar bazarlarında təsərrüfat subyektlərinin vəziyyətinin

təzahürüdür, ona görə də onların həyata keçirdiyi siyasətlə aradan qaldırılması məqsədəuyğundur. Dövlət tərəfindən həyata keçirilir

B) subyektiv informasiya asimmetriyaları, bir qayda olaraq, insanın məhdud idrakının nəticəsidir; iqtisadi subyektlərin münasibətlərində opportunizmin təzahürləri. (Гулиева, 2016)

Qlobal təbii qaz bazarını təhlil edərək asimmetriyanı praktiki səviyyədə nəzərdən keçirək. Niyə qaz? Qaz və ya "mavi yanacaq" "yaşıl iqtisadiyyat"ın inkişafı üçün prioritet strategiyaya baxmayaraq, müasir dünya iqtisadiyyatında mühüm resurs olaraq qalır.

Beləliklə, 21-ci əsrdə qaz perspektivli resurs olaraq qalır, bu əsasda aşağıdakı vacib məqamları nəzərdən keçirəcəyik:

- Dünyanın ən çox təbii qaz ehtiyatına malik olan ölkələr hansılardır?
- Hansı ölkələr qaz hasilatında liderdir?
- Hansı ölkələr qaz ixracatçısı və idxalçısıdır?

2021-ci il üçün ən çox qaz ehtiyatına malik ölkələrin cədvəlini təqdim edirik.

**Cədvəl 1- 2021-ci il üçün təbii qaz ehtiyatları**

| Ölkə | Qaz ehtiyatı, mlrd $m^3$ |
|---|---|
| **Rusiya** | 48 938 |
| **İran** | 34 077 |
| **Qatar** | 23 831 |
| **Türkmənistan** | 15 365 |
| **ABŞ** | 12 958 |
| **Səudiyyə Ərəbistanı** | 8 438 |
| **BƏƏ** | 7 726 |
| **Nigeriya** | 5 750 |
| **Venesuela** | 5 590 |
| **Əlcəzair** | 4 504 |

**Mənbə: OPEC-in 2021-ci il üzrə İllik Statistik Bülleteni**

Cədvələ əsasən qeyd edirik ki, Rusiya "mavi yanacaq" ehtiyatlarına görə birinci yeri tutan ölkədir, yəni 48938 milyard m3, bu yanacaq növünün ehtiyatları ilə zəngin 10 ölkə arasında demək olar ki, 30% təşkil edir.

Qaz hasilatı üzrə qabaqcıl ölkələri qeyd etdiyimiz cədvəl 2-dir.

**Cədvəl 2 - 2021-ci ildə təbii qaz hasilatı**

| Ölkə | Qaz ehtiyatı, mlrd m3 |
|---|---|
| **ABŞ** | 948 423 |
| **Rusiya** | 649 144 |
| **İran** | 253 770 |
| **Çin** | 187 390 |
| **Qatar** | 184 880 |
| **Kanada** | 183 002 |
| **Avstraliya** | 153 014 |
| **Səudiyyə Ərəbistanı** | 119 000 |

| | |
|---|---|
| **Norveç** | 116 208 |
| **Əlcəzair** | 85 119 |

**Məlumat mənbəyi: OPEC İllik Statistik Bülleten 2021**

Cədvəl 2-də qeyd edirik ki, təbii qaz hasilatında ABŞ birinci, Rusiya isə ikinci yerdədir ki, bu da asimmetriyanın təzahürünü göstərir.

OPEK-in məlumatına görə, ən böyük qaz idxalçısı ildə 155 milyard kubmetr "mavi yanacaq" alan Almaniya, daha sonra 138 milyard kubmetr qaz alan Çindir. Yaponiya qaz idxalında 107 milyard kubmetrlə üçüncü yerdədir.

Avropanın, xüsusilə də 45,8 milyard kubmetr qaz istehlak edən Almaniyanın Rusiya qazının əsas istehlakçısı olması faktı aktual olaraq qalır. Beləliklə, bu fakta daha ətraflı baxaq.

Nəzərə alsaq ki, ilk dəfə olaraq iqtisadçılar asimmetriyanı mikro səviyyədə nəzərdən keçirməyə başlayıblar, gəlin Rusiya və Avropanı qaz təchizatında qeyri-müəyyənliyin təzahürü kimi nəzərdən keçirək. Başqa sözlə, təsəvvür edək ki, Rusiya A firmasıdır, Avropa B firmasıdır. A firması B firmasına inhisar qiymətinə mal (qaz) verir. Sual: Nə üçün B firması özünü müəyyən məhsulla təmin edə bilmir? Cavab: İnformasiyanın asimmetriyasının, resursların asimmetriyasının təzahürü.

Beləliklə, makro səviyyəyə qayıdaq, Rusiya Avropaya qaz ixrac edir, kobud desək, OPEK-in məlumatına görə, Avropanın "mavi yanacağın" 40%-ni "Qazprom" verir. Beləliklə, həm informasiya, həm də resursların asimmetriyası mövcuddur.

Yuxarıdakıları ümumiləşdirmək üçün Rusiya və Avropanın timsalında biz bir ölkənin qazından asılılığını gördük, eyni zamanda qeyd etdik ki, bir ölkədə siyasi kəskinləşmə digər ölkədə iqtisadi artım tempinin aşağı düşməsinə gətirib çıxarır. əsas resurslar, həm də təkcə məlumatların deyil, həm də resursların asimmetriyasını təsvir etmişdir.

**"Ağıllı şəhər" və "Ağıllı kənd" Konsepsiyasının Mahiyyəti**

Zəfərlə başa çatan Vətən müharibəsindən sonra ölkəmizin həyatında yeni mərhələ başlanıb. İşğaldan azad edilmiş torpaqlarımızın bərpası, quruculuq, inkişaf, Qarabağdan məcburi köçkün düşmüş əhalinin orada məskunlaşdırılmasının təmin olunması növbəti əsas hədəflər sırasındadır. Bu hədəflərə çatmaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə çoxşaxəli, böyük əmək, vəsait və zaman tələb edən işlər həyata keçirilməkdədir. Belə ki, hazırda bir milyondan artıq soydaşımız öz el-obasına, kəndlərinə qayıtmağı səbirsizliklə gözləyir. Qayıdış prosesi zamanı bir sıra düşündürücü məqamlar vardır ki, bunlara köç ediləcək kəndlərin və şəhərlərin, eləcə də əhalinin mülkiyyətində olan ərazilərin gələcək taleyi, "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri, onlara veriləcək üstünlüklər daxildir.

Qeyd edək ki, "Ağıllı kənd" platforması texnologiya vasitəsilə ucqar ərazilərdə davamlı inkişaf hədəflərinin həyata keçirilməsinin necə səmərəli şəkildə sürətləndiriləcəyini nümayiş etdirən çoxtərəfli təşəbbüsdür. Bu model vasitəsilə hökumətlər ictimai xidmətlərin səmərəliliyini və təhlükəsizliyini artırmağı, maliyyə xərclərini azaltmağı, şəffaflığı və yaxşı idarəetməni təmin etməyi hədəfləyir (Гулиева,2016)

Beynəlxalq təcrübədə "smart village" dedikdə kənd əhalisinin qarşılaşdığı əsas problemlərin həlli və daha da önəmli olan kənd ərazilərində yeni iqtisadi imkanların yaradılması başa düşülür. "Ağıllı kənd"

texnologiyası rəqəmsallaşma, kənd sərhədlərindən daha böyük düşünmə, kəndlə ətraf bölgələr arasında yeni əməkdaşlıq formatı deməkdir. İşğaldan azad olunmuş ərazilərdə “Ağıllı kənd” texnologiyalarını tətbiq etməklə Qarabağ regionunu dünyanın süni intellekt və təbiət gözəlliyinin vəhdətindən yaranan turizm incisinə və eyni zamanda Azərbaycanın innovasiya-startap fabrikinə çevirmək mümkündür. (https://astarainfo.az/2022/12/20/az, 21.04.2023)

İnsanların rahat yaşamasına hesablanan, iqtisadi, sosial və ekoloji cəhətdən səmərəli və dayanıqlı olan “Ağıllı şəhər” və “Ağıllı kənd” modelini gerçəkləşdirmək üçün innovativ informasiya və kommunikasiya texnologiyalarından istifadə edilir. Məsələn, vətəndaşların zəruri problemlərinin həlli üçün elektron xidmətlər, kommunal sahələr üzrə tədbirlərin təqvimi, mənzillərin icarəsi üçün platforma, elektron səyahət kartı, logistik xidmətlərin intellektuallaşması və s. “Ağıllı şəhər”in elementləridi (Гулиева,2016).

Hazırda dünyada bütün ölkələrin hökumətləri qarşısında böyük bir problem var: şəhər infrastrukturunu səmərəli enerji mənbələri ilə necə təmin etmək və ətraf mühitə zərər verməmək. Çünki ekoloji vəziyyət bütün vətəndaşların həyat keyfiyyətinə birbaşa təsir edir. Bu məqamda yaşıl enerji mənbələrinin səmərəliliyinin artdığını və şərti kilovat-saatın qiymətinin durmadan azaldığını vurğulamaq vacibdir. Bir çox ölkələr günəş və küləyi perspektivli enerji mənbələri kimi görürlər. Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” 2021-ci il 3 may tarixli Sərəncamının icrası müvafiq sahədə görülən işlərə geniş imkanlar yaradır.

Konsepsiyanın digər tərkib hissəsini bütün vətəndaşlar üçün sağlam həyat tərzini təmin edən və əsas komponentləri keyfiyyətli səhiyyə, təhsil və təhlükəsizlik olan “ağıllı” həyat təşkil edir.

Müasir həyat tərzinin ayrılmaz atributları olan nəqliyyatın intellektual idarə edilməsi, “ağıllı” parkinq, ictimai nəqliyyatın idarə edilməsi, yol hərəkəti qaydalarının pozulmasına videonəzarət, “ağıllı” işıqlandırma, “ağıllı” sayğac, sudan istifadənin “ağıllı” idarəedilməsi, “ağıllı” şəbəkə və digər bu kimi məsələlər konsepsiyanın mühüm komponentlərindən hesab edilir.

Beləliklə, “Ağıllı şəhər”, “Ağıllı kənd” konsepsiyasının mahiyyəti informasiya kommunikasiya texnologiyalarından istifadə etməklə daha yaxşı dövlət xidməti, operativliyin artırılması, məlumatların ictimaiyyətlə bölüşdürülməsi, eyni zamanda “ağıllı” texnologiyalardan və məlumat təhlilindən istifadə edərək vətəndaşların həyat keyfiyyətinin yaxşılaşdırılmasıdır. İşğaldan azad edilmiş ərazilərdə “Ağıllı şəhər” və “Ağıllı kənd” layihələrinin tətbiqi əhalinin rifahının daha da yüksəldilməsinə hesablanıb.

Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapmaqdadır. Məlumdur ki, birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi. 2022-ci ildə Ağalıya köç başladı. Bu gün Ağalı kəndi dünyanın ən müasir kəndlərindən birinə çevrilib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. Xatırladaq ki, Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu. İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40

ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər).

Bu gün artıq bir çox ərazilərimiz kimi, Tərtər rayonunun işğaldan azad edilmiş Talış kəndində də bərpa-quruculuq işləri davam etdirilir. İlkin mərhələdə 20 ev müasir tələblərə uyğun qurularaq bir zamanlar doğma yurdlarından didərgin düşən ailələrə təhvil veriləcək.

Bununla paralel olaraq, Şuşada, Ağdamda, Füzulidə də bir çox infrastruktur dəyişikliklər həyata keçirilir və təbii ki, ən aktual məsələ olan təhlükəsizlik məsələləri də ciddi nəzərə alınmaqdadır.

**“Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyalarının iqtisadi sistemdəki asimmetriyaya təsiri**

Münaqişədən sonrakı yenidənqurmanın həyata keçirilməsi həm ölkə, həm də ümumilikdə iqtisadi sistem üçün kifayət qədər müsbət nəticə verir. Ancaq çatışmazlıqlar hələ də mövcuddur. Böyük bir boşluğa səbəb olacaq faktı daha ətraflı nəzərdən keçirək.

Hazırlanmış bütün konsepsiyalar bizi davamlı iqtisadi və sosial inkişafı təmin edəcək gözləntilərə aparır. Eyni zamanda, bu sahələrə ediləcək investisiyalar və yenidənqurma Azərbaycanda ÜDM-in artımını sürətləndirməyə yönəlmişdir.

Nəzərə almaq lazımdır ki, yalnız işğaldan azad edilmiş ərazilərin məqsədyönlü inkişafı digər sahələrdə asimmetriyaya gətirib çıxaracaq.

Beləliklə bu ərazilərdə olan “Ağıllı kənd”lərdə demək olar ki, Azərbaycan Respublikasının heç bir kəndlərində olmayan münbit şərait yaranacaq və elə məqam gələcəkdir ki, böyük fərqlər meydana çıxacaqdır. Bu da ciddi asimmetrik təzahürlərə gətirib çıxaracaqdır.

O zaman Azərbaycanın qarşısında sual durur ki, digər iqtisadi rayonlarla nə etmək lazımdır? Bunun üçün iki həll yolu vardır:

- başqa sahələrdə hər şeyi sıfırdan başlamaq,
- digər sahələri tədricən yüksəltmək.

Təbii ki, hələlik bu suala cavab vermək çox çətindir, amma fakt odur ki, digər regionlarla bağlı qərarlar qəbul edilməsə, o zaman, birincisi, ölkənin ayrı-ayrı regionları arasında artan asimmetriya yaranacaq, ikincisi, belə bir boşluq bütövlükdə iqtisadiyyatda natamam tarazlığa gətirib çıxaracaq. Beləliklə bu zaman Azərbaycanın bir qismində sanki antik dövrün qalıqları olan ərazilər, digər bir yerində müasirlik və yeni informasiya texnologiyaları olan ərazilər mövcud olacaqdır.

Nəzərə almaq lazımdır ki, işğaldan azad edilmiş ərazilər xarici investorlar üçün cəlbedici olması səbəbindən müsbət tendensiya yaranır. Belə ki, biz başa düşürük ki, ölkəmiz yalnız öz maliyyə resurslarıla deyil, bununla yanaşı xarici şirkətlərin də dəstəyilə bu ərazilərin yenidən bərpasını həyata keçirəcəkdir.

**Nəticə**

Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı

tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və iqtisadi inkişafında mühüm rol oynayacaqdır.

Azərbaycan tarixinin yeni mərhələsində, yeni inkişaf modeli qurulması prosesində və tamamilə yeni inkişaf istiqamətinin icrası prosesindədir.

Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət–özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir.

Eyni zamanda bunu da qeyd etmək lazımdır ki, innovasiya boşluğu faktı qüvvədə qalır. İndiki mərhələdə innovasiya boşluğu yaranması inkişafda qeyri-mütənasibliyə gətirib çıxarır ki, bu da biliklər iqtisadiyyatının asimmetrik transformasiyasının digər səbəbidir.

Yuxarıda qeyd edildiyi kimi, iqtisadi sistemdə asimmetriyanın təzahürləri tamamilə qaçılmazdır, lakin asimmetriyanın azaldılması üçün informasiyaya daim nəzarət və monitorinq aparılmalı, yeni ictimai rəy formalaşdıran yeni informasiyanın yaradılması üzərində işlənilməli, başqa sözlə, məlumat asimmetriyasının keyfiyyət xüsusiyyətlərinə (obyektivlik, tamlıq, etibarlılıq, dəqiqlik, aktuallıq, dəyər və faydalılıq) riayət edilməlidir.

**Ədəbiyyat Siyahısı**


"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və inkişafı ilə bğlı Konsepsiya" https://report.az/qarabag/isgaldan-azad-edilmis-eraziler-uzre-elaqelendirme-qerargahinin-novbeti-iclasi-kecirilib/

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2019-2023-cü illər),**https://president.az/az/articles/view/31697**

Mahmudov M, Mahmudova İ.(2011) Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi, Bakı, "İqtisad Universiteti".

Əhmədov, M. A. və Hüseyn, A. C. (2011). İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları

Hüseynov, T. (2015). Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika

Şəkərəliyev, A. Ş. (2009). Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər

Гулиева А.А., Рзаева У.Ш. Асимметричные трансформации экономики знаний // Креативная экономика. — 2016. — Т. 10. — № 5. — С. 461–474.

Гулиева, А.; Бритченко, Я; Рзаева, У. 2018. Глобальная безопасность и экономическая асимметрия: сравнение развитых и развивающихся стран, Журнал вопросов безопасности и устойчивого развития 7 (4): 707-717.

Гусейнова, Н., Яхьяева, А., & Алиев, Ш. (2021). Проблемы повышения инвестиционной привлекательности Карабахского региона Азербайджана и пути их решения. InterConf, (55), 13 https://doi.org/10.51582/interconf.7-8.05.2021.002

https://e-qanun.az

https://www.economy.gov.az/az

# International Trade and Globalization Heydar Aliyev's Economic Vision in the Age of Globalization and its Relevance to Baku-Islamabad Trading Collaboration

**Dr. Attiq-ur-Rehman**

Assistant Professor, Department of International Relations National University of Modern Languages (NUML)

## Abstract

The ongoing patterns of cooperative ties between Azerbaijan and Pakistan cannot be divorced from the reality of globalization in which the two nations located in different regions are committed to cooperating with each other in diverse economic fields. The governments of both states are highly motivated to enhance their existing frameworks of joint economic ventures with the help of their politically coordinated approach and shared ideological beliefs. The combination of mutual ideological and political features between both nations from Caucasian and South Asian regions mainly aims to provide more economic cooperation and trading opportunities to the governments of Azerbaijan and Pakistan. Azerbaijan's increasing economic significance in regional and extra-regional affairs due to its rich oil potential and Pakistan's decision to join the Chinese-sponsored mega economic corridor project has attracted the leaders of both nations towards each other. Baku's decision to align its economy with the South Asian nations generally, and Pakistan specifically, is fundamentally inherited in the era of Heydar Aliyev because the Aliyev administration played a significant role in modernizing Azerbaijani nation and introduced various avenues for bringing sustainable economic growth to the fields of oil and gas. The alignment of the Azerbaijani economy with the states beyond its home region was an inspirational vision of Heydar Aliyev's government which adopted the active models of cooperative bilateralism with various nations across the globe. The continuation of Baku's vision of exploring the potential of other nations in the economic domain has gained momentous growth in the age of globalization in which various other states emerged as the close trading partners of Azerbaijan where Pakistan is an exception. Therefore, the central theme of this paper revolves around the evolving nature of Baku-Islamabad trading collaboration in diverse domains under the forces of globalization. A combination of descriptive and analytical methods of research has been applied in this study to validate the main argument of this research, parallel to legitimating the findings of this research on an impartial basis.

**Key Words:** Heydar Aliyev, Pakistan-Azerbaijan, Economic Cooperation, Caucasian Region, South Asian Politics.

## Introduction

The completion of three decades of bilateral multidimensional cooperation between Baku and Islamabad has encouraged the leaders of both nations to arrange different events to celebrate a pleasant interstate interaction between Pakistan and Azerbaijan. One of the most interesting facts about the ongoing cooperative bilateralism between both states is the absence of critical developments between both governments. The absence of any critical development between Baku and Islamabad communicated the strong foundations of multileveled Pakistan-Azerbaijan cooperation. In addition to the celebrations of the three-decade completion, the government of Azerbaijan has decided to recall the services of former President Heydar Aliyev, who is widely recognized as the father of modern independent Azerbaijan. The Azerbaijani government announced 2023 as the Heydar Aliyev year at the 100$^{th}$ birthday anniversary of the late President. In this way, the decision of the Pakistani and Azerbaijani governments for celebrating the appreciable growth of interstate cooperation between the two states and President Ilham Aliyev's declaration of 2023 as the Heydar Aliyev years are the main motivating factors behind this study. The central theme of this study is primarily designed to evaluate the significance of Pakistan-Azerbaijan cooperative trading ties, which could not be divorced from the greater vision of late President Heydar Aliyev due to the fact that the government of Heydar Aliyev

paid exclusive attention to the economic growth of the country and invested substantial efforts in the domain of international relations. This trading vision of Azerbaijan selected Pakistan as one of the leading cooperative countries from the South Asian region and maintained dynamic bilateral ties. These dynamic ties cover the political, economic, and social areas between Baku and Islamabad while slightly witnessing a brief layer of strategic connection between Pakistan and Azerbaijan.

The contemporary age of globalization has convinced the two-sided formal state authorities to augment the existing formats of their bilateral trade in different areas. The forces of globalization have provided sufficient chances for economic development for all nations around the world and have encouraged the leaders of the various states to explore and augment the trading potentials of their nations in the international system (Zardabli, 2014). Akin to various other bilaterally developed cooperative frameworks of different states, the ongoing cooperative matrix of Pakistan-Azerbaijan relations is an appropriate example. With the support of a common cultural and ideological basis, the governments of Pakistan and Azerbaijan have mutually formulated strong people-to-people contacts and allowed their societies to interact freely with each other. The growth of societal connections supplemented the economic vision of both states by increasing the chances of Foreign Direct Investment in their ongoing trading partnership. Therefore, this study primarily examines the Pakistan-Azerbaijan trading partnership in the globalized world, deeply rooted in Heydar Aliyev's vision of diversifying his country's economy. To support the main arguments of this study, more attention has been paid to various online data sources due to the need for more sufficient data on the central theme of this study. Thus, time and financial constraints limited this research to online resources, which has made this study desk research mainly rely on secondary data sources. Additionally, this study is an academic endeavour to comprehend the three-decades-long cooperative bilateralism between Pakistan and Azerbaijan while analyzing its growth in the age of globalization.

## The Vision of Heydar Aliyev

To study the ongoing designs of interstate collaboration between Baku and Islamabad, it is appropriate to understand the nature of Azerbaijani foreign relations, which former President Heydar Aliyev defined. In other words, Heydar Aliyev's vision of connecting the Azerbaijani economy with the global markets is a prerequisite to comprehending the growth of trading cooperation between Pakistan and Azerbaijan in the contemporary globalized world (Hasanli, 2016). The multidimensional vision of Heydar Aliyev and his dynamic mainstream policies ensured the country's stimulated economic growth, which helped Azerbaijan become one of the leading progressive nations in the world. The greater vision of Heydar Aliyev introduced various economic reforms in the country, intending to place Azerbaijan at various progressing trading platforms of the world economy. The leadership of Heydar Aliyev shaped the economy of Azerbaijan and marked it as one of the persistently improving economies of the world. Under the same leadership, the Azerbaijani nation achieved great success in several trading matters with the support of new industrial and economic growth methods. The multidimensional leadership traits of Heydar Aliyev's personality protected the Azerbaijani nation in difficult times and helped it in overcoming serious economic challenges. During his tenure as the President of the Republic of Azerbaijan (1993-2003), the Azerbaijani nation focused on strengthening the country's trading potential to empower the economy and emphasize the nature of international relations where Baku could augment its diplomatic forces around the globe (Verda, 2014). In this way,

Heydar Aliyev served his nation by introducing various policy reforms mainly based on his intellectual and political insights. He projected his country's cooperative status and the soft image of Azerbaijan around the globe. The projection of Azerbaijan's soft image worldwide let the Azerbaijani nation explore the whole world in productive and positive directions.

As a father of modern independent Azerbaijan, the efforts of Heydar Aliyev explored different dimensions of Azerbaijan's economy and explored various bilateral scenarios for increasing the trading cooperation with different nations in which Pakistan emerged became one of the important states signing economic collaboration with Baku. The initial agreement establishing political coordination between Baku and Islamabad came into being in 1993, and the two-sided diplomatic communities started working together on shared interests and common values. The economy and trade became the foundational steps between the inter-governmental communications of both states (Makgetlaneng, 2016). The inclusion of Pakistan in the list of countries with active economic ties with Azerbaijan resulted from Heydar Aliyev's vision for diversifying the economic strength of his county. The quest to attract foreign investments and increase the country's revenue by improving and restructuring the foreign relations of Baku with the outside world. In this way, there is no harm in saying that the cooperation between Pakistan and Azerbaijan was initiated in 1993 when the Azerbaijani nation was improving under the leadership of Heydar Aliyev (Cornell, 2015). The arrival of globalization in the international system added another chapter in the history of ongoing economic cooperation between Pakistan and Azerbaijan because the mainstream political authorities from Baku and Islamabad accepted that the forces of globalization have opened up new trading opportunities and business platforms for the two-sided governments. The era of globalization began multiplying the trading potentials of both nations in the world, equivalent to providing the chances for improving their relationship further in several unexplored areas.

**Pakistan-Azerbaijan Cooperative Bilateralism**

The genesis of cooperative bilateralism between Baku and Islamabad can be traced in the era of globalization when the governments of both states decided to take their relationship to the next level with the belief that the forces of a globalized world have brought together the states and societies located at diverse regions. The shared vision of both Muslim countries accepted the need for attracting international investments on a massive scale for upgrading the economic inflows. With the support of their common Islamic ideology and shared Muslim culture, the government authorities from Baku and Islamabad recognized the values of globalization in shaping their relation while focusing on expanding their economic cooperation and advancing their cross-cultural ties in the era of globalization. The two-sided formal leaders have already described their positions on various occasions for broadening their common areas of trade and investment with the help of global economic interconnectedness. The shared vision of Pakistan-Azerbaijan's leadership is mainly evolved in the last three decades and resulted in close bonds of national identity and brotherhood cemented in common religious backgrounds. The friendly ties at the governmental level are the byproduct of the pleasant diplomatic functions of both states, which has created strong support for each other in the territorial issues of their respective regions. Baku's support of the Kashmir issue and Islamabad's support of the former Karabakh conflict proved to be the foundation of the Pakistan-Azerbaijan friendship (Nawab, 2023). A smooth growth of cross-cultural ties between the two nations has developed bilateral connections in the

education sector, and a brief layer of student-exchange programs has emerged at the societal level. Presently, the position of China must be more recognized due to the decisions of the Pakistani and Azerbaijani governments for supporting Beijing's plan to create a global trading network. While recognizing China's Belt and Road Initiative (BRI) as the potential global platform for improving their domestic economic infrastructures and connecting their indigenous industries with the global markets, Baku and Islamabad have connected the South Caucasus and South Asian regions to the BRI. Under the BRI's framework, Pakistan's position in the global economic markets has been extended due to the signing of the China-Pakistan Economic Corridor (CPEC). Moreover, Azerbaijan also has concrete plans to contribute to the BRI by creating a connection between Central Asian and Caucasian regions under Beijing's global trading planning.

**Scope of Cooperation in the Post-Globalized World**

The existing patterns of bilateral cooperation between Baku and Islamabad are difficult to separate from the challenges of the emerging post-globalized world in which the concepts and values of globalization have started losing their relevance to international politics. The emergence of the post-globalization international system in which the great powers have developed contesting economic interests and the politics of trade routes, supply lines, and seaports has persistently becoming the prevalent trend in the international system. The growing economic inconsistencies in the post-corona world have augmented the issues of the post-globalized world, and the emerging challenge of global governance has encircled the whole international system. This scenario is constantly underestimating the forces of globalization in the world and persistently forcing the state governments to defend their geo-economic interest instead of emphasizing the integrating economic values of globalization. In other words, the contemporary scholarly discussions on the evolving nature of the international system have initiated the debates of a post-globalized where the challenges to the conception of globalization have started appearing from different regions. The emergence of a post-globalized international system has attracted academic communities from around the globe and affected the interstate trading collaborations of states. Under these circumstances, a multileveled economic collaboration between Baku and Islamabad cannot be protected from the inevitable rise of post-globalized value in the world. Therefore, the governments of Pakistan and Azerbaijan are required to deepen their ongoing trading collaboration by adopting a pragmatic approach for deepening their societal cooperation. The improvement in people-to-people contacts could provide viable options for overcoming the rising challenges of post-globalization because an increased social interaction between Pakistani and Azerbaijani nations could let the societies will support the vision of foreign direct investment between both states. The only barrier in people-to-people contact is the language barrier which is seeking the serious attention of two-sided policymakers.

**Conclusion**

The modern history of Baku's foreign relations can only be completed by studying the significant role of Heydar Aliyev's government, which has given several new directions to the foreign policy of Azerbaijan, parallel to bringing major developments in several economic affairs. The combination of both attributes of the Azerbaijani nation secured a dynamic role and progressive status in the oil and gas industry. For the diversification of its foreign relations and economy, the leading state authorities from Baku have explored the potential of different nations beyond its domestic region (Diuk, 2012).

Pakistan emerged as one of the leading trading nations from the South Asian region, which has been accepted by mainstream Azerbaijani state authorities to accept Baku as a reliable trading partner and a valuable diplomatic friend. In this way, the governments of both states are required to increase the existing levels of their trading connections and be capable of shifting their economies to a more adventurous position in the world. The future areas could be the energy, textiles, and pharmaceuticals for Pakistan whereas the agriculture and textiles fields of Pakistan could be benefited Azerbaijan. The increasing connection in the trading and investment domains will positively impact the political coordination of both states. Thus, the political collaboration between two-sided governments will enable their leaders to support each other on various issues of regional and international significance. In this way, broader economic collaboration, greater political support, and an enhanced framework of cultural exchange could help Baku and Islamabad deepen their multidimensional partnership. Such partnership will not only be benefited the Pakistani and Azerbaijani people, but it will also produce positive outcomes for the wider regional politics of Caucasian and South Asian regions. In other words, the bilateral relations between both states are intended to grow and are expected to become a substantial factor in positively impacting their respective regions and the world beyond their regions. The leading decision-making circles of both states are strong-minded in seeking to leverage the benefits of a globalized world while overcoming the probable future scenario.

**References**

Cornell, S. E. (2015). Azerbaijan Since Independence. Routledge.

Diuk, N. M. (2012). The Next Generation in Russia, Ukraine, and Azerbaijan: Youth, Politics, Identity, and Change. Rowman & Littlefield Publishers.

Hasanli, J. (2016). Foreign Policy of the Republic of Azerbaijan: The Difficult Road to Western Integration, 1918-1920. Routledge.

Makgetlaneng, S. (2016). Azerbaijan as a Regional Economic Driver: Opportunities and Challenges. Africa Institute of South Africa.

Nawab, Q. (2023, April 16). Potential Partnerships between Pakistan, and Azerbaijan. Pakistan Observer. https://pakobserver.net/potential-partnerships-between-pakistan-azerbaijan-by-engr-qaiser-nawab/.

Verda, M. (2014). Azerbaijan: An Introduction to the Country. SAM.

Zardabli, I. B. (2014). The History of Azerbaijan: From Ancient Times to the Present Day. Rossendale Books.

# Kazakhstan Banking System and Current Ratio Analysis

**Nigar Huseynli**

**PhD. Lecturer, Azerbaijan State University of Economics (UNEC)**

**ORCID: 0000-0001-7817-6485**

**nigar.f.huseynli@gmail.com**

## Abstract

In the study, both traditional and modern banking systems of Kazakhstan are included. The study generally consists of three parts. In the first part, the Kazakhstan banking system, which existed before gaining independence, was examined. In the former Soviet Union, how the banking system worked in this country and the authoritarian pressures of the state were emphasized. Then the second part was passed. In the second part of the study, the post-independence phase of Kazakhstan was evaluated. In the third part, which is the last part, analysis was made in accordance with the study. Current ratio analysis was used for analysis and interpretation. In this framework, banks that have more than 50% of the banking sector in Kazakhstan today were evaluated. A current ratio assessment has been made for these banks. That is, the balance sheets of 14 banks in the Kazakhstan banking system were examined. After the annual current ratio values of 14 banks were found, the current ratio averages of general banks were calculated. Weak years were determined and interpreted for the current ratio to be formed by years.

**Keywords:** Banking System, Current Ratio, Financial Market, Kazakhstan, Turkic State

## Introduction

barmaq izi oxuyucusunu aid etmək olar. Ubikey, istifadəçilərə bir kliklə xidmətlərə və tətbiqlərə təhlükəsiz şəkildə daxil olmağa imkan verən autentifikasiya platformasıdır, (Edwards Eric, 2019). O, iki faktorlu autentifikasiyadan istifadə etməklə işləyir ki, bu da istifadəçilərdən giriş əldə etmək üçün iki məlumat (məsələn, istifadəçi adı və parol) təqdim etməyi tələb edir. İstifadəçi xidmətə və ya proqrama daxil olmağa cəhd etdikdə, Ubikey istifadəçinin qeydiyyatdan keçmiş cihazına göndərilən birdəfəlik kod yaradacaq. Bundan sonra istifadəçi autentifikasiya olunmaq və giriş əldə etmək üçün kodu daxil etməlidir. Məsələn, istifadəçi onlayn bank hesabına daxil olmaq üçün Ubikey ilə qeydiyyatdan keçə bilər. Onlar hesaba daxil olmağa cəhd etdikdə, onların qeydiyyatdan keçmiş cihazlarına birdəfəlik kod göndəriləcək. Daha sonra hesablarına daxil olmaq üçün bu kodu daxil etməlidirlər. Kod olmadan hesaba daxil olmaq mümkün deyil.

Çox faktorlu autentifikasiya (MFA) istifadəçinin şəxsiyyətini yoxlamaq üçün iki və ya daha çox sübut (və ya "amillər") təqdim etməsi tələb olunduğu identifikasiya üsuludur. MFA sistemləri və məlumatları icazəsiz girişdən qorumaq üçün istifadə olunur. MFA-nın ən çox yayılmış iki növü istifadəçinin bildiyi bir məlumatdır (parol) və istifadəçinin sahib olduğu bir əşyadır (smartfon və ya planşet). MFA istifadəçi adı və paroldan əlavə identifikasiya addımlarını tələb etməklə əlavə təhlükəsizlik qatı əlavə edir. O, konfidensial məlumatlara və sistemlərə icazəsiz girişin qarşısını almaq üçün istifadə olunur və tez-tez güclü parol siyasətinə və şifrələmə və iki addımlı doğrulama kimi digər təhlükəsizlik tədbirlərinə əlavə olaraq istifadə olunur. Təşkilatlar öz məlumatlarını və sistemlərini kiberhücumlardan qorumağa çalışdıqca MFA getdikcə populyarlaşır. MFA ilə təşkilatlar yalnız səlahiyyətli istifadəçilərin öz sistemlərinə daxil olmasını təmin edə və şübhəli fəaliyyətləri aşkar edib cavab verə bilərlər.

Equifax təhlükəsizlik pozuntusu tarixdə istehlakçı məlumatlarının ən böyük və ən zərərli pozuntularından biri idi. Bu təhlükəsizlik pozuntusu 2017-ci ildə hakerlər tərəfindən 143 milyon amerikalı istehlakçının şəxsi məlumatlarına giriş əldə etdikdə baş verib. Bu təhlükəsizlik pozuntusuna şəxsi məlumatlar, Sosial Müdafiə nömrələri, doğum tarixləri, ünvanlar və sürücülük vəsiqəsinin nömrələri daxildir. Bundan əlavə, 209 min istehlakçının kredit kartı məlumatları da oğurlanıb. Hakerlər şirkətin istehlakçı məlumatlarını saxlamaq üçün istifadə etdiyi Apache Struts proqram təminatındakı boşluqdan istifadə edərək Equifax sisteminə giriş əldə edə biliblər. Equifax zəifliyi vaxtında aradan qaldıra bilmədi və bu, təcavüzkarların sistemə giriş əldə etməsinə imkan verdi. Təhlükəsizlik pozuntusundan təsirə məruz qalan istehlakçılar üçün geniş təsirləri var idi, çünki onların şəxsi məlumatları indi şəxsiyyət oğurluğuna və fırıldaqçılığın digər formalarına qarşı həssas idi. Bundan əlavə, şirkət çoxsaylı məhkəmə ilə üzləşdi və səhmlərinin qiymətində əhəmiyyətli enişlə üzləşdi. Şirkət həmçinin zərər çəkmiş istehlakçılara 425 milyon dollar ödəməli idi.

İmtiyazların artırılması, Scott (2018) əməliyyat sistemində və ya proqram proqramında səhvdən, dizayn qüsurundan və ya konfiqurasiya nəzarətindən istifadə edərək adi istifadəçi tərəfindən normal olaraq qorunan resurslara yüksək çıxış əldə etmək imkanıdır. İmtiyazların artırılmasına misal olaraq, inzibati imtiyazlar əldə etmək üçün sistemdəki boşluqdan istifadə edən istifadəçi ola bilər. İstifadəçi faylları dəyişdirə və silə, yeni proqram təminatı quraşdıra və konfidensial məlumatlara daxil ola biləcək qədər səlahiyyət əldə edir. İmtiyazların artırılması sistemdəki zəiflikdən istifadə etməklə və ya zəif parollar kimi yanlış konfiqurasiya edilmiş sistemdən istifadə etməklə həyata keçirilə bilər. İmtiyazların artırılması sosial mühəndislik yolu ilə də həyata keçirilə bilər. İmtiyazların yüksəldilməsi əsas təhlükəsizlik problemidir, çünki bu, zərərli istifadəçilərə həssas məlumatlara giriş əldə etməyə və sistemdə təxribata səbəb ola bilər.

İmtiyazların artmasından qorunmağın ən yaxşı yolu müvafiq təhlükəsizlik tədbirlərinin həyata keçirilməsidir. Buraya bütün istifadəçilərin öz işlərini yerinə yetirmək üçün zəruri olan minimum imtiyazlara malik olmasını təmin etmək, güclü autentifikasiya üsullarını tətbiq etmək, proqram təminatının müntəzəm olaraq yeniləmək və yeniləmək və istifadəçi fəaliyyətinə nəzarət etmək daxildir. Bundan əlavə, istifadəçilərdən yalnız öz işlərini yerinə yetirmək üçün lazım olan resurslara çıxışı tələb edən ən az imtiyaz siyasətinin həyata keçirilməsi, imtiyazların artırılmasında uğur qazandıqları təqdirdə zərərli istifadəçinin edə biləcəyi zərərin miqdarını məhdudlaşdırmağa kömək edə bilər. Bundan əlavə, təşkilatlar sistemlərində yalnız təsdiq edilmiş proqram təminatının işləməsini təmin etmək üçün proqramların ağ siyahısı kimi vasitələrdən istifadə etməlidirlər.

Digər mərhələlər artıq sistemə giriş eldə etdikdən sonra baş  verir. Araşdırmalara göstərir ki, yuxarıda qeyd olunan nəticələr artıq bir çox aparıcı şirkətlərdə istifadə olunur. Təhlükəsizlik daim inkişaf edən bir sahədir və müəssisələr və təşkilatlar üçün qabaqda qalmaq vacibdir. Doğru təhlükəsizlik həllərinə sərmayə qoymaq və sənayedəki ən son inkişaflardan xəbərdar olmaqla təşkilatlar məlumatlarının, şəbəkələrinin və sistemlərinin təhlükəsiz və təhlükəsiz saxlanmasını təmin edə bilərlər. Bu, onların biznesini və müştərilərini kibercinayətkarlıq, məlumatların pozulması və digər təhlükəsizlik təhdidləri ilə bağlı risklərdən qorumağa kömək edəcək. Düzgün təhlükəsizlik protokolları ilə təşkilatlar məlumatlarının təhlükəsiz və təhlükəsiz olduğuna əmin ola bilərlər.

**Nəticə**

Kiber təhdidlərin artan təkmilləşməsi ilə təşkilatınızın özünü və müştərilərini qorumaq üçün lazımi addımlar atmasını təmin etmək vacibdir. Hərtərəfli təhlükəsizlik strategiyasını həyata keçirməklə təşkilatlar hakerlərdən, zərərli proqram təminatından və digər kibertəhlükələrdən qoruya bilər. Bundan əlavə, müəssisələr mütəmadi olaraq təhlükəsizlik vəziyyətinə nəzarət etməli və təhlükələr inkişaf etdikcə təhlükəsizlik təcrübələrini yeniləməlidirlər. Lazımi tədbirləri görərək, təşkilatlar müştəriləri üçün təhlükəsiz və qənaətbəxş onlayn təcrübə təmin edə bilərlər.

Ölkəmizdə müxtəlif şirkətlər tərəfindən MITRE AT&ACK bilik bazasına uyğun təhlillər edib şirkətlərə öz təkliflərini verir. Nümunə olaraq, PICUS, Defscope şirkətlərinin adını çəkmək olar.

**İstinadlar**


Adam Wembley, (2022)“Biometric Authentication”

Brookes, Scott. (2018), "Mitigating Privilege Escalation"  Dartmouth College ProQuest

Data Protection Library. (2020), “Data Classification and User Responsibility”

Edwards, Eric. (2019), “Everything You Need to Know About Data Sensitivity Labeling”, Forcepoint.

Feygin, Rose. (2019) “How to Improve User Authentication Security.”

Gross, M. (2018). Data Protection: Securing Your Data for Righteousness. Se-curity Intelligence.

John Wiley & Sons, Inc. (2022), "XDR, Palo Alto Networks Special Edition " New Jersey

Lister, A. (2019). The Essential Security Compliance and Report-ing Guide. Retrieved November 4, 2020,

Mathews, Alan. (2021) “What is Two-Factor Authentication?”

Munshi, N. (2018). Security strategy: Data protection. ZDNet.

Pathak, N. (2020). Everything You Need to Know About Security Compliance & Reporting.

TechTarget (2021). Data security and protection

# Milli Şirkətlərin Strateji İdarəedilməsində Qloballaşmanın Əsas Təsirlərinin Qiymətləndirilməsi

**Vüsalə Qafarlı**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**vusala_gafarli@unec.edu.az**

## Xülasə

Məlumdur ki qloballaşma müasir dövrün ən öndə gedən mövzularından biridir. Texnoloji inkişaf, ölkələr arasındakı əlaqələrin artması ilə bazarların qloballaşması və şirkətlərin qlobal bazardakı rolunun artması da sürətlənir. Şirkətlər xüsusilə də qlobal bazarlara çıxış əldə etmək istəyirlər ki öz məhsul və xidmətlərinin satışını genişlətsinlər, daha çox müştəri əldə etsinlər və hər zaman fərqli bazarlarda fəaliyyət göstərə bilsinlər. Azərbaycanın da iri həcmli şirkətləri qlobal bazarda son illərdə aktiv iştirak etməyə başlamışdır, xüsusilə də Yaxın Şərq və Avropa ölkələrinin bazarlarında fəaliyyətlərini genişlədiblər. Azərbaycan iqtisadiyyatının daha da inkişafı və Azərbaycanın siyasi məsələlərinin də həll edilməsi ilə birlikdə qlobal bazara məhsul çıxaran şirkətlərimizin sayında artış görünə bilər. Lakin qloballaşmanın nə qədər geniş yayılmasına baxmayaraq bu mövzunun Azərbaycan şirkətlərinə təsiri ilə bağlı kifayət qədər məlumat olmadığı üçün bu sahədə tədqiqat aparmağı seçilmişdir. Şirkətlərin fəaliyyəti ilə bağlı yaxından araşdırma aparılmış, statistiki məlumatlar təmin edilmişdir.

**Açar sözlər**: Bazarlar, texnoloji inkişaf, şirkətlər

## Abstract

It is already known that globalization is one of most prominent topics in today's world. Technological development, trade connections between countries all contribute to globalization of markets and thus activities of companies in global market increase. Companies especially want to get access to global markets to get more customers to buy their products, to perform in more markets and want to enhance the sales of their products and services. With development of Azerbaijan economy and settlement of political disputes of the country, it is believed that the number of companies participating in international trade would increase. Even though the topic of globalization is popular and there are lots of resources regarding it, there wasn't enough information of its impact on Azerbaijan companies, so this topic has been chosen by author to research. Research has been conducted on activites of Azerbaijan companies, statistics have been gathered regarding it.

**Key words**: Markets, technological improvement, enterprises

## Giriş

**Mövzunun aktuallığı:** Qloballaşma müasir dövrün gündəmində olan ən önəmli məsələlərdən biridir. Özünü həm siyasi, həm iqtisadi, həm texnoloji sahədə göstərən bu proses bazarlara və onların daxilindəki şirkətlərə də öz təsirini göstərir.

Əsrlərdir mövcu olan bazarların qloballaşması son illərdə daha da sürətlənib və Azərbaycan da daxil olmaqla bütün ölkələrə öz təsirini göstərir. Məsələn, bir neçə il baş verən koronavirus pandemiyası bütün dünyaya öz təsirini göstərdi. Qlobal olaraq adı keçən bu hadisə ölkə iqtisadiyyatlarında, onların bazarlarında təsirli dəyişikliklər etdi. Dünya üzərindəki minlərcə şirkətin fəaliyyətini dayandırmağına səbəb olarkən digər tərəfdən isə iri firmalar üçün yeni biznes əməliyyatlarının yaranmasın şərait yaratdı. Və ya dünyanın fərqli yerlərində baş verən siyasi məsələlər, müharibələrin təsirini vurğulamaq olar. Ölkələr arası ticarətin həcmi artdıqca və qloballaşmanın dünya üzrəindəki təsiri çoxaldıqca şirkətlərin strateji idarəetməsi də buna görə uyğunlaşır. Həm qlobal bazarların öyrənilməsi, həm də strateji liderlərin bu şəritdə hansı addımlar atdığını araşdırmaq hal-hazırda ən aktual məsələlərdəndir.

**Tədqiqatın əsas məqsəd və vəzifələri:** Qloballaşma dövründə şirkətlərin hansı addımlar atdığını və qlobal bazarları necə idarə etdiyini öyrənmək üçün nəzəri və statistiki məlumatların toplanmasıdır. Dissertasiya işi aşağıdakı məsələlərə toxunur:

- Bazarların qloballaşması nədir?
- Strateji idarəetmə nədir və onun şirkətdəki önəmi
- Bazarların qloballaşması şəraitində strateji idarəetmə necə təsirlənir?
- Azərbaycan şirkətlərinin qlobal bazardakı fəaliyyətləri

**Tədqiqat metodologiyası:** Dissertasiya işinin tədqiqat metodları olaraq müşahidə, statistik analizin, təhlil metodlarının aparılması istifadə edilmişdir

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın əsas məhdudiyyəti kimi Azərbaycan şirkətləri haqqında kifayət qədər məlumatın olmaması və bunun üçün də məlumat toplamaq çətinliyini göstərmək olar. Eyni zamanda qloballaşma şəraitində şirkətlərin hansı addımları ata biləcəyi ilə bağlı ətraflı məlumat tapmaq çətindir.

**Tədqiqat üçün əsas istinad olunan mənbələr:** Tədqiqat üçün əsas istinad mənbəsi olaraq qloballaşma və strateji idarəetmə ilə bağlı nəzəriyyənin mövcu olduğu nəşrlər, Azərbaycan Respublikasının xarici ticarət ilə bağlı rəsmi dövlət müəssisələrinin paylaşdığı məlumatlar və statistikalar, həmçinin şirkətin özündən birbaşa toplanan məlumatlar istifadə edilmişdir.

**Bazarların Qloballaşması və Strateji İdarəetmə**

Bazarlar müasir dövrdə sürətlə qloballaşmağa məruz qalır. "Qloballaşma tək bir sosial məkan kimi başa düşülə bilər, yəni bütün sosial, siyasi, mədəni və iqtisadi əlaqələrin əhatə olunduğu bir prosesdir." (Ritzer, 2007). Bazarların qloballaşmasına təsir edən əsas faktorlara daxil edə bilərik:

- Texnoloji inkişaf. Texnika və texnologiyanın inkişafı bazarlar arasında əlaqələrin daha sürətlə genişlənməsinə səbəb olur. Bazarlar və şirkətlər müasir dövrdə texnoloji yeniliklər üçün külli miqdarda investisiyalar ayırır, texnologiyanın ən son versiyasını öz əməliyyatlarına daxil etmək üçün çalışırlar. Bunun nəticəsində bazarlar arasında olan sərhədlər aradan qaldırılması prosesi daha da sürətlənir, fərqli ölkələrdən bazarlar bir-biri ilə daha sıx əlaqəyə girirlər.
- Dünya bazarına çıxış istəyi. Yeni istehsal və satış təcrübələri əldə etmək istəyi, satış artımına nail olmaq arzusu, qlobal bazarlardakı şirkətlərlə biznes əlaqələri qurmaq istəyi, yeni sahələrdə ixtisaslaşmaq hədəfi bazarları qloballaşmağa aparan səbəblərdəndir. Misal olaraq, bəzi şirkətlər əməliyyatlarını genişlədib yeni məhsul və ya xidmət kateqoriyalarında əlavələr etmək istədikləri halda həmin məhsulun satışının həyata keçirilməsi üçün ən uyğun bazarı seçməli olurlar və bu hər zaman öz ölkələrinin sərhədləri daxilindəki bazarlarda mümkün olmur. Bəzi hallarda lokal bazarlarda həmin məhsula tələb kifayət qədər olmur, bəzi hallarda onun istehsalı üçün resursların yetərsizliyi bazarlarını genişlətmək ilə nəticələnir.

Beynəlxalq əməliyyatlar aparmağın bir sıra müsbət və mənfi cəhətləri vardır. Müsbət tərəflərinə aiddir:

1. Məhsul və xidmətləri üçün müştəri bazarını genişlədib və daha çox müştəri əldə etmək

2. Daha az vergi ödəmək ehtimalı, siyasi məsələlərdən çətinlik çəkən bir ölkə ilə əməliyyatlarını məhdudlaşdırmaqdansa daha çox ölkədə fəaliyyət göstərib bu mövzuda daha rahat fəaliyyət göstərmək
3. İstehsal müəssisələrinin daha ucuz başa gəldiyi ölkələrdə və bazarlarda qurulması imkanı
4. Daha çox istehsal nəticəsində istehsal və satış xərclərinin azaldılması və daha çox satış əldə etmək
5. Qlobal bazarlara çıxan şirkətin yerli bazarda da nüfuzu arta bilər

Mənfi tərəfləri isə:

1. Ölkələrarası qanun, qayda, mədəniyyət fərqləri. Elə məhz bu səbəbdən şirkətlər fəaliyyət göstərdikləri bazarlara adaptasiya olmalı və onlara uyğun fəaliyyət göstərməlidirlər
2. Birdən çox maliyyə və pul sistemləri ilə eyni anda fəaliyyət göstərmək
3. Daxil olduqları hər bir regionun təşkilatları ilə bağlı anlayışa malik olmaq ehtiyac

Korporativ məqsəd və şirkət siyasəti haqqındakı qərarlar iki tip stratejik qərarlar ilə yaxından əlaqəlidir: şirkət necə bir biznesdədir və şirkət necə bir şirkətdir (Sadler, 2003). Biznes strategiyası şirkətləri digər rəqiblərindən fərqləndirəcək ən önəmli amillərdəndir. Müvəffəq şirkətlərin performansı və seçdikləri strategiyalardakı fərq fəaliyyət göstərdikləri sektorda qarşılaşdıqları çətinliklər və imkanlara baxdıqda heç də təəccüblü görünmür (Saloner, Shepard, Podolny, 2001). Bazarlar qloballaşdıqca şirkətlər üçün rəqabət daha da artır. Rəqabət şəraitində hər bir şirkətin əsas məqsədi öz müştərilərinin tələbinə uyğun məhsul və xidmətlərin yüksək səviyyədə təşkil olunmasıdır. Şirkətlər bazarlarda gedən dəyişikliklərə qarşı hər zaman proaktiv yanaşmada olmalıdır Enerji sektorunda fəaliyyət göstərən Amerika şirkəti General Electric Çin, Almaniya, Hindistan və ABŞ-da tədqiqat mərkəzləri qurub. Şirkət rəhbərliyi bunu belə izah edir ‘’Dünyanın hər yerindən beyin gücü əldə etmək üçün bu yoldan istifadə edirik’’ (Lumpkin, 2014)

**Azərbaycan Şirkətlərinin Dünya Bazarındakı Vəziyyəti**

**Cədvəl 1. Azərbaycan respublikasının 2017-2023-cü illərdə xarici ticarətdəki ixrac və idxalın ümumi həcmi (Min ABŞ Dolları)**

| İllər | Ixrac üzrə | İdxal üzrə |
|---|---|---|
| 2017 | 13 811624.44 | 8 782007.55 |
| 2018 | 19 458 632.51 | 11 464 970.08 |
| 2019 | 19 635 580.41 | 13 667 237.83 |
| 2020 | 13 740 567.63 | 10 730 720.22 |
| 2021 | 22 206 671.12 | 11 705 786.68 |
| 2022 | 38 146 629.67 | 14 539 858.53 |
| 2023 (Yanvar-Fevral) | 4 520 437.37 | 2 650 985.23 |

**Mənbə**: Azərbaycan dövlət gömrük komitəsi ixrac icmalı 2017-2023

Verilmiş cədvəldə Azərbaycan Respublikasının 2017-ci ildən etibarən 8 il ərzində əldə olunan ixrac və idxal dəyəri göstərilmişdir. Bu statistikadan da göründüyü kimi Azərbaycanın xarici ticarətində əsas yeri hər zaman ixrac tutub. 2020-ci ildə koronavirus pandemiyası nəticəsində ləngiyən xarici ticarət öz təsirini Azərbaycan şirkətlərinin qlobal bazardakı performansında göstərib. Ölkə sərhədlərinə giriş-çıxışın azaldılması nəticəsində ölkələrarası ticarətin axının məhdudlaşdırılması, müştəri bazarının zəifləməsi, xarici yatırımların azalması kimi prosesləri xarici ticarəti iflis hala saldı.

**Cədvəl 2. Azərbaycan respublikasından 2017-2023-cü illərdə ən çox ixrac olunan malların dəyəri və ixracda sektorların payı (min ABŞ dolları)**

| İllər | Neft-qaz məhsulları | Yeyinti məhsulları | Kimya sənayesi məhsulları | Özəl sektor üzrə | Dövlət sektoru üzrə |
|---|---|---|---|---|---|
| 2017 | 12,290,658.45 | 591,544.28 | 430,918.7 | 4 801 837.13 | 8 832 570.75 |
| 2018 | 17,805,096.6 | 627,087.57 | 499,314.27 | 5 868 276.24 | 13 501 862.26 |
| 2019 | 17,720,584.5 | 1,144,022.74 | 622,035.19 | 7 597 262.26 | 11 978 758.70 |
| 2020 | 11 889 300.72 | 1,179,244.64 | 672,022.27 | 6 839 501.61 | 6 839 587.34 |
| 2021 | 19 493 277.15 | 1,247,450.07 | 1,465,943.89 | 10 867 392.41 | 11 194 262.34 |
| 2022 | 35 098 956.49 | 1,314,537.58 | 1,733,135.6 | 20 357 551.33 | 17 599 015.57 |
| 2023 (Yanvar-Fevral) | 6829136.19 | 548320.27 | 363872.32 | 1 398 101.47 | 3 095 643.26 |

**Mənbə**: Azərbaycan DGK ixrac icmalı 2017-2023

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bir qolu olan, polipropilen və polietilen istehsalı ilə məşğul olan “Socar Polymer” keçdiyimiz ili qeyri-neft məhsulları ixrac həcminə görə Azərbaycan şirkətləri arasında ikinci yerdə tamamlayıb. Şirkətin satış planına əsasən istehsal edilən məhsulun əksər hissəsi, yəni 75%-i dünya bazarına əksərən də Türkiyə və Avropa bazarlarına çıxarılır, yerdə qalan çox kiçik bir hissə isə, yəni 25%-i Azərbaycanın yerli bazarlarında satılır. Bu rəqəmlərə nəzər yetirsək, şirkətin daha çox qlobal bazardan asılı olduğunu və orada fəaliyyət göstərdiyini görərik. Bunun təməlində istehsal edilən məhsul kateqoriyası dura bilər. Belə ki, Socar Polymer-in istehsal ediyi məhsullar xarici bazarlarda daha çox tələb görüb, digər məhsulların istehsalında xammal kimi daha çox istifadə oluna bilərlər. Qlobal bazara çıxış və əməliyyatları daha da genişləndirmə prosesi həyata keçirilən zaman lokal bazardakı fəaliyyətdən fərqli olaraq şirkət menecmenti strategiyalar üzərində daha çox çalışır. Məsələn, gördük ki, Socar Polymer istehsal etdiyinin 75%-ə qədər böyük bir payını xarici bazara transfer edir. Bu riskli bir rəqəmdir çünki qlobal bazar Azərbaycanın lokal bazarından fərqli olaraq dinamikdir, daha sürətli və davamlı olaraq dəyişir. Socar Polymer-in istehsal etdiyi məhsulları da nəzərə alsaq, hansı ki sırf bir bölgəyə məxsus olmayan və monopoliyanın olmadığı bir bazardır, qlobal bazarda hər an rəqabət onun üçün daha da güclənir, bazara yeni innovasiyalar və texnoloji yeniliklərlə daha güclü rəqiblər daxil olur. Belə olan halda, qlobal bazar üçün standard strategiyalar əlverişli olmur, şirkət daha güclü strategiyalar hazırlamalıdır ki bazardakı mövqeyini qoruyub saxlaya bilsin, daha güclü iqtisadiyyata sahib ölkələrdən qlobal bazara daxil olan şirkətlərlə rəqabətdə geri qalmasın. Azərbaycan şirkətlərinin qlobal bazara hələ tam adaptasiya olmadıqlarını və həmin bazarda davranış üçün təcrübələrinin hələ tam formalaşmadığını nəzərə almaq lazımdır. “Socar Polymer”-in xarici bazardakı mövqeyini itirdiyi zaman istehsalının əksəriyyəti azaldılmalı olacaq və belə olan halda şirkət güclü bir strategiya təqdim etməlidir ki mümkün qədər minimum zərərə məruz qalsın. şirkət menecmenti strategiyalar üzərində daha çox çalışır. Məsələn, gördük ki, Socar Polymer istehsal etdiyinin 75%-ə qədər böyük bir payını xarici bazara transfer edir. Bu riskli bir rəqəmdir çünki qlobal bazar Azərbaycanın lokal bazarından fərqli olaraq dinamikdir, daha sürətli və davamlı olaraq dəyişir. Socar Polymer-in istehsal etdiyi məhsulları da nəzərə alsaq, hansı ki sırf bir bölgəyə məxsus olmayan və monopoliyanın olmadığı bir bazardır, qlobal bazarda hər an rəqabət onun üçün daha da güclənir, bazara yeni innovasiyalar və texnoloji yeniliklərlə daha güclü rəqiblər daxil olur. Belə olan halda, qlobal bazar üçün standard strategiyalar əlverişli olmur, şirkət daha güclü strategiyalar hazırlamalıdır ki bazardakı mövqeyini qoruyub saxlaya bilsin, daha güclü iqtisadiyyata sahib ölkələrdən qlobal bazara daxil olan şirkətlərlə rəqabətdə geri qalmasın. Azərbaycan

şirkətlərinin qlobal bazara hələ tam adaptasiya olmadıqlarını və həmin bazarda davranış üçün təcrübələrinin hələ tam formalaşmadığını nəzərə almaq lazımdır. "Socar Polymer"-in xarici bazardakı mövqeyini itirdiyi zaman istehsalının əksəriyyəti azaldılmalı olacaq və belə olan halda şirkət güclü bir strategiya təqdim etməlidir ki mümkün qədər minimum zərərə məruz qalsın. maliyyə baxımından zəiflik Azərbaycanda bir çox şirkəti, xüsusilə də turizm və kafe və restoran sektorlarında fəaliyyət göstərən şirkətləri çətin vəziyyətə saldı. Bu işçilərin azaldılması siyasəti ilə hətta bir sıra bizneslərin öz fəaliyyətlərini dayandırması ilə nəticələndi.

Məlumdur ki, Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün çalışılır, xüsusilə də ixracda bu sektorun payının artırılması mühimdir. Keçdiyimiz ildə Azərbaycanın qeyri-neft sektoru məhsullarının ixracında ən çox iştirak edən şirkətlərə nəzər yetirək.

**Cədvəl 3. 2022-ci ildə qeyri-neft məhsullarının ixracında əsas yeri tutan özəl Azərbaycan şirkətləri (milyon ABŞ Dolları ilə)**

| Şirkətlər | İxrac dəyəri |
|---|---|
| ''MKT İstehsalat Kommersiya'' MMC | 105.1 |
| "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin AR-ndakı nümayəndəliyi | 91.7 |
| "Rose Servis" MMC | 47.9 |
| "Almeyvə" MMC | 45.9 |
| Şirinov Elvin Valeh oğlu | 41.5 |
| "Baku Steel Company" MMC | 40.6 |
| "Mors Trading" MMC | 35.1 |
| "P-Aqro" MMC | 34.2 |
| "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC | 30.8 |
| "STP Alüminium" MMC | 29.4 |

**(Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, İxrac İcmalı)**

**Cədvəl 4. 2022-ci ildə qeyri-neft məhsullarının ixracında əsas yeri tutan dövlətə məxsus Azərbaycan şirkətləri (milyon ABŞ Dolları ilə)**

| Şirkətlər | İxrac dəyəri |
|---|---|
| ARDNŞ-nın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi | 550.1 |
| "SOCAR Polymer" MMC | 174.2 |
| "Azəralüminium" MMC | 139 |
| "Azergold" QSC | 91.3 |
| "Azərenerji" ATSC | 64.1 |
| "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC | 51.8 |
| "Azərbaycan Hava Yolları" QSC | 7.5 |
| "Azəripək" MMC | 1.7 |
| "Azərtütün" ASC | 0.8 |
| Geofizika və Geologiya İdarəsi | 0.8 |

**(Azərbaycan Respublikası DGK, ixrac icmalı)**

Yuxarıda verilənləri müqayisə etsək qeyri-neft sektoru üzrə ixracatın əksəriyyətinin dövlətə məxsus şirkətlərdən gəldiyini görərik. Xüsusilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bir idarəsi olan Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi 550.1 milyon dollar dəyərində ixracat ilə qeyri-neft sektorunun ixracına ən böyük dəstəyi göstərən şirkət olub. Lakin digər dövlətə məxsus şirkətlər bu

fəaliyyətdə adı çəkilən şirkətdən bir qədər geri qalır. Özəl sektora aid şirkətlər isə ixrac dəyərlərində bir-birindən kəskin fərqlənmir.

Azərbaycan şirkətlərinin məhsul ixracı üçün seçdiyi hədəf ölkələr daha çox Asiya və Avropa regionundan olan ölkələrdir. Qeyri-neft sektoru üzrə ixracatda 2020-2022-ci illəri əhatə edən dövrdə əsas pay Rusiya və Türkiyəyə aid olmuşdur.

**Qrafik 1. 2020-2022-ci illərdə Azərbaycanın qeyri-neft məhsulları üzrə əsas ixrac ölkələri (milyon ABŞ Dolları)**




**(Azərbaycan Respublikası DGK, İxrac İcmalı)**

Yuxarıda 2020, 2021 və 2022-ci illər üçün Azərbaycan şirkətlərinin qeyri-neft sektoru üzrə məhsullarının əsas ixrac istiqamətləri verilmişdir. Digərləri ilə müqayisədə bu ölkələr son 3 il ərzində Azərbaycanın ixrac dəyərinin artmasında daha böyük rol oynamış, ən çox ixracın aparıldığı ölkələr olmuşlar. Rusiya ölkə məhsullarının əsas alıcı ölkəsi olaraq hər il ixrac dəyərində artımın müşahidə olunduğu ölkələrdəndir. 2020-ci ildə Rusiya üçün 691 milyon ABŞ dollar dəyərində olan ixrac, 2021-ci ildə 877 milyon, 2022-ci ildə isə 928 milyon dollara yüksəlmişdir. Digər bir qonşu ölkə olan Türkiyə isə Azərbaycandan 2020-ci ildə 377 milyon, 2021-ci ildə 675 milyon, 2022-ci ildə isə 713 milyon dəyərində məhsul idxal edərək, həm hər il artım göstərmiş, həm də ixrac ölkələri arasında ikinci yeri tutmuşdur. Gürcüstana hər bir il üçün ardıcıl olaraq 127, 157 və 228 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac olunmuşdur. Sadalanan ölkələrdən fərqli olaraq, İsveçrəyə ixracatda bu 3 il ərzində azalma müşahidə olunmuşdur. İsveçrə Azərbaycandan 2020 və 2021-ci illərdə hər iki il üçün eyni miqdarda olmaqla 224 milyon dəyərində məhsul idxal etmişdir, 2022-ci il üçün isə bu göstərici 198 milyon dəyərində olmuşdur. Əsas ixracat ölkələrinə diqqət yetirdikdə əksəriyyətinin qonşu ölkələr olduğunu müşahidə etmək olar. Azərbaycandan ixrac olunan məhsulların əksəriyyəti daha çox yaxın ərazilərdə yerləşən ölkələrə ixrac olunur. Buna səbəb olan əsas amillərdən biri kimi logistikanı göstərmək olar. Logistika sistemindəki çatışmazlıqlar, bu sahənin Azərbaycanda inkişaf etmiş səviyyədə olmaması və xaricə məhsul daşınmasındakı nəqliyyat şəbəkəsinin zəifliyi uzun məsafələrə məhsul daşınmasını da çətinləşdirir.

Son illərdə Azərbaycanda idxal və ixrac sahəsində həyata keçirilən islahatlar:

- Elektron bəyannamə. Əvvəlki illərdə proses çətin olmaqla sahibkarları bəyannamə üçün gömrüyə getməyə məcbur qoyurdu. İndi isə son bir neçə ildir gömrük əməliyyatlarında təkmilləşdirilmiş bəyannamə üsulu olaraq istifadə edilir. Bu üsul ticarət əlaqələrini daha da asanlaşdırır, əməliyyatlarda şəffaflığı təmin edir.
- Yaşıl ticarət zonalarının yaradılması. Yaşıl zonalar qlobal bazarlarda iştirak edən Azərbaycan şirkətlərinin əməliyyatlarını daha asan və şəffaf etmək üçün yaradılmışdır. Eyni zamanda ixracat səviyyəsini gücləndirmək üçün həyata keçirilir. Yaşıl dəhliz buraxılış sistemi nəyə xidmət edir?:
  - Daha əlverişli biznes mühiti
  - Daha sürətli sərhəd keçidi
  - Daha yüksək ixrac potensialı
  - Daha çevik və şəffaf gömrük nəzarəti
  - Qanunvericiliyə könüllü riayət (Azərbaycan Respublikası DGK, 2023)

Lakin yaşıl dəhlizdən istifadə üçün şirkətlər ən az 1 il fəaliyyət göstərməlidir.

- Bank təsdiqindən istifadə. İdxal ediləcək məhsulların idxalından öncə şirkətlər bankdan gələcək məhsullar və məbləğləri ilə bağlı bankdan təsdiq sənədlərini əldə edirlər. Ödəniş üçün bu sənəd mütləq tələb olunur.
- Qısa bəyannamələrin gömrüyə təqdim edilməsi. İdxal ediləcək məhsullar üçün qısa bəyannamələr şirkət tərəfindən gömrüyə təqdim edilməlidir. Qısa bəyannamənin gömrüyə təqdim edilməməsi halında sahibkar məsuliyyətə cəlb olunur və 1500 AZN dəyərində cərimə ödəməlidir.
- Gömrük sisteminin inkişaf etdirilməsi. Gömrük ilə əlaqə artıq son illərdə daha da asanlaşdırılıb. Portal vasitəsilə rahatlıqla bizneslər gömrük üçün lazım gələn sorğuları yarada bilirlər.
- Depozit. Bəzi hallarda gömrükdə əvvəlki əməliyyatlardan qalan şirkət hesabına əlavə məbləğ olur. Bu məbləği depozit hesabında saxlayıb növbəti əməliyyatlarda bu hesabdan çıxaraq ödənişi həyata keçirmək mümkündür.
- İnhisarçılığın aradan qaldırılması. Son illərdə həyata keçirilən islahatlar nəticəsində idxalda inhisarçılıq aradan qaldırılıb. Artıq şirkətlər istədikləri məhsulları rahatlıqla Azərbaycana idxal edə bilirlər.

Gömrük və idxal-ixrac ilə bağlı Azərbaycan şirkətləri üçün problem yaradan hallar:

- Saxlanc anbarlarının olmaması. Regionlarda, gömrük məntəqələrində xaricdən gətirilən məhsulların saxlanması üçün anbarlar mövcud deyil. Gətirilən məhsullar idxal edən şirkətə çatdırılmazdan öncə bir çox prosesdən keçir. Bu müddət ərzində isə həmin məhsullar şəraiti olan anbarlarda saxlanmalıdır. Lakin təəssüf ki, Azərbaycanda bu yol tətbiq edilmir və bu məhsullara mənfi təsir göstərir. Məsələn, məhsullar gömrüyə təqdim edilir, lakin bu müddətdə şirkətin ödənişləri etmək üçün kifayət qədər vəsaiti yoxdur, belə olan halda məhsulları saxlamaq üçün gömrükdə anbarlar olmadığı səbəbi ilə məhsullar maşınlarda tutulur və nəticədə xarab olur. Xüsusilə də yeyinti məhsulları bu müddət ərzində korlanır,

xarab olur və artıq istifadəyə yararsız hala gəlir. Bu isə öz növbəsində idxal edən şirkətə zərər vurur və onun üçün əlavə xərclərin yaranmasına səbəb olur.

- Şirkətlərdə saxlanc anbarları. Saxlanc anbarları ilə bağlı bir digər mənfi hal şirkətlərdə mövcud olan saxlanc anbarlarının təsdiqlənməsi prosesi şəffaf aparılmır. Gömrükdə saxlanc anbarlarının əksikliyi və şirkətlərdə həmin anbarların təsdiqlənməsi prosesi düzgün aparılmadığı üçün idxal olunan məhsullara xeyli zərər vurulur. Bu anbarların düzgün təşkil olunması hələ ki ixrac-idxal məsələlərinin əsas problemi kimi çıxış edir.
- "Statistik qiymət". Bəzi hallarda ixrac bəyannamələri gömrük tərəfindən qəbul edilmir və bu hal "statistik qiymət" adı altında sahibkarlara tətbiq olunur. Statistik dəyər – Gömrük hesab-fakturalarda göstərilən məbləği qəbul etmir və bazar qiyməti təyin edərək sahibkarlardan həmin məbləğdə ödəniş istəyir. Bazar qiyməti dedikdə də digər bütün şirkətlərin bazarda hansı qiymətlərlə çıxış etdiyini göstərən dəyər nəzərdə tutulur. Məsələn, bir şirkətin hesab-fakturasında yazılan dəyərlərə görə 1 kq kərə yağı 5 dollar dəyərindədir, əlavə olaraq 18% ƏDV, 15% isə gömrük rüsumu ödənir. Gömrük isə 5 dollar dəyərini qəbul etmir, qiyməti qaldırır. Bu isə əslində gömrük proseslərində tətbiq edilən 6 metoddan birinin pozulması deməkdir. Qaydaya əsasən bu metodda deyilir ki, hər hansısa halda ölkəyə idxal olunan malların gömrük dəyəri idxal sənədlərində necə göstərilibsə ödəniş də o qədər həyata keçirilməlidir.
- Daxili bazarın qorunması. İstehsala nəzarət zəifdir, sektorlarda xeyli nəzarətsiz işçi çalışır, hazır məhsulların gətirilməsi prosesində də həmçinin monitorinq zəifdir. Bütün bu proseslərdə nəzarət gücləndirilməli, daxili bazar qorunmalıdır.
- Təşviq sənədi. Texnolojik məhsulların Azərbaycana gətirilməsində bir çox problemlər yaranır. Təşviq sənədinin olmadığı hallarda texnologiya məhsulları ƏDV-dən, gömrük rüsumundan azad olunmur. Digər ölkələrdə isə bu hal tamamilə əksinədir, bu prosesdə rüsum tutulmur.

Bundan əlavə pandemiyadan sonra gömrük tərəfindən həyata keçirilən ödəniş siyasəti də vardır. Pandemiyadan öncə idxal edilən məhsullar üçün faktura dəyəri 100000 dollardan az olduqda gömrük dəyəri 240 AZN, 100000 dollardan çox olduqda 400 AZN idisə pandemiyadan sonra şirkətlər artıq 100000 dollardan az faktura üçün 400 AZN, 100000 dollardan artıq üçün 600 AZN ödəniş edirlər. Bu isə Azərbaycan şirkətlərinin idxal və ixracına mənfi təsir göstərir.

Azərbaycan şirkətlərinin beynəlxalq bazarlarda vəziyyətini araşdırmaq üçün BETA (Best-Tarım QSC) şirkətində araşdırma aparıldı. Best-Tarım QSC 1993-cü ildən bəri Azərbaycanda fəaliyyət göstərən, çay məhsullarının, düyü və kofenin satışlarını həyata keçirən qida sektorunda fəaliyyət göstərən transmilli şirkətdir. Adı çəkilən məhsulların həm istehsalı, həm də xaricdən idxal edilib qablaşdırılaraq satışı ilə məşğul olur. Dünya səviyyəsində qorunan "Çempion", "Beta", "Xəzər", "Azərbaycan çayı" çayları ilə, "Besta (düyü)". "Bayce" əmtəə nişanları ilə fəaliyyət göstərir göstərir. Hər ay 500 ton çay, 500 ton düyü idxal edir və eyni zamanda ölkənin daxili tələbatı üçün də istehsal edir. 7 regionda mövcud struktur bölmələri vardır. Beta şirkəti vasitəçilər və distribyutorlar vasitəsilə satışlarını həyata keçirir. Hindistan, Şri-Lanka, Kenya kimi ölkələrdən məhsulların idxalını həyata keçirir. Lənkəran, Masallı, Astarada çay plantasiyaları mövcuddur, düyü istehsalını də həyata keçirir.

Beta Holding-in Yaxın Şərq ölkələrində şirkətləri fəaliyyət göstərir, həmin şirkətlər də öz növbəsində Azərbaycandakı şirkətdən müstəqil istehsal və satışı həyata keçirir. Əmtəə nişanları isə hər birində eynidir. Fərqli ölkələrdə şirkətlərinin olmasının əsas səbəbi məhsullarının maya dəyərinin aşağı salmaq və rəqabət qabiliyyətini artırmaq istəyidir. Fəaliyyət göstərdikləri hər bir ölkənin qanunlarına, social dəyərlərinə uyğunlaşdıraraq əməliyyatlarını həyata keçirirlər. Oğurluqların, saxtakarlığın qarşısını almaq üçün əməliyyatlar komputerləşdirilmiş system əsasında həyata keçirilir. 1000-ə yaxın işçi heyəti ilə fəaliyyət göstərir.

Beta Holding üçün son illərdə bazarda rəqabət xeyli güclənib. Lakin dövlət tərəfindən şirkətə təşviqlər, güzəştlər verilir. Hər ay şirkət tərəfindən SWOT analizi (güclü və zəif tərəflərin, bazardakı imkan və təhdidlərin aşkar edilməsi) aparılır. Şirkət tez-tez yeni brendlərin Azərbaycana gətirilməsini təmin edir. Logistika prosesində yaranan xərclərdə SİP üsulundan istifadə edilir. Belə olan halda Azərbaycan tərəfindən təslim alınana qədər yaranan büütn xərcləri və sığorta xərclərini məhsulun gətirildiyi şirkət qarşılayır. Texnoloji yeniliklərdən də şirkət maksimum dərəcədə istifadə edir. 2020-ci ildən şirkət tərəfindən dövlətə verilən biznes plana əsasən elektronlaşdırılmış çay fabrikinin qurulması planlaşdırılır. Bu fabrikdə istehsalda müasir texnologiyalardan, paketləmə maşınlarından, qarışdırıcı maşınlardan istifadə ediləcəkdir. Bu strategiyanın 2027-ci ilə qədər həyata keçirilməsi planlaşdırılır.

**Nəticə**

Bütün bu araşdırmalar nəticəsində əldə olunur ki, Azərbaycan şirkətləri qlobal bazarda öz mövqelərini daha da möhkəmlətmək üçün bir qədər çox çalışmalıdır. Çünki nəzərə almaq lazımdır ki Azərbaycan iqtisadiyyatı hər nə qədər stabilliyini qorusa da ölkəyə xaricdən olan təsirlər, siyasi məsələlər də mənfi təsir göstərir. Qlobal strateji idarəetməni qlobal bazarlarda şirkət hərəkət keçə bilsin deyə 5 əsas mərhələyə bölə bilərik və bu mərhələlərin hər biri mütləq həyata keçirilməlidir. İlk növbədə Azərbaycan şirkətlərinin qlobal bazarda fəaliyyətlərini genişlədə bilmək üçün edə biləcəyi addımlara nəzər salsaq:

- Öncədən olan vəziyyətin analizi. Qlobal bazarlara çıxış və beynəlxalq fəaliyyətlər həm şirkətə yeni fürsətlər və imkanlar gətirir, həm də bəzi təhlükələr. Öncədən olan vəziyyəti analiz edib planlaşdırmağı bunun üzərində qurmaq bunun üçün önəmlidir.
- Ümumi analiz. İkinci mərhələdə xarici və daxili vəziyyətin analizi aparılmalıdır. Qlobal bazara çıxdıqda lokal bazardakından daha çox rəqiblə qarşılaşmaq ən təbii haldır və bu rəqiblərlə rəqabət üçün strateji idarəetmədə bu mərhələ çox önəmlidir.
- Strategiyanın seçilməsi. Analizdən sonra ən önəmli mərhələ olan strategiyanın seçilməsi mərhələsi həyata keçirilir. Qlobal bazarda şirkətin fəaliyyətlərini effektiv edə biləcək, maksimum gəlir əldə edilə biləcək və fürsətlərdən yararlanmaq mümkün olan bir strategiya seçmək lazımdır.
- Proses. Qlobal strategiyanı təyin etdikdən sonra isə bu strategiyanın tətbiq olunması və şirkətə inteqrasiyasının prosesi izlənilməlidir. Şirkət özünə faydanın maksimum gələ biləcəyi və risklərin minimum səviyyədə olduğu prosesi müəyyənləşdirməlidir. Bu mərhələdə strategiyada olan əksikliklər də ortaya çıxa bilər.
- Həyata keçirilmə. Bu mərhələyə qədər şirkət bir neçə cəhddən sonra artıq tam faydalı strategiyanı müəyyənləşdirir. Sadəcə strategiyanı təyin etmək şirkətin müvəffəqiyyətini təmin etmir. Bu strategiyanın effektiv və səmərəli olması üçün onun şirkətdə tətbiqi düzgün formada aparılmalıdır.

Qlobal mühit hər zaman dinamik, daim iqtisadi, siyasi, regional məsələlər nəticəsində dəyişikliyə məruz qalan bir mühitdir. Bu çətinliklərin səbəbi olaraq da öncədən şirkətlərin görə bilmədiyi baş verə biləcək iqtisadi, siyasi və.s. problemlərdir. Belə bir vəziyyətdə şirkətlər qlobal bazarda iştirak bəzi faktorları nəzərə almalıdırlar:

- Rəqabət: Rəqabət qlobal bazarlardakı fəaliyyətlərdə ən önəmli faktordur. Nəzərə almaq lazımdır ki qloballaşmanın miqyası artdıqca bazara daxil olan rəqabət sayı və kateqoriyası da artır. Bu il rəqabət üçün qurulan hər hansı bir strategiya bir neçə il sonra yararsız hala gələ bilər. Bazardakı rəqiblərə daim nəzarət olmalıdır və bu da şirkətin xarici mühitinin analizinin bir hissəsidir.
- Müştərilər: Texnoloji inkişaf və yeniliklər artdıqca müştərilərin şirkətlərdən tələbi də artır. İstər məhsul dizaynı, istər keyfiyyəti və ya qiyməti, bütün bu faktorlar müştərilərin alıcılıq qabiliyyətinə təsir göstərir. Şirkətlər öz müştərilərini itirməmək üçün müştəri istək və tələblərini hər zaman nəzərdən keçirməli və innovativ ideyalardan boyun qaçırmamalıdır. Rəqib şirkətlərin daha çox məhsul və xidmət kateqoriyaları ilə bazara çıxması ilə müştəriləri həmin şirkətə cəlb olunmağı mümkündür. Bunun üçün də şirkətlər öz müştəri seqmentinin heç olmasa böyük bir hissəsini ‘’sadiq müştəri’’lərə çevirməlidirlər və müştəriləri öz məhsul və xidmətləri ilə razı salmalıdırlar.
- İnnovasiya və texnoloji yeniliklər: Bazarda hər zaman yeniliklər baş tutr, hər kəs yeni innovativ fikirlər ilə çıxış etməyə çalışır ki digər rəqiblərdən fərqlənə bilsin. Lakin bunun xərc və resurs hissəsini də nəzərə almaq lazımdır. Tədqiqat aparmaq üçün, yenilikləri həyata keçirmək üçün kifayət qədər resurs və maddi vəsait ayrılmalıdır. Hətta bəzi şirkətlər öz fəaliyyət göstərdiyi sektorlar xaricindən də innovativ yenilikləri izləməyə çalışır və buna uyğun hərəkət edir. Bugünkü dünyada qloballaşma texnologiya və o sahədə baş verən yeniliklər ilə idarə olunur.

**Ədəbiyyat siyahısı**


Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. İdxal və ixrac hesabatı.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. İxrac İcmalı.

David, F.R. (2011), Strategic Management,Concepts and cases. New Jersey, ‘’Pearson Education”. 694 səhifə

Furrer O. (2016), Corporate Level Strategy. Einfeld, ‘’Fish Books Ltd.”, 298 səhifə

Hassan S.S., K.Erdener (2013), Globalization of Consumer Markets. New York, ‘’Taylor and Francis”

Johnson G., Scholes K.,Whittington R. (2005), Exploring corporate strategy, text and cases. New Jersey, ‘’Pearson Education”, 1070 səhifə

Keller K.L. (2013), Strategic Brand Management, Building, Measuring and Managing Brand Equity. Edinburgh, ‘’Pearson Education”, 591 səhifə

Lumpkin D., McNamara E. (2014), Strategic Management, Creating Competitive Advantages. New York, ‘’McGraw-Hill Education”, 540 səhifə

Parnell J.A. (2014), Strategic Management, Theory and Practice. London, ‘’Sage Publications”, 665 səhifə

Ungson G. R., Wong Y.Y. (2008), Global Strategic Management. New York, ‘’Taylor&Francis”, 596 səhifə

# Şərqi Zəngəzur İqtisadi Rayonunun İnkişaf Perspektivləri

**Zaur Əsədzadə**

**Azərbaycan Kooperasiya Universiteti, doktorant**

**zaur.esedzade.1130@gmail.com**

## Xülasə

Məqalədə Şərqi Zəngəzur iqtisadi rayonunun inkişaf perspektivləri müxtəlif aspektlərdən tədqiq edilmişdir. Dövlətin regional siyasətinin prioritet istiqamətləri araşdırılmışdır. Prioritet istiqamət kimi, Şərqi Zəngəzur iqtisadi rayonunun potensial imkanları, inkişaf xüsusiyyətlərilə yanaşı səciyyəvi cəhətləri və o cümlədən regionda infrastruktur təminatının gücləndirilməsi məsələlərinə baxılmışdır. Regional inkişafın ümumi iqtisadiyyatın inkişafına təkan verməsi, ümumi iqtisadi tərəqqinin regional inkişafsız qeyri-mümkün olduğu nəzərdən keçirilmişdir. Şərqi Zəngəzur iqtisadi rayonun işğaldan azad edilməsi və o cümlədən potensial imkanlarından səmərəli istifadənin Ümummilli lider Heydər Əliyev strategiyasının məntiqi davamı olduğu vurğulanmışdır. Müəllif, Şərqi Zəngəzur iqtisadi rayonunda biznes və rəqabət mühitinin formalaşdırılması məsələlərini analiz etmişdir. İqtisadi rayonda əlverişli biznes və rəqabət mühitinin formalaşdırlmasının, digər iqtisadi rayonlarda da bu mühitin formalaşmasına səbəb olacağına və dolayısıyla ümumilikdə ölkədə əlverişli biznes və rəqabət mühitinin formalaşacağına diqqət çəkilmişdir. Müəllifin fikrincə iqtisadiyyatın bütün sahələrində dövlət və özəl sektorun əməkdaşlığı regionda əlverişli biznes və rəqabət mühitini formalaşdıracaqdır ki, bu da dolayısıyla regionun gələcək perspektivlərinin səmərəli şəkildə reallaşdırılmasına və nəticədə Şərqi Zəngəzur iqtisadi rayonunda yenidən həyatın tam bərpa olunmasına öz töhvəsini verəcəkdir.

**Açar sözlər**: Heydər Əliyev strategiyası, Şərqi Zəngəzur, regional inkişaf, kənd təsərrüfatı, turizm sektoru və s.

## Summary

In the article, the development prospects of Eastern Zangazur economic region were studied from different aspects. The priority directions of the regional policy of the state have been examined. As a priority direction, the potential opportunities of the Eastern Zangazur economic region, its specific aspects along with its development features, as well as the strengthening of infrastructure provision in the region, were considered.. It was considered that regional development promotes the development of the general economy, that general economic progress is impossible without regional development. It was emphasized that the liberation of Eastern Zangazur economic region from occupation and the effective use of its potential are the logical continuation of the National leader Heydar Aliyev's strategy. The author analyzed the issues of formation of business and competitive environment in Eastern Zangazur economic region. It was pointed out that the formation of a favorable business and competitive environment in the economic region will lead to the formation of this environment in other economic regions, and therefore, a favorable business and competitive environment will be formed in the country as a whole. According to the author, the cooperation of the public and private sectors in all areas of the economy will form a favorable business and competitive environment in the region, which will contribute to the effective realization of the future prospects of the region and, as a result, to the full restoration of life in the Eastern Zangazur economic region.

**Key words:** Heydar Aliyev strategy, Eastern Zangazur, regional development, agriculture, tourism sector, etc.

## Giriş

Tədqiqatın əsas məqsədi Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafı üçün potensial imkanların tədqiqi və bu imkanlardan səmərəli istifadə ilə bağlı təklif və tövsiyələrin işlənib hazırlan-masından ibarətdir. Bu məqsədlə regional inkişafın zərurliyi və prioritetləri, Şərqi Zəngəzur iqtisadi rayonunun səciyyəvi xüsusiyyətləri, iqtisadi rayonun potensial inkişaf sahələri, Şərqi Zəngəzurun

mövcud potensial imkanlarından səmərəli istifadə məsələləri araşdırılıbdır. Araşdırma zamanı sistemli və kompleks yanaşma, induksiya və deduksiya metodlarından istifadə edilib, habelə Şərqi Zəngəzur iqtisadi rayonunun müxtəlif sahələr üzrə potensial inkişaf imkanlarını və onların iqtisadi inkişafa təsirini müxtəlif aspektlərdən müqayisəli təhlil edilməsilə yanaşı müvafiq ümumiləşdirmələr aparılıb. Tədqiqat zamanı Azərbaycan hökuməti tərəfindən qəbul edilən müvafiq normativ-hüquqi sənədlər, ayrı-ayrı dövlət və qeyri-hökumət qurumlarının mövqeyi, ekspert və mütəxəssislərin fikirləri metodoloji baza kimi istifadə edilib. Tədqiqatın əsas məhdudiyyəti isə, Şərqi Zəngəzur iqtisadi rayonunun yeniliyi və bununla bağlı nəzəri mənbələrin, elmi məqalə və kitabların azlığı ilə bağlıdır.

Ümumilikdə isə, Azərbaycanda regionların sosial-iqtisadi inkişafı baxımından prioritetliyi Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev və Azərbaycanın igid əsgərlərinin 30 il ərzində dayanmadan əzmlə çalışması nəticəsində düşmən tapdağından azad edilmiş rayonlar təşkil edir. İşğaldan azad edilmiş rayonların hər birinin özünəməxsus inkişaf perspektivləri və o cümlədən ixtisaslaşma istiqamətləri var. Bu baxımdan iqtisadi rayonların inkişaf istiqamətlərini təhlil etmək üçün, hər bir rayonun özünəməxsus potensial imkanlarını dəyərləndirməli və hər birini ayrı-ayrılıqda düzgün analiz edərək yekun nəticəyə varmalıyıq.

**Regional İnkişafın Prioritetləri**

Hər bir ölkə ayrı-ayrı regionlardan, rayonlardan və digər inzibati ərazi vahidlərindən ibarətdir. Regional inkişafı təmin etmədən ölkənin ümumi inkişafına nail olmaq qeyri mümkündür və hər bir regionun özünəməxsus inkişaf xüsusiyyətləri var. Bu qanunauyğunluq regionun coğrafi mühiti ilə yanaşı, regionda yaşayan əhalinin ixtisaslaşma səviyyəsindən, ixtisaslaşma səviyyəsi isə regionun iqtisadi resurs potensialından aslıdır (Kostin & Berezovskaya, 2017). Azərbaycanda uzunmüddətli inkişaf perspektivləri vəd edən, eyni zamanda prioritet əhəmiyyət kəsb edən iqtisadi rayonlardan biri də Şərqi Zəngəzur iqtisadi rayonudur. Şərqi Zəngəzur, iqtisadi potensial imkanlarının zənginliyi baxımından əhəmiyyət kəsb etməklə yanaşı, həm də eyni zamanda iqtisadi rayona daxil olan rayonların hər biri 30 il işğal altında qalmış rayon kimi əhalinin məskunlaşmasında, insanların dədə-baba torpaqlarına qaytarılması baxımından zəruri xarakter daşıyır. Bu regionu inkişaf etdirmək, həm də eyni zamanda dolayısıyla ölkə sərhədlərini möhkəmləndirmək anlamına gəlir. Bu baxımdan da Şərqi Zəngəzur iqtisadi potensial imkanları ilə yanaşı, strateji əhəmiyyət kəsb edir və o cümlədən iqtisadi rayonunun inkişafı ümummilli lider Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş iqtisadi strategiyanın məntiqi davamıdır (Əsədov, 2023). Ümummilli lider tərəfindən bünövrəsi qoyulan və cənab Prezident tərəfindən uğurla davam etdirilən iqtisadi siyasət nəticəsində, dövlətimizin iqtisadi gücü, dövlətimizin hərbi gücünün formalaşdırlmasına və nəhayət Vətən müharibəsində zəfərin əldə edilməsinə gətirib çıxardı. Zəfərin davamlılığı, uzunmüddətliliyi, qələbənin daimiliyi baxımından da Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafı mühüm əhəmiyyət kəsb edir.

Hər kəsə məlumdur ki, Azərbaycanda 14 iqtisadi rayon var. Onlardan biri də Şərqi Zəngəzurdur. Şərqi Zəngəzur iqtisadi rayonunun sahəsi təqribi 7.5 min kv.km, tərkibində isə Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonları olmaqla 5 rayondan ibarətdir. İqtisadi rayonun ərazisində zəngin faydalı qazıntı ehtiyatları, əkinə yararlı torpaq sahələri ilə yanaşı heyvandarlığın inkişafı üçün mühüm əhəmiyyət kəsb edən geniş otlaq sahələrinin mövcudluğu Şərqi Zəngəzurun uzunmüddətli və dinamik inkişafı üçün zəngin imkanlara malik olmasından xəbər verir. Bütün bunlarla yanaşı, Şərqi Zəngəzurun sağlamlıq turizmi, yaylaq turizmi, dağ turizmi və o cümlədən qış

turizmi üçün əlverişli coğrafi mövqedə yerləşməsi, onun çoxşaxəli turizm potensialına malik olmasından xəbər verir (Abdullayeva, Hüseynova, Məhərrəmova, 2022). Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanın ən böyük rayonu olan Kəlbəcər ilə yanaşı Laçında yaylaq və sağlamlıq turizmi, müalicəvi bulaqlar ilə zəngin Cəbrayıl rayonu, tarixi abidələrin çoxluq təşkil etdiyi və xüsusilə tarixiliyi 1000 ilə yaxın olan qədim Xudafərin körpüsünün Zəngilan ərazisinində yerləşməsi ilə yanaşı dövlət qoruğu (1969-cu ildən), palıd və vələs meşələrinin məskəni olan Qubadlı rayonunun Şərqi Zəngəzur iqtisadi rayonun tərkibində olması ümumilikdə Şərqi Zəngəzurun kifayət qədər turizm potensiallı olmasını ön plana çıxarır. Dövlət başçısı İlham Əliyev müsahibələrin birində Şərqi Zəngəzur ilə bağlı prioritet məqsədlərdən danışmış və onun dinamik tərəqqisinin təmin edilməsi üçün əzmlə çalışıldığını vurğulayaraq, "Kəlbəcər, Laçın, Zəngilan rayonlarında heyvandarlığın çox böyük perspektivləri var. Biz vaxt itirmədən artıq ikinci ildir ki, çobanları qoyun sürüləri ilə artıq oraya göndərmişik və bunun nəticəsini görürük. Arıçıları göndərmişik. Artıq Kəlbəcər, Laçın rayonlarında yol boyunca yüzlərlə arıçı öz təsərrüfatını qurub və bol məhsul götürür. Artıq biz bal ixracatçısına çevrilmişik" sözlərini demişdir (https://president.az/az/articles/view/56906, 2022).

**Şərqi Zəngəzurun inkişaf xüsusiyyətləri**

Yuxarıda qeyd edilən faktlar ilə yanaşı, Şərqi Zəngəzur iqtisadi rayonu turizm potensialı üçün zəngin ehtiyatlara malikdir. Regionun inkişafını turizmin inkişafı baxımından xarakterizə etmək olar. Məsələn regionda aparıcı rayonlardan biri olan Kəlbəcər inzibati rayonu haqqında Ümummilli lider Heydər Əliyevin "Doğrudan da, Kəlbəcər Azərbaycanın çox dəyərli bir guşəsidir. Həm təbiətinə, dağlarına, meşələrinə, çaylarına, bulaqlarına görə, həm də orada olan çox qiymətli yeraltı sulara, mərmər, qızıl yataqlarına, başqa əlvan metalların yataqlarına görə çox qiymətli bir yerdir" sözlərinə istinad etsək Kəlbəcər inzibati rayonu istər sağlamlıq turizminin inkişafı, istərsə də aqrar sektorun inkişafı baxımından zəngin potensial imkanlara malikdir.

Şərqi Zəngəzur iqtisadi rayonunda sağlamlıq turizminin inkişafı üçün potensial imkanların olmasını xüsusilə qeyd edtmək lazımdır. Kəlbəcərdəki İstisu sanatoriyası, Laçın rayonunun Minkənd, Molla-Əhmədli, Mirik və sair kəndlərində yerləşən mineral bulaqlar SSRİ dönəmindən bəri bütün xalqların şəfa mənbəyi olmuşdur. Müstəqillik illərindən öncə Kəlbəcər İstisu sanatoriyası öz müalicəvi əhəmiyyəti ilə nəinki keçmiş İttifaq ölkələrində, o cümlədən dünyada məşhur idi, o zaman yalnız bir İstisu sanatoriyasından büdcəyə milyonlarla manat vəsait qazandırılırdı. Hələ Kəlbəcərin və digər ərazilərin başqa yüzlərlə dərdin dərmanı olan bulaqlarını da nəzərə alsaq, regionda sağlamlıq turizminin inkişafı ölkəyə on milyonlarla manat vəsait qazandıra bilər (Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, 2021).

| • ilkin vahid normanın təyin edilməsi və sonrakı normaların təyinində daha spesifik məlumatlara müraciətin yetərli olması; | • işəgötürənlər, sahibkarlar tərəfindən əməyin dəyərinin aşağı ödənilməsinə imkan yaratması; |
| • işçilərin onlara tətbiq olunan minimum əmək haqqı norması haqqında məlumat əldə etməsinin asanlığı; | • iqtisadiyyatın və ölkə imkanlarının mürəkkəbliyinin nəzərə alınmaması; |
| • əmək bazarına, əmək münasibətlərinə nəzarətin asan olması. | • müxtəlif əhali qruplarının ehtiyaclarının nəzərə alınmaması. |

Diferensial minimum əmək haqqının üstün və çatışmayan cəhətlərinə dair nümunələr Cədvəl 3-də qeyd olunmuşdur.

**Cədvəl 3: Diferensial minimum əmək haqqının üstünlükləri və çatışmazlıqları**

| Üstünlükləri | Çatışmazlıqları |
|---|---|
| • Ödəmə qabiliyyəti yuxarı olan sektorlarda əmək haqqı normasının yüksək olması; | • Ölkənin ümumi iqtisadi vəziyyəti ilə yanaşı ayrı-ayrılıqda regionlar, sektorlar üzrə məlumat mübadiləsinə ehtiyac olması; |
| • ölkə iqtisadiyyatının strateji sahələrinin inkişafını sürətləndirmək məqsədilə nisbətən yuxarı minimum əmək haqqı səviyyəsinin tətbiq edilməsi; | • region və sektorun real vəziyyətinin daim nəzarətdə saxlanılmasına ehtiyacın olması; |

| | | | |
|---|---|---|---|
| • | sahələr və regionlar üzrə real vəziyyət haqqında məlumata daim çıxış imkanının olması; | • | digər sektor, regionlarda işçi qüvvəsinin daha yüksək əmək haqqına yönəlməsi nəticəsində işçi qüvvəsi çatışmazlığı; |
| • | bütün maraqlı tərəflərin (dövlət, QHT-lər, həmkarlar, işəgötürənlər və s.) mövqe bildirmə imkanının olması; | • | nəzarətin çətin olması. |

Cədvəl 3-dən də göründüyü kimi diferensial minimum əmək haqqının tətbiqi ayrı-ayrılıqda iqtisadi sahələrin, regionların inkişafına təkan vermə qabiliyyətində olsa da nəzarətin çətinliyi, işçi qüvvəsinin hərəkəti, digər iqtisadi fəaliyyət sahələrində motivasiyanın düşməsi kimi hallara da gətirib çıxarır.

**Minimum Əmək Haqqına Dair Beynəlxalq Təcrübə**

Beynəlxalq Əmək Təşkilatının (BƏT) Qlobal Əmək haqqı Hesabatına əsasən 2022-ci ilin ilk yarısında qlobal əmək haqqı səviyyəsində 0,9% azalma müşahidə olunmuşdur. Yuxarı inkişaf səviyyəsinə malik G20 ölkələrində real əmək haqqı səviyyəsi 2,2% azalmış, inkişaf etməkdə olan G20 ölkələrində isə 0,8% artım olmuşdur olmuşdur (BƏT, Global Wage Report 2022-2023, 2022).

Qlobal COVID-19 pandemiyasından öncə təxminən 327 milyon nəfər qəbul olunan minimum əmək haqqı səviyyəsində və ya ondan aşağı əmək haqqı almışdır. Bu göstəricinin 50%-ə yaxını qadınlardır (BƏT, Global Wage Report 2022-2023, 2022).

**Qrafik 1: Regionlar üzrə minimum əmək haqqının statusu (2020-ci il üzrə)**




**Mənbə:** https://ilostat.ilo.org/topics/wages/

Qrafik 1-dən də aydın olduğu üzrə ölkələrin təxminən 90%-i tərəfindən minimum əmək haqqı səviyyəsi tətbiq olunur. Bir sıra ölkələrdə minimum əmək haqqının tətbiqi dövlət səviyyəsində yox kollektiv müqavilələrlə tənzimlənir. Dövlət səviyyəsində minimum əmək haqqının tətbiqinin əməyin ödənilməsi ilə bağlı xərcləri, bunun nəticəsində biznes xərclərini və dolayı yolla da ölkədə inflyasiya səviyyəsini qaldıracağını, bunun nəticəsində də ixtisarlar hesabına işsiz əhalinin çoxalacağını əsas götürən bir sıra ölkələrdə bu səviyyənin tətbiqi məcburi xarakter daşımır. Minimum əmək haqqının tətbiqini təşviq edən ölkələrdə isə bu təcrübə istehlakın artmasına, əmək haqqı üzrə bərabərsizliyin azalmasına, işləyən əhalinin rifahının yaxşılaşmasına gətirib çıxardığını göstərir.

Ölkənin minimum əmək haqqı səviyyəsinin effektivliyinin ölçülməsində əsas metodlarından biri də minimum əmək haqqı ilə median əmək haqqının nisbətinin ölçülməsidir. Bu səbəbdən bir çox ölkədə əmək haqqı siyasəti təyin olunan zaman bu göstəriciyə müraciət olunur. Məsələn: İqtisadi İnkişaf və

Əməkdaşlıq Təşkilatına üzv ölkələr üzrə hər il minimum əmək haqqının orta və median əmək haqqına nisbətinə dair məlumatlar dərc olunur. Aşağıda Qrafik 2-də seçilmiş üzv ölkələrin bu statistik göstəriciləri verilmişdir:

**Qrafik 2: Minimum əmək haqqının median və orta əmək haqqına nisbəti *(faizlə)***




**Mənbə:** stats.oecd.org (07.04.2023)

İnkişaf etmiş ölkələrdə minimum əmək haqqı əsasən median əmək haqqının 35-60%-ni təşkil edir. İnkişaf etməkdə olan ölkələrdə isə bu nisbət daha yüksəkdir. Bu ölkədə gəlir bərabərsizliyinin yüksək həddə olduğunu vurğulayır. Çünki minimum əmək haqqının artırılması orta əmək haqqının artmasına təsir edir. Lakin median əmək haqqına təsir etməyə də bilər. Median əmək haqqına nisbətin götürülməsi əmək bazarının təhlili üçün daha aydın mənzərə ortaya qoyur. Belə ki, median əmək haqqı vasitəsilə ən aşağı və ən yüksək əmək haqları arasında fərq müşahidə oluna və buna müvafiq tədbirlər həyata keçirilə bilər. Median əmək haqqı ilə indeksləmə əmək haqlarında artım zamanı proporsional şəkildə artıma təşviq edir.

Daha öncə də qeyd etdiyimiz kimi diferensial minimum əmək haqqı əsasən ərazi baxımından böyük ölkələrdə (ABŞ, Braziliya, Kanada), strateji iqtisadi fəaliyyət sahəsinə malik ölkələrdə (Hindistan), bütün əhali qrupunun əmək bazarına inteqrasiyasını sürətləndirməyi hədəfləyən ölkələrdə (Kanada, Avstraliya) daha geniş tətbiq olunur. Diferensial minimum əmək haqqı vahid idarəedici orqan və ya region, iqtisadi sektorlar tərəfindən də təyin oluna bilər. Diferensial minimum əmək haqqının tətbiqindəki əsas üstünlüklərdən biri də məhz ölkənin müxtəlif regionları üzrə statistik məlumatlara ayrı-ayrılıqda çıxışın təmin edilməsidir. Bu yalnız əmək haqqı məsələsində yox ümumi iqtisadi vəziyyətin təhlilində çox böyük üstünlük təşkil edir.

Diferensial minimum əmək haqqına malik ölkələrə dair nümunələr aşağıda verilmişdir. Qeyd olunan təcrübələrin daha geniş analizi və gələcəkdə ölkəmizdə bənzər əmək haqqı siyasətlərinin tətbiqi həm ölkə əhalisinin rifah səviyyəsi, həm də iqtisadi inkişafın sürətlənməsində əhəmiyyətli rol oynaya bilər.

**ABŞ**

ABŞ-da minimum əmək haqqı tətbiqinin ilk dəfə həyata keçirilməsində əsas məqsəd qadın və uşaq işçilərin hüquqlarının qorunması olmuşdur. Amerika Əmək Qanunvericiliyi Assosiasiyası və Milli İstehlakçılar Liqası tərəfindən 1909-cu ildə qadınlar üçün minimum əmək haqqının tətbiqi təşviq edildi. İlkin olaraq norma ştat səviyyəsində və yalnız qadınlarla uşaqlara tətbiq olunacaq şəkildə qəbul olundu. 1938-ci ildə Franklin Ruzvelt hökuməti tərəfindən Ədalətli Əmək Standartları Aktı qəbul olundu və bununla da federal minimum əmək haqqının tətbiqinin əsası qoyuldu. 1941-ci ilə qədər bu aktın tətbiqi təxirə salınsa da Ali Məhkəmə tərəfindən təsdiqləndi və tətbiqi bugünədək davam etməkdədir.

Ölkə üzrə həm vahid, həm də diferensial minimum əmək haqqı sistemi tətbiq olunur. Federal səviyyədə vahid minimum əmək haqqının məbləği 2009-cu ildən bəri dəyişməz olaraq qalıb: 7.25 ABŞ dolları/saat. Federal minimum əmək haqqına dair məsələlər Ədalətli Əmək Standartları Qanunu (Fair Labor Standards Act) ilə tənzimlənir. Ştatlar üzrə minimum əmək haqqının səviyyəsinin təyin olunması isə təyin olunacaq minimum əmək haqqı səviyyəsinin federal səviyyədən aşağı olmaması şərti ilə ştatın öz öhdəliyinə verilmişdir (ABŞ Əmək Departamenti rəsmi veb saytı, Minimum Wage).

Ölkə üzrə nisbətən yuxarı iqtisadi inkişaf səviyyəsinə malik ştatlarda minimum əmək haqqı səviyyəsi daha yuxarıdır. Kasıb və zəif iqtisadi inkişaf səviyyəsinə malik ştatlarda isə minimum əmək haqqı səviyyəsi ya federal səviyyə ilə eynidir, ya da ona yaxın məbləğdədir. Kaliforniya ştatında minimum əmək haqqı səviyyəsi özü də fərqlilik göstərir. Belə ki, 26 və daha çox işçiyə malik qurumlarda minimum əmək haqqı 15 ABŞ dolları/saat olsa da, daha az işçiyə malik qurumlarda minimum əmək haqqı 14 ABŞ dolları/saatdır. Buna bənzər təcrübə Minnesota ştatında da mövcuddur. Belə ki, ştat üzrə minimum əmək haqqı 10.33 ABŞ dolları/saat olsa da bu böyük qurum/şirkətlər üçün keçərlidir. Az saylı işçiyə malik qurumlarda minimum əmək haqqı 8.42 ABŞ dolları/saatdır. Həmçinin 90 günlük təlim proqramı iştirakçıları və gənclər üçün də minimum əmək haqqı 8.42 ABŞ dolları/saat təşkil edir. Bir sıra ştatlarda rayonlar və şəhərlər üzrə də fərqli minimum əmək haqqı səviyyəsi tətbiq olunur. Bu zaman göstərici ştat səviyyəsindən aşağı ola bilməz (ABŞ Əmək Departamenti rəsmi veb saytı, State Minimum Wage Laws)

**Kanada**

Kanadada minimum əmək haqqının tətbiqinə 1918-ci ildən etibarən başlanılmışdır. İlk dəfə Kanadada da ABŞ-da olduğu kimi federal və əyalətlər üzrə minimum əmək haqqının tətbiqi həyata keçirilir. Ölkədə minimum əmək haqqı səviyyəsi Kanada Statistika qurumu tərəfindən elan olunan İstehlakçı qiymət indeksinə əsasən hər il 1 apreldə avtomatik tənzimlənir. Burada məqsəd real minimum əmək haqqı səviyyəsinin qorunub saxlanması və inflyasiya nəticəsində əhalinin rifah səviyyəsinin düşməsinin qarşısını almaqdır. Bu minimum əmək haqqı federal hökumət tərəfindən tənzimlənən iqtisadi fəaliyyət sahələrinə şamil olunur. Məsələn: poçt, bank, federal korporasiyalar və s.

Kanadada əyalətlər üzrə minimum əmək haqqının federal səviyyədən aşağı məbləğdə tətbiqi qadağan olunmamışdır. Federal qurumlar siyahısına daxil olmayan yerlərdə minimum əmək haqqı səviyyəsi regionun, şəhərin minimum əmək haqqı ilə tənzimlənir.

Kanada əyalətlərində minimum əmək haqqı səviyyəsi özlüyündə də diferensialdır. Məsələn: Britaniya Kolumbiyasında əyalət üzrə minimum əmək haqqı 15.65 Kanada dolları/saat təyin olunsa da evdə xidmət edən qulluqçular üçün günlük norma təyin olunur və bu 116.68 Kanada dolları təşkil

edir. Alberta əyalətində yarım gün və ya həftədə 28 saat və daha az işləyən 18 yaşından kiçik şagirdlər üçün minimum əmək haqqı 13 Kanada dolları/saatdır. Ümumi əyalət üzrə minimum əmək haqqı isə 15 Kanada dolları/saat təşkil edir. Ontario əyalətində də minimum əmək haqqı səviyyəsi İstehlakçı Qiyməti indeksinə əsaslanır. İndeks artdıqda məhsul və xidmətlərin qiyməti qalxdığından minimum əmək haqqı səviyyəsinə yenidən baxılır. Albertada olduğu kimi bu əyalətdə də şagirdlər və ev qulluqçuları üçün minimum əmək haqqı səviyyəsi müvafiq olaraq 14.10 Kanada dolları/saat və 16.50 Kanada dolları/saat təşkil edir (Kanada Dövlət rəsmi saytı, Federal minimum wage to rise to $15.55 per hour on April 1, 14.03.2022).

**Avstraliya**

Avstraliya minimum əmək haqqı sisteminin kompleksliyi ilə seçilən ölkələrdən biridir. Ölkədə milli minimum əmək haqqı səviyyəsi özlüyündə bir neçə kateqoriyaya ayrılır: yaş, işgörmə qabiliyyəti, işəgötürənin statusu və s. kimi faktorlar üzrə.

Minimum əmək haqqı səviyyəsinə hər il Ədalətli İş Komissiyasının mütəxəssisləri tərəfindən baxılır. İşəgötürənlərin rəyi, mütəxəssislər panelinin araşdırma və müzakirəsi əsasında təyin olunan yeni minimum əmək haqqı səviyyəsi 1 iyul tarixindən qüvvəyə minir. Qərar və qərarın alınması zamanı nəzərdən keçirilən sənəd və təkliflər ictimaiyyət üçün dərc olunur. Minimum əmək haqqı səviyyəsi nəzərdən keçirilən zaman diqqətə alınan əsas faktorlardan biri məhz inflyasiya səviyyəsidir. Məsələn, 2022-ci ildə ölkə üzrə inflyasiya səviyyəsi 5.1% olmuşdur və minimum əmək haqqı da müvafiq olaraq 5.2% həcmində artırılmışdır.

Minimum əmək haqqı səviyyəsi 3 kateqoriya üzrə ayrılır:

1. Yetkinlik yaşına çatmış işləyən əhali üçün;
2. Təcrübəçi, köməkçi işlərdə işləyən, təlimlərə cəlb olunan və əlilliyi olan şəxslər üçün;
3. Daimi iş yeri olmayanlar üçün.

1 iyul 2022-ci il tarixindən etibarən minimum əmək haqqı səviyyəsi ölkə üzrə vergilər daxil olmamaqla 21.38 Avstraliya dolları/saat və ya 812.44 Avstraliya dolları/həftə təyin edilmişdir. Daimi iş yeri olmayanlar (frilans, layihə üzrə işçi və s.) üçün isə bu səviyyə 26.73 Avstraliya dolları/saat təyin olunmuşdur. Əlilliyi olan və digər təcrübəsiz və ya aşağı bacarıq tələb edən işlərə görə ödənə biləcək ən aşağı məbləğ 95 Avstraliya dolları/həftədir. Əlilliyi olan şəxslərə ödənilən minimum əmək haqqı səviyyəsi onların işgörmə qabiliyyəti əsasında təyin olunur. Bunun üçün şəxs Sosial Xidmətlər Departamentinə müraciət edir və onun əlillik dərəcəsi müəyyən olunur. Əgər şəxsin 70% iş görəbilmə qabiliyyəti varsa bu zaman ona iş üzrə təyin olunan əmək haqqının 70%-i həcmində əmək haqqı təyin olunur.

20 yaşından aşağı işləyənlər üçün minimum əmək haqqı səviyyəsi yaşa uyğun təyin olunan nisbətlə ödənilir. Məsələn, 17 yaşında işləyən biri yetkinlik yaşına çatmış və tam ştatla işləyən birinin aldığı əmək haqqının 60%-i həcmində əmək haqqı qazanır, 18 yaşında bu göstərici 70%, 20 yaşında əgər əmək müqaviləsinin müddəti 6 ay və daha az olarsa 90% olur. 20 yaşında və 6 aydan çox əmək müqaviləsi bağlanan işləyənə artıq dövlət tərəfindən təyin olunan minimum əmək haqqı məbləği tam ödənilməlidir (Avstraliya Hökuməti Ədalətli Əmək Ombudsman rəsmi veb saytı, Minimum wages).

## Azərbaycanda Minimum Əmək Haqqı

Azərbaycanda minimum əmək haqqının tətbiqi müstəqilliyin ilk ilindən etibarən həyata keçirilir. Minimum əmək haqqı səviyyəsi aylıq olaraq müəyyən edilir. Minimum əmək haqqı səviyyəsinə yenidən baxılması üçün son illərədək vahid zaman intervalı olmamışdır. Lakin 2015-ci ildə ölkəmizdə baş verən devalvasiyadan sonra minimum əmək haqqı səviyyəsinə ölkə iqtisadiyyatının inkişafına əsasən hər il yenidən baxılır. Aşağıdakı qrafikdə 1995-ci ildən etibarən minimum əmək haqqı səviyyəsi göstərilmişdir:

**Qrafik 5: Minimum aylıq əmək haqqı illər üzrə (AZN/ay)**




**Mənbə**: Dövlət Statistika Komitəsi (07.04.2023)

Son 5 il ərzində minimum əmək haqqı 2 dəfədən çox artmışdır. Minimum əmək haqqı səviyyəsinə son dəfə 2023-cü ildə baxılmış, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 2023-cü il tarixli 3708 nömrəli Sərəncamı ilə minimum aylıq əməkhaqqının məbləği 2023-ci il yanvarın 1-dən 345 manat müəyyən edilmiş, əvvəlki səviyyə (300 AZN) ilə müqayisədə 15% artırılmışdır ("Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 yanvar 2023). Bu sərəncam minimum əməkhaqqı və vahid tarif cədvəli (VTC) ilə işləyən 700 min nəfəri əhatə etmişdir (ƏƏSMN, "Minimum əməkhaqqı 345 manata çatdırıldı, Vahid Tarif Cədvəli üzrə əməkhaqları artırıldı", 05.01.2023).

Daha öncə də qeyd etdiyimiz kimi, beynəlxalq səviyyədə minimum əmək haqqının effektivliyinin ölçülməsində istifadə olunan əsas üsullardan biri minimum əmək haqqının ölkə üzrə median əmək haqqına nisbətinin hesablanmasıdır. Ölkəmizdə median əmək haqqı ilk dəfə 2021-ci ildə açıqlanmışdır. 2020-ci il üzrə median əmək haqqının məbləği 343 AZN təşkil etsə də 2022-ci il iyun ayında bu göstərici 410 AZN-ə qalxmışdır. Minimum əmək haqqı median əmək haqqının 73%-ni təşkil edir. Bu isə ölkədə əmək haqqı üzrə gəlir bərabərsizliyinin yüksək olduğunun göstəricisidir.

Ölkəmizdə minimum əmək haqqı səviyyəsi təyin olunan zaman əsas istinad olunan göstəricilərdən biri də məhz yaşayış minimumudur. "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının

Qanununun 5-ci Maddəsi 5.1 yarımbəndində qeyd olunur ki, ölkə üzrə təsdiq edilmiş yaşayış minimumu əməkhaqqının minimum məbləğinin, müavinətlərin, təqaüdlərin, digər ödənişlərin və ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə ehtiyac meyarının müəyyən edilməsinin əsasını təşkil edir". Ehtiyac meyarının həddinin məbləğinin yaşayış minimumuna nisbəti hər il müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Minimum əmək haqqı təyin olunan zaman yaşayış minimumu məbləğinə də istinad olunur. Azərbaycan Respublikası "Yaşayış minimumu haqqında" Qanunun 1-ci maddəsinə əsasən minimum istehlak səbəti insanın sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilmiş toplusudur.

"Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibinin təsdiq edilməsi haqqında" AR NK-nin 23 iyun 2005-ci il tarixli 118 nömrəli qərarı və "Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 23 iyun tarixli 118 nömrəli qərarında dəyişiklik edilməsi haqqında" AR NK-nin 6 iyun 2014-cü il tarixli 182 nömrəli qərarına əsasən minimum istehlak səbətinin tərkibi müəyyən edilən zaman bir nəfərin ərzaq, qeyri-ərzaq mallarının (ayaqqabı, dəftərxana, geyim və s.), xidmətlərin (mənzil-kommunal, nəqliyyat, rabitə, təhsil və s.) minimum toplusu nəzərə alınır. Adambaşına düşən gəlirləri yaşayış minimumunun dəyərindən aşağı səviyyədə olan əhalinin xüsusi çəkisi yoxsulluq göstəricisidir və bu əhali yoxsul əhali hesab edilir. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına əsasən 2021-ci ildə qiymətlərin səviyyəsi 2020-ci illə müqayisədə 6,7% artmışdır. Ərzaq məhsulları, içki və tütün məmulatlarında bu göstərici 8.1% olmuşdur. 2022-ci ilin yanvar ayında 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə qiymətlərin səviyyəsi 12.5% artmışdır. Qida məhsullarında bu artım 16.2% olaraq müşahidə olunmuşdur. Minimum əmək haqqı səviyyəsi isə baza ilinə nisbətdə 20% artmışdır. Yaşayış minimumu isə 196 AZN-dən 210 AZN-ə qaldırılmışdır, yəni 7.1% artmışdır. Göstərici olaraq nəzər yetirdikdə həm yaşayış minimumundakı, həm də minimum əmək haqqı məbləğindəki artım ərzaq məhsulu və tütün məmulatları və ölkə üzrə inflyasiyanı ötmüşdür. Qrafik 12-də illər üzrə ölkəmizdə yaşayış minimumu, minimum əmək haqqı səviyyəsi və DSK məlumatları əsasında hesablanan istehlak xərclərinə dair məlumatlar göstərilmişdir.

**Qrafik 6: İstehlak xərclərinin yaşayış minimumu və minimum əməkhaqqı ilə müqayisəsi**




**Mənbə**: Dövlət Statistika Komitəsi məlumatları əsasında hazırlanmışdır

Qrafik 6-dən də aydın olur ki, illər üzrə istehlak xərci hər iki digər göstəricini ötmüşdür. Lakin son illərdə tətbiq olunan minimum əmək haqqı nisbətən istehlak xərclərinə yaxınlaşmaqdadır. 2022-ci il

üzrə istehlak xərcləri Statistika Komitəsi tərəfindən açıqlanmadığından istinad etmək mümkün olmamışdır.

DSK-nın 2021-ci il üzrə ev təsərrüfatlarının istehlak xərclərinə dair məlumatına nəzər yetirsək bu zaman bir nəfərdən ibarət ev təsərrüfatının istehlak xərcinin 542.2 AZN olduğunu görürük. Bu məbləğin 180.3 AZN-i ərzaq məhsullarına ayrılır, yəni 33.2%-i. Aşağıda qrafikdə nümunə verilmişdir:

**Qrafik 7: 2021-ci ildə ev təsərrüfatlarının ölçüsünə görə ərzaq məhsullarının payı (faizlə)**




**Mənbə**: Dövlət Statistika Komitəsi

Ev təsərrüfatının tərkibi artdıqca adambaşına düşən istehlak məbləği azalsa da burada ərzaq məhsullarının payı artım göstərir.

Bildiyiniz kimi, əhali gəlirlərinə görə 5 kvintilə (20%-lik qrup) ayrılır. Birinci kvintilə ən az gəlirləri olanlar, beşinci kvintilə isə ən çox gəlirləri olan ev təsərrüfatları düşür. Qrafik 14-dən də aydın olur ki, ən yoxsul təbəqənin gəlirlərinin yarıdan çoxu (56.5%-i) ərzaq məhsullarına gedir. Əhali gəlirlərinin 50%-i və daha çoxu ərzaq məhsullarına yönəlirsə bu zaman bu əhali qrupu yoxsul sayılır. Buna əsasən asanlıqla demək olar ki, 2-ci kvintilə düşən əhali qrupu isə yoxsulluq həddində yaşayır. Nəzərə almaq lazımdır ki, minimum əmək haqqı məbləği ilə çalışanlar əsasən aşağı gəlirli əhali qrupuna daxildir. Yəni təyin olunan səviyyə ilkin olaraq onların rifah səviyyəsində öz əksini tapır.

**Qrafik 8: 2021-ci ildə istehlak xərclərində kvintilləri üzrə ərzaq məhsullarının payı (faizlə)**




**Mənbə**: Dövlət Statistika Komitəsi

Ərzaq, içki və tütün məhsulları üzrə istehlakçı qiymət indeksinə baxdıqda 2023-cü ilin yanvar-fevral aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətdə 17,3% artım müşahidə olunur. Sırf qida məhsulları üzrə iyul ayındakı göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətdə 17,9% artmışdır. Yəni ərzaq məhsullarındakı qiymət artımı minimum əmək haqqı məbləğindəki artımı ötmüşdür. Bu da əhalinin real gəlirlərinin artmadığını göstərir. (Dövlət Statistika Komitəsi)

Ev təsərrüfatı və əhali qrupları üzrə müşahidə apardıqda ərzaq qiymətlərinin əhalinin xərclərinə daha yüksək təsir etdiyini müşahidə edirik. Bu səbəbdən yaşayış minimumu və minimum əmək haqqı səviyyəsi müəyyənləşdirilən zaman ümumi inflyasiya səviyyəsi ilə yanaşı ərzaq məhsulları üzrə qiymət səviyyəsinin ön plana çəkilməsi labüddür.

**Nəticə və təkliflər**

Yuxarıda da qeyd etdiyimiz kimi minimum əmək haqqı səviyyəsinə baxılan zaman yaşayış minimumu istinad olunan əsas meyarlardan biridir. Yaşayış minimumu istehlak səbəti əsasında hesablanır.

İstehlak səbəti üzrə normalara sonuncu dəfə 2014-cü ildə baxılmışdır və son bir neçə il üzrə istehlak miqdarına baxdıqda real istehlak miqdarının təyin olunan normaları ötdüyünü görürük (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı). Bu səbəbdən növbəti minimum əmək haqqı səviyyəsinin müəyyən edilməsi zamanı istehlak normasına yenidən baxılmadığı təqdirdə yaşayış minimumu və adambaşına istehlak göstəricilərinin hər ikisinə istinad olunması təyin olunacaq məbləğin reallığı daha çox əks etməsinə imkan yaradacaqdır.

Qiymətlərdə dəyişiklik ölkədə iqtisadi və sosial sahələrə birbaşa təsir göstərir. Bu səbəbdən, qiymətlərdə dəyişikliklərin təhlili, həm istehlakçı, həm də istehsalçılara təsirinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Minimum əmək haqqı məbləği təyin olunan zaman ümumi istehlak səbəti üzrə yox əsas istehlak məhsulları və xidmətlər üzrə qiymət dəyişiminin nəzərə alınması daha məqsədəuyğun olardı. Çünki yuxarıda da qeyd etdiyimiz kimi, aşağı gəlirə malik əhali qrupunda gəlirlərin 50%-i və daha artığı məhz ərzaq, qida məhsullarına yönəlir. Bu məhsullardakı istehlak qiyməti indeksi isə ölkə üzrə ümumi qiymət səviyyəsindən yuxarıdır. Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında işləyən vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın inkişaf tempindən asılı olaraq minimum əməkhaqqı məbləğinin tədricən minimum

yaşayış standartlarına və Avropa ölkələrində müəyyən edilmiş normativ - orta aylıq əməkhaqqının 60%-i məbləğinə çatdırılması istiqamətində tədbirlər görüləcəyi qeyd olunur. DSK-nın məlumatına əsasən 2022-ci ilin iyul ayında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 856.2 AZN təşkil etmişdir. Eyni dövr üçün minimum əməkhaqqı məbləği 345 AZN təşkil etmişdir. Yəni minimum əməkhaqqı məbləği orta aylıq nominal əməkhaqqının 40,2%-ni təşkil etmişdir (DSK)

Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibinə daxil olan ərzaq məhsulları, qeyri-ərzaq malları və xidmətlər üzrə illik norma ən son Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı ilə təsdiq edilmişdir. Nəzərə alsaq ki, minimum əmək haqqı hesablanan zaman əsas diqqət edilən göstəricilərdən biri məhz yaşayış minimumudur və yaşayış minimumu istehlak səbətinin göstərici və normaları əsasında təyin olunur, 2014-cü ilin normalarına yenidən baxılması təyin olunacaq yeni əməkhaqqı məbləğinin əhalinin rifahına təsiri baxımından yüksək əhəmiyyətə malikdir.

Əmək Məcəlləsinin 155-ci maddəsinin 4-cü bəndində kollektiv müqavilə və sazişlərdə minimum əmək haqqının məbləğinin ölkə üzrə səviyyədən daha yüksək təyin olunmasına dair işəgötürənlərə səlahiyyət verilsə də praktikada bu təcrübədən ölkəmizdə istifadə olunmur. Avstraliya, Hindistan, Rusiya Federasiyası, Braziliya, İrlandiya və s. kimi ölkələrdə minimum əmək haqqının məbləği iqtisadi fəaliyyət sahələri üzrə diferensial olaraq və xüsusilə iqtisadiyyatın prioritet sahələrində bu göstərici ölkə üzrə minimum əmək haqqı məbləğindən yüksək təyin olunur. İşəgötürənlərin maliyyə imkanları nəzərə alınmaqla bu təcrübəyə müraciət edilməsinin təşviqi gələcəkdə müvafiq sahələrin inkişafını sürətləndirməyə imkan yarada bilər. Gələcəkdə bu təcrübənin ölkə səviyyəsində tətbiqinin effektivliyi də sınaqdan keçirilmiş olar.

Ölkəmizdə dövlət inkişaf proqramlarında xüsusi diqqət ayrılan perspektivli sahələrdə bu praktikanın tətbiqi bu sahəyə işçi qüvvəsinin axınına, dolayısıyla bu sahədə ixtisaslı işçi qüvvəsinin yaranmasına imkan yarada bilər. Bu isə gələcəkdə bu sahədə əmək məhsuldarlığının və ÜDM-də neft-qaz sektorundan asılılığın azalmasına imkan yarada bilər. Həmçinin ölkənin seçilən sahə üzrə qlobal səviyyədə tanınmasına təkan verə bilər.

Lakin diferensial minimum əmək haqqı tətbiqi zamanı sui-istifadə, ayrı-seçkiliyə yol verilməsi hallarının qarşısını almaq üçün güclü nəzarət mexanizminin tətbiqi mütləqdir.

Ölkə üzrə minimum əmək haqqının səviyyəsi təyin edilərkən əsas nəzərə alınan amillərdən biri də məhz dövlət büdcəsinə təsiridir. Minimum aylıq əmək haqqının miqdarının artırılması dövlət büdcəsindən maliyyələşən təşkilatlarda işləyən və minimum aylıq əmək haqqı alan işçilərin əmək haqları ilə yanaşı, bu sahədə çalışan və əmək haqları minimum aylıq əmək haqqına nisbətdə hesablanan digər işçi kateqoriyalarının da əmək haqlarının və bununla bağlı digər xərclərin artımına və deməli, bu təsnifata görə dövlət büdcəsi xərclərinin artmasına da səbəb olur.

Lakin qeyri-dövlət qurumlarına mənfi və müsbət təsirin birbaşa ölçülməsi daha qəlizdir. Bu səbəbdən işəgötürənlər arasında əmək haqqının real vəziyyətinin öyrənilməsi məqsədilə sorğuların keçirilməsi məqsədəuyğun olardı. İşəgötürənlər arasında ödəmək iqtidarında olduqları minimum və maksimum əmək haqqı məbləği, əmək haqqı səviyyəsini təyin edən zaman nəzərə alınan əsas faktorlar, növbəti il ərzində əmək haqqı üzrə hədəflərinə dair sorğunun aparılması yeni təyin olunacaq məbləğin özəl sektora təsirinin daha real ölçülməsinə imkan yarada bilər.

Son dövrlərdə ölkəmizin əmək bazarında tələbələrə təcrübə proqramları təklif olunması praktikası geniş yayılmışdır. Bu ixtisaslı işçi qüvvəsinin yetişdirilməsi və gənclərin öz sahələrini tanıması üçün müsbət rola malikdir. Lakin təhlil zamanı aydın olur ki, bu təcrübə proqramlarının əksəriyyəti ödənişsiz əsaslarla təklif olunur. Və bir çox halda işəgötürənlər bu haldan sui-istifadə edirlər. Belə ki, tələbə və ya yeni məzunu bir neçə ay daimi iş imkanı vədi ilə əməyin ödənişi həyata keçirilmədən çalışdırıb müddət başa çatdıqdan sonra işlə təmin etmirlər. Bunun əvəzində yeni təcrübəçi götürərək əmək haqqı xərclərinə qənaət edirlər. Bu da öz növbəsində bir neçə aylıq tətil müddətini işləməklə keçirən tələbənin və ona qəyyumluq edən şəxsin bu zaman əlavə xərclərinin (nəqliyyat, geyim, qida) yaranmasına səbəb olur.

Bir sıra qabaqcıl ölkələrdə bu halın qarşısının alınması məqsədilə təcrübəçilər üçün xüsusi minimum əmək haqqı səviyyəsi tətbiq olunur. Yuxarıda bu təcrübəyə misal olaraq Kanada, Avstraliya, ABŞ-ı göstərdik. Tələbə və yeni məzunlara tətbiq olunan xüsusi minimum əmək haqqı normasının müəyyən edilməsi həm gələcəkdə əmək bazarına ixtisaslı işçilərin hazırlanmasına, həm də tələbə və qəyyumunun maddi rifahının yaxşılaşmasına kömək edəcəkdir. Çünki bu zaman işəgötürən işçiyə aybaay xərc çəkdiyi üçün və artıq qurumun təcrübəsi ilə tanış olduğu üçün təcrübə müddətinin sonunda uğurlu nəticə göstərən təcrübəçini işlə təmin etməyə maraqlı olacaqdır. Bu həm də işəgötürənin yeni işçi axtarışı üzrə xərc və zaman itkisinin azalmasına imkan yarada biləcək.

**Ədəbiyyat siyahısı**


"Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 yanvar 2023

ABŞ Əmək Departamenti, Minimum Wage

ABŞ Əmək Departamenti, State Minimum Wage Laws

Avstraliya Hökuməti Ədalətli Əmək Ombudsman, Minimum wages

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 nömrəli qərarı

Beynəlxalq Əmək Təşkilatı, Global Wage Report 2020-2021, 2020, səh. 113

Beynəlxalq Əmək Təşkilatı, Global Wage Report 2022-2023, 2022, səh. 11

Beynəlxalq Əmək Təşkilatı, Global Wage Report 2022-2023, 2022, səh. 15

Beynəlxalq Əmək Təşkilatı, Minimum Wage Policy Guide

Dövlət Statistika Komitəsi, İqtisadiyyatda işləyənlərin sayı və əməkhaqqı barədə, 14.03.2023

Dövlət Statistika Komitəsi, İstehlak bazarında qiymətlərin dəyişməsi haqqında, 14.03.2023

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Minimum əməkhaqqı 345 manata çatdırıldı, Vahid Tarif Cədvəli üzrə əməkhaqları artırıldı, 05.01.2023

Kanada Dövlət rəsmi saytı, Federal minimum wage to rise to $15.55 per hour on April 1, 14.03.2022

# Ali və Orta İxtisas Təhsili Müəssisələrində Akademik Heyətin Tədris Fəaliyyətinin Təhsilalanlar Tərəfindən Qiymətləndirilməsinə Dair Araşdırma

**i.f.d. Xəqani Bəşirov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**khagani.bashirov@unec.edu.az**

**Kamal Mirzəyev**

**Doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti**

**kmirzeyev@hotmail.com**

## Xülasə

Bu araşdırmada ali və orta ixtisas təhsili müəssisələrində çalışan akademik heyətin tədris fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirilməsi öz əksini tapmışdır. Məqsəd, akademik heyətin əmək fəaliyyətinin (performansının) qiymətləndirilməsi prosesinə həmin heyətin tədris apardığı qruplarda təhsil alan şəxslərin də cəlb edilməsidir. Araşdırmada emprik metod olaraq anket üsulundan istfadə edilmiş və suallar sürətli cavablana bilən likertli seçimlərdən istifadə olunmuşdur. Araşdırma modeli o tədris prosesinin keyfiyyətinə təsir göstərən faktorlardan asılı olaraq təhsilalanların fikir və düşüncələrinə görə tədris fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilmişdir. Araşdırmada akademik heyətin tədris fəaliyyətinin təhsilalanlarla əlaqəsi olan bütün tərəfləri nəzərə alınmışdır. Araşdırmanın əsas kütləsini hal-hazırda təhsil sektorunda fəaliyyət göstərən və mülkiyyət formasından asılı olmayaraq bütün ali və orta ixtisas təhsili müəssisələri təşkil edir. Araşdırmada əsasən nəticələrin daha detallı analizi üçün frekans analizi, faktor analizi, cronbach's alpha dəyəri, parametrik testler, korrelasiya testləri , dağlımın təyin olunması üçün normallıq testləri kimi təhlil metodlarından istifadə edilmişdir. Araşdırma nəticəsində toplanan məlumatlar kodlaşdırılaraq sosial elmlər üçün nəzərdə tutulmuş proqram təminatına daxil edilmişdir. Araşdırmanın bütün nəticələri $p < 1$ və $p < 0,05$ əhəmiyyətlilik dərəcəsində və ikitərəfli yoxlanılmış və bu nəticələr əsasında araşdırmanən məqsədi üzərindən təklif və tövsiyələr təqdim olunmuşdur.

**Açar sözlər:** ali və orta ixtisas təhsili müəssisələri, akademik heyət, tədris fəaliyyəti, qiymətləndirmə.

## Giriş

Ali və orta ixtisas təhsili müəssisələri peşə-ixtisas təhsilini həyata keçirən təhsil müəssisələri kateqoriyasına daxildir. Bu kateqoriyaya daxil olan təhsil müəssisələrində həyata keçirilən fəaliyyətin əsas hissəsini tədris prosesi təşkil edir və bu prosesinin həyata keçirilməsində akademik heyət müstəsna rol oynayır. Ali və orta ixtisas təhsili müəssisələrində tədris sahəsində qarşıya qoyulan məqsəd və hədəflərə nail olunması akademik heyətin tədris fəaliyyətinin nəticələrindən asılıdır. Bu baxımdan akademik heyətin əmək fəaliyyətinin (performansının) qiymətləndirilməsi zamanı onların tədris fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirilməsi də xüsusi əhəmiyyət daşıyır, çünki tədris fəaliyyəti bilavasitə təhsilalanlara ünvanlanır. Buna görə də akademik heyətin tədris fəaliyyətinin qiymətləndirilməsinin təhsilalanlar tərəfindən həyata keçirilməsi daha doğru bir yanaşmadır. Bu qiymətləndirmənin aparılmasında korkoranə deyil, elmi şəkildə hazırlanmış, uyğunluq və etibarlılıq analizləri vasitəsilə təsdiq edilmiş anketlərin tətbiqi akademik heyətin qiymətləndirilməsinin düzgün həyata keçirilməsinə şərait yaradacaqdır. Bu baxımdan hazırlanan anket akademik heyətin tədris fəaliyyətinin elmi şəkildə qiymətləndirilməsini təmin etmək məqsədilə hazırlanmışdır.

**Araşdırmanın Məqsədi və Əhəmiyyəti**

Araşdırmanın əsas məqsədi a) ali və orta ixtisas təhsili müəssisələrində tədrisin keyfiyyətini yüksəltmək üçün professor-müəllim heyətinin tədris fəaliyyəti barədə təhsilalanların fikir və düşüncələrini tam şəkildə öyrənmək; b) əldə olunan nəticələrdən professor-müəllim heyətinin əmək fəaliyyətinin qiymətləndirilməsində istifadə etmək; c) mükəmməl bir elmi anket hazırlamaqla bunu Respublikamızda fəaliyyət göstərən bütün ali və orta ixtisas təhsili müəssisələrinin istifadəsinə təqdim etməkdən ibarətdir.

Akademik heyətin əmək fəaliyyəti elmi və pedaqoji hissələrdən ibarət olduğuna görə bu sahədə işləyən işçilərin performansının ölçülməsi və qiymətləndirilməsi zamanı onların fəaliyyətinin həm elmi, həm də pedaqoji tərəflərinin qiymətləndirməyə cəlb edilməsi zəruridir. Tədris fəaliyyəti birbaşa təhsilalanlara istiqamətləndiyi üçün akademik heyətin pedaqoji fəaliyyətindən ən çox təsirlənən qrup da onlar hesab edilir. Belə olduğuna görə akademik heyətin tədris fəaliyyətinin qiymətləndirilməsində əsas tərəf kimi təhsilalanların iştirak etməsi zəruri hal alır. Hazırda təhsilalanların hüquq və azadlıqlarının getdikcə daha böyük əhəmiyyət kəsb etməsi, eyni zamanda təhsil müəssisələrinin getdikcə publik hüquqi şəxs statusu alması onların təhsilalanları müştəri kimi qəbul edib məmnun olmaları üçün müxtəlif istiqamətlərdə tədbirlər görməyə vadar edir. Bəhs edilən tədbirlərin görülməsi üçün müəyyənedici faktor kimi akademik heyətin tədris fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirilməsi nəticələri çıxış edir. Bu baxımdan akademik heyətin tədris fəaliyyətinin təhsilalanlar tərəfindən qiymətləndirilməsinə dair aparılan bu araşdırma praktiki baxımdan böyük əhəmiyyət daşıyır. Təhsil müəssisələri hər semestrin sonunda bu qiymətləndirməni aparmaqla akademik heyətin tədris fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə, təhsilalanların məmnuniyyətinin yüksəldilməsinə, bunun nəticəsi olaraq da qəbul plan yerlərinin maksimum dərəcədə doldurulmasına, müştəri sədaqətinin yüksəldilməsinə, təhsil müəssisəsinin cəmiyyətdə nüfuzunun artırılmasına nail ola bilərlər  (“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, 2009)

**Araşdırmanın Hipotezləri**

Araşdırmanın ana hipotezi aşağıdakı kimi müəyyən edilmişdir:

**Ana hipotez:** Akademik heyətin tədris fəaliyyətinin keyfiyyəti ona təsir göstərən faktorlardan asılı olaraq fərqlilik göstərir.

Araşdırmanın törəmə hipotezləri isə aşağıdakı kimi müəyyən edilmişdir:

**$H_1$:** Fənn üzrə hazırlanan tədris proqramı tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**$H_2$:** Tədris prosesində akademik heyət tərəfindən istifadə edilən tədris vəsaitləri və ləvazimatları tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**$H_3$:** Akademik heyətin pedaqoji ustalığı tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**$H_4$:** Professor-müəllim heyətinin akademik göstəriciləri (elmi dərəcəsi, elmi adı və vəzifəsi) tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**$H_5$:** Akademik heyətin yaşı tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**$H_6$:** Akademik heyətin cinsiyyəti tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərir.

**Araşdırmanın Əhatə Dairəsi və Ehtimalları**

Araşdırmanın Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən və mülkiyyət formasından asılı olmayaraq bütün ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan təhsilalanlar arasında aparılması qərara alınmışdır. Araşdırma qrupuna ali və orta ixtisas təhsilinin bütün pillələrində təhsil alan təhsilalanlar daxil edilmişdir. Tədqiqatın pilot mərhələsində araşdırma qrupunda 73 nəfər təhsilalan iştirak etmişdir. Cavablandırılan anketlərin hamısı yararlı olmuşdur.

Bu araşdırma akademik heyətin tədris fəaliyyətinin keyfiyyətinə təsir göstərən faktorları ehtimal edərək aparılmışdır.

**Araşdırmandakı Məhdudiyyətlər**

Araşdırma xidmət sektoruna aid olub təhsil sektorunda aparılmışdır. Araşdırma vaxt və maddi imkanlar nəzərə alınaraq ali və orta ixtisas təhsili müəssisələri ilə məhdudlaşdırılmışdır.

Araşdırmanın ana kütləsini Azərbaycan Respublikasının sərhədləri daxilində fəaliyyət göstərən və mülkiyyət formasından asılı olmayaraq bütün ali və orta ixtisas təhsili müəssisələri təşkil edir. Lakin anketin praktiki baxımdan tətbiqində istər vaxt, istər resurs, istərsə də respondentlərlə əlaqə saxlamağın çətinliyinə görə sorğu bu sektorda fəaliyyət göstərən 3 (üç) universitetin təhsilalanları arasında reallaşdırılmışdır.

Toplanan məlumatlar və aparılan təhlillər sadəcə araşdırmanın aparıldığı vaxtı və bu 3 universiteti təmsil edir. Bunun bütün ali və orta ixtisas təhsili müəssisələrini təmsil etdiyi qəbul edilir.

Eyni zamanda araşdırma təhsil sektorunda fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri ilə mədudlaşır.

**Araşdırma Modeli və Dəyişənləri**

Problemə baxış tərzinə görə araşdırma tətbiqi araşdırma hesab edilir. Araşdırmanın məqsədinə görə dərləmə modelindən istifadə edilmişdir. Bu araşdırma modeli vasitəsilə tədris prosesinin keyfiyyətinə təsir göstərən faktorlardan asılı olaraq təhsilalanların fikir və düşüncələrinə görə tədris fəaliyyətinin qiymətləndirilməsi həyata keçirilmişdir.

Tərtib edilən araşdırma modeli aşağıda qeyd edilmişdir. Burada akademik heyətin tədris fəaliyyəti sərbəst dəyişən, ona təsir göstərən faktorlar isə asılı dəyişənlər kimi qəbul edilmişdir.




**Araşdırmanın Obyekti və Predmeti**

Araşdırmanın tədqiqat obyektini mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün ali və orta ixtisas təhsili müəssisələri təşkil edir. Bunlardan 51-i ali təhsil müəssisəsi (o cümlədən Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisələri 20 (

(http://edu.gov.az/az/page/339/613, 31.03.2018), digər nazirlik və komitələrin tabeliyində olan ali təhsil müəssisələri 12 (http://edu.gov.az/az/page/339/13465 , 31.03.2018), özəl ali təhsil müəssisələri 12 (http://edu.gov.az/az/page/339/13466 , 31.03.2018), xüsusi təyinatlı ali təhsil müəssisələri 7 (http://edu.gov.az/az/page/339/13467 , 31.03.2018)), 51-i isə orta ixtisas təhsili müəssisələridir (http://edu.gov.az/upload/file/Ali-ve-orta-ixtisas/orta-ixtisas-tm-siyahi.pdf, 31.03.2018)

Araşdırma nəticəsində əldə edilən məlumatlar ümumiləşdiriləcəyi təhsil müəssisələri və təhsilalanlar baxımından iki yerə ayrılır. Bunlardan təhsil müəssisələri baxımından biri orta ixtisas təhsili müəssisələri, digəri isə ali təhsil müəssisələridir. Təhsilalanlar baxımından isə hər iki kateqoriya daxil olan təhsil müəssisələrində orta ixtisas, bakalavr və ali təhsildən sonrakı təhsili alan təhsilalanlardır.

Araşdırmanın predmetini isə Azərbaycanın təhsil sektorunda fəaliyyət göstərən 102 ali və orta ixtisas təhsili müəssisəsindən təsadüfi seçmə üsulu ilə seçilmiş 3 təhsil müəssisəsində təhsil alan 74 təhsilalan təşkil edir. Araşdırma anketinin hamısı anonim şəkildə elektron formada doldurulmuşdur.

**Məlumatlar, Onların Ölçülməsi və Toplanması**

Araşdırmada istifadə olunan məlumatlar subyektiv rəylərə əsaslanan məlumatlardır. Bu məlumatlar anketi cavablandıran təhsilalanların mövzu ilə bağlı subyektiv fikirlərini əks etdirir.

Pilot mərhələdə məlumatların mənbəyini 3 (üç) təhsil müəssisəsində müxtəlif təhsil proqramları üzrə təhsil alan 74 təhsilalan təşkil edir. Məlumat mənbəyi kimi bu şəxslərin seçilməsinin əsas məqsədi bütün təhsil proqramlarında təhsil alan təhsilalanların anketin cavablandırılmasında iştirakının təmin edilməsi olmuşdur.

Araşdırma zamanı istifadə olunan bütün məlumatlar dolayı mühakimə metodu vasitəsilə ilk mənbədən əldə edilmişdir. Məlumatların toplanması üçün beş şkalalı likərt anket sorğusundan istifadə edilmişdir. Anket sorğusu hazırlanarkən sualların həm asan və sürətli şəkildə cavablandırılmasına, həm də dolayı ölçmə metodu istifadə edildiyinə görə real təhlil zamanı doğru nəticələr əldə etmək üçün dəyişənləri müəyyənləşdirərkən lazımi səy göstərilmişdir.

Tədqiqat anketi 5 (beş) hissədən ibarətdir. Birinci hissədə tədris fəaliyyəti qiymətləndirilən müəllim haqqındakı məlumatları əks etdirən suallara yer verilmişdir. Buraya tədris fəaliyyəti qiymətləndirilən müəllimin adı, soyadı, atasının adı, işlədiyi təhsil müəssisənin adı, müəllimin elmi dərəcəsi, elmi adı, təhsil müəssisəsində tutduğu vəzifə, müəllimin yaşı, cinsiyyəti, tədris etdiyi fənnlər, qiymətləndirmənin aparıldığı tədris ili və qiymətləndirmə dövrü ilə bağlı suallar aiddir. İkinci hissədə təhsilalanlar haqqındakı məlumatlar yer almışdır. Buraya təhsilalanın təhsil səviyyəsi, təhsil aldığı fakültə (şöbə, mərkəz və ya institut) adı, ixtisası, qrupu, yaşı, cinsiyyəti və ailə vəziyyəti ilə bağlı suallar daxil edilmişdir. Üçüncü hissə akademik heyətin tədris fəaliyyətinin qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edən tədris fənni üzrə proqramın qiymətləndirilməsi ilə bağlı sualları əhatə edir. Buraya daxil olan suallar tədris olunan fənn üzrə tədris proqramı ilə bağlı bütün məsələləri özündə ehtiva edir. Dördüncü hissəyə tədris vəsaitləri və ləvazimatlarının qiymətləndirilməsi ilə bağlı suallar daxildir. Beşinci hissəyə isə akademik heyətin pedaqoji fəaliyyətinin qiymətləndirilməsinə dair suallar daxil edilmişdir. Bu hissədə yer alan suallar da professor-müəllim heyətinin pedaqoji fəaliyyətinin bütün tərəflərini özündə əks etdirir.

**Məlumatların İşlənilməsi və Emalı**

Araşdırma nəticəsində toplanan məlumatlar redaktə edilmiş, kodlaşdırılmış, məlumatların düzgünlüyü yoxlanılmış və səhvlər düzəldilərək proqram təminatına daxil edilmişdir. Proqram təminatına daxil edilmiş məlumatlar araşdırmanın məqsədləri çərçivəsində SPSS 26 (Statistical Package for the Social Sciences) proqramı vasitəsilə emal edilmişdir (IBM Corp, 2020)

Məlumatların emalı zamanı araşdırmada Frekans, Faktor, Cronbach's alpha, Parametrik hipotez testleri, T-Testi (Independent-Sample T-Test), Tək tərəfli anova analizi (One Way Anova Analise), Ki-Kare Testi, Mann-Whitney U Testi, Kruskal-Wallis H Testi, Spearman's Rank Order Korrelasiyası, Shapiro-Wilks Normality Testi kimi təhlil metodlarından istifadə edilmişdir (Agresti, A & Finlay, B, 2019). Əldə olunan tapıntılar "Nəticələrin təsviri və izahı" bölməsində geniş şərh edilmişdir.

Araşdırmadaki bütün tapıntılar $p < 1$ və $p < 0,05$ əhəmiyyətlilik dərəcəsində və ikitərəfli yoxlanılmışdır (Fisher, R. A, 1925)

**Nəticələrin Təsviri və İzahı**

Anketdə tədris fəaliyyəti qiymətləndirilən professor-müəllim heyətinin və respondentlərin demoqrafik xüsusiyyətlərinə diqqət yetirsək, sorğuda iştirak edən repondentlərin 5 (7%) nəfərinin Azərbaycan Dillər Unversitetində, 18 (26,8%) nəfərinin Azərbaycan Dövlət İqtisad Unversitetində, 45 (63,4%) nəfərinin Bakı Mühəndislik Unversitetində, 2 nəfərin isə Azərbaycan Dövlət Dəniz Akademiyasında və İtaliyanın Sieana Unversitetində təhsil aldığını görərik. Anketdə tədris fəaliyyəti qiymətləndirilən professor-müəllim heyətinin yaş aralıqlarına diqqət yetirsək, akademik heyətin 6 (7,1%) nəfərinin 25-30 yaş arasında, 53 (63,1%) nəfərinin 31-35 yaş arasında, 2 (2,4%) nəfərinin 36-40 yaş arasında, 4 (4,8%) nəfərinin 41-45 yaş arasında, 1 (1,2%) nəfərinin 46-50 yaş arasında, 3 (3,6%) nəfərinin 51-55 yaş arasında, 2 (2,4%) nəfərinin isə 60 və daha çox yaşda olduğunu görərik. Hazırda fəaliyyət göstərən professor-müəllim heyətində 31-35 yaş arasında gənc kadrların çoxluq təşkil etdiyi analiz nəticəsində müəyyən olunmuşdur.

Anketdə tədris fəaliyyəti qiymətləndirilən professor-müəllim heyətinin cinsiyyətinə nəzər salsaq, 66 (78,6%) nəfərinin kişi, 5 (6%) nəfərinin isə qadın olduğunu görərik. Bundan başqa, tədris fəaliyyəti qiymətləndirilən professor-müəllim heyətinin elmi adı da müəyyənləşdirilmiş və 10 (11,9%) nəfərin dosent, 5 (6%) nəfərin professor, 56 (66,7%) nəfərin isə elmi dərəcəyə sahib olmadığı aşkar olunmuşdur. Həmçinin tədris fəaliyyəti qiymətləndirilən akademik heyətin elmi dərəcəsinin analizi zamanı 49 (58,3%) nəfərin fəlsəfə doktoru, 12 (14,3%) nəfərin elmlər doktoru, 9 (10,7%) nəfərin isə magistr elmi dərəcəsinə malik olduğu müəyyən edilmişdir.

**Cədvəl 1: Demoqrafik göstəricilərin analizi**

| Demoqrafik göstəricilər | Alt qruplar | Sayı (işçi sayı) | % (Ümumi işçi sayında çəkisi) |
|---|---|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dillər Unversiteti | 5 | 7 % |
| | Azərbaycan Dövlər İqtisad Unversiteti | 19 | 26,8% |
| | Azərbaycan Dövlət Dəniz Akademiyası | 1 | 1,4% |
| | Bakı Mühəndislik Unversiteti | 45 | 63,4% |
| | Siena Univerisiteti | 1 | 1,4% |

| | | | |
|---|---|---|---|
| **Müəllimin elmi dərəcəsi** | Fəlsəfə doktoru | 49 | 58,3% |
| | Elmlər doktoru | 12 | 14,3% |
| | Magistr | 9 | 10,7% |
| **Müəllimin elmi adı** | Dosent | 10 | 11,9% |
| | Professor | 5 | 6,0% |
| | Yoxdur | 56 | 66,7% |
| **Müəllimin yaşı** | 25-30 | 6 | 7,1% |
| | 31-35 | 53 | 63,1% |
| | 36-40 | 2 | 2,4% |
| | 41-45 | 4 | 4,8% |
| | 46-50 | 1 | 1,2% |
| | 51-55 | 3 | 3,6% |
| | 60 və daha çox | 2 | 2,4% |
| **Müəllimin tədris etdiyi fənn(lər)** | Mədəniyyət romanı fenemologiyası | 1 | 1,2% |
| | Diskret riyaziyyat | 1 | 1,2% |
| | Ekonometriya | 2 | 2,4% |
| | Ədəbiyyatda psixoanaliz | 5 | 6% |
| | Hüquq | 1 | 1,2% |
| | İctimaiyyətlə əlaqələr | 1 | 1,2% |
| | İdarəetmə nəzəriyyələri | 18 | 21,5% |
| | İqtisadi təlimlər tarixi | 1 | 1,2% |
| | İnsan resurslarının idarə edilməsi | 5 | 6% |
| | İnvestisiya analizi | 1 | 1,2% |
| | Marketing menecmenti | 1 | 1,2% |
| | Menecment | 9 | 10,7% |
| | Mikroiqtisafiyyat | 1 | 1,2% |
| | Milli muhasibat uçotu | 1 | 1,2% |
| | Müasir ədəbiyyatda mif | 3 | 3,6% |
| | Mühəndis qrafikası | 1 | 1,2% |
| | Riyaziyyat | 1 | 1,2% |
| | Təşkilatlarda davranış | 30 | 35,7% |
| | Vergi | 1 | 1,2% |
| **Müəllimin cinsiyyəti** | Kişi | 66 | 78,6% |
| | Qadın | 5 | 6% |
| **Qiymətləndirmənin aparıldığı tədris ili** | 2015-2016 | 3 | 3,6% |
| | 2016-2017 | 68 | 81% |
| **Qiymətləndirmənin aparıldığı dövr** | Payız semestri | 66 | 78,6% |
| | Yaz semestri | 5 | 6% |
| **Respondentlərin təhsil səviyyəsi** | Orta ixtisas təhsili | 1 | 1,2% |
| | Ali təhsil (bakalavriatura) | 35 | 41,7% |
| | Diplomdan sonrakı hazırlıq (stajkeçmə, ordinatura, magistratura, doktorantura) | 35 | 41,7% |
| **Respondentlərin oxuduğu kurs** | I kurs | 29 | 34,5% |
| | II kurs | 26 | 31% |
| | III kurs | 4 | 4,8% |
| | IV kurs | 4 | 4,8% |
| | V kurs | 8 | 9,5% |

| | | | |
|---|---|---|---|
| **Respondentlərin cinsiyyəti** | Kişi | 40 | 47,6% |
| | Qadın | 31 | 36,9% |
| **Respondentlərin ailə vəziyyəti** | Evli | 5 | 6% |
| | Subay | 66 | 78,6% |

Mənbə: Müəllifin hesablamaları, 2023

Anketin etibarlılığı etibarlılıq analizi vasitəsilə sınanmışdır. Analiz nəticəsində anketin etibarlılığı 0 ilə 1 rəqəmi arasında qiymətləndirilir və bu **Cronbach's Alpha** əmsalı adlandırılır. **Cronbach's Alpha** əmsalından asılı olaraq anketin etibarlılığı aşağıdakı kimi şərh oluna bilər:

- $0{,}00 \leq \alpha < 0{,}40$ arası anket etibarlı deyil;
- $0{,}40 \leq \alpha < 0{,}60$ arası anketin etibarlılığı aşağıdır;
- $0{,}60 \leq \alpha < 0{,}80$ arası anket olduqca etibarlıdır;
- $0{,}80 \leq \alpha < 1{,}00$ arası anket çox etibarlıdır.

Anketin **Cronbach's Alpha** əmsalı analiz nəticəsində 0,992 qiymətləndirilmişdir. Bu da anketin çox etibarlı bir anket olduğunu sübut edir ( Cronbach, L. J, 1951).

**Cədvəl 2: Anketin etibarlılıq analizi**

| Cronbach's Alpha | Cronbach's Alpha Based on Standardized Items | N of Items |
|---|---|---|
| ,992 | ,993 | 86 |

Mənbə: Müəllifin hesablamaları, 2023

### Normallıq analizi (Test of Normality)

Statistik analizlər aparılarkən dəyişənlər normal paylanmaya sahibdirlərsə, parametrik testlər, normal paylanmaya sahib olmadıqda isə parametrik olmayan testler tətbiq edilir. Bu məqsədlə ilk növbədə toplanan bütün məlumatların normallığını ölçmək üçün hipozetdən istifadə edilmişdir.

- Akademik heyətin tədris fəaliyyətinin keyfiyyətini analiz etmək ücün qurulan hipotez:
  $H_0$: 95% əminliklə dəyişənlər normal paylanmışdır;
  $H_1$: 95% əminliklə dəyişənlər normal paylanmamışdır.

Cədvəl 9.3-dən də göründüyü kimi burada iki fərqli testin nəticələri əldə edilmişdir. Bunlardan biri "Kolmogorov-Smirnov", digəri isə "Shapiro-Wilk" testidir. Statistik analizlər aparılan zaman daha çox "Shapiro-Wilk" testi tətbiq edildiyinə görə bu araşdırmada da adı çəkilən testdən istifadə olunmuşdur. Burada "Shapiro-Wilk" testinin əhəmiyyətlilik dərəcəsi "**Sig.Level**" 0,05-dən kiçik olduğu üçün bütün qruplar üçün $H_0$ hipotezi qəbul edilmişdir, yəni bütün gruplar üçün 95% əminliklə normal paylanma müşahidə edildiyi təsdiq edilmişdir (Ghasemi, A., & Zahediasl, S, 2012).

**Cədvəl 3: Dəyişənlərin normallıq testi (Tests of Normality)**

| | Kolmogorov-Smirnov[a] | | | Shapiro-Wilk | | |
|---|---|---|---|---|---|---|
| | Statistic | df | Sig. | Statistic | df | Sig. |
| | ,387 | 71 | ,000 | ,632 | 71 | ,000 |

Mənbə: Müəllifin hesablamaları, 2023

Cədvəl 9.4-də fənn üzrə hazırlanan tədris proqramının (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktorların dəyəri baxımından "Mann Whitney U" testi aparılması zamanı fənn üzrə hazırlanan tədris proqramının (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsiri 95% əminlik intervalında statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərdiyi müşahidə edilmişdir (U=1,700; z=-2,548; p=0,040).

"Mann Whitney U" testi əsasında əldə olunmuş nəticəyə əsasən fənn üzrə hazırlanan tədris proqramı (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir ($p<0.05$). Buna görə də fənn üzrə hazırlanan tədris proqramı (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi anlamlı bir fərqlilik əmələ gətirmişdir.

**Cədvəl 4: Fənn üzrə hazırlanan tədris proqramının (syllabus) tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Mann Whitney U" Testi**

| Mann-Whitney U | Wilcoxon W | Z | Asymp. Sig. (2-tailed) |
|---|---|---|---|
| 1,700 | 31,500 | -2,548 | 0,040 |

Mənbə: Müəllifin hesablamaları, 2023

Cədvəl 9.5-dən göründüyü kimi"Kruskal-Wallis" testi əsasında əldə olunmuş nəticəyə əsasən fənn üzrə hazırlanan tədris proqramı (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi statistik baxımdan əhəmiyyətli bir fərqlilik göstərmişdir ($p<0.05$). Buna görə də fənn üzrə hazırlanan tədris proqramı (syllabus) tədris fəalliyətinin keyfiyyətinə təsir edən faktor kimi bir fərqlilik əmələ gətirmişdir [SD=29,242, p= 0, 00015485].

**Cədvəl 5: Fənn üzrə hazırlanan tədris proqramının (syllabus) tədris fəaliyyətinin keyfiyyətinə təsiri "Kruskal-Wallis" Testi**

| Tədris fəaliyyətinin keyfiyyətinə təsiri | SD | $X^2$ | P |
|---|---|---|---|
| Syllabusun tədris fəaliyyətinin keyfiyyətinə təsiri | 29,242 | 4 | 0,00015485 |

Mənbə: Müəllifin hesablamaları, 2023

# Heydər Əliyev və Kənd Təsərrüfatının İnkişafı

**Lalə Cabbarlı**

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**

**lalacabbarli.aesma@gmail.com**

## Xülasə

Məqalədə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin hakimiyyətdə olduğu 1969-1980 və 1993-2003-cü illəri əhatə edən hər iki dövr üzrə kənd təsərrüfatının inkişaf dinamikası araşdırılmışdır. Tədqiqat zamanı Heydər Əliyevin hakimiyyəti illərindən öncə və hakimiyyətdə olduğu dövrdə aqrar sektorun müxtəlif sahələri müqayisəli şəkildə qiymətləndirilmişdir. Belə ki, Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu dövrdə, ilk zamanlar ölkə yalnız neft sektorunun inkişafı baxımından qiymətləndirilirdi, lakin 1969-cu ildə Heydər Əliyev Azərbaycan SSR-yə rəhbərlik etdikdən bir müddət sonra kənd təsərrüfatında, xüsusilə də pambıqçılıq, üzümçülük, taxılçılıq sahələrində canlanma baş vermişdir.

Bu tədqiqatda ümummilli liderin hakimiyyətdə olduğu illərdə apardığı islahatların bugünki dövr üçün kənd təsərrüfatının əsas bünövrəsini təşkil etdiyi öyrənilmişdir. Bu dövrdə zəruri tədbirlər kimi mühüm aqrar islahatlar, o cümlədən torpaq islahatları, özəlləşdirmə, həmçinin pambıqçılıq, üzümçülük, taxılçılıq və digər prioritet sahələrin inkişafını hədəfləyən tədbirlər, dövlət proqramları və layihələr icra olunmuş, qanunvericilik sənədləri qəbul edilmişdir. Bu illər ərzində kənd təsərrüfatında olan inkişaf dayanıqlı hal almış və bundan sonra da hal-hazırki ölkə Prezidentimiz cənab İlham Əliyevin başçılığı altında qorunub saxlanılmışdır.

**Açar sözlər:** kənd təsərrüfatı, aqrar siyasət, torpaq islahatı

## Abstract

The article examines the development dynamics of agriculture in both periods, including the years 1969-1980 and 1993-2003, when the great leader of Azerbaijan Heydar Aliyev was in power. During the research, different areas of the agrarian sector were comparatively evaluated before and during the period of Heydar Aliyev.So that, during the period when Azerbaijan was part of the Soviet Union, at first the country was evaluated only in terms of the development of the oil sector but in 1969, after Heydar Aliyev led the former Azerbaijan SSR, there was a revival in agriculture, especially in the areas of cotton growing, grape growing, and grain growing.

As a result of the research, it was learned that the reforms carried out by the national leader during those years formed the main foundation of agriculture for today's period. During this period, as necessary measures, important agrarian reforms, including land reforms, privatization, as well as measures aimed at the development of cotton growing, grape growing, grain growing and other priority areas, state programs and projects were implemented, legislative documents were adopted. During these years, the development in agriculture has become stable and has been preserved under the leadership of the President of the country Mr. Ilham Aliyev.

**Key words:** agriculture, agricultural policy, land reform.

## Giriş

Hər bir dövlətin qurulmasında və dayanıqlı inkişaf yolunda irəliləməsində dahi şəxsiyyətlərin rolu böyükdür. Bir ölkənin hər hansı bir sahədə inkişaf etməsi üçün ilk öncə təxirəsalınmaz və sistem əhəmiyyətli tədbirlər görülməli, sistem qurulmalı, alət və üsulların düzgün seçilməsi üçün idarəetmə strategiyası müəyyən olunmalıdır. Ölkəmizin timsalında isə məhz Ümummilli lider Heydər Əliyev bu mühüm və məsuliyyət yüklü xalq vəzifəsini çətin dövrdə öz üzərinə götürərək inkişaf üçün lazımi bütün tədbirləri görməyə nail olmuşdur. Ölkə Prezidenti İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamı ilə 2023-cü il "Heydər Əliyev ili" elan edilmişdir (https://president.az/az/articles/view/57413). Qlobal proseslərin ölkə iqtisadiyyatına və o cümlədən

kənd təsərrüfatına təsirləri onun yeni mexanizmlər və aqrar siyasi strategiyalarla təkmilləşdirilməsinə ehtiyac yaradır. Təkmilləşdirilməyə dair qeyd olunan ehtiyaclar Heydər Əliyevin hakimiyyətdə olduğu dövr üçün yenidən qiymətləndirilərək gələcəyə dair yeni fikirlər əldə etmək üçün mühüm bir dərs və təcrübəsini özündə ehtiva edir. Bu mövzunun aktual və əhəmiyyətli olması məhz buradan qaynaqlanır. Bu nöqteyi nəzərdən tədqiqatımızın məqsədi Heydər Əliyevin ölkəmizin kənd təsərrüfatına verdiyi töhvəni araşdırmaq və tədqiq etməkdən ibarətdir. Tədqiqat işində müqayisəli qiymətləndirmə, ümumiləşdirmə, qruplaşdırma, tarixi-məntiqi təhlil metodlarından istifadə edilmişdir. Bu mövzunun iqtisadi əhəmiyyətli olması ilə bərabər, tarixi-siyasi əhəmiyyətli olması da danılmazdır. Lakin bununla yanaşı, Sovet dönəminə xas olan bir sıra statistik məlumatların arxivləşdirilməsi və ya bu göstəricilərin kifayət qədər əlçatan olmaması səbəblərindən dolayı təhlillərin öncəki dönəmləri də tam əhatə etməsi ilə bağlı məhdudiyyətlər yaranmışdır. Tədqiqat aparıldığı zaman Dövlət Statistika Komitəsinin, İ.İ.İbrahimovun, Q.Məmmədovun və digər iqtisadçı alimlərin Heydər Əliyev irsi ilə bağlı elmi əsərlərinə, monoqrafiyalarına, eləcə də digər elmi ədəbiyyatlardan mənbə kimi istifadə edilmiş və onlara istinad olunmuşdur.

**SSRİ Dövründə Heydər Əliyevin Aqrar Sahənin İnkişafında Rolu**

Heydər Əliyevin idarəçiliyi dövründə bütün sahələrdə, xüsusi ilə də kənd təsərrüfatında canlanma baş vermişdir və həmin illərdə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün bir neçə tarixi qərarlar qəbul edilmişdir. Qəbul edilən qərarların əsasını Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi, Azərbaycanda kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi, 1976-1980-ci illərdə torpaqların meliorasiyası və meliorasiya olunmuş torpaqların istifadəsinin yaxşılaşdırılması, eyni zamanda Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü, şərabçılığı inkişaf etdirmək təşkil edirdi.

Qəbul edilən qərarların nəticəsi olaraq, 1976 və 1980-ci illər ərzində respublikamızda pambıqçılıq, üzümçülük, taxılçılıq inkişaf etmiş və kənd təsərrüfatında ciddi nailiyyətlər əldə edilmişdir. Respublikada pambıq istehsalı 1966-1970-ci illərdə hər il (orta illik məhsul hesabı ilə) 327,7 min ton, 1971-1975-ci illərdə 440,8 min ton, 1976-1979-cu illərdə isə 576 min ton həddinə qədər yüksəlmişdir. 1980-ci ildə pambıq istehsalı 890 min tona çatmışdır. Həmin ildə hər hektara görə məhsuldarlıq 35 sentner təşkil etmişdir.

1976-1980-ci illərdə kənd təsərrüfatı məhsullarının istehsalında pambıqçılıqdan sonra əsas yeri üzümçülük tuturdu. Lakin 70-ci illərə qədər Azərbaycanda üzümçülük sahəsi kifayət qədər inkişaf etməmişdi. Heydər Əliyevin səyi nəticəsində 1975-ci ildə SSRİ Nazirlər Sovetində “Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında” və 1982-ci ildə “Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üçümçülüyü və şərabçılığı inkişaf etdirmək, habelə irriqasiya-meliorasiya obyektlərinin layihələşdirilməsi və tikilməsi tədbirləri haqqında” qəbul edilən qərar üzümçülüyün inkişafında öz müsbət təsirini göstərmişdir. Bunun da nəticəsi olaraq, 1971 və 1975-ci illər ərzində orta illik üzüm istehsalı 466 min ton olmuşdur ki, burada da hər hektara düşən məhsuldarlıq 48,2 sentner təşkil etmişdir. Həmin illərdə yeni üzümçülük rayonları yaradılmış, üzümçülüyün ərazi strukturu dəyişdirilmiş, dağ rayonlarında üzümçülük inkişaf etdirilmişdir. Təsadüfi deyildir ki, Azərbaycan tarixində ən çox üzüm istehsalı da məhz həmin dövrə düşmüşdür. Belə ki, 1980-ci ildə respublikada 1,4 milyon ton üzüm istehsal edilmiş və məhsuldarlıq orta hesabla 91 sentner olmuşdur. 1976-1980-ci illərdə iri üzümçülük rayonları arasında Cəlilabad və Şamaxı rayonları xüsusi ilə seçilirdi.

1976-1980-ci illərdə ölkəmizdə pambıqçılıq və üzümçülüklə yanaşı taxılçılıq da inkişaf etmiş sahələrdən biri olmuşdur. Həmin illər ərzində orta illik taxıl istehsalı 352 min ton (əvvəlki illərlə müqayisədə 2 dəfədən çox artım) olmuşdur.

Heydər Əliyevin məqsədyönlü, qətiyyətli, yaradıcı fəaliyyətinin nəticəsi olaraq 1982-ci ildə 1969-cu ilə nisbətən taxıl istehsalı 2,1 dəfə, pambıq 1,9 dəfə, tütün 2,3 dəfə, kartof 1,6 dəfə, tərəvəz 2,5 dəfə, bostan məhsulları 1,9 dəfə, meyvə və giləmeyvə 6,6 dəfə, çay 2,8 dəfə, üzüm 7,7 dəfə artmışdır (Abbasov, 2010).

**Azərbaycanda Kənd Təsərrüfatına İnvestisiya Qoyuluşlarının 1961-1980-Ci İllər Üzrə İnkişaf Dinamikası**

İnvestisiya mənfəətin və sosial səmərənin əldə edilməsi məqsədilə kapitalın artırılması üçün vəsaitlərin uzunmüddətli qoyuluşu və praktiki fəaliyyətləri özündə əks etdirir. Belə ki, investisiya olmadan müasir kapitalı yaratmaq, xarici və daxili bazarlarda əmtəə istehsalçılarının rəqabətqabiliyyətliliyini təmin etmək mümkün deyildir. Xüsusilə kənd təsərrüfatı sahəsində əsas infrastruktura, insan kapitalının formalaşmasına və tədqiqat və inkişafa (R&D) dövlət və özəl investisiyaların cəlb olunması inkişaf üçün zəruri şərtlərdir. İnfrastrukturla bağlı dövlət siyasəti və büdcə qərarları da kənd təsərrüfatı istehsalına böyük təsir göstərən faktordur (Zepeda, 2009). İnvestisiya bazarının formalaşmasında mühüm yer dövlətin bu proseslərdə iştirakıdır. Dövlət aqrar investisiya bazarlarının formalaşması və fəaliyyət göstərməsi proseslərinin tənzimlənməsində əsas rol oynayır (Оржеховская, 2016).

Kənd təsərrüfatında sahibkarların kreditləşdirilməsi, onlara aşağı faizlə kredit verilməsi, həmçinin bu fəaliyyətə investisiya cəlb edilməsi aqrar istehsalının maddi bazasının möhkəmləndirilməsinə və bu əsasda əkinçilik və heyvandarlıq məhsullarının sabit, davamlı və dayaqlı çoxalmasına həlledici təsir göstərir, sahibkarların məhsul istehsalının dinamik inkişafına inamını daha da artırır (Şirəliyev, 2011).

Hər bir ölkədə olduğu kimi, aqrar sektorun riskliliyi və istehsal fəaliyyətinin çətinliyi baxımından investorların cəlbediciliyi digər sahələrə nisbətdə aşağı olmuşdur. İqtisadiyyatın digər sahələrinə nisbətən kənd təsərrüfatı təbii və ekoloji amillərdən daha çox asılıdır, istehsalın mövsümi xarakterə malik olması, əsas istehsal vasitəsi olan torpağın vəziyyətinin daim dəyişməsi, istehsal tsiklinin nisbətən uzunmüddətli olması, sel, yanğın, quraqlıq və xəstəliklər kimi gözlənilməz hadisələr bu sahədə investisiya riskini artıran amillərdir. Habelə, istehsal artıqlığı bazarda təklifin artması və ya quraqlıq və təbii fəlakətlər dövründə təklifin azalması daxili bazarda qiymətlərin kəskin dalğalanmasına, istehsalçıların gəlirlərində dəyişikliklərə səbəb olur (Əhmədov, 2017).

**Qrafik 1: Azərbaycan Respublikasında 1961-1980-ci illər üzrə iqtisadiyyata əsaslı vəsait qoyuluşunda aqrar sahənin xüsusi çəkisi (kolxozların və əhalinin vəsaiti nəzə alınmadan; yekuna görə faizlə)**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Sovet İttifaqında üzv olduğumuz dövr ərzində ölkəmizdə aqrar sektorun investisiya cəlbediciliyi demək olar ki, çox aşağı idi. 1961-1970-ci illərdə iqtisadiyyata əsaslı vəsait qoyuluşunda aqrar sahənin xüsusi çəkisi 12,7 %, bu vəsaitlərin artımında kənd təsərrüfatının xüsusi çəkisi isə 16,3% olmuşdur. Lakin, Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra iqtisadiyyata əsaslı vəsait qoyuluşunda və onun artımında aqrar sahənin xüsusi çəkisi müvafiq olaraq 7,3 faiz bəndi və 12,7 faiz bəndi artmışdır. Bunun da nəticəsi olaraq, iqtisadiyyata əsaslı vəsait qoyuluşunda və bu göstəricinin artımında aqrar sahənin xüsusi çəkisi 1971-1980-cı illəri əhatə edən dövr ərzində müvafiq olaraq  20% və 29% təşkil etmişdir.

**Cədvəl 1: Azərbaycan Respublikasının ictimai kənd təsərrüfatında əmək məhsuldarlığının 1961-1980-ci illər üzrə nisbi artım sürəti**

(orta illik hesablamalara əsasən hər bir orta illik işçiyə görə, faizlə)

| İllər | Kolxozlar və təsərrüfatlararası kənd təsərrüfatı müəssisələri, sovxozlar, sair dövlət müəssisələri üzrə % | Kolxozlar və təsərrüfatlararası kənd təsərrüfatı müəssisələri üzrə | Sovxozlar üzrə |
|---|---|---|---|
| 1961-65-ci illərə nisbətən | 100 | 100 | 100 |
| *1966-70-ci illər* | 133 | 132 | 101 |
| *1971-75-ci illər* | 168 | 167 | 125 |
| *1976-80-ci illər* | 207 | 200 | 159 |
| 1966-70-ci illərə nisbətən | 100 | 100 | 100 |
| *1971-75-ci illər* | 126 | 127 | 123 |
| *1976-80-ci illər* | 156 | 152 | 157 |

| | | | |
|---|---|---|---|
| 1971-75-ci illərə nisbətən | 100 | 100 | 100 |
| *1976-80-ci illər* | 124 | 120 | 127 |

**Mənbə:** Məmmədov, 2011, s.58.

Azərbaycan Respublikasının ictimai kənd təsərrüfatında əmək məhsuldarlığının 1961-80-cı illər üzrə nisbi artım sürəti Cədvəl 1-də qeyd edilmişdir. Ümummilli lider hakimiyyətə gəldikdən sonra 1971-80-ci illərdə kolxozlar və təsərrüfatlararası kənd təsərrüfatı müəssisələri, sovxozlar, sair dövlət müəssisələrində hər bir orta illik işçinin əmək məhsuldarlığında artım qeydə alınmışdır. 1966-70-ci illərə nisbətdə 1971-75-ci illərdə 26% və 1976-80-ci illərdə isə 56% artım müşahidə edilmişdir. O cümlədən kolxozlar və təsərrüfatlararası kənd təsərrüfatı müəssisələri üzrə müvafiq dövrlər üzrə 27% və 52%, həmçinin sovxozlar üzrə isə müvafiq dövlərdə 23% və 57% səviyyəsinə yüksəlmişdir.

**Müstəqillik Əldə Etdikdən Sonra Kənd Təsərrüfatı Haqqında Qəbul Edilən Qanunlar**

90-cı illərdə sosialist düşərgəsinin dağılması və SSRİ-nin süqutu, postsovet məkanında müstəqil dövlətlərin yaranması ərzaq təhlükəsizliyini şərtləndirən amillərin xarakterinə təsirsiz qalmamışdır. Bazar münasibətlərinin formalaşması həmin ölkələrdə aqrar-ərzaq təsərrüfatlarının inkişafı üçün yeni imkanlar açsa da, onların reallaşması ciddi iqtisadi, siyasi və institusional problemlərlə qarşılaşmışdır (Quliyev, 2013).

Ümummilli liderimizin hakimiyyətə gəldiyi dövrdə ölkədə daxili çəkişmələr hökm sürürdü və ölkəmiz dünya xəritəsindən silinmə təhlükəsi ilə üz-üzə idi. Baş verən siyasi hadisələrin təsiri digər sahələr kimi, ölkə iqtisadiyyatından da yan keçməmişdi. Belə ki, həmin dövrdə ölkə iqtisadiyyatında hiperinflyasiya müşahidə olunurdu və bu da ölkə iqtisadiyyatının tənəzzül vəziyyətində olduğunu göstərirdi. Lakin Ümummilli liderimizin səyi nəticəsində bağlanan "Əsrin müqaviləsi" və bunun da nəticəsi olaraq Azərbaycan neftinin dünyaya çatdırılması, neft sektorunun inkişaf etdirilməsi ölkənin iqtisadiyyatının tənəzzül vəziyyətindən çıxmasına və zamanla tərəqqisinə gətirib çıxardı. Neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişaf etdirilməsi Heydər Əliyevin iqtisadi-siyasi ideologiyasının əsas prioritetlərindən biri idi.

Heydər Əliyev 1994-cü ildə Azərbaycan Respublikası Ali Sovetində "Aqrar islahat: Problemlər və onların həlli yolları" mövzusunda keçirilən beynəlxalq konfransda çıxış edərək bildirmişdir ki, "*əgər bu prinsiplərdən möhkəm yapışıb qalsaq, yenə də böyük çətinliklərlə rastlaşacaq və şübhəsiz, iqtisadiyyatda, o cümlədən aqrar sahədə istehsal yenə də aşağı düşəcəkdir. Ona görə də islahatların aparılması zəruri bir vəzifədir. Bu barədə tərəddüdlərə son qoymaq lazımdır. Qarşımızda nə qədər çətinliklər olsa da, biz bu prinsipləri həyata keçirməliyik. Bunu da nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının təbiəti, torpağı, iqlimi ölkəmizdə bol kənd təsərrüfatı məhsulları istehsal etməyə və aqrar sektoru yüksək səviyyəyə qaldırmağa imkan verir*" (Məmmədov, 2011).

1994-cü ilin axırlarında aqrar islahatların, o cümlədən torpaq islahatının aparılması məsələsi ciddi olaraq qarşıya qoyuldu. Bu məqsədlə 1994-cü ilin noyabrın 5-də "Respublikanın kənd təsərrüfatında aparılan islahatların vəziyyəti" barədə keçirilən müşavirədə Ümummilli lider Heydər Əliyev qətiyyətlə bildirmişdi: "*böhrandan xilas olmaq və Azərbaycanın iqtisadi potensialından səmərəli istifadə etmək üçün, yolumuz iqtisadi islahatlar, bazar iqtisadiyyatına keçid yoludur, sərbəst iqtisadiyyata, təşəbbüskarlığa, sahibkarlığa geniş imkanlar yaratmaq yoludur*".

Bu müşavirədən sonra aqrar islahatların sürətləndirilməsi və torpaqların bütün kənd əhalisinə paylanması fikri meydana çıxdı, bununla da islahatların həyata keçirilməsini təmin edən qanunvericilik bazasının yaradılması daha da sürətləndi. Hər bir təsərrüfata dair yerquruluşu planı, xəritə və hesabat materialları, lazımi digər sənədlər hazırlandı, torpaq islahatını həyata keçirmək üçün müvafiq qanunvericilik bazası yaradılmağa başladı (Vəliyev, 2019).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşkilatçılığı ilə 1995-ci ildə "Aqrar islahatların əsasları" və "Sovxoz və kolxozların islahatı haqqında", 1996-cı ildə isə "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası qanunları qəbul edilmişdir. "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası qanununa 2000, 2001 və 2002-ci illərdə bəzi əlavə və dəyişikliklər edilmişdir. Aqrar islahatlara dair aparılan növbəti hüquqi-normativ aktların hər biri bu qanunlara əsaslanmışdır. 1995-2004-cü illər ərzində ümumilikdə 100-dən artıq qanun və hüquqi normativ aktlar qəbul edilmişdir. Bundan başqa aqrar bölmə ilə əlaqədar 10 Dövlət Proqramı, 30-a yaxın Fərman və Sərəncam qəbul olunmuş, sahibkarlarla 20-dən çox görüş keçirilmiş, Respublika Nazirlər Kabineti 60-a yaxın qərar qəbul etmişdir.

"Aqrar islahatın əsasları haqqında" qanununa əsasən aqrar islahatların məqsədi aqrar bölməni böhrandan çıxarmaqdan, iqtisadiyyatı sabitləşdirməkdən, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdan, islahatın vəzifəsi isə torpaq və əmlak üzərində yeni mülkiyyət münasibətlərinin formalaşdırılmasından, bazar iqtisadiyyatına uyğun istehsal və infrastruktu sahələrində müxtəlifyönlü təsərrüfatların yaradılması və inkişafı ilə istehsal münasibətlərinin dəyişdirilməsindən və təkmilləşdirilməsindən ibarətdir. Aqrar bölmədə yeni mülkiyyət münasibətlərinin formalaşdırılması, torpaq, meliorasiya və su təsərrüfatının islahatı, müxtəlifyönlü təsərrüfatların yaradılması və aqrar bölmənin dövlət təminatı "Aqrar islahatın əsasları haqqında" qanunda aqrar islahatların əsas istiqamətləri kimi nəzərdə tutulmuşdu.

Qəbul olunan qanuna əsasən, aqrar bazarın dövlət tənzimlənməsinin əsasında aqrar bazar mühüm kənd təsərrüfatı məhsulları istehsalının stimillaşdırılması, əmtəə istehsalçılarının xarici bazarın zərərli təsirindən qorunması və təminatlı daxili bazarın yaradılması, maliyyə-kredit müəssisələrinin işinin aqrar bazarın tələbatına uyğunlaşdırılması və sığorta işinin təkmilləşdirilməsi durur.

"Sovxoz və kolxozların islahatı haqqında" qanunda islahatın məqsəd kimi bazar iqtisadiyyatına uyğun müxtəlifyönlü təsərrüfat formalarını yaratmaq və aqrar bölmədə sahibkarlığı inkişaf etdirmək, vəzifələri kimi sovxoz və kolxozların kəndli (fermer) təsərrüfatlarına bölünməsindən, birgə sahibkarlığa əsaslanan xüsusi mülkiyyətli kənd təsərrüfatı müəssisələrinə çevrilməsindən, sovxozların bazasında dövlət kənd təsərrüfatı müəssisələrinin yaradılmasından, şəxsi yardımçı təsərrüfatların inkişafından, yaradılmış təsərrüfatların kooperasiyası və xidmət sahələrinin təşkili qeyd edilmişdir.

Torpaq islahatının məqsədi iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təminatına nail olmaq və nəticə etibarı ilə Azərbaycan xalqının maddi rifahını yüksəltməkdən ibarətdir. Torpaq islahatının vəzifələri Azərbaycan Respublikası ərazisində dövlət torpaqlarının müəyyən edilməsini, torpaqların bələdiyyə və xüsusi mülkiyyətə verilməsini, mülkiyyətçilərin torpağa sahiblik, istifadə və sərəncam hüquqlarını təmin etmək olmuşdur.

"Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" emal sənayesi və kənd təsərrüfatına xidmət göstərən müəssisələrin

özəlləşdirilməsi üçün hüquqi baza rolunu oynamışdır. Bu dövlət proqramı Respublika Milli Məclisinin 1995-ci il 21 iyul tarixli qərarı ilə təsdiq edilmişdir (İbrahimov, 2005).

**Cədvəl 2: Azərbaycan rayonları üzrə torpaq payı almış ailələrin tərkibinin orta sayı və adambaşına düşən özəlləşdirilmiş torpaq sahələri haqqında məlumat**

| № | Rayon | Torpaq payı almış ailələrin sayı | Torpaq payı alan əhali sayı, nəfər | Özəlləşən torpaq sahəsi, ha | Hər ailəyə düşən özəlləşən torpaq sahəsi, ha | Adambaşına düşən özəlləşən torpaq sahəsi, ha |
|---|---|---|---|---|---|---|
| 1 | Abşeron | 5671 | 20997 | 4046 | 0,71 | 0,19 |
| 2 | Ağdam | 6631 | 27340 | 12415 | 1,87 | 0,45 |
| 3 | Ağdaş | 14896 | 56659 | 29381 | 1,97 | 0,52 |
| 4 | Ağstafa | 15620 | 59793 | 16717 | 1,07 | 0,28 |
| 5 | Ağsu | 11102 | 43662 | 34383 | 3,10 | 0,79 |
| 6 | Ağcabədi | 16962 | 78808 | 43818 | 2,58 | 0,56 |
| 7 | Astara | 16895 | 71509 | 8623 | 0,51 | 0,12 |
| 8 | Balakən | 20817 | 67888 | 15607 | 0,75 | 0,23 |
| 9 | Beyləqan | 15702 | 65452 | 38895 | 2,48 | 0,59 |
| 10 | Bərdə | 24977 | 91806 | 42774 | 1,71 | 0,47 |
| 11 | Biləsuvar | 12796 | 60777 | 30547 | 2,39 | 0,50 |
| 12 | Qazax | 15558 | 54813 | 21367 | 1,37 | 0,39 |
| 13 | Qax | 10204 | 34106 | 18751 | 1,84 | 0,55 |
| 14 | Qəbələ | 18373 | 74838 | 25716 | 1,40 | 0,34 |
| 15 | Qobustan | 6069 | 27983 | 33056 | 5,45 | 1,18 |
| 16 | Quba | 27386 | 95805 | 39115 | 1,43 | 0,41 |
| 17 | Qusar | 16783 | 54563 | 43193 | 2,57 | 0,79 |
| 18 | Daşkəsən | 4591 | 17323 | 10589 | 2,31 | 0,61 |
| 19 | Şabran | 6858 | 27340 | 18891 | 2,75 | 0,69 |
| 20 | Zaqatala | 22047 | 79367 | 37938 | 1,72 | 0,48 |
| 21 | Zərdab | 8706 | 36413 | 26908 | 3,09 | 0,74 |
| 22 | İmişli | 14616 | 72503 | 31579 | 2,16 | 0,44 |
| 23 | İsmayıllı | 14335 | 49978 | 25056 | 1,75 | 0,50 |
| 24 | Yardımlı | 9102 | 44340 | 10787 | 1,19 | 0,24 |
| 25 | Yevlax | 11802 | 46918 | 29890 | 2,53 | 0,64 |
| 26 | Kürdəmir | 15770 | 63784 | 40818 | 2,59 | 0,64 |
| 27 | Gədəbəy | 21790 | 74418 | 18451 | 0,85 | 0,25 |
| 28 | Goranboy | 20329 | 68944 | 39645 | 1,95 | 0,58 |
| 29 | Göyçay | 17166 | 62577 | 23210 | 1,35 | 0,37 |
| 30 | Lerik | 9523 | 49300 | 13502 | 1,42 | 0,27 |
| 31 | Lənkəran | 28194 | 124012 | 12291 | 0,44 | 0,10 |
| 32 | Masallı | 30729 | 149510 | 27996 | 0,91 | 0,19 |
| 33 | Neftçala | 6617 | 27939 | 34446 | 5,21 | 1,23 |
| 34 | Oğuz | 9352 | 35056 | 18022 | 1,93 | 0,51 |
| 35 | Saatlı | 14896 | 68908 | 33721 | 2,26 | 0,49 |
| 36 | Sabirabad | 22696 | 97644 | 44209 | 1,95 | 0,45 |
| 37 | Salyan | 19080 | 68943 | 33418 | 1,75 | 0,48 |
| 38 | Samux | 11897 | 41481 | 15986 | 1,34 | 0,39 |
| 39 | Siyəzən | 2438 | 10350 | 9775 | 4,01 | 0,94 |
| 40 | Tərtər | 10155 | 44859 | 19680 | 1,94 | 0,44 |
| 41 | Tovuz | 32867 | 120763 | 20054 | 0,61 | 0,17 |
| 42 | Ucar | 12281 | 51208 | 17901 | 1,46 | 0,35 |
| 43 | Füzuli | 4263 | 17958 | 7308 | 1,71 | 0,41 |
| 44 | Göygöl | 10662 | 33173 | 12547 | 1,18 | 0,38 |
| 45 | Xaçmaz | 24986 | 85667 | 39337 | 1,57 | 0,46 |
| 46 | Xızı | 2143 | 10058 | 5521 | 2,58 | 0,55 |
| 47 | Hacıqabul | 5139 | 26163 | 19972 | 3,89 | 0,76 |
| 48 | Cəlilabad | 30386 | 137242 | 51233 | 1,69 | 0,37 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 49 | Şamaxı | 11432 | 45118 | 34082 | 2,98 | 0,76 |
| 50 | Şəki | 22967 | 95636 | 50756 | 2,21 | 0,53 |
| 51 | Şəmkir | 36472 | 131946 | 42937 | 1,18 | 0,33 |
| 52 | Babək | 17329 | 64223 | 15652 | 0,90 | 0,24 |
| 53 | Ordubad | 8909 | 28002 | 4424 | 0,50 | 0,16 |
| 54 | Sədərək | 4156 | 12184 | 3278 | 0,79 | 0,27 |
| 55 | Culfa | 7617 | 24439 | 8082 | 1,06 | 0,33 |
| 56 | Şahbuz | 4575 | 16771 | 4780 | 1,04 | 0,29 |
| 57 | Şərur | 28949 | 99626 | 18694 | 0,65 | 0,19 |
| | **Cəmi** | **854264** | **3347083** | **1391716** | **-** | **-** |

**Mənbə:** Məmmədov, 2008, s. 123-125.

Cədvəl 2-dən göründüyü kimi əhalinin sayından və sıxlığından asılı olaraq bir nəfərə düşən torpaq sahəsinin orta hesabla miqdarı (hektarla) böyük ölçüdə bir-birindən fərqlənir. Torpaqla təmin olunmaya görə ən yüksək göstərici Neftçala (1,23), Qobustan (1,18) və Siyəzən (0,94), ən az göstərici isə Lənkəran (0,10), Astara (0,12) və Ordubad (0,16) rayonlarına məxsusdur.

Aqrar islahatların birinci mərhələsi aşağıdakı nəticələrlə xarakterizə olunur.

- torpaq və digər istehsal vasitələri üzərində xüsusi mülkiyyət bərqərar olmuş, istehsal münasibətləri sərbəstləşdirilmiş, institusional dəyişiklik aparılmış, sərbəst iqtisadi sistemə müvafiq idarəetmə formalaşdırılmışdır;
- inzibatçılıq, istehsal fəaliyyətinə lüzumsuz müdaxilələr və s. üçün əsaslar aradan qaldırılmış, kənddə faydalı və məhsuldar əməklə məşğul olanların sayı çoxalmışdır;
- kənddə sahibkarlar təbəqəsi formalaşmış, sahibkarlığın davamlı inkişafına zəmin yaradılmışdır;
- aqrar sektora müasir texnika və texnologiyalar, yeni bilik və informasiyalar gətirilmişdir;
- aqrar sektorda yeni iş üslubu, vərdiş və yanaşmalar formalaşmışdır;
- tənəzzülün qarşısı alınmış, davamlı inkişafa əsaslar yaradılmış, ixrac yönümlü məhsulların istehsalı genişləndirilmişdir (İbrahimov, 2005).

Qeyd edilən islahatlarla yanaşı, 1996-cı ildə "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının qanunu və onun tətbiqi ilə əlaqədar müvafiq normativ-hüquqi sənədlər qəbul edildi. Bu sənədlərlə meliorasiya və irriqasiya sisteminin əsas fəaliyyət istiqamətləri müəyyən edildi, respublikaya qoyulan xarici investisiyalar ilk növbədə bu sahəyə yönəldildi ki, bu faktor da aqrar inkişafın təməlini təşkil edən prinsip islahatlardan biri olmuşdur (Vəliyev, 2019).

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi iqtisadi siyasət və kənd təsərrüfatı ilə bağlı qəbul etdiyi qərarlar bu sahəsinin inkişafında əhəmiyyətli rol oynamışdır. Müharibə və müharibədən sonra yaşanan iqtisadi çətinliklərə baxmayaraq, istehsal olunan kənd təsərrüfatı məhsullarının istehsalında artım qeydə alınmışdır. Belə ki, 1993-cü ilə nisbətən 1994-cü ildə kənd təsərrüfatı məhsullarının həcmi artaraq 143,7 milyon manata çatmışdır. Kənd təsərrüfatı məhsullarının həcmindəki artım 1996-cı ilə qədər davam etmişdir, 1997-ci ildə isə məhsullarda azalma qeydə alınmışdır. Lakin yenidən kənd təsərrüfatı məhsullarının həcmində davamlı olaraq artım müşahidə edilmişdir (Qrafik 2).

**Qrafik 2: Kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manat**




**Mənbə:** ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qeyd edək ki, ölkədə 1993-cü illə müqayisədə 2003-cü ildə ölkəmizdə taxıl istehsalı 1,8 dəfə, şəkər çuğunduru istehsalı 8,9 dəfə, dən üçün günəbaxan istehsalı 36,6 dəfə, kartof istehsalı 5,1 dəfə, tərəvəz istehsalı 2,1 dəfə, bostan məhsulları istehsalı 7,6 dəfə artmışdır. Eyni zamanda bu artım heyvandarlıq məhsullarının istehsalında da müşahidə olunmaqdadır. Belə ki, həmin dövrlə müqayisədə ət istehsalı 1,6 dəfə, süd istehsalı 1,5 dəfə, yumurta və yun istehsalı isə 1,2 dəfə artmışdır. Ümumilikdə isə qeyd edilən illər ərzində adambaşına düşən kənd təsərrüfatının ümumi məhsulu artaraq 2003-cü ildə 177 manat olmuş, həmçinin adambaşına düşən ərzaq istehlakı da müvafiq olaraq artmışdır (ARDSK, 2023).

Bu dövrdə kənd təsərrüfatı və bütövlükdə ərzaq kompleksi böhran vəziyyətindən çıxmış, daxili istehsal tədricən artmağa, ümumi idxalda isə ərzaq məhsullarının xüsusi çəkisi də azalmağa meyllənmişdir (Ataşov, 2005).

Aqrar fəaliyyətin səmərəliliyində Ümummilli lider Heydər Əliyevin uğurla həyata keçirdiyi və mühüm müsbət nəticələrini verən aqrar islahatların, xüsusilə torpaq islahatlarla bağlıdır. Kəndlinin çoxəsrlik arzusu gerçəkləşmiş, o torpağın həqiqi sahibinə çevrilmişdir. İntensiv əmək üçün motivlər sözün həqiqi mənasında reallaşmışdır. Həlledici dərəcədə bunun nəticəsidir ki, ölkədə əhalinin ərzaqla, sənayenin xammalla təminatı səviyyəsi köklü surətdə yaxşılaşmışdır (Quliyev, 2013).

Ümummilli liderin hakimiyyətdə olduğu dövrdən etibarən ölkədə yoxsulluğun səviyyəsi dəfələrlə aşağı düşmüş, kənd yerlərində yeni iş yerləri açılmış, kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının texnoloji əsaslarına, keyfiyyət və qiymətlərinə yeni münasibət formalaşdırılmışdır (Quliyev, 2013).

Hal-hazırda ümummilli lider Heydər Əliyevin uğurlu siyasətinin cənab Prezident İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilməsi digər sahələr kimi kənd təsərrüfatının inkişafına da öz töhvəsini vermişdir. Ölkəmiz bir çox zəruri ərzaq məhsulları üzrə tələbatını əsasən yerli məhsulların istehsalı hesabına ödəyir və eyni zamanda xarici ölkələrə də ixrac edir.

**Nəticə**

Apardığımız tədqiqat işindən belə bir nəticəyə gəlinir ki, ümummilli liderimiz Heydər Əliyevin həm 1969-cu ildə, həm də 1993-cu ildə hakimiyyətə gəlişindən sonra ölkə iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəlməsində və inkişaf etməsində əvəzsiz rolu olmuşdur. Qəbul edilən qərarlar, aparılan islahatlar, uğurlu idarəetmə, düzgün və uzaqgörən siyasət müsbət nəticələrin əldə olunmasında əsas faktorlardan idi. Tədqiqat işindən və statistik göstəricilərdən də məlumdur ki, Heydər Əliyevin hakimiyyəti illərində (1993-2003) ümummilli liderin təşəbbüsü ilə aparılan islahatların nəticəsi olaraq kənd təsərrüfatının müxtəlif sahələrində, əsasən də taxıl, şəkər çuğunduru, kartof, tərəvəz və bostan məhsullarının istehsalında, eyni zamanda heyvandarlıq məhsullarının istehsalında artım müşahidə edilmişdir. Əhalinin zəruri ərzaq məhsullarına olan tələbatının təmin edilməsi ilə yanaşı, həmçinin xarici ölkələrə də istehsal olunan kənd təsərrüfatı məhsulları ixrac edilib.

**Ədəbiyyatlar**


Abbasov, İ.D. (2010). Azərbaycanın kənd təsərrüfatı,"Elm və təhsil" nəşriyyatı, Bakı, 592 səh.

Ataşov, B.X. (2005), Ərzaq təhlükəsizliyinin aktual problemləri, "Elm" nəşriyyatı, Bakı, 336 səh.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, URL: (https://president.az/az/articles/view/57413)

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet ünvanında "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi" üzrə elektron məlumat bazası, URL: https://www.stat.gov.az/source/agriculture/

Eminov, A.N. (2017). Azərbaycana yatırılan sosial investisiyaların inkişaf istiqamətləri (təhsil sektoru timsalında), Azərbaycan Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun elmi əsərləri, Bakı, №3 səh. 47-53.

Əhmədov, B.S. (2017). Kənd təsərrüfatında dövlət dəstəyinin investisiya fəallığına təsirinin qiymətləndirilməsi, Azərbaycan Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun elmi əsərləri, Bakı, №3 səh. 54-60.

Əliyev, İ.N. (1997). Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı, "Azərnəşr" nəşriyyatı, Bakı, 152 səh.

Hacıyev, V.C. (1997). Heydər Əliyev və kənd təsərrüfatının inkişafı, Bakı, 129 səh.

İbrahimov, E.R. (2003). Heydər Əliyev və dövlətin aqrar siyasəti, "Gənclik" nəşriyyatı, Bakı, 776 səh.

İbrahimov, İ.H. (2005). Aqrar islahatlar və sahibkarlığın inkişafı. "Aqrar islahatlar 10 ildə" Respublika elmi-praktik konfransının materialları, Bakı, səh 29-31.

Quliyev, E.A. (2013). Etibarlı ərzaq təminatı sistemi: Kooperasiya və inteqrasiya problemləri, monoqrafiya, "Kooperasiya" nəşriyyatı, Bakı, 308 səh.

Quliyev, E.A. (2015). Aqrar iqtisadiyyat, ali məktəb tələbələri üçün dərslik, "Kooperasiya" nəşriyyatı, Bakı, 320 səh.

Məmmədov, Q.Ş. (2008). Heydər Əliyev torpaq islahatları regionların sosial-iqtisadi inkişafının əsasıdır, Bakı, 232 səh.

Məmmədov, Q.Ş. (2011). Azərbaycanda aqrar islahatlar tənəzzüldən ərzaq təhlükəsizliyinə doğru, “Azərnəşr” nəşriyyatı, Bakı, 352 səh.

Rüstəmov, A.A. və Qasımov, D.Q. (2013). Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi, “Avropa” nəşriyyatı, Bakı, 406 səh.

Salahov, S.V. (2004). Aqrar sahənin dövlət tənzimlənməsi problemləri, “Nurlar” nəşriyyat evi, Bakı, 504 səh.

Seyidəliyev, N.Y. və Hüseynov, H.C. (2020) Heydər Əliyev və Azərbaycanda aqrar sahənin inkişafı, “Vektor” Beynəlxalq Nəşrlər evi, Bakı, 411 səh.

Şirəliyev, A.İ. (2011). Ümummilli lider Heydər Əliyevin aqrar nəzəriyyəsi və aqrar siyasəti, AMEA-nın Naxçıvan bölməsinin xəbərləri: ictimai və humanitar elmlər seriyası, Cild 7, №1, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, səh. 263-267.

Vəliyev, A.H. (2019). Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin tənzimlənməsinin hüquqi-iqtisadi aspektləri, “Avropa” nəşriyyatı, Bakı, 386 s.

Zepeda, L. (2009). Agricultural investment, production capacity and productivity, Conference paper “Agricultural ınvestment and productivity in developing countries”, pp.3-21 URL: https://www.fao.org/3/x9447e/x9447e03.htm

Оржеховская, О.Н., (2016). Принципы инвестирования сельскохозяйственного производства на современных инвестиционных рынках, Международный сельскохозяйственный журнал, №1, Москва, стр. 48-50.

# Dəyər Zəncirinin Rəqabətqabiliyyətliliyi: Azərbaycanda Fındıqçılıq Misalında

**Aygün Şirin**

**Aqrar Tədqiqatlar Mərkəzi**

**aygun.shirinn95@gmail.com**

## Xülasə

Fındıqçılıq Azərbaycan Respublikasının kənd təsərrüfatı sahəsinin aparıcı strateji sektorudur və dünya istehsalçıları arasında ilk beşliyə daxildir. Fındığın təkcə qida məhsulu kimi deyil, bir çox sahələrdə xammal olaraq istifadə edilə biləcəyini və istehsalatda məhsula tələbin sürətlə artacağı ehtimallarına əsasən, gələcək dövr üçün bu sahədə strateji addımlar atılmağının vacibliyinin şahidi ola bilərik. Bu araşdırma, Azərbaycanda sektorun təhlilinə əsasən, fındıq dəyər zəncirinin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi və kiçik fermerlərin zəncirə inteqrasiya edilməsi proseslərini nəzərə alaraq, dəyər zəncirini formalaşdıran hissələrin qarşısında duran maneələri tədqiq etmək məqsədi daşıyır. Dəyər zənciri yanaşması üzərindən təhlil sektorun zəif və güclü tərəflərini müəyyənləşdirməyə, zənciri formalaşdıran əsas və köməkçi iştirakçıların əlavə dəyərin formalaşması mərhələlərində iş mexanizmini analiz edərək, vacib olan təkmilləşmə ehtiyaclarını aydınlaşdırır. Eyni zamanda, analiz vasitəsilə fındıqçılıq sektorunun rəqabətqabiliyyətliliyinin təmin olunmasında zəncirin üç əsas iştirakçıları olan : fermer, emalçı və köməkçi iştirakçıların sektorda rolu təhlil olunmuşdur. Sahə üzrə öncədən araşdırılan və yeni təhlillər əsasında findıqçılıq dəyər zənciri halqasını təşkil edən proseslərin gedişatında baş verən və potensial problemlər analiz olunaraq müəyyən strateji tövsiyyələr verilmişdir.

**Açar sözlər:** Azərbaycan fındıqçılıq sektoru, dəyər zənciri, rəqabətqabiliyyətlilik

**Summary**

Hazelnut growing is the leading strategic sector of the agricultural sector of the Republic of Azerbaijan and is among the top five producers in the world. Based on the fact that hazelnut can be used not only as a food product, but also as a raw material in many fields, and the demand for the product in production will increase rapidly, we can witness the importance of taking strategic steps in this field for the future period. This study aims to assess the competitiveness of the hazelnut value chain and examine the barriers that form the value chain, taking into account the processes of integrating small farmers into the chain, based on the analysis of the sector in Azerbaijan. Based on the value chain approach, the analysis helps to identify the weaknesses and strengths of the sector, by analyzing the working mechanism of the main and auxiliary actors forming the chain in the stages of added value formation, and clarifying the important improvement needs. At the same time, the role of the three main participants in the chain: farmers, processors and auxiliary participants in the sector in ensuring the competitiveness of the nut farming sector was analyzed through the analysis. On the basis of pre-investigated and new analyzes in the field, the potential problems occurring in the process of the hazelnut production value chain were analyzed and certain strategic recommendations were made.

**Key words:** Azerbaijan hazelnut sector, value chain, competitiveness

## Giriş

Dünyada ən çox becərilən fındıq növünün elmi adı Corylus avellanadır. Korylus adı yunanca “korys” (dəbilqə) sözündən gəlir, bu da qozu əhatə edən qaba istinad edir. Fındığın vətəni Avellana qədim Abella şəhərinə (hazırda İtaliyanın Campania bölgəsindəki Avella şəhəri) sayılır. Fındıq haqqında ən qədim qeydlərdən biri eramızdan əvvəl 5000 ilə aid Çin əlyazmasında tapılıb. Bir çox sənaye sahələrində istifadə olunan fındığın dünyada ən böyük istehsalçıları Türkiyə, İtaliya, Azərbaycan, Gürcüstan, ABŞ, Çili və Çindir.

Azərbaycan dünyada ən böyük fındıq istehsalçılarından biridir və kənd təsərrüfatı torpaqlarının böyük bir hissəsini fındıq əkininə həsr edir. Fındıq əsasən şimal-qərb və şimal rayonlarında becərilir.Fındıqçılıq Azərbaycan iqtisadiyyatına mühüm töhfədir. Azərbaycanda fındıq istehsalının

dəyəri 100 milyon manata yaxındır və kənd təsərrüfatı istehsalının ümumi dəyərinin təxminən 1-2%-ni təşkil edir (Food and Agriculture Organization Statistics, 2020). Fındıqçılığın təsərrüfat gəlirləri, məşğulluq və kənd yerlərinin inkişafı üçün əhəmiyyəti daha yüksəkdir. İstehsalın təqribən 80%-i ixrac edilir. Statistik məlumata əsasən qabığı soyulmuş fındığın ixrac dəyəri 2021-ci ildə təqribən 109 milyon ABŞ dolları təşkil etmişdir.

Azərbaycanda kənd təsərrüfatı sektorunun vacib məhsulu olan fındığın məhsuldarlığı ilə bağlı bir sıra problemlərə rast gəlinir. Belə ki, mövcud iqlim şəraitinin dəyişməsi, zərərvericilər və xəstəliklərin yayılması, ekoloji problemlər və geosiyasi hadisələrdən gələn təhdidlər, su çatışmazlığı və əsasən sovet dövründən qalan suvarma sistemlərinin dağılması nəticəsində geniş ərazilərin deqradasiyası və şoranlaşması kimi problemlər görülməkdədir.

Azərbaycanda fındıq əsasən, kiçik və ailə təsərrüfatları tərəfindən yetişdirilir. Ənənəvi texnika və avadanlıqlardan istifadə etməklə fermerlər adətən bir hektar və ya daha az sahədə fındıq becərirlər. Fındığın əsas istehsalçıları olan kiçik təsərrüfat sahiblərinin formal təhsili çox vaxt aşağı səviyyədə olur, yəni onlar (yüksək) keyfiyyət tələblər ilə məşğul olmaqda çətinlik çəkirlər. Keyfiyyətli istehsal yetişdirmə texnikası və yeni texniki avadanlıqlar tələb edir. Bundan əlavə, bir çox təsərrüfat sahiblərinin bazara inteqrasiya edə bilməməsi, onların böyüməsinə və inkişafına olan maneəçiliklər, işlək rabitə şəbəkəsinin və infrastrukturunun yaradılmasındakı boşluqlar, maliyyə imkanları və əlçatanlıq problemləri fındığın bazar qiymətlərinin, xüsusən də 2022-ci il mövsümündə satış qiymətlərinin dəyişməsinə gətirib çıxartdı (FAO, 2018).

Dövlətin səylərinə baxmayaraq, fındıq sektorunda tədqiqat fəaliyyətləri və imkanları aşağıdır ki, bu da kənd təsərrüfatı sektorunun məhsuldarlığı və dayanıqlığının təhlilinin aşağı səviyyədə olduğunu əks etdirir. Bütün bu kimi problemlər davamlılığı və dairəvi iqtisadiyyatı əhatə edən yeni biznes modelləri və dəyər zənciri kimi analiz vasitəsilə sahənin hərtərəfli təhlilinin aparılması üzərində təyziqi artırır.

Fındıqçılığın rəqabətqabiliyyətliliyinin təmin olunmasında dəyər zənciri analizinin mühüm vəzifəsini bir neçə aspektdən dəyərləndirə bilərik ki, bu da qarşıya qoyulmuş məqsədləri göstərir:

- Ərzaq dəyər zənciri müəyyən kənd təsərrüfatı məhsullarını istehsal edən, onları son istehlakçılara çatdıran və bu proseslərdə müəssisələrin və onların əlaqələndirilmiş əlavə dəyər yaradan fəaliyyətlərinin məcmusunun təhlili nəzərdə tutulur. Zəncir boyu hərəkət ardıcıl olaraq gəlir gətirir, cəmiyyət üçün geniş fayda verir və təbii resurs bazasını qoruyur.
- Rəqabətqabiliyyətliliyin artırılması strategiyasının işlənib hazırlanmasında müvafiq dövlət qurumlarına/institutlarına dəstək verilməsi (potensial bazarlarda Azərbaycan fındıqlarının rəqabət gücünün formalaşması üçün vaxtında reaksiya mexanizmləri).

Fındıq dəyər zənciri mövcud olan şərtlərin (elementlərin, performans, əlaqəli siyasətlərin və digər dəstək xidmətlərinin təşkili) və zəncir koordinasiyası: fermer-bazar əlaqələri, maliyyə əməliyyatları, müqaviləli əkinçilik və s. kimi proseslərin həllini nəzərdə tutur. Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikasının kənd təsərrüfatı sahəsinin aparıcı sektoru olan fındıqçılığın dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılması, müxtəlif analiz metodları vasitəsilə sektorun geniş baxışlı təhlili və strateji istiqamətdə addımların atılmasının vacibliyinin ortaya qoyulması araşdırmanın başlıca məqsədidir.

## Materiallar və Metodlar

### Azərbaycan fındıq istehsalı və ticarəti

Azərbaycan dünyada fındıq istehsalına və sahəsinə görə üçüncü yerdədir (48,9 min hektar fındıq əkini və istehsalı 67 min ton). Dünyanın digər aparıcı fındıq istehsalçıları ABŞ, Gürcüstan, Çili və Çindir. ABŞ 25 min hektar sahədə təxminən 70 min ton fındıq istehsal edir. ABŞ-da orta məhsuldarlıq Azərbaycandan iki dəfə, Gürcüstanda isə cəmi 30% yüksəkdir (FAOStat 2021-ci il üzrə məlumatları).

2013-2021 illərində fındıq əkilən sahələr əhəmiyyətli dərəcədə artaraq 80.000 hektara çatmışdır (Şəkil 2).

**Şəkil 1. Növlər üzrə meyvə bağlarının ümumi məhsul sahəsi**




Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

https://www.stat.gov.az/source/agriculture/?lang=en)

**Şəkil 2. Fındıq sahələri, ümumi və yeni əkin sahələri (2013-2021-ci illər), ha**




Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Eyni zamanda, fındıq istehsalı da artmışdır (Şəkil 3). İstehsalın artması məhsuldarlığın (məhsulun) deyil, əkin sahələrinin artmasının nəticəsidir.

**Şəkil 3. Azərbaycanda fındıq istehsalı (2013-2021-ci illər, ton)**




Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Azərbaycanda fındığın məhsuldarlığı aşağıdır, yaxud dünyanın ən böyük 10 fındıq istehsalçısının əksəriyyəti ilə müqayisədə daha azdır (Şəkil 4).

**Şəkil 4. Azərbaycanda və iki əsas iqtisadi rayonda fındığın məhsuldarlığı (2013-2021-ci illər, 100 kq/ha)**




Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Azərbaycan kənd təsərrüfatı məhsullarının xalis idxalçısıdır (Şəkil 5). İxracat 2016-cı ildən sonra artsa da, lakin idxalla bağlı vəziyyət eyni olaraq qalır. Kənd təsərrüfatı üzrə çatışmazlıq əhəmiyyətli dərəcədədir.

Cədvəl 1 təmizlənmiş fındıq qiymətlərini əks etdirir. Rəqəmlər, kəmiyyət və dəyər baxımından

təmizlənmiş fındığın ixracı artır. İxrac olunan təmizlənmiş fındığın miqdarı və dəyəri qabıqlı fındığın dəyərindən çoxdur.

**Cədvəl 1. Azərbaycandan fındıq ixracı, miqdarı (t) və dəyəri (1000 ABŞ dolları)**

| | İxrac miqdarı, t | | İxrac dəyəri, '000 ABŞ dolları | |
|---|---|---|---|---|
| İl | Fındıq, qabıqlı | Fındıq, təmizlənmiş | Fındıq, qabıqlı | Fındıq, təmizlənmiş |
| 2010 | 72 | 8,468 | 106 | 35,172 |
| 2011 | 36 | 12,882 | 65 | 57,179 |
| 2012 | 79 | 10,250 | 152 | 45,781 |
| 2013 | 2 | 10,415 | 5 | 45,151 |
| 2014 | 242 | 11,838 | 1,030 | 67,762 |
| 2015 | | 11,355 | | 80,322 |
| 2016 | 3 | 13,388 | 6 | 83,834 |
| 2017 | 78 | 16,297 | 196 | 85,575 |
| 2018 | 280 | 18,223 | 654 | 93,507 |
| 2019 | 616 | 22,023 | 1,414 | 124.208 |
| 2020 | 1,025 | 17,867 | 2,747 | 113.588 |
| 2021 | 1,122 | 18,338 | 3,033 | 108.755 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

**Şəkil 5. Fındığın ixrac qiymətləri (dünya üzrə)**




Mənbə: FAOStat

2014-cü ildən başlayaraq, bir neçə illik davamlı qiymət artımından sonra fındığın bazar qiyməti hər il aşağı düşmüşdür (Şəkil 5). 2014-cü ildə qabıqlı fındığın qiyməti 2500 dollar idisə, 2020-ci ildə bu rəqəm 1100 dollara enmişdir. Qiymətin düşməyə davam edəcəyi gözlənilir. Bu cür gözləntilər bir neçə amilə əsaslanır: qlobal tədarükün artması və bazarda yeni oyunçuların meydana çıxması (məsələn, Çilidə), qənnadı sənayesinin yerli tədarük təşəbbüsləri (məsələn, İtaliyadakı "Ferrero" şirkəti) və qənnadı sənayesinin marketinq gücü. Belə bir şəraitdə aşağı xərclərə əsaslanan rəqabət qabiliyyəti münasib seçim deyil. İqtisadi səmərəlilik (daha yüksək məhsuldarlıq) və tədarük zəncirinin səmərəliliyi (daşınma, saxlama, təmizləmə və qablaşdırma avadanlığı olan toplama mərkəzləri) ilə birlikdə keyfiyyətə (orqanik istehsal daxil olmaqla) əsaslanan fərqlənmə mümkün

strategiyalardan biridir.

Bəzi dəyər zənciri aktorları dövlətin bazara və qiymətlərə güclü müdaxiləsini müdafiə edirlər. Hökumətlər fermerlərin öz malları üçün ədalətli qiymət qoymasını təmin edərək, müəyyən kənd təsərrüfatı malları üçün minimum qiymət təyin edə bilərlər. Bu, müdaxilə qiymətin müəyyən edilməsi və izafi əmtəələrin alınması yolu ilə həyata keçirilə bilər (Stryker, 2009). Buna baxmayaraq, qiymət dəstəyi tədbirlərinin təhrif edilməsi bazar siqnalları, büdcə problemləri, ekoloji problemlər və ticarət mübahisələri ilə əlaqədardır. Fındıqçılıqda fermer aflatoksinin azaldılması və eradikasiya tədbirlərini, məsələn; yığımdan əvvəl, məhsul (vaxtında) və məhsuldan sonrakı tədbirləri tətbiq edərsə, əlavə mükafatla əlaqəli ola biləcək istehsalla əlaqəli ödənişləri əlavə edə bilərik. Təbii ki, burda dəyər zəncirinin daha yaxşı fəaliyyət göstərməsinə və kiçik sahibkarlara birbaşa və dolayısı ilə töhfə verən digər tədbirlər də nəzərə alınmalıdır.

**Fındıq üzrə dəyər zəncirinin təhlili**

Dəyər zənciri təhlili zəncirvari fəaliyyətlərin necə həyata keçirildiyini xarakterizə etməyə və zəncir iştirakçıları arasında dəyərin necə yaradıldığını və paylaşıldığını analiz edir. Həmçinin, iştirakçıların fəaliyyətini qiymətləndirməyə və əgər varsa, onların inkişafı üçün maneələrin nə olduğunu müəyyən edir. Beynəlxalq təcrübələr tez-tez zəncirvari təhlillərin kənd təsərrüfatı, qida və lif sistemlərinin səmərəliliyinin artırılması istiqamətində mühüm alət ola biləcəyini nümayiş etdirir. Güclü və zəif tərəfləri üzə çıxarmaqla, bu cür təhlillər maraqlı tərəflərə və siyasətçilərə düzəldici tədbirləri müəyyən etməyə və inkişaf potensialının müəyyən edildiyi sahə və fəaliyyətlərin inkişafını üzə çıxarmağa kömək edir. Düzgün həyata keçirildikdə, onlar həm də zəncir iştirakçıları arasında problemlər və imkanlarla bağlı ortaq bir baxış bucağı yaratmağa və beləliklə, əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə kömək edə bilər.

Dəyər zəncirləri məhsul və ya xidməti konsepsiyasından təhvil alaraq son bazarlarda - istər yerli,milli,regional, istərsə də qlobal səviyyədə satışa çıxarmaq üçün tələb olunan fəaliyyət və xidmətlərin tam spektrini əhatə edir. Dəyər zəncirinin təhlili:

A. Müəyyən bir ölkədə xüsusi dəyər zəncirinin iştirakçılarının və onlar arasında qarşılıqlı əlaqənin ətraflı xəritəsini ortaya qoyur.

B. Yeddi analitik ölçü ilə bağlı dəyər zəncirində inkişaf vəziyyətinin təsvirini verir. Bunlar :

• giriş və təchizat mənbələri,

• istehsal gücü və texnologiyası,

• son bazarlar və ticarət,

• idarəetmə,

• dəyər zənciri maliyyəsi,

• davamlı istehsal və enerji istifadəsi,

• biznes mühiti və ictimai-siyasi kontekst.

C. Zəncirvari inkişafa dəstək verən agentlər arasında tədbirlərin həyata keçirilməsi və maliyyələşdirilməsi üçün strategiyaların hazırlanmasına gətirib çıxaran dəyər zəncirinin inkişafı üçün məhdudiyyətlərin və imkanların müəyyən edilməsi.

Dəyər zənciri fermerlər, vasitəçilər, xammal tədarükçüləri və emalçılardan ibarətdir və ümumiyyətlə üç fərqli mərhələni əhatə edir: 1) istehsal, 2) yığım/məhsuldan sonrakı (təmizləmə, qurutma və

saxlama)/daşınma və 3) emal və ixrac. Dəyər zənciri çərçivəsində fermerlərə (Kənd Təsərrüfatı Nazirliyi və onun qurumları, yerli hakimiyyət orqanları, assosiasiyalar və donor təşkilatlar) və emalçılara (İqtisadiyyat Nazirliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi) kömək edən və ixracı təşviq edən müxtəlif dəstəkləyici qurumlar mövcuddur (Burchell, Boor, Galanti, and Markhof, 2014).

2015-ci ildə qeydə alınmış kənd təsərrüfatı məhsulları istehsalçılarının sayı 1,2 milyona yaxındır. İndiyə qədər ən böyük qrup (ümumi sayların 99%-i) bazar yönümlü fərdi fermerlərdən və əsasən ev istehlakı üçün istehsal olunan kənd təsərrüfatı torpaqlarına malik "ev təsərrüfatlarından" ibarət ailə təsərrüfatlarından ibarətdir. Azərbaycanın kənd təsərrüfatı sektoru çox dağınıqdır, yəni orta hesabla kiçik torpaq sahələri olan çox sayda kiçik təsərrüfatlar var. Fındıqçılıq dəyər zəncirinin birinci mərhələsində kiçik fermerlər üstünlük təşkil edir. Daha az sayda, lakin həcm və dəyər baxımından əhəmiyyətli olanlar emalçılara məxsus kommersiya təsərrüfatları və plantasiyalardır. Bəzi fermerlər yerli bazarda və Bakıda qeyri-rəsmi əlaqələr vasitəsilə birbaşa istehlakçılara məhsul satırlar. Məhsul yığımı və sonrakı proseslər çox vaxt uyğun həyata keçirilmir. Bəzi fermerlər çox erkən, fındıq tam yetişməmiş məhsul yığırlar. Bu halda, məhsul daha ağır və yaş olur və əlbəttə ki, sonrakı emal üçün uyğun deyil. Bundan əlavə, fındıq plastik torbaya yığılır. Belə kisələrdə məhsul emal müəssisələrinə daşınmazdan əvvəl bir-iki gün qalır. Qurutma, əgər tətbiq olunarsa, adətən zirzəmidə, çardaqda, qarajda və ya oxşar yerlərdə saxlanılması nəzərdə tutulur. Hava axınının çətinləşdiyi yerlərdə isə, məhsul yararsız hala düşmək təhlükəsi ilə üzləşir.

Təmizləmə xidməti (qabığın çıxarılması) vacibdir və fındıq üçün daha yüksək qiymət gətirir. Belə xidməti daha çox kəndlilər təklif edirlər (daha çox sahibkarlıq ruhuna malik olan və mütləq fındıq fermerləri deyil, bəzi hallarda bu xidməti vasitəçilər də göstərir). Bu xidmətin dəyəri təmizlənmiş ümumi məbləğin təxminən 3%-ni təşkil edir. Araşdırma nəticəsində fermerlərin bu cür xidmətləri almaq və paylaşmaq üçün birləşdiyinə dair heç bir sübut tapmadıq. Buna baxmayaraq, onlardan bəziləri belə planları olduğunu (qadın qrupu) qeyd etdi.

Fermerlər istehsal etdikləri fındıqların təxminən 50%-ni vasitəçilərə, təxminən 50%-ni isə emalçılara satırlar. Normal halda fermerlər fındığı saxlamırlar, lakin aşağı qiymətə görə bu mövsümdə qiymət riskinin idarə edilməsi adi bir təcrübəyə çevrilib. Ödəniş tədarük miqdarından asılı olaraq edilir. Fermerlərlə emalçılar arasında rəsmi müqavilələrə əsaslanan münasibətlər nadir hallarda baş verir. Fermerlər arasında əməkdaşlıq göatəriciləri zəifdir və ya yox dərəcəsindədir.

"Şərabda fiziki-kimyəvi və biokimyəvi turşuların azaldılması" tədqiqatı, şərabın keyfiyyətini yaxşılaşdırmaq, istehlakçılara daha yaxşı məhsul təqdim etmək və şərabın sağlamlıq üzrə təsirini

azaltmaq məqsədilə turşu elementlərinin azaldılması proseslərinin effektivliyini araşdırmış və təkmilləşdirmişdir. Tədqiqatın əldə edilmiş nəticələri, şərabın tərkibindəki turşu elementlərinin təsirinin daha dərin başa düşülməsini, mövcud və yeni texnologiyaların effektivliyinin qiymətləndirilməsini və şərab istehsalında turşuluğun optimal şəkildə azaldılmasının təmin edilməsini mümkün edir.

Tədqiqat, şərab istehsalçılarına turşu elementlərinin azaldılması ilə bağlı ən yaxşı tətbiq edilmiş proseslər və texnologiyaları təqdim etmək üçün mühüm məlumatlar təmin edir. Bu, şərabın ümumi keyfiyyətini artırmaq, istehlakçı rəqabətini yüksəltmək və turşu elementlərinin sağlamlığa təsirini azaltmaq üçün mühüm bir addımdır.

Son nəticədə, bu tədqiqat şərab istehsalının təkmilləşdirilməsi, keyfiyyətin yüksəldilməsi və istehlakçıların sağlamlığına təsirinin azaldılması üçün mühüm əhəmiyyətə malikdir. Bu tədqiqatın nəticələri, şərab istehsalçıları və alimlər üçün qiymətli məlumatlar təmin edərək, bu sahədə daha çox təcrübə və yeniliklər üçün əsas yaradır.

**Ədəbiyyat siyahısı**

Sadecka, J. Electrophoretic methods in the analysis of beverages / J. Sadecka, J. Polonsky // Journal of Chromatography A. - 2000. - V. 880. - P. 243-279.

Desportes, C. Liquid chromatographic fractionation of small peptides from wine / C Desportes [et al.] // Journal of Chromatography A. - 2000. - V. 893.-P. 281-291.

Buratti, S. Characterization and classification of Italian Barbera wines by using an electronic nose and an amperometric electronic tongue / S. Buratti, S. Benedetti, M. Scampicchio, E.C. Pangerod // Analytica Chimica Acta. - 2004.-V. 525.-P.

133-139. Носик, О.С. Разработка методики выявления фальсификации столовых марочных вин / О.С. Носик. - Автореф. дисс. ... канд. техн. наук. - Ялта, 2000. - 25 с.

Kable, M.E, Kjelleberg, S, and Truelstrup, H. L. (2019). Microbial mechanisms of bio-acidification in industrial processes: An updated review. Applied Microbiology and Biotechnology, 103(17), 7079-7093.

Knauss, J, Jafari, M, and Rohm, H. (2018). Reduction of sourness in fermented dairy products: A review. Journal of Dairy Science, 101(6), 4005-4021

Pimentel, T, Moreno, MJ, Santos, M, and Peres, C. (2018). Development of a physicochemical model to predict acid reduction during food processing. Food Control, 84, 183-190.

Wang, Y, Li, H, Liang, Y, and Li, X. (2021). Microbial acid reduction for the production of functional foods: A review. Trends in Food Science and Technology, 107, 71-81.

Zhang, W, Hu J, and Cui, W. (2020). Physicochemical and sensory properties of fermented milk products with reduced acid content: A review. Journal of Dairy Science, 103(9), 7763-7773.

Лян,И и Ли, С. (2020). Снижение микробной кислоты для производства функциональных пищевых продуктов: обзор. Тенденции в пищевой науке и технологии, 107, 71-81.

Цуй В. (2020). Физико-химические и органолептические свойства кисломолочных продуктов с пониженным содержанием кислоты: обзор. Журнал молочной науки, 103 (9), 7763-7773.

Peres, C. (2018). Qida emalı zamanı turşunun azaldılmasını proqnozlaşdırmaq üçün fiziki-kimyəvi modelin işlənib hazırlanması. Qida Nəzarəti, 84, 183-190.

# Azərbaycan Respublikasında Reklamın İnkişafının Mövcud Vəziyyətinin Təhlili

**dos.Pikəxanım Xudiyeva**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**pikakhanim.khudiyeva@unec.edu.az**

**Leyla Zeynalova**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**leyla_zeynalova@unec.edu.az**

## Xülasə

Reklam istehlakçılara seçim etmək imkanı yaradır ki, onlar həm keyfiyyət, həm də qiymət baxımından öz tələblərinə uyğun məhsul və ya xidməti ala bilsinlər. Bu da öz növbəsində getdikcə marketinqin inkişafına, nəticədə də reklam fəaliyyətinin yaxşılaşdırılmasına daha çox material vəsaitləri və intellektual potensial sərf olunmasına təsir göstərir. Bu səbəbdən ilk öncə Azərbaycan Respublikasında reklamın əhəmiyyəti, məhsulların satışından və xidmətindən əldə olunan gəlirləri araşdırılmışdır. Sonra isə sorğu metodları vasitəsilə hansı cür reklamların istehlakçılara təsiri müəyyən edilmişdir.

Məqalədə əsas dövr olaraq, 2017-2021-ci illərin göstəriciləri analiz olunmuşdur. Analiz zamanı reklam fəaliyyətinin bir forması olan reklam informasiyasının hazırlanmasından əldə olunan gəlirlərin yüksək olduğu öz əksini tapmışdır. İstehlakçılar arasında reklam növlərinin effektivliyinin ölçülməsi məqsədi ilə istehlakçıların cins və yaşına, təhsil səviyyəsinə və aylıq orta gəlirlərinə əsasən sorğular keçirilmiş və müəyyən nəticələr əldə olunmuşdur. Bununla yanaşı həm də istehlakçıların alıcılıq davranışına təsir edən reklam formaları araşdırılmış və mağaza və yaxud obyektlərin qarşısında olan kreativ çöl reklamların daha çöx təsir etdiyi müəyyən edilmişdir. Biz məqalədən əldə olunan nəticələr əsasında müəsisə və şirkətlərin istehlakçıları cəlb etmək üçün hansı reklamlara daha çox diqqət yetirməli olduqlarını müəyyən edə bilərik.
**Açar sözlər:** reklam, cəlb edici reklam formaları, istehlakçı davranışı, sorğu metodu.

## Summary

Advertising allows consumers to make choices so that they can purchase a product or service that meets their needs in terms of both quality and price. For this reason, first of all, the importance of advertising in the Republic of Azerbaijan and the income from the sale of products and services were investigated. Then, through survey methods, the effect of advertisements on consumers was determined.

In the article, the guidelines for the years 2017-2021 were analyzed as the main period. During the analysis, it was noted that the incomes obtained from the preparation of advertising information are high. In order to measure the effectiveness of advertising types among consumers, surveys were conducted based on consumers gender and age, education level, and average monthly income. At the same time, the forms of advertising that influence the buying behavior of consumers were investigated, and it was determined that creative outdoor advertisements in front of stores or objects have more influence. Based on the results obtained from the article, we can determine which advertisements businesses and companies should pay more attention to in order to attract consumers.

**Keywords:** advertising, attractive advertising forms, consumer behavior, survey method.

## Giriş

Reklam bazarla lazımi ünsiyyəti təmin edərək, məlumat axınını reallaşdırmaq, şirkətlərin, alıcıların alış qərarlarına təsir etmək və onları öz məhsullarını almağa inandırmaq üçün tez-tez istifadə etdikləri mühüm tanıtım vasitəsidir (Başaran və Yıldız, 2022). Həmçinin reklam istehsalçının mənfəət və ya satışını əldə etməyə deyil, satışı asanlaşdırmağa əsaslanan ünsiyyət vasitəsi kimi də çıxış edir. Bundan əlavə iqtisadiyyat alimləri reklama müxtəlif təriflər vermişdirlər. Məsələn, Glasser reklamın tərifini belə demişdir: "Bir əmtəə və ya xidmətlə bağlı mesajın bazar vahidlərinə şifahi və ya vizual şəkildə təqdim edilməsi üçün edilən hərəkətlərə reklam deyilir" (Nur, 2019). Reklamın geniş kütləyə əhatə etmə qabiliyyətinə görə kütləvi satış da adlandırıla biləcəyini deyən Tayfur, reklamın alıcıların əmtəə və xidmətlər haqqında məlumat əldə etməsinə kömək etdiyini bildirmişdir (Şahin, 2017 ). Burnettə görə isə reklam sadə, yaddaqalan, cəlbedici və zövqlü olmalıdır. Əsas məqsəd düşüncələr vasitəsilə məhsul və xidmətlərin satışını və prestijini artırmaq olmalıdır (Nur, 2019). Jules Backman isə reklamın əhəmiyyətini belə izah edir: İstənilən məhsula olan tələbat müxtəlif amillərdən asılıdır (Nur, 2019). Bu amillərə istehlakçının gəlirlərinin səviyyəsi və dəyişməsi, qiymətləri, bu məhsulları əvəz edə biləcək digər məhsulların mövcudluğu və xərcləri, əhalinin dəyişməsi, coğrafi şərait, zövqlər, din, adət-ənənələr və s. reklam kimi göstərmək olar (Nur, 2019). Reklam təkcə məhsulun texniki, fiziki və funksional faydalarını təqdim edən bir ünsiyyət vasitəsindən başqa, həm də psixoloji və sosial məzmunu özündə birləşdirən, həyat tərzi və münasibətləri vurğulayan bir ünsiyyət növüdür (Şahin, 2017 ).

Ümumilikdə reklam dedikdə, fərdlərin, şirkətlərin, məhsulların və xidmətlərin ictimaiyyət tərəfindən təqdim və qəbul edildiyi vəziyyət kimi müəyyən edilir. İstehlakçılar üçün reklam bazar şəraitində çeşidlər arasından ən uyğun məhsul və ya xidmətin seçilməsi baxımından əhəmiyyətlidir. Elden və Bakıra görə reklam təkcə əmtəə və ya xidmətlərin satışını təmin etmək və ya artırmaq üçün manipulyasiyaya yönəlmiş bir üsul deyil, istehsalçıların istehlakçılarla ünsiyyət qura və özlərini ifadə edə biləcəyi ünsiyyət forması olaraq görülür (Nur, 2019). Reklamın istehlakçılara təsirini qiymətləndirilməsində reklamı görən istehlakçıların sayı, reklamı xatırlayanların sayı, inandırıcılıq dərəcəsi, anlaşıl olma dərəcəsi və s. vasitəçi dəyişənlərin köməyi ilə satış zamanı məhsul və ya xidmətlərdə reklamın təsirini qiymətləndirmək mümkündür.

Bu səbəbdən günümüzün rəqabət mühitində reklam bazarda yerini təmin etmək və istehlakçıda müəyyən yer tutmaq üçün əvəzedilməz bir ünsiyyət elementi kimi görülür.

## Metod

Tədqiqat zamanı əsasən müqayisəli, sorğu və statistik təhlil metodlarından daha çox istifadə olunmuşdur. Azərbaycanda reklamın idarə edilməsinin öyrənilməsində statistik tədqiqatlardan kifayət qədər geniş tətbiq olunmuşdur. Məqalə yazılarkən, induksiya-deduksiya, sorğu və müqayisəli təhlil metodundan istifadə edilmiş, Azərbaycanda hansı növ reklamların daha çox cəlb olunduğu və onlardan əldə olunan gəlirlərin dövrlər üzrə nəticələri göstərilmişdir. Bunun nəticəsində istehlakçılara hansı növ reklam formaların nə dərəcə təsir göstərdiyi də öz əksini tapmışdır.

## Analiz

Belə ki, sahibkarlıq fəaliyyətinin inkişafı birbaşa ticari reklamlara təsir etməklə, onun həcmini 80 %-ə qədər yüksəltdi. Elə həmin dövrdə də Reklam haqqında Azərbaycan Respublikasının Qanunu da qəbul edilmişdir. Bu qanunun da qəbul edilməsi reklam fəaliyyətinin inkişafına səbəb oldu (Mammadova, 2019). Bundan əlavə də həmçinin 25 noyabr 1995-ci ildə Azərbaycan Reklam İttifaqı yaradılmış və ARİ-nin yaradılması ilə qəzet və jurnal nəşri başlanmışdır. Həmin illərdə ölkədə

yaşanan problemlərə görə müxtəlif dövrlərdə kommersiya və siyasi reklamlarda dalğalanmalar olmuşdur. Belə ki, SSRİ dövründə siyasi reklamların üstünlüyü daha yüksək olmuşdur. Lakin Azərbaycan müstəqillik əldə etdikdən sonra kommersiya reklamları üstünlük təşkil etməyə başladı. Bunun əsas səbəbi reklam bazarında şirkətlərin ənənəvi mediadan internetə və sosial şəbəkələrə miqrasiyasıdır. Azərbaycanda reklam bazarının formalaşması və inkişafı iki mərhələyə bölünür (Usubova, 2019): Buna 1-ci mərhələ olaraq, 1995-2004-cü illəri və 2-ci mərhələyə isə 2004-2019-cu illər aid edilir. Birinci mərhələdə ən yüksək göstərici kimi 1997-ci ildə Azərbaycan reklamın həcmi 12 milyon dolları keçmişdir. Lakin 2000-ci illərdəki böhran Azərbaycanın reklam sənayesindən də yan keçməmişdir. Reklam həcmi 2000-ci ildə 2 milyon dollara qədər azalmış, 2004-cü ildə yenidən yüksəlməyə başlamış və 4 milyon dollara çatmışdır. Reklam bazarının inkişafının ikinci mərhələsində reklam bazarı sürətlə inkişaf etməyə başlamış və 2008-ci ildə 2004-cü illə müqayisədə reklam dövriyyəsi 4.7 dəfə artmışdır. Artım prosesi sonrakı illərdə də davam etmişdir. Məsələn, 2009-cu ildə 2.1%, 2010-cu ildə 23.4%, 2011-ci ildə 57.2%, 2012-ci ildə 26.7%, 2013-cü ildə 18% olmuşdur (Usubova, 2019).

İkinci mərhələdə Azərbaycan Respublikasında reklam bazarının sürətli inkişafına təsir göstərən amillərdən biri də Azərbaycan Dövlət Reklam Agentliyin yaradılmasıdır. ADRA Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2017-ci ildə 1472 nömrəli Fərmanı ilə publik-hüquqi şəxs olaraq yaradılmışdır (Azərbaycan Dövlət Reklam Agentliyi, 2022). ADRA açıq məkanda reklam daşıyıcılarının yerləşdirilməsi, onlar üzərindəki reklamların hazırlanması və yayımlanması sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirir (Azərbaycan Dövlət Reklam Agentliyi, 2022). Fəaliyyətinin əsasında reklam ekosisteminin inkişafı, sahibkar məmnuniyyəti, şəffaflıq, məsuliyyət və nəzakətlilik prinsipləri durur. Tərifindəndə də aydın olunduğu kimi ADRA-nın əsas məqsədi açıq məkanda olan reklam mühitini sağlamlaşdırmaq, inkişaf etdirmək, reklamın məzmunu və reklam daşıyıcıları üzrə hüquqi və texniki tələblərin qorunmasını təmin etmək, reklam yayıcıları və sahibkarlara dəstək vermək, onları maarifləndirmək, reklam yayımı üzrə qanunsuz ödənişlərdən azad etmək və reklam daşıyıcılarının qeydiyyatı üçün vaxt sərfini azaltmaqdır (Azərbaycan Dövlət Reklam Agentliyi, 2022).

Bununla əlaqədar olaraq, ADRA-nın yarandığı dövrlə sonrakı dövrü müqayisə etmək üçün 2017-2018-ci illərdə reklamdan əldə olunan gəlirləri aşağıdakı qrafik 1-də nəzərdən keçirək.

**Qrafik 1. 2017 və 2018-ci illərdə Azərbaycanın kütləvi informasiya vasitələrinindən əldə olunan reklam gəlirləri (min manat)**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/catering/) (31.12.2018)

Qrafik 1-də görürük ki, 2017-ci ildə TV reklamından əldə olunan gəlir 3.5 milyon manat olduğu halda, 2018-ci ildə isə demək olarki, 2 dəfəyə yaxın artım olaraq, 6.9 milyon manata yüksəlmişdir. Radionun gəlirlərinə baxdıqda isə 701 min manatdan 360.2 min manata qədər, TV-də olduğu kimi 2 dəfəyə yaxın azalma olduğunu müşahidə edirik. İnternetin geniş yayılması ilə qəzet və jurnalların reklamı 35 500 manatdan 1000 manata azaldığını, internet reklamından əldə olunan gəlirin isə 352 min manatdan 474 500 manata yüksəldiyi görsənir.
Bu qrafik 1-dəki göstəricini başqa formada isə aşağıdakı qrafik 2-də %-lər şəklində ümumi reklamlardakı paylarını aydın şəkildə göstərmək olar.

**Qrafik 2. Azərbaycanın kütləvi informasiya vasitələrinin ümumi reklam bazarındakı payı**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/catering/) (31.12.2018)

Qrafik 2-də kütləvi informasiya vasitələri olan tv, radio, internet və qəzet və jurnalların ümumi reklam bazarındakı payları göstərilmişdir. Həmin illərdə ümumi reklamda ən yüksək göstərici 89.25%-lə televizor reklamları təşkil edir. Ondan sonra da aşağı faizlərlə internetin 6.12%, radionun 4.65%, qəzet və jurnal reklamların isə 0.01% təşkil etdiyi görünür. Burdan da belə nəticəyə gəlmək olur ki, ADRA-nın reklamin inkişafında təsiri tv reklamlardan əldə olunan gəlirlərdə öz əksini tapır.
Ümumiyyətlə reklam sahəsində olan dəyişikləri ADRA-nın yaranmasından sonrakı illərdə nəzərdən keçirsək, aydın şəkildə reklamın məhsulun satışından və xidmətlərin göstərilməsindən əldə olunan gəlirlərində də artım olduğunu görərik. Bunun üçün biz müəyyən bir dövr üzərindən (2017-2021-ci illər) araşdırma aparsaq, aşağıdakı qrafik 3-dəki göstəriciləri əldə etmiş olarıq.

**Qrafik 3. 2017-2021-ci illərdə məhsulun satışından və xidmətlərin göstərilməsindən əldə olunan gəlirlər( min manat)**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/catering/) (31.12.2021)

Qrafik 3-də Azərbaycan Respublikasında 2017-2021-ci illərdəki reklamın məhsulun satışından və xidmətlərin göstərilməsindən əldə olunmuş gəlirləri öz əksini tapmışdır. Belə ki, 2017-ci ildə məhsul satışı və xidmətlərindən əldə olunan gəlir 44 400.3 min manat, 2018-ci ildə bu məbləğ 15% artaraq, 51 183.5 min manat, 2019-cu ildə 43% artaraq, 73 608.9 min manat, 2020-ci ildə isə 7% artım olmaqla, 79 208.8 min manat və son olaraq 2021-ci ildə də 25% artaraq, 98 860.2 min manat təşkil etmişdir. Ümumilikdə 2017-ci ildən götürsək, reklam fəaliyyəti nəticəsində əldə olunan gəlirlərdə 2021-ci ildə həmin məbləğ 2 dəfədən çox artım müşahidə olunmuşdur.

Eyni zamanda Azərbaycan Respublikasında reklam fəaliyyətindən 2017-2021-ci illər aralığında əldə olunan reklam gəlirlərinin strukturundakı (min manatla) artımı da aşağıdakı cədvəl 1-də görmək mümkündür.

**Cədvəl 1. 2017-2021-ci illərdə reklam gəlirlərinin strukturu, min manatla**

| reklam fəaliyyətindən əldə olunan gəlir | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| reklam informasiyasının hazırlanmasından | 13 196.7 | 12 434,8 | 21 852.3 | 30 260.6 | 32 005,6 |
| reklamın yerləşdirilməsindən | 14 626.7 | 18 412,2 | 24 002.3 | 12 612.7 | 31 718,5 |
| reklamın yayımlanmasından əldə olunan gəlir | 16 512.9 | 20 264,2 | 26 533.9 | 32 757.8 | 31 946,5 |
| **Cəmi:** | **44 336.3** | **51 111.2** | **72 388.5** | **75 631.1** | **95 670.6** |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/catering/) (31.12.2021)

Cədvəl 1-ə nəzər yetirsək, reklam fəaliyyətindən əldə olunan gəlirlərin 3 qrupa bölündüyünü görərik. Bu qrupları analiz etsək, aydın olunur ki, reklam informasiyanın hazırlanmasından və reklamın yerləşdirilməsindən əldə olunan gəlirlərdə 2017-2021-ci illər üzrə azalma və artım müşahidə olunmuşdur. Lakin reklam yayımlanmasından əldə olunan gəlirlərdə isə bu illər arasında sürətli artım müşahidə edilib. 2020-2021-ci il arasında isə tərsinə reklamın yayımlanmasında əldə olunan gəlirdə cüzi olsa da, azalma müşahidə olunsa da, qalan iki qrupda artım olmuşdur. Buradan da aydın olunur ki, artıq reklamın yerləşdirilməsinə daha çox diqqət yetirilmişdir ki, bu da özünü gəlirlərdə 2.5 dəfə artımla göstərir (Azərbaycan Dövlət Statistika Komitəsi, 2021).

Həmin illər arasında gəlirlərlə yanaşı müəsisə və şirkətlər tərəfindən reklama çəkilən xərcləri də

nəzərdən keçirsək, müəsisələrin reklama daha diqqət yetirdiklərini aşağıdakı cədvəl 2-də görmək mümkündür.

**Cədvəl 2. 2017-2021-ci illərdə müəsisələr tərəfindən reklama çəkilən xərclər (min manatla)**

| Müəssisə tərəfindən çəkilən xərclər, min manatla | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|
| reklam fəaliyyəti üzrə | 37 464.3 | 40 526,3 | 54 792.2 | 66 172.7 | 72 849,5 |
| Reklam xidmətlərinin yerinə yetirilməsinə dair bağlanmış müqavilələrin sayı, vahid | 5 469.0 | 8 858.0 | 13 527.0 | 14 088.0 | 16 816.0 |
| Bağlanmış müqavilələrin dəyəri, min manatla | 37 202.3 | 40 210,6 | 51 866.9 | 37 618.7 | 41 921,40 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/catering/) (31.12.2021)

Cədvəl 2-də müəsisələr tərəfindən çəkilən xərcləri nəzərdən keçirəndə aydın şəkildə reklam fəaliyyəti üzrə çəkilən xərclərdə artımlar olduğu görsənir. Burdan da aydın olunur ki, artıq şirkətlər reklamı daha vacib hesab edib, məhsullarını tanıtdırmaq üçün daha çox diqqət yetirirlər. 2017-ci ilin göstəricisinə nəzərən 2021-ci ilə baxsaq, reklama çəkilən xərclər 1.5 dəfədən çox artmışdır. Beləliklə, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2021-ci ildə reklam xidmətlərinin yerinə yetirilməsinə dair bağlanmış müqavilələrin sayı 3 dəfə artmışdır (ARDSK, 2021 ). Müəsisə və şirkətlər reklamlarını yerləşdirərkən, bunun üçün onların icazə və müqaviləsi olmalıdır. ADRA-nın 2019-cu ildə verdiyi hesabatına diqqət yetirsək (https://adra.gov.az/files/shares/2019hesabat-2.pdf, 2019), açıq məkanda yerləşən reklamların icazə sayını və həmçinin də müqavilələrin sayını görə bilərik. Bunun üçün aşağıdakı qrafik 4-ə nəzər yetirək.

**Qrafik 4. Açıq məkanda yerləşdirilən reklamların icazə və müqavilə sənədlərinin sayının nisbəti**




**Mənbə:**( https://adra.gov.az/files/shares/2019hesabat-2.pdf)(31.12.2019)

Qrafik 4-də aydın şəkildə görsənir ki, şəhərlərin hamısında müqavilə sayı icazə sayından azlıq təşkil edir. Bunun üçün il ərzində Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron inzibati rayonunda olan obyektlərə baxışlar keçirilir və hər bir obyektdə yerləşən reklamın icazəsi olmalıdır. Bu səbəbdən reklamları yerləşdirilərkən onların icazəsinin olunmasına diqqət yetirilir.

İstehlakçılar arasında reklam növlərinin effektivliyinin ölçülməsi məqsədi ilə onlayn sorğular

aparılmışdır. Bunlar aşağıdakılardır:

1. İstehlakçıların cins və yaşına görə;
2. İstehlakçıların təhsil səviyyəsinə görə;
3. İstehlakçıların aylıq orta gəlirinə görə

Bu sorğularını nəticəsini ümumilikdə aşağıdakı qrafiklərdə görmək mümkündür.

**Qrafik 5. Reklama təsirinin cins və yaş üzrə nisbəti**




**Mənbə:**[https://smb.gov.az/storage/Reklam%20vasit%C9%99l%C9%99rinin%20istehsal%C4%B1%20v%C9%99%20effektivliyi%20b-a.pdf](https://smb.gov.az/storage/Reklam%20vasit%C9%99l%C9%99rinin%20istehsal%C4%B1%20v%C9%99%20effektivliyi%20b-a.pdf) (31.12.2019)

Qrafik 5-ə nəzər yetirsək, aydın şəkildə görərik ki, reklamdan daha çox təsirlənən xanımlardır ki, 50.50% təşkil etmişdir. Yaş qrupuna baxsaq isə ən çox 18-25 yaş arası 47.2% və ona nisbətən 26-35 yaş arası 32.7% reklamdan təsirlənir. Yaş qrupu artdıqca insanların reklamdan təsirlənməsi azaldığı da müşahidə olunmaqdadır.

**Qrafik 6. Reklamın istehlakçıların aylıq orta gəlirinə görə təsiri**




**Mənbə:**[https://smb.gov.az/storage/Reklam%20vasit%C9%99l%C9%99rinin%20istehsal%C4%B1%20v%C9%99%20effektivliyi%20b-a.pdf](https://smb.gov.az/storage/Reklam%20vasit%C9%99l%C9%99rinin%20istehsal%C4%B1%20v%C9%99%20effektivliyi%20b-a.pdf) (31.12.2019)

Qrafik 6-da istehlakçıların gəliri artdıqca onların reklamdan təsirlənməsi azalır. Beləki aylıq gəliri 500 azn-dən aşağı olanlar 48.1%, 500-1000 azn arası olanlar 28.5%, 2000-3000 azndə 12.6%, istehlakçının gəliri artdıqca reklamdan daha az təsirlənirlər. Buna səbəb olaraq, aşağı gəliri olan

istehlakçıların reklamdan daha çox asılı olması və reklam olunan məhsulların müqayisə edib almalarını göstərmək olar.
İstehlakçıların təhsil səviyyələrinə görə də sorğu keçirilmiş və aşağıdakı qrafik 7-də nəticəsi göstərilmişdir.

**Qrafik 7. Reklamın istehlakçıların təhsil səviyyəsinə görə təsiri**




**Mənbə:**[https://smb.gov.az/storage/Reklam%20vasit%C9%99l%C9%99rinin%20istehsal%C4%B1%20v%C9%99%20effektivliyi%20b-a.pdf](https://smb.gov.az/storage/Reklam%20vasit%C9%99l%C9%99rinin%20istehsal%C4%B1%20v%C9%99%20effektivliyi%20b-a.pdf) (31.12.2019)
Qrafik 7-də ali təhsili olan istehlakçılar reklamdan daha çox təsirləndiyi aşkar olunmuşdur. İstehlakçıların təhsil səviyyəsi aşağı olduqca reklamın təsiri getdikcə azalır.
İstehlakçılar üçün ən vacib amil məhsulun keyfiyyəti və onlara olunan təklifidir. İstehlakçılara belə bir sual olunsa ki, hansı reklamlar sizin diqqətinizi daha çox çəkir? Bu sualın cavabını biz aşağıdakı qrafik 8-də görə bilərik.

**Qrafik 8. İstehlakçılara daha çox təsir edən reklam formaların nisbəti**




**Mənbə:**[https://smb.gov.az/storage/Reklam%20vasit%C9%99l%C9%99rinin%20istehsal%C4%B1%20v%C9%99%20effektivliyi%20b-a.pdf](https://smb.gov.az/storage/Reklam%20vasit%C9%99l%C9%99rinin%20istehsal%C4%B1%20v%C9%99%20effektivliyi%20b-a.pdf) (31.12.2019)

Qrafik 8-də istehlakçıların daha çox təsirləndiyi 8 reklam forması göstərilmişdir. Beş şkala balla ilə istehlakçılar tərəfindən qiymətləndirilmişdir (5 - Çox diqqətimi çəkir; 1 - Heç diqqətimi çəkmir). Qrafikə nəzər yetirsək, ən yüksək göstərici 3.72 balla mağaza obyektlərində olan kreativ reklamlar və ən aşağı göstərici isə 2.49 balla avtomobillər üzərində olan reklamlar istehlakçıların diqqətini çəkir. Hər bir reklam formasının istehlakçıların diqqətini çəkdiyini də görürük.
İstehlakçılara yuxarıdakı sualın əksini versək ki, hansı reklamlar sizi daha çox narahat edir? Bu

sualın cavabını qrafik 9-da görmək mümkündür.

**Qrafik 9. İstehlakçıları narahat edən reklam formaları**




**Mənbə:**https://smb.gov.az/storage/Reklam%20vasit%C9%99l%C9%99rinin%20istehsal%C4%B1%20v%C9%99%20effektivliyi%20b-a.pdf (31.12.2019)

Qrafik 9-da da istehlakçıların təsirləndiyi 8 reklam forması göstərilmişdir. Qrafikə nəzər yetirsək, ən yüksək göstərici broşur, flayer (evlərin qapısına asılan və ya küçədə paylananlar) reklamları 48% təşkil etmiş və ən aşağı göstərici isə ticarət mərkəzlərində olan reklamlar 10%-lik təşkil olunmuşdur. Digər formada isə istehlakçıların alıcılıq davranışına daha çox hansı reklamlar təsir göstərdiyinə baxsaq:

**Qrafik 10. İstehlakçıların alıcılıq davranışına təsir edən reklam formaları**




**Mənbə:**https://smb.gov.az/storage/Reklam%20vasit%C9%99l%C9%99rinin%20istehsal%C4%B1%20v%C9%99%20effektivliyi%20b-a.pdf (31.12.2019)

Qrafik 10-da da istehlakçılara təsir edən reklam formaları göstərilmişdir. Qrafikə nəzər yetirəndə, mağazalarda olan kreativ reklamların istehlakçıların alıcılıq davranışına daha çox təsir etməklə 47% təşkil etdiyini və ən aşağı göstərici olaraq 17%-lə metrodaxili reklamların olduğu görünür.
Yuxarıda qeyd olunan sorğulardan əlavə reklamın əsasən gənc istehlakçıların alıcılıq davranışına təsirinin müəyyən edilməsi üçün araşdırılma aparılmışdır. Tədqiqatda onlayn qaydada 70 gənc

istehlakçı üzərində aparılan sorğudan əldə edilən məlumatlar statistik üsullarla təhlil edilmişdir. Bu kontekstdə müxtəlif demoqrafik xüsusiyyətlərə malik olan istehlakçıların məhsul və ya xidmətlərin alınmasında reklamların hansı istiqamətdə və nə dərəcədə təsirləndiyi araşdırılıb. Aparılan təhlillərdə reklamın istehlakçının alıcılıq davranışına təsirinin cinsinə, ailə vəziyyətinə və gəlir vəziyyətinə görə fərqli təsirlərə malik olduğu görülmüşdür.

Sorğuda iştirak edənlər haqqında ümumi məlumat aşağıdakı cədvəldə verilmişdir.

**Cədvəl 3. Sorğuda iştirak etmiş istehlakçıların demoqrafik xüsusiyyətləri**

| **Cinsiyyəti** | **İştirak edənlərin sayı** | **%-i** |
|---|---|---|
| Kişi | 32 | 45.72 |
| Qadın | 38 | 54.28 |
| **Yaşı** | | |
| 25-dən az | 47 | 67.14 |
| 25-35 arası | 21 | 30 |
| 35-dən yuxarı | 2 | 2.86 |
| **Ailə vəziyyəti** | | |
| Subay | 43 | 61.43 |
| Evli | 27 | 38.57 |
| **Gəliri** | | |
| 500-dən az | 45 | 64.29 |
| 500-1000 Azn | 17 | 24.29 |
| 1000-1500 Azn | 6 | 8.57 |
| 1500-2000 Azn | 2 | 2.85 |

**Mənbə:** Müəllif tərəfindən aparılmış soğuya əsasən tərtib olunmuşdur.

İştirakçıların təxminən 97%-i 35 yaşdan aşağıdır. İştirak edən istehlakçıların gənc olması səbəbindən, onların subay olmaları daha yüksək olmuşdur (61.43%).

Sorğuda iştirak edənlər haqqında ümumi məlumatları qeyd etdikdən sonra istehlakçılara verilən sualların nəticələrini aşağıdakı qrafiklərdə analiz edək.

**Qrafik 11. Reklamda göstərilən hansı məhsulları almağa qərar verirsiniz?**




**Mənbə**: Müəllif tərəfindən aparılmış soğuya əsasən tərtib olunmuşdur.

Qrafik 11-də istehlakçıların 4 məhsul üzərində cavabları qeyd olunmuşdur. Belə ki, istehlakçılar geyim 60%, telefon 21%, ərzaq məhsulları 16 % və kompyuter isə 3% seçmişdirlər. Burda geyimin yüksək faiz təşkil etməsinin səbəbi isə sorğuda iştirak edənlərin çoxunun qadınlardan təşkil olunmasıdır. Digər bir sual isə istehlakçılara hər hansı məhsulu alarkən nəyə diqqət yetirdikləri verilmiş və alınan nəticə aşağıdakı kimidir.

**Qrafik 12. Hər hansı bir məhsulu alarkən, nəyə diqqət yetirirsiniz?**




**Mənbə:** Müəllif tərəfindən aparılmış soğuya əsasən tərtib olunmuşdur.

Qrafik 12-də sorğuda iştirak edənlərin 58%-i keyfiyyəti, 26%-i qiyməti, 9%-i isə görünüşü seçmişlərdir. Burda istehlakçılar əsasən hər hansı məhsulu seçərkən, reklama o qədər də əhəmiyyət vermədiklərini qeyd etmişlərdir.

Bundan başqa istehlakçılara hansı reklam formalarından daha çox təsirləndiyi soruşulub və alınan nəticə aşağıdakı qrafikdə öz əksini tapmışdır.

**Qrafik 13. Reklam hansı formada təqdim olunarsa, daha təsirli olar?**




**Mənbə:** Müəllif tərəfindən aparılmış soğuya əsasən tərtib olunmuşdur.

Qrafik 13-də sorğuda iştirak edən istehlakçıların 72%-i interneti, 11%-i tv-ni, 10%-i açıq məkanda olan kreativ reklamları və 7%-i isə kataloqlarda göstərilən reklamların daha təsirli olduğunu qeyd ediblər.

**Qrafik 14. İstehlakçıların məhsulların seçim etməsinə təsir edən amillər?**




**Mənbə:** Müəllif tərəfindən aparılmış soğuya əsasən tərtib olunmuşdur.

Qrafik 14-də soğuda iştirak edən istehlakçıların 33%-i məhsulların seçim etməsində əvvəlki təcrübə və ətrafdakı xoş rəyləri qeyd edib, 16%-i sosial şəbəkələri və 10%-i isə satıcıları qeyd ediblər. Aparılan sorğuya əsasən gənc istehlakçıların ümumiyyətlə reklamlardan təsirləndiklərini və xüsusilə də qadınların geyim məhsulları aldıqlarını görülmüşdür. Məhsula üstünlük verilməsində ən mühüm amilin keyfiyyət olduğunu da bildiriblər. Effektiv reklamın internet mühitində hazırlanan reklamlar olduğu qeyd olunub. Buna görə də gənc istehlakçılar daha çox almaq istədikləri məhsullar haqqında məlumatı internetdən aldıqlarını bildirmişlər. Əlavə olaraq, məhsulları seçərkən əvvəlki təcrübə və ətrafdakı xoş rəylərdən təsirləndiklərini də bildirmişlər.

## Nəticə və Təklif

Tədqiqat işində reklamla bağlı əsas məsələlərdən, reklam fəaliyyətinin təşkil olunmasına diqqət yetirməli olunması ilə yanaşı, reklamın inkişafının 2017-ci ildən etibarən ADRA-nın yaranmasından sonrakı dövrləri əhatə etdiyini görürük. İstehsalçı öz məhsulunu tanıtmaq məqsədi ilə istehlakçıya ünvanlayacağı reklam müraciətində məhsul barəsində bütün məlumatları daxil edilir. Bu məlumatlar TV, qəzet və jurnallarlar, internet, radio, avtobus və metroda olan reklamlar vasitəsilə istehlakçıya çatdırılır. Aparılan araşdırmalar nəticəsində bu reklam formalarından əsasən TV və internet reklamları daha çox diqqət mərkəzində olmuşdur. Bundan əlavə istehlakçıların cins, yaş qrupu və ali təhsil səviyyəsinə uyğun araşdırmalarda əldə olunan nəticələrə uyğun deyə bilərik ki, artı uşaqlar və xanımlara uyğun reklamlara üstünlük verilir. Məsələn: uşaqlar üçün ərzaqla, oyunlarla bağlı reklamlar, xanımlar üçün isə geyim və zinnət əşyaları ilə bağlı olunan reklamları misal göstərmək olar.İstehlakçıların alıcılıq davranışına təsir edən reklam formalarında isə kreativ çöl reklamları, məhsullarla bağlı olan katolokları və ticarət mərkəzində olan reklamlar istehlakçıları məhsul almağa daha çox təsir etdiyini gördük.

## Ədəbiyyatlar


Aydan Mammadova (2019) “Global markalarin Azerbaycan reklam stratejileri: standardizasyon ve

adaptasyon reklam uygulamalari" s. 129

Ə.İ.Qasımov və V.Ə.Həziyev (2021) "İstehlakçı davranışının idarə edilməsi" , Bakı, s. 249

Eser Şık və  Mustafa Soba (2019) Reklamın Etkinliğinin Ölçülmesi: Tanıma Yöntemi – s.68

Hasan Şahin (2017) "Reklamların genç tüketicilerin satın alma davranışına etkisinin incelenmesi" s. 14

Mehmet İnce ve Sezen Bozyiğit (2018) "Tüketicilerin ınstagram reklamlarına karşı tutumlarının satın alma davranışları üzerindeki etkisi: y ve z kuşağı üzerine bir araştırma", s. 18

Merve Kavukçu (2018) "Sosyal ağ sitelerindeki reklamların tüketicilerin satın alma davranışlarına etkisi", s. 105

Pərviz Axundbəyli (2016) "Reklam işinin təşkili və idarə edilməsi" s. 418

Ümit Başaran və Melih Yıldız (2022) "Reklam ilgilenimi, reklama yönelik tutum ve satın alma niyeti arasındaki etkilerin analizi: marka tutumunun aracılık rolü" s. 23

Usubova Nərmin Etibar qızı  (2019) "Azərbaycan müəssisələrində reklam fəaliyyətinin təşkili və təkmilləşdirilməsi", Bakı, s.76

Zeynep Nur (2019) "Tüketicilerin Banner Reklamlarına Yönelik Tutumları İle Satın Alma Davranışları Arasındaki İlişki: Karaman Örneği" – s.170

https://dosya.kmu.edu.tr/sbe/userfiles/file/tezler/isletme/zeynepnurdevam.pdf

https://cdkogretim.istanbul.edu.tr/auzefcontent/21_22_Guz/reklam_yonetimi/6/index.html#konu-5

http://www.megep.meb.gov.tr/mte_program_modul/moduller_pdf/Reklam%C4%B1n%20Etkileri.pdf

https://berufoto.ru/az/tips--tutorials/psihologicheskaya-effektivnost-reklamy-metody-ocenki.html

https://avtovsamare.ru/az/komparativnyi-analiz-effektivnosti-reklamy-s-konkurentami-metody-i/

https://dergipark.org.tr/en/download/article-file/177828

https://adra.gov.az/files/shares/2019hesabat-2.pdf

# Postpandemiya Dönəmində Beynəlxalq Ticarətin  Bərpası və Tənzimlənməsi Məsələləri

**Cabbarova Kəmalə**

**i.ü.f.d, dosent,  Azərbaycan Dövlət İqtisad Universiteti**

**kamala_jabbarova@unec.edu.az**

**Səfərov Anar**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**asafarov28@gmail.com**

## Xülasə

Beynəlxalq ticarətin inkişafının hazırkı mərhələsində baş verən struktur dəyişiklikləri onun arxitekturasının keyfiyyətcə yenilənməsinə səbəb olmaqla bərabər, beynəlxalq əmək bölgüsünün bir çox aspektlərinə də təsir göstərmişdir. Məqalənin yazılmasında əsas məqsəd beynəlxalq ticarətin bərpası imkanlarını və parametrlərini qiymətləndirmək, koronavirus pandemiyasının yaratdığı böhran nəticəsində  mürəkkəbləşən beynəlxalq mübadilənin çoxtərəfli tənzimlənməsi ilə bağlı problemləri müəyyən etməkdir.  Bu məqsədə çatmaq üçün bu sahədə aparılmış tədqiqatlar və yazılmış məqalələrdən , Google Scholar, Emerald eJournals Premier, ScienceDirect, Web of Science, JSTOR və s.  platformalarının informasiyalarından istifadə edilmişdir.

Beynəlxalq ticarətin çökməsi, qlobal səviyyədə bir çox dəyər zəncirlərinin əngəllənməsinə səbəb olmuşdur. Bununla belə, beynəlxalq mübadilənin deqloballaşmaya yönəlmə tendensiyasını ideallaşdırmaq lazım deyil, çünki ən böyük ixracatçı və idxalçı ölkələrin ənənəvi rəqabət üstünlükləri və dayanaqlı iqtisadi inkişaf strategiyaları ilə yanaşı həm də  təbii məhdudiyyətlər mövcuddur.

Ümumilikdə, pandemiyadan sonrakı dönəmdə davam edən qlobal iqtisadiyyatın bərpası ilə müqayisədə beynəlxalq ticarətin bərpasında lənglik müşahidə edilir. Ayrı-ayrı ölkələr arasında mövcud olan  ticarət və geosiyasi münaqişələr də beynəlxalq mübadilənin gələcək inkişafı baxımından əlavə stress yaradır. Bundan əlavə,  pandemiynın yaradıgı böhran ölkələrə meqaregional ticarət sazişlərində iştirak imkanlarını yeni rakursdan nəzərdən keçirməyə imkan verdi.

**Açar sözlər**: pandemiya, ticarət siyasəti, qlobal böhran,  qlobal dəyər zənciri

## Abstract

The structural changes occurring at the current stage of international trade development have not only caused a qualitative renewal of its architecture, but also affected many aspects of the international division of labor. The main goal of writing the article is to assess the possibilities and parameters of the restoration of international trade, to identify the problems related to the multilateral regulation of international exchange complicated by the crisis caused by the coronavirus pandemic. To achieve this goal, from the researches and articles written in this field, Google Scholar, Emerald eJournals Premier, ScienceDirect, Web of Science, JSTOR, etc. platform information was used.

The collapse of international trade has disrupted many value chains globally. However, the trend towards deglobalization of international exchange should not be idealized, as there are natural limitations along with the traditional competitive advantages and sustainable economic development strategies of the largest exporting and importing countries.

Overall, the recovery in international trade has been slow compared to the ongoing global economic recovery in the post-pandemic period. Trade and geopolitical conflicts between individual countries also create additional stress in terms of the future development of international exchange. In addition, the crisis created by the pandemic allowed countries to consider the possibility of participating in megaregional trade agreements from a new perspective.

**Keywords:** pandemic, trade policy,  global crisis, global value chain.

## Giriş

Bütün dünyanı özünün təsiri altına alan ümumilikdə, 663,25 milyon xəstə və 6,789 milyon ölümlə nəticələnən COVID-19 epidemiyası bütün dünyaya sürətlə yayılmasını Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qlobal bir xəstəlik olaraq müəyyən edilmiş və pandemiya elan edilmişdir.

Müasir dövrün ən aktual problemlərindən biri olmuş, COVID-19 koronavirusu yayıldığı ölkələrdə yalnız səhiyyə sahəsinə deyil, həm də sosial-iqtisadi və etik-mənəvi sahələrə də təsir göstərməsidir. COVID-19 virusunun qlobal yayılmasının qarşısını almaq məqsədilə bir çox ölkə insanlara və biznesə məhdudiyyətlər qoydu. Şəhərlərarası və beynəlxalq səyahət məhdudiyyətləri və fövqaladə vəziyyətin tətbiqi beynəlxalq ticarətə birbaşa və əhəmiyyətli dərəcədə təsir göstərdi.

Koronavirus pandemiyasının dünya iqtisadiyyatına, o cümlədən ticarət sektoruna təsiri və bu təsirlərdən doğan nəticələrin nəzəri və praktiki əsasları beynəlxalq səviyyədə bir sıra iqtisadçılar, maliyyəçilər, analitiklər və aparıcı alimlər tərəfindən nəzərdən keçirilmiş, dəqiq statistik məlumatlar əsasında təhlillər aparılmış, alınan nəticələr onların təqdiqat işlərində öz əksini tapmışdır.

Məqalənin yazılmasında əsas məqsəd beynəlxalq ticarətin bərpası imkanlarını və parametrlərini qiymətləndirmək, koronavirus pandemiyasının yaratdığı böhran nəticəsində mürəkkəbləşən beynəlxalq mübadilənin çoxtərəfli tənzimlənməsi ilə bağlı problemləri müəyyən etməkdir. Bu məqsədə çatmaq üçün bu sahədə aparılmış tədqiqatlar və yazılmış məqalələrdən, Google Scholar, Emerald eJournals Premier, ScienceDirect,Web of Science, JSTOR və s.platformalarının informasiyalarından istifadə edilmişdir.

## COVID-19 Pandemiyasının Beynəlxalq Ticarətə Təsiri

Koronavirus pandemiyasının yaratdıgı böhran nəticəsində beynəlxalq ticarətdə baş verən dəyişikliklər dünya iqtisadiyyatının qeyri-sabitliyi baxımından öz unikallıgı ilə fərqlənir. Belə ki, koronavirus pandemiyası dönəmində qlobal ticarət axınları 2008-2009-cu illər böhranı ilə müqayisədə daha çox geriləmişdir. Buna baxmayaraq, 2020-ci ilin sonunda beynəlxalq ticarət göstəriciləri faktiki olaraq böhrandan əvvəlki səviyyələrə qayıtdı. Beynəlxalq ticarətin pandemiya zamanı daha yumşaq çöküşünü 2008-2009-cu illər böhrandan bəri beynəlxalq ticarətdə müşahidə olunan qlobal tələb elastikliyinin azalması və tələbdə bəzi struktur dəyişikliklərinin olması ilə izah etmək olar.

Pandemiya böhranında əsas rol oynayan tələb amilləri 2008-2009-cu illərdəki böhrandan fərqli olaraq daha çox idxalın azalmasına səbəb olub. H. Simola (Finlandiya Bankının Keçid İqtisadiyyatları İnstitutunun mütəxəssisi) qeyd edir ki, 2020-ci ildə əksər ölkələrdə beynəlxalq ticarətin azalması istehlak idxalına tələbin azalması ilə bağlı oldugu halda, 2009-cu ildəki azalma, investisiya üçün idxal tələbinin azalması ilə xaraterizə olunurdu. İstehlak tələbinin idxalın azalmasında payı 2009-cu ildə cəmi 6% olduğu halda, 2020-ci ildə bu göstərici artıq 38% olmuşdur (müvafiq olaraq, investisiyaya tələb 55%-dən 25%-ə qədər azalmışdır (Simola, 2021).

**Şəkil:1. COVID-19 və 2008-ci il Qlobal Maliyyə Böhranı zamanı dünya ticarət dövriyyəsinin müqayisəsi**




**Mənbə**: https://datainnovation.org/wp-content/uploads/2021/03/2021-03-01-dataviz.png

Burada həm də sektor fərqləri ola bilər, belə ki, xammal və emal sektorlarında son tələb xidmət sektorlarından fərqli olaraq daha çox idxal yönümlüdür. Bu böhranda insanların hərəkətinə məhdudiyyətlər səbəbindən və beynəlxalq mübadiləsi (mallardan çox) çətin oldugundan xidmət sektoru daha çox zərər görmüşdür (Савинов, Кириллов 2020). Bu baxımdan beynəlxalq xidmət ticarəti üçün liberal rejimin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Ticarətdə maneələr mallara nisbətən daha əhəmiyyətli görünür, çünki xidmətlərin liberallaşdırılmasının ixrac və istehsal məhsullarının əhəmiyyətli dərəcədə artması ilə nəticələndiyinə dair güclü sübutlar var və yalnız təsir tariflərin azaldılmasından daha böyükdür (Helble, Shepherd, 2019). Bundan başqa, beynəlxalq ticarətin tənzimlənməsində müasir tendensiyalar nöqteyi-nəzərindən qeyd etmək lazımdır ki, xidmət sektorunun stabil ticarət baryerlərinə cəlb edilməsi dərəcəsi daha çoxdur və milli hüquqi aktlarda nəzərdə tutulan bu maneələr əmtəə tariflərinə nisbətən daha az nəzərə çarpır (Rodrik, 2016).

**Beynəlxalq mübadilə sferasında şokların miqyası və spesifikliyinin qiymətləndirilməsi**

Pandemiya şəraitində xidmətlərin beynəlxalq ticarəti təkcə karantin məhdudiyyətlərinin uzadılması baxımından əhəmiyyətli deyildir. Belə ki, tarixən qlobal dəyər zəncirlərinin inkişafı inkişaf etməkdə olan ölkələrin beynəlxalq mübadilədə iştirakı üçün mövcud maneələrin azalmasına kömək etmiş və ümumilikdə beynəlxalq ticarətin qloballaşmasını artırmışdır.

Xidmət sahəsində Qlobal Dəyər Zəncirinin davamlı olaraq yayılması, xidmət istehsalının malların istehsalında olduğu kimi, beynəlxalq səviyyədə fraqmantasiyanı da nəzərdə tutur. Beləliklə, daha çox yeni xidmətlər ortaya çıxdıqca, ölkələrin QDZ-də iştirak etmək imkanları da artır. Bəzi inkişaf etməkdə olan ölkələr (məsələn, Hindistan, Filippin) autsorsinq əsasında xidmət sektorunda QDZ-lərə inteqrasiyanın müsbət təcrübəsini toplayıblar ki, bu da bu ölkələrdə gəlirlərin və məşğulluğun kəskin artmasına səbəb olub. Aparılan tədqiqatlar göstərir ki, 2000-2019-cu illər ərzində dünya autsorsing bazarının həcmi 45,6 mlrd. dollardan 92,5 mlrd dollara qədər artmışdır. (Chakraborty , Mitra, 2021). Bununla belə autsorsinqin belə sürətlə inkişaf determinantı idxal ilə rəqabət hesab edilir. Əslində,

autsorsinq şirkətləri idxalla rəqabətdə adaptasiya vasitəsi kimi çıxış etdi və pandemiyanın yaratdıgı böhran bu məsələni daha da aktuallaşdırdı.

Öz növbəsində, pandemiyanın yaratdıgı böhran şəraitində beynəlxalq əmtəə ticarətinin də spesifik rolu vardır. 2008-2009-cu il böhranından fərqli olaraq yalnız əmtəə ticarəti beynəlxalq mübadiləni ayaqda saxlayırdı. Pandemiya ilə yaranan böhran ticarətin böyük çöküşü ilə müşahidə olunmadı, hansı ki, 2008-2009-cu illər böhranında uzunmüddətli istifadə mallarına tələbin nəzərəçarpacaq dərəcədə aşagı düşməsi müşahidə olunurdu. Məlumdur ki, bu malların istehsalı geniş spektr aralıq məhsulları ilə əlaqəli oldugundan tələbdə müşahidə olunan şok qlobal istehsal şəbəkəsinə QDZ kanalları üzrə özünün neqativ təsirini göstərdi. Bununla belə, qeyd etmək lazımdır ki, beynəlxalq ticarətin strukturunda da nəzərəçarpacaq dəyişikliklər görünür. İnkişaf etmiş ölkələrin iqtisadiyyatının dekarbonlaşmasına meylləri olmasına baxmayaraq, dünyada elektrik enerjisinə və təbii qaza tələb artmışdır. Ümumiyyətlə, demək olar ki, bütün xammalların qiymətlərində artış müşahidə olunurdu. Bu şəraitdə ABŞ enerjidaşıyıcılarının ixracını artıraraq, dünyada ən differensial enerjidaşıyıcısı tədarükçüsünə çevrilməkdədir. Bundan əlavə, online işləmə meyillərinin artması inikşaf etmiş və inkişaf etməkdə olan iri ölkəlеridə kompüter texnikasına olan tələbii də artırdı.

Beynəlxalq ticarətdə və UDM–da əmtəə ilə xidmətlər arasında nisbətini də nəzərə almaq lazımdır. Əgər beynəlxalq ticarət ilə ÜDM-in artışı arasında qarşılıqlı əlaqəni nəzərdən keçirsək, o zaman görərik ki,ÜDM-la müqayisədə ticarətdə daha böyük dəyişiklik baş verir. Bu özünü onda göstərir ki, beynəxalq ticarətin əsas hissəsi (75%) sənaye məhsullarının payına düşdüyü halda, dünya ÜDM-n strukturunda, əksinə 75% xidmətlər təşkil edir. Sənaye malları xidmətlərə nisbətən əsasən iş tsikli boyunca dəyişdiyindən, beynəlxalq ticarətin perspektivləri daha çox qeyri-müəyyəndir, nəinki ÜDM-un dinamikası. Üstəlik, cari böhran zamanı bəzi mallar (yanacaq, avtomobil, aviasiya avadanlığı, polad) üzrə beynəlxalq ticarətin həcmi azalsa da, digər mallar (qida, əczaçılıq, elektronika, məişət texnikası) üzrə artım müşaidə olunur.

Tədqiqatçılar göstərir ki, bu cür fərqlər (bəzi malların istehlakının kəskin artması və digərlərinin azalması) 2008-2009-cu illər böhranına nisbətən indiki böhran dövründə daha qabarıq şəkildə özünü göstərir (Konstas və Kalogiannidis,2022). Aparılan bəzi empirik tədqiqatlar, ixrac məhdudiyyətlərinin və ticarət xərclərinin əhəmiyyətli dərəcədə azalması, neft qiymətlərinin düşməsi və firmaların karantin məhdudiyyətlərinə uyğunlaşması səbəbindən 2020-ci ildə beynəlxalq ticarətin sürətli bərpasına işarə edir (Ossa, Le Moigne və Crumbling, 2021). 2019-2021-ci illərdə beynəlxalq ticarətdə aralıq malların payı stabil qalmışdır (50%). Buna səbəb pandemiya şoklarının qlobal tədarük zəncirinin kanalları vasitəsilə yayılmasının məhdudlaşdırılması göstərilir.

Qeyd etmək lazımdır ki, pandemiyanın yaratdıgı qlobal böhran iqtisadi baxımdan ən çox inkişaf etməkdə olan ölkələrə daha çox təsir göstərir, nəinki inkişaf etmiş ölkələrə, çünkü, birincilər maliyyə bazarlarına çıxmaqlarında problemlər yaşayırlar. ABŞ-nın Milli İqtisadi Araşdırmalar Bürosunun ekspertləri F.Benquria və A.Teylorun firkincə, inkişaf etməkdə olan ölkələrin idxalı böhran şəraitində intensiv surətdə azaldıgı halda, inikişaf etmiş ölkələrə nisbətən bu ölkələrdə ticarətin bərpası daha ləng baş verir. ( Benguria və Taylor. 2020).

Onu da qeyd etmək lazımdır ki,dünyada baş verən ayrı-ayrı tip təlatümlər ticarət xərclərinə, idxal və ixraca müxtəlif cür təsir edə bilər. Məslən, beynəlxalq ticarət dövriyyəsinin 12%-nin daşındıgı Suveyş kanalının 2021-ci ilin martında blok edilməsi dünya ticarət həcminin artım sürətini bir il ərzində 0,2-

0,4%azalmasına səbəb oldu. Dünya Ticarət Təşkilatının eksperti S.Rubinova görə beynəlxalq ticarətdə nəqliyyat xərcləri 20-31% təşkil edilmişdir (Rubinova, 2021). Buna görə pandemiyanın ilk dövrlərindən sərhədlrin baglanması və gediş-gəlişin məhdudlaşdırılması bu cür xərclərin artmasında əlavə risklərin yaradılmasına səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, pandemiya nəticəsində bir çox ölkələrin liman protokollarının dəyişdirilməsi ilə bağlı əlavə tələblərin yaranması ilə bağlı bəzi məqamlarda gecikmələr istisna olmaqla, dəniz və quru nəqliyyatı ilə yük daşımalarında gecikmələr baş verməmişdir. Eyni zamanda, dəniz daşımalarında yük tariflərinin azalmasının qarşısını almaq üçün sənayedə gəmilərlə daşıma sektorunda gəmilərə təklif azalmışdır.

Öz növbəsində beynəlxalq quru nəqliyyatı əlavə sərhəd və sanitar nəzarət tədbirlərinin təsirinə məruz qalmış, yüklərin daşınması üçün hava nəqliyyatında sərnişin gəmilərindən istifadə olunmağa başlamışdır. Ticarət xərclərinin artması idxala əlavə mənfi təzyiq göstərmişdir, çünki iş yerlərinin bağlanması və işsizliyin artması səbəbindən tələb şoku yaşanmışdır. Amma, bəzi zəruri mallara (dərman, ərzaq və s.) daxili tələbatın ödənilməsi zərurətindən, əksinə idxalın artması müşahidə olunurdu.

**Beynəlxalq ticarətin postpandemiya dönəmində bərpasının xaraterik xüsusiyyətləri**

2020-ci ildə dünya mal ixracının dəyəri 8%, kommersiya xidmətlərinin dəyəri isə 20% azalıb. 2020-2021-ci illərdə beynəlxalq xidmət ticarətində artım olsa da hələ də 2019-cu ilin səviyyəsinə çatmayıbdır.Bununla belə, əhəmiyyətli regional fərqlər də müşahidə olunur ki, məsələn, Asiya ölkələrində mal ixracı hətta 0,3% artmışdır. Eyni zamanda, əmtəə ixrac edən ölkələr də idxalın həcminin azalması ilə üz-üzə qalmışlar. Qısa müddətdə mallara tələbatı ABŞ müəyyən edəcək, onun fiskal inyeksiyası ticarət kanalları vasitəsilə digər ölkələrin iqtisadiyyatlarının inkişafına təkan verəcəkdir. Öz növbəsində, dünyanın idxala olan tələbatının böyük hissəsi Asiya ölkələrinin ixracı hesabına ödənilməyə davam edəcək.

2020-ci ildə fiskal və pul siyasəti 2008-2009-cu illər böhranı ilə müqayisədə daha iddialı olub və bu, tələbin əhəmiyyətli dərəcədə azalmasının qarşısını alıb, ölkələrə nisbətən sabit yüksək istehlakı saxlamağa imkan verib. Bununla belə, karantin məhdudiyyətləri ev təsərrüfatlarının xərclərinin qeyri-ticari xidmətlərdən mallara keçməsinə səbəb olub. Şirkətlərin uyğunlaşması, onların distant işə keçməsi səbəbindən iqtisadi fəallığın aşağı düşməsinin qarşısı alındı ki, bu da qlobal dəyər zəncirlərinin işini bərpa etməyə qismən imkan verdi və gəlirlərin artmasına imkan yaratdı. ÜTT-yə üzv ölkələrin təmkinliliyi, öz növbəsində, beynəlxalq ticarətin tamamilə proteksionizm məngənəsində qalmasına imkan vermədi və çoxtərəfli ticarət sistemi ümumilikdə beynəlxalq mübadiləni dəstəkləyə bildi.

2022-ci ilə gedən beynəlxalq ticarət tədarük baxımından çox möhkəm görünürdü. Trade Data Monitor şirkətinin baş analitiki J. Miller qeyd edir ki, məsələn, 8,6 trilyon dollar dövriyyəsi olan qlobal logistika sahəsi istənilən istehsalçıdan malları istənilən alıcıya çatdırmaq üçün kifayət qədər etibarlıdır.Ümümdünya Ticarət Təşkilatı 2022-ci ildə beynəlxalq ticarətin 4,7% artacağını, beynəlxalq ticarətdə təxmin edilən artımın isə 10,8% olacağını qeyd etmişdir (https://www.wto.org/english /).

BMT-nin Ticarət və İnkişaf Konfransının göstəricilərinə əsasən 2022-ci ildə dünya ticarət həcmi 2021-ci ilə nisbətən 10% artaraq 32 trln dollara olmuşdur (https://unctadstat.unctad.org/wds). Dünyada baş verən iqtisadi zəifləməyə və ilin sonunda qeyri-müəyyənliyin artmasına baxmayaraq bu rekord

səviyyədir. Strukturuna gəldikdə isə dünya ticarətin tərkibində“yaşıl” (ekoloji cəhətdən təmiz) malların payı 2022-ci ilin ikinci yarısında 4% artmışdır. İl ərzində bu malların məcmu dəyəri 1,9 triln. dollar olmuşdur ki, bu da 2021-ci ilə nisbətən 100 mlrd. Dollar çoxdur. Belə ki, eletrik və hibrid avtomobillərin satışı 1/4 dəfə artmışdır.

**Cədvəl: 1. 2017–2022 illər ərzində beynəlxalq ticarət dövriyyəsinin və dünya real ÜDM -nin dinamikası ( özündən əvvəlki ilə nisbətən %-lə )**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Beynəlxalq ticarət dövriyyəsi | 4,9 | 0,2 | 3,2 | -5,3 | 8,0 | 4,0 |
| İxrac | | | | | | |
| İdxal | | | | | | |
| Bazar məzənnəsi ilə dünya ÜDM-si | 3,3 | 3,0 | 2,4 | -3,8 | 5,1 | 3,8 |

**Mənbə***: https://www.wto.org/english/ ÜTT-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir*

Qeyd etmək lazımdır ki, müxtəlif beynəlxalq təşkilatlar pandemiyadan sonrakı il dönəmdə beynəlxalq ticarətin və qlobal ÜDM-in artım tempinin 4,7-6,3% diapazonunda artacağını proqnozlaşdırırlar. Cədvəlin məlumatlarından göründüyü kimi dünya iqtisadiyyatın bərpası ilə müqayisədə beynəlxalq ticarətin inkişafı daha ləng bərpa olunur. Bunun səbəbləri arasında ticarətin xaricdə daha yaxşı tələb və təklif şəraitindən faydalana bilməsi və böhran dövründə belə şərtlərin tez tükənməsidir. Bundan əlavə, şoklar ixrac sektorlarına müxtəlif yollarla təsir edə bilər.

Tapscott, D., & Tapscott, A. (2016). Blockchain revolution: How the technology behind bitcoin is changing money, business, and the world. Penguin.

Tsai, W., Liao, C., & Chiang, M. (2018). Blockchain as a service: Framework, evaluation, and outlook. IEEE Access, 6, 30449-30463.

Wang, J., Liu, W., & Wu, Q. (2019). Blockchain-enabled industrial internet of things: A secure, decentralized, and open framework. IEEE Access, 7, 65315-65328.

Yli-Huumo, J., Ko, D., Choi, S., Park, S., & Smolander, K. (2016). Where is current research on blockchain technology? A systematic review. PloS One, 11(10), e0163477

# “Yaşıl” İnvestisiyalar Regional İqtisadiyyatın “Yaşıllaşdırılması” Mexanizminin Elementi Kimi

**Sənan Əhmədzadə**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**senanehmedzade77@gmail.com**

## Xülasə

Hazırda qlobal davamlı inkişaf konsepsiyasının ideoloqları bir tərəfdən planetin iqtisadi artım üçün məhdud resurs bazası ilə bağlı açıq-aşkar məlumatlardan, digər tərəfdən isə onun imkanlarını getdikcə məhdudlaşdıran geosistemlərin zəifliyindən narahatdırlar. Bu səbəbdən, dünya birliyinin, eləcə də qlobal iqtisadiyyatın çağırışları, dünya elminin innovativ trendləri bir çox səbəblərə və məqsədlərə söykənərək “yaşıl” investisiyaların, iqtisadiyyatın “yaşıllaşdırılması”nın zəruriliyini vurğulayır.

Bu nöqteyi-nəzərdən, bütün dünyada təsərrüfat subyektlərinin davranışının ekoloji transformasiyası üçün stimul və vasitələrin fəal axtarışı aparılır ki, bu da qlobal iqtisadiyyatın yaşıllaşdırılması üçün bu problemlərin həllinin aktuallığını və vacibliyini sübut edir.

Məqalədə “yaşıl” iqtisadiyyat prinsiplərinin regional iqtisadi sistemlərə nüfuz etmə dərəcəsi öyrənilmişdir. “Yaşıl” sərmayə müxtəlif “yaşıl” maliyyə məhsulları vasitəsi ilə resursların və kapital axınının regionlara istiqamətləndirilməsini təmin edən maliyyə alətləri, habelə istehsalın optimallaşdırılması, mənfəətin əldə edilməsi, ekomühitlə iqtisadiyyat arasında tarazlığın əldə edilməsi naminə göstərilən dövlət dəstəyi üsullarının məcmusu kimi tədqiqata cəlb edilmişdir.Belə nəticəyə gəlinmişdir ki, qlobal səviyyədə başlayan iqtisadiyyatın “yaşıllaşdırılması” prosesi bu gün ölkələrin milli iqtisadiyyatlarına, hətta yüksək sürətlə öz arealını genişləndirərək ayrı-ayrı regionlarına doğru gedir.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatın “yaşıllaşdırılması” bir tərəfdən insanların rifahının yüksəlməsini, həyat keyfiyyətinin yaxşılaşdırılmasını, digər tərəfdən də ətraf mühit və onun deqradasiyası üçün risklərin azaldılmasını nəzərdə tutan ideyalara söykənir.

**Açar sözlər:** regional iqtisadiyyat, dayanıqlı inkişaf, “yaşıl” iqtisadiyyat, “yaşıl” investisiyalar,eko innovasiya

## Abstract

Currently, the ideologues of the concept of global sustainable development are worried about the obvious information about the limited resource base of the planet for economic growth on the one hand, and on the other hand, the vulnerability of geosystems that increasingly limit its possibilities. For this reason, the challenges of the world community, as well as the global economy, the innovative trends of world science emphasize the need for “green” investments and “greening” of the economy based on many reasons and goals.

From this point of view, there is an active search for incentives and tools for the environmental transformation of the behavior of economic entities all over the world, which proves the relevance and importance of solving these problems for the greening of the global economy.

The degree of penetration of “green” economic principles into regional economic systems is studied in the article. “Green” investment was included in the research as a set of financial instruments that ensure the direction of resources and capital flow to the regions through various "green" financial products, as well as a set of state support methods for the purpose of optimizing production, obtaining profit, and achieving a balance between the environment and the economy. It was concluded that the process of “greening” of the economy, which started at the global level, is currently moving towards the national economies of the countries, and even expanding its territory at a high speed towards individual regions.

It should be noted that the “greening” of the economy is based on ideas that, on the one hand, increase people's well-being, improve the quality of life, and on the other hand, reduce the risks for the environment and its degradation.

**Keywords:** regional economy, sustainable development, “green” economy, “green” investments, eco-innovation

## Giriş

"Yaşıl iqtisadiyyat" termini ilk dəfə Pirs və həmmüəlliflərinin kitabının başlığında ortaya çıxmışdır (Kemp-Benedict, 2018). Onlar iddia edirdilər ki, ənənəvi inkişaf təbii kapitalın deqradasiyasına gətirib çıxarır və uzunmüddətli rifahın qarşısında təhlükə yaradır.

2012-ci ildə BMT-nin Davamlı İnkişaf Konfransı (Rio+20) üçün hazırlanmış "Daha Yaşıl Dünya İqtisadiyyatına Doğru" UNEP hesabatında qeyd olunub ki, mövcud iqtisadi böhranlar mövcud iqtisadi modeldən məyusluğa səbəb olmuşdur. Çünki böhranlar və yavaş iqtisadi artım kapitalın yanlış bölüşdürülməsinin nəticəsidir (Kodaneva, 2020).

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Rio+20 üçün "Yaşıl İnkişafa gedən Yolda" adlı hesabat da hazırlayıb və bu hesabatda dayanıqlı inkişafı təmin etmək üçün yaşıl layihələrə innovasiya və sərmayə qoyuluşunun zəruriliyi vurğulanmışdır.Nəhayət, 2015-ci ildə BMT-nin "Dayanıqlı İnkişaf-2030" Gündəliyi qəbul olunmuş və bu inkişafın əsas məqsədləri müəyyən edilmişdir.

Tədqiqatın məqsəd və vəzifələri istifadə olunan materialların və metodların toplusunu müəyyənləşdirir. Onun nəzəriəsası müxtəlif ölkələrdən olan alimlərin dünyanın aparıcı elmi nəşrlərində yer almış "yaşıl" iqtisadiyyatın formalaşması və inkişafı, "yaşıl" iqtisadi artım modelinə keçidin şərtləri və yollarının müəyyənləşdirilməsi üzrə apardıqları araşdırmalara söykənir.

## "Yaşıl" iqtisadiyyatın mahiyyəti, prinsipləri və perspektivləri

"Yaşıl" iqtisadiyyat ətraf mühitlə qarşılıqlı əlaqəni nəzərə alaraq, gələcək nəsillərin rifahı prioritet olmaqla, insan tələbatlarının ödənilməsinə diqqət yetirir. Başqa sözlə, "yaşıl" iqtisadiyyat uzunmüddətli perspektivdə insanın rifahının yüksəlməsinə səbəb olan əmtəə və xidmətlərin istehsalı, bölüşdürülməsi, mübadiləsi və istehlakı ilə bağlı iqtisadi fəaliyyətlər sistemidir. Bu nöqteyi-nəzərdən, gələcək nəsillər əhəmiyyətli ekoloji risklərə və ya ekoloji qıtlığa məruz qalmır.

"Yaşıl" iqtisadiyyat nəzəriyyəsi üç aksioma əsaslanır:

1) məhdud məkanda təsir dairəsinin sonsuz genişlənməsinin qeyri-mümkünlüyü;

2) məhdud resurslar şəraitində sonsuz artan ehtiyacların ödənilməsinin mümkünsüzlüyü;

3) yer üzündə hər şey bir-birinə bağlıdır (Kucherov & Shibileva, 2014).

"Yaşıl" iqtisadiyyat davamlı inkişaf konsepsiyası ilə sıx bağlıdır. Davamlı inkişaf iqtisadi, sosial və ekoloji komponentlərin səmərəli qarşılıqlı əlaqəsini nəzərdə tutur və "yaşıl" iqtisadiyyat hər yerdə bu komponentlər arasında ahəngdar harmoniyanın təmin edilməsinə yönəlmişdir.

Davamlı inkişafın təmin edilməsi məhdud təbii mühitdə əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması və istehsalın hərtərəfli yaşıllaşdırılmasının stimullaşdırılması ilə yanaşı, "yaşıl" iqtisadiyyatın əsas məqsədidir. Elmi ədəbiyyatın təhlili göstərir ki, davamlılığa nail olmağın iqtisadiyyatın yaşıllaşdırılmasından asılı olduğu getdikcə daha çox qəbul edilir.

Davamlı inkişaf və "yaşıllaşdırma" konsepsiyasına doğru irəliləmək zərurəti təbii kapitalı istismar edən, həm indiki, həm də gələcək nəsillər üçün təhlükə yaradan hazırkı "qəhvəyi" iqtisadiyyatın fəaliyyətinin mənfi nəticələri ilə bağlıdır.

Əlbəttə, qlobal iqtisadiyyatın "yaşıllaşdırılması" yolunda risklər və problemlər qaçılmazdır. Yaşıl iqtisadiyyata keçid dünya liderlərinin, vətəndaş cəmiyyətinin və aparıcı şirkətlərin birgə səyini tələb edəcək. Bu, siyasətçilərdən və onların seçicilərindən ənənəvi sərvət, rifah və rifah ölçülərini yenidən

düşünmək və yenidən müəyyən etmək üçün davamlı səy tələb edəcəkdir. Bununla belə, bəlkə də bu gün ən böyük risk status-kvonun saxlanması riskidir (Ivanova & Levchenko, 2017).

Yerli və xarici alimlərin əsərlərində verilən təriflərin təhlili göstərir ki, yeni iqtisadi inkişaf modeli həm indiki, həm də gələcək nəsillərin mənafeyinə uyğun olaraq təbii kapitalın qorunmasını, artırılmasını və bərpasını nəzərdə tutur. Eyni zamanda, təbii kapitalın iqtisadi aktiv və ictimai sərvət mənbəyi kimi əhəmiyyəti vurğulanır. Əksər təriflər iqtisadi və ekoloji aspektləri ehtiva edir, diqqəti cəmiyyət və təbiət arasındakı əlaqənin transformasiyasına yönəldir.

Dayanıqlı inkişaf və "yaşıl" iqtisadiyyatın məqsədləri vahid bir bütövlükdə birləşir. Fikrimizcə, "yaşıl" iqtisadiyyat konsepsiyası davamlı inkişaf konsepsiyasına alternativ deyil, onun spesifik məzmunudur, məzmununu və gələcək inkişafın istiqamətlərini müəyyən edir.

Metodoloji aspektdə onun həyata keçirilməsi üçün əsas tələbləri və hədəfləri müəyyən edən "yaşıl" iqtisadiyyatın prinsiplərinə böyük əhəmiyyət verilir. "Yaşıl" iqtisadiyyatın prinsipləri bir sıra beynəlxalq təşkilatlar və onların strukturları tərəfindən təklif olunur

Dünya Bankının yanaşmasına görə, "yaşıl" artımın tərifində təbii ehtiyatlardan səmərəli istifadəyə əsaslanan resursların qorunmasının vacibliyi vurğulanır. Resurs qənaətinin nəticələri təbiəti, materialı, ətraf mühitin intensivliyini azaltmaq və təbii ehtiyatlardan istifadənin rentabelliyini artırmaqdan, yəni fəaliyyətə təsir edən bəzi faydalı təsir əldə etməkdən ibarətdir. Ancaq resurs intensivliyinin azalması həmişə "yaşıl" artımı xarakterizə etmir, çünki xüsusi mənfi təsirin azalması və istehsalın və təbii ehtiyatların istifadəsinin miqyasının artması ilə ümumi çirklənmə əhəmiyyətli dərəcədə arta bilər.

İnstitusional potensialın yaradılmasına və idarəetmənin təkmilləşdirilməsinə xüsusi diqqət və resurslar ayrılmalıdır. Daha çox investor və layihəyə çatmaq və yeni yaşıl layihələr üçün daha avtomatlaşdırılmış institusional çərçivə təmin etmək üçün subsidiyalara və digər təşviqlərə yenidən baxılmalıdır.

"Yaşıl" konsepsiyanın nəzəri və metodoloji əsaslarının öyrənilməsi və onun regional səviyyədə praktiki həyata keçirilməsi regional iqtisadiyyatın "yaşıl" artımının gələcək istiqamətlərini müəyyən edir. Fikrimizcə, "yaşıl" artım "yaşıl" iqtisadiyyat prinsiplərinə uyğun olaraq həyata keçirilən, investisiyaların və innovasiyaların stimullaşdırılması və dəstəklənməsinə yönəldilmiş ÜDM-nin artımıdır.

"Yaşıl" prinsiplərə əsaslanan regional inkişafın resurs səmərəliliyi təbii və insan kapitalının davamlı təkrar istehsalından ibarət olan innovativ və sosial inkişafın qarşılıqlı əlaqəsini nəzərdə tutur. Ekoloji kapital təbii kapitalın bir hissəsi olmaqla, "yaşıl" iqtisadiyyatın inkişafında iqtisadi və ekoloji maraqların balansını birləşdirir. Buna görə də onun davamlı çoxalması xüsusi əhəmiyyət kəsb edir.

"Yaşıl" iqtisadiyyat resurs qənaət sistemlərinin, tullantısız (az tullantılı) texnologiyaların, üzvi istehsalın, ətraf mühitin mühafizəsi texnologiyalarının və biomüxtəlifliyin qorunmasının fəal şəkildə tətbiqini nəzərdə tutur.

**İqtisadiyyatın "yaşıl" artım göstəricilərinin nəzəri aspektləri**

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Şərq Tərəfdaşlığı ölkələri üçün "İqtisadiyyatın Yaşıl Transformasiyasının Qiymətləndirilməsi" təlimatlarına əsasən, "yaşıl" artım göstəriciləri dörd qrupa bölünür (Vodopyanova, 2022):

1) iqtisadiyyatın ekoloji və resurs səmərəliliyi;

2) təbii sərvətlər (təbii aktivlərin bazası);

3) həyatın ekoloji keyfiyyəti;

4) iqtisadi imkanlar və siyasi cavablar

Birinci qrupun göstəriciləri istehsal və istehlak proseslərində təbii ehtiyatlardan və materiallardan istifadənin səmərəliliyini xarakterizə edir, xüsusən də:

– karbon və enerji məhsuldarlığı;

– resursların səmərəliliyi;

– multifaktorial fəaliyyəti.

Ətraf mühitin və resursların səmərəliliyinin göstəriciləri arasında bunlar vurğulanır:

1) istehsalla əlaqəli karbon səmərəliliyi (istehsal prosesində karbon qazı emissiyalarının vahidinə düşən ümumi daxili məhsulun həcmi);

2) tələbata bağlı karbon səmərəliliyi (karbon qazı emissiyalarının vahidinə düşən ümumi milli gəlir);

3) tullantıların bərpa əmsalı (məhsul istehsalı, enerji, işlərin görülməsi, xidmətlərin göstərilməsi üçün istifadə olunan tullantıların həcminin əmələ gələn istehsal tullantılarının həcminə nisbəti).

İkinci qrupun göstəriciləri (təbii aktivlər) təbii ehtiyatların idarə edilməsinin səmərəliliyini və onlardan səmərəli istifadəni xarakterizə edir.

Təbii aktivlərin resurs səmərəliliyi iqtisadi fəaliyyət və iqtisadi artım üçün bərpa olunan və bərpa olunmayan mənbələrin zəruri ehtiyatlarının mövcudluğunu təmin etmək, habelə təbii sərvətlərin hasilatı və emalı ilə bağlı proseslərin düzgün idarə edilməsi, təbii ehtiyatların deqradasiyası və tükənməsinin qarşısının alınması üçün nəzərdə tutulmuşdur.

Təbii aktivlər bazasına aşağıdakı göstəricilər daxildir:

– bərpa olunan aktivlər: şirin su ehtiyatları, meşə ehtiyatları, balıq ehtiyatları;

– bərpa olunmayan ehtiyatlar: mineral ehtiyatlar;

– biomüxtəliflik və ekosistemlər: torpaq ehtiyatları, torpaq ehtiyatları, canlı təbiət ehtiyatları.

Üçüncü qrupun göstəriciləri (ətraf mühitin həyat keyfiyyəti) sübut edir ki, istehsalın artması və gəlirlərin artımı heç də həmişə həyat keyfiyyətinin yaxşılaşmasına səbəb olmur. Onların arasında aşağıdakılar vardır:

1) ətraf mühitin sağlamlığı və riskləri:

– ekoloji sağlamlıq problemləri və əlaqədar xərclər;

– təbii və ya sənaye risklərinə və əlaqədar iqtisadi itkilərə məruz qalma;

2) ekoloji xidmətlər və abadlıq: kanalizasiya və içməli suya çıxış.

Dördüncü qrupun göstəriciləri dövlətin dəstəyini və biznesin "yaşıl" artım prosesinin əsas iştirakçıları kimi rolunu xarakterizə edir.

Derevyago (2019) "Yaşıl" inkişafa keçidin aşağıda qeyd olunanları əhatə etdiyini bildirir:

müvafiq texnologiyalarla iqtisadiyyatın səmərəli "yaşıl" sektorunun inkişafını;

– iqtisadiyyatın sosial yönümünün artırılmasını;

– institusional dəyişikliklərin aparılmasını;
– dövlət iqtisadiyyatının təhlükəsizliyinin artırılmasını (Derevyago, 2019).

Nəzərdən keçirilən bu göstəricilər yaşıl artım prosesinin əsas elementlərini təhlil etməyə imkan verir və onları iqtisadi sektorlar üzrə asanlıqla bölmək olar.

Bundan əlavə, kənarlaşmaları izləmək, iqtisadi fəaliyyət növü üzrə ətraf mühitə olan yükü təhlil, həmçinin ətraf mühitin mühafizəsi və sosial ədalət məqsədlərinə uyğun yaşıl inkişaf strategiyasının hazırlanması kimi ölkənin iqtisadi artımı və davamlı inkişafı üçün cavab tədbirlərini müəyyən etmək mümkündür.

**"Yaşıl" iqtisadiyyat: regional həllər**

Girişdə qeyd etdiyimiz kimi, "yaşıl" sərmayə mövzusu həm milli iqtisadiyyat miqyasında, həm də konkret region səviyyəsində sənayenin modernləşdirilməsi və davamlı inkişafın təmin edilməsi zərurəti ilə bağlı daha ümumi məsələlər kontekstində qaldırılır (Assessment of Europe's Environment Assessments, 2023).

Ekoloji cəhətdən səmərəli texnologiyaların hazırlanmasında əsas problemlərdən biri investisiyaların cəlb edilməsi problemidir.Xammal və ənənəvi enerji resurslarının istehsalına investisiyaların yüksək gəlirliliyi yaşıl layihələrin cəlbediciliyini azaldır. Regionlarda yaşıl iqtisadiyyatın maliyyə infrastrukturundan danışarkən yaşıl maliyyələşdirmə alətlərini tətbiq edən çox az sayda fond və bankları qeyd etmək lazımdır (Belokur & Tsvetkova, 2021). Eyni zamanda, biznesin məsuliyyətli maliyyələşdirməyə marağı göz qabağındadır, çünki əks halda beynəlxalq ekoloji standartlara uyğun gəlmədiyi üçün qlobal bazarda rəqabət qabiliyyətinin azalması və maliyyə resurslarına çıxışın məhdudlaşdırılması riskləri mövcuddur. Bu baxımdan biz "yaşıl" iqtisadiyyat sahəsində layihələrin meyarlarının təsdiqini müsbət qiymətləndiririk ki, bu da ekoloji cəhətdən səmərəli layihələrin maliyyələşdirilməsini asanlaşdırmalı və onların həyata keçirilməsi üçün iqtisadi stimul yaratmalıdır.

Bəzi mütəxəssislər belə qənaətdədirlər ki, şirkətlər tərəfindən ekologiya və təbiətin mühafizəsi tədbirlərinə edilən xərcləmələr təkcə istehsalçıların üzərinə qoyulan yük kimi qəbul edilməməlidir (Malish, 2023)."Yaşıl" texnologiyalar istehsal prosesinin bir hissəsinə çevrilir və bu halda "yaşıl" investisiyalar son "yaşıl" məhsulun yaradılması üzrə işlərin maliyyələşdirilməsinin bir hissəsinə çevrilir."Yaşıl" iqtisadiyyatın elementlərini müxtəlif ölçülü və müxtəlif sənaye mənsubiyyətlərinə malik şirkətlərin işinə inteqrasiya etmək lazımdır.Bu elementləri nəzərə almadan nə şirkətlər üçün strategiya hazırlamaq, nə məhsulların tədarükçüləri və müştəriləri ilə əlaqələr qurmaq, nə də əməliyyat fəaliyyətini həyata keçirmək mümkün olmur.

Regional inkişafda "yaşıl" texnologiyaların regional "tətbiqinin" əsas məsələləri aşağıdakı kimi nəzərdən keçirilə bilər (Lavrikova & Malış, 2014):

1) "Yaşıl" iqtisadiyyat nədir:Bu, müasir modaya hörmətdir, yoxsa dünyagörüşüdür, yoxsa cəmiyyət üçün dəqiq müəyyən edilmiş tədbirləri olan konkret iqtisadi vəzifədir?

2) Yaşıl iqtisadiyyatın qiyməti nədir və ya bunun üçün kim ödəməyə hazırdır?

3) Yaşıl iqtisadiyyat üçün tənzimləyici mühit hansıdır?

"Yaşıl" regional inkişaf nəzəri cəhətdən "ekoloji dəyər" anlayışına əsaslanır. Dövlət, biznes və əhali ətraf mühitin lehinə seçim edir, lakin dövlətlə vətəndaşlar arasında ünsiyyət pozulur, biznes isə vəziyyəti daha yaxşı başa düşür və daha aktiv reaksiya verir.

Cəmiyyətin ekologiya və iqtisadiyyat sahəsində problemlərin həllinə, dövlət pullarının konkret həll yollarına çevrilməsinə cavabdeh olan dövlət qurumlarına inamı yoxdur. Yaşıl iqtisadi artım üçün maliyyə mənbələri məsələsi açıq qalır: biznes hesabına olacaq, yoxsa dövlət subsidiyaları olacaq, yoxsa istehlakçılara ötürüləcək. Biznes hələ də cavab almayıb, bu da onun təşəbbüslərini geridə qoyur.

**Milli davamlı inkişafın maliyyələşdirilməsi strategiyası üçün mühüm element – "yaşıl" investisiyaların maliyyələşdirilməsi mexanizmi**

Qlobal idarəetmə institutları, ilk növbədə, "yaşıl" iqtisadi inkişafın əsas təşviqçiləri olan Birləşmiş Millətlər Təşkilatı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən rəhbər prinsiplər kimi hazırlanmış və yayılmış təşəbbüslərin təhlili qlobal "yaşıl iqtisadiyyat" layihəsinin mahiyyətini və məntiqini və "yaşıl" biznes investisiyalarına verilən rolu anlamağa imkan verir (Yakovlev, Kabir, 2018).Bu gün "iqtisadi sistemlərin və proseslərin idarə edilməsində əsas yanaşmaların, yəni ekoloji mülahizələrin iqtisadi, maliyyə və sosial mülahizələrlə birlikdə müasir idarəetmədə mühüm rol oynaması"nın transformasiyası mövcuddur (Yakovlev, Kabir, Nikulina, Rakov, 2017). Eyni zamanda, "bütün təsərrüfat subyektlərinin "yaşıl" inkişafın maliyyələşdirilməsi prosesinə geniş cəlb edilməsinin zəruriliyi ideyası, onların fəal iştirakı üçün şəraitin (dövlət tərəfindən) məcburi formalaşdırılması ilə gücləndirilir" (Yakovlev & Kabir, 2018).

Aşağıdakı faktlar toplusu əsaslandırma rolunu oynayır: XX-XXI əsrlərin əvvəlində dünyada iqlim dəyişikliyi, biomüxtəlifliyin itirilməsi, enerji, ərzaq, su ehtiyatları, eləcə də qlobal maliyyə və iqtisadi böhranlarla bağlı bir sıra böhranlar baş vermişdir (Declaration on Green Growth, 2009).Səbəb ətraf mühitə mənfi təsir göstərən iqtisadi sektorların güclənməsinə səbəb olan kapitalın düzgün bölüşdürülməməsi və təbii kapitalı dəstəkləyən hər şeyin zəifləməsidir. Ona görə də "yaşıl" iqtisadiyyat və "yaşıl" artım konsepsiyasını həyata keçirməklə davamlı inkişafın təmin edilməsi ideyası yaranmışdır.

Bir sıra sənədlərdə qeyd olunan qlobal idarəetmə institutları tərəfindən nəzərdə tutulduğu kimi, yaşıl iqtisadiyyat davamlı inkişafa nail olmaq üçün fəaliyyət yönümlü yanaşmadır və strategiya və siyasətlərin işlənib hazırlanması, qiymətləndirilməsi, monitorinqi və həyata keçirilməsi üçün daha vahid çərçivə təmin edəcək (Presidents's summary of the discussions by ministers and heads of delegation at the twenty-fifth session of the governing council, 2017).

"Yaşıl" iqtisadiyyat konsepsiyası, yəni əsas ideya, niyyət o sahələrə investisiya və istehsal xərclərini təşviq etməkdir:

1) "yaşıl" bazarlar üçün həyati əhəmiyyət kəsb edən yeni texnologiyalar və davranışlarda innovasiyaları təşviq etmək;

2) "yaşıl" innovasiyaların uğurla həyata keçirilməsi üçün zəruri olan infrastrukturun yaradılması;

3) "yaşıl" sənayenin yaranmasına töhfə vermək (Yakovlev & Kabir, 2018).

"Yaşıl" iqtisadiyyatın həyata keçirilməsinin məqsədi qlobal davamlı inkişaf prioritetlərinə uyğun olaraq ətraf mühiti qərar qəbuletmə prosesinə tam inteqrasiya etməklə milli səviyyədə daha dayanıqlı istehsal və istehlaka doğru keçidi dəstəkləməkdir. Ancaq burada bir sıra çətinliklər yaranır.

I. Birinci çətinlik "yaşıl" iqtisadiyyatın qavranılmasıdır: bu nədir və burada əsas amil nədir? – iqtisadi inkişaf problemləri, yəni sənaye istehsalının yeni texnoloji nizama keçidinin təmin edilməsi, bu gün özünü göstərən və keçmişdə müşahidə olunan böhranların qarşısını almağa imkan verəcəkdir – qlobal idarəçilik institutlarının əsas kimi tanıdıqları budur.

II. İkinci çətinlik layihələri “yaşıl” kimi təsnif etməkdir. Hələ də bu istiqamətdə konkret çərçivənin müəyyənləşdirilmədiyi müşahidə edilir. Ən azı iki mühüm səbəb bu həqiqəti izah edir:

1) birincisi, “yaşıl” investisiya layihələri həm də əlavə sosial və ekoloji faydalar gətirə bilər. Qlobal institutlar “yaşıl” layihələrin təsirlərini bölüşməyi təklif edirlər. Layihələr daha çox sosial və ekoloji təsirlərə nail olmağa yönəlibsə, o zaman onlar davamlı investisiya layihələri kimi təsnif edilməlidir.
2) İkinci səbəb, dünya inkişafının çox müxtəlifliyidir, hər bir ölkə suveren dövlət olmaqla öz fərdi resurs və imkanlarını təqdim edir. Bu səbəbdən qlobal institutlar bütün ölkələrə qlobal çərçivəni özləri üçün uyğunlaşdırmağı və davamlı inkişaf prinsiplərinə əsaslanaraq milli iqtisadiyyatın inkişafına öz yanaşmalarını seçməyi təklif edir, həm də öz problemlərinə, xalq təsərrüfatının və istehsalın xüsusiyyətlərinə əsaslanaraq inkişaf istiqamətlərini müəyyənləşdirirlər (Yakovlev & Kabir, 2018).

Məhz buna görə də üçüncü qrup çətinlikləri müşahidə edirik: davamlılıqla bağlı bir çox maliyyə resursları vardır. Bu gün, faktiki olaraq, bu və ya digər şəkildə davamlı inkişafla bağlı olan ayrıca maliyyə qrupu mövcuddur. Bu, milli inkişaf strategiyalarını formalaşdıran ölkələrin milli prioritetləri müəyyən etməsi ilə izah olunur.

Məsələn, Şimali Avropa və Avropa İttifaqı ölkələri karbonsuz iqtisadiyyata əsaslanaraq öz gələcəklərini müəyyən ediblər, ona görə də onlar diqqəti aşağı karbonlu maliyyəyə (low-carbon finance) yönəldirlər. Digər ölkələr ətraf mühit və ya iqlim problemlərini həll etməyi qarşılarına məqsəd qoymuşlar. Nəticə davamlılığa uyğun maliyyə spektridir.

Bundan başqa, dördüncü çətinlik ortaya çıxır: belə maliyyə müxtəlifliyinin idarə olunması prosesi necə təşkil edilməlidir, ölkə milli maliyyə bazarının strukturunda bu elementləri hansı kombinasiyada formalaşdırmalıdır və ən əsası, bütün bunları necə həyata keçirmək lazımdır? Çünki bütün ölkələr qlobal səviyyəli inkişafın səviyyəsinə uyğun irəliləməlidir və bu, əslində, təxirəsalınmaz vəzifədir (Yakovlev & Kabir, 2018).

Xarici təcrübənin öyrənilməsi göstərir ki, ölkələrin davamlı inkişaf yolu ilə hərəkəti həm dövlətdən, həm də biznesdən məsuliyyətli siyasət aparmağı tələb edir. Qlobal müstəvidə müəyyən edilmiş qaydalar elədir ki, bu prosesdə əsas şey könüllü olaraq milli iqtisadiyyatda islahatlar aparmaq öhdəliyini qəbul edən ölkə hökumətidir. Məhz ölkələrin hökumətləri tərəfindən milli inkişaf strategiyasının, müvafiq proqram və planların həyata keçirilməsi vasitəsilə iqtisadiyyatın “yaşıl” sahələrinin inkişafı stimullaşdırılır və “yaşıl”a aid olmayan sektorlarda fəaliyyət dayandırılır.

**Nəticə**

Aparılan tədqiqatlar və müxtəlif ölkələrin təcrübələri göstərir ki:

1) davamlı inkişafın maliyyələşdirilməsi üzrə milli strategiya hazırda qeyri-səlis struktur, natamam əhatə, qeyri-sistemli yanaşma ilə xarakterizə edilir. Müvafiq olaraq, davamlı inkişafın maliyyələşdirilməsi strategiyasının elementi olan “yaşıl” iqtisadi artım modelinə keçid hazırkı şəraitdə çətindir;

2) “yaşıl” iqtisadiyyat milli inkişafın prioritet istiqaməti kimi seçilir, lakin onun cəmiyyətdə aydın və konsensual tərifi hələ formalaşmamışdır. Bununla əlaqədar olaraq, “yaşıl” iqtisadiyyatın ölçülməsi, prosesin dövlət tərəfindən idarə edilməsi və tənzimlənməsində çətinliklər və müvafiq olaraq “yaşıl” investisiyaların maliyyələşdirilməsi mexanizminin formalaşdırılmasının mürəkkəbliyi ortaya çıxır;

3) “yaşıl” iqtisadiyyat və “yaşıl” artım konsepsiyasının həyata keçirilməsi əsasında dayanıqlı inkişafı təmin etmək üçün qlobal səviyyədən olan tələblər milli hökumətlərə fərdi milli strategiya formalaşdırmaq üçün kifayət qədər bir tərəfdən davamlı inkişaf prinsiplərinə zidd olmayan, digər tərəfdən isə milli maraqları təmin edən imkanlar verir;

4) bəzi tədqiqatçılar belə bir fikirdədirlər ki, regional iqtisadiyyatın “yaşıllaşdırılması” mexanizminin elementi olaraq “yaşıl” investisiyaların maliyyələşdirilməsi üçün milli mexanizmin formalaşmasına konseptual xarakterli çətinliklərdən daha çox, milli iqtisadiyyatın hansı sektorları ətraf mühitə mənfi təsir göstərən, qeyri-davamlı mövcudluğa gətirib çıxaran kimi tanınması barədə ictimai razılığın olmaması maneə yaradır.

Ümumiyyətlə, apardığımız araşdırmalar “yaşıl” iqtisadiyyat texnologiyalarının tətbiqinin region iqtisadiyyatının artımına müsbət təsir göstərə biləcəyi hipotezini təsdiqləyir.

1) “Yaşıl” texnologiyaların inkişafı üçün koordinasiya mərkəzinin yaradılması, onun vəzifələri aşağıda sadalananları əhatə etməlidir:

a) dövlət orqanlarının, elm və biznesin işinin əlaqələndirilməsini;
b) “yaşıl” iqtisadiyyat sahəsində regional proqramların hazırlanmasını;
c) təsərrüfat subyektlərinin təlim və konsultasiyasını,
d) investisiyaların cəlb edilməsinə köməklik göstərilməsini;

2) “yaşıl” iqtisadiyyat prioritetləri regional inkişaf proqramları, o cümlədən tənzimləyici və maliyyə dəstəyi ilə qarşılıqlı əlaqədə olmalıdır;

3) bütün təsərrüfat subyektlərinin – ev təsərrüfatlarının, müəssisələrin, hökumətlərin enerji səmərəliliyinin o cümlədən təşkilatlarda enerjiyə qənaət edən texnologiyaların iqtisadi stimullaşdırılması olmalıdır;

4) istehsal olunan məhsulların ekoloji cəhətdən təmizliyini qorumaq və yaxşılaşdırmaqla sənayenin məhsuldarlığının artırılmasına yönəlmiş rayonun aqrar-sənaye sektorunda yaşıl texnologiyaların stimullaşdırılmalıdır;

5) kənd və ekoloji turizmin inkişafının təşviqi aparılmalıdır;

6) ictimai və şəxsi nəqliyyat sahəsində, tullantıların utilizasiyası və təkrar emalı sahəsində ekoloji cəhətdən səmərəli texnologiyaların inkişaf etdirilməlidir;

7) bərpa olunan mənbələrə, xüsusən də bioyanacaqlara əsaslanan enerji istehsalı layihələrinin, ölkənin istehsal müəssisələri tərəfindən zəruri avadanlıqların istehsalı layihələrinin dəstəklənməsi vacibdir;

8) “yaşıl” iqtisadiyyat ideyalarının təbliği, regionda ekoloji səmərəliliyin, o cümlədən təlim və məsləhətləşmələrin, əhalinin müvafiq səlahiyyətlərinin formalaşdırılması üçün sosial reklam texnologiyalarından istifadə edilməlidir.

Bütün bunları nəzərə alaraq belə bir qənaətə gəlirik ki, təklif olunan tədbirlərin həyata keçirilməsi region iqtisadiyyatının resurs səmərəliliyini və ümumi məhsuldarlığını artıracaq, ekoloji təmiz məhsulların istehsalına, ölkənin texnoloji inkişaf strategiyasının həyata keçirilməsi çərçivəsində regionlararası və xarici iqtisadi əlaqələrin inkişafına töhfə verəcəkdir.

Dünya ölkələrinin və ayrı-ayrı regionların iqtisadi inkişafının yaşıllaşdırılması təbii sərvətlərin emalının yüksək payı olan məhsulların şaxələndirilməsinə və ixracının artmasına, milli şirkətlərin xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına kömək edəcəkdir.

İnstitusional potensialın yaradılmasına və idarəetmənin təkmilləşdirilməsinə xüsusi diqqət və resurslar ayrılmalıdır. Daha çox investor və layihəyə çatmaq və yeni yaşıl layihələr üçün daha avtomatlaşdırılmış institusional çərçivə təmin etmək üçün subsidiyalara və digər təşviqlərə yenidən baxılmalıdır.

Davamlı artıma geniş əsaslı keçidə başlamaq üçün hökumətlər mövcud maliyyələşdirmə mexanizmlərinin möhkəmliyini və səmərəliliyini təkmilləşdirməli və investorların stimullarına düzəliş etməlidir.Buna milli iqtisadi, büdcə, vergi, investisiya və ekoloji proqramların və ölkədə biznes və yaşıl təşəbbüslərin dəstəklənməsi üçün xüsusi alətlərin hərtərəfli islahatı vasitəsilə nail olmaq olar.

Beləliklə, insan kapitalı həm innovativ inkişafın hərəkətverici qüvvəsi, həm də ərazinin iqtisadi artımının təmin edilməsində əsas rol oynayaraq "yaşıl" prinsiplərin həyata keçirilməsinə də öz töhfəsini vermiş olur. İnsan kapitalının struktur dəyişiklikləri təkcə işçi qüvvəsi kimi onun təkrar istehsalının dəyəri ilə deyil, həm də sosial və ekoloji mühitlə müəyyən edilir.

Təhsilin, elmin və səhiyyənin inkişafı, ətraf mühitin vəziyyəti millətin inkişafı resursu kimi insan kapitalından asılıdır. İqtisadi inkişafın ekoloji faydalardan daha az asılı olması üçün iqtisadi insan deyil, ekoloji dəyərlərin prioritet olduğu sosial şəxs xüsusi rol oynayır.

**Ədəbiyyat:**


Assessment of Europe's Environment Assessments (2023) [elektron resurs] https://www.eea.europa.eu/en/advanced-https://www.eea.europa.eu/en/advanced-search?q=Assessment%20of%20Europe%27s%20Environment%20Assessments&size=n_10_n&filters%5B0%5D%5Bfield%5D=readingTime&filters%5B0%5D%5Btype%5D=any&filters%5B0%5D%5Bvalues%5D%5B0%5D%5Bname%5D=All&filters%5B0%5D%5Bvalues%5D%5B0%5D%5BrangeType%5D=fixed&filters%5B1%5D%5Bfield%5D=issued.date&filters%5B1%5D%5Btype%5D=any&filters%5B1%5D%5Bvalues%5D%5B0%5D=Last%205%20years&filters%5B2%5D%5Bfield%5D=language&filters%5B2%5D%5Btype%5D=any&filters%5B2%5D%5Bvalues%5D%5B0%5D=en

Belokur, O.S. & Tsvetkova, G.S. (2021). Prospects and potential of the green economy in the provincial region.Journal of Innovation Economics № 4, volume 11, p. 1861-1878

Declaration on Green Growth. Adopted at the Meeting of the Council at Ministerial Level on 25 June 2009 (2023) [elektron resurs] // http://www.oecd.org/env/44077822.pdf

Derevyago, I.P. (2019). "Green" economic growth: from theory to practice. Minsk, 160 p.

Gevrasyova, A.P. (2022). The content and mechanism for the implementation of the "green" concept of regional development. Proceedings of the Belarusian State Technical University No. 1 (256), p. 84-92

Ivanova, N.I. & Levchenko, L.V. (2017). "Green" economy: the essence, principles and prospects. Bulletin of Omsk University. Series "Economics" No. 2 (58), p. 19-28

Kemp-Benedict, E. (2018). Investing in a green transition. Ecological Economics. Volume 153, p. 218-236

Kodaneva, S.I. (2020). "Green investments" in Russia and abroad: problems, mechanisms, prospects. Russia and the world in the XXI century. Russia and the modern world No. 1 (106), p. 68-88

Kucherov, A.V. & Shibileva, O.V. (2014). The concept of "green" economy: main provisions and development prospects. Young Scientist No. 4, p. 561-563

Lavrikova, Yu.G. & Malysh, E.V. (2014). Green economy in cluster development. Regional Economics: Theory and Practice No. 36 (363), 2014, p. 48-59

Malysh E.V. (2023). "Green" rental investment in regional development [elektron resources] https://elar.urfu.ru/bitstream/10995/61016/1/978-5-8295-0584-4_45.pdf (son müraciət: 04/19/2023)

Presidents's summary of the discussions by ministers and heads of delegation at the twenty-fifth session of the governing council. (2023). Global ministerial environment forum of the United Nations Environment Programme: note by executive director: UNEP/GCSS.XI/INF/9. UNEP, 2017 [elektron resurs] http://wedocs.unep.org/handle/20.500.11822/20416

Vodopyanova, T.P. (2022). Theoretical aspects of "green" growth indicators. Proceedings of the Belarusian State Technical University No. 1 (5), p. 60-66

Yakovlev, I.A., Kabir, L.S., Nikulina, S.I. & Rakov, I.D. (2017). Financing "green" economic growth: concepts, problems, approaches. Financial Journal No. 3, c. 9-21

Yakovlev, I.A. & Kabir, L.S. (2018). Green Investment Financing Mechanism as an Element of the National Strategy for Sustainable Development Financing. Financial Journal № 3, p. 9-20

# Azərbaycanda Yaşıl Enerji Mənbələrinin İnkişafı və İxracı Məsələləri

**Cavid Babayev**

**Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi**

**cavid.babayev@area.gov.az**

## Xülasə

Son illər COVID-19 epidemiyası və Rusiya-Ukrayna müharibəsi enerji bazarlarında tələb-təklif balansının pozulmasına səbəb olub. Qərbin Rusiyaya sanksiyalarına cavab olaraq təbii qaz tədarükünün azaldılması qlobal bazarlarda enerji qiymətlərində dalğalanmalarla nəticələnib. Bununla, Avropa ölkələri təbii qaz asılılığını azaltmaq və enerji təhlükəsizliyini təmini məqsədilə bərpa olunan enerji mənbələrindən istifadəni genişləndirmək üçün bir sıra addımlar atır. Qeyd etmək lazımdır ki, aşağı karbonlu həllər təklif edən bu enerji növünün istifadəsi hər il artmaqdadır. Azərbaycan bərpa olunan enerji mənbələri üzrə geniş potensiala malik olan ölkələrdəndir. Qlobal enerji böhranının baş verdiyi bir dövrdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu artmaqdadır. Azərbaycanın yüksək bərpa olunan enerji potensialı, xarici investorlarla əməkdaşlıq nəticəsində yeni layihələrin icrası ölkəmizin ixrac potensialını artırır. Azərbaycanda yaşıl enerji mənbələrinin inkişafı və bunun nəticəsində yaranacaq ixrac imkanları Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcək. Məqalədə ölkəmizdə bərpa olunan enerji mənbələrinin potensialı və inkişafı, yaşıl enerji zonalarının yaradılması, mövcud və yeni layihələrin icrası, yaşıl enerjinin ixracı imkanları araşdırılmış və əhəmiyyəti müəyyən edilmişdir.

**Açar sözlər:** Azərbaycan, yaşıl enerji, ixrac, bərpa olunan enerji

## Abstract

In recent years, the COVID-19 epidemic and the Russia-Ukraine war have caused a disruption of the supply-demand balance in the energy markets. The reduction of natural gas supplies in response to Western sanctions against Russia has resulted in fluctuations in energy prices in global markets. With this, European countries are taking a number of steps to reduce natural gas dependence and expand the use of renewable energy sources in order to ensure energy security. It should be noted that the use of this type of energy, which offers low-carbon solutions, is increasing every year. Azerbaijan is one of the countries with a wide potential for renewable energy sources. At a time of global energy crisis, Azerbaijan's role in Europe's energy security is increasing. Azerbaijan's high renewable energy potential, implementation of new projects as a result of cooperation with foreign investors increases the export potential of our country. The development of green energy sources in Azerbaijan and the resulting export opportunities will make an important contribution to Europe's energy security. In the article, the potential and development of renewable energy sources in our country, the creation of green energy zones, the implementation of existing and new projects, the possibilities of exporting green energy were investigated and their importance was determined.

**Keywords:** Azerbaijan, green energy, export, renewable energy

## Giriş

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin hesabatına görə, 2022-ci ildə bərpa olunan enerji mənbələrinin (hidroenerji xaric, bərpa olunan hidroenerji daxil olmaqla) qoyuluş gücü 295 qiqavat və ya 9,6 % artaraq 3 372 qiqavat təşkil edib (IRENA, 2023).

Dünya ölkələri iqlim hədəflərinə çatmaq və enerji təhlükəsizliyini təmin etmək məqsədilə ekoloji cəhətdən təmiz hesab olunan bərpa olunan enerji mənbələrindən istifadəni artırır. Xüsusilə Avropa ölkələri təbii qaz asılılığını azaltmaq, "yaşıl" enerji mənbələrinə keçidi sürətləndirmək üçün müxtəlif dəstək mexanizmləri tətbiq edir.

Azərbaycan da bərpa olunan enerji potensialı ilə zəngindir və dünyada enerji ixracatçısı kimi tanınır. Belə ki, ölkəmizin bərpa olunan enerji mənbələrinin potensialı 200 qiqavata yaxındır və bu potensialdan istifadə etməklə yaşıl enerji istehsalını artırmaq və ixrac etmək imkanları mövcuddur.

Tədqiqat işində yerli və xarici ədəbiyyat mənbələrindən, statistik göstəricilərdən, beynəlxalq hesabatlardan istifadə edilməklə statistik və analitik təhlil aparılmış, ölkəmizdə yaşıl enerjidən istifadə imkanları və onun Avropaya ixracı məsələləri araşdırılmışdır. Tədqiqatın aktuallığı müasir dövrün qlobal məsələlərindən olan bərpa olunan enerji mənbələrini və enerji keçidi məsələlərini əhatə etməsidir. Tədqiqatın praktik əhəmiyyəti Azərbaycanda yaşıl enerji potensialının inkişafı və ixracı barəsində nəzəri köməklik göstərilməsidir.

Tədqiqatın əsas məqsədi Azərbaycanda bərpa olunan enerji mənbələrinin potensialı və Avropanın enerji təhlükəsizliyinə töhfəsinin əhəmiyyətini müəyyən etməkdir. Tədqiqatın nəticəsində sektor üzrə yerli göstəricilər qiymətləndirilmiş, bununla əlaqədar olaraq müvafiq nəticələr əldə edilmişdir.

**Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişafı istiqamətində görülən tədbirlər**

"Yaşıl" enerji mənbələrindən istifadə və bu sahənin inkişafı dayanıqlı iqtisadiyyatın qurulması istiqamətində vacib bir amildir. Ölkəmizin bərpa olunan enerji mənbələri üzrə potensialı 27 min meqavat həcmində qiymətləndirilir: külək enerjisi potensialı 3 min meqavat, günəş enerjisi potensialı 23 min meqavat, bioenerji potensialı 380 meqavat, dağ çayları üzrə potensial isə 520 meqavat həcmindədir. (Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, 2023). Bundan əlavə, Dünya Bankı Qrupunun "Enerji Sektorunun İdarəedilməsində Yardım Proqramı" - ESMAP çərçivəsində və Energetika Nazirliyi ilə Beynəlxalq Maliyyə Korporasiyası arasında dənizdə külək enerjisindən istifadə sahəsində əməkdaşlığa dair imzalanmış Anlaşma Memorandumuna əsasən beynəlxalq məsləhətçilərin iştirakı ilə hazırlanmış "Dənizdə külək enerjisi üzrə Yol Xəritəsi" təqdim olunub. Sənəd Azərbaycanda dekarbonizasiya və dayanıqlı inkişaf prioritetlərinə uyğun olaraq uzunmüddətli perspektivdə infrastrukturun inkişafı və investisiya cəlb edilməsilə 2040-cı ilə qədər dənizdə 7,2 qiqavat ümumi qoyuluş gücündə külək elektrik qurğularının quraşdırmaq potensialının olduğunu göstərir. Bununla belə, sənəddə aşağı artım ssenarisinə də baxılır ki, bu ssenari üzrə potensial 1,5 qiqavat həcmində qiymətləndirilir. Sənədə əsasən, Azərbaycanın dənizdə külək enerjisinin inkişaf potensialı dayaz sularda 35 qiqavata qədər, dərin sularda isə 122 qiqavata qədər enerji istehsal oluna bilər (ESMAP, 2022)

**Cədvəl 1. Azərbaycanda bərpa olunan enerji mənbələrinin potensialı**

| | |
|---|---|
| Günəş enerjisi | 23 040 meqavat |
| Quruda külək enerjisi | 3 000 meqavat |
| Hidro enerji (dağ çayları) | 520 meqavat |
| Bioenerji | 380 meqavat |
| **Dənizdə külək enerjisi** | **157 qiqavat** |

**Mənbə:** Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, www.area.gov.az

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürüldüyü və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə payının 30 faizə çatdırılmasının hədəf kimi müəyyənləşdirildiyi nəzərə alınmaqla yaşıl enerjinin inkişafı istiqamətində bir çox tədbirlər görülür. Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliyinin "Masdar" şirkəti ilə qoyuluş gücləri müvafiq olaraq 240 meqavat olan külək elektrik stansiyası və 230 meqavat gücündə günəş elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihələrin həyata keçirilməsinə başlanılıb. Qeyd etmək lazımdır ki, bu stansiyalardan illik 1,5 milyard kilovat-saat təmiz enerji istehsal ediləcək. Bu da karbon qazı tullantılarını 600 min ton azaltmağa kömək edəcək, eyni zamanda ildə 330 milyon ton kubmetr təbii qaza qənaət etməyə imkan verəcək. (Babayev, 2021) Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan 2050-ci ilədək istixana qazı emissiyalarını 40%-dək azaltmağı hədələyir (BOEMDA, 2023)

Layihələr prioritet vəzifə olaraq irəli sürülmüş bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, o cümlədən 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəfi istiqamətində atılan ilk addım qiymətləndirilə bilər. Bundan əlavə, bp şirkəti ilə əməkdaşlıq çərçivəsində Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş elektrik stansiyasının inşası da nəzərdə tutulur (BOEMDA, 2023)

Ölkəmizdə ümumi gücü 66,1 meqavat təşkil edən külək, 48,9 meqavat olan günəş, 37,7 meqavat gücündə bioenerji, 1,159 meqavat gücündə kiçik və iri su elektrik stansiyaları enerji istehsal edir.

**Cədvəl 2. Azərbaycanda bərpa olunan enerji mənbələrinin qoyuluş gücü**

| | |
|---|---|
| Hidro enerji | 1 207,7 meqavat |
| Külək enerjisi | 66,1 meqavat |
| Bioenerji | 37,7 meqavat |
| Günəş enerjisi | 48,9 meqavat |
| **Ümumi qoyuluş gücü** | **1 308 meqavat** |

**Mənbə:** Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, www.area.gov.az

Azərbaycanda su elektrik stansiyaları daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1,312 meqavatdır ki, bu da ümumi istehsal gücünün, təxminən, 16,5%-ni təşkil edir (BOEMDA, 2023).

**Qarabağın və Naxçıvanın "Yaşıl Enerji Zonası"na çevrilməsi imkanları**

Qarabağın və Naxçıvanın yaşıl enerji potensialı Azərbaycanın yaşıl enerji sektorunun inkişafına ciddi töhfələr verə bilər. İşğaldan azad olunmuş rayonlarımızda geniş yaşıl enerji potensialı yeni layihələr gerçəkləşdirməyə imkan verir. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Prezidentin sərəncamında qeyd edilir ki, bu ərazilərdə ekoloji təmiz texnologiyaları tətbiq edən, "yaşıl artım" yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorlar dəstəklənəcək.

Azad edilən ərazilərdə yaşıl enerji potensialı 10 min meqavata yaxındır. (BOEMDA, 2023) Təhlillər göstərir ki, Vətən müharibəsində ölkəmizin qələbəsi işğaldan azad edilmiş ərazilərin su ehtiyatlarından digər məqsədlərlə yanaşı, enerji məqsədli istifadəyə şərait yaratmışdır. Tərtərçay, Həkəri çayı və bu çayların qollarında böyük hidroenerji potensialı mövcuddur. Xüsusən qeyd etmək lazımdır ki, Qarabağda günəş enerjisi layihələri həyata keçirmək üçün əlverişli potensial var. İlkin müşahidələr nəticəsində günəş potensialına malik müvafiq ərazilər müəyyən edilmişdir.

**Cədvəl 3. İşğaldan azad edilmiş ərazilərdə yaşıl enerji potensialı**

| | |
|---|---|
| Günəş enerjisi | 7,200 meqavat |
| Külək enerjisi | 2,000 meqavat |
| Hidro enerji | 510 meqavat |

**Mənbə:** Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, www.area.gov.az

İlkin araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq hissələrində əlverişli külək potensialının olması müəyyən edilmişdir. Təhlillər bu ərazilərdə külək enerjisi potensialının 2 000 MVt ətrafında olmasını göstərir. Bu ərazilərdə külək enerji layihələrinin həyata keçirilməsi üçün zəruri işlər görülür.

Qeyd edilən potensial işğaldan azad olunmuş rayonlarımızda yeni enerji layihələrini gerçəkləşdirməyə imkan verir. Həmin istiqamətdə genişmiqyaslı işlər nəzərdə tutulub və onlar ardıcıllıqla həyata keçirilir.

Bərpa olunan enerji mənbələri həm də təbii qazın çəkilişinin texniki olaraq mümkünsüz və iqtisadi səmərəli olmayan məntəqələrin enerji tələbatı üçün həll yoludur. Kəlbəcər və Laçın rayonlarının hündür dağlıq ərazi olduğunu nəzərə alsaq, bərpa olunan enerji mənbələrindən istifadə daha səmərəli olar.

İşğaldan azad edilmiş ərazilərdə günəş enerjisi potensialı 7 200 MVt-dan artıq qiymətləndirilir. Belə ki, Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli ərazisində müşahidə edilən günəş radiasiyası Naxçıvan Muxtar Respublikasında müşahidə edilən günəş radiasiyasından sonra ölkə üzrə ən əlverişli ikinci regiondur. Naxçıvanın coğrafi mövqeyi və iqlimi bərpa olunan enerji mənbələrinin inkişafı üçün əlverişlidir. Burada xüsusilə günəş enerjisi potensialı yüksək qiymətləndirilir. Naxçıvanın yaşıl enerji zonasına çevrilməsi üçün yüksək potensial mövcuddur və bu məqsədlə xarici investorların iştirakı ilə görüşlər keçirilir (BOEMDA, 2023), sənaye miqyaslı yaşıl enerji layihələrinin reallaşdırılması istiqamətində müzakirələr aparılır həmçinin muxtar respublikanın enerji təminatının yaxşılaşdırılması ilə bağlı işçi qrupu da yaradılıb (Energetika Nazirliyi, 2023).

**Yaşıl enerjinin ixrac imkanları və enerji təhlükəsizliyi**

Qlobal enerji böhranının baş verdiyi bir dövrdə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu artmaqdadır. 2022-ci il 18 iyul tarixində Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nda mühüm məqamlardan biri bərpa olunan enerji ilə bağlı əməkdaşlıq məsələsinin də yer almasıdır. Həmçinin 2022-ci il 17 dekabr tarixində Rumıniyanın paytaxtı Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması Avropanın enerji təhlükəsizliyinə və təmiz enerjiyə keçidə töhfə verməklə yanaşı ölkəmiz üçün yaşıl enerji ixracı həyata keçirmək imkanı yarada bilər (Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 2023). Bu məqsədlə Qara dənizin dibi ilə 1100 km məsafədə sualtı elektrik kabelinin çəkilişi və bu marşrut vasitəsilə ölkəmizdə istehsal olunacaq 4 min meqavata qədər yaşıl enerjinin ixrac edilməsi nəzərdə tutulur (Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, 2022). Sazişin icrası məqsədilə bu ilin fevral ayının 3-də Bakıda keçirilən Yaşıl Enerji Məşvərət Şurası nazirlərin 1-ci iclası çərçivəsində dörd ölkənin nazirlərinin ilk iclası keçirilmiş və məsələlərin koordinasiyalı şəkildə yerinə yetirilməsi üçün İşçi Qrupunun yaradılması razılaşdırılıb (EN, 2023).

Bundan əlavə, xarici enerji şirkətləri ilə əldə edilən razılıqlara əsasən Azərbaycanda 25 QVt-a qədər yaşıl enerji layihələrinin icrası planlaşdırılır. Bütün bunlar, Azərbaycanın nəinki öz enerji təhlükəsizliyini təmin etməsinə, həmçinin Avropanın enerji təhlükəsizliyinə də mühüm töhfə olacaq, ixrac imkanlarını artıracaq.

**Nəticə**

Bərpa olunan enerji enerji bazarını şaxələndirə və enerji təhlükəsizliyini təmin edə bilər. Bərpa olunan enerji mənbələri haqqında qanunun qəbul edilməsi Azərbaycanda sektorun ümumi inkişaf istiqamətini təmin edəcək və bərpa olunan enerji mənbələrinin yerli bazarının inkişafına əhəmiyyətli töhfə verəcək.

İqlim hədəflərinə nail olmaq üçün bərpa olunan enerji mənbələrindən istifadə xüsusilə vacib əhəmiyyət kəsb edir.

Azərbaycanda yaşıl enerji istehsalı və ixracı istiqamətində nəhəng layihələrin icarsına başlanılması qeyri-neft sektorunun inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Bu həm ölkəmizin yaşıl enerjini ixrac etmək imkanlarını artıracaq, həm də Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə olacaqdır.

Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın yaşıl enerji zonasına çevrilməsi, Azərbaycanın xarici investorlarla əməkdaşlığı nəticəsində 25 qiqavata qədər yaşıl enerji gücünün yaradılması istiqamətində atılan addımlar Azərbaycan-Türkiyə-Avropa, Gürcüstan-Türkiyə və Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı özündə birləşdirəcək yaşıl enerji dəhlizlərinin inkişafını və ixrac imkanlarını artırır.

Yaşıl enerji sahəsinin inkişafı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən biri olan “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” prioriteti üzrə qarşıya qoyulmuş hədəflərə də öz töhfəsini verəcəkdir.

Xarici investisiyanın hesabına həyata keçiriləcək bərpa olunan enerji layihələri qənaət olunan təbii qazın ixraca yönəldilərək ölkəyə valyuta axınına səbəb olacaq, məşğulluğun artmasına, sektor üzrə ixtisaslı kadrların hazırlanmasına, yeni iş yerlərinin yaranmasına, ildə minlərlə ton karbon qazı emissiyasının qarşısının alınması ilə ölkənin qlobal iqlim hədəflərinə və digər istiqamətlərdə mühüm töhfə verəcək.

**Ədəbiyyatlar**

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA). Renewable Capacity Statistics (2023).

Azərbaycan Respublikası Energetika Nazirliyinin elektrik enerjisinə dair operativ məlumatları (2022).

Babayev J. (2020). Why we should switch to alternative energy?

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA). (2019). Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadəyə hazırlığın qiymətləndirilməsi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumu çərçivəsində keçirilən panel iclasında iştirak edib (2023). https://president.az/az/articles/view/58664

Şahbazov P. (2022). “Azərbaycan yaxın gələcəkdə etibarlı elektrik enerjisi təchizatçısına çevriləcəkdir”

Qasımlı V., Hüseyn R., Hüseynov R., Həsənov R., Cəfərov C., Bayramova A. Yaşıl iqtisadiyyat. (2022)

Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. www.president.az

"İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

https://e-qanun.az/framework/48628

Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi (2023). www.area.gov.az

Azərbaycan Respublikası Energetika Nazirliyi (2023). www.minenergy.gov.az

ESMAP-Offshore Wind Roadmap for Azerbaijan. (2022) https://esmap.org/esmap_Offshore_Wind_Roadmap_for_Azerbaijan

Babayev C. Qarabağda yaşıl enerji potensialı və görüləcək işlərin təhlili. "Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları" I Beynəlxalq Elmi-Praktik Konfrans. 2021. səh.74-80

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi. Gürcüstan-Rumıniya Qara Dəniz Sualti Kabel Layihəsi. 2022. https://aircenter.az/uploads/zv3Gdt_igXsh.pdf

Bərpa olunan enerji mənbələri üzrə informasiya portalı. www.renewables.az

# Economic Outcomes of the century: Impact of the Heydar Aliyev Contributions to the Economic Development of Azerbaijan and the Region

**Muhammad Zaman Bajwa**

**YFK-International Kashmir Lobby Group**

**Zeebajwa@gmail.com**

## Abstract

| **Ermənistan** | … | 19,0 | 18,5 | 17,8 | 16,4 | 18,3 | … |
| **Moldova** | 7,3 | 7,4 | 4,9 | 4,1 | 3,0 | 5,1 | 3,8 |
| **Rusiya** | 7,1 | 7,3 | 5,6 | 5,2 | 4,8 | 4,6 | 5,8 |
| **Tacikistan** | … | … | … | … | … | 6,9 | … |
| **Turkmənistan** | … | … | … | … | … | … | … |
| **Özbəkistan** | … | 5,4 | 5,2 | 5,8 | 9,3 | 9,0 | 10,5 |
| **Ukrayna**[1)] | 7,2 | 8,1 | 9,1 | 9,5 | 8,8 | 8,2 | 9,5 |

**Mənbə:** Azərbaycan Statistika Komitəsi, https://www.stat.gov.az/source/labour/, 2022

### Cədvəl 5: Qadın və kişilərin işsizlik səviyyəsi (faizlə)

| Ölkələr | İllər | İşsizlik səviyyəsi | |
|---|---|---|---|
| | | **Qadınlar** | **Kişilər** |
| Azərbaycan | **2020** | **8,4** | **6,0** |
| **Belarus** | 2019 | 3,2 | 5,1 |
| **Ermənistan** | 2019 | 21,0 | 20,1 |
| **Qazaxıstan** | 2019 | 5.3 | 4.3 |
| **Qırğızıstan** | 2019 | 6,2 | 5,0 |
| **Moldova** | 2019 | 4.4 | 5.8 |
| **Rusiya** | 2019 | 4.4 | 4.8 |
| **Tacikistan** | 2019 | 5,5 | 7,9 |
| **Türkiyə** | 2019 | 16.4 | 12.3 |
| **Özbəkistan** | 2019 | 11,6 | 7,7 |
| **Ukrayna** | 2019 | 7.9 | 8.5 |

**Mənbə:** Azərbaycan Statistika Komitəsi, https://www.stat.gov.az/source/gender/, 2022

İnsan kapitalının artmasına mənfi təsir edən digər bir amil isə orta aylıq əmək haqqın səviyyəsinin aşağı olmasıdır. Bu da ixtisaslaşmış insan kapitalının ölkədən getməsinə xaricdə işləməsinə səbəb olur. Cədvəl 6-da MDB ölkələrinin orta aylıq nominal əmək haqqısı göstərilmişdir.

### Cədvəl 6: MDB dövlətləri üzrə orta aylıq nominal əməkhaqqı (ABŞ dolları ilə, ölkələrin milli və mərkəzi banklarının təyin etdiyi valyuta məzənnəsinə görə)

| | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 131 | 413 | 455 | 307 | 307 | 307 | 307 |
| Belarus | 215 | 407 | 413 | 426 | 426 | 426 | 426 |
| Qazaxıstan | 256 | 527 | 568 | 463 | 463 | 463 | 463 |
| Qırğızıstan | 64 | 156 | 209 | 228 | 228 | 228 | 228 |
| Ermənistan | 114 | 275 | 359 | 368 | 368 | 368 | 368 |
| Moldova | 105 | 240 | 241 | 302 | 302 | 302 | 302 |
| Rusiya | 303 | 682 | 561 | 672 | 672 | 672 | 672 |
| Tacikistan | 27 | 81 | 143 | 134 | 134 | 134 | 134 |
| Türkmənistan | … | … | 364 | … | … | … | … |
| Özbəkistan | … | … | 456 | 285 | 285 | 285 | 285 |
| Ukrayna | 157 | 282 | 193 | 273 | 273 | 273 | 273 |

**Mənbə:** Azərbaycan Statistika Komitəsi, https://www.stat.gov.az/source/labour/, 2022

## Məhsuldarlıq, İnsan Kapitalı Və Təhsil Siyasəti

İƏİT müntəzəm olaraq ölkələrə təhsil və təlim sistemlərində islahatlar aparmağı tövsiyə edir. İqtisadçılar bunu çox vaxt "insan kapitalının" təkmilləşdirilməsi kimi adlandırırlar. Bununla belə, makroiqtisadi səviyyədə insan kapitalının artım və məhsuldarlığa təsirinin kəmiyyətcə qiymətləndirilməsi həm akademik ədəbiyyatda, həm də İƏİT-nin işində çox vaxt məyusedici dərəcədə çətin olduğunu sübut edir.

Empirik təhlil göstərir ki, aşağıdakı təhsil siyasətləri ölkə səviyyəsində insan kapitalını artırmağa meyllidir (Égert, Botev və Turner, 2019) :

Birincisi, xüsusən əlverişsiz şəraitlərdə böyüyən uşaqların payı orta səviyyədən yuxarı olan ölkələrdə.məktəbəqədər təhsilə gedən daha çox uşaq insan kapitalını təkmilləşdirir.

Digər bir tapıntı isə tədris resurslarının əhəmiyyətli olmasıdır. Müəllimə düşən daha az tələbə insan kapitalını artırır ki, bu da tədris keyfiyyətinin kobud ölçüsü kimi qəbul edilə bilər. Həmçinin ixtisaslı müəllimlərin daha çox payının insan kapitalı üçün faydalı olduğunu göstərən bəzi sübutlarlar da mövcuddur.

Üçüncüsü, uşaqların daha gec yaşda bacarıq və ya nailiyyətlərinə görə peşə məktəbləri kimi müxtəlif təhsil ocaqlarına köçürülməsi müsbət təsir göstərir.

Nəhayət, universitetlərin öz resurslarını necə bölüşdürməkdə daha çox muxtariyyətə malik olduğu ölkələr daha yüksək insan kapitalına malikdir və universitet təhsilinin fərdi maliyyələşdirilməsinə çıxış asanlığı ölkənin insan kapitalını artırmağa kömək edir. Bununla belə, qeyd etmək lazımdır ki, bu nəticələr daha az etibarlıdır (İƏİT, 2022).

Azərbaycanda ailə təhsil səviyyəsində əhalinin faizinin aşağı olmaısı da bundan qaynaqlanır. Əlbəttə ki, pulsuz, güzəştli və təqaüdlə təhsil alan tələbələrin saylı az deyildir. Lakin dövlət universitetlərində belə təhsil haqları orta aylıq əmək haqqının çox-çox üzərindədir. Buna görə də bir çox istedadlı gənclər maddi çətinliklərə görə ali təhsil müəssisələrində təhsil ala bilmirlər.

## Hökumətin rolu

Hökumətlərin rolu ölkə əhalisinin bacarıq və təhsil səviyyələrini genişləndirmək üçün əsasdır. Bəzi hökumətlər insanlara heç bir ödəniş etmədən ali təhsil təklif etməklə insan kapitalının təkmilləşdirilməsində fəal iştirak edirlər. Bu hökumətlər başa düşürlər ki, insanların təhsil vasitəsilə əldə etdikləri biliklər iqtisadiyyatın inkişafına və iqtisadi artımın artmasına kömək edir. Daha çox təhsilə və ya daha yaxşı bacarıqlara malik olan işçilər daha çox qazanc əldə edirlər ki, bu da öz növbəsində əlavə istehlak xərcləri hesabına iqtisadi artımı artırır.

## Korporativ sektorun rolu

Şirkətlər mənfəət və məhsuldarlığı artırmaq üçün insan kapitalına da sərmayə qoyurlar. Məsələn, deyək ki, texnologiya şirkətində çalışan işçi yerində təlim və daxili seminarlar vasitəsilə kompüter proqramçısı olmaq üçün təlim alır. Ali təhsil üçün təhsil haqqının bir hissəsini şirkət ödəyir. Təlim başa çatdıqdan sonra işçi şirkətdə qalsa, o, şirkət üçün yeni ideyalar və yeni məhsullar hazırlaya bilər. İşçi həmçinin karyerasında sonradan şirkətdən ayrıla və öyrəndiyi biliklərdən yeni şirkət qurmaq üçün istifadə edə bilər. İşçinin firmada qalmasından və ya yeni şirkət qurmasından asılı olmayaraq, insan kapitalına ilkin investisiya son nəticədə iqtisadi artıma gətirib çıxaracaq (Steven, 2021).

**İnsan kapitalı ilə iqtisadi inkişaf arasında əlaqə**

İnsan kapitalı və iqtisadi artım arasında güclü əlaqə var. İnsan kapitalı iqtisadi artıma təsir edir və insanların bilik və bacarıqlarını genişləndirməklə iqtisadiyyatın inkişafına kömək edir.

İnsan kapitalı işçilərin iqtisadiyyatda sahib olduqları bilik, bacarıq və təcrübəyə aiddir. Bacarıqlar iqtisadi dəyər verir, çünki bilikli işçi qüvvəsi məhsuldarlığın artmasına səbəb ola bilər. İnsan kapitalı anlayışı hər kəsin eyni bacarıq və ya biliyə malik olmadığının dərk edilməsidir. Həmçinin insanların təhsilinə sərmayə qoymaqla işin keyfiyyətini artırmaq olar.

İnsan Kapitalı və İqtisadi İnkişaf. İnsan kapitalı iqtisadi artımla müsbət əlaqələndirilir, çünki investisiyalar məhsuldarlığı artırır. İşçi qüvvəsinin maarifləndirilməsi prosesi bir investisiya növüdür, lakin avadanlıq kimi kapital qoyuluşu yerinə investisiya insan kapitalına yönəldilir.

**İşğaldan Azad Edilmiş Rayonlarda İnsan Kapitalının İnkişafı İqtisadi Artıma Təsiri**

İqtisadi artım iqtisadiyyatın keçmiş dövrlərlə müqayisədə mal və xidmətlər istehsal etmək qabiliyyətinin artmasıdır. İqtisadi artım ölkənin ümumi daxili məhsulunun (ÜDM) dəyişməsi ilə ölçülür. ÜDM bir iqtisadiyyat üçün əmtəə və xidmətlərin ümumi istehsalının təmsilidir. Məsələn, əgər bir ölkənin ÜDM-i il ərzində 2,5% təşkil edirsə, bu, ölkənin iqtisadi artımının ötən illə müqayisədə 2,5% artması deməkdir. İnsan kapitalının artıma necə təsir etdiyini müəyyən etmək üçün ilk növbədə iqtisadiyyatda iqtisadi artımın iki əsas sürücüsünə nəzər salmalıyıq.

**İstehlakçı xərcləri**

İstehlakçılar işlə təmin olunduqca və ya əmək haqqı artdıqca, onlar paltar, avtomobil, texnologiya, ev və məişət mallarının alışını artırmağa meyllidirlər. Bütün bu xərclər pərakəndə satış, avtomobil istehsalçıları, texnoloji mağazalar və ev inşaatçıları kimi müxtəlif sahələrdə məşğulluğun yaxşılaşmasına səbəb olan müsbət dalğalanma effekti yaradır. Xərclər həm də bütün iqtisadiyyatda daha yüksək ÜDM artımına gətirib çıxarır.

**Biznes investisiya**

İstehlak xərcləri hesabına artan ÜDM artımı biznes şəraitinin yaxşılaşmasına səbəb olur. Şirkətlər daha çox qazanc əldə etdikcə, gələcək artım yaratmaq üçün bizneslərinə daha çox pul yatırmağa meyllidirlər.

Artan iqtisadiyyatda şirkətlər istehlakçı tələbinin artması səbəbindən istehsalı genişləndirmək üçün banklardan əlavə borc götürürlər. Kredit vəsaitləri adətən istehsal müəssisələri və avadanlıqlar kimi aktivlərin böyük alışı üçün istifadə olunur. Əlavə istehsal həm də şirkətin məhsullarına istehlak tələbinin artması üçün daha çox işçi tələb olunduğundan əmək haqqının artmasına və məşğulluğun artmasına səbəb olur.

Şirkətlər satışların artmasına kömək etmək üçün işçiləri işə götürməyə çalışırlar, bu, müxtəlif məşğulluq növlərində yeni iş yerlərinin açılmasına səbəb olur. Bununla belə, əmək bazarı çox sıxlaşarsa, genişlənən iqtisadiyyata görə şirkətlər kifayət qədər ixtisaslı işçilər olmadığı üçün lazım olan bacarıqlar üçün işçilər hazırlamağa məcbur olurlar.

Biznes sərmayəsi nəticəsində şirkətlər daha məhsuldar olur, ÜDM-in artımı isə biznes sərmayəsi böyümənin əsas komponenti olduğundan yüksəlir. İstər istehlak xərcləri, istərsə də biznes investisiyaları yalnız daha çox iqtisadi artıma səbəb olmur, həm də işçilərin təlim və inkişaf səviyyəsinin müəyyən edilməsində mühüm rol oynayır.

## İnsan Kapitalı İnvestisiyaları Və Məşğulluğun Artımı

İşçilərə sərmayə qoymaq bütün dünyada iqtisadiyyatlarda daha yaxşı məşğulluq şəraitinin yaradılmasına dair təcrübəyə malikdir. Məşğulluq yaxşılaşırsa, istehlak xərcləri yüksəlir, bu da şirkətlərin gəlirlərinin artmasına və əlavə biznes investisiyalarına səbəb olur. Nəticə etibarı ilə məşğulluq ÜDM artımının necə həyata keçirilə biləcəyini müəyyən etmək üçün əsas göstərici və ya metrikdir (Steven, 2021).

Ümumilikdə insan kapitalının inkişafı işağldan azad edilmiş ərazilərə aşağıdakı səmərəlililəri gətirəcəkdir:

- İşağdan azad edilmiş ərazilərdə insan kapitalı iqtisadi artıma təsir edir və insanların bilik və bacarıqlarını genişləndirməklə iqtisadiyyatın inkişafına kömək edir.
- İstehlak xərcləri və biznes investisiyaları ilə idarə olunan iqtisadi artım səviyyəsi tələb olunan ixtisaslı işçi qüvvəsinin səviyyəsinin yüksəlməsi biznes investisiyaları artırdığı kimi, istehlak xərcələrini də azaldacaqdır.
- İnsan kapitalına yatırımın artması gənc kadların arasında məşğulluğun yüksəlməsinə səbəb olacaq, bunulada ölkədə iqtisadi fəal əhali potensiyalından maksimum istifadə olunacaqdır.

## Nəticə

Tədqiqat zamanı məlum olmuşdur ki, Azərbayccan işsizlik səviyyəsinə, əmək haqqı miqdarına, təhsil səviyyəsinə, səhiyyə xərcələrinə görə MDB ölkələrinin əksəriyyyətindən geridə qalır. Bu da özünü insan kapitalının səviyyəsində özünü göstərmişdir. İnsan kapitalının inkişafında hökümətin və komperativ sektorun rolu böyükdür. İşçisinin ixtisaslaşmasına və bilik və bacarıqlarının inkişafına investisiya edən müəssisə uzunmüddətli dövrdə qazanacaq, daha dayanıqlı və rəqabətqaəbiliyyətli bir quruma çevriləcəkdir.

İşğaldan azad edilmiş ərazilərdə insan kapitalının inkişafı həmin rayonlarda yenidənqurma fəaliyyətinin sürrətlənməsinə səbəb olacaq, investisiyaların sayını artıracaqdır. Rifah səviyyəsi yüksəlmiş bu rayonlara iqtisadi fəal əhalinin marağı artacaq beləliklə işsizliyin səviyyəsin azalmasına səbəb olacaqdır. Bunlar işağldan azad edilmiş rayonların iqtisadiyyatına bütövlükdə isə ölkənin iqtisadi artımana gətirib çıxaracaqdır. İqtisadiyyatı güclü olan ölkə xarici təsirlərə qarşı daya dözümlü, ani şoklara dayanıqlı hala gələcəkdir.

## Ədəbiyyat Siyahısı


Azərbaycan Statistika Komitəsi, https://www.stat.gov.az/source/gender/, 2022

Azərbaycan Statistika Komitəsi, https://www.stat.gov.az/source/labour/, 2022

Dünya bankı (2020). "Sağ qal öyrən inkişaf et". Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı

Salwa Muda (2015). "Human capital in smes life cycle perspective". Procedia Economics and Finance, Volume 35, 2016, Pages 683-689 https://www.sciencedirect.com/science/article/pii/S2212567116000848?ref=pdf_download&fr=RR-2&rr=710ca6757aa7693a

Égert Botev (2019). "Environmental science and pollution". 21(2019) 26:34388–34400 https://www.researchgate.net/publication/336706934_Relationship_between_energy_investment_human_capital_environment_and_economic_growth_in_four_BRICS_countries

Salwa Muda (2016). Human capital in SMEs life cycle perspective  Procedia Economics and Finance Elsevier vol 35 683-689

Wittgenstein Centre Human Capital Data Explorer, http://dataexplorer.wittgensteincentre.org/wcde-v2/, 2022

OECD . "Education at a Glance 2020." April 30, 2021. https://www.oecd-ilibrary.org/education/education-at-a-glance-2020_69096873-en;jsessionid=sbaLrru235iiNrt_RtDp_rIT.ip-10-240-5-93

Steven N. (23.06.2021). "What ıs the relationship between human capital and economic growth?". investopedia, https://www.investopedia.com/ask/answers/032415/what-relationship-between-human-capital-and-economic-growth.asp#:~:text=Human%20capital%20refers%20to%20the,same%20skill%20sets%20or%20knowledge

Eatough E. (20.07.2021). "Human capital: why it matters and 5 tips to improve it" https://www.betterup.com/blog/human-capital

Kenton W. (10.01.2022) "Human Capital". Investopedia, https://www.investopedia.com/terms/h/humancapital.asp

https://graphics.wsj.com/table/zumbrun_1010, 2022

https://www.economicsobservatory.com/which-investments-in-human-capital-will-boost-productivity-growth, 2021)

https://www.oecd.org/economy/human-capital/  OECD, 2022

# Təhsilin İqtisadiyyata Təsirlərinin Qiymətləndirilməsi: Multiplikator Və Ekonometrik Modellər


**Yadulla Hasanli**

**İe.d., Prof., İqtisadi Araşdırmalar Elmi-Tədqiqat institutu, UNEC**

**Sosial-iqtisadi Proseslərin Modelləşdirilməsi Laboratoriyası, AR Elm və Təhsil nazirliyinin İdarəetmə Sistemləri İnstitutu,**

**Sərdar Şabanov**

**b.e.i., Azərbaycan Dövlət İqtisad universiteti (UNEC) nəzdində**

**İqtisadi Araşdırmalar Elmi-Tədqiqat Institutu**

**tex.e.n., dos. "Riyaziyyat və statistika" kaf.( UNEC)**

**sardar.shabanov@unec.edu.az**

**Günay Rəhimli**

**e.i., Azərbaycan Dövlət İqtisad universiteti (UNEC) nəzdində**

**İqtisadi Araşdırmalar Elmi-Tədqiqat Institutu**


## Xülasə


Məqalədə müxtəlif növ iqtisadi-riyazi modellərdən istifadə edərək təhsilin iqtisadi təsirləri qiymətləndirilmişdir. Bu məqsədlə, ilk öncə təhsil sahəsinə qoyulan vahid investisiyanın xərclər buraxılış modeli və sosial hesablar matrisi əsasında multiplikator modeldən istifadə edərək bu sahənin özündə, digər iqtisadi fəaliyyət sahələrində və ümumilikdə ölkə iqtisadiyyatında ümumi buraxılışa təsiri və digər sektorların təhsil sektoruna təsiri qiymətləndirilib. Daha sonra isə təhsil xərclərinin ölkənin ümumi buraxılışına təsiri ekonometrik qiymətləndirilmişdir. Həmçinin məqalədə qeyd edilən modellərin fərziyyələri və nəticələrin iqtisadi şərhi verilmişdir. Belə ki, müasir dövrdə iqtisadi proseslərin təhlilində iqtisadi-riyazi modellərdən geniş istifadə olunur. Lakin əksər tədqiqatlarda bilərəkdən və ya bilməyərəkdən modellərin fərziyyələrinin mövcud vəziyyətlə nə dərəcədə uzlaşdığı, eyni zamanda modelin dəqiq interpretasiyası əks etdirilmir. Bu isə həm ədəbiyyatlarda bir-birinə zidd nəticələrə malik olan tədqiqatların mövcudluğuna səbəb olur, həm də modellərdən istifadə edərək iqtisadi siyasət qərarların qəbulunda gözləntiləri doğrultmur. Nəticədə qeyd edilən məqamlar qərar qəbul edən şəxslərdə iqtisadi-riyazi üsullara əsaslanan tədqiqatlara inamı azaldır. Bu baxımdan modelləşdirmə prosesinin mərhələləri və nəticələrin təhlili qurulan modellərin nümunəsində ətraflı şərh olunmuşdur.



**Açar sözlər:** təhsil, multiplikativ effektlər, xərclər buraxılış modeli, shm multiplikator modeli, ekonometrik qiymətləndirmə


## Abstract


In the article, the economic effects of education were evaluated using different types of economic-mathematical models. For this purpose, first of all, the impact of a unit investment in the field of education on the total output in this sector itself, in other sectors of economy and in the country's economy as a whole was evaluated using the multiplier model based on the input-output model and multiplier model based on social accounting matrix. Then, the impact of education costs on the country's total output was evaluated econometrically. Also, the assumptions of the mentioned models and the economic interpretation of the results are given in the article. Thus, economic-mathematical models are widely used in the analysis of economic processes in modern times. However, in most studies, knowingly or unknowingly, the extent to which the assumptions of the models are consistent with the current situation, and at the same time the exact interpretation of the model is not reflected. This leads to the existence of studies with conflicting results in the literature, and economic policy decision-making using models does not meet expectations. As a result, the mentioned points reduce the confidence

of decision-makers in studies based on economic-mathematical methods. From this point of view, the stages of the modeling process and the analysis of the results are explained in detail in the example of the built models.

**Keywords:** education, multiplier effects, expenditure release model, shm multiplier model, econometric evaluation

## Giriş

Təhsil iqtisadiyyatın əsas sahələrindən biri olub iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi hesab olunur. Təhsil insan kapitalının əsas determinantlarından biri olmaqla işçi qüvvəsinin məhsuldarığının artması yolu ilə iqtisadi inkişafa müsbət təsir göstərir. (Hanusek and Woessman, 2010) Təhsilin iqtisadi inkişafa təsir mexanizmi 3 istiqamətdə belə qruplaşdırılıb: İlk öncə, insan kapitalını artırmaqla işçi qüvvəsinin əmək məhsuldarlığı artır və nəticədə buraxılış daha yuxarı tarazlıq səviyyəsində qərarlaşır. (Mankiw et al. (1992)). İkincisi, təhsil iqtisadiyyatın innovasiya tutumunu artırır və yeni texnologiyalar, məhsullar və proseslərlə bağlı biliklər iqtisadi artımı təşviq edir Lucas (1988), Romer (1990), Aghion and Howitt (1998)). Üçüncüsü, təhsil yeni məlumatları anlamaq və emal etmək və başqaları tərəfindən hazırlanmış yeni texnologiyaların istifadəsi üçün lazım olan biliklərin yayılmasını və ötürülməsini asanlaşdıra bilər ki, bu da yenidən iqtisadi artımı təşviq edir. (cf., e.g., Nelson and Phelps, 1966; Benhabib and Spiegel, 1994). Bundan başqa təhsilin iqtisadiyyatın əsas sahələrindən biri olduğunu və iqtisadiyyatın digər sektorları ilə qarşılıqlı təsirlərini nəzərə alsaq, aydındır ki, təhsilə qoyulan investisiyalar bu sahənin özündə və digər sektorlarda məhsul buraxılışını artırmaqla ölkə üzrə ümumi buraxılışın artmasına səbəb olacaq. Belə ki, ilk növbədə hər hansı sahənin məhsul və xidmətlərinə tələbin artması ilk növbədə bu sahənin ümumi buraxılışının artması ilə nəticələnir. Bu birbaşa effekt adlanır. Bu sahənin məhsul buraxılışının artması təchizatçıların məhsuluna tələbi artırmaqla həmin sahələrin də məhsul buraxılışını artırır və nəticədə digər sahələrdə də məhsul buraxılışı artır. Bu təsir dolayı effekt adlanır. Bundan başqa məhsul buraxılışının artması təbiidir ki, yeni iş yerlərinin açılmasını və əhalinin gəlirlərinin artması hesabına müxtəlif sahələrin məhsullarına əlavə tələbin yaranmasını zəruri edir. Bu effekt isə induksiya təsiri adlanır (Espigares, 2016).

Qeyd edilən təsirlərin xarakteri və müddəti fərqli olduğu kimi onları qiymətləndirən modellər də fərqlidir. Belə ki, təhsilin insan kapitalı, innovasiya və informasiyaya təsiri yolu ilə iqtisadiyyata müsbət təsiri daha uzunmüddətli dövrdə reallaşır və bu təsiri qiymətləndirmək üçün ekonometrik modellərdən istifadə oluna bilər. Təhsil sektorunun digər sektorlarla qarşılıqlı əlaqələrinin qiymətləndirilməsi üçün isə xərclər-buraxılış modeli və sosial hesablar matrisi əsasında multiplikator modeldən istifadə etmək mümkündür və qeyd edilən bu iki model arasında da əsaslı fərqlər vardır.

Daha sonra tətbiq olunan modellərin nəzəri əsasları və əsas fərziyyələri şərh olunmuş və təhsil sektorunun nümunəsində bu modellər realizasiya olunaraq nəticələr şərh edilmiş və müxtəlif modellərdən alınmış nəticələrinin müqayisəli təhlili aparılmışdır.

### Xərclər-Buraxılış Modeli

Sahələrarası balans cədvəlinin əsas tənliyi aşağıdakı şəkildədir (Hasanli, 2011):

$$X=AX+Y \qquad (1)$$

Burada, X- umumi buraxılış, Y- son məhsul, A isə birbaşa xərc əmsalları vektorudur. Birbaşa xərc əmsalı i-ci sahənin məhsulunun vahid miqdarda istehsal etmək üçün zəruri olan *i* resursunun həcmini göstərir, daha doğrusu

$$a_{ij} = \frac{x_{ij}}{x_j} \quad , \quad i,j, = 1,2,...,n$$

(1) tənliyindən

$$X=(İ-A)^{-1}Y$$

Alarıq. Burada $B=(İ-A)^{-1}$ matrisinə tam xərclər matrisi deyilir. “Xərclər-buraxılış” modeli, müxtəlif iqtisadi göstəricilərin məhsul buraxılışı həcminə təsirinin müəyyən edilməsinə imkan yaradır. Son məhsulun dəyişməsinin Ümumi buraxılışın həcminə təsirinin simulyasiya modeli aşağıdakı tənliklər sistemini həl etməklə həyata keçirilir:

$$\Delta X=(E-A)^{-1}\Delta Y=B\Delta Y \quad (2)$$

Son məhsul həcminin dəyişməsi onun tərkibinin hər hansı elementinin dəyişməsi ilə baş verə bilər. Məsələn, dövlət büdcəsi vasitəsi ilə dövlət idarələrinin istehlak xərclərini və investisiya xərclərini dəyişməklə sahələrin də məhsul buraxılışlarının həcmini dəyişmək olar. Beləliklə, (2) düsturunun köməyilə hər qeyd edilən tərkib hissələrin hər hansı birində və ya bir neçəsində baş verən dəyişiklik hesabına son məhsulunun dəyişməsinin ümumi buraxılış vektorunda yaratdığı dəyişikliyi kəmiyyətcə qiymətləndirmək mümkündür.

**SHM Multiplikator Modeli**

SHM-ə əsaslanan multiplikativ modellərə əsas yanaşma xərclər-buraxılış cədvəllərində olduğu kimi sütun əmsallarını hesablamaqdır. Daha sonra T SHM matrisindən bu matrisin hər bir sütun elementini sütun cəminə bölməklə A matrisi alırıq və aydındır ki, aşağıdakı bərabərlik ödənəcək:

$$T=Ay \quad (3)$$

Hər bir sətir üçün aşağıdakı bərabərliyi yaza bilərik:

$$y=Ay+x \quad (4)$$

Buradan alırıq ki,

$$y=(İ-A)^{-1}x=M_Ax \quad (5)$$

Burada, $M_A$- multiplikator matrisdir. A matrisi qeyd olunduqda $M_A$ da qeyd olunmuş olacaq və bu zaman (5) tənliyi x-in istənilən dəyişməsinə uyğun y-in tarazlıq qiymətini müəyyən edir (Hasanli et. Al., 2021).

Bu tənliyin köməyilə ekzogen hesabların hər hansı birində baş verən dəyişikliyin endogen hesablarda səbəb olduğu dəyişikliyi kəmiyyətcə qiymətləndirmək mümkündür.

**Təhsilə İnvestisiyaların Multiplikativ Effektlərinin Qiymətləndirilməsi**

Məqalədə təhsil sahəsinə qoyulan 1 milyon manat investisiyanın iqtisadiyyatın sahələrində yaratdığı əlavə tələbin miqdarı xərclər buraxılış modeli və sosial hesablar matrisi əsasında multiplikator modeldən istifadə edərək qiymətləndirilmişdir. Bu məqsədlə, 2016-cı ilə aid sonuncu mövcud xərclər buraxılış cədvəli 25 sahəyə aqreqatlaşdırılmış və alınmış cədvəl əsasında (2) düsturu əsasında simulyasiya modeli qurulmuşdur. Bu modelin nəticəsi cədvəl 1-də əks olunmuşdur.

Daha sonra mövcud sahələrarası balans cədvəlinə istehsal faktorları, ev təsərrüfatları, dövlət, qənaət və qalan dünya hesabları əlavə edilməklə qurulmuş Sosial hesablar matrisi əsasında multiplikator model realizasiya edilmişdir. Qurulmuş model hər sahəyə qoyulan investisiyaların iqtisadiyyatın müxtəlif sahələrində yaratdığı əlavə tələbin miqdarını, eyni zamanda bu tələbin hansı hissəsinin ölkədaxili istehsal hesabına ödənə biləcəyini qiymətləndirməyə imkan verir.

Məqalədə təhsilə qoyulan 1 milyon manat investisiyanın iqtisadiyyatda yaratdığı multiplikativ effektlər xərclər-buraxılış modeli və shm multiplikator modeldən istifadə edərək qiymətləndirilmişdir. Bu modellərin nəticəsi Cədvəl 1-də verilmişdir:

**Cədvəl 1. Təhsilə 1 milyon investisiyanın iqtisadi fəaliyyət sahələrində yaratdığı əlavə tələb, manatla**

| Sahələr | Shm əsasında | Xərclər buraxılış modeli əsasında |
|---|---|---|
| Kənd təsərrüfatı, meşə və balıqçılıq | **177708.2** | 1148.9 |
| Mədənçıxarma sənayesi | 48050.7 | 15212.3 |
| Qida, içkilər və tütün | 129587.8 | 4475.7 |
| Q-metal1(geyim, rezin, kimyəvi, əczaçılıq,ağacdan hazırlanan) | **173335.7** | **28309.7** |
| Sair qeyri-metal | 11212.8 | 2261.9 |
| Əsas metallar | 9640.4 | 4983.8 |
| Maşın, avadanlıq, mebel | 93185.2 | **28172.7** |
| elektrik, qaz, buxar | 54109.2 | 8882.0 |
| su, tullantı | 10281.0 | 4786.6 |
| tikinti | **180182.0** | **58049.9** |
| ticarət | **228611.4** | 18179.0 |
| Nəqliyyat və anbar təsərrüfatı | **137907.3** | 9978.6 |
| Turistlərin yerləşdirilməsi və iaşə | 57970.9 | 12469.3 |
| İnformasiya və rabitə | 70745.2 | **40746.7** |
| Maliyyə vasitəçiliyi, sığorta və pensiya təminatı üzrə xidmətlər | 45125.6 | 14592.9 |
| Daşınmaz əmlak | 58885.6 | 17328.2 |
| Elmi-tədqiqat və işləmələr | 12281.8 | 11376.2 |
| Peşə və texniki fəaliyyət | 45646.3 | 18284.4 |
| İnzibati və yardımçı xidmətlər | 13823.9 | 4046.4 |
| dövlət idarəetməsi və müdafiə | 9332.3 | 8898.8 |
| təhsil | **1029057.3** | **1008528.8** |
| səhiyyə | 8584.8 | 66.8 |
| sosial xidmətlər | 22830.4 | 4666.8 |
| istirahət, əyləncə incəsənət | 14285.4 | 942.5 |
| Dİgər xidmətlər | 29550.2 | 2157.2 |
| **Cəmi** | **2671931.7** | **1328546.3** |

Cədvəldən görünür ki, təhsilə qoyulan 1 milyon manat investisiya ölkə üzrə ümumi buraxılışı xərclər-buraxılış modelinin nəticəsinə görə 1,3 milyon, shm multiplikator modelin nəticəsinə görə isə 2,7 milyon manat artırır. Ümumilikdə təhsilin digər sahələrinə təsirdə də 2 modelin nəticələri arasında əhəmiyyətli fərqin olduğunu görmək olar. Bunun səbəbi odur ki, xərclər-buraxılış modeli yalnız istehsal əlaqələri hesabına yaranan effektləri qiymətləndirməyə imkan verir. Bu effektlərə təhsilə qoyulan investisiyaların bu sahənin məhsullarına tələbi artırması nəticəsində ümumi buraxılışda yaratdığı artım hesabına birbaşa effekt və təhsil sektorunun aralıq məhsullar aldığı digər sektorların ümumi buraxılışda yaratdığı artım hesabına dolayı effektlər aiddir. SHM multiplikator model isə istehsal əlaqələri ilə yanaşı gəlirlərin bölüşdürülməsi, yenidən bölüşdürülməsi və istifadəsi əlaqələrini də nəzərə alır. Ona görə də burada birbaşa və dolayı təsirlər nəticəsində əlavə buraxılışın istehsalına

görə əhali gəlirlərinin artması nəticəsində onların müxtəlif sahələrin məhsullarına tələbini artırmaqla həmin sahələrin də buraxılışını artırması qiymətləndirilə bilir. Bunu təhsilin kənd təsərrüfatı sektoruna təsiri nümunəsində izah edək. Cədvəldən görünür ki, təhsilə 1 milyon investisiya xərclər buraxılış modelinin nəticəsinə görə kənd təsərrüfatının istehsalını 1148 manat artırır. Bu təhsilin kənd təsərrüfatından birbaşa aldığı, yaxud təhsil sektorunun aralıq məhsullarını aldığı digər sahələrin kənd təsərrüfatından aldığı aralıq istehlak hesabına kənd təsərrüfatı sektorunun əlavə istehsalıdır. SHM multiplikator modelin nəticəsinə görə isə təhsilə qoyulan 1 milyon manat investisiya kənd təsərrüfatı sektorunun ümumi buraxılışını 177708 manat artırır. Buraya isə təhsildə və digər sahələrdəki istehsal artımı hesabına həmin sahələrdə çalışan işçilərin gəlirlərinin artması nəticəsində onların kənd təsərrüfatı sektorunun məhsullarına yaranan əlavə tələbini ödəmək üçün kənd təsərrüfatında əlavə istehsal olunan məhsulların dəyəri də daxil olur.

Ümumilikdə modelin nəticəsindən görürük ki, təhsilə investisiyalar istehsal əlaqələri hesabına ən çox bu sahənin özündə, daha sonra isə qeyri-metalların istehsalı, tikinti və informasiya və rabitə sahələrində ümumi buraxılışı artırır. Bu sahələr təhsil xidmətlərinin göstərilməsi üçün bu sektorun daha çox aralıq istehlak məhsullarını istifadə etdiyi sahələrdir. SHM multiplikator modelinin nəticəsinə görə isə ən böyük təsir sahənin özündən sonra ticarət, tikinti, kənd təsərrüfatı və qeyri-metal istehsalı sahələrindədir ki, bu sahələr də əhalinin gəlirlərinin artması hesabına onların bu sahələrə tələbinin artdığını göstərir.

**Təhsil Xərclərinin Ölkənin Ümumi Buraxılışına Təsirinin Ekonometrik Qiymətləndirilməsi**

Təhsilin uzunmüddətli dövrdə insan kapitalını və innovasiyanı dəstəkləməklə iqtisadi artıma təsirini qiymətləndmək üçün ekonometrik modellərdən istifadə edilə biər. Bunun üçün avtoreqressiya tipli ekonometrik modellərdən istifadə edilir (Enders, 2014, Катышев и др., 2004).
Biz burada təhsil xərclərinin ümumi buraxılışa təsirini ekonometrik qiymətləndirmək üçün reqressiya tənliyinin spesifikasiyasına aşağıdakı kimi baxmışıq.

LOG(GDP) = C(1) + C(2)*LOG(TX(-15)) + C(3)*DUMMY2015AND2020 + [AR(3)=C(4), UNCOND] (6)

Burada, LOG(GDP)- ümumi daxili məhsulun natural əsasla loqarifmi, LOG(TX(-15)- təhsil xərclərinin 15 il geçikməklə EDM-ə təsirini xarakterizə edir, DUMMY2015AND2020 – 2015 –ci ildə matatın ABŞ dollarına nəzərən kəskin məzənnəsinin dəyişməsi və 2020-ci illərdə COVİD19 pandemiyası ilə yaranan şoklardır. AR(3)-qalıqların 3-cü tərtib avtokorelyasiyasını aradan qaldırmaq üçün modelə daxil edilib.
(6)-I ekonometrik qiymətləndirmək üçün AR DSK aşağıdakı rəsmi məlumatlarından istifadə edilmişdir.

**Cədvəl 2. Məlumat bazası**

| İl | Təhsil xərcləri (milyon manat) | ÜDM (milyon manat) |
|---|---|---|
| | | |
| 1995 | 4.320151 | 7.665660 |
| | | |
| 1996 | 4.623010 | 7.913009 |
| | | |
| 1997 | 4.725616 | 8.057789 |
| | | |

| | | |
|---|---|---|
| 1998 | 4.756173 | 8.143401 |
| 1999 | 5.068904 | 8.236182 |
| 2000 | 5.202907 | 8.459161 |
| 2001 | 5.226821 | 8.578401 |
| 2002 | 5.253320 | 8.709878 |
| 2003 | 5.458734 | 8.874378 |
| 2004 | 5.683920 | 9.051368 |
| 2005 | 5.920237 | 9.435282 |
| 2006 | 6.171909 | 9.838746 |
| 2007 | 6.583409 | 10.25275 |
| 2008 | 6.887246 | 10.60006 |
| 2009 | 7.045689 | 10.48014 |
| 2010 | 7.073947 | 10.65644 |
| 2011 | 7.145590 | 10.86057 |
| 2012 | 7.281523 | 10.91042 |
| 2013 | 7.270800 | 10.97133 |
| 2014 | 7.348523 | 10.98553 |
| 2015 | 7.380941 | 10.90375 |
| 2016 | 7.469882 | 11.00916 |
| 2017 | 7.463191 | 11.16106 |
| 2018 | 7.584061 | 11.29093 |
| 2019 | 7.694256 | 11.31321 |
| 2020 | 7.928154 | 11.19242 |
| 2021 | 8.036638 | 11.43882 |

**Mənbə:** AR DSK rəsmi məlumatları əsasında tərtib edilib

(6) reqressiya modeli verilmiş cədvəldəki sttaistik göstəricilərdən istifadə edərək Eviews-də ən kiçik kvadratlar üsulundan istifadə edilərək qiymətləndirilmişdir. Modelin parametrlərinin qiymətlərdirmələri və müvafiq əsas statistik xarakteristikalar aşağıdakı cədvəldə təsvir edilib:

**Cədvəl 3. Təhsil xərclərinin ÜDM-ə təsirinin ekonometrik statistikası**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: LOG(GDP) | | | | |
| Method: ARMA Maximum Likelihood (OPG - BHHH) | | | | |
| Date: 04/20/23 Time: 15:20 | | | | |
| Sample: 2010 2021 | | | | |
| Included observations: 12 | | | | |
| Convergence achieved after 11 iterations | | | | |
| Coefficient covariance computed using outer product of gradients | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| C | 8.872118 | 0.080929 | 109.6278 | 0.0000 |
| LOG(TX(-15)) | 0.425131 | 0.015772 | 26.95466 | 0.0000 |
| DUMMY2015AND2020 | -0.130155 | 0.033791 | -3.851780 | 0.0063 |
| AR(3) | -0.821616 | 0.152577 | -5.384915 | 0.0010 |
| SIGMASQ | 0.000908 | 0.000934 | 0.972264 | 0.3633 |
| R-squared | 0.980334 | Mean dependent var | | 11.05780 |
| Adjusted R-squared | 0.969097 | S.D. dependent var | | 0.224430 |
| S.E. of regression | 0.039453 | Akaike info criterion | | -3.052037 |
| Sum squared resid | 0.010896 | Schwarz criterion | | -2.849993 |
| Log likelihood | 23.31222 | Hannan-Quinn criter. | | -3.126841 |
| F-statistic | 87.23721 | Durbin-Watson stat | | 1.975520 |
| Prob(F-statistic) | 0.000005 | | | |
| Inverted AR Roots | .47+.81i | .47-.81i | -.94 | |

**Mənbə**: müəlliflərin hesablamaları

Müvafiq reqressiya tənliyi aşağıda təsvir edilib:

LOG(GDP) = 8.8721177459 + 0.425130623898*LOG(TX(-15)) - 0.130154571097*DUMMY2015AND2020 + [AR(3)=-0.821616343474,UNCOND] (7)

Qurulmuş ekonometrik modelin bütün parametrləri 0,1% əhəmiyyətlilik səviyyəsində statistik önəmlidir. Qeyd edək ki, bütün zəruri olan testlər icra edilmişdir (qalıq sırasının avtokorelyasiyasının olub-olmadığının yoxlanması üçün qalıqların koraleloqramı, qalıq sırasının normal paylanmasının yoxlanması üçün Jacque-Bera testi, qalıq sırasının homoskedastik və ya heteroskedastik olub-olmadığını yoxlamaq üçün Breusch-Pagan-Goodfree testi və nəhayət, qalıq sırasının stasionarlığının yoxlanması üçün vahid kök testi) və modelin adekvat olduğu müəyyənləşdirilmişdir. Model Eviews tətbiqi proqramlar paketində icra edilmişdir.

(7) modelinin nəticəsinə görə deyə bilərik ki, təhsilə çəkilən dövlət xərclərinin 1% dəyişməsi 15 ildən sonra ÜDM-i 0,425% dəyişir. Aşkardır ki, modeldən tapılan 15 illik müddətdə mütamadi olaraq təhsilə çəkilən xərclər insan kapitalını formalaşmasında və keyfiyyətinin yüksəlməsində mühüm rol oynayır və iqtisadi böyümənin drayverinə çevrilir.

## Nəticə

Beləliklə, məqalədə ilk öncə xərclər buraxılış modelinin köməyilə istehsal əlaqələri hesabına təhsilin multiplikativ effektləri qiymətləndirildi. Modelin nəticəsindən görürük ki, təhsilə investisiyalar istehsal əlaqələri hesabına ən çox bu sahənin özündə, daha sonra isə qeyri-metalların istehsalı, tikinti və informasiya və rabitə sahələrində ümumi buraxılışı artırır. Bu sahələr təhsil xidmətlərinin göstərilməsi üçün bu sektorun daha çox aralıq istehlak məhsullarını istifadə etdiyi sahələrdir. SHM

multiplikator modelinin nəticəsinə görə isə ən böyük təsir sahənin özündən sonra ticarət, tikinti, kənd təsərrüfatı və qeyri-metal istehsalı sahələrindədir ki, bu sahələr də əhalinin gəlirlərinin artması hesabına onların bu sahələrə tələbinin artdığını göstərir. Bu iki model arasında fərq ondan ibarətdir ki, xərclər-buraxılış modeli yalnız istehsal əlaqələri hesabına, SHM multiplikator modeli isə istehsal əlaqələrini də özündə saxlamaqla əlavə olaraq istehlak əlaqələri hesabına da digər sahələrdə ümumi buraxılışda dəyişməni qiymətləndirməyə imkan verir. Lakin hər iki model təhsil sektorunun yalnız cari dövrdə digər sahələrlə qarşılıqlı əlaqəsini əks etdirir. Təhsil xərclərini artırmaqla insan kapitalının inkişafı hesabına iqtisadiyyatda müşahidə edilən artımı qiymətləndirmək üçün isə ekonometrik modeldən istifadə edilir. Qurulan ekonometrik model bir daha təsdiq edir ki, insan kapitalını formalaşdırmaq və lazımi keyfiyyətdə saxlamaq üçün təhsil xərcləri mütamadi olaraq diqqət mərkəzində saxlanmalıdır. Ölkədə mövcud olan insan kapitalının müasir dövrün artan tələblərinə cavab verməsi və beynəlxalq əmək bazarında rəqabətədavamlı olması üçün təhsil xərclərinin büdcədə payı tədricən inkişaf etmiş dövlətlərdə olan səviyyəyə qaldırılmalıdır. Bundan başqa ömürboyu təhsil konsepsiyasına uyğun olaraq ölkədə innovativ inkişafın zəruri şərti olan insan kapitalınını arzu olunan səviyyəyə qaldırmaq üçün həm təhsil, həm də təhsildən sonrakı mərhələlərdə müxtəlif təlimlərdən istifadə edilməlidir. Qeyd edək ki, bura həm peşə təlimləri, həm də müxtəlif inkişafetdirici təlimlər, məsələn "yumşak bacarıqlar", "komanda işi", "liderlik", "özgüvən" və s. ipli təlimlər daxil edilə bilər.

**Ədəbiyyatlar**

Aghion, P., Howitt, P., Howitt, P. W., Brant-Collett, M., & García-Peñalosa, C. (1998). *Endogenous growth theory*. MIT press.

Benhabib, J., & Spiegel, M. M. (1994). The role of human capital in economic development evidence from aggregate cross-country data. *Journal of Monetary economics*, *34*(2), 143-173.

Enders, W. (2014) Applied Econometric Time Series. 4th Edition. John Wiley, New York.

Espigares, J. L. N. (2016). Economic impact of healthcare systems: an inter-country input-output approach. *Tiziana Russo-Spenaand Cristina Mele*, *317*.

Hanushek, E. A., & Woessmann, L. (2010). Education and economic growth. *Economics of education*, *60*, 67.

Hasanli, Y. (2011). Azərbaycan iqtisadiyyatının sahələrarası əlaqələrinin modelləşdirilməsi. *Bakı: Elm*.

Hasanli, Y., Rahimli, G., & Salihova, S. (2021). Economic impact of tourism in Azerbaijan: a sam-based multiplier model. In *Economic and Social Development (Book of Proceedings), 70th International Scientific Conference on Economic and Social* (p. 151).

Lucas Jr, R. E. (1988). On the mechanics of economic development. *Journal of monetary economics*, *22*(1), 3-42.

Mankiw, N. G., Romer, D., & Weil, D. N. (1992). A contribution to the empirics of economic growth. *The quarterly journal of economics*, *107*(2), 407-437.

Nelson, R. R., & Phelps, E. S. (1966). Investment in humans, technological diffusion, and economic growth. *The American economic review*, *56*(1/2), 69-75.

Romer, P. M. (1990). Endogenous technological change. *Journal of political Economy*, *98*(5, Part 2), S71-S102.

Təhsil xərcləri haqda məlumat: Təhsil xərcləri: https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do#

ÜDM haqda məlumat. https://www.azstat.org/portal/tblInfo/TblInfoList.do;JSESSIONID=4DD170013B8B5C6DCD04AD98A12F3C36#

Магнус Я.Р., Катышев П.К., Пересецкий А.А. Эконометрика. Начальный курс. – М.: Дело, 576 стр.

# The Dynamics of Aid Allocation and Poverty in Basin Areas: Comparing the Caspian Sea Drainage Area Countries with Five Other Basin Regions

**Vinícius Silva Santana**

**Universidade Federal de Pernambuco, Department of Political Science**

**vinicius.silvas@ufpe.br / vinigoleirao@gmail.com**

## Abstract

This paper analyzes the relationship between aid allocation, poverty rates and GDP size in six politically relevant basin regions around the world: the Amazon Basin, the Bay of Bengal, the Caspian Sea drainage area, the Congo Basin, the Nile Basin, and the Niger Basin. To do so, it reviews the literature on aid giving and poverty and shows that the state-of-the-art suggests that large poor countries receive less aid than considerably better-off countries. Similarly, the literature also suggests that aid allocation has little to do with poverty numbers — despite claims by both donor nations and international organizations — and when it does, the relationship tends to be negative, with poorer countries receiving less aid. To fulfill the objective of this paper, an exploratory analysis of a multiple linear regression was made and the interpretations thereof were made using the guidelines of critical description. After the description, focus is given to the Caspian Sea countries and, when necessary, a comparison between them and with other regions is made. The findings of this research confirm what the literature proposes regarding the relationship between GDP and aid. The relationship between aid and poverty rates, however, became unclear, sometimes following literature trends, sometimes blurry, and some other times subverting it.

**Keywords:** aid allocation, poverty, GDP, Caspian Sea, basin regions

## Xülasə

Bu məqalə altı əhəmiyyətli hövzə regionunda (Amazon hövzəsi, Benqal körfəzi, Xəzər dənizinin drenaj hövzəsi, Konqo hövzəsi, Nil hövzəsi və Niger hövzəsi) yardımın ayrılması, yoxsulluq halları və ÜDM-in göstəricisi arasında əlaqəni təhlil edir. Bunun üçün, bu məqalə yardımın verilməsinə və yoxsulluğa dair ədəbiyyatı nəzərdən keçirir və göstərir ki, böyük yoxsul ölkələr daha zəngin olkələrdən az yardım qəbul edirlər. Eynilə, ədəbiyyatda yardımın ayrılmasının yoxsulluq sayı ilə heç bir əlaqəsi olmadığını və belə olduqda, münasibətlərin mənfi olması, ən yoxsul ölkələrin daha az yardım alması göstərilir. Bu işin məqsədini yerinə yetirmək üçün çoxxəttli reqressiyanın kəşfiyyat xarakterli təhlili aparıldı və tənqidi təsvirin təlimatlarından istifadə etməklə onun şərhləri edildi. Təsvirdən sonra diqqət Xəzər dənizi ölkələrinə verilir və lazım gəldikdə, onlar arasında digər regionlarla müqayisə aparılır. Bu tədqiqatın nəticələri ədəbiyyatın ÜDM və yardım arasındakı əlaqə ilə bağlı nə təklif etdiyini təsdiqləyir. Yardım və yoxsulluq arasındakı əlaqə isə aydın deyil: bəzən ədəbiyyata uyğun gəlir, bəzən isə əksinə.

**Açar sözlər:** yardımın ayrılması, yoxsulluq, ÜDM, Xəzər Dəniz, hövzə regionlar.

## Introduction

The theory behind foreign aid suggests that it is one of the main tools that make cooperation among countries possible. While it can take many forms, Hans Morgenthau (1962) suggests that aid for humanitarian purposes, aid for subsistence, bribery, aid for prestige, and aid for development are the main configurations in which it is used nowadays.

Governmental claims often suggest that one of the main reasons that they give or receive foreign aid is to fight poverty. The same picture is true to the discourse of many international organizations. A commonsense belief that would make up the hypothesis of an uninformed reader would likewise follow this premise and say that poverty parameters are, if not the most important element for foreign aid allocation, one of the vectors that would set more investment to countries that are worse-off in the

economic and poverty-fighting ladder. Nonetheless, the relationship between poverty and aid-giving is not so crystal clear. In the modern years, the ways to think about and to measure poverty have changed, but the idea that it must be tackled has remained unaltered. While it is true that before the rising of the so-called welfare state, governments seldom took any form of responsibility towards the poor, it is also true that once it was established, poverty reduction (if not its eradication) became pillars of policy making. Among the strategies to measure and tackle poverty, poverty lines are, perhaps, the most known tool available to governments and researchers worldwide. In a nutshell, poverty lines are based on a set of consumer goods – generally called baskets – that are believed to be essential for a human-being (or a family) to survive. The value of the poverty line is calculated using the regular prices of the goods in the basket. As straightforward as it can be, if a person's income is lower than the value established for the poverty line, this person lacks access to acceptable standards of living thus failing to escape poverty. There are also critics to poverty lines, but they remain one of the main sources of information available to scrutinize the issue. Similarly, programs designed to fight poverty developed worldwide. Among them, cash transfer programs, such as Brazil's Bolsa Família (Family Basket), Azerbaijan's Ünvanlı Dövlət Sosial Yardımı (Targeted Social Assistance) and China's Dī bǎo (Welfare), are widely being implemented or bettered to tackle poverty (Santana, 2017), a process that was recently increased to halter the effects of the COVID-19 pandemic in millions of households worldwide.

As such, one would believe that the relationship between poverty rates and foreign aid allocation would be straightforward, but the literature suggests that poorer countries – especially those with larger populations – are those least benefited from foreign aid, whether this aid comes from better-off countries or from international organizations.

Having this in mind, and drawing from a forthcoming larger research that I have carried out, I look at the dynamics of aid allocation in six different basin regions and compare the here-defined Caspian Sea countries set with the other ones to argue that while the literature is correct in saying that poorer countries generally receive less aid, this relationship may sometimes fade – or become clearly opposite – when the generalizations are made for smaller groups of countries. To separate the groups herein presented, I focused on two premises that pick scholar attention in International Relations. The first one is the study of common environmental grounds proposed by Elinor Öström (1990) that will argue that common spaces, such as basin areas, forests, and deserts will shape the politics of the countries in this space and the effects that global dynamics impose on them. The second one is the very definition of regions from a constructivist perspective. If regions are socially constructed and may be redefined to attend to specificities of the relations of the countries, sharing common grounds makes these countries tied to one another in several issues regarding politics, such as environmental preservation, pollution, access to potable water and energy, among other topics.

**Methodology**

As aforementioned, this study is part of a forthcoming larger research. The original research aggregated data on forty-two different countries in six basin areas. Bolivia, Brazil, Colombia, Ecuador, Peru, Venezuela, Suriname and Guyana make the Amazon basin region. In the African continent, Angola, Cameroon, the Central African Republic, the Congo Republic, the Democratic Republic of Congo, Gabon, Tanzania and Zambia are listed on the Congo basin; the Nile basin comprises Burundi, Egypt, Ethiopia, Kenya, Rwanda, Sudan and Uganda; while the Niger basin data set is made of Benin, Guinea, Mali, Niger, Nigeria and Sierra Leone. South Sudan was to be included in the Nile basin region, but due to lack of data it was excluded from the analysis. The Bay of Bengal

lists Bangladesh, India, Indonesia, Myanmar, and Sri Lanka. For the Caspian Sea, the concept of drainage area, proposed by the United Nations Economic Commission for Europe (2007) was used. In this case, not only the countries that are right on the shore of the basin, Azerbaijan, Iran, Kazakhstan and Turkmenistan, were added, but also Armenia, Georgia, Türkiye and Uzbekistan. Russia was not included in the study for the Quality of Government dataset (2019), from which most data were retrieved, considers Russia as a high-income country, and does not collect data for aid receiving for this category.

The data on a set of economic variables were analyzed using a linear regression model in the larger research to infer the causal effect of poverty rates. For this study here, the linear regression was replicated and the exploratory data on regions are used and interpreted under the lenses of Gerring's (2012) analytical description. As such, the aim of this paper is not to discuss whether poverty rates influence the amount of aid disbursed to a given country in a relevant basin region, but to describe how the dynamics of aid given to the countries. Taking the Caspian Sea basin/drainage area as focus, the analytical description deepens understanding on how the data spans across regions, sometimes confirming literature findings, but sometimes also posing questions to the accuracy of state-of-the-art beliefs.

**Why Do Countries Give Aid in The First Place?**

Foreign aid (or international aid, depending on the sources) aims to promote economic development and reduce poverty. While this is the official discourse of governments worldwide and of international organizations, scholar attention usually tries to confirm or refuse such claims by analyzing the effects of aid both on economic betterment and on poverty rates. Likewise, many scholars, already taking it as a given that foreign aid fails to adequately address these questions, give focus in their analysis to the causes of such a failure and on how to implement real poverty-fighting oriented policies (Hanlon; Barrientos; Hulme, 2010). Still, foreign aid has become institutionalized to a point that it is expected to happen by both donors and recipients of aid, and even middle-income and low-income countries have now engaged in a dual process of aid-giving and receiving (Lancaster, 2007; Santana, 2017).

Hans Morgenthau (1962) was the first scholar to systematically describe the several forms that foreign aid may take. Among these forms, aid for humanitarian purposes, aid for subsistence, bribery, aid for prestige and aid for development are highlighted in his study. Among the broader objectives of aid (if we believe that poverty tackling and development are not the only goals for it despite governmental claims), Lancaster (2007) adds that, especially after the fall of the Soviet Union, when the bulk of foreign aid budget shifted from Latin American countries to post-Soviet space, aid was used to promote democracy and to support economic transitions through a series of conditionalities that align with most international relations theories of power and *status-quo* maintenance.

Aid giving also draws on beliefs in the political arena that poorer countries cannot achieve development because they lack know-how and economic resources (Hanlon, Barrientos and Hulme, 2010) and that growth is intrinsically related to the promotion of technical knowledge. While it is true that access to money and know-how are key elements for poverty fighting, the challenges and shortages faced by poorer countries are not generally considered by donors. This leads to a situation in which aid's main goal seems to be the promotion of capitalist accumulation of capital and to translate it into economic growth instead of addressing poverty directly (Cardoso and Pinto, 2016), which fails to decrease poverty and inequality despite overall GDP growth (Rist, 2002).

**Addressing Poverty**

There is no easy task in translating poverty into numbers. Nonetheless, the poverty line is the most used tool that tries to comprehensively equate and standardize the horrors of poverty. They are used as a key point for the promotion of policies and to estimate the share of the population that do not have adequate access to the minimum acceptable standards of living. A poverty line takes into account a basic basket of goods, a set of goods generally agreed to be the minimum necessary for the reproduction of an individual and his/her household, and sets a cut-off point from which the line is “drawn”. There are also approaches that calculate human’s minimal calory consumption needs into a basket of goods present in each society, as well as expenses for other human needs such as housing, transport, and clothing, which represents Engel’s Coefficient (Salama and Valier, 1996; Hall and Midgley, 2005).

Despite arguments that poverty lines may generate some sort of degree of complacency to poverty and the erroneous belief that GDP growth and income rising alone are enough to tackle poverty, the World Bank’s poverty line is the mostly used line for policy making and scholar scrutiny. In a nutshell, this poverty line was once called the “one-dollar-a-day poverty line” and through the years was updated to reflect the current USD 2,25 values. Put simply, people living with less than that amount are considered in absolute poverty.

definition of PE should be changed to combat artificial arrangements by using specific "conclusion of contracts". Because of how the commercial world has altered thanks to the internet, there are new possibilities to create PE in a source country (Nkerebuka, 2015), ( The Permanent Establishment Concept in Relation to Electronic Commerce, 2015). According to the OECD Model Convention, a "permanent establishment" is a fixed place of business through which an enterprise conducts all or a portion of its operations. A PE involves operations like construction or installation projects that last longer than a year in addition to a fixed location. If the dependent agent, a person, is operating on behalf of an enterprise, then that person may be considered a PE. This agent is unable to decide on its own. The OECD Model also stipulates that a location utilized only for a certain activity cannot be classified as PE. The tasks include keeping the commodities for further processing and putting them to assist other activities in addition to storing, showing, buying, and delivering them. E-commerce and the definition of PE are discussed in the (OECD, 2010), (Commentary on Article 5 of the OECD, 2008).

1. A website does not automatically qualify as a permanent institution.

2. A server must be situated in a jurisdiction for a "sufficient period of time" in order to be regarded as a permanent establishment.

3. Even if the business hosting the website has the "server at its own disposal," this could qualify as a permanent establishment, an arrangement in which an Internet service provider (ISP) hosts an enterprise's website on the ISP's equipment in the relevant jurisdiction will not.

4. If e-commerce operations conducted through computer servers and equipment are "limited to the preliminary or auxiliary activities," such as providing communications links, advertising, gathering market data, and providing information, no permanent establishment would exist.

It is suggested by Hongler and Pinston that it shouldn't matter if a company's core business is providing digital goods or digital services. According to Schaefer (2000), the location of the server can be anywhere, making it challenging to distinguish PE from the server or other pieces of equipment. The web site is a mirror of the server service and the server and web site can share some functions. Schaefer suggested that software agents might be regarded as a permanent institution because of this proposed the following language for the definition of PE for the digital economy (Hongler, Piston, 2015), (IBFD Working Paper, 2015). If an enterprise based in one Contracting State offers access to (or provides) an electronic application, database, online market place, storage room, or offers advertising services on a website or in an electronic application used by more than 1,000 unique users per month based in the other Contracting State, such enterprise shall be deemed to have a permanent e-presence. According to Hongler and Pistone, additional definitional advice is required for terms like users, databases, advertising services, websites, users per month, and domiciles (Avi Yonah, 2013), (Public Law and Legal Theory Research Paper Series. No 328, 2013). A taxpayer would be considered to have a PE in the US and subject to taxation on profits related to those sales if their US sales exceeded $500,000 in any given calendar year. Sales of this amount could be viewed as fitting into Hongler and Pistone's idea. If it met certain requirements, a country's digital presence may be considered to exist for the purposes of the digital economy. According to the OECD, a country may be considered to have a significant digital presence when, for instance:

1. A sizable number of contracts for the provision of fully dematerialized digital goods or services are remotely signed between the enterprise and a client that is a resident of the country for tax purposes.

2. The company's digital products or services are extensively used or consumed in the nation.

3. Clients in the nation make significant payments to the company in connection with obligations resulting from the provision of digital goods or services as part of the company's primary operation.

4. An existing branch of the company in the state provides auxiliary services, including marketing and consulting, that are geared at customers who live there and are closely tied to the company's main line of business.

Creating a "fiction" permanent establishment for e-commerce due to the lack of a real site. According to bilateral agreements between the source and domicile countries, certain conditions must be met for this fictitious or virtual permanent establishment (Hoffart, 2007), (Northwestern Journal of Technology and Intellectual Property, 106). A corporation will be considered a permanent establishment if it has access to the market in a source country while residing in that country. The sale or purchase of products and services constitutes the digital economy. Both actual and intangible things are acceptable as the goods. The digital economy uses information and communication technology (ICT), which has some effects that are different from the traditional business, such as reaching more and faster customers, places, revenues, and data. In general, the digital economy is not fundamentally different from traditional business. ICT enables agents of the digital economy to shift their businesses, including the location of their offices, with ease. Without being physically present, the agents can still make money in the source nation. Due to a lack of permanent establishment, the source nation will forfeit the chance to administer income tax. The source country has the right to implement taxes from income earned on its soil, in accordance with sourcing theory, benefit theory, entitlement, and pragmatic concerns. The definition of PE should be revised for the digital economy for these reasons. The physical presence is not considered proof that an economic transaction took place in some literary works. When there is a relationship between a seller and a buyer, economic transactions occur. This relationship could be seen as a long-term arrangement. It is possible to consider this establishment a virtual permanent establishment. The key issue is how to demonstrate that the relationship exists. (Hongler, Piston, 2015), (Blueprints for a New PE Nexus to Tax Business Income in the Era of the Digital Economy, 2015). If there are more than 1,000 unique users each month and a specified amount of sales. The OECD suggested that interactions lasting longer than six months and transactions with specific transaction values could serve as evidence that the relationship has materialized. The strong online presence may serve as proof that the digital agent was present in the originating nation. The OECD has suggested a threshold for determining presence. The OECD thresholds are challenging to implement theoretically and practically (Blum, Daniel W, 2015), (IBFD, Bulletin for International Taxation, 2015). This study suggested how to assess the link to a fundamental in determining the permanent establishment in accordance with certain proposed new concepts for the virtual permanent establishment. A permanent establishment notion should take into account, among other things:

1. In order to use computer networks, digital economy agents require bandwidth in the country of origin.

2. A virtual permanent establishment is offered as the new definition of a permanent institution. It is clear that the permanent establishment does not simply exist because of its current physical location.

3. There may be a connection between the specified number of users and the electronic application.

4. A large number of contracts may indicate the presence of a relationship. In fact, it has trouble establishing a connection between the quantity of users and contracts. The burden of proof will fall on the tax authority.

## Conclusion

In the digital economy, cross-border transactions can do away with a permanent establishment in the originating nation. It will be challenging for the source country to implement tax collections due to the absence of permanent establishment. The idea of a permanent establishment needs to change. According to the literature, the partnership between a seller and a buyer can be seen as a long-term commitment. The term "virtual permanent establishment" applies. Several literatures have suggested criteria to establish whether a relationship has formed, such as website access by more than 1,000 unique users per month, engagement lasting more than six months, and website existence. To sum up its argument, this research suggests that the use of bandwidth in the country of origin is a sign that a seller and a customer are related. It is possible to classify using bandwidth with a specific number of bytes as a virtual permanent installation under a bilateral agreement. The Virtual Permanent Establishment is an emerging concept that has important economic implications. While the VPE has the potential to drive efficiency and productivity, it also presents challenges related to tax revenues, investment, and economic growth. Policymakers will need to carefully consider these implications as they work to develop policies that support the growth and competitiveness of their jurisdictions in the digital age.

## References


Avi-Yonah, R.S 2013, Virtual PE: International Taxation and the Fairness Act. Public Law and Legal Theory Research Paper Series. No 328. University of Michigan Law School

Barrett Schaefer, 2000, International Taxation of Electronic Commerce Income: A Proposal to Utilize Software Agents for Source-Based Taxation, Santa Clara High Technology Law Journal.

Blum, Daniel W 2015, Permanent Establishments and Action 1 on the Digital Economy of the OECD Base Erosion and Profit Shifting Initiative – The Nexus Criterion Redefined, IBFD, Bulletin for International Taxation, June/July.

EY 2015, OECD Issues Final Report on the Tax Challenges of the Digital Economy under Action 1, Global Tax Alert, October.

Hoffart, B 2007, 'Permanent Establishment in the Digital Age: Improving and Stimulating Debate through an Access to Market Proxy Approach', Northwestern Journal of Technology and Intellectual Property, 6, 106.

Hongler, P & Piston, P 2015, Blueprints for a New PE Nexus to Tax Business Income in the Era of the Digital Economy, IBFD Working Paper, 20 January.


Hongler, P & Piston, P 2015, Blueprints for a New PE Nexus to Tax Business Income in the Era of the Digital Economy, IBFD Working Paper, 20 January.

Hongler, P & Piston, P 2015, Blueprints for a New PE Nexus to Tax Business Income in the Era of the Digital Economy, IBFD Working Paper, 20 January.

Li, J and See, J 2007, Electronic Commerce and International Taxation, Osgoode Hall Law School, York University.

Nkerebuka, Eliya J 2015 'The Permanent Establishment Concept in Relation to Electronic Commerce', Research Dissertation for the Master in Law, University of Cape Town – Faculty of Law.

OCED 2016, New Forms of Work in the Digital Economy- 2016 Ministerial Meeting on the Digital Economy, Technical Report, OECD Digital Economy Papers No.260.

OECD 2008, Model Tax Convention on Income and on Capital, Article 5

OECD 2015, Addressing the Tax Challenges of the Digital Economy, OECD/G20 BEPS Project, Action 1, Final Reports.

OECD Model Tax Convention on Income and on Capital. Condensed Version Article 7. July 22 of 2010.

OECD/G20 2015, Base Erosion and Profit Shifting Project – Explanatory Statement, Final Reports.

Pinto, D 2006, The Need to Reconceptualize the Permanent Establishment Threshold, IBF Bulletin, July.

# Startaplarda Mələk İnvestorların Önəmi

**Sevil Nadirxanova**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Sevil.nadirxanova@gmail.com**

**Xülasə**

Bir startap ideyasının həyata keçirilməsi üçün maliyyələşdirmə mənbəyini və idarəetmə təcrübəsini bir araya gətirmək tələb olunur. Çox vaxt biznes ideyası olan şəxslər onu dəstəkləyəcək maliyyə mənbəyinə çıxış tapmaqda çətinlik çəkir. Startapların inkişaf edib ölkə iqtisadiyyatına və cəmiyyətə fayda verməsi üçün onların ilkin mərhələdən maliyyə dəstəyi ilə təmin olunması vacibdir. Startapların maliyyələşdirilməsi üçün bir çox mənbə mövcuddur. Bunlara misal olaraq Vençur Kapitalı, kraudfandinq platformaları və mələk investorları göstərmək olar. Lakin bu çətinliyin aradan qaldırılıması həll yolu ola biləcək investisiya mənbəyi mələk investorlardır. ABŞ və Avropa ölkələrində uzun tarixə malik olan mələk maliyyələşdirmə modelinin inkişafı, sahibkarlığın və iqtisadyyatın inkişafina mühüm töhfələr verə bilər. Bu səbəbdən məqalənin məqsədi son dövrlərdə dünyada geniş yayılan mələk investisiya anlayışını izah etmək, onun startaplar üçün önəmini vurğulamaq və ölkəmizdə tətbiqi üçün tövsiyyələr verməkdir. Tədqiqat zamanı tənqidi mənbə araşdırmasından istifadə edilmişdir. Bu araşdırma nəticəsində mələk investorların ümumi izahı verilmiş və digər ölkələrdə mələk investorların startaplar üçün önəmi göstərilmişdir.

**Açar sözlər:** mələk investor, startap, investisiya, startap ekosistemi, maliyyə mənbələri

**Abstract**

Creating a startup requires a combination of funding and management experience. Often, people with a business idea find it difficult to find access to a source of finance to support it.Angel funding can be the solution to overcome this difficulty. In order for startups to develop and benefit the country's economy and society, it is important to provide them with financial support from the first stage. There are many sources of funding for startups. Examples of these are Venture Capital, crowdfunding platforms and angel investors. However, the source of investment that can solve this problem is angel investors. Angel funding supports startups at the seed stage and enables them to be successful. With the development of the angel financing model, which has a long history in the United States and European countries, important contributions can be made to the development of entrepreneurship and economic development. For this reason, the purpose of the article is to explain the concept of angel investment, which has become widespread in the world in recent times, to emphasize its importance for startups, and to give recommendations for its application in our country. A critical source study was used in the study. As a result of this study, a general explanation of angel investors was given and the importance of angel investors for startups in other countries was shown.

**Key words**: angel investor, startup, investing, startup ecosystem, financial sources

## Giriş

"Başlamaq" mənasına gələn startap üçün ədəbiyyatda bir çox izah vardır. Merriam Webster Dictionary startap anlayışını "yeni biznes təşəbbüsü", Oksford lüğətində isə "işə yeni başlayan şirkət" kimi təyin edilir. Startap biznesin ilkin mərhələsində olan şirkətdir. Startaplar digər yeni yaranan şirkətlərdən onunla fərqlənir ki, onlar aşağıdakı iki işi eyni anda edə bilirlər:

1. İnsanların ehtiyac duyduğu və ya həll edə bilmədiyi problemə cavab vermək

2. Bu problem demək olar ki, bəşəriyyətin ümumi problemidir və beləliklə, çox böyük bir bazarın tələbatını ödəyir və qısa müddətdə böyüyür.

Bu şirkətlər adətən tam inkişaf etmiş biznes modelinə və ən əsası biznesin növbəti mərhələsinə keçmək üçün lazım olan kapitala malik deyillər. Bir çox startap ilkin mərhələdə startap sahibinin şəxsi vəsaiti hesabına maliyyələşdirilir. Lakin bu vəsait hər zaman kifayət etmir və bu səbəbdən gələcək dövrlərdə uğursuz olurlar. Startapların formalaşmasında kapitalın əhəmiyyəti həm startapın bazara daxil olması zamanı, həm də bazara daxil olduqdan sonra həlledici rol oynayır. Bu səbəbdən startapların maliyyə mənbəyinə çıxış əldə etmə qabiliyyəti onun gələcəkdə uğurlu olması üçün vacib amillərdən biridir.

Adətən yüksək inkişaf potensialı olan startaplar təsisçilərinin sahib olduğu resurslarlardan daha çoxuna ehtiyac duyurlar. Bu səbəbdən onlar üçün digər maliyyə mənbələrinə çıxış əldə etmək vacib hal alır. Mələk maliyyəsi bu baxımdan həm kapital mənbəyi, həm də bu investorların sahibkarlıq təcrübəsi ilə məsləhət xidməti göstərərək mələk kimi sahibkarın köməyinə gəlirlər. Buna görə də mələk investorlardan sadecə maliyyə mənbəyi kimi istifadə etmək doğru olmaz. Onlar sizə tövsiyyə verə biləcək uğurlu iş adamlarıdır.

Mələk investorların önəmini vurğulayaraq qeyd etmək olar ki, tədqiqatın əsas məqsədi ölkəmizdə mələk investorların sayının artmasına dəstək olmaqdır. Tədqiqat zamanı deduksiya metodundan istifadə edərək dünya ölkələrində mələk investorlar üzərində araşdırma aparılmışdır. Tədqiqatın vəzifəsi isə dünya startap ekosistemində mələk investorlar üzərində tədqiqat apararaq ölkəmizdə mələk investorların inkişafı üçün təkliflər verməkdir. Bu zaman qarşılaşılan məhdudiyyətlərdən biri informasiya bazasının yetəri qədər olmaması idi. Məqalənin yazılması üçün əsasən xarici müəlliflərin beynəlxalq jurnallarda çap etdikləri məqalələr, elmi işlərdən və internet resurslarından istifadə edilmişdir.

## Startaplarda İnvestesiyanın Önəmi

Startap qurmaq çox riskli və çətin prosesdir. Bu yolda ən böyük problem startap sahiblərinin maliyyə mənbəyinə çıxış yolu tapmasıdır (Marangoz, 2008). İqtisadiyyatın inkişafında mühüm yer tutan startapların inkişafının əsasları olan iki şərt, biznes ideyası və maliyyələşdirmə, çox vaxt eyni şəxsdə olmur. Ona görə də, orijinal biznes ideyası olan sahibkarın bir çoxu startapları üçün investesiya mənbəyi axtarır. Hər bir startapın maliyyə ehtiyacı onun olduğu mərhələyə görə fərqlilik göstərir.

Startapların maliyyə mənbələri ilk dəfə üçün adətən sahibkarların şəxsi kapital, həyat yoldaşlarından, dostlarından və qohumlarından əldə edilən resurslar, bank kreditləri kimi mənbələr olur. Lakin bir müddət sonra bu kapital onlara kifayət etmir və əlavə maliyyə mənbəyinə ehtiyac duyurlar. Əsasda ilkin mərhələdə maliyyə ehtiyacı yüksək olur. Bu mərhələ sahibkarın yavaş addımlarla getməli olduğu və ən çox həyəcanlandığı mərhələdir. Əlavə olaraq ən çox uğursuz olma ehtimalı olan mərhələ də ilkin mərhələdir. Bu səbəbdən startaplar üçün bu dövrdə ən uğurlu investesiya növlərindən biri olaraq mələk investorları misal göstərmək olar.

## Mələk İnvestorlar

Mələk investorlar ilkin mərhələdə perspektivli startapları vəsaitlə təmin edən fərdlər və ya insan qruplarıdır. Başqa bir tərifə görə isə, yüksək risk və yüksək inkişaf potensialı olan şirkətlərə ilkin mərhələdə investesiya qoyan xüsusi bir investor növü olaraq ifadə edilir. Mələk investorun məqsədi potensial, yəni perspektivli layihələrə maliyyə dəstəyi verməklə, bu startapın uğurlu olmasına kömək

olmaqdır (Uluyol, 2008). Az, lakin getdikcə artan mələk investorlar birləşərək öz təcrübələrini startap sahibləri ilə bölüşməyi və investisiya kapitalı hovuzu yaratmağı hədəfləyirlər.

Mələk investorlar ilk dəfə ABŞ-da meydana çıxmışdır. Daha sonra Avropa və Asiyada, xüsusilə Kanada, Avstraliya və Yeni Zelandiya kimi ölkələrdə ortaya çıxmağa başlamışdır (Mason, 2006). Mələk investor termini isə ilk dəfə İngiltərədə istifadə edilmişdir. İnvestoru "mələk investor" adlandırılmasının səbəbi investesiya etdiyi şirkətlə yaxın münasibət qurmağı və bu şirkətə göstərdiyi səmimi dəstəkdir. Mələk investorlar şirkətləri yalnız maliyyə resursları ilə təmin etmir, onlar eyni zamanda öz bilik və təcrübələrini sahibkarlarla bölüşürlər. Mələk investor qrupları hər sektora sərmayə qoya bilər. Ancaq fərdi bilik və təcrübəyə sahib olduqları sektordan olan şirkətlərə sərmayə qoymağı məqsədə uyğun hesab edirlər.

Mələk investorlar dəstəklədikləri investisiyadan sonra müvəffəqiyyətli olan startapları tərk edərək yeni ideya sahibləri ilə əlaqə saxlayaraq dəstəkləmək üçün yeni layihələr tapır. Bu xüsusiyyətləri ilə mələk investorlar sahibkarlığın inkişafına töhfə verməklə yanaşı, onlar cəmiyyətə faydalı olacaq layihələrin dəstəklənməsində akitv rol oynayırlar. Mələk investorlar digər maliyyə mənbələri ilə müqayisədə daha sərfəli şərtlər təqdim edirlər, çünki onlar adətən biznesin canlılığına deyil, biznesə başlayan sahibkara sərmayə qoyurlar (Https://Www.İnvestopedia.Com/Terms/A/Angelinvestor.Asp).

Mələklər, qurulma mərhələsində orta hesabla 10-20 işçisi olsa da, gələcəkdə 50-100 işçiyə qədər böyümək potensialı olan və 5, 10 və 20 milyon dollarlıq satışları hədəfləyən startaplara maliyyə dəstəyi göstərir. Bu investorların keçmiş təcrübələri olduğu üçün onlar sahibkarlar tərəfindən istənilən maliyyə vəsaitinin risk dərəcəsini ölçə bilirlər.

Nyu-Hempşir Universitetinin Sahibkarlıq Araşdırma Mərkəzi tərəfindən mələk investorlar ilə bağlı araşdırmanın bəzi nəticələrini təqdim edirik (Schachters, 2007).

- Müəssisələr çoxdur, amma kapital çatışmazlığı var.
- Mələk sərmayəçilərinin sayı artdıqca, mələk sərmayələrinə ayrılan vəsaitlərin həcmi azalır.

Mələk investorlar tərəfindən seçilən sahibkarlar gənc, dinamik, dürüst, həyata pozitiv baxmağı bacaran, iş haqqında yeni fikirlər irəli sürməyi bacaran, paylaşmağa açıq olmalı və motivasiyası yüksək olmalıdır. Mələk investorlar həmçinin dəyər və maliyyə dəstəyi vermək istədikləri şirkətlərin baxışları ilə öz baxışlarının uyğun olmasına diqqət yetirirlər. Bu xüsusiyyətlərə malik olması ilə birlikdə investesiya etdikləri məbləğin geri dönüş məbləğinin yüksək olma ehtimalına fikir verirlər. Mələklər əsasən texnologiyaya əsaslanan təşəbbüslərə üstünlük verməyə meyl edirlər (Freear, Sohl və Wetzel, 2002). Mələk investorlar təkcə yeni qurulan şirkətlərə deyil, həm də böyümə mərhələsində olan şirkətlərə də sərmayə qoyurlar (Tice, 2008).

Araşdırmalara görə, mələk investor 50 illik keçmişə malik olduğu müəyyən edilmişdir. Mələklərin mənfəətdən başqa məqsədləri də var. Bu səbəblər;

- yeni bir işin ilkin böyümə prossesində iştirak etmənin həyəcanı və zövqü
- yeni iş yerlərinin yaradılmasına dəstək
- qadın sahibkarlara dəstək olmaq və s.

Mələk investorların məqsədi yeni və ya perspektivli layihələri dəstəkləmək və onların inkişafına töhfə verməkdir. Bu səbəbdən yüksək gəlirli innovativ layihələr mələk investorların diqqətini daha çox cəlb

edir. Onlar öz funksiyalarını müxtəlif yollarla yerinə yetirə bilərlər. Bu fəaliyyətlərə fərdi crowdfunding platformaları və ya mələk investor şəbəkələri vasitəsilə aid edilə bilər. Mələk sərmayəsinin mühüm prioritetlərindən mələk investor qruplarıdır. Mələk qrupları sərmayə qoyacaqları sahibkarların layihələrini, təqdimatlarını, biznes təkliflərini qiymətləndirmək üçün mütəmadi olaraq görüşər təşkil edərək birlikdə müzakirələr aparırlar. Onlar  böyük investisiyalar etmək üçün kapitallarını qruplar şəklində birləşdirir və sahibkarların ehtiyaclarını görərək sərmayə qoyurlar.

Mələk sərmayəsi təcrübə və bilik tələb edən bir fəaliyyətdir. İnvestisiya etmək üçün mələk investor intellektual biliyə və təcrübəyə malik olmalıdır. Onlar əsasən müəyyən peşəkar biznes keçmişi, biliyi və maliyyəsi olan şəxslərdir. Hər hansı bir şirkətin CEO-su və ya orta səviyyədə bir meneceri mələk investor ola bilər. Mələk investorlar üçün lazım olan xüsusiyyətlər araşdırıldığında aşağıdakı kimi çeşidləmək mümkündür (Kurnaz və Bedük, 2017):

- Mələk investorlar qısa müddətdə nəticə gözləmirlər uzunmüddətli perspektivə baxırlar.
- Mələk investorların pul itkisi baş verdiyi zaman dözmək qabiliyyətinə malikdirlər.
- Mələk investorlar həm fərdi, həm də qrup şəklində fəaliyyət göstərə bilərlər. Bu sayədə böyük məbləğdə investesiyaları rahatlıqla həyata keçirə bilirlər.
- Sərmayə qoyduqları sahə haqqında fərdi biliklərə malikdirlər.
- Mələk investor risk götürmək və riskin nəticələrini səbrlə gözləmək qabiliyyətinə malikdir.
- Mələk investor yalnız hər hansı bir investisiyanın uğurunu dəstəkləmir onlar həm də öz mənfəətləri üçün investisiya edirlər.
- Mələk investorların əksəriyyəti 35-65 yaş qrupunda olan biznes sahibləridir.

**Mələk İnvestisiya Qərarına Təsir Edən Amillər**

Mələk sərmayəsində startaplara investesiya edilməsi zamanı maliyyə faktorları ilə yanaşı, sosial və şəxsi amillər də ön plana çıxır. İqtisadi faktorlardan çox şəxsi amilləri araşdıran araşdırmaları nəzərə alsaq görərik ki, mələk investorlarda ən əhəmiyyətli stimullaşdırıcı amil prosesinin bir hissəsi olmağın zəruriliyidir (Kurnaz və Bedük, 2017).

Mələk investorların təcrübələri investisiya qərarının verilməsi zamanı olduqca əhəmiyyətli olur. Pis təcrübə keçirmiş investorlar oxşar halları təkrarlanmasının qarşısını almaq üçün əlaqədar mövzularda çalışan sağlamlıq texnologiya şirkətlərinə investisiya qoymağa üstünlük verirlər. Mələk investorların sərmayə qoyarkən gözləntilərin və təcrübələrinin bütün digər amillərdən daha təsirli olduğunu müdafiə edir. İnvestorların təcrübəsinə əlavə olaraq, şəxsi xüsusiyyətlər, risk götürmə və yenilikci olması qərar qəbul etmədə əhəmiyyətli rol oynayır (Karabayır, Gülşen, Çiftçi və Horon, 2012).

İnvestisiya edəcəkləri startapların sosial fayda verəcək keyfiyyətdə olması qərar verməyə təsir edən digər amillərdən biridir. Qərar vermə zamanı mələk investor bir çox şəxsi xüsusiyyətlərə diqqər edir. Layihəyə həvəsliliyi, sahibkarlıq ruhuna malik olması və əvvəlki investisiyalardan əldə edilən təcrübə investisiya qərarlarının qəbul edilməsində vacib rol oynayır.

**Müsbət və Mənfi Tərəfləri**

Şübhəsiz ki, hər bir maliyyələşdirmə mənbəyinin  olduğu kimi mələk investorların da üstünlükləri və mənfi cəhətləri vardır. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar (Perktaş və Uçar, 2015).

*Üstünlükləri :*

- Mələk investorlar nisbətən kiçik investisiyalara üstünlük verirlər.
- Əsasən startaplara ilkin mərhələdə sərmayə qoyurlar.
- Riskləri və problemləri startap sahibi ilə bölüşürlər.
- Bütün sektorlara investisiya edə bilərlər.
- Maliyyə qərarlarında vençur kapitalistlərindən daha çevikdirlər.
- Mələk investisiya bazarı geniş bir coğrafiyada yer ala bilər.

Yuxarıda qeyd olunan xüsusiyyətlərə əlavə olaraq, mələk investorların ölkələrin inkişafına olan töhfələrini də qeyd etmək lazımdır. Mələk maliyyələşdirmə investisiya kapitalı olmayan sahibkarların ideyalarını reallığa çevirərək və layihələrin inkişafını təmin etməklə sahibkarlıq inkişafına öz töhfəsini verir. Və bu səbəbdən yeni iş yerlərinin açılmasına kömək etmiş olurlar (Kanat, 2011).

*Mənfi cəhətləri:*

- Mələk investorlar eyni firmaya yenidən investisiyalar etməkdən çəkinirlər.
- Mələk investorlar, sahibkara nəzarət gücü verə biləcək söz haqqında sahib olmaq istəyirlər.
- Nüfuzları zəifdir (Kurnaz və Bedük, 2017).

**Mələk İnvestesiyanın Faydaları**

*Sahibkarlığın inkişafına töhfə verir:* İnvestesiya kapitalı olmadıqca startap ideyasının özü-özlüyündə bir mənası yoxdur. Mələk investorlar sayəsində bu ikisini bir araya gətirərək sahibkarlığın inkişafına töhfə vermək olar. Onlar ailə və dostlardan təmin edilmiş məbləğlə lazım olan arasındakı boşluğunu doldurur. Həmçinin onlar öz sahibkarlıq təcrübələri ilə yeni yaradılmış şirkətlərə rəhbərlik edirlər.

*Məşğulluğa töhfə verir:* Buna nümunəni ABŞ-dan göstərmək olar. 2005-ci ildə mələk sərmayələri ilə, 49 500 şirkətə (sahibkarlara), 198 000-ə 23 milyard dollar sərmayə qoymaqla yeni iş imkanları yaradıldı (Http://Tantalosmaket.Blogspot.Com).

*Ölkə iqtisadiyyatının inkişafına töhfə verir:* Startaplara verdikləri dəstək sayəsində ölkə iqtisadiyyatı inkişaf edir. Onlar həmçinin cəmiyyət üçün faydalı ola biləcək startaplara investesiya edərək ölkənin sosial inkişafına töhfə verirlər.

*Mələk investisiya maliyyələşdirmə modeli hər iki tərəfin qazandığı modeldir:* Çünki bu modeldə uduzanlar yoxdur. Həm modeldə iştirak edən sahibkar, həm investorun qazandığı bu model sayəsində dövlət və cəmiyyət də inkişaf edir.

**Dünyada və Azərbaycanda Mələk İnvestorlar**

1999-cu ildə Brüsseldə Avropa İttifaqının rəhbərliyi ilə EBAN - European Angel Investment Trade daha sonra 2005-ci ildə ABŞ-da ACCA-Amerika Mələk İnvestorları Ticarət Təşkilatı yaradılmışdır. 2014-cü ildə Laqosda əsası qoyulan ABAN ACA - African Angel Investors təşkilatı və Əmmanda qurulan Ticarət Təşkilatı və Yaxın Şərq Mələyi İnvestorları Ticarət Təşkilatı yaradılmışdır. Avropada mələk investorların sayında əhəmiyyətli artım müşahidə olunur. Aşağıdaki cədvəldə ölkələr üzrə 2021-ci ildə mələk investorlar üzrə bazar payını görmək olar:

**Cədvəl 1:Mələk investorlar ölkələr üzrə bazar payı**

| № | ÖLKƏ | İNVESTESİYA MƏBLƏĞİ €M |
|---|---|---|
| 1 | Birləşmiş Krallıq | 388,50 |
| 2 | Almaniya | 159,70 |
| 3 | Fransa | 153,50 |
| 4 | Italy | 67,28 |
| 5 | İspaniya | 66,90 |
| 6 | Finlandiya | 66,83 |
| 7 | Danimarka | 60,43 |
| 8 | İsveçrə | 55,40 |
| 9 | Türkiyə | 50,30 |
| 10 | Hollandiya | 46,40 |
| 11 | Estoniya | 39,88 |
| 12 | Polşa | 38,20 |
| 13 | İsveç | 34,55 |
| 14 | Belçika | 30,20 |
| 15 | Avstriya | 29,80 |
| 16 | Rusiya | 26,87 |

**Mənbə:** https://www.eban.org/statistics-compendium-2021-european-early-stage-market-statistics/

Ölkəmizdə mələk investorlara misal olaraq "Technovate – Sabah Mələk İnvestorlar Klubu"-nu göstərmək olar. Klub risk etmək həvəsi yüksək olan, ildə təxminən 10-50 min dollar məbləği qlobal startaplara yatırtmaq istəyən, qarşılığında 10, 100, bəzən hətta 1000 dəfə çox gəlir əldə etmək istəyən, amma alınmasa da o pulu itirməyi göz önünə alan, dünyanın müsbət dəyişimində rol almaq istəyən şəxslər üçün nəzərdə tutulub. Dünyanın istənilən yerindən startapları qəbul etməyi planlayırlar (https://www.startup.az/investor-content/melek-investorlar-klubu-28).

**Nəticə**

İnkişaf etməkdə olan ölkələrin inkişafını sürətləndirmək üçün startapların rolunun böyük olduğu hamıya məlumdur. Ancaq bu inkişaf yolunda startapların maliyyə dəstəyinə çıxış çətinliyi və təcrübənin az olması böyük bir əngəldir. Bu səbəbdən startapların bir çoxu ilk mərhələdən uğursuz olur.

Mövcud maliyyə mənbələri arasında olan mələk investorlar dünyada iqtisadiyyatın inkişafı üçün böyük töhfə verir. Onlara sadecə maliyyə mənbəyi olaraq baxmaq lazım deyil. Mələk investorlar sahibkarlara yol göstərir və məsləhət verirlər.

Mələk maliyyəsinin inkişafı üçün mələk investorlar qrupunun təşkili, sahibkarların bu tip maliyyə mənbələri haqqında məlumatlandırılması startapların inkişafında faydalı olacaqdır. Buna görə də sahibkar öz şirkətinə investisiya qoymaq və ortaq olmaq üçün mələk investoru seçərkən investorun təcrübələrini araşdırması tövsiyyə oluna bilər. Bu sayədə öz biznesinin sektoruna uyğun mələk investoru seçərək startapın inkişafı üçün faydalı addım atmış olacaq.

Bu ekosistemin inkaşfı üçün sahibkar və mələk investorlardan əlavə qlobal və yerli təşkilatların da bu işə diqqət yetirməsi vacib məsələdir. Beləliklə qarşılıqlı sağlam əlaqələr nəticəsində mələk investorların startap ekosistemində payı artacaqdır. Bu da öz növbəsində iqtisadiyyatın inkişafına təkan verəcəkdir. Ölkəmizdə mələk investorların sayını artırmaq üçün aşağıdaki tədbirləri həyata keçirmək olar:

- Mövzu ilə əlaqəli qurumlar, iş adamları təşkilatlar, universitetlər və s. kimi sahibkarlığı dəstəkləyən təşkilatlarla əməkdaşlıq etmək və onların təcrübələrindən istifadə etməklə regional əsasda mələk investorlar şəbəkələri yaratmaq.
- Yaradılacaq şəbəkələrdə mələk investorlar və startap sahibləri bir araya gətiriləcək. Bu sayədə startaplar daha rahat investorlar çıxış əldə edəcəklər.
- Universitet, inkubasiya və akselerasiya mərkəzlərində müəyyən tədbirlər planı həyata keçirərək, startap sahiblərinə mələk investorlar haqqında məlumat vermək lazımdır. Burada onlar mələk investorları haradan tapa biləcəkləri və onları özlərinə necə cəlb edə biləcəkləri haqqında mariflәndirilə bilər.
- Dövlət və özəl sektor bu sahədə birlikdə çalışaraq startap ekosistemində mələk investorların gücünü artıra bilərlər.

Bütün bu tədbirlər nəticəsində mələk investorların sayı artacaqdır. Mələk investorların sayının artması öz növbəsində iqtisadiyyatda startapların payını artıracaqdır.

**Ədəbiyyatlar**


Uluyol Osman (2018) Girişimcilikte Alternatif Bir Finansman Modeli Olarak Melek Finansman Yöntemi, Sustainable Competition And Resource-Based View in Global Markets. 3(2), 43-68.

Marangoz Mehmet (2008) "Girişimcilik" Çanakkale: Pozitif Matbaacılık

Mason, C. M. (2006). Informal sources of venture finance. In S. Parker (Ed.), The life cycle of entrepreneurial ventures (p. 259-299). Berlin: Springer.

Https://Www.İnvestopedia.Com/Terms/A/Angelinvestor.Asp

Schachters, K., (2007) "Angel Pull Back", Red Herring, 10/07.2007, Vol. 4, Issue 29, P. 20.

Freear, J., Sohl, J.E., Wetzel, W, (2002), "Angels On Angels: Financing Technologie-Based Ventures-A Historical Perspective", Venture Capital, Vol.4, No. 4, Pp. 475-287.

Tice, Carol (2008), "On The Horizon", Entrepreneur, August

Kurnaz, G., ve Bedük, A. (2017). Türkiye'de Ve Dünyada Melek Yatırımcılık. Selçuk Üniversitesi Sosyal Bilimler Meslek Yüksekokulu Dergisi, 33-34.

Karabayır, M. E., Gülşen, A. Z., Çiftçi, S., & Horon, M. (2012). Melek Yatırımcıların Yatırım Kararlarında Girişimci Odaklılığın Rolü Türkiyedeki Melek Yatırımcılar Üzerine Bir Çalışma. Ankara Üniversitesi Siyasal Bilimler Fakültesi Dergisi, 67(2), 69-93.

Perktaş E. ve Uçar M. (2015). Girişimcilik Ve Girişimin Finansmanında Melek Yatırımcı Ve Uygulama Alanları. Route Educational And Social Science Journal, 2

Kanat, E. (2011). Dünyada Ve Türkiye'de Angel Capital (Melek Sermaye) Uygulaması. Malatya: İnönü Üniversitesi Sosyal Bilimler Enstitüsü İşletme Anabilim Dalı / Muhasebe Finansman Bilim Dalı.

Http://Tantalosmaket.Blogspot.Com

https://www.eban.org/statistics-compendium-2021-european-early-stage-market-statistics/

https://www.startup.az/investor-content/melek-investorlar-klubu-28

# Azərbaycanda Sənayenin İnkişafının Təbii-İqtisadi Potensialı

**Hüseynli Zaur**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**huseynlizaur77@gmail.com**

## Xülasə

Ölkə iqtisadiyyatının inkişaf dinamikasında müşahidə edilən əsas cəhət isə qeyri-neft sektorunun, o cümlədən sənayenin üstün artımı ilə bağlıdır. Məlumdur ki, uzun illər ərzində neft sektoru Azərbaycan iqtisadiyyatında lokomotiv rolunda çıxış edib və bu gün də üstün mövqeyini qoruyub saxlamaqdadır. Bununla belə, ölkəmizdə iqtisadiyyatın məqsədyönlü şaxələndirilməsi siyasəti uğurla həyata keçirilir. Sənayenin strukturunun və regional əhatəsinin diversifikasiyası baxımından ağır sənaye və maşınqayırma sahəsində yeni istehsalat obyektlərinin istismara verilməsi üçün son illərdə ciddi işlər görülmüşdür.

Məqalənin məqsədi Azərbaycanda sənayenin inkişafının təbii-iqtisadi potensialını təhlil etməkdən ibarətdir. Tədqiqatın aparılmasında analiz-sintez, qruplaşdırma, ümumiləşdirmə, induksiya və deduksiya metodlarından istifadə edilmişdir. Tədqiqatın informasiya bazasını elmi nəşrlər, xarici ədəbiyyatlar, beynəlxalq indeksli jurnallar, internet resursları, nüfuzlu təşkilatların ictimaiyyətə açıq paylaşdığı statistik göstəricilər və monoqrafiyalar təşkil edir.

Nəticə olaraq qeyd edə bilərik ki, regional bazarda Azərbaycan məhsullarının payının artırılması üçün aşağıdakı strateji hədəflər müəyyən olunmuşdur: mövcud aktivlərin optimallaşdırılması, rəqabətədavamlı sektorun yaradılması və maliyyə dəstəyinin təmin edilməsi və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi. Bunların içərisində rəqabətədavamlı sektorun yaradılmasının əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

**Açar sözlər: sənayeləşmə, ağır sənaye, emal sənayesi, iqtisadi inkişaf**

## Summary

The main aspect observed in the development dynamics of the country's economy is related to the outstanding growth of the non-oil sector, including industry. It is known that for many years the oil sector has played the role of a locomotive in the economy of Azerbaijan, and today it maintains its superior position. However, the policy of purposeful diversification of the economy is successfully implemented in our country.

The purpose of the article is to determine the role of banking services and the banking sector in the development of the national economy. Analysis-synthesis, grouping, generalization, induction and deduction methods were used in conducting the research. The information base of the research is made up of scientific publications, foreign literature, magazines with international indexes, internet resources, statistical indicators and monographs publicly shared by reputable organizations.

As a result, we can note that the following strategic goals have been defined to increase the share of Azerbaijani products in the regional market: optimization of existing assets, creation of a competitive sector and provision of financial support and implementation of international cooperation. Among them, it is necessary to emphasize the importance of creating a competitive sector.

**Keywords: industrialization, heavy industry, processing industry, economic development**

## Giriş

Hazırda müstəqil Azərbaycan bütün dünyada sabitlik və inkişaf adası kimi səciyyələnir. Ölkə iqtisadiyyatının potensialının ilbəil artması, həmçinin müsbət makroiqtisadi göstəricilər respublikamızın hərtərəfli dinamik inkişafını təsdiqləyir. Ümumi daxili məhsulun artım dinamikası hər bir ölkənin iqtisadiyyatının dayanıqlığını şərtləndirən əsas amillərdəndir. Bu mənada Azərbaycanda ümumi daxili məhsulun ilbəil artması məmnunluq doğurur. Belə ki, son 10 ildə ölkəmizdə ÜDM istehsalında 3 dəfədən çox artıma nail olunub.

Tədqiqatın məqsədi Azərbaycanda sənayenin inkişafının təbii-iqtisadi potensialını təhlil etməkdən ibarətdir. Tədqiqatın aparılmasında analiz-sintez, qruplaşdırma, ümumiləşdirmə, induksiya və deduksiya metodlarından istifadə edilmişdir. Tədqiqatın informasiya bazasını elmi nəşrlər, xarici ədəbiyyatlar, beynəlxalq indeksli jurnallar, internet resursları, nüfuzlu təşkilatların ictimaiyyətə açıq paylaşdığı statistik göstəricilər və monoqrafiyalar təşkil edir.

Tədqiqatın qarşısında dayanan vəzifələr aşağıdakılardır:

-Sənaye sahəsində davamlı iqtisadi inkişafın tədqiqi;

- Dövlət proqramlarının müsbət nəticələrinin müəyyənləşdirilməsi;
- Sahibkarlara siyasi dəstəyin nəzəri-metodoloji aspektləri;
- Sənaye kompleksinin modernləşdirilməsi məsələlərinin aydınlaşdırılması.

Son 10 ildə Azərbaycan iqtisadiyyatına 160 milyard dollar həcmində investisiyalar yönəldilib. Ötən il ölkə iqtisadiyyatına müxtəlif mənbələrdən yönəldilən investisiyaların həcmi rekord səviyyəyə -28 milyard dollara çatıb.

Tədqiqatın obyekti və predmeti: Tədqiqat işinin obyekti sənayeləşmə, predmeti isə sənayenin təbii-iqtisadi potensialıdır.

Tədqiqat metodları: Məqalənin yazılması prosesində bir sıra nəzəri və iqtisadi təhlil metodlarından istifadə olunmuşdur. Burada müqayisəli idarəetmə anlayışının nəzəri aspektlərini öyrənmək üçün faktların toplanması və ümumiləşdirilməsi, eləcə də elmi abstraksiya, analiz və sintez kimi metodlardan istifadə olunmuşdur.

Tədqiqatın informasiya bazası olaraq tədqiqatın aparılması üçün istifadə olunan məlumat bazalarına jurnal və konfrans məqalələri, oxşar mövzular üzrə xüsusi və ümumi iqtisadi ədəbiyyatın əsas sahələri, o cümlədən xarici və yerli alimlərin elmi tədqiqatları daxildir.

Tədqiqat prosesində informasiya bazası kimi Azərbaycan Respublikasının qanunlarından, habelə internet resurslarından və dərsliklərdən də istifadə edilmişdir.

Ölkəmizin sərmayə qoyuluşu baxımından cəlbedici məkana çevrilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş praqmatik siyasətlə bağlıdır. Ölkədəki möhkəm daxili sabitlik, ardıcıl surətdə həyata keçirilən iqtisadi islahatlar, möhkəm qanunvericilik bazası, investisiyaların qorunmasına və təşviq edilməsinə dövlətin nümayiş etdirdiyi güclü siyasi iradə, ölkədə yaradılan əlverişli biznes mühiti Azərbaycanı investisiya qoyuluşu baxımından cəlbedici ölkəyə çevirib (Əsgərova, Abdullayev,2019). Həyata keçirilən bütün bu və digər tədbirlər sayəsində ölkədə iqtisadi fəallıq artıb, respublikamızda yerli və xarici kapital əsasında qurulan çoxlu sayda yeni sənaye müəssisələri yaradılıb. Respublikamızda sərmayə qoyuluşunda prioritet istiqamətləri kimi ağır sənaye, alternativ enerji, informasiya-kommunikasiya texnologiyaları, qida-emal sənayesi, logistika, turizm kimi sahələr əsas götürür.

Azərbaycanın sərmayə bazarına yönəldilən investisiyaların strukturu da müxtəlifdir. Ölkəmizdə müxtəlif sahələrə yatırılan investisiyaların bir qismini xarici sərmayələr təşkil edir. Beynəlxalq miqyasda yüksək imic qazanan bir sıra xarici şirkətlər Azərbaycandakı əlverişli investisiya mühitindən bəhrələnməyə çalışaraq müxtəlif sahələrə sərmayələr yönəldirlər. Diqqəti çəkən əsas məqam isə ondan ibarətdir ki, ölkəmizə yatırılan investisiyaların strukturunda daxili investisiyaların həcmi ilbəil artaraq xarici sərmayələri üstələyib. Bu da ilk növbədə ölkəmizin iqtisadi gücünün artması, maliyyə imkasnlarının genişlənməsi ilə bağlıdır (Матвеевский, 2020).

Əlamətdar haldır ki, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması qısa müddətdə ölkənin sənaye xəritəsində bir sıra yeni müəssisələrin yaranması və ölkənin ixrac potensialının artması ilə nəticələnib. Qeyd edək ki, ölkəmizdə daxili investisiya təminatının artmasında dövlət başçısının "İnvestisiya Fəaliyyətinin Təşviqi üzrə Əlavə Tədbirlər haqqında" müvafiq Sərəncamına uyğun olaraq 2006-cı ildə yaradılan "Azərbaycan İnvestisiya Şirkəti" (AİŞ) Açıq Səhmdar Cəmiyyəti böyük rol oynayıb. Ötən dövrdə Azərbaycan İnvestisiya Şirkəti ölkədə yeni müəssisələrin yaradılmasına mühüm töhfələr verib. Azərbaycanda və digər Xəzəryanı ölkələrdə gəmi tikintisinə olan tələbatı təmin etmək üçün yeni gəmilərin və iri tonnajlı tankerlərin tikintisi və təmiri üzrə zavodun inşasını buna nümunə göstərmək mümkündür. AİŞ bu müəssisədə 25% paya sahibdir. Müəssisənin digər səhmdarları Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ), Keppel Offshore and Marine (Sinqapur) şirkətidir (Abbasov, Məmmədov, 2017).

Bundan başqa, AİŞ-in iştirakı ilə "M-Pro" şirkətinin Hövsan qəsəbəsindəki süd zavodunun, "Qaradağ Sement" zavodunda quru istehsal texnologiyasına əsaslanan yeni sobanın, "Sənqəçal Qaradağ Neft və Qaz terminalı" layihəsinin başlanğıc fazasının inşası başa çatdırılıb. AİŞ həmçinin "Ağstafa Aqroservis", "Azərtoxum" və "Dəvəçi Broyler"də həyata keçirilən layihələrdə iştirak edib.

Ümumiyyətlə, son 10 il ərzində respublikamızda 500-dən çox sənaye müəssisəsi, o cümlədən Sumqayıtda texnologiyalar və tekstil parkları, Naxçıvanda sement, mərmər və avtomobil, Qazaxda sement, Gəncədə alüminium, Goranboyda gips və gips məhsulları, Mingəçevirdə polietilen borular, elektron avadanlıqları, Sumqayıtda kağız emalı, bitki yağları, günəş panelləri, Masallıda və Abşeronda kərpic, Hacıqabulda seramik plitələr, Gədəbəy və Daşkəsəndə qızıl emalı, Oğuzda qarğıdalı emalı və qlükoza, İmişlidə şəkər, bitki yağları və qarışıq yem zavodları, Masallıda mebel fabriki, yüzlərlə digər müəssisə fəaliyyətə başlayıb.

Təkcə güzəştli kreditlər hesabına ümumi dəyəri 730 milyon manat olan 104 sənaye layihəsi maliyyələşdirilib, bu layihələr üzrə 80 müəssisə istifadəyə verilib, 24 obyektdə isə işlər davam etdirilir.

Ötən 10 ildə güzəştli kreditlərin 64 faizi kənd təsərrüfatı məhsullarının istehsalı və emalı layihələrinə yönəldilib. Belə ki, illik istehsal gücü 55 min ton quş əti, 84 milyon damazlıq və 164 milyon əmtəəlik yumurta olan 39 quşçuluq müəssisəsinə 100 milyon manat kredit verilib, sənaye quşçuluğunun istehsal gücü 100 min tona çatdırılıb, quş əti istehsalı 51 faiz artaraq 97 min tona çatdırılıb və nəticədə quş əti idxalı 73 faiz azalıb. Ölkədə innovativ, elm tutumlu sənaye quruculuğu diqqət mərkəzində saxlanılır (Əsgərova, Abdullayev,2019).

Ölkə sənayesinin gələcəyi isə, heç şübhəsiz ki, müasir dünya trendlərinə cavab verən innovativ, elm tutumlu müəssisələrin yaradılması ilə bağlıdır. Respublikamızda informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir və böyük gələcəyə malikdir. 2003-cü ildə Milli İKT Strategiyasının, sonrakı illərdə isə "Elektron Azərbaycan" Dövlət Proqramının qəbul olunması bu sahənin inkişafına böyük təkan verib. Müstəqillik illərində Azərbaycanda İKT-nin inkişafına 3 milyard ABŞ dollarından artıq vəsait yatırılıb. Nəticədə, son 10 ildə informasiya və rabitə sahəsinin inkişafı 8,2 dəfə artıb.

Prezident İlham Əliyevin 8 noyabr 2008-ci il tarixində imzaladığı "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" Sərəncamı və bununla bağlı qəbul olunan dövlət proqramlarının icrası nəticəsində ölkəmiz kosmik sənaye sahəsində yeni inkişaf mərhələsinə qədəm qoyub. Dövlət başçısının 3 may 2010-cu il tarixli Sərəncamı ilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (ASC) təsis edilib. "Azərkosmos"un yaradılmasında əsas məqsəd ölkədə kosmik sənayeyə aid milli məhsul istehsalını təmin etməkdən ibarətdir. ASC-nin

yaradılmasından təxminən 3 il sonra, 2013-cü il fevralın 8-də "Azerspace-1" peyki uğurla orbitə çıxarıldı. Azərbaycanın ilk milli telekommunikasiya peykinin 15 il istismar müddəti ərzində 650 milyon dollar gəlir əldə ediləcəyi gözlənilir. Növbəti illərdə ilk olaraq aşağıorbitli peyklərin, 2020-ci ilədək isə bir və ya bir neçə optik və radar peyklərin orbitə çıxarılması nəzərdə tutulub (Abbasov, Məmmədov, 2017).
Prezident İlham Əliyev 5 noyabr 2012-ci il tarixində "Yüksək Texnologiyalar Parkının yaradılması" haqqında Fərman imzalayıb. Fərmana əsasən, ölkəmizdə iqtisadiyyatın davamlı inkişafını və rəqabət qabiliyyətinin artırılmasını, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan informasiya və kommunikasiya texnologiyaları sahələrinin genişləndirilməsini, elmi tədqiqatlar aparılmasını təmin etmək məqsədilə müasir komplekslər - Yüksək Texnologiyalar Parkının yaradılması nəzərdə tutulub (Əsgərova, Abdullayev, 2009).
Prezident İlham Əliyevin müəyyənləşdirdiyi modern sənayeləşdirmə strategiyasında qarşıya qoyulan yeni hədəflər sırasında ölkədə sənaye klasterlərinin, hər rayonda sənaye zonalarının yaradılması da mühüm yer tutur. Qeyd edək ki, dövlət başçısının tapşırığına əsasən sənaye məhəllələrinin yaradılması sahəsində müasir təcrübə öyrənilib və ilk olaraq Neftçala rayonunda layihələndirmə işlərinə başlanılıb (Abdullayev, 2018).
Yeni sənayeləşmə siyasətində əsas hədəflərdən biri də güclü milli hərbi-sənaye kompleksinin yaradılmasıdır. Prezident İlham Əliyev müəyyənləşdirdiyi yeni sənayeləşdirmə siyasətində milli hərbi-sənaye kompleksinin inkişaf etdirilməsi də prioritet hədəflərdən biri kimi qarşıya qoyub. Dövlət başçısının 16 dekabr 2005-ci il tarixli müvafiq Sərəncamına əsasən yaradılan Müdafiə Sənayesi Nazirliyi ölkənin Silahlı Qüvvələrini lazımi silah, hərbi texnika, sursatla təmin etmək üçün yeni istehsal sahələrinin işə salınması istiqamətində uğurlu addımlar atıb. Ötən müddət ərzində nazirliyin tabeliyində olan müəssisələrin böyük əksəriyyətində əsaslı tikinti və yenidənqurma işləri aparılıb. "İqlim", "Dalğa" və "Sənayecihaz" Elmi İstehsalat Müəssisələri, "Telemexanika", "Peyk", "Alov", Elektron Hesablayıcı Maşınlar, "Radioquraşdırma", Şirvan "Araz", Bakı "Cihazqayırma", Xaçmaz "Kondensator" zavodları, "AZAD Systems Co." müəssisəsi və Elmi–Tədqiqat İnstitutu əsaslı təmir və yenidənqurmadan sonra istismara verilib.
Ümumiyyətlə, müdafiə sənayesi nazirliyinin tikinti və yenidənqurma işləri aparılmış birlik və müəssisələrində 45 yeni istehsal sahəsi yaradılıb. Artıq ölkənin hərbi-sənaye kompleksinə daxil olan müəssisələrdə istehsalı mənimsənilən müdafiə təyinatlı məmulatların çeşidlərinin sayı 750-i ötüb.
Sevindirici haldır ki, Azərbaycanın hərbi-sənaye kompleksində buraxılan müxtəlif növ döyüş texnikası ordumuzun tələbatını ödəməklə yanaşı, həm də xarici bazarlara çıxarılır, beynəlxalq sərgilərdə uğurla nümayiş etdirilir. İlk dəfə beynəlxalq sərgilərə cəmi 27 adda məhsulla qatılan MSN ötən ilin mayında İstanbulda keçirilən "IDEF-2013" XI Beynəlxalq müdafiə sənayesi sərgisində 130 növ döyüş texnikası ilə çıxış edib. Cari il sentyabrın 11-13-də Bakıda keçirilən "ADEX-2014" sərgisi isə Azərbaycanın müdafiə sənayesinin bütün dünyada artan nüfuzunun təsdiqlənməsi istiqamətində daha bir addım oldu.

**Sənaye sahəsində davamlı iqtisadi inkişaf**

Son 7 ilin statistik rəqəmləri Azərbaycanın keçdiyi yüksək inkişaf yolunu, ölkənin sosial-iqtisadi tərəqqisinin keyfiyyətcə yeni mərhələyə daxil olmasını əyani şəkildə sübut edir. Belə ki, son 7 ildə Azərbaycanda ümumi daxili məhsul 3 dəfə, dövlət büdcəsinin gəlirləri 5 dəfə, orta aylıq əmək haqqı 3 dəfə, minimum əmək haqqı 6 dəfə artıb, ölkədə 35 mindən artıq yeni müəssisə və 900 mindən çox iş yeri açılıb (Abbasov, Məmmədov, 2017).

Bütün bu nailiyyətlərin əldə olunmasında Azərbaycanın davamlı və tarazlı tərəqqisinə yönəldilmiş dövlət proqramları mühüm rol oynayıb. Belə ki, 2004-2008-ci illəri əhatə edən birinci Dövlət Proqramının uğurla yerinə yetirilməsi Azərbaycanın sürətli inkişafını təmin edib, ölkə regionlarının sosial-iqtisadi mənzərəsini əsaslı şəkildə yaxşılaşdırıb.

Bununla belə, ölkə Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, həyat öz yerində dayanmır, qarşıya yeni vəzifələr çıxır, problemlər meydana gəlir, onların həlli isə yeni, daha mükəmməl proqramların qəbulunu və həmin sənədlərin uğurla icra edilməsini tələb edir. Bölgələrin mövcud potensialını hərəkətə gətirmək üçün bütün lazımi infrastruktur yaradılıb, bunun da nəticəsində şəhər və rayonlarımızın siması əsaslı şəkildə dəyişib, sosial obyektlərin tikintisi sürətləndirilib.

**Cədvəl 1: Ölkə iqtisadiyyatında sənayenin payı, faizlə**

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|---|
| **Əlavə dəyər** | 32.9 | 37.1 | 40.1 | 44.5 | 41.4 | 34.1 | 42,5 |
| **Ümumi mənfəət** | 41.4 | 46.1 | 48.7 | 55.3 | 53.1 | 46.9 | 56,7 |
| **Xalis mənfəət** | 41.5 | 46.8 | 50.1 | 57.6 | 54.5 | 47.5 | 58,7 |
| **Əsas kapitala investisiyalar** | 53.3 | 63.1 | 60.9 | 49.3 | 49.9 | 52.6 | 44.6 |

**Mənbə:** Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı, https://stat.gov.az/source/industry/ (18.04.2023)

The volume of freight and mail transported by air transport of Georgia amounted to 667.0 thousand tons in 2022 and the volume of freight and mail turnover amounted to 1 238.0 million. ton-kilometer. The mentioned indicators increased by 53.7 percent and by 52.3 percent compared to the previous year.

**Graph 7: Freight volume and freight turnover value**




Source: **(National Staytistics Office of Georgia, 2023)**

The chart below shows the percentage change of the volume of freight and mail transported by air

transport compared to the previous year:

**Graph 8: Percentage change of the volume of freight transported by air,compared to the previous year(%)**




Source: **(National Staytistics Office of Georgia, 2023)**

The airports of Georgia served 4 456.1 thousand passengers in 2022, which is 79.0 percent higher than the corresponding indicators of the previous year. During the mentioned period 2 196.1 thousand passengers arrived at the airports of Georgia (75.7 percent more than last year) and 2 260.0 thousand passengers departed from the airports (82.4 percent more than last year). As we can see, in 2012-13, the values of these indicators were very small, but it should be said that in 2014-2022, the average volume of transported cargo and cargo turnover increased by 58% annually.

The chart below shows the percentage change of the passengers traffic compared to the previous year:

**Graph 8: Percentage change of the passenger's traffic, compared to the previous year %**




Source: **(National Staytistics Office of Georgia, 2023)**

Volume of freight and main carried via airports of Georgia amounted 17.9 thousand tons in 2022 of which 83.2 percent is arrival and 16.8 percent - departure.

The number of flights amounted 21.5 thousand in 2022, which is 42.8 percent higher than the

corresponding indicator of the previous year.

When transporting passengers and cargo, foreign airlines are used unconditionally. According to the information of the Association of Georgian Airports, Georgian airlines unfortunately cannot play a leading role in terms of passenger transportation and cargo transportation.

**Graph 9: Airline operations in Georgia, %**




**Source**: https://www.airports.ge/index.php/en/statistics/air-carrier-traffic-at-georgian-airports/tbilisi-international-airport

It is interesting to see if there are trade relations with Azerbaijan by air, whether the air transportation is intensive or not. For this, we analyzed the dynamics of export and import and the commodity structure.

**Table 1: volume and percentage share of air exports to Azerbaijan air imports from Azerbaijan; (1000 USD. %)**

| | air exports | air imports | share of air exports in Azerbaijan's exports | share of air imports in Azerbaijan's imports |
|---|---|---|---|---|
| 2018 | 1516.15 | 1799.24 | 0.3% | 0.3% |
| 2019 | 3549.16 | 742.10 | 0.7% | 0.1% |
| 2020 | 1833.69 | 418.51 | 0.4% | 0.1% |
| 2021 | 929.96 | 383.28 | 0.2% | 0.1% |
| 2022 | 3345.70 | 571.15 | 0.5% | 0.1% |

**Source**: National Staytistics Office of Georgia, 2023

Most of them are exported from Georgia Fireworks, signalling flares, rain rockets and other pyrotechnic articles, Telephone sets, including telephones for cellular networks or for other wireless networks, etc. (See Table2)

**Table 2: Commodity structure of air exports to Azerbaijan,2022 (Thsd. USD)**

| Exported goods | **Thsd. USD** |
|---|---|
| Fireworks, signalling flares, rain rockets and other pyrotechnic articles | 832.71 |
| Telephone sets, including telephones for cellular networks or for other wireless networks | 692.82 |
| Spectacles, goggles and the like | 289.87 |
| Compasses; other navigational instruments and appliances | 280.00 |
| Instruments and appliances used in medicine | 252.50 |
| Automatic data processing machines and units thereof | 140.21 |
| Frames and muntings for spectacles or the like, and parts thereof | 101.85 |
| Medicaments put up in measured doses | 75.46 |
| Parts of aircrafts | 74.93 |
| Prepared unrecorded media for sound recording or recording of other phenomena | 63.02 |

Source: **(National Staytistics Office of Georgia, 2023)**

The most demanded imported products from Azerbaijan are: Instruments and appliances used in medicine, Automatic data processing machines and units thereof, Track suits, ski suits and swimwear etc. (See Table3)

**Table 3: Commodity structure of air imports from Azerbaijan,2022 (Thsd. USD)**

| imported goods | **Thsd. USD** |
|---|---|
| Instruments and appliances used in medicine | 137.91 |
| Automatic data processing machines and units thereof | 63.91 |
| Track suits, ski suits and swimwear | 59.87 |
| Instruments and apparatus for physical or chemical analysis | 51.01 |
| Machines and appliances for testing of the mechanical properties of materials | 21.96 |
| Parts and accessories for optical, medical and other machines or apparatus | 19.62 |
| Measuring or checking instruments, profile projectors | 18.32 |
| Mens or boys suits, ensembles, trousers, and shorts | 18.07 |
| Centrifuges; filtering or purifying machinery, for liquids or gases | 17.74 |
| Twine, cordage, ropes and cables | 17.00 |

Source: **(National Staytistics Office of Georgia, 2023)**

## Conclusions

- Analysis of foreign trade and tourism development trends has shown that air transport is becoming more relevant and intense annually;
- After the tourism rehabilitation and revival, the structure of international visitors has changed - the number of tourists entering by airways has increased;
- Although the share of air transport in trade relations is still small, its share of the share is increasing year by rate of share;
- In 2012-2022, passenger passenger traffic increased by an average of 1.3%annually;
- At the same time, the average annual growth rate for the number of passengers was 118% in 2012-2019, in 2020-2022 -114%. As a result of the shock influence of the pandemic, the rate of decrease in the number of on average in 2012-2022 was the rate 3% ;
- In the last five years, in 2018-2022, the range of passengers growth rates varied from 19.4%to -194.9%
- The volume aThe volume and cargo circulation of air transport is also increased systematically, although it should be noted that the values of these indicators in 2012-13 were very small, but the average of cargo and cargo turnover increased by 58%annually in 2014-2022.
- There is also a small air transport rate in the trade relations with Azerbaijan, which cannot reach 1%.

## References

Abesadze, N. (2014). Statistical Analysis Of The Economic Integration Of Georgia With The European Union And Prospects For Development. . Economics and Management, Vol.19, Issue 4, pp. 333-337.

Abesadze, N. (2015). The Statistic Indexes of Penetrating the Products Manufactured in Georgia into European Market. ICEM-2015, pp. 569-573. Elsevier.

Abesadze, N. A. (2015). Expected Trends In Trade Relations Between Georgia And The European Union. Folia, Econômica , Issue 81. pp. 3, 7-46.

Abesadze, N. a. (2022). Impact of Maritime Logistics on Statistical Characteristics of Foreign Trade Indicators of Georgia. Economics. Ecology. Socium, Vol.6, pp. 1-9.

Abesadze, N. K. (2021). The main challenges of cruise tourism and statistics of expectations in Georgia. MATEC Web of Conferences;. EDP Sciences., (pp. Vol.339. pp.1-7). Batumi.

Gaganidze, G. (2018). In Current issues of Georgia's export potential management. Tbilisi: Iv. Javakhishvili Tbilisi State University Publishing House. Retrieved from http://press.tsu.ge/data/image_db_innova/gaganidze-2-dasakabadonebeli1.pdf

Gaganidze, G. (2019). Growth Of Export: The Need to Create New Export Products. Joirnal Globalization and Business, Vol.7, 24-31.

https://www.airports.ge/index.php/en/statistics/air-carrier-traffic-at-georgian-airports/tbilisi-international-airport. (n.d.). Retrieved from: https://www.airports.ge/index.php/en/statistics/air-carrier-traffic-at-georgian-airports/tbilisi-international-airport.

National Statistics Office of Georgia. (2023). Retrieved from www.geostat.ge.

National Staytistics Office of Georgia. (2023). Retrieved from www.geostat.ge.

National Staytistics Office of Georgia. (2023). Retrieved from www.geostat.ge.

National Staytistics Office of Georgia. (2023). Retrieved from http://tourism.geostat.ge/.

# Davamlı İnkişaf Konsepsiyasının Azərbaycan Respublikasında və Avropada həyata keçirilməsi

**İsmayılova Türkanə Məmməd**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**ismayilova.turkane2@gmail.com**

## Xülasə

Yer kürəsində davamlı inkişaf konsepsiyasının həyata keçirilməsi həm Azərbaycan, həm də digər dünya ölkələrinin əsas məqsədlərindən biridir. Azərbaycanda və dünyada dayanıqlılığı inkişaf etdirmək üçün istehsal edilən məhsulların "yaşıl" iqtisadiyyata keçidi təmin olunmalıdır. Bu konsepsiyanın əsas istiqamətlərindən biri də suyun mühafizəsidir. Suyun zərərli birləşmələrdən qorunması, canlı aləmin yaşayışı üçün münbit zəmin yaradılması, suyun israfının qarşısının alınması, çirkab suların təmizləndikdən sonra su hövzələrinə axıdılmasının təmin edilməsi, istehsal müəssisələrində qapalı dövrə su sistemlərinin qurulması və s. aiddir. Avropa ölkələrində dayanıqlı inkişaf konsepsiyasının həyata keçirilməsi özünə məxsus yer tutur və buna başlıca misal olaraq tullantıların utilizasiya etdirilməsi, yəni onları istehsala yenidən qaytarılaraq ətraf mühitin çirkləndirilməsinin bir növ qarşısını almağa yönəldilmişdir. Qlobal iqtisadiyyatda sabit mövqeyə zəmanət verəcək iqtisadi rəqabət qabiliyyətinə və artıma nail olmaq keçmişdən bu günə qədər Avropanın əsas siyasət məqsədi olmuşdur. Bununla belə, genişlənmə strategiyası da dövrün dəyişən tələbləri ilə eyni vaxtda dəyişdi. Rəqabətli istehsal kapitalist sistemində indi məhsuldarlıq və rəqabətqabiliyyətlilik daha yüksək qiymətləndirilir.

**Açar Sözlər**: Davamlı inkişaf, Azərbaycan, Avropa İttifaqı, dayanıqlılıq, təbii sərvətlər.

## Abstract

Implementation of the concept of sustainable development on earth is one of the main goals of both Azerbaijan and other countries of the world. In order to develop sustainability in Azerbaijan and the world, the transition of manufactured products to the "green" economy should be ensured. One of the main directions of this concept is water conservation. Protection of water from harmful compounds, creation of a fertile ground for the living of the living world, prevention of water wastage, ensuring discharge of waste water into water basins after treatment, construction of closed loop water systems in production facilities, etc. belongs to. In European countries, the implementation of the concept of sustainable development has its own place, and the main example of this is the disposal of waste, that is, it is directed to a kind of prevention of environmental pollution by returning it to production. Achieving economic competitiveness and growth that will guarantee a stable position in the global economy has been the main policy objective of Europe from the past to the present day. However, the expansion strategy also changed along with the changing demands of the times. In a capitalist system of competitive production, productivity and competitiveness are now valued more highly.

**Key words**: Sustainable development, Azerbaijan, European Union, sustainability, natural resources.

## Giriş

Dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün köhnə enerji sistemi, eləcə də qlobal iqtisadi struktur dəyişdirilməlidir. Davamlılıq gündəliyinə əsaslanan hazırkı tədqiqatın əsas məqsədi 1998-2019-cu illər arasında Avropa İttifaqı üzvlərinin bərpa olunan enerji mənbələrinə keçidi, enerji patentləri, təbii ehtiyatlar və qeyri-müəyyənlik üçün proksi kimi ekoloji izlərdən istifadə etməklə davamlılıq tendensiyalarını araşdırmaqdır. Dəyişənlər arasında həm uzunmüddətli, həm də qısamüddətli əlaqələr kəsişən-avtoreqressiv-paylanmış gecikmə texnikasından istifadə edilərək araşdırılmışdır. İlkin nəticələrə görə, müvafiq olaraq, kəsikdən asılılıq, yamac əmsallarında dəyişkənlik, stasionarlıq xarakteristikaları

və panel kointeqrasiyası mövcuddur. Empirik tapıntılar enerji keçidinin və patentlərin uzunmüddətli ekoloji izlərin azaldılmasına və ətraf mühitin davamlılığına necə töhfə verdiyini daha da nümayiş etdirir. Digər tərəfdən, bərpa olunmayan enerji və təbii ehtiyatlar davamlılıq gündəliyinə mənfi təsir göstərir və ekoloji izdə uzun və qısamüddətli artıma malikdir. Artırılmış Orta Qrup və Ümumi Əlaqəli Effektlər Orta Qrup qiymətləndiricilərindən istifadə edərək möhkəmlik yoxlaması da nəticələrin ardıcıl olduğunu göstərir. Hesabatda tövsiyə edilir ki, Birləşmiş Millətlər Təşkilatının müəyyən etdiyi davamlılıq məqsədlərini dəstəkləmək üçün Avropa Birliyi ölkələri bərpa olunmayan enerji mənbələrindən təmiz enerji mənbələrinə keçidi təşviq etməyə davam etsinlər (Chen, Huang, Kamran, 2023)

Təbiətin assimilyasiya potensialı çərçivəsində iqtisadi artım templərinin təbii ehtiyatların təkrar istehsalı templəri və ətraf mühitin keyfiyyətinin təkrar istehsalı templəri ilə balanslaşdırılmasını nəzərdə tutan davamlı inkişaf modeli Azərbaycan üçün aktualdır. Balanslaşdırılmış iqtisadiyyat isə öz növbəsində onu balanslaşdırılmış material axınlarına malik ekoloji və iqtisadi sistem kimi nəzərdən keçirmək deməkdir. Bu gün Azərbaycanda "yaşıl" mal və xidmətlərin alınması, eləcə də milli təchizatçılar tərəfindən müvafiq "yaşıl" tariflə böyük həcmdə bərpa olunan enerji mənbələrinin alınması müzakirə olunur. 2014-2018-ci illər üçün davamlı regional inkişaf dövlət proqramına uyğun olaraq ekoloji təmiz məhsulların istehsalına və etiketlənməsinə dair tələbləri nəzərə alan texniki reqlamentlər hazırlanıb. Eyni zamanda, orqanik məhsullar istehsal edən təşkilatlara maliyyə dəstəyi (subsidiya) mexanizmləri hazırlanmışdır.

Tədqiqatın əsas məqsədi ətrafı mühitin keyfiyyətinin yaxşılaşdırılması üçün müəyyən addımların atılmasına kömək etməkdən ibarətdir.

Yaşadığımız mühitin daha sağlam mühit halına gətirilməsi, təbiətdən əldə etdiyimiz sərvətlərə sahib çıxaraq onlardan kortəbii istifadənin qarşısını almaq, təbiətə hər hansısa bir xələl yetirmədən gələcək nəsillərə ötürülməsi tədqiqatın vəzifələrindəndir.

Tədqiqat aparılarkən bir çox metodlardan-sintez, abstraktlaşdırma, induksiya və deduksiya, riyazi metodlardan istifadə olunmuşdur.

Tədqiqat aparılarkən bir sıra məhdudiyyətlərlə qarşı-qarşıya qalınmışdır ki, bunlara misal olaraq Avropa ölkələri haqqında məlumat axtarılarkən ümumi Avropa ölkələri haqqında məlumatın daha dar olmasından ibarət idi. Məlumatlar müəyyən ölkələr üzrə sistemləşdirilmişdir.

Tədqiqat yazılması zamanı daha çox xarici mənbələrdən istifadə olunmuşdur. Bu kimi mənbələrə həm yerli, həm də xarici müəlliflərin müxtəlif xarici jurnalda dərc olunmuş məqalələrindən, müxtəlif internet resurslarında, Azərbaycan Respublikasında qəbul edilmiş bir sıra qanunları göstərə bilərik.

**Azərbaycanda Dayanıqlı İnkişafın Təhlili**

Bildiyimiz kimi bəşər sivilizasiyasının dayanıqlılığı Yerin təbii ehtiyatlarının tükənməsi, əhalinin sayının sürətlə artması, rəqabətədavamlı iqtisadiyyatın bəzi mənfi təsirləri və qloballaşmaya görə yol ayrıcındadır. Siyasətçilər, elm adamları və yerli qruplar xəbərdarlıq ediblər ki, insanlar geniş yayılmış davranışlarını dəyişməli və cavab olaraq davamlı inkişaf ideyasını qəbul etməlidir (Liu, Leng, He, Peng, Piao, Wang, 2019). Davamlı inkişafın müzakirəsi ilk olaraq akademik dairələrdə aparıldı, sonra nəzəriyyələr dünya ictimaiyyətinə təqdim edildi. "Dayanıqlı inkişaf" ifadəsini müəyyən etmək üçün çoxlu cəhdlər edilmişdir. Ən çox yayılmış anlayış "dayanıqlı"nın "iqtisadi" ilə eyni olması anlayışıdır (Burns, 2016). Davamlı inkişaf məqsədlərinə nail olmaqda ən mühüm aspekt sənaye tullantılarının

utilizasiya edilməsi, yəni təkrar emalı və təkrar istifadəsidir. Günəş və külək enerjisi kimi bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməli və enerji ekoloji cəhətdən faydalı hesab edilməlidir (Malekpour, Brown, Haan, 2017).

Dayanıqlı inkişaf prinsiplərinin həyata keçirilməsinin cari mərhələsinin başlanğıcı Azərbaycan Prezidentinin 2011-ci il 29 noyabr tarixli "Azərbaycan 2020: gələcəyə baxış" konsepsiyasının hazırlanması haqqında" 2020-ci ilə qədər olan dövr üçün Fərmanı ilə qoyulub (Azərbaycan Respublikasının No.678 Qanunu).

O, iqtisadi, sosial və ekoloji komponentlərin geniş birləşməsini ehtiva edir və Azərbaycan iqtisadiyyatının davamlı inkişaf prinsiplərinə uyğun inkişaf etdiyini təmin edir. Hazırda ölkədə sosial və ekoloji problemlərlə bağlı 60-dan çox dövlət proqramı həyata keçirilir. Azərbaycan həm ümumi iqtisadiyyatda, həm də onun bir neçə sektorunun hər birində artım, davamlı inkişaf və ətraf mühitin qorunması üçün geniş planlar yaradır. "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında yaşıl iqtisadiyyatın yaradılması, dayanıqlı istehlak və istehsal strategiyaları üzrə əsas vəzifələr öz əksini tapıb. İnkişaf Konsepsiyasının uzunmüddətli hədəflərinə səmərəli dövlət tənzimlənməsi və bazar qarşılıqlı fəaliyyətinə əsaslanan iqtisadi modelin yaradılması, dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi, iqtisadiyyatın strukturunun gücləndirilməsi, elmi potensialın və innovasiyaların təşviqi, nəqliyyat infrastrukturunun, xüsusilə də regional inkişaf və ətraf mühitin qorunması üçün tranzit və logistikanın gücləndirilməsi, balanslaşdırılmış nəqliyyatın təşviqi daxildir. Azərbaycanda təbii sərvətlərin idarə edilməsi icazələr, o cümlədən atmosferə çirkləndiricilərin atılmasına icazələr, kompleks ekoloji icazələr, tullantıların saxlanması və yerləşdirilməsi üçün icazələr, su ehtiyatlarından xüsusi istifadə üçün icazələr əsasında həyata keçirilir. Beynəlxalq standartların vaxtında tətbiqi istiqamətində aparılan diqqətli iş ölkənin qlobal bazarda iştirakına, eləcə də ətraf mühitin yükünü azaltmağa və təbii sərvətlərdən daha səmərəli istifadə etməyə imkan verir. Azərbaycanda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Departamenti tərəfindən təsdiq edilmiş istismar icazəsi sistemindən istifadə olunur. İri layihələr üçün icazələr də ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə beynəlxalq səviyyədə tanınmış metodologiya və prosedurlar əsasında verilir, onlar milli tənzimləyici qərarların qəbulu sisteminə inteqrasiya olunur (Azərbaycan: Ekoloji vəziyyət, 2020). Azərbaycanda istehsal olunan və bazara çıxarılan mal və xidmətlər üçün ekoloji standartlar yaradılır.

Azərbaycanda "yaşıl" mal və xidmətlərin alınması, eləcə də milli təchizatçılar tərəfindən müvafiq "yaşıl" tariflə bərpa olunan enerji mənbələrinin böyük həcmdə alınması geniş müzakirə olunur. Azərbaycanda ətraf mühitin dəstəklənməsi və keyfiyyətinin yaxşılaşdırılmasına, milli və xarici investisiyaların cəlb edilməsinə yönəlmiş yeni texnologiyaların tətbiqi üçün stimullaşdırıcı tədbirlərin (maliyyə, kredit, amortizasiya və s.) tətbiqi imkanları nəzərdən keçirilir. Dövlət milli iqtisadiyyatın texnoloji imkanlarını və ekoloji prinsiplərini artırmaq üçün beynəlxalq texniki yardım cəlb etməyə çalışır. 2014-2018-ci illər üçün davamlı regional inkişaf üzrə milli proqrama əsasən, Azərbaycanda ekoloji təmiz məhsulların istehsalına və etiketlənməsinə dair tələblər nəzərə alınmaqla texniki reqlamentlər hazırlanıb. Eyni zamanda, orqanik məhsullar istehsal edən təşkilatlar üçün maliyyə dəstəyi (subsidiya) mexanizmləri hazırlanmışdır (Azərbaycan Respublikasının No.840 Qanunu)

Kreativ idarəetmə ideyaları Azərbaycanın əsasını təşkil edir və bu hərəkat ölkənin dayanıqlı yaşıl iqtisadiyyata keçidinin təməl daşıdır. Bu mənada, dövlətdə davamlı idarəetməyə nail olmaq və inklüziv cəmiyyət qurmaq həm davamlı su idarəçiliyindən asılıdır.

Son illər Azərbaycanda bir sıra mühüm qərarlar qəbul edilib ki, bu da ölkənin su ehtiyatlarından istifadənin optimallaşdırılması və mühafizəsinin gücləndirilməsi üzrə vəzifələri müəyyən edir. Su ehtiyatlarından istifadə və mühafizə sahəsində dövlət siyasəti ilk növbədə əhalinin məişət içməli ehtiyaclarını təmin etməkdən və su ehtiyatlarından kompleks istifadədən ibarətdir. Milli iqtisadiyyatın bütün sahələrinin maraqlarını nəzərə alan dövlət siyasəti. Əsas vəzifələr suyun lüzumsuz itkisinin qarşısını almaq, ondan daha yüksək təkrar istifadəni təmin etmək, çayların və su obyektlərinin çirklənməsini ən aşağı, demək olar ki, əhəmiyyətsiz səviyyəyə çatdırmaq, suyun zədələnməsinə və ya yarada biləcək dağıdıcı qüvvələrinə nəzarət tədbirlərinin görülməsindən ibarətdir (Azərbaycan Elmlər Akademiyası, 2021). Aşağıdakı cədvəldə bir sıra qanunlar və qəbul olunduqları il göstərilmişdir.

**Cədvəl 1. Əsas ətraf mühit qanunları**

| **Qanunvericilik aktları** | **Qəbul olunma ili** |
|---|---|
| Sanitar-epidemioloji təhlükəsizlik qanunu | 1992 |
| Radioaktiv Tullantılar Qanunu | 1994 |
| Əhalinin Radiasiya Təhlükəsizliyi Qanunu | 1997 |
| Su Məcəlləsi | 1997 |
| Sənaye və Məişət Tullantıları Qanunu | 1998 |
| Ətraf mühitin qorunması haqqında qanun | 1999 |
| Torpaq Məcəlləsi | 1999 |
| Ətraf mühitin təhlükəsizliyi haqqında qanun | 1999 |
| Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri və Obyektləri haqqında Qanun | 2000 |
| Torpağın məhsuldarlığı haqqında qanun | 2000 |
| Atmosferin qorunması haqqında qanun | 2001 |

**Mənbə**:Azərbaycan Ekologiya və Təbii sərvətlər Nazirliyi http://eco.gov.az

Çərçivə qanunvericiliyinin və əsas prosedurların işlənib hazırlanması, əsas ekoloji sahələrin, xüsusən də milli fəaliyyət planlarına daxil edilmiş havanın keyfiyyəti, suyun keyfiyyəti, tullantıların idarə edilməsi və ətraf mühitin mühafizəsi ilə bağlı planların təmin edilməsi Avropa standartlarına uyğunlaşma prosesinin bütün addımlarıdır (Əhmədov, 2017).

## Avropada Dayanıqlı İnkişafın Təhlili

Avropa iqtisadiyyatı son on ildə böyük sarsıntılar yaşadı. Əsas və periferik ölkələr arasında fərqlər və asimmetrik strukturlaşma 2008-ci ildə qlobal iqtisadi böhranın avro bölgəsinə təsirindən sonra ortaya çıxdı. Böhran zamanı bu fərqləri və Avropanın hazırda yaşadığı iqtisadi darboğazı aradan qaldırmaq üçün müxtəlif mexanizmlər işlənib hazırlanmışdır. İqtisadi və Valyuta İttifaqı uyğunlaşmanın zəruriliyini vurğuladı və Avropa üçün məhsuldarlıq, səmərəlilik, rəqabət və artım oxlarında üzv ölkələrin siyasi iqtisadi institutlarını bir-biri ilə əlaqələndirmək əsas prioritet oldu. Avropanın iqtisadi problemlərini həll etmək üçün rəqabət və bazar səmərəliliyi ideyalarına diqqət daha da genişlənib. Mənfəəti maksimuma çatdırmağı qarşısına məqsəd qoyan kapitalist istehsal üsulu əmək və kapital arasındakı qarşıdurmanı qidalandırarkən, maliyyə böhranından sonra qəbul edilən bərpa strategiyaları bazarlar üçün təhlükəyə qarşı çıxmaq üçün məhsuldarlıq və artımdan istifadə edərək neoliberal bazar ideallarını gücləndirməyə

çalışdı. Bu konsolidasiya nəticəsində yeni məqsədlər və alətlər yaratmaqla Avropa kapitalizmi 2008-ci il maliyyə böhranından çıxa bildi. Artım və rəqabət oxlarına əsaslanan iqtisadi siyasət həm üzv dövlətlər arasında əlaqələri, həm də yeni alətlərdən istifadə etməklə iqtisadiyyatı dəyişdirdi (Duman, 2022).

Lissabon Strategiyası, Avropa 2020 və ən son Avropa Yaşıl Konsensusu minilliyin əvvəlindən bəri Avropanın inkişaf planı üçün təlimatlar təqdim etmişdir. Bu planlar Avropanın unikal dəyərlərini nəzərə alaraq rəqabət qabiliyyətini inkişaf etdirmək və Avropanı qlobal səhnəyə yüksəltmək məqsədini bir daha təsdiqlədi. Bugünkü Avropa kapitalizmi, qlobal ekoloji narahatlıqlar kontekstində yeni inkişaf strategiyasına ehtiyacı vurğulaması ilə əvvəlkilərdən fərqlənən Avropa Yaşıl Konsensusu ilə idarə olunur. Konsensus, rəqabətə davamlılığın ətraf mühitin mühafizəsi tədbirləri ilə uyğunlaşan iqtisadi artıma imkan verə biləcəyi anlayışına əsaslanan Avropa üçün yeni inkişaf strategiyasını ifadə etdi. Avropada yeni artım strategiyasının Avropa daxilində koordinasiya prosesi Avropa Semestri və Bərpa və Dayanıqlılıq İmkanı tərəfindən dəstəklənib, faktiki olaraq rəqabət davamlılığı məqsədini tamamlayır. Bu üsulların istifadəsi ilə iqtisadi yenidənqurma planları, xüsusən də Covid-19-dan sonrakı böhran dövründə etibarlılıq qazandı.

Avropa İttifaqı davamlı inkişafa yüksək prioritet verir. Avropa İttifaqı 2050-ci ilədək iqlim neytrallığına nail olmaq üçün Avropa Yaşıl Sövdələşmə adlı hərtərəfli plan hazırlayıb. Yeni iş yerləri və biznes imkanları yaratmaqla, eyni zamanda istixana qazı emissiyalarını azaltmaqla bu yanaşma Avropa İttifaqı iqtisadiyyatını ekoloji cəhətdən təmiz və davamlı iqtisadiyyata çevirməyə çalışır.

Avropa Yaşıl Sazişinə bir sıra mühüm təşəbbüslər daxildir, məsələn:

İqlim Fəaliyyəti: 2030-cu ilə qədər Avropa İttifaqı istixana qazı emissiyalarını 1990-cı il səviyyəsindən ən azı 55% azaltmağı vəd edir. Bu, davamlı nəqliyyatın təşviqi və daha çox bərpa olunan enerji mənbələrindən istifadə kimi müxtəlif addımların atılması ilə həyata keçiriləcək.

Avropa Birliyi tullantıların azaldıldığı, resursların ağıllı şəkildə istifadə edildiyi və əşyaların təkrar emal olunmaq, təmir edilmək və ya təkrar istifadə olunmaq üçün edildiyi "dairəvi iqtisadiyyat" qurmaq istəyir. Bu, istehsal və istehlakın ətraf mühitə mənfi təsirlərini minimuma endirməklə yanaşı, iqtisadi perspektivləri artıracaqdır.

Biomüxtəliflik: 2030-cu ilə qədər Avropa İttifaqı quru və dəniz bölgələrinin 30%-nin mühafizə altında qalacağına ümid edir. Avropa İttifaqı biomüxtəlifliyin qorunmasına və bərpasına həsr olunub. Bu, çirklənməni azaltmaq, dayanıqlı kənd təsərrüfatını təşviq etmək və yaşayış yerlərini bərpa etmək üçün addımların atılmasını tələb edəcəkdir.

Qida istehsalının ətraf mühitə təsirinin azaldılmasına, dayanıqlı kənd təsərrüfatının təşviqinə və istehlakçılara savadlı qərarlar qəbul etmələrinə kömək etmək üçün qida etiketlənməsinin gücləndirilməsinə diqqət yetirməklə, Avropa İttifaqının Farm to Fork Strategiyası davamlı və sağlam qida sistemi yaratmağa çalışır.

Ətraf Mühit, Sosial və İdarəetmə Riskləri və Təsirlərinin Açıqlanması: Avropa İttifaqı Ətraf Mühit, Sosial və İdarəetmə risklərinin və təsirlərinin açıqlanmasını dəstəkləyir və davamlı layihə və fəaliyyətlərə investisiyaları təşviq edir (Europen Commission, 2022).

Paolo Gentiloni hesabatda Avropanın Yaşıl Sövdələşməsi (iqlimdən neytral olan ilk qitə olmaq cəhdi) və İqlim Qanunu (2050-ci ilə qədər xalis sıfır istixana qazı emissiyalarının qanuni olaraq məcburi hədəfini müəyyən edir) (Europen Commission).

O, həmçinin gələcək nəsillərin ehtiyaclarının davamlı inkişafın ayrılmaz hissəsi olduğunu qəbul etdi və 2022-ci ili "Avropa Gənclər İli" elan etdi (Europen Commission, 2022).

"Daha yaxşı və davamlı gələcəyə nail olmaq üçün yerli, regional və millidən tutmuş Avropaya qədər bütün səviyyələrdə tədbirlər lazımdır. Harada durduğumuzu bilmək, ən aktual dayanıqlılıq problemlərini müəyyənləşdirmək və fəaliyyətimizi tənqidi şəkildə yoxlamaq davamlı dünyada davamlı Avropanı təmin etmək üçün vacibdir", - Paolo Gentiloni yekunlaşdırır (Europen Commission,2022).

**Nəticə və Təkliflər**

Tədqiqat aparılarkən Dayanıqlı İnkişaf Konsepsiyasınn Azərbaycan və Avropada qəbul edilmə proritetləri göstərilmişdir. Alınan nəticələr aşağıda göstərilmişdir:

1. Azərbaycan Ümumi iqtisadiyyatda və onun bir çox sektorunun hər birində ətraf mühitin qorunması üçün, artım və davamlı inkişaf üçün geniş plan yaradır.
2. Bərpa olunan enerji mənbələrindən ( nümunə kimi günəş və külək enerjisini demək mümkündür) istifadə miqyası genişləndirilərək ekoloji təhlükəsizliyin qarşısının alınması ilə ekoloji cəhətdən təmiz enerjidən istifadə etmək mümkündür.
3. Elm adamları və siyasətçilər ciddi xəbərdarlıqla bildiriblər ki, insan geniş yayılmış zərərli davranışını dəyişməli, insanların və digər canlıların yaşaya biləcəyi münbit şəraitin yaradılmasını və qorunub saxlanılmasını təmin etməlidir ki, bu da dayanıqlılığın əsas məqsədlərindəndir.
4. Avropa İttifaqı ölkələrində davamlı şəhərlərin salınması, ətraf mühitin qorunmasına xidmət edən müəssisələrin fəalliyət göstərməsi, təmiz məhsul istehsalı və bunun kimi digər göstəricilər Dayanıqlı İnkişaf Konsepsiyasının bu ərazilərdə nə qədər ciddi mənimsənildiyinin göstəricisidir.
5. Azərbaycan Respublikasında dayanıqlı inkişafın təmin edilməsi qanunvericiliklə qəbul edilmiş bir sıra qanunlar-Sanitar-epidemioloji təhlükəsizlik qanunu; Radioaktiv Tullantılar Qanunu; Əhalinin Radiasiya Təhlükəsizliyi Qanunu; Su Məcəlləsi; Sənaye və Məişət Tullantıları Qanunu; Ətraf mühitin qorunması haqqında qanun; Torpaq Məcəlləsi; Ətraf mühitin təhlükəsizliyi haqqında qanun; Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri və Obyektləri haqqında Qanun; Torpağın məhsuldarlığı haqqında qanun; Atmosferin qorunması haqqında qanun vasitəsi ilə tənzimlənir.
6. Bərpa olunan enerji mənbələrinə keçid, təbii ehtiyatlardan səmərəli istifadə və alternativ enerji mənbələrindən istifadə edərək ətraf mühitin vəziyyətini yaxşılaşdırmaqla dayanıqlı inkişafı təmin etmək mümkündür.

Tədqiqatın nəticələri əsasında göstərilən təkliflər bunlardır:

1. Gələcəyə yönləndirilmiş texnologiyalardan-təbiətin mühafizəsinə yönləndirilmiş texnologiyaların istifadəsinə üstünlük vermək lazımdır. Çünki təbiətə edilən hər bir təsir əks təsir olaraq geri dönür.
2. Azərbaycan və həmçinin Avropa ölkələrində Dayanıqlı İnkişafın təmin edilməsi məqsədi ilə bir sıra beynəlxalq əməkdaşlıq edilməli və qəbul edilən qərarlara əməl olunması üçün maksimum səy göstərilməlidir.

3. Dayanıqlılığın təmin edilməsi məqsədi ilə təbiətdən əldə olunan təbii sərvətləri qənaətlə istifadə edilərək onun gələcək nəsillərin hüquqlarının qorunması üçün kompleks istifadə yöntəmlərindən istifadə olunması daha məqsədə uyğundur.
4. Dayanıqlı inkişafı artırmaq üçün iqtisadi və ekoloji sistem üzərində kompleks şəkildə yeni balanslaşdırılmış iqtisadiyyat olaraq çalışılmalıdır.
5. Dayanıqlı inkişafın araşdırılması, problemin qoyulması və həll edilməsi üçün məlumat kasadlılığının aradan qaldırılaraq, müxtəlif, dəqiq və yenilənmiş məlumatı əl çatan etmək inkişafı sürətləndirməklə yanaşı dayanıqlı inkişafla bağlı problemləri minimuma endirməyə gözlə görüləcək qədər təsir edəcəkdir.

**Ədəbiyyat Siyahısı**


Azərbaycan Respublikasının No.678 Qanunu "Ətraf mühitin Qorunması". (1999, İyun)

Azərbaycan: Ekoloji vəziyyət. (2020). https://azerbaijan.az/ru/related-

https://azerbaijan.az/ru/related- information/239

Azərbaycan Respublikasının No.840 Qanunu "Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri və Obyektləri haqqında". (2000, Mart)

https://online.zakon.kz/Document/?doc_id=30608980.

Azərbaycan Elmlər Akademiyası. Azərbaycanın su ehtiyatlarından kompleks istifadə və mühafizə məsələləri.

Azərbaycan Ekologiya və Təbii sərvətlər Nazirliyi- http://eco.gov.az

Ələkbərov.U. (2017) Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları 119-123

Əhmədov.E. (2020) Water resources management to achieve sustainable development in Azerbaijan, Sustainable Futures, Vol.2 (məqalə)

https://www.timeshighereducation.com/hub/p/sustainable-development-azerbaijan

https://s3.amazonaws.com/sustainabledevelopment.report/2021/Europe+Sustainable+Development+Report+2021.pdf

Jie Chen, Shoujun Huang, Hafiz Waqas Kamran, (2023), Empowering sustainability practices through energy transition for sustainable development goal 7: The role of energy patents and natural resources among European Union economies through advanced panel, Energy Policy, Vol.176, (məqalə)

Elshan Ahmadov, Smart water management in planning sustainable development. Proceedings of the "Man and Biosphere (MaB, UNESCO) Azerbaijan National Committee. Annual Edition/Ecological Civilization, Sustainable Development, Environment, Təhsil (2017), pp. 129-141

Liu.H., Leng.S., He.C., Peng.J., Piao.S., Wang.X. (2019). China's road towards sustainable development: Geography bridges science and solution. Progress in Physical Geography: Earth and Environment, Vol.43(5), 694-706.

Burns.T.R. (2016). Sustainable development: Agents, systems, and the environment. Current Sociology, Vol.64(6), 875–906.

Malekpour.S., Brown.R.R., de Haan.F.J. (2017). Disruptions in strategic infrastructure planning – What do they mean for sustainable development? Environment and Planning C: Politics and Space, Vol.35(7), 1285–1303.

https://commission.europa.eu/business-economy-euro/banking-and-finance/sustainable-finance_en

Özgün Sarımehmet Duman (2022), Avrupa'da rekabetçi sürdürülebilirliğin politik aracı: ufuk avrupa programı, Ankara Avrupa Çalışmaları Dergisi, Cilt:21, No:1, s.225-255

Eurofound. "Lisbon Strategy", 2021 http://www.eurofound.europa.eu/areas/industrialrelations/dictionary/definitions/lisbonstrategy.htm

# Azərbaycanda Büdcə Kəsiri və Dövlət Borcunun Səmərəli İdarə Edilməsi Məsələləri

**İsgəndər Babazadə**

**AMEA İqtisadiyyat İnstitutu**

**isgender618@mail.ru**

## Xülasə

Ölkələrdə büdcə gəlirləri, büdcə xərcləri, dövlət borcu və büdcə kəsiri göstəriciləri ilə bağlı məhdudlaşdırıcı qaydalar mövcuddur ki, bu qaydalarla planlaşdırılan göstəricilərin gözlənilən səviyyədə olması təmin edilir və gələcəkdə baş verə biləcək böhranlar qarşısında dövlət sektorunda maliyyə dayanıqlılığı gücləndirilir. Dövlət borcu və büdcə kəsiri üzrə qaydaların olması ilə birbaşa olaraq xaricdən cəlb edilən kreditlərin həcminin genişlənməsinin, o cümlədən dövlət sektorunda formalaşmış dövlət borcunun səviyyəsində olan artımın qarşısı alınır. Bu göstəricilər arasında əlaqə var ki, bu əlaqə üzrə təhlillərin edilməsi olduqca vacibdir. Bu göstəricilərin düzgün təyin edilməsi baxımından xarici metodologiyalardan da istifadə etmək başqa bir hədəf olmalıdır. Bütün hallarda Azərbaycan üçün ən vacib məqam odur ki, ortamüddətli dövr üzrə büdcə siyasətini səmərəli təşkil etməklə, büdcə kəsirini və dövlət borclanmasını idarə olunan səviyyədə saxlamaqla büdcə tarazlığına, makroiqtisadi və fiskal dayanıqlığa nail olsun. Bu məqsədə çatmaq üçün təkmilləşdirilmiş büdcə qaydasına və yenilənmiş borclanma strategiyasına əsaslanan makrofiskal çərçivənin formalaşdırılması ortamüddətli büdcə siyasətinin əsas istiqamətlərindən biri olmalıdır. Məqalədə Azərbaycanda dövlət borcunun, büdcə kəsirinin idarə edilməsi baxımından təhlillər aparılmış, ümumiləşdirilmələr edilmiş və müvafiq təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** büdcə kəsiri , dövlət borcu , fiskal qaydalar, dövlət sektoru .

## Abstract

In countries, there are restrictive rules regarding budget revenues, budget expenditures, indicators of public debt and budget deficit, which ensure compliance of planned indicators with the expected level and strengthen the financial stability of the public sector in the face of crises that may arise in the future. The rules on public debt and budget deficit prevent the expansion of the volume of loans directly attracted from abroad, including the increase in the level of public debt formed in the public sector. There is a relationship between these indicators, which is very important to analyze. The second goal should be the use of external methodologies from the point of view of the correct definition of these indicators. In all cases, the most important moment for Azerbaijan is the achievement of a balanced budget, macroeconomic and fiscal stability due to the effective organization of budget policy in the medium term, keeping the budget deficit and state borrowing at a manageable level. To achieve this goal, the formation of a macro-fiscal basis based on an improved budget rule and an updated borrowing strategy should become one of the main directions of the medium-term budget policy. In the article, analyzes were conducted, generalizations were made, and relevant proposals were made for managing debt and budget deficit in Azerbaijan.

**Key words:** budget deficit, public debt, fiscal rules, public sector

## Giriş

Resursdan asılılığı yüksək olan büdcənin resurs qiymətlərindən asılı olaraq tez-tez dəyişdirilməsi "protsiklik" büdcə siyasətidir ki, Azərbaycanda müxtəlif illərdə məhz bu siyasətdən istifadə edilmişdir. Bu baxımdan, büdcə gəlirləri təbii resurslardan formalaşan ölkələrdən biri olan Azərbaycan üçün fiskal qaydaların tətbiqini olduqca önəmli məsələ hesab etmək olar. **Fiskal qayda** deyildikdə büdcə parametrlərinə rəqəm limitlərinin tətbiqi vasitəsilə fiskal siyasətə uzunmüddətli məhdudiyyətlərin qoyulması nəzərdə tutulur

(https://eurasiahub.khazar.org/uploads/newsletters/AZ_Fiskal_Qaydalar.pdf). Aşkardır ki, təbii resurslar satıldığı dünya birjalarında qiymətlər yüksək volatilliyə malikdir və dövri olaraq bu bazarlarda qiymətlərin kəskin qalxıb-enməsi baş verir. Yüksək neft qiymətlərinin mövcud olduğu şəraitdə böyük xərcləmələr resurslardan səmərəsiz istifadə riskini artırır, aşağı qiymətlər şəraitində isə büdcə xərclərinin kəskin azalması iqtisadiyyatda ciddi sarsıntılar yarada bilər. Qeyd edilən yuxarıdakı vacib məsələlər fonunda fiskal qaydaların tətbiqi protsiklik xərc siyasətindən qaçmaq üçün mühüm mexanizm olaraq diqqəti çəkməkdədir. Son illərin təcrübəsi göstərir ki, böhran zamanı gəlirlərin azalmasının mənfi makroiqtisadi fəsadlarını azaltmaq üçün hökumət bir çox hallarda xərclərin sekvestri barədə qərar qəbul etmişdir və burada əsasən büdcə xərcləri üzrə investisiya xərclərinin ixtisarına üstünlük verilmişdir.

2006-2021-ci illərdə neftin dünya bazar qiymətlərinin dinamikasından asılı olaraq büdcə xərclərinin illik artımında 75-80%-ə qədər artım olsa da, xərclərin illik azalması halları da kifayət qədər müşahidə edilmişdir. Devalvasiyadan sonrakı dövrdə büdcə xərcləri üzrə yenidən dinamik artım olsa da, qeyri-neft sektoru üzrə mütənasib səviyyədə artım müşayiət olunmamışdır. Belə ki, 2019-cu ildə büdcə xərclərinin 2017-ci illə müqayisədə təxminən 39,0 % , o cümlədən, əsaslı xərclərin 1,8 dəfə artırılmasına baxmayaraq, 2017-2019-cu illərdə ÜDM-in orta illik real artımı 1,4 %, qeyri-neft ÜDM-in orta illik real artımı isə cəmi 2,9 % təşkil etmişdir.

Azərbaycanda büdcə xərclərinin ÜDM-in dəyişiminə təsirinin zəifliyi fonunda onu da qeyd edək ki, büdcə xərcləri üzrə investisiya xərclərinin (dövlət əsaslı vəsait qoyuluşu) idarəçiliyində ciddi nöqsanlara yol verilmiş, büdcə planlaşdırılmasında investisiya xərcləri uzunmüddətli büdcə planlaşdırılması ilə əlaqələndirilməmiş, investisiya xərclərinin planlaşdırılmasında uzunmüddətli xərc öhdəliklərinin yaradılması praktikasından istifadə edilməmiş, büdcənin icrası üzrə maliyyə menecmenti səmərəli təşkil edilməmişdir. Büdcə investisiyaları və əsaslı xərclər elə bir xərclərdir ki, bu xərclərlə bina və tikililərin qurulması, maşın və avadanlıqların alınması, daha dəqiq deyilsə, büdcə hesabına iqtisadiyyat üçün əsas fondların yaradılması təmin edilir. Xərcləmələrin proqnozlaşdırılması ilə bağlı Dünya Bankının nümayəndələri Azərbaycanda büdcə xərcləri üzrə prioritetləşmə probleminin olduğunu vurğulamış və ortamüddətli büdcənin hazırlanmasında bəzi çatışmazlıqları qeyd etmişlər (IMF, 2009). Onlar belə qənaətə gəlmişdilər ki, hökumətin reallaşdırdığı böyükhəcmli investisiya proqramları onun icra qabiliyyəti ilə eyni səviyyədə deyildir. Büdcə təzyiqləri investisiya proqramlarının icrası zamanı daha yaxşı aparılan prioritetləşdirmənin tətbiqi ilə azaldıla bilər. Büdcəyə daha çox strateji məzmun əlavə edilməlidir və bunun üçün 5 yaxud 10 illik ətraflı strateji çərçivə sənədinin yaradılması faydalı olacaqdır.

Fiskal qaydalar adətən fiskal məsuliyyəti və borc dayanıqlılığını təmin etmək üçün artıq xərcləmənin (xüsusən iqtisadi inkişaf dövrlərində) qarşısını almaq məqsədi daşıyır. Beynəlxalq təcrübədə fiskal qaydaların 4 növü mövcuddur: büdcə balansı qaydası, borc qaydası, xərc qaydası və gəlir qaydası.

Ölkələr müxtəlif fiskal qaydalardan istifadə etməkdədir (Cədvəl 1.) (https://www.pempal.org/ru/events/годовое-пленарное-заседание-бюджетного-сообщества-и-встреча-рабочей-группы-«повышение) .

Lakin büdcə balansı qaydası və borc qaydası ən çox istifadə olunan qaydalar sırasındadır. Xərc qaydası ilə bağlı məhdudiyyətlərin də istifadəsi kifayət qədər aktualdır. Məsələn, Xorvatiyada dövlət büdcəsi xərclərinin artım tempi proqnozlaşdırılan nominal ÜDM-in artım templərini üstələməməlidir. Bu məsələ fonunda onu qeyd edək ki, neft qiymətlərinin yüksək olduğu zaman Azərbaycanda büdcə xərclərinin illik artım tempi bəzən elə bir göstəricilərlə ifadə olunmuşdur ki, burada iqtisadiyyatın artım tempi (ÜDM-in nominal artım tempi) büdcə xərclərinin artım tempindən əhəmiyyətli dərəcədə

geri qalmışdır. Məsələn, 2018-ci ildə büdcə xərclərinin illik artım tempi nominal ÜDM-in artım tempini (29,2 %-13,9% = 15,3 %) 15,3 % bənd üstələmişdir. Büdcə xərclərinin artım tempinin ÜDM-in nominal artım tempini üstələməsi onu göstərir ki, büdcə iqtisadiyyatdan daha sürətlə artır ki, bu arzuolunan hal deyil.

**Cədvəl 1. Müxtəlif ölkələrdə istifadə olunan fiskal qaydalar**

| Ölkələr | Xərc qaydası | Gəlir qaydası | Büdcə balansı qaydası | Borc qaydası |
|---|---|---|---|---|
| Belarus | X | X | X | X |
| Bosniya və Herseqovina | X | | X | X |
| Bolqarıstan | X | X | X | X |
| Xorvatiya | X | | X | |
| Gürcüstan | X | X | X | X |
| Qırğızıstan | | | | X |
| Makedoniya | | | X | X |
| Moldova | | | X | |
| Çernoqoriya | | | X | X |
| Rumıniya | X | X | X | X |
| Rusiya | X | X | X | |
| Serbiya | | | X | X |
| Tacikistan | X | X | X | X |
| Ukrayna | X | X | X | X |
| Özbəkistan | X | | X | X |

**Mənbə**: Pempal.org saytının məlumatları əsasında hazırlanmışdır. (https://www.pempal.org/ru/events/годовое-пленарное-заседание-бюджетного-сообщества-и-встреча-рабочей-группы-«повышение )

**Fiskal dayanıqlılıq** dövlət sektorunun elə bir maliyyə vəziyyətidir ki, burada dövlətin hazırki məqsədlərinin, o cümlədən regionlar və yerli orqanlar üzrə həyata keçirilən cari hədəflərinin əldə edilməsi gələcəkdə əldə edilməsi gözlənilən hədəflərinin icrasını şübhə altına qoymamalıdır. Azərbaycan üçün ən vacib fiskal dayanıqlılıq göstəricisi qeyri-neft büdcə kəsiri göstəricisidir ki, qeyri-neft büdcə kəsirinin hesablanması icmal büdcənin neftdən asılılığı ölçmək üçün istifadə edilən vacib bir fiskal dayanıqlılıq göstəricisidir (Vəliyev, 2020) .

**Büdcə qaydası** – orta və uzunmüddətli makroiqtisadi dayanıqlığı, maliyyə və borc intizamını təmin edən büdcə siyasətinin həyata keçirilməsi üçün makroiqtisadi və büdcə göstəricilərindən ibarət çərçivədir. Büdcə qaydası çərçivəsində dövlət borcunun ÜDM-ə nisbəti göstəricisi vacib göstərici kimi diqqəti çəkir ki, fiskal dayanıqlığın digər mühüm elementi məhz borc dayanıqlığıdır.

Azərbaycan resurslarla zəngin olan ölkələr sırasındadır və neft ixracatçısıdır. Bu baxımdan, digər resurs ölkələri kimi Azərbaycanda da büdcə qaydalarının tədbiqi xüsusilə əhəmiyyətlidir. Bu qaydalar büdcə intizamının və fiskal dayanıqlığın təmin edilməsi üçün vacibdir. Resursla zəngin ölkələrdə büdcə qaydaları müəyyən olunarkən ümumi balans deyil, daha çox resurs balansı hədəf götürülür. Ona görə də təsadüfi deyil ki, büdcə qaydası çərçivəsində icmal büdcənin qeyri-neft büdcə kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin azaldılması vacib məsələ kimi diqqət çəkir. Qeyri-neft büdcə kəsirinin hesablanması üçün Hesablama Palatası 4 müxtəlif metodoloji yanaşmadan istifadə edir ki, bunlardan biri **bütün komponentlər** nəzərə alınmaqla hesablanan qeyri-neft büdcə kəsiridir (Hesablama Palatası, 2021). Biz də məhz bu qayda əsasında hesablamalar apararaq görürük ki, 2017, 2018 və 2020-ci illərdə qeyri-neft büdcə kəsiri artmış və qeyri-neft büdcə kəsirinin qeyri-neft ÜDM-də payı **30%-dən yuxarı** olmuşdur ki, bu Azərbaycan üçün arzuolunan hal deyil (Şəkil 1.) .

**Şəkil 1. Azərbaycanda 2015-2021-ci illərdə qeyri-neft büdcə balansının qeyri-neft ÜDM-də payı, %**

| İllər | Nominal ÜDM | Qeyri-neft qaz sektoru üzrə nominal ÜDM | İcmal büdcənin gəlirləri | İcmal büdcənin xərcləri | Dövlət Neft Fondu gəlirləri, milyon manatla | ARDNŞ-in vergi ödənişləri | Hasilatın pay bölgüsü üzrə mənfəət vergisi | Bütün komponentlər nəzərə alınmaqla qeyri-neft büdcə balansı | Qeyri-neft büdcə balansının qeyri-neft ÜDM-də payı, % |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2015 | 54380 | 37920,4 | 18416 | 21014,7 | 7721,1 | 1409,5 | 680,4 | -12409,7 | -32,7% |
| 2016 | 60425,2 | 39975,8 | 21573 | 21425,7 | 9410,2 | 1252 | 358 | -10872,9 | -27,2% |
| 2017 | 70337,8 | 44061,9 | 24076 | 25183 | 12137,5 | 1317,5 | 467 | -15029 | -34,1% |
| 2018 | 80092 | 46671,3 | 30924,7 | 26456,9 | 17614,1 | 1425,1 | 1016,4 | -15587,8 | -33,4% |
| 2019 | 81896,2 | 50391,8 | 33966,7 | 26506,1 | 19030,6 | 1448,6 | 854,3 | -13872,9 | -27,5% |
| 2020 | 72432,2 | 50792,5 | 24465,2 | 29160,1 | 9360,8 | 1198,4 | 603,7 | -15857,8 | -31,2% |
| 2021 | 93203,2 | 57432,4 | 33904 | 29991 | 15985,7 | 1141,7 | 1044,6 | -14259 | -24,8% |




**Mənbə:** Hesablama Palatasının materialları əsasında məllif tərəfindən tərtib edilmişdir.

Azərbaycan Maliyyə Nazirliyi tərəfindən 2022-2025 illər üçün hazırlanan ortamüddətli xərclər çərçivəsi sənədində qeyri-neft baza kəsiri anlayışı istifadə edilmiş, lakin **xərclənə bilən neft gəlirləri komponenti** qeyri-neft baza kəsirinin hesablanmasında istifadə edilməmişdir ki, bu bir tərəfdən neft gəlirlərinin xərclənməsi ilə bağlı limitlərin müəyyən edilməməsinə, digər tərəfdən həmin göstəricinin hesablanmasındakı risklərin (protsiklik siyasətlə bağlı) aradan qalxmasına da səbəb olmuşdur. Maliyyə Nazirliyinin nəzərdə tutduğu qaydada icmal büdcənin xərclərinin ümumi məbləğinə də birbaşa məhdudiyyət aradan qaldırılmışdır ki, bu yanaşma ciddi problemlərin yaranmasına səbəb ola bilər. Başqa bir maraqlı məqam odur ki, Azərbaycanda ölkə başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-ci illərdə Sosial-İqtisadi İnkişaf Strategiyası"nda qeyri-neft baza kəsirinin qeyri-neft/qaz ÜDM-ə nisbətinin 2026-cı ilin sonuna qədər **17,5 %**-ə qədər endirilməsi hədəflənir (https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf) .

Lakin qeyri-neft büdcə kəsirinin mütləq rəqəm ifadəsində nəzərə alınması faizlə (ÜDM-ə nisbətən) müəyyən edilməsindən daha önəmlidir. Belə ki, faizlə təklif olunan qayda inflyasiya riskini nəzərə ala bilmir. Məsələn, tutaq ki hökumət qeyri-neft büdcə kəsirinin qeyri-neft ÜDM-ə nisbəti üçün yuxarı

hədd kimi 25% müəyyən etmişdir. Əgər ölkə uzunmüddətli dövrdə yüksək inflyasiya şəraitində yaşamaq məcburiyyətində qalarsa, qeyri-neft ÜDM deflyatorunun səviyyəsi illik 115-120% təşkil edərsə, nominal ÜDM-in inflyasiya hesabına böyüməsi nəticəsində qeyri-neft büdcə kəsirinin də nominal ifadədə həcmi artacaq, zəncirvari qaydada həmin kəsiri qapamaq üçün cəlb olunacaq neft vəsaitlərinin də məbləği böyüyəcək. Bu riskdən qaçmaq üçün qeyri-neft büdcə kəsirinin məbləğinin mütləq rəqəm ifadəsində müəyyən edilməsi önəmlidir.

Büdcə qaydası çərçivəsində dövlət borcunun ÜDM-ə nisbəti göstəricisi də vacib göstərici kimi diqqəti çəkir. "2022-2026-cı illərdə Sosial-İqtisadi İnkişaf Strategiyası"da 2026-cı ilin sonunadək dövlət borcunun ÜDM-ə nisbətinin **20%-i** keçməməsi hədəflənir (https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf). Dövlət borcu ötən illərin borcundan və yeni yaranan borcdan ibarət olmaqla iki hissədən, yəni daxili və xarici borclanmadan ibarətdir. Dövlət borcları Azərbaycan üçün də yad olan bir anlayış deyil və onun hazırda 3 formasından istifadə olunmaqdadır (Vəliyev, 2020) :

- ✓ Hökumətin aldığı kreditlər (məsələn, büdcə kəsirinin maliyyələşdirilməsi üçün alınan xarici borclar) ;
- ✓ Hökumətin zəmanətçi kimi çıxış etdiyi borc münasibətləri (dövlət zəmanəti ilə dövlət müəssisələrinə verilən kreditləri zəmanətçi tərəf deyil, müəssisə özü qaytarmalıdır);
- ✓ Hökumət tərəfindən alınan və icraçıya ötürülən borclar. Məsələn, hökumət (Maliyyə Nazirliyi) alaraq hər hansı bir sahə (təhsil, səhiyyə və s.) nazirliyinə "X" obyektin tikilməsi üçün ötürdüyü borclar.

Büdcə qaydaları ilə bağlı olan təcrübələrin təhlili göstərir ki, borcla bağlı limit qaydalarının istifadəsi çox vaxt büdcə kəsirinin səviyyəsi ilə bağlı olan qaydalarla müqayisədə daha səmərəlidir. Bu onunla bağlıdır ki, borc özü büdcə kəsirin maliyyələşdirilməsi mənbəyi kimi çıxış edir və əlbəttə ki, büdcə kəsiri mövcud olmayacaqsa o zaman borcun səviyyəsində artım baş verə bilməz. Bütün hallarda hər iki qaydanın eyni anda istifadəsi məsələsi kifayət qədər vacib metodoloji problem hesab edilir. Dövlət borcu və büdcə kəsiri göstəriciləri arasında qarşılıqlı əlaqə daim təhlil edilməlidir. Büdcə kəsirinin genişlənməsi ilə borc vəsaitlərin cəlb olunması zərurəti yarana bilər ki, bu zaman borcun səviyyəsində artım baş verəcəkdir. Digər tərəfdən, büdcə kəsirinin məhdudlaşdırılması ilə borcun səviyyəsində olan artımın qarşısı alına bilər. Amma büdcə kəsiri üzrə məhdudiyyətin olması borcun səviyyəsində azalma yaratmaya da bilər ki, bu amil mütləq nəzərə alınmalıdır. Borcun səviyyəsində azalmanın olmaması birbaşa olaraq böyük həcmdə borcun cəlb olunması, yenidən maliyyələşdirilmənin istifadə olunması, faiz ödənişlərinin həcminin böyük olması ilə əlaqədardır. Bu fakt onu göstərir ki, borcla bağlı dəqiq limitlərin müəyyənləşdirilməsi qaydası ilə səmərəli borc idarəçiliyinə nail olunması büdcə kəsiri üzrə məhdudiyyətlərin tətbiqi qaydası ilə müqayisədə bəzən daha önəmli qayda olaraq qəbul edilir. Bütün hallarda büdcə qaydaları dövlət borcunun və büdcə kəsirinin idarə edilməsində hökumətlərə kifayət qədər üstünlüklər verir.

Azərbaycanda büdcə kəsiri və dövlət borcunun idarə edilməsi məsələləri üzrə bəzi vacib məqamlar və nöqsanlar var ki, biz onları şərh və təhlil etməyə çalışacağıq.

Büdcə sistemlərində, büdcə qanunu layihələrində büdcə gəlirlərinin tərkibi kimi büdcə xərclərinin və büdcə kəsirinin maliyyələşdirilmə mənbələrinin tərkibini ayrılıqda dəqiq müəyyənləşdirmək lazımdır. Belə ki, Rusiyanın, Ukraynanın "Büdcə Məcəlləsi"ndə büdcə kəsirinin maliyyələşmə mənbəyini təşkil edən vəsaitlər büdcə xərclərinin tərkibinə aid edilmir. Bundan başqa, Ukraynada "büdcə xərcləri" nin tərkibinə - dövlət borcuna xidmət xərcləri, bank depozitlərində yerləşdirilən büdcə vəsaitləri, büdcəyə artıq ödənilən vergi və digər ödənişlər üzrə geri qaytarılan pul vəsaitləri,

büdcə krediti kimi verilən büdcə ssudaları, alınmış qiymətli kağızlar **daxil edilmir** (Пятковская, 2017) . Bu onu göstərir ki, birdəfəlik xərc formasında büdcədən ayrılmayan vəsaitləri, yəni qarşılıqlı münasibətləri formalaşdıran pul vəsaitlərini büdcə xərci kimi tanımaq düzgün praktika hesab edilmir.

Azərbaycanda büdcə gəlirləri və büdcə xərclərinin həcmi, o cümlədən büdcə kəsiri və daxili və xarici dövlət borcuna xidmət xərci və onların yuxarı həddi (limit), həm də daxili və xarici dövlət borclanmasının yuxarı həddi hər növbəti il üçün qüvvəyə minəcək olan büdcə qanununda öz əksini tapır ki, bu düzgün yanaşmadır (Büdcə Sistemi Haqqında Qanun, 2002) . Lakin Azərbaycanda dövlət borcuna xidməti xərclərinin büdcə balansı və ya büdcə kəsiri baxımından büdcə xərclərinin tərkibində nəzərə alınması düzgün praktika deyil və bu xərclər büdcə kəsirinin genişlənməsinə səbəb olan neqativ amil kimi diqqət çəkə bilər.

Hesablama Palatası xarici dövlət borcu üzrə borclanmanın limitləri və həmin limitlərdən istifadənin həcmi barədə məlumatları təhlil edərək belə nəticəyə gəlir ki, 2014-cü ildən cari dövrədək yalnız bir dəfə (2017-ci ildə) limit tam istifadə edilmiş (Cədvəl 2.), digər illərdə isə kəsirlə icra edilməsinə baxmayaraq, limitlərin müəyyənləşdirilməsi prosedurları əsaslandırılmamışdır.

**Cədvəl 2. Xarici dövlət borclanma limitlərinin yuxarı hədlərinin dinamikası, mln. manatla**

| Proqnoz | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|
| Xarici borc üzrə limit | 2000 | 1500 | 5000 | 4500 | 2150 | 1000 | 1000 | 1200 |
| Cəlb edilmiş vəsaitlər | 1749 | 750,3 | 1251,4 | 4500 | 680 | 731 | 255 | 705,5 |
| Limit üzrə icra, %-lə | 87,4 | 50 | 25 | 100 | 31,6 | 73,1 | 25,5 | 58,8 |

**Mənbə:** Hesablama Palatasının materialları əsasında məllif tərəfindən tərtib edilmişdir**.**

Məcmu dövlət borcu bir qayda olaraq iki komponentdən ibarətdir ki, bura xarici dövlət borcu və daxili dövlət borcu daxildir. "2022-2026-cı illərdə Sosial-İqtisadi İnkişaf Strategiyası"da 2026-cı ilin sonunadək dövlət borcunun ÜDM-ə nisbətinin **20%-i** keçməməsi hədəflənməkdədir. Lakin 2018-ci il 24 avqust ayından qüvvəyə minən "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da hədəflər daha fərqli göstəricilərlə ifadə edilirdi:

- 2018-2025-ci illər üzrə ümumi dövlət borcunun ÜDM-ə nisbətinin yuxarı həddinin **30 % -** dən çox olmaması və 2025-ci ilədək 20 faizdən aşağı salınması hədəfi;
- dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbətinin **15 % -** dən aşağı olması hədəfi.

Strategiyada bu qeyd olunan göstəricilərlə bağlı hesablamalar aparılsa da, bu göstəricilər dövlət borcunun dayanıqlılıq parametrlərinin ölçülməsi üçün yetərli deyil. Eyni zamanda onu da qeyd edək ki, dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsi xərclərinə nisbətinin də heç bir iqtisadi mahiyyəti yoxdur (Vəliyev, 2020) . Dövlət borcuna xidmətlə bağlı xərclərin maliyyə mənbəyi büdcə gəlirləri olduğundan, bu xərclərin büdcə xərclərinə nisbətdə hesablanması doğru hesab edilmir. Beynəlxalq təcrübədə borcun xərclərə deyil, gəlirlərə nisbəti əsas götürülür.

**Dövlət Borcunun İdarə Edilməsi Məsələləri**

Dövlət borcları hər bir ölkənin maliyyə siyasətində mühüm yer tutmaqdadır. Bir tərəfdən, beynəlxalq maliyyə-kredit qurumları ilə inkişaf etməkdə olan ölkələr arasında sıx münasibətlər yaranır, digər tərəfdən daima bu ölkələrdə dövlət qiymətli kağızlar bazarı formalaşır və genişlənir. Beləliklə, bütün bunlar dövlət borcu münasibətlərinin əhatəsini genişləndirir və dövlətin maliyyə sistemində onun rolunu əhəmiyyətli dərəcədə artırır. Dövlət borcu mürəkkəb və çoxtərəfli bir iqtisadi kateqoriya kimi elə bir münasibətlər sistemidir ki, bu münasibətlər dövlət idarəetmə qurumları ilə maliyyə qurumları

arasında yaranır və bu münasibətlərdə dövlət üçün əlavə mənbə rolunu oynayan borcların formalaşdırılması və bu borclara xidmət xərclərinin təşkil edilməsi ilə onların silinməsi təşkil edilir. Beləliklə, dövlət borcu hər bir dövlətin iqtisadi sistemində əhəmiyyətli rol oynayır və həmin dövlətin maliyyə sisteminin ayrılmaz hissəsini təşkil edir.

Dövlət borcunun təyin edilməsi onun məqsədindən asılı olaraq dəyişir. Dövlət borcu dar çərçivədə təyin olunduqda mərkəzi hökumət büdcəsi (budgetary central government) üzrə formalaşan borcun həcmi nəzərdə tutulur Dövlət borcu nisbətən geniş çərçivədə təyin edildikdə bu borc məcmu hökuməti (general government) əhatə edir ki, burada mərkəzi hökumət büdcəsi ((budgetary central government), əyalət və yerli büdcələr ( state and local government) nəzərdə tutulur ki, mərkəzi hökumət büdcəsinin tərkibi büdcədən (məsələn, Azərbaycan dövlət büdcəsi), büdcədənkənar fondlardan (extrabudgetary units - məsələn, Azərbaycanda "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu), sosial təminat fondlarından (social security funds - məsələn, Azərbaycanda sosial xidməti həyata keçirən Dövlət Sosial Müdafiə Fondu (DSMF)) ibarətdir. Dövlət borcuna daha geniş çərçivədə yanaşsaq görərik ki, bu borc dövlət sektorunu əhatə edir ki, bura məcmu hökumət (general government), qeyri-kommersiya dövlət müəssisələri (public nonfinancial corporations) və kommersiya dövlət müəssisələri (public financial corporations) üzrə formalaşan borc daxil edilir. Kommersiya dövlət müəssisələrinin borcunun tərkibinə Mərkəzi Bankın borcları da əlavə edilir ( https://www.imf.org/en/Publications/fandd/issues/2020/09/what-is-debt-sustainability-basics ) .

Dövlət borcu dar çərçivədə təyin olunaraq nəzərə alındıqda ciddi problemlər yarana bilər. Məsələn, dövlət payı olan müəssisələr götürülən borca görə ödənişləri edə bilmədikdə, bu borclar dövlət zəmanəti ilə alındığı üçün həmin borclar mərkəzi hökumətin borclarının tərkibində nəzərə alınır. Əlbəttə ki, belə bir borc yükünün mərkəzi hökumətə ötürülməsi ölkənin borc dayanıqlılığını təhdid edə bilər. Bu baxımdan, Azərbaycanda dövlət borcu statistikası ilə bağlı metodoloji yanaşma dəyişməli və təkmilləşdirilməlidir. Azərbaycanda dövlət zəmanəti ilə alınmış borclar ilk növbədə diqqətdə saxlanılmalı və bu borcların həcmi barədə Maliyyə Nazirliyi tərəfindən statistika hazırlanmalı və təqdim edilməlidir. Azərbaycanda həmişə dövlət sektorunun əsas hissəsi olan məcmu hökumət sektoru (general government) üzrə dövlət zəmanəti ilə alınmış borclara xüsusi diqqət yetirilir, lakin dövlətin payı olan şirkətlər, qurumlar (məsələn, Dövlət Neft Şirkəti və digərləri) olan hissənin dövlət zəmanəti ilə alınmış borcları xarici borc statistikasının tərkibində **nəzərə alınmır** ki, fikrimizcə, bu yanaşma səhv yanaşmadır.

Dövlət borcunun, o cümlədən xarici dövlət borcunun dəqiq səviyyəsinin müəyyən edilməsi üçün dövlət sektorunun və onun tərkibinin, çərçivələrinin dəqiq müəyyənləşdirilməsi tələb olunur ki, bu baxımından Beynəlxalq Valyuta Fondu tərəfindən yaradılan Dövlət Maliyyə Statistikası (DMS-2014) ümumiyyətlə dövlət sektoru üzrə statistikanın, uçot və hesabatlılığın təmin edilməsində xüsusi rol oynayır (Şəkil 2.) ( Government Finance Statistics Manual (GFSM), 2014) .

**Şəkil 2. Dövlət Maliyyə Statistikasına (DMS) görə dövlət sektorunun tərkibi**




**Mənbə**: Government Finance Statistics Manual (GFSM 2014), International Monetary Fund, 2014.

Azərbaycanda dövlət maliyyəsi üzrə dövlət sektoru və ya ictimai sektor adlandırılan hissə və onun strukturunu dəqiq **müəyyənləşdirmək** və onun beynəlxalq standartlar, metodologiyalarla uyğunluğunu təşkil etmək olduqca önəmlidir. Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən tərtib edilən və xüsusilə, hökumət sektorunda uçot və hesabatlılığın təmin edilməsində istifadə edilən Dövlət Maliyyə Statistikasında da (DMS) **"dövlət sektoru"** termini istifadə olunur. Dövlət maliyyə statistikası (DMS) - Milli Hesablama Sistemi (MHS) və Tədiyə Balansı (TB) kimi adlandırılan digər makroiqtisadi statistikanın beynəlxalq standartları ilə birlikdə vacib iqtisadi siyasət qərarları qəbul etmək üçün dövlət idarəetmə orqanlarına geniş məlumat və informasiyalar təqdim edir ki, xüsusilə bu qərarlar fiskal və büdcə siyasəti ilə bağlı olan məsələləri əhatə etməklə yanaşı, məcmu hökumət sektoru üzrə büdcə gəlirləri və xərcləri, büdcə kəsiri və bu kəsrin maliyyələşdirmə mənbələri baxımından əhatəli təhlil aparmağa şərait yaradır.

Dünya Bankı metodologiyasında da DMS-də olduğu kimi **"dövlət sektoru"** terminindən istifadə edir ki, burada **"dövlət zəmanəti ilə cəlb edilmiş borclar"** adı altında ümumiləşdirilmiş şəkildə hökumətin bütün səviyyələri üzrə fəaliyyət göstərən təşkilatlarının, o cümlədən də dövlət şirkətlərinin və kommersiya bankların borcları əks etdirilir. Bu statistikada həm də xalis özəl sektor üzrə (dövlət zəmanəti ilə cəlb edilməyən) formalaşan bütün borclar da əks etdirilir.

Dövlət borcunun idarə edilməsi zamanı müəyyənləşdirilmiş iqtisadi əməliyyatların aparılması ilə kreditorun, borcalanın, investorun və qarantın maraqları təmin edilir. Dünya Bankının iqtisadçıları birmənalı şəkildə qeyd edirlər ki, borclarla bağlı ödənişin aparılması dövrləri, valyuta, faiz dərəcəsi baxımından zəif şəkildə strukturlaşdırılmış borc bir çox ölkədə iqtisadi böhrana səbəb olan əhəmiyyətli amildir.

Dünya Bankı (DB) metodologiyasında istifadə edilən "xarici borc" yanaşmasından fərqli olaraq Azərbaycanın Maliyyə Nazirliyi yanaşmasında istifadə edilən "xarici dövlət borcu"nun səviyyəsi 2021-ci ildə 8137,5 milyon dollar, bu borcun ÜDM-də payının 14,9% təşkil etdiyini deyə bilərik. Bəllidir ki, milli valyutanın devalvasiyası birbaşa xarici valyutada olan dövlət borclarının qaytarılmasında problemlər yaradır. Milli valyutanın ucuzlaşması xarici borc öhdəliklərinin ÜDM-də payının artmasını şərtləndirir. Azərbaycanda 2014-cü ildə xarici dövlət borcunun ÜDM-də payı 8,6% olduğu halda 2015-ci ildə iki kəskin devalvasiyanın nəticəsində borcun payı 19,8%-ə qədər yüksəldi. 2015-ci ildə xarici dövlət borcunun artım tempi 2014-cü illə müqayisədə 6,9%-dən 6,4%-ə düşsə də, 2016-cı ilin sonuna borcun ÜDM-də payı **20,7%**-ə qədər yüksəldi (Şəkil 3.)

**Şəkil 3. 2012-2017-cı illərdə xarici dövlət borcunun ÜDM-də payı və onun artım tempi**




**Mənbə**: Maliyyə Nazirliyinin məlumatları əsasında hazırlanmışdır.

Azərbaycanın Maliyyə Nazirliyinin istifadə etdiyi "xarici dövlət borcu" yanaşmasından fərqli olaraq, Dünya Bankı "xarici borc" terminindən istifadə edir ki, bu yanaşmada 2021-ci ildə Azərbaycanın xarici borcunun kifayət qədər daha böyük olduğunu, bu rəqəmin 14644,7 milyon dollar təşkil etdiyini görmək olur. Bu yanaşma üzrə Azərbaycanın xarici borcunun ÜDM-də payının **26,8 %** təşkil etdiyini görürük (Cədvəl 3) (https://datatopics.worldbank.org/debt/ids/country/AZE# ) .

Dünya Bankının yanaşmasında həm də onu görə bilərik ki, Azərbaycanda 2021-ci ildə uzunmüddətli dövr baxımından təkcə dövlət sektoruna daxil olan **Dövlət müəssisələri** adlanan hissənin dövlət zəmanəti ilə alınmış borclarının (5920,8 milyon dollar) və ayrıca olaraq xalis özəl sektor hesab edilən hissənin dövlət zəmanəti ilə alınmayan borclarının (884 milyon dollar) cəmi məbləğinin ÜDM-də payının **12,4 %** olduğu məlum olur ( https://datatopics.worldbank.org/debt/ids/country/AZE# ) .

Beləliklə, Azərbaycanda istifadə olunan dövlət borcu statistikasının təşkilində Dünya Bankı metodoloji yanaşmasından istifadə borc dayanıqlılığının qiymətləndirilməsi baxımından daha ciddi yanaşma olaraq qəbul edilə bilər.

**Cədvəl 3. Azərbaycan Respublikasında xarici dövlət borcu və borc dayanıqlılığı (Dünya Bankının metodologiyası ilə təhlil)**

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | Maksimum hədd, % |
|---|---|---|---|---|---|---|---|---|
| ÜDM, mln ABŞ dolları | 52996,8 | 37862,8 | 40867,9 | 47112,9 | 48047,6 | 42693 | 54622 | |
| Məcmu xarici borc üzrə xalis cari dəyər (Dünya Bankı, Xarici borc statistikası), mln ABŞ dolları | 13318,8 | 14590,0 | 15300,9 | 16211,0 | 15843,4 | 15811,8 | 14644,7 | |
| Məcmu xarici borcun ÜDM-də payı, % | 25,1 | 38,5 | 37,4 | 34,4 | 32,9 | 37,0 | 26,8 | 30-40-50 |
| • Uzunmüddətli dövlət borcları (1 ildən artıq), ondan:<br>Dövlət zəmanəti ilə alınmış borclar (Dövlət sektorunda (Public sector)), cəmi, ondan:<br>- Məcmu hökumət (General government)<br>- Özəl (dövlət şirkətləri) (Other public sector)<br>Dövlət zəmanəti olmayan borclar,<br>- Özəl (təşkilatlar, banklar və s.) | 11558,5<br>8711,6<br>6675,4<br>2036,2<br>2846,9 | 12987,6<br>10624,5<br>7338,8<br>3285,7<br>2363,1 | 14407,5<br>12470,1<br>8052,2<br>4417,9<br>1937,4 | 15427,7<br>13956,3<br>7539,6<br>6416,7<br>1471,4 | 15014,1<br>13979,3<br>7775,7<br>6203,6<br>1034,9 | 15138,5<br>14000,3<br>7567,8<br>6432,5<br>1138,2 | 13904,3<br>13020,4<br>7099,5<br>5920,8<br>884,0 | |
| • BVF-dən alınmış borclar<br>XBH (Xüsusi borclanma hüququ) | 212,8<br>212,8 | 206,5<br>206,5 | 218,7<br>218,7 | 213,6<br>213,6 | 212,4<br>212,4 | 221,2<br>221,2 | 740,4<br>740,4 | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| • Qısamüddətli dövlət borcları (1 ilə qədər) | 1547,5 | 1396,0 | 674,7 | 569,7 | 616,9 | 452,2 | - | |
| İXRAC ( Xarici ticarət balansı (Malların ixracı), Xidmətlər balansı (Neft-qaz sektoru+digər sektorlar) və İlkin gəlirlər balansı (Neft-qaz sektoru+digər sektorlar) üzrə daxilolmaların cəmi, Mərkəzi Bankın Tədiyə Balansının statistikası əsasında hesablanmışdır.) | 21288,3 | 18499,7 | 21125,5 | 27115,3 | 25219,2 | 17064,3 | 27303,5 | |
| Cari Əməliyyatlar Balansı (CƏB) | -222,5 | -1363,4 | 1684,6 | 6051,1 | 4364,9 | -227,5 | 8291,6 | |
| CƏB-in ÜDM-də payı, % | -0,4 | 3,6 | 4,1 | 12,8 | 9,1 | -0,5 | 15,2 | |
| Məcmu xarici borcun İXRAC üzrə payı, % | 62,6 | 78,9 | 72,4 | 59,8 | 62,8 | 92,7 | 53,6 | 100-150- 200 |
| Məcmu xarici borca xidmət xərcləri (büdcə və dövlət şirkətləri üzrə), mln dollar | 1907,5 | 1764,3 | 2232,6 | 2682,4 | 2159,9 | 1839,0 | 1979,4 | |
| Xidmət xərclərinin Mİ+Xİ+İGD üzrə payı, % | 9,0 | 9,5 | 10,6 | 9,9 | 8,6 | 10,8 | 7,2 | 15-20-25 |
| Beynəlxalq rezervlər (Mərkəzi Bankın sahib olduğu xarici valyuta ehtiyatları, qızıl ehtiyatlarının dəyəri nəzərə alınmır) | 6291,2 | 5836,5 | 6680,4 | 6665,9 | 7042,9 | 7633,6 | 8307,2 | |
| Beynəlxalq rezervlərin məcmu xarici dövlət borcu üzrə payı, % | 47,2 | 40,0 | 43,7 | 41,1 | 44,5 | 48,3 | 56,7 | |

**Mənbə:** Dünya bankının borc statistikası (https://datatopics.worldbank.org/debt/ids/country/aze/counterpartarea/wld), Azərbaycan Dövlət Statistika Komitəsinin (http://www.azstat.org), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (http://www.maliyye.gov.az), Azərbaycan Mərkəzi Bankının (www.cbar.az), Hesablama Palatasının (http://sai.gov.az) məlumatları əsasında müəllif tərəfindən hesablanmış və tərtib edilmişdir. BVF-nin “Xarici Borcun Statistikası Qaydaları ” (2013) və “ Dövlət Borcunun Statistikası Qaydaları ” (2011) üzrə verilən metodologiyalar əsasında hesablanmışdır.

Dünya Bankının metodologiyası əsasında 2021-ci ildə “xarici borcun ixracda payı”nın 2020-ci illə müqayisədə **53,6** %-ə qədər azaldığını görmək mümkündür. Bu metodologiya əsasında ixrac üzrə gəlirlərin məcmu həcmini müəyyən etmək üçün Tədiyə Balansına daxil olan CƏH-in 3 əsas komponenti, yəni Xarici Ticarət Balansı (malların ixracı (FOB)), Xidmətlər Balansı (XB) və İlkin Gəlirlər Balansı (İGB) üzrə əldə edilən daxilolmalar əsasında gəlirlərin məcmu həcmi əsas götürülür. Beləliklə, DB yanaşması əsasında Azərbaycanda ixrac vasitəsilə əldə edilən gəlirlər 2021-ci ildə 27303,5 milyon dollar təşkil etmişdir ki, bu göstərici 2020-ci ilin göstəricisi (17064,3 milyon dollar) ilə müqayisədə kifayət qədər yaxşı göstəricidir . Dünya Bankı yanaşmasında eyni zamanda 2021-ci ildə xarici borca xidmət xərclərinin 1979,4 milyon dollar təşkil etdiyini və Azərbaycan iqtisadiyyatından borca ödənilən məbləğin də kifayət qədər fərqli rəqəmlərlə ifadə olunduğunu görmək mümkündür.

Aşkardır ki, Azərbaycan hökuməti əldə edilmiş neft gəlirləri ilə davamlı şəkildə investisiya xərclərinin artımını (Dövlət İnvestisiya Proqramının icrası) təşkil etmək yolu ilə iqtisadi artımın təmin edilməsinə çalışmışdır. Lakin unutmayaq ki, aparılmış fiskal siyasətin nəticəsində investisiya xərclərinin ciddi şəkildə artımı yüksək məbləğdə beynəlxalq maliyyə institutlarından, xarici banklardan kreditlərin cəlb edilməsi və davamlı borclanma yolu ilə dövlət büdcəsində ümumən dövlət borcuna xidməti xərclərin səviyyəsini olduqca artırmışdır. Lakin Azərbaycan hökumətinin götürdüyü borcları əslində aktiv borclar kateqoriyasına aid etmək olar. Belə ki, elmi ədəbiyyatda dövlət borcu mahiyyətinə görə aktiv və passiv borclar kimi də nəzərə alınır və aktiv dövlət borcları deyildikdə, büdcə vasitəsilə bu borcların dövlətin konkret sosial-iqtisadi proqramlarının reallaşdırılmasına, infrastruktur layihələrinin maliyyələşdirilməsinə yönəldilən hissəsi nəzərdə tutulur. Passiv dövlət borcları isə büdcədən maliyyələşən cari xərclərin bağlanmasına yönəldilən borclar kimi xarakterizə olunur. Aktiv və passiv dövlət borcları baxımından onu qeyd edə bilərik ki, Azərbaycanda kifayət qədər aktiv dövlət borclarından istifadə etməkdədir.

Azərbaycanda büdcə xərcləri üzrə cari və əsaslı xərclərin həcmi ayrılıqda nəzərə alınır və eyni zamanda investisiya xərcləri üzrə vəsaitin mənbələri vahid icmal büdcənin tərkib hissələri kimi

nəzərə alınır ki, bu yanaşma uğurlu yanaşmalardan hesab edilir. İcmal büdcənin xərclərinin tərkibində özünə yer tapan **"Xarici bankların kreditləri hesabına investisiya xərcləri"** investisiya xərcləri kimi məhz aktiv dövlət borclarını xarakterizə etməkdədir (Cədvəl 4).

**Cədvəl 4. Azərbaycanda dövlət büdcəsi xərclərinin strukturu və investisiya xərcləri (Dövlət İnvestisiya Proqramı üzrə), milyon manatla**

| Göstəricilər | | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Dövlət büdcəsinin xərcləri, milyon manat, o cümlədən** | | 18709,0 | 17784,5 | 17751,3 | 17594,5 | 22731,6 | 24425,9 | 26416,3 | 27422,4 |
| Dövlət büdcəsinin əsaslı xərcləri, milyon manat | | 8432,5 | 7316,9 | 4283,8 | 5174,8 | 8941,7 | 9372,2 | 8033,2 | 8635,2 |
| Əsaslı xərclərin cəmi xərclərdə xüsusi çəkisi, faiz | | 45,1 | 41,1 | 24,1 | 29,4 | 39,4 | 39,9 | 30,4 | 31,5 |
| Dövlət büdcəsinin cari xərcləri, milyon manat | | 9897,6 | 9763,1 | 11698,4 | 10906,1 | 11554,3 | 13528,9 | 16656,9 | 16588,4 |
| Cari xərclərin cəmi xərclərdə xüsusi çəkisi, faiz | | 52,9 | 54,9 | 65,9 | 62,0 | 50,8 | 50,7 | 63,1 | 60,5 |
| Dövlət borcuna xidmət xərcləri, milyon manat | | 378,9 | 704,5 | 1769,1 | 1513,6 | 2235,6 | 1524,8 | 1726,2 | 2198,8 |
| **İnvestisiya xərcləri (Dövlət İnvestisiya Proqramı üzrə), milyon manatla** | **Xarici bankların kreditləri hesabına investisiya xərcləri** | 793,8 | 789,7 | 3663,2 | 1604,9 | 1587,8 | 985,3 | 800,5 | 346,6 |
| | **Dövlət Neft Fondunun hesabına investisiya xərcləri** | 731,6 | 1029,8 | 1387,0 | 947,9 | 473,3 | - | - | - |
| | **Dövlət Əsaslı Vəsait Qoyuluşu (dövlət büdcəsi xərcləri hesabına)** | - | 4987,4 | 2685,7 | 2689,3 | 5059,2 | 5810,0 | 4747,8 | 2505,5 |

**Mənbə:** Hesablama Palatasının məlumatları əsasında hazırlanmışdır.

Dövlət borcalmaları ölkənin sosial-iqtisadi inkişafına yönəldilmiş proqramların həyata keçirilməsini təmin etmək, dövlət büdcəsinin kəsirini örtmək, dövlət investisiyalarının maliyyələşdirilməsi və ölkə qanunvericiliyi ilə müəyyən edilən digər məsələlərin həlli məqsədilə həyata keçirilir. Ümumiyyətlə, dövlət borclanması ilə bağlı daha bir borc komponenti dövlət borcuna xidmətlə bağlı xərclərdir. Bu vəsait dövlət büdcəsi haqqında qanunda (ümumi dövlət xidmətləri bölməsinin tərkibində) öz əksini tapır. Bu istiqamətdə ayrılmış vəsait kifayət etmədikdə həmin xərcin çatışmayan hissəsi daha bir borc institutu Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu hesabına ödənilməkdədir. Azərbaycanda dövlət borcuna xidmət xərclərinin səviyyəsində artım müşahidə edilmişdir ki, bunun əsas səbəbi devalvasiya nəticəsində dövlət sektorunun xarici valyutada borclarının manat ifadəsində genişlənməsi, ödəmə qabiliyyətini itirmiş dövlət şirkətlərinin bir sıra şərti öhdəliklərinin büdcənin öhdəliyinə keçməsi səbəbindən baş vermişdir.

Büdcə xərcləri cari xərcləri və əsaslı xərclərdən ibarətdir ki, cari xərcləri sosial xərclər kimi əsaslı xərcləri isə daha çox investisiya xərcləri kimi ifadə etmək olar. Maliyyə Nazirliyi büdcədə yüksək neft daxilolmaları fonunda cari xərclərin icrasında çox vaxt problemlər yaşamamış, bu xərclər üzrə ciddi manevr etməyə ehtiyac duymamışdır. Büdcə xərclərinin strukturunda əsaslı, o cümlədən, investisiya xərclərinin (əlavə dəyər yaradan) həcmi üzrə də artımlar müşahidə edilmişdir. Lakin investisiya xərcləri elə xərclər olmuşdur ki, Maliyyə Nazirliyi bu xərclərlə daima manevr edə

bilmişdir. Böhranlı dövrlərdə, məsələn 2015-ci və 2020-ci illərdə baş vermiş neqativ vəziyyətlər qarşısında 2016-2017-ci və 2020-ci illərdə əsaslı xərclərin həcmi azaldılmışdır.

Cari xərclərin artım tempini ayrıca olaraq nəzərdən keçirsək görərik ki, 2016-cı illə müqayisədə 2021-ci ildə bu xərclər 41,8 % artmış və 16588,4 milyon manat təşkil etmişdir. Cari xərclərin belə bir səviyyəyə çatması onu göstərir ki, gələcəkdə hökumətin büdcənin əsaslı xərcləri üzrə manevr imkanları məhdudlaşa bilər ki, bu zaman əsaslı xərclər üzrə artımları təşkil etmək üçün hökumət ya yeni maliyyə vəsaitləri tapmalı olacaq, ya da cəlb edilən xarici kreditlərin həcmi artacaqdır ki, bu da son nəticə də xarici borcun səviyyəsini artırmış olacaqdır. Bu məsələlər fonunda büdcədə investisiya xərclərinin idarə edilməsi mexanizmi mütləq təkmilləşdirilməli, investisiya xərcləri nəticəəsaslı büdcə mexanizmi çərçivəsində proqram-məqsədli metodun istifadəsilə xərclənməli, nəticə indiqatorları sistemi əsaslı investisiya layihələri hazırlanmalı və xərc maddələri əsaslı investisiya layihələri büdcədə məhdudlaşdırılmalıdır.

Azərbaycanda neftdən əldə edilmiş gəlirlər dövlət büdcəsi vasitəsilə xərclənərək həm iqtisadi artım baxımından çox önəmli rola sahib olmuşsa, həm də bu gəlirlər bir çox digər problemlərin həllində də aparıcı rola sahib olmuşdur. Belə ki, bu gəlirləri əldə edən hökumət müxtəlif dövlət şirkətləri (məsələn, "Azərbaycan Hava Yolları" QSC (AZAL), Dövlət Neft Şirkəti (ARDNŞ), və s.) üçün uzun zaman fərqli büdcə maliyyələşdirilməsi alətlərindən, yəni büdcə ssudası (büdcə kreditləri), subsidiyalar vasitəsilə vəsaitlər ayırmış, həm də bu dövlət müəssisələrinin borcları dövlət büdcəsi (dövlət borcuna xidməti xərclər) hesabına qaytarılmışdır. Hətta onu da qeyd edək ki, Hesablama Palatası dövlət əsaslı vəsait qoyuluşunun təhlili zamanı bəzi investisiya layihələrinin tam maliyyələşdirilməsi üçün sifarişçi təşkilatlara belə bəzən büdcə ssudalarının verilməsi praktikasının olmasını müəyyən etmişdir ki, burada dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu hesabına həmin büdcə ssudaları qaytarılmışdır. Əlbəttə belə bir praktikanın olması, dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu üzrə real xərclərin qiymətləndirilməsinə şərait yarada bilməz.

Neft amili Azərbaycan iqtisadiyyatına elə bir şəkildə nüfuz etmişdir ki, bu amil xüsusilə dövlət sektorunda çoxlu sayda digər məsələlərin həllini zəruri edir. Beləliklə, neft gəlirləri müxtəlif kanallar vasitəsilə iqtisadiyyata daxil olmaqdadır və bunların arasında dövlət büdcəsi ən önəmli yerə sahibdir. Azərbaycanda faktiki olaraq dövlət büdcəsində maliyyə menecmenti, büdcənin icrası mexanizmi ilə bağlı aşkar problemlər olsa da, dövlət büdcəsi yenə də dövlət sektorunda fəaliyyət göstərən müxtəlif təsisatlar, qurumlar üçün davamlı şəkildə maliyyə vəsaitlərinin ayrıldığı əsas həlqə rolunu oynayır. Büdcənin neftdən asılılığı fonunda və dövlət şirkətlərində maliyyə idarəçiliyi ilə bağlı problemlərin mövcudluğu şəraitində büdcə xərclərinin səmərəliliyi üzrə ayrıca addımlar atılmalı, büdcə xərclərinin büdcə gəlirlərinə uyğunlaşdırılması praktikası məhdudlaşdırılmalı, dövlət sektoruna daxil olan müxtəlif təşkilatların büdcə ilə maliyyə əlaqələri büdcə qanunvericiliyi ilə müəyyən edilmiş çox dəqiq prinsip və mexanizmlərə əsaslanmalı, büdcə kəsirinin aradan qaldırılmasında önəmli yer tutan vahid xəzinə hesabı qalığının idarəçiliyi təkmilləşdirilməli, büdcə xərclərinin böyük bir hissəsinin ilin son rübündə, yəni oktyabr, noyabr, dekabr aylarında xərclənməsi praktikası məhdudlaşdırılmalı, nəticəəsaslı büdcə mexanizminə keçid sürətləndirilməli, xəzinədarlıq sistemində nəticəəsaslı büdcə mexanizminə keçidlə əlaqədar həm xəzinədarlıq orqanlarının, həm də büdcə təşkilatlarının maliyyə nəzarəti sistemi yaxşılaşdırılmalıdır.

Sistemli böhranın şərtləndirdiyi iqtisadi zərurətlərdən biri dövlət büdcəsi xərclərinin strukturunun optimallaşdırılması və onun büdcə riskləri nəzərə alınmaqla proqnozlaşdırılmasıdır. Bu addım, ilk növbədə, fiskal konsolidasiya (qənaət) tədbirləri çərçivəsində reallaşdırılır (Швандар və Анисимова, 2016). Bu, əsasən dövlət qulluqçularının əmək haqlarının azaldılması, malların alınması

və xidmətlərin haqqının ödənilməsi bölməsi üzrə xərclərin optimallaşdırılması ilə həyata keçirilir. Qeyd edilənlər investisiya xərclərinin artırılaraq cari xərclərin azaldılması prinsipinə əsaslanır ki, bu da son nəticədə iqtisadi inkişafı stimullaşdırmaq və məşğulluğu təmin etmək məqsədi daşıyır. Ümumiyyətlə, cari və əsaslı xərclər üzrə konkret nisbətin təyin edilməsi iqtisadi şəraitdən asılı olaraq müəyyən olunur. Adətən böhran dövründə dövlət siyasətini cari xərcləri azaltmaqla yanaşı iqtisadi artımı və məşğulluğu təmin etmək məqsədini güdən kapital xərclərin artırılması istiqamətində qururlar. Lakin Azərbaycanda böhranlı zamanlarda kapital xərclərinin səviyyəsi əksinə azaldılır ki, bu xərclərin ixtisarı ilə hökumət büdcəni optimallaşdırmağa çalışır.

Təhlillər göstərir ki, xərclərin azaldılması, o cümlədən hökumət sektorunda uzunmüddətli dövr baxımından əmək haqlarının və sosial transferlərin ixtisarı fiskal konsolidasiya tədbirləri kimi büdcə gəlirlərinin həcminin artırılması tədbirlərindən daha səmərəlidir. Fiskal konsolidasiya tədbirləri, planları gəlirlərin artımı ilə müqayisədə xərclərin ixtisarları ilə daha çox sıx bağlıdır. Bu baxımdan, Azərbaycanda büdcə gəlirləri ilə müqayisədə büdcə xərclərinin idarə edilməsi məsələləri daha aktual olmalı, büdcə xərcləri üzrə səmərəliliyin, məhsuldarlığın, nəticəliliyin əldə olunması üzrə davamlı olaraq ciddi addımlar atılmalıdır.

**Büdcə Kəsirinin İdarə Edilməsi Məsələləri**

Büdcə kəsirinin mövcudluğu əslində adi bir haldır və eyni zamanda hökumətlər yerinə yetirilən stimullaşdırıcı iqtisadi siyasət vasitəsi kimi büdcə kəsirinin yaranmasına şərait yaradırlar. Büdcə kəsiri aktiv və passiv formaları var ki, aktiv büdcə kəsiri zamanı hökumətlər məqsədli şəkildə büdcə xərclərini artırmaqla kəsir yaradırlar. Məcmu tələbin stimullaşdırılması baxımından büdcə xərclərinin artımı ilə yaranmış kəsir iqtisadi artımın təmin edilməsinə, iqtisadiyyatın inkişafına yönəlmişdir, lakin burada inflyasiyanın artımı amili də vardır. Passiv büdcə kəsiri elə bir kəsirdir ki, burada iqtisadi artımda yaranmış geriləmə və ya dünyada baş vermiş böhranlar fonunda büdcə gəlirlərinin artımını təmin etmək mümkün olmur və nəticədə kəsirin yaranması qaçılmaz olur . Belə bir kəsir zamanı qiymətlərin ümumi səviyyəsinin artımında büdcə xərclərinin rolu olmasa da, belə bir kəsir iqtisadiyyatda daha ciddi problemlər yarada bilər. Azərbaycanda neft gəlirləri büdcə gəlirləri və xərclərinin həcmini artırmağa imkan vermiş, xərclərin artımı və xərclərin tərkibində investisiya xərclərinin kifayət qədər olması Azərbaycan üçün aktiv büdcə kəsiri formasının daha aktual olduğunu göstərir.

Büdcə kəsirinin düzgün metodologiya çərçivəsində hesablanması, onun əsl yaranma səbəblərinin tapılması və aradan qaldırılması yollarının müəyyənləşdirilməsi olduqca önəmli bir məsələdir. Azərbaycanda çox zaman qəbul ediləcək büdcə qanununda büdcə gəlirləri və xərcləri üzrə büdcə balansı kəsirlə qəbul edilmiş, eyni zamanda büdcənin icrasında da kəsir müşahidə olunmuşdur. Neft gəlirləri fonunda Maliyyə Nazirliyi uzun zaman dövlət büdcəsinin gəlirlərinin formalaşmasında ciddi problemlər yaşamamış, eyni zamanda büdcədə büdcə xərcləri üzrə artımlar müşahidə edilmişdir.

Azərbaycanda dövlət büdcəsi və icmal büdcə üzrə kəsir kassa metodu əsaslı kəsirdir (cash deficit), lakin inkişaf etmiş ölkələrdə dövlət sektoru və onun tərkibinə daxil olan hökumət sektorunda hesablama metodlu kəsir (accrual deficit) fiskal kəsir kimi daha vacib göstərici hesab edilir. Hesablama kəsiri (accrual deficit) hökumətin xalis əməliyyat kəsiridir (il ərzində hesablanmış gəlir və xərclər arasında olan fərq) ki, bu göstərici daha sonra balans hesabatında aktivlər və öhdəliklər arasında olan fərqə (aktivlərin xalis dəyərinin azalmasına) təsir edən amil kimi nəzərə çarpır (GAO, 2016). Uçot metodu kimi hesablama metodu özünə yalnız hesablanmış xərcləri deyil, həm də nağd vəsaitlərin hərəkətini daxil edir. Ona görə də deyilir ki, hesablama metodu özünə tamamilə kassa metodu üzrə tələb olunan cəhətləri daxil edir.

Kassa metodu yalnız büdcəyə daxil olan və xaric olan pul vəsaitləri arasında balansı ölçdüyü halda, hesablama metodu isə cari ildə hesablanmış büdcə gəlirləri və hesablanmış büdcə xərclərinin sonda "**Aktivlər və öhdəliklər üzrə balans hesabatı**"(Dövlət Maliyyə Statistikası) üzrə nəzərə alınan aktivlər və öhdəliklər arasında yaranacaq balansa (aktivlərin xalis dəyərinin azalması/artması) olan təsirləri ölçülür. Qeyd edilən məsələ onu ifadə edək ki, gələcəkdə Azərbaycanda büdcə sistemində aktivlərin, o cümlədən maliyyə aktivlərinin idarəçiliyi daha vacib məsələ kimi diqqəti cəlb etməli, bu aktivlərin hesablama metodu əsasında büdcə uçotuna daxil edilməsi və bu aktivlərin səmərəli idarəçiliyi ilə büdcə gəlirləri üzrə daxilolmaların həcmi artırılmalıdır.  Hesablama metodunda büdcə uçotunun obyektləri artıq aktivlər, öhdəliklər, gəlirlər, xərclər, maliyyə nəticələri və ya aktivlərin xalis dəyəri adlanan büdcə uçotunun obyektləridir ki, bunlar beynəlxalq mühasibat uçotunun standartlarına uyğun maliyyə hesabatlarının hazırlanmasına şərait yaradır (Government Finance Statistics Manual (GFSM), 2014).

DMS istifadə edən dövlətlər büdcəni tərtib edərkən gəlirlər və cari xərclər üzrə müəyyənləşmiş əməliyyat saldosu ilə əsaslı (kapital) xərclər arasında yaranmış fərqdən dövlət büdcəsinin **profisitini** və ya **kəsirini** müəyyən edir. Kəsir yarandıqda, ya maliyyə aktivləri üzrə yaranmış ehtiyatların ixtisarı aparılır, (yəni, maliyyə aktivlərinin əvvəlki illərdə yaranmış ehtiyatından istifadə və ya özəlləşmədən daxilolamar) ya da yeni borclanmalar vasitəsilə bu kəsir bağlanılır. Profisit yarandıqda isə əlbəttə ki, dövlətlər bu vəsaitlərə ya  maliyyə aktivləri üzrə ehtiyatların artımına şərait yaradan vəsaitlər kimi, ya da maliyyə öhdəliklərinin ixtisarını aparmağa imkan verən vəsaitlər kimi baxırlar (Cədvəl 5) . DMS əsasında Azərbaycanda büdcə göstəriciləri müəyyən qədər başqa rəqəmlərlə ifadə edilir, lakin burada rəqəmlər kassa metodu əsasında  formalaşdırılmışdır. Lakin hesablama metoduna keçid təmin edilərsə, həm gəlir və həm də xərc, büdcə kəsiri başqa göstəricilərlə ifadə olunacaqdır.

**Cədvəl 5 : DMS-də hökumət sektorunda əməliyyatlar haqqında hesabatlılıq (gəlirlər, xərclər, xalis borc vermə/borclanma, kəsirin maliyyələşdirilməsi)**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| **Aktivlərin xalis dəyərinin dəyişməsinə təsir edən əməliyyatlar** | | | | | | |
| Gəlirlər | 17 373,10 | 16 516,10 | 22 499,57 | 24 384,80 | 24 799,40 | 26 631,60 |
| Xərclər | 13 052,90 | 12 526,30 | 14 154,30 | 15 639,55 | 19 507,40 | 20 136,40 |
| **Xalis və ya məcmu əməliyyat balansı**[1] **( gəlirlər-xərclər (1-2))** | 4 320,20 | 3 989,80 | 8 345,27 | 8 745,25 | 5 292,00 | 6 495,20 |
| **Qeyri-maliyyə  aktivləri  ilə əməliyyatlar** | | | | | | |
| **Qeyri-maliyyə aktivləri üzrə xalis/məcmu investisiyalar**[2] | 3 168,81 | 3 702,90 | 6 821,40 | 7 554,80 | 5 750,70 | 5 697,80 |
| Məcmu xərclər (2+3) | 16 221,71 | 16 229,20 | 20 975,70 | 23 194,35 | 25 258,10 | 25 834,20 |
| **Xalis borc vermə (+) / Xalis borclanma (-) (1 - 2 - 3 =  4 - 5)** | 1 151,39 | 286,90 | 1 523,87 | 1 190,45 | -458,70 | 797,40 |
| **İlkin xalis borc vermə (+) / İlkin xalis borclanma** | 1 765,49 | 782,10 | 2 293,27 | 1 825,25 | 129,70 | 1 423,20 |
| **Maliyyə alətləri ilə əməliyyatlar** (Büdcə kəsirinin maliyyələşdirilməsi) | | | | | | |
| **Xalis maliyyə aktivlərinin əldə olunması** | -35,60 | -871,70 | -116,70 | -1 618,20 | 2 228,10 | 1 247,80 |
| **Xalis maliyyə öhdəliklərinin qəbul edilməsi** | -1 187,10 | -1 158,80 | -1 641,10 | -1 123,00 | 2 686,80 | 450,45 |

**Mənbə** : https://data.imf.org/regular.aspx?key=60991462 əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Hazırda dövlətlərin maliyyə əməliyyatları ilə bağlı 4 vacib hesabat hazırlanmaqdadır. Büdcə icrası hesabatları ilə gəlirlər, xərclər və büdcə kəsirinin maliyyələşdirilməsi üzrə istifadə edilən faktiki məbləğin nəzərdə tutulan büdcə qanununa uyğunluğu nəzərdə saxlanılır. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatda isə pul vəsaitlərindən istifadə baxımından hökumət sektorunun likvidliyinin qiymətləndirilməsi aparılır. Hökumət idarəetməsi sektorunda əməliyyatlar üzrə hesabatla dövlətlər hesablanmış gəlirlər və hesablanmış xərclər üzrə saldoya nəzarət edir. Digər iqtisadi axınlar barədə hesabat isə xüsusilə, aktivlərlə bağlı olan dəyər dəyişikliklərini ifadə edir ki, burada aktivlərin tərkibinə nəzər salınmaqla onların yenidən qiymətləndirilıməsi, aktivlərin əldə edilməsi və ya əldən çıxarılması ilə bağlı məqamlar diqqət çəkir (IMF, 2018) .

Azərbaycanda DMS-in prinsiplərinə riayət edilərsə, bu metodoloji baza əsasında mərkəzi hökumət büdcəsinin tərkibinə daxil olan institutsional vahidlər dəqiq müəyyən edilərsə, o cümlədən DMS-in (DMS-2014) istifadəsi üçün əsas şərtlərdən biri hesab edilən hesablama uçot metodundan istifadə edildikdə Azərbaycanda dövlət büdcəsi üzrə balansda (büdcə kəsiri) kəsirin azalması müşahidə ediləcəkdir. Məsələn, vacib institutsional vahid hesab edilən və dövlət borcunun idarə edilməsində vacib rol oynayan "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"nun (DBZÖTF) gəlirləri uzun zaman mərkəzi hökumət büdcəsinə daxil edilmədiyindən faktiki büdcə kəsirinin həcmi üzrə çoxlu suallar yaranmaqda idi. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə 2021-ci ildə qəbul edilmiş müvafiq qərarla "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"nun gəlirləri və xərcləri icmal büdcədən istisna edilmiş, DBZÖTF hüquqi şəxs yaratmadan müstəqil pul vəsaitlərinə malik büdcədənkənar fond kimi nəzərə alınmışdır. Ümumiyyətlə, Azərbaycanda gələcəkdə büdcə gəlirləri və xərcləri üzrə qanun layihəsi hazırlanarkən bütün mərkəzi hökumət büdcəsinə daxil olan institutsional vahidlərin bütün gəlir və xərcləri həmin layihəyə daxil edilməlidir ki, bu yanaşma həm də xalis büdcə kəsirinin həcminin də müəyyənləşməsinə kömək edəcəkdir. Azərbaycanda büdcə balansı kassa metodunun elementlərini özündə ehtiva edir, lakin inkişaf etmiş ölkələrdə dövlət sektoru və onun tərkibinə daxil olan hökumət sektorunda hesablama metodlu kəsir (accrual deficit) daha vacib göstərici hesab edilir. Xalis büdcə kəsirinin təyin edilməsi ilə bağlı düzgün yanaşmadan istifadə edilməsi, həm də kəsirlə bağlı cəlb ediləcək xarici kreditlərin səviyyəsini azalda bilər ki, bu da son nəticədə xarici dövlət borcunun səviyyəsində olan artımın qarşısını ala bilər.

**Cədvəl 6 : Azərbaycanda 2019-2021-ci illərdə büdcə kəsiri göstəriciləri**

| Göstəricilər | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|
| Büdcə gəlirləri (Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun daxilolmaları nəzərə alınmaqla) | 24398,5 | 26077,9 | 26631,7 | 30940,7 |
| Büdcə icrası qanunu üzrə büdcə gəlirləri | 24218,1 | 24681,7 | 26396,3 | - |
| Büdcə icrası qanunu üzrə büdcə xərcləri | 24425,9 | 26416,3 | 27422,4 | - |
| Büdcə qanununa görə büdcə kəsiri | -207,8 | -1734,6 | -1026,1 | - |
| Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun daxilolmaları nəzərə alınmaqla büdcə kəsiri | -27,4 | -338,4 | -790,7 | - |

**Mənbə:** Hesablama Palatasının materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Azərbaycanda proqnozlaşdırılan və icra edilən büdcə gəlirləri və büdcə xərcləri üzrə büdcə kəsirinin mövcudluğu, istifadə edilən büdcə kəsiri metodologiyasının və pul vəsaitlərinin idarə edilməsi üzrə yanaşmanın təkmilləşdirilməsini tələb edir. Belə ki, 2015-ci ildə dövlət büdcəsinin gəlirləri 17498,0 milyon manat, xərcləri isə 17784,5 milyon manat olmuş və nəticədə kəsir yaranmışdır ki, bu kəsir 286,5 milyon manat təşkil etmişdir. 2016-cı ildə də büdcədə yenə kəsir müşahidə olunmuş, son

nəticədə dövlət büdcəsinin kəsiri 245,6 milyon manat təşkil etmişdir. 2019-2020-ci illərdə də dövlət büdcəsinin icrası göstəriciləri üzrə kəsir müşahidə edilmiş, müvafiq olaraq bu kəsir 207,8 və 1734,6 milyon manat təşkil etmişdir. Göstərilən kəsir göstəriciləri fonunda bir vacib məsələni qeyd edək ki, 2019 və 2020-ci illərdə kəsir məbləğləri əslində daha az göstəricilərlə ifadə edilmişdir. Belə ki, Azərbaycanda son illərdə "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu (DBZÖTF)"nun gəlirlərinin bir hissəsinin dövlət büdcəsinin gəlirlərinə aid edilməməsi praktikası diqqət çəkməkdədir. 2019-cu ildə DBZÖTF-nın dövlət büdcəsində əks olunmuş daxilolmaları 57,8 mln.manata qarşı 180,4 mln. manat təşkil etsə də, ancaq Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin gəlirlərinin icrası ilə bağlı təqdim edilmiş hesabatlar göstərir ki, bu fondun daxilolmaları üzrə 2019-cu il üçün proqnoz və faktiki daxilolmalar kimi qeyd olunmamışdır. Azərbaycanda 2019-cu il büdcə icrasında DBZÖTF üzrə 180,4 mln. manat məbləğində daxilolmaları dövlət büdcəsi gəlirlərində nəzərə aldıqda, dövlət büdcəsinin kəsir məbləği dəfələrlə azalaraq **27,4** milyon manat təşkil etdiyini görə bilərik (Cədvəl 6). Azərbaycanda büdcə kəsirinin planlaşdırılmasında bu amili mütləq nəzərə almaq lazımdır və bu amil əsasında da büdcə kəsiri idarəçiliyində əsası olmayan xarici kreditlərin götürülməsi praktikası məhdudlaşdırılmalı, həm də dövlət borcunun səmərəli idarəçiliyi üçün xəzinədarlıq sistemində maliyyə menecmenti təkmilləşdirilməlidir. Digər tərəfdən, büdcənin icrasında istifadə olunan kassa metodu hesablama metodu ilə əvəzlənməli, planlaşdırılan büdcə balansı kassa metodu ilə deyil, hesablama metodu əsasında nəzərə alınmalıdır.

## Nəticə və Təkliflər

Azərbaycanda neft gəlirləri büdcə üçün kifayət qədər risklər yaradır ki, bu da fiskal qaydaların istifadənin zəruriliyini artırmaqla bərabər, digər vacib məsələlərin də həllini də aktuallaşdırır. Azərbaycanda dövlət büdcəsi göstəriciləri (büdcə gəlirləri və xərcləri), büdcə kəsiri və dövlət borcunun göstəriciləri xarici metodologiyalar əsasında başqa göstəricilərlə ifadə olunur. Dövlət Maliyyə Statistikası və Dünya Bankının borc statistikası metodologiyasında "dövlət sektoru" anlayışı var ki, məhz belə bir dövlət sektoru çərçivəsində Azərbaycanda büdcə göstəriciləri, büdcə kəsiri, dövlət borcu göstəricilərinin formalaşdırılmasına ehtiyac var. Azərbaycanda büdcə balansının hesablanması gələcəkdə kassa metodundan hesablama metoduna keçirilməlidir ki, bu yanaşmanı da inkişaf etmiş ölkələrin təcrübəsində görmək mümkündür. Büdcə kəsirinin hesablama metodu əsasında hesablanması ilə Azərbaycanda büdcə sektoruna aid olan bütün büdcə daxilolmaları büdcə gəlirlərinin tərkibində, faktiki xaricolmalar isə xərclərin tərkibində nəzərə alınacaqdır ki, burada yaranmış saldo dövlət maliyyəsi göstəriciləri ilə informasiyanın dərinliyini artırmaqla, borc idarəçiliyi ilə bağlı qərarların qəbulu prosesini kifayət qədər yaxşılaşdıra bilər. Azərbaycanda büdcə gəlirlərinin strukturu, büdcə xərclərinin strukturu dəqiq müəyyənləşdirilməli, o cümlədən real büdcə kəsiri göstəricisi dəqiq hesablanmalıdır. Eyni zamanda Azərbaycanda büdcə gəlirləri ilə müqayisədə büdcə xərcləri ilə bəzi tədbirlər aparılmalı, cari xərclərin artması fonunda cari xərclər üzrə bəzi ixtisarlar aparılmaqla bu xərclər optimallaşdırıla bilər.

## Ədəbiyyat siyahısı

https://eurasiahub.khazar.org/uploads/newsletters/AZ_Fiskal_Qaydalar.pdf .

IMF. (2009), Azerbaijan Country Economic Memorandum A New Silk Road: Export-led Diversification, World Bank, Report No. 44365-AZ, - 2009. - 150 pages .

https://www.pempal.org/ru/events/годовое-пленарное-заседание-бюджетного-сообщества-и-встреча-рабочей-группы-«повышение .

Vəliyev Z. (2020) , Fiskal dayanıqlıq (Nəzəriyyə və Praktika), Bakı, 2020 .

Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında Azərbaycan Respublikasının Qanun layihəsinə və Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabata Hesablama Palatasının rəyi / Azərbaycan Respublikası Hesablama Palatası - Bakı - 2022. - 148 s. https://sai.gov.az/files/R%C9%99y-2021_%20icra%2019.05.2022_yekun-183625280.pdf .

https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf .

Пятковская Ю. В. (2017), Правовое регулирование расходов бюджета субъектов Российской Федерации. — М., 2017.

Büdcə sistemi haqqında Azərbaycan Respublikasının Qanunu // 2 iyul 2002-ci il qəbul edilmişdir (29 iyun 2018 - ci il tarixdə olan dəyişiklik və əlavələr) - Bakı - 2002. - 29 s. , https://e-qanun.az/framework/1126 .

https://www.imf.org/en/Publications/fandd/issues/2020/09/what-is-debt-sustainability-basics .

10. Government Finance Statistics Manual (GFSM). (2014), International Monetary Fund (IMF) , https://www.imf.org/external/Pubs/FT/GFS/Manual/2014/gfsfinal.pdf .

https://datatopics.worldbank.org/debt/ids/country/AZE#

Швандар К.В., və Анисимова А.А. (2016), Фискальная консолидация: мировой опыт // Финансовая аналитика: проблемы и решения. 2016. №27 (309). URL: https://cyberleninka.ru/article/n/fiskalnaya-konsolidatsiya-mirovoy-opyt (дата обращения: 12.04.2023).

GAO. (2006) , Understanding Similarities and Differences Between Accrual and Cash Deficits, Government Accountability Office (GAO), USA, - 2006, 46 p .

IMF. (2018) , Fiscal transparency handbook / International Monetary Fund (IMF), Fiscal Affairs Department, - 2018. - 182 p.

# The Impact of COSO Model in Internal Control Systems of Accounting

**Matanat Ahmadova**

**Azerbaijan State Economic University**

**matanatahmed@gmail.com**

## Abstract

Since the end of the 20th century, with the end of protectionist industrial policies in the world and the increase in economic liberalization, globalized businesses and the economies of countries have been integrated. In this process, accounting and management scandals in large enterprises emerged, resulting in an insecure environment. In order to eliminate this environment, a system with an effective internal control process will be established besides a corporate structure, which will reveal both the problems in the activities and reliable accounting information. This ensures transparent, accountable and regulatory management. In the face of this situation, studies have started to be carried out as a guide for the establishment of an internationally accepted internal control system. Among these models, the most valid and applied model was the one developed by COSO. This research tries to describe control environment, risk assessment, control activities, information communication and monitoring components that complement each other. In addition, it includes two different types, which are administrative controls and accounting controls.

**Key Words:** internal control, accounting, COSO

## Xülasə

20-ci əsrin sonlarından etibarən dünyada proteksionist sənaye siyasətlərinin sona çatması və iqtisadi liberallaşmanın artması ilə qloballaşan bizneslər və ölkələrin iqtisadiyyatları inteqrasiya olundu. Bu prosesdə iri müəssisələrdə mühasibat uçotu və idarəçilik qalmaqalları ortaya çıxdı və nəticədə təhlükəsiz mühit yarandı. Bu mühiti aradan qaldırmaq üçün korporativ strukturla yanaşı, həm fəaliyyətdəki problemləri, həm də etibarlı mühasibat məlumatlarını üzə çıxaracaq effektiv daxili nəzarət prosesinə malik sistem yaradılacaq. Bu, şəffaf, hesabatlı və tənzimləyici idarəetməni təmin edir. Bu vəziyyət qarşısında beynəlxalq səviyyədə qəbul edilmiş daxili nəzarət sisteminin qurulması üçün bir bələdçi olaraq araşdırmalar aparılmağa başlandı. Bu modellər arasında ən etibarlı və tətbiq olunan model COSO tərəfindən hazırlanmışdır. Bu tədqiqat bir-birini tamamlayan nəzarət mühitini, risklərin qiymətləndirilməsini, nəzarət fəaliyyətlərini, informasiya kommunikasiyasını və monitorinq komponentlərini təsvir etməyə çalışır. Bundan əlavə, o, inzibati nəzarət və mühasibat nəzarəti olan iki fərqli növü əhatə edir.

**Açar sözlər**: daxili nəzarət, mühasibat uçotu, COSO

## Introduction

Internal controls are critical components for risk evaluation and management. However, incorporating internal controls into company processes is not always simple. The proposed COSO Internal Control Model provides enterprises with a strategic direction. This framework assists firms in incorporating internal controls and internal controls management into their day-to-day operations. It provides shareholders and the management with assurance that the firm adheres to ethical and security requirements. Organizations that use the COSO Internal Control Model can become more efficient, secure, and, ultimately, resistant as the risk landscape changes. The goal of this study is to investigate the internal control system process and the significance of the COSO model in internal control. The databases utilized in the implementation of the chosen methodologies comprise the key areas of specific economic literature on themes related to the chosen study field, as well as scientific studies conducted by foreign experts. Moreover, the limitation of the study is that it only provides information on the internal control system over the COSO model.

**Discussion of the Research**

In the "Professional Practice Standards" published by the International Institute of Internal Auditors (IIA), the concept of control is defined as all actions taken by management, the board of directors and other units of the enterprise to manage risk and increase the likelihood of achieving the goals and objectives set by the enterprise. Thus, business management will provide reasonable assurance to achieve goals and objectives by planning and directing appropriate measures. First of all, the generally accepted definition of the concept of control is expressed as follows: “It is a process in which it is determined whether the activities are carried out to the extent planned, the obvious deviations are eliminated, and the activities are observed” (Robbins and Decenzo, 2004).

Internal control is now treated as a management function. In the growth process of physically growing businesses, their activities become more complex, and their operations increase numerically. Business management needs reliable data quickly in order to protect its assets, correct errors, identify revenues, and thus provide tools for evaluating business policy (Holmes and Wayne, 1975).

In the execution of the control function, with the change that emerged over time, it is no longer an activity performed by a few people, but it has become an activity done professionally as a team. In addition, while it was made in a limited number, it turned into a process that was repeated many times at certain intervals. As a result, the control function has become possible with the "internal control systems" created within the enterprise. In other words, control function and internal control are combined in enterprises. Definitions have been made by many professional organizations for the definition and evaluation of internal control and the establishment of standards. The first definition took place in an audit report published by the American Institute of Accountants in 1949. It was defined the concept of internal control as a function consisting of all the measures and methods adopted and put into practice in order to protect the organizational plan and business assets, to investigate the accuracy and reliability of accounting information, to increase the efficiency of activities, and to encourage adherence to determined management policies (https://www.aicpa-cima.com/home).

Internal control is the name of the control system created by the business management to ensure the accuracy and completeness of the accounting records as much as possible, to protect the business assets, to ensure adherence to management policies and to ensure the regular and effective operation of the business. Internal control is all the policies and procedures determined by the management to help prepare reliable financial information in a timely manner by making complete and accurate accounting records, detecting and preventing errors and corruption, protecting assets, operating in accordance with management policies, and achieving the objectives determined by the business management (https://www.investopedia.com/terms/i/internalcontrols.asp).

Internal control is to protect a company's assets, to ensure the accuracy and reliability of information and reports on accounting and other activities, and to increase efficiency in the activities of the business. In addition, it can be defined as a system that covers all the measures and methods used to determine the compliance of business activities with the policies determined by the business management, the establishment of the chart of accounts and reporting system, the determination of duties, authorities and responsibilities, and the organizational plan of the business (Türedi and Karakaya, 2017).

According to COSO (Committee of Sponsoring Organizations), internal control is a method established and controlled by the company's senior management or board of directors to provide

“İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları”nın təsdiq edilməsi barədə. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 25 dekabr 2018-ci il tarixli, Q-13 saylı qərarı;
Jeniffer.L, Schiff.J, Kagan.K.(2020) Inventory Control: How to Optimize Your Inventory Levels and Boost Profit, Retail Operations and Store Management journal, 26-31
John.A.M.(2014) "Effective Inventory Management: Importance and Techniques". Journal of Business and Management. 15-20
Kərimov.K.S.(2021) Sənaye müəssisələrinin idarə edilməsində kontrolinq sisteminin tətbiqinin səmərəliliyinin əsaslandırılması. Tikintinin İqtisadiyyatı və menecment elmi-praktiki jurnalı. 145-146
Qəhrəmənov.R.R. (2006) Mühasibat uçotu və audit(dərslik). Bakı.176-190
Məmmədov.T.Ə, Hüseynov.R.M. və Quliyev.M.R.(2019) "Mühasibat auditinin müasir problemləri".Bakı. 52-70
"Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu. 4 May 2018-ci ildə dəyişiklik edilmiş redaksiyası. Bakı, 2018
Nəbiyeva.G.İ.(2015) “Material ehtiyatlarından istifadənin uçotunun təkmilləşdirilməsi” adlı magistr dissertasiyası.17-43
Orucov.Ş.O.(2010) Maddi-texniki təminatın iqtisadiyyatı və planlaşdırılması. Bakı.100-120.
Salahov.Ə.S. (2008) Mühasibat uçotunun kompyüterləşdirməsi. Bakı. 111-127
Tanrıverdiyev.Q.Ə.(2019) Ehtiyatların və kreditor borcların uçotu .3-4
Yibin.Z., Victor.S., Patrick.G., Feng.W.(2014) Repealing the LIFO Inventory Accounting Choice? A Review of LIFO and Inventory Management. American.

# Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartı ilə Tam Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının Oxşar və Fərqli cəhətləri, Ehtiyatların Uçotu Timsalında

**Nərmin Eyvazlı**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**narmin422@gmail.com**

## Xülasə

Kiçik və ya orta sahibkarlıq subyektləri (bundan sonra KOS) tərəfindən tərtib olunmuş maliyyə hesabatlarının əsas məqsədi müəssisənin maliyyə vəziyyəti, ümumi fəaliyyəti göstəriciləri və pul vəsaitlərinin hərəkəti haqqında iqtisadi qərarların qəbulu üçün faydalı olan əhəmiyyətli məlumatları təmin etməkdir.Bu səbəbdən onların sadələşdirilmiş təkmil hesabatlılıq mexanizmlərinin olması vacibdir.Tədqiqatımızda isə bunun üçün atılan addım KOS üzrə BMHS və tam BMHS müqayisəsi əks olunur.Belə ki, həmin standartla tam BMHS arasında nə kimi oxşar və fərqli cəhətlərin araşdırılması qarşıya hədəf kimi qoyulmuş və müəyyən ölçüdə fərqliliklər aşkarlanmışdır.Habelə buna əlavə olaraq müəyyən sadələşdirilmələrin daha da artırılması təklif olaraq təqdim edilir.

Beynəlxalq Maliyyə Hesabatı Standartları Şurası maliyyə hesabatlarının müqayisəsini və anlaşıqlı olmasını təmin etmək üçün vahid mühasibat prinsipləri və təlimatlarından ibarət olan sənədlər (standart, şərhlər) təqdim edir. 2009-cu ildə BMHS Şurası kiçik və orta sahibkarlıq subyektləri üçün BMHS təqdim etmişdir. BMHS Şurasının məqsədi kiçik və orta sahibkarlıq subyektləri sektoruna xərc baxımından daha səmərəli və tam MHBS-dan daha az mürəkkəb bir standart təmin etmək idi. KOS-lar qlobal iqtisadiyyatda xüsusi rol oynayır. Buna görə əsas diqqətin KOS-ların inkişafına və saxlanmasına yönəldilməsi son dərəcə vacib məsələlərdəndir. Bu araşdırma, KOS-lar üçün BMHS -nın nə dərəcədə sadə və effektiv olmasını və öz hədəflərini nə dərəcə nail olub olmadığını müəyyən etmək məqsədi ilə aparılmışdır.

**Açar sözlər:**kiçik və orta sahibkarlıq,informasiya,beynəlxalq standart

## Abstract

The main purpose of financial statements compiled by SMEs is to provide significant information useful for making economic decisions about the financial condition of the enterprise, general performance indicators, and cash flows. For this reason, it is important that they have simplified and advanced accountability mechanisms as well. In our study, the comparison of IFRS and full IFRS for SMEs can be considered as one step taken for this. Thus, the study of the similarities and differences between this standard and the full IFRS was set as a goal and some differences were revealed. In addition to this, it is proposed to increase simplifications. In 2009, the IFRS Foundation introduced IFRS for SMEs. The aim of the IFRS Foundation was to provide SME sector with a more cost-effective and less complex standard than the full IFRS. SMEs play a special role in the global economy. Therefore, the focus of attention on the development and maintenance of SMEs is one of the extremely important issues. This study was conducted with the aim of determining how simple and effective IFRS for SMEs can be and to what extent they achieve their goals.

**Keywords:** small and medium business, accounting, standard

## Giriş

KOS-lar iqtisadiyyatın davamlı inkişafı üçün əhəmiyyətli bir rol oynamaqla, modernləşmənin, innovasiyanın və sahibkarlıq ruhunun əsas mənbəyi hesab olunur.Belə ki, bununla yanaşı artan KOS subyektlərinin sayını da nəzərə alınmaqla tədqiqatın aktuallığı formalaşır.

2001-ci ildə Beynəlxalq Maliyyə Hesabatı Standartları (BMHS) Şurası, kiçik və orta sahibkarlıq subyektləri üçün daha uyğun standart ərsəyə gətirmək üçün yeni bir layihəyə başladı. Bununla bağlı məsələlər, alternativ və potensial həll yolları barədə məsləhət vermək üçün mütəxəssislər qrupu yaradıldı. Və 9 il ərzində aparılan çox saylı müzakirələr, dəyişikliklər,sınaqlardan sonra KOS-lar üçün BMHS ilk nəşri 2009-cu ilin iyul ayında buraxıldı(Beynəlxalq Maliyyə Hesabatları Standartları,2022).

Həmin standarta görə KOS-lara ictimai hesabat vermə öhdəliyi olmayan və eyni zamanda kənar istifadəçilərə ümumi məqsədli maliyyə hesabatları nəşr edən müəssisələr aid edilir.

Müəssisənin ictimai hesabat vermə öhdəliyi isə, o halda formalaşır ki:

a. onun borc və pay alətləri açıq bazarda tədavül edilir və ya belə alətləri buraxmaq prosesindədir.
b. müəssisə kommersiya fəaliyyətinin bir hissəsi kimi, kənar şəxslərin geniş qrupunun aktivlərinə münasibətdə fidusiar qismində çıxış edir.

KOS subyektləri üçün olan sözügedən Standartın hər bir bölməsində təqdim edilən mövzular KOS-ların məqsədlərinə uyğunlaşdırılaraq hazırlanmışdır. Və hal hazırda əksər ölkələrin yurisdiksiyalarında standartın qəbul edilməsi və yayılması əhəmiyyətli şəkildə nəzərə çarpır.

## KOS-lar üzrə BMHS və Tam BMHS Qarşı Qarşıya

KOS-lar üçün BMHS tam BMHS-dən fərqli struktura malik olub, KOS-ların maliyyə hesabatlarının istifadəçilərinin ehtiyacları və habelə xərc və fayda arasındakı balans nəzərə alınaraq hazırlanmış bir standartdır. Bu məqsədlə standartın hazırlanması zamanı müəyyən sadələşdirilmələr aparıldı.

KOS-lar üçün BMHS hansı şəkildə sadələşdirildi (Pwc,2009)?

- Tam BMHS da olan bəzi mövzular tamamilə çıxarılmışdır.
- Tam BMHS-da olan bəzi uçot siyasətlərinə daha sadələşdirilmiş metodlar mövcud olduğundan icazə verilmədi.
- Tam BMHS-da mövcud olan tanınma və qiymətləndirmə prinsiplərinin əksər hissəsi sadələşdirildi.
- Açıqlamalara qoyulan tələblər əhəmiyyətli şəkildə azaldıldı.

Çıxarılan mövzulara aid edilir:

a. Səhm üzrə mənfəət (BMS 33)
b. Aralıq maliyyə hesabatlılığı(BMS 34)
c. Seqment hesabatlılığı(BMHS 8) və s.

Bununla belə, əgər bir kiçik və orta sahibkarlıq subyekti çıxarılan mövzulardan hər hansı birinə uyğun fəaliyyət göstərmişdirsə, ona KOS üçün BMHS tələblərinə əlavə olaraq belə bir məlumatı qeyd etməsi qadağan edilmir.

**Tədqiqat Metodu**

Tədqiqat məqsədi ilə bir neçə mənbələrə müraciət edilərək aparılmış daha öncəki tədqiqatlardan, aparılan təcrübələrdən istifadə edilmişdir. Məlumatlar tədqiqat metodu olaraq cədvəl şəklində tərtib olunaraq müqayisə edilmiş və məqalədə şərh edilmişdir.

**Analiz**

**Ehtiyatların Uçotu** – BMHS və KOS üçün BMHS-də hansı şəkildə izah olunur və nə kimi sadələşdirilmələr aparılmışdır?

Ehtiyatların uçotunun KOS-lar tərəfindən hansı şəkildə aparılması ilə bağlı KOS üçün BMHS-də 13-cü bölmə ayrılmışdır.Tam BMHS-da isə ehtiyatların uçotu üçün 2 nömrəli standart mövcuddur. Biz hər biri standartı müvafiq olaraq müqayisə etməklə hansı sadələşdirilmələrin aparılmasını və ya ümumiyyətlə aparılan sadələşdirilmələrin həqiqətən mövcud olmasını və ya bununla bağlı təklifləri bildirə bilərik.

**Tətbiq sahələri**

KOS üçün BMHS-nın ehtiyatlarla bağlı müvafiq 13-nömrəli bölməsində ehtiyatlar necə tanınmalı, qiymətləndirilməsi prinsipləri barədə məlumatlar şərh edilir.Standarta əsasən birbaşa əlaqəsi olan xidmət müqavilələri daxil edilməklə, tikinti müqavilələri əsasında icrası tamamlanmamış istehsal ,maliyyə alətləri,kənd təsərrüfatı fəaliyyəti ilə bağlı olan bioloji aktivlər və yığım mərhələsində olan kənd təsərrüfatı məhsulları istisna , digər bütün mal material ehtiyatların uçotuna bu bölmə tətbiq olunur. Bundan fərqli olaraq Ehtiyatların uçotunun aparılmasına dair 2-nömrəli tam BMHS-da birbaşa əlaqəsi olan xidmət müqavilələri daxil edilməklə, tikinti müqavilələri əsasında icrası tamamlanmamış istehsal istisna edilmir və standartın tətbiq sahəsinə aid edilir. KOS üçün BMHS-da isə bu barədə standartın 23 nömrəli Gəlirlər bölməsi tətbiq edilməli olduğu bildirilir (Cəfərov, 2022).

BMHS Fondu tərəfindən tərtib olunmuş KOS üzrə BMHS istifadəçilərinə asanlıq yaratmaq üçün detaylı izahlardan ibarərət material təmin edilmişdir.Həmin dəstəkləyici materiala əsasən, tətbiq sahələri ilə bağlı belə bir nümunəyə nəzər salaq:

Çaxırsatan üzüm bağlarından yığılan üzümləri üç illik istehsal dövrü ərzində şərab halına gətirir.

Məhsul yığımı nöqtəsindən istehsalçı tərəfindən şərabın tanınmasına qədər üzümlər inventardır. Onlar satış üçün istehsal prosesində materialdır.

Qeyd: Məhsul yığımına qədər üzümlər inventar deyil - onlar bioloji aktivlərdir (34.2-ci bəndin tətbiqi üçün uçota alınır)(BMHS,2022).

İndi isə lisenziya satan bir şirkət timsalında bu bölmənin tətbiqinə nəzər yetirək.Lisenziya satan şirkət üçün lisenziya, onun qeyri maddi aktivi deyil, onun ehtiyatı hesab edilir. Lisenziya burada adi fəaliyyət siklində satış üçün saxlanılan aktivlərdir(BMHS,2022).

**Ehtiyat anlayışının şərhi**

Hər iki standarta əsasən , ehtiyatlar dedikdə,

a. adi fəaliyyət siklində satış üçün saxlanılan;
b. bu cür satış üçün istehsalat prosesində olanlar; və ya

c. istehsal prosesində və ya xidmət göstərilməsi prosesində istehlak edilən materiallar və ya ehtiyatlar nəzərdə tutulur( BMHS,2022).

**Ehtiyatların qiymətləndirilməsi məsələləri**

Hər iki standarta əsasən, aşağıdakı növ ehtiyatların qiymətləndirilməsi bu standartlarla nizamlanmır:

a. mənfəət və zərər yolu ilə olan satış üçün olan xərclər çıxılmaqla ədalətli dəyər əsasında qiymətləndirilən kənd təsərrüfatı və meşə məhsullarının, yığımdan sonrakı kənd təsərrüfatı məhsullarının və yeraltı sərvətlər və yeraltı sərvətlərin istehsalçıları; və ya
b. mənfəət və ya zərər yolu ilə satış üçün olan xərclər çıxılmaqla mal-material ehtiyatlarını ədalətli dəyər əsasında qiymətləndirən əmtəə brokerləri və dilerləri( BMHS,2022).

Hər iki hala praktiki misalla baxsaq:

a. Fındıq satışı ilə məşğul olan istehsalçı məhsul yığımdan dərhal sonrakı aylarda qiymətlərin qalxacağını düşünür və fındıqları anbarda saxlayır. İstehsalçı öz ehtiyatlarını (fındıqları) satış üçün olan xərclər çıxılmaqla ədalətli dəyər əsasında və eyni zamanda dəyərin qalxmasını nəzərə alaraq mənfəət və zərər tanımaqla qiymətləndirməlidir.
b. Əmtəə brokerləri və dilerlər isə yaxın gələcəkdə qiymətlərinin qalxacağını düşünərək ehtiyatlara(qızıl,taxıl,xam neft və s.tipli) sahib olur və qiymət qalxmağından qazanc əldə etməyi hədəfləyirlər.Bu kimi ehtiyatların qiymətləndirilməsi satış üçün olan xərclər çıxılmaqla ədalətli dəyər əsasında və eyni zamanda dəyərin qalxmasını nəzərə alaraq mənfəət və zərər tanımaqla aparılmalıdır.

Digər hallarda isə bütün ehtiyatların qiymətləndirilməsi hər iki standarta əsasən, iki dəyərin müqayisəsi yolu ilə aparılır. 2-nömrəli tam BMHS –da mümkün xalis satış dəyəri ilə ilkin dəyər müqayisə olunur. KOS üçün BMHS-da isə bu müqayisə ilkin dəyərlə satış qiyməti çıxılsın satış üçün çəkilən xərclər arasındakı dəyərin müqayisəsi yolu ilə - ən aşağı olanı seçilməklə aparılmalıdır.Tam BMHS- da mümkün satış dəyərinin izahı isə belə verilir:

- Mümkün xalis satış dəyəri – müəssisənin işinin normal gedişatı zaman nəzərdə tutulmuş satış qiymətindən işin tamamlanmasına çəkilməsi ehtimal edilən xərclər və satışın həyata keçirilməsi üçün ehtimal edilən xərclər çıxıldıqdan sonra qalan məbləğdir( “Ehtiyatlar” adlı 2 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı,2022).

**Ehtiyatların ilkin dəyəri** anlayışları isə hər iki standart üzrə ( KOS üçün BMHS-da 13.6, tam BMHS-da isə 2.11 bölmə) oxşar şəkildə şərh edilmiş və özündə ehtiyatların bütün satınalma xərclərini,işlənib hazırlanma xərclərini, mövcud vəziyyətə gətirilməsi üçün lazımi digər xərcləri özündə ehtiva etməlidir.

İlkin dəyərin hesablanması ilə bağlı olaraq belə bir nümunəyə nəzərə yetirək:

Müəssisə istehsal fəaliyyəti ilə məşğul olan müəssisəyə malsatan tərəfindən təqdim edilən hesab-fakturaya əsasən 200 qutudan ibarət olan kağızın cəmi qiyməti 14000 manat təşkil edir. Bununla yanaşı, müəsisə əldə etdiyi materialların daşınması üzrə digər müəssisəyə 1000 manat məbləğində, idxalla bağlı əməliyyatın aparılmasına görə isə, 2000 manat məbləğində olan idxal rüsumu ödənilməlidir(Cəfərov,2022).

Beləliklə, müəssisənin balansında olan 1 ədəd kağız qutunun ilkin dəyəri hesablayaq:

Kağızın alınması (14000:200)=70 azn

İdxal rüsumunun hesablanması (2000:200)=10 azn

Daşınma xərci (1000:200)=5 azn

Cəmi vahid düşən material ehtiyatı 85 azn təşkil edəcəkdir(Cəfərov,2022).

**Satınalma xərcləri** KOS üçün BMHS-nın 13.8, tam BMHS isə 2.12 bölmələrində şərh olunur.Hər iki standartda alış qiyməti,idxal üçün gömrük rüsumları və digər vergilər,nəqliyyat və daşınma, hazır əmtəə və materialların və xidmətlərin alınması ilə birbaşa bağlı olan digər xərclər satınalma xərclərinin hesablanmasında nəzərə alınır.

**Emal xərcləri** də hər iki standartda eyni anlamda şərh edilmiş və bu tip xərclərə işçilərin birbaşa əmək haqqı kimi istehsalat vahidinə birbaşa bağlı olan məsrəflər daxildir. Buraya, həmçinin xammalın emalı zamanı yaranmış sabit və dəyişən istehsal xərclərinin sistematik paylanması da daxil edilir.

Belə ki, deyə bilərik ki, əgər müəssisə bir ay ərzində 2500 ədəd mal istehsalı üçün 30 min azn sabit istehsal xərci çəkmişdir.Eyni zamanda normal istehsal həcmində də müəssisə 2500 ədəd aylıq olaraq istehsal edir. Bu halda hər bir ədəd düşən sabit istehsal xərci 12 azn təşkil edəcəkdir. Hesablanması: ümumi sabit istehsal xərci/ istehsalın normal həcmi=vahidinə düşən sabit istehsal xərci (Pwc,2009).

**Digər məsrəflərlə** bağlı isə xüsusi bir məqam vardır ki, KOS-lar üçün BMHS- da fərqli yanaşma tətbiq edilir. Belə ki, “Borclar üzrə” məsrəflər KOS-lar üçün BMHS-da 25-ci bölmə üzrə tənzimlənərək müəssisənin xərci kimi tanınmalı olduğu halda, tam BMHS-da “Ehtiyatlar” adlı 2 №-li standarta uyğun hallarda məhdud hal kimi ehtiyatların ilkin dəyərinə daxil edilir. Bu halı isə standartda KOS-lar üçün tətbiq edilən sadələşdirilmə hesab etmək olar.

**İlkin dəyərə daxil edilməyən məsrəflərə** hər iki standartda eyni şəkildə yanaşılır və onlara tullantı materiallarının, işçi qüvvəsinin və digər istehsal xərclərinin normadan artıq sərf edilən məbləği, saxlanma məsrəfləri (əgər bu xərclər sonrakı istehsal mərhələsindən əvvəl istehsal prosesində vacibdirsə),ehtiyatların cari vəziyyətə gətirilməsi ilə bağlı olmayan inzibati xərclər, və satış məsrətləri aid edilir.

Məsələn, hazır məhsulu anbarda saxlayarkən anbar icarəsi ilə bağlı xərcləri məhsulun dəyərinə əlavə edilmir, çünki belə bir xərc məhsulu cari vəziyyətə və yerə gətirilməsi ilə bağlı deyildir.

Eyni zamanda parça istehsalı ilə məşğul olan müəssisədə normada olan itki həcmi 2000 azn təşkil edirdisə, itki həcmi hər hansı səbəbdən normanı aşan zamanı yaranan əlavə məbləğ ilkin dəyərə əlavə edilə bilməz(Pwc,2009).

**İlkin dəyərin hesablanması metodları** ilə bağlı KOS-lar üzrə BHMS-in 13.17-13.18 maddəsində açıqlanmış və tam BMHS –da müvafiq standartın 23-27-ci maddələrində yer verilmişdir.Hər iki standartda oxşar şərhlər verildiyini görmək mümkündür. Belə ki, hər iki standarta görə ilkin dəyər adətən bir birini əvəz edə bilməyən, qarşılıqlı mübadilə edilməyən əşyalar, xüsusi layihələr üçün istehsal etdikləri və bölüşdürdükləri əmtəə və xidmətlər əsasında fərdi ilkin dəyərlərinin xüsusi identifikasiyasında istifadə edərək xüsusi olaraq qiymətləndirməlidir. Digər hallarda isə müəssisə öz mal-materialların ilkin dəyərini “ilk mədaxil – ilk məxaric” (FİFO) metodundan və yaxud orta dəyər

formulundan istifadə edərək qiymətləndirməlidir. Hər iki standart "Son mədaxil-ilk məxaric" (LİFO) metodunun istifadəsini qadağan edir.

**Bioloji aktivərdən alınmış kənd təsərrüfatı məhsullarının dəyəri** KOS üzrə BMHS-da belə şərh olunur:

-Müəssisənin öz bioloji aktivlərindən əldə etdiyi kənd təsərrüfatı məhsullarını təşkil edən mal-material ehtiyatları ilkin tanınma zamanı məhsul yığımı anındakı ehtimal edilən satış xərcləri çıxılmaqla öz ədalətli dəyərləri əsasında qiymətləndirilməlidirlər. Bu bölmənin tətbiqinə uyğun olaraq, bu, həmin tarixdə inventarların ilkin dəyəri kimi qəbul edilir(KOS üzrə BMHS,2022).

Bu isə onu ifadə edir ki, həm tam BMHS-də həm KOS-lar üçün BMHS-da eyni şəkildə yanaşılır.

Belə ki, bu məsələni daha detaylı standarta əsasən açıqlasaq(Pwc,2009).

- Çaxır əldə edilməsi prosesini gözdən keçirək. Üzümlər KOS üzrə BMHS-nın 34.2-ci maddəsinin tətbiqi əsasənda uçota alınamalı olan bioloji aktivlərdir. Məhsul yığımına qədər də çaxır üçün nəzərdə tutulan üzümlər inventar hesab edilmir - onlar 34.5-ci bəndin tətbiqi üçün uçota alınan bioloji aktivlərin bir hissəsidir. Məqsədindən (yəni şərab və ya süfrə üzümü olmasından) asılı olmayaraq, məhsul yığımı zamanı isə bu bölmə (KOS üzrə BMHS-nın 13-cü bölməsi) tətbiq edilərək inventar uçota alınır. İnventar kimi ilkin tanınma zamanı (yəni məhsul yığımında) üzüm satış üçün təxmin edilən məsrəflər çıxılmaqla ədalətli dəyəri ilə qiymətləndirilir. Bu halda, ehtiyatın ilkin dəyəri süfrə üzümləri bazarına istinadən müəyyən edilə bilər.

**İlkin dəyərin qiymətləndirilməsi metodları - normativ xərclər üzrə uçot metodu, pərakəndə qiymətlər üzrə uçot metodu və ən son alış qiyməti üzrə uçot metodu**

KOS üzrə BMHS-da bu məsələ müvafiq 13-cü bölmənin 16-cı maddəsinə açıqlanmışdır və tam BMHS-da qiymətləndirmə metodları "Ehtiyatlar" adlı 2 №-li standartın 21-22 bölmələrində şərh edilmiş və müqayisə nəticəsində görmək mümkündür ki, ən son alış qiyməti üzrə uçot metodu tam BMHS-da vurğulanmamışdır.

Nümunələrlə qeyd olunan metodlara açıqlıq gətirə bilərik:

Dərman istehsalı ilə məşğul olan müəssisə idarəetmə uçotu məqsədi ilə əgər nəticə ilkin dəyərə yaxınlaşırsa, öz ehtiyatlarını standart qiymətləndirmə və ya normativ xərclər üzrə uçot metodu ilə uçota ala bilər. Standart dəyər üzrə qiymətləndirmə, xammal və avadanlıqların, işçi qüvvəsinin səmərəliliyin və tutum istifadəsinin normal səviyyələrini nəzərə alaraq aparılır.

Pərakəndə satışla məşğul olan müəssisə isə öz ehtiyatlarının uçotunu pərakəndə qiymətlər üzrə uçot metodunu tətbiq etməklə müvafiq artım həddi faizini nəzərə alınaraq ehtiyatların satış dəyərini azaltmaqla qiymətləndirə bilər.

Pərakəndə satışla məşğul olan şirkət timsalında ola da bilər ki, müəssisə hesabat dövrü ərzində bir neçə fərqli təchizatçılardan daha yuxarı qiymətə əhəmiyyətli şəkildə ilkin dəyərə təsir edə biləcək miqdarda xammal alsın və satıcı bunu öz maya dəyərinə ən son alış qiyməti üzrə uçot metodu tətbiq etməklə qiymətləndirə bilər(Pwc,2009).

**Məlumatların açıqlanması** ilə bağlı hər iki standartda məqsədə uyğun olaraq tələblər qoyulmuşdur. Belə ki, KOS üzrə BMHS-da daha az açıqlanmalı olan məsələlər olduğu halda, tam BMHS da tələblərin

sayı daha çoxdur. Belə ki, KOS üzrə BMHS- da ehtiyatlarla bağlı aşağıdakı məlumatların açıqlanması tələb olunur:

(a) istifadə edilmiş dəyər formulu da daxil olmaqla, mal-materialların qiymətləndirilməsində qəbul edilmiş uçot siyasəti.

(b) mal-materialların balans dəyərinin cəmi və müəssisəyə uyğun təsnifləndirilmələrdə olan balans dəyəri.

(c) dövr ərzində xərc kimi tanınmış mal-materialların məbləği.

(d) Bölmə 27– "Aktivlərin dəyərsizləşməsi"nə uyğun olaraq tanınmış və ya mənfəət və ya zərər olaraq uyğunlaşdırılmış qiymətdən düşmə zərərləri.

(e) öhdəliklər üçün girov olaraq qəbul edilmiş mal-materialların cəmi məbləği.

"Ehtiyatlar" adlı 2 №-li standartın isə tələbləri bunlardan əlavə olaraq:

- satış üzrə xərclər çıxılmaqla, ədalətli dəyəri ilə uçota alınmış ehtiyatların balans dəyəri;
- standartın 34-cü maddəsinə uyğun olaraq, hesabat dövrü ərzində ehtiyatların məbləğinın xərc kimi tanınaraq silinmiş məbləği;
- standartın 34-cü maddəsinə uyğun olaraq, hesabat dövrü ərzində ehtiyatların xərc kimi tanınmış məbləğinin azalması kimi tanınan hər hansı silinmənin hər hansı bərpa edilmə məbləği;
- standartın 34-cü maddəsinə uyğun olaraq, ehtiyatların məbləğinın silinməsinin bərpasına gətirib çıxaran hadisələr və ya səbəblər;

açıqlanmalı olan məlumatlar siyahısındadır.

Qeyd edilənləri nəzərə alaraq demək olar ki, bu hal ilə bağlı müəyyən sadələşdirmələrin olması göz qabağındadır.

**Nəticə və Təkliflər**

KOS-lar üçün tərtib olunmuş sözügedən standart özü ayrıca müstəqil bir standart olmaqla,habelə, mövcud BMHS standartlarına əsaslanan mühasibat prinsiplərini əhatə edir.Bununla belə,standart onun aid olduğu təşkilatların ehtiyaclarını ödəmək üçün sadələşdirilmişdir. Kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə hesabatlarının istifadəçiləri üçün əhəmiyyətsiz ola biləcək bir sıra maddələr çıxarılmışdır.

Ehtiyatların uçotu üzrə tərtib olunmuş standartda da aparılan əsas sadələşdirmələr bu şəkildədir (Pwc,2009) :

- "Borclar" üzrə məsrəflərin birbaşa olaraq xərc kimi tanınmasına icazə verilmişdir.
- Tələb olunan açıqlamaların sayı azaldılmışdır.

Aparılan sadələşdirmələrə baxmayaraq, müqayisə nəticəsində daha çox sadələşdirmələrə ehtiyac olduğu göz qabağındadır.Belə ki, KOS subyekləri üçün bu qədər mürəkkəb əməliyyatların olmaması nəzərə alınmalı və daha sadə hesabatlılıq mexanizminin təşkil olunması labüd məsələlərdəndir.

Bu məqsədlə isə müəyyən metodların KOS subyeklərinə müvafiq olaraq sayının azaldılması və daha sadə metodların tətbiqi üçün şərait yaradılması onlar üçün təmin edilməlidir.

**Ədəbiyyat Siyahısı**


www.iasplus.com/en/standards(18.03.2023)

Azərbaycan Dövlət Statistika komitəsi, www.stat.gov.az/(24.03.2023)

Azərbaycan Respublikası Maliyyə Nazirliyi, www.maliyye.gov.az/(23.03.2023)

Azərbaycan Milli Elmlər Akademiyası, www.science.gov.az/ (23.03.2023)

www.researchgate.net/ (18.03.2023)

E.O,Cəfərov, "Ehtiyatlar" adlı 2 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartına uyğun olaraq maliyyə əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi xüsusiyyətləri, Audit, uçot və statistika jurnalı, Bakı,2022

E.O.Cəfərov və N.M.Musayeva: Kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə hesabatlarına dair bəzi məsələlər // Audit, uçot və statistika jurnalı, Bakı, 2022

PricewaterhouseCoopers' Similarities and differences- Comparison of full IFRS and IFRS for SMEs (2009).

IFRS Foundation—Supporting Material for the IFRS for SMEs Standard,2018

Neag, R., Masca, E., & Pascan, I. (2009). Actual Aspects Regarding The IFRS For SME

# The Traffic Congestion in Baku Leads to Economic Crisis: Comparative Analysis of Congestion Costs

**Ali Mammadov**

**Researcher at ADA University, School of Public and International Affairs**

**amammadov7893@ada.edu.az**

## Abstract

This research paper mainly consists of the importance of issue, the problem description, the factors which affect to the problem, the recommendation to the issue and conclusion and final remarks. The paper analyses the effects of traffic congestion on micro and macro level of Economy in Azerbaijan. The purpose of this research is to analyze factors influencing the time and cost-consuming traffic congestion of Baku and propose some recommendations in the Economic sense. In addition to being a problem that affects the quality of life of people in urban areas, the chronic traffic congestion can seriously damage personal finance, and ultimately economy in the macro sense. It is also included the comparative analysis of the costs that people are losing in the traffic congestion. Main indicators are taken as secondary data and being calculated for everyone in Baku. Moreover, a comparative analysis with other countries that put their efforts to deal with the traffic jam issues and their effects on the Economy is provided. As a methodology for this specific research, secondary data has been used, including governmental statistics including information from Azerbaijan Statistics Committee, internet websites such as Numbeo, ViaMichellin, and other relevant articles and the interviews by experts in this field.

**Keywords:** Traffic congestion, Azerbaijan Economy, Personal Finance

## Description and Evidence of an Issue or Problem

In the contemporary world, traffic jams are among the main problems in the world and have serious economic, environmental and human health consequences. Every morning people hit the road early to reach their workplace with stop-go, horn sounds of thousands of vehicles, and spend hours in traffic. A driver stuck in a traffic jam for hours suffers economic damage by using extra fuel, environmental damage by extra gas released, and psychological damage by nervousness and stress. To think that there are millions of such drivers every day suggests some pretty terrifying numbers. According to the October 2014 report jointly prepared by the American company "INRIX" and the "Economics and Business Analysis Center", a specialist in car services and transportation analysis, due to population growth, increased gross domestic product, lower fuel prices, and increased car ownership, the direct or indirect cost of congestion in the United States will reach $186 billion by 2030. It should be noted that in 2013, this figure was 124 billion dollars. That is, the financial loss caused by traffic jams in the United States is projected to increase by 50% within 17 years. It is undeniable that this indicator is valid if the conditions that existed in the year when the research was carried out will continue in the planned years. Moreover, the congestion problem of Cairo, the capital of Egypt, in 2010 caused a financial loss of approximately 50 billion Egyptian pounds. This figure is equivalent to 4% of Egypt's gross domestic product (Speed, 2014). According to the Global Traffic Scorecard 2018 which ranked congestion and the trends of mobility in overall 38 countries, people in USA waste average 97 hours in the traffic jams which lead to the cost of 87$ billion in 2018, it is also possible to conclude that 1,348$ for each driver. As it is also shown in the following graph, Boston, and Washington D.C. face the most congestion 164 hours and 155 hours lost respectively in the U.S. When it comes to the losing cost, drivers in Boston and Washington D.C lost 2,291$ and 2,161$ respectively (Inrix, 2018).

**Table 1: 10 Most Congested Urban Areas in the U.S.**

| 2018 Impact Rank (2017) | Urban Area | Hours Lost in Congestion (Rank 2018) | Year Over Year Change | Cost of Congestion (per driver) | Cost of Congestion (per city) |
|---|---|---|---|---|---|
| 1 (1) | Boston, MA | 164 (1) | -10% | $2,291 | $4.1B |
| 2 (2) | Washington, DC | 155 (2) | -3% | $2,161 | $4.6B |
| 3 (5) | Chicago, IL | 138 (4) | 4% | $1,920 | $6.2B |
| 4 (3) | New York City, NY | 133 (5) | -4% | $1,859 | $9.5B |
| 5 (4) | Los Angeles, CA | 128 (6) | 0% | $1,788 | $9.3B |
| 6 (6) | Seattle, WA | 138 (3) | 0% | $1,932 | $2.9B |
| 7 (11) | Pittsburgh, PA | 127 (7) | 5% | $1,776 | $1.2B |
| 8 (7) | San Francisco, CA | 116 (9) | -5% | $1,624 | $3.4B |
| 9 (10) | Philadelphia, PA | 112 (10) | 0% | $1,568 | $3.3B |
| 10 (8) | Portland, OR | 116 (8) | -9% | $1,625 | $1.4B |

**Source**: Inrix, https://inrix.com/press-releases/scorecard-2018-us/ (2019).

Today, as a capital city, Baku has serious and unsolved policies regarding traffic congestion because of being the sole metropolis in Azerbaijan with about 25% of all population in the country (MacroTrends, 2022). As a result, the number of vehicles on the road is increasing every day. Accordingly, the road network in Baku cannot handle the peak loads, and many people have to wait in line for a long time. The fact is that such a problem occurs not only in the city center and during rush hours, but also in any part of the city at any given time. As shown in the map below, relatively less heavy traffic jams are observed in “Haydar Aliyev” and “Babek” avenues. On the other hand, “Ziya Bunyadov”, “8 November” and “Baku-Sumgayig” roads always have tough traffic jams, and those avenues are main roads used by individuals to arrive at their workplace in Baku (ViaMichellin, 2022).

**Picture 1- Real Time Road Traffic in Baku**




Source: ViaMichelin, December 2022. (https://www.viamichelin.com/web/Traffic/Traffic_info-Baku-_-Azarbaycan-Azerbaijan)

As a methodology for this specific research, secondary data has been used, including governmental statistics including information from Azerbaijan Statistics Committee, internet websites such as Numbeo, ViaMichellin, and other relevant articles. Moreover, the interviews by experts in this field are added to the main findings of the paper. The purpose of this paper is to analyze factors influencing the time-consuming traffic congestion of Baku and propose some recommendations. In addition to being a problem that affects the quality of life of people in urban life, chronic traffic congestion can seriously damage personal finance, and ultimately economy in the macro sense. According to the calculations of the CNN channel (2019), every driver in major cities of the United States spends 97 hours in a traffic jam during the year. The most time is in Los Angeles: 129 hours. The worst indicator in the world concerns the city of Moscow: every driver spends 250 hours in traffic jams a year. As a case for calculating the approximate waste of time and money in traffic jams, Azerbaijan's Gross Domestic Product (GDP) per Capita reached 5.452,500 USD in Dec 2021 (Ceicdata, 2021). if we divide it by 52 weeks and then divide 40 average working hours, it will give us 2,62$ per hour. To convert it into per minute, it is possible to divide 2,62$ by 60 minutes, and at the end, we would sum up that approximately Azerbaijani people who are stuck in traffic jams would lose 0.043$ (0,074 AZN) for each minute. This approximate calculation shows the significance of the problem in Azerbaijan, especially in the Capital. The main means of transportation are personal cars, with approximately 42% preference in Baku (Numbeo, 2022). This statistic shows that huge number of car usage leads to traffic jams in the city. As it is shown in the survey result conducted by Numbeo, the time index* which is the average time for one way trip to the destination is approximately 37,80 minutes (Numbeo, 2022). We may deduce that people wasted 1,62$ for one-way trip as we multiply

37.80 by 0,043$. Even during rush hours, it takes more than one hour, and waste is increasing. The Time Exp. Index that is 1,059.78 demonstrates people's dissatisfaction with wasting time while commuting (Numbeo, 2022). As the simple commute exceeds 25 minutes, it is assumed that commute time dissatisfaction increases exponentially for each minute. Overall, the traffic index* which shows how much time people spend in traffic because of job commute, dissatisfaction with time consumption in traffic, and inefficiency in the system is 152.12. This survey result could prove that Baku factually suffers from traffic jams in comparison with other Caucasian cities.

## Factors Contributing to the Problem

When the issue is approached in a complex manner, reasons such as existing infrastructure, control mechanism, and driver professionalism emerge. In urban planning, buildings outside the norms and the narrowing of roads in certain parts are the main factors that cause traffic jams. Unfortunately, the traffic flow in different areas was not taken into account during the construction of the buildings. Construction works in the densest parts of the city, in areas where the flow continues almost throughout the day, are among the causes of traffic jams. Another problem is that parking spaces are limited. In the city, all the injured areas for roadside parking are surrounded by facilities. The driver also stops the car on the road. As a result, one lane is completely occupied. This is again a factor that creates traffic jams during peak hours. One of the main factors contributing to the issues is the increase in the number of imported personal cars. In the first month of 2020, the daily average number of imported cars came to 190 units. However, this statistic consisted of 81 cars in January 2019, 32 cars in January 2018, and 15 cars in January 2017 (SSCRA, 2021a). Moreover, starting from the year 2016, there is a dramatic growth in the preliminary registration of passenger cars. As it is shown in the following graph, although it constituted 5,875 automobiles in 2016, the number of registered cars soared to 85,680 in 2021 (SSCRA, 2021b). On the other hand, the number of registered buses is quite a few, so it shows that bus as public transportation is much less than private cars in Azerbaijan.

**Graph 1: Preliminary Registration of Cars in Azerbaijan**




**Source:** Azerbaijan State Statistical Committee (November 2022)

Expert Arshad Huseynov indicates in the interview that the average Azerbaijani driver does hardly understand that a lane is for single-row traffic. As a result, as soon as there is a little congestion, sometimes even without such congestion, traffic is created in 4, 5, sometimes even 6 rows on a two- or three-lane road. Such a situation, which is an indicator of chaos, does not allow normal movement

for a long time even after the cause of the traffic jam is removed. He adds that with absolute certainty that everyone can pass the intersections that would otherwise cause traffic jams faster, which means that those who want to get ahead in this way actually slow down both themselves and the entire flow of traffic. Deputy Vugar Bayramov expressed an interesting opinion about traffic jams on the capital's roads (Sputnik, 2022). He said that as of January of year 2022, the number of passenger cars in Azerbaijan reached 1 million 349 thousand. The total number of cars is 1.7 million. V. Bayramov said that 84 thousand 765 passenger cars were imported to the country last year. In the first 9 months of this year, entrepreneurs brought 45 thousand 519 cars to Azerbaijan. Although there has been an increase in the number of cars in recent years, Azerbaijan is not among the countries with the largest number of cars in the world in terms of the number of cars per thousand people. Furthermore, in Azerbaijan, there are 170 cars or 135 passenger cars per thousand people. According to this indicator, our country is 107th in the world. Among the developed countries, the countries with the most cars per capita are New Zealand and the United States. According to those countries, there are 897 and 868 cars per thousand people. Among the countries of the region, Russia is 55th in the world with 397 cars, Georgia is 61st with 378 cars, Moldova is 63rd with 363 cars, Belarus is 70th with 343 cars, Kazakhstan is 94th with 207 cars, Kyrgyzstan is 97th with 201 cars, Uzbekistan is in 130th place with 87 cars. A comparison of the numbers also shows that the number of cars per thousand people in Azerbaijan is not high compared to most other countries in the region. It must be admitted that especially in the last 20 years, a sharp development of Baku's infrastructure has been recorded. Obviously, if the infrastructure had not been expanded, then more acute congestion could have been observed. From this point of view, infrastructure development was important, and Baku is one of the cities that stands out in the region from this context. One of the main reasons for traffic jams is that more than 70.0 percent of passenger cars in the country are used in Baku (Orujov, 2022). Figures of cars per thousand people by city show that Baku is among the settlements with the highest number of cars in the region, although the indicator for the country is completely different. In this regard, traffic jams are mainly observed in Baku. Even in our other big cities, this is not considered a serious problem yet.

**Recommendations to the Issue or Problem**

Although it is almost impossible to abolish traffic congestion, a few recommendations are available to minimize the negative effects of congestion on people's daily schedules. Firstly, there should be strict control over the registration of a wide variety of vehicles, especially cars and buses. The number of buses as public transport ought to be increased since it is one of the demanded public transports in Baku. Furthermore, more bus lanes should be built with proper control measures. Unfortunately, when there is a traffic jam on any street, police officers allow drivers to enter bus lanes. So, the buses also get stuck in the traffic along with the entire flow. This is unacceptable because when a private car carries very few people, a bus carries up to 70-90 passengers. If bus lanes are developed on the most congested streets with a proper control mechanism, personal car users would see buses moving in their own dedicated lane and they will prefer public transport on their next trip, thus reducing congestion. Another important recommendation is that although the tramlines have completely been canceled in Baku since 2004, most developed countries are restoring tramlines and saying that it is the most efficient urban transport. Moreover, the construction of the tram is approximately 10 times cheaper than the subway. At the same time, the tram can carry 3-4 times more passengers than the bus. Policymakers may think that the return of the tram to the city will cause big traffic jams. In the initial stage, traffic jams can be expected albeit slowly. However, when the modern tram moves faster in its dedicated lane and other road users see it, most people would choose the tram instead of private

cars, especially during pick hours. Financially, returning trams to the city can cost approximately only 167 million euros (~300 million manats). For comparison, the construction of 1 metro station in Baku city costs 150 million manats (Asmetro, 2012). As a matter of fact, building tunnels or underground stations requires a big amount of funds and time. However, it is possible to build at least 1 tram line for the price of 2 metro stations. At the same time, the tram is a more accessible form of public transport than the subway, it does not require going underground to get on it, and it is possible to make the stops shorter. Today, there is everything for the return of trams to Baku – including terrain, conditions, and funds. The main issue is the lack of willingness to implement such a policy.

**Conclusion**

With the increasing population and the improvement in financial opportunities, everyone can now use a private car. Thus, traffic jams are generated, and people waste their asset - time. If cars are the center of urban planning, nothing would change for the better in Baku. This policy brief analyzed an issue from a different angle and proposed some suggestions. The most efficient way to deal with such an issue is to apply the successful implementations of best practices in some other cities that have dealt with this problem. However, the main weakness of this policy brief is the lack of proper resources because the databases and statistics related to traffic are limited. As a researcher, I have struggled to find academic sources to support this topic. Therefore, this policy brief will require further in-depth analysis. All in all, traffic jams are a problem for the whole society. Eliminating this problem is possible as a result of the joint work of society and state bodies as a whole. However, every member of society should start this from himself first, approach the traffic rules more respectfully, and fulfil his duties as an individual before the society. In such cases, it is possible to minimize the costs of traffic congestion in micro and macro level.

**References**


SSCRA (2021a), Import of vehicles, State Statistical Committee of the Republic of Azerbaijan, https://stat.gov.az/source/transport/en/012_1en.xls (accessed 3 October 2022).

SSCRA (2021b), First registration of transport means, State Statistical Committee of the Republic of Azerbaijan, https://stat.gov.az/source/transport/en/007_1en.xls (accessed 13 October 2022).

Numbeo. (2022, August). *Traffic in Baku.* https://www.numbeo.com/traffic/in/Baku \ (accessed 23 October 2022).

CEICdata. (2018, June ). *Azerbaijan GDP per Capita. Economic Indicators | CEIC.* https://www.ceicdata.com/en/indicator/azerbaijan/gdp-per-capita (accessed 18 Sepember 2022).

International Metro Association. (2012). *Baku Metro.* http://eng.asmetro.ru/metro/metro/baku/baku_full/ (accessed 1 October 2022).

MacroTrends. (2023). *Baku, Azerbaijan Metro Area Population 1950-2023.* https://www.macrotrends.net/cities/20053/baku/population (accessed 1 December 2022).

Baku traffic news for today - real-time road traffic - ViaMichelin. (2022). https://www.viamichelin.com/web/Traffic/Traffic_info-Baku-_-Azarbaycan-Azerbaijan (accessed 19 December 2022).

Speed, B. (2014, October 8). Cairo's traffic problems are costing Egypt around 4 per cent of its GDP. City Monitor. Retrieved January 30, 2023, from https://citymonitor.ai/transport/cairo-s-traffic-problems-are-costing-egypt-around-4-cent-its-gdp-369

Guerrini, F. (2015, January 25). Traffic congestion costs Americans $124 billion a year, report says. Forbes. Retrieved February 23, 2023, from https://www.forbes.com/sites/federicoguerrini/2014/10/14/traffic-congestion-costs-americans-124-billion-a-year-report-says/

Quluyeva, Z. (2022, October 19). Paytaxtda Tıxacın səbəbi nədir? Deputatdan Açıqlama. Sputnik Azərbaycan. Retrieved January 20, 2023, from https://sputnik.az/20221019/paytaxtda-tixacin-sebebi-nedir-deputatdan-aciqlama-447622164.html

Willingham, A. J. (2019, August 22). Commuters waste an average of 54 hours a year stalled in traffic, study says. CNN. Retrieved January 25, 2023, from https://www.cnn.com/2019/08/22/us/traffic-commute-gridlock-transportation-study-trnd/index.html

Inrix. (2023, March 21). Congestion costs each American 97 hours, $1,348 a year. Inrix. Retrieved April 15, 2023, from https://inrix.com/press-releases/scorecard-2018-us/

# Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılmasına Yönləndirilmiş Sosial –İqtisadi Siyasət

**Fərhad Mikayılov**

**i.ü.f.d. dos., UNEC İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutu böyük elmi işçi, AzTU İqtisadiyyat və statiska kafedrsı, dosent, İqtisadi Elmi Tədqiqat İnstitutu (ESRİ),doktotant**

**Rəşad Hüseynov**

**i.e.n., UNEC İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutu, şöbə müdiri**

**Dr. Yəhya Özdəmir**

**Yalova Universteti, Türkiyə**

**Nigar Amanova**

**BDU doktorant**

## Xülasə

Yoxsulluq günümüzün ən böyük qlobal problemlərindən biridir və hər dövlət, xüsusilə, beynəlxalq təşkilatlar tərəfindən bu problemlə fəal mübarizə aparılar. Qeyd edək ki, iqtisadi ədəbiyatlarda yoxsulluğun qiymətləndirilməsinə dair müxtəlif yanaşmalar və ölçü metodlarına rəst gəlinir. Bunlara mütləq yoxsulluq, nisbi yoxsulluq, subyektiv yoxsulluq və s. metodlarını aid etmək olar.

Qeyd edək ki, yoxsulluğun aradan qaldırılması istiqamətində 2000-ci ildə BMT-də "Minilliyin İnkişafı" Samiti keçirilmiş, samitdə konkret hədəflər müəyyən edilmiş və dünya ölkələrinində bu hədəflərə nail olunmasına dəstək göstərməsinə dair çağrılar etmişdir. Ölkəmiz də 2000-ci illərdən bu çağrışlara qoşulmuşdur.

Məhz bu baxımda ölkəmizdə yoxsulluğun azaldılması istiqamətində həyata keçirilən sosial-iqtisadi siyasət məsələrinin araşdırılması aktual məsələlərdəndir.

Araşdırmanın aparılmasında məqsəd Ulu öndərin, eləcədə ulu öndərin siyasi xəttinin layiqli davamçısı cənab prezident İ.Əliyevin hakimiyəti dövründə yöxsulluğun aradan qaldırılması istiqamətində görülmüş işlər və əldə olunmuş nəticələri tədqiq etməkdən ibarətdir.

Bu araşdırmada yoxsulluğun qiymətləndirilməsinə dair nəzəri metodoloji yanaşmalar verilmiş, yoxsulluğa təsir edən amillər ümumiləşdirilmiş, yoxsulluğun azaldılması istiqamətində həyata keçirdiyi tədbirlər və bu tədbirlər nəticəsində əldə edilmiş uğur müzakirə edilir.

Açar sözlər: Ulu öndər, yoxsuluq səviyəsi, yoxsulluq həddi, ünvanlı sosial yardım

### Summary

Poverty is one of the biggest global problems today, and every country, especially international organizations, should actively fight with this problem. It should be noted that there are various approaches and measurement methods for assessing poverty in economic literature. These are absolute poverty, relative poverty, subjective poverty, etc. attributable to methods.

It should be noted that in 2000, the Millennium Development Summit was held in BM in order to eliminate poverty, concrete goals were determined at the summit, and support calls were made to the countries of the world to achieve these goals. Our country has been a member of these associations since 2000.

In this context, the examination of socio-economic policy issues applied in our country to reduce poverty is one of the urgent issues.

The purpose of the research is to examine the works and the results obtained during the reign of Mr. President Ilham Aliyev, a valuable follower of the great leader's political line.

In this study, theoretical methodological approaches to the assessment of poverty are given, the factors affecting poverty are summarized, the measures implemented to reduce poverty and the success achieved as a result of these measures are discussed.

**Key words:** Great leader, poverty level, poverty threshold, targeted social assistance

## Giriş

Dünyanın bir çox yerində müşahidə olunan, iqtisadi və sosial dəyişikliklərlə birlikdə ortaya çıxan yoxsulluq günümüzün ən böyük qlobal problemlərindən biridir.

Yoxsulluq insani yaşamaq hüququndan məhrum olmaları özündə əks etdirən sosial və iqtisadi problemlərdən biridir. Qeyd edək ki, iqtisadi cəhətdən davamlı və mənəvi cəhətdən məqbul siyasətin işlənib hazırlanması və həyata keçirilməsi üçün yoxsulluq səviyəsinin ölçülməsinə imkan verən metodologiyaların seçilməsi, yoxsuluğa təsir edən amillərin aşkara çıxarılması və yoxsulluğa səbəb olan amillərin aradan qaldırılması istiqamətində tədbirlərin həyata böyük əhəmiyyət kəsb edir. Bu gün qloballaşma və onun təbii nəticəsi olan neoliberal siyasətin yayılması nəticəsində yoxsulluğun xroniki hal aldığı görünür. İnsan inkişafına yönləndirilən kapitalının qeyri-adekvatlığı, informasiya və texnologiya istehsal imkanlarının aşağı olması, yeni məşğulluq sahələrinin yaradılmasının mümkünsüzlüyü, institusionallaşmanın qeyri-kafi səviyyəsi ucuz işçi qüvvəsinə əsaslanan istehsal strukturundan yüksək əlavə dəyərə malik istehsal strukturuna keçidi məhdudlaşdırır.

Araşdırmanın aparılmasında məqsəd Ulu öndərin, eləcədə ulu öndərin siyasi xəttinin layiqli davamçısı cənab prezident İ.Əliyevin hakimiyəti dövründə yöxsulluğun aradan qaldırılması istiqamətində görülmüş işlər və əldə olunmuş nəticələri tədqiq etməkdən ibarətdir.

Açıq bar iqtisadiyatına keçid səbəbindən iqtisadi və sosial həyatda dövlətin rolunun getdikcə azalması, özəlləşdirmələrin üstünlük təşkil etməsi, təhsil və səhiyyə kimi dövlət xidmətlərinin bazara buraxılması, əmək sektorunun təşkili səviyyəsinin geriləməsi yoxsulluğun gələcək nəsillərə miras olaraq qalmasına səbəb ola biləcək hal kimi dəyərləndirmək olar. Son dövrün yanaşmalarında yoxsulluğa təkcə gəlir çatışmazlığı deyil, həm də iqtisadi, sosial və siyasi ölçüləri olan çoxölçülü və mürəkkəb problem kimi baxılır və yoxsulluğu həm də imkanlardan məhrum anlamında ifadə edirlər (Temiz 2008).

Bu yanaşma Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) tərəfindən də qəbul edilir. İnsan yoxsulluğu adlanan bu yanaşma adambaşına düşən gəlirin yoxsulluğu hesablamaq üçün kifayət etmədiyini iddia edir və yoxsulluğu insan inkişafı, təbii və sosial resurslara çıxış və insan azadlığı kimi əsas alətlərlə təsvir etməyə çalışır. Yəni bu yanaşmada yalnız insanların gəlirlərinin çatışmamazlığı deyil, həm də təhsil səviyəsində olan problemlər, insanların sağlamlığında olan problemlər, ətraf mühitin çirklənməsi hesabına yaranmış ekoloji problemlər, eləcədə içməli su təminatı, atmosferin çirklənməsi, ekoloji təmiz məhsullarla qidalanmaqdan məhum olma, gəlir və rifaha təsir göstərən amillər və siyasi məhrumiyət və s. amillərin hər biri yoxsulluğun əlamətləri kimi qəbul edilir.

Ümumilikdə, yöxsulluğun aradan qaldırılması istiqamətində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər proqramında bütün bu amillərin nəzərə alınması olduqca vacib məsələdir. Ölkəmizində BMT İP-nın Minilliyin İnkişaf proqramına qoşulmasını nəzərə alan ulu öndər Azərbaycanda

yoxsulluğun azaldılması və dayanıqlı inkişaf proqramında bütün bu amillər nəzərə alınmağa çalışılmışdır.

Onu da qeyd edəki, məqalədə yoxsuluqla bağlı ədəbiyyat xülasəsi aparılmış, ölkəmizdə həyata keçirilən tədbirlər və onu nəticələri şərh edilmişdir.

**Ədəbiyyat Xülasəsi**

Məlumdur ki, yoxsulluq səviyyəsinin qiymətləndirilməsi ilə nəzəri yanaşmalar və ya yoxsulluğun ölçülməsinə dair fikirlərə lap qədim zamanlardan (Konfusti, digər filosofların yazılarında) rast gəlinsədə XX əsri ikinci yarısından etbarən bu sahədə ölçü meyarlarının müəyənləşdirilməsinə dair fərqli ölçü meyarları əsasında metodologiyalar hazılanmağa və ölkələr üzrə yoxsulluğun müəyyənləşdirilməsində bu metodlardan istifadə etməklə bu problemin aradan qaldırılmasına yönəlik tədbirlər həyata keçirməyə başlamışdır.(Mikayılov, 2017).

- qəlibin olması qurutma zamanı kolbasaların yüksək temperaturda və rütubətdə yüksək çirklənməsi və ya hava sirkulyasiyasının olmaması ilə izah olunur;

- kolbasa məmulatları üçün zəif isladılmış duzlu qablardan, həmçinin duzlu donuz piyindən qurutma rejimini pozaraq istifadə edildikdə onun səthində kristallaşması nəticəsində duz örtüyü əmələ gəlir. Lövhə suda asanlıqla həll olunur;

- sərtləşmə qabığın yaxınlığında sıxılmış təbəqə və hisə verilmiş kolbasa rulonunun səth qatının əyilməsidir, xüsusilə kəskin temperatur dalğalanmaları ilə (3 mm-dən çox olmayan);

- sürüşmələr - rulonların qabığında saxlama zamanı selikli olan bozumtul ləkələr qovurma və ya bişirmə prosesi zamanı təması nəticəsində əmələ gəlir.

Uzunluğu 30 sm-dən az olan kolbasa üçün sliplərin ölçüsünün göstərilən ölçüsün yarısı olmasına icazə verilir;

Dezavantajlara çiy hisə verilmiş kolbasalarda soyuqdan və mikroorqanizmlərin fəaliyyətindən asılı olan yaşılımtıl və qəhvəyi rənglərin əmələ gəlməsi daxildir (Рогов, 2013). İcazə verilən qüsurlara rulonların cüzi deformasiyası, yanma məhsulları ilə cüzi çirklənməsi, qabığın qeyri-müntəzəm

forması, diqqətsiz və düzgün toxunma, qabığın altında görünən kiçik boşluqlar, rulonun səthinin bir qədər qaralması, altındakı yağın bir qədər şişməsi daxildir.

Dezavantajlara çiy hisə verilmiş kolbasalarda mikroorqanizmlərin sayı və fəaliyyətindən asılı olan yaşılımtıl və qəhvəyi rənglərin əmələ gəlməsi daxildir. Bütün növ kolbasalar satış üçün rulon qalınlığında 0 C-dən aşağı olmayan və 15 C-dən yüksək olmayan temperaturda istehsal olunur. Saxlama şərtləri pozulursa, küf, yapışqanlıq və nəm görünə bilər.

Mikroorqanizmlər qiyməli ətə düşərsə, onu gəvşətmək və qabıqdan geri qalmaq mümkündür. Nəm, yapışqan, kiflənmiş qabığı qiymədən ayrılmış, partlamış və sınmış rulonlar, boş qiymə, qabığın üstündən ət daşmış, rulonun bütövlüyünü pozan, sürüşmələri olan kolbasaların satışına icazə verilmir.

Alıcının şübhəsinə həm də ətində tünd göy rəngli kənar, yüngül turş və küf qoxusu ilə bir qədər yumşalma, zəif ədviyyat ətri olan kolbasa səbəb olmalıdır. Köhnə kolbasalarda qabıq qiymədən ayrılır və asanlıqla cırılır, qabığın altındakı qiymənin rəngi boz, yaşılımtıl, kəskin xoşagəlməz qoxulu boş konsistensiyaya malikdir. Çiy hisə verilmiş kolbasaların qabığında ağ quru örtünün olması qüsur deyil və imtina üçün əsas ola bilməz.

**Kolbasa Məmulatının Təhlükəsizlik Göstəriciləri**

Hazır kolbasaların keyfiyyəti orqanoleptik qiymətləndirmə və fiziki-kimyəvi və bakterioloji göstəricilərin laboratoriya tədqiqatları ilə müəyyən edilir. Seçilmiş nümunələrin orqanoleptik qiymətləndirilməsi müəssisənin əmri ilə təyin edilən dequstasiya komissiyası tərəfindən aparılır. Fiziki-kimyəvi və bakterioloji tədqiqatlar kolbasa fabrikinin, müəssisəsinin və ya emalatxanasının laboratoriyası tərəfindən aparılır.

Məhsulun keyfiyyətini orqanoleptik olaraq qiymətləndirərkən, dadı, ətri, teksturası, görünüşü, kəsik görünüşü qiymətləndirilir.

Məhsulun dərinliyindəki qoxu qabıq və səth təbəqəsi kəsildikdən və nümunə tez qırıldıqdan sonra müəyyən edilir. Yoxlanılan məhsulların göstəricilərinin qiymətləndirilməsi 5 ballıq, 9 ballıq və digər şkala üzrə aparıla bilər. Lazım gələrsə, dequstasiya komitəsinin üzvləri dequstasiya siyahısını doldururlar. Orqanoleptik qiymətləndirmənin nəticələrinə əsasən hazır məhsulun satışının mümkünlüyü barədə nəticə verilir (Салаватулина, 2015). Standarta uyğun olaraq, hazır məhsullar əsas göstəricilərlə xarakterizə olunur:

• görünüş,

• tekstura,

• bölmə görünüşü,

• qoxu və dad.

Kolbasa məmulatlarının istehsalına icazə müəssisədən istehsal tarixi və saatı və onun satış vaxtı göstərilməklə, yük qaiməsinin arxa tərəfində ştampla əvəz oluna bilən keyfiyyət sertifikatı verilməklə verilir. Qüsurları, xarab olma əlamətləri olan məhsulların, habelə texniki qüsurlar kimi təsnif edilən ət məhsullarının satışına icazə verilmir. Kolbasa satışına mane olan qüsurlara aşağıdakılar daxildir:

• qabığın altında piylərin şişməsi,

• sürüşmələr,

• qabıq altındakı bulyonun şişməsi,

• qabıqların partlaması,

• qabığın qırışması,

• qiymənin kəsildiyi və boşaldılmış hissəsində boz ləkələr,

• donuz ətinin qeyri-bərabər paylanması,

• qiymədə boşluqlar,

• bərkimiş - uzun rulonun sıxılmış səth təbəqəsi,

• hisə verilmiş zaman qeyri-bərabər və ya çox tünd rəng

Bir qayda olaraq, hər bir supermarketdə və ərzaq mağazasında tapıla bilən ən çox yayılmış ət məhsulları kolbasalardır. İstifadə olunan xammaldan və istehsal texnologiyasından asılı olaraq kolbasa bir neçə növə bölünür:

- qaynadılmış;

- qaynadılmış - hisə verilmiş;

- yarı hisə verilmiş;

- çiy hisə verilmiş və s.;

Qaynadılmış kolbasa fonunda hisə verilmiş kolbasa xarakterik rənginə və təbii ki, iştahı oyadan ətri və dadı ilə seçilir.

Kolbasa məmulatlarının istiliklə təmizlənməsi proseslərinə ət emalı müəssisələrində kolbasa sexlərinin termik (dumanlama) bölmələrində həyata keçirilən qovurma, qaynatma və hisələmə daxildir. Temperatur rejimləri, vaxt çərçivələri və bu əməliyyatların ardıcıllığı müəyyən növ kolbasa məhsullarının istehsalı texnologiyasından asılı olaraq həyata keçirilir (Салаватулина, 2015).

**Kolbasa Məhsulunun Çeşidi və Keyfiyyətinin Formalaşmasına**

Kolbasa qiymə ətdən, ədviyyatlardan və digər maddələrdən hazırlanan məşhur qida məhsuludur. Kolbasa məhsullarının keyfiyyəti bir neçə amildən, o cümlədən istifadə edilən ətin növündən, emal üsulundan və digər inqrediyentlərin əlavə edilməsindən asılıdır.

Ət kolbasa məhsullarının əsas tərkib hissəsidir və onun keyfiyyəti son məhsulun dadı, teksturası və görünüşü üçün vacibdir. Ətin keyfiyyətinə heyvanın yaşı, cinsi, pəhrizi və emalı da daxil olmaqla bir neçə faktor təsir edə bilər. Kolbasa istehsalı üçün ümumiyyətlə gənc heyvanlara üstünlük verilir, çünki onların əti daha yumşaq və dadlıdır. Heyvanın cinsi də ətin keyfiyyətinə təsir göstərə bilər, bəzi cinslər digərlərindən daha yumşaq və dadlı ət istehsal edir. Heyvanın pəhrizi də ətin keyfiyyətinə təsir edə bilər, yüksək keyfiyyətli pəhrizlərlə qidalanan heyvanlar daha yaxşı tekstura və ləzzətli ət verir.

Kolbasa istehsalı üçün ətin emalı üyüdülməsi, qarışdırılması, doldurulması və bişirilməsi daxil olmaqla bir neçə mərhələni əhatə edir. İstehsal edilən kolbasa növündən asılı olaraq, ət uyğun tutarlılığa qədər üyüdülməlidir. Kobud qiymə ət adətən daha əhəmiyyətli tekstura tələb edən kolbasalar üçün, incə qiymə ət isə daha hamar tekstura tələb edən kolbasalar üçün istifadə olunur.

Ət üyüdüldükdən sonra ədviyyatlar, duz və digər inqrediyentlərlə qarışdırılır. Kolbasa istehsalında istifadə edilən ədviyyatlar hazırlanan kolbasa növünə və bölgə mətbəxinə görə dəyişə bilər. Kolbasa istehsalında istifadə edilən bəzi məşhur ədviyyatlara qara bibər, şüyüd, sarımsaq və paprika daxildir. Duz kolbasa dadını artırmaq və ətin qorunmasına kömək etmək üçün istifadə olunur.

Ət və ədviyyatlar qarışdırıldıqdan sonra kolbasanı qablara doldurmağın vaxtı gəldi. Korpuslar müxtəlif materiallardan hazırlana bilər, o cümlədən heyvan bağırsaqlarından hazırlanmış təbii qabıqlar və ya kollagen və ya digər materiallardan hazırlanmış sintetik qabıqlar. Qabıqlar kolbasanın formalaşdırılmasına və bişirmə zamanı bir yerdə saxlanmasına kömək edir.

Kolbasa yemək üçün təhlükəsiz olmasını təmin etmək üçün müvafiq temperaturda bişirilir. İstifadə olunan bişirmə üsulu hazırlanan kolbasa növündən asılı olaraq dəyişə bilər. Bəzi kolbasalar qaynadılır, bəziləri isə hisə verilmiş və ya manqalda bişirilir.

Kolbasa məhsullarının keyfiyyətinə istifadə olunan ətin növü, emal üsulu və digər inqrediyentlərin əlavə edilməsi də daxil olmaqla bir neçə faktor təsir edə bilər. Bəzi məşhur kolbasa növlərinə İtalyan kolbasa, bratwurst, chorizo və kielbasa daxildir. İstehsal edilən kolbasa növü bölgə mətbəxindən və mədəni ənənələrdən asılı olaraq dəyişə bilər.

Kolbasa istehsalı üyütmə, qarışdırma, doldurma və bişirmə də daxil olmaqla bir neçə addımı əhatə edən mürəkkəb bir prosesdir. Kolbasa məhsullarının keyfiyyətinə istifadə olunan ətin növü, emal üsulu və digər inqrediyentlərin əlavə edilməsi də daxil olmaqla bir neçə faktor təsir edir. Detallara və yüksək keyfiyyətli inqrediyentlərə diqqət yetirməklə, ləzzətli və dadlı kolbasa məhsulları istehsal etmək mümkündür.

Söhbət kolbasa məmulatlarının formalaşması və keyfiyyətinə gəldikdə isə digər mühüm mülahizələr də var. Burada daha bir neçə əsas məqam var:

- Kolbasa istehsalı üçün istifadə edilən ətin tərkibindəki yağ miqdarı son məhsulun teksturasına və dadına əhəmiyyətli təsir göstərə bilər. Çox yağlı kolbasa quru və ləzzətsiz ola bilər, çox yağlı kolbasa isə yağlı və iştahsız ola bilər. Yüksək keyfiyyətli kolbasa məhsulu üçün yağ və yağsız ətin yaxşı balansı vacibdir.

- Bəzi kolbasa reseptləri soya zülalının konsentratı və ya karragenan kimi emulqatorların və ya bağlayıcıların əlavə edilməsini tələb edə bilər. Bu inqrediyentlər kolbasanın teksturasını yaxşılaşdırmağa kömək edir və bişirmə zamanı ət və yağın ayrılmasının qarşısını alır.

- Bəzi kolbasalar ətin qorunmasına və ona fərqli çəhrayı rəng verməyə kömək edən nitritlər və ya nitratlardan istifadə etməklə müalicə olunur. Bununla belə, bu müalicə agentləri ilə bağlı sağlamlıq riskləri ilə bağlı narahatlıqlar var, buna görə də bəzi kolbasa istehsalçıları bunun əvəzinə təbii müalicə üsullarını seçə bilərlər.

- Kolbasa məhsullarının keyfiyyətini və təhlükəsizliyini qorumaq üçün düzgün saxlama çox vacibdir. Kolbasa istifadəyə hazır olana qədər soyuducuda və ya dondurulmuş vəziyyətdə saxlanmalı, bişmiş kolbasa isə zərərli bakteriyaların böyüməsinin qarşısını almaq üçün dərhal istehlak edilməli və ya soyuducuda saxlanmalıdır.

Ümumilikdə, yüksək keyfiyyətli kolbasa məhsullarının istehsalı təfərrüata diqqət yetirməyi və istifadə edilən ətin növündən tutmuş bişirmə və saxlama üsullarına qədər bir sıra amillərin diqqətlə nəzərə alınmasını tələb edir. Düzgün texnika və inqrediyentlərlə, həm müştərilərin, həm də yemək sevənlərin hit olacağına əmin olan dadlı və dadlı kolbasa yaratmaq mümkündür.

**Nəticə**

Yekun olaraq, kolbasa bütün dünyada istehlak edilən məşhur qida məhsuludur. O, qiymə ətini, adətən donuz ətini heyvan bağırsaqlarından və ya sintetik materiallardan hazırlanmış qaba doldurmaqla

hazırlanır. Kolbasa müxtəlif forma və ölçülərdə istehsal oluna bilər, həmçinin onlara geniş çeşiddə ədviyyatlar və digər inqrediyentlər əlavə oluna bilər.

Kolbasa məhsullarının çeşidi və keyfiyyəti bir neçə amildən, o cümlədən ətin, qabların, ədviyyatların seçimindən və müalicə üsullarından, emal texnikasından asılıdır. Düzgün inqrediyentləri və emal üsullarını diqqətlə seçməklə kolbasa istehsalçıları çoxlu dadlı və yüksək keyfiyyətli kolbasa məhsulları yarada bilərlər.

**Ədəbiyyat Siyahısı**


Антипова, Л.В. (2014), Методы исследования мяса и мясных продуктов [Текст] : учебник / Л. В. Антипова, И. А. Глотова и др. -М. : Колос, 571.

Габриэльянц, М.А. (2016), Товароведение мясных и рыбных товаров. [Текст]: учебник / М. А. Габриэльянц. -2-е изд., перераб. и доп. -М.: Эко-номика, 408.

Забашта, А.Г. (2013), Справочник технолога колбасного производства [Текст]: учебник / А. Г. Забашта, И. А. Рогов и др. -М.: Колос, 154.

Зонин, В.Г. (2016), Современное производство колбасных и солено-копченых изделий [Текст]: учебник / В.Г. Зонин. -СПб.: Профессия, 224.

Красовский, П.А. (2015), Товар и его экспертиза [Текст]: учебник / П. А. Красовский, А. И. Ковалев, С.Г. Стрижов. -2-е изд. -М.: Центр экономики и маркетинга, 234.

Кругляков, Г. Н., Круглякова, Г. В. (2015), Товароведение мясных и яичных товаров [Текст]: учеб. для ВУЗов / Г. Н. Кругляков, Г. В. Круглякова. -М: Издательско-торговая корпорация «Дашков и К0», 488.

Позняковский, В.М. (2015), Экспертиза мяса и мясопродуктов [Текст]: учеб.-справ. пособие / В. М. Позняковский. -3-е изд. исправ. -Новосибирск: 526.

Рогов, И.А. (2013), Технология и оборудование, колбасного производства [Текст]: учебник / И. А. Рогов, А. Г. Забашта и др. -М: Агропромиздат, 260.

Салаватулина, Р.М. (2015), Рациональное использование сырья в колбас-ном производстве [Текст]: учебник / Р.М. Салаватулина. -М.: Агропромиз-дат, 250.

Хуршудян, С.А. (2012), Фальсифицированные пищевые продукты. Клас-сификация и определения [Текст]: учебник / С. А. Хуршудян. -М.: ИНФРА-М, 210.

Шепелев, А.Т. (2011), Товароведение мяса и мясных товаров [Текст]: уч. пособие / А. Т. Шепелев, О. И. Кожухова и др. -Ростов н/Д.: Март, 201.

# Respublikanın Şimal –Qərb Regionunun Yaşıl İqtisadiyyat və Yaşıl İnkişaf Üzrə İmkanlarının Araşdırılıb Öyrədilməsi Təcrübəsindən

**Səfər Raziyev**

**UNEC Zaqatala filialı**

**sefer.raziyev@mail.ru**

**Gülzar Quliyeva**

**Sumqayıt Dövlət Universiteti**

**q.gulzar@mail.ru**

**Sevinc Cəfərova**

**Sumqayıt Dövlət Universiteti**

**sevinc.ceferova.1972@mail.ru**

**Allahverdiyeva Simuzər**

**Polimer Materiallar İnstitutu**

**simuzerallahverdiyeva80@gmail.com**

## Xülasə

Məqalədə insan sağlamləğının təhlükəsizliyini təmin edən ekaloji faktorlara qayğı və bundan əldə ediləcək iqtisadi səmərəlik araşdırılmışdır. Ətraf mühitin qorunmasında alternativ enerji mənbələrindən istifadə kontekstində bölgələrdə əldə ediləcək maya dəyəri aşağı olan enerjidən istifadənin geniş spektrinə baxılmışdır. Bu sahədə bərpa olunan enerji mənbələrindən günəş, hidro-, aero-, bioenerji və s. arasında müqayisə aparılmışdır. Qeyd etmək lazımdır ki, alimlər bəşəriyyətin təqribən 20 milyard il əvvəl yarandığını iddia edirlər. Onlar fikrincə, bütün enerji və kütlə o zamanlar bir zərrədə yerləşmişdir. Enerji əvvəlcədən mövcud olmuş və fundamental qanuna əsasən saxlanılır. Bizi isə qloballaşan dünyada ondan necə səmərəli istifadə etmək problemləri maraqlandırır. Çünki hal –hazırda enerji təhlükəsizliyi bəşəriyyətin qarşısında duran ən əhəmiyyətli məsələlərdən biridir. Fikrimizcə, bu prosesə fundamental yanaşılmalıdır ki, nəticələrimiz praktik effektlər versin. Deməli, mövcud vəziyyətdən çıxış yolu daha çox bərpa olunan enerji mənbələrindən istifadədən keçir. Digər tərəfdən bərpa olunmayan enerji mənbələrindən istifadənin nəticəsi kimi ətraf mühit korlanır və ekoloji problemlər yaranır.. Bərpa olunan enerji mənbələrindən biri sayılan günəş enerjisinin 0.02 % -ni bitkilər fotosintezə sərf edirlər. Qeyd etdiyimiz dairəvi proses milyon illərdir ki, davam edir. Bununla yanaşı qeyd etmək yerinə düşərdi ki, bölgəmizdə günəşli günlərin sayı çox olduğundan bu mənbədə digərləri kimi istifadə üçün sərfəli sayıla bilər.

**Açar sözlər:** iqtisadi səmərəlilik, bərpa olunan enerji, ekalogiya, həyat fəaliyyətinin təhlükəsizliyi

## Summary

Economic nability was founded at the work for protecting human"s health. For protecting euviroument alternative energy used. In this area renewable energy the Sun is comparison between hydro-aero and bioenerji. Sciendist claim that humanity.is.20. billion years. To their mained all energy and mass is located on a single place. Then the biggest explosion look place and the universe expanded. So energy existed before and according to fundamental rule is kept. We are interested in global world problems liow to use viabilities. Because nowdays energy problems are the main before us. To us mind we must fundamentaly touch to this problem to get practical effect. So for protecting fubure life in healthy way we must renewable energy in other side uurenewable energy is the result of emiromental pollution and ecology problems. For example water, air and graund. One of these sources is the Sun energy only 0,02% belougs to plants. This circling

lasted for a long time. We can say that in our regions rhere are a lot of sunny days thats why the use of this source is more available.

**Keywords:** economic viabillity, enviroument, life activity, ecology, renewable energy.

## Tədris Prosesində İqtisadi və Ekoloji Biliklərin İnteqrasiyası

Təhsilin vəzifəsi hər zaman xalq, dövlət üçün hərtərəfli inkişaf etmiş bilikli, bacarıqlı, praktik vərdişlərə malik səriştəli gənc nəsil yetişdirməkdir. Gənc nəsli 21-ci əsr bacarıqlarına qabil şəkildə yetişdirmək ilk növbədə orta məktəblərdən başlayır. Gələcəkdə yumşaq və sərt bacarıqları olan kadrların formalaşdırlması onların təhsil aldıqları dövrdən başlayr. Çünki, məktəbdə müxtəlif elmlərə yiyələnən öyrənən üçün məqsəd yalnız fundamental qanunları mənimsəmək deyil, həm də təcrübi baxımdan inkişaf etdirilməlidir. Öyrənilənlərin praktik baxımdan tətbiq olunması məktəblilərdə müxtəlif kompetensiyaların inkişafına kömək edir. Xüsusilə, hər hansı bir elmin öyrənilməsi zamanı maliyyə savadlılığı nöqteyi-nəzərindən hər hansı bir iş görülmürdü, ya da bu minimum səviyyədə idi. Təəssüf ki, sonralar bu problem onların əmək fəaliyyətində nəzərə çarpırdı. Təhsil sistemindəki dəyişikliklərlə paralel yeni təlim texnologiyalarının, eləcə də təlim üsullarının yaranması və onların tətbiqi artıq bu yanaşmanı köklü surətdə dəyişdi. Öyrənənlərə artıq layihəyönümlü tapşırıqların verilməsi onlarda bir çox bacarıqların yaranmasıına səbəb oldu, həmçinin indiyə qədər nəzərdən qaçan maliyyə savadlılığı, bu bacarığa nail olma gələcəkdə əmək bazarında onlarda daha üstün işəqabillik, eyni zamanda rəqabət baxımından üstünlük yaradır (Nəzərov, 2012) Qeyd etdiyimiz kimi bu zəmin eyni bir prosesdə yaranır, yəni iqtisadi cəhətdən bilik və bacarıqların qazanılması fənnin tədrisi zamanı elmi bilik və bacarıqların qazanılması ilə paralel olaraq baş verir. Yəni maliyyə savadlılığı olan öyrənənlər gələcəkdə bu bacarıqları inkişaf etdirərək hər hansı bir müəssisədə layihələr üzərində işləyərkən çətinlik çəkməyəcək, çünki onun artıq bu barədə praktik bacarığa malikdir, layihənin tərtib olunması, çəkiləcək xərclərin hesablanması və bu layihələrin həyata keçirilməsinin nə dərəcədə əhəmiyyətli olmasını müəyyənləşdirə biləcəklər. Layihənin həyata keçirilməsi prosesində kişik və böyük kollektivlə işləmək qabiliyyətlərinə də məhz elə məktəbdə yiyələnirlər. Orta məktəbi bitirdikdən sonra isə bu vəzifə ali məktəblərin öhdəsinə düşür. Səriştəlli mütəxəssis hazırlamaq üçün universitetlər hər zaman dinamik surətdə inkişaf edir. Bu xüsusilə son zamanlar daha qabarıq özünü göstərir. Universitetlər ən yaxşı mütəxəssislər hazırlamaq üçün müxtəlif inkişafyönümlü işlər görür, qabaqcıl müəssisə adını qazanmaq üçün müasir texnologiyaları tədris prosesində tətbiq edir. Elm və təhsilin inteqrasiyası isə bu işlərin öhdəsindən gəlmək üçün zəmin yaradır. Bu işlərin son nəticəsi bizim tədqiqat universitetinə keçid üçün əhəmiyyətli addımlar atmış olduğumuza bariz nümunədir (Məmmədov, 2018). Beləliklə, məqsəd yalnız bilikli mütəxəssis hazırlamaq deyil, həm də onları müxtəlif kompetensiyalara malik şəxsiyyət kimi yetişdirməkdir.

Fikrimizi əsaslandırmaq üçün onu da qeyd etməliyik ki, burada 4 K bacarıqlarını da xüsusilə vurğulamaq lazımdır. Ümumiyyətlə, tədris prosesində bu bacarıqların qazanılması gələcək iş sahəsi üçün yüksək təfəkkürə malik, hər hansı bir məsələ ilə əlaqədar düzgün düşünüb qərar qəbul edən, ünsiyyət qabiliyyəti olmaqla yanaşı kollektivdə işləməyi bacaran və yerinə yetirdiyi işə yaradıcı yanaşan mütəxəssis hazırlamanmasına kömək edir.

Şəkildə 4 K bacarıqları koqnitiv, kreativ, kommunikativ və korporativ olmaqla dörd bacarığı birləşdirir. Bu bacarıqların xüsusiyyətləri yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri formalaşdırmaq üçün tədris prosesində fəaliyyəti elə qurmaq lazımdır ki, öyrənənlərin bu kompetensiyalara yiyələnməsi üçün şərait yaranmış olsun. Qruplarla və ya kollektivlə, həmçinin cütlərlə iş təlim

formasını tətbiq etdikdə öyrənənlərdə bu təcrübəni həyata keçirməyin mümkünlüyü əsas şərt kimi qiymətləndirilsin.

Məntiqi, tənqidi, yaradıcı təfəkkürə, ünsiyyət qabiliyyətinə malik olmaq, eyni zamanda bu xüsusiyyətləri kollektivlə iş zamanı tətbiq etmək öyrənənlər üçün ən yaxşı öyrənmə vasitəsidir. Xüsusilə bu prosesdə layihəyönümlü işlərin aparılması zamanı evristik bacarıqlarla yanaşı maliyyə savadlılığının da artırılması, tapşırıqların şərtində bu kimi sualların qoyulması, onların iqtisadi biliklərinin zəruri həcmini artırmağa kömək edir. Bu bacarıqlara yiyələnmə elə yumşaq və sərt bacarıqların da kompleks şəkildə qazanılması üçün imkanlar yaradır, onu da qeyd edək ki, sərt bacarıqların qazaılması üçün tapşırıqların İKT-resurlarından istifadə etməklə həlli bu prosesi dolğunlaşdırır.

**Şəkil 1: XXI əsr 4 K bacarıqları**




Digər sahələrdə olduğu kimi yaşıl iqtisadiyyat və yaşıl inkişaf üzrə də kadrların yetişdirilməsi və onların səriştəli bir mütəxəssis kimi formalaşması üçün mütəmadi olaraq işlər görülməlidir. Respublikamızın bu sahədə qabaqcıl təcrübəyə malik dünya dövlətləri arasında öz layiqli yerini tutması üçün ekoloji savadlılığın tək tədris prosesində deyil, bütün ictiimaiyyət arasında maarifləndilmək yolu ilə həyata keçirilməsi ətraf aləmin, yaşadığımız mühitin təmiz hava ilə zənginləşməsinə gətirib çıxarır (Məmmədov, 2003). Ekoloji tərbiyə elə kiçik yaşlardan, həm məktəbəqədər təhsil müəssisələrində, həm də orta ümumtəhsil məktəblərində həyata keçirilməlidir. Bunun üçün adı çəkilən müəssisələrdə kifayət qədər imkanlar vardır. Yəni prosesin həyata keçirilməsi zamanı ən müasir təlim üsullarından istifadə etmək olar ki, bu zaman təlim prosesi maraqlı və mənimsənilən olur.

**Şimal –Qərb Regionunun Yaşıl İqtisadiyyat və Yaşıl İnkişaf Üzrə İmkanlarının Araşdırılması**

Qloballaşan dünyada ekoloji problemlərin aktuallığı artıq günün reallığına çevrilmişdir və bu mövzunun əhəmiyyətini nəzərə alaraq tərəfimizdən bu sahədə tədqiqatlar aparılmışdır, ardıcıl olaraq bu proses günün tələblərinə uyğun olaraq davam etdirilir (Raziyev, 2016.) Bu işlərin müsbət nəticələri ətraf mühitin mühafizəsi, həm də iqtisadi effektivliyin əldə edilməsində bir başa müsbət təsirlərə malikdir. Fikrimizcə, öyrənənlərin yuxarda dediyimiz xüsusiyyətlərə malik olması üçün tədris prosesində inteqrativliyə üstünlük vermək lazımdır, çoxfənli inteqrasiya nəticəsində iqtisadi tərəqqiyə malik olmaq üzrə aparılan tədqiqatlar da bunu sübut edir (Ashkerov, 2017). Çünki çoxfənli inteqrasiyanln köməyilə öyrənənlərin ən zəifi belə minimum bir neçə elm sahəsi üzrə bilikləri qazanmış olur. Məqalədə öyrənənlərin nə bilir deyil, nə bacarır kontekstindən fəaliyyətimizi qurmağa çalışmışıq.

Tədqiqatlarımızda təlimin müasir üsullarından istifadə edilmişdir ki, bu da nəticələrin əldə edilməsində əhəmiyyətli rol oynayır (Veysova, 2008). Bununla yanaşı məşğələlərin gedişində təlimin prinsipləri diqqət mərkəzində saxlanılmışdır ki, bu da praktik vərdişlərin əldə edilməsində xüsusi rol oynayır (Paşayev, 2010). Dediklərimizin tam həyata keçirilməsi üçün bu prosesə modern və klassik konteksin vəhdətində yanaşılmalıdır. Çünki, ənənəvi prosesi müqayisəli öyrənməklə müasir təhsil sistemini dünya təhsil sisteminin standartlarına uyğunlaşdıra bilərik. Bu sahədə didaktikanın prinsiplərinə əməl olunması da xüsusi əhəmiyyət kəsb edir (Komenski, 1961). İşdə əsas məqsədlərdən biri də yuxarda qeyd edildiyi kimi öyrənənlərin yaşıl iqtisadiyyat və yaşıl inkişaf üzrə praktik vərdişlərə malik olması baxımından fəaliyyəti təşkil etməkdir. Bunun üçün biz fotosintez sahəsində biliklərin fənlərarası inteqrasiya vasitəsilə mənimsənilməsini vacib hesab edirik (Raziyev, Quliyeva, Məmmədova, 2023). Öyrənənlərlə  işin başlanğıcında onlara insan sağlamlığının təhlükəsizliyini təmin edən ekoloji faktorlar barədə məlumat veririk. Burada eyni zamanda prosesin yekunu kimi iqtisadi səmərəliyinin əldə edilməsi ön plana çəkilir (Mükərrəmoğlu, 2015). Bnun ardınca ətraf mühitin qorunmasında alternativ enerji mənbələrindən istifadə nöqteyi-nəzərindən Respublikanın Şimal-Qərb regionunda (xəritə internet resurslarından əldə olunmuşdur) əldə ediləcək maya dəyəri aşağı olan enerjidən istifadə sahəsində qiyməti münasib olan məhsulların istehsalı təmin olunacaqdır.

**Şəkil 2: Tədqiqat ərazis**




Bu sahədə bərpa olunan enerji mənbələrindən günəş, hidro-aero-, bioenerji arasında müqayisə aparılmışdır. Bu arada biz öyrənənlərə qeyd edirik ki, yer üzündə hakim mövqeyə malik olan insan digər canlılara nisbətən özünü antropogen təsirlərdən daha yaxşı qorumaq imkanına malikdir, çünki, o yeganə şüurlu varlıq kimi öz fəaliyyətini maraqlarına uyğun tənzimləyir. Lakin  insanın özünün həyat şəraitini, güzəranını yaxşılaşdırmaq istəyi onun səhhətinə təhlükə yaradan faktorların artmasına gətirib çıxarır. Alimlər bəşəriyyətin təqribən 15,7 milyard il əvvəl yarandığını iddia edirlər. Onların fikrincə bütün enerji və kütlə bir zərrədə toplanmışdır. Sonra böyük partlayış baş vermiş və kainat genişlənməyə başlamışdır. Deməli, enerji əvvəlcədən malik olmuş, məlum enerji saxlanması adlanan fundamental qanuna əsasən tənzimlənir. Bizi isə qloballaşan dünyada ondan necə səmərəli istifadə etmək problemləri maraqlandırmalıdır. Çünki, hal-hazırda enerjin təhlükəsizliyi bəşəriyyət qarşısında duran ən strateji məsələlərdən biridir. Fikrimizcə, bu prosesə fundamental yanaşılmalıdır ki,

nəticələrimiz praktiki effekt versin. İlk növbədə problemin kökləri, bu gün üçün bölgəmizin xüsusiliyi nəzərə alınmalıdır. İlk növbədə burada ənənəvi enerji mənbələrinin hansılar olduğu, həmçinin onun perspektivlər və yekun vəd analizləri müəyyən olunmalıdır. Enerjinin iş görmə qabiliyyətini nəzərə alaraq məsələyə bu nöqteyi- nəzərdən yanaşmaq daha yaxşı olardı. Digər tərəfdən biz onu yaratmağı və akkumulyasiya etməyi bacarmalıyıq. Lakin burada ikinci əsas məsələ meydana çıxır ki, bizim hansı potensial enerji mənbələrimiz var və biz bu günə kimi onlardan necə istifadə etmişik? Heç kəsə sirr deyil ki, bərpa olunmayan enerji mənbələrinə qənaət edilməlidir. Çünki bu enerji mənbələri yaranışdan başlayaraq kor-koranə istifadə olunur və get-gedə tükənir. Deməli, mövcud vəziyyətdən çıxış yolu daha çox bərpa olunan enerji mənbələrindən istifadədən keçir. Digər tərəfdən bərpa olunmayan enerji mənbələrdən istifadənin nəticəsi kimi ətraf mühit korlanır və ekoloji problemlər yaranır. Biz buraya havanın, suyun, torpağın və s. çirklənməsini aid edə bilərik. Bu isə sonda insan sağlamlığını təhlükə altına alır. Deməli, gələcək nəslin sağlamlığını təmin etmək üçün mütləq bərpa olunan enerji mənbələrindən istifadəyə üstünlük verməliyik. İşin digər tərəfi ondan ibarətdir ki, bərpa olunmayan enerji mənbələrində yanar qazlar, neft, torf, daş kömür və uran iqtisadi cəhətdən bir o qədər də səmərəli deyil. Uyğun olaraq bu enerji mənbələri hesabına alınan elektrik enerjisindən istehsal olunan məhsulların maya dəyəri də çox olduğundan onların qiymətləri yüksək olacaqdır. Biz bu vəziyyətdən çıxış yolunu məhsul istehsalında daha çox səmərəli olan bərpa olunan enerji mənbələrindən istifadədə görürük. Qeyd etmək yerinə düşərdi ki, by mənbələrdən biri olan günəş enerjisinin yalnız 0,02 %-ni bitkilər fotosintezə sərf edirlər. Yerin quru qatının, su hövzələrinin, atmosferin qızmasına sərf olunan günəş enerjisi isə müəyyən təbii proseslərdə istifadə edildikdən sonra kosmik fəzaya dönür. Qeyd etdiyimiz bu dairəvi proses milyon illərdir ki, davam edir. Günəş enerjisindən istifadənin müsbət cəhəti ondan ibarətdir ki, o bir tərəfdən bərpa olunandır, digər tərəfdən də bir başa istifadə olunur. Bununla yanaşı günəş batareyalarından kosmik gəmilərdə, məişətdə, avtomobillərdə, küçələrin işıqlandırılmasında və s. istifadə olunur. Lakin bu qurğuların qiyməti baha olduğundan onlardan istifadə iqtisadi cəhətdən bir o qədərdə sərfəli deyildir. Günəş. enerjisindən istifadənin bir müsbət cəhəti də ondan ibarətdir ki, yuxarıda qeyd edildiyi kimi, bu enerjiyə hələ uzun illər, yəni günəş mövcud olduğu müddətə qədər bəs edəcəkdir. Bölgəmizdə günəşli günlərin sayının çox oldmasını nəzərə alsaq bu mənbədən istifadə iqtisadi cəhətdən sərfəli sayıla bilər.

Bölgəmiz üçün digər bərpa olunan enerji mənbəyinin digəri isə küləkdir ki, bu da bizim yerləşdiyimiz məkanın mövqeyinə görə həmişə mövcuddur. Lakin bu mənbənin çatışmayan cəhəti ondan ibarətdir ki, onun hesabına yaradılan elektrik enerjisi istehsal edilən qurğular üçün böyük sahə tələb olunur.

Bölgəmizin ən böyük potensiala malik enerji mənbələrindən biridə biokütlədir. Onun ehtuyatları həddən artıq çoxdur. Buraya bir çox bitki və heyvan qalıqları və s. daxildir. Qədim zamanlardan bu bölgənin insanları enerji mənbələrinin kustar növlərindən istifadə etmişlər və hal-hazırda da istifadə edirlər. Ona görə ki, bu enerjinin tətbiqi çox sadədir. Lakin onun daşınmasındakı, saxlanılmasındakı, emalındakı texnologiyaların aşağı səviyyədə olması onların maya dəyərini qaldırır. Bunun nəticəsində biokütlə hesabina işləyən istilik nühərriklərinin faydalı iş əmsalı 0,04 % təşkil edir. Bölgəmiz üçün böyük perspektivlər vəd edən bərpa olunan enerji mənbələrindən biri də sudur. Xəritədən göründüyü kimi bölgədə bol sulu dağ çayları vardır. Deməli, su ehtiyatları bol olduğundan onun hesabına alınan elektrik enerjisinin maya dəyəri aşağıdır. Gələcək üçün dağ çaylarının yatağında bəndlər tikərək mini su stansiyaları quraşdırmaq və maya dəyəri aşağı olan elektrik enerjisi istehsal etmək olar. Lakin burada balıqların kürü tökmək üçün çayların mənbələrinə getdiklərini nəzərə alaraq onların keçidləri istehsal zamanı nəzərə alınmalıdır.

Dediklərimizi öyrənənlərə ünvanlayaraq belə nəticəyə gəlmək olar ki, bölgəmizdə günəş, külək, biokütlə və su kimi bərpa olunan enerji mənbələrindən istifadə gələcəyin enerji təhlükəsizliyinə böyük perspektivlər vəd edir. Beləliklə, uyğun olaraq bu enerji hesabına istehsal olunan məhsulların maya dəyəri də aşağı olacaq ki, bu da iqtisadi səmərəliliyin artmasına səbəb olacaqdır.

Ekoloji problemlərin həlli iqtisadiyyatın müxtəlif sahələrində özünə məxsus effektlər vəd edir. Qeyd etmək lazımdır ki, problemlərin həllinə hələ kiçik yaşlardan yanaşma yollarının tətbiqi baxımından bacarıqlarla kompleks şəkildə öyrənilməsi gələcəkdə formalaşmış gənclərdə bir kadr kimi yetişməkdə çox böyük əhəmiyyətə malikdir. Çünki mütəxəssis bu bacarıqlara yiyələnmədən birdən-birə kollektivdə işləməyə başlayanda səriştəsiz deyil, artıq kiçik yaşlardan bu işin öhdəsindən gəlməyi öyrənmiş səriştəli kadr kimi fəaliyyət göstərəcək. Ona görə də təlim prosesində bu kimi bacarıq və vərdişlərə yiyələnmə aktualdır.

**Şəkil 3: Yaşıl iqtisadiyyat resursları**





Fikrimizcə, energetika sahəsində iqtisadi səmərəlik daha qabarıq şəkildə özünü göstərir. Belə ki, yuxarda qeyd edildiyi kimi, bərpa olunmayan enerji mənbələrinin xammalının tükənməsi sonda enerji təhlükəsizliyinə böyük təhdidlər sərgiləyir. Əlbəttə ki, qabaqlayıcı tədbirlər görməklə bərpa olunan enerji mənbələrindən istifadə həm ətraf mühitin çirklənməsinin qarşısını alır, həm də enerji sektorunda yaranan qırtlığın yerini doldurur. Respublikamızda dövlət səviyyəsində bu sahədə mütəmadi işlər aparılır. Yaponiya, Cənibi Koreya, Ərəb dövlətlərinin şirkətləri ilə birgə Abşeron yarımadasında külək enerjisindən istifadə etməklə elektrik stansiyalarının fəaliyyəti bu sahədə xüsusi irəliləyişin əldə olunmasına səbəb ola bilər. Buraya həmçinin Araz çayı üzərində qurulacaq su elektrik stansiyalarını və günəş batareyaları əsasında əldə ediləcək elektrik enerjsini də əlavə etmək olar. Bununla yanaşı biokütlə hesabına yaradılacaq müxtəlif emal müəssələrində əldə olunacaq istilik də enerji təhlükəsizliyinin təmin olunmasında böyük əhəmiyyət daşıyır. Yuxarıda qeyd etdiyimiz məsələlərin köməyilə əldə olunacaq iqtisadi effektlər həm ekoloji problemlərin həllində, həm də qloballaşan dünyada enerji təhlukəsizlyi probleminin önə çəkilməsində mühüm rol oynayacaqdır (Raziyev, 2016). Bu sahədə,fikrimizcə, əsas vəzifələr qlobal şəkildə bizi əhatə edən mühitin canlı və cansız aləminin müdafiəsi, təsərrüfatın bütün sahələrinin işinin stabilliyinin yüksəldilməsi və s. daxildir.

**Yaşıl İqtisadiyyat və Yaşıl Enerji Tədbirlərinin Ekoloji və İqtisadi Effektliyi**

Yaşıl iqtisadiyyat və yaşıl enerji tədbirlərinin ekoloji və iqtisadi effektliyini təmin etmək üçün bir tərəfdən öyrənənlər qloballaşan dünyada təbiətin mühafizəsinin vacibliyinin aşılanması, digər tərəfdən onların enerji təhlükəsiziliyinin nə dərəcədə əhəmiyyət kəsb etməsini dərk etməlidirlər. Məqalədə yuxarda deyilən istiqamətlərin paralel araşdırılmasını ön plana çəkməyə çalışırıq. Öyrənənlərin enerji böhranının gələcəkdə nə kimi təhlükələr yaradacağını, digər tərəfdən iqtisadi səmərəliyin əldə edilməsinin vacibliyini anlamaları vacib şərtlərdəndir. Göstərdiyimiz sahələrdə aparılan tədqiqatlar bir tərəfdən ətraf mühitin mühafizəsi, digər tərəfdən əldə ediləcək maya dəyəri

aşağı olan elektrik enerjisi hesabına iqtisadi səmərəliyinin artacağı bildirir (Mükərrəmoğlu, 2015). Öyrənənlərə bu məlumatları elektron və əyani formada təqdim edirik. Bu prosesdə onlar dörd qrupa bölünür. Bu bölünmə tam demokratik şəraitdə müəllimin fasilitatorluğu ilə həyata keçirilir. Qruplar sayma üsulu ilə dörd yerə bölünür. Onlar öz aralarından lideri seçir. Lider dərsin gedişində koordinasiya etmək və prosesləri nəzarətdə saxlamaq funksiyasını yerinə yetirir (Nəzərov, 2012). Bu zaman liderin hər növbəti dərsdə dəyişdiriləcəyi nəzərdə tutulur. Öyrənənlərin qruplara bölünməsi qruplarla təlim formasına aiddir. Onların gələcəkdə qruplarda işləmək və kollektiv əməyə uyğunlaşmaq üçün bu işin böyük əhəmiyyəti vardır. Təlim üsulu olaraq beyin həmləsi və karusel seçilir. Bu qoşa seçimdə məqsəd əvvəlcə qrupların problemə birlikdə çarə tapmaları üçün həmrəy olmalarına nail olmaq və onların alınan nəticələri qarşılıqlı müqayisə etməsinə şərait yaratmaqdır. Çünki əvvəlcədən mövzuya qrupların adı tədqiqat mərhələsində uyğun şəkildə su, hava, işıq və bioenerji adları kimi qəbul edilmişdir. Fəal dərsin mərhələlərinə uyğun olaraq qruplar fəaliyyətə başlayırlar (Veysova, 2008). Qrup liderləri üzvlər arasında iş bölgüsü həyata keçirir. Bu zaman tapşırıq vərəqində olan tapşırıqlardan təqdimatın hazırlanmasına qədər olan işlər qrup üzvləri arasında bölünür. Yuxarıda qeyd edildiyi kimi dərs müəllimin istiqamət verməsi ilə həyata keçirilir. Motivasiya, tədqiqat mərhələlərindən sonra müzakirə və digər mərhələlər üzrə fəaliyyətləri həyata keçirir, daha sonra işin nəticəsi təqdimat şəklində hazırlanaraq elektron və mexaniki formada təqdim olunur (Nəzərov, 2012).

Öyrənənlərə əvvəlcədən tədqiqatın aparılması mərhələsində təqdim olunan bir tapşırıq nümunəsini nəzərdən keçirək:

**Tapşırıq 1.** Dəftərinizə ifadə doğrudursa "bəli", yanlışdırsa "xeyr" yazın.

1. İşıq enerjisindən istifadə etməklə xloroplastlarda qeyri-üzvi maddələrdən üzvi maddələrin əmələ gəlməsi prosesinə fotosintez deyilir.

2. Fotosintez yalnız xloroplastları olan hüceyrələrdə baş verir.

3. Xloroplastların tərkibində bitkiyə rəng verən sarı piqment xlorofil var.

4. Bitkilərin işığı tutmaq üçün cihazları var: uzun və qısa yarpaq bıçağı.

5. Bitki su və mineralları torpaqdan alır.

6. Fotosintez yunanca "photos" – işıq, "sintez" – əlaqə sözlərindəndir.

7. Fotosintez prosesi üçün işıq enerjisinə ehtiyac yoxdur.

8. Fotosintez qabiliyyəti yaşıl bitkilərin ən mühüm xüsusiyyətidir.



Praktik iş nümunəsi isə aşağıdakı kimidir:

Təcrübəni yerinə yetirin, müşahidə və  nəticələri dəftərə yazın.

Sonuncu dərsdə bir vərəq qara qalın kağız götürürük və üzərindəki "işıq" sözünü kəsirik (Мухаметдинова, 2021). Bu kağızdan zərf düzəldib içinə bir vərəq qoyuruq. Bitkini günəş işığına tərəf yerləşdiririk.

**Yadda saxla! Nişasta yodla qarşılıqlı təsirdə olduqda bənövşəyi rəngə çevrilir.**

İşin gedişi:

1. Vərəqi kəsin.
2. Kağızı çıxarın.
3. Yarpağı qaynar suya atın.
4. İsti spirtə batırın.
5. Spirt yaşıl rəng aldıqda və yarpaq rəngini itirdikdə onu su ilə yuyun.
6. Yod məhluluna batırın.
7. Müşahidələrinizi dəftərə yazın.

Nəticəni qeyd etmək üçün fəaliyyətlərin ardıcıllığı aşağıdakı kimi təşkil edilir:

Tapşırıq

1. Fotosintez haqqında düzgün cümlələr qurun. Dəftərinizə ona uyğun gələn rəqəmi və hərfi yazın.

| | |
|---|---|
| 1. Baş verir… | A. karbon qazı |
| 2. Fərqlənir... | B. lazımdır |
| 3. Udulmuş... | C. oksigen |
| 4. Üzvi maddələr... | D tərkibində xloroplastlar olan hüceyrələr |
| 5. İşıq enerjisi... | E formalaşır |

**Tapşırıq 2.** "Yaşıl bitkilər yox olarsa, Yer planetində nə baş verəcək?" esse yazın.

**Tapşırıq 3.** Açar sözlərdən istifadə edərək fotosintez prosesi haqqında nəticə çıxarın və onu dəftərə yazın.

Məncə ... çünki ... məsələn ... buna görə də ...

Həm əməkdaşlıq, həm də problemin həllinə araşdırma, tədqiqat, məsələnin həllinə ənənəvi və fərqli yanaşma, müşahidənin  qeydyyatı, onun nəticə şəklinə gətirilməsi və bir sıra belə maraqlı məqamlar, bacarıq və vərdişlərə yiyələnmə baxımından fəal dərsin rolunu qeyd etməmək mümkün deyil.

Qiymətləndirmə meyarları olaraq fəallıq, əməkdaşlıq, tərtibat, təqdimat və s.əsasən götürülə bilər. Prosesdə müəllim didaktik prinsiplərdən bacarıqla istifadə etməyi bacarmalıdır. Çünki didaktik prinsiplərin həyata keçirilməsi tədris prosesində məqsədəmüvafiqliyi, fəaalığı, idrak prosesinin inkişafını, elmiliyi tədqiqatçılıqla əlaqələndirməyi, həmçinin sinifdə müsbət auranın, xoş atmosferin yaradılmasını təmin edir ki, bu da birgə fəaliyyətin işgüzar şəraitdə keçməsinə zəmanət yaratmış olur. Qiymətləndirmədə veb alətlərindən də istifadə olunur ki, bu da operativlik və şəffaflığı təmin edir. Ümumiyyətlə, qiymətləndirmədə veb alətlərinin istifadəsi nəinki öyrədənin bacarıqlarını üzə çıxarmış olur, həmçinin öyrənənlərdə də bu amili inkişaf etdirir. İKT resurslarından istifadə etməyi bacarmaq öyrənənlərdə sərt bacarıqları ( Hard Skills ) həm formalaşdırır, həm də inkişaf etdirir. Məlum olduğu kimi birgə fəaliyyət, əməkdaşlıq şəraitində yerinə yetirilən işlər dolğun olur və bu prosesdə

öyrənənlərdə yaranan keyfiyyətlər gələcəkdə onların həm yumşaq (Soft Skills), həm də sərt bacarıqlara malik olmasına şərait yaradır, eyni zamanda uyğun olaraq kadr kimi üstün qabiliyyətlərini fiksə etmiş olur. Qrupların fəaliyyəti qiymətləndirilir, həmçinin qruplar həm özlərini, həm də digər qrupların fəaliyyətini qiymətləndirmək imkanı əldə edirlər. Beləliklə, müəllim bütün amilləri nəzərə alaraq həm qruplar üzrə, həm də fərdi qiymətləndirməni həyata keçirir.

Tədris metodu öyrənənlərin müstəqil təcrübələri, tədqiqatları və fərziyyələrinə əsaslanır. Eyni zamanda onun həyata keçirilməsi yollarının müəyyən edilməsi, lazımi resursların və materialların öyrənənlərin özləri tərəfindən seçilməsi kimi fəaliyyətlətin müəyyən olunmasıdır. Bu fəaliyyətləri aşağıdakı kimi təşkil etmək olar:

**Cədvəl 1: Tədqiqatın aparılmasında fəaliyyətlətin təşkili**

| İşin təşkili formaları | Xüsusiyyətləri, əlamətləri | Hansı nəzəri biliklərə görə bu və ya digər formanı seçirik | Hansı praktiki biliklərə görə bu və ya digər formanı seçirik |
|---|---|---|---|
| Cütlərlə | Müəllim cütlərlə iş formasını təşkil etdikdə: güclü şagird-zəif şagird və ya müvəffəqiyyət baxımından hər ikisi bərabərdir. | 1.Qarşıda duran iş ilkin olaraq ciddi düşünmə tələb etdikdə qazanılmış biliklərin yenilənməsi zamanı. Şagirdlər cütləri qarşıdan gələn tapşırığı müzakirə edirlər.<br>2. Laboratoriya və praktiki işlərin gedişində qarşılıqlı nəzarəti və qarşılıqlı yardımı təşkil etmək olar.Yekunda birgə fəaliyyət nəticəsində görülən işi qiymətləndirmək mümkündür. | 1.Giriş təlimatına nəzər saldıqda praktiki işlə bağlı ciddi düşünməyə ehtiyac duyduqda öyrənənlər öz aralarında verilən tapşırığı müzakirə edirlər.<br>2. Praktiki işin gedişində qarşılıqlı nəzarəti və qarşılıqlı yardımı təşkil etmək olar.<br>3. Yekun təlimatla bağlı olaraq isə işin qiymətləndirilməsini təşkil mümkündür. |

**Mənbə:** müəlliflərin şəxsi araşdırmaları nəticəsində əldə olunan məlumatlar əsasında hazırlanmışdır.

Fotosintez zamanı əmələ gələn üzvi maddələrə karbohidratlar (əsasən şəkər və nişasta), zülalların əmələ gəldiyi amin turşuları və yağ turşuları daxildir. Bütün bu birləşmələrin sintezi üçün qeyri-üzvi maddələrdən su ($H_2O$) və karbon qazı ($CO_2$), amin turşuları üçün əlavə olaraq azot və kükürd lazımdır (Мухаметдинова, 2021). Bundan əlavə, fotosintez zamanı üzvi birləşmələrin tərkibinə fosfor və metal ionları - dəmir və maqnezium daxil edilə bilər. Quru bitkilərində, $CO_2$ istisna olmaqla, bütün bu qeyri-üzvi birləşmələr köklər vasitəsilə daxil olur. Bitkilər atmosfer havasından $CO_2$ alır, onun orta konsentrasiyası 0,03% təşkil edir. Su bitkiləri ehtiyac duyduqları bütün qidaları yaşadıqları sudan alırlar. Oksigenin ayrılması ilə gedən fotosintezin əsas reaksiyası belədir:

su+qeyri-üzvi maddələr+işıq→üzvi maddələr+oksigen

Fotosintezin öyrənilməsinə böyük töhfəsi olan rus alimi K.A. Timiryazev (1903) yazırdı: "Bu, planetimizdəki həyatın bütün təzahürlərinin son mərhələdə asılı olduğu bir prosesdir". Bu olduqca ağlabatandır, çünki fotosintez Yer kürəsində təkcə üzvi birləşmələrin deyil, həm də sərbəst oksigenin

əsas tədarükçüsüdür. Fotosintez nəticəsində Yer kürəsində təxminən 150 milyard ton üzvi maddə əmələ gəlir ki, bunun nəticəsində də hər bir insana 200 milyard ton sərbəst oksigen düşür.

**Nəticələr və tövsiyələr:**

Tədqiqatların nəticəsi kimi Respublikanın Şimal - Qərb regioninda  yaşıl iqtisad və yaşıl inkişaf üzrə apardığımız tədqiqatlar aşağıdakı nəticələrə gəlməyə kömək edir. Respublikanın Şimal–Qərb regionunda qeyd etdiyimiz bu məsələlərin həlli üçün  tövsiyələri təklif edirik:

**Qrafik 1: Respublikanın Şimal - Qərb regioninda  yaşıl iqtisadiyyat və yaşıl inkişaf üzrə tövsiyələr ardıcıllığı**




**Mənbə:** müəlliflərin şəxsi araşdırmaları nəticəsində əldə olunan məlumatlar əsasında hazırlanmışdır.

Gələcəkdə yuxarıda qeyd etdiyimiz üsullardan öyrənənlərin digər sahələrdə də praktik vərdişlər əldə etməsində istifadə olunması məqsədəuyğun sayılır. Öyrənmənin müxtəlif müasir təlim üsullarının köməyilə həyata keçirilməsi mənimsəməni asanlaşdırır və ardıcıl olaraq həm bilik qazanma, həm də bacarıq və vərdişlərə yiyələnməsini təmin edir. Xüsusilə, təbiət fənlərinin fənlərüstü inteqrasiya ilə ekoloji və iqtisadi biliklərin də həm nəzəri, həm təcrübi baxımdan tədris olunması materialın kompleks şəklində mənimsənilməsilə yanaşı müxtılif kompetensiyaların da qazanılmasını təmin edir.

**Ədəbiyyatlar**

Məmmədov, Z.F. (2018). Tədqiqat universitetinə keçid: Dünya səviyyəli universitetlərin təcrübəsinin UNEC də tətbiqi məsələləri. İqtisad elminin müasir problemləri. Respublika elmi-praktiki konfransı, Zaqatala, səh.12-20

Məmmədov, T.S. (2003). Ekologiya, Bakı, 304 səh.

Razıyev, S.Ə. (2016). Qloballaşan dünya kontekstində ekoloji məsələlər, Təhsil problemləri, 07 iyul, s.3

Askerov, Sh.G., Askerov, A.Sh. (2017). Econophysical analisis  of the reletionship between monopoly and competiton. The Iournal of economics sevences thory and practice, v.74, 2017, #1, p.g 4-9.

Nəzərov, A.M. (2012). Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nun nəşriyyatı. Bakı. 103 səh.

Veysova, Z.K. (2008). Fəal dərsi səmərəli keçirmək üçün müəllim nəyi bacarmalıdır? I hissə, fasilitasiya bacarığı, Kurrikulim-elmi-metodik jurnal, № 4, s.83-101

Paşayev, Ə.M. (2010). Pedoqogika, Elm və təhsil nəşriyyatı, 340 səh.

Komenski, Y.A. (1961). Seçilmiş pedaqoji əsərləri, Bakı: Maarif.

Razıyev, S.Ə., Quliyeva, G.N., Məmmədova, S.V. (2023) Fotosintez prosesinin fənlərarası inteqrasiya ilə öyrədilməsi təcrübəsindən. ARTİ . Elmi əsərlər, cild 90, № 2, 2023, səh 62

Mükərrəmoğlu, M. (2015). Ekoloji problemlərin həllində alternativ və bərpa olunan enerji mənbələri əhəmiyyətli rol oynayır. Xalq qəzeti. 10.11, s.1

Мухаметдинова, А.А. (2021). Лабораторная работа с использованием технологии критического мышления "Фотосинтез" 6 класс, 28.11, с.1, nsportal.ru

https://arxkom.gov.az/storage/media/1647/a57f69ea-179a-4f37-a7cd-b2760c05fb5f.pdf

# İstehsalat Xərclərinin Uçotu Üzrə Tətbiqi Proqramlar Vasitəsilə İctimai İaşə Müəssisələrində Qərarların Qəbulunun Gücləndirilməsi

**Fuad Muradov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**fuadmuradov570@gmail.com**

**Xülasə**

Günümüzdə istehsalat xərclərinin uçotu hər bir müəssisədə istifadə edilən bir anlayışdır. Son zamanlarda hesabat, təhlil və uçot sistemlərində bir çox nəzəri metodiki və praktiki işlər görülmüşdür. Bu məqaləmizdə istehsalat xərclərinin uçotu, məhsulların maya dəyəri, ictimai iaşə fəaliyyəti və istehsalat xərclərinin uçotunun aparılması üçün proqranlar barədə məlumat verilmişdir. İstehsalat xərcləri və maya dəyəri anlayışları və onlar arasındakı fərqli cəhətlər qeyd edilmişdir. İstehsalat xərclərinin uçotu üzrə tətbiqi programlar haqqında geniş məlumat verilmişdir. Ölkəmizdə en geniş istifadə edilən maliyyə proqramı olan 1C: ERP Enterprise Management haqqında qeydlər verilmişdir. Proqramın əsas xüsusiyyətləri qeyd edilmişdir. Bundan əlavə proqramın köməyi ilə xərclərin bölüşdürülməsi və onların bölüşdürülmə qaydaları haqqında məlumatlar əks edilmişdir. İctimai iaşə obyektlərinin fəaliyyəti və bu fəaliyyət növündə uçotun aparılması qaydaları qeyd edilmişdir. Azərbaycan Respublikasının nazirlər kabinetinin təsdiq edilmiş qanunları göstərilmiş və keçidlər verilmişdir. Günümüzdə ictimai iaşə müəssisələrində nə kimi ciddi və ciddi olmayan hesabatların verilməsi və onların vaciblik şərtləri qeyd edilmişdir. 1C proqramı vaitəsilə ictimai iaşə müəssisərində qərarların qəbulunun gücləndirilməsi göstərilmişdir.

**Açar sözlər: xərclər, xərclərin uçotu, ictimai iaşə, 1C**

**Abstract**

Today, production cost accounting is a concept used in every enterprise. Recently, a lot of theoretical, methodical and practical work has been done in reporting, analysis and accounting systems. This article provides information on accounting of production costs, cost of products, public catering activities and programs for accounting of production costs. The concepts of production costs and costing and the differences between them are mentioned. Extensive information is provided on the applied programs for accounting of production costs. Notes on 1C: ERP Enterprise Management, the most widely used financial program in our country, are provided. The main features of the program are listed. In addition, with the help of the program, information about the distribution of costs and their distribution rules was reflected. The activity of public catering facilities and the rules for keeping records in this type of activity are mentioned. Approved laws of the Cabinet of Ministers of the Republic of Azerbaijan are shown and links are given. What kind of serious and non-serious reports are given in public catering establishments today and their importance conditions have been mentioned. Through the 1C program, decision-making has been strengthened in public catering establishments.

**Keywords: costs, cost accounting, public catering, 1C**

## Giriş

**Mövzunun aktuallığı:** İstehsalat xərclərinin uçotu üzrə tətbiqi proqramlar, ictimai iaşə müəssisələrində qərarların qəbulunun gücləndirilməsi üçün effektiv bir vasitədir. Bu proqramlar, istehsalat xərclərinin bütün mərhələlərini avtomatlaşdırır və bu sayədə işçilərin vaxtını azaldır və məlumatların ətraflı və doğru bir şəkildə toplanmasını təmin edir.

Bu proqramlar vasitəsi ilə, müəssisələr istehsalat xərclərinin necə təqdim ediləcəyini daha ətraflı və dəqiq şəkildə müəyyən edə bilərlər. Həmçinin, istehsalat xərcləri üzrə maliyyə məlumatları da daha yaxşı idarə edilir və bütün məhsulların və xidmətlərin dəyəri daha doğru bir şəkildə hesablanır.

İstehsalat xərclərinin uçotu üzrə tətbiqi proqramlar ayrıca, sənədlərin və məlumatların ən sürətli şəkildə axtarılması və analiz edilməsi üçün də yararlıdır. Bu sayədə, işçilər zamanını və səylərini daha effektiv şəkildə istifadə edə bilərlər və qərarların daha sürətli və doğru şəkildə qəbul edilməsi mümkün olur.

Ümumiyyətlə, istehsalat xərclərinin uçotu üzrə tətbiqi proqramlar, ictimai iaşə müəssisələrində qərarların qəbulunun daha sürətli, effektiv və doğru şəkildə həyata keçirilməsinə kömək edir.

**Tədqiqatın əsas məqsədi:** Bu tədqiqatın məqsədi istehsalat xərclərinin uçotu üzrə tətbiqi proqramlar haqqında məlumat vermək, onların iş prinsipinin izahı, proqramların iaşə müəssələrinin işlərinin sürətləndirməsinə və qərarların qəbulunun gücləndirilməsinə təsirini araşdırmaqdır.

**Tədqiqatın vəzifəsi:** İstehsalat xərclərinin uçotu haqqında məlumatvermək, uçotun aparılması üçün istifadə edilən tətbiqi programlar haqqında məlumat və ictimai iaşə fəaliyyətini qeyd etməkdir.

**Tədqiqatın metodologiyası:** Bu tədqiqatın metodologiyası ictimai iaşə müəssələri və istehsalat xərclərinin uçotu üzrə tətbiqi proqramları haqqında məlumatların toplanmasını əhatə edəcək.

**Tədqiqatla bağlı məhdudiyyətlər.** Tədqiqat istifadə olunan metodologiya ilə məhdudlaşır, bu, ictiami iaşə müəssələri və istehsalat xərclərinin uçotu üzrə tətbiqi proqramlar haqqında məlumatlardır.

**İstinad olunan mənbələr.** Mövzu ilə bağlı aparılan tədqiqatlar, elmi materiallar nəzərdən keçirilərək bu tədqiqatda istinad olunan mənbələr olaraq istifadə edilmişdir

**İstehsalat Xərclərinin Uçotu: Məhsulun Maya Dəyəri və İstehsal Xərcləri**

Araşdırılmalarımızdan müəyyən edilmişdir ki, son zamanlarda hesabat, təhlil və uçot sistemlərində bir çox nəzəri metodiki və praktiki işlər görülmüşdür. Lakin bu görülən işlər xərclərin uçotu və məhsulun materialının maya dəyərinin hesablanması qayda və metodlarında ciddi dəyişikliklərlə özünü biruzə verə bilməmişdir. Biz aparacağımız araşdırmada isə məhsulun "maya dəyəri" və "müəssisənin istehsalat xərcləri" anlayışlarına diqqət yetirəcəyik. Bu iki anlayış bir birinə yaxın mənada işlənsəndə tamamilə fərqli anlayışlardır (Döşlü, 2019).

Müəssisənin istehsal xərcləri ifadəsi hər hansı bir məhsulun ərsəyə gəlməsində sərf edilən maddi və əmək xərclərinin ümumi məcmusu kimi qəbul edilir. Bu göstərilən xərclər məhsulun dəyərini əmələ gətirir. Maya dəyəri dedikdə isə, bu məhsulun yaradılması və bu məhsulun satışa çıxarılması üçün çəkilən ümumi xərclərin məcmusu aid edilir. Qeyd edə bilərik bu iki anlayış, "məhsulun maya dəyəri və məhsulun istehsal xərcləri" mücərrəd faktorlardır. Bunlar məhsulun istehsalının iqtisadi məcmusunu göstərmirlər (Абдукаримов, 2007).

- Оценивание конкурентных позиций корпораций в сравнении с конкурентными позициями сопоставимых компаний
- Стратегический анализ деятельности корпорации: определение, в каком жизненном цикле он сейчас, сильные и слабые стороны и др.
- Разрабатывание стратегий для развития компании
- Оценка и выбор вариантов стратегии для развития корпорации

Хорошо организованное корпоративное управление может обеспечить устойчивость, процветание и долгосрочный успех компании, а также защитить интересы ее заинтересованных сторон. В то же время, плохое корпоративное управление может привести к неэффективности, несправедливости и неустойчивости деятельности компании.

Кроме того, корпоративное управление должно быть гибким и адаптивным к изменяющимся условиям рынка и бизнес-среды. Это может включать в себя реформирование корпоративных структур, изменение стратегии и целей компании, улучшение процессов управления и другие меры.

Наконец, важным элементом корпоративного управления является участие акционеров в управлении компанией. Это может включать в себя выбор членов совета директоров, участие в принятии стратегических решений и другие меры, которые обеспечивают активное взаимодействие между акционерами и управляющими органами компании.

**Заключение**

В ходе исследования были проанализированы современные подходы и практики корпоративного управления, их роль в обеспечении устойчивого развития компаний и взаимосвязь с другими аспектами управления, такими как управление рисками и этические принципы.

Исследование показало, что корпоративное управление имеет ключевое значение для обеспечения эффективности деятельности компаний и устойчивого развития. Результаты анализа подтверждают важность прозрачности, ответственности и этических принципов в корпоративном управлении.

Также было выявлено, что подходы к корпоративному управлению могут различаться в зависимости от региона и страны, а также от размеров компании, её отрасли.

В целом, можно сделать вывод о том, что корпоративное управление является необходимым элементом управления в современном бизнесе, и эффективные практики корпоративного управления способствуют устойчивому развитию компаний.

Данная дипломная работа имеет практическое значение для менеджеров и специалистов в области управления, которые занимаются вопросами корпоративного управления, а также для студентов и исследователей, интересующихся современными тенденциями в области управления компаниями.

**Список Использованной Литературы**


Антонов В. Г.Крылов В. К. и др. (2012). Корпоративное управление: учеб, пособие / под ред. В. Г. Антонова. 2-е изд., перераб. и доп. М.: ИД ФОРУМ: ИНФРА-М.

Бочарова И. Ю. (2013). Корпоративное управление: учебник. М.: ИНФРА-М.

Веснин В. Р., Кафидов (2013). В. В. Корпоративное управление: учебник. М.: ИНФРА-М.

Веснин В. Р. (2008). Корпоративное управление: учеб, пособие. М.: МГИУ.

Иванова Е. А., Шишкина Л. В. (2007). Корпоративное управление: учеб, пособие. М.: Феникс.

Кодекс корпоративного управления (2018). - документ, разработанный Комиссией по корпоративному управлению, содержащий рекомендации по улучшению корпоративного управления в Великобритании.

Масленников В. В., Кузьмичев А. Ю., Панфилова Е. Е., Серебрякова Г. В., Крылов В. К. (2012). Корпоративное управление: учеб, пособие. М.: ИНФРА-М.

Мишурова И. В., Панфилова Е. А. (2012). Корпоративное управление: учеб, пособие. СПб.: Дашков и Ко.

Проект кодекса корпоративного управления. (2013). М.: ФСФР.

Распопов В. М., Распопов В. В. (2012). Превентивное антикризисное управление: учеб, пособие. М.: ИНФРА-М.

Распопов В. М. (2009). Управление изменениями. М.: Магистр.

Тепман Л.Н. (2009). Корпоративное управление: учеб, пособие для студентов вузов, обучающихся по направлениям экономики и управления. М.: ЮНИТИ-ДАНА.

Федеральный закон «Об акционерных обществах» от 26 декабря (1995). № 208-ФЗ.

Федеральный закон «О несостоятельности (банкротстве)» от 26 октября 2002 г. № 127-ФЗ (действующая редакция от 1 сентября 2013 г.).

Corporate Governance: Principles, Policies and Practices (2018) - книга, написанная Р. И. Тринадцатый и Р. Б. Браун, содержащая обзор теории и практики корпоративного управления.

G20/OECD Principles of Corporate Governance (2015) - документ, разработанный Группой двадцати и Организацией экономического сотрудничества и развития, содержащий рекомендации по улучшению корпоративного управления в странах-участниках G20.

The Handbook of Board Governance: A Comprehensive Guide for Public, Private, and Not-for-Profit Board Members (2016) - книга, написанная Ричардом Либерман, содержащая практические советы для управления советом директоров.

OECD Principles of Corporate Governance (2015) - документ, разработанный Организацией экономического сотрудничества и развития, содержащий рекомендации по улучшению корпоративного управления в различных странах мира.

The Shareholder Value Myth: How Putting Shareholders First Harms Investors, Corporations, and the Public (2012) - книга, написанная Линдой Э. Рух, которая критикует идею приоритета интересов акционеров в корпоративном управлении.

# Motivasiyanın İdarə Edilməsinin Müasir Metodlarının Təhlili

**Mehriban Quliyeva**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**quliyevam06@gmail.com**

## Xülasə

Motivasiyanı istiqamətləndirən və yönləndirən çoxlu müxtəlif qüvvələr var. Müxtəlif psixoloqlar insan davranışını tədqiq etmiş və əldə etdikləri nəticələri müxtəlif motivasiya nəzəriyyələri şəklində rəsmiləşdirmişlər. Bu motivasiya nəzəriyyələri insanların davranış tərzi və onları motivasiya edən faktorlar haqqında məlumat verir. Motivasiya nəzəriyyələri insanın ehtiyaclarını, onların məzmununu və onun motivasiyası ilə necə əlaqəli olduğunu öyrənir və təhlil edir. Bir insanı müəyyən bir fəaliyyətə nəyin sövq etdiyini, onun davranışını nəyə sövq etdiyini anlamağa çalışırlar. Motivasiya nəzəriyyəsi bir insanın motivasiyasına və bunun şəxsi və ya peşəkar səbəblərə görə davranışlarına necə təsir etdiyinə baxan bir üsuldur. Bu, cəmiyyətin hər bir sahəsi üçün vacibdir, lakin xüsusilə biznes və idarəetmə ilə əlaqədardır. Motivasiya ilə bağlı bir çox müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. Motivasiya sahəsində bütün rəhbərlik idarəetmə funksiyalarının həyata keçirilməsində menecerlərin əsas fikirlərini, qanunlarını və davranış qaydalarını əks etdirən konkret prinsiplərə fokuslanır. İdarəetmədə əsas açar mərkəzləşdirmə prinsipinin ən yaxşı formada təmin edilməsi, rəhbər qərarların qəbul edilməsində səlahiyyətlərin optimal paylanmasıdır. Müasir idarəetmə metodlarından, yəni təşkilatın təyin etdiyi məqsədlərə nail olmaq üçün idarəetmə obyektinə təsir üsullarından istifadə etmək çox vacibdir.

**Açar sözlər**; motivasiya, idarəetmə, metodlar, motiv, menecment

## Abstract

There are many different forces that guide and direct motivation. Various psychologists have studied human behavior and formalized their results in the form of various motivational theories. These motivational theories provide information about the way people behave and the factors that motivate them. Motivation theories study and analyze human needs, their content and how they are related to their motivation. They try to understand what motivates a person to a certain activity, what motivates his behavior. Motivation theory is a method that looks at a person's motivation and how it affects their behavior for personal or professional reasons. This is important for every area of society, but especially related to business and management. Many different theories about motivation have been proposed. In the field of motivation, all management focuses on specific principles that reflect the main ideas, laws and rules of behavior of managers in the implementation of management functions. The main key in management is ensuring the principle of centralization in the best form, optimal distribution of powers in making management decisions. It is very important to use modern management methods, that is, methods of influencing the management object to achieve the goals set by the organization.

**Keywords**: motivation, management, methods, motive, management

## Giriş

Hazırda kəskin rəqabət mühitində fəaliyyət göstərən müəssisələr fəaliyyətlərinin məhsuldarlığını və səmərəliliyini yüksəltmək və rəqabət mövqelərini gücləndirmək məqsədilə daima heyətin idarəedilməsi metodlarını və motivasiyaüsullarını təkmilləşdirmək zərurətindədirlər. Məlumdur ki, davamlı inkişafın təmin olunmasında, insan amili mühüm rol oynayır. İstənilən təşkilatda işçilər onun əsas resursu kimi qəbul edilməli, onların təşkilati məqsədləri dərindən dərk etmələrinə başıca şərait yaratmalı, qərarların qəbul edilməsi zamanına cəlb edilməli və fəaliyyətlərinin nəticələrinin məhsuldar olması üçün daim motivasiya edilməlidirlər. Ümumiyyətlə motivasiya bütün sahələrdə diqqət yetiriləcək mühüm məsələlərdən biridir. Motivasiyası nəzəriyyələrindən irəli gələn müddəalar, demək olar ki, sahəsindən asılı olamayaraq bütün müəssisə və təşkilatlarda işçilərin iş

məmnunluğuna, məhsuldarlığına və xüsusilə də fəaliyyət nəticələrinə təsirini müəyyənləşdirmək üçün müvafiq üsul, metdo və vasitələrlə təşkilati məqsədləri reallaşdırmaq üçün istifadə olunur.

Motivasiyanın idarə edilməsinin metodlarının mahiyyətini açıqlamaq üçün motivasiya funksiyasının anlayışı və xüsusiyyətlərini araşdırmaq lazımdır. Bildiyimiz kimi, motivasiya sözünün təməlində motiv faktoru dayanır.

**Motiv**-insanı hər hansı məqsədə yönəldən şüuraltı və daxili sövqedici (hərəkətlərə yönəldən) faktordur. Motivi formalaşdıran əsas elementlər aşağıdakılardır:

- düşüncə;
- mədəniyyət;
- dünyagörüşü;
- maddi, mənəvi və fiziki tələbat;
- formalaşmış həyat və yaşam tərzi;
- sosial qruplara mənsubiyyət və s

**Motivasiya**- şəxsin özünü və digərlərini fərdi və ümumi məqsədlərə yönəldən pozitiv davranışdır.

Müəyyən bir hədəfə və ya nəticəyə çatmaq üçün çalışan bir insanı müşahidə etdikdə, bunu bir motivasiya hesab edirik. Motivasiyanın iki vacib növü vardır: daxili motivasiya və xarici motivasiya

Daxili motivasiya anlayışı bir çox sahələrdə, xüsusən də idarəetmə sahəsində öz dəyərini qoruyur. Bir çox qurum və təşkilatlar, xüsusən də müəssisələr çoxlu dəyişikliklərlə üzləşirlər. Bu dəyişikliklərin başlanğıcında demoqrafik inkişaflar, qloballaşma, rəqabətin güclənməsi, texnoloji inkişaflar və s. gəlir. (Sengupta, 2011) Bu vəziyyət bir çox insanın və məkanın, xüsusən də biznes və fərdlərin özlərini dəyişməsini zəruri edib. Bu dəyişiklik atmosferinin gətirdiyi öhdəlikləri yerinə yetirmək üçün fərdlər motivasiya edilməlidir.

Daxili motivasiya , heç bir xarici təsir olmadan bir şey etmək, hərəkət etmək, davam etmək üçün insanın daxilindən gələn motivasiya kimi müəyyən edilir.(L.Moore, 2010) Bioloji və psixoloji əsaslı olaraq iki yerə bölünür. Bioloji əsaslı daxili motivasiyanın ən yaxşı nümunəsi aclıqdır. Aclıq nəticəsində şəkərin azalması hormonlar tərəfindən tətiklənir və yemək istəyi beyinə gedir və aclıq istəyini yatırmaq üçün yemək hərəkəti olur. Psixoloji olaraq, bir insanın bir iş görmək istəyi olaraq təyin edilə bilər. Məqsədə çatmaq üçün psixoloji motivasiya çox vacibdir.

Bu, insanın öz iradəsi ilə hərəkət etməsi vəziyyətidir. Fərd bir fəaliyyətlə məşğul olur, çünki o, təbii olaraq məmnunluq əldə edir. Şəxsin fəaliyyətinin maraqlı və əyləncəli olması çox vacibdir. Fərdin hərəkət vəziyyəti maraq, mübarizə və ya əyləncə hissidir. Bu istəyi fərdin öz ehtiyacları, maraq səviyyəsi, marağı və s. amillər təsir edir. Bu amillər həm də insana gördüyü işi başa çatdırmaq gücü verir. Əgər fərd öz işindən həzz alır və məmnuniyyətlə yerinə yetirirsə, motivasiya halları daxili olaraq müəyyən edilir.(Burton, 2012) Bu motivasiya ilə işləyən insanlar müəssisələr və ya işəgötürənlər tərəfindən sevilir. Çünki onlar həvəslə işləyirlər, səmərəliliyi artırırlar.

Əgər insan öz işini mənalı görürsə, çətinlikləri dəf edərək buna nail olubsa, nəzarətdədirsə və öyrəndiklərini tətbiq etmək imkanı varsa, bu, həmin insanın daxili motivasiyasını işə salır və yüksəlməsinə şərait yaradır. (Sengupta, 2011) Daxili motivasiyadan necə səmərəli istifadə etməyi öyrənmək işin daha təsirli olmasına kömək edir məhsuldarlıq anlayışını artırır. Daxili motivasiyalı fərd öz işini könüllü olaraq, mükafata və təzyiqə ehtiyac duymadan yerinə yetirir. Mövzu haqqında məlumat əldə etdikdən sonra keçək daxili motivasiyanı artıran amillərə:

- **Maraq:** Daxili motivasiyanı atıran amillər arasında birinci yeri tutur. Fiziki mühitdə insanın diqqətini çəkən bir anlayışdır. Bu, insanı heyrətləndirərək, idrak marağı oyandıran bir anlayışdır.
- **Çağırış:** Fərdlər orta dərəcədə çətin tapşırıqları yerinə yetirdikdə və mənalı hesab etdikləri tapşırıqlarda iştirak etdikdə həvəslənirlər. Bu, əldə edilə bilən mənalı məqsədləri müəyyən etməyə imkan verir. Eyni zamanda geri bildirim verərək insana qiymət verir.
- **Rəqabət:** Daxili motivasiyanı artıran amillər arasında çox mühüm yer tutur. Bu, fərdə öz fəaliyyətini başqalarının fəaliyyəti ilə müqayisə edərək məmnunluq əldə etməyə imkan verir. Uduzan rəqabət mühitində əziyyət çəksə belə, bu, insanın güclənməsində təsirli ola bilər.
- **Nəzarət:** Daxili motivasiyanı artıran amillər arasında nəzarət də var. Bu, insana öz təcrübələrini idarə etməyə imkan verir.
- **Komanda işi:** Daxili motivasiyanı artıran amillər arasında sonuncudur. Məqsədinə çatmaq üçün başqasına kömək edən bir insan xoşbəxtdir. İnsanın razı qalmasını və müsbət təsirlənməsini təmin edir.

Daxili motivasiyada işin maraqlı və çətin olması, işin əhəmiyyəti və məsuliyyəti ilk vasitələrdir. Bunlara əlavə olaraq, işdə müstəqillik, yaradıcı olmaq, işdə iştirak etmək və bacarıqlardan istifadə etmək üstünlükləri var. Son olaraq müxtəliflik və rəy həmçinin daxili motivasiyanın vasitələridir.

Xarici motivasiya xarici mükafatlarla idarə olunan motivasiyadır. Bunlar pul və ya dərəcələr kimi maddi ola bilər və ya tərif, şöhrət kimi qeyri-maddi ola bilər. Şəxsin daxilindən yaranan daxili motivasiyadan fərqli olaraq, xarici motivasiya sırf kənar mükafatlara yönəlmişdir. Xarici motivasiyaya malik insanlar, özlüyündə mükafatlandırıcı olmasa da, bir işi yerinə yetirməyə davam edəcəklər. Məsələn, maaş almaq üçün işlərində xoşlamadıqları bir şey edəcəklər. Xarici motivasiyaya tərif və tanınmaq üçün bir tapşırıq və layihə üzərində çox çalışmaq, mükafat üçün yarışmaq və yaxud sadəcə davamlı maaş almaq üçün tapşırıqların yerinə yetirilməsi aiddir. (Sengupta, 2011; Steven, 2012)

Xarici motivasiyanın növləri kimi aşağıdakıları göstərə bilərik.

- **Mükafat əsaslı motivasiya**: mükafata əsaslanan motivasiya maddi və ya mücərrəd xarici mükafatlar nəticəsində yaranan motivasiyanı təsvir edir. Məsələn, bir işçi bonus vədinə görə satış hədəfinə çatmaq üçün motivasiya ola bilər.
- **Güc əsaslı motivasiya**: gücə əsaslanan motivasiya başqalarına nəzarət etmək istəyindən asılı olan xarici motivasiya formasıdır. Məsələn, bir lider insanlara rəhbərlik etmək və çətinliklərin öhdəsindən gəlmək üçün ruhlandırmaq üçün motivasiya ola bilər.
- **Qorxuya əsaslanan motivasiya**: Nəhayət, qorxuya əsaslanan motivasiya xarici mənfi nəticədən qaçmaq istəyini təsvir edir. Məsələn, rəhbər işə gecikənləri cəriməməklə hədələyə bilər və ya tələbə pis qiymət qorxusundan imtahana keçə bilər.

Daxili və xarici motivasiya arasındakı fərq aşağıdakı əsaslarla aydın şəkildə göstərilə bilər:

1. Daxili motivasiyada insan nəyəsə nail olmaq üçün hərəkət edir, lakin heç bir xarici mükafat üçün deyil, bu prosesdən zövq almaq və ya bir fürsət kimi qəbul etmək, yeni fikirləri araşdırmaq və eyni zamanda imkanlarını reallaşdırmaq üçün hərəkət edir. Əksinə, xarici motivasiyada insan mükafat qazanmaq və ya bəzi cəzalardan yayınmaq üçün müəyyən bir davranışı qəbul edir.

2. Daxili motivasiyada şəxsin nəzarət etdiyi, vacib sayılan hərəkətdir. Beləliklə, insanları gətirəcəyi mükafat üçün deyil, öz istəkləri və ya maraqları üçün bir fəaliyyətə qatmağa məcbur edir. Əksinə, xarici motivasiyada diqqət tapşırıq tamamlandıqda əldə olunan nəticəyə yönəldilir. Bu o deməkdir ki, insanları maddi və ya qeyri-maddi bir mükafat almaq üçün bir şey etməyə vadar edir.
3. Daxili motivasiyada idarəetmə yeri tapşırığı yerinə yetirməyə qərar verən insanın içərisindədir. Əksinə, xarici motivasiyada idarəetmə yeri tapşırığı icra etdiyi deyilən şəxs üçün xaricdədir.
4. Daxili Motivasiya özünə qulluq etmək, inkişaf etdirmək və razı salmaq, potensialı müəyyənləşdirmək və qabiliyyətləri araşdırmaq məqsədi daşıyır. Digər tərəfdən, xarici motivasiyanın məqsədi mükafat qazanmaq və ya müəyyən bir mənfi nəticədən qaçmaqdır.
5. Daxili Motivasiya bir insanın müstəqillik, səriştəlik və s. kimi əsas psixoloji ehtiyaclarını ödəməyə qadirdir. Bunun əksinə olaraq, xarici motivasiya insanın təməl psixoloji ehtiyaclarını təmin etmir, lakin pul, güc, şöhrət və s. kimi xarici faktorları əhatə edir.
6. Daxili Motivasiya, həyata keçirilən vəzifə və yaxud fəaliyyətin insanın dəyərləri ilə necə uyğunlaşması ilə əlaqədardır. Əksinə, xarici motivasiya, fəaliyyətin bir insanın bu gününə necə təsir edəcəyi ilə maraqlanır.
7. Daxili motivasiya bir insanın öz istək və ehtiyacları tərəfindən idarə olunur. Fərqli olaraq, xarici motivasiya digər mənbələrdən, ümumiyyətlə başqa bir şəxsdən qaynaqlanır.

Beləliklə, motivasiya işçinin davranışını idarə edən daxili qüvvədir. Bunlar ehtiyaclara, mükafatlara və səylərə əsaslanır. Hər iki motivasiya həyatda vacibdir. Daxili Motivasiya, insanı öz məmnuniyyəti üçün bir fəaliyyət göstərməyə təhrik edən bir şeydir. Xarici motivasiya, daxili bir məqsəd üçün deyil, xarici bir qüvvə səbəbi ilə bir şey etdiyinizdir. Xarici motivasiyada, bir şəxsin əldə etmək istədiyi bir mükafat rolunu oynayan maddi və ya qeyri-maddi bir nəticə vardır, ancaq daxili motivasiyada mükafat davranışın özüdür.

Təşkilat daxili idarəetmə münasibətlərində rəhbər tərəfindən işçiyə qarşı yönəlmiş davranışın və təsir vasitələrinin əsas xarakteri ondan ibarətdir ki, bu təsir vasitələri işçinin malik olduğu potensialın əhəmiyyətli hissəsini əmək fəaliyyətinə yönəldə bilsin. Bu baxımdan da, rəhbərin işçiyə qarşı davranışında əmək situasiyalarından asılı olaraq inzibati-hüquqi və mənəvi-stimulverici təsir vasitələrindən istifadə edilməlidir. Qeyd olunan hər iki təsir vasitəsinin müsbət effekti, onlardan lazımi məqamda istifadə etdikdə faydalı ola bilər.(Burton, 2012; L.Moore, 2010)

Motivasiyanı istiqamətləndirən və yönləndirən çoxlu müxtəlif qüvvələr var. Müxtəlif psixoloqlar insan davranışını tədqiq etmiş və əldə etdikləri nəticələri müxtəlif motivasiya nəzəriyyələri şəklində rəsmiləşdirmişlər. Bu motivasiya nəzəriyyələri insanların davranış tərzi və onları motivasiya edən faktorlar haqqında məlumat verir. Motivasiya nəzəriyyələri insanın ehtiyaclarını, onların məzmununu və onun motivasiyası ilə necə əlaqəli olduğunu öyrənir və təhlil edir. Bir insanı müəyyən bir fəaliyyətə nəyin sövq etdiyini, onun davranışını nəyə sövq etdiyini anlamağa çalışırlar. Motivasiya nəzəriyyəsi bir insanın motivasiyasına və bunun şəxsi və ya peşəkar səbəblərə görə davranışlarına necə təsir etdiyinə baxan bir üsuldur. Bu, cəmiyyətin hər bir sahəsi üçün vacibdir, lakin xüsusilə biznes və idarəetmə ilə əlaqədardır. Motivasiya ilə bağlı bir çox müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. İndi isə ən məşhur motivasiya nəzəriyyələrindən bəzilərini təhlil edək.

Maslowun ehtiyyaclar iyerarxiyası nəzəriyyəsi

Abraham Maslow, insanın bütün ehtiyacları yerinə yetirildikdə motivasiya olunacağını irəli sürdü. İnsanlar təhlükəsizlik və ya pul üçün işləmirlər, onlar töhfə vermək və bacarıqlarından istifadə

etmək üçün çalışırlar. O, insanların necə motivasiya olunduğunu göstərmək üçün bir piramida yaratmaqla bunu nümayiş etdirdi və qeyd etdi ki, piramidadakı ən aşağı səviyyə ehtiyacları əsas ehtiyaclardır və bu aşağı səviyyə ehtiyacları təmin edilmədikcə, insanlar yuxarı səviyyə ehtiyaclarını ödəməyə çalışmırlar.

Aşağıda ehtiyyacların iyerarxiyası verilmişdir:

• Fizioloji ehtiyaclar: hava, yuxu, yemək, su, geyim, cinsiyyət və sığınacaq kimi yaşamaq üçün əsas ehtiyaclardır.

• Təhlükəsizlik ehtiyacları: Təhdidlərdən, məhrumiyyətlərdən və digər təhlükələrdən qorunma (məsələn, sağlamlıq, təhlükəsiz iş və əmlak)

• Sosial (mənsubiyyət və sevgi) ehtiyacları: Birlik, mənsubiyyət, dostluq və s. ehtiyaclar.

• Özünə hörmət ehtiyacları: Hörmət və tanınma ehtiyacı.

• Özünü həyata keçirmə ehtiyacları: Şəxsi inkişaf, öyrənmə və əyləncəli, yaradıcı, çətin iş imkanı.

• Özünü reallaşdırmaq, insanın arzulaya biləcəyi ən yüksək səviyyəli ehtiyacdır.

Müəssisə rəhbəri komanda üzvlərinin hazırda hansı səviyyədə olduğunu anlamalı və bu xüsusi ehtiyacları ödəmək üçün onlara kömək etmək və müvafiq ehtiyacların yerinə yetirilməsi üçün çalışmalıdır. Bu, komanda üzvlərinə daha yaxşı fəaliyyət göstərməyə və irəliləməyə kömək edəcək. Həmçinin, ehtiyaclar ödənildikcə, komanda üzvləri piramidada qeyd edildiyi kimi növbəti, yuxarı ehtiyac səviyyəsini ödəməyi düşünməyə və daha effektiv fəaliyyət göstərməyə başlayacaqlar.

Motivasiya yolu ilə idarəetmə hər hansı menecer tərəfindən işçiləri daha çox işləməyə səfərbər etmək, tapşırıqlara və uzunmüddətli layihələrə maksimum səy sərf etməyə stimullaşdırmaq üçün qəbul etdiyi bütün hərəkətləri və qərarları əhatə edir. Bununla menecerlər işçilərin maksimum nəticə əldə etmələrinə səbəb olur və bu da şirkətin inkişafına səbəb olur.

İşə həvəsləndirmək insanın fəaliyyətinə və təfəkkürünə təsir edən bir sıra müxtəlif alətlərdən istifadəni nəzərdə tutur . Hər bir təşkilat işçilərə təsir edən öz motivasiya sistemini yaradır və bunun məqsədi işçilərin məhsuldarlığını artırmaqdır. Azərsun Holding də həmçinin işçilərini motivasiya etmək üçün öz motivasiya sistemini yaratmışdır. Apardığımız sorğunun nəticələrindən görünürki, işçilər tətbiq edilən motivasiya sistemindən məmnundurlar və öz şirkətlərinə sadiqdirlər. İnsanları işi yerinə yetirməyə həvəsləndirmək mahiyyət etibarı ilə:

həm maddi (bonus, əmək haqqı, mükafat), həm də qeyri-maddi (tərif, tələb, təqdir) xüsusi stimulların yaradılması;

işçiləri əmr, hədə və hər cür cəza ilə məcbur etmək .

Məcburi tədbirlər həvəsləndirici qüvvədən qat-qat azdır. Buna görə də, işçilərin müəyyən edilmiş tapşırıqları yerinə yetirməkdə həvəslə hərəkət etmələri üçün işləməyə həvəsləndirmək yollarının axtarışına getdikcə daha çox diqqət yetirilir.

Motivasiya ilə idarəetmə texnikasını effektiv şəkildə həyata keçirmək üçün menecerlər ilk növbədə bunları yadda saxlamalıdırlar:

Hər bir insanın əsas ehtiyyacı təqdir olunmaq və fərqinə varmaqdır, bu ehtiyyacı ödəmək üçün insan çox şey etməyə hazırdır,

Davranış və idarəetmə vasitələrinin müxtəlifliyi , bunu fərdi ehtiyyaclara , həssaslığa, temperamentə və digər şəxsi xüsusiyyətlərə uyğunlaşdırmaq çətindir ,

işçinin şəxsiyyəti və artıq ödənilmiş ehtiyacların insan fəaliyyətinə eyni həvəsləndirici təsir göstərməməsi,

menecerlər tabeçiliyində olanlara elə rəftar etməlidirlər ki, sanki onlar özləri ilə rəftar etmək istəyirlər. Biz hamımız insanıq və görünüşümüzdə fərqli olsaq da, hamımızın bir ümumi xüsusiyyəti var, yəni hisslər.

Bu texnikadan bacarıqla istifadə şirkət üçün çoxlu faydalar gətirə bilər. Bu, həm də (başqaları tərəfindən ehtiyac duyulduğunu və təqdir edildiyini hiss edən) daha effektiv və həvəslə işləyən, həmişəkindən daha çox səy göstərən insana müsbət təsir göstərə bilər.

Motivasiya ilə idarəetmə şirkət üçün bir sıra üstünlüklər təmin edir, məsələn:

Məhsuldarlığın artırılması – motivasiya işçiləri daha çox işləməyə və daha məhsuldar olmağa sövq edir ki, bu da şirkətin böyüməsinə səbəb olur.

Müştəri məmnuniyyətinin artırılması – həvəsləndirilmiş işçilərin daha yaxşı müştəri təcrübəsi təqdim etmə ehtimalı daha yüksəkdir və beləliklə, müştərilər satın aldıqları məhsuldan daha çox məmnun olurlar.

Komanda ruhunun gücləndirilməsi – həvəsləndirilmiş işçilərin komanda şəklində birlikdə işləmə ehtimalı daha yüksəkdir və bu, daha yaxşı əməkdaşlığa və məhsuldarlığın artmasına səbəb olur.

Yaradıcıllığın artırılması – motivasiya işçilərə qutudan kənarda düşünməyə və problemləri həll etmək və yeni məhsullar yaratmaq üçün innovativ ideyalar irəli sürməyə kömək edir.

İşçilərin məşğulluğunun artırılması – həvəsləndirilmiş işçilərin öz işləri ilə məşğul olma ehtimalı daha yüksəkdir ki, bu da iş məmnunluğunun və sadiqliyin artmasına səbəb olur.

Liderlik bacarıqlarının inkişafı – həvəsləndirilmiş işçilər daha çox təşəbbüs göstərməyə və liderlik bacarıqlarını inkişaf etdirməyə meyllidirlər ki, bu da şirkət üçün faydalı ola bilər. Motivasiya ilə idarəetmə işçiləri həvəsləndirmək üçün güclü vasitədir. Bununla belə, onun bəzi məhdudiyyətləri var:

Qalıcı nəticələr verə bilməz. Motivasiya qısamüddətli həll yoludur və stimul ləğv edildikdən sonra işçilər uzun müddətdə motivasiya olmaya bilər.

Onu saxlamaq çətin ola bilər. Menecerlər işçilərinin dəyişən ehtiyac və istəkləri ilə ayaqlaşmalıdırlar və bu, çətin ola bilər.

Bu bahalı ola bilər. Mükafatlar, həvəsləndirmələr və digər tanınma formalarının təklif edilməsi zamanla baha başa gələ bilər.

Bu, muxtariyyətin olmamasına səbəb ola bilər. İşçilər xarici mükafatlardan asılı ola və daxili motivasiyalarını itirə bilərlər.

Bu, vaxt apara bilər. Menecerlər motivasiya strategiyalarının yaradılması və həyata keçirilməsi üçün xeyli vaxt və enerji sərf etməlidirlər.

Motivasiya kitablarda idarəetmənin sadə funksiyası kimi görünsə də, praktikada daha çətin olur. Motivasiyanın çətin iş olmasının əsas səbəblərindən biri dəyişən işçi qüvvəsi ilə bağlıdır. İşçilər müxtəlif ehtiyac və gözləntilərlə təşkilatlarının bir hissəsinə çevrilirlər. Fərqli işçilərin fərqli inancları, münasibətləri, dəyərləri, keçmişi və düşüncəsi var. Lakin bütün təşkilatlar öz işçi

qüvvələrindəki müxtəliflikdən xəbərdar deyillər və buna görə də müxtəlif işçi qüvvəsini həvəsləndirməyin müxtəlif yollarından xəbərdar və aydın deyillər.

İşçilərin motivləri görünə bilməz, onları yalnız ehtimal etmək olar.Tutaq ki, bir komandada eyni yaş qrupuna, eyni təhsil keyfiyyətinə və eyni iş təcrübəsinə malik olmasına baxmayaraq, fərqli performans göstərən iki işçi var. Səbəb, bir işçini motivasiya edən şeyin digərinə həvəsləndirici görünməməsi ola bilər. İşçilərin motivasiyası, xüsusən də təşkilatlar işçilərin iş rolunu əhəmiyyətli dərəcədə dəyişdikdə və ya iyerarxiyanın səviyyələrini azaltdıqda və ya işçilərin sayının azaldılması və ya düzgün ölçülərin dəyişdirilməsi adı ilə xeyli sayda işçini qovduqda çətinləşir. Bəzi firmalar işə götürməyi, işdən çıxarmağı və performans strategiyaları üçün ödəniş etməyi, demək olar ki, motivasiya səylərindən imtina etməyi seçmişlər. Bu strategiyalar insanın özünü aşması üçün uğursuz olur. Ehtiyacların güclü təbiəti həm də tabeliyində olanları motivasiya etməkdə menecer üçün problem yaradır. Bunun səbəbi işçinin müəyyən bir zamanda müxtəlif ehtiyac və gözləntilərə malik olmasıdır. Həmçinin, bu ehtiyaclar və gözləntilər dəyişməyə davam edir və bir-biri ilə toqquşa bilər. Məsələn, işdə öz ehtiyaclarını ödəmək üçün əlavə vaxt sərf edən işçilər, sərf etdikləri əlavə vaxtın sosial maraqları və mənsubiyyət ehtiyacları ilə toqquşduğunu anlaya bilərlər.

**Motivasiyanın Müasir Metodları**

**İşçiyə qarşı inzibati-hüquqi təsir.** İşçiyə qarşı inzibati-hüquqi təsirin əsas xarakteri ondan ibarətdir ki, rəhbərin işçi ilə münasibətdə inzibati təsir vasitələrindən və hüquqi prosedurlardan istifadə etməsi yaranmış əmək situasiyasına uyğun olaraq işçinin öz məsuliyyətini dərk etməsinə təsir edir və həmin anda onu daha effektiv surətdə vəzifələrin icrasına yönəldir. İnzibati-hüquqi təsir vasitələrindən adətən işçinin əmək proseslərinə laqeyd münasibətinin yarandığı, eyni zamanda icra etdiyi işin və cavabdeh olduğu sahənin məsuliyyətini lazımi səviyyədə dərk etmədiyi hallarda yol verilir.(Ergeneli, 2006; Steven, 2012)

**İşçiyə qarşı mənəvi-stimulverici təsir.** İşçiyə qarşı mənəvi-stimulverici təsirin əsas xarakteri ondan ibarətdir ki, bu halda işçi hər hansı pozuntu və ya məsuliyyətsizlik hallarına yol vermir və rəhbər, işçinin faktiki əmək potensialının daha maksimal həcmini əmək proseslərinə yönəltmək üçün zəruri motivasiya tədbirlərindən istifadə edir.(Moore, 2010) Bu təsir vasitələri zəruri həddə və əmək situasiyasına uyğun olduğu halda daha effektli olur. Bununla bağlı misal olaraq qeyd etmək olar ki, işçinin səmərəli əmək fəaliyyəti ilə bağlı əldə etdiyi iqtisadi nəticənin eyni ekvivalenti həcmində onu mükafatlandırmaq, təşkilatın iqtisadi maraqlarına uyğun olmaz və eyni zamanda işçini tənbəlləşdirməklə əmək fəaliyyətinin dinamikliyini aşağı salacaqdır. Mənəvi-stimulverici təsir vasitələrinə aşağıdakılar daxildir:

- işçinin müsbət nəticəli əməyini mükafatlandırmaq;
- işçiyə təşəkkür etmək ;
- işçinin müsbət əməyini nümunə kimi təqdim etmək;
- çətin məqamlarda işçiyə dəstək olmaq və onu həvəsləndirmək və s.

İşçilərin motivasiyası işçilərin mənəvi və maddi həvəsləndirilməsi sistemidir.(Boeree, 2006) Əmək məhsuldarlığının və səmərəliliyinin artırılması üçün tədbirlər çox fərqli ola bilər və təşkilatda hansı həvəsləndirmə sisteminin təmin olunduğundan, ümumi idarəetmə sisteminin nə olduğundan və təşkilatın özünün xüsusiyyətlərindən asılıdır.

Çalışanların motivasiya metodlarını təşkilati və inzibati, iqtisadi və sosial-psixoloji metodlara bölmək olar.

- **İqtisadi üsullar** maddi motivasiyanı nəzərdə tutur, yəni işçilərin öz vəzifələrini yerinə yetirmələri və maddi nemətlərin təmin edilməsi üçün müəyyən nəticələrin əldə edilməsidir.
- **Təşkilati və inzibati üsullar** hakimiyyətə əsaslanan, nizamnamələrə, qanunlara tabe olmaq, tabeçilik və s. aiddir. Onlar həm də məcburiyyət ehtimalına arxalana bilərlər.
- **Sosial-psixoloji metodlar** işçilərin ictimai fəallığını artırmaq üçün istifadə olunur. Burada insanların şüuruna, onların estetik, dini, sosial və digər maraqlarına təsir edərək əmək fəaliyyətinin sosial stimullaşdırılması həyata keçirilir.

Motivasiya sahəsində bütün rəhbərlik idarəetmə funksiyalarının həyata keçirilməsində menecerlərin əsas fikirlərini, qanunlarını və davranış qaydalarını əks etdirən konkret prinsiplərə fokuslanır. İdarəetmədə əsas açar mərkəzləşdirmə prinsipinin ən yaxşı formada təmin edilməsi, rəhbər qərarların qəbul edilməsində səlahiyyətlərin optimal paylanmasıdır. Müasir idarəetmə metodlarından, yəni təşkilatın təyin etdiyi məqsədlərə nail olmaq üçün idarəetmə obyektinə təsir üsullarından istifadə etmək çox vacibdir. .(Matsie, 2008: Steven, 2012)

Hal-hazırda sosial-psixoloji metodlar daha vacibdir. Bu motivasiya sistemində bu üsullar artıq ön plana çıxır. Sosial-psixoloji təsir üsulları və metodları əsasən liderin hazırlığı, onun təşkilati bacarıqları və psixologiya sahəsində bilikləri ilə müəyyənləşdirilir.(Matsie, 2008) Effektiv motivasiya sistemi yaratmaq üçün komandada mənəvi və psixoloji mühitin gücləndirilməsinə imkan verən prinsiplərə riayət etmək lazımdır:

- Daimilik prinsipi. Hər hansı komanda davamlı şəkildə tərkibini qurmalıdır;
- Optimal nəzarət prinsipi; qrupun hər hansı bir üzvünün işini izləmək üçün fərqli, eyni zamanda fərdi yanaşma tələb olunur;
- İşdə çatışmazlıqları aradan qaldırmağa imkan verən tənqid prinsipi;
- Şəxsi və ictimai maraqların harmonik birləşməsini xarakterizə edən maddi və mənəvi stimullaşdırma prinsipi.

Bütün insanların fərqli olduğunu nəzərə alsaq, motivasiya üçün hər hansı bir metodun tətbiqi səmərəsiz görünür, buna görə də idarəetmə praktikasında əksər hallarda hər üç üsul və onların birləşmələri mövcud olmalıdır. Məsələn, yalnız təşkilati-inzibati və ya iqtisadi metodlardan istifadə işçilərin yaradıcı potensialını aktivləşdirməyə imkan verməyəcəkdir. Motivasiyanı artırmaq üçün istifadə edilən tədbirlərin müvəffəqiyyətli olması onların səriştəli və hərtərəfli həyata keçirilməsindən, habelə işçilərin sistematik monitorinqindən və hər bir işçinin ehtiyaclarının fərdi olaraq bacarıqla müəyyən edilməsindən asılıdır.

Motivasiya sisteminin inkişafı prosesində biz aşağıdakı mərhələləri ayıra bilərik:

1. Hər bir işçinin fəaliyyətini xarakterizə edən əsas göstəricilərin müəyyən edilməsi, təşkilatın məqsəd və vəzifələri sisteminin formalaşdırılması.

2. Əsas əmək haqqı səviyyəsinin təyin edilməsi.

3. İşçilərin motivasiya sistemində istifadə ediləcək vasitələrin müəyyənləşdirilməsi.

4. Əldə edilmiş nəticələr nəzərə alınmaqla işçinin işinin qiymətləndirilməsini həyata keçirmək.

5. Həyata keçirilən fəaliyyət nəticələrinin və alınan mükafatların arasında əlaqənin yaradılması.

Hər bir mərhələni daha ətraflı nəzərdən keçirək:

Birinci mərhələdə şirkətin birbaşa və hər bir bölməsinin məqsəd və vəzifələrini ayrı-ayrılıqda müəyyənləşdirmək lazımdır. Şöbənin fəaliyyətinin səmərəliliyini qiymətləndirmək üçün onun fəaliyyət göstəriciləri müəyyənləşdirilir. Sonra hər bir işçinin hədəflərini və əsas fəaliyyət göstəriciləri müəyyən edilir. Bunu etmək üçün işçinin vəzifələrini, onun səviyyəsinə uyğun və birbaşa onlara verilmiş vəzifələri təhlil etmək lazımdır.

İkinci mərhələdə işçilər üçün onlara verilən vəzifələri nəzərə alaraq əmək haqqının məbləğini təyin etmək lazımdır. Təşkilatın heyətini yalnız mükafatın dəyişən bir hissəsini ödəmək hesabına effektiv şəkildə təşviq etmək mümkündür.

Üçüncü mərhələdə təşkilata və hər bir fərdə tətbiq oluna bilən heyətin motivasiya vasitələrinin siyahısı müəyyənləşdirilir. İlk növbədə, işçinin fəaliyyət nəticələrinə uyğun olaraq bonuslar, təriflər və s. kimi vasitələrlə birbaşa əlaqələndirilə bilən vasitələr tətbiq edilir. Beləliklə, maddi mükafatın bu hissəsinin əsas məqsədi əmək fəaliyyətində konkret nəticələrin əks etdirilməsidir. Şirkətə çalışanlara sadiqlik səviyyəsini yüksəltmək, işçilərin cəlb edilməsi və fəaliyyətini təmin etmək, onların iş həzzini artırmaq və kadrların dövriyyəsini azaltmaq üçün əlavə xərclərin ödənilməsi, korporativ tədbirlər və s. kimi dolayı motivasiya vasitələrindən istifadə olunur. Bu cür vasitələr hər bir fərdi işçinin əmək fəaliyyəti ilə birbaşa əlaqələndirilmir. İşçilər üçün dolayı təşviq vasitələrinin bu və ya digər alətinin seçilməsi işin iyerarxiyasında mövqe tutan işçinin vəziyyətinə və ya dərəcəsinə əsasən müəyyən edilir: rütbənin nə qədər yüksək olduğu, ona daha dəyərli sosial paketin verilməsini təmn edir. Adi bir işçi üçün bu pulsuz yemək, menecerlər üçün sığorta və fərdi avtomobillərlə təmin olunmaq kifayət edə bilər. Bundan əlavə, işçilərin motivasiya yönümünü nəzərə almaq məqsədəuyğundur: bir əməkdaş üçün onun statusunu (xidməti avtomobil, telefon, və s.) nəzərdə tutan maddi stimullar əsasdırsa, digər işçilər üçün onun inkişafına yönəlmiş təşviqlər (misal üçün təlimlər) daha vacib olaraq çıxış edir.

Dördüncü mərhələdə hər bir işçinin fəaliyyətinin ümumi qiymətləndirməsini müəyyənləşdirmək lazımdır. Bir işəgötürən üçün bir göstərici əsas olduqda tapşırıq əhəmiyyətli dərəcədə sadələşdirilmiş olur və bütün qiymətləndirmə bu göstəricinin hesablanması ilə bağlı olur. Bununla yanaşı, bir çox göstəriciləri əsas götürüldükdə, bir işçinin fəaliyyətini qiymətləndirmək üçün müəyyən metodologiyanın hazırlanması zərurəti meydana çıxır. Hər bir göstəricinin və onun həyata keçirilməsinin əhəmiyyətini bu zaman nəzərə almaq lazımdır.

Beşinci mərhələdə əldə edilən effektivliyin, motivasiya vasitəsinin və onun ölçüsünün qiymətləndirilməsi arasında əlaqələr müəyyən edilir. Motivasiya sisteminin yaradılmasının əsas məqsədlərindən biri insanları şirkət qarşısında duran vəzifələrin ən səmərəli həllinə yönəltməkdir. Buna görə, təşviq sistemi şirkətin strateji məqsədlərinə bağlı olmalıdır.

Beləliklə, müəssisələrdə strateji dəyişikliklər zamanı işçilər həmin bu dəyişikliyə müqavimət göstərirlər. İşçilərin uğursuz olmaq qorxusu, rəhbərliklə işçi arasında kommunikasiyanın zəif olması, işinin rəhbərliyə inamının az olması və s. müqavimətin əsas səbəbləridir. Bunun qarşısını almaq üçün müəssisələrdə motivasiya sistemindən geniş istifadə edilməli və daha da təkmilləşdirilməlidir. Çünki işçilər şirkətin əsas resurslarıdır.

**Ədəbiyyat siyahısı**

A.H. Maslow, (1943). A Theory of Human Motivation. Psychological Review, 50, 370-396

C. G. Boeree, (2006). Abraham Maslow, Personality Theories.

J. Adair, (2004). Adair on Teambuilding & Motivation. Rivington Street, London: Thorogood Publishing Ltd

K. Burton, (2012). A study of Motivation: How to get Your Employees Moving. 18.02.2017

L. Banks, (1997). Motivation in The Workplace: Inspiring Your Employees. Virginia Beach, Virginia 23452: Coastal Training Technologies Corp.

M. R. Steers, R. T. Mowday, L. D. Shapiro, (2004). The future of work motivation theory. Academy of Management Review, 29, 379-387.

M. E. Steven, L. S.William, & E. B. Chet (2012). Age as a Moderator of Attitude towards Technology in the Workplace: Work Motivation and Overall, Job Satisfaction. Behaviour & Information Technology, 31, 453-567

M. T. Amabile, (1993). Motivational Synergy: Towards new conceptualizations intrinsic & extrinsic motivation in the workplace. Human Resources Management Review, 3, 185-201.

M. Blaskova, & V. Grazulis, (2009). Motivation of Human Potential: Theory & Practice. 18.02.2017:

N. H. Shanks, (n. d). Management & Motivation. 17.02.2017

S. S. Sengupta, (2011). Growth in Human Motivation: Beyond Maslow. The Indian Journal of Industrial Relations, 47, 102-116.

# Qadın Sahibkarlığının İnkişafında Motivasiya Amilləri

**i.f.d. Ruhiyyə Hüseynova**

**Mingəçevir Dövlət Universiteti**

**h.ruhiyye76@mail.ru**

## Xülasə

Sahibkarlığın inkişaf etdirilməsi bütün ölkələrin prioritet istiqamətlərindən biri olmaqla iqtisadi və sosial inkişafa təsir edən ən mühüm amillərdən biridir. Dünya ölkələrində rəqəmsal iqtisadiyyat, texnoloji transformasiya və qloballaşmanın təsiri ilə qadınların sosial və mədəni həyatda daha çox rol almağa başlamışdır. Qadınların təhsil almasına və elmə verdiyi önəm və fərqli baxışları onların bir çox sahədə uğur qazanmalarına şərait yaradıb. Qadınlar qloballaşan və dəyişən həyat şəraitinə çox tez uyğunlaşırlar. Onlar fərdi ehtiyaclarına və ya öhdəliklərinə görə işləməklə yanaşı sosial rollarına yenisini əlavə edərək, sahibkar qadın yanaşmasını inkişaf etdiriblər. Məqalədə motivasiya və qadın sahibkarlığı anlayışını birlikdə əlaqələndirilərək öyrənilmiş, qadınları sahibkar olmağa həvəsləndirən motivasiya amilləri və onların əhəmiyyəti araşdırılmışdır. Araşdırmanın əsas əhalisini Mingəçevir şəhərində fəaliyyət göstərən qadın sahibkarlar təşkil edir. Onlarla birbaşa və internet, mobil nömrələrlə əlaqə saxlanılmış, sorğu aparılıb, qeydlər edilmiş, müəyyən nəticəyə gəlinmişdir. Buna əsasən müəyyən qiymətləndirmə aparılmışdır. Araşdırmalar nəticəsində qadınları sahibkarlığa həvəsləndirən ən mühüm amilin özünü reallaşdırmaq istəyi, qadınları sahibkarlığa ən az həvəsləndirən amilin isə şüşə tavan sindromu olduğu, qadın sahibkarların yaş dəyişkənliyinə görə motivasiya amillərinin əhəmiyyətli dərəcədə fərqləndiyi müəyyən edilmişdir.

**Açar sözlər**: sahibkarlıq, qadın sahibkarlığı, motivasiya, motivasiya amilləri

## Abstract

Entrepreneurship development is one of the priority areas of all countries and is one of the most important factors affecting economic and social development. Due to the influence of digital economy, technological transformation and globalization, women have started to play a greater role in social and cultural life in different countries. Women's importance and different views on education and science have made it possible for them to succeed in many fields. Women adapt very quickly to globalized and changing living conditions. They have developed an entrepreneurial woman approach by adding a new one to their social role while working for their individual needs or commitments. In the article, the concept of motivation and women's entrepreneurship is studied together, the motivational factors that encourage women to become entrepreneurs and their importance are investigated. The main population of the study is made up of female entrepreneurs operating in the city of Mingachevir. They were contacted directly and via the Internet and mobile numbers, a survey was conducted, and certain notes were made. Based on this, a certain assessment was made. As a result of the research, it was determined that the most important factor that motivates women to entrepreneurship is the desire to realize themselves, and the least motivating factor for women to entrepreneurship is the glass ceiling syndrome, and the motivation factors of female entrepreneurs differ statistically significantly due to age variation.

**Keywords**: entrepreneurship, female entrepreneurship, motivation, motivational factors

## Giriş

Sahibkarlığın inkişaf etdirilməsi bütün ölkələrin prioritet istiqamətlərindən biri olmaqla iqtisadi və sosial inkişafa təsir edən ən mühüm amillərdən biridir. Sahibkarlıq cəmiyyət və biznes əsasında transformasiya hərəkatı yaradır və cəmiyyəti inkişaf etdirir. Bu transformasiya məhsuldarlığa və eyni zamanda iqtisadi artıma səbəb olur. Sahibkarlıqla yanaşı, transformasiya və inkişaf üçün tələb olunan ən vacib amil innovasiyadır. Yenilik, bazar üçün fərqli bir məhsul və xidmətin səmərəliliyini

artırmaqla yanaşı, yeni yaranan müəssisələri investisiya baxımından cəlbedici edir (Özyılmaz, 2016).

Sahibkarlıq iqtisadi potensialdan istifadə etmək, inkişaf və fərdi rifah mənbəyi olmaq, məşğulluq imkanlarını təmin etmək baxımından çox mühüm funksiyaya malikdir (Altuntepe, 2019). Sahibkarlıq istiqamətində hərəkət edən insanların ümumi xüsusiyyətləri araşdırıldığında, onların əksəriyyətinin oxşar xüsusiyyətlərə malik olması dərhal diqqəti cəlb edə bilir (Cansız, 2007). Bu keyfiyyətlərdən ən güclüləri: yenilikçi və yaradıcı, daha kreativ olmaq, riskli fəaliyyətə malk olmaq, özünə inam və liderlik qabiliyyətidir. Təşəbbüskar şəxsiyyət xüsusiyyətləri arasında hadisələrə müxtəlif prizmadan baxmaq və bütövlükdə detallardan nəticə çıxarmaq bacarığı önəmlidir (Soysal, 2010). Bu qabiliyyət qadın sahibkarlığının klassik sahibkarlıq fəaliyyətindən fərqlənməsinə və fərqli bir fenomen kimi inkişaf edib konseptuallaşmasına səbəb olur. Qadın sahibkarlığı demoqrafik və iqtisadi struktura təsirləri ilə yanaşı, həmçinin sosial inkişaf baxımından da strateji əhəmiyyətə malikdir. Qadınların sosial həyatda ehtiyaclar üçün həllər və məhsul və xidmətlər hazırlaması zehni inkişaf və innovasiyanın yeni və fərqli ölçüdə qiymətləndirilməsinə səbəb olacaq.

**Qadın Sahibkarlığı və Önəmliliyi**

Dünya ölkələrində rəqəmsal iqtisadiyyat, texnoloji transformasiya və qloballaşmanın təsiri ilə qadınların sosial və mədəni həyatda daha çox rol almağa başladığı görürük. Qadınların təhsil almasına və elmə verdiyi önəm və fərqli baxışları onların bir çox sahədə uğur qazanmalarına şərait yaradıb. Onların nizam-intizamı, təfərrüatı və həssaslığı iş dünyasında qadın sahibkarlığı adlı yeni yanaşmanın ortaya çıxmasına səbəb olub. Qadınlar qloballaşan və dəyişən həyat şəraitinə çox tez uyğunlaşdılar. Onlar fərdi ehtiyaclarına və ya öhdəliklərinə görə işləməklə yanaşı sosial rollarına yenisini əlavə edərək, sahibkar qadın yanaşmasını inkişaf etdiriblər. İş dünyasına qədəm qoyan qadınlar ev və iş kimi iki fərqli sahədə çalışmaq məcburiyyətində qalaraq əslində ağır bir yükün altına girmişlər (Efe, 2016).

Qadın sahibkarlar mövzusu müxtəlif müəlliflər tərəfindən fərqli şəkildə ifadə edilir:

- Sahibkar qadın öz biznesi olan, özü üçün işləyən və ya biznesində işçilər işə götürən, məhsul və ya xidmətlər istehsal edən və bazara çıxaran, maliyyə resurslarını araşdıran, biznesi ilə bağlı təcili problemlərin öhdəsindən gələ bilən, yeni və dəyişən şərtlərə uyğunlaşan qadın sahibkardır (Yağcı və Bener, 2005).

-Qadın sahibkar sahibkarlıq keyfiyyətlərinə malik olan, sahibkar olmaq üçün lazımi səy və fədakarlıq göstərə bilən iş sahibidir (Keskin, 2014).

Rəqəmsal iqtisadiyyat və rəqabət şəraitində iqtisadiyyatın inkişafında, işsizliyin azaldılmasında və məşğulluğun yaradılmasında, daha uğurlu qlobal müəssisələrin həyata keçirilməsində qadın sahibkarlığı çox mühüm funksiyaya malikdir (Soysal, 2010). Qadınların iş dünyasına qədəm qoyması qadınların cəmiyyətdəki əhəmiyyətini artırır və cəmiyyətin inkişaf səviyyəsini yüksəldir, eyni zamanda qeyri-bərabər gəlir bölgüsündə tarazlıq yaratmağa imkan verir (Can və Karataş, 2007).

Qadın sahibkarlığının yüksək olduğu, qadınların ictimai həyatda və iş dünyasında fəal olaraq iştirak etdiyi ölkələrdə iqtisadi sabitliyə nail olunduğu görünür. Eyni şəkildə, qadın sahibkarlığının aşağı səviyyədə qaldığı, qadınların cəmiyyətdə və iş həyatında arxa plana atıldığı ölkələrdə iqtisadiyyatın durğun olduğu, hətta tənəzzülə başladığı görünür. Məlumdur ki, inkişaf etmiş cəmiyyətlərdə qadın və kişilər iqtisadi və sosial həyatda bərabər iştirak edirlər (Bozkurt və Yaşar, 2018).

**Motivasiyanın Qadın Sahibkarlığına Təsiri**

Maslounun ehtiyaclar iyerarxiyası digər motivasiya nəzəriyyələrinin də bəziləri üçün təməl olduğu və müasir dövrdə də öz təsirini saxladığı üçün önəmlidir. Piramida beş pilləli olub və bəsitdən mürəkkəbə doğru bu şəkildə açıqlanır:

1. Fizioloji (physiological) ehtiyaclar: Hava, su, qida, istilik, sığınacaq, yuxu, və s.
2. Təhlükəsizlik (security) ehtiyacları: Təhlükəsizlik, sağ qalma, sağlamlıq, iş, sığınacaq, haqq və hüquqlar və s.
3. Aid olma, sevgi (belonging, love/social) ehtiyacı: Dostluq, ailə, ünsiyyət, aid olma, sevgi, yaxınlıq, və s.
4. Hörmət (esteem) ehtiyacı: Özünə hörmət, özünə inam, hörmət edilmək, uğur qazanmaq, tanınmaq, status sahibi olmaq, və s.
5. Özünü reallaşdırma (self-actualization) ehtiyacı: Şəxsi inkişaf, şəxsi potensialını reallaşdırma, istedadının fərqinə varma və onu istifadə etmə, yaradıcılıq, həqiqətləri qəbul etmə, qərəzsiz olma və s. (Maslou, 1943)

Motivasiya mahiyyətcə yaradıcılığın və sahibkarlığın mənbəyidir. İnsanları müəyyən davranış nümayiş etdirməyə sövq edən ehtiyac kimi də ifadə edilir. Bu ehtiyaclar bir sıra daxili və xarici motivasiya mənbələri ilə ödənilir (Şimşek və Çelik, 2018). Motivasiya anlayışı eyni zamanda insanın qabiliyyət və bacarıqlarının məqsədə uyğun istifadəsinə töhfə verən istək, impuls, şövq kimi enerji oyandıran güc kimi də müəyyən edilir. Məqsədin düzgün müəyyən edilməsi sahibkar olmaq istəyən şəxslər üçün ən vacib motivasiya mənbələrindən biridir. Qarşıya qoyulmuş məqsədlərə nail olmaq fərdin özünü reallaşdırma, təstiq etmə və nailiyyət qazanmaq arzusu hissi kimi daha yüksək ehtiyaclarını ödəmək deməkdir. Hər bir fərdin məqsədlərinə çatmaqla əldə etdiyi uğurun sosial mühit tərəfindən qiymətləndirilməsi fərdin məmnunluq dərəcəsini və sürətini artıra bilər. Buna görə də qadınların sahibkar ola bilmələri üçün hədəf olaraq uyğun bir sahə müəyyən etməli və öz motivasiya mənmələrini yaratmalıdırlar (Cici, 2013).

Qadın sahibkarların motivasiya mənbələri ümumiyyətlə onların sosial mühitinə əsaslanır. Ötən əsrin sonlarından başlayaraq qadınların təhsil səviyyəsinin yüksəldiyi və ictimai həyatda daha çox söz sahibi olmağa başladığı müşahidə edilmişdir. Bu inkişaflar qadınların sahibkarlığa daha çox maraq göstərməsinə səbəb olur. Bundan əlavə, sahibkarlıq fəaliyyətinin təqdim etdiyi iqtisadi imkanlar və idarəetmə azadlığı qadınları sahibkar olmaq üçün motivasiya edən ən mühüm mənbələrdir.

Qadınları sahibkar olmağa həvəsləndirən bir çox amillər var. Qadınları sahibkarlığa aparan amillər içərisində maliyyə imkansızlıqları ən əsas amildir. Bundan başqa, özünü reallaşdırmaq ehtiyacı, öz biznesini qurmaq, müəyyən ödəniş müqabilində başqası üçün işləmək istəməmək kimi bir çox səbəblər qadınları sahibkarlığa yönəldən mühüm amillərdəndir. Qadın sahibkarlar iqtisadi azadlıq əldə etmək üçün sosial, psixoloji və maliyyə baxımından bütün riskləri üzərinə götürürlər.

İş saatlarının uzun olması kimi səbəblər qadınların sahibkar olmasına maneələr yarada bilir. Bəzi sahibkar qadınlar ailə münasibətlərini gücləndirmək, işi ilə ailəsi arasında vəhdət yaratmaq üçün işlə məşğul olmağı seçirlər (Sinanoğlu, 2005). Qadınların sahibkarlıq fəaliyyətinə təsir edən maneələr vardır. Qadınları sahibkarlığa istiqamətləndirərək öz işini qurmaq istəyinə səbəb olan müsbət və mənfi motivasiya mənbələrinin olmağı müəyyənlədirilmişdir. Mənfi motivatorlar qadınları sahibkar olmaqdan uzaqlaşdıran səbəblərdən, müsbət motivatorlar isə qadınları sahibkar olmağa cəlb edən və həvəsləndirən səbəblərdən ibarətdir (Yetim, 2002).

**Qadınları Sahibkarlığa Həvəsləndirən Müsbət və Mənfi Motivatorlar**

Qadınları sahibkarlığa həvəsləndirən müsbət və mənfi motivatorları aşağıdakı kimi təsnifləşdirmək olar:

Pozitiv motivatorlar:

-Özünü təstiq etmə arzusu

-Pul qazanmaq istəyi

-Sosial status əldə etmək istəyi

-Güclü olmaq istəyi

-Sahibkarlıq motivasiyası

- Mənfi motivatorlar:

-İşsiz qalmaq qorxusu

-Şüşə tavan sindromu

-Çevik iş saatları

-İşdən narazılıq

-Müstəqil işləmək arzusu (Özgür, 2019)

Fərdin başqalarının hərəkətlərini istiqamətləndirmək, onları öz nəzarəti altına almaq və öz məsuliyyəti altına toplamaq istəyi güc ehtiyacı adlanır. Fərdlərin güc tələbi iki sahədə araşdırıla bilər. Bunlardan birincisi, müsbət mənada inandıran və motivasiya edən gücdür, digəri isə fərdləri mənfi şəkildə itaət etməyə və hakim olmağa məcbur edən gücdür. Bu səbəblə güc əldə etmək istəyən və onun təmin edəcəyi imtiyazlardan yararlanmaq istəyən qadınlar sahibkarlıqla maraqlanır və həvəslənirlər (Özyılmaz, 2016).

Özünü reallaşdırma və nailiyyət səviyyəsi kifayət qədər maddi imkanı olan qadınlar üçün ehtiyaclar iyerarxiyasının ən yüksək pilləsi olan yaradıcılıq olmaqla həvəsləndirici amil kimi qəbul edilə bilər. Müəyyən iqtisadi səviyyəyə çatmış və heç bir maliyyə problemi olmayan qadınlar üçün həyatda özünü reallaşdırmaq və uğur qazanmaq ehtiyacı öz biznesini qurmağa, yəni sahibkar olmağa səbəb olan təsirli amildir (M2). Bu amil həm də sahibkarlığın tələb etdiyi xarakterik xüsusiyyətlərdən biri kimi ortaya çıxır (Cici, 2013; Ersezer, 2019).

Bank sistemində informasiya təhlükəsizliyinin qiymətləndirilməsi, tədqiqatın əsas məqsədidir. Tədqiqatın vəzifəsi isə bank sistemində informasiya texnologiyalarını təhlil etmək, informasiya təhlükəsizliyini qiymətləndirmək, təhdidlərin mahiyyətini müəyyən etmək, risklərin növlərini araşdırmaqdan ibarətdir.

Məqalədə  analiz və sintez tədqiqat metodlarından istifadə olunaraq yerli və xarici mənbələrdən olan müxtəlif kitablar və elmi sənədlər sistemli şəkildə tədqiq edilmiş, məntiqi ümumiləşdirmə üsulu ilə toplanaraq tədqiqat mənbəyi kimi istifadə olunmuşdur.

**Bank Sistemində İnformasiya Texnologiyaları**

**Bankların məlumatl sızmasının qarşısını almaq üçün gördüyü tədbirlər**

İnformasiya təhlükəsizliyi bank sektorunda əsas rol oynayır. Reputasiya və maliyyə riskləri birbaşa bu parametrlə bağlıdır, hər hansı bir maliyyə biznesinin taleyi ondan asılıdır. Bank işində böyük miqdarda məxfi məlumatların emalı və saxlanması prosesləri baş verir. İlk növbədə, bu, müştərilər, onların depozitləri və həyata keçirilən bütün əməliyyatlar haqqında şəxsi məlumatları əhatə edir. Kredit təşkilatları tərəfindən saxlanılan və emal edilən bütün kommersiya məlumatları viruslar, aparatların nasazlığı, əməliyyat sistemində nasazlıqlar və məxfi məlumatların sızması ilə bağlı müxtəlif risklərə məruz qalır. Banklar məlumatların sızmasının qarşısını almaq üçün bir sıra tədbirlər görür: (Ozkaya & Aslaner, 2019).

- Girişə nəzarət. Banklar məxfi məlumatlara girişi məhdudlaşdırmaq üçün giriş nəzarət tədbirlərindən istifadə edirlər. Bura parollar, biometrik skanlama, smart kartlar kimi autentifikasiya tədbirləri daxildir.

- Firewall. Banklar şəbəkələrini icazəsiz girişdən qorumaq üçün firewall-dan istifadə edirlər. Firewall, şəbəkə trafikini izləyən və idarə edən aparat və ya proqram təminatı əsaslı təhlükəsizlik sistemidir. (Stallings, 2016).

- Şifrələmə. Banklarda məlumatlar internet üzərindən ötürüldükdə və ya serverlərdə saxlanıldıqda şifrələnir. Şifrələmə, məlumatlara yalnız səlahiyyətli şəxslərin daxil olmasını təmin edir.

- Hücumun aşkarlanması və qarşısının alınması. Banklar öz şəbəkələrinə icazəsiz girişi aşkar etmək və qarşısını almaq üçün müdaxilənin aşkarlanması və qarşısının alınması sistemlərindən istifadə edirlər. Bu sistemlər şəbəkə trafikinə nəzarət edir və hər hansı qeyri-adi fəaliyyəti aşkarlayır. (Pomerleau & Lowery, 2020).

- Təhlükəsizlik auditləri. Banklar sistemin zəif nöqtələrini müəyyən etmək və təhlükəsizlik tədbirlərinin müntəzəm olmasını təmin etmək üçün təhlükəsizlik auditləri həyata keçirir. (Maurer & Nelson, 2020).

- İşçilərin təlimi. Banklar öz işçilərinə informasiya təhlükəsizliyi siyasəti və prosedurları üzrə müntəzəm təlimlər keçirirlər. Bu, işçilərin risklərdən xəbərdar olmasını və təhlükəli vəziyyətdə məxfi məlumatları idarə etmək üçün hazır olmasını təmin edir.

Müasir informasiya texnologiyalarının inkişafı şəraitində əqli mülkiyyət mühüm yer tutur. Buna görə də intellektual fəaliyyətin nəticələrinin cəmiyyətin həyatına daxil edilməsi prosesini müşayiət edən innovasiyaların yayılmasına mane olan risklər mövcuddur. Bank sektoru ölkənin hərbi-müdafiə kompleksindən sonra yeni rəqəmsal məhsullar, texnologiyalar, xidmətlər və informasiyalar təqdim edən ilk sektordur. İnnovativ inkişaf strategiyasının tərkib hissəsi kimi və bank sektorunda rəqabətin qorunması üçün kredit təşkilatları mütəmadi olaraq yeni innovativ məhsullar, proseslər və texnologiyalar hazırlayır, həmçinin mövcud olanları təkmilləşdirir. İntellektual fəaliyyət sahəsində qloballaşma və inteqrasiya, bank sisteminin inkişafına və müasirləşməsinə kömək edir. (Kumar, 2013).

**Bank sistemində fintech**

İnformasiya təhlükəsizliyi banklarda fintech-in təkmilləşdirilməsinin əsas elementlərindən biridir, çünki kredit təşkilatlarında fırıldaqçıların (hakerlərin, kibercinayətkarların) malik ola biləcəyi, bankları müflis olmaq və öz gəlirlərini itirmək təhlükəsi yaradan fiziki və hüquqi şəxslər haqqında məlumatlar da daxil olmaqla çoxlu vacib məlumatlar var. Bank sistemində informasiya təhlükəsizliyində fintech, məxfi maliyyə məlumatlarını qorumaq və icazəsiz giriş, oğurluq və ya saxtakarlığın qarşısını almaq üçün müxtəlif texnologiyalardan istifadəni nəzərdə tutur. (Blasco, 2021).

Fintech şirkətləri və bankları maliyyə məlumatlarını qorumaq üçün şifrələmə, firewall və çoxfaktorlu autentifikasiya kimi müxtəlif informasiya təhlükəsizliyi tədbirlərindən, həmçinin təhlükəsizliyi artırmaq üçün barmaq izi və üz tanıma kimi biometrik autentifikasiyadan istifadə edirlər. Bank məlumatlarının təhlükəsizliyində fintech, ictimaiyyətin maliyyə xidmətlərinə inamını qorumaq üçün çox vacibdir. (Tanda & Schena, 2019).

Araşdırmalar göstərir ki, kommersiya sirri olan məlumatların 20%-nin sızması, bir qayda olaraq, kredit təşkilatının məhvinə gətirib çıxarır. Buna görə də məlumatların saxlanmasının təhlükəsizliyini təmin etmək, həmçinin məlumat sızması ehtimalına nəzarət etmək lazımdır. Fintech inkişafının bu mərhələsində (xüsusilə bank sektorunda) fundamental əhəmiyyət kəsb edən sənədlər, informasiya təhlükəsizliyi risklərinin təsnifatı, informasiya təhlükəsizliyi risklərinin qiymətləndirilməsi üsulları, informasiya təhlükəsizliyi risklərinin idarə edilməsinin təşkilati strukturu və prinsipləri haqqında hüquqi və daxili sənədlərdir (Talabis & Martin, 2012).

**Bank Sistemində İnformasiya Təhlükəsizliyi Riskləri**

**İnformasiya təhlükəsizliyi risklərinin potensial səbəbləri**

Haker və digər hücumların aktivliyi zaman keçdikcə artmaqda davam edir, hakerlər bankların fəaliyyətinə müdaxilə etmək, bank kartlarından və hesablardan vəsait oğurlamaq üçün yeni üsullar icad edirlər. Bu, bank ictimaiyyətinin narahatlığına və kredit təşkilatlarının öz məlumatlarının mühafizəsi üçün informasiya təhlükəsizliyini təmin edən texnologiyaları artırmasına səbəb olur. Bank informasiya sistemlərinin yüksək həssaslığını nəzərə alaraq informasiya təhlükəsizliyi risklərinin qiymətləndirilməsi və qarşısının alınmasının müasir üsullarını mənimsəmək çox vacibdir. (Rohmeyer & Bayuk, 2019).

Bank sistemində informasiya təhlükəsizliyi risklərinin potensial səbəbləri kimi aşağıdakıları qeyd etmək olar:

-İnsan səhvi. İnformasiya təhlükəsizliyi risklərinin ən ümumi səbəblərindən biri insan səhvidir. Təşkilatın işçiləri bilmədən məxfi məlumatları sızdıra bilər, fişinq keçidlərinə klikləməklə fırıldaqçıların tələlərinə düşə bilər, başqa alıcıya e-poçt göndərə bilər, sistemi yanlış konfiqurasiya etməklə və ya məxfi məlumatların olduğu mobil cihaz, qeyd dəftəri, elektron qurğuları itirməklə təhlükəsizlik pozuntularına səbəb ola bilərlər.

-Zərərli proqram və viruslar. Sistemə e-poçt, yoluxmuş veb-saytlar və aparat vasitəsi ilə daxil ola bilən virus, ransomware kimi zərərli proqramlar təşkilatın kompüter sistemlərini yoluxdura və təhlükəsizliyi poza bilər.

-Daxili təhdidlər. Bank sisteminin təhlükəsizliyinə qəsdən və ya bilməyərəkdən, şəxsi mənfəət və təşkilatın işini pozmaq üçün zərər vuran, məxfi məlumatlara çıxışı olan işçilər daxili təhdidlər kimi tanınır. Bu, məxfi məlumatların oğurlanması və ya qəsdən şəbəkəyə zərər vurmağı əhatə edə bilər.

-Zəif autentifikasiya: Zəif parollardan istifadə etmək, eyni paroldan bir neçə sistemin autentifikasiyası üçün istifadə etmək, parolları ad, soyad, təvəllüd, telefon nömrəsi tipli məlumatlardan istifadə edərək təyin etmək və s sistemdə təhlükəsizlik pozuntularına səbəb ola bilər.

-Təlimin olmaması. Təhlükəsizlik protokolları üzrə lazımi təlim almamış işçilər istəmədən sistemdə zəifliklər yarada bilərlər.

-Fiziki təhlükəsizlik. Fiziki oğurluq, vandalizm, kompüter avadanlığının və ya saxlama cihazlarının təbii fəlakətlər və ya məqsədli təşkil olunmuş hadisələr səbəbilə zədələnməsi məxfi məlumatın itirilməsi ilə nəticələnə bilər.

-Təhlükəsizlik siyasəti və prosedurlarının olmaması və ya yetərsizliyi: Bank, öz məlumatlarını və sistemlərini qorumaq üçün kifayət qədər təhlükəsizlik tədbirlərinə malik olmaya bilər.

-Kiberhücumlar. Hakerlər, kompüter şəbəkələri və proqramlardakı boşluqlardan istifadə edərək məxfi məlumatlara icazəsiz daxil ola bilərlər. Hacking, fişinq və xidmətdən imtina hücumları kimi mürəkkəb hücumlar daim inkişaf edir və informasiya təhlükəsizliyi üçün əhəmiyyətli təhlükə yaradır.

Bank sistemi, hərtərəfli təhlükəsizlik protokolları, təlimlər və davamlı monitorinq vasitəsilə potensial riskləri müəyyən edə bilər (Bessis, 2015).

İnformasiya təhlükəsizliyi risklərinin qarşısını almaq və ya minimuma endirmək üçün onları müxtəlif meyarlardan asılı olaraq aydın şəkildə təsnif etmək lazımdır. İnformasiya təhlükəsizliyi risklərinin mənbələri bunlardır: (Greuning & Bratanovic, 2020).

- İnsan amili;
- İnternet proqramlarından və şəbəkələrindən istifadənin yanlış seçimi;
- İnformasiyanın müxtəlif yollarla sızması (o cümlədən kredit təşkilatının işçiləri vasitəsilə);
- Banka və onun informasiya resurslarına haker hücumları;
- Şəbəkələrin icazəsiz kəsilməsi;
- İnformasiya ehtiyatlarından istifadə qaydalarının pozulması.

İnformasiya təhlükəsizliyi ilə bağlı hadisələr mütəxəssislər tərəfindən müxtəlif cür təsnif edilir. Buna nümunə olaraq “Positive Technologies” mütəxəssislərinin təqdim etdiyi təsnifatı göstərmək olar. Təsnifata görə 2022-ci ildə qeydə alınan informasiya təhlükəsizliyi ilə bağlı hadisələr 3 qrupa

bölünür: konkret hədəf müəyyən edilməklə hər hansı xüsusi bölməyə zərər vermək məqsədilə edilən hücumlar, ümumi sistemin işinə zərər vermək məqsədilə edilən hücumlar, giriş qaydalarının pozulması və ya işçilərin bədniyyətli davranması kimi kompüterdən kənar edilən hücumlar. (Qrafik 1)

**Qrafik 1: "Positive Technologies" mütəxəssisləri tərəfindən qeydə alınan informasiya təhlükəsizliyi ilə bağlı hadisələrin növləri**




**Mənbə**: Positive Technologies, 2022

## İnformasiya Təhlükəsizliyi Risklərinin Qiymətləndirilmə Metodları

Rəqəmsal iqtisadiyyatda kredit təşkilatlarının informasiya təhlükəsizliyi riskləri səbəbi ilə itkilər daim artır və onların artıq məlum olan növlərinə (məlumat sızması riskləri, məlumatların əlçatmazlığı, məlumatın təhrif edilməsi, avadanlıqların düzgün işləməməsi riskləri kimi) yeniləri əlavə olunur. (Dill, 2019).

Eyni zamanda, bu gün informasiya təhlükəsizliyi risklərinin qiymətləndirilməsi üçün kifayət qədər metodlar mövcud deyil. Onların seçimi məhduddur, bu, kredit təşkilatlarının 67%-nin sorğu məlumatları ilə təsdiqlənir. Bank sektorunda istifadə olunan informasiya təhlükəsizliyi riskinin qiymətləndirilməsi üsullarının çeşidi kifayət qədər geniş deyil. İnformasiya təhlükəsizliyi risklərinin qiymətləndirilməsi üsulları: (Girling, 2022).

- Avtomatlaşdırılmış proqram alətlərindən istifadə etməklə ekspert qiymətləndirmələri (açıq və ya gizli). Bu metodun mənfi cəhəti mütəxəssisin ixtisasından / səriştəsindən asılılıqdır;
- Zərər ehtimalı haqqında statistik məlumatlar. Mənfi cəhəti böyük miqdarda statistik məlumatların olması ehtiyacı və sürətlə dəyişən mühitin təsiri altında məlumatların dəqiq qiymətləndirilməsinin qeyri-mümkün olmasıdır (bəzi hallarda fərdi təhdidlər üçün məlumatların olmaması);
- İstifadə olunan statistik və riyazi modellər üçün qrafiklərin qurulmasına əsaslanan analitik yanaşma.

İnformasiya təhlükəsizliyi risklərinin qiymətləndirilməsi üçün sadalanan üsullara əlavə olaraq, onların qiymətləndirilməsi üçün metodologiyanın qurulması zamanı kəmiyyət və keyfiyyət qiymətləndirməsinin imkanları nəzərə alınmalıdır: (Sironi & Resti, 2007).

1) İnformasiya təhlükəsizliyi risklərinin kəmiyyət qiymətləndirilməsi tədqiq olunan təhdid və risklərin pul, faiz, müəyyən vaxt, insan resursları və s. ilə ifadə olunan kəmiyyət yekun dəyərləri ilə müqayisə oluna biləcəyi hallarda aparılır. Kəmiyyət qiymətləndirməsi risk qiymətləndirməsinin bütün elementlərinə xüsusi və real kəmiyyət dəyərlərinin təyin edilməsini nəzərdə tutur. Qiymətləndirmə alqoritmi və əldə edilən məlumatlar görünürlük və başa düşülənliyi təmin etməlidir. Qiymətləndirmə obyekti aktivin pul ifadəsində dəyəri, təhlükənin baş vermə ehtimalı, təhlükənin həyata keçirilməsi nəticəsində dəyən zərər, həmçinin qoruyucu tədbirlərin dəyəri və s. ola bilər. Bu, bankda hər hansı təhlükənin olma ehtimalı haqqında kifayət qədər statistik məlumatın olmaması ilə əlaqədardır, çünki məlumat məxfi və hər bir konkret bank üçün fərdi xarakter daşıyır;

2) Keyfiyyət metodu, alınan göstəricilərin qeyri-müəyyənliyi səbəbindən obyektin konkret qiymətləndirilməsinin əldə edilməsinin mürəkkəbliyi ilə xarakterizə olunur. Bütövlükdə, bankın fərdi metodologiyası üçün seçdiyi göstəricilərin qiymətləndirilməsi ekspertlərin məcburi iştirakı ilə həyata keçirilir. Keyfiyyət metodu qiymətləndirmə obyekti üçün pul ifadəsində məlumatlardan istifadə etmir. Məlumat toplamaq üçün sorğu, müsahibələr, anketlər, şəxsi görüşlər istifadə olunur. Belə risk təhlili nəzərdə tutulan təhlükə sahəsində təcrübə və səriştəli işçilərin cəlb edilməsi ilə həyata keçirilir. Bu halda, risk ehtimalı ilə vurulan mümkün itkilərin məbləği daxil olmaqla, Bazel 2 və 3 tərəfindən tərtib edilmiş risklərin qiymətləndirilməsinə ümumi yanaşma istifadə olunur. Belə bir texnikadan istifadə edərkən sintetik risk əmsalı əldə etmək üçün məlumat riskinin hər bir növü kontekstində risk göstəricisinin artırılması miqyasını nəzərə almaq məqsədəuyğundur. Bundan əlavə, gözlənilən itkilərin cəmi belə bir sıralama əsasında onların ehtimalının qiymətləndirilməsinə vurulmalıdır. Bunu hər bir təhlükə üçün ayrıca edə və ya qiymətləndirilmiş məlumat risklərinin həyata keçirilməsindən itkilərin ümumi məbləğinə çıxışı olan ümumi göstərici hesablamaq olar.

## Bank Sistemində İnformasiya Təhlükəsizliyi Risklərinin İdarə Edilməsinin Təşkilati Strukturu və Prinsipləri

Rəqəmsal iqtisadiyyat və informasiya bankçılığının artan riskləri şəraitində kredit təşkilatlarının təşkilati strukturunun yenidən qurulması zəruridir. Bu o deməkdir ki, bankda risklərin qiymətləndirilməsi və minimuma endirilməsinə birbaşa cavabdeh olan xüsusi bölmə yaranmalıdır. Bu fəaliyyət informasiya risklərinin qiymətləndirilməsi və idarə edilməsi üçün xüsusi siyasətin, vəzifələrin, prinsiplərin və metodların yaradılmasını və işlənib hazırlanmasını, bu fəaliyyət növü ilə məşğul olan işçilər üçün ixtisas və etik tələblərin mövcudluğunu tələb edir. İnformasiya təhlükəsizliyi risklərinin idarə edilməsi üzrə bu işin özəlliyi ondan ibarətdir ki, o, təkcə bankda xüsusi bölmənin əməkdaşlarını deyil, bütün komandanı - menecerlərdən, daxili nəzarət və audit xidmətlərindən tutmuş sıravi mühasiblərə qədər əhatə edir. Buna görə də kredit təşkilatının daxili sənədlərində, o cümlədən bütün vəzifə təlimatlarında bankın informasiya təhlükəsizliyi ilə bağlı öhdəliklər və onun pozulmasına görə məsuliyyət dərəcəsi öz əksini tapmalıdır. Kredit təşkilatının hər bir işçisi informasiya təhlükəsizliyi riskləri ilə bağlı bankın daxili sənədlərinə və mövcud qanunvericiliyə əsaslanmalıdır (Birindelli & Ferretti, 2017).

İnformasiya təhlükəsizliyi riskinin idarə edilməsi hər bir təşkilatın ümumi təhlükəsizlik proqramının mühüm hissəsidir. İnformasiya təhlükəsizliyi risklərini effektiv şəkildə idarə etmək üçün təşkilatın dəqiq müəyyən edilmiş təşkilati strukturu olmalıdır (Choudhry & Blaafalk, 2018).

İnformasiya təhlükəsizliyi risklərinin idarə edilməsinin təşkilati strukturu təşkilatın ölçüsündən və xidmət sahəsinin mürəkkəbliyindən asılı olaraq dəyişə bilər. Bu strukturların bir çoxunda rast gəlinən bəzi ümumi elementlərə nəzər yetirək: (Islam, 2020).

- İnformasiya təhlükəsizliyi idarəçiliyi. Bu, təşkilat daxilində informasiya təhlükəsizliyi risklərinin idarə edilməsi üçün ən yüksək səviyyəli məsuliyyət hesab olunur. Siyasətlərin, standartların, prosedurların və təlimatların işlənib hazırlanmasını nəzərdə tutur.

- İnformasiya təhlükəsizliyi risklərinin idarə edilməsi komitəsi. Bu, informasiya təhlükəsizliyi risklərinin idarə edilməsi prosesinə nəzarət etmək üçün məsul olan tərəfləri birləşdirir. Buraya təşkilatın İT, hüquq, maliyyə və əməliyyatlar kimi müxtəlif departamentlərdən olan üzvlər daxil ola bilər.

- Baş informasiya təhlükəsizliyi mütəxəssisi. O, informasiya təhlükəsizliyi risklərinin idarə edilməsi, təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi, təhdidlərin və zəifliklərin müəyyən edilməsi, təhlükəsizlik insidentlərinə cavab verilməsi kimi vacib işləri yerinə yetirir, risklərin idarə edilməsi proqramı da daxil olmaqla məlumat təhlükəsizliyi proqramının idarə edilməsinə cavabdehdir, həmçinin informasiya təhlükəsizliyi ilə bağlı siyasət və prosedurların hazırlanmasına rəhbərlik edir.

- Risk idarəetmə qrupu. Bu komanda informasiya təhlükəsizliyi ilə bağlı riskləri müəyyən etmək, qiymətləndirmək və idarə etmək üçün məsuliyyət daşıyır. Onlar risklərin azaldılması strategiyalarını hazırlamaq və təşkilatın müvafiq qaydalara və standartlara uyğun olmasını təmin etmək üçün baş informasiya təhlükəsizliyi mütəxəssisi və informasiya təhlükəsizliyi risklərinin idarə edilməsi komitəsi ilə sıx əməkdaşlıq edirlər.

- İnformasiya təhlükəsizliyi mütəxəssisi. O, təşkilatın məlumat aktivlərini qorumaq üçün siyasət və prosedurların işlənib hazırlanmasına və həyata keçirilməsinə cavabdehdir.

-İnformasiya təhlükəsizliyi analitikləri. Onlar, risklərin qiymətləndirilməsini həyata keçirən, təhlükəsizlik təhdidlərini təhlil edən və təhlükəsizlik strategiyaları və siyasətlərini inkişaf etdirən peşəkarlardır.

-Təhlükəsizlik əməliyyatları mərkəzi. Bu mərkəz, real vaxt rejimində təhlükəsizlik hadisələrinin monitorinqi və təhlili, təhlükəsizlik insidentlərinin araşdırılması və təhlükəsizlik təhdidlərinə cavab verilməsi üçün məsuliyyət daşıyır.

-İnformasiya texnologiyaları təhlükəsizliyi qrupu. Bu komanda təşkilatın informasiya aktivlərini qorumaq məqsədilə texniki təhlükəsizlik nəzarətini həyata keçirir.

-Biznes bölməsi menecerləri. Onlar, biznes əməliyyatları ilə bağlı riskləri müəyyən etmək və idarə etmək üçün məsuliyyət daşıyırlar, əməliyyatların qorunmasını təmin etmək üçün informasiya təhlükəsizliyi komandası ilə işləyirlər.

İnformasiya təhlükəsizliyi risklərinin idarə edilməsinin təşkilati strukturu bu istiqamətdə maraqlı tərəflər arasında əməkdaşlığı və ünsiyyəti asanlaşdırmaq və təşkilatın informasiya aktivlərinin potensial təhlükələrdən və zəifliklərdən qorunmasını təmin etmək üçün tərtib edilməlidir. Rol və məsuliyyətləri müəyyən etməklə və fərdlərin öz vəzifələrini səmərəli şəkildə yerinə yetirmək üçün lazımi bacarıq və resurslara malik olmasını təmin etməklə, təşkilat təhlükəsizlik insidentlərinin təsirini minimuma endirə və güclü təhlükəsizlik mövqeyini saxlaya bilər (Lubinska, 2021).

**Risklərin İdarə Edilməsi Üsulları**

Ən məşhur informasiya təhlükəsizliyi risklərinin idarə edilməsi metodu risk üçün COBIT metodudur. Bu metod informasiya təhlükəsizliyi risklərinin ümumi bank riskləri sisteminin tərkib hissəsi olmasının təsdiqinə əsaslanır. Bu əlaqə xüsusilə əməliyyat risklərinə münasibətdə özünü göstərir, ona görə də onların idarə edilməsi üsulları bir çox cəhətdən kredit təşkilatına artıq məlum olanlara bənzəyir. COBIT metodu informasiya texnologiyaları sahəsində prosesləri və xidmətləri idarə etmək üçün təlimatlar toplusundan təşkil olunmuşdur, əsasən informasiya texnologiyalarının idarə edilməsi üçün istifadə edilsə də, o, həmçinin informasiya təhlükəsizliyi risklərinin idarə edilməsi üçün lazımi komponentləri də əhatə edir. COBIT metodu təşkilati məqsəd və vəzifələrə nail olmaqda risklərin idarə edilməsinin vacibliyini vurğulayır və informasiya təhlükəsizliyi risklərinin müəyyən edilməsi, qiymətləndirilməsi və azaldılması üçün strukturlaşdırılmış yanaşma təmin edir. COBIT metodunun informasiya təhlükəsizliyi risklərini necə müəyyən etmək, qiymətləndirmək və idarə etmək barədə təlimat verən "risklərin idarə edilməsi" adlı prosesi aşağıdakı addımları əhatə edir: (Shields, 2020).

- Risklərin müəyyən edilməsi. Bu addım, təşkilatın informasiya aktivlərinə yönəlmiş potensial təhlükələrin və bu təhlükələrə şərait yaradan zəif nöqtələrin müəyyən edilməsini əhatə edir.

- Risklərin təhlil edilməsi. Risklər müəyyən edildikdən sonra növbəti addım onların təşkilata potensial təsirlərini müəyyən etmək üçün təhlil etməkdir. Bu addım, hər bir riskin baş vermə ehtimalının və təsirinin, habelə riskin azaldılmasında mövcud nəzarət vasitələrinin effektivliyinin qiymətləndirilməsini əhatə edir.

- Risklərin qiymətləndirilməsi. Risklər təhlil edildikdən sonra növbəti addım onları potensial təsir və ehtimal əsasında qiymətləndirməkdir.

- Risklərə cavab verilməsi. Növbəti addım müəyyən edilmiş riskləri həll etmək üçün risk cavab planını hazırlamaq və həyata keçirməkdir. Bu, risklərin qarşısının alınması, ötürülməsi, azaldılması və ya qəbul edilməsi kimi müvafiq risklərin idarə edilməsi strategiyalarının seçilməsi və həyata keçirilməsini əhatə edir.

- Risklərin monitorinqi. Son addım həyata keçirilən risklərin idarə edilməsi strategiyalarının effektiv olmasını təmin etmək və yarana biləcək yeni riskləri müəyyən etmək üçün riskləri davamlı olaraq izləmək və nəzərdən keçirməkdən ibarətdir.

COBIT metodu bu addımların hər birinin həyata keçirilməsinə dair təlimat təqdim edir. O, həmçinin təşkilatların informasiya təhlükəsizliyi risklərini effektiv şəkildə idarə etmək üçün istifadə edə biləcəyi bir sıra nəzarət vasitələri təklif edir.

Bank sistemində risklərin idarə edilməsi üsullarına əlavə olaraq stress testi, ssenari analizi, model qiymətləndirilməsi, diversifikasiya, likvidlik riskinin idarə edilməsi, reputasiya riskinin idarə edilməsi kimi üsulları qeyd etmək olar. (Christofilis, 2018).

Stress testi, mənfi iqtisadi ssenarilərdə bankın balansının dayanıqlığını qiymətləndirmək üsuludur. Bu üsul ilə ekstremal bazar şəraitinin bankın maliyyə vəziyyətinə təsirinin qiymətləndirilməsi həyata keçirilir.

Ssenari analizi üsulu konkret hadisələrin və ya bazar şəraitində baş verən dəyişikliklərin bankın maliyyə vəziyyətinə təsirinin qiymətləndirilməsi üsuludur. Bu, hipotetik ssenarilərin hazırlanmasını və bankın maliyyə hesabatlarına və əsas əmsallara təsirinin qiymətləndirilməsini əhatə edir.

Risklərin idarə edilməsi funksiyasının həyata keçirilməsi hazırlanmış ssenari üzrə təşkilatda informasiya təhlükəsizliyinin təhlili və qiymətləndirilməsinə əsaslanır. Risk ssenarisinin metodologiyası, təşkilatın fəaliyyətinin səmərəliliyinə qeyri-müəyyən (müsbət və mənfi) təsirlərin mümkün olduğunu ifadə edir.

Model qiymətləndirilməsi üsulu. Banklar tez-tez kredit riski modelləri və ya bazar riski modelləri kimi riski qiymətləndirmək və idarə etmək üçün mürəkkəb modellərdən istifadə edirlər. Modelin yoxlanılması bu modellərin dəqiq və etibarlı olduğunu və risklərin idarə edilməsi ilə bağlı qərarların qəbul edilməsində müvafiq şəkildə istifadə olunduğunu yoxlamaq prosesidir.

Diversifikasiya üsulu. Banklar portfellərini diversifikasiya etməklə riskləri idarə edə bilərlər. Bu, ümumi riskə məruz qalmanı azaltmaq üçün müxtəlif risk dərəcələri olan müxtəlif növ aktivlərin qarışığına investisiya etmək deməkdir.

Likvidlik riskinin idarə edilməsi üsulu. Banklar ehtiyat saxlamaqla və maliyyələşdirmə mənbələrini diversifikasiya etməklə likvidlik riskini idarə edə bilərlər. Bu, hətta maliyyə gərginliyi dövründə belə, öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitə malik olmasını təmin etməyə kömək edir.

Reputasiya riskinin idarə edilməsi üsulu. Banklar güclü daxili nəzarəti həyata keçirməklə, qaydalara və etik standartlara riayət etməklə və maraqlı tərəflərlə yaxşı münasibətlər saxlamaqla reputasiya riskini idarə edə bilərlər.

**Nəticə**

Dünya bazarında müxtəlif idarəetmə sahələrində olduğu kimi maliyyə sahəsində və eləcə də bu sahənin əsas hissələrindən olan bank sahəsində də rəqabətin olduğu halda informasiya təhlükəsizliyinin pozulması böyük maliyyə itkisinə, müştərilərin sayının azalmasına, idarəetmə sahəsinin statusuna zərər gəlməsinə və s səbəb ola bilməsi, informasiya mühafizəsinin təşkil edilməsi və risklərin idarə edilməsi məsələsini zəruri edir. İnformasiya təhlükəsizliyinin yüksək səviyyədə artırılmasına yönəlmiş tədbirlərin təşkili üçün informasiya təhlükəsizliyi risklərinin idarə edilməsi mexanizmini hazırlamaq və tətbiq etmək lazımdır. Risklərin belə effektiv idarə edilməsi, səyləri cəmləşdirməyə, daxili və xarici təhdidlərin azalmasına, həmçinin bank sisteminin informasiya təhlükəsizliyini təmin etmək məqsədilə çəkilən xərclərin minimuma endirilməsinə imkan verəcəkdir.

**Ədəbiyyat Siyahısı**


Aljawarneh, S. (2016). Online Banking Security Measures and Data Protection (Advances in Information Security, Privacy, and Ethics).

Bessis, J. (2015). Risk Management in Banking, 4th Edition.

Birindelli & Ferretti. (2017). Operational Risk Management in Banks: Regulatory, Organizational and Strategic Issues (Palgrave Macmillan Studies in Banking and Financial Institutions).

Blasco, P. (2021). Fintech banking.

Choudhry & Blaafalk. (2018). An Introduction to Banking: Principles, Strategy and Risk Management, 2nd Edition.

Christofilis, C. (2018). Crypto Asset & ICO Governance, Risk Management & Compliance: Concise Guidebook for Financial and Legal Service Providers to The Emerging Crypto Asset Class.

Dill, A. (2019). Bank Regulation, Risk Management, and Compliance (Practical Finance and Banking Guides.

Girling, P. (2022). Operational Risk Management: A Complete Guide for Banking and Fintech.

Greuning & Bratanovic. (2020). Analyzing Banking Risk, 4th Edition: A Framework for Assessing Corporate Governance and Risk Management .

Islam, Z. &. (2020). Financial Risk Management in BankingEvidence from Asia Pacific.

Kumar, K. (2013). Information Systems Audit and Security in Banking.

Lubinska, B. (2021). Interest Rate Risk in the Banking Book: A Best Practice Guide to Management and Hedging.

Maurer & Nelson. (2020). International Strategy to Better Protect the Financial System Against Cyber Threats.

Ozkaya & Aslaner. (2019). Hands-On Cybersecurity for Finance: Identify vulnerabilities and secure your financial services from security breaches.

Pomerleau & Lowery. (2020). Countering Cyber Threats to Financial Institutions.

Rohmeyer & Bayuk. (2019). Financial Cybersecurity Risk Management.

Shields, G. (2020). Risk Management: The Ultimate Guide to Financial Risk Management as Applied to Corporate Finance.

Sironi & Resti. (2007). Risk Management and Shareholders' Value in Banking.

Stallings, W. (2016). Network Security Essentials: Applications and Standards.

Talabis & Martin. (2012). Information Security Risk Assessment Toolkit: Practical Assessments through Data Collection and Data Analysis.

Tanda & Schena. (2019). FinTech, BigTech and Banks.

# Contemporary Statistical Trends of Employment and Wages in the Business Sector of Georgia


**Simon Gelashvili**

**Professor, I. Javakhishvili Tbilisi State University, Department of Economic and Social statistics**

**simon.gelashvili@tsu.ge**

**Nino Abesadze**

**Associate Professor, I. Javakhishvili Tbilisi State University, Department of Economic and Social statistics**

**nino.abesadze@tsu.ge**

**Marine Mindorashvili**

**Associate Professor, I. Javakhishvili Tbilisi State University, Department of Economic and Social statistics**

**maia.mindorashvili@tsu.ge**

**Lia Dzebisauri**

**Associate Professor, I. Javakhishvili Tbilisi State University, Department of Economic and Social statistics**

**lia.dzebisauri@tsu.ge**



## Abstract

Quantitative analysis of employment and wages in the business sector is of great theoretical and practical importance in all countries, and Georgia is no exception. This article presents the statistical trends of employment and wages for the period 2010-2022. Accordingly, appropriate indicators are calculated for the analysis period and their mutual comparison is given according to various parameters. As a result of the research, it was determined that the indicators are heterogeneous depending on time, ownership forms, business sectors and enterprise sizes. In 2021, the number of employees in the business sector decreased by 1% compared to the pre-pandemic year of 2019; As it turned out, in 2021, the most people are employed in agriculture, forestry and fish farming, trade and car repair, as well as in industry; The largest number of employees are employed in limited liability companies, but the number of employees in joint-stock companies and cooperatives is also increasing dynamically.

The article provides a comparative statistical analysis of employment and wages in the business sector according to the ownership form, size and legal forms of enterprises. The indicators are calculated according to the categories of employees. Many methods of statistical science are used in the research process, such as: grouping, data presentation, relative and average values, time series, variation analysis, etc.

The peculiarities and unstable trends in the direction of employment and average labor remuneration in individual business sectors before and during the Covid-19 pandemic have been evaluated; The sectors with high and low employment and

wage rates are determined, as well as the disparity between them.Key words: business sector, statistical analysis, employment structure, wages, range of variation.
**Key words**: business sector, statistical analysis, employment structure, wages, range of variation.

## Introduction

For the development of business in any country, it is necessary to have fair legal regulation mechanisms and support of public institutions to the business sector. These conditions have been somewhat disrupted by the COVID-19 pandemic and related tightening of regulations. In the 2-year period after the spread of the pandemic, in Georgia, as well as in many countries of the world, the values of the economic parameters of the country's development have changed significantly, the social background of the population has worsened, human relations have been noticeably transformed both in the family and at work, the scope of employment has changed, its parameters, etc.(Gelashvili, Abesadze, & Mindorashvili, Statistics Of Covid-19 Impact On Students Household Incomes., 2021)

It should be noted that Georgia is in the leading position in the world in terms of the ease of starting a business activity and doing it. This means that doing business in Georgia is possible in a relatively simplified and free environment. All of these have a positive impact on the implementation of foreign direct investments in the business sector, the creation of additional jobs and the improvement of employment indicators.

Employment and unemployment in Georgia, as in many countries of the world, is one of the main socio-economic problems, and it was further aggravated during the pandemic caused by the coronavirus, which resulted in the deterioration of the quality of life of the population of Georgia. It is unfortunate, but it is a fact that along with the spread of the virus and the worsening of the epidemiological situation, the social crisis was deepening and unemployment rates were increasing (Abesadze, Gelashvili, S., , Mindorashvili, M,., & Dzebisauri,L., 2022) As a result, the demographic, economic, health and social situation of the country worsened. All of this is exacerbated by Georgia's small and weak economy and limited financial capabilities.

## Main Results

The business environment in Georgia, according to the ease of doing business by the World Bank, as of 2020, was estimated at 83.7 points (7th position among 190 countries), and according to the credit rating of Fitch and S&P Global, the country is rated BB, which is relatively resistant to shocks. It is an indicator of sustainability and stability. Before the COVID-19 pandemic in Georgia, i.e. in 2010-2019, the number of employees in the business sector was characterized by an increasing trend, and during this period the average annual growth rate was 117%, and in 2022, compared to 2010, the similar rate increased faster and was recorded at 134%. Based on the above, logically, the average remuneration rate of the business sector should be characterized by stability and an increasing trend. In order to determine the real situation, a comparative analysis of the indicators of average labor remuneration has been conducted for the same period of 2010-2022.

As of 2021, the average monthly salary of hired workers in the business sector was determined at 1348 GEL, which is 127% higher than the previous year's figure, and 240% higher than the 2010 figure, i.e. 2.4 times (Gelashvili S. G., 2020). The average monthly wage of salaried employees increased more in

2022 and compared to 2019 before the COVID-19 pandemic, the growth rate was 165%, and compared to 2010 - 250%.

**Graph 1: Average monthly salary in the business sector, GEL**




Source: **(National Staytistics Office of Georgia, 2023)**

From the graph presented, it is clear that in 2010-2021, despite the force majeure conditions created as a result of the Covid-19 pandemic, the annual continuous growth trend of the quantitative indicator of the average salary of employees in the business sector was not broken: in 2020, compared to the previous year, the average salary of employees in the business sector It increased by 60.2 GEL, and in 2021 by 208.7 GEL. In the entire analysis period (2010-2021), the average absolute increase in the wages of the business sector amounted to 76.26 GEL.

The pandemic in Georgia has had a negative impact on the business sector as a whole. In order to prevent the uncontrolled spread of the virus, the restrictions imposed by the government, the stricter regulations related to it and a number of lockdowns have led to the limitation and in many cases the suspension of the activities of some companies. Radical measures related to personnel changes were carried out, as a result of which the number of employees was reduced.

According to the data of 2021 the largest number of people in the business sector, i.e. 18.9%, were employed in agriculture, forestry and fish farming, 14.8% - in the field of wholesale and retail trade, repair of automobiles and motorcycles, 11.3% - in industry. The smallest number of employees was recorded in real estate-related activities (0.4%) and in the field of information and communications (1.5%).

If we compare the data of 2019 before the pandemic, it turns out that the number of employees in agriculture, forestry and fish farming decreased by 7%, in the field of wholesale and retail trade, automobile and motorcycle repair - by 4%, and in industry by 3%. However, the number of employees decreased the most in the field of accommodation and food delivery - by almost 32%.

The opposite situation was revealed in the activities related to real estate, where in 2021 compared to 2019, a 40% increase in the number of employees was recorded.

When reviewing the official statistical data according to the legal forms, it was revealed that the majority of employees in the business sector come from limited liability companies (LLCs). In 2022, the share of employees in LLCs was 78.5% of the total number of employees in the business sector. In general, in recent years, the percentage of employees in the entities of the mentioned legal form fluctuated between 78% - 80%.

It should be noted that the number of employees in joint-stock companies also increases during the analyzed period. However, slightly. The percentage share of employees in the institutions of the legal form of the joint-stock company is 10-11% of the employees in the business sector. However, in 2020, the number of employees in such enterprises slightly (by 1.3%), but still decreased. It should be noted here that in 2021, compared to the previous year, the number of employees in the legal form of the joint-stock company has increased by 1.4%.

As for cooperatives, in 2020, i. e. the first year of the beginning of the pandemic, the number of employees decreased by 17%. But since 2014, the trend of permanent increase in the number of employees in cooperatives has been observed. During this period, the number of employees increased by an average of 59% annually. It seems that the pandemic has hit cooperatives very hard, as the number of employees in them has decreased significantly. In 2021, compared to 2020, the number of employees in the business sector as a whole decreased by 38%.

It is also interesting to see the statistical trends of employees according to ownership forms and periods. As can be seen from Table 1, the private sector is the leader in the labor market in Georgia in terms of the number of jobs and employees. It is enough to note that according to the data of 2021, 92% of all those employed in the business sector were employed in the private sector. The variation range of employees in the analyzed period is 11% and varies from 79.9% to 92%.

**Table 1: Dynamics of the share of employees in the business sector according to forms of ownership, %**

| Years | State | private | private (local physical or legal. person) | private (foreign natural or legal entity) |
|---|---|---|---|---|
| 2010 | 20.2 | 79.8 | 64.3 | 15.5 |
| 2011 | 12.8 | 87.2 | 72.2 | 15.0 |
| 2012 | 10.2 | 89.8 | 73.0 | 16.8 |
| 2013 | 10.6 | 89.4 | 72.0 | 17.4 |
| 2014 | 9.4 | 90.6 | 72.5 | 18.1 |
| 2015 | 8.8 | 91.2 | 73.1 | 18.1 |
| 2016 | 8.7 | 91.3 | 72.2 | 19.1 |
| 2017 | 8.2 | 91.8 | 73.1 | 18.7 |
| 2018 | 7.7 | 92.3 | 72.5 | 19.8 |
| 2019 | 7.5 | 92.5 | 75.0 | 17.5 |
| 2020 | 8.0 | 92.0 | 74.8 | 17.2 |
| 2021 | 8.0 | 92.0 | 75.3 | 16.7 |

Source: **(National Staytistics Office of Georgia, 2023)**

Most of the private business entities are owned by local individuals or legal entities. In 2020, the percentage share of such entities was 74.8%. In 2015, it equaled 73%, and in 2010, 64.3% of enterprises in the business sector were privately owned by local individuals. Accordingly, the

remaining percentage share, i.e. 35.7%, was owned by foreign individuals or legal entities. As statistical data confirms, the creation of jobs in the business sector in Georgia is mainly provided by the private sector.

As for the employment statistics according to the size of enterprises, their analysis showed that the indicators are high for small enterprises during the analysis period. So, for example, from 2010 to 2019, the number of employees in small enterprises of the business sector systematically increased. During this period, the number of employees grew by 8.5% annually (the average annual growth rate was 108.5%). Accordingly, the average annual growth rate of the specific share of employees in small enterprises was 101%.

**Table 2: Distribution of employees by size of enterprises and years (2010-2021, %)**

| Years | **Enterprise size** | | |
|---|---|---|---|
| | large | medium | small |
| 2010 | 33.1 | 26.2 | 40.6 |
| 2011 | 30.5 | 23.6 | 46.0 |
| 2012 | 31.7 | 22.1 | 46.2 |
| 2013 | 32.4 | 22.9 | 44.8 |
| 2014 | 31.5 | 21.4 | 47.2 |
| 2015 | 31.7 | 21.9 | 46.4 |
| 2016 | 32.7 | 21.4 | 46.0 |
| 2017 | 33.0 | 20.5 | 46.5 |
| 2018 | 33.1 | 21.8 | 45.1 |
| 2019 | 35.0 | 20.2 | 44.8 |
| 2020 | 37.2 | 21.7 | 41.2 |
| 2021 | 37.3 | 22.1 | 40.6 |

Source: **(National Staytistics Office of Georgia, 2023)**

According to the data of 2021, a large part of the employees in the business sector was recorded in large and small businesses. At the same time, employment trends in 2010-2021 are different depending on the size of enterprises, namely: in the mentioned period, the number of employees in large enterprises is characterized by an increasing trend, while the number of employees in medium-sized enterprises, on the contrary, is characterized by a stable decreasing trend. As for the number of employees in small enterprises, their number in 2021 is the same as in 2010, however, there are often significant fluctuations.

Compared to 2019, during the period of the Covid-19 pandemic, the change in the position in the

sectoral ranking affected the activities related to real estate the most. In 2019, the mentioned activity was in the sixth place in terms of the average wage rate, and as of 2021, it has moved to the eighth place.

Compared to 2019, during the period of the Covid-19 pandemic, the change in the position in the sectoral ranking affected the activities related to real estate the most. In 2019, the mentioned activity was in the sixth place in terms of the average wage rate, and as of 2021, it has moved to the eighth place. In terms of labor costs, wholesale and retail trade, as well as processing industry sectors have slightly strengthened.

As we have already mentioned, since 2010, the average wage in the business sector has been characterized by a continuous growth trend, which, in turn, is correct in relation to the growth rate indicator. It is interesting that the positive trend of the growth rate is maintained both in comparison with 2010 and 2017. It can be said that in the business sector, compared to the base year of 2010, a steadily increasing trend of the average salary is observed every year.(Gelashvili & Todradze,G., 2020)

As determined by the analysis, the disparity of the average wages of employees according to the size of enterprises has not decreased in the last 5 years, but the leadership position between medium and large enterprises has changed. It is likely that the said trend was caused by programs supporting small and medium businesses, (https://www.oecd-ilibrary.org/; https://www.enterprisegeorgia.gov.ge) the development of a properly planned development strategy,(http://www.economy.ge/ ) and the existence of preferential regimes in terms of easing the tax policy.(https://old.rs.ge/5393 )

Of course, it is also interesting to see how much the average salary figures differ from year to year. To illustrate this, let's bring the following table:

**Table 3: Average salary variation range, GEL**

| Years | **2010** | **2015** | **2017** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|
| Range of variation | 432.7 | 592.2 | 658.0 | 684.0 | 640.0 | 557.3 |

Source: **(National Staytistics Office of Georgia, 2023)**It is calculated by us

As can be seen from the table, in the past years of the pandemic (2020-2021) compared to the previous year, 2019.

In comparison, the range of variation between average wages has narrowed, unlike the pre-pandemic situation. In the period of 2010-2021, this indicator was the lowest in 2010, and the highest in 2019. Of course, it is desirable to reduce the range of variation, because a low range of variation indicates a decrease in the disproportion of the average wage, and a large range is an indicator of strong inequality of the average wage.

## Conclusions

As a result of our research, it was revealed that the statistical indicators of employment and labor remuneration in the business sector in Georgia are highly heterogeneous according to sectors, time, enterprise size, forms of ownership and other characteristics.

- In 2010-2019, the number of employees in the business sector had an increasing trend and grew by 7% on average every year, however, in 2020 and 2021, their number decreased by 7 and 8%, respectively, compared to 2019;
- In the business sector, the most people are employed in the following fields: industry, trade, automobile repair and construction;
- 78.5% of persons employed in the business sector are employed in limited liability companies, however, the number of employees in joint-stock companies and cooperatives is increasing dynamically;
- Private structures are distinguished according to the number of workplaces. According to the data of 2021, 92% of the employees in the business sector are employed in the private sector, the variation range of which in the analyzed period of 2010-2021 is 11% and changes from 79.9 to 92%;

- ➢ In 2021, a significant part of jobs in the business sector will come from large and small businesses;
- ➢ Before the Covid-19 pandemic, as well as during the pandemic, there was no decrease in the average salary in any business sector;
- ➢ Before the pandemic and during the pandemic, an uneven distribution of the average salary was recorded according to business sectors and enterprise size;
- ➢ The pandemic had a positive effect on the construction sector in the direction of increasing wages;
- ➢ In the period of the Kovid-19 pandemic, wage inequality has decreased in the agricultural sector;
- ➢ Until 2017, the larger the size of the enterprise, the more remuneration it offered to the employee; After 2017, medium business became the leading sector in this regard.

The conducted analysis makes it possible to draw the following main conclusion: in the conditions of the Covid-19 pandemic, the business sector in Georgia managed to maintain the trend of continuous growth of the absolute index of employment and average salary, both in terms of sectoral and enterprise sizes. But despite the trend of decreasing wage inequality, the convergence of wages between individual business sectors and different sizes of enterprises remains a problem.

**Bibliography**


Abesadze, N. G. (2022). A Statistical Study Of The Impact Of The COVID-19 Pandemic On The Employment And Unemployment Of Students' Parents. *Kutaisi.*

Gelashvili, S. Abesadze,N.,Mindorashvili, M. (2021). Statistics Of Covid-19 Impact On Students Household Incomes. *Journal „Transformacje/Transformations", 3 (110)*, 122-133.

Gelashvili, S. Todradze, G. (2020). Gender Imbalance Of Employment And Wages According To Economic Activities. . *5th International Scientific Conference, Challenges Of Globalization In Economy And Business,.* Tbilisi.

*National Statistics Office Of Georgia*. (2023). Retrieved From Www.Geostat.Ge.

*National Staytistics Office Of Georgia*. (2023). Retrieved From Www.Geostat.Ge.

*National Staytistics Office Of Georgia*. (2023). Retrieved From Www.Geostat.Ge.

*National Staytistics Office Of Georgia*. (2023). Retrieved From Http://Tourism.Geostat.Ge/.

*Http://www.Economy.Ge/* . (N.D.).

*Https://Old.Rs.Ge/5393* . (N.D.).

*https://www.oecd-ilibrary.org/; https://www.enterprisegeorgia.gov.ge*. (n.d.).

*https://www.oecd-ilibrary.org/; https://www.enterprisegeorgia.gov.ge*. (n.d.).

# Environmental Sustainability in Humanitarian Logistics: WREC Project

**Taner Akçaci**

**Gaziantep University**

**akcaci@gantep.edu.tr**

**Pınar KARAOĞLAN**

**Gaziantep University**

**pinarisgorur@gmail.com**

## Abstract

The main purpose of humanitarian aid has been to help those in need in the light of the principle of no harm. Due to the recent ecological global crises as a result of global climate change, humanitarian aid actors have expanded their duties to include nature and the environment. Humanitarian aid operations are applications that require transportation of aid materials to the most difficult geographies and require very resource and labor intensive. In addition to the exhaust emissions from transporting these relief supplies, these operations often result in significant environmental waste that has not been addressed in the past. It is obvious that if these environmental wastes are not managed well, they will cause new crises and emergencies in the future. Today, humanitarian aid actors have started to carry out their operations with this sensitivity and environmental awareness and have started to operate to prevent new crises that may occur in the future. In this context, the United Nations and its partner humanitarian organizations aim to reduce the negative environmental consequences of humanitarian logistics through practical guidance and real-time environmental expertise under the WREC project. This study focuses on the current state and future ways of a sustainable logistics in a humanitarian context.

**Keywords:** WREC Project, Sustainability, Humanitarian Aid

## Özet

İnsani yardımın temel amacı zarar vermeme ilkesi ışığında ihtiyaç sahiplerine yardım etmek olmuştur. Küresel iklim değişikliğinin bir sonucu olarak son zamanlarda yaşanan çevre krizleri nedeniyle insani yardım aktörleri bu görev alanlarını doğa ve çevreyi de kapsayacak şekilde genişletmiştir. İnsani yardım operasyonları, esasında yardım malzemlerinin en zorlu coğrafyalara taşınmasını gerektiren ve çok yoğun kaynak ve emek gerektiren uygulamalardır. Bu yardım malzemelerinin taşınmasından kaynaklanan egzos emisyonlarına ek olarak, bu operasyonlar genellikle geçmişte de üzerinde durulmayan ciddi miktarda çevresel atıkla sonuçlanır. Bu çevresel atıklar iyi yönetilmezse gelecekte yeni krizlere ve acil durumlara sebebiyet verceği aşikardır. Günümüzde insani yardım aktörleri bu duyarlılık ve çevre bilinciyle operasyonlarını yürütmeye başlamış ve gelecekte oluşabilecek yeni krizleri önlemeye yönelik faaliyet göstermeye başlamışlardır. Bu bağlamda, Birleşmiş Milletler ve ortak insani yardım aktörleri WREC projesi kapsamında pratik rehberlik ve gerçek zamanlı çevresel uzmanlık yoluyla insani lojistiğin olumsuz çevresel sonuçlarını azaltmayı amaçlamaktadır. Bu çalışma, insani bağlamda sürdürülebilir bir lojistiğin mevcut durumuna ve gelecekteki yollarına odaklanmaktadır.

**Anahtar Kelimeler:** WREC Projesi, Sürdürülebilirlik, İnsani Yardım

## Introduction

İş həyatında istifadə olunan HRM qanunlara uyğun olaraq təşkilat, fərd və ətraf mühit üçün faydalı olacaq şəkildə hər hansı bir təşkilati və ekoloji mühitdə insan resurslarının səmərəli idarə edilməsini təmin edən bütün fəaliyyətlər kimi müəyyən edilə bilər. İş həyatının bütün mərhələlərində düzgün sayda işçinin planlaşdırılmasından başlayaraq, işə qəbul, işlə tanışlıq, təlim, karyera planlaması və işçi münasibətlərinin idarə edilməsi kimi fəaliyyətləri əhatə edən bir idarəetmə funksiyası olaraq ortaya çıxır (Ertürk, 2011).

Bu gün insan resursları yanaşması strateji ölçüsü, qərar qəbul etmə prosesində yüksək rəhbərliyin mövqeyi, təşkilatın məqsədinin müəyyən edilməsində rolu və beynəlxalq idarəetmə yanaşması ilə təşkilatların mühüm tərkib hissəsidir. HRM müəssisələrin dəstək bölməsi olmaqdan təməl daşlarından birinə çevrilmişdir (Quliyev, 2011).

İnsanların bilik və bacarıqlarını dəqiq surətdə köçürmək mümkün olmadığından, bir insan digərini asanlıqla əvəz edə bilməz. Həmçinin, bir vəziyyətdə müəyyən şərtlərdə uğur qazanmış insan başqa

bir vəziyyətdə dəyər yaratmaya bilər. Bu səbəbdən insan resurslarının idarə edilməsi, düzgün işçilərin işə götürülməsi, yeni işçilərin işə götürülməsi, həvəsləndirici və səriştə əsaslı ödəniş sistemlərinin qurulması, effektiv fəaliyyətin qiymətləndirilməsi sisteminin yaradılması, bilik və bacarıqların inkişaf etdirilməsi, işçilərin motivasiyası və öhdəliklərinə sadiqlik kimi funksiyaları sayəsində işçiləri işdə və təşkilatda insan resurslarının idarə edilməsi şirkətin məqsədlərinə çatmaq üçün əhəmiyyətli töhfələr verməklə şirkətə davamlı rəqabət üstünlüyü təmin edir.

Elektron insan resurslarının (HR) idarə edilməsi həm tətbiq sahəsi, həm də tədqiqatların sayı baxımından kifayət qədər yeni bir mövzudur. E-HRM internet əsaslı texnologiyalar üzərindən HR idarəetmə prosesinin həyata keçirilməsi və sadələşdirilməsi kimi müəyyən edilir (Joseph, 2008).

Başqa bir tərifə görə, E-HRM tapşırıqların sayını azaltmaq, bir çox rutin inzibati tapşırıqları sürətləndirmək və həm menecerlərin, həm də işçilərin fəaliyyətlərində daha effektiv və səmərəli iş üsullarının təşkilinə kömək etmək üçün bir yoldur.

E-HRM informasiya texnologiyalarından iki şəkildə istifadə edir. Birincisi, o, tez-tez məkan baxımından ayrılmış işçiləri birləşdirməyə xidmət edir - eyni otaqda və ya müxtəlif qitələrdə işləmələrindən asılı olmayaraq - onlar arasında qarşılıqlı əlaqə və inteqrasiyanı təmin edir. İkincisi, texnologiya HR fəaliyyətini həyata keçirərkən işçiləri qismən - bəzən hətta tamamilə - əvəz etməklə dəstəkləyir (Quliyev, 2014).

E-HRM böyük dəyişikliklərlə nəticələnən yenilikçi, ən son və vacib HRM inkişafıdır. Bu, təkcə texnoloji yenilik məsələsi deyil, həm də işçiyə məxsus hər cür məlumatı emal etmək və beləliklə, HRM proseslərini daha effektiv təkmilləşdirmək və idarə etmək deməkdir. E-HRM-nin biznes üçün faydalarını aşağıdakı kimi sadalamaq olar (Ertürk, 2011):

• İşçilərə özünəxidmətin göstərilməsi;

• Vaxt aparan əsas HR tapşırıqlarını və məlumat emalını aradan qaldırmaq;

• Dinamik və real vaxt rejimində HR hesabatlarını həyata keçirə bilmək və beləliklə qərar vermə qabiliyyətini təkmilləşdirmək;

• Əsas HR proseslərini yenidən dizayn etmək və təkmilləşdirmək imkanının təmin edilməsi;

• Qeyri-əsas fəaliyyətləri autsorsing etməklə HR performansının optimallaşdırılması.

Elektron HRM-ni yalnız internet əsaslı insan resurslarının idarə edilməsi sistemi kimi görmək düzgün deyil. Bütöv mənada e-HRM sistemi müəssisə resurslarının planlaşdırılması proqram təminatını (ERP), HRM-də paylaşılan xidmət mərkəzlərini, interaktiv səsli cavab sistemlərini, menecer və işçi portallarını, veb proqramlarını və geniş tətbiq sahəsini özündə cəmləşdirən sistemdir.

**Rəqəmsal iqtisadiyyat və peşəkarlıq**

Rəqəmsal iqtisadiyyat texnologiyalarının inkişafı və yayılması dünya iqtisadi sisteminin transformasiyasına həlledici təsir göstərir, əmtəə və xidmətlərin istehsalına, əmək resurslarından istifadəyə, insan və maddi kapitala investisiyaya, birbaşa xarici investisiya axınına təsir göstərir. Bütün bunlar son nəticədə istehsalın səmərəliliyinə, əmək məhsuldarlığına, rəqabət qabiliyyətinə və son nəticədə iqtisadi artıma - ayrı-ayrı sahibkarlıq subyektlərindən tutmuş ölkələrə və regionlara təsir göstərir.

McKinsey araşdırmasına görə, iqtisadiyyatın rəqəmsallaşması onun məhsuldarlığını və rəqabət qabiliyyətini artırmaq üçün texnoloji innovasiyaların yaradılmasından heç də az güclü vasitə ola

bilməz. Onların hesablamalarına görə, Çində 2025-ci ilə qədər ÜDM artımının 22%-ə qədəri rəqəmsal texnologiyalar hesabına baş verə bilər, ABŞ-da isə 10%-ə qədər (Ertürk, 2011).

Dövlətin inkişaf perspektivləri onun təbii, sənaye, iqtisadi və insan resursları ilə müəyyən edilir və yuxarıda göstərilən resurslardan səmərəli istifadə dövlət tənzimlənməsinin ən mühüm vəzifəsinə çevrilir. Eyni zamanda nəzərə almaq lazımdır ki, iqtisadiyyatın rəqəmsallaşması şəraitində istehsalın, iqtisadi artımın və son nəticədə dövlətin rəqabət qabiliyyətinin əsas amili, ilk növbədə, insan mərkəzli ölkələridir. İnnovativ rəqəmsal iqtisadiyyata keçid müəssisə personalının idarə edilməsinə yanaşmanın dəyişdirilməsini tələb edir.

Beynəlxalq konsaltinq şirkəti McKinsey & Company tərəfindən dərc edilmiş proqnozlara görə, həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş iqtisadiyyatları olan əksər ölkələr yaxın onillikdə orta və aşağı ixtisaslı əmək bazarı nümayəndələri arasında işsizlərin sayında böyük artımla üzləşəcəklər.

Beynəlxalq Əmək Təşkilatı daha dəqiq və daha az optimist proqnoz verir ki, ona görə də yaxın üç il ərzində dünya üzrə işsizlərin sayı 11 milyon artaraq 2019-cu ilə qədər 212 milyona çatacaq.

Daha uzaq gələcəyə nəzər salsaq, məlum olar ki, yaxın 20 ildə texnologiyanın bir çox peşə sahiblərini əvəz edəcək. Bu, ilk növbədə, hər yerdə mövcud olan bazar iqtisadiyyatı, rəqabət və digər struktur amillərlə bağlıdır ki, bu da şirkətlərdən öz səmərəliliyini müntəzəm olaraq artırmağı tələb edir. Dünya İqtisadi Forumu çərçivəsində dərc olunan "İşlərin gələcəyi" adlı hesabatda verilən məlumata əsasən, bir çox sənaye sahələrinin avtomatlaşdırılması analitiklər, tərtibatçılar kimi peşələr üçün yeni iş yerlərinin (dünyada 2 milyondan çox) yaradılmasına səbəb olacaq. Lakin, eyni zamanda, bundan sonra işləri robotlar tərəfindən yerinə yetiriləcək yarımixtisaslı işçilərin cəlb edilməsini tələb edən 7 milyon iş yerinin ixtisarına gətirib çıxaracaq (Yalçın, 2012).

Analoq iqtisadiyyatdan, rəqəmsal iqtisadiyyata keçid kadrların keyfiyyəti problemi ilə üzləşir. Rəqəmsal iqtisadiyyatın yeni kompetensiyalarına sahib olan kadr potensialının formalaşdırılmasına ehtiyac var, bunlar həm yeni məzunlar, həm də yeni səriştələrə yiyələnə biləcək "köhnə" kadrlardır.

Rəqəmsal iqtisadiyyat texnoloji tərəqqinin təbii nəticəsidir, texnoloji infrastrukturun inkişafı və böyük məlumat bazalarından istifadə cəmiyyətin genişmiqyaslı rəqəmsal transformasiyasına səbəb olmuşdur. Rəqəmsallaşmanın birinci mərhələsi milyonlarla istehlakçının internetə çıxış imkanlarının genişləndirilməsi ilə səciyyələnirdisə, indiki mərhələ istehsal və idarəetmə prosesinə geniş spektrli rəqəmsal xidmətlərin, məhsulların və sistemlərin tətbiqi ilə seçilir. Bu proses istər-istəməz iqtisadiyyatın bir çox sahələrinin tanınmazlığına gətirib çıxaracaq: texnoloji struktur, istehsal zəncirləri, tələbin idarə edilməsi və istehsalı dəyişir. İT infrastrukturunun onlara inteqrasiyası məqsədilə biznes prosesləri yenidən təşkil edilir və dəyişdirilir ki, bu da biznes əməliyyatlarının sürətini artıracaq, yeni informasiya kanalları yaradacaq, yeni məhsulların tətbiqi və işlənib hazırlanması prosedurlarını sadələşdirəcək. Analitiklər biznes modelinin yenidən qurulmasına birbaşa təsir edən məlumat ötürülməsinin sürətini, şəffaflığını və təhlükəsizliyini təmin edən alət kimi blokçeyn texnologiyalarının imkanlarını yüksək qiymətləndirirlər.

İnnovativ rəqəmsal iqtisadiyyata keçid şəraitində insan kapitalının intellektual komponenti əhəmiyyətli dərəcədə artır. Rəqəmsal texnologiyalar ünsiyyət vaxtını azaldacaq və bütün biznes proseslərini sürətləndirəcək, ona görə də insan kapitalının inkişafına xüsusi diqqət yetirilir. Bazarda rəqabətqabiliyyətli qalmaq istəyən müəssisələr yeni texnika və texnologiya tətbiq etməzdən əvvəl müəssisənin kadrlarının təşkili və idarə edilməsi üsullarını yenidən qurmalı, kadr siyasətini dəyişdirməli, səriştəli kadrlar hazırlamalı və müəssisənin kadr idarəetmə sisteminin transformasiyasını həyata keçirməlidir.

Rəqəmsal iqtisadiyyat iki fərqli şəkildə müəyyən edilir. Bu kontekstdə rəqəmsal iqtisadiyyat anlayışı birinci mənada iqtisadi nizamın xarakterini ifadə edir. Buna uyğun olaraq rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyalara, biliklərə və məlumatlara əsaslanan iqtisadi nizama verilən addır. Digər tərəfdən, rəqəmsal iqtisadiyyat rəqəmsal mühitdə məlumatları oxuyan, saxlayan və emal edən fəaliyyətləri əhatə edir.

Rəqəmsal iqtisadiyyat xüsusilə İKT sahəsində olan texnologiyaların birləşməsindən ibarətdir. Rəqəmsal sistemlər təkcə ictimai və siyasi həyatda deyil, həm də kommunikasiya və infrastrukturda geniş yayılır və tədqiqat, istehsal, səhiyyə, maliyyə, nəqliyyat və hətta kənd təsərrüfatı sahələrində effektivdir. Rəqəmsal iqtisadiyyatın əsas struktur bloku mobil texnologiyalara və əşyaların internetinə əsaslanan şəbəkələrin köməyi ilə qurumların və internet mərkəzli texnologiyaların qarşılıqlı asılılığını ifadə edən hiperəlaqə sistemidir (Ertürk, 2011).

İnformasiya hər dövrdə istehsal prosesinin əsas girişi olmuşdur. Bununla belə, rəqəmsal iqtisadiyyatı ümumi iqtisadi nəzəriyyədən fərqləndirən ən əsas məqam biliyi istehsal faktoru kimi, həm də əmək, kapital, təbii resurslar və sahibkar kimi klassik istehsal amillərini qəbul etməsidir. Rəqəmsal iqtisadiyyat sistemində informasiyanın rəqəmsallaşdırılması prosesində məlumatların toplanması, saxlanması, təhlili və paylaşılması mərhələlərində internet, bulud hesablamaları, böyük verilənlər və digər yeni rəqəmsal texnologiyalardan istifadə edilir. Rəqəmsal iqtisadiyyat sisteminə görə, iqtisadiyyatın tam rəqəmsallaşdırılması səmərəliliyi artıracaq, xərcləri azaldacaq və iqtisadi artımı dəstəkləyəcəkdir.

Son zamanlar sosial-iqtisadi inkişafın müəyyənedicisi kimi göstərilən rəqəmsal iqtisadiyyat informasiya, informasiya sistemləri və kommunikasiya sahələrində baş verən dəyişiklikləri özündə ehtiva edən bir konsepsiya kimi qarşıya çıxır. Həmçinin rəqəmsal iqtisadiyyat, rəqəmsal pul, e-ticarət, onlayn mağaza tətbiqləri, rəqəmsal reklam, bulud hesablamaları və üç ölçülü çap texnologiyalarından istifadə kimi fəaliyyətləri əhatə edən geniş bir termindir (Miçooğulları, 2018).

Rəqəmsal iqtisadiyyat anlayışı yerinə internet iqtisadiyyatı, şəbəkə iqtisadiyyatı, virtual iqtisadiyyat, informasiya iqtisadiyyatı, bilik əsaslı iqtisadiyyat, texno kapitalizm və koqnitiv kapitalizm anlayışlarından da istifadə etmək olar.

Rəqəmsal iqtisadiyyatda məlumat istehsalı ilə başlayan proses, informasiyanın rəqəmsallaşdırılaraq məhsullara, proseslərə, sistemlərə və xidmətlərə çevrilməsi ilə davam edir. Bu transformasiya prosesində informasiya, informasiya işçiləri və informasiya kommunikasiya texnologiyaları çox mühüm yer tutur. Biliyin iqtisadi və sosial faydası rəqəmsal texnologiyalarla mümkündür.

**Rəqəmsal iqtisadiyyatın üstünlükləri**

İqtisadi artım termini özünün ən əsas tərifində zamanla iqtisadiyyatda əmtəə və xidmətlərin istehsalının artmasına aiddir. Başqa sözlə, iqtisadi artım real ÜDM-in davamlı artması kimi müəyyən edilir. Nəticə etibarı ilə iqtisadi artım bir ölkədə yaşayan vətəndaşların sosial rifah səviyyəsini davamlı olaraq artıran göstəricilərdən biridir.

Bu səbəbdən davamlı iqtisadi artım həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan iqtisadiyyatlarda siyasətçilərin ən əsas makroiqtisadi məqsədlərindən biridir. Bununla belə, inkişaf etmiş ölkələrdə iqtisadi artım konsepsiyası ilə ÜDM-in dövrlər üzrə davamlı artımı hədəflənir. İqtisadi inkişaf iqtisadi artımla yanaşı, sosial strukturda gəlir bərabərsizliyini azaltmaq, işsizlik nisbətini azaltmaq və iqtisadi, sosial və siyasi sahələri müasirləşdirmək məqsədi daşıyır.

Bir ölkədə iqtisadi artım əmək, fiziki kapital, insan kapitalı, təbii ehtiyatlar və texnologiya səviyyəsi kimi amillərdən qaynaqlanır. Bu amillərdən birinin və ya bir neçəsinin artması ölkələrin fiziki istehsal gücünü və ya real ümumi daxili məhsulunu artırır.

Ənənəvi iqtisadi artım nəzəriyyələrində iqtisadiyyatlar arasında artım bərabərsizliyinin ölkələrin kapital yığımındakı fərqlərdən qaynaqlandığı iddia edilir. Bu baxımdan ənənəvi iqtisadiyyatda dayanıqlı iqtisadi artıma nail olmaq fiziki və insan kapitalına, işçi qüvvəsinə, təbii resurslara qoyulan investisiyalardan və yeni texnologiyaların inkişafından asılıdır. Bu istehsal amilləri arasında fiziki kapital dedikdə maşın, alət və avadanlıqlar, qurğular, xammal və digər davamlı istehsal amilləri nəzərdə tutulur. Fiziki kapital yığımı adlanan bu investisiyaların iqtisadiyyatda payı artdıqca, hər əməyə düşən kapitalın miqdarı artır və əməyin məhsuldarlığı yüksəlir. Bundan əlavə, insan kapitalına qoyulan investisiyaların artması məhsuldarlığa və texnoloji inkişafa böyük töhfə verir. İnsan kapitalı investisiyaları məktəblərdə və iş yerlərində keçirilən təlimlər vasitəsilə ixtisaslı işçi qüvvəsinin yetişdirilməsi məqsədi daşıyır. İqtisadiyyatda insan kapitalının miqdarının artmasından asılı olaraq işçi qüvvəsinin keyfiyyəti yüksəlir və əmək məhsuldarlığı inkişaf edir. Makroiqtisadi baxımdan iqtisadi artımın əsasını təşkil edən bu amillərlə yanaşı, davamlı iqtisadi artımı təmin edən müxtəlif amillər də mövcuddur. Bu başlıq altında iqtisadi artımın müəyyənediciləri olan digər amillər də daxildir.

İqtisadiyyatda endogen artım modellərinin tətbiqi ilə insan kapitalının iqtisadi artıma təsiri ədəbiyyatda ən çox müzakirə olunan mövzulardan birinə çevrildi. Xüsusilə, dünya iqtisadiyyatında rəqəmsal transformasiya prosesinin yaranması ilə insan kapitalı dayanıqlı iqtisadi inkişafın ən mühüm mənbələrindən birinə çevrilib. Bu kontekstdə ən sadə tərifi ilə insan kapitalı cəmiyyətə və ya fərdlərə aid olan bilik və bacarıqları, təhsil səviyyəsini və sağlamlıq vəziyyətini ifadə edir (Mahmudov, 2011).

İnsan kapitalı dedikdə fərdlərin iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün bilik, bacarıq və ixtisasları nəzərdə tutulur. Bu kontekstdə insan kapitalı biliyə əsaslanan rəqəmsal iqtisadiyyatda fərdlərin bilik və texniki bacarıqlarını artırmaq üçün təhsil və təlim təşəbbüslərini ehtiva edir və onların iqtisadi artıma töhfələrinə diqqət yetirir.

Fərdlərin öz bilik və bacarıqlarını artırmaq üçün müxtəlif təlimlərdə iştirakı, cəmiyyətin təhsil və səhiyyə strukturunu təkmilləşdirmək üçün hökumətlərin həyata keçirdiyi siyasətlər və işçi qüvvəsinin keyfiyyətini artırmaq üçün işəgötürənlər tərəfindən işçilərinə verilən korporativ təlimlər, insan kapitalı investisiyaları çərçivəsində qiymətləndirilə bilər.

Ar-Ge investisiyaları iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətini və iqtisadi artımını ölçmək üçün istifadə edilən ən əsas göstəricilərdən biridir. Texnologiyanın İnkişafı Zonaları haqqında Qanunda (2001) R&D "mədəniyyət, insanlar və cəmiyyət haqqında bilikləri artırmaq və bundan yeni proseslər, sistemlər və proqramlar, o cümlədən proqram təminatı hazırlamaq üçün istifadə etmək sistematik olaraq aparılan tədqiqatlar" kimi müəyyən edilmişdir. Ar-Ge üçün investisiya xərcləri innovasiya, kapital yığılması və insan kapitalı vasitəsilə iqtisadi artıma təsir göstərir. Bu kontekstdə Ar-Ge investisiyaları uzunmüddətli perspektivdə iqtisadi rifahı və məhsuldarlığın mənbəyini təşkil edir. İnkişaf etmiş ölkə iqtisadiyyatlarında yeni məhsulların və texnikanın inkişafı iqtisadi artımı təmin edən əsas elementlərdən biridir. Makroiqtisadi nöqteyi-nəzərdən iqtisadiyyatda ümumi faktor məhsuldarlığı ölkə daxilində yerli və xarici elmi-tədqiqat kapitalından asılıdır. Müvafiq olaraq, iqtisadiyyatda AR-GE-yə ayrılan resursların həcmi gələcəkdə məhsuldarlığın və əmək haqqının artımını müəyyən edir.

Rəqəmsal iqtisadiyyata dair statistik məlumatlar məhdud olduğundan, bu sahədə aparılan tədqiqatların demək olar ki, hamısı İKT sektoruna dair məlumatlara diqqət yetirir . Ölkələrin rəqəmsal inkişaf səviyyəsini əks etdirən ən mühüm meyar İKT-dən istifadə səviyyəsidir. İKT-dən istifadə nisbəti yüksək olan ölkələr və regionlar İKT-dən istifadə nisbəti aşağı olan ölkələr və regionlarla müqayisədə daha inkişaf etmiş hesab edilir.

Rəqəmsal İqtisadiyyat və Cəmiyyət İndeksi (DESI) Aİ ölkələrinin rəqəmsallaşma prosesini beş əsas ölçüdə izləyən mürəkkəb indeksdir ki bunlar; əlaqə, insan kapitalı, internet istifadəsi, rəqəmsal texnologiyanın inteqrasiyası və rəqəmsal dövlət xidmətləridir. DESI Avropa Komissiyasının Rabitə Şəbəkələri, Məzmun və Texnologiya Direktorluğu və IHS şirkəti tərəfindən toplanmış statistik məlumatlara əsaslanır (Worsley, 2010).

Müvafiq olaraq, əlaqə ölçüsü genişzolaqlı infrastrukturun paylanmasını və keyfiyyətini ölçür. Sürətli və ultra-sürətli genişzolaqlı xidmətlərə çıxış rəqabət qabiliyyəti üçün zəruri şərtdir. İnsan kapitalı ölçüsü rəqəmsallaşmanın təqdim etdiyi imkanlardan istifadə etmək üçün tələb olunan istifadəçi bacarıqlarını ölçür. İnternet istifadəsi istifadəçilərin video zənglər, oyun, musiqi, videolara baxmaq, bankçılıq və alış-veriş kimi müxtəlif onlayn fəaliyyətlərini hesablayır. Rəqəmsal texnologiyanın inteqrasiya ölçüsü şirkətlərin və e-ticarətin rəqəmsallaşdırılmasını ölçür. Rəqəmsal texnologiyaların şirkətlər tərəfindən mənimsənilməsi nəticəsində xərclərin azalacağı və məhsuldarlığın artacağı, şirkətlərin müştərilərini və iş ortaqlarını daha yaxşı anlaya biləcəyi düşünülür. Bundan əlavə, şirkətlər üçün satış nöqtəsi olan internet daha geniş bazarlara çıxış və böyümə potensialı təklif edir. Rəqəmsal dövlət xidmətləri ölçüsü e-hökumət və e-səhiyyə əməliyyatlarına diqqət yetirməklə dövlət xidmətlərinin rəqəmsallaşdırılmasını ölçür.

Ən əsas terminlərlə desək, dəyər zənciri rəqabət qabiliyyətinin inkişafını ölçmək üçün bir üsuldur. Bu çərçivədə rəqabətqabiliyyətlilik şirkətin infrastrukturunun qurulmasından tutmuş məhsulun istehsalına, marketinqinə, çatdırılmasına və məhsulla bağlı dəstək xidmətlərinin göstərilməsinə qədər həyata keçirilən bütün əməliyyatları əhatə edir. Bir sözlə, şirkətin rəqabət qabiliyyətini şərtləndirən ən fundamental amil dəyər zəncirindəki əməliyyat proseslərini rəqiblərindən daha yaxşı həyata keçirmək qabiliyyətidir (Yalçın, 2012).

Michael Porter tərəfindən hazırlanmış dəyər zənciri modeli iki ümumi başlıq altında qruplaşdırılıb: əsas fəaliyyətlər və dəstək fəaliyyətləri. Dəyər zənciri modelində daxili və xarici logistika, əməliyyatların idarə edilməsi, marketinq-satış və xidmətlər əsas fəaliyyətlərdir, şirkət infrastrukturu, insan resurslarının idarə edilməsi, texnologiyanın inkişafı və təchizatın idarə edilməsi dəstək fəaliyyətləridir.

Dəyər zəncirinin əsas fəaliyyətlər və dəstək fəaliyyətləri kimi qruplaşdırılması, dəyər zənciri təhlili üçün xərc üstünlüyünü aşkar etmək və şirkətlərin oxşar dəyər zənciri fəaliyyətlərində rəqiblərinə qarşı rəqabət üstünlüyü təmin edib-etmədiyini müəyyən etmək baxımından vacibdir (Yılmazer ve Eroğlu ,2008).

Yeni sənaye inqilabı kimi ifadə olunan rəqəmsallaşma prosesi istehsal və istehlak arasındakı əlaqəni yaradıcı məhv effekti ilə dəyişdirir. Rəqəmsal iqtisadiyyat sisteminə bir tərəfdən istehlakçıların dəyişən tələblərinə tez cavab verə bilən istehsal sistemləri, digər tərəfdən istehsalın tez və effektiv şəkildə həyata keçirilməsini təmin edən texnoloji sistemlər daxildir. Bu texnoloji sistemlər arasında üfüqi və şaquli inteqrasiya sistemləri mühüm yer tutur. Texnoloji sistemlərin yaranması nəticəsində rəqəmsal iqtisadiyyatda sənaye dəyər zəncirinin strukturu da dəyişir.

Bu kontekstdə dördüncü sənaye inqilabı daha yaxşı kommersiya və sosial nəticələri proqnozlaşdırmaq, idarə etmək və təşkil etmək üçün Mrugalska və Wyrwicka tərəfindən istifadə olunan mürəkkəb fiziki maşın və cihazların inteqrasiyası nəticəsində yeni dəyər zənciri strukturunun yaradılması kimi müəyyən edilir (Mrugalska &Wyrwicka, 2017).

Bu kontekstdə dördüncü sənaye inqilabı, dəyər zəncirinin bütün hissələrinin bir-biri ilə tam zamanlı və fasiləsiz əlaqəsi vasitəsilə dəyər zəncirinin idarə edilməsi üçün ağıllı sənaye prosesi yaratmağı hədəfləyir. Bunun üçün ən mühüm güc dəyər zəncirinin elementləri arasında bilik və məlumat mübadiləsində rol oynayacaq üfüqi və şaquli inteqrasiya texnologiyalarıdır (Ertürk, 2011).

Rəqəmsal iqtisadiyyatda şəbəkə texnologiyalarının inkişafı vasitəsilə dəyər zənciri rəqəmsallaşır. Beləliklə, şirkətin sahib olduğu informasiya sistemləri şirkətin öz təşkilatından kənar müştərilərə, təchizatçılara, tərəfdaşlara və rəqiblərə çatır və virtual mühitdə məlumat mübadiləsi imkanı yaradır. Fiziki məlumatdan rəqəmsal informasiyaya bu transformasiya prosesi xərclərin azaldılmasında və dəyər zəncirinin elementləri arasında əlaqənin sürətləndirilməsində rol oynayır. Nəticədə dəyər zəncirinin elementləri arasında əlaqələr dəyişir və dəyər zənciri dəyər şəbəkəsinə çevrilir. Bu nöqtədə texnologiya əlavə dəyər yaratmaqdansa, təşkilati strukturda dəyər yaradacaq yeni strukturların yaradılmasına töhfə verir.

**Nəticə və təkliflər**

Nəticə olaraq, rəqəmsal iqtisadiyyatda HRM texnoloji irəliləyişlər və işçilərin gözləntilərinin dəyişməsi ilə sürətlə inkişaf edir. HR mütəxəssisləri HR funksiyalarını idarə etmək, işçi qüvvəsində dəyişikliklərə uyğunlaşmaq və işçiləri cəlb etmək və saxlamaq üçün yeni yollar tapmaq üçün rəqəmsal vasitələrdən istifadə etməkdə təcrübəli olmalıdırlar. Çətinliklər olsa da, rəqəmsal dövrdə HRM üçün imkanlar da var. Yeni HR texnologiyalarını mənimsəməklə, yeni istedadların əldə edilməsi və saxlanma strategiyalarını inkişaf etdirərək və işçilərlə əlaqə qurmağın yeni yollarını tapmaqla HR mütəxəssisləri öz təşkilatlarına rəqəmsal iqtisadiyyatda inkişaf etməyə kömək edə bilərlər. Rəqəmsal iqtisadiyyat inkişaf etməyə davam etdikcə, HRM ən yaxşı istedadları cəlb etmək, saxlamaq və inkişaf etdirmək istəyən təşkilatlar üçün vacib funksiya olaraq qalacaq.

"Rəqəmsal İqtisadiyyatda İnsan Resurslarının İdarə Edilməsi" məqaləsi rəqəmsal texnologiyaların insan resurslarının idarə edilməsinə təsiri ilə bağlı mövcud tədqiqatlara əsaslandığı və genişləndirdiyi üçün bu mövzuda əvvəlki məqalələrlə çox uyğundur. Əvvəlki məqalələrdə rəqəmsal dövrdə HRM-nin müxtəlif aspektləri, məsələn, işə qəbul və seçim üçün rəqəmsal texnologiyalardan istifadə, texnologiyanın iş dizaynına və işin təşkilinə təsiri və rəqəmsal istedadın idarə olunmasında HRM-nin rolu araşdırılmışdır. "Rəqəmsal İqtisadiyyatda İnsan Resurslarının İdarə Edilməsi" məqaləsi rəqəmsal iqtisadiyyatda insan resurslarının idarə edilməsi ilə bağlı əsas problemlər və imkanların hərtərəfli icmalı təqdim etməklə bu mövcud tədqiqatı tamamlayır. Bundan əlavə, məqalənin gələcək tədqiqatlar üçün təklifləri HRM-nin rəqəmsal texnologiyalarla bağlı çətinlikləri və imkanları necə effektiv şəkildə idarə edə biləcəyi ilə bağlı əlavə araşdırma tələb edən əvvəlki tədqiqatlarla üst-üstə düşür. Məsələn, əvvəlki tədqiqatlar rəqəmsal texnologiyaların işçilərin rifahına təsirinin, rəqəmsal innovasiyaların təşviqində HRM-nin rolunun və uzaqdan işçi qüvvəsinin idarə olunması ilə bağlı problemlərin araşdırılmasının zəruriliyini vurğulamışdır. Ümumilikdə, "Rəqəmsal İqtisadiyyatda İnsan Resurslarının İdarə Edilməsi" məqaləsi bu mövzuya dair əvvəlki məqalələrlə çox uyğundur və rəqəmsal dövrdə insan resurslarının idarə olunması ilə bağlı əsas problemlər və imkanların hərtərəfli icmalı təqdim etməklə mövcud tədqiqatlara əsaslanır və genişləndirir.

Gələcəkdə bu mövzuda aparılacaq tədqiqatlar üçün yol: Rəqəmsal texnologiyaların artan istifadəsi ilə texnologiyanın işlərin dizayn üsulunu və onları yerinə yetirmək üçün tələb olunan bacarıqları necə dəyişdirdiyini araşdırmaq ehtiyacı var. Gələcək tədqiqat iş dizaynının rəqəmsal iqtisadiyyatda necə inkişaf etdiyini və HRM-nin bu dəyişiklikləri necə effektiv şəkildə idarə edə biləcəyini araşdıra bilər.

Rəqəmsal iqtisadiyyat təşkilatlardan rəqabətə davamlı olmaq üçün davamlı olaraq yeniliklər etməyi tələb edir. Gələcək tədqiqatlar HRM-nin rəqəmsal istedadın inkişafı, rəqəmsal performans ölçülərinin tətbiqi və innovasiya mədəniyyətinin yaradılması kimi rəqəmsal innovasiyaları necə effektiv şəkildə inkişaf etdirə biləcəyini araşdıra bilər.

**Ədəbiyyat Siyahısı**

Ertürk, M. (2011), "İnsan Kaynakları Yönetimi", İstanbul, "Beta Basım A.Ş.", 330
Quliyev, T.A. (2014), "İnsan resurslarının idarə edilməsi". Bakı, "Maarif", 276
Mahmudov, B.N. (2011), "Elmi-texniki tərəqqi və sənaye işçilərinin quruluşunun dəyişməsi". Bakı, Azərbaycan Elmi-Tədqiqat Elmi-Texniki İnformasiya İnstitutu, 347
Miçooğulları, S.Ü. "Yeni ekonomide dijital emek" // Uluslararası Çalışma Hayatı ve Sosyal Politika Dergisi, 2018, 1(1), 5-17.
Mrugalska,B &Wyrwicka M.K. "Towards lean production in industry 4.0. Procedia Engineering" // 2017, 182, 466-473.
Worsley, P. "One World or Three? A Critique of the World System Theory of Immanuel Wallerstein" // Socialist Register, 2010, Vol. 17., 300
Yalçın, G. (2012), "Kümeler için Değer Zinciri Rehberi", Ankara, "T.C. Ekonomi Bakanlığı", 527
Yılmazer, A. ve Eroğlu, C. (2008), "İnsan Kaynakları Yönetimi", Ankara, "Seç Yayınlar", 92
Армстронг, М. (2002), "Стратегическое управление человеческими ресурсами", Москва, "Инфра-М",340
Леонард, Д. (2006), "Как заставить работать коллективный мозг компании" Уэлби, "Проспект", 504

# İşçi Qüvvəsinin Sertifikasiyası Sisteminin Tətbiqinin Əmək Bazarı İştirakçılarının Keyfiyyətinə Təsirinin Təhlili

**Mətləb Mahmudov**

**f.ü.f.d., dosent., Azərbaycan Dövlət İqtisad Universiteti**

**matlab.mahmudov@sosial.gov.az**

**orcid.org/0000-00015211-8359**

## Xülasə

Məqalədə əsas məqsəd ölkəmizdə sertifikatlaşma ilə əlaqədar formalaşdırılan qiymətləndirmə və keyfiyyətə təminat sisteminin əmək bazarının inkişafına verdiyi töhfələrin qiymətləndirilməsi, əmək bazarının keyfiyyətinə təsirinin təhlilidir.

Məqalədə qeyd edilir ki, perspektivdə müəyyən texnoloji transformasiya proseslri ilə əlaqədar ölkə vətəndaşlarının qarşılaşa biləcəyi sosial gərginliyin qarşısının alınması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsini əsaslandırmaqdır. Belə ki, araşdırmalara görə əmək bazarında iştirak edən vətəndaşlarımızın cəmi 30-32%-i zəruri peşə-ixtisas sənədlərinə malikdirlər. 70%-ə qədər vətəndaşlarımızın hər hansı bir peşə-ixtisas sertifikatına, onların bilik və bacarıqlarını təsdiqləyən hər hansı bir sənədə malik olmamaları böyük təəsüf hissi oyadır. 2012-ci ildən bu yana Avropa Təlim Fondu (ATF) tərəfindən təşkil edilən sorğularda (ЕФО (ETF - ATF), 2014), sonradan, Əmək Müqavilələri üzrə Bildirişlərin İnformasiya-Elektron Sistemi (ƏMBİES) üzərindən aparılan təhlillər qeyd edilən göstəriciləri təsdiqləyirdi.

Bildirilir ki, müxtəlif alternativ tədqiqatlardan alınan məlumatlara görə, əmək bazarının iştirakçılarının böyük əksəriyyəti qeyri-formal və informal yollarla əmək bazarının tələblərinə uyğun bilik və bacarıqlara yiyələnirlər və müvafiq sertifikatlar əldə edərək işə düzəlirlər. Bu fakt nəzərə alınsa, əmək bazarı iştirakçılarının 65-70%-nin müvafiq sənədlərə malik olması qənaətində oluruq (qafqazinfo.az, 2018). Bu sertifikatların Nazirlər Kabineti (NK) tərəfindən təsdiq edilmiş peşə-ixtisas standartlarının tələblərinə uyğun olmaması səbəbindən, işəgötürənlər həmin sənədləri müvafiq qaydada Məşğulluq Alt Sisteminə (MAS) daxil edə bilmirlər. Bu da öz növbəsində MAS-da kifayət qədər vakansiyaların bir göstərici kimi sistemdə qalmasına səbəb olur.

Milli Observatoriya tərəfindən icra edilən təhlil yuxarıda qeyd edilən boşluğun tədricən aradan qaldırılması prosesinə təkan verə biləcək bir texniki tapşırığın hazırlanması istiqamətində atılan ilk addımlardan biridir.

Məqalədə "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı" üzrə müəyyən edilmiş vəzifələrin icrası ilə bağlı Təfsilatlı Tədbirlər Planı"nın icrasına dair Tədbirlər Planının 2.4.2. bəndinin "Peşə və kvalifikasiya standartları nəzərə alınaraq işçi qüvvəsinin sertifikasiyası sisteminin formalaşdırılması" tapşırığının icrası istiqamətində zəruri metodoloji izahlar və icra mexanizmləri göstərilməklə məsələnin həlli ətrafında maraqlı tərəflərin mövqelərin öyrənilməsinə, adekvat təkliflərin hazırlanmasına cəhdlər göstərilmişdir.

Məqalədə internet üzərindən Təhsil Nazirliyinə aid statistik rəqəmlərə, sertifikatlaşma ilə əlaqədar qanunvericilik aktlarına, sertifikatlaşma ilə əlaqədar Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamlarına, bəzi ölkələrin təcrübələrinə. Həmçinin Əəmək Bazarı və sosial müdafiə məsələləri üzrə Milli Observatoriyanın tədqiqatlarına müraciətlər edilmişdir.

**Açar sözlər:** əmək bazarı, məşğulluq, peşə standartları,, qeyri-formal və informal təhsil, bacarıq və qabiliyyətlərin tanınması, sertifikatlaşma

## Summary

**The main aim** of the article is to assess the contributions of the assessment and quality assurance system formed in connection with certification in our country to the development of the labor market, and the analysis of the impact on the quality of the labor market.

It is mentioned in the article that in the future, it is necessary to justify the implementation of necessary measures in the direction of prevention of social tension that the citizens of the country may face due to certain technological transformation processes. So, according to research, only 30-32% of our citizens participating in the labor market have the necessary professional-specialization documents. It is a great pity that up to 70% of our citizens do not have any professional-specialization certificate, any document confirming their knowledge and skills. Since 2012, the surveys organized by the European Training Foundation (ATF) (ЕФО (ETF - ATF), 2014), and later, the analyzes conducted on the Information-Electronic System of Notices on Employment Contracts (EMBIES) confirmed the mentioned indicators.

It is reported that according to the information received from various alternative studies, the vast majority of the participants of the labor market acquire knowledge and skills in accordance with the requirements of the labor market in informal and informal ways and get a job after obtaining relevant certificates. If this fact is taken into account, we conclude that 65-70% of labor market participants have relevant documents (qafqazinfo.az, 2018). Due to the fact that these certificates do not meet the requirements of professional standards approved by the Cabinet of Ministers (NC), employers cannot enter those documents into the Employment Subsystem (MAS). This in turn causes enough vacancies in MAS to remain in the system as an indicator.

The analysis carried out by the National Observatory is one of the first steps taken towards the preparation of a technical task that can stimulate the process of gradually eliminating the gap mentioned above.

In the article, the Action Plan for the implementation of the Detailed Action Plan for the implementation of the tasks defined under the "Action Plan for the Implementation of the Employment Strategy for 2020-2025" in the 2.4.2. state in the direction of the implementation of the task "Formation of the labor force certification system taking into account the profession and qualification standards", the necessary methodological explanations and implementation mechanisms were shown, and attempts were made to study the positions of the interested parties and prepare adequate proposals for the solution of the issue.

In the article, statistics related to the Ministry of Education, legislative acts related to certification, relevant decisions and orders of the Cabinet of Ministers related to certification, and the experiences of some countries are presented in the article. References were also made to the researches of the National Observatory on Labor Market and social protection issues.

**Key words:** labor market, employment, professional standards, non-formal and informal education, recognition of skills and abilities, certification

## Giriş

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 311 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"ndə qeyd edilir ki, elm və texnikanın nailiyyətlərinin istehsal faktoruna çevrilməsi kontekstində bəzi ənənəvi bilik və bacarıqların böyük bir hissəsinin öz aktuallığını itirməsi, müəyyən peşə və ixtisasların köhnəlməsi, əmək bazarında tələb olunan bilik və bacarıqlara uyğunsuzluğu iqtisadi fəaliyyətin səmərəliliyini aşağı salır (e-qanun.az/framework/39622, 2018).

Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi (bundan sonra – AzMKÇ) milli kvalifikasiyaların sistemləşdirilməsi üçün bir vasitə olmaqla bütün təhsilalanlar, təhsilverənlər və işəgötürənlər üçün hazırlanmışdır və milli kvalifikasiyaların beynəlxalq kvalifikasiyalarla uyğunluğuna xidmət edir. AzMKÇ konseptual baxımdan Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsi (AATMKÇ) və Ömürboyu təhsil üzrə **Avropa Kvalifikasiyalar Çərçivəsinin** (ÖTAKÇ) meyarlarına uyğun hazırlanmışdır (Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsi, 2021).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli 279 nömrəli Qərarı ilə təsdiq

edilmiş “Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qayda”larının “Ümumi müddəalar”ında qeyd edilir ki, bu Qayda “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 17.4-cü maddəsinə əsasən hazırlanmış və vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin müvafiq ixtisas üzrə kvalifikasiya standartlarına uyğunluğunun müəyyənləşdirilməsi (bundan sonra – qiymətləndirilmə və tanınma) məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin (sertifikatın) verilməsi qaydasını müəyyən edir (https://e-qanun.az/framework/45613, 2020).

Qiymətləndirilmə və tanınma Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyi (bundan sonra – TKTA) tərəfindən müvafiq Qaydaya əsasən həyata keçirilir.

Lakin TKTA bu prosesin icrasında mürəkkb icra prosedurlarına üstünlük veribdir. Yəni onlar bilik və bacarıqların tanınması üçün imtahanda iştirak edən hər bir namizədin 18-19 moduldan ibarət bir Kurikulumun tələblərinə cavab vermələrini tələb edirlər (www.facebook.com/permalink.php?id=108811580512271, 2023). Bu da ki, həmin bilik və bacarıqlara sahib olanları tez bir zamanda müvafiq tanınma sənədlərinin əldə edə bilməmələri səbəbində bu prosedurları keçməkdən çəkindirir. Xüsusilə, hər bir namizədin ən azı 2 il təlimdə iştirakını tələb etmələri bu prosesin mürəkkəb və çətin proses olmasına dəlalət edir. Namizədlərin qısa bir müddətdə, 1-3 ay arasında paralel olaraq zəruri sayıla biləcək modullarda (SƏTƏM, etik davranış, biznes bacarıqları və peşəkarlıq) iştirak etməklə öz peşəkarlıq qabiliyyətini nümayiş etdirə bilməsi onların müvafiq sertifikatı əldə etməsinə kifayət edə bilər.

TKTA isə təqdim etdiyi Qaydaya əsasən qiymətləndirilmə və tanınmanın həyata keçirilməsi zamanı ərizəçilər qarşısında qoyduqları sərt təlblər bu təcrübənin uğula həyata keçirilməsində müəyyən maneələr yaradır.

Qiymətləndirilmə və tanınma həyata keçirilən bilik, bacarıq, səriştə və təcrübə üzrə ixtisaslar əmək bazarının tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş “Peşə təhsili üzrə ixtisasların Təsnifatı”na uyğun müəyyən edilir və bu barədə məlumat Azərbaycan Respublikası Təhsil Nazirliyinin (bundan sonra – Nazirlik) rəsmi internet səhifəsində yerləşdirilir. Qiymətləndirmə və tanınma prosesi müvafiq Peşə standartları (bundan sonra PS) çərçivəsində həll olunur.

**Peşə Standartları**

PS Konkret peşə sahələrində işçilərin yerinə yetirdikləri əmək funksiyalarına qoyulan ümumi tələbləri sistemli şəkildə əks etdirən sənəddir. O, müvafiq səriştələr çərçivəsində işçinin bilik, bacarıq və vərdişləri nəzərə alınmaqla, onun əmək funksiyalarını yerinə yetirməsinə imkan verəcək konkret vəzifə öhdəliklərinin və fəaliyyətlərin siyahısını özündə ehtiva edir (https://e-qanun.az/framework/43855, 2019).

PS – işdəki rolu təyin etməyə, işçinin fəaliyyətini qiymətləndirməyə, eləcə də, təkmilləşmə, peşə yüksəlişi üçün yollar müəyyən etməyə və hazırlamağa kömək edən bir vasitə rolunu oynayır.

Peşə-ixtisas standartı müəyyən bir peşə səlahiyyəti çərçivəsində fəaliyyətləri nəzərdə tutan normativ sənəddir. Burada:işin məzmununa və keyfiyyətinə dair tələblər;əmək fəaliyyətinin həyata keçirilməsi şərtlərinə dair tələbləri;

– işçinin bacarıq səviyyəsi;

– bu ixtisasa cavab vermək üçün zəruri olan peşə təhsili və təliminə dair tələblər öz əksini tapmışdır.

Peşə standartları bir insanın müəyyən bir iş sahəsində bacardığı və bacara biləcəyi tələbləri müəyyən və təsvir edir, yəni

– zəruri bilik və bacarıqları;

– məsuliyyət və müstəqillik səviyyəsini;

– yerinə yetirilən iş funksiyasının mürəkkəblik səviyyəsini (e-qanun.az/framework/39622, 2018).

Peşə standartları ISCO 88/08-ə (The International Standard Classification of Occupations (**ISCO**) is an International Labour Organization (ILO) classification structure for organizing - Peşələrin Beynəlxalq Standart Təsnifatı (ISCO) Beynəlxalq Əmək Təşkilatının (BƏT) təsnifat strukturu) uyğun olaraq təsnifatlaşdırılır.

Son zamanlar bəzi beynəlxalq təşkilatlar tərəfindən qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması müasir dövrün brendi kimi təqdim olunur. Həqiqətdə isə bu belə deyil. Qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması hələ keçmiş sovetlər məkanında da baş vermişdir. Daha doğrusu, bu praktika heç dayanmamışdı da.

Sovetlər ölkəsinin ilk quruculuq illərində usta yanında şəyirdlik etməklə, qısamüddətli kurslarda iştirak etməklə və digər üsullarla milyonlarla insan bu və ya digər formada müəyyən peşə və ixtisaslara yiyələndikdən sonra səyyar qiymətləndirmə komissiyalarından müvafiq səriştə sənədlərini (attestat, diplom, sertifikat və s.) əldə edirdilər.

Hamıya məlumdur ki, müvafiq təlimləri təsdiqləyən sənədləri olmayanlar bu vəsiqəni əldə edə bilməzlər. Bura təkcə vətəndaşların öz şəxsi avtomobillərini idarə etmək deyil, müxtəlif xarakterli yük və sərnişindaşıma nəqliyyat vasitələri də daxildir. Bura bütün yerüstü quru və dəmiryolu nəqliyyatı vasitələrini də əlavə etmək olar. Dəniz və hava yolları üzrə nəqliyyat vasitələrinin idarəedilməsinə icazələr bu sahə üzrə müvafiq təhsil müəssisələrinin məzunlarına verilir.

Qeyd etmək lazımdır ki, müvəqqəti hərbi xidmətdə olanlar da xidmət dövründə müəyyən hərbi xarakterli peşələrə yiyələnirlər və müvafiq sənədlərlə təmin olunurlar. Bura hərbi nəqliyyat vasitələrinin idarəedilməsinə icazə verən sənədlərin əldə edilməsi daxildir. Əlavə olaraq xidmət zamanı tırtıllı hərbi texnikaların idarə edilməsi üçün əldə edilən sənəd, hərbidən tərxis olunanların mülki tırtıllı xüsusi texnikaları da (traktor və kombaynlar, yol tikintisi texnikaları, mədən qazma texnikaları və s.) idarə etmək hüququna malik olurlar.

Bir çox gənclər müasir İKT vasitəsi ilə müxtəlif bilik və bacarıqlar əldə etdikdən sonra internet üzərindən təşkil edilən imtahan və müsabiqələrdə iştirak edirlər və müvafiq beynəlxalq statuslu sertifikatlar əldə edirlər. Məsələn, Dünya Bankının, BƏT-in, ATF-in və digər qlobal təşkilatlr tərəfində

təşkil edilən təlimlərdə iştirak edirlər, müvafiq sertifikatlar əldə edirlər. Sözsüz ki, bu sertifikatların müvafiq peşə-ixtisas standartlarına adekvatlılığının işəgötürənlərin tələbləri çərçivəsində təmin olunması üçün onların QFİTT proqramlarına müraciət etmələri üçün imkanlar genişlənmişdir.

Məhz əmək bazarının tələbləri əsasında 1984-cü ildə ilk dəfə Fransada başlayan "Qeyri-formal və informal təhsilin tanınması" prosesi sürətlə digər ölkələrə də yayılmağa başladı.

Qeyri-formal və İnformal Təhsilin Tanınmasının (QFİTT) ən yaxşı təcrübə kimi Avropa Təlim Fondu Rumıniyanı nümunə kimi qeyd edir (1). Bu təcrübəyə müraciət etsək görərik ki, bu (7) ölkə ərazisində ümumilikdə 37 Qiymətləndirmə mərkəzi mövcuddur. Təcrübənin tətbiq edildiyi 2004-cü ildən bu günə qədər 100 mindən çox insan tanınma prosesindən keçmişdir. İllər üzrə baxdıqda isə 2017-ci ildə 8096 nəfər (75,7% kişilər, 24,3% qadınlar), 2018-ci ildə 8760 nəfər (71,3% kişilər, 28,7% qadınlar), 2019-cu ildə 7425 nəfər (70,75% kişilər, 29,25% qadınlar) tanınma prosesindən keçmişdir. Rəqəmlərdən də göründüyü kimi Rumıniya QFİTT prosesində kifayət qədər təcrübəyə malikdir.

Ölkə miqyasında qeyri-formal və informal təhsilin tanınması prosesinə Rumıniya Təhsil Nazirliyinin koordinasiya etdiyi Milli Kvalifikasiyalar Təşkilatı məsuldur. Milli Kvalifikasiyalar Təşkilatı (MKT) QFİTT üzrə siyasətin formalaşdırılması, qanunvericilik sənədlərinin hazırlanmasına, bu qurumun tərkibinə daxil olan Milli Akkreditasiya Mərkəzi isə ayrı-ayrı qiymətləndirmə mərkəzlərinin qiymətləndirilməsi və sertifikasiya edilməsinə cavabdehdir. QFİTT prosesi bilavasitə akkreditasiya edilmiş qiymətləndirmə mərkəzləri tərəfindən həyata keçirilir.

Prosesin həyata keçirilməsi qaydalarını Əmək Nazirliyi təsdiq edir. Akkreditasiyada isə həm Təhsil, həm də Əmək Nazirliyi iştirak edir (analoji təcrübədən Azrərbaycanda da istifadə edilir).

Qiymətləndirmə mərkəzləri tərəfindən QFİTT prosesinin həyata keçirilməsi adətən aşağıdakı mərhələlər üzrə aparılır:

1. Qeydiyyat;
2. Nəzəri biliklərin qiymətləndirilməsi;
3. Praktiki bacarıqların qiymətləndirilməsi;
4. Dolayı qiymətləndirmə;
5. Nəticələrin toplanması və qeydiyyatı;
6. Geribildirim prosesinin aparılması (izlənilməsi).

QFİTT üzrə qiymətləndirmə mərkəzində daxili keyfiyyətin təminatına birbaşa mərkəzin rəhbəri cavabdehlik daşıyır. Etibarlı qiymətləndirmə mərkəzlərində həmçinin beynəlxalq İSO 9001:2008 keyfiyyətə təminat idarə sistemi istifadə edilir. Qiymətləndirmə mərkəzinin xarici keyfiyyət təminatına Milli Kvalifikasiyalar Təşkilatı, həmçinin Məşğulluq Xidməti tərəfindən nəzarət olunur.

Digər ölkələrdə də analoji prinsiplər əsasında QFİTT təşkil edilir. Bunu Rusiya Federasiyasında, Ukraynada, Serbiyada, Türkiyədə və avrointeqrasiyalı digər ölkələrin təcrübəsində də müşahidə etmək olar (ЕФО (ETF - ATF), 2014).

Qeyri-formal və informal yollarla əldə edilmiş səriştələrin tanınması (QFİTT) üzrə Azərbaycanda ilk

mexanizmin icrası Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) birgə fəaliyyəti sayəsində həyata keçirilib.

İlk imtahan Təhsildə Keyfiyyət Təminatı Agentliyi və tikinti materialları istehsalı üzrə beynəlxalq "Knauf Marketing Baku" şirkətinin dəstəyi ilə "Quru inşaat" peşəsi üzrə biliklərini rəsmiləşdirmək istəyən namizədlər üçün Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində keçirilib (Qeyri-formal və informal təhsilin tanınması: Rumıniya təcrübəsi, 2020).

Hələ ki, Dövlət Statistika Komitəsi tərəfindən QFİTT haqqında xüsusi statistik məlumatlar bloku formalaşmayıb. DSK -dan əldə olunan məlumata görə, artıq 2023-cü ildən QFİTT-in statistikası aparılacaq.

Bu səbəbdən, hələ ki, biz  ETN tabeliyində TKTA-nın saytında yerləşdirilən ilkin məlumatlarla kifayətlənməyə məcburuq.

2021-ci il ərzində ETN tabeliyində TKTA -ya səriştələrin tanınması üçün 3004 nəfər müraciət edib (www.facebook.com/permalink.php?id=108811580512271, 2023). Onlardan 76%-i (2284 nəfər) qəbul edilib, 24%-dən (720 nəfər) imtina edilib.

Cari il ərzində qeyri-formal və informal təhsilin tanınması üzrə ümumilikdə 5 ixtisas üzrə imtahanlar təşkil olunmuş və vətəndaşlara 174 sertifikat, 13 diplom təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi  2022-ci ildə kurslara cəlb edilən 4 min 575 nəfərdən 2 min 827-si məzun olaraq müvafiq sertifikatlara sahib olmuşlar və həmin şəxslərdən 1752 nəfəri işlə təmin olunmuşdur (TKTA, 2021).

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən peşə hazırlığı işaxtaran və işsiz şəxslərin əmək bazarının tələbatına uyğun olaraq təhsil müəssisələrində ixtisasa (peşəyə) və (və ya) yeni ixtisasa (peşəyə) yiyələnmək üçün Qanunun tələbləri nəzərə alınmaqla, "Təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 7 iyun 2019-cu il tarixli 261 nömrəli Qərarı ilə təsdiq olunmuş "İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası" əsasında həyata keçirilir. Kursu müvəffəqiyyətlə bitirən müdavimlərə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın tələblərinə uyğun olaraq vahid formalı sertifikat təqdim edilir.

Yuxarıda qeyd edilən QFİTT haqqında göstəricilər Azərbaycan Respublikasında əmək bazarına daxil olanların çox cüzi bir hissəsini əhatə edir. Bu göstəricilərin əmək bazarının keyfiyyətinə təsirinin qiymətləndirilməsində əhəmiyyəti haqqında xüsusi bir hesablamanın aparılması düzgün olmazdır. Bu prosesin kütləvi xarakter alması, Rumıniyadakı kimi, 100 min nəfəri ötməsindən sonra, sözsüz ki, sanballı korrelyasiyaların aparılması mümkündür.

Bununla belə, QFİTT üçün müraciət  edən 3004 nəfərdən 2284 nəfərinin müvafiq sertifikatlarla və diplomlarla təmin edilməsi qeyd edilən toplumun 76%-ni təşkil etməsini müsbət tendensiya kmi qəbul etmək olar. Həm də yerdə qalan, ilk dəfə imtahanı verə bilməyən 24%-in taleyi də nəticəsiz qalmır. Onlar bir müddətdən sonra, çox xərc çəkmədən təkrar imtahanda iştirak edib müvafiq sertifikatlarını

əldə edə bilərlər.

Hər il əmək bazarına yenicə daxil olan və heç bir peşəsi və ixtisası olmayan 100 min gəncin (Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin 30.11.2018-ci tarixdə BƏT tərəfindən təşkil edilmiş "İnformal və qeyri-formal üsullarla əldə olunmuş səriştələrin tanınması" mövzusunda keçirilmiş konfransda çıxışından) qeyd edilən toplum nisbətində, yəni 75%-nin QFİTT vasitəsi ilə müvafiq peşə sertifikatları və diplomları ilə təmin olunması işçi qüvvəsinin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər (qafqazinfo.az, 2018).

Aşağıdakı qrafiklərdə də hazırkı dövrdə əyani formada muzdlu işçilərin ümumi sayında sertifikatlaşdırılmış işçi qüvvəsinin nisbəti qeyd edilmişdir. Digər qrafiklərdə isə QFİTT sayəsində 3004 nəfərdən sertifikatlaşmış toplumun nisbəti və ehtimal olunan 100 min yeni əmək bazarı iştirakçılarının ümumi sayında QFİTT tədbirləri sayəsində sertifikatlaşa biləcək toplumun sayı qeyd edilmişdir (mavi - ümumi, yaşıl – sertifikatlaşdırılmışlar, min nəfərlə).

QFİTT-lə əlaqədar TKTA-nın saytında yerləşdirilən 16 sayda metodik vəsaitin həcminin ƏƏSMN-nin saytında yerləşdirilən hazır 504 Peşə Standartlarının sayı ilə müqayisədə az olması qənaətbəxş hal kimi qəbul etmək olmaz. Belə ki, Məşğullq Təsnifatının ibtidai qrup kodları üzrə Peşə standartlarına uyğunluğu müəyyənləşdirən zaman MO tərəfindən iş elanlarının araşdırılması zamanı bu elanlarda mövcud olan vakansiyaların (17608 vakansiya) təhlili aparılımışdır (Ələkbərov, 2022). Təhlil nəticəsində əmək bazarında tələb olunan prioritet peşə və ixtisasların müvafiq Peşə Standartlarına uyğun olanlar kimi lider reytinqinə görə 63 peşə müəyyənləşmişdir. Bununla əlaqədar, QFİTT-in şərtlərinin sadələşdirilməsi ilə yanaşı TKTA saytında metodik vəsaitlərin sayının heç olmasa 30-a çatdırmaqla sertifikatlaşma prosesini kütləviləşdirmək mümkündür.

**Sertifikatlaşmanın Keyfiyyət Təsirlərinin Təzahürləri**

Sertifikatlaşmanın əmək bazarının keyfiyyətinə təsirinin qiymətləndirilməsi ilk növbədə bu prosesə cəlb olunanların hansı təlimlərə ehtiyaclarının müəyyənləşdirilməsindən başlayır. Bu işçinin malik olduğu və ya hələ də malik olmadığı səriştələr toplusunu müəyyənləşdirdikdən sonra mümkündür. Buna görə də, sertifikatlaşmadan öncə müvafiq təlim və inkişaf sisteminin təkmilləşdirilməsi üçün tövsiyə olaraq, ilk növbədə peşə-ixtisas kvalifikasiyalarına müvafiq bilik və bacarıqların müstəqil qiymətləndirilməsi və sertifikatlaşdırılması sisteminin tətbiqi vacib hədəflərdən biridir. Kvalifikasiyaların müstəqil qiymətləndirilməsi müvafiq peşə-ixtisas təlimləri proqramlarının təhsil müəssisəsinin məzunlarına adekvat ixtisas səviyyəsinin verilməsidir. Kvalifikasiyaların sertifikatlaşdırılması peşə və ixtisasların, işgüzar keyfiyyətlərin və peşə bacarıqlarının tanınmasıdır.

Səriştələrin sertifikatlaşdırılmasını müəyyən edən sənədlər 2020-ci ildə NK tərəfindən təsdiq edilmiş və tanınma mexanizminin yaradılması bu sənəddə öz əksini tapmışdır (https://e-qanun.az/framework/43855, 2019).

Bu sənəd əsasında əmək bazarına daxil olanların bilik və bacarıqlarının qiymətləndirilməsi və tanınması sistemi müvafiq peşə standartlarına əsaslanır.

Kadrların inkişafı strategiyasının perspektivi, kadrlara olan ehtiyacın planlaşdırılması, karyeranın idarə edilməsi, peşəkar inkişafın təmin edilməsi, məsləhət və təlim prosesinin məqsədli təşkili, mütəxəssislərdə təşkilat mədəniyyətinin formalaşdırılması üçün sistemləşdirilmiş tədbirlər

kompleksindən ibarətdir.

Peşə standartlarından istifadə işçilərin təhsil aldıqları andan və bütün karyeraları boyunca onların bilik və qabiliyyətlərinin qiymətləndirilməsi və müvafiq peşə bacarıqlarının davamlı inkişafı yolu ilə onların səlahiyyətlərinə vahid tələblər müəyyən etməklə biznesin səmərəliliyini artırmağa imkan verir.

**İqtisadi Böhran Risklərinin İdarə Edilməsi, Tənzimlənməsi və Böhran Risklərindən Qorunma Strategiyaları**

Azərbaycanda böhran risklərinin idarə olunması və tənzimlənməsi üçün müxtəlif struktur qurumlar, siyasət tədbirləri və iqtisadi böhrandan qorunma strategiyaları mövcuddur. Bu struktur qurumlar müxtəlif maliyyə, iqtisadiyyat, energetika, ticarət və s. sahələrdə fəaliyyət göstərən dövlət təşkilatları, tənzimləyici orqanlar, və s. misal göstərə bilərik. Bu qurumlar böhran risklərinin analizini, təhlilini və idarə olunmasını həyata keçirərək, böhranın təsirini azaltmaq üçün fəaliyyət göstərməkdədir.

Aparılan islahatlar baxımından Azərbaycan hökuməti, iqtisadi böhran risklərinin idarə olunması üçün müxtəlif tədbirlər və qanunverici addımlar atır. Bunlara maliyyə sistemi stabilliyinin qorunması, iqtisadiyyatın dəyişən şəraitə cavab verməsi, vergi sahəsində reformlar, iqtisadi diverifikasiya, təşəbbüsçülüyü dəstəkləmək, investisiya təşviqi və s. daxil etmək olar.

AR Mərkəzi Bankı və fiskal siyasətin tənzimlənməsi ilə məşğul olan digər qurumlarla antiböhran idarəedilməsi tədbirləri formalaşdırılır. AMB maliyyə sistemi ilə əlaqəli riskləri təhlil edir, mərkəzi bank dövriyyəsi, məzənnə siyasəti və digər maliyyə sistemləri ilə bağlı tədbirləri həyata keçirir.

Dövlət Statistika Komitəsi iqtisadi statistik məlumatların toplanması, analiz edilməsi, təşkilatçılığı və təqdim edilməsi ilə məşğuldur və iqtisadiyyatın dəyişən şəraitini qiymətləndirərək böhran risklərini daha yaxşı anlamağa kömək edir.

Antiböhran tədbirlərindən biri də böhran risklərindən qorunma startegiyalarıdır ki, Azərbaycan üzrə onları aşağıdakı başlıqlarda təsnifləşdirmək olar.

**İqtisadiyyatın diversifikasiyası strategiyası**

Azərbaycan neft və qaz sektoru ilə yanaşı digər sahələrdə də iqtisadi fəaliyyətə diqqət yönəldərək iqtisadiyyatın şaxələndirilməsinə çalışır. Buraya aiddir, sənaye, texnologiya, kənd təsərrüfatı, turizm, nəqliyyat və digər sektorlarda inkişafın dəstəklənməsi, həmçinin ölkə iqtisadiyyatının neft və qazdan asılılığı riskinin azaldılması dəstəkləyir.

**İnvestisiya təşviqi strategiyası**

Azərbaycan, yerli və xarici investorları özəl sektorun inkişafına cəlb etmək üçün investisiya təşviqi tədbirləri həyata keçirir. Bu yatırımların artırılması, yeni sahələrə investisiyaların cəlb edilməsi, infrastrukturun inkişafı və digər layihələr vasitəsilə iqtisadiyyatın alternativ mənbələrə daha asan uyğunlaşmasını təmin etməkdədir.

**İxrac diversifikasiyası strategiyası**

Azərbaycan xarici ticarətin diversifikasiyasına da diqqət edir. Yeni xarici bazarları axtarmaq, müxtəlif məhsul və xidmətlərə fokuslanmaqla ticarət balansını qorumağa çalışır.

**Fiskal siyasət tədbirləri**

Fiskal siyasətlə dövlət büdcəsinin idarə olunması, vergi siyasəti, borcun nəzarət edilməsi və digər fiskal tədbirlər həyata keçirilməkdədir. Azərbaycan, maliyyə siyasəti və vergilər vasitəsilə fiskal stabilliyini təmin etməyə və iqtisadi böhrandan qorunmağa çalışır. Bu tədbirlərə daxildir: büdcəni idarə etmək, gəlir və xərclər arasındakı balansı qorumaq, borcları effektiv idarə etmək və vergilərin düzgün tətbiq edilməsini təmin etmək.

**Nəticə**

Antiböhran idarəetməsinin daha səmərəli və effektiv ola bilməsi üçün böhranların

proqnozlaşdırılması üzrə mümkün addımları zərurəti yaranmışdır.

Ölkə üzrə böhran risklərini qiymətləndirmək və proqnozlaşdırma üçün kritik dönəmlərdəki iqtisadi göstəricilərin statistikasına nəzər salmaq və müqayisəli təhlil aparmaq olar. Həmçinin qeyd etməliyik ki, erkən böhran siqnallarını və onların ölkə iqtisadiyyatına təsir kanallarını müəyyən etmək əhəmiyyətli antiböhran tədbirlərindən hesab edilir. Əksər hallarda, iqtisadi böhran vəziyyətində dövlətin iqtisadiyyata müdaxiləsi qaçılmaz bir vəziyyət olur.

2008-2009-cu il əsasən maliyyə böhranı kimi xarakterizə olunur, 2015-2016-cı illərdə isə neft qiymətlərinin uzuclaşması fonunda neftdən asılı olan ölkələrin böhranlı vəziyyətlə üzləşməsini müşahidə etdik.

Tədqiqat apararkən statistik göstəricilərə dayanaraq bu nəticəyə gəlinmişdir ki, böranlı şəraitdə əsas makroiqtisadi risk faktorları aşağıdakılardır:

- ÜDM-in artım tempi
- Adambaşına düşən real gəlirlər
- İnflyasiya səviyyəsi
- Maliyyə stabilliyi
- Tədiyə balansı göstəriciləri
- Xarici borcun ÜDM-də payı
- Ölkənin idxaldan və neft sənayesindən asılılıq dərəcəsi və s. kimi sadalamaq olar.

Böhranın ağır nəticələrindən qorunmaq üçün ölkənin neftdən asılılığını azaldaraq iqtisadiyyatın şaxələndirilməsi siyasətini həyata keçirmək ən vacib addımlardan biridir. Həmçinin, ölkənin investisiya cəlbediciliyini artıraraq xarici investorlardan pul axınını təmin etmək olar. Buna nail olmaq üçün ölkədə vergi islahatları aparmaq, həmçinin sahibkarlığın təşviq edilməsi yönündə güzəştlər təmin etmək də mümkündür.

Bundan əlavə olaraq Azərbaycanın təbii coğrafi mühiti imkan verir ki, intensiv üsulla kənd təsərrüfatının inkişafı üçün addımlar atılsın. Həmçinin, turizm və xidmət sektorunun da inkişaf etdirilməsi yönündə işlər görülə bilər.

Hal-hazırda dünyada qloballaşma prosesi sürətlə getdiyindən baş verən proseslər də regionlararasında sürətlə yayılır və bir-birinə təsirsiz ötüşmür. Buna görə də qlobal böhranın təsirlərindən tam yan keçmək mümkün olmasa da ölkənin əsas risk faktorlarını müəyyən edərək qorunma addımları və strategiyalarını tətbiq etmək lazımdır.

**Ədəbiyyatlar**


Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az (18.04.2023)

Azərbaycan Respublikasının Mərkəzi Bankı, www.cbar.az (18.04.2023)

M.C. Atakişiyev, H.M. Abbasov və N.H. Abbasova. (2010). Mikro və Makroiqtisadiyyat.

Franklin A., Douglas G. (2000). Bubbles and Crises. The Economic Journal, Vol. 110, No. 460, 236-255

Krugman, P. (1979). A Model of Balance of Payments Crises. Journal of Money

Goldstein, M., Turner, P. (1996). Banking crises in emerging economies: origins and policy options, Trade Currencies and Finance
Fatih Y., Hüseyin K. (2010). Finansal Krizlerin Öncü Göstergeleri ve Ülke Ekonomilerini Etkileme Kanalları: Türkiye Örneği, Maliye Dergisi, Sayı 159
Eichengreen, B., Rose, A.Wyplosz, C. (1995). Exchange Market Mayhem: The Antecedents and Aftermath of Speculative Attacks, Economic Policy,No. 21, 251-312.
Avcı M.A., Altay N.O. (2013). Finansal Krizlerin Sinyal Yaklaşımı ile Öngörülmesi: Türkiye, Arjantin, Tayland ve İngiltere İçin Bir Analiz. Pamukkale Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi
M. Drehmann, M. Juselius. (2013). Do debt service costs affect macroeconomic and financial stability? BIS Quarterly Review
M. Drehmann, M.C. Borio, K.Tsatsaronis (2011). Anchoring countercyclical capital buffers: The role of credit aggregates, International Journal of Central Banking
Gourinchas, P-O., M. Obstfeld. (2012). Stories of the twentieth century for the twenty-first, American Economic Journal: Macroeconomics, 4, 226-265.
Jorda, O., M. Schularick and A. M. Taylor. (2011). Financial crises, credit booms, and external imbalances: 140 years of lessons, IMF Economic Review, 59, 340-378.
Reinhart, C. M., K.S. Rogoff. (2009). This time is different: Eight centuries of financial folly, Princeton University Press, Princeton and Oxford

# Rəqəmsal Transformasiya Prosesində İstifadəçi Şifrələrinin Təhlükəsiz Saxlanmasının Təmin Olunması

**Rəcəb Əsgərzadə**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**recebesgerzade123@gmail.com**

## Xülasə

Müasir iqtisadi mühitdə ən çox müzakirə olunan məsələlərdən biri də şirkətlərin rəqəmsal transformasiyasıdır. Sözsüz ki, texnologiyanın hazırki inkişaf səviyyəsi nəzərə alınarsa, özəl və dövlət müəssisələrində əhaliyə göstərilən xidmətlərin rəqəmsallaşdırılması artıq dönəmin inkaredilməz tələbinə çevrilmişdir. Araşdırmada ilk olaraq, rəqəmsal transformasiya termininin nəyi ifadə etdiyinə və bu sahədəki Avropaya, ABŞ-yə aid olan statistik göstəricilərə baxılır. Yazıda COVİD-19 pandemiyasının rəqəmsal transformasiya sferasına təsiri araşdırılır. Həmçinin rəqəmsallaşma prosesinin müəssisə və biznes üçün gətirdiyi faydalara nəzər salınır. Məqalədə məhz rəqəmsal transformasiya prosesində qarşılaşılan bir sıra problemlər aydınlaşdırılır. Ən vacib məsələlərdən olan informasiya təhlükəsizliyinin əhəmiyyətinə baxılır. İnformasiya təhlükəsizliyinin ayrı-ayrı aspektlərinə nəzər salınır. Rəqəmsal transformasiya zamanı informasiya təhlükəsizliyi baxımından yarana biləcək boşluqlara aydınlıq gətirilir. Təhlükəsizliyin ayrılmaz elementlərindən olan autentifikasiya prosesində istifadə edilən rekvizitlər təhlil olunur. Ən çox üstünlük verilən autentifikasiya rekviziti olan şifrələrin informasiya təhlükəsizliyində oynadığı rol müəyyən edilir. Məqalənin ikinci hissəsində şifrələrin server kompüterlərindəki fayllarda təhlükəsiz formada saxlanılmasının müasir yolları araşdırılır. Autentifikasiyada yeni texnologiya hesab olunan şifrə uzantılarının necə tətbiq olunması və gələcək prespektivləri təhlil olunur.

**Açar sözlər:** Rəqəmsallaşma, İnformasiya təhlükəsizliyi, Şifrələrin mühafizəsi, Heş funksiyalar, Şifrə uzantıları

## Abstract

One of the most discussed issues in the modern economic environment is the digital transformation. If the current level of technology development is taken into account, digitization of services provided to the population in private and state enterprises has already become an undeniable requirement of the era. First, the research examines what the term digital transformation means and the statistical indicators in this field in Europe and the USA. The article looks at the benefits of the digitization process for the organization and business. Also, the impact of the COVID-19 pandemic on the sphere of digital transformation is investigated. The article clarifies a number of problems encountered in the process of digital transformation. The importance of information security is considered. Individual aspects of information security are reviewed. Gaps that may arise in terms of information security during digital transformation are clarified. Credentials used in the authentication process are analyzed. The role played by passwords, the most preferred credential, in information security is determined. The second part of the article examines modern ways of storing passwords in a secure form in files on servers. How password salts, a relatively new technology in authentication, are applied and their future prospects are analyzed.

**Keywords:** Digitization, Information security, Password protection, Hash functions, Password salts

## Giriş

**Mövzunun aktuallığı:** Rəqəmsal transformasiya texnoloji tərəqqi vəd edən gələcəyin təkzibedilməz elementlərindən biridir. Müasir dönəmdə iqtisadiyyatda bazar şərtləri xeyli dəyişmişdir. Artıq müştərilərə ənənəvi üsullarla xidmət göstərmək biznesin uğur qazanması üçün kifayət etmir. İnsanlar indi rəqəmsal xidmətlərdən istifadə etməyə daha meyillidir. Xüsusən də, ən

yaxın tarixdə baş verən pandemiya rəqəmsallaşmanı olduqca sürətləndirmiş və miqyasını genişləndirmişdir. Lakin bu istiqamət yeni formalaşdığından rəqəmsal transformasiyanı həyata keçirmənin hələ ki vahid formulu yoxdur. Buna görə də müəssisələr sözügedən proses müddətində səhvlərə yol verə bilir. Ən ciddi yanlışlıqlardan biri də informasiya təhlükəsizliyinin lazımi səviyyədə təmin oluna bilməməsidir. Bu baxımdan rəqəmsallaşma prosesində məlumatların qorunmasının etibarlı təşkili üçün təhlükəsizliyin müxtəlif aspektlərilə bağlı elmi araşdırmalar aparılmalıdır. Önəmli məsələlərdən biri də istifadəçi şifrələrinin təhlükəsiz formada saxlanmasıdır. Çünki rəqəmsal şirkət müştərilərinin ona etibar etdiyi şifrələri bədniyyətlilərin bütün ələ keçirmə cəhdlərindən qorumalıdır. Buna görə də şifrələrin serverlərdə təhlükəsiz formada saxlanması mövzusu hazırda elmi baxımdan kifayət qədər aktualdır.

**Tədqiqatın məqsədi:** Tədqiqatın əsas məqsədi şirkətlərin müştərilərə göstərdiyi xidmətləri rəqəmsallaşdırması prosesində qarşılaşdığı, əsasən informasiya təhlükəsizliyi ilə əlaqəli problemlərin öyrənilməsi, vacib məsələlərdən olan autentifikasiya və şifrələrin serverlərdə saxlanması üsullarının araşdırılmasıdır.

**Tədqiqatın vəzifəsi:** Tədqiqatın vəzifəsi autentifikasiya rekviziti hesab edilən şifrələrin server kompüterlərində etibarlı şəkildə saxlanılmasının uyğun yollarının müəyyən edilməsidir.

**Tədqiqatın metodologiyaları:** Tədqiqatın metodologiyası sistemə giriş əldə olunması üçün istifadə edilən şifrələrin təhlükəsiz formada saxlanmasının təminini əhatə edir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqatın əsas məhdudiyyəti Azərbaycan dilində elmi ədəbiyyatın azlığı ilə bağlıdır. Tədqiq olunan sahənin kifayət qədər gənc olması da yeni araşdırmaların aparılmasında bəzi məhdudiyyətlər törədir.

**İstinad olunan mənbələr:** Bu sahə ilə əlaqədar əsasən də yaxın dönəmdə aparılan araşdırmalara, dərc edilən elmi ədəbiyyata baxılaraq tədqiqatda istifadə olunan mənbələr kimi ədəbiyyat siyahısında göstərilmişdir.

## Rəqəmsal Transformasiya Prosesi

Rəqəmsal transformasiya dedikdə müəssisələrin rəqəmsal olmayan məhsul, xidmət və prosesləri rəqəmsal etmək məqsədilə informasiya texnologiyalarını qəbul etməsi başa düşülür (Vial, 2019). Bəzi müəlliflər rəqəmsal transformasiyaya sosial-texniki proqram kimi yanaşırlar (Butt, Imran, Helo, Kantola, 2021). Hazırda dünyada müştərilərə göstərilən xidmətlərin, aparılan əməliyyatların rəqəmsallaşdırılmasına ciddi meyl var. Eyni zamanda, bu istiqamətdə böyük maddi resurslar sərf olunur. Təsadüfi deyildir ki, Avropa İnvestisiya Bankının hazırladığı hesabatda göstərilir ki, 2020-ci ilə aid statistikaya görə Avropadakı şirkətlərin 37 faizi, Amerika Birləşmiş Ştatlarındakı şirkətlərin isə cəmi 27 faizində rəqəmsal texnologiyaların hansısa formasından istifadə olunmur (Avropa İnvestisiya Bankı, 2021). Qalan bütün müəssisələrdə isə göstərilən xidmət və əməliyyatların rəqəmsallaşdırılması bu və ya digər səviyyədə həyata keçirilmişdir. Sözügedən statistika 3 il əvvələ aid olduğundan hazırda rəqəmsallaşma istiqamətində heç bir addım atmayan şirkətlərin sayının daha da azaldığını düşünmək olar. Bundan savayı, müəssisələrarası münasibətlərdə də rəqəmsallaşmanın təsiri özünü göstərir. Artıq təşkilatlar öz aralarında əlaqə yaratmaq üçün daha çox rəqəmsal texnologiya vasitələrinə üstünlük verir.

## COVİD-19 pandemiyasının rəqəmsallaşmaya təsiri

2020-ci ildə dünyanı ağuşuna alan COVİD-19 pandemiyasının bizneslər arasında rəqəmsal transformasiyaya olan marağı daha da artırması faktdır. Belə ki, aparılan sorğuda Avropada

fəaliyyət göstərən müəssisələrin 55 faizi pandemiya nəticəsində rəqəmsal transformasiyanın daha vacib hala gəldiyini, 46 faizi pandemiya dönəmində əvvəlki vaxta nisbətən daha çox rəqəmsallaşdığını qəbul edib. Bu təsir böyükmiqyaslı şirkətlərdə özünü daha qabarıq göstərib. Belə ki, pandemiya dövründə iri şirkətlərin 54 faizi, mikroşirkətlərin isə cəmi 30 faizi rəqəmsallaşma istiqamətində addımlar atıb (Avropa İnvestisiya Bankı, 2022). Başqa bir sorğunun nəticələrinə görə isə, Avropa İttifaqına daxil olan ölkələrdə fəaliyyət göstərən şirkətlərin 53 faizi rəqəmsallaşmanın tətbiqi baxımından ya hansısa formada addımlar atdığını, ya da ki bu sahəyə sərmayə yatırdığını təsdiq edib (McKinsey, 2022).

Əksər müəssisələr artıq bu danılmaz həqiqəti qəbul edib ki, rəqəmsallaşmaya çəkilən xərclər ilk mərhələlərdə çox görünsə belə, ümumilikdə maliyyə itkisinə səbəb olmur. Əksinə, uzunmüddətli prespektivdə iqtisadi rəqabət mühitindəki həmin müəssisəyə xeyli üstünlüklər qazandırır. Üstəlik, gec, ya tez demək olar ki, bütün təşkilatların rəqəmsallaşmaya meyil edəcəyi gözlənilir. Bu baxımdan qabaqcıllardan olmaq hər zaman faydalıdır. Aparılan sorğu müəyyən etmişdir ki, müəssisə rəhbərlərinin böyük çoxluğu pandemiya böhranının təsirləri barədə danışarkən nəticədə əvvəlki dönəmə nisbətən maliyyə sərfindəki ən ciddi artımın məhz rəqəmsal transformasiya təşəbbüslərinə aid olduğunu bildirir (McKinsey, 2022).

**Rəqəmsal transformasiyanın şirkət üçün faydaları**

Aydındır ki, rəqəmsallaşmanın biznesə böyük faydası dəyə bilər (Heinze, Griffits, Fenton, Fletcher, 2018). Bu transformasiyanı müxtəlif müəssisələr fərqli yollarla həyata keçirə bilər. Rəqəmsallaşma zamanı əməliyyatların həyata keçirilməsi üçün bulud platformalarından, data analitikadan, daşına bilən və ya mobil qurğulardan və s. istifadə edilir. Rəqəmsal transformasiya prosesi şirkətləri rəqiblərilə müqayisədə texnoloji səviyyədə üstünlüklər qazanmasının yollarını axtarmağa, zaman keçdikcə daha çox riskə getməyə vadar edir (Kane, Palmer, Phillips, Kiron and Buckley, 2015). Rəqəmsal transformasiya prosesinə sərmayə yatırmaq COVİD-19 kimi qlobal miqyaslı gözlənilməz hadisələrin baş verdiyi şəraitdə belə biznesin həyatda qalmasına, müştərilərlə qarşılıqlı əlaqəsinin ən azından əvvəlki formada saxlanmasına da öz faydasını verir (Avropa İnvestisiya Bankı, 2022). Təsadüfi deyil ki, iqtisadiyyat sektoru üçün ağır sınaq olan pandemiyadan üzüağ çıxan təşkilatların çoxu məhz rəqiblərində olmayan, yeni texnoloji imkanlara və rəqəmsal xidmət təcrübəsinə malikdir (McKinsey, 2022).

Rəqəmsallaşma müştərilərə xidmət təklif edən müəssisələrin müasir bazar şərtlərində ayaqda qalması üçün ən uyğun yollardan birinə çevrilib. Təsadüfi deyildir ki, müvafiq sorğuda iştirak edən şirkətlər arasında hazırda müştəri bazası ilə qarşılıqlı əlaqələrinin 80 faizindən çoxunu məhz rəqəmsal texnologiyalar vasitəsilə həyata keçirdiyini bildirənlərin sayı əvvəlki dövrə nisbətən 3 dəfə artmışdır (McKinsey, 2022). Əlbəttə ki, sözügedən statistikanın qeydə alınmasında son dönəmlər elektron ticarət kimi sırf onlayn xidmətlərin göstərilməsiylə məşğul olan təşkilatların sayının artması da önəmli rol oynayır. Belə rəqabət şəraitində demək olar ki, müştərilərə göstərdiyi xidmətlərin onlayn formada analoqunu təklif etməyən şirkətlərin bazarda uğur qazanması şansı get-gedə daha da azalır.

Rəqəmsal transformasiya müəssisənin işçiləri prespektivindən də faydalıdır. 22-60 yaş qrupuna aid insanların böyük əksəriyyəti rəqəmsallaşmanı uğurla həyata keçirən şirkətlərdə çalışmağa daha çox meyillidir. Belə ki, müştərilərinə təklif etdiyi xidmətləri tam şəkildə rəqəmsallaşdıran müəssisələrin öz işçilərinə lazımi bacarıqları qazandırması şansı digər müvafiq iş yerlərinə nisbətən 4 dəfə daha yüksəkdir (Kane et., 2015). Bütün bunlardan əlavə, yaddan çıxarmaq olmaz ki, rəqəmsal transformasiya hələ ki olduqca gənc istiqamətdir və makroiqtisadi səviyyədə təhlil oluna bilməsi

üçün mütəxəssislərin əlində kifayət qədər verilən yoxdur. Buna görə də indi sözügedən prosesin şirkətlərə göstərdiyi ümumi təsir barədə konkret nəsə söyləmək üçün tezdir (Kretschmer & Khashai, 2020).

**Rəqəmsal Transformasiya Prosesindəki Həll Edilməli Əsas Məsələlər**

Rəqəmsal transformasiyanın populyarlıq qazanması onu həyata keçirən müəssisələrin həll etməli olduğu bir neçə vacib məsələni də özü ilə gətirdi. Həmin məsələlərə biznes proseslərinin süni intellekt sayəsində avtomatlaşdırılması, rəqəmsallaşmada bulud texnologiyalarından istifadə, uzaq məsafədən işləmə praktikasının normallaşdırılması, süni intellekt alqoritmləri sayəsində öyrənmənin tətbiqi və başqaları aid edilə bilər (Overby, 2022). Lakin diqqət edilməli məqamlar arasında bəlkə də ən vacibi informasiya təhlükəsizliyidir. Çünki informasiya təhlükəsizliyi rəqəmsal transformasiya prosesinin reallaşdırılmasından sonra düşünüləcək bir məsələ deyil. Təhlükəsizliyi təmin etmək problemi bütün rəqəmsallaşma prosesi boyunca diqqətdə saxlanmalıdır.

İnformasiya təhlükəsizliyinin təmini üçün tövsiyə edilən əsas addımlar verilənlərin bütün həyat dövrü boyunca şəffaflığının təmini, məlumatların mütəmadi qaydada yedəklənməsi və ya ehtiyat surətinin çıxarılması, resurslara müraciətlərin cavablandırılması üçün imtiyazların verilməsi sisteminin effektiv idarə olunmasıdır (Lambert, 2023). Sözsüz ki, rəqəmsal transformasiya ucuz başa gəlmir. Əksər təşkilatlar bu prosesin planlaşdırılmasına və həyata keçirilməsinə əhəmiyyətli dərəcədə böyük məbləğlər xərcləyirlər. Burada əsas maliyyə vəsaiti texnoloji avadanlıqların və lisenziyalı proqram təminatlarının alınmasına, rəqəmsal transformasiya üzrə mütəxəssislərin və ya bu sahədə ixtisaslaşmış şirkətlərin işə cəlb olunmasına, serverlərin saxlanmasına, müştərilərə onlayn xidmət göstəriləcək veb-saytın və ya xüsusi platformanın yaradılmasına, işçilərə rəqəmsal texnologiyalarla çalışma bacarığının artırılması üçün təlimlərin keçirilməsinə sərf olunur. Belədə informasiya təhlükəsizliyi və kiberhücum riskləri daim nəzərə alınmalıdır. Çünki informasiya əsrində vacib müştəri verilənlərinin itirilməsi müəssisəyə təkcə maddi baxımdan ziyan vurmur. Həmçinin bazarda, müştərilər arasında illər boyunca qazanılan reputasiyaya da mənfi təsir edir.

Müəssisə təhlükəsizlik risklərini öncədən dəyərləndirməli, fəaliyyət planını buna uyğun qurmalıdır. Qloballaşmadan qaynaqlanan təhdidlərlə mübarizədə ən ciddi addım təşkilatın işçilərinin və istifadəçilərin maarifləndirilməsidir. Lakin bu elə də sadə proses deyil. İnsanların bir hissəsi 5G, süni intellekt, bulud hesablamaları, verilən bazaları tipli texnoloji terminlərin nəyi ifadə etdiyini dəqiq bilmir (Andrukonis, 2023).

**Rəqəmsal transformasiyada informasiya təhlükəsizliyi**

Rəqəmsallaşma prosesində informasiya təhlükəsizliyinin müasir tələblərinə riayət olunması transformasiyanın uğurla həyata keçirilməsinin ilkin şərtlərindən biridir. İnformasiya təhlükəsizliyinin tələbləri kifayət qədər geniş çeşidli və çoxsaylıdır. Onların tətbiqində başlıca məqsəd məlumatların bütün həyat dövrü ərzində təhlükəsizliyinin qorunmasıdır. İnformasiyanın həyat dövrünə onun əldə olunması, toplanması, emal edilməsi, təhlili, yaddaşda saxlanması, ötürülməsi və məhv edilməsi dövrləri aiddir (Lambert, 2023). Məlumdur ki, rəqəmsallaşma şirkətin müştərilərinə təqdim etdiyi xidmətlərin eyni zamanda qlobal şəbəkə olan internet vasitəsilə də göstərilməsi təşəbbüsüdür. Çünki potensial olaraq dünyanın istənilən nöqtəsində ola bilən müştərilərin hər birinə rəqəmsal xidmətlərin göstərilməsi problemi yalnız bu cür qlobal miqyaslı şəbəkənin vasitəsilə həll oluna bilər. İnternet mühitinə daxil olan istənilən informasiyanın isə təhlükəsizliyi ilə bağlı risklər yaranır.

**Autentifikasiya Rekvizitləri**

Göründüyü kimi, rəqəmsallaşma prosesində informasiya təhlükəsizliyi ilə bağlı diqqət edilməli məsələlər kifayət qədərdir. Onlardan biri də müştərilərin və ya başqa sözlə desək, şəbəkə istifadəçilərinin identifikasiyası və autentifikasiyasıdır. İdentifikasiya istifadəçinin kimliyinin bildirilməsi, autentifikasiya isə iddia edilən kimliyin düzgünlüyünün yoxlanması prosesidir. Bir və ya bir neçə mərhələdən ibarət ola bilən autentifikasiya prosesində kimliyi barədə iddia irəli sürən şəxsin bu iddiasının doğru olub-olmadığı yoxlanılır və proses ya müsbət, ya da mənfi nəticə ilə yekunlaşır. Praktikada geniş istifadə olunan ən sadə nümunədə identifikasiya vasitəsi olaraq istifadəçi adından, autentifikasiya rekviziti kimi isə şifrədən istifadə olunur. Belədə, şəbəkəyə giriş etmək üçün şəxs həm istifadəçi adını, həm də həmin adla əlaqəli serverdə yadda saxlanan şifrəni daxil etməlidir. Bu, 1 mərhələli autentifikasiyaya nümunədir və autentifikasiyanın ən zəif forması hesab olunur. 1 mərhələli autentifikasiya sui-istifadədən və bədniyyətlilərin müdaxiləsindən qorunmanı elə də yüksək səviyyədə təşkil edə bilmir (Turner, 2016). 2 və ya daha çox mərhələdən ibarət autentifikasiyada isə istifadəçi adı və şifrə kombinasiyasından savayı şəxsin identifikasiyasını təsdiqləmək üçün əlavə 1 və ya bir neçə autentifikasiya rekviziti tələb olunur. Bu rekvizit fərdə aid tanınma kartı, biometrik xarakteristika(barmaq izi, səs izi, sifət cizgiləri və s.), PİN-kod, smartfonuna göndərilən bildiriş və s. ola bilər. Müəssisələrin rəqəmsallaşma prosesində çoxmərhələli autentifikasiyadan istifadə edilməsi daha məqsədəuyğundur (Lambert, 2023).

**Şifrələr**

İnformasiya Texnologiyaları sahəsində şifrə dedikdə autentifikasiya məqsədilə istifadə olunan müəyyən simvollar ardıcıllığı nəzərdə tutulur. Təbii ki, istənilən şifrəyə xas olan ilkin xüsusiyyət onun mütləq gizli saxlanmasının önəmidir. Belə ki, özünün hansısa hesabı üçün şifrə yaradan şəxs onu heç bir halda başqasına deməməlidir. Şifrədə ərəb rəqəmləri, müxtəlif əlifbaların böyük və kiçik registrli hərfləri və durğu işarələrindən istifadə oluna bilər. Simvolların ixtiyari ardıcıllığını şifrə kimi təyin etmək olar. Mütəxəssislərin tövsiyəsinə görə yaxşı olar ki, şifrələr mənasız sözlərdən yaradılsın. Bəzən istifadəçilər daha asan yadda qaldığına görə müəyyən mənaya sahib simvollar ardıcıllığını şifrə kimi təyin edirlər. Lakin unutmaq olmaz ki, şifrənin istifadəçi tərəfindən yadda saxlanması nə qədər asandırsa, bədniyyətlinin onu müəyyənləşdirməsi də bir o qədər sadə olacaq (Vance, 2010). Əgər istifadəçi tamamilə təsadüfi simvolların kombinasiyasından əmələ gələn şifrəni yadında saxlamağa çətinlik çəkirsə, onda tövsiyə edilir ki, bir-biri ilə qətiyyən əlaqəsi olmayan mənalı sözlərin birləşməsindən və ya mənalı sözdəki 1-2 simvolun dəyişməsi nəticəsində yaranan şifrələrə üstünlük verilsin. Bu üsullarla həm lazımi qədər mürəkkəb, həm də uzun və müəyyən olunması çətin şifrələr yaradıla bilər. İnsan beyni belə şifrələri təsadüfi simvollar ardıcıllığına nisbətən daha yaxşı yadında saxlayır (Whitman & Mattord, 2014).

Təhlükəsizliyin qorunması naminə şifrələrin heç yerə yazılmaması, istifadəçilər tərəfindən sadəcə yadda saxlanması klassik tövsiyədir (Ranjan & Om, 2016). Lakin rəqəmsal texnologiyalar inkişaf etdikcə bu tövsiyəyə riayət etmək daha da çətinləşir. Çünki digər bir klassik tövsiyədə deyilir ki, insanlar hər bir hesabı üçün fərqli şifrədən istifadə etməlidirlər. Başqa sözlə, 1 şifrə yalnız 1 hesaba aid ola bilər. Belə nəticə alınır ki, müasir istifadəçilər bütün şifrələrini şifahi şəkildə yadda saxlamalıdırlar. Bu isə söyləndiyi qədər asan deyil. Çünki tədqiqatlar göstərir ki, əsasən də son illərdə adi istifadəçiyə aid olan şifrələrin sayı kəskin artıb. Məsələn, 2020-ci ildə aparılan bir araşdırmaya görə, ortalama bir istifadəçi 100 müxtəlif şifrəyə sahibdir (NordPass, 2020). Şifrələrin yadda saxlanmasını çətinləşdirən başqa bir amil isə onların müəyyən müddətdən bir dəyişdirilməsi barədə tövsiyədir. Olduqca uzun müddət şifrələrin 30, 60 və ya 90 gündən bir dəyişdirilməsi

məsləhət görülürdü. Lakin çox çəkmədi ki, şifrələrin belə tez-tez yenilənməsi bir sıra müəssisələrdə ciddi problemlər yaratmağa başladı (Hammond, 2020). Bunun da sadə səbəbi vardı. Çünki onsuz da çoxsaylı şifrələri yadda saxlamaq insanlara çətin gəlirdi, üstəlik onların tez-tez dəyişdirilməsi bu çətinliyi daha da artırırdı. Bu təşəbbüs heç də gözlənildiyi kimi istifadəçi hesablarının təhlükəsizliyini artırmadı, əksinə, mühafizə sisteminə zərər vurdu. Çünki istifadəçilər öz şifrələrini nə qədər tez-tez dəyişməli olsalar, onların şifrədə etdiyi modifikasiya bir o qədər cüzi olacaq. Həmçinin istifadəçi daha asan yadda qaldığı üçün növbəti dəfə qısa, sadə şifrə seçiminə üstünlük verə bilər. Bu kimi səbəblərə görə, ən son tövsiyələrdə göstərilir ki, təhlükəsizlik pozuntusu baş verməyibsə, eyni şifrədən daha uzun müddət istifadə etmək olar (Hammond, 2020).

**Heş funksiyalar**

Rəqəmsallaşmada əsas şərtlərdən biri də istifadəçilərin yalnız kimliyinin yoxlanılmasından sonra resurslara daxil olmasına icazə verilməsidir ki, bu da autentifikasiya sayəsində həyata keçirilir. İstifadəçilərin identifikasiyasını təsdiqləmək işini uğurla və sürətlə həyata keçirmək üçün autentifikasiya rekvizitləri haqqında məlumatlar, adətən, server kompüterlərində saxlanılır. Lakin istifadəçi şifrələrinin olduğu kimi server kompüterində yaradılmış xüsusi faylda saxlanılması çox riskli hal hesab edilir və təhlükəsizlik baxımından qətiyyən məsləhət görülmür. Çünki belə olduqda şifrə faylına hansısa yolla giriş əldə edə bilən bədniyyətli asanlıqla sistemdəki bütün mövcud hesabların şifrələrini ələ keçirəcəkdir. Bu səbəbdən bir sıra hallarda şifrələrin özü deyil, heş funksiya ilə hesablanmış heş-kodu serverin yaddaşında saxlanılır. Sözügedən proses kifayət qədər sadədir: istifadəçinin hesabına daxil olmaq üçün müəyyənləşdirdiyi simvollar ardıcıllığı götürülür, müəyyən heş-alqoritmlə bu ifadənin heş-kodu hesablanır və istifadəçi hesabının adı ilə yanaşı məhz bu kod serverdəki faylda saxlanılır. Həmin hesaba giriş etmək istəyən istifadəçidən isə uyğun şifrə tələb edilir və daxil edilən simvollar ardıcıllığının eyni heş-alqoritmlə heş-kodu hesablanır. Ardından bu kod server faylındakı heş-kodla müqayisə edilir və autentifikasiya tamamlanır. Əgər müqayisənin nəticəsində kodların eyni olduğu aşkarlanarsa, onda müraciətçinin həmin istifadəçi hesabı adı ilə sistemə daxil olmasına icazə verilir. Əks halda isə müraciət rədd edilir. Heş funksiyaların qiyməti unikaldır və ilkin veriləndəki bir simvolun dəyişməsi belə alınan heş-kodda əhəmiyyətli dəyişikliklərə səbəb olur. Belə olan təqdirdə, serverdəki faylı ələ keçirən bədniyyətli istəsə belə, heş-kodlar vasitəsilə orijinal şifrələri hesablaya bilmir. Çünki heş funksiyalar birtərəflidir. Yəni, onun aldığı qiymətdən istifadə edərək real vaxt ərzində arqumentini müəyyən etmək riyazi cəhətdən mümkün deyil.

**Şifrə Uzantıları(Password Salts)**

Lakin bəzən şifrələrin təhlükəsizliyi sistemində sadəcə heş funksiyalar və heş-kodlardan istifadə edilməsi üsulu belə praktikada yetərli müdafiəni təmin etmək üçün kifayət olmur. Məsələn, bir neçə istifadəçi bir-birindən xəbərsiz olaraq eyni simvollar ardıcıllığını öz hesabının şifrəsi kimi təyin edibsə(halbuki dünyaca populyar olan şifrələrdən hesablarda istifadə olunması qətiyyən tövsiyə edilmir), onda serverdəki şifrələrin saxlandığı faylda eyni heş-koda malik bir neçə sətir olacaq. Bu isə sistemdə istifadə olunan konkret heş-alqoritmdən xəbərdar olan bədniyyətlinin hesab şifrələrini əldə etməsi şansını artırır. Belə ki, şübhəhiz, bədniyyətli şəxs insanlar arasında məşhur olan şifrələr barədə məlumatlıdır. Lap məlumatlı olmasa belə, adi araşdırma apararaq dünya üzrə ən çox istifadə edilən şifrələrin siyahısını asanlıqla əldə edə bilər. Bu da elə çətin iş deyil, hər il müxtəlif tədqiqatlar əsasında formalaşdırılan oxşar siyahılar hər kəsə açıq mənbələrdə dərc olunur. Məsələn, insanların 2022-ci ildə ən çox istifadə etdiyi 10 şifrə və onların bədniyyətlilər tərəfindən müəyyən edilməsinə sərf edilən vaxt müddəti aşağıdakı cədvəldə əks olunmuşdur:

**Cədvəl 1: Dünyada 2022-ci ildə ən çox istifadə edilən şifrələr**

| Nömrə | Şifrə | Müəyyən olunmasına sərf edilən zaman | İstifadə olunma sayı |
|---|---|---|---|
| **1** | password | 1 saniyədən az | 4929113 |
| **2** | 123456 | 1 saniyədən az | 1523537 |
| **3** | 123456789 | 1 saniyədən az | 413056 |
| **4** | guest | 10 saniyə | 376417 |
| **5** | qwerty | 1 saniyədən az | 309679 |
| **6** | 12345678 | 1 saniyədən az | 284946 |
| **7** | 111111 | 1 saniyədən az | 229047 |
| **8** | 12345 | 1 saniyədən az | 188602 |
| **9** | col123456 | 11 saniyə | 140505 |
| **10** | 123123 | 1 saniyədən az | 127762 |

**Mənbə**: NordPass, www.nordpass.com (2022)

Bədniyyətli belə olan təqdirdə, sistemin istifadə etdiyi heş-alqoritmlə ən populyar şifrələrin heş-kodlarını hesablayıb uyğun siyahı yarada bilər. Burada hansısa məhdudiyyətdən söhbət getmir, bədniyyətli planına uyğun olaraq, siyahıdakı ilk 1000, hətta 1000000 məşhur şifrənin heş-kodunu asanlıqla müəyyənləşdirə bilər. Sonrakı addım isə populyar şifrələrin hesablanmış heş-kodları ilə ələ keçirilən server faylında ən çox rastlaşılan heş-kodların müqayisəsidir. Sözsüz ki, xüsusilə geniş miqyaslı şəbəkələrdə istifadəçilərin sayının çox olması nəzərə alındıqda, müqayisə nəticəsində üst-üstə düşəcək heş-kodların aşkarlanma şansının kifayət qədər yüksək olduğu məlumdur. Artıq bədniyyətlidəki siyahıdan 1 şifrəyə aid heş-koda eyniliklə server faylında rast gəlinməsi 1 istifadəçi hesabının təhlükəsizliyinə birbaşa təhdiddir. Çünki sözgedən fayllarda, adətən, istifadəçi adları açıq şəkildə, şifrələnmədən saxlanılır. Belədə istifadəçi adı və şifrə cütlüyü bədniyyətlinin əlinə keçdiyinə görə o, həmin istifadəçi hesabı sayəsində sistemə rahatlıqla daxil ola bilər. Üstəlik, fayldakı qarşısında eyni heş-kod yazılmış, yəni eyni şifrəyə malik digər istifadəçi adlarının aid olduğu hesablar da sındırılmış sayılır. Nəzərə almaq lazımdır ki, burada hələ ki söhbət server faylında istifadəçi adının qarşısında təkcə 1 populyar şifrəyə aid hesablanmış heş-kod olan sətirlərdən gedir. Təbii ki, digər heş-kodların müqayisəsi zamanı da aralarında üst-üstə düşənlər olacaqdır. Hücumun nə qədər uğurlu olması istifadəçilərin hansı hissəsinin ekspertlərin tövsiyələrinə baxmayaraq, hesablarına məşhur şifrələrdən birini təyin etməsindən asılıdır. Bədniyyətli bu üsulla 1 cəhdlə onlarla, bəzən yüzlərlə istifadəçi hesabının autentifikasiya rekvizitini ələ keçirə bilər. Üstəlik, texnologiyanın hazırki inkişafı şəraitində, sözügedən hücumun tamamlanmasına elə də uzun müddət tələb olunmur.

Bənzər halların yaşanmasına imkan verməmək üçün şifrələr server faylında saxlanmazdan əvvəl bir sıra ədəbiyyatlarda "salt" adlandırılan, xüsusi təyin olunmuş uzantılardan istifadə olunur. Uzantı da şifrə kimi bir neçə simvol ardıcıllığından ibarətdir. Belə ki, o, ya hesab şifrəsinin son simvolundan sonra, ya da ilk simvolundan əvvəl yazılır. Yalnız tamamilə təsadüfi formada generasiya olunan uzantı şifrəyə əlavə olunduqdan sonra nəticədə alınan simvollar ardıcıllığının heş funksiya vasitəsilə qiyməti hesablanır və alınan heş-kod fayla daxil edilir. Digər bir faylda və ya heş-alqoritmdə saxlanılan həmin uzantı hər dəfə istifadəçi hesaba giriş etmək istədikdə daxil etdiyi şifrəyə əlavə olunur və nəticədə alınan simvollar ardıcıllığının heş-kodu hesablanıb bazadakı qiymətlə müqayisə edilir. Bununla da, autentifikasiya prosesi müsbət və ya mənfi nəticəylə tamamlanır. Şifrə uzantılarının tətbiqi autentifikasiya prosesinin ləngiməsinə səbəb olsa da, əvəzində təhlükəsizliyi dəfələrlə artırır (Alexander, 2012). Şifrə uzantılarının tətbiq edilməsinin əsas səbəbi hələ də məsləhətlərə qulaq asmayan xeyli istifadəçinin bir neçə populyar şifrədən istifadə etməsidir. Təhlükəsizlik mexanizminin işləmə prosesinə baxaq. Məsələn, tutaq ki, bir şəbəkədə 3 ayrı-ayrı istifadəçi öz hesabında "12345678" şifrəsinə üstünlük verib və sistemdə də "MD5 Hash" heşləmə

alqoritmindən istifadə olunur. Belə olan halda, əslində bu şifrənin heş-qiyməti olan "25d55ad283aa400af464c76d713c07ad" server faylındakı müxtəlif sətirlərdə 3 dəfə təkrarlanmalıdır. Bu isə sistemə hücum edən və şifrələr faylını ələ keçirən potensial bədniyyətliyə hesab şifrələri ilə bağlı ipucu verir. Əgər təhdid törədicisi şəbəkədə hansı heş funksiyadan istifadə olunduğunu dəqiq bilirsə, onda bir neçə dəqiqəyə asanlıqla sözügedən 3 istifadəçi hesabının hamısının şifrəsini müəyyən edəcək. Uzantılar sayəsində isə həmin hesablara aid olan şifrələrin heş-qiyməti birinin arqumenti, məsələn "12345678Hsbevvr3", digəri "12345678Gfbdlw0r", başqa biri isə "12345678vnf32wi6" kimi qəbul edilərək hesablandığı üçün nəticədə hər birində alınan heş-kod da bir-birindən tamamilə fərqli olacaq. Belədə, birinci şifrə yaddaşda "a4c06c938539f6c48acb2a930d7f7f77", ikinci şifrə "f1023ec4b2bc906d1f06a82459f92a51", üçüncüsü isə "2ab297831bc09cfb5f2ab525d2a8a3da" kimi saxlanacaq. Aydındır ki, təsadüfi generasiya olunan uzantı bu şifrələrin hər biri üçün unikaldır. Nəticədə eyni şifrələrin heş-alqoritmlə hesablanmış və server faylına daxil edilən heş-qiymətləri də bir-birindən bütünlüklə fərqlənəcək. Uzantıların saxlanarkən şifrələnməsinə ehtiyac yoxdur, çünki bədniyyətli onları əldə etsə belə, düzgün istifadə edə bilməyəcək (Rosulek, 2021). Qeyd edək ki, reallıqda şifrə uzantıları nümunədə göstərilən qədər qısa deyil, azı 32 simvol uzunluğunda olur. Hazırda bir sıra autentifikasiya sistemlərində müxtəlif sayda simvoldan ibarət uzantılardan geniş miqyasda istifadə olunur.

**Nəticə və Təkliflər**

Araşdırmada rəqəmsal transformasiya prosesinin getdikcə daha qlobal xarakter aldığı aydınlaşır. Belə ki, rəqəmsallaşmaya maliyyə yatıran və bundan qazanc əldə edən müəssisələrin sayı yüksək sürətlə artmaqda davam edir. Sözsüz ki, 2020-ci ildə dünyanı bürüyən pandemiya səbəbindən əksər ölkələrdə karantin elan olunması bizneslərə ciddi təsir etmiş, təşkilatların rəqəmsallaşmasını daha da sürətləndirmişdir. İnformasiya texnologiyalarının şirkətlərin bu çətin sınaqdan uğurla keçməsi üçün imkanlar yaratması faktı məhz həmin dönəmdə məlum olmuşdu. Lakin müştərilərə göstərilən xidmətlərin, onlarla aparılan əməliyyatların eynisinin rəqəmsal formada da təklif edilməsi elə də sadə proses deyil. Onun effektiv formada reallaşdırılması çoxsaylı amillərdən asılıdır. Həmin amillərdən biri də informasiya təhlükəsizliyidir.

İnformasiya təhlükəsizliyinin hərtərəfli təmin olunması geniş və kompleks fəaliyyət tələb edir. Bu fəaliyyətin bir hissəsi də istifadəçi şifrələrinin qorunması ilə bağlıdır. Aydındır ki, bütün müəssisələr müştərilərinin rəqəmsal sistemə daxil olması prosesini maksimum tezləşdirmək istəyir. Bu səbəbdən də, istifadəçi hesablarının adları və şifrələrinin server kompüterlərindəki xüsusi faylda saxlanılması praktikada geniş yayılmış təcrübədir. Belədə sistemə daxil olmaq üçün müraciət edən şəxsə ən qısa müddətdə rekvizitlərin doğruluğunu yoxlayıb cavab vermək mümkün olur. Lakin şifrələrin serverdəki fayllarda saxlanması özü ilə bəzi təhlükəsizlik risklərini də gətirir.

Təhlükəsizliyin təmini üçün heş funksiyalardan istifadə oluna bilər. Əslində şifrələrin gizli saxlanması işini heş-alqoritmlərin yardımı ilə həll etmək olduqca effektiv üsuldur. Lakin araşdırma nəticəsində məlum oldu ki, bəzən bu addım da şifrələrin tam qorunmasını həyata keçirməyə kifayət etmir. Əlavə təhlükəsizlik tədbiri kimi isə şifrə uzantılarından istifadə oluna bilər. Uzantılar təhlükəsizliyin və bədniyyətlilərin hücumlarına dayanıqlılığın artırılmasını təmin edə bilər. Ancaq bu metod da qüsursuz deyil. Onun nə dərəcədə uğurlu olması hansı formada tətbiq edilməsindən asılıdır. Praktikada 128 simvol uzunluqlu şifrə uzantılarından istifadə olunan sistemlərin də bəzən şifrə fayllarına edilən hücumlardan qoruna bilməməsi kimi halları görmək olar. Nəticə kimi demək olar ki, şifrələrin təhlükəsizliyinin qorunmasında əsas məqam insan amilidir. Mühafizə sistemində

heş funksiyalar, şifrə uzantıları kimi texnoloji vasitələrdən peşəkarlıqla istifadə edilsə və istifadəçilər də öz növbəsində hesablarına güclü şifrələr təyin etsələr, rəqəmsallaşma prosesində şifrələrin təhlükəsizliyini arzu edilən səviyyədə təmin etmək olar.

**Ədəbiyyatlar**


European Investment Bank(EIB), EIB Investment Report, (2021), chapter 7, pp. 251.

European Investment Bank(EIB), EIB Investment Report, (2022), chapter 5, pp. 190-191.

Gerald C.K., Palmer D., Philips A.N., Kiron D., Buckley N., (2015), "Strategy, not Technology, Drives Digital Transformation", MIT Sloan Management Review and Deloitte University Press

McKinsey Global Survey, (2022), "COVID-19 Digital transformation and technology"

Lambert M., (2023), "Digital transformation: 4 security tips for 2023", The Enterprisers Project

Vial G., (2019), "Understanding digital transformation: A review and a research agenda", The Journal of Strategic Information Systems, 28(2), pp. 118-144.

Butt A., Imran F., Helo P., Kantola J., (2021), "Cultural Preparation for Digital Transformation of Industrial Organizations: Multi-case Exploration of Socio-Technical Systems", Advances in Social & Occupational Ergonometrics. Lecture notes in Networks and Systems, (273), pp. 457-463

Andal-Ancion A., Cartwright P.A., Yip G.S., (2003), "The digital transformation of traditional businesses", MIT Sloan Review, 44(4), pp. 34-41

Heinze A., Fletcher G., Fenton A., Griffiths M., (2018), "Knowledge exchenge partnership leads to digital transformation at Hidro-X Water Treatment Ltd.", Global Business and Organizational Excellence, 37(4), pp. 6-13

Overby S., (2022), "Digital transformation: 5 future and 3 fading trends for 2022", The Enterprisers Project

Kretschmer T., Khashabi P., (2020), "Digital Transformation and Organization Design: An Integrated Approach", California Management Review, 62(4), pp. 86-104

Turner D.M., (2016), "Digital Autentification: The Basics", Cryptomathic

Andrukonis C., (2023), "Digital Transformation: 5 strategies to elevate your initiative", The Enterprisers Project

Vance A., (2010), "If your password is 123456, just make it HackMe", The New York Times, 21.01.2010

Ranjan P., Om H., (2016), "An Efficient Remote User Password Authentication Scheme based on Robin's Cryptosystem", Wireless Personal Communications, 90(1), pp. 217-244

Whitman M.E., Mattord H.J., (2014), "Principles of Information Security", Cengage Learning, pp. 162

Alexander S., (2012), "Passords matter", The Bug Charmer

Hammond C., (2020), "How often should you change your password?", NordPass

Rosulek M., (2021), "The Joy of Cryptography", chapter 11, pp. 204-205

# Analysis of Efficiency Based on the State of Financial Management in Joint Stock Companies of the Republic of Uzbekistan

**Abduboqiyev Muxammad Sharofitdinovich**

**Tashkent State University of Economics, PhD researcher**

**boshbuxgalter007@gmail.com**

## Abstract.

The article provides a number of information about the financial situation of some large joint-stock companies in the world and, based on the collected data, draws conclusions from the results achieved by joint-stock companies, shows the ways of their effective use in our country and based on a number of innovations. , a number of proposals and explanations are also given about ways to improve financial support in joint-stock companies. Also, the financial indicators of the largest joint-stock companies in our country have been collected, and mutual comparisons and comparisons have been mentioned. In addition, the achievements and shortcomings of joint-stock companies are emphasized, and the solutions for the observed shortcomings are listed in order to bring more benefits to the parties.

**Keywords:** joint-stock company, Companies' net income or loss, authorized capital of investment enterprise, financial results.

## Introduction.

Joint-stock companies are an organizational and legal form of business that arose as a result of the development of entrepreneurship for several centuries. Until then, the growth of the production volume and the expansion of the trade scale created the need to attract a large amount of capital and created a demand for modern forms of business. Historically, the first form of business organization based on shareholding dates back to the Middle Ages (Дементьева, 2008) [1]. According to researchers, the Genoese bank, established in the 15th century, is the first joint-stock company. In the process of its establishment, the principles that serve as the basis for the activities of joint-stock companies were used even now. That is, the meeting of participants was considered the supreme governing body and the meeting was held once a year. Decisions of the meeting were made by general voting. The functions of the executive body were performed by the council of protectors, and they were elected by a separate collegium. The Board of Protectors is subject to the general meeting of participants. The capital of the bank was divided into equal shares and these shares were released into free circulation. The Bank of Genoa, which paid interest from the income received by the bank to the participants of the bank based on the shares they owned, served as a model of business organization for colonial companies in the later stages of development. The first such companies appeared in the 16th century in the Netherlands and England, countries that actively pursued a colonial policy of acquiring new lands. At a time when the government did not have enough funds, the development of the colonies required a large number of financial resources. Consolidation of private capitals and state support for this practice made it possible to create an effective economic instrument for developing new markets. As a result, more than 60 colonial companies (such as the East Indies and West Indies in Great Britain, the Netherlands, and France) emerged that paid dividends of up to 300 percent of the invested capital. Along with the increase in the

number of such companies, the organizational and legal foundations of joint-stock companies were also formed.

In the 18th century, the shareholding form of ownership was actively developed in Europe. By this time, fraudsters and risk-takers who seek to increase their wealth have become too numerous. The state regulation of the activities of joint stock companies and the lack of experience in self-regulation of companies caused serious problems in the economy of a number of European countries.

The creation and operation of the first joint-stock companies required the development of the mechanism and infrastructure of the stock market management along with the improvement of the management system to increase their efficiency. As a result, "the London Stock Exchange started its activity in 1570 and the Amsterdam Stock Exchange in 1602" (Mahoney, 2000) [2]. "The New York Stock Exchange began its activity in 1792, two hundred years after its predecessors in Europe" (Banner, 1998) [3].

In 1844, the first law was passed in Great Britain prohibiting the issuance of shares to unregistered companies. In the United States of America, a special law has been introduced to simplify the process of registering corporations. The improvement of the legal framework and the emergence of the stock exchange supported the further development of the shareholding form of ownership.

At the beginning of the 20th century, the high level of development of financial markets suddenly changed the nature of activities of many American corporations. Shareholder ownership has become extremely fragmented, and in most corporations the stake of large shareholders does not exceed 10 percent. By the 1930s, a class of managers was practically formed and the transition to the management of corporations on a professional basis took place. The experience of developed countries shows that joint-stock companies, playing the main role in the economy, produce up to 90 percent of industrial products. Although their share in the total number of firms is very low, the amount of profit they receive is extremely high, and this aspect is also reflected in the tax revenues of the state budget. Although the number of joint-stock companies in our country has been decreasing in recent years, they are gaining importance in terms of state budget revenues, population employment, export volume and other indicators (Elmirzayev, 2019) [4].

**Analysis of Literature on the Topic.**

Based on the research of most of the world's economists, they emphasized the methods of determining and evaluating the company's capital efficiency using the main methods of comparing income, cost and sales approaches in determining the business value of the company. Different economists express different opinions about the economic nature of capital appreciation in joint-stock companies. Several scientific views have been presented by a number of economists about the capital price. Russian economist V. V. Bocharov defined in his scientific work that "Capital price reflects how much it is necessary to pay to attract a certain amount of capital" (Бочаров, 2008) [5]. So, "Capital price is for using one unit of capital in corporate structures for a certain period of time. According to foreign economists-scientists N.V.Burkov and M.Yu.Makovetskiy: "Today JSCs are rightfully included in a number of one of the most important institutions of the market economy" (Burkova, 2010) [6]. According to L. Besnik, "Corporations are the backbone of the economy as a whole, they are a key source of jobs and certainly the largest taxpayer of an economy" (Besnik, 2014) [7]. F. Khamidova describes the form of shareholding as "... the root of the real sector of the national economy" (Khamidova, 2008) [8].

According to A. Grechenyuk, “Shareholders’ equity is mandatory source of funding for any company” (Grechenyuk, 2016) [9]. Regarding M.Yu. Makovetskiy, shares play an important role in financing joint-stock companies: “In modern conditions, joint-stock companies are rightfully among the most significant institutions of the market economy, the very form of organization of which allows them to finance economic (including investment) activities for account of the issue of securities, in particular -shares” (Makovetskiy, 2014) [10]. Although some of the aspects related to the activities of joint-stock companies and the corporate securities market were studied in the studies of the scientists, namely, the issue of financing joint-stock companies through shares was not considered as a separate object of research. This situation also indicates the relevance of the selected topic of this article.

**Research Methodology**

Along with the study of scientific and theoretical research of increasing the efficiency of financial management of joint-stock companies, its practical aspects are also analyzed. Several methods were used in the process of analysis comparative comparison, economic comparison and grouping based on statistical data, analysis and synthesis methods were widely used.

**Analysis and Results**

Ərəbistanı inflyasiya ilə mübarizə baxımından ənənəvi monetarist tutumu ilə diqqət çəkir. Faiz dərəcələrinin aşağı həddə çəkilməsi ilə dövriyyədə olan pul vəsaitinin azaldılmasına istiqamətlənən bu siyasət əhalinin rifahının yüksəldilməsi məqsədi ilə xalqa sosial yardım xərclərinin artırılması ilə paralellik təşkil edir. Belə ki, ölkədə 2022-ci ildə inflyasiya ilə mübarizə çərçivəsində əhalinin rifah səviyyəsinin qorunub saxlanması məqsədi ilə iyul ayında sosial yardım üzrə xərclər artırılaraq 7.6 milyard dollara çıxarılmışdır, daha sonra isə bu vəsait 5.33 milyard dollar həcmində yenidən artırılmışdır. Səudiyyə Ərəbistanının bir digər diqqət çəkən antiinflyasiya yönümlü pul-kredit siyasəti də sabit valyuta məzənnəsi sistemini tədbiq etməklə yanaşı, valyuta məzənnəsinin dayanıqlılığının təmin edilməsi məqsədi ilə əllərində həddindən artıq valyuta ehtiyyatı cəmləşdirmələri olmuşdur.

Səudiyyə Ərəbistanı və Qətər kimi ölkələr hər zaman dünyada inflyasiya dərəcəsi ən aşağı olan ölkələrdən olmaları ilə fərqlənmişdirlər. Bu baxımdan İsrail, İrlandiya və Yaponiya kimi ölkələrlə rəqabət aparmışdırlar. Odur ki, böhran halında nisbətən aşağı inflyasiya göstəricilərinə nail olmalarının səbəblərindən biri kimi ölkənin bu sahədə güclü iqtisadi ənənəsinin mövcudluğu göstərilə bilər. Səudiyyə Ərəbistanı Statistika İdarəsinin 2023-cü ilin əvvəlində verdiyi məlumatlara görə ölkədə inflyasiya dərəcələri 2023-cü ilin əvvəlində 3.3%-ə yüksəlmişdir. Hökümətin apardığı iqtisadi islahatlar nəticəsində bu rəqəmin 2.6% olması güman edilirdi. Bu da 2022-ci ilin sonuna qeydə alınmış 2.7% lik inflyasiya göstəricisindən aşağı idi. Lakin əksinə inflyasiya dərəcələri 2023-də yüksəldi. Qurumdan verilən məlumata əsasən ölkədə mənzil kirayəsi 18.1%, komunallar 5.9%, qida məhsulları 4.2%, nəqliyyat isə 5% həcmində bahalaşmışdır (Səudiyyə Ərəbistanı Statistika İdarəsi, 2023). Bu göstəricilərdən belə nəticəyə gəlmək olar ki, neft ixracatçısı ölkələr özlüyündə yüksək inflyasiya ilə mübarizə aparırlar, lakin neftin inflyasiya səbəbindən bahalaşması nəticəsində neftdən daxil olan gəlirləri artıraraq ölkədə nisbi tarazlıq yarada bilirlər. Odur ki qısa müddətdə inflyasiyadan güclü şəkildə təsirlənmirlər. Hətta BVF özünün "Aşağı İnkişaf Şəraitində İnflyasiya" başlıqlı hesabatında Orta Şərq neft dövlətlərinin öz iqtisadiyyatını 2023-cü ildə 3.2% həcmində artıracağını proqnoz etmişdir (BVF, 2023). Lakin buna baxmayaraq əhalinin ən əsas maliyyə ayırdığı sahə olması səbəbindən qida sektorundakı bahalaşma neft ölkələrində də uzun müddətdə qalıcı iqtisadi problemlərə gətirib çıxara bilər. Bloombergin 2023-cü ilin əvvəlində dərc etdirdiyi hesabata görə neft ilə zəngin olan varlı Körfəz dövlətləri artıq dünyanı əhatəsinə almış maliyyə təzyiqinə və inflyasiyaya qarşı dayanıqlı deyillər. Hesabatda həmin ölkələrə önümüzdəki illərdə çevik və dayanıqlı antiinflyasiya siyasəti ilə çıxış etmələri tövsiyyə olunmuşdur (Bloomberg, 2023).

Neft zəngini ölkələrin hər birinə ayrı-ayrılıqda nəzər saldıqda inflyasiya dərəcələrində oxşar nəticələr olduğu diqqətə çarpır. Məsələn, BƏƏ-nin müasir göstəricilərinə baxdıqda uzun müddət deflyasiya halında olmuş bir ölkə üçün olduqca nikbin göstəricilər müşahidə edilir. Yuxarıdakı cədvələ də diqqət verdikdə əvvəllər deflyasiya halı müşahidə olunmuş, xüsusilə BƏƏ, Qətər, İraq və Səudiyyə Ərəbistanı kimi ölkələrin böhran halında inflyasiyaya uzun müddətli dövrdə tab gətirə bilmədikləri açıq şəkildə müşahidə edilir. Bunun əsas səbəbi kimi antiinflyasiya yönümlü pul-kredit siyasətinin yetərincə təkmil olmaması və çevik xarakter daşımaması göstərilə bilər.

**Nəticə**

Müasir inflyasiya böhranı neft sahəsində ixtisaslaşmış ölkələrdən təsirsiz ötüşməmişdir. Enerji sektorunda yaranmış bu bahalaşma ilk baxışda neft kimi ən əhəmiyyətli enerji mənbəyinin ixracatçısı olan ölkələrə zərər verməyəcəyi, əksinə gəlirlərini artıracağı kimi görünsə də son hadisələr inflyasiyanın kompleks təbiətli olmasını və heç bir ölkə iqtisadiyyatının inflyasiyadan sığortalanmadığını açıq şəkildə gözlər önünə sərmişdir. İnflyasiya qısa müddətdə digər sektorlara

sıçramış və neft zəngini ölkələrdə qida sektorundan başlayaraq çətinliklər yaratması ilə müşahidə edilmişdir.

Araşdırma zamanı belə bir nəticəyə gəlinmişdir ki, nəhəng neft ixracatçısı zəngin dövlətlərin antiinflyasiya ilə mübarizə baxımından innovativ və çevik metodları mövcud deyildir. Bu ölkələrdə faiz dərəcələri və pul kütləsi üzərində tənzimləmələrə əsaslanmış ənənəvi antiinflyasiya metodlarından geniş şəkildə istifadə olunur. Adi halda ən aşağı inflyasiya göstəricilərinə sahib olmalarının səbəbi isə neftdən əldə olunan gəlirlərin əlavə valyuta ehtiyyatlarının yaradılmasına yönəldilməsi və bu vəsaitin düzgün şəkildə bölüşdürülməsidir. Bu ölkələr pul ehtiyyatları ilə zəngindir və milli valyuta rezervləri üzərində tənzimləmələr tamamilə öz səlahiyyətlərindədir. Neft qiymətlərinin daim yüksələn tempdə irəliləməsi də bu zənginliyin ən əsas amili kimi çıxış edir. İnflyasiya böhranı halında isə həmin neft ölkələri çevik reaksiya verə bilmirlər və ən az digər ölkələr qədər inflyasiyadan təsirlənirlər. Həll yolu kimi xalqa verilən maddi yardım artırılır, lakin bu da uzun müddətdə inflyasiyanın daha da güclənməsinə səbəbiyyət verir. Bu dövlətlərin antiinflyasiya siyasəti kifayət qədər təkmil və çevik olmadığından ölkəmizə tədbiqi məsələsi məhduddur. Lakin həmin ölkələrin pul vəsaitlərini bölüşdürməsi və milli valyutaları üzərində nəzarət prosesi baxımından iqtisadi təcrübələrinin araşdırılması gələcək tədqiqatlar üçün olduqca məqsədəuyğun olardı.

**Ədəbiyyatlar**

Yergin, D. (2016). Petrol Para ve Güç Çatışmasının Epik Öyküsü. Türkiye İş Bankası Kültür Yayınları, 1, 12-13.

Koç, E. ve Şenel, M. (2013). Dünyada ve Türkiyede Enerji Durumu – Genel Değerlendirme. Mühendis ve Makina, 54, 32-44.

Harunoğulları, M. (2017). Enerji Kaynaklarının Jeopolitiği ve Küresel Güçlerin Enerji Politikaları. International Journal of Social Sciences and Education Research, 3, 146-171.

Demir, İ. (2014). Uluslararası Petrol Politikaları, Piyasaları, Fiyatları. Süleyman Demirel Üniversitesi Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, 18, 231-246.

Noreng, Q. (2014). Ham Güç Petrol Politikaları ve Pazarı. Elips Kitap, 1, 215-216.

Atman, S. (2015). Oil Prices in the Economical Political Balance. Güvenlik Stratejileri Dergisi, 3, 63-73.

Business Monitor İnternational Industry Reports. (2020).

United States Energy Information Administration Annual Energy Outlook Report. (2014).

Səudiyyə Ərəbistanı Statistika İdarəsi İllik Hesabatı. (2023).

Beynəlxalq Valyuta Fondunun "Aşağı İnkişaf Şəraitində İnflyasiya" Hesabatı. (2023).

Bloomberg Annual Financial Report For February. (2023).

# Müasir Dövrdə Dünyada və Azərbaycanda Tikinti Sahəsində Vergitutmanın Təhlili və Onun Ölkə İqtisadiyyatında Rolu

**Əliheydər Dövlətov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**dovlatov.aliheydar@gmail.com**

## Xülasə

Bu tədqiqat işində dünya ölkələrində və Azərbaycanda müasir şəraitdə tikinti sahəsində vergitutma metodları araşdırılmışdır. Tikinti sahəsində tətbiq edilən vergitutma metodlarının ölkə iqtisadiyyatına təsirləri şərh edilmiş və büdcə üzrə yükü təhlil edilmişdir. Tikinti sahəsindən vergi daxilolmalarının təhlili aparılmış və ölkə iqtisadiyyatında rolu araşdırılmışdır.

Dünya iqtisadiyyatı inkişaf etdikcə, əhali sayı artdıqca buna müvafiq olaraq tikinti sahəsinə tələb artır. Artan insan tələbatlarının qarşılanması üçün tikintinin bütün sahələri inkişaf edir. Bina tikintisi, kənd təsərüffatının müxtəlif sahələrinin inkişafını təmin edəcək suvarma sistemlərinin, avadanlıqlarının tikintisi və sənayenin müxtəlif sahələrində tikintisi dəyişən dünya iqtisadiyyatına uyğun inkişaf edir. Xüsusən də insanların sayının artması mənzil tikintisi sahəsinin daha çox inkişafına zəmin yaradır. Maliyyə faəliyyəti üzrə normativ aktlar, o cümlədən, vergi qanunvericiliyi müvafiq sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyətinə təsir edir.

Azərbaycanda da tikinti sahəsində yaradılan dəyər hər il artır. Dövlət büdcəsinin gəlirlər hissəsinin təmin edilməsində tikinti sahəsində vergi daxilolmalarının payı yüksək çəkiyə malikdir. Bu tədqiqat işində Azərbaycanda tikinti sahəsində vergitutma metodları araşdırılmış, illər üzrə dövlət büdcəsində vergi daxilolmalarının müqayisəli təhlili aparılmışdır.

**Açar sözlər:** Tikinti, vergi, iqtisadiyyat, büdcə

## Abstract

In this research, the methods of taxation in the field of construction in modern conditions in the countries of the world and in Azerbaijan were investigated. The effects of taxation methods applied in the field of construction on the country's economy were interpreted and the burden on the budget was analyzed. An analysis of tax revenues from the construction sector was conducted and its role in the country's economy was investigated.

As the world economy develops and the population increases, the demand for construction space increases accordingly. All areas of construction are developing to meet the growing human demands. Building construction, construction of irrigation systems and equipment that will ensure the development of various fields of agriculture, and construction in various fields of industry are developing according to the changing world economy. In particular, the increase in the number of people lays the groundwork for further development of the housing construction sector. Normative acts on financial activity, including tax legislation, affect the activities of companies operating in the relevant field.

The value created in the field of construction in Azerbaijan is increasing every year. The share of tax revenues in the construction sector has a high weight in providing the revenue part of the state budget. In this research, the methods of taxation in the field of construction in Azerbaijan were investigated, and a comparative analysis of tax revenues in the state budget was carried out for years.

**Key words: Construction, tax, economy, budget**

## Giriş

Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə əsas prioritetlərdən biri əlverişli biznes mühiti yaratmaq məqsədilə hökumətin aparıcı rolunu daha da gücləndirməkdən ibarətdir. Bu prioritetin reallaşdırılması üçün görüləcək tədbirlərdən biri də iqtisadi inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatların davam etdirilməsidir. Vergi sistemi və onun idarə olunması əlverişli biznes mühitinin əhəmiyyətli bir hissəsi olduğundan, Azərbaycanda sahibkarlıq subyektləri tərəfindən vergi ödənişlərinin həyata keçirilməsini asanlaşdıran islahatlar aparılması, şəffaflığı artıraraq, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı inamı gücləndirmək, eləcə də davamlı iqtisadi inkişafın təşviqində vergi potensialını müəyyən etmək üçün vergi sistemi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində islahatlar davam etdirilməsi əhəmiyyət kəsb edir. Bu istiqamətdə daha yaxşı nəticələr əldə etmək üçün digər ölkələrdə şirkətlərin vergi yükü və bütün əməliyyatlar üçün dəyər zənciri boyunca vergilər nəzərə alınaraq, ədalətli vergi səviyyəsinin qiymətləndirilməsi, sahibkarlıq subyektlərinə lazım olan maliyyə öhdəliyinin proqnozlaşdırılması üçün ölkənin vergi öhdəliklərinin aydın müəyyənləşdirilməsi və proqnozlaşdırılması vacibdir (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, 2016).

Dünyada və Azərbaycanda daima yenilənən və inkişaf edən sahələrdən biri də tikinti fəaliyyətidir. Tikinti sahəsi vacib istehsal sahələrindən biri olmaqla, iqtisadiyyatın bütün sahələrinin inkişafına, əhalinin sosial rifah halının yüksəldilməsində mühüm rol oynayır.

Müasir dünyada dəyişən insan tələbatlarına uyğun tikinti fəaliyyətinin həyata keçirilməsi üçün tikinti şirkətlərinin maliyyə dayanıqlığının olması vacib şərtlərdən biridir. Tikinti sahəsində tətbiq edilən vergi sistemi müəssisələrin maliyyə vəziyyətinin dayanıqlığına, maliyyə vəsaitlərinin düzgün planlaşdırılmasına təsir göstərir.

Dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşdırılan əsas mənbələrdən biri də vergilərdir. Vergi sistemində tikinti sahəsində fəaliyyət göstərən müəssisələrdən dövlət büdcəsinə daxil olan vergi daxilolmaları xüsusi əhəmiyyət kəsb edir.

Yerli və xarici investorların tikinti sahəsinə sərmaye yatırmasının stimullaşdırılması üçün mütərəqqi və cəlbedici vergi mühitinin yaradılması mühüm əhəmiyyət kəsb edir.

Dünya iqtisadiyyatı inkişaf etdikcə, əhalinin demoqrafik göstəricilərində artım müşahidə olunduqca bütün sahələr kimi tikinti sahəsində də artım müşahidə edilir. Bura həm qoyulan investisiyaların həcmində, həm də yaradılan əlavə dəyərlərin həcmində artımın müşahidə edilməsini göstərə bilərik. Cədvəl 1-də illər üzrə Azərbaycanda tikinti sahəsinin makroiqtisadi göstəriciləri, o cümlədən yaradılan əlavə dəyər və tikinti işlərinin dəyəri göstərilmişdir.

**Cədvəl 1: Tikinti müəssisələri üzrə makroiqtisadi göstəricilər**

| İllər | Əlavə dəyər, milyon manat (cari qiymətlərlə) | Tikinti işlərinin dəyəri, milyon manat |
|---|---|---|
| 2000 | 308.0 | 324.5 |
| 2001 | 310.7 | 320.2 |
| 2002 | 528.0 | 527.9 |
| 2003 | 802.0 | 899.5 |
| 2004 | 1,062.1 | 1,388.0 |
| 2005 | 1,171.6 | 1,558.0 |

| | | |
|---|---|---|
| 2006 | 1,445.4 | 2,119.7 |
| 2007 | 1,892.0 | 2,702.4 |
| 2008 | 2,800.3 | 3,785.5 |
| 2009 | 2,554.3 | 3,484.9 |
| 2010 | 3,439.7 | 4,531.4 |
| 2011 | 4,141.0 | 6,115.0 |
| 2012 | 5,507.9 | 7,716.0 |
| 2013 | 6,753.7 | 8,721.2 |
| 2014 | 7,454.4 | 8,591.9 |
| 2015 | 6,499.5 | 7,319.6 |
| 2016 | 6,338.9 | 7,660.4 |
| 2017 | 6,750.6 | 7,762.1 |
| 2018 | 6,183.4 | 8,448.3 |
| 2019 | 6,098.8 | 9,439.2 |
| 2020 | 5,718.5 | 9,778.8 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2021

## Tədqiqatın Məqsədi

Aparılan tədqiqat işinin əsas məqsədi Azərbaycanda və dünyada müasir dövrdə tikinti sahəsində vergitutmanın vəziyyətini araşdırmaq və təhlil etməkdir. Bu təhlil zamanı müxtəlif mənbələrdən əldə edilmiş məlumatlardan istifadə edilərək araşdırma aparılmışdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- Tikinti müəssisələrinin fəaliyyətinin texniki-iqtisadi göstəricilərinin araşdırılması;
- Tikinti müəssisələrində mühasibat və vergi uçotunun hazırki vəziyyətinin öyrənilməsi;
- Tikinti müəssisələrinin vergiyə cəlb olunması üzrə qanunvericiliyin təhlil edilməsi;
- Dünya ölkələrində tikinti sahəsində vergitutma məqsədləri üçün gəlir və xərclərin müəyyənləşdirilməsi metodlarının araşdırılması;
- Dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında mühüm yer tutan vergilərin tərkibində tikinti müəssisələri tərəfindən ödənilən vergilərin payının müəyyənləşdirilməsi

## Analiz

Tikinti sektoru və tikinti fəaliyyəti  iqtisadi artımın, inkişafın və iqtisadi fəallığın əsas mənbələrindən biri hesab edilir. Tikinti təşkilatlarının vergitutma sistemi müəyyən mənada mürəkkəb struktura malikdir. Tikintiyə dolayı dəstək mexanizmlərinin hazırlanmasına ciddi diqqət yetirilməsinə ehtiyac var. Təşkilatlara vergi güzəştlərinin məqsədi şirkətlərin vergi öhdəliklərini azaltmaqla bu sahədə layihələrin həyata keçirilməsinə və yeni innovativ texnologiyaların inkişafına marağını artırmaqdır. İnşaat sənayesi iqtisadiyyatda mühüm rol oynayır və ölkənin milli sosial-iqtisadi inkişaf məqsədlərinə nail olmaq üçün həyati əhəmiyyət kəsb edir. Tikinti iqtisadiyyatın demək olar ki, bütün sahələrinə təsir göstərir və buna  görə də cəmiyyətin inkişafının və onun mövcudluğunun tərkib hissəsidir (Качур и Бобровский, 2022)

**Şəkil 1: Dünyanın müxtəlif ölkələrində tikinti sənayesinin ÜDM-də payı**




Mənbə: Качур и Бобровский, 2022.

| | |
|---|---|
| 1 | Rusiya |
| 2 | Kanada |
| 3 | ABŞ |
| 4 | Fransa |
| 5 | Almaniya |
| 6 | İtaliya |
| 7 | İspaniya |
| 8 | İsveçrə |
| 9 | Böyük Britaniya |
| 10 | Çin |
| 11 | Hindistasn |
| 12 | Yaponiya |
| 13 | Cənubi Koreya |
| 14 | Avstraliya |

Dünya ölkələrində və dünya praktikasında vergi məqsədləri üçün tikinti təşkilatlarının gəlir və xərclərinin müəyyənləşdirilməsinin müxtəlif mexanizmləri vardır. Bununla bağlı yanaşmalarda fərqliliklər vardır.

Tikintinin davametmə müddəti, mərhələli və ya birdəfəlik şəkildə tikinti obyektinin təhvil verilməsi tikinti şirkətlərinin vergitutma məsələlərinə birbaşa təsir edir. Belə ki, mərhələli şəkildə tikinti işləri təhvil verilərkən xərclərin də müvafiq olaraq təhvil verilən işlərə uyğun bölüşdürülməsi və vergi öhdəliklərinin ona uyğun qarşılanması mövcud problemlərdəndir (https://glavkniga.ru/elver/2013/21/1245)

Tikinti təşkilatlarının vergi uçotunun xüsusiyyətlərindən biri mühasibat uçotunun qeyri-müəyyənliyi və buna uyğun olaraq əsas vəsaitlərin yaradılması ilə əlaqədar müəssisənin ümumi təsərrüfat xərclərinə aid edilən əməliyyatların vergiyə cəlb edilməsidir.

Təşkilatın seçimi ilə ümumi biznes xərcləri birbaşa xərclərə daxil edilir və ya daxil edilmir. İkinci halda, onlar baş verdikləri hesabat (vergi) dövründə mənfəətin vergiyə cəlb edilməsi məqsədləri üçün nəzərə alınan dolayı xərclər statusunu alırlar. Tikinti sənayesinin ikinci nüansı ondan ibarətdir ki, əsaslı tikinti üçün nəzərdə tutulmuş torpaq sahəsinin icarə haqqı şəklində tikinti başlamazdan əvvəl, eləcə də tikinti zamanı aparılan xərclər əsaslı tikintinin ilkin dəyərinə daxil edilməlidir (Хаустов и Каратаева, 2020)

Tikinti təşkilatlarının vergi uçotu bir çox dəyişkən aspektlərlə və mübahisəli məsələlərin ortaya çıxması ilə bağlıdır. Bu vəziyyətlərin həlli yalnız mövcud qanunvericilik aktlarının düzgün və tam şərhi və müəyyən bir təşkilatın fəaliyyətinin xüsusiyyətlərinə tam uyğun olan mühasibat uçotu mexanizmlərinin düzgün seçilməsi ilə mümkündür. Eyni zamanda, yüksək tezliyi ilə xarakterizə olunan tikinti təşkilatlarının uçotu ilə bağlı vergi qanunvericiliyində dəyişikliklərə daim nəzarət etmək və müəssisələrin fəaliyyətinə vaxtında qanunvericiliyə uyğun dəyişikliklər etmək lazımdır. (Хаустов и Каратаева, 2020)

Baltikyanı və Skandinaviya ölkələrində yaşayış binalarının tikintisinə təsir edən vergi sisteminin xüsusi şərtləri mövcuddur. Bunlar vergitutma bazası, faiz dərəcələri və güzəşt dövrləridir. Buna görə də tikinti sənayesinə təsir edən vergitutma şərtlərini, yaşayış binalarının tikintisinə icazələri, yaşayış binalarının tikintisinin illik artım və azalma templərini və tikinti sektoruna təsir edən digər əsas göstəricilər vardır. Orada standart prosedurlardan istifadə edərək obyektin dəyərini müəyyən etmək üçün kütləvi qiymətləndirmə tətbiq edilir. Baltikyanı və Skandinaviya ölkələrində tikinti təşkilatlarınında vergitutmanın onların xərclərinə əsas müəyyən edilməsi üzrə aparılması təcrübəsi də var (Rasputina, Nechaev  and Ilina, 2021)

Həmin ölkələrdə vergitutma bazası müxtəlif orqanlar və təşkilatlar (fiskal orqanlar, daşınmaz əmlakın dövlət reyestri, bələdiyyələr və kommersiya təşkilatları) tərəfindən müəyyən edilir.

Tikintinin ümumi xərclərini müəyyən etmək üçün aşağıdakı göstəricilər əsasında xərcləri hesablamaq lazımdır: materiallar, əmək, avadanlıq və enerji istehlakı və s. Göstəricilərin mənbələri isə istehsalçı qiymətləri, müqavilələr, əmək məsrəfləri və s. Material və əmək məsrəfləri tikinti xərclərinin ən vacib komponentləridir.

Layihə xərclərinin idarə edilməsi sisteminin səmərəliliyini artırmaq üçün işlərə görə ödəniş siyasətini seçmək lazımdır (öncədən ödəmə (avans), sonradan ödəmə və s.); veksellərin ödəniş siyasəti (qəbul günü, müəyyən müddət ərzində və s.); əməyin, materialların və komponentlərin xərclərinin azaldılması prinsiplərini; məsrəflərin uçotu prinsiplərini; iş qrafiki ilə xərclərin tutulması və ödəniş mexanizmlərini müəyyən etmək lazımdır.

Sxem 1 istehsal qiymətlərini, yəni tikinti podratçılarının tikinti zamanı ödəməli olduğu istehsalçı qiymətlərini əks etdirir. Buna görə də xərc indeksi istehsalçı qiymət indeksindən fərqli olmalıdır. İstehsalçı qiymətləri indeksi qiymətlərin dinamikasını göstərir. Bu iki indeks məhsulun son sahibinin müştəriyə ödədiyi xərclərdəki dəyişiklikləri ölçən “satış qiymətləri indeksindən” fərqli ola bilər. Buraya torpağın dəyəri, memar haqları və müştərinin marjası daxildir (Zakharov and Shaukalova, 2019).

**Sxem 1: Tikinti xərclərinin hesablanması**




**Mənbə:** Rasputina et., 2021

Rusiyada son illərdə biznesin qeyri-qanuni parçalanması problemi aktualdır. İri və orta vergi ödəyiciləri tərəfindən biznesin süni şəkildə "azaldılması" səbəbindən sadələşdirilmiş vergi sistemi və xüsusi vergitutma rejimlərindən istifadə edildiyi təqdirdə, bu, vergilərin ödənilməsi ən çox tələb olunan mexanizmdir. Bu vergidən yayınma sxemindən istifadə tikinti şirkətləri arasında geniş yayılmışdır. Vergi məcəlləsində "biznesin parçalanması" anlayışının dəqiq tərifi yoxdur və bir qayda olaraq, ona istinad edən xüsusiyyətlər qanunvericilik xarakteri daşımır. Bu problemin həlli biznesin parçalanmasının konkret nümunələrinin daha da öyrənilməsi, habelə vergidən yayınmanın qeyri-qanuni

təcrübələrinin tənzimlənməsi və onlara qarşı mübarizə üçün qanunvericilik bazasının formalaşdırılmasıdır. Belə ki, bu hərəkətlər həm tikinti, həm də digər təşkilatlar tərəfindən ödənilən vergilərin həcminin azalmasına səbəb olur. Rusiyanın Vergi Məcəlləsində "sxem", "biznesin bölünməsi" kimi anlayışlar yoxdur. Buradan belə nəticə çıxır ki, təqdim olunan "sxem"in kiçik tikinti təşkilatları tərəfindən istifadəsi əsassız olaraq alınan vergi güzəştidir. Müvafiq olaraq, bu əməliyyatları daha aydın tənzimləyən tədbirlərin həyata keçirilməsi tələb olunur. Belə ki, Vergi Məcəlləsinə "bölünmə"nin mümkünlüyünü və onun kommersiya təşkilatlarında, xüsusən də tikintidə istifadəsinin əsaslılığını tənzimləyən dəyişikliklərin edilməsi zəruridir (Каширина и Гордина, 2020).

Azərbaycanda qeyri-neft sektorunun inkişafı, yeni müəssisələrin yaranması, əhalinin sayının artması, xarici və yerli investiyaların artması tikinti sektorunun inkişafını şərtləndirir. İnkişafın davamlılığını təmin etmək üçün tikinti sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün əlverişli vergi mühtinin yaradılması vacib əhəmiyyət kəsb edir. Müvafiq sahədə yeni dünya təcrübələrinin öyrənilməsi və onların yerli şəraitə uyğunlaşdırılaraq tətbiq edilməsi zərurəti yaranır.

Tikinti fəaliyyətinin vergi tənzimlənməsinin metodlarının araşdırılması, onların təkmilləşdirilməsi istiqamətində müvafiq yanaşmaların ortaya qoyulması zərurəti yaranır (Каширина и Гордина, 2020).

Azərbaycanda da iqtisad elmləri doktoru, professor Y.A.Kəlbiyev tikinti təşkilatlarında xərclərin vergi auditinin nəzəri-metodoloji məsələlərinin tədqiqi aparmış və tikinti təşkilatlarında mühasibat uçotu və vergitutmanın xüsusiyyətlərini nəzərə alan gəlirdən çıxılan xərclərin auditinin metodiki aparatı işləyib hazırlamış, xərclərin vergi auditi prosesində mühasibat və vergi uçotunda aşkar edilən tipik səhvlər və pozuntuları sistemləşdirmiş və onların aradan qaldırılması üzrə tövsiyələr vermişdir (Kəlbiyev, 2012).

Azərbaycanda son illərdə mənzil tikintisi sahəsində artım müşahidə edilir. Cədvəl 2-də Azərbaycanda və dünyanın müxtəlif ölkələrində 2015-2019-cu illərdə tikilən mənzillərin sayı haqqında statistik məlumatlar verilmişdir.

**Cədvəl 2: Azərbaycan və xarici ölkələrin mənzil tikintisi üzrə beynəlxalq müqayisələr.**

**Tikilmiş mənzillərin sayı - cəmi, min**

| Ölkə \ illər | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Azərbaycan | 16 | 15 | 15 | 17 | 87 |
| Almaniya | 248 | 278 | 285 | 287 | 293 |
| Bolqarıstan | 8 | 9 | 8 | 8 | 12 |
| Finlandiya | 29 | 30 | 36 | 43 | 43 |
| Macarıstan | 8 | 10 | 14 | 18 | 21 |
| Polşa | 148 | 163 | 178 | 185 | 207 |
| Rumıniya | - | 52 | 53 | 60 | 68 |
| Yaponiya | 909 | 967 | 965 | 942 | 905 |
| Litva | 10 | 13 | 11 | 12 | 13 |

**Mənbə:** ADSK, 2021

Cədvəldən göründüyü kimi son illərdə Azərbaycanda tikilən mənzillərin sayı artmışdır. Müqayisə üçün qeyd edək ki, 2015-ci illə müqayisədə 2019-cü ildə 5.43 dəfə artım olmuşdur.

Azərbaycan Dövlət Statistika Komitəsindən əldə edilən məlumata əsasən mənzil tikintisi ilə yanaşı digər tikinti sahələrində də artım müşahidə edilir.

Azərbaycanda son illərdə vergi qanunvericiliyi istiqamətində aparılan islahatlar vergi qanunvericiliyinin liberallaşdırılması, həmçinin vergi qanunvericiliyinin əsaslı şəkildə yenidən işlənilməsi ilə bağlıdır. Bu zaman müvafiq dövlət orqanının qarşısında iki ssenari vardı: vergi yükünün

artırılması ilə gedərək vergi daxilolmaların artımına çalışmaq və ya vergi yükünü azaltmaqla "kölgə iqtisadiyyatı"na çəkilmiş bütün vergi ödəyicilərini və biznes strukturlarını bərabərhüquqlu və geniş vergitutmaya cəlb etmək. Vergi sistemində başlanan islahatlar vergi yükünün artımı ilə deyil, əksinə, azaldılması istiqaməti ilə aparılmışdır (https://www.taxes.gov.az/files/2/jurnal/AVJ2019N138.pdf).

2020-ci ildən Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilən müvafiq dəyişikliklərə əsasən bina tikintisi ilə məşğul olan şəxslər Sadələşdirilmiş vergi ödəyəcisi ola bilmirlər. Onlar yalnız Əlavə Dəyər Vergisi (ƏDV) və mənfəət vergisi ödəyici ola bilərlər. Həmin dəyişikliyə qədər müvafiq sahə ilə məşğul olan şəxslərin Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ var idi (Azərbaycan Respublikasının Vergi Məcəlləsi, 2020).

Tikinti fəaliyyətində diqqət yetirməli və tikinti təşkilatılarınının öz fəaliyyətlərində nəzərə almalı olduqları məqamlardan biri də eyni xüsusiyyətli mallara tətbiq etdikləri qiymət siyasətidir. Belə ki, tikinti təşkilatları otuz gün ərzində vergi ödəyicisinin eyni xüsusiyyətli mallara (xidmətə) tətbiq etdikləri qiymətlər, malların (işlərin, xidmətlərin) bazar qiymətləri müəyyənləşdirilərkən qiymətlərə təsir edə bilən amillər nəzərə alınmaqla, bazarda eyni mal (iş, xidmət) üçün müvafiq əməliyyatlar zamanı təşəkkül tapan qiymətlərin səviyyəsindən 20 faizdən çox fəqlənməməlidir. Əks halda bazar qiyməti nəzərə alınmaqla vergilər hesablana bilər (ARVM, 2020).

2020-ci ildən Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilən müvafiq dəyişikliklərdən biri də ƏDV-nin daxil olan vəsaitə görə hesablanmasıdır. Belə ki, müvafiq dəyişikliyə qədər ƏDV satışa əsasən hesablanırdı. Müvafiq dəyişiklik tikinti müəssisələrinin fəaliyyətinə də təsir göstərdi (ARVM, 2020).

Vergi Məcəlləsində və vergitutma sahəsində aparılan islahatların nəticəsi olaraq dövlət büdcəsində vergi daxilolamalarının, o cümlədən tikinti sahəsindən vergi daxilolamalarının həcmi artmağa başladı (taxes.gov.az).

**Cədvəl 3: Qeyri-neft-qaz sektorunun fəaliyyət sahələri üzrə vergi daxilolmaları**

| **Fəaliyyət sahələri** | **Qeyri-neft-qaz sektorunun fəaliyyət sahələri üzrə vergi daxilolmaları mln. manat** | | **Artım-azalma** |
|---|---|---|---|
| | 2018 (yanvar - may) | 2019 (yanvar - may) | 2019 (yanvar - may) |
| CƏMİ | 1866,60 | 2166,30 | 16,10 % |
| Sənaye | 554,40 | 560,90 | 1,20 % |
| Xidmət | 280,40 | 343,90 | 22,60 % |
| Tikinti | 313,00 | 342,90 | 9,60 % |
| Ticarət | 210,10 | 238,10 | 13,30 % |
| Rabitə | 92,00 | 129,40 | 40,60 % |
| Nəqliyyat | 108,90 | 137,30 | 26,10 % |
| Bank və sığorta | 121,40 | 180,20 | 48,40 % |
| Kənd təsərrüfatı | 3,00 | 3,10 | 6,10 % |
| Digər | 183,40 | 230,40 | 25,60 % |

**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, 2019

Yuxarıdakı cədvəldə verilən məlumatlardan görünür ki, 2019-cu ilin yanvar-may aylarında tikinti sahəsində vergi daxilolmalarının həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,6 % artmışdır.

**Nəticə**

Araşdırma nəticəsində tikinti təşkilatlarının vergitutma mexanizmini nəzərdən keçirdik. Dünya ölkələrində onların fəaliyyətini araşdırdıq. Azərbaycanda vergitutma sahəsində mövcud durumu təhlil

etdik. Vergi Məcəlləsinə edilən dəyişikliklərin və aparılan islahatların büdcə gəlirlərinə təsirini qiymətləndirdik. Aparılan tədqiqatın nəticəsi olaraq aşağıdakıları müəyyən etdik:

- Tikinti müəssisələrinin fəaliyyətlərinin Vergi Məcəlləsinin tələblərinə uyğun qurması onların əlavə maliyyə sanksiyalarından uzaqlaşdıracaqdır.
- Vergi Məcəlləsinə edilmiş müvafiq dəyişikliklər kölgə iqtisadiyyatının qarşısının alınmasına, dövlət büdcəsinə vergi daxilolmalarının artmasına, o cümlədən tikinti sahəsində vergi daxilolmalarının həcminin artmasına gətirib çıxarmışdır.
- Düzgün qurulmuş mühasibat və vergi uçotu tikinti müəssisələrinin gəlir və xərclərinin uçotunun qanunauyğun aparılmasına, vergi risklərinin azadılmasına və aradan qaldırılmasına şərait yaradacaqdır.
- Mühasibat və vergi uçotunun düzgünlüyü gəlir və xərclərin uçotunun aparılmasına nəzarət etməyə, kənarlaşmaların səbəblərini təhlil etməyə dəstək verir.

**Ədəbiyyat Siyahısı**


Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, 2016

Azərbaycan Respublikasının Vergi Məcəlləsi

Məmmədov, A. F. Musayev, M. M. Sadıqov, Y. A. Kəlbiyev, Z. H. Rzayev - Vergilər və Vergitutma, Bakı – 2010

Azərbaycanın vergi jurnalı, 2019, № 1 (138)

Kəlbiyev Y.A. Vergitutma məqsədləri üçün tikinti təşkilatlarinin xərclərinin vergi auditi. Azərbaycanın vergi jurnalı, № 2, 2012

Журнал "Главная книга". № 21, 2013 г. https://glavkniga.ru/elver/2013/21/1245

Д. С. Хаустов, Е. С. Каратаева. Молодой ученый. Международный научный журнал. № 16 (306) / 2020 — С. 281-283. “Особенности и проблемы налогового учета в строительной отрасли”.

A.V.Rasputina, A.S. Nechaev and E.A. Ilina. An analysis of the construction industry and the impact of taxation on its development in the Baltic and Scandinavian countries.

Каширина М.В., Гордина М.Г.. Московский экономический журнал №2 2020. “Проблемы налогообложения малого бизнеса в строительстве”.

Качур Оксана Викторовна, Бобровский Алексей Алексеевич: “Актуальные Вопросы Налогообложения Строительной Отрасли”, 2022. УДК 338.23

Basova A V and Nechaev A S 2013 Taxation as an instrument of stimulation of innovationactive business entities World Applied Sciences Journal 22(11) pp 1544-1549

Zakharov S and Shaukalova A., 2019. Methodological aspects of optimization of small enterprises in modern conditions of the Russian economy IOP Conference Series: Materials Science and Engineering 667(1) 012108

11. taxes.gov.az

stat.gov.az

# Azərbaycanda Yerli Özünüidarəetmə Orqanlarında İslahatlar: Əsas İstiqamət və Nəticələr

**Taryel Cabbarov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**taryelcabbarov@yahoo.com**

## Xülasə

Bu məqalədə Azərbaycan Respublikasında fəaliyyət göstərən yerli özünüidarəetmə orqanlarında aparılan islahatlar öz əksini tapmışdı. Hökümət tərəfindən yerli özünüidarəetmə orqanlarına ayrılan sosial-iqtisadi layihələr və aparılan bir layihələrin nəticəsi də öz yerini almışdı. Bələdiyyələrin inkişafı üçün aparılan dövlət əhəmiyyətli bir sıra işlər yerli özünüidarəetmə orqanlarının gələcək fəaliyyətinə mühüm təsir edir. Bunun əsasında məqalədə bələdiyyələr üçün mühüm əhəmiyyət kəsb edən bir sıra layihələr qeyd olunmuşdu. Məqalədə 2008- ci ildə aparılan xüsusi əhəmiyyətli layihə öz yerini almışdı. Bu layihədə bələdiyyələr üçün vacib rol oynayan bir sıra qanun aktları tərtib edilmişdi. Bunun nəticəsində bələdiyyə orqanlarının maliyyə dayanıqlığı möhkəmlənmişdi. Həmçinin bələdiyyə orqanlarının səmərəli və effektiv şəkildə işlərinin həyata keçirilməsinə mühüm töhfə vermişdi. Məqalədə həmçinin 2008-2015- ci illərdə aparılan bir sıra layihələr və 2019-2023- cü illər regionların sosial iqtisadi inkişafı üçün Dövlət proqramı da öz əksini tapmışdı. Aparılan tədqiqat əsasında qeyd olunan illər üçün nəzərdə tutulmuş bələdiyyə orqanlarında əhəmiyyətli işlərin həyata keçirilməsi aşkar olunmuşdu. Həmçinin məqalədə gələcəkdə hansı layihələrin həyata keçirilməsi və gələcək üçün hansı islahatların da aparılması xüsusi vurğulanmışdı.

**Açar sözlər:** Bələdiyyə, yerli özünüidarəetmə, layihə, islahat, dövlət proqramı

## Abstract

This article reflected the reforms made to the local self-government organizations operating in the Republic of Azerbaijan. The socio-economic projects allocated by the government to the local self-government organizations and the results of the implemented projects also took their place. A number of state-important works carried out for the development of municipalities have an important influence on the future operations of local self-government authorities. On the basis of this, the article identified a number of projects of great significant for municipalities. A particularly significant project carried out in 2008 took its place in the article. In this project, a number of legislative acts, which play an crucial role for municipalities, were created.As a consequence, the financial stability of municipal authorities was improved. Additionally, it significantly made an important contribution to the efficient and effective implementation of work by municipal authorities. The article also reflected a number of projects carried out in 2008-2015 and the State program for the socio-economic development of regions in 2019-2023. The article also highlighted what projects should be implemented in the future and what reforms should be carried out in the future.

**Key words:** Municipalities, local self-government, project, reform, State program

## Giriş

Ölkə iqtisadiyyatında yerli özünüidarəetmə orqanları xüsusi əhəmiyyət kəsb edir. Eləcə də bələdiyyə orqanları sosial-iqtisadi sahədə mühüm rol oynayır. Dəyişən iqtisadi sahələrdə hər zaman yerli özünüidarəetmə orqanları öz aktuallıqlarını qoruyub saxlamışdır. Bu gün də əhalinin sosial-iqtisadi

problemlərinin həlli üçün bələdiyyə orqanları vacib status daşıyır. Bu səbəbdən də bələdiyyə orqanlarında bir çox islahatların aparılması müasir dövrümüzdə ən əsas faktor kimi qeyd edilir.
Bələdiyyə orqanları ölkə iqtisadiyyatında özünəməxsus yer almışdır. Regionların sosial-iqtisadi inkişafı, əhlinin sosial rifahının artırılması üçün həyata keçirilən layihələrin təşkili bələdiyyə sahələrində mühüm dəyişikliyə təkan verir. Bu kimi islahatların aparılması ölkə vətəndaşlarının rifahı üçün əsas rol oynayır və bu gün də bu kimi layihələr, islahatlar öz aktuallığın qoruyub saxlayır.
**Tədqiqatın əsas məqsəd və vəzifələri-**Tədqiqatın əsas məqsədi-yerli özünüidarəetmə orqanlarında dövlət əhəmiyyətli bir çox layihələrin araşdırılması, icra səviyyəsinin öyrənilməsi və islahatların həyata keçirilməsinin vacibliyinə əsas verən problemlərin öyrənilməsindən ibarət olmuşdur. Bu məqsədlərə nail olmaq üçün əsas vəzifələr aşağıdakı kimi müəyyən olunmuşdur:

- ✓ Əhalinin əsas sosial-iqtisadi problemlərinin müəyyən edilməsi və onların aradan qaldırılması yollarının araşdırılması;
- ✓ Vətəndaşların sosial rifahının artırlması yollarının öyrənilməsi;
- ✓ Dövlət və bələdiyyə münasibətlərinin inkişafı, vətəndaş-bələdiyyə münasibətlərin qorunması amillərinin öyrənilməsi;
- ✓ Bələdiyyə fəaliyyətinin yaxşılaşdırılması istiqamətində təkliflərin hazırlanması.

Bunun müqabilində isə bələdiyyə orqanlarının ölkə iqtisadiyyatında rolunun daha da artmasına əsas fikir verilməlidir.
**Tədqiqatın metodologiyası-**Tədqiqatın aparılması zamanı bir sıra qanunvericilik aktlarına müraciət olunmuş, metod olaraq məntiqi və müqayisə metodlarına əsas yer verilmişdir. Məntiqi metod-tarixən inkişaf edən bir obyektin(idarənin, müəssisənin və s.) əsas xüsusiyyətlərini, formasını, quruluşunu və xassələrini özündə cəmləşdirən, çoxaldan bir metod sistemidir. Tədqiqat zamanı bir sıra dövlət əhəmiyyətli layihələrə nəzər salınmış və eləcə də elmi-metodoloji məqalələr əsasında qurulmuş analiz metodları də istifadə edilmişdir.
**Tədqiqatın məhdudiyyətləri-**Təqdiqatın aparılmasında əsas məhdudiyyət kimi lazımi informasiyanın bol olmaması, məlumat azlığı, informasiyalarının əlçatanlığının aşağı səviyyədə olması qeyd olunur. Bəzi layihələrin hansı nəticəyə gəlməsi barədə dəqiq məlumatın olmaması da əsas məhdudiyyət kimi qeyd oluna bilər.
**Azərbaycanda Yerli Özünüidarəetmə Orqanlarının Əsas Xüsusiyyətləri və Problemlər**
Günümüzdə bələdiyyənin mahiyyəti, mənası dedikdə üstünlük yerli vətəndaşların sosial rifahına xidmət edən, yerli əhəmiyyətli vacib işləri yerinə yetirən bir yerli idarəetmə orqanı nəzərdə tutulur. Bələdiyyə idarəetməsinin xüsusiyyəti, mahiyyətinin tədqiqatı aparılarkən bələdiyyələrin tarixi inkişaf yolları, onların sosial iqtisadi fəaliyyəti, bələdiyyələrin olduğu coğrafi mövqeləri, onların hüquqi bazaları diqqətə alınmalıdır.
Bələdiyyə idarəçiliyində başlıca xüsusiyyətlərdən biri də bu bələdiyyə orqanlarında çalışanların hüquqi statusunun nəzərə alınmasıdır, yəni Azərbaycan Respublikasının qanunvericiliyinə, normativ hüquqi aktlarına ehtiva etməklə ölkənin məqsəd və vəzifələrinin həyata keçirilməsi yönündə bələdiyyə orqanlarında çalışan şəxslər dövlət qulluqçusu kimi qeydə alınırlar.
Yerli özünü idarəetmə orqanları üzrə vacib hesab edilən amillərdən biri Avropa Şurası tərəfindən yaradılan Yerli Özünüidarə haqqında Avropa Xartiyasıdır. Bu xartiyanın yaradılması, mövcudluğu Avropa dövlətlərində bələdiyyə orqanları üçün mühüm hüquqi əhəmiyyət kəsb edir. Avropa Xartiyası 1985-ci ildə yaradılmışdır. Avropa Xartiyasının ən başlıca vəzifəsi yerli özünüidarəetmə orqanlarının

hüquqi mənafelərinin, hüquqlarının qorunmasını və müdafiəsini həyata keçirməkdən ibarətdir. Xartiya tərəfindən təmin edilən hüquqi yardım həmçinin vətəndaşların da hüquqlarının qorunmasına xidmət edir. Odur ki, bu Xartiyanın təqdim etdiyi qanuni sənədlər Avropa Şurasına daxil olan bütün ölkələrin maliyyə sərbəstliyinin qorunması, bir sıra siyasi azadlıqlarının yaradılmasına kömək edir. Həmçinin qeyd etmək lazımdır ki, bu kimi sənədlər qeyd olunan ölkələrdə məcburi xarakter daşıyır (Səlimzadə və Xəlilov, 2010).

Bələdiyyələr ölkə daxilində yerli iqtisadi inkişaf modelini, ekoloji problem üçün müxtəlif layihə və proqramları həyata keçirir və bir sıra tədbirlər təşkil edir. Bələdiyyələrin hər hansı bir layihəni, proqramı icra edərkən oxşar olan dövlət proqramlarına təsir etmək imkanı yoxdur, amma bələdiyyə orqanları qeyd etdiyimiz sahələr üzrə proqram hazırlayarkən dövlət proqramlarından istifadə edə və istinad edə bilərlər.

Bələdiyyələrin fəaliyəti ilə bağlı olan dövlət proqramları adətən onların problemlərinin həllinə, onların daha yaxşı fəaliyyət göstərmələrinə şərait yaradılmasına yönəldilir. Artıq 23 ildən çoxdur ki, Azərbaycanda bələdiyyələr fəaliyyət göstərir. Bu fəaliyyət əsasında bələdiyyə idarəedilməsində problemlər aşkar olunur. Əsas problemlərdən biri də kadr potensialının az olmasıdı. Bəs kadr potensialının az olması, ümumiyyətlə kadlarla bağlı problemlərin baş vermə səbəbi nədir? Araşdırmalara əsasən kadr çatışmazlığının başlıca amilləri və problemlər aşağıdakı kimi qeyd olunur:

- ✓ bələdiyyələrlə bağlı hazırlanan qanunvericilik maddələrində bir çox boşluqların olması;
- ✓ bələdiyyə orqanlarının azad bir şəkildə fəaliyyət göstərə bilməməsi və müvafiq icra hakimiyyəti orqanlarından asıllığı;
- ✓ tabe olduğu icra hakimiyyəti orqanlarının öz vəzifələrinə aid olmadan bələdiyyə orqanlarına müdaxiləsi;
- ✓ bələdiyyə-vətəndaş münasibətinin yanlış idarə olunması;
- ✓ bələdiyyə orqanlarına daxil olmaq üçün yaradılan iş elanlarının rəsmi internet səhifələrində, müvafiq media orqanlarında elan edilməməsi;
- ✓ bələdiyyə orqanlarına dövlət qulluğu ilə bağlı aparılan qəbul prosesinin düzgün şəkildə icra edilməməsi, şəffaflıq və ədalət prinsipinin mövcud olmaması;
- ✓ həm ixtisas artımı, həm də əmək haqqının az olması gənc kadrlarının bələdiyyə orqanlarında çalışmaq istəməməsi;
- ✓ eləcədə ölkədə vətəndaş cəmiyyəti institutlarının az olması, bələdiyyə orqanları tərəfindən marifləndirici işlərin görülməməsi və s. kimi amillər bələdiyyə orqanlarında kadr potensialı üzrə problemlərin yaranmasına gətirib çıxarır (İsmayılova, 2018).

Dünya təcrübəsinə baxsaq, yerli özünüidarəetmə orqanları, yəni bələdiyyələr ölkə ərazisində əhalinin sosial-iqtisadi problemləri ilə məşğul olur. Yerli özünüidarəetmə orqanı kimi bələdiyyələr özlərinə məxsus bir sıra vəzifə və funksiyaları icra edir.

Ümumiyyətlə, bələdiyyələrin Azərbaycanda yerli özünüidarəetmə sistemindəki rolunu müəyyən etmək üçün onlara dörd nöqteyi-nəzərdən yanaşmaq lazımdır:

1) Bələdiyyələr, müasir elmi nəzəriyyələr sahəsində elmi və iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanır;
2) Bələdiyyələrin yerli idarəetmə sistemindəki rolu və fəaliyyətləri ilə bağlı boşluqları aradan qaldırmaq üçün qanuna əlavə və dəyişikliklərin edilməsi;

3) Sosial-iqtisadi əlavə maliyyə mənbələri tələb olunur, çünki bələdiyyələrin sərəncamında olan əmlak yerli mövcud problemlərinin aradan qaldırılmasını tam təmin etmir;

4) Yerli əhali və bələdiyyə işçiləri arasında məlumatlandırma fəaliyyəti (Османова, 2021).

Bələdiyyə qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünü idarəetmə formasıdır. Bələdiyyənin özünə xas olan əmlakı və yerli büdcəsi vardır. Azərbaycan Respublikasının Konstitusiyası və bələdiyyələrin status haqqında qanunla onun səlahiyyətlərinə təhkim olunmuş vacib yerli məsələləri müstəqil, sərbəst şəkildə həll edir. Bələdiyyələr bərabərlik əsasında yaradılır və fəaliyyət göstərirlər. Bələdiyyələrin əsas xüsusiyyətləri aşağıdakılardır:

- Bələdiyyələr Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Seçki Qanununa, bu Qanuna və öz nizamnamələrinə uyğun olaraq təşkil edilmiş bələdiyyə üzvlərindən ibarət yerli özünüidarəetmə orqanları tərəfindən seçilir;
- bələdiyyələrin say tərkibi Azərbaycan Respublikasının Seçki Qanunu ilə müəyyən edilir;
- bələdiyyələrin nizamnaməsinə uyğun olaraq bələdiyyə orqanları yaradılır və yerli özünüidarə məsələlərini həll etmək səlahiyyəti verilir;
- bələdiyyələr və onların orqanları dövlət hakimiyyəti sisteminə daxil deyil;
- dövlət orqanları və dövlət vəzifəli şəxsləri tərəfindən yerli özünüidarəetmə orqanlarının həyata keçirilməsinə yol verilmir;
- bələdiyyələrin strukturu və orqanları müvafiq qanuna və bələdiyyənin nizamnaməsinə uyğun olaraq müəyyən edilir.

Bələdiyyələr öz fəaliyyətlərini özlərinə məxsus prinsipləri əsasında həyata keçirirlər. Buraya aiddir:

- yerli əhəmiyyətli məsələlərin həllində müstəqil fəaliyyət;
- əhalinin insan və vətəndaş hüquqlarını, azadlıqlarını müdafiə edən fəaliyyət dairəsi;
- qanunun aliliyi;
- bələdiyyə orqanlarının maddi-maliyyə təminatı, onun resurslarının bir-biri ilə uyğunluğu;
- fəaliyyət dövründə əlçatanlıq, aşkarlıq və vətəndaşların fikrinin, istəklərinin nəzərə alınması;
- bələdiyyələrin demokratik institut kimi qeyd olunması və toxunulmazlığına dair dövlət təminatı (Həsənli, 2006).

Bələdiyyə orqanları bir çox sosial-iqtisadi vəzifələri və məqsədləri özündə ehtiva edir.

a) **Sosial məqsəd və vəzifələr aşağıdakılardır:**

- sahib olduğu regionda/ərazidə vətəndaşların rifahının yaxşılaşdırılması;
- əhalinin təhsil səviyyəsinin, əmək fəaliyyətinin inkişafı üçün işlərin görülməsi;
- aztəminatlı vətəndaşların sosial öhdəliklərinin icra edilməsi;
- sosial pozuntuların və ya sosial çaşqınlıqların aradan qaldırılması;

b) **İqtisadi məqsəd və vəzifələr isə aşağıdakılardır;**

- bələdiyyə orqanlarına mənsub olan əmlak, maliyyə resurslarından istifadənin təşkili;
- bələdiyyə orqanlarına aid olan ərazilərdə iqtisadi tarazlığı, sabitliyi qorumaq, iqtisadi artımı təmin etmək;
- istehsal üzrə düzgün balansın təşkili;
- bələdiyyə ərazilərində aid olan iqtisadi məhsulların, avadanlıqların, malların inkişafına şəraitin yaradılması (İsmayılova, 2008).

Bələdiyyələrin vəzifələrini ümumi şəkildə aşağıdakı kimi qeyd edə bilərik:

- bələdiyyə mülkiyyətinin idarə olunması;
- bələdiyyə büdcəsinin tətbiq edilməsi, idarəsi;
- yerli proqramların həyata keçirilməsi;
- yerli əhaliyə bir sıra sosial-mədəni və tibbi xidmət göstərməsi;
- əhaliyə kommunal və nəqliyyat işləri üzrə xidmət göstərməsi;
- sanitar- gigeniya və abadlıq işlərin həyata keçirilməsi;

yerli əhəmiyyətli vacib digər işlərin görülməsi (Əsgərov, 2009).

Ümumiyyətlə onu qeyd edə bilərik ki, yerli özünüidarəetmə özünəməxsus xüsusiyyətləri ilə səciyyələnir. Avropa Yerli Özünüidarəetmə Xartiyasının bəndində belə bir tərif qeyd olunub. Yerli özünüidarəetmə- ölkədaxilindəki bir çox icmaların qanuni şəkildə ölkə vətəndaşların sosial rifahı üçün aparılan bir çox işlərin həyata keçirilməsini və həmin işlərin icrası üçün əldə etdikləri hüquqi qabiliyyətlər anlaşılır (Yusifov , Hüseynov  və İsmayılov, 2016).

Xarici təcrübəyə nəzər saldıqda görürük ki, digər dövlətlər də bələdiyyə fəaliyyətində bir sıra problemlərlə qarşılaşırlar. Belə ki, Rusiya təcrübəsinə nəzər salsaq, görərik ki, bəzi bölgələrdə yerli özünüidarəetmə orqanlarının, bələdiyyələrin sosial-iqtisadi inkişafı məsələlərini səmərəli həll etmək qabiliyyətinin olmaması bir sıra problemlərin həll olunmaması ilə izah olunur, bunların arasında ən əhəmiyyətliləri:

- yerli özünüidarəetmənin fəaliyyəti və inkişafı ilə bağlı qanunvericiliyin mükəmməl olmaması;
- maliyyə mənbələrinin çatışmazlığı (öz gəlir mənbələrinin çatışmazlığı, dövlət tərəfindən maliyyə dəstəyinin olmaması);
- dövlət orqanları ilə kifayət qədər səmərəli qarşılıqlı əlaqə ("bürokratik gecikmələr", ərazinin inkişafına yönəlmiş proqram sənədlərinin uyğunsuzluğu, səlahiyyətlərin müəyyənləşdirilməsi sisteminin uyğunsuzluğu və s.);
- bələdiyyənin sosial-iqtisadi inkişafı və vergi potensialı barədə tam və etibarlı məlumatların olmaması;
- yerli əhalinin passivliyi və ərazinin inkişafı prosesində biznes, güc və əhalinin maraq balansının uçotu mexanizmlərinin olmaması (Бухвальд и Ворошилов, 2018).

Xarici təcrübəyə müraciət etsək, onların həll mexanizmlərini araşdıraraq analoji problemlərin həllində tətbiq etmək üçün bu kimi məsələləri islahatlar çərçivəsinə salmaq əlverişli nəticələr verə bilər.

**Azərbaycanda Yerli Özünüidarəetmə Orqanlarında İslahatlar və Layihələr**

Azərbaycan Respublikasında aparılan islahatlar demokratik ənənələrin qorunmasına, əlverişli idarəetmə quruluşunun yaranmasına təkan vermişdir. Burada yerli özünüidarəetmə üzrə aparılan islahatlar da xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üçün bir sıra lahiyələr hazırlanmış, eləcədə iqtisadi inkişaf tempini qiymətləndirmək üçün aparılan islahatlar da öz töhfəsini vermişdi. Aparılan bir sıra tədbirlərdə, islahatlarda bələdiyyələr üçün əlverişli tövsiyələr qeyd olunmuşdu. 2008-ci ildə 25 iyul tarixində Yevlax şəhərində ölkədə demokratik ənənələrin saxlanılması, vətəndaş cəmiyyətinin qurulması naminə bələdiyyə sədrlərinin II qurultayı olmuşdur. Tədbirdə həmçinin digər dövlət qurumları da iştirak etmişdi. Tədbirdə yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin apardığı işlər nəzərdən keçirilib, həyata keçirilmiş işlər barədə bir sıra tövsiyələr qeyd olunub. Müsbət işlər

haqqında məlumat verilmiş, mövcud olan nöqsanların aradan qaldırılması üçün bəzi tədbirlər qeyd olunmuşdu. Qeyd etdiyimiz tarixdə görülən işlər bələdiyyələrin fəaliyyətinə xüsusi dəyişiklər etmiş və ölkəmizdə aparılan sosial-iqtisadi islahatların bir parçası olmuşdur (https://e-qanun.az/framework/16229).

Bələdiyyə fəaliyyəti ilə əlaqəli layihələrdən danışarkən subvensiya layihələinə də nəzər salmaq yerinə düşər. İlk olaraq layihənin hazırlanması ilə bağlı təklif olmalıdır ki, bu təklif dövlət büdcəsindən maliyyə ayrılması üçün əsaslandırılmış olmalıdır. Təklifin hazırlanması prosesi isə 3 məsələyə əsasən həyata keçirilməlidir. Belə ki, daha əvvəl qəbul olunmuş proqram və layihələr bələdiyyələr tərəfindən yaxşı şəkildə araşdırılmalı, icra hakimiyyəti orqanları və eləcə də əhali ilə məsləhətləşmələr aparılmalıdır. Təklif hazırlanan zaman da diqqət olunması lazım olan məsələlərdən biri də dövlət büdcəsinin vəsaitlərinin qeyri-məhsuldar şəkildə istifadəsinə yönəlik təkliflərin verilməməsi ilə bağlıdır. Belə ki, vəsaitlər məqsədönlü və qənaətlə istifadə edilməlidir. Digər mərhələdə isə, yəni yerli icra hakimiyyəti orqanları ilə görüş həyata keçirilməli, layihə və təklif ilə bağlı onların fikir və düşüncələrini öyrənmək lazımdır. Bu ən əsası onun üçün lazımdır ki, verilən təklifə oxşar başqa təkliflər daha öncə onlar tərəfindən təklif edilmiş ola bilər. Belə təkliflər hazırlanarkən əvvəlki illərə aid lazımi statistik göstəricilər də öyrənilməli və təhlil edilməlidir (Atakişiyev, Məmmədova və Fətullayev, 2015).

Müasir dövrdə bələdiyyə fəaliyyəti ilə bağlı dövlət tərəfindən həyata keçirilən islahatlar içərisində "Elektron Bələdiyyə" sisteminin yaradılması ilə bağlı addımlar da əsas yer tutur ki, burada uğurlu nəticə əldə etmək üçün xarici təcrübənin öyrənilməsinə ehtiyac duyulur. Bunun üçün ilk olaraq Türkiyə təcrübəsinə nəzər salmaq olar. Belə ki, Türkiyədə "Elektron bələdiyyə" tətbiqlərindən istifadəyə əhəmiyyət verilir və onların üstünlükləri aşağıdakı kimi sadalana bilər:

- İdarəetmə və qərar qəbuletmə prosesinin şəffaflığı təmin edilir;
- Qəbul edilmiş idarəetmə qərarları ictimaiyyətə elektron şəkildə ötürülür;
- Xidmətdə vaxt və məkan məhdudiyyətləri aradan qaldırılır;
- Yerli əhaliyə təklif ediləcək xidmətlər, iş saatlarından kənara çıxaraq 24/7 rejiminə keçid təmin olunur;
- Kommunal xərclər bələdiyyə və yerli əhali baxımından azalır. Bundan əlavə, həm işçilər, həm də vətəndaşlar baxımından aparılan əməliyyatlarda vaxta qənaət əldə edilir.
- Yerli əhalinin şəhər idarəçiliyində iştirakı təmin edilir ki, bu da daha fəal və demokratik yerli özünüidarəetmə ilə nəticələnir;
- İşçilərin məmnuniyyəti, iş intensivliyinin müəyyən bir miqdarda azalması və iş proseslərinin daha nizamlı olması ilə əldə edilir;
- İzləmə qabiliyyətinin artması ilə göstərilən bələdiyyə xidmətlərinin keyfiyyəti artır. Beləliklə, xidmət təminatçısı ilə müştəri arasındakı əlaqə yaxşılaşır;
- Xidmətlərin göstərilməsinə vətəndaş yönümlü baxış sayəsində ictimaiyyətin yerli hökumətə inamı artır;
- Sənədləşmə sıxlığının azalması təmin edilir;
- Hesabatlılıq və daha şəffaf bələdiyyə rəhbərliyi;
- Tender və s.bu fəaliyyətdə rüşvətxorluğun və korrupsiyanın qarşısı alınır.
- Effektiv şəbəkə quruluşunun yaradılması və mərkəzi hökumət ilə yerli hökumət arasında qarşılıqlı məlumat mübadiləsinin təmini (Çakır, 2015).

İdarəetmə və qərar qəbuletmə prosesinin şəffaflığından tutmuş xidmətlərin göstərilməsində zaman və məkan məhdudiyyətlərinin aradan qaldırılmasına, xidmət xərclərinin azaldılmasından tutmuş birgə və demokratik yerli özünüidarəetməyə, iş yükünün azaldılmasından vətəndaş məmnuniyyətinin təmin edilməsi, göstərilən bələdiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə qədər, mərkəzi hökumət və yerli hökumətlər arasında səmərəli şəbəkə quruluşunun yaradılmasına və qarşılıqlı məlumat mübadiləsinə qədər bir çox müsbət cəhətləri olan elektron bələdiyyələrin tətbiqi ilə bağlı hələ də ciddi problemlər var. Əlbəttə ki, elektron bələdiyyənin tətbiqlərində müşahidə olunan bu problemlərin aradan qaldırılması bu müsbət cəhətlərin güclənməsinə səbəb olacaqdır.
2008 ci ildə bələdiyyələrin fəaliyyəti ilə bağlı aparılan mühüm islahatlardan biri də, «Bələdiyyə torpaqlarının torpaq hərracları və ya müsabiqələri vasitəsilə verilməsinin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə» qanunun tərtib olunması. Belə ki, qanun çərçivəsində demokratikləşmənin həyata keçirilməsi, bələdiyyələr üçün vacib olan şəffaflığın qorunması və ən əsası bələdiyyə büdcəsinin inkişafı naminə xüsusi işlər aparıldı. Qanunun əsas məqsədi bələdiyyələrin maliyyə inkişafını təmin etmək, bələdiyyələrin büdcə vəsaitini gücləndirmək idi. Qanun əsasında "Torpaq islahatı haqqında", "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Torpaq Məcəlləsi" və buna müvafiq qanunlarda dəyişikliklər edilmiş və əlavələr qeyd olunmuşdu. Aparılmış işlər əsasında baş vermiş dəyişiklər bələdiyyə torpaqlarından düzgün və effektiv şəkildə istifadə etməyə, şəffaflığın qorunmasına, bələdiyyə orqanların maliyyə dayanıqlığının qorunmasına xüsusi kömək etmişdi (İsmayılova, 2018).
Hər zaman ölkədə savadlı kadrların hazırlanması yönündə bir çox işlər görülmüşdü. Bələdiyyə orqanlarında maarifləndirmə işlərinin aparılması, hüquqi aktlarının, bələdiyyələr üzrə tərtib olunmuş Azərbaycan Respublikasının qanunların inkişafı yönündə xüsusi əhəmiyyət kəsb edən sərəncam hazırlanmışdı. 2008 ci ildə 15 sentyabrda xüsusi əhəmiyyətli Dövlət Proqramı hazırlanmışdı. Proqram "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" adlanırdı. Eləcə də, həmin ildə 6 oktyabrda "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" hazırlanmışdır. Qeyd etdiyimiz sərəncamlara əsasən aşağıdakı proqramları qeyd edə bilərik:

- bələdiyyə qanunvericiliyinin tətbiqi ilə əlaqədar mövcud boşluqların aradan qaldırılması üçün müvafiq ekspertizanın aparılması və təkliflərin verilməsi;
- bələdiyyələr və icra hakimiyyəti orqanlarının səlahiyyətləri və birgə fəaliyyəti ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi;
- böyük şəhər bələdiyyəsi haqqında normativ hüquqi sənədin hazırlanması;
- bələdiyyələrin fəaliyyətinə nəzarət mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması;
- yerli vergi və ödənişlərin toplanmasında Azərbaycan Respublikasının Vergilər Nazirliyinin müvafiq idarələri və bələdiyyələr arasında əməkdaşlığın gücləndirilməsi;
- yerli büdcənin gəlir mənbələrinin artırılması məqsədi ilə yerli resuslardan istifadə etməklə bələdiyyə sahibkarlığının inkişaf etdirilməsi;
- bələdiyyələrin yerlərdə əhaliyə sosial (təhsil, səhiyyə) və kommunal xidmətlərin təşkilində rolunun genişləndirilməsi;

- əhalinin aztəminatlı təbəqələrinə göstərilən sosial yardımların və xidmətlərin ünvanlılığını təmin etmək məqsədi ilə bələdiyyələr və müvafiq icra hakimiyyəti orqanları arasında əməkdaşlığın gücləndirilməsi;
- bələdiyyələrin institusional inkişafının gücləndirilməsi və onların potensialının inkişaf etdirilməsi;
- dövlət təhsil sistemində bələdiyyə idarəçiliyi sahəsində ixtisaslaşmış kadrların hazırlanması;
- kitabxana-bələdiyyə informasiya mərkəzinin yaradılması kimi çox mühüm tədbirlərin həyata keçirilməsi müəyyən edilmişdir (https://e-qanun.az/framework/16229).

2019-cu ildə 2019-2023-cü illər üzrə regionların sosial iqtisadi inkişafı üçün Dövlət proqramı da öz əksini tapmışdı. Bu proqramlarda regionlarda bir çox sosial-iqtisadi inkişafla bağlı layihələr təqdim olunmuşdu. Sosial-iqtisadi inkişaf proqramında bələdiyyələrin fəaliyyəti də qeyd olunmuşdur.

Proqram çərçivəsində regionlarda əkin suvarma sisteminin yaxşılaşdırılması, təhsil, tibb və sosial xidmətlərin inkişafı üçün işlərin görülməsi, kommunal xidmətlərin yaxşılaşdırılması, yoxsulluğun aşağı salınması üçün bir sıra proqramlar qeyd olunmuşdur. Aparılan bu cür proqramda bələdiyyələrin fəaliyyəti xüsusi qeyd edilmiş və aparılmış işlərlə bağlı bəzi nəticələr təqdim olunmuşdu. Bu proqramın icrası hələdə davam etdiyi üçün yekun nəticə barədə tam olaraq fikir bildirmək mümkün deyil. Dövlət tərəfindən islahatlar içərisində bu proqramın xüsusi bir payı vardır və gələcək inkişaf üçün xüsusi nəticələr verəcəyi proqnoz edilmişdir.

2020-ci ildə keçirilmiş bələdiyyələrin fəaliyyətinə nəzarət üzrə illik məruzədə 2019-cu il üzrə aparılan islahatlar qeyd olunmuşdu. 2019-cu ildə dayanıqlı sosial iqtisadi inkişaf ilə bağlı bir sıra tədbirlər görülmüşdür. Qeyd edək ki, Azərbaycan Respublikasında aparılan islahatlar Dünya Bankı tərəfindən hazırlanmış “Doing Business 2020” hesabatına əsasən ölkəmiz 20 ən yaxşı islahatçı ölkələr sırasına daxil etmişdir.

2019-cu il ölkəmizdə bələdiyyə orqanlarının yaranmasının 20 illiyi tamam olmuşdur. Qeyd olunan ildə bələdiyyələrin, yerli özünüidarəetmə orqanlarının inkişafında bir sıra tədbirlər keçirilmiş və aparılan islahatlar ölkəmizdə sosial rifahın inkişafına xüsusi təsir etmişdir.

9 iyul 2019-cu ildə “Bələdiyyələrin statusu haqqında” qanuna bir sıra dəyişiklər edilmişdir. Belə ki, həmin dəyişikliyə əsasən bələdiyyələrin fəaliyyətinə dəstək olacaq, xüsusi əhəmiyyət kəsb edən Ədliyyə Nazirliyi nəzdində olan bələdiyyələrin fəaliyyətinin təşkilinə nəzarət orqanına bir sıra vəzifələr həvalə olundu. Belə ki, bələdiyyə üzvülərinin bilik və bacarıqlarının artırılması, həmçinin bələdiyyə qulluqçuların peşəkar formada işlərin aparılması yönündə xarici dövlətlərinin bələdiyyə orqanları ilə təcrübə mübadilə proqramı yaradılmışdı. Proqram çərçivəsində ölkə ərazisində fəaliyyət göstərən bir çox bələdiyyə qulluqçuları bir neçə xarici ölkələrin təcrübəsindən istifadə etmiş, bilik və bacarıqlarını artırmışdır ( https://meclis.gov.az/documents/hesabat/17.04.2020.pdf).

2019-cu ildə bələdiyyələrin fəaliyyət istiqamətində xüsusi əhəmiyyət kəsb edən bir layihə hazırlanmışdı. “Özəl və bələdiyyə reabilitasiya subyektləri üçün Standartlar” adlanan qərar Nazirlər Kabineti tərəfindən 25 sentyabr 2019-cu ildə təsdiq edilmişdir. Belə ki, bu qərar əlilliyi olan şəxslərin tibbi, psixoloji, idman, sosial işlərin görülməsi, həmçinin əlilliyi olan vətəndaşlarının fiziki, əqli qüsurların tamamilə və ya qismən aradan qaldırılması üçün hazırlanan bir tədbirdir. Hazırlanan layihə əsasında aparılan reabilitasiya xidmətləri aşağıdakılardır:
- əlilliyi olan şəxsin müayinəsi;

- ilkin qiymətləndirmənin aparılması;
- reabilitasiya potensialının və proqnozunun müəyyən edilməsi;
- fərdi reabilitasiya proqramının hazırlanması;
- reabilitasiyanın aparılması;
- reabilitasiyanın nəticəsinin qiymətləndirilməsi;
- reabilitasiyanın gedişatına nəzarət edilməsi (https://www.e-qanun.az/framework/43333).

Hazırlanan proqramda əsasən fiziki, əqli qüsurlu şəxslərin bir sıra layihələrə, tədbirlərə sövq edilməsidir. Layihə çərçivəsində əlilliyi olan şəxslərin peşə-əmək reabilitasiyası, sosial bacarıqlarının artırılması, psixoloji reabilitasiya tədbirlərin aparılması nəzərdə tutulmuşdu. Belə ki, bu tədbirlərə cərrahi əməliyyatlar, protezlərin tətbiq edilməsi, ortezləşmə, loqopedik müalicələr, sanatoriyalarda müalicələr, dərman ləvazimatların alınması, eləcə də, peşə - əmək yönüdə bir sıra təhsillərin verilməsi, ixtisasın artırılması, əlilliyi olan şəxslərin işlə təmin olunması, həmçinin sosial bacarıqların inkişafı yönündə bir çox işlərin aparılması aid edilir. Proqram çərçivəsində əsasən Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, sərəncamları və müvafiq digər normativ hüquqi aktlar rəhbər tutulur.

"Özəl və bələdiyyə reabilitasiya subyektləri üçün Standartlar" bir çox əlilliyi olan şəxslərin şəxsi inkişafına mühüm müsbət töhfə vermişdi. Bir çox fiziki qüsurlu şəxslərə tibbi xidmətin göstərilməsi, onların müalicəsi üçün müxtəlif dərman-preparatların alınması xüsusi əhəmiyyət kəsb etmişdi. Sosial rifahın artırılması üçün vacib faktor olan işsizlik də bu proqram çərçivəsində daha da müsbət dəyişikliyə çevrilmişdi. Ölkə ərazisində yaşayan əlilliyi olan vətəndaşlarının xüsusi işlərlə təmin edilməsi, onların bilik və bacarıqlarının artırılması istiqamətində bir çox işlər görülməsi də xüsusi bir qiymət almışdır. Fiziki qüsurlu şəxslərin loqopedik müalicələrin alması, onlara xüsusi əhəmiyyət kəsb edən protezlərin alınması layihə çərçivəsində əsas istiqamət kimi götürülmüşdü. Qeyd etdiyimiz kimi, bu layihə bələdiyyələrin fəaliyyət istiqamətində aparılan islahatlara uyğun ölkədə sosial rifahının artırılması üçün xüsusi əhəmiyyət kəsb edib, bir çox müsbət nəticələrə yol açmışdır (https://e-qanun.az/framework/456040).

2020-ci ildə ölkə ərazisində aparılan islahatlar arasında bələdiyyə fəaliyyətinə nəzarətin təşkili də xüsusi yer tuturdu. Baxmayaraq ki, qeyd olunan tarix Covid-19 pandemiyasının hökm sürdüyü bir tarix idi. Pandemiya dövründə bir çox sahələrdə, xüsusilə də, iqtisadi sahələrdə çətinliklərin olduğunu müşahidə etdik. Azərbaycan Respublikasının prezidentinin apardığı sosial-iqtisadi islahatlar da bu dönəmdə öz yerini almışdır. Belə ki, bu çətin dövrdə makroiqtisadi sabitliyi və möhkəmliyi qorumaq üçün dövlət tərəfindən 2.5 mlrd AZN-dən çox iqtisadi yardım edilmişdir. Qeyd olunan dövr təkcə bizdə deyil bir çox ölkələrə iqtisadi cəhətdən ağır itkilər törətmişdir, lakin Azərbaycanda aparılan bir çox islahatlar nəticəsində ölkəmiz digər ölkələrlə müqayisədə daha az zərərlə bu ağır dönəmdən çıxa bilmişdi. 2020- ci ildə aparılan islahatlar içərisində bələdiyyələrin fəaliyyətinə də fikir verilmiş, onların fəaliyyəti ilə bağlı bir sıra əhəmiyyətli işlər görülmüşdür. Aparılan işlər içərisində 30 iyul 2020-ci ildə Nazirlər Kabineti tərəfindən təsdiqlənən "Dövlət və bələdiyyələr tərəfindən yaradılan uşaq evləri sosial xidmətləri" qərarı da bu işlər sırasında öz yerini tutmuşdur. Belə ki, yaradılan sosial xidmət valideyn himayəsindən məhrum olmuş, ailə başçılarını itirmiş uşaqların həyat fəaliyyətini yaxşılaşdırmaq, onların sosial fəaliyyəti üçün mühüm işlərin görülməsini, çətin şəraitdə məskunlaşan və yaşayan uşaqlara yardım edilməsini özündə ehtiva edirdi. Uşaq evlərində qeyd etdiyimiz şəxslər həmçinin məktəbəqədər təhsillə məşğul olub sosial bilik və bacarıqlarını da artırırdılar. Yaradılan bu xidmət

bələdiyyələr tərəfindən həyata keçirilirdi və nəzarət funksiyası rayonn-şəhər bələdiyyələri tərəfindən icra edilirdi. Uşaq evlərinin idarə olunması normativ hüquqi aktlara əsasən həyata keçirilirdi və bu müəssisələr şəffaflıq prinsipi əsasında idarə edilirdi. Uşaq evlərinin maliyyə mənbəyi dövlət və bələdiyyə büdcələrindən, ianələrdən, qrantlardan, investisiyalardan və qanuna zidd olmayan digər yardım vasitələrdən formalaşırdı. Bu xidmət sayəsində bir çox uşaqların sosial fəaliyyəti yaxşılaşdı və həmçinin onların təhsil ilə bağlı bir sıra problemləri həll edildi. Valideyn himayəsindən məhrum olmuş uşaqlara müxtəlif sosial xidmətlər göstərildi. Onların yaşayış səviyyəsi yaxşılaşdırıldı. Gələcək dövr üçün onlara peşə sahələri üzrə bir çox məsləhətlər verildi. Bütün bu tədbirlər bələdiyyə islahatları üzrə xüsusi əhəmiyyət kəsb etmişdir (https://e-qanun.az/framework/456040).

Həmçinin 2020-ci ildə maliyyə sahəsində aparılan işlər içərisində dövlət büdcəsindən ayrılan dotasiyalar, subsidiyalar və müxtəlif yardımlar da xüsusi vurğulanmalıdır. Bələdiyyələrə dövlət büdcəsindən dotasiyalar ayrılmış və ayrılan dotasiyaların miqdarı 2020-ci il üçün 5.2 mln manat olmuşdur. Dövlət büdcəsindən ayrılan dotasiyalar bələdiyyə fəaliyyətinə kömək məqsədi ilə ayrılır və bələdiyyələr də öz növbəsində qarşıya qoyulmuş bir çox layihələrin icrası üçün müxtəlif işlər, tədbirlər həyata keçirir. Dövlət tərəfindən aparılan islahat içərisində bu cür dotasiyaların, subsidiyaların və s. bu kimi yardımların edilməsi bələdiyyə fəaliyyətində xüsusi əhəmiyyət kəsb edir. Ayrılan dotasiyalar daha çox bələdiyyə orqanlarının işlərinin aparılması üçün cəlb edilirdi. Əldə edilmiş nəticələr isə sosial-iqtisadi inkişafın artımına və əhalinin sosial rifahının yaxşılaşdırılması xidmət edir.

Bələdiyyənin inkişafı, ərazinin sosial, iqtisadi, resurs və ekoloji potensialının davamlı bərpası ilə təmin olunan əhalinin həyat səviyyəsi və keyfiyyəti parametrlərinin müsbət dinamikasına yönəlmiş sosial-iqtisadi sistemin fəaliyyət rejimidir. Bir çox ölkədə bələdiyyələrin qarşılaşdıqları ümumi problemlərin həlli istiqamətində aşağıdakı addımların atılması vacib hesab olunur:

- bələdiyyənin idarə edilməsinin məqsəd və strategiyalarının seçilməsi və əsaslandırılması, onun ən səmərəli inkişafı üçün variantların əsaslandırılması;
- bələdiyyənin fəaliyyətinin xarici şərtlərinin proqnozlaşdırılması;
- bələdiyyənin idarəetmə orqanlarının səmərəsiz fəaliyyətinin səbəblərini müəyyənləşdirmək və onları aradan qaldırmağın ən yaxşı yollarını tapmaq;
- strateji planlaşdırma və idarəetmə metodlarının tətbiqi, idarəetmə sahəsində yeni nailiyyətlərdən istifadə;
- bələdiyyələrdə idarəetmə kadrlarının hazırlanması və onların effektiv fəaliyyəti üçün motivasiya sistemlərinin inkişafı (https://fundamental-research.ru/ru/article/view?id=4592).

**Nəticə və Təkliflər**

Tədqiqat əsasında aşağıdakı nəticə və təklifləri vermək olar:

- ✓ Ölkə ərazisində bələdiyyələrin fəaliyyəti bağlı bir çox layihələr, islahatlar aparılır. Belə ki, sadalağımız illər çərçivəsində bələdiyyə orqanlarında əhalinin sosial-rifahının artırılması yönündə əsaslı islahatlar aparılmışdır.
- ✓ Regionlarda bələdiyyələrin fəaliyyətinin artırılması üçün bir çox tədbirlər görülmüşdü. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” hazırlanmışdı. Bu proqram əsasında bələdiyyə orqanlarında bir çox normativ hüquqi aktlarda boşluqların aradan qaldırılması öz yerini tapmışdı.

- ✓ Həmçinin 2019-2023- cü illər Dövlət proqramı da islahatlar sırasında öz əksini tapmışdır. Proqram çərçivəsində bələdiyyə orqanlarına bir çox işlər təhkim olunmuşdu. Gələcək layihələr üçün xüsusi tapşırıq verilmişdir.
- ✓ Təklif olaraq qeyd edə bilərik ki, bələdiyyə orqanlarında əsaslı şəkildə bir çox işlər həyata keçirilməlidir. Belə ki, bəzi bələdiyyə sahələrində sərbəst fəaliyyət anlamı azlıq təşkil edir;
- ✓ Həmçinin yerli özünüidarəetmə orqanlarında maliyyə ehtiyyatlarının artırılması, geniş lahiyələrin icrasısının aparılması üçün maddi tezniki bazanın artırılması təklif olunur.
- ✓ Beynəlxalq təcrübələrdən istifadə edərək bələdiyyələrdə əhalinin müraciətlərinin nəzərə alınaraq məhz bu müraciət və tövsiyələr əsasında bir çox işin icra edilməsi təklif edilir.
- ✓ İslahatların vaxtında və məqsədyönlü şəkildə həyata keçirilməsi üçün vaxtaşırı monitorinqlərin həyata keçirilməsi təklif olunur ki, bu da lazımi problemin lazımi vaxtda həll olunmasına şərait yaratmış olar və s.

**Ədəbiyyat Siyahısı**


Çakır Canan "E-Belediye: Sorunlar ve Çözüm Önerileri", Sosyal ve Beşeri Bilimleri Dergisi, Sayı 1, 2015, 1-15

Евгений Бухвальд и Николай Ворошилов «Актуальные Вопросы Развития Муниципальных Образований и Реформирования Института Местного Самоуправления», Проблемы Развития Муниципальных Образований, 2023, №4, с. 132-147

Güven A. (2012), Yerel yönetimlerde performans denetimi, İstanbul, "İmpressum", 249 səh

Həsənli M. (2011), Maliyyə, Bakı. "Şərq-Qərb", 383 s.

İsmayılova A. (2008), Azərbaycan Respublikasında bələdiyyələrin formalaşmasının sosial-iqtisadi problemləri. Bakı, "Elm", 248 səh

Османова Хадижат "Роль И Место Муниципалитетов В Системе Местных Органов Самоуправления В Азербайджане", Успехи современного естествознания, 2021, vol. 11, c. 114-118;

R. Atakişiyev, S. Məmmədova, R. Fətullayev., (2015) Bələdiyyələrdə subvensiya layihələrinin hazırlanması üzrə bələdçi: Praktik nümunələr əsasında. Bakı, "Meqaprint"- 155 səh

Rzayev T. (2014), "Bələdiyyələr: inkişaf, problemlər və vəzifələr" Azərbaycan qəzeti, 12 səh

Şahbazov K.A., Məmmədov M.H., Həsənov H., (2011), Dövlət və bələdiyyə idarəçiliyi, Bakı, İqtisad Universiteti, 440 səh

Yusifov S., İsmayılov V., Hüseynov A., (2016) Yerli özünü idarəetmə. Bakı, "Ləman"- 205 səh

https://e-qanun.az/framework/456040

https://e-qanun.az/framework/16229

https://meclis.gov.az/index.php?lang=az

https://belediyye.az

https://fundamental-research.ru/ru/article/view?id=4592

https://www.e-qanun.az/framework/43333

https://meclis.gov.az/documents/hesabat/17.04.2020.pdf

# Kriptovalyuta Dövriyyəsinin Nəzəri Aspektləri və Kriptovalyuta Bazarının Tənzimlənməsi

**Ceyhun Abdullayev**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**ceyhun.abdullayev136@gmail.com**

## Xülasə

Kriptovalyuta təhlükəsizlik üçün kriptoqrafiyadan istifadə edən və mərkəzi bankdan asılı olmayaraq fəaliyyət göstərən virtual valyutadır. Kriptovalyuta bazarı, istifadəçilərin bitcoin, ethereum və digərləri kimi kriptovalyutalarla ticarət edə biləcəyi mərkəzləşdirilməmiş şəbəkədir.

Kriptovalyuta bazarının iş axını mürəkkəb alqoritmlərdən istifadə edərək əməliyyatları yoxlayan kompüterlər şəbəkəsini əhatə edir. Əməliyyatlar blokçeyn kimi tanınan ictimai kitabda qeyd olunur, bu da əməliyyatların dəyişdirilməsini və ya geri qaytarılmasını qeyri-mümkün edir. Blockchain həmçinin əməliyyatların təhlükəsizliyini və şəffaflığını təmin edir.

Müxtəlif ölkələrdə kriptovalyutalar üçün fərqli qaydalar var. Bəzi ölkələr kriptovalyutaların istifadəsinə qadağa qoyub, bəziləri isə onları qəbul edib.

Çirkli Pulların Yuyulmasına Qarşı Maliyyə Fəaliyyət İşçi Qrupu (FATF) kriptovalyutaların tənzimlənməsinə dair təlimat dərc edib. Təlimat kriptovalyutaların tənzimlənməsi üçün riskə əsaslanan yanaşmanı təsvir edir və hökumətlərə və tənzimləyicilərə təlimat verir.

FATF-in rəhbərliyi bütün dünyada kriptovalyutaların tənzimlənməsinin formalaşmasına təsir göstərib. Bir çox ölkələr FATF tövsiyələrini öz milli qanun və qaydalarına qəbul etmiş və ya tətbiq etmək mərhələsindədir. Bununla belə, müxtəlif ölkələrin kriptovalyutaları necə tənzimləməsinə dair hələ də ciddi fərqlər var, bəzi ölkələr daha liberal, digərləri isə daha məhdudlaşdırıcı bir yanaşma nümayiş etdirir.

**Açar sözlər:** kriptovalyuta bazarı, blockchain, dövlət tənzimlənməsi, FATF

## Summary

A cryptocurrency is a virtual currency that uses cryptography for security and operates independently of a central bank. A cryptocurrency market is a decentralized network where users can trade cryptocurrencies such as bitcoin, ethereum, and others.

The workflow of the cryptocurrency market involves a network of computers that verify transactions using complex algorithms. Transactions are recorded on a public ledger known as a blockchain, which makes it impossible to change or reverse transactions. Blockchain also ensures security and transparency of transactions.

Different countries have different regulations for cryptocurrencies. Some countries have banned the use of cryptocurrencies, while others have accepted them.

The Financial Action Task Force Against Money Laundering (FATF) has published guidance on the regulation of cryptocurrencies. The guidance outlines a risk-based approach to the regulation of cryptocurrencies and provides guidance to governments and regulators.

FATF's leadership has influenced the shaping of cryptocurrency regulation around the world. Many countries have adopted or are in the process of implementing the FATF recommendations into their national laws and regulations. However, there are still significant differences in how different countries regulate cryptocurrencies, with some countries taking a more liberal approach and others taking a more restrictive approach.

**Keywords:** cryptocurrency market, blockchain, government regulation, FATF

## Giriş

**Aktuallıq.** Virtual valyuta olan kriptovalyuta maliyyə əməliyyatlarının aparılması üçün yeni və inqilabi üsula çevrilib. Bitcoin kimi kriptovalyutalar mərkəzləşdirilməmişdir, yəni onlar mərkəzi

banklardan və maliyyə institutlarından asılı olmayaraq fəaliyyət göstərirlər. Bu, kriptovalyuta bazarına marağın artmasına səbəb oldu, bir çox investor və şirkət kriptovalyutaların dəyər və mübadilə üsulu kimi potensialını araşdırır.

Dünya daha rəqəmsallaşdıqca kriptovalyutaların həyatımızda rolu artacaq. İstər təcrübəli investor, istərsə də maraqlı bir müşahidəçi olmağınızdan asılı olmayaraq, kriptovalyutaların əsaslarını başa düşmək qlobal iqtisadiyyatın sürətlə dəyişən mənzərəsini idarə etmək üçün vacibdir.

**Məqsəd.** Bu tədqiqatda kriptovalyutaların mahiyyətinə, onların tarixinə, işləmə mexanizlərə, dövlət tərəfindən tənzimləmə mühitinə nəzər yetiriləcək.

**Məlumat bazası.** Tədqiqat çərçivəsində yerli və xarici alimlərin elmi əsərləri və nüfuzlu qurumların hesabatları istifadə olunub.

**Metodologiya.** Tədqiqatın məqsədinə çatması üçün ümumiləşdirmə, qruplaşdırma, müqayisəli təhlil kimi metodlarından istifadə olunub.

**Məhdudiyyətlər.** Tədqiqatın məhdudiyyətinə məlumat çatışmamazlığı aid etmək olar.

## Əsas hissə

### Kriptovalyuta anlayışı, mahiyyəti və yaranma tarixi

Hazırda cəmiyyətin bütün sahələri elmi-texnoloji tərəqqi sayəsində dəyişir, transformasiyaya uğrayır. İnformasiya texnologiyaların tətbiq sahələri artır və ictimai həyatın bütün sahələrinə nüfuz edir. İqtisadiyyat da rəqəmsallaşma istiqamətində transformasiya edir. Bu transformasiya innovativ maliyyə alətnin - kriptovalyutanın meydana gəlməsinə səbəb oldu.

Kriptovalyuta yeni anlayış olduğundan və onun başqa maliyyə alətlərindən fərqli xüsusiyyətlərinə malik olması bir çox insanın, təkcə peşəkarların deyil, bütün ictimaiyətinin diqqətini cəlb edib. Bəziləri pul qazanmaq məqsədi ilə kriptovalyuta ilə maraqlanırlar, bəziləri də kriptovalyutanın nə olduğunu və onun potensialı anlamağa çalışırlar.

Bu günə kimi müxtəlif təşkilatlar və tədqiqatçılar kriptovalyutaya tərif verməyə onun mahiyyəti nədən ibarət oluğunu anlamağa çalışıblar.

Camalov qeyd elədiyi kimi kriptovalyutaların artan populyarlığı Mərkəzi Bankların onunla bağlı hesabatlarda fikirlərin söyləməyə məcbur elədi. Bu həm də digər təşkilatlara da aiddir. Fikirlərin çoxusu kirptovalyutaların anonimlik kimi xüsusiyyəti təhlükə yarada bilməsi söylədiyinə baxmayaraq, onun üstün cəhətləri də qeyd olunur. Bir çox Mərkəzi Banklar kriptovalyutalardan mal və xidmətlərə hesablaşmalarda istifadə olunmasını təklif edib (Camalov, 2017).

Eyni zamanda Avropa Mərkəzi Bankı (“ECB”) kriptovalyutaları virtual valyutaların alt dəsti kimi təsnif edib. ECB, 2015-ci ildə Virtual Valyuta Sxemləri adlı hesabatda virtual valyutaların mahiyyətini araşdırmağa cəhd edib. Bu məqsədlə ECB kriptovalyutaları virtual valyuta adlandıraraq aşağıdakı xüsusiyyətlərini təyin edib:bəzi hallarda pula alternativ kimi istifadə oluna bilir; Mərkəzi Bank ya da kredit təşkilatı və ya elektron pul təşkilatı tərəfindən emissiya olunmur; rəqəmsal dəyəri təmsil edir.

O, həmçinin Bitcoin kimi kriptovalyutaların mərkəzləşdirilməmiş ikitərəfli virtual valyuta təşkil etdiyini də aydınlaşdırdı (European Central Bank, 2015).

Daha əvvəlki hesabatda ECB, virtual valyutaları real iqtisadiyyatla əlaqə xüsusiyyətinə görə 3 qrupa ayırmışdır:

- Birinci qrupa real pulla alına bilməyən və eynilə satıla bilməyən virtual valyutalar. Bu valyutalar ilə ancaq virtual mal və xidmətləri əldə eləmək mümkündür. ECB bu növ virtaul valyutaları kimi “onlayn oyun”-larda mövcud olan vlayutaları misal göstərir;

- İkinci qrup virtual valyutalar real iqtisadiyyatla ancaq bir tərəfli əlaqəlidir. Bu valyutalar real pula alına bilər lakin, satıla bilməz. Mübadilə məzənnəsi bu cür virtual valyutanın sahibindən asılı olur. Birinci qrup kimi ikinci qrup virtual valyutalar da onlayn mal və xidmətlər üçün hesablaşmalarda istifadə oluna bilər. Lakin eyni zamanda nadir hallarda ikinci qrup virtual valyutalar real mal və xidmətlər üçün hesablaşmalarda istifadə oluna bilər;
- Üçüncü qrup virtual valyutalar real iqtisadiyyatla ikitərəfli əlaqəlidir. Bu o deməkdir ki, bu valylutalar real valyutaya həm alına həm də satıla bilər. Eyni zamanda bu valyuta həm virtual mal və xidmətlər üçün hesablaşmalarda istifadə oluna bilər həm də real mal və xidmətlər üçün hesablaşmalarda istifadə oluna bilər (ECB, 2012).

Bundan başqa digər nüfuzlu təşkilat olan Avropa Qiymətli Kağızlar və Bazarlar Təşkilatı (“ESMA”) Bitcoin, Ripple, Ether və Litecoin kimi kriptovalyutaları virtual valyutalar kimi adlandırdı.

ESMA virtual valyutaların aşağıdakı xüsusiyyətləri qeyd edir: Mərkəzi Bank və ya dövlət orqanı tərəfindən buraxılmır; heç bir qurum tərəfindən zəmanət verilmir; real valyuta və ya pulun hüquqi statusuna malik deyil və rəqəmsal dəyəri təmsil edir (European Securities and Markets Authority, European Banking Authority və European Insurance and Occupational Pensions Authority, 2018).

Dünya Bankının əməkdaşlarının dərc elədiyi işdə bitcoin kimi kriptovalyutalar konsensusa nail olmaq üçün kriptoqrafiyaya əsaslanan rəqəmsal valyutaların alt çoxluğu kimi təsnif edildi.

Burada elektron pul ilə rəqəmsal pulun arasında fərq kimi qeyd olunur ki, elektron pullar sadəcə olaraq fiat pulların rəqəmsal ifadəsidir. Rəqəmsal pullar isə öz hesab vahidində ifadə olunan dəyərin rəqəmsal təmsili kimi müəyyən edilir (Natarajan, Krause & Gradstein, 2017).

Maliyyə Fəaliyyəti üzrə İş Qrupu (FATF) öz hesabatında Bitcoin kimi kriptovalyutaları paylanmış, açıq mənbəli, riyaziyyata əsaslanan, mərkəzi idarəetmə, nəzarət və monitorinq olmayan virtual valyutalar kimi adlandırmışdı (Financial Action Task Force, 2014).

FATF virtual valyutanın aşağıdakı xüsusiyyətləri qeyd edir: mübadilə vasitəsi və/və ya dəyər ölçüsü və/və ya yığım vasitəsi kimi fəaliyyət göstərir; heç bir yurisdiksiyada qanuni ödəniş vasitəsi statusuna malik deyil; rəqəmsal şəkildə ticarət oluna bilən dəyərin rəqəmsal təmsilidir (FATF, 2014).

Rusiya Federadiyasının Mərkəzi Bankı-n 2017-ci ildə dərc edilmiş kriptovalyutların icmalına görə kriptovalyuta virtual valyuta adlandırılaraq aşağıdakı xüsusiyyətlərə malikdir: işləməsi üçün riyazi alqoritmlərə əsaslanır; kriptoqrafik üsullarla qorunur; mərkəzləşdirilməmiş şəkildə buraxılır və dövriyyə edilir; və kriptovalyutaların buraxılması və dövriyyəsi paylanmış reyestr texnologiyası əsasında həyata keçirilir (Банк России, 2017).

Moskova isə kriptovalyutaya  nisbətən başqa cür yanaşıb. Onun fikrincə kriptovalyuta maliyyə-iqtisadi mübadilənin elektron mexanizmidir və eyni zamanda emissiyası və əməliyyatların uçotu paylanmış kompüter şəbəkəsi daxilində baş verən virtual rəqəmsal aktiv kimi müəyyən edilə bilər (Мосакова, 2020).

Yeqorova və Yefimova kriptovalyutanın xüsusiyyətlərinin məcmusu vasitəsilə onun hərtərəfli tərifini təklif eləyiblər: rəqəmsal koddur; müvafiq kompüter proqramının işləməsinin nəticəsidir; blokçeyn texnologiyasından istifadə edərək mərkəzləşdirilməmiş şəkildə fəaliyyət göstərən müvafiq protokoldan istifadə etməklə yaradıla bilər; cəmiyyətdə ödəniş vasitəsi funksiyalarını yerinə yetirən bir növ rəqəmsal mülkiyyətdir; blokçeyn texnologiyasından istifadə edərək mərkəzləşdirilməmiş şəkildə buraxılan və saxlanılan qeyri-mərkəzləşdirilmiş eyni hüquqlu yəni peer-to-peer valyutasıdır;fiziki forması yoxdur, yəni sikkə və ya əskinas şəklində mövcud ola bilməz (Егорова və Ефимова, 2019).

Həsənlinin fikrincə isə kriptovalyuta - yaradılması və nəzarəti kriptoqrafiya üsuluna əsaslanan, sürətinin çıxardılması mümkün olmayan şifrələnmiş elektron pul növüdür (Həsənli, 2017).

Leonov və Qluxova kriptovalyutanı maddi forması olmayan, uçot vahidləri muxtar mərkəzləşdirilməmiş ödəniş sistemi ilə təmin edilən valyuta kimi müəyyən etmişdilər (Леонов və Глухова, 2020).

Rudenko və Krasova-ya əsasən kriptovalyuta saxtakarlıqdan qorunan, elektron pul kisələrində saxlanıla bilən, həmçinin bir pul kisəsindən digərinə köçürülə bilən rəqəmsal valyuta növüdür (Руденко və Красова, 2015).

Barakina kriptovalyutanı rəqəmsal valyuta kimi adlandırmışdır. O qeyd edir ki, rəqəmsal valyutaların (kriptovalyutalar) elektron puldan əsas fərqlərini bunlardır: dəyərin rəqəmsal ifadəsi, mərkəzsizləşdirmə və blokçeyn texnologiyası ilə birbaşa əlaqəli olan kənar idarəetmənin olmaması (Баракина, 2020).

Barakina həm də qeyd edir ki, rəqəmsal valyuta (kriptovalyuta) anlayışının tərifi onun funksiyalarından və ya istifadə məqsədlərindən asılıdır və həmçinin qeyd eləmişdir ki, rəqəmsal valyuta (kriptovalyuta) həqiqətən də elektron pulun inkişafının növbəti mərhələsidir (Баракина, 2020).

Barakina eyni zamanda qeyd eləmişdi ki, rəqəmsal valyutanın (kriptovalyuta) mahiyyəti mübadilə vasitəsi, texnoloji hesablama vahidi və ya dəyərin ifadəsi kimi istifadə edilə bilən rəqəmsal koddur v' onun fikrincə rəqəmsal valyuta ilə elektron pul arasındakı əsas fərqlərdən biri elektron pulun dəyərin elektron nağdsız ötürülməsi üçün istifadə edilən müəyyən fiat valyutasında ifadə olunması, rəqəmsal valyutanın isə müəyyən texnoloji vahidlərdə ifadə olunan rəqəmsal kod olmasıdır (Баракина, 2020).

Gördüyümüz kimi, kriptovalyuta haqqında çoxlu fikirlər irəli sürülüb. Onları ümumiləşdirmək üçün cədvəl 1-ə nəzər salaq.

**Cədvəl 1. Tədqiqatçıların kriptovalyutanın mahiyyəti ilə bağlı qərarları**

| Tədqiqatçı | Kriptovalyuta mahiyyəti haqqında qərar |
|---|---|
| ECB, 2012, 2015 | Virtual valyutaların alt dəstidir. |
| ESMA, 2018 | Virtual valyutadır. |
| FATF, 2014 | Virtual valyutadır. |
| Natarajan H., Krause S. və Gradstein H., 2017 | Rəqəmsal valyutaların alt dəstidir. |
| Банк России, 2017 | Virtual valyutadır. |
| Мосакова Е. А., 2020 | Maliyyə-iqtisadi mübadilənin elektron mexanizmidir, virtual rəqəmsal aktivdir. |
| Егорова М. А., Ефимова Л. Г., 2019 | Rəqəmsal koddur, rəqəmsal mülkiyyətdir. |
| Həsənli Y., 2017 | Şifrələnmiş elektron pul növüdür. |
| Леонов М.В., Глухова М.Н, 2020 | Maddi forması olmayan, uçot vahidləri muxtar mərkəzləşdirilməmiş ödəniş sistemi ilə təmin edilən valyutadır. |
| Руденко Е.О., Красова Е.В., 2015 | Rəqəmsal valyuta növüdür. |
| Баракина Е. Ю., 2020 | Rəqəmsal valyutadır, elektron pulun inkişafının növbəti mərhələsidir. |

**Mənbə:** Müəllif tərəfindən tərtib olunmuşdur

Kriptovaltyutaya verilən tərifləri ümumiləşdirsək demək olar ki: Kriptovalyuta – blockchain sisteminə əsaslanan, etibarlığı konsensus alqoritmlərlə tənzimlənən, peer-to-peer hessablaşmaları üçün istifadə olunan, özündən kriptoqrafik metodlarla şifrələnən kod təşkil elədiyi maddi forması olmayan virtual valyutadır.

Satoshi Nakamoto 2009-cu ildə texniki sənəd çap etdikdə Blockchain Bitcoin ilə ictimai debütü etdi. Bununla belə, əsas texnoloji fikirlərin əksəriyyəti illər əvvəl yaranmışdı.

Məlumat bloklarının kriptoqrafik hash funksiyası ilə dəyişməz şəkildə zəncirlənməsi ideyası 1979-cu ildə Stenfordda Ralph Merkle dissertasiyasında ortaya çıxır, burada Merkle məlumatın indi Merkle hash ağacı kimi tanınan ağac strukturunda necə əlaqələndirilə biləcəyini izah edir. Xətti zəncir ağacın

xüsusi halıdır və ağac xətti zəncirdən daha səmərəli məlumat zəncirləmə üsulunu təmin edir (Sherman, Javani, Zhang & Golaszewski, 2018).

1991-ci ildə Stuart Haber və W. Scott Stornetta təhlükəsiz blokçeyn anlayışını yaratdılar. Haber, Stornetta və Dave Bayer 1992-ci ildə Merkle ağaclarını daxil etməklə sistemi təkmilləşdirdilər, bu da çoxsaylı sənəd sertifikatlarının bir blokda toplanmasına imkan verərək effektivliyi artırdı (A. Kumar, Singh & N. Kumar, 2022).

1997ci ildə Adam Back tərəfindən hashcash ixtira olunub. Hashcash bir sıra sistemlərdə spam əleyhinə istifadə olunan PoW alqoritmidir. Bu alqoritm sonradan bitcoin işləməsi üçün istifadə olunub (Wahab & Mehmood, 2018).

2008-2009-cu illərdə Satoshi Nakamoto, blokçeyn üçün praktiki istifadə nümunəsini təqdim edərək, yuxarıdakı ideyalarını birləşdirən Bitcoin haqqında texniki sənəd nəşr etdi.

Bununla belə, "kriptovalyuta" anlayışının özü 2011-ci ildə "Forbs" jurnalında "Kripto valyuta" (Crypto currency) adlı Bitcoin sistemi haqqında məqalə dərc edildikdən sonra ortaya çıxdı (Зыкова və Лобач, 2020).

2011-ci ilin yazında bitkoin ABŞ dolları ilə paritetə çatdı. Eyni zamanda, bitkoinin ondan şifrələmə üsulları və ya digər xüsusiyyətləri ilə fərqlənən analoqları görünməyə başladı. Onların arasında litecoin, etherium ("efir"), ripple, dogecoin var.

2017-ci ildə bitcoin adi bitkoinə və tərtibatçıların fikrincə, daha etibarlı "bitcoin cash" –ə parçalandı. Bu tranzaksiyaların effektivliyi daha da artırdı.

Ethereum 2022-ci ildə proof of work alqoritmindən proof-of-stake alqoritmə keçdi, çünki o, əvvəlki consensus arxitekturası ilə müqayisədə daha təhlükəsiz, daha az enerji tutumludu və daha az resursla hesablaşmaları həyata keçirməyə imkan verdi (https://tass.ru/ekonomika/13479965, 2022).

**Kriptavalyuta bazarının infrastrukturu**

DLT-nin xüsusi növü olan Blockchain, kriptoqrafik və alqoritmik üsullardan istifadə edərək daim böyüyən məlumat strukturunu yaratmaq üçün istifadə olunur. Hansında ki, məlumat yalnız əlavə edilə bilər. Həmin məlumat strukturu "əməliyyat blokları" yəni blockchain adlanan zəncir formasını alır, hansı ki, məlumat bazası funksiyasını yerinə yetirir (Natarajan, Krause & Gradstein, 2017).

Paylanmış məlumatlar bazası çoxsaylı hesablama cihazlarında saxlanılan rəqəmsal məlumat strukturunun bir növüdür. Paylanmış məlumatlar bazası texnologiyası (DLT) paylanmış məlumatlar bazasının mərkəzləşdirilməmiş saxlanmasına və yenilənməsinə imkan verən texnologiya növüdür (Belotti, Božić, Pujolle & Secci, 2019).

Blockchain sistemində bütün qovşaqların hüquqları eyni olduğudan, hansı blokun dügün hansı isə yanlış olduğunu müəyyən etmək çətinləşir. Bu problemin aradan qaldırılması məqsəiylə xüsusi qərar qəbuletmə mexanizləri tədbiq olunur. Bunlara consensus protokolları deyilir (İmamverdiyev və Sadiyeva, 2018).

Blockchain-də bir sıra konsensus protokolları var, lakin mövcud blokçeynlərin əksəriyyəti PoW mexanizmindən istifadə edir. Bitcoin-də olan Proof of Work (PoW) blockchain-i arzuolunmaz dəyişikliklərdən qorumaq üçün istifadə olunur.

PoW on Bitcoin aşağıdakı şəkildə işləyir: Namizəd blokunda olan bütün məlumatlar onun hash kodu ilə hesablanır. Yaradılan bu hash kodu sistem tərəfindən müəyyən edilmiş meyarlarına cavab verməlidir. Əgər hash kodu meyarlara uyğun gəlmirsə, o zaman hesablama nonce-də müəyyən dəyişiklik olunmaqla təkrarlanacaq və bu proses hash-in düzgün dəyərini tapana kimi təkrar olunacaq. Nonce - hash kodu yaratmaq üçün bloka əlavə edilən qiymətdi (Gemeliarana & Sari, 2019).

İlk Proof-of-Stakes (PoS) şəbəkəsi - Peercoin, PoW-nin hesablama tələblərini azaltmaq məqsədi ilə hazırlanmışdır. Şəbəkədə saxlanılan tokenlərinin miqdarından və onların saxlanma müddətindən asılı

olaraq iştirakçıların validator kimi seçilmək şansı daha yüksəlir. PoW –dan fərqli olaraq, PoS şəbəkələrində hesablama tamamilə silinir və blok liderləri artıq hesablama gücü ilə seçilmir. Bunun əvəzinə, onlar tutduqları paylara əsasən seçilirlər. Bununla bir qovşağın lider olmaq üçün seçilmə şansı artıq onun hesablama gücündən asılı deyil və beləliklə, PoS mexanizmlərinin enerji istehlakı PoW ilə müqayisədə əhəmiyyətli dərəcədə azalır. Bu həmçinin əməliyyatların sürətini artırır (Nguyen et al, 2019).

Proof-of-Stake (ingilis dilindən "sahiblik sübutu") hesablama qovşaqları (nodları) arasında müəyyən bir alqoritmə uyğun olaraq yeni bloklar yaratmaq, əməliyyatları yoxlamaq və onları blokçeynə daxil etmək hüququnun bu blokçeynin nə qədər sikkələrinə sahib olduqlarını nəzərə alaraq müəyyənləşdirən konsensus mexanizmidir. Dövriyyədə olan bütün sikkələrin 1%-nə sahib olan nod blokların 1%-ni emal etmək hüququ əldə edir və onun işinə görə bütün şəbəkə mükafatlarının 1%-ni alır. Bununla belə, bir çox kriptovalyuta sikkələrə sahiblik müddətini və digər amilləri də nəzərə alır (https://ethereum.org/en/developers/docs/consensus-mechanisms/pos/).

Blockchain sistemində çox vaxt texnoloji dəyişikliklər baş verir və bu hadisə "fork" adlanır. "Fork – proqram təminatında məhsulun hər biri müstəqil inkişaf etdirilən bir neçə paralel budağa ayrılmasıdır və ya çoxdan mövcud olanın əsasında yeni məhsulun buraxılmasıdır" (İmamverdiyev və Sadiyeva, 2018).

Blockchain şəbəkəsində iki fərqli versiyanın olmasına səbəb olan parçalanma olduqda fork baş verir. Çox vaxt blockchain şəbəkəsinin yenilənməsi məqsədi ilə fork baş verir. Blockchain-də baş verən dəyişiklərin səviyyəsindən asılı olaraq hard fork və soft fork baş verir (https://coinmarketcap.com/alexandria/glossary/fork-blockchain).

Hard fork, blokchain-in bir-biri ilə paralel işləyən, hər biri ümumi əvvəlki zəncirdən fərqli parametrlərə malik iki ayrı blokçeynə "parçalandığı" hadisədir. Şəkil 2-də hard fork prosessi göstərilib.

Hard fork kriptovalyutaların arasında uyğunluğunu pozur. Buna görə də, əməliyyat tarixçəsi və parametrləri hard forkdan əvvəl eyni olsa belə, hər iki şəbəkənin tarixi fork hadisəsindən sonra bir-birindən ayrılır və fork-dan sonra hər hansı sonrakı fəaliyyət digərində əks olunmayacaq (https://coinmarketcap.com/alexandria/glossary/hard-fork-blockchain).

**Şəkil 2. Hard fork prosessi**




**Mənbə:** Müəllif tərəfindən tərtib olunmuşdur

Soft fork heç bir fundamental struktur dəyişikliyinə səbəb olmadan hər hansı funksionallığı dəyişdirmək və ya əlavə etmək üçün blokçeynə tətbiq edilən dəyişikliklərə aiddir. Bu zaman, köhnə əməliyyatlar və ya bloklar yeni konsensus qaydalarına əməl etməyə qərar vermiş şəbəkə qovşaqları üçün qeyri etibarlı olmağa başlayır. Bununla belə, köhnə konsensus qaydalarına əməl edən qovşaqlara yeni əməliyyatları və ya blokları etibarlı hesab etməyə imkan verir (https://coinmarketcap.com/alexandria/glossary/soft-fork-blockchain).

Kriptovalyutaları ilkin olaraq bitcoin və altcoin-lər ayırmaq olar. İlk kriptovalyutanın bitcoin-in yaradılnasından sonra yaradılan bütün alternativ sikkələr altcoin adlandırılır.

Coinmarketcap məlumatına görə yüzlərlə altcoin mövcuddur və onun sayı getdikcə artır. 2011-ci ilin aprelində qurulan Namecoin ilk altcoindi. Altcoin-lərində biri olan Bu Litecoin özünü "Qızıl Bitcoin qarşısında gümüş" kimi təqdim edir (Hacızadə, 2017).
Altcoin-ləri də yaranma platformalarına görə 2 yerə ayırmaq mümkündür: bitcoin-nin protokoluna əsaslanaraq fəaliyyət göstərən altcoin-lər və bitcoin-in açıq mənbə protokoluna əsaslanmayan, öz protokolu və paylanmış məlumatlar bazası olan altkoinlər. Birincisinə nümunə kimi Litecoin digərinə isə Ethereum göstərmək olar (Houben & Snyers, 2018).
Bitcoin (BTC) ilk və ən populyar kriptovalyutadır. Bitcoin bir çox birjalarda satılır və kriptovalyuta investisiyalarının əsas obyektidir. Bitcoin (BTC) adətən virtual, qeyri-mərkəzləşdirilmiş və dövlət tərəfindən dəstəklənməyən və ya hər hansı digər hüquqi şəxs tərəfindən dəstəklənməyən, qızıla və ya hər hansı digər əmtəəyə dəyişdirilə bilməyən anonim valyuta kimi təsvir edilir.
Ethereum (ETH) mərkəzləşdirilməmiş hesablama platforması öz blokçeyni əsasında yaradılmışdır. Onun işi ağıllı müqavilələrin icrasına əsaslanır.Ethereum platformasının öz kriptovalyutası var - ETH. Sistem daxilində hesablaşmalar üçün istifadə olunur və müxtəlif birjalarda ticarət edilir.
Ethereum-un fərqli xüsusiyyəti ağıllı müqavilələrin istifadəsidir. Bu, blokçeynində qeydə alınan əməliyyatın şərtlərinin yerinə yetirilməsinə avtomatik nəzarət edə bilən virtual alqoritmin adıdır.
Tether (USDT) 2014-cü ildə Tether Limited tərəfindən yaradılmışdır. USDT əvvəlcə Realcoin adlanırdı. Lakin sonrakı rebrendinq zamanı Tether-in yaradılması ideyası yarandı. Nəticədə real valyuta ilə blockchain yexnologiyası birləşdirilərək USDT rəqəmsal sikkələri meydana çıxdı. USDT stablecoin sayılır və onun qiyməti 1 ABŞ dollar dəyərinə yaxın olur. Bu onu hesablaşma üçün istifadə edəcəyini mümkün edir (https://fixedfloat.com/blog/currency/usdt).
2017-ci ildə yaranan BNB Binance kriptovalyuta birjasında ticarət etmək və ödəniş etmək üçün istifadə edilə bilən kriptovalyutadır.
Binance Coin istifadəçiləri stimul olaraq Binance Exchange-də əməliyyat haqlarında endirim əldə edirlər. BNB həmçinin Bitcoin, Ethereum, Litecoin və s. kimi digər kriptovalyutalar üçün də dəyişdirilə və ya satıla bilər (https://corporatefinanceinstitute.com/resources/cryptocurrency/binance-coin-bnb/).
USD Coin (USDC) dollara bağlanmış mərkəzləşdirilmiş stabilkoindir. USDC tokeni 2018-ci ilin sentyabrında buraxıldı.
USDC, ABŞ-ın tənzimlənən maliyyə institutlarının balansında saxlanılan borc qiymətli kağızları və pul vəsaitlərinin ehtiyatları ilə dəstəklənir və müntəzəm olaraq yoxlanılır. Stablecoin-in emitenti Amerika Circle və Coinbase şirkətlərinin konsorsiumu olan CENTER-dir.
USDC mərkəzləşdirilmiş stabilkoindir və bir neçə səbəbə görə məşhurdur. Bazar
iştirakçıları aktivin emitentlərinə etibar edirlər: Circle və Coinbase yüksək iş standartlarını qoruyan və qanunlara əməl edən böyük və tənzimlənən maliyyə institutlarıdır.
Bundan əlavə, onlar mərkəzləşdirilmiş stabilkoinlərə etibarlılıq və etibar üçün əsas olan USDC ehtiyatları üçün şəffaf hesabat sistemi yaratmağa müvəffəq olublar. USDC qiymətini təmin etmək üçün lazım olan vəsait ABŞ-ın ən böyük banklarının balansında saxlanılır və müntəzəm olaraq müstəqil auditor tərəfindən yoxlanılır (https://forklog.com/cryptorium/chto-takoe-usdc).
Texniki cəhətdən desək, BUSD, ABŞ dollarına bağlanmış fiat dəstəkli stablecoindir. BUSD-nin ümumi məbləğinə bərabər olan ABŞ dolları məbləği ABŞ banklarında saxlanılır və Federal Əmanətlərin Sığortalanması Korporasiyası (FDIC) və ABŞ Xəzinədarlığı tərəfindən sığortalanmış ehtiyat kimi çıxış edir (https://academy.binance.com/ru/articles/what-is-busd).
Ripple (XRP) rəqəmsal ödəniş şəbəkəsi və hesablaşma, aktiv mübadiləsi və pul köçürmələri üçün istifadə olunan protokoldur.

Ripple-ın yerli kriptovalyutası "XRP Ledger" kimi tanınan əsas blokçeyni işini təmin edir. Digər blokçeynlərdən fərqli olaraq, yalnız əvvəlcədən təsdiqlənmiş iştirakçılar XRP Ledger-də əməliyyatları validator kimi təsdiqləyə bilər. Şirkət ilk dəfə işə salındıqda, 100 milyard XRP-nin hamısı artıq yaradılmış və fiziki şəxslərə və şirkətlərə paylanmışdı (https://www.binance.com/ru/price/xrp).

Dogecoin 2013-cü ildə Jackson Palmer və Billy Marcus tərəfindən hazırlanmışdır.

Başlanğıcda, Dogecoin çox az dəyərə malik idi və sosial mediada və Reddit kimi onlayn forumlarda istifadəçilərə təşəkkür etmək üçün istifadə edilirdi.

Bundan əlavə, nadir hallarda olsa da, e-ticarətdə istifadə olunur, çünki istifadəçilər müəyyən tacirlərdən Dogecoin ilə mal və xidmətlər ala bilərlər.

Dogecoin-in maksimum emissiyası 100 milyard DOGE idi, lakin bu anda məhdudiyyət qaldırıldı, bu da təklifi faktiki olaraq qeyri-məhdud edir (https://www.binance.com/ru/price/dogecoin).

Cardano (ADA) 2017-ci ildə əsası qoyulmuş mərkəzləşdirilməmiş Proof-of-Stake (PoS) blokçeyn platformasıdır. Bu, Proof-of-Work blokçeynlərindən daha enerjiyə qənaət edən PoS konsensus mexanizmini uğurla həyata keçirmiş ən böyük blokçeyn şəbəkələrindən biridir. Cardano-nın yerli kriptovalyutası ADA istifadəçilərə şəbəkədə iştirak etməyə imkan verir (https://coinmarketcap.com/currencies/cardano/).

Litecoin (LTC) ilk dəfə 2011-ci ildə "bitkoinin miniatür versiyası" kimi təqdim edilən ilk altcoin-lərdən biridir, çünki blokçeyn əsasən bitcoin-in koduna əsaslanırdı.

Litecoin sürətli blok yaratmağı ilə və Scrypt adlı başqa bir Proof of Work (PoW) alqoritminə görə fərqlənir. Scrypt alqoritmi vasitəsi ilə hər 2,5 dəqiqədən bir yeni bloklar yaradılmağı mümkün oldu. Bitcoində isə həmin bloklar hər 10 dəqiqədən bir yaradılırdı. Bunun nəticəsində litecoin tez-tez hesablaşma vasitəsi kimi işlədilməyə başlamışdı (https://academy.binance.com/ru/articles/what-is-litecoin-ltc).

**Şəkil 3. 2022ci il noyabr tarixinə görə kriptovalyutaların kaptallaşması**




**Mənbə:** Müəllif tərəfindən https://coinmarketcap.com mənbəyə əsaslanaraq tərtib olunmuşdur

Şəkil 3-də göründüyü kimi BTC və ETH kapitallaşmaya görə digər kriptovalyutalardan dəfələrlə çoxdur.

Kriptovalyutaya artan maraq 2011-ci ildən bəri onlayn birjalar yaranmasının səbəbi olub.

Kriptobirjaları mübadilə xarakterindən asılı olaraq 2 növə bölmək olar:

1) Kriptovalyutanın real valyutaya mübadilə edildiyi birjalar;

2) Bir növ kriptovalyutaları digər kriptavalyutalara mübadilə edildiyi birjalar (İmamverdiyev və Sadiyeva, 2018).

Kriptovalyuta birjası, bazarda müəyyən edilmiş məzənnə ilə kriptovalyuta ilə əməliyyatlar aparmağa imkan verən proqramdır. Əsas gəlir mənbəyi pul vəsaitlərinin yerləşdirilməsi və çıxarılması üçün komissiyalar, habelə ticarət əməliyyatları üçün komissiyalardır (Леонов və Глухова, 2020).
Bir çox kripto-birjalar likvidliyini artırmaq məqsədi ilə öz kriptovalyutalarını buraxır. Məslən Binance kripto birjasının Binance USD (BUSD) adlı kriptovalyutası var.
Hazırda Binance, Coinbase Exchange, Kraken, KuCoin kimi birjalar fəal istifadə olunur. Cədvəl 2-də onların günlük ticarət həcmi göstərilmişdi

**Cədvəl 2. Kriptobirjaların günlük ticarət həcmi**

| Kriptobirja | Günlük ticarət həcmi (dollar ilə) |
|---|---|
| Binance | 10,039,848,354 |
| Coinbase Excange | 1,189,728,305 |
| Kraken | 516,649,101 |
| KuCoin | 294,793,676 |

**Mənbə:** Müəllif tərəfindən https://coinmarketcap.com mənbəyə əsaslanaraq tərtib olunmuşdur

Binance, gündəlik ticarət həcminə görə dünyanın ən böyük kriptovalyuta birjasıdır. Bu nəhəng platforma 2017-ci ildə Çində Changpeng Zhao tərəfindən təsis edilib və o vaxtdan kriptovalyuta sahəsində liderə çevrilib.
2018-ci ilin yanvar ayına qədər Binance artıq milyardlarla dollar gündəlik ticarətlə dünyanın ən böyük kriptovalyuta birjasına çevrilmişdi. Bundan əlavə, Binance tərəfindən yaradılmış kriptotoken olan BNB-nin istifadəyə verilməsi tezliklə dünyada yalnız Bitcoin və Ethereum-dan sonra ən çox satılan üçüncü token oldu (https://history-computer.com/binance-history/, 2022).
Coinbase Exchange, istifadəçilərin asanlıqla kriptovalyutaları ala, sata, dəyişdirə və saxlaya biləcəyi ABŞ-da yerləşən kriptovalyuta ticarəti və investisiya platformasıdır.
Layihə Brayan Armstronq və Fred Ehrsam tərəfindən 2012-ci ildə yaradılıb.
Fiziki baş ofisi olmamasına və bütün işçilər uzaqdan işləməsinə baxmayaraq şirkət ABŞ tənzimləyicilərinin etimadını qazanıb.
Coinbase 100-dən çox ölkədə mövcuddur, baxmayaraq ki, bəzi funksiyalar müəyyən sahələrdə məhdudlaşdırıla bilər (https://coinmarketcap.com/exchanges/coinbase-exchange/).
2011-ci ildə qurulan Kraken birjası çoxsaylı məhsul və xidmətlər təklif edir, o cümlədən: spot ticarət, marja ticarəti, fyuçer və indekslər. Kraken Nyu York və Vaşinqtonda yaşayanlar istisna olmaqla, bütün ABŞ sakinləri üçün əlçatandır. Bununla belə, Kraken Hazırda platforma təxminən 200 ölkədə milyonlarla müştəriyə xidmət göstərir (https://coinmarketcap.com/exchanges/kraken/).
Kucoin birjası rəsmi olaraq 2017-ci ilin avqustunda fəaliyyətə başlayıb. Şirkətin baş ofisi Seyşel adalarında, ofisləri Honq-Konq və Sinqapurda yerləşir, dünya üzrə 20 milyondan çox istifadəçisi və 200-dən çox ölkədə fəaliyyət göstərir (https://coinmarketcap.com/exchanges/kucoin/).

**Kriptovalyuta Bazarının Tənzimlənməsi**

Bu günə qədər bir çox ölkələr kriptovalyutaya müxtəlif cür yanaşıblar: bəzi ölkələrdə kriptovalyuta qadağandır, digərlərdə isə kriptovalyuta ilə əməliyyatlara müəyyən məhdudiyyətlər ilə yol verilir.
Bitcoin və digər kriptovalyutalar mərkəzi banklardan və dövlətdən asılı olmadan mərkəzləşdirilməmiş formada fəaliyyət göstərildiyinə görə onun tənzimlənməsi olduqca önəmlidir.
Kriptovalyuta bazarında mərkəzləşdirilmiş stablecoinlər və kriptobirjalar mövcud olmasına baxmayaraq mərkəzləşdirilməmiş kriptovaluyutalar və kriptobirjaların sayı daha çoxdur. Bu isə kriptovalyuta bazarının tənzimlənməsini çətinləşdirir. Dövlətin kriptovalyuta sahəsində tənzimlənməsinin əsas məqsədləri aşağıdakılardan ibarətdi:
1. çirkli pulların yuyulmasına; cinayətin maliyyələşdirilməsi; vergidən yayınmasına qarşı mübarizə.

2. İstehlakçılarının maraqlarının qorunması: a) fırıldaqçılıqdan müdafiə; b) kriptovalyutalarla əməliyyatlar apararkən mübahisələrin həlli üçün normativ bazanın yaradılması; c) kriptoaktivlərin mülkiyyət hüququnun ötürülməsi üçün qanunvericilik əsaslarının formalaşdırılması.
Kriptovalyuta bazarında nəzarət olamaması çirkli pulların yuyulması, terorizmin maliyyələşməsi kimi təhlükələri yaradır. Bu təhlükələri aradan qaldırmaq məqsədi ilə FATF 2018-ci ildə virtual valyutalar ilə bağlı yenilənmiş tövsiyyələr verdi (FATF, 2019).
FATF Tövsiyələrində açıq şəkildə göstərilir ki, ölkələr riskə əsaslanan yanaşma tətbiq etməlidirlər. Riskə əsaslanan yanaşmanın bir hissəsi kimi ölkələr yüksək riskli virtual aktivlərlə bağlı fəaliyyətlərə tətbiq olunan tələbləri sərtləşdirməlidirlər. Çirkli pulların yuyulması və terorizmin maliyyələşdirilməsi risklərinin qiymətləndirilməsində mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş virtual valyuta arasındakı fərqi nəzərə alması əsas məsələlərdən biridir (FATF, 2019).
Ölkələr siyasətçilərə, nəzarətçilərə və tənzimləyicilərə, maliyyə kəşfiyyat bölmələrinə və hüquq-mühafizə orqanlarına bir-biri ilə və hər hansı digər səlahiyyətli orqanlarla qarşılıqlı əlaqədə olmaq imkanı verəcək idarələrarası işçi qrupları və ya xüsusi qruplar kimi strukturların yaradılmasını nəzərdən keçirməlidirlər. Həmçinin ölkələr virtual aktivlərlə bağlı cinayətdən əldə edilən gəlirləri əhatə etmək üçün mövcud ML ilə bağlı tədbirlərini genişləndirməlidir. Terorizmin maliyyələşdirilməsinə qarşı tədbirlər virtual aktivlər daxil olmaq istənilən aktivlərə yayılmalıdır (FATF, 2019).
Ehtiyyac duyulduğu halda ölkələr sanksiyalar siyahısında olan fiziki və ya qurumların vəsaitlərini və ya digər aktivlərini o cümlədən virtual valyutaları təxirə salmadan dondurulmalıdır (FATF, 2019).
FATF tərəfindən verilən bu kimi tövsiyyələr kriptovalyuta tənzimlənməsi sahəsində normativ-hüquqi bazasını yaratmasında köməklik göstərməli və tənzimləmənin bəzi çətinlikləri aradan qaldırmalıdır.
Müxtəlif ölkələrdə kriptovalyuta bazarının tənzimlənməsi təcrübəsi aşağıda qeyd olunub.
Çində hələ 2013-cü ildə bitkoin qanuni valyuta olmayan virtual mal kimi tanınıb, nəticədə Çindəki banklara və maliyyə institutlarına bitkoinləri fiat valyutaya çevirmək qadağan edilib. Çin Mərkəzi Bankı həmçinin bütün bitkoin şirkətlərindən İnformasiya Texnologiyaları Nazirliyində qeydiyyatdan keçməyi tələb edib (Зыкова və Лобач, 2020).
2021-ci ilin may ayında Çin Dövlət Şurası ekoloji narahatlıqlar və maliyyə risklərini əsas gətirərək Bitcoin hasilatı və ticarət fəaliyyətlərinə qarşı sərt tədbirlər gördüyünü elan etdi. O vaxtdan bəri bir neçə böyük mining şirkəti Çində fəaliyyətini dayandırıb və əməliyyatlarını başqa ölkələrə köçürüb (https://www.bbc.com/news/technology-58678907).
Amerika Birləşmiş Ştatlarında kriptovalyuta bazarının tənzimlənməsi istiqamətində normativ-hüquqi baza sürətlə formalaşır və təkmilləşir. ABŞ Senatının Bankçılıq Komitəsinin üzvü Pat Toomey 2022-ci ilin aprelində ödəniş stabilkoinləri üçün hərtərəfli tənzimləyici çərçivəni quran Senatın ilk qanun layihəsi, "Stablecoin Ehtiyatının Şəffaflığı və Vahid Təhlükəsiz Əməliyyatlar Aktı"nı təklif etdi. Bu qanun layihəsinin əsas məqsədləri: Stablecoin emitentlərini standartlaşdırılmış məlumatların açıqlamaqla stablecoin-lərin şəffavlığının artırılması, onların yüksək keyfiyyətli likvid aktivlərlə tam təmin olunmasını tələb etməklə maliyyə sabitliyini artırılması, Milli Bankların əsas federal tənzimləyicisinə stablecoin emitentləri üçün yeni federal lisenziya verməyə səlahiyyətləndirməq (https://www.banking.senate.gov/newsroom/minority/toomey-introduces-legislation-to-guide-future-stablecoin-regulation).
Həmçinin, Senat üzvləri tərəfindən gündəlik alışlar üçün rəqəmsal aktivlərdən istifadəni asanlaşdırmaq məqsədi ilə Virtual Valyutaya Ədalətli Verg Qoyulması Qanunu irəli sürülüb. ABŞ-nın mövcud qanunvericiliyinə əsasən, rəqəmsal aktivdən hər dəfə istifadə edildikdə, vergi tutulma baş verir. Virtual Valyutaya Ədalətli Vergi Qayulması Qanunu, 50 ABŞ dollardan az olan gəlirlər və şəxsi əməliyyatlar üçün vergi güzəşti tədbiq etməklə gündəlik əməliyyatlar üçün rəqəmsal aktivlərdən

istifadəni asanlaşdıracaq (https://www.banking.senate.gov/newsroom/minority/toomey-and-sinema-introduce-bipartisan-legislation-to-simplify-use-of-digital-assets-for-everyday-purchases#:~:text=The%20Virtual%20Currency%20Tax%20Fairness%20Act%20would%20simplify%20the%20use,for%20personal%20transactions%20under%20%2450).

ABŞ-da rəqəmsal aktivlər, yəni kriptovalyutalar mülkiyyət kimi vergiyə cəlb olunur. Rəqəmsal aktivlə əməliyyatlar ümumiyyətlə vergi bəyannaməsində bildirilməlidir. Bu əməliyyatlara aiddir və onunla məhdudlaşmır: fiat pulla rəqəmsal aktivlərin satılması; rəqəmsal aktivin əmlaka və ya mal və xidmətlərə mübadiləsi; Hard fork, Mining və ya staking nəticəsində yeni rəqəmsal aktivin əldə olunması; hədiyyə sayılmayan rəqəmsal aktivin pulsuz alınması; hədiyyə olan, lakin müəyyən məbləğdən artıq olan rəqəmsal aktivin verilməsi (https://www.irs.gov/businesses/small-businesses-self-employed/digital-assets).

Birləşmiş Krallıqda hökümətin 2019-cu ilin qərarına əsasən kriptovalyutaların və əlaqəli fəaliyyətlərin tənzimlənməsinə ilk növbədə Birləşmiş Krallıqda maliyyə bazarlarına nəzarət edən müstəqil tənzimləyici orqan olan Maliyyə Davranışı Təşkilatı (FCA) tərəfindən nəzarət edilir. FCA ölkədə kripto sənayesini fəal şəkildə izləyir və tənzimləyir. 2020-ci ildən başlayaraq FCA Birləşmiş Krallıqda kriptovalyuta biznesində çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə (AML/CTF) nəzarətçisi kimi fəaliyyət göstərir. Bu o deməkdir ki, Birləşmiş Krallıqda fəaliyyət göstərən bütün kriptovalyuta müəssisələri FCA-da qeydiyyatdan keçməli və AML/CTF qaydalarına əməl etməlidir (https://www.gov.uk/government/publications/economic-crime-plan-2019-to-2022/economic-crime-plan-2019-to-2022-accessible-version).

Ümumiyyətlə, Birləşmiş Krallıqda kriptovalyutaların və əlaqəli fəaliyyətlərin tənzimlənməsi hələ də inkişaf edir.

İsveçdə bitcoin çirkli pulların yuyulması haqqında qanuna tabedir və 2013-cü ildən bəri qanuni valyuta hesab olunur. Kriptovalyutalar üçün hüquqi bazanın ziddiyyətli qanunları və ziddiyyətli siyasətləri var. Bəzi hökumət orqanları kriptovalyutalarla bağlı risklər barədə xəbərdarlıqlar etsə də, digər İsveç səlahiyyətliləri yeni texnologiyanın faydalarını rəsmən etiraf ediblər. İsveçin maliyyə tənzimləyicisi kriptovalyutalara sərmayə qoymaqla bağlı yüksək risklər və istehlakçıların aşağı müdafiəsi barədə ictimaiyyətə xəbərdarlıq edib. İsveçin maliyyə tənzimləyicisi aydınlaşdırdı ki, kriptovalyuta sərmayələri istehlakçılar üçün uyğun deyil, çünki onları etibarlı əsasda qiymətləndirmək çətin, hətta qeyri-mümkündür. Kriptovalyutanı qiymətləndirmək çətin ola bilər, çünki onun həqiqi daxili dəyəri yoxdur, çünki o, qızıl, gümüş və ya milli hökumət tərəfindən dəstəklənmir. Onun heç bir daxili dəyəri olmadığı üçün onu qiymətləndirmək çətin ola bilər (https://freemanlaw.com/cryptocurrency/sweden/).

Bundan əlavə, hökumət orqanları investorların kriptovalyutalara investisiya ilə bağlı risklərdən qorumadığını vurğulayıb. İsveçin mərkəzi bankı Riksbank, kriptovalyutaların potensial faydalarını tanıdığını bildirdi. Konkret olaraq, Riksbank İsveç parlamentindən İsveçi rəqəmsal valyuta innovasiyalarının mərkəzinə çevirmək üçün beş il müddətində ildə 30 milyon İsveç Krona (və ya təxminən 3,1 milyon dollar) sərmayə qoymağı xahiş etdi. İsveç hökuməti təsdiq edərsə, İsveç beş il ərzində kriptovalyuta konfranslarını maliyyələşdirmək üçün 15.500.000 dollar investisiya edəcək (https://freemanlaw.com/cryptocurrency/sweden/).

Almaniyada kriptovalyutalar ümumiyyətlə maliyyə alətləri kimi qəbul edilir və Federal Maliyyə Nəzarəti Orqanları tərəfindən tənzimlənir. Bu o deməkdir ki, Almaniyada kriptovalyuta ilə bağlı xidmətlər təklif etmək istəyən hər bir şirkət BaFin-dən lisenziya almalıdır. Lisenziyalaşdırma prosesi ciddidir və tənzimləyici tələblərə, o cümlədən KYC və AML qaydalarına ciddi riayət etməyi nəzərdə tutur (https://www.bafin.de/dok/18463616).

Bundan əlavə, Almaniya hökuməti blockchain tədqiqatı və inkişafı üçün maliyyə ayırıb və Almaniyada blokçeyn texnologiyasının qəbulunu dəstəkləmək üçün Blockchain Strategiyasını təsis edib. Almaniya hökuməti Blockchain Strategiyası vasitəsilə blokçeyn texnologiyasının inkişafı və mənimsənilməsini fəal şəkildə dəstəkləyir. Strategiya 2019-cu ildə işə salınıb və Almaniyanı blokçeyn texnologiyası üçün aparıcı mərkəzinə çevrilməsi məqsədini daşıyır (https://www.bundesfinanzministerium.de/Content/EN/Pressemitteilungen/2019/2019-18-09-joint-release-with-bmwi.html).

2018-ci ildə Bolqarıstan Milli Bankı virtual valyutaların alınmasının risklərini açıqlayıb. Bank qeyd edib ki, risklər yüksək volatillik və qiymət köpüyü əlamətləri ilə bağlıdır. Ölkədə kriptovalyutalar AML normativləri ilə tənzimlənir.

Bolqarıstan Mərkəzi Bankının vergitutma kontekstində virtual aktivlərin elektron pul və maliyyə alətləri olmadığı barədə bəyanatına baxmayaraq, kriptovalyutalarla əməliyyatlardan əldə edilən gəlir maliyyə aktivinin satışından əldə edilən gəlir kimi qəbul edilməlidir. Müvafiq bəyanat Milli Gəlirlər Agentliyinin 2 aprel 2014-cü il tarixli rəyində yer alıb. Maliyyə orqanı göstərir ki, fiziki şəxslərin virtual valyuta bitkoinin satışından və ya dəyişdirilməsindən əldə etdiyi gəlirlər illik vergi bəyannaməsində bəyan edilir və onlardan vergi ödənilir.Vergi məqsədləri üçün bitkoinlərin satışından əldə edilən gəlir maliyyə aktivinin satışından əldə edilən gəlir kimi qiymətləndirilməlidir (https://manimama.eu/tpost/ytsrz9hzv1-regulirovanie-kriptovalyuti-v-bolgarii).

Sinqapur hökümətı kriptovalyutalara ehtiyyatlı yanaşırlar. Bütün perspektivləri nəzərə alsa belə kriptovalyuta ilə bağlı riskləri də nəzərə alır. Sinqapurda kriptovalyuta pul ekvivalenti kimi qəbul olunmur. Hökümət payment serviceses Act 2019 adlı qanuna əsasən  kriptovalyuta ilə əlaqədar çirkli pulların yuyulmasına qarşı tədbirlər görür. Bu qanuna görə kriptovalyuta ilə bağlı xidmətlər göstərən şəxs hökümətdən lisenziya almalıdı. Sinqapurda kriptovalyutalardan gəlir vergiyə tutulur. Fəaliyyətin növündən asılı olaraq bu vergi gəlir vergisi və ya kapital artımı vergisi kimi təyin olunur (https://www.globallegalinsights.com/practice-areas/blockchain-laws-and-regulations/singapore).

2017-ci ildən Avstraliyada kriptovalyuta və kriptovalyuta birjaları qanuni oldu və mülkiyyət kimi qəbul edildi. Hökumət kriptovalyutaya çox müdaxilə etməyib. Lakin AML ilə bağlı mövcud qanunvericilikdə tənzimləməri yerinə yetirib

Kriptovalyuta birjaları Avstraliya Əməliyyat Hesabatları və Təhlil Mərkəzində qeydiyyatdan keçməlidirlər. Bunun məqsədi cinayət və ya çirkli pulların yuyulmasını maliyyələşdirmək üçün kriptovalyutalardan istifadənin qarşısını almaqdır. Avstraliya qanunlarına edilən düzəlişlər, ilk növbədə, kriptovalyutalarla bağlı əməliyyat əlaqələri və fəaliyyətlərə diqqət yetirir. Avstraliyada kriptovalyutalar kapital artımı kimi vergiyə tutulur (https://openlegal.com.au/australian-regulations-around-cryptocurrency/).

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) kriptovalyuta və blokçeyn texnologiyasına qarşı pozitiv mövqe tutur. Dubay 2020-ci ilə qədər şəhəri blokçeynlə işləyən iqtisadiyyata çevirməyi hədəfləyən "Dubay Blockchain Strategiyası"nı da qurmuşdur. Strategiya müxtəlif tətbiqlərdə blokçeyn texnologiyasını tətbiq etmək üçün səhiyyə, nəqliyyat və təhsil də daxil olmaqla müxtəlif sektorlara diqqət yetirir (https://www.digitaldubai.ae/initiatives/blockchain#:~:text=The%20Dubai%20Blockchain%20strategy%20will%20usher%20in%20economic%20opportunity%20for,fuelling%20entrepreneurship%20and%20global%20competitiveness.).

Dubay Virtual Aktiv Tənzimləmə Təşkilatı artıq Binance kriptobirjası da daxil olmaqla bəzi ən böyük kripto birjalarına lisenziyalar verib. Lisenziya birjalara kripto kreditləri kimi bəzi xidmətlər istisna olmaqla birjanın xidmətləri göstərməyə icazə verdi (https://www.coindesk.com/policy/2022/11/09/dubai-presses-for-crypto-companies-to-set-up-shop/).

Ümumilikdə, BƏƏ blokçeyn texnologiyası və kriptovalyutaların istifadəsini fəal şəkildə təşviq edir və hökumətin təşəbbüsləri onun bu sahədə qlobal lider olmağa sadiqliyini göstərir.
2011-ci il illik hesabatında Tracfin, Bitcoin-dən bəhs edən ilk Fransız qurumu oldu. İlk Fransız kriptovalyuta tənzimləməsi 2014-cü ilin yanvarında qəbul edilmişdir. Fransanın bank və sığorta tənzimləyicisi olan Prudensial Nəzarət və Mübahisələrin Həlli Orqanı bildirib ki, kriptovalyutaların alqı-satqısı ilə əlaqədar müştərilərin adından qanuni valyuta alan qurumlar ödəniş xidmətləri göstərmək üçün lisenziya almalıdırlar.
2016-cı ilin dekabr ayında kriptovalyuta ticarət platformaları və brokerlər çirkli pulların yuyulmasına qarşı qanunvericiliyə tabe olan qurumların siyahısına daxil edilmişdir. Bundan əlavə, 2016-cı ildə Fransa hökuməti qiymətli kağızların qeydiyyatı üçün blokçeynin istifadəsinə imkan verəcək hüquqi baza üzərində işə başladı (https://freemanlaw.com/cryptocurrency/france/).
Kriptovalyuta cəmiyyətdə normallaşmağa meylli olduğundan, Kanada hökuməti bundan sonra gələcək qaçılmaz hüquqi problem dalğalarını yumşaltmağa çalışdı. 2014-cü ildə Kanada kriptovalyutalarla məşğul olan bütün fiziki və ya hüquqi şəxsləri əhatə etmək üçün Cinayətdən Gəlirlər və Terrorizmin Maliyyələşdirilməsi Qanuna dəyişiklik edərək kriptovalyutalarla bağlı qanunlar qəbul edən ilk ölkə oldu. Blockchain cəmiyyətinin və kriptovalyuta həvəskarlarının narahatlığına səbəb olaraq, Kanada hökumətinin kriptovalyutaları təsnif etmək və istifadə etmək cəhdi onların yeni texnologiyaya münasibətini nümayiş etdirdi: kriptovalyutalar cəmiyyətimizdə qeyri-müəyyən rolu olan təhlükədir.
Kanada Valyuta Aktının 8-ci Bölməsində müəyyən edildiyi kimi, yalnız Kanada Bankı tərəfindən buraxılmış əskinaslar və Kanada Bankı tərəfindən zərb edilən sikkələr qanuni ödəniş vasitəsi statusuna malikdir. Kriptovalyutalar Kanada Bankı tərəfindən buraxılmadığı üçün kriptovalyutalar qanuni ödəniş vasitəsi deyil, Kanada Gəlir Agentliyi (CRA) tərəfindən əmtəə hesab edilir.
Cinayətdən Gəlirlər və Terrorizmin Maliyyələşdirilməsi Qanunu "virtual valyutalarla məşğul olan" fiziki şəxsləri və ya qurumları Pul Xidməti Müəssisələri kimi təsnif edir. Bu təsnifatın məqsədi kriptovalyuta istifadəçilərinin və müəssisələrin çirkli pulların yuyulması ilə mübarizə (AML) qanunlarına riayət etməsini təmin etmək idi (https://freemanlaw.com/cryptocurrency/canada/).
Meksika Mərkəzi Bankı qanunla virtual aktivləri tənzimləmək üçün geniş səlahiyyətlərə malikdir, o cümlədən maliyyə şirkətlərinin ölkədə işləməsinə icazə verilən virtual aktivlərin müəyyən edilməsi, onların spesifik xüsusiyyətlərinin müəyyən edilməsi, habelə belə aktivlərlə əməliyyatlara tətbiq edilən şərtlərin və məhdudiyyətlərin müəyyən edilməsi; eləcə də maliyyə şirkətlərinə virtual aktivlərlə əməliyyatlar aparmağa icazə vermək.
Virtual aktivlərlə məşğul olan maliyyə şirkətləri müştərilərinə bu aktivlərə aid olan riskləri açıqlamalıdırlar. Bu şirkətlər, ən azı, öz müştərilərini aydın və əlçatan şəkildə, müvafiq internet saytlarında və ya xidmət göstərmək üçün istifadə etdikləri vasitələrlə aşağıdakılar barədə məlumatlandırmalıdırlar: Virtual aktiv qanuni valyuta deyil və nə federal hökumət, nə də Meksika Mərkəzi Bankı tərəfindən dəstəklənmir; Tamamlandıqdan sonra virtual aktivlərlə əməliyyatlar geri dönməz ola bilər; Virtual aktivlərin dəyəri dəyişkəndir; Texnoloji, kiber və fırıldaqçılıq riskləri virtual aktivlərə xasdır. Əksər yurisdiksiyalar və səlahiyyətli orqanlar hələ də kriptovalyutaları tənzimləyən qanunlar qəbul etməyiblər, bu o deməkdir ki, kriptovalyuta mining-in qanuniliyi qeyri-müəyyən olaraq qalır (https://freemanlaw.com/cryptocurrency/mexico/).

**Nəticə**

Tədqiqat nəticəsində müxtəlif alimlərin və qurumların kriptovalyutaya yanaşmaları araşdırılıb və onların əsasında kriptovalyutanın mahiyyəti öyrənilib. Məlum oldu ki, kriptovalyuta – blockchain sisteminə əsaslanan, etibarlığı konsensus alqoritmlərlə tənzimlənən, peer-to-peer hessablaşmaları

üçün istifadə olunan, özündən kriptoqrafik metodlarla şifrələnən kod təşkil elədiyi maddi forması olmayan virtual valyutadır.

Kriptovalyuta bazarının işləmə mexanizmi, onun xüsusiyyətləri, konsensus alqoritmləri, blockchain fork-ları, kriptovalyuta növləri, kriptovalyuta bazarının iştirakçıları kimi aspektləri araşdırılıb.

Kriptovalyuta bazarının tənzimlənməsinin əhəmiyyəti və FATF-ın bununla bağlı ölkələrə verdiyi tövsiyyələr öyrənilib, xarici ölkələrdə kriptovalyuta bazarının tənzimlənməsi barəsində təcrübələri müqayisəli şəkildə araşdırılıb. Bu tövsiyyələr kriptovalyutaların tənzilmlənməsində və pulların yuyulması kimi risklərdən kənarlaşması üçün əhəmiyyətli dəstəq göstərməlidir.

**Ədəbiyyat**


Belotti, M., Božić, N., Pujolle, G., & Secci, S. (2019). A vademecum on blockchain technologies: When, which, and how. IEEE Communications Surveys & Tutorials, 21(4), 3796-3838.

Camalov R. (2017). Mərkəzi Bank Kriptovalyutaları: FEDcoin VƏ CADcoin. Unec Ekspert, 02 (04), 30-31.

European Central Bank (2015). Virtual Currency Schemes – a further analysis. 4-9.

European Central Bank (2012). Virtual Currency Schemes. 4.

European Securities and Markets Authority, European Banking Authority & European Insurance and Occupational Pensions Authority (2018). Warning on the risks of Virtual Currencies. 3.

Financial Action Task Force. (2014). Virtual Currencies – Key Definitions and Potential AML/CFT Risks. 4-5.

Financial Action Task Force (2019). Руководство по применению риск-ориентированного подхода, виртуальные активы и провайдеры услуг виртуальных активов. 18-21

Gemeliarana, I. G. A. K., & Sari, R. F. (2018). Evaluation of proof of work (POW) blockchains security network on selfish mining. In 2018 International seminar on research of information technology and intelligent systems (ISRITI) (pp. 126-130). IEEE.

H Natarajan, H., Krause, S., & Gradstein, H. (2017). Distributed ledger technology and blockchain.

Hacızadə S. (2017). Altcoin və kriptovalyuta ekohsistemi. Unec Ekspert, 02 (04), 26-27.

Həsənli Y. (2017). Kriptovalyuta iqtisadi və hüquqi aspektlər. Unec Ekspert, 02 (04), 8-9.

Houben R., Snyers A. (2018). Legal context and implications for financial crime, money laundering and tax evasion. 2018

İmamverdiyev Y. və Sadiyeva F. (2018) Kriptovalyuta verilənlərinin intelektual analizi məsələləri. İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri, IV respublika konfransının elmi əsərləri. 47-52.

Kumar A., Singh Y. & Kumar N. (2021). Blockchain Technology: Challenges & Solution Perspective. 10.13140/RG.2.2.33907.20002.

Nguyen, C. T., Hoang, D. T., Nguyen, D. N., Niyato, D., Nguyen, H. T., & Dutkiewicz, E. (2019). Proof-of-stake consensus mechanisms for future blockchain networks: fundamentals, applications and opportunities. IEEE Access, 7, 85727-85745.

Sherman, A. T., Javani, F., Zhang, H., & Golaszewski, E. (2019). On the origins and variations of blockchain technologies. IEEE Security & Privacy, 17(1), 72-77.

Wahab, A., & Mehmood, W. (2018). Survey of consensus protocols. arXiv preprint arXiv:1810.03357.

Баракина, Е. Ю. (2020). Финансово-правовое регулирование внедрения систем распределенного реестра в национальную платежную систему, Финансовый университет при Правительстве Российской Федерации, Moskva, 181 səh.

Егорова, М. А. & Ефимова, Л. Г. (2019). Понятие криптовалют в контексте совершенствования российского законодательства. Lex russica, (7 (152)), 130-140.
Зыкова, Т. А. & Лобач, Д. В. (2020). Практика применения криптовалют в зарубежных странах. Международный журнал гуманитарных и естественных наук, (4-2), 162-168.
Леонов, М. В. & Глухова, М. Н. (2020). Эволюция рынка частных криптовалют и возможности денежно-кредитной политики. Вестник Академии знаний, (5 (40)), 227-237.
Мосакова, Е. А. (2020). Современные тенденции развития рынка криптовалют. Век глобализации, (3), 90-98.
Банк России (2017). Обзор Банка России по криптовалютам, ICO и подходам к их регулированию.
Руденко, Е. О. & Красова, Е. В. (2015). Возможности и перспективы развития криптовалют. Международный студенческий научный вестник, (4-3), 433-436.

# Regional Dayanıqlı İnkişaf və İnvestisiya Fəaliyyəti

**Tükəzban Qasımlı**

**"NAXÇIVAN" Universiteti, İqtisadiyyat kafedrası, dissertant**

**tukazban.qasimli@mail.ru**

ORCID NO: 0000-0002-5569-0227

## Xülasə

Müasir şəraitdə tədqiqatçıların sosial-iqtisadi sistemlərin altsistemi kimi regionların dayanıqlı inkişafının təmini problemlərinə maraqları getdikcə artmaqdadır. Belə ki, dünya təsərrüfat əlaqələrinin müstəqil iştirakçısı kimi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı onun regionlarının dayanıqlı inkişafından asılıdır. Məhz bu baxımdan Azərbaycanda açıq iqtisadiyyat şəraitində makro, mezo və mikro səviyyələrdə bütün növ investisiyalardan istifadənin səmərəliliyi məsələsi aktual nəzəri-praktiki vəzifəyə çevrilmişdir.

Qeyd edək ki, ölkələrin və onların altsistemləri olan regionların dayanıqlı inkişafının təmin edilməsi problemlərinin həllində investisiya mühiti mühüm rol oynayır. Başqa sözlə desək, investisiyalar və ya investisiya fəaliyyəti iqtisadi inkişafın əsas amilidir. Müxtəlif növ aktivlərə investisiya qoymaqla regionlar və onları təmsil edən mikro, kiçik və orta sahibkarlıq subyektləri əsas kapitalın strukturunu artırır və dəyişir, istehsal etdikləri məhsulları şaxələndirir və keyfiyyətini yüksəldir, ən iddialı layihə və proqramları hazırlayır və həyata keçirirlər. İnvestisiyaların həcmi və istiqamətləri təkcə iqtisadi artımın məqsədləri ilə deyil, həm də iqtisadi, sosial və ekoloji komponentlərin tarazlığını nəzərdə tutan cəmiyyətin dayanıqlı inkişafını təmin etməklə müəyyən edilir.

Digər bir tərəfdən çağdaş qloballaşma meylləri, ölkələr və bölgələr arasındakı kəskin rəqabət regionların dayanıqlı inkişafının təmini probleminə xüsusi diqqətin yetirilməsini zəruri edir.

Azərbaycan Respublikasının və onun regionlarının dayanıqlı inkişafının təmini probleminin aktuallığı səmərəli investisiya fəaliyyəti və investisiya layihələrinin həyata keçirilməsi ilə bağlı olduğundan məqaləmizdə araşdırmamızı məhz bu kontekstdə qurmuşuq.

**Açar sözlər:** Azərbaycan Respublikası, Naxçıvan regionu, dayanıqlı inkişaf, iqtisadi sistem, investisiya fəaliyyəti.

## Summary

In modern conditions, researchers are increasingly interested in the problems of ensuring the sustainable development of regions as a subsystem of socio-economic systems. Thus, the socio-economic development of the Republic of Azerbaijan as an independent participant in world economic relations depends on the sustainable development of its regions. It is from this point of view that the question of the effectiveness of the use of all types of investments at the macro-, meso- and micro-levels in the open economy of Azerbaijan has become an urgent theoretical and practical task.

It should be noted that the investment environment plays an important role in solving the problems of ensuring the sustainable development of countries and regions. In other words, investments or investment activities are the main factor of economic development. By investing in various types of assets, regions and their representative micro, small and medium business entities increase and change the structure of fixed capital, diversify and improve the quality of their products, develop and implement the most ambitious projects and programs. The volume and directions of investments are determined not only by the goals of economic growth, but also by ensuring the sustainable development of society, which involves the balance of economic, social and ecological components.

On the other hand, modern trends of globalization, sharp competition between countries and regions force us to pay special attention to the problem of ensuring the sustainable development of regions.

Since the relevance of the problem of ensuring the sustainable development of the Republic of Azerbaijan and its regions is related to effective investment activity and the implementation of investment projects, in our article we built our research precisely in this context.

**Keywords:** Republic of Azerbaijan, Nakhchivan region, sustainable development, economic system, investment activity.

## Giriş

Azərbaycan Respublikasının iqtisadi sistemi özünün quruluşu, idarə edilməsi və tənzimlənməsi spesifik təzahür formaları ilə fərqlənməkdədir. Onun tərkib elementləri bir tərəfdən ümumölkə və regional müstəvidə təbii ehtiyatlardan, ərazi-yer quruluşundan və digər sahəvi amillərdən, digər tərəfdən isə tənzimləmə, təşkilatlanma kimi fəaliyyət sahələri və istiqamətlərinin yaratdığı tələblərdən irəli gəlməkdədir.

Məqalənin adından da göründüyü kimi, tədqiqatın kifayət qədər aktual amil və əlamətləri əhatə etməklə təşkil olunması yarana biləcək problemlərin nəticələrinin müxtəlif variantlarda təzahürünü də əsaslandırmaqdadır. Məsələ üzrə informasiyanın təqdimedilmə üsuluna görə yarana biləcək spesifik şəkilləndirmə, eyni zamanda, müstəvidəki "iştirakçıların" özünü təzahürləri baxımından texniki parametrlərinin və real imkanlarının qiymətləndirilməsi də xüsusi əhəmiyyət kəsb etməkdədir.

Müasir dövrün mühüm problemlərindən hesab olunan dayanıqlı inkişaf ölkə və regional miqyaslarda iştirakçılar arasında üzvi əlaqələndirmənin təşkili, bu əsasda isə optimal yekunların əldə edilməsinə əsaslanır. Məhz bu baxımdan **tədqiqatımızın məqsədi** ölkənin, o cümlədən regionun iqtisadi sisteminin təkamülündə dayanıqlı inkişaf üzrə formalaşma proseslərinin müəyyənləşdirilməsi, o cümlədən hüquqi və fiziki sahibkarlıq subyektlərinin təşkilatlanma münasibətlərinin formalaşması, inzibati-ərazi və iqtisadi rayonlaşma prinsiplərini əhatə edən investisiya fəaliyyətinin icrası və s. məsələləri araşdırmaqdan ibarətdir.

Qeyd edək ki, region iqtisadiyyatının dayanıqlılığının təmin edilməsində ərazi tarazlığı sisteminə əsaslanan balans metodu mühüm rol oynayır. Bu əmək ehtiyatlarının, maliyyə resurslarının, əhalinin pul gəlirləri və xərcləri, maddi resursların əsas növlərinin balansıdır (Mahmudov və Bağırsoylu, 2019: s. 207). Bu nöqteyi-nəzərdən mümkün dəqər uzunmüddətli və dayanıqlı iqtisadi təməllərin yaradılması, eyni zamanda, sahə və yön miqyaslarında fərqli konfiqurasıyaların formalaşmasına gətirib çıxarmaqdadır.

Digər tərəfdən haqqında bəhs olunan məsələdə zaman elementinin göz ardı edilməməsi "məkan-zaman" qarşılaşdırılmasının əhəmiyyətinə də müsbət yöndə təsir etmiş, onun əhəmiyyətini artırmış olur.

Həmçinin nəzərdən yayınmamalıdır ki, "regional dayanıqlı inkişaf – investisiya prosesləri" tandemində "gözə görünməyən", lakin özünün xüsusi çəkisi ilə fərqlənən iştirakçılardan biri kimi sahibkarlıq fəaliyyətinin qiymətləndirilməsi icra olunmaqdadır. Əgər müasir dövrdə bir ölkənin (regionun) uzunmüddətli, rəqabət yönümlü, səmərəli, öz xərcini ödəmə və özünü maliyyələşdirmə prinsiplərinə əsaslanan fəaliyyəti zəruri hesab olunmaqdadırsa, "sahibkarlıq" məfhumu və onu təmsil edən şəxslərin fəaliyyətinin aktivləşdirilməsi daxili və xarici iqtisadi və bununla əlaqəli olan digər yönlərdəki münasibətləri özünün mühümlüyü ilə fərqlənən mənzərələrin yaradılmasına da yol açmaqdadır (Niftullayev, 2002).

Qəbul olunan parametrlər əsasında sahibkar və sahibkarlıq fəaliyyətinə bir çox aspektdə aydınlıq gətirilə bilər. Belə ki, sahibkar:

- ✓ yeni, daha mütərəqqi düşüncə tərzi ilə fərqlənən şəxsdir;
- ✓ istehsal və ümumilikdə təsərrüfat fəaliyyətində yarana biləcək risklərlə qarşı-qarşıya duran şəxsdir;
- ✓ fəaliyyətin zaman elementi daxilində mütərəqqi icraatlarının planlaşdırılmış şəkildə həyata keçirilməsini təmin edən şəxsdir və s (Atakişiyev, Abbasov və Abbasova, 2010).

Müxtəlif iqtisadi ədəbiyyatlarda "sahibkar" anlayışına fərqli yanaşmanın təmin edilməsi, onun müxtəlif yönlərdən işıqlandırılması tərəfimizdən haqqında bəhs olunan məsələyə diqqətin yetirilməsini əsaslandırmaqdadır. "Regional dayanıqlı inkişaf – investisiya prosesləri" tandemində araşdırmamızı apararkən müşahidə, qruplaşdırma, müqayisəli təhlil, zəncirvarı əlaqə və zəncirvarı asılılıq **tədqiqat metodlarından** istifadə olunmuşdur.

**Tədqiqatın metodologiyasını və ya metodoloji əsasını** regional dayanıqlı inkişafla investisiya fəaliyyəti arasındakı qarşılıqlı əlaqə və asılılığı əks etdirən fundamental araşdırmalar, bu sahədəki tədqiqatların nəticələrini əks etdirən nəzəri müddəalar, ölkə Prezidentinin fərman və sərəncamları, elmi-praktik konfransların materialları, regional dayanıqlı inkişafın təmin olunması üzrə proqram və konsepsiyalar, dövrü mətbuat və internet materialları təşkil etmişdir.

Regionların dayanıqlı inkişafının təmin edilməsi problemlərinin həllinin ən mühüm komponenti investisiya fəaliyyətidir ki, o da bir çox amillərdən – coğrafi yerləşmədən, təbii, maddi-texniki, kadr potensialının mövcudluğundan, istehsal strukturundan, sənaye və sosial infrastrukturdan təsirlənir. Məhz bu baxımdan qeyd edə bilərik ki, apardığımız **tədqiqatın başlıca məhdudiyyətləri** regional araşdırma və çalışmaların bir çox elmlərin birgə istifadəsini gərəkdirməsidir.

**Ədəbiyyatların İcmalı**

Tədqiqat ilə bağlı istinad edilən mənbələrin təhlili nəticəsində məlum olmuşdur ki, müxtəlif tədqiqatçıların dayanıqlı inkişafa verdikləri təriflərin əksəriyyətində iqtisadi, sosial və ekoloji komponentlərə fərqli baxış sərgilənir. Deməli, dayanıqlı inkişaf indiki və gələcək nəsillərin maraqlarını nəzərə almaqla sosial-iqtisadi sabitliyin əldə olunması, ictimai münasibətlərin inkişafı, maddi rifah və mənəvi inkişaf üçün şəraitin təmin edilməsi, təbiətin rasional istifadə edilməsi və ətraf mühitin mühafizəsi ilə təmin olunur.

"Dayanıqlı inkişaf" anlayışına verilən müxtəlif yönümlü tərifləri təhlil edərkən "dayanıqlı inkişaf" termininin olduqca mübahisəli bir anlayış olduğu qənaətinə gəlirik. Belə ki, dayanıqlılıq və inkişaf anlayışları təbiətcə bir-birinə zidd anlayışlardır və ölkə iqtisadiyyatının inkişafının vahid istiqamətləndirici vektorunu təmsil etmək üçün müəyyən fərziyyələrin irəli sürülməsini tələb edirlər. Əlbəttə ki, bu "inkişaf"ın bazar münasibətləri və artan mənfəət şəraitində cəmiyyətin sosial-iqtisadi və ekoloji maraqlarını nəzərə almaqla ölkə iqtisadiyyatının müxtəlif sahələrinə təsirinin intensivləşdirilməsinə əsaslanan mütərəqqi xarakterə malik olması ilə bağlıdır.

**Dayanıqlı İnkişaf Anlayışının Mahiyyəti və Məzmunu**

"Dayanıqlı inkişaf" termini 1987-ci ildə Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Komissiya tərəfindən hazırlanmış "Bizim ümumi gələcəyimiz" hesabatının dərcindən sonra geniş yayılmışdır. Bu sənədə görə, "dayanıqlı inkişaf – indiki dövrün tələbatlarına cavab verən, eyni zamanda, gələcək nəsillərin öz ehtiyaclarını ödəmək imkanlarına xələl gətirməyən inkişafdır" (S.A.Yevteyeva və R.A.Pereleta, 1989).

BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Komissiyasının əsas çağırışı cəmiyyətin yeni, ətraf mühit üçün təhlükəsiz iqtisadi inkişaf erasına keçməsindən ibarət olmuşdur. Bu halda "ətraf təbii mühit-cəmiyyət-insan" dayanıqlı inkişaf sisteminə keçilməsi haqqında məsələ qarşıya qoyulurdu ki, bu baxımdan dayanıqlı sosial-iqtisadi inkişaf konsepsiyası BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Komissiyasının fəaliyyətinin əsasını təşkil edir (İvanov, 2008: s. 52).

Dayanıqlı inkişaf konsepsiyasından irəli gələrək qeyd edə bilərik ki, "dayanıqlı inkişaf" anlayışı iki yanaşmaya əsaslanır. Birinci – biosferasentrik yanaşmaya əsasən ətraf təbii mühitə və biosferaya

yalnız resurs mənbəyi kimi deyil, həm də yer üzündəki bütün həyatın əsası kimi baxılmalıdır. İkinci yanaşma – antroposentrik yanaşma bəşəriyyətin bundan sonra da mövcud olma ehtimalına və insanlığın təbii resurslara olan artan tələbatının təmini problemlərinin həllinə əsaslanır (http://municipal-sd.ru/pdf-files/8-l/milanova-8-l-indikatory.pdf ).

İqtisadi kateqoriya kimi dayanıqlı inkişaf anlayışı və onunla bağlı terminlər hələ birmənalı şəkildə izah edilməmiş və bu səbəbdən regionun dayanıqlı inkişafı məfhumunun müxtəlif mənalarda izahına rast gəlmək olur. Məsələn, BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Komissiyası tərəfindən dayanıqlı inkişaf anlayışı gələcək nəsillərin tələbatlarının təmin olunması imkanlarını təhlükə altında qoymadan indiki nəsillərin tələbatlarının təminatı kimi qəbul etmişdir (Podpruqin, 2012: s. 216).

İ.N.Şurqalina sosial-iqtisadi sistemin dayanıqlı inkişafını əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması hesab edir. Bu zaman İ.N.Şurqalina məhdudiyyət kimi biosferin həcminin və ya imkanlarının son hədlərini müəyyənləşdirir. Belə ki, bu hədlərdən kənara çıxmaq ətraf mühitin özünü tənzimləməsinin təbii mexanizminin məhv olması səbəbindən ətraf təbii mühitdə qlobal dəyişikliyə səbəb olacaqdır. Yəni əgər sosial-iqtisadi sistemlər iqtisadi və təbii qanunauyğunluqlara tabe olmaqla fəaliyyət göstərərlərsə, onda onlar sabit inkişaf edirlər, lakin eyni zamanda sosial-iqtisadi sistemlər dayanıqlılıq vəziyyətini itirmə riskinə səbəb ola biləcək müxtəlif amillərin təsirinə də məruz qala bilərlər (Şurqalina, 2000).

V.A.Qnevko və V.E.Roxçin regionun konkret məskunlaşma ərazisinin dayanıqlı inkişafının tədqiq edilməsinin üç əsas istiqamətini fərqləndirir:
1) ekosistemlərin tarazlığını mühafizə edərək indiki və gələcək nəsillərin tələbatlarının ödənilməsini təmin edən iqtisadi artım kimi dayanıqlı inkişaf;
2) ətraf təbii mühitə təhlükə törətməyən dayanıqlı sosial-iqtisadi inkişaf;
3) region əhalisinin həyat keyfiyyətinin sabit olaraq yaxşılaşdırılması (Qnevko və Roxçin, 2005: s. 52).

Tədqiqatçılar A.S.Martınov, V.V.Artyuxov və V.Q.Vinoqradov "dayanıqlı sosial-iqtisadi inkişaf" anlayışının məzmununu gözdən keçirərkən dayanıqlı inkişafın iqtisadi sistemlərin fundamental xassələrindən biri olduğu fikrinə əsaslanırlar. Bu zaman onlar sistemləri dayanıqlılıq xassəsinin tətbiq edilə biləcəyi 3 alt sistemə ayırırlar: təbii resurslar, maddi-texniki kompleks və cəmiyyət (Arabov, 2007).

V.N.Lajentsev öz tədqiqatlarında dayanıqlı inkişafa regional təsərrüfat sisteminin əsas xassəsi kimi baxır. Bu xassə sistemin infrastruktur, əmək və təbii-resurs potensialını yaratmaq və istifadə etmək qabiliyyətini xarakterizə edir (Lajentsev, 2004).

D.X.Medouz və başqa tədqiqatçılar hesab edirlər ki, dayanıqlı inkişaf həcm artımı ilə deyil, keyfiyyət inkişafı ilə xarakterizə olunur. Bu yanaşmanın müəllifləri "artım" və "inkişaf" anlayışlarını dəqiqliklə bir-birindən fərqləndirirlər. Tədqiqatçıların fikrincə, "böyümək" dedikdə, resursların istifadə həcminin artırılması və ya daha çox resurs sərfi hesabına artımın əldə edilməsi başa düşülür. "İnkişaf" isə vəziyyətin yaxşılaşdırılması məqsədilə potensial imkanlarının genişləndirilməsi və reallaşdırılması deməkdir (Meadows & Randers, 2004).

S.A.Dyatlovun fikrincə, dayanıqlı inkişaf – indiki və gələcək nəsillərin tələbatlarını təmin etmək məqsədilə cəmiyyətin bütün üzvlərinə müxtəlif xidmətlər (o cümlədən iqtisadi, sosial və ekoloji) göstərmək iqtidarında olan cəmiyyətin inkişafıdır. S.A.Dyatlovun araşdırmalarına görə, həyat təminedici, iqtisadi, sosial və ekoloji sistemləri sabit vəziyyətdə saxlamaq olduqca vacibdir.

S.A.Dyatlov, həmçinin dayanıqlı inkişafın bir sıra prinsiplərini – iqtisadi səmərəlilik, məqsədəuyğun mövcudluq, sosial ədalət və təbiətdən rasional istifadə prinsiplərini fərqləndirir (Dyatlov, 1998).

O.S.Pçelintsevin mülahizələrinə görə dayanıqlı inkişaf bütün iqtisadi, sosial, ekoloji proseslərin idarə edilməsinə və ərazidə məskunlaşma və istehsalın yerləşdirilməsi məsələlərinin razılaşdırılmış həllinə keçidi nəzərdə tutur (Pçelintsev, 2004: s.33-34).

"Dayanıqlı inkişaf" anlayışının digər bir tədqiqatçısı V.A.Kretinin öz araşdırmalarında iqtisadi dayanıqlılığın əsas komponentlərini bu cür fərqləndirmişdir: maliyyə, investisiya və innovasiya fəaliyyəti, iqtisadi səmərəlilik və s. V.A.Kretinin iqtisadi səmərəliliyə və investisiya fəaliyyətinə təsir edən təkrar istehsalın kompleksliliyi amilini dayanıqlı inkişafın ən mühüm komponentlərindən biri kimi fərqləndirir (Kretinin, 2005).

"Dayanıqlı inkişaf" məfhumunun ayrıca götürülmüş hər hansı bir regionun iqtisadiyyatına tətbiq edilməsi bu inkişaf vektorunun mikro, kiçik və orta sahibkarlıq sektorundan başlayaraq iri dövlət korporasiyalarına qədər olan iqtisadiyyatın bütün subyektlərinin təsərrüfat həyatına inteqrasiyasına səbəb olur. Parantez açaraq bir faktı qeyd etmək lazımdır ki, iqtisadi inkişafın müəyyən bir mərhələsində dayanıqlı inkişaf cəmiyyətin ehtiyaclarını maksimum səviyyədə təmin etmək üçün mövcud təbii resursların ağıllı və səmərəli şəkildə yenidən bölüdürülməsinə, eyni zamanda, gələcək inkişaf üçün təbii potensialın bir hissəsinin mühafizəsi məsələsinin həll edilməsinə imkan verməlidir. Qeyd ediyimiz amil isə birbaşa mikro, kiçik və orta sahibkarlıq subyektlərinin investisiya fəaliyyəti və davranışından asılıdır. Bu əsasda iqtisadi rayonlar və inzibati-ərazi vahidləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətini nəzərdən keçirək.

## İqtisadi Rayonlar və İnzibati-Ərazi Vahidləri Üzrə Sahibkarliq Subyektlərinin Say-Tərkib İfadələri

Giriş hissəsində ümumi şəkildə ifadə olunan məsələlərin, vurğulanan aspektlərin növbəti bölmədə daha ayrıntılı şəkildə təsnifləşdirilməsi və fərdi tədqiqatlara məruz qoyulması zərurəti özünün aktuallığını qorumaqdadır. Bəhs olunan məsələlərdə "ölkə - region", müvafiq müstəvilərdə "sahə-istiqamət" komponenlərinin çoxölçülü araşdırmalara tabe tutulması bir tərəfdən qarşıya qoyulan vəzifələrlə əlaqələndirilməkdədirsə, digər tərəfdən ümumi iqtisadi təməllərə aydınlıq gətirməklə mükəlləf olan prinsiplərin məntiqi nəticəsi hesab olunmaqdadır (Bağırov, 2020).

Deyilən məsələlərlə bağlı müfəssəl mənzərənin yaradılması üçün ilk növbədə cədvəl 1-ə müraciət etmək məqsədəuyğun olardı.

Cədvəl 1-dən də göründüyü kimi, ölkə üzrə ümumiləşdirilmiş informasiya ilə yanaşı "inzibati-iqtisadi ərazi" qarşılaşdırılmasının təmin edilməsi və zəruri hesablamaların zaman əlaməti çərçivəsində icra olunması tədqiq edilən problemin miqyas və digər ölçülərindən xəbər verməkdədir.

**Cədvəl 1: İqtisadi rayonlar, inzibati ərazi vahidləri və iqtisadi fəaliyyət növləri üzrə yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| | 2020 | | | | 2021 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | | Cəmi | o cümlədən | | |
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Ölkə üzrə cəmi** | **167475** | **167271** | **161** | **43** | **118719** | **118537** | **138** | **44** |
| **Bakı şəhəri** | **30535** | **30388** | **121** | **26** | **37515** | **37414** | **85** | **16** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1748 | 1743 | 4 | 1 | 3098 | 3097 | 1 | - |
| Sənaye | 1332 | 1309 | 18 | 5 | 1812 | 1791 | 16 | 5 |
| Tikinti | 1609 | 1581 | 22 | 6 | 1621 | 1607 | 10 | 4 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 7796 | 7771 | 23 | 2 | 9853 | 9831 | 20 | 2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 6826 | 6812 | 13 | 1 | 9640 | 9634 | 6 | - |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1085 | 1076 | 9 | - | 1306 | 1295 | 9 | 2 |
| İnformasiya və rabitə | 916 | 911 | 5 | - | 1231 | 1224 | 5 | 2 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 357 | 354 | 1 | 2 | 438 | 437 | 1 | - |
| Təhsil | 1119 | 1116 | - | 3 | 1262 | 1261 | 1 | - |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 418 | 410 | 5 | 3 | 471 | 467 | 4 | - |
| Digər sahələr | 7329 | 7305 | 21 | 3 | 6783 | 6770 | 12 | 1 |
| **Naxçıvan MR** | **2431** | **2423** | **2** | **6** | **2419** | **2409** | **4** | **6** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 924 | 924 | - | - | 1167 | 1167 | - | - |
| Sənaye | 61 | 61 | - | - | 37 | 36 | - | 1 |
| Tikinti | 83 | 81 | - | 2 | 79 | 78 | 1 | - |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 443 | 442 | 1 | - | 316 | 313 | 1 | 2 |
| Nəqliyyat və anbar təsərrüfatı | 213 | 213 | - | - | 190 | 190 | - | - |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 57 | 56 | 1 | - | 41 | 40 | - | 1 |
| İnformasiya və rabitə | 7 | 7 | - | - | 9 | 9 | - | - |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 64 | 64 | - | - | 87 | 87 | - | - |
| Təhsil | 38 | 38 | - | - | 22 | 22 | - | - |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 22 | 18 | - | 4 | 15 | 11 | 2 | 2 |
| Digər sahələr | 519 | 519 | - | - | 456 | 456 | - | - |

**Mənbə**: stat.gov.az/ enterprenerşhip/ 016.

Cədvəl məlumatlarından aydın olur ki, 2020-ci illə müqayisədə ölkə üzrə yaradılan sahibkarlıq subyektlərinin sayında 48938 (118537 – 167475) vahidlik və ya 29,2%-lik (118537 : 167475) geriləmə müşahidə olunmuşdur. İllər üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin "mütləq say – xüsusi çəki" göstəricilərinin müqayisələri üzrə aşağıdakı nəticələr əldə olunmuşdur:

- ✓ 2020-ci il üzrə mikrosubyektlərin xüsusi çəkiləri – 99,87% (167271 : 167475), kiçik subyektlərin xüsusi çəkiləri – 0,09% (161 : 167475); orta ölçülü subyektlərin xüsusi çəkiləri – 0,02% (43 : 167475) təşkil etməkdə idi;
- ✓ 2021-ci il üzrə mikrosahibkarların xüsusi çəkisi – 99,84%-ə (118537 : 118719), kiçik subyektlərin xüsusi çəkisi – 0,12%-ə (138 : 118719), orta ölçülü sahibkarlıq subyektlərinin xüsusi çəkisi – 0,03%-ə (44: 118719) bərabər olmuşdur;
- ✓ 2020-ci illə müqayisədə 2021-ci ilin nisbi ifadələrində aşağıdakı kənarlaşmalara şahidlik etməkdəyik: a) mikrosubyektlər üzrə - (-0,03%); b) kiçik subyektlər üzrə - (+0,03%); c)orta ölçülü subyektlər üzrə - (+ 0,01%);
- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə mikrosubyektlərin mütləq sayında baş vermiş kənarlaşma 48734 vahid (118537 – 167271), kiçik ölçülü subyektlərin sayındakı kənarlaşma 23 vahid (138 – 161) geriləmə mümkün olduğu halda, orta həcmli subyektlərin sayında 1 vahidlik (44 – 43) artım müşahidə olunmuşdur.

Digər tərəfdən, 2020-ci ildə ölkə üzrə ümumi həcmdə Bakı şəhərinin payı 18,2% (30535 : 167475) olduğu halda, Naxçıvan MR-in xüsusi çəkisi 1,5%-ə (2431 : 167475) bərabər olmuşdur. Eyni kəmiyyətlərin 2021-ci il üzrə nəticələri müvafiq olaraq 31,6% (37515 : 118719) və 2,0%-dir (2419 :

118719). Hesablamalar göstərir ki, Bakı şəhəri üzrə sahibkarlıq subyektlərinin cəmi ifadəsində 2020-ci illə müqayisədə 2021-ci ildə 6980 vahidlik (37414 – 30535) artım müşahidə olunduğu halda, Naxçıvan MR üzrə müvafiq fərq 12 vahidlik (2419-2431) geriləmə ilə nəticələnmişdir.

Muxtar respublikanın fərdiləşdirilmiş göstəricilərinə gəldikdə isə aşağıdakı yekunlar müşahidə olunmaqdadır:

a) <u>2020-ci il üzrə:</u>
1. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə - mikromüəssisələrin xüsusi çəkisi -100% (924 subyekt), kiçik və orta müəssisələrin xüsusi çəkisi 0-a bərabərdir;
2. Sənaye üzrə - mikrosahibkarlıq müəssisələrinin xüsusi çəkisi 100% (61 subyekt);
3. Tikinti üzrə - mikrosubyektlərin xüsusi çəkisi 100% (83 subyekt);
4. Ticarət; nəqliyyat vasitələrinin təmiri üzrə mikrosubyektlərinin xüsusi çəkisi – 99,8% (442 : 443), kiçik subyektlərin xüsusi çəkisi – 0,2% (1 : 443);
5. Nəqliyyat və anbar təsərrüfatı üzrə - mikrosubyektlərin xüsusi çəkisi 100% (213 subyekt);
6. Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə mikrosubyektlərinn xüsusi çəkisi – 98,2% (56 : 57), kiçik subyektlərin xüsusi çəkisi 1,8% (1 : 57);
7. İnformasiya və rabitə üzrə mikrosubyektlərin xüsusi çəkisi 100%-dir (7 vahid);
8. Daşınmaz əmlakla əlaqədar əməliyyatlar üzrə mikrosubyektlərin xüsusi çəkisi 100%-dir (64);
9. Təhsil üzrə mikrosubyektlərin payı 100%-dir (38);
10. Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə mikrosubyektlərin xüsusi çəkisi 75% (18 : 24), orta subyektlərin xüsusi çəkisi isə 25%-dir (6 : 24);
11. Digər sahələr üzrə mikrosubyektlərin xüsusi çəkisi 100%-dir (519).

b) <u>2021-ci il üzrə:</u>
1. Kənd təsərrüfatı üzrə mikrosubyektlərin xüsusi çəkisi – 100%-dir (1167);
2. Sənaye üzrə mikrosahibkarlıq subyektlərinin xüsusi çəkisi – 97,3% (36 : 37); orta müəssisələrin xüsusi çəkisi – 2,7% (1 : 37);
3. Tikinti üzrə mikrosubyektlərin xüsusi çəkisi – 98,7% (78 : ?9), kiçik müəssisələrin xüsusi çəkisi – 1,3% (1:79);
4. Ticarət, nəqliyyat vasitələrinin təmiri üzrə mikrosubyektlərin xüsusi çəkisi – 99,1% (313 : 316), kiçik subyektlərin xüsusi çəkisi – 0,3% (1 : 316), orta subyektlərin xüsusi çəkisi – 0,6% (2 : 316);
5. Nəqliyyat və anbar təsərrüfatı üzrə mikrosubyektlərin xüsusi çəkisi 100% (190),
6. İnformasiya və rabitə üzrə mikrosubyektlərin xüsusi çəkisi – 100% (9);
7. Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə mikrosubyektlərin xüsusi çəkisi 97,6% (40 : 41), orta ölçülü subyektlərin xüsusi çəkisi üçün 2,4% (1 : 41);
8. Daşınmaz əmlakla əlaqədar əməliyyatlar üzrə mikrosubyektlərin xüsusi çəkisi – 100% (87);
9. Təhsil üzrə mikrosubyektlərin xüsusi çəkisi – 100% (22);
10. Əhaliyə səhiyyə xidməti və sosial xidmətlərin göstərilməsi üzrə mikrosubyektlərin xüsusi çəkisi – 73,4% (11 : 15), kiçik ölçülü subyektlərin xüsusi çəkisi – 13,3% (2 : 15), orta ölçülü subyektlərin xüsusi çəkisi – 13,3% (2 : 15);
11. Digər sahələr üzrə mikrosubyektlərin xüsusi çəkisi – 100% (456).

c) <u>2020-ci illə müqayisədə 2021-ci ildə:</u>
1. Muxtar respublikanın sahibkarlıq subyektlərinin ümumi sayında **geriləmə** mütləq ifadədə 12 vahid (2419 – 2431), nisbi ifadədə 0,47% (2419 : 2431);
2. Mikrosubyektlər üzrə regionun **geriləmə** həcmləri mütləq ifadədə 14 vahid (2409 – 2423), nisbi ifadədə isə 0,58% (2409 : 2423);

3. Regionun kiçik subyektlərində 2 vahidlik (4 – 2) və ya 100%-lik (4 : 2) **artım** müşahidə olunmaqdadır.
4. Regionun orta həcmli subyektlərində **sabit vəziyyət** (dəyişməyən həcm) müşahidə olunmaqdadır (6 vahid).
5. Kənd təsərrüfatı üzrə istər cəmi həcmi, istərsə də mikrosubyektlərin vəziyyətində 243 vahidlik (1167 – 924) və ya 26,3%-lik (1167 : 924) **artım** müşahidə olunmaqdadır.
6. Sənayedə müşahidə olunan **geriləmə** 24 vahidə (37 – 61), və ya 39,3%-ə (37 : 61) bərabər olmuşdur;
7. Oxşar vəziyyətdə **geriləmə** tikintidə görünməkdədir: 4 vahid (79 – 83) və ya 4,8% (79 : 83);
8. Ticarət; nəqliyyat vasitələrinin təmiri üzrə **geriləmə** mütləq ifadədə 127 vahid (316 – 443), nisbi ifadədə 28,7% (316 : 443);
9. Nəqliyyat və anbar təsərrüfatı üzrə **geriləmə** mütləq ifadədə 23 vahid (190 – 213) və ya 10,8% (190 : 213);
10. Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə **geriləmə** mütləq ifadədə 16 vahid (41 – 57), nisbi ifadədə isə 28,1% (41: 57);
11. İnformasiya və rabitə üzrə **artım** mütləq ifadədə 2 vahid (9 – 7), nisbi ifadədə isə 28,6% (9 : 7);
12. Daşınmaz əmlakla əlaqədar əməliyyatlar üzrə **artım** mütləq ifadədə 23 vahid (87 – 64), nisbi ifadədə 35,9% (87 : 64);
13. Təhsil üzrə **geriləmə** mütləq ifadədə 16 vahid (22 – 38), nisbi ifadədə 42,1% (22 : 38);
14. Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə **geriləmə** mütləq ifadədə 7 vahid (15 – 22), nisbi ifadədə 31,8% (15 : 22);
15. Digər sahələr üzrə **geriləmə** mütləq ifadədə 63 vahid (456 – 519), nisbi ifadədə isə 12,1% (456 : 519).

İcra olunmuş hesablamaların əksəriyyətində geriləmələrin müşahidə olunması iqtisadi (istehsal, xidmət və s.) şəratində çatışmazlıqların mövcudluğuna dəlalət etməkdədir. Məhz bu əsasda yerinə yetirilən tədqiqatlar eyni zamanda perspektiv dövrlərdə yarana biləcək və fərqli konfiqurasiyalara malik situasiyalar haqqında məlumatları özündə əks etdirəcəkdir.

**Sahibkarlıq Subyektlərinin İnvestisiya Əməliyyatları və bu Proseslər Üzrə Mühüm Bölgülər**

Sosial-iqtisadi proseslər sahibkarlıq subyektlərində müxtəlif mütərəqqi addımların atılmasına səbəb olmaqdadır. Bu sırada investisiya əməliyyatlarının əhəmiyyəti danılmazdır. Fikrimizcə, investisiya əməliyyatlarının həyata keçirilməsində dövlətin birbaşa iştirakı və dövlət-özəl sektorlarının birgə tərəfdaşlıq sisteminin təşkili olduqca əhəmiyyətlidir. Beynəlxalq təcrübə də göstərir ki, dövlət xətti ilə yeni müəssisələr və istehsal gücləri yaratmaq, özəl müəssisələrin qurulmasında dövlətin investisiya ilə iştirakı çox təbii və zəruri hesab edilir (Bağırov, 2023; Hüseynov, 2015: s. 404-405).

Parantez açaraq bir faktı da nəzər diqqətinə çatdıraq ki, Azərbaycan hökuməti investisiyaların tənzimlənməsini struktur siyasəti vasitəsilə məqsədyönlü istiqamətlərdə həyata keçirir (Allahverdiyev, Qafarov və Əhmədov, 2002).

Yeni əsas fondların yaradılmasına və əldə olunmasına, tikinti-quraşdırma işlərinin həyata keçirilməsinə və digər analoji məzmunlu işlərə istiqamətləndirilmiş fəaliyyət investisiya qoyuluşları ilə müşayət olunmaqdadır. Məsələnin mənzərəsinə aydınlıq gətirmək üçün digər şərtlərlə yanaşı cədvəl 2-yə müraciət etmək məqsədəuyğun olardı.

**Cədvəl 2: Mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş vəsaitlərin iqtisadi rayonlar üzrə bölgüsü, min manat**

| İqtisadi və inzibati rayonlar | Cəmi | 2020 | | | Cəmi | 2021 | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| Bakı şəhəri | 1647465,8 | 323344,6 | 258036,7 | 1066084,5 | 2043604,1 | 784415,6 | 767859,2 | 491329,3 |
| Naxçıvan MR | 544 111,4 | 531 309,1 | 2 578,6 | 10 223,7 | 591407,3 | 584245,4 | 2851,8 | 4310,1 |
| Abşeron-Xızı | 90 197,5 | 278,8 | 9 989,2 | 79 929,5 | 140893,4 | 9306,9 | 35890,6 | 95695,9 |
| Dağlıq Şirvan | 81 959,1 | 1 222,0 | 62 037,1 | 18 700,0 | 96375,0 | 66555,2 | 26409,2 | 3410,6 |
| Gəncə-Daşkəsən | 106 264,2 | 46 414,6 | 6 449,4 | 53 400,2 | 94321,3 | 60644,1 | 13770,2 | 19907,0 |
| Qarabağ | 10 599,2 | 2 250,0 | 7 597,9 | 751,3 | 143566,7 | 53469,4 | 8439,5 | 81657,8 |
| Qazax-Tovuz | 53 759,9 | 25,4 | 23 967,9 | 29 766,6 | 47817,6 | 12944,7 | 96,3 | 34776,6 |
| Quba - Xaçmaz | 49 314,9 | 33 080,0 | 2 510,1 | 13 724,8 | 66937,0 | 43862,8 | 15384,8 | 7689,4 |
| Lənkəran-Astara | 7 325,4 | 6 564,5 | 702,9 | 58,0 | 23859,2 | 13878,4 | 9146,9 | 833,9 |
| Mərkəzi Aran | 27 670,7 | 13 191,7 | 542,6 | 13 936,4 | 51357,9 | 30929,6 | 413,3 | 20015,0 |
| Mil-Muğan | 3 272,6 | 1 974,7 | 337,6 | 960,3 | 15277,5 | 8320,3 | 2998,9 | 3958,3 |
| Şəki-Zaqatala | 21167,1 | 6931,0 | 982,1 | 13254,0 | 44017,3 | 16184,7 | 2882,6 | 24950,0 |
| Şərqi Zəngəzur | - | - | - | - | 17500,0 | 17500,0 | - | - |
| Şirvan-Salyan | 30944,3 | 3608,5 | 4652,8 | 22683,0 | 10754,2 | 3910,2 | 6528,1 | 315,9 |

Cədvəl 2-nin ardı

Mənbə: stat.gov.az/ enterprenerşhip/ 021(2)

Cədvəl 2-nin spesifik cəhətləri sırasında aşağıdakılar sadalana bilər:

- ✓ İnvestisiya həcmləri haqqında 14 vahid üzrə məlumatların cəmlənməsi;
- ✓ Sahibkarlıq subyektləri üzrə ümumilikdə, o cümlədən mikro, kiçik və orta həcmli vahidlər üzrə informasiyanın əks olunması;
- ✓ Məlumatlar dinamika qaydasında iki il üzrə həyata keçirilməkdədir;
- ✓ Məlumatlandırmanın ümumiləşdirici göstərici olan dəyər ifadəsində həyata keçirilməsi və s.

Cədvəl 2-nin məlumatları "üfuqi" və "şağuli" istiqamətlərdə icra olunmaqdadır. "Üfuqi" hesablamaların müəyyən edilməsində eyni vahidin 2020 və 2021-ci illər arasında qarşılaşdırmalar həyata keçirilməkdədir. Həyata keçirilən müəyyənləşdirmə nəticəsində dinamikada baş verən artım və ya geriləmə eyni tədqiqat vahidinin hansı yöndə təkamül etməsi haqqında təsəvvür yaratmaqdadır.

Bu əsasda hər bir ilin ümumi nəticələri müəyyən edildikdən sonra xüsusi çəkilərə aydınlıq gətirilir. Müvafiq təməl nəzərə alınmaqla istər ümumi cəm, istərsə də cədvəl 2-də göstərilən mikro, kiçik və orta həcmli cəmlər üzrə xüsusi çəki yekunları çıxarılmaqdadır.

Deyilənləri müvafiq rəqəmlərin əks olunduğu misallar əsasında izah etmək yerinə düşərdi. Məsələn, 2021-ci ildə əsas kapitala yönələn vəsaitin ümumi həcmi - 3387638,5 min manat, mikro subyektlər üzrə müvafiq göstərici – 1696167,3 min manat, kiçik subyektlər üzrə - 892671,4 min manat, orta ölçülü sahibkarlıq subyektləri üzrə isə - 788848,9 min manat təşkil etməkdədir. İfadə edilmiş mütləq məlumatlar əsasında qrupların xüsusi çəkisini müəyyənləşdirək. Bu əsasda mikrosubyektlərin payına 50,0%-lik hissə (1696167,3 : 3387638,5), kiçik ölçülü subyektrlərin payına 26,4%-lik hissə, orta həcmli sahibkarlıq subyektləri üzrə isə 23,2%-lik hissə (788848,9 : 3387638,5) düşməkdədir.

Digər tərəfdən, 2021-ci ildə Naxçıvan iqtisadi rayonu üzrə əsaslı vəsait qoyuluşlarının istər ümumilikdə istərsə də mikro, kiçik və orta həcmli sahibkarlıq subyektləri üzrə xüsusi çəkiləri müvafiq olaraq aşağıdakı kimidir: 17,5% (591407,3 : 3387638,5), 34,4% (584245,4 : 1696167,3), 0,3% (2851,8 : 892671,4), 0,6% (4310,1 : 788848,9). Eyni zamanda qeyd edək ki, 2020-ci ilə nisbətən 2021-ci ildə Naxçıvan regionu üzrə investisiya həcmlərinin artım səviyyələri aşağıdakı kimidir: ümumi həcmdə 8,7% (591407,3 : 544111,4), mikrosubyektlər üzrə 10,0% (584245,4 : 531309,1), kiçik sahibkarlıq subyektləri üzrə 10,6% (2851,8 : 2578,6) təşkil etməkdədir. Öz növbəsində orta sahibkarlıq subyeklərində hər iki ilin nəticələri üzrə geriləmə müşahidə olunmuşdur -57,8% (4310,1 : 10223,7) (Mahmudov, Qasımov və Nəsirov, 2022).

Öz növbəsində yuxarıda icra olunan miqayisələrin əksərində geriləmənin müşahidə olunması çıxış yollarından biri kimi həmin istiqamətlərə məqsədyönlü investisiyaların yönəldilməsini tələb etməkdədir.

**Nəticə**

Müasir dövr region miqyasında sahibkarlıq mühitinin formalaşması ilə müşayət olunmaqdadır. Özünün aktuallığı ilə seçilən müvafiq məsələyə sistemli yanaşmanın həyata keçirilməsi öz növbəsində bütün təsiredici amillərin, həmçinin investisiya qoyuluşlarının kompleks şəkildə tətbiqi iqtisadi sferada əsas fondların çatışmayan hissəsinin tamamlanmasına, həmçinin zəruri hallarda onların təzələnməsi və digər əməliyyatların icrasına şərait yaratmaqdadır. Digər tərəfdən, regional miqyasda sahibkarlığın təşəkkülü və inkişaf etdirilməsi öz növbəsində sonrakı addımların atılması üçün də maddi zəmin təşkil etməkdədir.

Sahibkarlıq mühitinin təkamülü dayanıqlı inkişaf rejimində özünəməxsus kəmiyyət-keyfiyyət xarakteristikaları ilə müşayət olunmaqdadır ki, bu da yaranan situasiyalarda əlavə komponentlərin də ortaya çıxarılmasına şərait yaradır.

Regionlarda formalaşan sahibkarlıq subyektləri dinamikada say-tərkib ifadələrinin müxtəlifliyinə diqqəti çəkməkdədir.

**Ədəbiyyatlar**


Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. (2002). İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, Nasir, - 446 səh.

Atakişiyev M.C., Abbasov H.M., Abbasova N.M. (2010). Mikro və makroiqtisadiyyat. Bakı, Azərnəşr, - 508 səh.

Bağırov M.S. (2023). Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirmə və təhlil fəaliyyəti. Naxçıvan, Əcəmi, - 216 səh.

Bağırov M.S. (2020). Statistikanın təməl bilikləri. Naxçıvan, Əcəmi, - 525 səh.

Hüseynov T.H. (2015). Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı, Elm, - 466 səh.

Mahmudov C.İ., Bağırsoylu H.Q. (2019). Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması. *Dərs vəsaiti*. Naxçıvan, Əcəmi, - 264 səh.

Mahmudov C.İ., Qasımov C.Y., Nəsirov E.N. (2022). Naxçıvan iqtisadiyyatı. *Dərs vəsaiti*. Naxçıvan, Əcəmi, - 232 səh.

Niftullayev V.M. (2002). Sahibkarlığın əsasları. Bakı, Zaman, - 618 səh.

Арабов К.К. (2007). Измерение человеческого капитала // Российское предпринимательство. №4, - стр 105-109.

Гневко В.А., Рохчин В.Е. (2005). Условия устойчивости развития региона как сложной хозяйственной системы // Российской предпринимательство. №12, - стр. 52-56.

Дятлов С.А. (1998). Основы концепции устойчивого развития. СПб., СПбГУЭФ, - 155 стр.

Иванов В.А. (2008). Методологические основы устойчивого развития региональных социо-эколого-экономических систем // Экономические и социальные перемены: факты, тенденции и прогноз. № 2, - стр. 50-59.

Кретинин В.А. (2005). Управление региональной экономикой: механизмы перехода от антикризисного к устойчивому развитию. Муром, - 213 стр.

Лаженцев В.Н. (2004). Экономический федерализм и региональная политика. // Федерализм. № 3, - стр. 37-50.

Миланова Е.В. Индикаторы устойчивого развития и улучшения качества жизни населения // [Электронный ресурс]. URL: http://municipal-sd.ru/pdf-files/8-l/milanova-8-l-indikatory.pdf.

Наше общее будущее: доклад Международной комиссии по окружающей среде и развитию (1989). Пер. с англ. под редакции С.А.Евтеева и Р.А.Перелета. М., Прогресс, - 371 стр.

Подпругин М.О. (2012). Устойчивое развитие региона: понятие, основные подходы и факторы // Российское предпринимательство. № 24, - стр. 214-221.

Пчелинцев О.С. (2004). Региональная экономика в системе устойчивого развития. М., Наука, - 258 стр.

Шургалина И.Н. (2000). Реформирование российской экономики. Опыт анализа в сфете теории катастроф. Москва, Российская политическая энциклопедия, - 221 стр.

Meadows D., Randers J. (2004). The limits to growth: the 20-year update. Chelsea Green Pub., - 338 page.

# İşğaldan Azad Edilmiş Ərazilərdə İnvestisiya Potensialının Maliyyə Aspektlərinin Tədqiqi

**Tural Əsgərli**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**esgerlitural17@gmail.com**

## Xülasə

Azərbaycanın işğaldan azad edilmiş əraziləri, müxtəlif inkişaf sahələri və investisiya potensialı açısından böyük imkanlara malikdir. Bu ərazilərdə inkişafın sürətlənməsi, yerli və xarici investorların maraqlarını cəlb etməklə mümkündür. İnvestisiya potensialının maliyyə aspektlərinə baxdıqda, bu ərazilərdə mövcud olan infrastruktur, vergi və maliyyə sistemi, maliyyə bazarının durumu və s. kimi faktorlar önəmli rol oynayır. Yerli və xarici investorlar bu faktorlara diqqət yetirir və onların uyğunluğunu dəyərləndirir. Əgər bu sahələr möhkəmləndirilsə, investisiya potensialı daha da artar. Bu məqalədə, işğaldan azad edilmiş ərazilərə investisiya potensialının maliyyə aspektlərinin tədqiq edilməsi, inkişafın sürətləndirilməsi üçün mövcud olan imkanlar və müvafiq tədbirlər haqqında ətraflı məlumat veriləcəkdir. Məqalədə bir sıra metodoloji tədqiqatlardan, praktiki araşdırmalardan, müxtəlif təhlik və analizlərdən onları əhatə edən induksiya və deduksiyadan geniş şəkildə istifadə edilmişdir. Sonra, investisiya potensialının artırılması üçün maliyyə aspektlərinin önəmi müzakirə edilir. Burada ərazi idarəetməsi, vergi qanunvericiliyi və maliyyə siyasəti kimi mühüm məsələlər ətrafında söhbət gedir. Məqalədə bu sahədəki araşdırmaların vacibliyi, müxtəlif məsələlərin həlli üçün tətbiq edilə biləcək maliyyə strategiyaları və müəyyən qanunvericilik dəyişiklikləri kimi mövcud olan imkanlar müzakirə edilir.

**Açar sözlər:** İşğaldan azad edilmiş ərazilər, investisiya, maliyyə, investisiya potensialı

## Summary

The liberated territories of Azerbaijan have great opportunities from the point of view of various areas of development and investment potential. Acceleration of development in these territories is possible by attracting the interests of domestic and foreign investors. When looking at the financial aspects of investment potential, the infrastructure existing in these territories, the tax and financial system, the state of the financial market, etc. such factors play an important role. Domestic and foreign investors pay attention to these factors and evaluate their compliance. If these areas are strengthened, the investment potential will increase even more. This article will provide detailed information on the financial aspects of the investment potential in the liberated territories, the opportunities available to accelerate development and the appropriate measures. The article widely used induction and deduction, which includes a number of methodological studies, practical studies, various analysis and analysis. Next, the importance of financial aspects for increasing investment potential is discussed. In this context, important issues such as territorial management, tax legislation and financial policy are discussed. Discusses the importance of research in this area, the financial strategies that can be applied to solve various issues, and the opportunities available such as certain legislative changes.

**Keywords:** ***territories freed from drafts, investment, financial, investment potential***

## Giriş

Mövzunun aktuallığı: İşğaldan azad edilmiş ərazilərdə investisiya potensialının maliyyə aspektlərinin tədqiqi mövzusu hazırda aktual və müzakirə edilən bir mövzudur. Azərbaycanın ərazisində uzun müddətdir ki, işğal altında olan bölgələrin geri qaytarılması və yenidən inkişaf edilə biləcək halda olması, yerli və xarici investorların marağına səbəb olmuşdur.

Tədqiqatın əsas məqsədi: İşğaldan azad edilmiş ərazilərdə investisiya potensialının maliyyə aspektlərinin tədqiqi, bu bölgələrdəki inkişaf imkanlarının müəyyənləşdirilməsi, müvafiq inkişaf strategiyalarının hazırlanması və investorların maraqlarının cəlb edilməsi üçün önəmli bir araşdırmadır. Bu tədqiqatın əsas məqsədi, işğaldan azad edilmiş ərazilərdəki investisiya potensialının maliyyə aspektlərini müəyyənləşdirmək, mövcud olan maliyyə sistemini, vergi qanunvericiliyini və s. kimi faktorları araşdırmaq və bölgənin inkişafını sürətləndirmək üçün təkliflər verməkdir.

Tədqiqatın vəzifəsi: İşğaldan azad edilmiş ərazilərdə investisiya potensialının maliyyə aspektlərinin tədqiqi, bu bölgələrdə inkişafın sürətləndirilməsi və müvafiq investisiya imkanlarının artırılması üçün əhəmiyyətli bir tədqiqatdır. Bu tədqiqatın əsas vəzifələri investisiya potensialının müəyyənləşdirilməsi, yerli və xarici investorların maraqlarının araşdırılması, maliyyə və vergi sistemlərinin analizi və s.dir.

Tədqiqatın metodologiyası: İşğaldan azad edilmiş ərazilərdə investisiya potensialının maliyyə aspektlərinin tədqiqi üçün müxtəlif metodologiyalar tətbiq edilə bilər. Tədqiqat üçün ən müvafiq metodlar analitik metod, analiz, təhlil, inkişaf üçün proqnoz metoddur. Tədqiqat üçün müvafiq metodologiyaların seçimi, araşdırmanın məqsəd və hədəflərinə uyğun olmalıdır.

Tədqiqatın məhdudiyyətləri: İşğaldan azad edilmiş ərazilərdə investisiya potensialının maliyyə aspektlərinin tədqiqi zamanı tədqiqatçıların qarşılarına çıxan bir neçə məhdudiyyət qarşısında olmaq ehtimalı var və bunlar məlumat mənbələrinin azlığı, sosial problemlər, infrastruktur problemləri, müvafiq qanunvericilik qaydaları və s. ola bilər. Bu məhdudiyyətlər tədqiqatın müvəqqəti hazırlanmasına səbəb ola bilər və bu bölgələrin inkişafı üçün qarşılaşacağı çətinlikləri nümayiş etdirə bilər.

Tədqiqat ilə bağlı əsas istinad olunan mənbələr: İşğaldan azad edilmiş ərazilərdə investisiya potensialının maliyyə aspektlərinin tədqiqi üçün aşağıdakı əsas istinad olunan mənbələr mövcuddur. Dövlət statistika Komitəsi - bu komitə işğaldan azad edilmiş ərazilərdəki məlumatları toplayır və bunların analizini təqdim edir. Bu, investisiya potensialı ilə bağlı statistik məlumatların əldə edilməsini mümkün edir. Dövlət maliyyə müəssisələri - bu müəssisələr, vergi sistemlərinin və maliyyə sistemlərinin təhlilini təqdim edir və bu bölgələrdə inkişaf üçün maliyyə yatırımlarının nəzarət edilməsində kömək edir. Bank və maliyyə qurumları - bank və maliyyə qurumları işğaldan azad edilmiş ərazilərdəki maliyyə bazarı ilə bağlı məlumatlar təqdim edir və bu bölgələrdəki investisiya imkanlarının analizinə kömək edir. İnkişaf agentlikləri - bu agentliklər, inkişaf strategiyalarının hazırlanmasında və yeni inkişaf planlarının tərtibində kömək edir. Bu agentliklərin əməkdaşları ayrıca, bu bölgələrdə inkişaf üçün layihələrin və tədbirlərin tərtibində məlumatlar təqdim edir. Akademik araşdırmalar - akademik araşdırmalar, işğaldan azad edilmiş ərazilərdəki investisiya potensialı ilə bağlı yeni məlumatların əldə edilməsinə və inkişaf strategiyalarının hazırlanmasına kömək edir. Bu mənbələr, işğaldan azad edilmiş ərazilərdə investisiya potensialının maliyyə aspektlərinin tədqiqinin hazırlanması və təhlilində əsas rol oynayır və tədqiqatçıların müvafiq məlumatlara çətinliklər olmadan çatmaq üçün istifadə edə biləcəyi əsas mənbələrdir.

**İnvestisiya Fəaliyyətinin Tənzimlənməsinin Maliyyə Mexanizmləri**

Hər şeydən əvvəl, investisiya termini daha geniş münasibətlər sistemini əks etdirir. Beləliklə, investisiyalar pul vəsaitlərinin yerləşdirilməsini təmin etmək, onların dəyərini artırmaq və gəlirləri təmin etmək üçün nəzərdə tutulur. Bu kimi investisiyalar istehsalın inkişafı üçün istehsal olunan məhsulun bir hissəsinin istifadəsi, səhmlərin, istiqrazların alınması, vəsaitlərin bankda depozit qismində yerləşdirilməsi və ya onların insan kapitalına köçürülməsi ilə bağlı bir sıra prosesləri

əhatə edir. Maliyyə nəticələrini əldə etmək üçün səhmlərin və ya istiqrazların alınmasını əks etdirir, həmçinin real aktivləri göstərir. Məsələn, malların istehsalı və satışı üçün lazım olan maşınlar və s. investisiyalar geniş mənada ölkə iqtisadiyyatının inkişafı üçün lazım olan maliyyə resurslarının verilməsi mexanizmini təşkil edir (Aslanov, 2012).

Şübhəsiz ki, investisiya mühitinin səmərəlilik prinsiplərini müəyyən etmək üçün, ilk növbədə, investisiya mühitinin formalaşdırılması üçün optimal dövlət siyasətinin işlənib hazırlanması tələb olunur, lakin bu siyasətin funksional alətlərini, həmçinin dövlət dəstəyi mexanizmlərini işləyib hazırlamaq və tətbiq etmək vacibdir. İnvestisiya mühiti üçün müvafiq infrastruktur potensialının yaradılması, texnologiya və innovasiya bazarlarının inkişafı, ölkədə makroiqtisadi və makroiqtisadi sabitliyin qorunması, bank-kredit və sığorta sistemlərinin təmin edilməsi və s. tədbirlərin həyata keçirilməsi son nəticədə investisiya mühitinin cəlbediciliyinin artırılmasına böyük təsir göstərə bilər.

Müasir dövrdə ölkə iqtisadiyyatının dayanıqlı və optimal inkişafının təmin edilməsi bir çox mühüm amillərin nəzərə alınmasını şərtləndirir. Bu sırada investisiya amili xüsusi önəm kəsb edir. Belə ki, iqtisadiyyatın hazırkı inkişafı əsasən yeniliklərlə əlaqələndirilir ki, bu da öz növbəsində əhəmiyyətli və davamlı investisiyalar tələb edir. İnvestisiyalar iqtisadiyyatda kifayət qədər mühüm rol oynayır və müxtəlif iqtisadiyyat sahələrinin gücləndirilməsində, istehsal fondlarının yenilənməsində əhəmiyyətlidir (Журавлева, 2018).

İnvestisiya mühiti anlayışı elmi iqtisadi ədəbiyyatda müxtəlif cür şərh olunur. Ancaq hazırda bu kateqoriyanın əsas xüsusiyyətləri ilə bağlı dəqiq konsensus yoxdur. Bir qayda olaraq, iqtisadçılar bir neçə konsepsiyadan istifadə edirlər: investisiya iqlimi, investisiya cəlbediciliyi və s. bəzi müəlliflər bu anlayışları eyni anlayış kimi istifadə edirlər, digərləri isə fərqli olduğuna inanırlar. Müəssisələrin, regionların və iqtisadiyyatın investisiya potensialı bütövlükdə onların investisiya cəlbediciliyini xarakterizə edən amillərin mövcudluğunu müəyyən edir. Ümumi olaraq investisiya potensialı investisiya mühitinin xüsusiyyətlərini və imkanlarını xarakterizə edən iqtisadi kateqoriyadır. İnvestisiya potensialının tərkibi və strukturu ölkənin və onun regionlarının iqtisadi artım imkanlarını müəyyən etməlidir, investisiya cəlbediciliyinin ikinci hissəsi isə investisiya riskidir. Qeyd edək ki, seçilmiş investisiya layihəsi nə qədər sərfəli görünürsə, vəsaitlərin itirilməsi ehtimalı da bir o qədər yüksəkdir. Yuxarıda göstərilən nəzəri baxışlara əsaslanaraq, investisiya mühitinin, investisiya cəlbediciliyinin, investisiya potensialının, investisiya riskinin və investisiya fəallığının anlayışlarının qarşılıqlı təsirini sxematik şəkildə aşağıdakı kimi əks etdirmək mümkündür.

İnvestisiya maliyyələşdirilməsinin idarə edilməsi maliyyə və büdcə qanunvericiliyi, investisiya fəaliyyətinin maliyyə mexanizmi, investisiya siyasəti kimi maliyyə kateqoriyaları vasitəsilə həyata keçirilir. İnvestisiya siyasəti iqtisadiyyatda obyektiv fəaliyyət göstərən və əsas fondların bərpası prosesində meydana çıxan amillər tərəfindən formalaşır. İnvestisiya resurslarının formalaşdırılması və cəlb edilməsi prosesində yaranan maliyyə münasibətləri investisiya fəaliyyətinin maliyyə mexanizmini formalaşdırır ki, bu da öz növbəsində maliyyə resurslarının idarə edilməsi, bölüşdürülməsinə dair funksiyalar şəklində ifadə olunur (Khidirov, 2021).

İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsi mexanizminin ən mühüm hissəsi dövlət kredit sistemidir. Bu gün kredit sistemi iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Ölkədə kredit sisteminin vəziyyəti yalnız dövlətin bank sistemi ilə deyil, həm də kredit ittifaqları və kommersiya təşkilatları ilə bağlıdır. İqtisadiyyatda yaradılmış və formalaşmış kredit sisteminin rolu onun üzərinə pul resurslarının yığılması və yenidən bölüşdürülməsi mərkəzi kimi böyük məsuliyyət qoyur. Beləliklə, bütün müştərilər, əmanətçilər, tərəfdaşlar və investorlar kredit sisteminin mühüm hissəsi

olan kommersiya banklarının sabitliyinə və etibarlılığına tam güvənməlidirlər. Qeyd etmək lazımdır ki, kredit sistemi kredit mexanizmi vasitəsilə fəaliyyət göstərir, çünki kredit sisteminin dəqiqliyi investisiya fəaliyyətinin maliyyələşdirilməsində mühüm rol oynayır. Kreditləşmə mexanizmi kreditləşmə, investisiya qoyuluşu, broker fəaliyyəti, məsləhətləşmə, qənaət, yenidən bölüşdürmənin bütün aspektlərini əhatə edir.

**Şəkil 1: İnvestisiya mühitinin əsas struktur elementləri və əlaqələrinin sxematik təsviri**




**Mənbə:** Məmmədova, 2022

## İnvestisiya Potensialının Maliyyə Aspektlərinin Tədqiqi

Ölkədə əldə olunan gəlirin əsas hissəsi istehlaka gedirsə, investisiya üçün daha az vəsait qalır. Bu baxımdan, ölkədə əmanətlərin həm mütləq, həm də nisbi miqdarı investisiya potensialını formalaşdıran amillərdən biridir (Керимова, 2010).

20 sentyabr 1994-cü ildə Xəzər dənizində Azərbaycanın Çıraq neft yataqlarının, eləcə də Günəşli yatağının çox dərin su hissəsinin işlənməsi üçün dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalanmışdır. Bu Sazişin imzalanmasından neft-qaz sektorunda 30-a yaxın yeni müqavilə imzalanmış, Bakı-Tibilisi-Ceyhan və Bakı-Tibilisi-Ərzurum əsas ixrac qaz kəmərləri istifadəyə verilmişdir. Sonrakı illərdə TANAP və TAP layihələri regional və beynəlxalq səviyyədə həyata keçirilib ki, bu da Azərbaycanın enerji təhlükəsizliyi sahəsində Avropa İttifaqının etibarlı tərəfdaşına çevrilməsində mühüm rol oynayıb. Azərbaycanın təbii qazı dünyanın müxtəlif ölkələrinə neft ixracı ilə yanaşı, 31 dekabr 2020-ci il tarixində Avropa bazarına çıxarılıb. Bu dövrdə ölkə iqtisadiyyatına xarici investisiyalar əhəmiyyətli dərəcədə artdı, baxmayaraq ki, 2008-ci ilin sonunda başlayan qlobal maliyyə böhranının mənfi nəticələri səbəbindən nisbi intensivliyi azalmışdır (Керимова, 2010).

Cədvəl 1-də 2000-2021-ci illər üçün Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi dinamikası təhlil edilir.

**Cədvəl 2: Azərbaycan iqtisadiyyatına xarici investisiyalar (milyon ABŞ dolları)**

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi xarici investisiya** | 927 | 4983,2 | 8247,8 | 719,1 | 10161,1 | 9120,5 | 8236,5 | 7129,1 | 6125,4 | 7501,1 |
| **Neft-qaz sektoruna** | 546,1 | 3799,9 | 2955,3 | 6622,7 | 5617,4 | 4900,8 | 3142,0 | 3345,2 | 3922,1 | 4004,9 |
| **Qeyri-neft qaz sektoruna** | 118 | 230,5 | 659,6 | 860,4 | 1706,2 | 813,0 | 967,1 | 930,1 | 605,6 | 790,4 |
| **Digər investisiyalar** | - | 163,4 | 1225,0 | 1023,8 | 639,6 | 1622,0 | 797,3 | 2853,8 | 1597,7 | 2705,8 |

**Mənbə:** Azərbaycan rəqəmlərdə 2015: 132-133, 2020: 397, 2021: 380, 2022: 196

Cədvəl 1-dən görmək olur ki, son zamanlarda ölkə iqtisadiyyatına xarici investisiyaların həcmi xeyli artmışdır. Nəticədə 2021-ci ildə ölkə iqtisadiyyatına cəlb olunan xarici investisiyaların həcmi 7501,1 milyon manat təşkil edib. Bu, 2000-ci il ilə müqayisədə 8,1 dəfə çoxdur. Beləliklə, ölkədə investisiyaların maliyyələşdirilməsi baxımından xarici investisiyaların cəlb edilməsi imkanları çoxdur. 1994-cü ildən 2018-ci ilə qədər beynəlxalq maliyyə-kredit institutları ilə hökumət arasında 14,169 milyard ABŞ dolları dəyərində müqavilə bağlanmışdır. Bununla bağlı 133 layihə və proqramın icrası başa çatdırılıb, qalanları isə hazırda icra edilir.

Böyük Vətən müharibəsindəki qələbədən sonra Qarabağ bölgəsində, eləcə də ətraf 7 rayonda əlavə dəyərin yaradılması, ölkə iqtisadiyyatının investisiya potensialının artırılması üçün imkanlardan səmərəli istifadə edilməsi kimi qarşıda strateji vəzifələr durur. Bu ərazilər Sovet İttifaqı dövründə Azərbaycan iqtisadiyyatında mühüm yer tuturdu. Məlumdur ki, hər müharibənin öz sonu var və sülh yaranandan sonra bərpa və tikinti işlərinə ehtiyac var. İşğaldan azad edilmiş rayonlarda təmir-bərpa işlərinin aparılması prinsipləri və meyarları ən mütəşəkkil şəkildə müəyyənləşdirilməli, mövcud şəraitə uyğun təkmilləşdirilməlidir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə bir neçə qlobal problem mövcuddur və dünya dövlətləri qlobal problemlərin təsirini nisbi şəkildə azaltmaq üçün səy göstərirlər. Bir tərəfdən, COVID-19 pandemiyasının yaratdığı yeni şərtlərdən yaranan problemlər milyonlarla sayda insanın həyatını təhlükəyə atmışdır. Bütün bunlar böyük resurslar, o cümlədən maliyyə resursları tələb edir, həyat dinamikasını və iqtisadi inkişaf proseslərini bərpa etmək, iqtisadiyyatın iflic olmuş sektorlarını inkişaf etdirmək lazımdır. Qeyd etmək lazımdır ki, investisiya potensialının formalaşdırılması və genişləndirilməsi, bölgəyə getdikcə daha çox real investorun axınının aktivləşdirilməsi, ixtisaslaşdırılmış beynəlxalq investisiya və maliyyə şirkətlərinin sərəncamında konkret investisiya və innovativ layihələrin əsaslandırılması və təqdimatı böyük təsir göstərə bilər. Bu, Qarabağ və Şərqi Zəngəzurda mövcud olan nəhəng və məhsuldar təbii və iqtisadi potensialın daha obyektiv qiymətləndirilməsini, adekvat tədbirlərin görülməsini tələb edir. İşğaldan azad edilmiş ərazilərin inkişaf xüsusiyyətlərinin dərindən öyrənilməsi fundamental tədqiqatların aparılmasını, mövcud investisiya potensialının obyektiv qiymətləndirilməsini, bu resurslardan səmərəli istifadəni təmin edə biləcək şəraitin yaradılmasını, fəaliyyətin zəruri mexanizm və alətlərinin tətbiqi üzrə tədbirlərin görülməsini zəruri edir (Kərimova, 2022).

Qarabağ bölgəsində meşə potensialının 25% - i, su ehtiyatlarının yarısı burada cəmləşmişdir, digər tərəfdən, keçmiş SSRİ dövründə respublikamızın kənd təsərrüfatı məhsullarının təxminən 40% - i bu rayonlarda istehsal olunurdu. Ağdam və Füzuli rayonlarında taxıl və pambıq becərilməsi üçün,

Cəbrayıl və Zəngilan rayonlarında üzümçülük ehtiyatları, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında isə heyvandarlığın inkişafı üçün bütün resurslar var idi. Bu ərazilərdə xeyli miqdarda kənd təsərrüfatı məhsulunu emal edən orta emal müəssisələri fəaliyyət göstərirdi. Çox sayda üzüm məhsulunu emal edən şərab zavodları və pambıq fabrikləri var idi. Qarabağ bölgəsində güclü təbii və iqtisadi potensialın olması, resursların mövcudluğu, habelə güzəştli şərtlərlə fəaliyyət üçün müvafiq şəraitin yaradılması daxili və xarici investisiyalar üçün maksimum cəlbediciliyi təmin edir. Bundan başqa, Qarabağ regionunda və azad edilmiş rayonlarda böyük layihələrin icrası böyük maliyyə resursları və investisiyalar tələb edir. Artıq 2021-ci ildə bu məqsədlər üçün dövlət büdcəsindən 2,2 milyard manat, 2022-ci ildə isə dövlət büdcəsində azad edilmiş ərazilərin yenidən qurulması və bərpası üçün 2 milyard 200 milyon manat ayrılmışdır (Kərimova, 2022).

Qarabağda investisiya potensialının artırılması baxımından böyük imkanlar var, xüsusilə təbii ehtiyatlar, o cümlədən filiz və qeyri-metal ehtiyatlar sayəsində əlavə dəyər yaradan resursların emalı və formalaşdırılması üzrə geniş şəbəkə müəssisələrinin yaradılması mümkündür. Ənənəvi heyvandarlıq rayonu ilə yanaşı, Kəlbəcər rayonunda mədənçıxarma sənayesinin inkişafı üçün filiz və qeyri-metal yataqları vardır. Şuşa, Kəlbəcər və Laçın rayonlarında isə bir çox turizm və istirahət komplekslərinin yaradılması və dünyanın ən cəlbedici turizm bölgələrindən birinə çevrilməsi potensialı vardır. İnvestisiya potensialının artırılması baxımından Qarabağ bölgəsinin tamamilə yenidən qurulacağını və bunun üçün tikinti bumunun qaçılmaz olacağını da nəzərə almaq vacibdir. Digər tərəfdən, işğaldan azad edilmiş rayonlarda ağıllı şəhər və ağıllı kənd layihələrinin prioriteti intensiv investisiya kanallarının, o cümlədən xaricdən cəlb edilmiş investisiya axınlarının əhəmiyyətini vurğulayır. Yaxın illərdə əsas prioritet müvafiq məsələlərin yüksək səviyyədə sistemli və ardıcıl şəkildə həyata keçirilməsi və ölkəmiz üçün vacib olan Qarabağ regionunda investisiya şəraitinin maksimum dərəcədə yaxşılaşdırılması, investorlar üçün əlverişli şəraitin yaradılması və investisiya axınlarının intensivləşdirilməsi və s. olmalıdır (Kərimova, 2022).

Aparılan empirik ekstrapolyasiya təhlillərini əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, Qarabağ iqtisadi regionunun maliyyə potensialının (bölgənin öz vəsaitləri və cəlb olunan ehtiyatlarının məcmusu) 2050-ci ilə qədər olan dövrdə ölkənin maliyyə potensialının 30-40 faizinə qədər artması ehtimalı olduqca realdır. Qeyri-karbohidrogen ehtiyatları sektorunun dinamik artımı və iqtisadiyyatın şaxələndirilməsi prosesinin dərinləşməsi bizə belə bir nəticəyə gəlmək üçün əsas verir. 30 illik işğal dövründə məhv edilmiş bu potensialın bərpası və tədricən inkişafı 2021-ci ildə başlamışdır.

**Cədvəl 2: Qarabağ iqtisadi rayonunun 2030-2050-ci illər üzrə maliyyə potensialının artım dinamikasının emprik proqnozu, mlrd.ABŞ dolları**

| | **2030** | **2040** | **2050** |
|---|---|---|---|
| Qarabağ iqtisadi rayonunun maliyyə potensialı | 30-40 | 150-300 | 300-370 |
| O cümlədən | | | |
| -öz vəsaiti | 10-15 | 50-80 | 100-110 |
| -cəlbedilmiş vəsaitlər | 20-25 | 100-120 | 200-260 |

**Mənbə:** https://iqtisadiyyat.com/az/pages/5/news/1222

Cədvəldən göründüyü kimi, 2030-2050-ci illərdə Qarabağ iqtisadi bölgəsinin maliyyə potensialının on dəfədən çox artacaqdır. Bununla əlaqədar, əsrin ortalarına qədər Qarabağ təkcə ölkəmizin və Cənubi Qafqazın deyil, həm də İpək Yolu regionunun ən inkişaf etmiş iqtisadi rayonu olacaq.

Qeyd edək ki, işğaldan azad edilmiş Qarabağ iqtisadi bölgəsinin makro-mikro, sosial-iqtisadi və maliyyə potensialının artırılması istiqamətləri ölkə Prezidentinin müvafiq qərarı əsasında qəbul edilmiş sərəncam olan “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetləri”ndə öz əksini

tapıb. Növbəti on il ərzində ölkənin davamlı inkişafında müəyyən edilmiş aşağıdakı beş milli fundamental vəzifənin icrası, milli prioritetləri nəzərə alaraq, ölkəmizin qarşısında duran əsas vəzifələr kimi qəbul edilmişdir (Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, 2021):

- rəqabətqabiliyyətli iqtisadiyyatın davamlı artımı;
- dinamik, inklüziv və sosial əsaslı ədalət cəmiyyəti;
- insan kapitalının və müasir innovasiyaların rəqabət sahəsi;
- işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış;
- təmiz mühit və yaşıl artım ölkəsi.

Bu, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın sosial-iqtisadi, təşkilati, maliyyə, hüquqi və praktiki əsaslarını özündə əks etdirən milli prioritetlərin dördüncü istiqamətidir. Empirik nəzəri və əsaslı təhlillər bizə bölgənin bərpası və gələcək inkişafının məhz mərkəzləşdirilmiş büdcə sisteminin vəsaitlərinin müstəsna rola malik olması dövlətimizin iqtisadi və maliyyə mənbələri hesabına həyata keçiriləcəyini iddia etmək üçün elmi əsas verir. İqtisadi təhlillər nəticəsində işğaldan azad edilmiş rayonlarda müəyyən gəlir bazasının yaradılması prosesinin dinamikasını artıq görə bilərik (Kərimli, Möhsünlü, Kərimov, 2022). Belə ki, təkcə, 2021-ci ilin büdcəsində Qarabağ iqtisadi rayonunun bir çox bölgələr üzrə yerli xərclərini hələ ödəyə bilməməsinə baxmayaraq, stabil müəyyən yerli gəlirlər formalaşmışdır (Cədvəl 3).

**Cədvəl 3: Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş bəzi bölgələrinin 2021-ci il üzrə gəlir və xərcləri, min manat**

| № | Rayonlar | Yerli gəlirlər | Yerli xərclər | Yerli gəlir və xərcləri tarazlaşdırmaq üçün mərkəzləşdirilmiş xərclərdən ayrılmalar |
|---|---|---|---|---|
| 1 | Ağdam | 5385 | 10425 | 5075 |
| 2 | Cəbrayıl | 998 | 3669 | 2687 |
| 3 | Füzuli | 7966 | 10351 | 2402 |
| 4 | Kəlbəcər | 1300 | 4989 | 3693 |
| 5 | Qubadlı | 3417 | 3413 | - |
| 6 | Laçın | 2420 | 5459 | 3114 |
| 7 | Zəngilan | 1631 | 2855 | 1227 |

**Mənbə:** https://iqtisadiyyat.com/az/pages/5/news/1222

Qeyd etmək olar ki, müəyyən mənada bu gəlir yaxın gələcəkdə Qarabağ bölgəsinə çatdırılacaq milyardlarla dollarlıq daxili və xarici maliyyə axınlarının simvolik başlanğıcı hesab edilə bilər. İqtisadiyyatın ənənəvi sahələri-kənd təsərrüfatı, emal sənayesi, yüngül sənaye, o cümlədən tekstil sənayesi, qida istehsalı, kənd təsərrüfatı texnikası və cihazqayırma, tikinti sektoru, aktiv turizm, xidmətlər və əyləncə, sanatoriya-kurort müalicəsi və s. sənayenin inkişafı Qarabağ bölgəsinin iqtisadi və maliyyə potensialının artırılması üçün real maddi bazaya çevriləcəkdir (Kərimli, Möhsünlü, Kərimov, 2022).

Görünür, işğaldan azad edilmiş ərazilərə kütləvi qayıdışın təmin edilməsi milli prioritetlər kateqoriyasına qaldırılıb. İşğaldan azad edilmiş ölkələrə bu cür yanaşma bunun Azərbaycan dövləti üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və dövlət sərhədlərinin bərpası Azərbaycan xalqının son əsrdə ən böyük hərbi və diplomatik qələbəsi olmuşdur. Qələbənin əbədiyyəti doğma yurdundan qovulmuş insanların geri dönməsini tələb edir. Bu böyük gəlirlər işğaldan azad edilmiş ərazilərin daimi məskunlaşması və həmin ərazilərin ölkənin

iqtisadi fəaliyyətinə reinteqrasiyası üçün əsas olacaqdır. Qarabağ bölgəsində yeni beynəlxalq və regional nəqliyyat-logistika infrastrukturunun bərpası və yaradılması ölkənin dünya bazarlarına çıxışının genişləndirilməsi ilə yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafında mühüm rol oynayacaq. İşğaldan azad edilmiş rayonlara qayıdan vətəndaşlarımız üçün təhlükəsiz həyat təmin olunmalı, bu rayon ölkənin ən rahat guşələrindən birinə çevrilməlidir. Bu, işğaldan azad edilmiş ərazilərin Azərbaycanın digər əraziləri ilə tam inteqrasiyasını təmin etməyin yeganə yoludur. Prezidentin müəyyən etdiyi iqtisadi inkişaf modeli çərçivəsində işğaldan azad edilmiş Qarabağ torpaqlarında iqtisadi modelin əsas prinsiplərinə əsaslanan alternativ maliyyə kanallarından istifadə bu gün aktual məsələ ola bilər (Rəsulova, 2021).

Qarabağ iqtisadiyyatının bərpası layihəsinə Türkiyə, Çin və İtaliyadan tekstil şirkətlərinin cəlb edilməsi məqsədəuyğundur. Qarabağ iqtisadiyyatının bərpası həm alternativ beynəlxalq maliyyə investisiyalarını, həm də Qarabağ iqtisadiyyatını onlar üçün çox cəlbedici ola biləcək bir bazar kimi tələb edir. Ona görə də işğaldan azad edilmiş Qarabağ torpaqlarının bərpasında İslam maliyyəsinin imkanlarından istifadə etmək lazımdır. Hesab edirik ki, bu, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında iqtisadi və maliyyə əlaqələrinin inkişafı üçün sabit platforma ola bilər. İslam maliyyə modelinin Azərbaycanda tətbiqi zəngin ərəb ölkələrindən, əsasən Səudiyyə Ərəbistanından, Birləşmiş Ərəb Əmirliklərindən, Qətərdən, eləcə də digər müsəlman ölkələrindən, o cümlədən Türkiyə və hətta İrandan investorları cəlb edəcək. Beynəlxalq İslam əməkdaşlıq Təşkilatının - İİB və onun filiallarının, müxtəlif İslam fondlarının və özəl tərəfdaşlıqların, habelə İslam İqtisadi ekosistemləri olan ayrı - ayrı ölkələrin-Səudiyyə Ərəbistanı, Malayziya, BƏƏ və s. hüquqi mühitinin və fiziki infrastrukturunun tələblərinə cavab verir. Halal istehsalçılarına və ixracatçılarına dəstək ola biləcək və halal sertifikatı ilə əlaqəli daxili prosedurları inkişaf etdirə biləcək və İslam iqtisadiyyatı və faydaları haqqında ictimaiyyəti maarifləndirə biləcək bu sahədə əlavə mütəxəssislər hazırlamaq ehtiyacı vardır (Rəsulova, 2021).

İslam maliyyəsinin spesifikliyi birbaşa qanunverici, habelə maliyyə institutlarının fəaliyyəti ilə bağlı bəzi qanunlara əlavə və düzəlişlərin edilməsi ehtiyacından asılı olan xüsusi qanunvericilik bazası tələb edir. Azərbaycanın alternativ maliyyə mənbələrindən istifadə etmək üçün hüquqi bazaya ehtiyacı var, Qarabağın bərpasında iştirak etmək istəyən İslam maliyyə institutları bu mexanizmlərin istifadəsində belə maneələrlə üzləşirlər. Bundan əlavə, qanunvericilik, alternativ maliyyə xidmətlərinə çıxışın genişləndirilməsi məsələlərini həll edə biləcək alternativ maliyyə modelinin inkişafı üçün yol xəritəsi hazırlamaq problemlərin həlli istiqamətində uğurlu addımlardan biri ola bilər (Rəsulova, 2021).

**Nəticə**

İşğaldan azad edilmiş ərazilərdə investisiya potensialının maliyyə aspektlərinin tədqiqi, bu bölgələrdə yeni inkişaf imkanlarının müəyyən edilməsində və investisiya cəlb edilməsində əhəmiyyətli rol oynayır. Tədqiqat nəticələri, işğaldan azad edilmiş ərazilərə investisiya cəlb etmək üçün müvafiq məlumatları təqdim edir. Bu bölgələrin iqtisadi və maliyyə potensialının analizi, inkişaf strategiyalarının hazırlanması və investorların maraqlarının cəlb edilməsi üçün ən vacib məsələlərdəndir. Tədqiqatın nəticələri, bu bölgələrdə yeni inkişaf sahələrinin müəyyən edilməsinə və bu sahələr üzərində inkişaf planlarının hazırlanmasına kömək edir. Bu, işğaldan azad edilmiş ərazilərdə yeni iş yerləri yaradılmasına və iqtisadi inkişafın təmin edilməsinə kömək edə bilər. Nəticə olaraq, işğaldan azad edilmiş ərazilərdə investisiya potensialının maliyyə aspektlərinin tədqiqi, bu bölgələrin inkişafına və iqtisadiyyatının təkmilləşdirilməsinə dair müxtəlif inkişaf strategiyalarının

hazırlanması üçün lazım olan məlumatların əldə edilməsinə və bu məlumatların analiz edilməsinə kömək edir.

İşğaldan azad edilmiş ərazilərdə investisiya potensialının maliyyə aspektlərinin inkişafı üçün aşağıdakı təklifləri vermək olar:

1. İnvestisiya məsələlərində transparensiyanın artırılması. İşğaldan azad edilmiş ərazilərdə investisiya cəlb etmək üçün, maliyyə sistemi transparens və açıq olmalıdır. Bu, investorların investisiya etməklə bağlı riskləri minimuma endirmək üçün gərəkdir. Bunu təmin etmək üçün, dövlət qurumları və maliyyə qurumları, investisiya sahəsində transparensiyanı artırmaq üçün uyğun tədbirlər tətbiq etməlidir;

2. Yatırımın cəlb edilməsi üçün əlverişli mühitin yaradılması. Yatırım cəlb etmək üçün, investisiya mühiti dəyərləndirilməlidir. Bu, vergi sistemi, maliyyə və bank sistemi, qanunvericilik və s. əsasında ətraf mühit dəyərləndirməsini əhatə edir. Bu bölgələrdə investisiya cəlb etmək üçün uyğun şəraitin yaradılması üçün gərəkli dəyişikliklərin tətbiq edilməsi vacibdir;

3. İnkişaf strategiyalarının hazırlanması. İşğaldan azad edilmiş ərazilər üzərində investisiya cəlb etmək üçün, müvafiq inkişaf strategiyalarının hazırlanması və tətbiq edilməsi vacibdir. Bu strategiyalar, müəyyən inkişaf sahələri, yeni layihələr, sürətli büyümə üçün tədbirlər və s. əsasında hazırlanmalıdır;

4. İnvestisiya təşkilatlarının və investorların cəlb edilməsi. İşğaldan azad edilmiş ərazilərdə investisiya cəlb etmək üçün uyğun reklam və təbliğat tədbirlərinin tətbiq edilməsi vacibdir. Investisiya təşkilatları və investorlar, müvafiq reklam və təbliğat vasitələri ilə bu bölgələrdəki investisiya imkanları barədə məlumatlandırılmalıdır.

**Ədəbiyyat Siyahısı**


Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, 2021.

Azərbaycan rəqəmlərdə 2015.

Azərbaycan rəqəmlərdə 2020.

Azərbaycan rəqəmlərdə 2021.

Azərbaycan rəqəmlərdə 2022, 200 səh.

Aslanov, H.H. (2012), Xarici investisiyaların cəlb edilməsi və onlara təsir edən amillərin təhlili. Bakı Universitetinin Xəbərləri, №1 Sosial-siyasi elmlər seriyası, 79-87.

Rəsulova, G.R. (2021), Azərbaycanın tarixi torpaqlarının işğaldan azad olunmasının və onların bərpa edilməsinin maliyyə təminatı, AUDİT, 24 (34), 60-69.

Kərimova, T.İ. (2022), İqtisadiyyatın investisiya potensialından effektiv istifadə problemləri Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın, avtoreferatı bakı, 60

Kərimli, İ., Möhsünlü, R., Kərimov, R. (2022), Qarabağ regionunda işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması: Xarici investisiyaların cəlb olunmasının stimullaşdırıcı vasitələri. Qarabağ və Şərqi Zəngəzurun İqtisadi İnkişafında İnvestisiyaların Rolu. IV İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların beynəlxalq elmi konfransı, 121-155.

Məmmədova, E.B. (2022). Azərbaycanda investisiya mühitinin formalaşması və səmərəlilik problemləri. Avtoreferatı, Gəncə, 47.

Khidirov, N.G. (2021) Methods and Mechanisms of Financing Investment Activities in Industrial Enterprises Journal of Economics, Finance and Management Studies, 475-482.

Керимова, Т.И. (2010), Вопросы совершенствования инвестиционной политики в системе социально экономического развития страны. Потребительская кооперация: теория, методология, практика «Российский Университет Кооперации».- Москва. 202-207.
Журавлева, К.А. (2018). Инвестиционный климат и его составляющие // Молодой ученый. - № 50 (236). 127-128.
https://iqtisadiyyat.com/az/pages/5/news/1222

# Strategic Risk Management and Resilience Concept in Agricultural Economics

**Mario Njavro**

**University of Zagreb Faculty of Agriculture, Department of Management and Rural Entrepreneurship**

**mnjavro@agr.hr**

**Tajana Čop**

**University of Zagreb Faculty of Agriculture, Department of Management and Rural Entrepreneurship**

**tcop@agr.hr**

## Abstract

Strategic risk management is a response to the traditional approach where risks were managed in silos. In the last decade, a new concept has been introduced: resilience. Resilience is expressed through robustness, adaptability and transformability. The goal of risk management is to mitigate the impact of shocks and risks, thus strengthening resilience; understanding the concept of resilience can contribute to better risk management.

Goal of the paper is to present strategic risk management and resilience in agribusiness. Two case studies, one from Turkiye and one from Croatia, were used to examine and compare the resilience of farms facing uncertainty.

Analysis of the Croatian case showed that after a difficult period (Covid-19 pandemic), farms that invested more had a greater ability to transition equipment, technology, and infrastructure. We concluded that farms do not recognize the ability to be resilient as critical to their business. On the other hand, avocado production in Turkey has increased in Turkey, and risk monitoring and timely implementation of appropriate strategies are extremely important. The analysis shows that the overall resilience of Croatian farmers is higher compared to Turkish farmers.

The results may underpin the need for novel risk management approaches and promote resilience in agricultural systems.

**Key words:** resilience, risk management, agriculture, strategy

## Introduction

Strategic risks have the greatest impact on the implementation of corporate strategy and the achievement of corporate objectives. Strategic risk management is the process of determining, evaluating, and managing strategic risks, including rapid response when the risk actually occurs, with the goal of protecting he value of the company (Frigo and Anderson, 2011). Strategic risk management is based on a holistic view of risk in organizations. Although it is often used as a synonym, some authors state that strategic risk management is the foundation of integrated risk management (enterprise risk management) (Frigo and Anderson, 2011). Integrated risk management systematically and comprehensively identifies and effectively manages business risks - financial, operational, and strategic - with the aim of increasing the value of the company and achieving short- and long-term business goals (Miloš Sprčić et al., 2019).

Strategic risk management is a response to traditional methods of risk management, where risks were managed in isolation at different levels of the organization (management in so-called silos) and where there was no awareness of how a particular risk affects the entire organization, i.e., the mutual

relationships between different risks, such as price and yield changes, and the impact on the overall agricultural business.

Kaplan and Mikes (2012) divide risks into three categories: avoidable risks, strategic risks, and external risks. Preventable risks relate to business processes within the company. Strategic risks are risks that companies consciously take with the goal of growth (investing in new products). External risks are beyond the control of the company (climate changes or macroeconomic trends). The risk management process must include all three categories and the tools to manage them.

In the agricultural economy in the last decade, a new concept has been introduced in the last decade, farm resilience. The term resilience corresponds to a holistic approach to risk management. The concept of resilience was first introduced by Holling in 1973 and has applications in economics, psychology, agriculture, political science, etc. (Volkov, et al. 2021). The focus on farm resilience arose from increasing concerns about changes in European agriculture and the agricultural sector related to socioeconomic changes, environmental aspects, and risk and/or security aspects, the market, and the economy (Daugstad, 2019). The resilience concept has been discussed primarily in academia, leading to a large literature on the resilience of socio-ecological systems and on the resilience of livelihoods. A resilience framework for farms is currently being developed and borrows from both frameworks (Perrin, et al., 2020). The ability of the agricultural system to ensure the provision of public and private goods regardless of various shocks, stresses, and risks is referred to as resilience (Meuwissen et al., 2021). Darnhofer (2014) explores the concept of resilience and its increasing use in the face of economic uncertainty and climate change and applies it to agricultural management. Rather than seeking short-term optimal solutions, resilience emphasizes the need to enable systems to adapt and change. Farm management must address the full range of complexities faced by farmers, particularly in terms of the flexibility required for strategic decision-making. The study by Perrin et al. (2020) highlights farmers' perceptions of the resilience of their farms to a wide range of disturbances they face in their daily management (dairy and sheep farms) and highlights resilience factors. A resilient farm is characterized by a high degree of autonomy in investment, feeding, and decision-making, and is economically efficient. Other resilience indicators include the consistency of the management plan, such as herd size that matches the production potential of the land, and the transferability of the farm to relatives. Diversification also improves farm resilience (Perrin et al., 2020). Daugstad (2019) study of farmers in a mountain community in Norway. Coping with weather extremes, maintaining sufficient income from farming, and income diversification (tourism). Absorption continues, while transformation and recovery could be applied to those who have changed their mode of production from labor-intensive dairy farming to sheep farming, or to those who have given up farming but leased their land to a neighbor. Agricultural policies could influence farm resilience. Buitenhuis et al. (2020) examined how the Common Agricultural Policy enables or constrains the resilience of farming systems. They present the Resilience Assessment Tool (ResAT): a heuristic that conceptualizes how policy outcomes enable or constrain farm system resilience. Results show that CAP and its Dutch implementation (intensive cropping system) strongly support cropping system resilience but focus less on adaptive capacity and little on enabling transformative capacity. The paper by Wittwer and Anderson (2021) provides a case study of the impact of COVID -19 on the Australian wine sector. The Global Bev Model was used to forecast the situation in the wine market. The wine sector was affected by a temporary decline in expected consumer income and social distancing and self-isolation measures that led to the closure of bars and restaurants. The

decline in international travel and tourism also had an impact. The risk was partially offset by an increase in off-premise sales and direct e-commerce. A partial recovery is expected in 2021. The paper looks at the Chinese market's demand for Australian wine. Diversification of trade channels is one of the strategies to reduce the risk of this and future trade disruptions.

With the developed framework to assess resilience, Meuwissen et al. (2019) explain in more detail the steps toward the resilience of the agricultural system in five steps/questions (Figure 1).

The resilience framework begins with the farming system (FS) and all stakeholders in FS, who interact directly and indirectly. The second step explores risks that may affect the ability of FS to deliver goods. The third step addresses the purpose for which FS is resilient, e.g., to maintain natural resources at favorable levels and ensure animal welfare. The fourth step defines three resilience capacities (robustness: the ability of FS to withstand stress and (un)expected shocks; adaptability is a type of resilience manifested in the ability to change inputs, production processes, marketing activities, and risk management strategies in response to shocks and stresses, but without changing the structure of the farm; and transformability represents the ability to significantly change the entire farm in response to severe shocks or permanent stresses that prevent regular operations. In a broader sense, transformability means changing the functions of farming systems. The final step refers to what characteristics (environment, demographics) enhance resilience.

**Figure 1. Framework to assess the resilience of farming systems.**




**Source**: Adapted from Meuwissen et al., 2019

Farming systems can apply the steps/questions listed in figure 1 to building resilience from the first step to the last fifth step points to specified resilience, while the implementation of step 5 in business leads to a bottom-up approach and is a general resilience.

Goal of the paper is to present strategic risk management and resilience in agricultural business management. Two case studies, one from Turkiye and one from Croatia, were used to study the robustness, adaptability and transformation capacity of farms facing strategic decisions and an uncertain environment.

## Materials and Methods

The paper heavily relies on the project the SURE-Farm (Towards Sustainable and REsilient EU FARMing systems) project (Spiege et al, 2019). The project distinguishes three resilience capacities: robustness ('bouncing back'), adaptability, and transformability (deep learning and change). Researchers in Turkiye and Croatia used a similar and adapted instrument for data collection on farm resilience.

To determine the impact of the COVID-19 pandemic on the business of winemakers and grape growers, in Croatia, a survey was conducted among a nonprobability purposive sample of 72 grape growers (GG) and winemakers (WM) in Croatia (Adriatic region). Sociodemographic data, risk management strategies, the impact of COVID -19 on farms, and resilience were collected. Data were analyzed using descriptive statistics and correlation analysis.

In the case of Turkiye, business results of avocado production are calculated, and environmental and business risks, risk management strategies, and farmers' resilience were examined. To achieve the objectives, interviews were conducted with a selected nonprobability purposive sample of fifteen farms (cases).

Case studies have been used as a tool and represent a "research strategy that focuses on understanding the dynamics in individual settings" (Eisenhardt, 1989) and typically uses a synergistic combination of quantitative and qualitative data. Combining hard and soft data allows for a more accurate description of these relationships. Many questions in the questionnaire (quantitative data) focused on collecting data that is simple and measurable. Some questions were open to personal interpretation and experience to facilitate further communication on certain topics that are difficult to measure (qualitative data). And in these cases, observational data may also be included to round out the complex picture of the farm itself.

## Results

### The resilience of grape and wine farms – COVID-19 lessons-the Case Study Croatia[1]

The average vineyard area of the respondents is 6.97 ha, which is much higher than the average area of Croatian vineyards (0.44 ha). Moreover, the vineyards owned by the respondents represent 2.8% of the total vineyards in Croatia and 5.8% of the vineyards in Adriatic Croatia.

Farmers perceive that the most important risks in the future are extreme weather conditions, the unfavorable position of agriculture also worries respondents, the fear of illnesses or other unexpected private circumstances, as well as pest and diseases. High prices and price volatility are also risks that respondents believe will affect their business over the next 20 years. The low social acceptance of

[1] This case study is based on the Ms thesis: Sušac, G. (2021). supervised by M. Njavro and T. Čop.

agriculture was highly rated too. The least important risk, but still with high scores are low soil quality and limited availability of skilled farm workers.

| Ireland | 0.539 | 5 | B | 0.535 | 11 | B | 0.301 | 13 | C | 0.309 | 5 | B | 0.987 | 2 | A | 0.489 | 10 | B |
| Italy | 0.159 | 19 | C | 0.110 | 22 | D | 0.227 | 17 | C | 0.187 | 12 | C | 0.569 | 8 | B | 0.749 | 3 | A |
| Latvia | 0.653 | 3 | A | 0.420 | 16 | C | 0.206 | 18 | C | 0.000 | 23 | D | 0.000 | 23 | D | 0.407 | 17 | C |
| Lithuania | 0.460 | 9 | B | 0.459 | 12 | C | 0.232 | 16 | C | 0.079 | 17 | C | 0.293 | 19 | C | 0.328 | 19 | C |
| Luxembourg | 0.673 | 2 | A | 0.733 | 5 | B | 0.455 | 11 | B | 0.642 | 2 | A | 0.554 | 9 | B | 0.419 | 16 | C |
| Netherlands | 0.181 | 16 | C | 0.923 | 2 | A | 0.653 | 4 | B | 0.288 | 6 | B | 0.855 | 3 | A | 1.000 | 1 | A |
| Poland | 0.103 | 22 | D | 0.371 | 18 | C | 0.040 | 22 | D | 0.038 | 20 | C | 0.281 | 20 | C | 0.234 | 21 | D |
| Portugal | 0.513 | 7 | B | 0.358 | 19 | C | 0.122 | 20 | D | 0.091 | 16 | C | 0.198 | 21 | D | 0.608 | 6 | B |
| Slovakia | 0.313 | 12 | C | 0.318 | 20 | C | 0.178 | 19 | C | 0.064 | 18 | C | 0.374 | 16 | C | 0.323 | 20 | C |
| Slovenia | 0.515 | 6 | B | 0.456 | 13 | C | 0.459 | 10 | B | 0.091 | 15 | C | 0.616 | 6 | B | 0.463 | 11 | C |
| Spain | 0.282 | 13 | C | 0.222 | 21 | D | 0.094 | 21 | D | 0.139 | 13 | C | 0.595 | 7 | B | 0.603 | 7 | B |
| Sweden | 0.501 | 8 | B | 1.000 | 1 | A | 0.851 | 2 | A | 0.271 | 9 | B | 0.484 | 12 | C | 0.338 | 18 | C |
| United Kingdom | 0.189 | 15 | C | 0.663 | 8 | B | 0.489 | 9 | B | 1.000 | 1 | A | 1.000 | 1 | A | 0.706 | 4 | A |

1 – inkişafın taksonomik ölçüsünün qiyməti, 2 – dərəcə, 3 – tipoloji qrup deməkdir.

**Mənbə:** Magdalena Ziolo , Iwona Bak , Katarzyna Cheba (2021) The role of sustaınable finance in achieving sustainable development goals: does it work?

**Cədvəl 4: Hər bir nəzərdən keçirilən davamlı inkişaf və maliyyə sahələri üzrə reytinqlərin nəticələri (davamı)**

| Country | SDG13 | | | SDG15 | | | SDG16 | | | SDG17 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 1 | 2 | 3 | 1 | 2 | 3 | 1 | 2 | 3 |
| Austria | 0.429 | 14 | C | 0.507 | 11 | B | 0.589 | 9 | B | 0.245 | 11 | C |
| Belgium | 0.374 | 15 | C | 0.269 | 17 | C | 0.628 | 8 | B | 0.163 | 14 | C |
| Czechia | 0.369 | 16 | C | 0.387 | 16 | C | 0.255 | 21 | D | 0.185 | 12 | C |
| Denmark | 0.621 | 5 | B | 0.737 | 4 | B | 0.822 | 3 | A | 0.536 | 4 | A |
| Estonia | 0.042 | 22 | D | 1.000 | 1 | A | 0.460 | 12 | C | 0.770 | 2 | A |
| Finland | 0.531 | 12 | B | 0.903 | 3 | A | 0.927 | 2 | A | 0.267 | 9 | C |
| France | 0.816 | 2 | A | 0.459 | 13 | C | 0.299 | 18 | C | 0.155 | 15 | C |
| Germany | 0.786 | 3 | A | 0.595 | 8 | B | 0.660 | 7 | B | 0.374 | 6 | B |
| Greece | 0.522 | 13 | B | 0.565 | 10 | B | 0.000 | 23 | D | 0.116 | 18 | C |
| Hungary | 0.742 | 4 | A | 0.091 | 20 | D | 0.437 | 14 | C | 0.055 | 20 | C |
| Ireland | 0.220 | 19 | C | 0.208 | 18 | C | 0.689 | 6 | B | 0.116 | 19 | C |
| Italy | 0.556 | 10 | B | 0.656 | 6 | B | 0.231 | 22 | D | 0.253 | 10 | C |
| Latvia | 0.613 | 6 | B | 0.591 | 9 | B | 0.366 | 16 | C | 0.368 | 7 | B |
| Lithuania | 0.171 | 20 | D | 0.439 | 14 | C | 0.512 | 10 | B | 0.146 | 16 | C |
| Luxembourg | 0.000 | 23 | D | 0.061 | 21 | D | 1.000 | 1 | A | 0.384 | 5 | B |
| Netherlands | 0.103 | 21 | D | 0.000 | 23 | D | 0.733 | 5 | B | 1.000 | 1 | A |
| Poland | 0.233 | 18 | C | 0.055 | 22 | D | 0.446 | 13 | C | 0.039 | 21 | C |
| Portugal | 0.584 | 8 | B | 0.424 | 15 | C | 0.406 | 15 | C | 0.000 | 23 | D |

1 – inkişafın taksonomik ölçüsünün qiyməti, 2 – dərəcə, 3 – tipoloji qrup deməkdir.

**Mənbə:** Magdalena Ziolo , Iwona Bak , Katarzyna Cheba (2021) The role of sustaınable finance in achieving sustainable development goals: does it work?

**Cədvəl 5: Hər bir nəzərdən keçirilən davamlı inkişaf və maliyyə sahələri üzrə reytinqlərin nəticələri (davamı)**

| Country | SDG13 | | | SDG15 | | | SDG16 | | | SDG17 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 1 | 2 | 3 | 1 | 2 | 3 | 1 | 2 | 3 |
| Slovakia | 0.553 | 11 | B | 0.197 | 19 | D | 0.347 | 17 | C | 0.171 | 13 | C |
| Slovenia | 0.359 | 17 | C | 0.605 | 7 | B | 0.265 | 20 | C | 0.347 | 8 | B |
| Spain | 0.576 | 9 | B | 0.677 | 5 | B | 0.267 | 19 | C | 0.030 | 22 | D |
| Sweden | 1.000 | 1 | A | 0.952 | 2 | A | 0.796 | 4 | A | 0.605 | 3 | A |
| United Kingdom | 0.592 | 7 | B | 0.490 | 12 | B | 0.492 | 11 | C | 0.129 | 17 | C |

1 – inkişafın taksonomik ölçüsünün qiyməti, 2 – dərəcə, 3 – tipoloji qrup deməkdir.

**Mənbə:** Magdalena Ziolo , Iwona Bak , Katarzyna Cheba (2021) The role of sustaınable finance in achieving sustainable development goals: does it work?

**Qrafik 1: DİM üzrə 17 göstərici**




**Mənbə: Birləşmiş Millətlər Təşkilatı Azərbaycan -** https://azerbaijan.un.org/az/about/about-the-un

# Şərqi Zəngəzur İqtisadi Rayonunda Yaşıl İqtisadiyyat Perspektivi və Nümunəvi Modelin Tətbiqi

**Nərgiz Qəhrəmanova**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Nargizz.qahramanova@gmail.com**

## Xülasə

Yaşıl iqtisadiyyat layihələrinə dövlət dəstəyi bütün dünyada getdikcə yayılmaqdadır. Çünki ölkələr daha dayanıqlı və ekoloji cəhətdən təmiz iqtisadi modellərə keçməyə çalışırlar. Azərbaycan yaşıl iqtisadiyyata keçidi təşviq etmək üçün fəal siyasət aparan və təşəbbüslər həyata keçirən ölkələrdən biridir.

Azərbaycanda hökumət dayanıqlı inkişafı təşviq etmək və istixana qazları emissiyalarını azaltmaq məqsədi daşıyan Yaşıl İqtisadiyyat Təşəbbüsünə başlayıb. Hökumət bərpa olunan enerji mənbələrinin inkişafı, enerji səmərəliliyi və tullantıların idarə edilməsi, həmçinin yaşıl investisiyalar üçün vergidən azadolmalar və digər stimullar təmin etmək üçün vəsait ayırıb. Hökumət həmçinin yaşıl layihələri dəstəkləmək üçün fond yaradıb və yaşıl sərmayələri təşviq etmək üçün hüquqi və tənzimləyici bazanın təkmilləşdirilməsi üzərində fəal işləyir.

Yaşıl iqtisadiyyata keçid prosesində işğaldan azad olmuş ərazilər xüsusi rol oynayır. Həmin ərazilərdə yaşıl iqtisadiyyat üçün əlverişli şəraitin olması hökumətin diqqətini xüsusilə oraya yönəldir. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər adlı sənəddə də hər iki məsələ öz əksini tapmışdır. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış və təmiz ətraf mühit-yaşıl artım ölkəsi iki əsas milli səviyyəli prioritetdir.

Şərqi Zəngəzur da hər iki milli prioritetin reallaşmasına açar rolunu oynayır. Bölgə Azərbaycanı Türkiyə və Avropa ilə birləşdirən Zəngəzur dəhlizinin qapısı rolundadır. Həm belə bir əhəmiyyətli nəqliyyat yolu üzərində yerləşməsi, həm də təbii sərvətlərlə zəngin olması yaşıl iqtisadiyyat təşəbbüsü üçün əlverişli mühit yaradır.

**Açar sözlər:** yaşıl iqtisadiyyat, Şərqi Zəngəzur, davamlılıq, dövlət proqramı, ekologiya

## Summary

State support for green economy projects has become increasingly common around the world as countries look to transition to more sustainable and environmentally friendly economic models. Azerbaijan is one of the countries that has been actively implementing policies and initiatives to promote the transition towards a green economy.

In Azerbaijan, the government has launched the Green Economy Initiative, which aims to promote sustainable development and reduce greenhouse gas emissions. The government has allocated funds for the development of renewable energy sources, energy efficiency, and waste management, as well as providing tax exemptions and other incentives for green investments. The government has also established a fund to support green projects and is actively working to improve the legal and regulatory framework to promote green investments.

Territories liberated from occupation play a special role in the transition to a green economy. The presence of favorable conditions for the green economy in those areas attracts the government's attention there. Both issues are reflected in the document called Azerbaijan 2030: National Priorities for socio-economic development. A major return to de-occupied territories and a clean environment-green growth country are two major national-level priorities.

Eastern Zangezur also plays a key role in the realization of both national priorities. The region is the gateway to the Zangezur Corridor connecting Azerbaijan with Turkey and Europe. Both - its location on such an important transportation route and its abundance of natural resources create a favorable environment for green economy initiatives.

**Key words:** green economy, East Zangazur, sustainability, state program, ecology

## Giriş

Mövzunun aktuallığı: Yaşıl iqtisadiyyat mövzusu iqlim dəyişikliyi, ətraf mühitin deqradasiyası və davamlı inkişafla bağlı artan qlobal problemlər səbəbi ilə hazırda çox aktualdır. Yaşıl iqtisadiyyat dayanıqlı inkişafı təşviq edən, karbon emissiyalarını azaldan və eyni zamanda iş yerləri və iqtisadi artım yaratmaqla ətraf mühitə təsirləri minimuma endirməyi hədəfləyən iqtisadi sistemdir. Dünya əhalisi artmaqda davam etdikcə, resurslara və enerjiyə tələbat da artır ki, bu da hava və suyun çirklənməsi, iqlim dəyişikliyi və biomüxtəlifliyin itirilməsi kimi ekoloji problemlərə gətirib çıxarır. Yaşıl iqtisadiyyata keçid davamlı təcrübə və texnologiyaların təşviqi, tullantıların azaldılması və daha təmiz enerji mənbələrinin təşviqi ilə bu problemlərin həllinə kömək edə bilər.

Tədqiqatın məqsəd və vəzifələri: əsas məqsəd yaşıl iqtisadiyyat təşəbbüsü üzrə dünya ölkələri tərəfindən reallaşdırılan ən uğurlu modelləri də təhlil edərək Azərbaycan, xüsusən də Şərqi Zəngəzur iqtisadi rayonunda tətbiq oluna biləcək ən real və səmərəli modelin müəyyən edilməsidir. Yaşıl iqtisadiyyat sisteminin sosial-iqtisadi əhəmiyyətinin qiymətləndirilməsi, dünya ölkələrində icra olunmuş uğurlu yaşıl iqtisadiyyat layihə modellərinin təhlili, Şərqi Zəngəzur iqtisadi rayonun yaşıl iqtisadiyyat təşəbbüsü üçün potensialının qiymətləndirilməsi, Azərbaycanda tətbiq oluna biləcək uğurlu modellərin müəyyən edilməsi tədqiqatın dörd əsas vəzifələridir.

Tədqiqatın obyekti və predmeti: obyekt Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonunun yaşıl iqtisadiyyat təşəbbüsü üçün potensialının təhlilidir, predmet isə yaşıl iqtisadiyyat təşəbbüsü, bu təşəbbüsün sosial-iqtisadi və ekoloji təsirlərinin araşdırılmasıdır.

Tədqiqat metodları: tədqiqatda dünya ölkələrində tətbiq edilən bir neçə model araşdırılır, onların sosial-iqtisadi sahəyə təsiri hesablanır. Empirik tədqiqat metodlarından müşahidə, təsvir və müqayisə, nəzəri metodlardan isə induksiya üsullarının tətbiqindən istifadə edilir.

Tədqiqatın informasiya bazası: BMT-nin Ətraf Mühit Proqramı, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən dərc olunan, BMT-nin dayanıqlı inkişaf istiqamətləri üzrə hazırlanan hesabatları, sahə üzrə mütəxəssislərin elmi tədqiqatları elmi işin əsas informasiya bazasını təşkil edir.

Tədqiqatın məhdudiyyəti: Şərqi Zəngəzur iqtisadi rayonunun işğaldan yeni azad edilməsi bölgə ilə bağlı məlumatları məhdudlaşdırır. Uzun illər dövlət qurumlarının nəzarətində olmaması səbəbi ilə region ilə bağlı hər hansı dəqiq statistik məlumatları əldə etmək mümkün deyildir. Bu məsələ tədqiqatın əsas məhdudiyyəti hesab olunur.

## Azərbaycanda Yaşıl İqtisadiyyat Təşəbbüsünün İnkişafı Perspektivi və İcra Olunan Layihələrin Təhlili

Dünyanın bir çox ölkələri kimi Azərbaycan da yaşıl iqtisadiyyatın inkişafı istiqamətində addımlar atıb. Ölkə iqtisadi davamlılıq və ətraf mühitin mühafizəsinin vacibliyini iqtisadi artım və inkişafın əsas komponentləri kimi qəbul etmişdir.
Azərbaycanın yaşıl iqtisadiyyata doğru atdığı ən mühüm addımlardan biri 2019-cu ildə Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (BOEMDA) yaradılması olub.Bu agentlik ölkədə alternativ və

bərpa olunan enerji mənbələrindən istifadə üzrə siyasət və strategiyaların işlənib hazırlanması və həyata keçirilməsinə cavabdehdir.
Agentliyin yaradılması ilə yanaşı, Azərbaycan davamlı inkişafın və yaşıl iqtisadiyyatın təşviqinə yönəlmiş bir sıra layihələr həyata keçirib. Ən diqqətçəkən layihələrdən biri Abşeron rayonunda 240 MVt gücündə külək elektrik stansiyasının tikintisidir. Bu layihənin ölkəni təmiz və bərpa olunan enerji ilə təmin edəcəyi və qalıq yanacaqlardan asılılığını azaltması gözlənilir. Digər mühüm layihə Sumqayıt şəhərində tullantıdan enerjinin əldə olunduğu zavodun tikintisidir. Bu layihə tullantıları enerjiyə çevirmək, poliqonlara gedən tullantıların miqdarını azaltmaq və ölkənin enerji təhlükəsizliyini yaxşılaşdırmaq məqsədi daşıyır. İstehsal gücü 2,1 MVt olan və ildə təxminən 2,8 milyon kilovatsaat elektrik enerjisi istehsal edən Bakı Olimpiya Stadionunun damında günəş panellərinin quraşdırılması da önəmli layihələrdəndir.
Kənd təsərrüfatı sektorunda Azərbaycan davamlı kənd təsərrüfatının təşviqinə və əkinçilik təcrübələrinin ətraf mühitə təsirinin azaldılmasına yönəlmiş bir sıra layihələr həyata keçirmişdir. Məsələn, ölkədə suya qənaət etməyə və məhsuldarlığı artırmağa kömək edən müasir suvarma sistemləri və texnologiyaları tətbiq edilib.
Hökumətin siyasətində, qəbul edilən sənədlər, platformalarda da yaşıl iqtisadiyyat modeli öz əksini tapır. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər kimi hökumətin əsas inkişaf istiqaməti olaraq istinad edəcəyi sənəddə də bu təşəbbüs ön plandadır.
Sənəddə növbəti on il ərzində sosial-iqtisadi inkişaf olaraq müəyyən edilən 5 əsas prioritet təsdiqlənmişdir.

1) dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2) dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3) rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4) işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5) təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi

Prioritetlər siyahısından göründüyü kimi 5-ci bənddə qeyd olunan təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi tam olaraq yaşıl iqtisadiyyat prinsipinin reallaşdırılmasını hədəfləyir. Bu prioritet fonunda qlobal iqlim dəyişikliklərinin sürətlə artması nəzərə alınaraq ekoloji cəhətdən təmiz olan texnoloji həllərin tətbiq edilməsi, təbii enerji resurslarından istifadə, zərərli maddələrlə çirklənən ərazilərin təmizlənməsi, mövcud tullantıların təkrar emal edilməsi və bu istiqamətlərdə fəaliyyətlərin təşviq edilməsi kimi məsələlərin icrası nəzərdə tutulmuşdur. Müvafiq prioritet çərçivəsində yüksək keyfiyyətə sahib ekoloji mühit və "yaşıl enerji" məkanının formalaşdırılması hədəflənir.
Təsdiqlənmiş Milli Prioritetlər əsasında "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsi tərtib edilmiş və 2022-ci ilin 22 iyul tarixində Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiqlənmişdir. Strategiyada yaşıl texnoloji həllərin tətbiqinin genişləndirilməsi təşviq olunur.
Strategiyada təbii resursların davamlı və dayanıqlı istifadəsinin təmin olunması, tullantılardan səmərəli istifadə edilmə mexanizminin inkişafı, ətraf mühitə nəzarət sisteminin yenilənərək müasir səviyyəyə çatdırılması, su ehtiyalarının qorunması və səmərələri istifadəsi, yaşıllıq və meşələrin mühafizəsi, bioresursların artırılması kimi məqsədlər yer alıb. Nəticə olaraq aşağıda qeyd olunan göstəricilərin reallaşması hədəflənir:

a) Ölkənin ümumi ərazisi üzrə yaşıllığın 12%-dən 12.3%-ə çatdırılması

b) İstifadə üçün yararsız hesab olunan torpaq sahələrinin ümumi sahə daxilində payının 25%-dən 15% səviyyəsinə endirilməsi

c) Ölkə əhalisinin içməli su təminatının 70%-dən 85%-ə çatdırılması

d) Regionlarda 10% olmaqla tullantıların təkrar emala cəlb edilməsinin əhatə dairəsinin 20% olması

e) Xüsusi mühafizə edilən təbiət əraziləri sahəsinin ölkə üzrə ümumi torpaq fonduna nisbətinin 10.5% səviyyəsinə çatdırılması

f) Meşə fondunun 65%-nin inventarlaşdırılması

g) Torpaqların 30%-də aqrokimyəvi analizlərin aparılması

h) Elektrik enerjisi istehsalında təbii enerji mənbələrin payının 2021-ci ildəki göstərici olan 17.3%-dən 24%-ə yüksəldilməsi

2022-ci ildə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti ölkəmizdə "Xızı-Abşeron" külək elektrik stansiyası, BƏƏ-nin "Masdar" şirkəti Qaradağ günəş elektrik stansiyasının əsasını qoymuşdur. Belə ekoloji təmiz enerji istehsalına edilən investisiyalar yaşıl iqtisadiyyat üçün də geniş imkanlar açır. Yalnız "Masdar" şirkətinin fəaliyyəti nəticəsində 500 mln. kvt saat elektrik enerjisinin istehsalı olunması, 110 mln. kub m. təbii qaza qənaət və atmosferə karbon emissiyasında 200 min ton azalma hədəflənir.
Lakin sadəcə bərpa olunan, ekoloji təmiz enerji istehsalı və o sahəyə edilən investisiyalar hələ yaşıl iqtisadiyyat modelinə keçidi əks etdirmir. Burada bir çox məsələnin ortaq vəhdəti olmalıdır. Belə ki yaşıl iqtisadiyyat modelinin tələblərinə əsasən kənd təsərrüfatı, nəqliyyat, sənaye, energetika və s. kimi bütün sektorlar ekoloji təmiz enerji istehsalının artırılmasına, istixana qazı emissiyasınının azaldılmasına, aşağı karbonlu fəaliyyətə və ümumən ətraf mühiti qorumağa fokuslanmalıdır.
Azərbaycanda yaşıl iqtisadiyyat təşəbbüsünə keçid üzrə icra olunan fəaliyyətlər fərqli istiqamətlərdə davam etdirilir. BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasında nümayiş olunmuş "Azərbaycan üzrə 4-cü milli məlumatlar" sənədində qeyd olunur ki, Azərbaycan 2016-cı ildə 1990-cı il ilə müqayisədə tullantılarda 31.6% azalma müşahidə olunub. Bundan əlavə istixana qazı emissiyasının 40% həddinədək azaldılması və işğaldan azad olunmuş ərazilərdə emissiyanın sıfır səviyyəsində olduğu zonanın yaradılması 2050-ci ilə qədər qəbul edilmiş könüllü bir öhdəlikdir. İstilik effekti yaradan qaz emissiyasının 2019-cu ildə 1990-cı il ilə müqayisədə 16% azalmışdır.
Belə layihələrin icrası nəticəsində Azərbaycanın ekoloji sahədə mövcud olan beynəlxalq reytinq cədvəllərindəki mövqeyi də müsbətə doğru dəyişmişdir. Belə ki, 2020-ci ildə Ekoloji Performans İndeksinə əsasən Azərbaycan 46.5 ballıq göstərici ilə 72-ci pillədə olub. Ətraf mühitin qorunması sahəsini əks etdirən indeks 11 kateqoriya üzrə 180 dövləti əhatə edir. İndeksin tərtib edilməsində 32 performans göstəricisinə istinad edilir. Bu göstəricilər milli miqyasda dövlətlərin müəyyən edilmiş ekoloji siyasət hədəflərinə hansı dərəcədə yaxın olmalarının ölçüsünü nümayiş etdirir (https://epi.yale.edu/epi-results/2020/component/epi).
Digər bu tip reytinq cədvəllərində də Azərbaycan yer alıb. 2016-cı ildən etibarən Qlobal Yaşıl İqtisadiyyat İndeksi Azərbaycanı da siyahıya əlavə edib (https://sustainabledevelopment.un.org/content/documents/2372GGEI-2016.pdf). Son göstəricilərə əsasən 80 ölkə arasında 57-ci mövqe qeydə alınıb. Yaşıl İnkişaf İndeksində isə Asiya regionu üzrə Azərbaycan 13-cü pillədə qərarlaşıb (https://greengrowthindex.gggi.org/wpcontent/uploads/2021/01/2020-Green-Growth-Index.pdf).

2021-ci ildə “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” qanun qəbul edilmişdir. Elektrik enerjisi istehsalı üçün bərpa olunan ekoloji təmiz eneji mənbələrindən istifadə sahəsinə yerli və xarici investorların cəlbi üçün münbit investisiya mühitinin formalaşdırması qanunda dövlətin vəzifələrindən biri kimi önəmli yer tutur. Qanuna əsasən ölkənin bərpa olunan enerji resursları imkanlarının atlası yaradılmalıdır. Atlasda bərpa olunan enerji resursları imkanlarından yararlana bilinəcək ərazilər (su obyektləri və torpaq sahələri), hər bir ərazisin enerji istehsalı potensialı və digər əlamələr üzrə xüsusi məlumatlar qeyd olunur. Atlası formalaşdıran qurum dövlətin su, torpaq, meşə və digər kadastrları, eyni zamanda bu istiqamətdə digər dövlət məlumatlarını müvafiq qurumlardan qeyd şərtsiz əldə edə bilir. (“Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 31 may 2021-ci il. № 339-VIQ)
Yaşıl iqtisadiyyat prinsipini təşviq edən addımların davamı olaraq Vergi Məcəlləsində də müəyyən əlavə və dəyişikliklər olmuşdur. Belə ki, 2022-ci il 1 yanvar tarixindən etibarən elektrik mühərrikli avtomobillərin idxalı ilə paralel olaraq satışı da əlavə dəyər vergisindən azad edilib. Həmçinin istehsal olunduğu tarix 3 ili keçməmiş, 2500 kub santimetr həcmindən az mühərrik həcmli hibrid avtomobillərin satış və idxalı, eyni zamanda elektrik mühərrikli avtomobillərin istifadəsi üçün nəzərdə tutulan 2-ci və 3-cü səviyyə enerji doldurucularının idxalı da müvafiq tarixdən etibarən 3 illik müddətə ƏDV-dən azad edilmişdir (https://greengrowthindex.gggi.org/wpcontent/uploads/2021/01/2020-Green-Growth-Index.pdf).

**Cədvəl 1. Azərbaycanda əsas ekoloji siyasət tədbirlərinin xülasəsi**

| | |
|---|---|
| Azərbaycan 2020: Gələcəyə baxış | 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilib. Azərbaycan 2020 iqlim dəyişikliyinin ölkə cəmiyyətinə və iqtisadiyyatına mümkün təsirini təhlil etmək və zəruri siyasət tədbirlərinin hazırlanmasının vacibliyini vurğulayır. Proqramda həmçinin qeyd olunur ki, ÜDM-in bir vahidi istehsal etmək üçün istifadə olunan enerji miqdarı, eləcə də karbon miqdarı 2020-ci ilə qədər OECD üzv ölkələrinin müvafiq göstəricilərinə uyğun olmalıdır. |
| Ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii ehtiyatlardan səmərəli istifadəyə dair 2015-2020-ci illər üçün Tədbirlər Planı | Plan, digər məsələlərlə yanaşı, aşağıdakıların hazırlanmasının vacibliyini vurğulayır:<br>a) Milli Uyğunlaşdırma Planı<br>b) ölçmə, hesabat vermə və yoxlama sistemləri ilə bağlı elementləri özündə birləşdirən milli səviyyədə müvafiq təsirin azaldılması tədbirləri |
| Alternativ və Bərpa Olunan Enerji Mənbələrindən İstifadə üzrə Dövlət Strategiyası (2012-2020) | Bu strategiya ölkədə bir sıra bərpa olunan enerji mənbələrinin inkişafını təşviq etmək üçün hazırlanmışdır. Görüləcək tədbirlərə daxildir: alternativ və bərpa olunan mənbələrdən elektrik və istilik enerjisi istehsalı üzrə 2020-ci ilə doğru əsas istiqamətlərin müəyyən edilməsi; qanunvericilik bazalarının hazırlanmasının təşviqi; həvəsləndirici tədbirlər (məsələn, tariflər və birbaşa subsidiyalar); alternativ və bərpa olunan enerjinin inkişafı üzrə layihələrin həyata keçirilməsi |
| “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” | Bu Dövlət Proqramının əsas məqsədi yoxsulluğun azaldılması olmasına baxmayaraq, faktiki olaraq ölkənin milli davamlı inkişaf strategiyasıdır |
| Atmosfer havasının mühafizəsi haqqında qanun | Atmosferin çirklənməsi və emissiyaları ilə bağlı tənzimləmələrin yaradılması üçün qanunvericilik bazası və havanın çirklənməsi üçün standartlar, hədlərin işlənib |

| | |
|---|---|
| | hazırlanması üzrə müxtəlif qurumların vəzifələrini müəyyən edir. |
| Enerji ehtiyatlarından istifadə haqqında Azərbaycan Respublikasının Qanunu | Qanun enerji resurslarından istifadə ilə bağlı dövlət siyasətinin hüquqi, iqtisadi və sosial əsaslarının həyata keçirilməsi mexanizminin əsas istiqamətlərini müəyyən edir və bu sahədə dövlətlə hüquqi şəxslər arasında münasibətləri tənzimləyir. |
| "Energetika haqqında" qanun | Bu qanun enerji sektorunun bütün sahələrinə və enerji istehsalında istifadə olunan materiallara və məhsullara aiddir. O, dövlətin enerji siyasətinin məqsədlərini bəyan edir. Qanun enerjidən səmərəli istifadə tələblərini ehtiva edir və ətraf mühitin mühafizəsi, sağlamlıq və təhlükəsizliklə bağlı öhdəliklərə dair müddəaları əhatə edir. |
| Mülkiyyət formasından asılı olmayaraq enerji sektoru müəssisələrinin enerji səmərəliliyi və itkilərinin, texnoloji istehlakının azaldılması üzrə Tədbirlər Planı | Bu fərmanla Energetika Nazirliyinə sərəncamda göstərilən dörd vəzifəyə nəzarət etmək tapşırılıb. Tapşırıqlardan ikisi sayğaclaşdırma və texniki itkilərin azaldılması ilə bağlıdır. |

**Mənbə**: Azərbaycanda yaşıl investisiya və maliyyələşmənin genişlənməsi, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Təşkilat nəşriyyatı, Paris, 2018

Ümumən iqtisadiyyatın yaşıllaşdırılması konsepsiyasında elektrik enerjisinin müstəsna rolu vardır. Yəni ekoloji təmiz bərpa olunan enerji resursları hesabına elektrik enerjisi istehsalı artmasa iqtisadiyyatın digər sahələrinin "yaşıllaşması"ndan söhbət gedə bilməz. Çünki elektrik enerjisi iqtisadiyyat üçün bütövlükdə mühərrik rolunu oynayır. İqtisadiyyatın təməl prinsipləri tələb-təklif, istehsal-istehlak anlayışları enerji olmadan reallaşa bilməz. Daha əvvəl də bəhs olunduğu kimi bu məsələ Azərbaycanın milli prioritetləri arasına daxil edilmişdir. Belə ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində "yaşıl enerji" məkanı anlayışı ölkə ərazisində enerjidən qənaətlə və səmərəli şəkildə faydalanmağı və dayanıqlı, ekoloji təmiz, bərpa olunan enerji mənbələrinə daha çox yönəlməyi hədəfləyir. Qeyd edilir ki, mövcud və gələcək nəsillərin tələbatını tam şəkildə qarşılamaq məqsədi ilə ekoloji təmiz "yaşıl" texnologiyaların tətbiqinə üstünlük verilməlidir. İqlim dəyişikliklərinə təsirin azaldılması üçün müasir elmi texniki tərəqqinin gücünə əsaslanaraq iqtisadiyyatın hər sahəsində bərpa olunan enerji mənbələrinin istifadəsi payı artırılmalıdır.

Bu sahədə dövlət tərəfindən istitusional islahatlar da aparılıb və bu istiqamətdə işlər davam edir. Belə ki, 2009-cu ildə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmışdır.

**Qrafik 1. Azərbaycanın 2021-ci ildə ümumi elektrik enerjisi istehsalı gücü, MVt**




**Mənbə**: Şahbazov, P.O. Azərbaycan energetikasının yeni dövrü Qarabağvə Şərqi Zəngəzurdan başlayır. "Respublika" qəzeti, 20 oktyabr 2021-ci il. № 226 (7122). səh.5-6.

Qrafik 1-dən də göründüyü kimi 2021-ci ildə Azərbaycanın elektrik enerjisi istehsalı gücü 7538.4 MVt olmuşdur. Bunun təqribən 83%-i, yəni 6237.7 MVt istilik elektrik stansiyaları tərəfindən istehsal edilmişdir. Bərpa olunan enerji mənbələri hesabına əldə olunan elektrik enerjisi isə toplam istehsalın 17%-ni təşkil etmişdir.

Bu müsbət irəliləyişlərə baxmayaraq, Azərbaycanda yaşıl iqtisadiyyatın inkişafı sahəsində hələ də həll edilməli olan vəzifələr var. Əsas problemlərdən biri geniş ictimaiyyət arasında davamlı inkişafın vacibliyi barədə məlumatlılığın istənilən səviyyədə olmamasıdır. Həmçinin bərpa olunan enerji və dayanıqlı infrastruktura daha çox investisiyaya ehtiyac var.

Ümumiyyətlə, Azərbaycanda yaşıl iqtisadiyyat təşəbbüsü son illər BOEMDA-nın yaradılması və davamlı inkişafın təşviqinə yönəlmiş bir sıra layihələrin həyata keçirilməsi ilə əhəmiyyətli irəliləyiş əldə edib. Bununla belə, davamlı inkişafın ölkənin iqtisadi artımının və inkişafının əsas komponentinə çevrilməsi üçün hələ çox iş icra olunmalıdır.

**Yaşıl İqtisadiyyata Transformasiya Prosesində Şərqi Zəngəzur İqtisadi Rayonunun Potensialının Təhlili**

Azərbaycan Respublikasında hökumət tərəfindən işğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" zonası konsepsiyası çərçivəsində yenidən qurulması hədəflənir və bu məqsəd üzrə konkret əməli addımlar atılır. "Yaşıl enerji" zonası ifadəsi yalnız ekoloji təmiz, tükənməyən enerji resursları əsasında enerji istehsal edən məkanları bildirmir. Bu ifadənin mənası genişdir və ekoloji cəhətdən təmiz olan nəqliyyat vasitələrinin istifadəsinin təşviqi, "yaşıl məşğulluğ"un təmin olunması, təbii resursların səmərəli istifadəsi kimi bir çox məsələləri də əhatə edir. Buna görə də işğaldan azad olunmuş bölgələrdə "yaşıl enerji" zonasının yaradılması istiqamətində kompleks fəaliyyətlər icra edilir: "ağıllı şəhər","ağıllı kənd" konsepsiyası üzrə kəndlərin və şəhərlərin yenidən inşası, bölgədə yaradılacaq sənaye müəssisələrinin "yaşıl iqtisadiyyat" təşəbbüsü standartlarına uyğunlaşdırılması, günəş və külək enerjisi əldə etmə imkanlarının araşdırılması və s.

Şərqi Zəngəzur Azərbaycanın cənub qərbində təbii sərvətlərlə, faydalı qazıntılar və münbit kənd təsərrüfatı torpaqları ilə zəngin bir bölgədir. Dünya yaşıl iqtisadiyyata doğru irəlilədikcə, Şərqi Zəngəzur bölgəsinin təbii ehtiyatlarından istifadə etmək və iqtisadiyyatını transformasiya etmək üçün əhəmiyyətli potensial var. İqtisadi rayona Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonları daxildir. Ərazisi 7.47 min km2-dir.
Regionda diqqət yetirilməli olan ən perspektivli sahələrdən biri bərpa olunan enerjidir. Burada su elektrik enerjisi istehsalı üçün bir sıra çaylar və şəlalələr var. Bundan əlavə, bölgə bol günəş işığı və güclü küləklər aldığı üçün günəş və külək enerjisi istehsalı üçün əhəmiyyətli dərəcədə potensiala malikdir. İşğaldan azad olunmuş ərazilərdə 7200 MVt günəş və 2000 MVt külək enerjisi potensialının olduğu təsdiq edilmişdir (P.O. Şahbazov, 2021). İlkin hesablamalar və təhlillər onu qeyd etməyə əsas verir ki, bu ərazilərdə külək və günəş enerji növləri üzrə toplam istehsal həcmi 9-10 min MVt həddinə çatmaq imkanındadır. Qubadlı, Füzuli, Cəbrayıl və Zəngilan günəş enerjisi, Kəlbəcər və Laçının dağlıq hissələri isə güclü külək enerjisi potensialı ilə fərqlənir. Bu bölgədə axan Bazarçay, Həkəriçay və Tərtərçay kimi iri çaylarda isə güclü hidroenerji potensialı vardır. Belə zəngin imkanlar ilə yanaşı Şuşa və Kəlbəcərdə termal su ehtiyatlarının olması da ilkin təhlillərin nəticəsi olmuşdur. Bu istiqamətdə mühüm layihələrdən biri kimi Zəngilan şəhərində inşa edilən günəş elektrik stansiyasını misal göstərmək mümkdündür. Stansiyanın istehsal günü 50MVt-dır. Layihə Azərbaycan hökumətinin və beynəlxalq maliyyə institutlarının dəstəyi ilə həyata keçirilib və regionu təmiz enerji ilə təmin etmək və istixana qazı emissiyalarını ildə təxminən 51 min ton azaltmaq nəzərdə tutulur (P.O. Şahbazov, 2021).
İnkişaf potensialı olan digər sahə davamlı kənd təsərrüfatıdır. Bölgənin kənd təsərrüfatının uzun tarixi var. Düzgün düşünülmüş, planlanmış dəstək və investisiya ilə Şərqi Zəngəzurdakı fermerlər daha dayanıqlı və ekoloji cəhətdən təmiz təcrübələrə keçə bilər. Buraya üzvi əkinçilik texnikalarının mənimsənilməsi, təbii gübrələrin və pestisidlərin istifadəsi, davamlı və yerli məhsullar üçün yerli bazarların inkişafı daxil ola bilər. Aqrar Tədqiqatlar Mərkəzinin araşdırmasına əsasən regionda taxıl, meyvə, giləmeyvə, yem bitkilərinin yetişdirilməsi üçün münbit şərait vardır. Rayonda əkinçilik ilə yanaşı heyvandarlıq üçün də imkanlar genişdir. Belə ki, il ərzində 16.5 min ton ət, 98.4 min ton süd və 51.1 mln. ədəd yumurta istehsalı proqnozlanmışdır (Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi / Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonları).
Şərqi Zəngəzurda mədənçıxarma sektoru da əsas sənayedir, lakin tarixən ətraf mühitin pozulması və çirklənməsi ilə nəticələnmişdir. Bu sənayeni yaşıl sənayeyə çevirmək üçün hökumət və mədən şirkətləri daha təmiz və səmərəli texnoloji yeniliklərə sərmayə qoymalı, həmçinin tullantıları və çirklənməni azaltmaq üçün mühüm addımlar atmalıdırlar.
Bölgədə ekoturizmin inkişafı üçün əhəmiyyətli potensial mövcuddur. Şərqi Zəngəzur iqtisadi rayonunda 178.1 min ha meşə ərazisi yerləşir. İqtisadi rayon dayanıqlı turizmlə maraqlanan ziyarətçiləri cəlb edə biləcək bir sıra heyrətamiz təbiət mənzərələri və mədəniyyət obyektlərinə ev sahibliyi edir. Bu amil bölgənin unikal mədəni və ekoloji irsini təbliğ etməklə yanaşı, yerli iqtisadiyyata təkan verə bilər.
Azərbaycanı Türkiyə və Avropa ilə əlaqələndirəcək ən qısa yol – Zəngəzur dəhlizinin də buradan keçməsi regionun əhəmiyyətini olduqca artırır. Dəhlizin açılması ilə nəinki Şərqi Zəngəzur, eyni zamanda bütünlüklə ölkənin və regionun iqtisadiyyatı canlana bilər. Zəngəzur dəhlizi Azərbaycanın qərb və şərq rayonlarını birləşdirən strateji keçiddir. Bu dəhliz Azərbaycanın Şərqi Zəngəzur rayonundan keçərək Ermənistanın Meğri rayonu ilə birləşir. Bu dəhlizin açılması Azərbaycanın daxili rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqə yaradır.

Dəhliz regionda kommersiya fəaliyyətinin artırılması, turizm potensialının inkişafı və logistika sektorunun inkişafı üçün böyük imkanlar yaradır. O, həmçinin regionda yaşayan insanların həyat keyfiyyətini və rifahını yaxşılaşdırmaq üçün yeni iş imkanları yaratmaq potensialına malikdir. Dəhliz həm də regionda mövcud olan təbii sərvətlərdən daha səmərəli istifadə etməyə və istehsal sahəsinin inkişafına imkan yaradır. Bölgənin mədənçıxarma, energetika və kənd təsərrüfatı sahələrində potensialını artırmaqla, iqtisadi artım və inkişaf üçün daha geniş sahə açır.

Bundan əlavə, Zəngəzur dəhlizi regionda sosial və mədəni qarşılıqlı əlaqəni artırmaqla Azərbaycana qonşuları ilə daha sıx əlaqələr qurmağa və regional sabitliyi təmin etməyə kömək edə bilər. Bunun nəticəsidir ki, Zəngəzur dəhlizi regionun iqtisadi və sosial inkişafı üçün mühüm rol oynayır və Azərbaycanın daxili rayonları ilə Naxçıvanın daha sürətli və səmərəli inteqrasiyasını təmin edir.

Tranzit dəhlizi ticarət və nəqliyyat infrastrukturunu təkmilləşdirməklə ölkənin iqtisadiyyatına əhəmiyyətli təsir göstərə bilər. Tranzit dəhlizinin ölkə iqtisadiyyatına bir sıra müsbət təsirləri var. Birincisi ticarət artımıdır. Belə dəhlizlər regionlar və ölkələr arasında mal mübadiləsini artıra bilər ki, bu da ticarətin və iqtisadi artımın artmasına səbəb ola bilər. Bu, bizneslərə yeni bazarlara çıxışa və gəlirlərini artırmağa kömək edir. Nəqliyyat xərclərinin azaldılması digər önəmli təsirdir. Tranzit dəhlizi biznes və istehlakçılar üçün nəqliyyat xərclərini azalda bilən daha səmərəli və sərfəli nəqliyyat sistemini təmin edə bilər. Bu, müəssisələr üçün rəqabət qabiliyyətinin və gəlirliliyin artmasına səbəb olur. Üçüncü təsir yeni bazarlara çıxış imkanlarını yaratmasıdır. Tranzit dəhlizi müəssisələri yeni müştərilər və təchizatçılarla birləşdirərək bazarlara çıxışı yaxşılaşdırmaq potensialına malikdir. Bu, müəssisələrə əməliyyatlarını genişləndirməyə və satışlarını artırmağa kömək edə bilər. Bundan başqa dəhlizin nəqliyyat və logistika sektorlarında, eləcə də artan ticarət və iqtisadi fəallıqdan faydalanan sənaye sahələrində yeni iş yerləri yaratma təsiri mövcuddur. Beşinci təsir təkmilləşdirilmiş regional inteqrasiyadır. Tranzit dəhlizi müxtəlif regionları birləşdirərək və iqtisadi əməkdaşlığı təşviq etməklə regional inteqrasiyanı yaxşılaşdırır. Bu da öz növbəsində regionda siyasi sabitliyə və iqtisadi artıma səbəb olur.

Ümumiyyətlə, tranzit dəhlizinin ölkə iqtisadiyyatına təsiri infrastrukturun keyfiyyəti, daşınan yüklərin xarakteri, digər ölkələr və regionlarla inteqrasiya səviyyəsi kimi müxtəlif amillərdən asılıdır. Bununla belə, ümumilikdə, düzgün tərtib edilmiş tranzit dəhlizi ölkə iqtisadiyyatına müsbət təsir göstərə bilər. (Green Industrial Policy: concept, policies, Country experiences, German Development Institute, PAGE)

Bütövlükdə, Şərqi Zəngəzur davamlı və ekoloji cəhətdən təmiz təcrübələri inkişaf etdirmək üçün təbii ehtiyatlarından və ənənəvi sənayelərindən istifadə edərək iqtisadiyyatını yaşıl iqtisadiyyata çevirmək üçün ciddi potensiala malikdir. Buna nail olmaq üçün koordinasiyalı və effektiv keçidi təmin edəcək güclü dövlət dəstəyinə, özəl sektor investisiyalarına və müxtəlif sektorlar arasında əməkdaşlığa ehtiyacı olacaq.

**Şərqi Zəngəzur İqtisadi Rayonu Üzrə Nümunəvi Modelin Müəyyən Edilməsi və Tətbiqi İmkanı**

Şərqi Zəngəzur iqtisadi rayonunda nümunəvi iqtisadi inkişaf modelinin yaradılması üçün bir neçə əsas addımlar atılmalıdır:

1) İqtisadi potensialın qiymətləndirilməsi: İlk addım iqtisadi potensialı müəyyən etməkdir. Buraya Şərqi Zəngəzurda mövcud olan resursların müəyyən edilməsi, potensial sənaye sektorlarının təhlili və digər amillərin qiymətləndirilməsi daxildir.
2) Strateji planlaşdırma: İkinci addım strateji planlaşdırma mərhələsidir. Bu mərhələdə Şərqi Zəngəzurun iqtisadi potensialından ən yüksək səviyyədə istifadə etmək üçün hədəflər müəyyən edilir və strategiya yaradılır. Strateji planlaşdırma prioritet sahələrin müəyyən edilməsini,

prioritet investisiya sahələrinin müəyyən edilməsini və digər iqtisadi hədəflərin müəyyən edilməsini əhatə edir.

3) İnvestisiya mühitinin yaxşılaşdırılması: Üçüncü addım investisiya mühitinin yaxşılaşdırılmasıdır. Buraya Şərqi Zəngəzurda investisiya qoyuluşunun artırılması, sahibkarlığın təşviqi və əməliyyat xərclərinin azaldılması daxildir.
4) İnfrastrukturun inkişafı: Dördüncü addım infrastrukturun inkişafıdır. Bu mərhələdə nəqliyyat, rabitə, enerji və digər infrastruktur layihələri üzərində işləmək lazımdır. Bu, Şərqi Zəngəzurda biznes qurmaq xərclərini azaltmağa kömək edəcək.
5) Biznesləri dəstəkləmək: Beşinci addım biznesləri dəstəkləməkdir. Bu mərhələdə yerli biznesi inkişaf etdirmək, təlim və konsultasiya xidmətləri, kredit proqramları və digər dəstək tədbirləri ilə Şərqi Zəngəzurda biznesi asanlaşdırmaq məqsədi daşıyır.
6) İşçi qüvvəsinin təhsili: Altıncı addım işçi qüvvəsinin təhsilidir. Bu mərhələdə işçi qüvvəsinin keyfiyyətini artırmaq üçün təlim proqramları hazırlamaq lazımdır. Bu, yerli əhalinin əmək bazarına inteqrasiyasını artıracaq və məşğulluğu artıracaq.

Ümumən iqtisadiyyat anlayışının bir ərazidə bərqərar olması üçün təbii olaraq orada insanların məskunlaşması, onların fəaliyyəti əsas şərtdir. Çünki insan iqtisadiyyatın əsas hərəkətverici qüvvəsidir və onsuz heç bir iqtisadi mühitin formalaşması mümkün deyildir. İşğaldan azad edilmiş ərazilərdə eləcə də Şərqi Zəngəzur iqtisadi rayonunda hər hansı yaşıl iqtisadiyyat modelinin tətbiqini planlaşdırmadan əvvəl insanların orada məskunlaşmasını təşviq edəcək tədbirlərin icrası labüddür. İnsanların bu ərazilərdə yerləşməsi və yaşıl iqtisadiyyat təşəbbüsünün tətbiqi də bir-biri ilə qarşılıqlı vəhdət şəklində icra olunarsa daha effektli təsirləri ola bilər. İlkin təşviqedici şərtlərdən biri iqtisadi rayonda yaşayan əhali üçün elektrik enerjisinin Azərbaycan digər bölgələri ilə müqayisədə 50% daha aşağı tariflərlə satışıdır. Bundan başqa əhali üçün də şəxsi istifadə məqsədi ilə ekoloji təmiz enerji mənbələri hesabına elektrik enerjisi əldə etmək imkanı yaradılmalı və bu sahə ən azı 5 illik müddətə vergiyə cəlb edilməməlidir.

İki qurum üzərindən Şərqi Zəngəzurda uğurlu layihələr reallaşdırıla bilər: Qarabağ Dirçəliş Fondu və ABAD publik hüquqi şəxsi. Hindistanda mövcud olan Kənd Məşğulluğuna dair Milli Zəmanət Aktının Azərbaycana uyğunlaşdırılması və bio qida məhsulları istehsalı zəncirinin yaradılması regionun yaşıl çərçivədə iqtisadi inkişafına ciddi təkan verə bilər.

Azərbaycanın qida məshulları üzrə ixrac göstəricisi olduqca aşağıdır. Dövlət Statistika Komitəsinin 2021-ci il üzrə hesabatına əsasən qida məhsullarının ümumi ixrac həcmində payı heç 2% olmamışdır. Bu sahədə ciddi boşluq müşahidə edilir. İxrac olunan qida məhsullarının hamısı da demək olar ki, heç bir emal prosesindən keçməmiş hazır meyvə və tərəvəzlərdir. Halbuki ölkənin təbii ehtiyatları, iqlim şəraiti bir çox qida məhsullarının xüsusən də bio məhsulların istehsalına imkan yaradır. ABAD xətti ilə regionda beynəlxalq standartların tələblərinə uyğun qaydada bio qida məhsullarının istehsalı yaradılarsa yaşıl iqtisadiyyata ciddi töhfə vermiş olar. Belə ki həmin istehsal zəncirində dörd istehsal faktoru da mənfəət əldə etmiş olur ki, bu da ümumən iqtisadiyyatın artımı deməkdir.

Bio-qida məhsullarının (həmçinin üzvi qida kimi tanınır) bazar payı ölkədən və regiondan asılı olaraq dəyişir. Ümumiyyətlə, son illərdə istehlakçıların daha sağlam və ekoloji cəhətdən təmiz qida seçimlərinə tələbatının artması səbəbindən bu tip qida məhsullarının bazar payı artmaqdadır. Üzvi Kənd Təsərrüfatı Tədqiqat İnstitutunun (FiBL) və Beynəlxalq Üzvi Kənd Təsərrüfatı Hərəkatları Federasiyasının (IFOAM) hesabatına görə, qlobal bio qida bazarı 2017-ci ildə 97 milyard dollar dəyərində qiymətləndirilib. ABŞ, Almaniya və Fransa bu sahədə ən böyük bazara sahibdir. Eyni hesabatda bildirilir

ki, 2017-ci ildə ABŞ-da bio qida məhsullarının bazar payı təqribən 5,7%, Avropada isə 7,7% ətrafında olub. Bununla belə bazar payı statistikası onların necə ölçüldüyündən və hansı məhsulların üzvi qida kateqoriyasına daxil edildiyindən asılı olaraq dəyişə bilər. Bundan əlavə, istehlakçı seçimləri və bazar şərtləri dəyişdikcə bazar payı zamanla dəyişə bilər (https://sustainabledevelopment.un.org/index.php?menu=1446).

Bio (üzvi) məhsullara artan tələbatın bir neçə səbəbi var:

Sağlamlıq problemləri: İstehlakçılar sağlamlıq haqqında daha çox şüurlu olurlar və daha sağlam qida variantları axtarırlar. Bio-məhsullar, sintetik pestisidlər və gübrələrdən istifadə edilmədən istehsal olunduğu üçün ənənəvi olaraq yetişdirilən məhsullardan daha təbii və zərərsiz hesab olunur.

Ətraf mühitlə bağlı narahatlıqlar: İstehlakçılar kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin tükənməsi, suyun çirklənməsi və qalıq yanacaqların istifadəsi kimi ətraf mühitə mənfi təsirlərdən getdikcə daha çox məlumatlı olurlar. Bio məhsullar isə ətraf mühitə mənfi təsiri minimuma endirən davamlı və ekoloji cəhətdən təmiz təcrübələrdən istifadə etməklə istehsal olunur.

Sosial məsuliyyət: İstehlakçılar satınalma qərarlarının sosial təsirindən getdikcə daha çox xəbərdar olur və sosial məsuliyyətə əsaslanmış şəkildə istehsal olunan məhsullar üçün pul ödəməyə razı gəlir.

Mövcudluq: Bio məhsulların mövcudluğu artdıqca, istehlakçılar onlardan daha çox xəbərdar oldular və getdikcə onları ənənəvi olaraq yetişdirilən məhsullardan daha çox seçirlər.

Bütövlükdə, bio məhsullara artan tələbat sağlamlıq, ətraf mühit, sosial narahatlıqlar, eləcə də bu məhsulların mövcudluğu və məlumatlılığının artması ilə şərtlənir.

Kapitalizmin sürətli inkişafı, insanların sayı artdıqca əlavə iş yerlərinin yaradılması ilə onların məşğulluğunun təmin edilməsi, sənayeləşmənin genişlənməsi nəticəsində iqtisadiyyat ekologiyadan ön plana keçmişdir. Ona görə də son zamanlar ekoloji tarazlıq pozulmuşdur. Məhz buna görə də yaşıl iqtisadiyyat təşəbbüsü gündəmə gəlmişdir. Dövlətlər bu istiqamətdə fərqli layihələr reallaşdırmaqla bu təşəbbüsə öz töhfələrini verməyə səy göstərirlər. Hindistan tərəfindən reallaşdırılmış Kənd Məşğulluğuna dair Milli Zəmaət Aktı nümunəsi də belə layihələrdəndir. Bu layihənin Azərbaycanın sosial-iqtisadi şəraitinə uyğunlaşdırılaraq reallaşdırılması ölkədə icra olunan yaşıl iqtisadiyyat təşəbbüsü üzrə layihələr paketinə uğurlu bir əlavə olardı. Belə ki, Hindistanda bu istiqamət çərçivəsində kəndlilər ekologiyanın qorunması, təbiətin bərpası kimi ictimai işlərə cəlb olunur. Bunun nəticəsində həm məşğulluq təmin edilir, həm də ekoloji müsbət təsirlər formalaşır. Şərqi Zəngəzurda məskunlaşacaq əhalinin bir qisminin bu tip ictimai işlərə cəlb olunması regionun yenidən qurulmasına, məskunlaşmanın genişlənməsinə və ümumən yaşıl iqtisadiyyat təşəbbüsünün bir vəhdət şəklində reallaşmasına töhfə vermiş olar. Bu ictimai işlərin də maliyyələşməsi Qarabağ Dirçəliş Fondunun vəsaiti hesabına Dövlət Məşğulluq Agentliyi xətti ilə icra olunarsa dövlət büdcəsi üçün əlavə yük olmadan iqtisadi inkişaf reallaşmış olacaq. Çünki hazırda Dövlət Məşğulluq Agentliyi tərəfindən bənzər layihə reallaşdırılır. Agentlik tərəfindən müvəqqəti məşğulluğun təmin edilməsi məqsədi ilə ilkin peşə hazırlığı tələb etməyən ictimai faydalı xarakter daşıyan haqqı ödənilən ictimai işlər yaradılır və işsiz insanların belə işlərə cəlb edilməsi təmin olunur.

Zəngəzur dəhlizi, Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətli bir rol oynayır. Dəhliz Azərbaycanı Türkiyə ilə bir-birinə bağlayan ən dayanıqlı və qısa yoldur. Dəhlizin açılması Azərbaycanın iqtisadiyyatının diversifikasiyasına və regionda daha da möhkəmlənməsinə kömək edir. Bu yol Azərbaycanın həm daxili, həm də xarici ticarətinə baxımından əhəmiyyətli bir nəqliyyat yolu funksiyasını icra edir. Dəhliz Azərbaycanın məhsul və xidmətlərinin Türkiyə, Hindistan, Pakistan,

Türkmənistan kimi ölkələrə daha sürətli, asan və ucuz bir şəkildə çatdırılmasına imkan yaradır. Bu da Azərbaycanın xarici ticarətində daha çox inkişaf etməsinə və digər ölkələrlə əlaqələrinin gücləndirilməsinə yardım edir. Bu xətt həmçinin Azərbaycanın təbii resurslarının ixracı üçün də əhəmiyyətli bir rol oynayır. Azərbaycanın resurslarının Türkiyə, oradan da Avropa enerji bazarına daha asan bir şəkildə ötürülməsinə imkan verir. Məhz bu dəhlizin üstünlüklərindən istifadə edərək Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində azad iqtisadi zonanın yaradılması regionun iqtisadi inkişafı üçün üçüncü təklifdir. Ərazidə vergi güzəştlərinin və digər imtiyazların tətbiq edilməsi beynəlxalq və yerli şirkətləri cəlb edəcəkdir. Xüsusilə də Türkiyə, İran körfəzi ölkələri ilə məhsul mübadiləsi edən şirkətlər üçün olduqca strateji bir ərazidə əlavə olaraq azad iqtisadi zonanın yaradılması böyük iqtisadi inkişaf təkanı olacaq. Bu eyni zamanda regionda məskunlaşmanı təşviq edəcək iri miqyaslı bir layihə olacaq. Hazırda ölkə ərazisində sadəcə bir – Ələt Azad İqtisadi Zonası fəaliyyət göstərir. Dəhliz üzrə işlərin sistemli şəkildə qurulması Azərbaycanın sadəcə tranzit ölkə olaraq da fayda əldə etməsinə səbəb olacaq. Belə ki Türkiyənin Əfqanıstan, Pakistan, Türkmənistan və Hindistan ilə yarada biləcək ən qısa əlaqə məhz bu dəhliz vasitəsilə mümkün olacaq. Türkiyənin 2022-ci ildə bu ölkələrdən idxal həcmi 12.9 mlrd., ixrac göstəricisi isə 6.3 mlrd. ABŞ dolları olmuşdur. Yəni ortada 20 mlrd. dollara yaxın bir dövriyyə mövcuddur ki, Şərqi Zəngəzur iqtisadi rayonu bu ticarətdən yararlana bilər. Bu siyahıya digər qonşu dövlətləri də əlavə etsək ticarət həcmi göstəricisi daha da böyüyür. Azad iqtisadi zonanın yaradılması nəqliyyat xərclərinin daha da azaldılması səbəbi ilə qeyd olunan dövlətlərdən sahibkarları bölgədə investisiyaya cəlb edə bilər.

**Nəticə və Təkliflər**

Məqalədə Şərqi Zəngəzurda yaşıl iqtisadiyyat təşəbbüsü üzrə icra oluna biləcək layihə modelləri təklif olunur, onların mümkün təsirləri dəyərləndirilir. Qarabağ Dirçəliş Fondu və ABAD publik hüquqi şəxsi qurumları xətti ilə layihələrin icrasının mümkünlüyündən bəhs olunur. Hər iki qurumun fəaliyyəti ilə yaşıl çərçivədə iqtisadi inkişafa nail oluna biləcəyi qeyd olunur. Bu fəaliyyətin icrası ilə dövlətin digər bir hədəfi olan işğaldan azad olunmuş ərazilərdə məşkunlaşmanın təmin olunması da təşviq edilmiş olur. Ümumən məqalənin nəticəsi olaraq üç təklif qeyd olunur:

1) ABAD publik hüquqi şəxsin xətti ilə bölgədə bio məhsullar istehsalı zəncirinin formalaşdırılması
2) İqtisadi rayonda ekoloji istiqamətdə ictimai əsaslı işlərin təşviq edilməsi və Qarabağ Dirçəliş Fondu tərəfindən maliyyələşmənin təmin edilməsi
3) Zəngəzur dəhlizi üzərində yerləşməsindən istifadə edilməklə ərazidə azad iqtisadi zonanın yaradılması, vergi güzəştləri və digər imtiyazların tətbiq edilməsi

**Ədəbiyyatlar**

Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: 2000 /https://www.e-qanun.az/framework/46948

Azərbaycanda yaşıl investisiya və maliyyələşmənin genişlənməsi, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Təşkilat nəşriyyatı, Paris, 2018

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 31 may 2021-ci il. № 339-VIQ. / http://e-qanun.az/framework/47842

Government of Azerbaijan (2017), Batumi Initiative on Green Economy (BIG-E) Actions by Azerbaijan, http://www.greengrowthknowledge.org/sites/default/files/downloads/bige/Azerbaijan.BIG-E.e.pdf.

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi / Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonları

https://ereforms.gov.az/files/review/pdf/az/50106b9302c648fb32645cc9493f2dad.pdf

P.O.Şahbazov, Azərbaycan energetikasının yeni dövrü Qarabağ və Şərqi Zəngəzurdan başlayır. “Respublika” qəzeti, 20 oktyabr 2021-ci il. № 226 (7122). səh.5-6.

https://www.respublicanews.az/uploads/files/pdf_archive/d32870652c-20211020.pdf

Green Industrial Policy: concept, policies, Country experiences, German Development Institute, PAGE

Green Economy Developing Countries Success Stories, Pavan Sukhdev, Steven Stone, Nick Nuttal, United Nations Environment Programme 2010

https://www.unep.org/regions/asia-and-pacific/regional-initiatives/supporting-resource-efficiency/green-economy

https://sustainabledevelopment.un.org/index.php?menu=1446

Moran, T. H. / The Role of Industrial Policy as a Development Tool: New Evidence from the Globalization of Trade-and-Investment / CGD Policy Paper No. 071 / Washington, D.C. / 2015

Nordhaus, W. / Climate Clubs: Overcoming Free-riding in International Climate Policy / American Economic Review, 105(4), / 1339–1370 / 2015

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) / Compact City Policies / A Comparative Assessment / Paris: OECD Publishing.

https://epi.yale.edu/epi-results/2020/component/epi

https://sustainabledevelopment.un.org/content/documents/2372GGEI-2016.pdf

https://greengrowthindex.gggi.org/wpcontent/uploads/2021/01/2020-Green-Growth-Index.pdf

# Formation of Proposals for The Development of Existing ESG Methodologies for Assessing Medium and Small Businesses

**Aleksandra V. Ermakova**

**Plekhanov Russian University of Economics, State and Municipal Finance Department**

**Aleksandra.v.ermakova@gmail.com**

**Yulia Y. Finogenova**

**Plekhanov Russian University of Economics, State and Municipal Finance Department**

**Finogenova.yy@rea.ru**

## Abstract

The paper analyses existing methodologies for SME ESG rating. The paper clearly defines the relevance of the topic and actual problems in this area. It is vital to correctly assess all types of companies from non-financial point of view due to growing influence of ESG. For that reason, the paper examines the shortcomings of existing ESG assessment methodologies used by leading rating agencies and proposes a more industry-specific approach to accurately evaluate companies' ESG performance. The paper also recommends a more tailored approach to address the limitations of existing approaches. Furthermore, recommendations are based on the empirical an empirical study that was conducted through a direct survey of companies in the segment under consideration. The paper's findings have practical implications for rating agencies, companies, and investors who can use industry specific ESG assessments to make more informed investment decisions and identify areas for improvement.

**Keywords:** ESG, small-cap companies, industry specifics in ESG, sustainability challenges.

## The Relevance of SME ESG Rating Methodology Development

Canada has also conducted extensive research on the economic impact of social enterprises, with studies indicating that social enterprises are more likely to create jobs and generate revenue than traditional businesses. Social enterprises in Canada are also more likely to prioritize social and

environmental impact over financial returns, and are more likely to collaborate with other organizations to achieve their goals.

These findings have informed the development of policies and programs that support the growth and sustainability of social enterprises in Canada (Dacin, 2010).

In recent years, social entrepreneurship has emerged as an important force for driving economic growth and development while also addressing social and environmental challenges. Social entrepreneurs are individuals who use innovative approaches to create sustainable solutions to societal problems, such as poverty, inequality, and environmental degradation.

They work in collaboration with stakeholders, including government agencies, non-profit organizations, and private sector companies, to identify and implement solutions that have a positive impact on society (Dacin, 2010).

The analysis of social entrepreneurship from the point of view of economic sustainability has highlighted the importance of developing sustainable business models, managing costs effectively, innovating, building partnerships, measuring and evaluating impact, and advocating for supportive policy frameworks and institutional support.

These factors are critical in achieving economic sustainability in social entrepreneurship, as they enable social enterprises to generate revenue, maintain financial stability, and create positive social and environmental impact over the long term.

Many countries around the world have recognized the potential of social entrepreneurship to drive economic growth and development, and have implemented policies and programs to support the growth and sustainability of social enterprises.

These policies and programs have been informed by extensive research on the economic impact of social enterprises, highlighting the potential of social enterprises to create jobs, drive innovation, and promote sustainable development. The United Kingdom, Brazil, and Canada are just a few examples of countries that have implemented policies and programs to support social entrepreneurship and promote economic sustainability (Santos, 2012).

However, there is still much work to be done to support social entrepreneurship and promote economic sustainability on a global scale. Social entrepreneurs face many challenges, including limited access to funding, regulatory barriers, and a lack of recognition and support from traditional business and financial institutions. Addressing these challenges will require continued research, collaboration, and advocacy from all stakeholders, including social entrepreneurs themselves, governments, non-profit organizations, and private sector companies.

In addition, the COVID-19 pandemic has highlighted the importance of social entrepreneurship in promoting economic resilience and addressing global challenges. Social entrepreneurs have played a critical role in responding to the pandemic, developing innovative solutions to address healthcare, education, and economic challenges.

As we continue to navigate these challenging times, it is important to continue to support social entrepreneurship and to prioritize the economic sustainability of social enterprises, recognizing their critical role in promoting economic growth, social inclusion, and sustainable development.

In conclusion, social entrepreneurship has emerged as a powerful force for driving economic growth and development while also addressing social and environmental challenges.

Achieving economic sustainability in social entrepreneurship requires the development of sustainable business models, effective cost management, innovation, partnerships, measurement and evaluation, and supportive policy frameworks and institutional support. By continuing to support social entrepreneurship and prioritize economic sustainability, countries can create a more equitable and sustainable future for all (Santos, 2012).

## Conclusion

In conclusion, social entrepreneurship is a form of entrepreneurship that seeks to address social and environmental challenges while also generating profits. Economic sustainability is an important aspect of social entrepreneurship, as it refers to the ability of social enterprises to generate revenue and maintain financial stability over the long term.

The analysis of social entrepreneurship from the point of view of economic sustainability has identified key factors that contribute to the economic sustainability of social enterprises, including the development of sustainable business models, effective cost management, innovation, partnerships, measurement and evaluation, and policy frameworks and institutional support.

Countries around the world have recognized the potential of social entrepreneurship to drive economic growth and development, and have implemented policies and programs to support the growth and sustainability of social enterprises. These policies and programs have been informed by extensive research on the economic impact of social enterprises, highlighting the potential of social enterprises to create jobs, drive innovation, and promote sustainable development. By continuing to support social entrepreneurship and prioritize economic sustainability, countries can create a more equitable and sustainable future for all.

The analysis of social entrepreneurship from the point of view of economic sustainability is an ongoing area of research and policy development, as social entrepreneurs continue to innovate and address social and environmental challenges. The COVID-19 pandemic has highlighted the importance of social entrepreneurship in promoting economic resilience and addressing global challenges, further underscoring the need to prioritize economic sustainability in social entrepreneurship.

As we continue to navigate these challenging times, it is important to continue to support social entrepreneurship and to prioritize the economic sustainability of social enterprises, recognizing their critical role in promoting economic growth, social inclusion, and sustainable development.

## References

Dees, J. G., & Anderson, B. B. (2003). For-profit social ventures. California Management Review, 45(3), 35-51.

Mair, J., & Marti, I. (2006). Social entrepreneurship research: A source of explanation, prediction, and delight. Journal of World Business, 41(1), 36-44.

Nicholls, A. (2006). Social entrepreneurship: New models of sustainable social change. Oxford: Oxford University Press.

Peredo, A. M., & McLean, M. (2006). Social entrepreneurship: A critical review of the concept. Journal of World Business, 41(1), 56-65.

Schaltegger, S., & Wagner, M. (2011). Sustainable entrepreneurship and sustainability innovation: Categories and interactions. Business Strategy and the Environment, 20(4), 222-237.

Yunus, M., Moingeon, B., & Lehmann-Ortega, L. (2010). Building social business models: Lessons from the Grameen experience. Long Range Planning, 43(2-3), 308-325.

Zahra, S. A., Gedajlovic, E., Neubaum, D. O., & Shulman, J. M. (2009). A typology of social entrepreneurs: Motives, search processes and ethical challenges. Journal of Business Venturing, 24(5), 519-532.

Austin, J., Stevenson, H., & Wei-Skillern, J. (2006). Social and commercial entrepreneurship: Same, different, or both? Entrepreneurship Theory and Practice, 30(1), 1-22.

Bosma, N., Hessels, J., & Schutjens, V. (2012). Entrepreneurship and role models. Journal of Economic Psychology, 33(2), 410-424.

Chell, E. (2007). Social enterprise and entrepreneurship: Towards a convergent theory of the entrepreneurial process. International Small Business Journal, 25(1), 5-26.

Dacin, P. A., Dacin, M. T., & Matear, M. (2010). Social entrepreneurship: Why we don't need a new theory and how we move forward from here. Academy of Management Perspectives, 24(3), 37-57.

Santos, F. M. (2012). A positive theory of social entrepreneurship. Journal of Business Ethics, 111(3), 335-351.

# İnsan Resurslarının İdarə Edilməsində Yaranan Etik Problemlərin Müasir Vəziyyətinin Təhlili

**Könül Rəzzaqlı**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

rezzaqlikonul@gmail.com

## Xülasə

Bildiyimiz kimi, insanlar şəxsi həyatlarında və iş fəaliyyətlərində başqaları ilə ünsiyyət qurmalıdır. İnsanlar arasındakı münasibətləri qaydaya salmaq üçün etika qaydaları mühüm əhəmiyyət daşıyır. Hər müəssisədə bu münasibətlərin tənzimlənməsi üçün fərqli etika qaydaları mövcuddur. Bunlara dürüstlük, sədaqətlik, məsuliyyətli, güvənilən, ədalətli olmaq və s. daxildir. İnsanların şəxsi həyatlarında və ya iş fəaliyyətlərində bir sıra etik problemlər də meydana gəlir. Bu problemlərə ayrı-seçkilik, səhlənkarlıq, vəzifədən sui-istifadə, rüşvət və s.daxil etmək olar. Məhz bu məqalə həm Azərbaycanda, həm də xarici ölkələrdə əməkdaşların qarşılaşdıqları etik problemləri, zəif cəhətləri, nöqsanları, çatışmazlıqları özündə əks etdirir. Burada əsas məqsəd ölkəmizdə mövcud olan müəssisələrin rəhbər və işçilərinin fəaliyyət zamanı riayət etməli olduğu etik qaydaların müəyyənləşdirilməsi və bu sahədə yarana biləcək problemlərin aradan qaldırılmasından ibarətdir. Sistemli yanaşma, analiz, sintez, müqayisəli təhlil və s. metodlardan araşdırmalarda istifadə edilmişdir. İnformasiya bazası kimi etik qaydaların təkmilləşdirilməsi və etik problemlərə dair ədəbiyyatlardan, bu sahə ilə əlaqədar məqalələrdən və internet resurslarından istifadə edilmişdir.

**Açar sözlər:** etik problemlər, insan resurslarında problemlər, etika

## Abstract

As we know, people need to communicate with others in their personal life and work activities. The rules of ethics are important for regulating relations between people. Each institution has different ethics rules for regulating these relationships. These include honesty, loyalty, being responsible, reliable, fair, etc. includes. A number of ethical problems also arise in people's personal lives or business activities. These problems can include discrimination, negligence, abuse of power, bribery, etc. It is this article that reflects the ethical problems, weaknesses, shortcomings, shortcomings faced by employees both in Azerbaijan and in foreign countries. The main goal here is to determine the ethical rules that managers and employees of enterprises in our country must follow during their activities and to eliminate the problems that may arise in this field. Systematic approach, analysis, synthesis, comparative analysis, etc. methods were used in research. The literature on the improvement of ethical rules and ethical problems, articles related to this field and internet resources were used as the information base.

**Keywords:** ethical problems, problems in human resources, ethics

## Giriş

Bu gün biznes etikası təşkilatların fəaliyyətinin təmin olunmasında mühüm rol oynayır. Biznes etikası biznes fəaliyyətlərinin və biznes qərarlarının həyata keçirilməsində işçilər, müştərilər, menecerlər və hökumət və digərlərinin fikirlərinin də nəzərə alınmasını təmin edir. Bunu etmək ədalətli oyun, hörmət və yüksək etik standartlara uyğunluq kimi daimi iş naminə çox zəruridir. Effektiv biznes idarəçiliyini yüksək etik standartlara malik insanlar olmadan təsəvvür etmək sadəcə təqdirəlayiqdir. Ölkədə təşkilatların fəaliyyətinin idarə olunmasında bir sıra maneələr mövcuddur ki, bu da biznes etikasının tətbiqində problemlərin yaranmasına səbəb olur.

Etik problemlərə yanlız ölkəmizdə deyil, dünyanın bir çox şirkətlərində də rast gəlinmişdir. Bunlara misal olaraq, Elf, Xerox, Worldcom, Enron kimi böyük şirkətlərdə yaranmış korrupsiya hallarını qeyd edə bilərik. 2001-ci ildə Enron şirkətində yaranmış hadisə onun iflası ilə nəticələnmişdir. Bunun əsas səbəbi, şirkət menecerinin xərcləri və kreditor borclarını gizlətməsi və bunu öz maraqları üçün istifadə etməsidir.

Hazırki dövrdə etik normaların gözlənilməsinin aktuallığını qoruması nə ilə bağlıdır?

Etik normaların pozulması təşkilatın öz fəlliyətini düzgün şəkildə təmin etməsinə, işçilərin idarə edilməsində çətinliklərin yaranmasına, təşkilatların rəqabət qabiliyyətinin azalmasına və s. səbəb olur. Etik normalara olan diqqətin artmasının əsas səbəbi ilk növbədə düzgün qərar qəbulunun həyata keçirilməsidir, əks halda bu həm şirkətə, həm də cəmiyyətə mənfi təsir göstərir. Digər bir səbəb, hər hadisəni və ya fəaliyyəti normalar əsasında tənzimləmənin mümkünsüzlüyüdür.

Burada əsas məqsəd ölkəmizdə mövcud olan müəssisələrin rəhbər və işçilərinin fəaliyyət zamanı riayət etməli olduğu etik qaydaların müəyyənləşdirilməsi və bu sahədə yarana biləcək problemlərin aradan qaldırılmasından ibarətdir. Tədqiqatın vəzifələrinə aşağıdakılar daxildir:

- ✓ İnsan resurslarının idarə edilməsində etik qaydaların müəyyənləşdirilməsi və təhlilinin həyata keçirilməsi;
- ✓ Rəhbərlərlə işçilər arasındakı etik münasibətlərin müəyyənləşdirilməsi;
- ✓ Yarana biləcək problemlərin əvvəlcədən müəyyənləşdirilməsi və qarşısının alınması üçün tədbirlərin görülməsi;
- ✓ İnsan resurslarının idarə edilməsində etikanın nəticələri və əsas istiqamətləri ilə əlaqədar təkliflərin və tövsiyələrin hazırlanması və s.

**Etikanın Mahiyyəti və İnsan Resurslarının İdarə Edilməsində Onun Rolu**

Etika, 2500 il bundan əvvəl yaranmış və dəyərləri, fəaliyyətləri, qaydaları etik baxımdan icra edən fəlsəfənin bir qoludur. Etika bizim dilimizə müxtəlif dillərdən keçmişdir. Yunanca Ethos sözündən meydana gəlmiş xarakter, ərəbcə Xulq sözündən meydana gəlmiş əxlaq, latınca isə Morality sözündən meydana gəlmiş davranış mənasını ifadə edir. Etika, cəmiyyətdə insanların yaxşı olduğunu düşündükləri və əməl etməli olduqaları davranış qaydaları hesab edilir. Bu izahdan da başa düşüldüyü kimi etika cəmiyyəti yaradan, insanların davranışlarını və hərəkətlərini bu cəmiyyətə uyğun şəkildə qurulmasını təmin edən qaydalar toplusudur. İş etikası bərabər iş imkanının yaradılması, bir-birinə köməklik etmək, ətraf mühitlə əlaqədə olmaq deməkdir. İşçilər arasında əmək haqqının düzgün bölüşdürülməsi, istehlakçılara doğru məlumatların verilməsi də onun əsas tərkib hissəsidir. İş etikası - doğruluq,ədalətlilik,əməkdaşlıq və inam kimi dəyərlərə əsaslanan, insanlara yol göstərən münasibətləri ifadə edir. Bu anlayış etik qaydaların müəssisə və təşkilat daxilinə həyata keçirilməsini özündə əks etdirir və hansı fəaliyyətin doğru olduğunu, hansının isə yanlış olduğunu müəyyənləşdirməyə kömək edir. (Bayram, 2005)

Etikanın biznes fəaliyyətində nə üçün əhəmiyyətli olduğuna aşağıdakılar daxildir:

- ✓ Qloballaşma nəticəsində müəssisələrdə fərqli mədəniyyətlərə sahib olan insanların da çalışmasına səbəb oldu ki, bu da öz növbəsində bir sıra problemlər yaratdı. Belə bir mühitdə fəaliyyət göstərən insanlar bir-birini başa düşməli və onların mədəniyyətlərinə da hörmət etməlidirlər.
- ✓ Əhali sayının artması nəticəsində yeni iş yerlərinə olan ehtiyac da artmış oldu. Yeni iş yerlərinin yaradılmaması işsizliyin və yoxsulluğun artmasına gətirib çıxaracaq ki, bu da insanlar arasında çaxnaşmaların yaranmasına səbəb olacaq.

- ✓ Biznes fəaliyyətində mühüm əhəmiyyət kəsb edən məqamlardan biri də insan haqlarına və demokratiyaya olan tələbin artmasıdır. Bu zaman iş fəaliyyətində dininə, cinsinə, dilinə, mənsubiyyətinə görə insanlar arasında ayrı-seçkilik yaradılmamalıdır.
- ✓ Ətraf mühitin təmizliyinin qorunmaması ekoloji baxımdan həssas iş fəaliyyətinin əhəmiyyətini artırmışdır.
- ✓ Korrupsiyanın qarşısının alınması məqsədi ilə tədbirlərin görülməsi təmiz iqtisadi həyatın formalaşdırılmasında mühüm əhəmiyyət daşıyır. (Doğan, 2009)

Son iyirmi il ərzində idarəetmə etikasının tətbiqinin bir sıra səbəbləri formalaşmışdır. Birinci səbəb, sosial məsuliyyətlə əlaqəlidir, bu da iş fəaliyyəti zamanı etik qaydaların ictimai təzyiqlərə əsasən həyata keçirilməsini təmin edir. İkinci səbəb, yaxşı etikaının yaxşı iş fəaliyyətinə oxşadığının başa düşülməsidir. Üçüncü səbəb, iş fəaliyyətində yarana biləcək problemləri müəyyənləşdirmək və onları aradan qaldırmaq üçün iş etikası olduqca vacibdir. Dördüncü səbəb, menecerler iş etikasını biznes fəaliyyətində üstünlüyə sahib olmağın nəticəsi hesab edirlər. Beşinci səbəb, iş fəaliyyətində fərqli qruplar arasında maraqların tarazlığının qorunub saxlanılmasıdır. Çünki, iş etikası belə qruplar arasındakı məsuliyyətə, eyni zamanda fərdi və iş fəaliyyətində azadlığa əsaslanır. (Karagöz, 2018)

İnsan resurslarının idarə edilməsində həm rəhbərlər, həm də işçilərin fəaliyyətlərində mühüm əhəmiyyət kəsb edən bir sıra etik prinsiplər mövcuddur. Etik prinsiplər – müəssisənin etika anlayışını, işçilərin və fərqli qrupların məsuliyyətini müəyyənləşdirmək üçün istifadə olunan rəhbər prinsiplərdir. Bunlara aşağıdakılar daxildir:

- ✓ Ədalətlilik – İşçilər arasında tapşırıqlarım, vəzifələrin düzgün və ədalətli şəkildə bölüşdürülməsini təmin edir.
- ✓ Bərabərlilik – Ədalət prinsipinə bənzəyir. Xidmətlərin işçilər arasında bərabər paylanmasını təmin edir.
- ✓ Dürüstlük – Başqaları ilə ünsiyyətdə olarkan dürüst olmağı təmin edir.
- ✓ Məsuliyyətin dərk edilməsi – Rəhbərlərin işçilər qarşısında olan məsuliyyətinin icra olunmasını təmin edir.
- ✓ İnsan hüquqalarına sadiqlik – İşçilərin hüquqlarının müəyyənləşdirilməsi və onlara hörmət edilməsini təmin edir.
- ✓ Qənaətlilik – resursların səmərəli şəkildə istifadə olunmasını təmin edir.
- ✓ Əmək haqqının ödənilməsi – İşçilər müəyyən əmək haqqı çərcivəsində müəssisədə çalışırlar. Rəhbərlər də buna görə vaxtı-vaxtında onların əmək haqqını ödəməlidirlər. (Becerikli, 2013)

Etik qaydalar yalnız işçilər üçün formalaşdırılmamışdır. Müəssisələrin də işçilər qarşısında bir sıra etik məsuliyyəti vardır və bunlara aşağıdakılar aid edilir:

- İşçilərə əmək haqqlarını ədalətli şəkildə ödəmək
- İşçilərin hüquqlarına hörmət etmək
- İşçilərə azad söz hüququ vermək
- İşçilərin şəxsi həyatlarına müdaxilə etməmək
- İşçilərin təhlükəsizliyini və sağlamlığını təmin etmək, iş prosesinin keyfiyyətini artırmaq və s. (Becerikli, 2013)

**İşgüzar Təşkilatlarda İnsan Resurlarının İdarə Edilməsində Yarana Biləcək Etik Problemlərin**

Müəssisələrin fəaliyyətinin düzgün şəkildə qurulması üçün etikaya olan inamın formalaşdırılması və onun qorunması çox mühümdür. İş mühitində müxtəlif fikirlərə və məqsədlərə sahib olan insanlar tərəfindən edilən davranışlar da müxtəlifdir. Belə davranışlardan biri də qeyri-etik davranışlardır. Hazırki dövrdə müəssisələrdə qeyri-etik davranışların tez-tez meydana gəlməsi, ətraf mühitin, istehlakçıların həmin müəssisələrə daha az müraciət etməsinə səbəb olmuşdur. Qeyri-etik davranışlar cəmiyyət üzvləri tərəfindən qanuni hesab edilməyən, cəmiyyət üçüb mühüm əhəmiyyət kəsb edən qanunlara və normalara məhəl qoyulmadan zərərli nəticələrə səbəb olan davranışları əks etdirir. (Karagöz, 2018) Belə davranışlar müəssisə daxilində münaqişələrə səbəb olur, onun mədəniyyətini zəiflədir, işçilərin inamının, motivasiyasının və məhsuldarlığının azalmasına gətirib çıxarır. Eyni zamanda bu davranışlar müəssisənin uğuruna və səmərəliliyinə də təsir edir. Qeyri-etik davranış dedikdə, sosial normalar tərəfindən yanlış olduğu düşünülən davranışlar nəzərdə tutulur. Başqa sözlə, qeyri-etik davranışlar, qeyri-qanunu və əxlaqi hesab edilməyən, insanlar üçün zərərli nəticələri olan davranışlara deyilir.

Texnologiyanın inkişaf etməsi, müəssisələr arasında olan rəqabətin artması, müəssisə rəhbərlərinin daha çox mənfəət əldə etmək istəməsi qeyri-etik davranışların miqyasının genişlənməsinə səbəb olmuşdur. Buna görə də qeyri-etik davranışlarının qruplaşdırılması və ya sinifləndirilməsi mühüm hesab edilir. Qeyri-etik davranışlar 2 əsas qrupa bölünür:

1. Sosial-mədəni və iqtisadi əsaslı qeyri-etik davranışlar;
2. Psixoloji qeyri-etik davranışlar.

Belə davranışlar insanların doğulduğu mühit ilə, sosial və mədəni sturukturu ilə və ya iqtisadi strukuturu ilə əlaqəli ola bilər. Bu davranışlar içərisində sosial-mədəni olan qeyri-etik davranışlara daha çox rast gəlinir. Sosial-mədəni və iqtisadi əsaslı qeyri-etik davranışların tərkibinə ayri-seçkilik, favoritimz, korrupsiya, istismar, rüşvət, mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə və s. daxildir.

Ayrı-seçkilik – Qərəzli şəkildə qərarlar qəbul edilən zaman yaranan anlayışdır. Qərəzli münasibətlər adətən paxıllıq, yaltaqlıq, gözü götürməməzlik və s. səbəbindən yarana bilər. (Karagöz, 2018) Qərəzli münasibətin aşağıdakı formaları vardır:

- ✓ Cinsi əlamətinə;
- ✓ İrqi əlamətinə;
- ✓ Yaş əlamətinə;
- ✓ Dini əlamətinə;
- ✓ Əlilliyə;
- ✓ Hər hansı bir sosial-mədəni qrupun mənsubu olmasına görə və s. (Səfərəliyeva R., 2004)

Belə hallar iş fəaliyyəti ilə yanaşı, işə qəbul, işdən çıxarılma, vəzifəyə təyin olunma və s. zamanı da meydana gəlir.

Favoritizm – Qohumluq münasibətləri, rəsmi olmayan və ya emosional təsirlər nəticəsində insanlara müəyyən faydaların verilməsi ilə əlaqədar davranışlardır.

Korrupsiya – Bu davranışın əsas səbəbi işçilərin özlər üçün fayda əldə etmək istəyidir. Korrupsiya müəyyən imtiyazlar üçün vəzifədən sui-istifadə etmək kimi də başa düşülə bilər. Tələb

olunan və ya olunmayan fəaliyyətlərin sürətinin artırılması və ya azaldılması, şəxsi istəklərə görə qaydaların pozulması, maddi, mənəvi, şəxsi və siyasi gəlirlər və s. səbəblərdən yarana bilər.

İstismar – Gəlir əldə etmək üçün obyektlərin və insanların ədalətsiz şəkildə istifadə olunmasıdır.

Rüşvət – İşçilərin öz vəzifələrindən istifadə etməsi ilə, müəyyən müəssisə və şəxslərə fərqli şəkildə münasibəti əsasında qazanc əldə olunmasına əsaslanır. Çoxmillətli müəssisələrdə ən çox rast gəlinən etik problemlər rüşvətxorluq və korrupsiyadır. Korrupsiya rüşvət alınması və ya qadağa olunmuş fəaliyyətlərin icrası zamanı meydana gəlir. Rüşvət isə müəyyən məlumatlara və üstünlüklərə sahib olmaq üçün əldə edilən ödənişlər və ya hədiyyələrdir.

Mənimsəmə – İşçilərin müəssisənin əmlakından və ya pulundan öz ehtiyacları üçün istifadəsinə əsaslanır. Rüşvətdən fərqi odur ki, tərəflər arasında mübadilə və fayda yoxdur.

Vəzifə səlahiyyətlərindən sui-istifadə – Həm fayda, həm də imtiyaz əldə etmək üçün istidafə edilir.Bu davranış şəxslərin, qrupların və müəssisələrin zərər çəkməsinə səbəb olur. (Karagöz, 2018)

Bütün edilən davranışlar psixoloji və ya şəxsi xüsusiyyətlərlə də əlaqədardır. Psixoloji qeyri-etik davranışların tərkibinə mobbinq, eqoizm, dediqodu, təhqir, pis vərdişlər, doqmatik münasibət və s. daxildir.

Mobbinq – Yuxarı vəzifəli şəxslərin eyni və ya aşağı vəzifəli şəxslərə davamlı şəkildə etdikləri alçaldılma, təhdid, hədələmə və şiddət kimi davranışlardır.

Eqoizim – Şəxsin digər insanların faydasına fikir vermədən, hətta onlara zərər yetirməklə özünə fayda əldə etmək və öz ehtiyyaclarını qarşılamaqdır. Eqoist insanlar hər şeyin özlərində olmasını istəyir və təkcə özlərini fikirləşirlər. Belə insanların digər insanların şəxsiyyətinə və onların dəyərlərinə hörmət etmirlər.

Dediqodu – Orada olmaya şəxsin mənfi xüsusiyyətləri barəsində danişmaqla əlaqəli davranışdır. İş fəaliyyətində tez-tez insanlar çatışmazlıqlarını və uğursuzluqlarını gündəmdən salmaq üçün digər insanlar barəsində öz əlavələrini və şərhlərini edərək danışırlar. Bu cür davranışlar iş mühitində insanlar arasındakı münasibətlərin pisləşməsinə, insanların bir-birinə olan etibar və hörmətinin azalmasına, enerji və vaxt itkisinə səbəb olur.

Təhqir – Cəmiyyətdə hər hansı bir şəxsin kariyerasına zərər vurmaq, onu alçaltmaq məqsədi ilə edilən psixoloji hücum növüdür.Bu davranışlarla insanlar güclərini və üstünlüklərini sübut etdiklərini düşünürlər.

Pis vərdişlər – Vərdiş dedikdə, təkrar-təkrar edilən, eyni mühitdə inkişaf edən, şüurlu formada qaçınılmayan duyğularla əlaqəli davranışlardır. Siqaret, spirtli içkilər, oğurluq, yalan kimi pis vərdişlər həm insana, həm də müəssisəyə mənfi təsir edir. Bunlar işlərin gecikməsinə və düzgün qərar qəbuluna mənfi təsir etdiyi üçün qeyri-etik hesab edilir.

Doqmatik münasibət – Doqmatizm hazırki dövrdə doğru olmasa belə hər hansı bir inanca bağlılıq kimi başa düşülür. Belə davranış insanları hər hansı bir dinə, cəmiyyətə, irqə, millətə və s. düşmən olmağa səbəb ola bilər. Doqmatik insanlar yenilikləri və dəyişiklikləri qəbul etmək istəmirlər. Belə davranışlar isə müəssisələrin inkişafına və formalaşmasına maneə olur. (Karagöz, 2018)

Qeyd etdiyimiz qruplarla yanaşı, etik problemləri 3 qrupa ayırmaq olar. Bunlara müəssisələr üçün olan problemlər, menecerlər və rəhbərlər üçün problemlər, əməkdaşlar üçün olan problemlər daxildir. Müəssisələr üçün olan problemlərə aşağıdakılar daxildir:

- ✓ Rəqib müəssisələr barəsində saxta məlumatların paylaşılması;
- ✓ Vergidən yayınma hallarının baş verməsi;
- ✓ Rəqabət mühitinin ədalətsiz yaradılması;
- ✓ Müştəri hüquqlarının pozulması;
- ✓ Qiymətlərin ədalətsiz formada hazırlanması;
- ✓ Sağlamlığa mənfi təsir edən məhsulların hazırlanması;
- ✓ Ətraf mühitin müəssisələr tərəfindən çirkləndirilməsi;
- ✓ İşçilərə minimum əmək haqqından az maaş verilməsi;
- ✓ İşçilərin sığortasının olmaması;
- ✓ İşçilərə təhlükəsiz çalışması üçün şəraitin yaradılmaması və s

Menecer və rəhbərlər üçün olan problemlərə aşağıdakılar daxildir:

- ✓ İşçilər arasında bərabərliyi qorunmaması;
- ✓ İşçilərin müəssisə üçün deyil, digər şəxsi işlərdə də çalışmaya məcbur edilməsi;
- ✓ Müəssisə gəlirinin lazımsız şəkildə istifadə edilməsi;
- ✓ Rəqiblərə müəssisə barəsində məlumatların verilməsi;
- ✓ Saxta sənədlərin hazırlanması və s.

Əməkdaşlar üçün olan problemlərə aşağıdakılar daxildir:

- ✓ Şəxsi işlərində müəssisə avadanlıqlarından, alətlərində istifadə etmək;
- ✓ İş saatından daha gec işə gəlinməsi və ya işdən tez gedilməsi;
- ✓ Verilən tapşırıqları gec yerinə yetirilməsi;
- ✓ Müştərilərlə düzgün münasibətin yaradılmaması;
- ✓ Digər müəssisələrə iş barəsində məlumatların verilməsi;
- ✓ Hər hansı bir səhvin gizlədilməsi;
- ✓ İş müddətində şəxsi işlərin yerinə yetirilməsi və s. (Doğan, 2009)

Beynəlxalq səviyyədə müəyyənləşdirilmiş etik problemləri 5 qrupa bölmək olar. Bunlara aşağıdakılar daxildir:

1. Korrupsiya – Kiməsə rüşvət vermək və ya kimdənsə rüşvət almaqla əlaqəli problemlərdir;
2. Sənaye casusluğu – Rəqib müəssisələrin məlumatlarını öyrənmək və onları istifadə etməklə əlaqəli problemlərdir;
3. Ətraf mühitlə əlaqəli problemlər – Ölkədə müəssisələrin ətraf mühitin çirklənməsinin qarşısını almağa çalışdığı halda beynəlxalq müəssisələrin bunu etməməsi ilə əlaqəli problemlərdir;
4. İşçilərlə əlaqəli problemlər – İnkişaf etməmiş ölkələr və çoxmillətli müəssisələr işçilərin hüquqlarını pozaraq onlara müəyyən edilmiş əmək haqqından aşağı ödənişin verilməsi ilə əlaqəli problemlərdir;
5. Müştərilərlə əlaqəli problemlər – İstehsal olunmuş məhsulların xüsusiyyətləri barəsində məlumatların verilməməsi, müştərilərin sağlamlığı üçün olan məhsulların yüksək qiymətə satılması ilə əlaqəli problemlərdir. (Türkoğlu, 2019)

Müəssisələr vardır ki, onlar öz maraqları üçün qeyri-etik olan davranışları dəstəkləyirlər. Həmin müəssisələr cəmiyyətə və ətraf mühitə olan vəzifələrini icra etmirlər. Onların əsas məqsədi

gəlir əldə etməkdir. Qeyri-etik davranışları dəstəkləyən müəssisələr üçün ortaq olan xüsusiyyətlərə aşağıdakılar daxildir:

- ✓ Belə müəssisələr uzunmüddətli planlar üçün qısamüddətli gəlir əldə etməyə mühüm əhəmiyyət verirlər;
- ✓ Müəssisənin etika qaydalarının yaradılmasını mühüm hesab edirlər və ya ona qarşı olurlar;
- ✓ Etik problemləri həll etmək üçün tədbirlər etmirlər;
- ✓ Maliyyə itkisinə gətirib çıxara biləcək məsələlərə diqqət yetirmirlər;
- ✓ Belə müəssisələr hətta işçilər üçün etik problemlər yarada biləcək mühitin yaradılmasına imkan yaradırlar;
- ✓ Belə problemləri həll etməsi üçün hüquq şöbəsinə müraciət edirlər;
- ✓ İşçilərinə və müştərilərinə etdikləri davranışlar fərqli olur;
- ✓ Qiymətləndirmə standartlarını ədalətsiz şəkildə formalaşdırırlar;
- ✓ İşçilərini şəxsi etikadan uzaqlaşmağa təşviq edirlər və s. (Kınran, 2006)

Bunlarla yanaşı, etik problemlərin meydana gəlməsinin bir sıra səbəbləri də mövcuddur. Bunlardan biri din hesab edilir. Dinlər arasında olan fərqlilik insanların həm şəxsi, həm də iş həyatında doğru və yanlışlar arasında müxtəlifliklərin yaranmasına səbəb olmuşdur. Buna görə də iş mühitində münaqişələr yaranır.

Digər bir səbəb təhlükəsizliyin və sağlamlığın təmin olunması ilə bağlı məsələlərdir. Bütün müəssisələr işçilərinin təhlükəsiz mühitdə çalışmasına şərait yaratmalı və onların sağlamlığının qorunmasına köməklik etməlidir. Xüsusi ilə sənaye sahələrində çalışan işçilər çox sürətli və səsli maşınlardan, yüksək temperaturlu avadanlıqlardan və kimyəvi birləşmələrdən istifadə edirlər.

Bunlar da işçilərin sağlamlığına və təhlükəsiz çalışmasına mənfi təsir göstərə bilər. Buna görə də belə halların qarşısını almaq üçün xüsusi tədbirlər görülməlidir.

Etik problemlərin yaranmasının digər səbəbi düzgün əlaqə və ya ünsiyyətin qurulmamasıdır. Müəssisə daxilində əməkdaşlar arasındakı əlaqələr çox və güclü olduqda belə problemlər azalmağa başlayır. Bu əlaqələr gücləndikcə əməkdaşlar arasındakı inam və empatiya artmağa başlayır. (İlke Oruç, 2011)

Digər bir səbəb müəssisənin imicinin qorunması üçün istehlakçılara səhv və ya yalan məlumatların verilməsidir. Hazırki dövr informasiya əsridir və istehlakçılar hər şey barəsində məlumatlıdırlar. Müəssisələr istehlakçılarının rəqib müəssisələr getməməsi üçün məhsul və xidmətləri barəsində yalan məlumatlar verə bilirlər. Bununla da müştərilərini itirmədiklərini düşünürlər. Lakin bu yalanların ortaya çıxması həm müştərilərin müəssisəyə olan inamını yox edir, həm də müəssisə öz imicinə zərər yetirmiş olur. (Karagöz, 2018)

İş fəaliyyətində etik problemlərə yönəlmənin əsas səbəbi müasir dövrdəki 2 qlobal hadisə ilə bağlıdır:

- ✓ Korporativlik səviyyəsinin yüksəlməsi;
- ✓ İnformasiya inqilabı.

Korporasiyaların səviyyəsinin yüksəlməsi dedikdə, müəssisələrin böyüməsi, quruluşunun genişlənməsi, əməkdaşların sayının artması və s. başa düşülür. Bunlar isə müəssisədə qərarların qəbul edilməsində ortaq rəyin əldə edilməsi, əməkdaşlar arasındakı münaqişələrin aradan qaldırılmasında çətinliklər yaradır.

İkinci böyük dəyişiklik informasiya inqilabı hesab edilir. İnformasiyalarla çalışmağa imkan verən komputerlərin yaradılması müəssisələrin fəaliyyətinə sənaye inqilabından daha böyük təsir etmişdir. (Məmmədova, 2015)

Etik problemlərin yaranmasına bir sıra amillər təsir edir. Bu amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Şəxsi amillər;
2. Təşkilati amillər;
3. Fəaliyyət amilləri;
4. Ətraf mühit amilləri.

Şəxsi amillərin tərkibinə dəyərlər, təcrübəsi, vəzifəsi, demoqrafik xüsusiyyətləri və s. daxildir. Şəxslərin dəyərləri, təcrübələri, vəzifələri kimi xüsusiyyətləri davranışın formalaşmasına səbəb olur. Vəzifənin səviyyəsi də etik problemlərə səbəb olur. KamHonun fikrinə görə aşağı vəzifəli şəxslər yüksək vəzifəli şəxslərdən fərqli olaraq daha az etik problemlərin yaranmasına səbəb olurlar. Demoqrafik xüsusiyyətlər barəsində fərqli fikirlər mövcuddur. Bəzi mütəxəssislər cinsin etikaya təsir etmədiyini bildirdiyi halda, digərləri kişilərin qadınlara nisbətən daha çox etik qaydalara əməl etdiklərini qeyd etmişdirlər. Yaşın da etikaya təsiri olduqca böyükdür. Yaş artdıqca şəxslərin etika qaydalarına uyğunluq səviyyəsinin artdığı düşünülür.

Təşkilati amillərin tərkibinə müəssisənin tarixi, liderləri, dəyərləri, mədəniyyəti, etika qaydaları, strukturu, rəqabət vəziyyəti, mükafat sistemi, nəzarət sistemi və s. daxildir. Müəssisə liderləri və ya qurucuları işçilər üçün nümunəvi hesab edilən şəxslərdir. Etikaya mühüm əhəmiyyət verən rəhbərlər müəssisə daxilində etika qaydalarını formalaşdırılmasına üstünlük verirlər. Mütəxəssislər etik problemlərin yaranmasında rəqabətin böyük təsiri olduğunu qeyd edirlər. Onların fikrinə görə rəqabətin artması etik problemlərin də artmasına səbəb olur.

Fəaliyyət amillərinin tərkibinə boz sahələr, etik pozuntuların olması və s. daxildir. Bəzi fəaliyyətlər etik pozuntular hesab edilsə də, elə fəaliyyətlər olur ki, onlartam etik pozuntu hesab edilmədiyi üçün boz sahələrin tərkibinə daxil edilir. Buna misal olaraq, işçilərə mobbinqin tətbiq edilməsi etik pozuntu hesab edilsə də, işçilərə dəyər verilməməsi boz sahələrə aid olduğunu qeyd edə bilərik.

Ətraf mühit amillərinin tərkibinə iqtisadi, siyasi və digər ətraf mühit amilləri daxildir. İqtisadi mühit amillərinə rəqabətin tarazlığının təmin edilməsi, onun sürəti və dərəcəsi təsir edir. Rəqabətin tarazlığının təmin edilməsi rəqib müəssisələrlə müəyyənləşdirilmiş qaydalar çərçivəsində fəaliyyət etməyə kömək edir. Bu qaydaların yaradılmaması etik problemlərin artmasına gətirib çıxarır. Siyasi mühit amillərinin əsasını dövlətin müəssisələrə olan təsiri təşkil edir. Dövlətdə şəffaflığın təmin edilməsi, rəqabətin tarazlığının saxlanılması, nəzarət sisteminin təkmilləşdirilməsi etik problemlərin azalmasına səbəb olur. Digər mühit amillərinə isə məhkəmənin, qeyri-hökümət təşkilatlarının, medianın təsiri aid edilir. Məhkəmə orqanlarında qanuni olmayan hərəkətlər bitməsi üçün tədbirlərin görülməsi etik problemləri azaldacaqdır. Mətbuat isə yaranmış hadisələrin cəmiyyətə çatdırılmasında köməklik edir. (Türkoğlu, 2019)

Fərqli qruplar arasında toqquşmaların olması, müəssisənin şəxsi məlumatlarının yayılması, müəssisə qaydalarının düzgün şəkildə edilməməsi, ətraf mühitin təmizliyinin qorunmaması, rüşvət, ayrı-seçkili və s. İRİE-də yaranan etik problemlərin bir hissəsidir. İş etikası fərqli qruplar arasında düzgün münasibətlərin yaradılması, müəssisənin imicinin qorunması, qruplar arasında davranışların qaydaya salınması, məhsuldarlığın artırılması üçün olduqca vacibdir. Etika olmadıqda, qruplar

arasındakı münasibətlər gərginləşəcək, resursların vaxtında və davamlı şəkildə əldə edilməsi mümkünsüzləşəcək, məhsul və ya xidməti əldə edənlər alıcı olmaqdan imtina edəcəklər. Bu zaman müəssisənin sifarişləri və satışları azalacaq bu da mənfəətin azalmasına səbəb olacaq. Bundan əlavə, etik hesab edilməyən davranışlar nəticəsində açılan məhkəmələr və təzminatların ödənilməsi müəssisənin fəaliyyətinə mənfi şəkildə təsir edəcəkdir. Nəticədə, etik hesab edilməyən davranışların qarşısının alınmaması müəssisə üçün baha başa gələcəkdir. (Başarır, 2006)

**Nəticə və Təkliflər**

Bu sahə ilə bağlı çoxlu sayda problemlərin olduğu və bunların həll edilməsi üçün müəssisələrdə dəyişikliklərin edilməsinin vacib olduğu müəyyənləşdirilmişdir. İnsan resurslarının idarə edilməsində yaranan etik problemlərin aradan qaldırılması və müəssisədə etikanın səviyyəsinin artırılması üçün aşağıdakı təkliflər və tövsiyyələr nəzərdə tutulmuşdur:

- ✓ Etik kodekslərin yaradılması – Müəssisə işçilərinin əməl etməli olduqları qaydalar və dəyərlər sistemidir. Bu kodekslər məqsədlərin müəyyənləşdirilməsi, etik mühitin yaradılması, qərarların qəbulu və s. fəaliyyətlər əsasında hazırlanılır. Həmin qaydalar işçilərə çap edilmiş formada təqdim olunur.
- ✓ Etika kartlarının yaradılması – Bu kartlarda etika qaydaları və tövsiyyələri, etik məsələlərin həll edilməsi üçün məsləhətçinin adı və telefonu əks olunur. Bu kartlar Yapon müəssisələrində də istifadə olunur.
- ✓ Etika üzrə komitələrin formalaşdırılması – Bəzi müəssisələr gündəlik fəaliyyətlərin qiymətləndirilməsi məqsədi ilə belə komitələr yaradırlar və onların üzvləri yüksək vəzifəli şəxslər olur. Bəzi müəssisələr isə belə komitələr yaratmırlar. Bunun yerinə həmin müəssisələrdə etika üzrə mütəxəssis çalışır. Onun vəzifəsi etik məsələlərlə əlaqəli qərarları formalaşdırmaq, müəssisədə "sosial vicdan" funksiyasını icra etməkdir.
- ✓ Sosial təftişlərin həyata keçirilməsi – Bu sosial təsirlə bağlı hesabatların hazırlanması və qiymətləndirilməsi üçün yaradılmışdır. Belə hesabatlar müəssisənin sosial məsuliyyət səviyyəsinin müəyyənləşdirilməsinə kömək edir.
- ✓ Etik davranışın öyrədilməsi – Müəssisə işçilərinə etika qaydaları haqqında təlimlər keçirilə bilər. Bunun köməyi ilə işçilər müəssisənin etikasını mənimsəyirlər, bu isə etik problemlərə qarşı diqqəti artırır.
- ✓ Etik ekspertizanın həyata keçirilməsi – Bu müəssisənin fəaliyyətində rəhbərləri, müştəriləri, işçi heyətini və s. narahat edən, müəssisənin nüfuzuna təsir edən aspektlərin təhlilini əks etdirir. Bunun nəticəsində müəssisədə mütihin və mənəvi etibarın yüksəldilməsi, düzəliş edilməli olan fəaliyyətlərlə bağlı təkliflər edilir.
- ✓ Etik məsləhətləşmə - Etik qaydalarla əlaqəli problemlərin mürəkkəb və çətin olduğu və müəssisənin problemi həll edə bilmədiyi zaman tətbiq edilir. Bunun üçün kənardan etika üzrə mütəxəssis dəvət olunur və s.

**Ədəbiyyat Siyahısı**


Başarır, Ç. (2006). İnsan kaynaklari yönetiminde etkisel ilkelerin yerleştirilmesi ve bir uygulama . Balıkesir.

Bayram, S. (2005). İşletme etiği ve çalışanların şirketlerinde mevcut olan etik uygulamalara ilişkin algılaıının ölçümüne yönelik bir araştirma . Bursa.

Becerikli, S. (2013). Etika və insan kaynakları ilişkisinin analizi. Bursa.

Doğan, N. (2009). İş etiği ve işletmelerde etik çöküş.

Oruç İ ve Tonus Z. İnsan kaynakları yönetiminde etik dışı davranışlar ve yönetimi: bir işletmenin personel yönetmeliği içerik analizi.

Karagöz, A. (2018). Örgüt yanlısı etik olmayan davranişlar ile bağlamsal performans arasındakı ilişkide liderin algılanan etik inanının moderatör rolü. Nevşehir.

Kınran, Ş. B. (2006). İş ahlaki ve etik değerlerin türk işletmeciliğindeki yeri. İstanbul.

Məmmədova, G. (2015). Biznes etikasında əsas konsepsiyaların işlənilməsi və tətbiqi. Bakı.

Səfərəliyeva R., Məmmədov S., Qaziyev V. (2004). İşgüzar Etika. Bakı.

Türkoğlu, M. (2019). İnsan kaynaklari yönetiminde etik dişi davranişlar ve etik ikilemler üzerine bir araştirma. Sakarya.

# Azərbaycanda Əsas Makroiqtisadi Tənzim Vasitəsi Kimi Dövlətin Fiskal Siyasətinin Həyata Keçirilməsi İstiqamətləri

**Məmmədov İlkin**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**ilk2nmammadov@gmail.com**

## Xülasə

Tədqiqatın əsas məqsədi milli iqtisadiyyatımızda iqtisadi əsaslara söykənən büdcə-vergi siyasətinin optimal formasını özündə birləşdirən iqtisadi model vəya buna yaxın Azərbaycana xas iqtisadi siyasəti formalaşdırmağa xidmət edən siyasəti müəyyən etməkdir. Büdcə-vergi siyasəti xərclərin differensial bölgüsü və bu siyasətin tətbiq edilməsi zamanı optimal vergi yükünü özündə xarakterizə edən tənzim mexanizmidir. Bu alətləri özündə cəmləşdirən təməl iqtisadiyyatın bir hissəsi kimi Azərbaycanın dövlət büdcəsinin formalaşdırılması, büdcəyə köçürmələr, vergi siyasəsitin hansı səviyyəsinin vəya formasının tətbiqinin araşdırılması, Azərbaycan Dövlət Neft Fondundan köçürmələri özündə cəmləşdirən təhlillərə üstünlük verilmişdir.

Dövlətin iqtisadiyyatdakı mövqeyinin təhlili, büdcədən maliyyələşmənin hansı səviyyədə olmasının, iş yerlərinin yaradılmasının iqtisadi artımdakı payının qənaətbəxş etməsi araşdırılıb nəticə şəklində vurğulanmış, həmçinin iqtisadiyyatın şaxələndirilməsinin optimal verginin ümumi həcmindən aslılıq haqqında təhlil aparılmışdır. İqtisadiyyatımızın formlaşdırılması üçün neftin qiymətindən asılılıq və bu dövrdə səmərəlilik üçün atılmalı olan addımlardan danışılmışdır.

Məqalənin hazırlanması zamanı mövcud başlıqda hər sektor üzrə ümumiləşdirmə aparıla bilər, lakin mövcud sahələrin uyğunluq səviyyəsində müəyyən fiskal əsasların ifadə olunmasında çətinliklər yarada bilər. Bundan başqa tədqiqat işində səmərəlilik və gələcək tədqiqatlar üçün başlanğıc üçün tədqiqatçılara stimul verə bilər. Nəticəyönümlülük baxımından isə, fiskal siyasətin dövlət orqanlarının siyasətinin formalaşdırılmasında öz töhfəsini verir.

**Açar sözlər:** Büdcə-vergi siyasəti, vahid vergi sistemi,büdcə gəlirləri,milli iqtisadiyyat

## Summary

The main goal of the research is to determine the economic model that includes the optimal form of the fiscal policy based on economic principles in our national economy, or the policy that serves to form the economic policy specific to Azerbaijan. Budget-tax policy is a regulatory mechanism that characterizes the differential distribution of expenses and the optimal tax burden during the implementation of this policy. As a part of the basic economy that includes these tools, the formation of the state budget of Azerbaijan, transfers to the budget, the investigation of what level or form of tax policy is applied, and the analyzes that include transfers from the State Oil Fund of Azerbaijan were preferred.

The analysis of the state's position in the economy, the level of funding from the budget, the satisfactory share of job creation in economic growth was investigated and highlighted as a result, and the dependence of the diversification of the economy on the optimal total amount of taxes was analyzed. The dependence on the price of oil for the formation of our economy and the steps to be taken for efficiency in this period were discussed.

During the preparation of the article, a generalization can be made for each sector in the existing title, but it may cause difficulties in expressing certain fiscal bases at the level of compatibility of the existing areas. In addition, it can provide incentives to researchers for efficiency in research work and initiation for future research. From the point of view of result-orientedness, it contributes to the formation of the policy of the state bodies of the fiscal policy.

**Keywords:** Fiscal policy, unified tax system, budget revenues, national economy

## Giriş

Milli iqtisadiyyatın rəqabətə davamlı və davamlı artımının əsas amillərindən biri səmərəli vergi sistemidir. Azərbaycanda 1990-cı illərdən başlayaraq həm tənzimləyici, həm də fiskal funksiyaları yerinə yetirən səmərəli vergi sisteminin yaradılması istiqamətində görülən tədbirləri nəzərə alsaq, bu məqsəd hələ heç bir məqamda özünü real faktorlarla doğrultmamışdır. Təxminən eyni dövrdə, ölkənin fiskal sabitliyi tam təmin olunmamışdır. Bunu həmin dövrün makroiqtisadi göstəricilərinə sistematik yanaşsaq asanlıqla müşahidə edə bilərik. O cümlədən, ölkədə vahid vergi sisteminin düzgün işləməsi və daha münasib vergi strukturunun işlənib hazırlanması ölkənin iqtisadi inkişafı qarşısında duran vəzifələrdən, öhdəliklərdən biridir (Qarayev, 2016). Bununla belə, dövlətin müvafiq vergi sistemi və onun üzərindəki səlahiyyəti hələ də dövlət səviyyəsində tam tənzimlənməyib. Bu gün bu problemlərin həll edilməli olduğunu söyləyən bir neçə məqalə vəya tezislər mövcuddur. Birincisi, dövlətin 1990-cı illərdən bəri diskresion fiskal ödənişlərə qarşı həssaslığının artmasıdır. Digər vacib məsələ isə vergi ödəmələrinin hansı məbləğdə olmasıdır ki, bu da problemin həllini daha da aktual edir.

Müasir dövrdə fiskal amillərin həllinə maraq artmaqda davam edir. Burada əsas diqqət Laffer əyrisinin xüsusiyyətlərinə yönəldilir. Vergi və vergi sektorunda aparılan elmi tədqiqatların təhlili istehsal və fiskal əyrilərin əyilməsinə təsirlər vasitəsilə fiskal tənzimləmənin effektivliyinin qiymətləndirilməsinə artan diqqəti üzə çıxarır (Musayev, 2015). Lakin bu tədqiqatların intensiv nəzəri mürəkkəbliyi və onların zəif praktiki tətbiqi tətbiqi hesablamaların aparılmasına imkan vermir.

Vergi və vergitutma sahəsində milli və beynəlxalq iqtisadçıların elmi-tədqiqat işlərində çox böyük birtərəflilik müşahidə olunur: ya tətbiq olunan faktiki hesablamalar nəzərə alınmadan nəzəri tərəfə üstünlük verilir, ya da nəzəri hesablamalar cari hesablamalar nəzərə alınmadan reallıq payı olçülmədən fəaliyyətinə üstünlük verilir. Bu sahənin iqtisadi tədqiqatlarının ümumi nəzəri və empirik istiqamətləri çərçivəsində müasir elmi ədəbiyyatın konvergensiyası yoxdur. Ona görə də əksər hallarda verilən işin üst-üstə düşməməsi bu problemin həllini daha aktual edir. Eyni zamanda, makroiqtisadi qərarlar praktikası dövlətin fiskal siyasətinin effektivliyini ölkənin biznes fəaliyyəti səviyyəsinə təsirləri baxımından ölçməyə imkan verən şərtləri yaratmağa çalışır. Bütün bunlar ölkənin mövcud büdcə və vergi sistemində fiskal siyasətin effektivliyini artırmağın real yollarının işlənib hazırlanmasından xəbər verir (Ələkbərov, 2016).

## Tədqiqatın Metodu

Tədqiqat zamanı mövzu üzrə bir çox elmi məqalələrdən istifadə edilmişdir, təhlildə yer verilmişdir. Tədqiqat metodologiyası kimi dissertasiya işində analiz,sistemli yanaşma, induksiya metodları, müqayisəli və iqtisadi təhlil, iqtisadi-statistik metodlardan istifadə edilmişdir.

## Analiz

İqtisadiyyat və siyasət elmində fiskal siyasət dövlət gəlirlərinin və xərclərinin köməyi ilə iqtisadiyyata təsir etmək üçün istifadə olunur. Əsas iqtisadi funksiyalar müxtəlif olsa da, fiskal siyasət anlayışı adətən sabitləşdirmə funksiyasına istinad edir və iqtisadi dövrün dalğalanmalarını azaltmaq məqsədi ilə vergilər və dövlət xərcləri ilə bağlı qərarlar və ya qaydalar toplusu kimi müəyyən edilə bilər.

Dövlət büdcəsi həm gəlirlərin (daxil olmaların) mənbələrini və məbləğini, həm də müəyyən bir müddət üçün (adətən bir il) gözlənilən xərclərini müəyyən edən bir şeydir. Büdcə gəlirləri birbaşa və dolayı vergilərdən, sosial sığorta ödənişlərindən, dövlət əmlakından və ya başqa ictimai xidmətlərdən əldə

edilən gəlirlərdən və ehtimal olunan müxtəlif təyinatlı gəlirdən ibarətdir. Xərclər müdafiə, polis, ədliyyə, təhsil, elm, iqtisadi dəstək, sosial təminat, səhiyyə, xarici siyasət, inkişafa yardım və s. sabitləşmə rolu adətən dövlətin üzərinə düşür. Büdcə layihəsinin hazırlanması və ya onun proqnozunun müzakirəsi, ona baxılması və müvafiq qanunverici orqan tərəfindən qəbul edilməsi iqtisadi siyasətlə bağlı qərarların qəbul edilməsində mühim addımlardır. Təşkilat prosesləri və vaxt müddəti ölkədən ölkəyə fərqlənir.

Mövzuda toxunulması vacib olan digər nüans məhz fiskal stimul və gəlir, xərc tendensiyasının araşdırılması hesab etmək məqsədə uyğun olar. İkinci Dünya Müharibəsindən sonra bütün İEOÖ (inkişaf etməkdə olan) ölkələrdə maliyyə tənzimlənməsi (dövlət xərcləri və dövlət gəlirləri) bu ölkələrdə iqtisadiyyatın idarə edilməsinin əsas sütunlarına çevrildi. Bundan əlavə, işsizlik və iqtisadi azalma ilə mübarizə aparmaq və iqtisadi artıma və iqtisadi sabitliyə nail olmaq üçün əsaslandırılmış alətlərin iqtisadi fəaliyyəti hökumət müdaxiləsinə çevrildi. Məsələn biz dövlət xərclərinin artırılması baxımından dövlətdən maliyyələşən qurumlardan hansısa birinin maaşlarını artırsaq, ÜDM-nin təməl formulasında dövlət xərcləri artdığından uzun müddətli dövrdə bu məcmu tələbin artması kimi desək yanılmarıq. Çünki maaşı artan şəxs də eyni zamanda vəsaitin xərclənməsini hərhansı iqtisadiyyatda kompenent olan subyekt üçün gəlir yerində ona fayda verən gəlir üçün xərcləyəcək, təbii ki burada məcmu halda əsas iqtisadi hallar ölçülməli, ədalətli artım mexanizmərindən istifadənin optimallaşdırılması nəzərdə tutulmalıdır (Əhmədov, 2011).

Fiskal siyasətin həyata keçirilməsi istiqamətlərinə, eləcə də onun həyata keçirilməsi alətlərinə nəzər salsaq, ilk növbədə bu siyasətlərin növlərinə və onların xüsusiyyətlərinə diqqət yetirməliyik. Yuxarıda istinad edildiyi kimi, hökumət inflyasiya dəliyini bağlamaq və tənəzzüldən xilas olmaq üçün bir neçə strategiya tətbiq edir və biz gördük ki, fiskal yanaşma genişlənən fiskal strategiya və daraldıcı fiskal strategiya kimi iki növ fiskal siyasətlə iqtisadi problemə cavab verə bilər.

**Dövlət Fiskal Siyasətinin Yenidən Qurulması Mexanizmləri və Alətləri**

"Fiskal siyasət" ümumiyyətlə xərcləmə və vergi təsirlərini aydınlaşdırır və ya daha dəqiq olaraq iqtisadiyyatın ümumi xərcləri və vergiləri arasındakı boşluq üçün istifadə olunur. Həmçinin, məcmu tələbin genişlənməsinə və məcmu təklifin artmasına genişlənmiş istehsalı və iqtisadi məhsulu əlavə edir. Genişləndirici fiskal siyasət, bir qayda olaraq, tənəzzül zamanı həyata keçirilir və dövlət xərclərini genişləndirməklə və vergi dərəcəsini azaltmaqla ölkədə məcmu tələbin həcmini artırmağa çalışır, özəl sektorda iqtisadi fəallıq yavaşladıqda iqtisadi fəallığı artırmaq üçün dövlət xərclərini artırır. Genişləndirici fiskal yanaşmalara adətən pulla əlaqəli bazanı və nağd pul təklifini artırmaq üçün insanlardan və ya hökumətdən qiymətli kağızların alınması və kredit xərclərinin azaldılması və valyuta vitrinlərində nağd pul təklifinin genişləndirilməsi kimi genişlənən monetar strategiyalar birləşdirilir. Dedik ki, genişlənən fiskal siyasətin böyük hissəsi tənəzzül dövründə həyata keçirilir, hələ ki, daraldıcı fiskal siyasətdən istifadə etmək üçün əsas səbəblərdən biri inflyasiya səviyyəsinə nəzarət etmək və iqtisadiyyatı inflyasiya boşluğunu doldurmaq üçün istifadə edilən fiskal siyasətin bir növüdür. Daraldıcı fiskal siyasət məcmu tələbi və məcmu təklifi azaltmağa və beləliklə, istehsalı azaltmağa və rüsumlarla iqtisadi məhsulu azaltmağa, məsələn, vergiləri genişləndirməyə və dövlət xərclərini azaltmağa çalışır (Quliyev, 2015).

Məqalənin nəzəri əsaslarının təkmil olduğunu göstərmək üçün dövlət xərclərinin makro-iqtisadi bölünməsini nəzərdən keçirə bilərik: Normalda dövlətin ictimai həyata müdaxiləsi təzahürlərinin

artması ilə dövlət xərclərini öz müxtəlifliyini artırır. Açıq istifadə hər hansı bir alıcı qüvvəsinin milli gəlirə standart təsiri ilə "real və transformasiya xərcləri", standart artıqlıq "adi və fövqəladə xərclər" və ya "dövlətin funksiyalarına görə" funksional təsnifatlarla ayrıla bilər.

• Real xərclər və transformasiya xərcləri: Real xərclər administrasiyanın müxtəlif mallar və müəssisələrin ictimaiyyətin ehtiyaclarını ödəyən müəssisələr qurmaq üçün satınalma qabiliyyətinin bir hissəsini istifadə etməsini nəzərdə tutur və ümumi milli məhsulun dərhal artmasına səbəb olur. Transformasiya xərcləri, bir kateqoriya üzrə nağd pul ödənişlərinin başqa bir icmaya yönəldilməsidir. Bu xərclər birbaşa gəlirə malik deyil və milli istehsalın genişlənməsinə səbəb olmasa da, əlavə olaraq yenidən bölüşdürülməsinə səbəb olur və üç sahəyə bölünür: iqtisad - əsas məhsulların xərclərini azaltmaq üçün sponsorluq, sosial - işsizlik ödənişləri və sosial müdafiə, fond - dövlət borclarının və ya öhdəliyin üstünlükləri.

Rəqəmsal iqtisadiyyatın bir parçası olan rəqəmsal bankçılığın sürətli inkişafı qarşılıqlı olaraq dünya ölkələrinin iqtisadiyyatına birbaşa təsir edir. Rəqəmsal bankların, ənənəvi banklara nisbətən hansı formada iqtisadi artıma olan təsiri və əlaqəsini öyrənmək üçün fərqli yanaşmalar mövcuddur ki, biz əsaslı olaraq rəqəmsal bankçılığın vasitəsi ilə maliyyə inklüzivliyi, nağdsız iqtisadiyyatın və kreditləşmənin hansı formada iqtisadi artıma təsir etmək imkanlarını araşdırmışıq. Tədqiqatın əsas məqsədi rəqəmsal bankçılığın nəzdində maliyyə inklüzivliyi, nağdsız iqtisadiyatın və kreditləşmənin iqtisadi artımın əldə edilməsindəki payını və təsirini öyrənməklə yanaşı, onun vəzifəsi rəqəmsal bankçılığın iqtisadi artımın əldə edilməsində maliyyə inklüzivlik səviyyəsinin yüksəldilməsinin təmin edilməsi, nağdsız iqtisadiyyata keçidin əsasının formalaşdırılması və bu prosesin həyata keçirilməsinin sürətləndirilməsi, sahibkarlıq subyektlərinin investisiya və kreditləşmə ilə tam təchiz edilməsinin və müsbət əsaslarının əldə edilməsini ehtiva edir. Əlavə olaraq araşdırma apardığımız bu mövzunun metdologiyası empirik və analiz tədqiqat metodunu əhatə edir. Ümumilikdə Azərbaycanda rəqəmsal bankçılığın və iqtisadi artım arasındakı əhatəli əlaqəsinin öyrənilməsində informasiya yetərsizliyi, son illərdəki maliyyə inkluzivliyi indeksinin araşdırılmaması, rəqəmsal və kredit veriliş göstəricilərin tam ətraflı olaraq qeyd edilməməsi, finansallaşmanın amilinin zəif inkişafını qeyd edə bilərik.

Rəqəmsal bankçılıq anlayışına nəzər yetirsək görə bilərik ki, ənənəvi bankçılıq modelinin rəqəmsal bir mühitə keçirməklə formalaşan bir platforma və yaxud proqramdır. Yəni, bir növ fintexlərlə rəqabət edən ənənəvi bankların rəqəmsal modelidir. Rəqəmsal bankçılığın müştərilərə təklif etdiyi xidmətlərin hər biri internet vasitəsi ilə həyata keçirilir. Banklar üçün rəqəmsal bankçılıq davamlı olaraq müştəri potensialını təmin etmək baxımından çox təsirli bir yanaşmadır (Khan, 2019).

Ənənəvi banklar əsasən mövcud xidmət və məhsul təklifinə fokuslanaraq müştərilərə xidmət edirlər, lakin fintexlər müştərilərin gözləntilərini və ehtiyaclarını qarşılayacaq yeni xidmət və məhsullarla

müştərilərə xidmət etməyi hədəfləyirlər. Həmçinin hər bir müştəriyə özəl bir yanaşma tətbiq etmək imkanı tanıyırlar. Fintexlərin ənənəvi maliyyə qurumlarının daha az səmərəli olduğu və ya heç performans göstərmədiyi xidmətləri hədəf alaraq və bu xidmətlərdən istifadə edənlərin sayını artıraraq maliyyə bazarlarında rəqabəti artıracağı düşünülür. Fintexlər bu yanaşma tərzi ilə bankların ənənəvi biznes modellərinə təzyiq göstərir (Vives, 2017).

Qeyd edə bilərik ki, ənənəvi köklü bankların illərlə fəaliyyət çərçivəsi nəticəsində maliyyə ehtiyatı və müştəri əhatəliyinin böyük olması ilə maliyyə texnologiyalarının tətbiq edilməsi üçün həm fintexlərlə qarşılıq əlaqə yaradaraq əldə etmək imkanı, həmçinin mövcud fintexləri alaraq öz biznesinə daxil imkanı mövcuddur. Bankların fintexlərlə qarşılıq fəaliyyəti gələcək müştəri məlumatlarının təhlükəsizliyi baxımından ciddi problemlər yaratmaq imknanına sahibdir ki, banklar müştəri məlumatlarının təhlükəsizliyi ilə bağlı ciddi addımlar ataraq rəqabət qabiliyyətliliyini qorumalıdır. Əks halda baş verə biləcək hər hansı məlumat təhlükəsizliyi bankın nüfuzuna və güvənilirliyinə ciddi zərər verəcəkdir. Çünki, məlumat toplusundan istifadə edərək, onların yeni təhlil üsulları ilə davamlı olaraq müştəri məmnuniyyətini maksimum dərəcədə artırmaq, infrastrukturu daha düzgün və səmərəli etmək yeganə yol hesab olunur.

Ənənəvi banklar ilə fintexlər arasındakı rəqabət sektora yeni iştirakçılar gətirməklə maliyyə sahəsi üzrə səmərəliliyi və performansı artıracaqdır. Nəticə etibarı ilə artan rəqabət çərçivəsində yenilikləri daha sürətli tətbiq edə bilən və uyğunlaşan banklar sektorda öz fəaliyyətini davam etdirəcəkdir. Əsas itkilər bank fəaliyyətində deyil, əsasən rəqəmsallaşma ilə ayaqlaşa bilməyən kiçik banklarda və bank xidmətlərində mövcud olacaqdır (Navaretti, Calzolari, and Pozzolo, 2017).

**Cədvəl 1. Rəqəmsal bankçılığın inkişaf mərhələsi**

| | |
|---|---|
| Rəqəmsal bankçılıq 1.0 (1998-2002)<br><br>-Müştəri əlaqlərinin idarə edilməsi<br>- Verilənlər bazasının idarə edilməsi<br>- E-poçt əlaqə mərkəzi | Rəqəmsal Bankçılıq 2.0 (2003-2008)<br><br>-Onlayn kredit simulyatorları<br>- Öz müştərini tanı (KYC)<br>-Məlumat anbarı<br>-Onlayn ödəniş |
| Rəqəmsal Bankçılıq 3.0 (2009-2014)<br><br>-360° müştəri görünüşü/məlumatlılığı<br>-Big data və informasiya texnologiyaları analitikası<br>-Smartfon üçün proqramlar<br>- Daxili və özəl bulud texnologiyası | Rəqəmsal Bankçılıq 4.0 (2015-indiki)<br><br>- Rəqəmsal bank və filiallar<br>-Müştəri mərkəzliliyi<br>- Intercloud<br>- Strukturlaşdırılmış və strukturlaşdırılmamış data'dan istifadə<br>- Zəngin kanallar vasitəsi ilə əməkdaşlıq və məsləhət |

**Mənbə**: Interactive, personalized capabilities will enable “Digital Bank 4.0 Source: Cisco Consulting Services, 2014

Rəqəmsal bankçılıq 5.0 – (2022-2030)

- Açıq bankçılıq (Open banking)/ Open API
- Süni intellekt (AI)
- Maşın öyrənmə (ML)/ Blockchain
- Regtech/DLT texnologiyası
- Süni intellekt əsaslı kibertəhlükəsizlik
- Fintex, Bigtek və SuperApp ların geniş mövcudluğu

Rəqəmsal bankçılıq 5.0 özündə ən son maliyyə texnologiyalarını və sektorun ümumilikdə dəyişməsini özündə ehtiva edəcəkdir. Tətbiqi prosesi tam olaraq həyata keçiriləcək bu maliyyə texnologiyaları, rəqəmsal bankların fintexlərlə rəqabət mübarizəsinə dəstək olacaqdır. Açıq bankçlığının tətbiqi ilə bazar iştirakçıları arasında məlumatların paylaşılması və iştirakçıların API-ləri öz sistemlərinə inteqrasiyası, süni intellekt əsaslı proseslərin avtomatik olaraq həyata keçirilməsi, regtech texnologiyası ilə tənzimləmə proseslərinin həyata keçirilməsi, paylanmış dəftər texnologiyası ilə (Distributed Ledger Technology) rəqəmsal valyutanın və həmçinin müştəri məlumatlarının təhlükəsizliyi təmin ediləcəkdir. Rəqəmsal 5.0 ehtiva edəcəyi maliyyə texnologiyalarının maliyyə xidmətlərinə olan təsiri digər inkişaf mərhələlərinə nəzərən çox genişdir.

Həmçinin rəqəmsallaşma prosesinin sürətlənməsi rəqəmsal iqtisadiyyatın yaranmasına gətirib çıxarmışdır. Əldə edilmiş bu nəticə, bəşəriyyətin bu zamana kimi görünməmiş xidmətləri əldə etməsinə, iqtisadi artım və rəqabət qabiliyyətlilik anlayışlarına adi ənənəvi fikirlərin, həmçinin bütövlükdə iqtisadiyyat və cəmiyyətin dəyişməsinə səbəb oldu (Watanabe, Chihiro, Kuniko Moriya, Yuji Tou, and Pekka Neittaanmäki, 2018). Qeyd edildiyi kimi, rəqəmsal iqtsadiyyat iqtisadi artımın, kapital və əmək məhsuldarlığının artmasına, əməliyyat xərclərinin azalmasına və qlobal bazarlara olan çıxışın əldə edilməsini təşviq edir (Bukht and Heeks, 2017).

Ümumilikdə iqtisadi artım anlayışına nəzər yetirdikdə görürük ki, iqtisadi məhsul və xidmətlərinin əvvəlki dövrlə müqayisə halında istehsalının artmasını özündə ehtiva edir. İqtisadi artımın ölkə daxilində olan artım dinamikasını ÜMM və ÜDM baxımından ölçülür və digər formada yanaşsaq, iqtisadi artım ölkə daxilində məcmu istehsalın artmasını ifadə etməklə milli gəlirin artmasına səbəb olur. Həmçinin qeyd edə bilərik ki, iqtisadi artım müxtəlif faktorlar və amillərdən aslı olaraq formalaşan bir prosesdir. İqtisadi artım istehsal prosesinin ölkə daxilindəki real həcminin artması nəticəsində cəmiyyətin iqtisadi, texnoloji və sosial tərəflərinində inkişafına və yaxşılaşmasını əhatə edir. İqtisadi artımın əsas inkişlaf mənbəyi kimi elmi texniki inkişaf əsas götürülür. Dünyanın sürətlə rəqəmsallaşması və yeni texnologiyaların mövcud inkişaf sürəti iqtisadi artımın dəyərləndirilməsinə birbaşa təsir edir. Elmin və texnikanın inkişafı sadəcə istehsal prosesi ilə məhdudlaşmır, həmçinin ölkələrin dövlət, iqtisadi, sosial və maliyyə sektorunun yenidən formalaşdırmaqla birlikdə yenilikçi yanaşma və həllər vəd edir.

Danilin, ABŞ və Çində rəqəmsal iqtisadiyyatın dərin tədqiqatını apararaq onların artan iqtisadiyyata təsir və üstünlüklərini olduğunu təsdiqləmişdir. Rəqəmsal iqtisadiyyatda lider mövqeyində çıxış etmələrinin əsas səbəbləri kimi tədqiqat və inkişafa (R&D) edilən investisiyalar, rəqəmsal innovasiyalara və insan resurslarına, insan kapitalının inkişafına diqqətin artması, informasiya və kommunikasiya texnologiyaları (İKT) sektorunun dinamikliyi, fərdi elektronika və onlayn bazarların

inkişafı və güclü internet infrastrukturu arasında olan mümkün əlaqənin mövcudluğunu qeyd etmişdir. Bütün bu təsiredici amillərin birlikdə hər iki ölkənin iqtisadi artım templərinə müsbət təsir göstərdiyini bəyan etmişdir (Danilin, 2019).

İnternetdən istifadə ilə əhalinin rifah səviyyəsi arasındakı əlaqənin empirik əsasli təhlilini həyata keçirən Castellacci və Tveito yeni texnologiyaların iqtisadi performansa (iqtisadi artım və rəqabət qabiliyyətliliyinə) böyük ölçüdə təsirinin formalaşdığını əldə etmişdir (Castellacci and Tveito, 2018).

İnformasiya kommunikasiya texnologiyalarının iqtisadiyyatın inkişafını təmin edən əsas vasitələrdən biri olduğunu və informasiya kommunikasiya texnologiyalarının artan əhəmiyyəti bu sahədə məşğulluğun sürətli artımı ilə qarşılıqlı əlaqədə olduğunu təsdiqlənmişdirlər (Marinković, Sanja, Nikolić, and Rakićević, 2018).

Parviainen və digərlərinin araşdırmasına görə, rəqəmsallaşma tədricən iqtisadi artımı nəzərdə tutur. Bunu nəzərə alaraq, rəqəmsallaşmanın ən qabaqcıl mərhələsində olan ölkələr ilkin mərhələdə olanlarla müqayisədə 20% daha çox iqtisadi faydalılıq əldə edirlər (Parviainen, Paivi, Tihinen, Kääriäinen, and Teppola, 2017). Alimlər rəqəmsallaşmanın işsizliyin azaldılmasında, həyat keyfiyyətinin yaxşılaşdırılmasında və vətəndaşların dövlət xidmətlərinə əlçatanlıq səviyyəsinin artırılmasında təsirli olduğunu bildirdilər. Qeyd edilənlərə əsasən, rəqəmsallaşma hökümətlərə daha çox şəffaflıq və səmərəli fəaliyyət göstərməyə imkan verir ki, bu da ölkənin iqtisadi artımına müsbət təsir göstərir.

Oxşar mövzunu araşdırarkən, Raeskyesa, Sidan və Lukas 1999-2014-cü illər üçün ASEAN-ın səkkiz orta gəlirli ölkəsinin təsviri təhlilini apardılar. Adambaşına düşən ÜDM artımının asılı dəyişəni və fiziki göstəricilərin (kapital, insan kapitalı və İKT) müstəqil dəyişənləri ilə panel reqressiya təhlili nəticəsinə əsasən İKT göstəriciləri iqtisadi artım, fiziki və insan kapitalı üçün nəzərə çarpacaq faydalı təsirə malikdir (Raeskyesa, Sidan, and Lukas, 2019).

Maiti və digərləri iqtisadiyyatın rəqəmsallaşdırılmasının iqtisadi artım və sosial inklüzivliklə bağlı problemlərin həlli üçün fundamental strategiya olduğuna inanırdı. Onların araşdırması müəyyən edib ki, İKT-nin daha sürətli mənimsənilməsi məhsuldarlığı və iqtisadi səmərəliliyi artırır, dövlət xidmətlərinin və rifah proqramlarının çatdırılmasında daha çox şəffaflıq gətirir, korrupsiyanı azaldır, ucqar yerləri şəhər və qəsəbələrlə əlaqələndirir və demokratik iştirak səviyyəsini artırır (Maiti, Dibyendu, Castellacci, and Melchior, 2019).

## Maliyyə İnkluzivliyinin İqtisadi Artımla Qarşılıqlı Əlaqəsi

Ümumiyyətlə bank sektorunun son on illikdə rəqəmsallaşma ilə qarşılıqlı olaraq sürətli inkişafına baxmayaraq dünya əhalisinin əlverişsiz və aşağı gəlirli qruplarının maliyyə sisteminin bir çox fəaliyyətindən tam olaraq istifadə imkanından məhrumdur (Chithra and Selvam, 2013). Maliyyə sisteminin inkişafı və yenilikçi həllər ilə fəaliyyət göstərməsinə nəzərən, əhalinin maliyyə xidmətlərinə olan əlçatanlığı qarşılıqlı asılı olaraq geri qalmaqdadır. Ölkələrin maliyyə savadlılığının artırılması mövcud maliyyə sisteminin, maiyyə bazarlarının inkişafına və az gəlirli əhalinin həyat səviyyəsinin yüksəlməsinə, yoxsulluğun azaldılmasına ciddi təsir göstərəcəkdir. Bu səbəbdən, ölkələr cəmiyyətin bütün təbəqələrinin maliyyə məhsul və xidmətlərinə asan çıxışını və istifadəsini təmin etmək üçün çalışırlar (Gündüz və Özyıldırım, 2019).

Ölkələr maliyyə inklüzivliyi siyasəti ilə cəmiyyətin maliyyə xidmətlərindən istifadə imkanları səviyyəsini daha da yaxşılaşdırmağa və əhaliyə bu sahə üzrə inkişafına dəstək olmalıdırlar. Maliyyə inklüzivliyi, maliyyə məhsullarını və xidmətlərini bütün fərdlər və bizneslər üçün əlçatan və əlverişli etmək səylərini özündə birləşdirir. Əlavə olaraq, maliyyə inklüzivliyi cəmiyyətin bütün təbəqlərinin əsasən kasıb və bu xidmətlərdən istifadə imkanı zəif olan əhalinin maliyyə sektorunda iştirakını və həyat səviyyəsini yaxşılaşdırmaq üçün bu xidmətlərdən istifadə etmələrini istisna edən maneələri aradan qaldırmağa çalışır. Maliyyə inklüzivliyi bir ölkədə cəmiyyətin bütün təbəqələrinin bərabər imkanlara, daxili, iqtisadi və sosial inkişafa və iş imkanlarına malik olması üçün zəruri strukturdur (Devi, 2015).

Sarıgül araşdırmasında maliyyə inklüzivliyinə təsir edən 3 əsas faktoru qeyd etmişdiki, bunlar iqtisadi, sosial-demoqrafik və texnologiyadan ibarətdir (Sarigul, 2021). Ölkənin mövcud iqtisadi artımı, işsizlik səviyyəsi, yoxsulluq və gəlir bərabərsizliyi maliyyə xidmətlərinə əlçatanlığının formalaşmasında birbaşa rol oynayır. Maliyyə xidmətlərindən istifadə hallarının, maliyyə institutlarında hesabların mövcudluğu, nəğd vəsaitin istifadə əmsalı isə sosial demoqrafik faktora aiddir. Texnologiya faktoru maliyyə xidmətlərini sürətləndirən, asanlaşdıran və xərcləri azaldan faktor olmaqla yanaşı, cəmiyyəti bu xidmətlərdən daha səmərəli formada istifadəyə təşviq edir. Rəqəmsal maliyyə, rəqəmsal texnologiya və inklüziv maliyyənin birləşməsidir (Shen, Hu, and Hueng, 2021).

Sarma və Pais ölkələrin maliyyə xidmətlərinə əlçatanlığı ilə əhalinin inkişafı arasında qarşılıqlı müsbət əlaqənin olduğunu, həmçinin maliyyə xidmətlərinə əlçatanlığın yüksək olmasında səbəb kimi cəmiyyətin gəlir, urbanizasiya və fiziki infrastrukturun təsirli faktorlar olduğunu qeyd etmişdir (Sarma and Pais, 2011). Sarma aşağı gəlirli ölkələrdə cəmiyyət aşağı maliyyə xidmətlərinə əlçatanlıq səviyyəsinə, yüksək gəlirli ölkələrin isə yüksək maliyyə xidmətlərinə əlçatanlıq səviyyəsinə malik olduğunu vurğulamışdır (Sarma, 2012).

Sulong maliyyə inklüzivliyinin iqtisadi artıma təsirini apardığı ədəbiyyət araşdırmasında, maliyyə inklüzivliyinin maliyyə xidmətlərinə əlçatanlıq problemini aradan qaldıraraq maliyyə inklüzivliyi və iqtisadi böyümə arasında müsbət əlaqənin mövcudluğunu müşahidə etmişdir, həmçinin maliyyə sisteminin zəif olması və maliyyə xidmətlərinə əlçatanlıq imkanlarının məhdud olması səbəbindən maliyyə inklüzivliyi ilə iqtisadi artım arasında əlaqənin zəif və ya mənfi olduğu qənaətinə gəlinmişdir (Sulong, 2018).

**Qrafik 1: Maliyyə savadlılığı**




**Mənbə**: Financial Literacy Levels in the Commonwealth of Independent States in 2021 - https://l24.im/3vPV2 (2021)

Digər önəmli faktorlardan biri isə insan kapitalına olan dəyərdir. Qarşılıqlı olaraq yüksək təhsilin və sağlamlığa sahib olan cəmiyyətin maliyyə xidmətlərindən istifadəsi və ölkənin iqtisadi artımına təsiri müsbət olacaqdır. Bundan əlavə, maliyyə imkanlarına çıxış və onlardan istifadə insanlara təhsil və səhiyyəyə sərmayə qoymağa, risk faktorlarının öhdəsindən gəlməyə və maliyyə problemlərinin yükünü azaltmağa imkan verə bilər ki, bu da insan kapitalı indeksinə müsbət təsir göstərir (Compact & International, 2015).

Rəqəmsal bankçılığın inkişafı ilə maliyyə inklüzivliyi və maliyyə xidmətlərinə əlçatanlıq səviyyəsinin yüksəlməsi arasın düz mütənasib əlaqə var. Bunun əsasında rəqəmsal bankçılığın cəmiyyətə təqdim etdiyi ən son texnoloji yeniliklər ilə maliyyə xidmətlərində istifadə hallarının əmsalı yüksəlir və həmçinin xidmətlərdən istifadə halı zəncirvari olaraq böyüyür və nəticə etibarı ilə isə maliyyə inklüzivliyinin təsir sahəsinin böyüməsinə qarşılıqlı olaraq isə iqtisadi artımın əldə edilməsinə təsir göstərir.

**Cədvəl 2 : İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) üzrə əsas göstəricilər**

| Göstəricilərin adı | 2020 | 2021 |
|---|---|---|
| Əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin sayı, nəfər | 85 | 87 |
| Əhalinin hər 100 nəfərinə düşən genişzolaqlı internet istifadəçilərinin sayı, nəfər | 83 | 85 |
| Əhalinin hər nəfərinə düşən beynəlxalq internet kanallarının həcmi, kbit/s | 181,5 | 198,6 |
| Mobil rabitə ilə əhatə olunmuş ərazidə yaşayan əhalinin ölkə əhalisinin ümumi sayında xüsusi çəkisi, faizlə | 100,0 | 100,0 |
| İKT-nin inkişaf indeksi * | 6,64** | 6,67** |

**Mənbə**: Azərbaycan Respublikası Statistika Komitəsi - https://www.stat.gov.az/ (2023)

Maliyyə inklüzivliyinin cəmiyyətə olan təsirini artırmaq üçün ilk növbədə əhalinin internetə olan çıxışının yüksək tutulması, hansı ki əhalinin az məskunlaşdığı ərazilər və kənd yerləri həm internet təminat ilə, həmçinin maliyyə xidmətlərini həyata keçirə biləcəyi ənənəvi xidmət mərkəzlərinin az olması və ya olmaması kimi problemlərlə qarşılaşır ki, bu isə maliyyə inklüzivliyinə ciddi neqativ təsir göstərir. Cədvəl 2-də qeyd etdiyimiz statistik göstəricilərə nəzərən qeyd edə bilərik ki, Azərbaycanda İKT inkişaf indeksi 2021-ci ildə 6.67 olmuşdur, bu isə inkişaf etmiş ölkələrlə qarşılaşdırıldıqda aşağı nəticədir (2017 İslandiya 8.9 IDI[1]) və gələcək illər üçün mütləq şəkildə İKT -nin inkişafı üçün əsaslı investisiyalar artırılmalıdır. İkinci növbədə əhalinin rəqəmsallaşma və maliyyə savadlılığının yüksəldilməsi önəmlidir, çünki bu iki faktorun zəif inkişafı ümumilikdə ölkənin həm iqtisadiyyatına, həmdə də bank sisteminə öz mənfi təsirini göstərir. Qeyd etdiyimiz maliyyə savadlılığı ilə bağlı Qrafik 1 Azərbaycan Respubliksaının Müstəqil Dövlətlər Birliyi çərçivəsində maliyyə savadlılığı baxımından digər ölkələrdən geridə olduğu statistik olaraq qeyd olunub. Maliyyə savadlılığının artırılması sadəcə olaraq iqtisadi deyil, həmçinin insan kapitalının formalaşmasına dəstək verir. Maliyyə savadlılığına – baza maliyyə məhsulları və xidmətlərini tanımaq; maliyyə xidmətləri üzrə riskləri və faydaları bilmək; yığım mədəniyyətinin formalaşması; kölgə iqtisadiyatının zərərlərini anlamaq; hüquq və vəzifələrini bilməyi aid etmək olar. Həmçinin yaşlı əhali üçün rəqəmsal maliyyə əməliyyatları həyata keçirmək çətin olmaqla yanaşı, asanlıqla maliyyə fırıldaqçıları tərəfindən pul itkisinə məruz qala bilirlər. Üçüncü növbədə inkişaf etməkdə olan ölkələrdə müştərilərin banklara olan inam və etibarı aşağı səviyyədə olması rəqəmsal bankçılığın inkişafına maneə yaradır. Əlavə olaraq şəxsi məlumatların və maliyyə

[1] https://www.statista.com/statistics/267083/top-20-countries-in-ict-development-index/

əməliyyatlarının təhlükəsiz səviyyəsininin təmin edilməsi, məxfiliklə bağlı beynəlxalq standartların tətbiqi rəqəmsal bankçılığa və maliyyə inklüzivliyinə müsbət təsir edir.

**Nağdsız İqtisadiyyatın İqtisadi Artımla Qarşılıqlı Əlaqəsi**

Nağdsız iqtisadiyyat – nağd əməliyyatların tamamilə dayandırılması və ya aradan qaldırılması ilə deyil, cəmiyyətin mal və xidmətləri əldə etmək üçün rəqəmsal mühitdən istifadə edərək alışını və ödənişlərini ifadə edir. Ümumiyyətlə maliyyə əməliyyatlarının bank kartları, sürətli ödəniş xidmətləri və digər rəqəmsal kanallar vasitəsi ilə həyata keçirilən iqtisadiyyatı ehtiva edir. Bu sistemdə fiziki olaraq pulun istifadəsi çox aşağı səviyyədədir (Garg and Panchal, 2017).

Effektiv və müasir ödəniş sistemləri iqtisadi artımla müsbət əlaqələndirilir. Qlobal iqtisadiyyatın böyüməsində rəqəmsal valyuta önəmli rola sahibdir və nəticə etibarı ilə pulun dövriyyəsini müxtəlif iştirakçılar arasında təşkil edir.

Nağdsız bank alətlərindən istifadənin artması monetar siyasətin efektivliyini gücləndirdiyini və həmçinin rəqəmsal olaraq istifadənin maliyyə sisteminin sabitliyinə təhlükə yaratmadığı qeyd edilmişdir (Macro and Bandiera, 2004). Həmçinin, elektron ödənişlərin biznes xərclərini aşağı saldığını vurğulanmışdır (Hord, 2005).

Rəqəmsal əhatəliliyin sürətli inkişafı ilə nağdsız iqtisadiyyatın, bank sektorunun, maliyyə əməliyyatlarının yenilikçi texnologiyalar təchiz edilməsi iqtisadi artımla müsbət əlaqənin formalaşmasında önəmli rol oynayır. Nağdsız iqtisadiyyatda rəqəmsal ödənişlərin müxtəlifliyi, cəmiyyətə daha çox iqtisadi azadlıq vəd edir. Yeni texnologiyaların istifadəsi və təsiri, cəmiyyəti daha yaradıcı olmaqla yanaşı maliyyə resurslarına əlçatanlığın yüksəlməsinə, həyat səviyyəsinin yüksəlməsinə səbəb olur və iqtisadi artımın əldə edilməsinə şərait yaradır.

Rəqəmsal ödənişlər dünyanın istənilən yerində istifadəçilərin maliyyə əməliyyatlarını həyata keçirmələri üçün iqtisadi azadlıq təmin edir. İqtisadi azadlıq müxtəlif ölkələrdə insanların sərbəst olaraq bir-biri ilə ticarət etməsinə imkan verən azadlıqdır. İnsanlar dünya üzrə cəmi bir neçə dəqiqə ərzində təhlükəsiz və sürətli əməliyyatla köçürmə və ya ödənişləri qəbul etməklə öz bizneslərini qlobal miqyasda həyata keçirə və genişləndirmək imkanına sahibdirlər.

Nağdsız iqtisadiyyat, rəqəmsal valyuta və elektron pul qarşılıqlı olaraq vəhdət təşkil edirlər. Rəqəmsal valyuta ilə istifadəçilər öz maliyyə əməliyyatlarını rəqəmsal bankçılıq və ya finteklər vasitəsi ilə həyata keçirmək imkanına sahib olmaqla yanaşı, iqtisadi azadlığın formalaşmasına və artımına birbaşa təsir edir. Burada qeyd edə bilərik ki, rəqəmsal valyuta əsasən ölkənin mərkəzi bank tərəfindən token əsaslı və ya hesab əsaslı olaraq mərkəzi idarəetməyə sahib valyutadır (Central Bank Digital Currency - CBDC). Elektron pul dedikdə hal-hazırda hamının istifadə etdiyi və kağız pul daşıyıcılarlar qarşılıqlı olaraq ehtiva edilən puldur. Dünya ölkələri hal-hazırda kriptovalyutaların inkişafı ilə əlaqədar öz rəqəmsal valyutalarını yaratmağa çalışlar, həmçinin Azərbaycan Respublikası Mərkəzi Bankı bu sahə üzrə araşdırmaları həyata keçirir.

Məmmədov qeyd etmişdir ki, nağdsız iqtisadiyyata keçidin formalaşmasında rəqəmsal valyutanın önəmi yüksəkdir. Rəqəmsal valyutanın yaradılması ilə Azərbaycanda bütün pul hesabatlarının rəsmi olaraq qeydiyyatı aparılaraq ictimai dövriyyə cəlb olunur. Ümumilikdə korrupsiya və rüşvətxorluğun qarşısı alınır, vergilərin yığılmasına nəzarət daha rahat olur, əlavə olaraq qeyri-aktiv pul vəsaitlərinin

aktiv formada istifadə imkanı yaranmaqla investisiyaların və kreditləşmə resursları 5-6 dəfə artaraq iqtisadi artımın əldə edilməsinə səbəb olur (Məmmədov, 2022).

Zandi və digərlərinin vurğuladığı nağdsız ödənişlərin istehlakçılara kredit dəstəyi verdiyini, nəticə olaraq daha çox mal və xidmət alışı həyata keçirməyi asanlaşdırdığını qeyd etmişdir. Bu isə istehlak səviyyəsinin yüksəlməsinə və iqtisadi artımın əldə edilməsinə töhfə verəcəkdir (Zandi, Singh, and Irving, 2013). Hasan və digərlərinin fərqli bir yanaşması mövcuddur ki, nağdsız ödənişlər kağız daşıyıclara nisbətən əməliyyat xərcləri daha aşağı olur. Bu isə qənaət edilən vəsaitin yenidən biznesə investisiya edilməsinə şərait yaradır (Hasan, Renzis and Schmiedel, 2012). Əlavə olaraq, Kearney və Schneider tərəfindən dolaylı olaraq qeyd edilir ki, nağdsız ödəniş əməliyyatlarının həyata keçirilmə əmsalının yüksəlməsi hökumət tərəfindən vergi yığımını asanlaşdırır. Beləliklə, nağdsız ödənişlər hökumətin fiskal balansını yaxşılaşdırmqla yanaşı, daha çox gəlir - artım siyasəti üçün istifadə edilə bilər və bununla da iqtisadi artımı gücləndirir (Kearney and Schneider, 2011)

Nağdsız əməliyyatların ölkə daxilində aparılması və istifadə əhatəsinin genişləndirilməsinin əsas üstünlüyü ondan ibarətdir ki, iqtisadiyyatın bütün təsərrüfat sahələri üzrə düzgün maliyyə hesablarını əldə etmək mümkündür. Rəqəmsallaşma və nağdsız iqtisadiyyatın formalaşması qara bazar və yeraltı iqtisadiyyatın məhv edilməsinə birbaşa töhfə verir. Həmçinin, çirkli pulların yuyulması, terrorizmin maliyyələşdirilməsi əsas nağd əməliyyatlardan vasitəsi ilə həyata keçirildiyi üçün, nağdsız iqtisadiyyat belə fəaliyyətlərin həyata keçirilməsinə mane olacaqdır. Əlavə olaraq, ölkələr vergilərə daha asan və rahat formada nəzarət etmək imkanına sahib olmaqla yanaşı, korrupsiya və rüşvətxorluğun qarşısının alınmasında ömənli rol oynacaqdır. Ümumilikdə isə nağdsız iqtisadiyyata keçid etməklə aşağıdakı üstünlüklər əldə ediləcəkdir :

a) Əldə edilmiş qara pulların investisiya xarakterli olaraq daşınmaz əmlaklara edilməsinin qarşısı alınması.

b) Ölkə də milli valyuta emissiyası ilə bağlı olaraq yaranan çap, saxlanılma, lahiyələndirmə və digər xərclərin azaldılması. Həmçinin saxta valyutanın mövcud dövriyyəsinin qarşısının alınması.

c) Qarşılıqlı olaraq fintexlərin, rəqəmsal bankçılığın nağdsız iqtisadiyyata keçidin vəhdəti ilə maliyyə əməliyyatlarının əlçatanlıq səviyyəsinin yüksəlməsi, sürətlənməsi, asanlaşması və xərclərin azalması.

2023-cü il statistik göstəricilərinə əsasən Azərbaycanda bank müştərilərinin sayı 13 milyon 478 min 899 nəfər təşkil etmişdir. Azərbaycan Mərkəzi Bankı tərəfindən təqdim edilən bu statistik göstərici əvvəlki ilin göstəriciləri ilə qarşılaşdırıldıqda 8% (12 milyon 484 min 409) artım müşahidə olunur ki, bu müsbət nəticədir. Ümumilikdə müştəri hesablarının mövcud göstəricisi isə 32 milyon 474 min 369 ədəddir. Fiziki şəxslərin cari hesablarında 16%-lik (3 milyon 570 min 605 şəxs) , hüquqi şəxslərdə isə 16,3% (43 min 313 şəxs)  artım əldə edilib. Əldə edilmiş bu nəticələr həm maliyyə inkluzivliyinin, həm maliyyə savadlılıq göstəricisi  ilə yanaşı iqtisadi artımın əldə edilməsinə birbaşa töhfə vəd edir.

2022-ci ilin on ayında internet bankçılıq ilə həyata keçirilən ödənişlərin həcmi 2021-ci ilə nisbətən 55% artım göstərmişdir. Əlavə olaraq Azərbaycanda bankların 84 faizinin mobil bankinq proqram dəstəyi mövcuddur və bu proqramlar vasitəsilə edilən ödənişlərin sayında 3 dəfə artım müşahidə edilmişdir. Cari hesablar üzrə edilmiş ödənişlərin 77% elektron bankçılıq vasitəsi ilə həyata keçirilib.

Ödəniş kartları ilə həyata keçirilmiş ödənişlərin ümumi həcmi 2021-ci il ilə müqayisədə 2022-ci ildə 56% artım göstərərək 56.4 mlrd. manat, həmçinin nağdsız ödənişlərin həcmi 2.1 dəfə artaraq 24.4 mlrd. manat olmuşdur. Nağdsız ödənişlərin ödəniş kartları ilə aparılmış ölkə daxilindəki əməliyyatlarda olan həcmi 11.4%  artaraq 43.2% çatmışdır. 2023-cü il statistikasına nəzər yetirdikdə isə fevral ayında ümumilikdə ödəniş kartları ilə aparılan ölkədaxili nağdsız ödənişlərin sayı 56.7 milyon, ölkəxarici isə 4.3 milyondur, həmçinin ölkədaxili nağdsız ödənişlərin həcmi 2.9 milyard manat, ölkəxarici isə 198 milyon manat təşkil etmişdir.

**Kreditləşmənin İqtisadi Artımla Qarşılıqlı Əlaqəsi**

Tarixən kiçik sahibkarlıq subyektləri daima öz bizneslərini maliyyələşdirmə baxımından çətinliklərlə üzləşiblər. Əsas çətinliklərə yüksək faiz dərəcələri, fiziki məsafə və müvafiq sənədlərin qeyri-mövcudluğu daxildir (Agarwal and Hauswald, 2010). Bu isə ümumilikdə kiçik sahibkarların banklar tərəfindən kredit risklərinin qiymətləndirilməsini məhdudlaşdıran amillərdən biridir. Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən qeyd edilən məlumata əsasən il ərzində 40% həcmində kiçik sahibkarlıq subyektlərinin 5.2 trilyon abş dollar məbləğində maliyyə ehtiyacından məhrumdur. Nəticə etibarı ilə, kiçik sahibkarlar öz potensial fəaliyyətlərindən daha aşağı xidmət göstərməyə məcbur olurlar və maliyyə sabitliyi baxımından özlərini inkişaf etdirmək müəyyən zaman tələb edir. Ölkənin iqtisadi olaraq qərarlı və davamlı inkişafı üçün yaxşı inkişaf etmiş maliyyə sistemi mövcud olmalıdır. Müasir dünyada artıq fintexlər, ənənəvi və rəqəmsal banklar KOS-ların inkişafı üçün maliyyə mənbəyi rolunu oynayırlar. Bu əsasla kommersiya bankları bütün bazarda investisiya kapitalının axının hərəkətinə kömək edir edir (Kalpana and Rao, 2017).

KOS-lar üçün niyə daha az kredit əldə etdiyinə nəzər yetirdikdə aşağıdakı nəticələri görə bilərik :

1) Maliyyə qurumları tərəfindən KOS-lara verilən kreditlərin faiz dərəcələri yüksək olmasına baxmayaraq, böyük sahbikarlıq subyektlərinə nəzərən daha aşağı gəlirli hesab olunur. Qlobal maliyyə böhranından sonra sərtləşdirilmiş kapital və likvidlik tənzimləmələri ilə banklar KOS-lara verilən kreditləri diqqətlə yoxlamaq və daha yüksək faiz dərəcələri tələb etmək həvəsinə malikdirlər (Griggs, 2012).

2) İctimaiyyətə təqdim edilən məlumatın çox az olması və ya olmaması, maliyyə hesablarının qeyri-şəffaflığı, keyfiyyəti və bu nəticələrin böyük sahibkarlıq subyektlərinə nəzərən aşağı tezlikdə təqdim edilməsi bankların KOS-ların yaratdığı kredit risklərinin qiymətləndirilməsini və monitorinqini çətinləşdirir (Yoshino and Yamagami, 2017).

3) KOS-ların kredit əldə etməsindəki digər çətinliklərə, əsasən də uzunmüddətli kreditlər üçün girovun olmaması, kredit qabiliyyətini sübut etməkdə çətinliklər, kiçik pul vəsaitlərinin hərəkəti, qeyri-adekvat kredit tarixçəsi, yüksək riskə sahib olmaları, zəif inkişaf etmiş bank-borcalan münasibətləri və yüksək əməliyyat xərcləri (Ardic, Mylenko, and Saltane, 2012).

Kiçik və orta sahibkarlıq subyektləri ümumilikdə qlobal iqtsadiyyatın mühərriki rolunu oynayır. Şirkətlərin 90%-ni təşkil etməklə yanaşı, dünya miqyasında 50% insan resurslarını işlə təmin etdiyini[23]

[2] Small and Medium Enterprises (SMEs) Finance. Available online: https://www.worldbank.org/en/topic/smefinance (accessed on 12 October 2021).
[3] International Labour Organization. Small Matters: Global Evidence on the Contribution to Employment by the Self-employed, MicroEnterprises and SMEs; International Labour Organization: Geneva, Switzerland, 2019.

və 2030-cu ilə kimi isə 600 milyon iş yeri təmin edəcəkləri qeyd edilir[4,5]. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı üzvlərinə nəzər yetirdikdə qeyd etmək olarki, KOS-lar biznesin 99%-ni təmsil edir, rəsmi işçi qüvvəsinin 70%-ni işlə təmin edir və yüksək gəlirli ölkələrdə ÜDM-in təxminən 50%-ni verir[6,7]. Hal-hazırda KOS-ların 63%-i hələ də maliyyə ehtiyacları üçün ənənəvi banklara üstünlük verir. Lakin rəqabətlilik səviyyəsi baxımından artıq KOS-ların 56%-i maliyyə əməliyyatları üçün fintex xidmətlərindən istifadə edirlər[8].

Son illərdə həyatımızda mövud olan pandemiyanın yaratdığı iqtisadi çətinliklər sahibkarların kredit əldə etməsini daha da çətinləşdirmişdi. Çünki burda mövcud sektorun ümumilikdə ciddi iqtisadi geriləmə ilə üz-üzə dayanması, təchizat zəncirinin pozulması və birçox sahibkarlıq subyektlərinin iflası baş vermişdir. Ancaq texnologiyanın təsiri ilə rəqəmsal maliyyə xidmətləri istifadəçilər üçün mümkün olmaqla yanaşı, sosial məsafə və digər məhdudlaşdırma tədbirləri şəraitində maliyyə inklüzivliyini sürətləndirə və gücləndirə bilmək imkanına sahib oldu (Eriksson, Ulric, Purva, Sumik, and Ratna, 2020). Rəqəmsal bankçılıq 4.0/5.0 əhatə etdiyi texnologiyalardan istifadə edərək sahibkarlıq subyektlərinin biznes fəaliyyətlərinin izlənilməsi və dataların əldə edilməsi ilə rəqəmsal banklar sahibkarlar haqqında düzgün və dəqiq məlumat əldə etməyə kömək etmişdir. Uzaq məsafədən rəqəmsal banklar müştərilərə kredit dəstəyini və şərtlərinin təmin etmək üçün, elektron ticarət tranzaksiyaları, vergi tarixçələri, ənənəvi və bank kreditləri barədə məlumatlardan istifadə etmişdirlər. Nümunə olaraq qeyd edə bilərik ki, Kovid-19 pandemiya dövründə Çin XW Bank 330000 kredit müraciətini cəmi 270 kredit işçisi ilə həyata keçirmişdir[9].

Mikro, kiçik və orta sahibkarlıq subyektərinin iqtisadi aktivlikdə önəmli rola sahib olmaqlarına baxmayaraq qeyri-proporsional olaraq kredit dəstəyinə sahibdirlər və bu isə həmin sahibkarların inkişafına və iqtisadi artıma olan töhfələrinin daha aşağı olmasına səbəb olur. Rəqəmsal bankların və fintexlərin sektora gətirdiyi yenilikçi həllər ilə artıq kreditləşmə prosesinin ənənəvi modeldən rəqəmsal modelə keçidini qeyd edə bilərik. Kovid -19 pandemiyasından sonra sektorda artıq MKOS-lar sürətli, asan, problemsiz və rahatlıqla kredit dəstəyi əldə etmək təcrübəsi istəyirlər. Bu zaman banklar tərəfindən təmin edilməyən sahibkarlıq subyektləri fintexlərə, bigteklərə və digər maliyyə institutlarına müraciət edirlər. Bu isə sektorda rəqabət çərçivəsində olan rəqəmsal banklar və fintexlər arasında bazar payının formalaşmasına ciddi təsir edəcəkdir. Dağıdıcı, bir növ sektoru dəyişəcək yenilikçi maliyyə texnologiyalarının tətbiqi ilə banklar sürətli, açıq, real vaxt ərzində və asan inteqrasiya ediləcək həllər

---

[4] OECD. Enhancing the Contributions of SMEs in a Global and Digitalised Economy. Available online: https://www.oecd.org/ industry/C-MIN-2017-8-EN.pdf (accessed on 14 August 2022).

[5] Lin, D.-Y.; Rayavarapu, S.N.; Tadjeddine, K.; Yeoh, R. Beyond Financials: Helping Small and Medium-Size Enterprises Thrive. Available online: https://www.mckinsey.com/industries/public-and-social-sector/our-insights/beyond-financials-helpingsmall-and-medium-size-enterprises-thrive (accessed on 14 August 2022).

[6] Batrancea, L.M. Determinants of economic growth across the European Union: A panel data analysis on small and medium enterprises. Sustainability 2022, 14, 4797.

[7] Maow, B.A. The impact of small and medium enterprises (SMEs) on economic growth and job creation in Somalia. J. Econ. Policy Res. 2021, 8, 45–56. 14. OECD. Small Businesses, Job Creation and Growth: Facts, Obstacles and Best Practices. Available online: https://www.oecd.org/ cfe/smes/2090740.pdf (accessed on 15 August 2022).

[8] EY Global Banking Outlook 2022 - https://www.ey.com/en_kw/financial-services-emeia/why-digital-lending-is-the-future-for-banks-and-smes

[9] China Finance 40 Forum. 2020. "SME Digital Financing during the Covid-19." *China Finance 40 Forum Research Bulletin* No. 551, June

təklif edirlər. Rəqəmsal bankların və fintexlərin tətbiq etdiyi süni intellekt, maşın öyrənmə, big data, proseslərin avtomatlaşdırılması qeyd edə bilərik.

Kreditləşmə və səviyyəsinin yüksək olmasında əsas səbəblərdən biri finansallaşma amilinin olmasıdır. Azərbaycan Respublikasında investisiyaların və kreditləşmə həcminin aşağı olmasında səbəb finansallaşma prosesinin zəif inkişaf etməsidir. Finansallaşma daxili və beynəlxalq iqtisadiyyatların fəaliyyətində maliyyə motivlərinin, maliyyə bazarlarının, maliyyə subyektlərinin və maliyyə institutlarının artan rolu deməkdir (Epstein, 2005). Finansallaşma yanaşmasını qısa olaraq belə qeyd edə bilərik ki, ölkə ərazisində qeyri-aktiv formada saxlanılan bütün vəsaitlərinin ictimai dövriyyə cəlb edilərək real maliyyə aktivlərinə çevirməyi hədəfləyir (Məmmədov, 2022). Nəticə etibarı ilə isə dövriyyə cəlb edilmiş pul vəsaitlərinin məbləği avtomatik olaraq ölkə əraizisndə investisiyanın artmasına, maliyyə bazarlarının aktivləşməsinə və iqtisadiyyatın canlanmasına səbəb olur. 2014-cü ildə başverən regional iqtisadi böhrandan sonra Azərbaycanda invesitisyaların həcmi azalmağa doğru başlamışdır və 2022-ci il statistikasına nəzərən qeyd edə bilərik ki, hal-hazırda investisiyanın ÜDM-də payı 14%-dir.  Həmçinin qeyd edə bilərik ki, rəqəmsallaşma sürətli inkişafı ilə əlaqədar olaraq inkişaf etmiş ölkələrdə elmin inkişafına edilən investisiyaların payı yüksəkdir, lakin ölkəmizdə elmə əsaslanan investisiyaların ÜDM-də payı 0.2% təşkil edir və 2026-ci ilə kimi daha da aşağı düşəcəyi ehtimal edilir. İnkişaf etmiş ölkələrə nümunə olaraq İsrail 5.6%, C.Koreya 5.2% qeyd edə bilərik, əlavə olaraq Avropa ölkələrində  nəticələr yüksəkdir (Məmmədov, 2022).

Ölkəmizdə MKOS-ların inkişafına və statistik olaraq göstəricilərinə nəzər yetirdikdə, 2021-ci il üzrə Azərbaycan respublikasında 355906 sahibkarlıq subyekti mövcuddur ki, ümumilikdə bu həcmin 97.3% mikro, 1.9% kiçik, 0.8% həcmi isə orta sahibkarlıq subyektinin payına düşür. Kreditləşmə dəyərlərinə baxdıqda isə 2022-ci ildə ümumilikdə biznes kreditləri 10 milyard 855 milyon manat təşkil etmişdir. MKOS-lara verilən kredit həcmi isə 5.7 milyard manat olmuşdur və biznes kreditlərinin 50% payını əhatə edir. Həmçinin qeyd edə bilərik ki, son 10 ildə bank aktivlərinin ÜDM-də payı 26,8 faizdən 44,3 faizə yüksəlib. İqtisadiyyata kredit qoyuluşlarının həcmi isə son iki ildə 9,9 milyard manatdan artaraq 17,1 milyard manata çatıb. Əvvəlki illərə nisbətən müsbət nəticələrin əldə edilməsi təqdirə layiqdir, lakin inkişaf etmiş ölkələrdə kreditləşmə göstəriciləri ÜDM-dən dəfələrlə çoxdur və ölkənin iqtisadi inkişafına birbaşa dəstək olur.

**Qrafik 2: MKOS subyektlərinə verilmiş kreditlərin maliyyələşmə mənbələrinə görə strukturu**




**Mənbə**: Azərbaycan Respublikası Mərkəzi Bankı - https://www.cbar.az/ (2023)

## Nəticə və Təkliflər

Müsair dünyada rəqəmsallaşmanın önəminin yüksəlməsi və davamlı olaraq sürətlə artması ilə bütün istehsal və xidmət sahələri onun təsiri ilə formalaşmış və hal-hazırda da inkişaf etməkdədirlər. Rəqəmsallaşmanın bank sektorunu yenidən təşkilini həyata keçirməklə rəqəmsal bankçılığın inkişafına birbaşa dəstək olmuşdur. Rəqəmsal bankçılğın əhatə dairəsinin mövcud genişliyi maliyyə xidmətlərinin inkişafının sürətlə müsbət əsasda yüksəlməsinə səbəb olmuşdur. Rəqəmsal bankların təklif etdiyi maliyyə xidmətlərinin əlçatanlıq səviyyəsinin yüksəlməsi ilə maliyyə sisteminin, maliyyə savadlılığının, cəmiyyətin həyat rifahının yüksəlməsinə, yoxsulluğun azalmasına səbəb olmaqla ölkə daxili iqtisadi artımın əldə edilməsinə səbəb olmuşdur. Nağdsız iqtisadiyyata keçidin formalaşması ilə isə rəqəmsal valyutanın yaradılmasına və ölkənin fiskal siyasətinin gücləndirilməsi ilə iqtisadi artımın yüksəlməsinə təsir etmişdir. Əlavə olaraq, MKOS-ların ölkə iqtisadiyyatında olan önəminin yüksək olması səbəbi ilə krediləşmə prosesi sahibkarlıq subyekləri üçün vacib amillərdən biridir. Kreditləşmə həcminin qeyri-bərabər vəziyyətdə olmağı MKOS-ların inkişafına birbaşa olaraq mənfi formada təsir edir. Rəqəmsal bankların təqdim etdiyi sürətli, asan, məsafədən aslı olmayaraq kredit təklifləri MKOS-ların inkişafı üçün önəmli addımdır. Nəticə etibarı ilə rəqəmsal banklar tərəfindən tətbiq edilən maliyyə texnologiyalarının vasitəsi MKOS-lar inkişafına və qarşılıqlı olaraq iqtisadi artımın əldə edilməsinə nail olunacaqdır. Rəqəmsal bankçılığın istifadəsi ilə maliyyə inklüzivlik göstəricilərinin yüksəlməsini, nağdsız iqtisadiyyata keçidin əsasının formalaşmasını və sahibkarlıq subyektlərinin kreditləşməyə olan çıxışın asanlaşdırılmasını özündə ehtiva edərək iqtisadi artımın əldə edilməsinə nail olunmuşdur. Əldə etdiyimiz bu nəticələrə əsasən qeyd edə bilərik ki, bir ölkədə iqtisadi artımın əldə edilməsi üçün əsaslı olaraq bank sektorun inkişafı mütləqdir və yenilikçi həllər ilə inkişafın təşkilinin sürətlənməsi həyata keçirilməlidir. Həmçinin, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və qabiliyyətinin artırılması, insan kapitalına və texnologiyalara olan investisiyaların artırılması, istehsal və təşkilat daxili istifadə edilən texnologiyarın və resursların təkmilləşdirilməsi və inkişafına etdirilməsi mütləqdir.

## Ədəbiyyatlar

Heimerl, Veronika, and Werner Raza (2018) Digitalization and Development Cooperation: an assessment of the debate and its implications for policy (No. 19), Briefing Paper, Austrian Foundation for Development Research (ÖFSE).

Watanabe, Chihiro, Kuniko Moriya, Yuji Tou, and Pekka Neittaanmäki (2018) “Consequences of the digital economy: transformation of the growth concept”, International Journal of Managing Information Technology, 10(2): 21-39.

Bukht, Rumana, and Richard Heeks (2017) “Defining, conceptualising and measuring the digital economy”, Development Informatics working paper, 68: 1-7.

Vives, X. (2017). The Impact of FinTech on Banking. European Economy – Banks, Regulation, and the Real Sector, (2), s. 100-101.

Khan, Y.M. (2019). An Essential Review of Internet Banking Services in Developing Countries, e-Finanse, 15, s. 74.

Navaretti, Giorgio Barba and others (2017). FinTech and Banks: Friends or Foes, European Economy – Banks, Regulation, and the Real Sector, (2): s. 9.

Danilin, Ivan (2019) "Development of the Digital Economy in the USA and China: Factors and Trends", Outlines of Global Transformations: Politics, Economics, Law, 12(6): 246-267.

Castellacci, Fulvio, and Vegard Tveito (2018) "Internet use and well-being: A survey and a theoretical framework", Research policy, 47(1): 308-325.

Marinković, Sanja, Ilija Nikolić, and Jovana Rakićević (2018) "Selecting location for a new business unit in ICT industry", Zbornik Radova Ekonomskog Fakultet Au Rijeci, 36(2): 801-825.

Maiti, Dibyendu, Fulvio Castellacci, and Arne Melchior (2019) "Digitalisation and Development: Issues for India and Beyond", in: Digitalisation and Development, Springer, Singapore , pp. 3-29.

Mićić, Ljubiša (2017) "Digital Transformation and its Influence on GDP", Economics, 5(2): 135-147.

Parviainen, Paivi, Maarit Tihinen, Jukka Kääriäinen, and Susanna Teppola (2017) "Tackling the digitalization challenge: How to benefit from digitalization in practice", International Journal of Information Systems and Project Management, 5(1): 63-77.

Raeskyesa, Dewa Gede Sidan, and Erica Novianti Lukas (2019) "Does Digitalization Increase Economic Growth? Evidence from ASEAN8 Countries", Jurnal Ekonomi Indonesia, 8(2): 267-278.

Chithra, N. ve Selvam, M. (2013). Determinants of Financial Inclusion: An Empirical Study on the Inter-State Variations in India. https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=2296096 (Erişim: 20.07.2021).

Gündüz, M. ve Özyıldırım, Y. (2019). Türkiye'de İllere Göre Finansal Kapsayıcılık Endeksinin Ölçülmesi. Bankacılar Dergisi, 52-70.

Devi, 2015 - Devi, S. K. D. (2015). Promoting financial inclusion in rural areas through co-operative banks: with special reference to DCCB, Paderu agency. International Journal of Research in Commerce, Economics and Management, 5(1), 85-88.

Sarigul, H. (2021). An Index of Financial Inclusion by Regions and Provinces in Turkey. The Journal of Accounting and Finance, (90), 79–100.

Shen, Y., Hu, W. ve Hueng, C.J. (2021). Digital Financial Inclusion and Economic Growth: A Cross-country Study. International Conference on Identification, Information and Knowledge in the internet of Things, 2020, Procedia Computer Science 187 (2021) 218–223.

Sarma, M. ve Pais, J. (2011). Financial Inclusion and Development. Journal of International Development, 613–628.

Sarma, M. (2012). Index of Financial Inclusion – A Measure of Financial Sector Inclusiveness. Berlin Working Papers on Money, Finance, Trade and Development.

Sulong, Z. (2018). The Role of Financial Inclusion on Economic Growth: Theoretical and Empirical Literature Review Analysis. Journal of Business & Financial Affairs, 7(4). doi:10.4172/2167-0234.1000356.

Compact & International, 2015. U.N.G. Compact and K. International United Nations Global Compact and KPMG International, 59.

Garg P., and Panchal. M, - Study on Introduction of Cashless Economy in India (2016). Benefits & Challenges. Journal of Business and Management (IOSR), e-ISSN: 2278-487X, p-ISSN: 2319-7668. Volume 19, Issue 4. Ver. II , Apr. 2017, PP 116-120.

Marco, A. and L. Bandiera (2004): - Monetary Policy, Monetary Areas and Financial Development with Electronic Money, IMF Working Study, IMF.

Hord, Jennifer (2005) http://communication.howstuffworks.com/electronic-payment2.htm http://www.richmondfed.org/news .

Məmmədov S. (2022). Rəqəmsal maliyyə. Finansallaşma, 10, 56-67.

Mammadov S. (2022). Digitalization, investment and economic growth: International Conference on Economics "Regional Development - Digital Economy "PROCEEDINGS BOOK. 30, 254-258.

Zandi, M., Singh, V. and Irving, J. (2013). The Impact of Electronic Payments on Economic Growth. Retrieved from https://usa.visa.com/content/dam/VCOM/ download/corporate/media/moodys-economy-white-paper-feb-2013.pdf.

Hasan, I., Renzis, T. D., and Schmiedel, H. (2012). Retail Payments and Economic Growth. Bank of Finland Research Discussion Paper, 2.

Kearney A.T., Schneider F. (2011). The shadow economy in Europe. Retrieved from https://www.atkearney.de/documents/856314/1214702/BIP_The_Shadow_Economy_in_Europe pdf/cd3277da-74c3-4a35-9ac4-97f7a0e93518 .

Agarwal, Sumit, and Robert Hauswald. (2010). “Distance and Private Information in Lending.” Review of Financial Studies 23:2757–88.

Kalpana, B.; Rao, T.V. (2017): “Role of Commercial Banks in the Economic Development of India”. International Journal of Management and Applied Science, ISSN: 2394-7926, Vol. 3, Issue 4, http://iraj.in, pp. 1 – 4.

E.Ya. Bregel, A.S. Tsagolov, Theory of credit. Moscow: State Financial Publishing (1933).

K. Marx. Capital. A critique of political economy, vol. 3: The process of capitalist production as a whole. New York: International Publishers (1894).

Griggs, R. (2012), Annual Report 2011/12 Banking Taskforce Appeals Process. Independent External Reviewer.

Yoshino, N. and Yamagami, H. (2017), Monetary Economics: Practice and Theory. Keio University Press (in Japanese).

Ardic, O. P., Mylenko , N. & Saltane, V., 2012. Access to Finance by Small and Medium Enterprises: a Cross-Country Analysis with A New Data Set. Pacific Economic Reviwer.

Eriksson von Allmen, Ulric, Purva Khera, Sumiko Ogawa, and Ratna Sahay. 2020. “Digital Financial Inclusion in the Times of COVID-19.” IMF Blog, July 1.

# Çalışma Hayatının Gözde İletişim Aracı WhatsApp Gruplarında Mobbing: Türkiye Örneği

**Kubilay Özer**

**Karamanoğlu Mehmetbey Üniversitesi, Sağlık Bilimleri Fakültesi, Sağlık Yönetimi Bölümü**

**kubilayozer@hotmail.com**

## Özet

Günümüz çalışma hayatında iletişim hız ve çeviklik açısından hiç olmadığı kadar önemli hale gelmeye başlamıştır. Dünya nüfusunun dörtte biri anlık iletişim aracı olarak WhatsApp uygulaması kullanmaktadır. Türkiye'de çalışma hayatında WhatsApp'ın avantajlarından faydalanmak isteyen yöneticiler kurumsal iletişimlerde uygulamayı tercih etmektedirler. Literatürde geleneksel mobbingin dijital mecralara taşındığı ve WhatsApp uygulamalarına yansıdığı yönde çalışmalar bulunmaktadır. Çalışmada WhatsApp'ın mobbing aracına dönüşümünü araştırmak amaçlanmıştır. Çalışma Retrospektif, kesitsel ve tanımlayıcı türden tasarlanmıştır. Türkiye'de 2018-2022 yılları arasında yapılan çalışmalar "WhatsApp" ve "Mobbing" anahtar kelimeleriyle arama motorları üzerinden derinlemesine literatür taraması yapılarak veriler toplanmıştır. Konunun sadece (n=16) içerikte yer aldığı görülmüştür. Yöneticiler iletişim amacıyla çalışanları gruplara eklemektedir. Grupta yer almak istemeyenler zorlanmaktadır. Mesajların hemen görülüp cevaplanması, son görülme ve mavi tık göstergelerin açık tutulması istenmektedir. Grup amacı dışında paylaşımlar yapılmaktadır. Grup yazışmalarında mobing kurbanlarının mesajları görmezden gelinirken, güç dengesi gözetilerek tavırlar takınılmaktadır. Gruplardan özel telefonlara ulaşılabilmektedir. Özelden yazışmalar ve tacizlerde artışlar dile getirilmektedir. Sonuç olarak çalışma hayatında mobbingin anlık haberleşme yazılımı olan WhatsApp'a taşındığı bulgulara erişilmiştir. Geleneksel zorbalık daha kısıtlı, fiziksel bir alanda meydana gelirken, akıllı telefonların zamana ve mekan sınırlarını zorlayan modern mobig aracına dönüştüğü görülmektedir. Anlık paylaşım yazılımlarında yazışma kuralları resmi olarak düzenlenmesi, mobbingle mücadelede yasal düzenlemelerin yapılması ve akademisyenlerin konuya ilgisi önerilmektedir.

**Anahtar kelimeler:** Elektronik iletişim, çalışma hayatı, mobbing.

## Abstract

In today's working life, communication has become more important than ever in terms of speed and agility. One quarter of the world's population is used as WhatsApp as a instant communication tool. Managers who want to benefit from WhatsApp's advantages in working life in Turkey prefer to apply in corporate communication. In the literature, there are studies in the direction of traditional mobbing to digital channels and reflected in WhatsApp applications. The study aims to investigate WhatsApp's transformation into Mobbing tool. The study is designed in retrospective, cross -sectional and descriptive type. Studies conducted between 2018-2022 in Turkey are collected in depth literature on search engines with "WhatsApp" and "Mobbing" keywords. It was seen that the subject is only included in the content (n = 16). Managers add employees to groups for communication purposes. Those who do not want to take part in the group are forced. The messages are asked to be seen and answered immediately, the last visibility and blue click indicators are required to keep them open. Shares are made outside the group purpose. In the group correspondence, while the messages of mobing victims are ignored, attitudes are taken into consideration by considering the balance of power. Private phones can be accessed from groups. Increases in private correspondence and harassment are expressed. As a result, the findings moved to WhatsApp, the instant communication software of the mobbing in working life. While traditional bullying occurs in a more limited, physical field, it is seen that smartphones have become a modern mobbing tool that pushes time and space limits. Officially regulated correspondence rules in instant sharing software, legal arrangements in the fight against mobbing and academics' interest in the issue is proposed.

**Keywords:** Electronic communication, working life, mobbing.

## Giriş

Kainatın var oluşundan beri iletişim ve rekabet bütün canlılar için kaçınılmaz iki olgu olarak karşımıza çıkmaktadır. İnsanlık tarihinde medeniyetler iletişim ve rekabet ile oluşturulmuştur. İletişim belli sonuçlara ulaşmak için insan davranışlarını etkilemek amacıyla duygu, düşünce, inanç, bilgi, tutum ve davranışların aktarılması süreci olarak tanımlanabilir. Günümüz iş dünyasında iletişim dijital kanallar üzerine taşınmıştır. Dijital iletişim kolay ve vazgeçilmez iş yaşamında yer almaktadır.

İletişimde bulunan insanların belli sonuca ulaşmak için elindeki gücü bir şekilde kullananların kasıtlı ve sistemli olarak birini dışlamaları saldırgan davranışlar göstererek uygulanan yıldırılar ve zorbalıklar literatürde mobbing olarak ele alınmaktadır. WhatsApp gruplarında yapılan mobbing temel hak ve insan özgürlükleri ihlal edilmektedir. Haberleşme hürriyeti ve özel hayata saygı hakkı çiğnenerek görmezden gelinmektedir.

Çalışma hayatının her alanında görülen mobbing ve birçok çalışmanın konusu olmuştur. Ancak anlık iletişim kanallarında yeterince araştırılmamıştır. Bu derleme çalışması geleneksel mobbing uygulamalarının dijital uygulamalara dönüştüğü varsayımı üzerinden tasarlanmıştır.

**Yoqurtun Resepturunun və İstehsal Texnologiyasının İşlənib Hazırlanması**

Yoqurt yağ və bərk maddələrin tərkibinə görə normallaşdırılmış süddən hazırlanmış, çöp və termofil süd streptokokların təmiz kulturaları üzərində meyvə və giləmeyvə siropları, dadvericilər və boyalar əlavə edilməklə və ya əlavə olunmadan hazırlanmış turş qıcqırdılmış süd məhsuludur. Yoğurtlar yağ tərkibinə və tətbiq olunan əlavələrə görə müxtəliflik təşkil edirlər (Бияринева и Хамагаева, 2015).

**Cədvəl 1: Fiziki və kimyəvi göstəricilər**

| Yoqurt | Göstəricilər | | | | |
|---|---|---|---|---|---|
| | Yağ,% az olmamalı | Şəkər | Quru maddə | Məhsulun turşuluğu | |
| | | | | Fermentasiyanın sonunda | Hazır məhsulda |
| Süd | 0,2-2,5 | - | 16 | 75-85$^{0}$ T | 80-110$^{0}$T |
| Meyvəli | 3,5-4 | 5 | 21 | 75-85$^{0}$ T | 80-110$^{0}$T |
| Qaymaqlı | 6-10 | 5 | 22 | 75-85 $^{0}$ T | 80-110$^{0}$T |

Yoqurt istehsalı üçün aşağıdakı xammaldan istifadə olunur:

– ikinci dərəcəli süddən aşağı olmayan, turşuluğu 19$^{0}$ T-dən çox olmayan, sıxlığı 1027 kq/m$^{3}$-dən çox olmayan süd.

– turşuluğu $20^0$ T-dən çox olmayan, sıxlığı ən azı 1030 $kq/m^3$ olan yağsız süd.
– yağın kütlə payı 30%-dən çox olmayan, $16^0$ T-dən az olmayan inək südündən qaymaq.
– tam quru inək südü.

– quru yağsız inək südü.
– çuğundur şəkəri.
– təbii meyvə və giləmeyvələrdən siroplar və digər ətirli və aromatik doldurucular.
Yoqurtun istehsalının texnoloji sxemi aşağıdakı cədvəldə verilmişdir.

**Cədvəl 2. Yoqurtun istehsalının texnoloji sxemi**

| |
|---|
| Xammalın qəbulu və hazırlanması |
| Təmizləmə (40-45$^0$C) |
| Ayırma (40-45$^0$C) |
| Normallaşdırma |
| Dispersiya |
| Pasterizasiya (92±2 $^0$C; 2-8 dəq) |
| Fermentasiya temperaturuna qədər soyudulma |
| Fermentasiya (42-45$^0$C; kəmiyyət 3-5%) |
| Qarışdırma (10-15 dəq) |
| Fermentasiya (42-45$^0$C; 2-4 saat) |
| Doldurucuların tətbiqi |
| Qarışdırma və soyudulma (8$^0$C) |
| Qablaşdırma, etiketləmə |

Toz halına salınmış bütöv və ya yağsız süd az miqdarda süddə (T=45$^0$C) qabaqcadan həll edilir. Təmizləmə südü süzgəcdən və ya süd təmizləyici separatordan keçirməklə həyata keçirilir və qaymağın köməyi ilə, normallaşdırılmış südün yağlılığı tənzimlənir.

– Separator-qaymaq ayırıcıdan istifadə edərkən hesablanmış miqdarda süd və qaymağı qarışdırmaqla normallaşdırma aparılır. Normallaşdırma zamanı qaymağı hazırlamaq üçün pasterizə olunmuş qaymaq, xama, kərə yağı istifadə etmək olar. Qarışığın pasterizasiyası təsirsiz və ya birbaşa VDP hamamında 90-94$^0$C-də 2-8 dəqiqə aparıla bilər. Sonra pasterizə edilmiş qarışıq soyudulur. 41-45$^0$ C-ə qədər soyudulmuş pasterizə edilmiş qarışıqda, bərabər nisbətdə alınan termofil streptokok və bolqar çöpü kulturasından ibarət başlanğıc kulturdan 2-dən 3% -ə qədər əlavə edilir. Bu nisbət pozulursa, məhsulda kəskin turş dad, dənəvər bir quruluş və zərdabın sərbəst ayrılması görünə bilər.
Fermentasiya maddəsini ilk 10-15 dəqiqə qarışdırılır. Qatığın keyfiyyəti üçün əsasən əhəmiyyətli olan faktorlar, doğru fermentasiya müddəti və uyğun turşuluğa nail olmaqdır. Aktiv fermentasiya ilə 80-110 T-lik tələb olunan turşuluq 42-45$^0$ C-də 2-3 saat ərzində təmin edilir.

Yoqurtu 75-80$^0$ T turşuluqda soyutmağa başlamaq daha yaxşı olar. Soyudulma zamanı o, yenə artır, lakin 100-110$^0$ T-dən çox olmamalıdır. Fermentasiyanın sonu kifayət qədər güclü laxtanın əmələ gəlməsi ilə müəyyən edilir.

Zəruri hallarda qismən (25-30$^0$C-yə qədər) və ya tamamilə (8$^0$C-yə qədər) soyudulmuş laxta meyvə və giləmeyvə doldurucuları ilə əlavə olunur, laxta ehtiyatla qarışdırılır və qablaşdırılmağa verilir.

Yetişmənin sonu kifayət qədər güclü laxtanın əmələ gəlməsi, həmçinin laxtanın turşuluğu (75-85$^0$T) ilə müəyyən edilir.

Görülən işlərin nəticəsi olaraq bioloji aktiv maddələrlə zənginləşdirilmiş qarışıq tərkibli qıcqırdılmış südlü içkilərin hazırlanması üçün komponentlərin seçimi elmi əsaslandırılmışdır. Müxtəlif miqdarda seçilmiş komponentlərin turşu laxtalarının xassələrinə uyğunluğunun və qarşılıqlı təsirinin öyrənilməsinin nəticələrinə əsasən məhsulun komponent tərkibi ilə onun keyfiyyət göstəriciləri arasında əlaqəni əks etdirən asılılıqlar alınmışdır. Əsas amin turşularının, vitaminlərin və mineralların tərkibinə dair yeni məlumatlar əldə edilmişdir ki, bu da insanların qida rasionuna bir məhsul tövsiyə etməyə imkan verir.

**Nəticə**

Zənginləşdirilmiş yoqurtun resepturası və texnologiyası işlənib hazırlanmışdır.

Bioloji aktiv əlavələrin miqdarının və əlavə edilmə mərhələsinin müəyyən edilməsi prosesin optimal şəkildə həyata keçirilməsi üçün əhəmiyyətli bir mərhələdir. Araşdırmalar göstərir ki, əlavə edilən əlavələrin miqdarının artması bioloji aktivliyi artırır. Əlavələrin optimum miqdarı isə prosesin temperaturu və qidalanma şərtlərinə bağlı olaraq dəyişə bilər.

Mikroflora seçimi, yoğurtun keyfiyyətinə və bioloji aktivliyinə təsir edir. Fərqli ilkin mikrofloranın istifadəsi, müxtəlif şəkildə yoqurtun keyfiyyətinə təsir edir. Mikroflora seçiminin doğru olması, daha yüksək bioloji aktivlik nisbəti və daha məhdud qidalanma şərtlərində də yüksək keyfiyyətli yoqurt əldə etməyə imkanı verir.

Yoqurtun keyfiyyətini təyin etmək üçün qidalanma şərtlərinin optimal olması vacibdir. Qidalanma şərtləri yoqurt istehsalının texnoloji prosesi, prosesin optimal şəkildə həyata keçirilməsi üçün əhəmiyyətli bir mərhələdir. İstehsalın həyata keçirilməsi üçün sxemin doğru hazırlanması və prosesin həyata keçirilməsi üçün uyğun avadanlıqların seçilməsi vacibdir.

**Ədəbiyyat Siyahısı**


Асланова, М.А., Устинова, А.В. и Говор И.А. (2018), Вареные колбасы для беременных и кормящих женщин // Пищевая промышленность. 3. 18-19.

Бакуменко, О.Е. (2016), Технология обогащенных продуктов питания для целевых групп. Научные основы и технология: монография. М.: ДеЛи плюс, 287.

Бияринева, И.В. и Хамагаева, И.С. (2015), Комбинированные кисломолочные продукты, обогащенные злаковыми культурами // Пищевая промышленность. 10. 28-30.

Боровик, Т.Э. (2017), Эффективность использования адаптированной смеси на основе козьего молока в питании здоровых детей первого полугодия жизни: результаты многоцентрового проспективного сравнительного исследования, 1-9

Георгиева, О.В. и Конь, И.Я. (2018), Питание беременных женщин и кормящих матерей // Молочная промышленность. 5. 44-45.

Горячева, О.А. (2017), Особенности питания беременных и кормящих женщин // Русский медицинский журнал. Т. 18, 6. 386-388.

Конарбаева, З.К. (2014), Биотехнология получения национальных кисломолочных продуктов на основе пробиотических микроорганизмов. / дис. … докт. философии (PhD) - Алматы, - 132

Фелик, С.В., Антипова, Т.А. и Лесь, Г.М. (2012), Разработка специализированного питания на основе козьего молока // Переработка молока. 10. 60–61.

Зобкова, З.С., Зенина, Д.В. и Фурсова, Т.П. (2016), О твороге как национальном продукте // Молочная промышленность. 1. 28-30.

R. Kalyenci (2019), "Yoğurdun Faydaları Nələrdir?", Memorial.com.tr, *https://www.memorial.com.tr/saglikrehberleri/yogurdun-fatdalari-nelerdir/.* (Erişim:Mart 16,2020).

# Work Motivation Differences Between Private and Public Sector

**Pini Davidov, Ph.D**

**Azrieli Academic College of Engineering, Department of Industrial Engineering and Management (Jerusalem, Israel)**

**UNEC Cognitive Economics Center, Azerbaijan State University of Economics**

**pinida@jce.ac.il**

## Abstract

This paper discusses the results of the comparative analysis of motivational profiles of personnel depending on the form of organizational ownership (public and private sectors of the economy). As a result of the collected data analysis, it was revealed that extrinsic motivation is predominant in both sectors, but it is more pronounced in the personnel of private sector.

**Keywords**: extrinsic motivation, intrinsic motivation, motivation, public sector

## Background

Economic, political and social levels of the state development largely depend upon the activity results of state authorities. It is the statesmen and officials, involved in state-maintained organs and governmental bodies of power, who do participate in nationwide goals and priorities development, likewise information and implementation of diverse aspects of state politics. Thus, the efficiency increase in the above public officials' professional activities is one of the most significant guidelines for the public service reform, alongside the technological evolution in the field of state management and administration.

Exploration of public sector effectiveness is of paramount importance owing to its influence on each citizen's everyday routine, as well as due to its unique and complicated environment. The degree of state-maintained businesses affecting rank-and-file citizens' lives is far more essential than the degree of their private counterparts' impact. The public sector provides an entire variety of services, in which its private counterpart is neither not interested, nor is completely unable to grant. The former functions within longer timeframes and at times reaches such destinations, whereas the latter hardly ever prefers to act out at all. Besides, the public sector is determined to meet the vital needs of many more population groups, unlike the ones with which the private sector is willing to deal.

Experts majoring in the sphere of human resources, who are considered keen on manpower issues, find themselves in an ongoing search for motivational ways and means for employees towards their productivity raise. A major tool designated for the raise in productivity motivation is tangible rewards that have gradually become part and parcel of wages (Lawler,1971). Use of the aforementioned rewards system at the employee salary expense of surcharge added to the salary, partially fixed and partially dependent upon employee performance, is nowadays the most widespread initiative. This system has been developed and introduced to replace the habitual tradition of the employees' salary accrual, irrespective of their performance.

It aims at the co-workers' labor productivity increase and their motivational boost. As a parameter for an employee performance evaluation and reward or bonus size determination, one of the encouraging reward payment purposes can be used, namely: production efficiency and profitability rise, output cost price decline, employee labor productivity increase, reduction of a workers' vacation days, raise in technical effectiveness of machinery and equipment, and keeping to delivery deadlines (Katz & Kahn, 1978).

Another objective is adjustment ability of an enterprise to both intrinsic and extrinsic changes. The changes that occur in the encouraging rewards arrangement might serve as the most efficient instrument for increase in employee motivation (Flannery et al., 1996).

Deliberate and systematic planning within the framework of this scheme enables more flexibility for salary distribution organization in addition to employee diligence (Green, 2003). It is possible to vary methods of employee rewards and benefits, using both fiscal and non-fiscal bonuses. Non-fiscal ways of rewarding may be, for instance, a genuine interest shown towards their immediate field of competence, its high assessment, moral satisfaction, further promotion, an ability to manage this or that situation at work. All the aforesaid ways of encouragement are partly based upon human needs theory by a prominent psychologist Maslow (Maslow, 1954). Dubin presents three major types of non-tangible bonuses that are displayed as follows: via an employee's promotion within some corresponding stiff hierarchy and through an employee's open testimony sharing of his preferences by means of extension of his rights and opportunities, likewise through a positive and good-natured attitude to him, which, in its turn, is capable of raising his personal self-esteem (Dubin, 1968).

Efficient functioning of state structures is determined, as far as is known, by existence of a certain correlation between the performance outcome of these authorities and costs invested to accomplish these very results. To optimize the above-mentioned index, one has to amplify the scientific methodological component required for solution of such problems, including improvement of forms and principles and methods of statesmen's labor motivation. Henceforth employee motivation strengthening is considered one of the three "key assignments" in administering the public sector (Green, 2003).

Authors do not see any fundamental difference between employee motivation in the private sector and that in the state sector. Rainey considers that the public sector frequently comes across unique issues to be addressed in the field of employee motivation, yet this should by no means prevent managers of state institutions from taking advantage and applying much of the general literature dedicated to the subject matter of motivation (Rainey,1999). Wright claims that the public sector must not possess its own theories of human motivation. In his opinion, the general theory of organizational behavior is supposed to be able to include meaningful differences between the two sectors under review (Wright & Bradley, 2011). Durant et al. (2006) assume that the theories underlying the traditional motivational program are reliable enough to be later used as some clear-cut heuristic technique for the development of brand-new programs needed for the public sector transformation.

Buelens and Van den Broeck proved that such factors as gender, age and educational background were at least as crucial in terms of the motivational difference’s interpretation as the factor of employment. In addition, they found that the hierarchic level is much more critical and decisive in explaining the above motivational discrepancies (Buelens & Van den Broeck, 2007).

On the whole, research confirms that motivation is an individual phenomenon. Therefore, managers ought to abstain from their subordinates' classification, whereas they are to view those who report to them as full-fledged individuals. By doing so, managers may attract both traditional ideas and novel motivational theories.

Rainey and Steinbauer define public service motivation as an altruistic notion designated to serve the interests of some human group, some state or even the entire humankind (Rainey , 1999). Public service motivation (PSM) theory binds statesmen's and officials' conduct to its social role expectations, dictated top down by state service establishments. This theory yields the following viewpoint: statesmen and officials are unique and differ from their peers from the private sector, since, first and foremost, they are driven by their intrinsic motivation, and not by the extrinsic one, such as, for example, financial benefits. Brewer and Selden (1998) believe that the inner motivation is a powerful force that urges the statesmen and the officials to act for the sake of the entire society

On the whole, the idea of the public service motivation can be perceived as a definite push to carry out social activities, a sort of a clandestine force that is expressed through the selfless aid to near and dear, acting on behalf of the entire state. Thus, it is the process of the statesmen's and the officials' motivation that can be considered satisfactory, first for the social interests, and then for the individual needs and requirements, in this very sequence and not in the opposite one.

One of the key tasks in the state management and administration, as of today, is the urge to establish such a system, which would motivate the clerks and could cater for the utmost efficiency in taking advantage of the manpower potential in state departments, as well as raising statesmen's reliability and professionalism.

Henceforth, state clerks and officials are a certain "stratum" of employees possessing individual peculiarities. Statesman's motivational issues are closely intertwined with the problem of state authorities' performance, on the whole. Public service realia lie in the fact that financial stimuli are never the sole factor that favorably influences public sector employees’ motivation. In a number of research findings analyzed, it has been determined directly that money is often not the key motivational factor for public sector clerks and officials. Other non-tangible stimuli serve as an especially significant incentive for them. Thus, for a certain number of clerks these are ranks, degrees, grades, and other relevant insignia. After all, their importance lies in symbolizing their position, standing for their degree of qualification, and testifying to their loyal attachment to a separate guild of public officials.

**Research Methodology**

This current research aims exploration of motivation sector-wise and presentation of a sectorial view. The stated goal of this study has made it possible to formulate the following tasks:

1) description of motivational profile of Israel's public sector employees;

2) to develop a comparative analysis of motivational profiles of employees in public and privet sectors.

Below is the main survey sample: public institutions staff, Israeli private companies personnel, involved in various fields of their professional lore, such as education, culture, public service, communications, municipal services, household domain, etc.

A total of seven hundred sixty-five (765) people took part in the survey, at the ages of 18-65, residents of Jerusalem, and its suburbs. Of them:

- public institution staff members – 585 people (44.6% - males, 54.4% - females);
- private company personnel reps – 180 people (50.5% - males, 49.5% - females).

The test questionnaire by S. Ritchie and P. Martin was selected to research a motivational profile (Ritchie & Martin, 1999). The above authors developed their own 12-factor motivational profile model. This model presents both traditional motivational factors (physiological and social) and some new ones – the so-called psychological motivators:

1. Money and tangible rewards.
2. Physical condition.
3. People Contact.
4. Relationship.
5. Recognition.
6. Achievement.
7. Power and Influence.
8. Interest and usefulness.
9. Structure.
10. Variety and change.
11. Creativity.
12. Self-development.

**Results**

Results of the mean value analysis of motivational factors in private sector are demonstrated in Figure 1.

**Figure 1: Mean value analysis of motivational factors in private sector**




The results obtained vividly testify to the fact that for private sector reps the following motivational factors are of major importance: "Money and tangible rewards" (41.25%), "Power and Influence" (33.32%), "Interest and usefulness" (32.35%) and "Recognition" (30.87%). The least meaning ever within the motivational structure belongs to "Achievement", interpreted as the urge to set up complex goals and objectives to be accomplished further on (12.6%).

For public sector reps, "Money and tangible rewards" is also quite meaningful (34.64%). However, the following factors are considered not less crucial, namely: "Structure" (33.45%), "People Contact" (33.45%), "Interest and usefulness" (32.38%), and "Recognition" (32.03%). The least significance has been attained to the factor "Achievement" (13.7%), likewise amongst the private sector reps.

Results of the mean value analysis of motivational factors in public sector are demonstrated in Figure 2.

**Figure 2: Mean value analysis of motivational factors in public sector**




Mean value analysis of motivational source indicators demonstrate a statistically meaningful difference among the private and public sector representatives. To verify the assumption put forth on statistically significant differences in the motivational structure among the private and public sector representatives, all the data have been exposed to the stats processing by means of the internal consistency measure Cronbach's alpha.

Findings obtained in the course of the research of public and private officials' sectorial motivational peculiar features and traits are summarized in Table 1.

**Table 1: Comparison between motivational factors' mean values sectorwise**

| No | Motivational factors | Private sector $\mu(\sigma)$ | Public sector $\mu(\sigma)$ | p-value (Cronbach's alpha) |
|---|---|---|---|---|
| 1 | Money and tangible rewards | 41.25 (14.96) | 34.64 (15.14) | p<0.001* (0.862) |
| 2 | Physical condition | | no differences detected | |
| 3 | Structure | 26.39 (10.04) | 33.45 (13.06) | p<0.001* (0.661) |
| 4 | People Contact | 26.39 (10.04) | 33.45 (13.06) | p<0.001* (0.665) |
| 5 | Relationship | | no differences detected | |
| 6 | Recognition | | no differences detected | |
| 7 | Achievement | 12.60 (4.65) | 13.7 (4.61) | 0.038* (0.831) |
| 8 | Power and Influence | 33.32 (17.70) | 25.93 (12.51) | p<0.001* (0.901) |
| 9 | Variety and change | 24.78 (9.35) | 27.09 (7.49) | 0.017* (0.638) |
| 10 | Creativity | 24.88 (10.37) | 28.32 (9.41) | 0.003* (0.683) |

| | | |
|---|---|---|
| 11 | Self-development | no differences detected |
| 12 | Interest and usefulness | no differences detected |

*Statistically significant differences

## Conclusions

The data show the diverse orientation of motivation among public sector employees and co-workers of the private sector companies of Israel. On the one hand, the research findings show that the ownership type does not at all affect the dominant factor of motivation, whereas, on the other hand, the above indicate statistically significant differences and discrepancies shaped up and revealed in terms of the power pertaining to the motivational factors among personnel reps of the organizations of different type of ownership.

## References

Brewer, G.A. and Selden, S.C. (1998). Whistle blowers in the federal civil service: new evidence of the public service ethic. Journal of Public Administration Research and Theory, Vol. 8, no. 3, pp. 413–439.

Buelens, M. and van den Broeck, H. (2007). An analysis of differences in work motivation between public and private sector organizations. Public Administration Review, Vol. 67, no. 1, pp. 65–74.

Dubin, R. (1968). Human Relations in Administration. New Jersey: Prentice Hall.

Durant, R. F., Kramer, R., Perry J. L., Mesch, D., Paarlberg, L. (2006). Motivating employees in a new governance era: the performance paradigm revisited. Public Administration Review, Vol. 66, no. 4, pp. 505–514.

Flannery, T. P., Hofrichter, D. A., Platten, P. E. (1996). People, performance, and pay: Dynamic compensation for changing organizations. New York: The Free Press.

Green, R. (2003). Variable Pay: How to manage it Effectively. Alexandria: White Paper.

Katz, D., Kahn, R.L. (1978).The Social Psychology of Organization, New York: John Wiley and Sons.

Lawler, E. (1971). Pay and Organization Effectiveness: A Psychological View. New York: McGraw-Hill.

Maslow, A. (1954). Motivation and Personality. New York: Harper Collins.

Rainey, H.G., Steinbauer, P. (1999). Galloping elephants: developing elements of a theory of effective government organizations. Journal of Public Administration Research and Theory, Vol. 9, no. 1, pp. 1–32.

Reem ,Y. (2011). Motivating Public Sector Employees. Hertie School of Governance – Working Papers, no. 60.

Ritchie, S., Martin, P. (1999). Motivation Management. Gower Pub Co, London.

Wright, E. B. (2011). Public Sector Work Motivation: Review of Current Literature and a Revised Conceptual Model. Journal of Public Administration and Theory, Vol. 11, no. 4, pp. 559-586.

# Naxçıvan Muxtar Respublikasında Sahibkarlıq Fəaliyyəti Və İnnovasiya Yönümlü İnkişafına Təsir Edən Amillər

**Abbas Musayev**

**Naxçıvan Dövlət Universiteti, İqtisadiyyat kafedrası, doktorant**

**abbas.elcinoglu@gmail.com**

**ORCID NO: 0009-0005-6096-9635**

## Xülasə

Bildiyimiz kimi, sahibkarlıq subyektləri bazar rəqabətinin stimullaşdırılmasında, iş yerlərinin sayının artırılmasında, əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasında, texnoloji innovasiyaların inkişafının təşviqində, milli iqtisadiyyatın inkişafının stimullaşdırılmasında və dövlətdə sosial sabitliyin qorunmasında mühüm rol oynayır.

Müasir sahibkarlığın innovativ xarakteri artan istehlak tələbi, bilik iqtisadiyyatına keçid, bazar agentləri arasında qarşılıqlı əlaqənin genişlənməsi, qlobal şəbəkə strukturlarının formalaşması ilə müəyyən edilir. Sahibkarlıq subyektlərinin innovasiya yönümlü fəaliyyəti kəskin rəqabət şəraitində sahibkarlara bazar payını qorumaq və yenilərini əldə etmək üçün yeni imkanlar açır.

Bu araşdırma Naxçıvan Muxtar Respublikasında sahibkarlıq subyektlərinin innovasiya yönümlü fəaliyyət səviyyəsini qiymətləndirməyi hədəfləyir. Məqalədə tədqiqatımızın hədəf nöqtəsi Naxçıvanda regional innovasiyanın inkişafına təsir edən amillərlə bağlı aşağıdakı suallara cavab tapmaqdır:

- Naxçıvan regionu daxilində innovasiya prosesinin başlıca hərəkətverici qüvvəsi nədir ?;
- Naxçıvan regionunda sahibkarlığın innovativ inkişafı üçün hansı risklər ən təhlükəlidir ?;
- Naxçıvan regionunun iqtisadi, demoqrafik və maliyyə inkişafı səviyyəsinin mikro, kiçik və orta sahibkarlıq subyektlərinin innovasiya yönümlü fəaliyyətinə necə təsir etdiyini ?.

Məqalədə tədqiqatın əsas hissəsi regional səviyyədə sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinə və bu fəaliyyət nəticəsində onlar tərəfindən yaradılan əlavə dəyərin təhlilinə həsr olunmuşdur.

**Açar sözlər:** Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, sahibkarlıq fəaliyyəti, innovasiyalar, innovasiya amilləri.

## Resume

As we know, business entities play an important role in stimulating market competition, increasing the number of jobs, improving the quality of life of the population, promoting the development of technological innovations, stimulating the development of the national economy, and protecting social stability in the state.

The innovative nature of modern entrepreneurship is determined by the increasing consumer demand, the transition to the knowledge economy, the expansion of interaction between market agents, and the formation of global network structures. Innovation-oriented activity of business subjects opens up new opportunities for entrepreneurs to preserve their market share and acquire new ones in the conditions of tough competition.

This study is aimed at assessing the level of innovation-oriented activity of business entities in the Nakhchivan Autonomous Republic. The goal of our research in the article is to find answers to the following questions regarding the factors affecting the development of regional innovation in Nakhchivan:

- What is the main driving force of the innovation process within the Nakhchivan region?
- What are the most dangerous risks for the innovative development of entrepreneurship in Nakhchivan region?;
- How does the level of economic, demographic and financial development of the Nakhchivan region affect the innovation-oriented activities of micro, small and medium enterprises?

The main part of the research in the article is devoted to the innovative activity of business entities at the regional level and the analysis of the added value created by them as a result of this activity.

**Keywords:** Republic of Azerbaijan, Nakhchivan Autonomous Republic, entrepreneurial activity, innovations, innovation factors.

## Giriş

Ölkənin müstəqilliyi onun istehsal və maliyyə komponentlərinin sərbəst və məqsədyönlü şəkildə idarə olunması, hüquqi-normativ bazanın tələblərinin öncüllük təşkil etməsi, texnika və texnologiyanın nəaliyyətlərinin təcrübi müstəviyə köçürülməsi və aktiv istifadəyə start verilməsi, fərdi təşəbbüsdən ölkənin və regionların tələblərini qarşılayacaq şəkildə tətbiq olunması, insanların yaradıcılıq qabiliyyətlərinin sahə-ərazi və digər təyinatlarda istifadə edilməsi, həmçinin digər ehtiyacların və fəaliyyətlərin sistemli şəkildə və kompleks tələblər nəzərə alınmaqla həyata keçirilməsini şərtləndirməkdədir.

Sahibkarlıq fəaliyyətinin xarakterizə edilməsində bir sıra xarakter və xassələr ümumiləşdirilmiş şəkildə vahid müstəvidə birləşdirilməkdədir, insanların fərdi təşəbbüslərinin və mütərəqqi ideyalarının, məcmu bilik, bacarıq və məqsədyönlü fəaliyyətlərinin məcmusu kimi ifadə olunmaqdadır.

"Təchizat (tədarük) → istehsal → mübadilə (müxtəlif üsullarla reallaşdırma, birbaşa və dolayı yollarla satış)" marşrutunun hər bir mərhələsini, hətta həmin mərhələlər daxilində formalaşmış hər bir ardıcıllıq manqasını əhatə edən sahibkarlıq fəaliyyətinin "ixtisaslaşma - peşə - məşğuliyyət" təsnifləşdirmələri özünəməxsus qaydada formalaşdırılmaqdadır və iqtisadi sistemin təzahüründə aydınlaşdırma, dəqiqləşdirmə, qiymətləndirmə, iqtisadi təhlillərin icrası kimi funksiyaları özündə ehtiva etməkdədir (Quliyev, 2006).

Sahibkarlıq fəaliyyətinin informasiya müstəvisinin tələblərə uyğun təşkili yarana biləcək spesifik və ümumi xarakterli problemlərin qarşısının alınması ilə yanaşı, artıq mövcud olanların aradan qaldırılmasında da öz sözünü demiş olur. Hər bir fəaliyyətlə olduğu kimi, istiqamətlər üzrə bölüşdürmənin təməli haqda məlumatlar öyrənilməli və sistemləşdirilməlidir. Haqqında bəhs olunan qruplaşdırma və təhlil fəaliyyətinin sahibkarlıq "düşüncəsinin" tələbləri ilə uyğunlaşdırılması istər ilkin məlumatlandırma, istər sə də yekun nəticələrin fərdi bloklar şəklində aşkarlanması və ümumiləşdirilməsi bazasında ifadə edilmə fəaliyyətlərinin məcmusuna dəlalət etməkdədir.

Sahibkarlıq fəaliyyətinin vəzifələrinin və prinsiplərinin vahid məcmu şəklində təzahür etməsi, eyni zamanda, müvafiq yöndə icra olunmalı mərhələlərin ardıcıllığına, onun əsaslandırılmış olmasına, kəmiyyət-keyfiyyət parametrlərinin qarşılıqlı əlaqə və asılılıq şəklində mövcudluğu məsələnin nə dərəcədə aktual və əhəmiyyətli olduğunu təsdiqləməkdədir.

Müasir sahibkarlığın innovativ xarakteri artan istehlak tələbi, bilik iqtisadiyyatına keçid, bazar agentləri arasında qarşılıqlı əlaqənin genişlənməsi, qlobal şəbəkə strukturlarının formalaşması ilə müəyyən edilir. Sahibkarlıq subyektlərinin innovasiya yönümlü fəaliyyəti kəskin rəqabət şəraitində sahibkarlara bazar payını qorumaq  və yenilərini əldə etmək üçün yeni imkanlar açır. Məhz bu baxımdan məqalədə **tədqiqatımızın məqsədi** Naxçıvan Muxtar Respublikasında sahibkarlıq subyektlərinin innovasiya yönümlü fəaliyyət səviyyəsini qiymətləndirməkdir. Məqalədə **tədqiqatımızın başlıca vəzifəsi** Naxçıvan Muxtar Respublikasında innovasiyanın inkişafına təsir edən amillərlə bağlı suallara – region daxilində innovasiya prosesinin başlıca hərəkətverici

qüvvəsinin nədən ibarət olduğu, regionda sahibkarlığın innovativ inkişafı üçün hansı risklərin mövcudluğu, regionun iqtisadi, demoqrafik və maliyyə inkişafı səviyyəsinin mikro, kiçik və orta sahibkarlıq subyektlərinin innovasiya yönümlü fəaliyyətinə necə təsir etdiyi suallarına cavab tapmaqdan ibarətdir.

Beynəlxalq təcrübə göstərir ki, dünyanın bir çox regionları son onillikdə innovativ dayanıqlı inkişafa böyük diqqət yetirirlər. Bu təcrübələrin araşdırma nəticələri göstərir ki, dünya bazarında ən böyük innovativ fəaliyyət beynəlxalq bazarlarda fəaliyyət göstərən böyük sahibkarlıq subyektləri tərəfindən həyata keçirilir (Metcalfe, 2009: s. 25). Nəzərə çarpan bir fakt haqqında parantez açaraq qeyd edək ki, yeni texnologiyaların tətbiqi ehtimalı xarici sərmayənin yüksək səviyyədə olduğu regionlarda daha çox müşahidə olunmaqdadır (Freeman, 1995: s. 39). Qeyd olunanları nəzərə alaraq Naxçıvan Muxtar Respublikasında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin innovativ fəaliyyətinə investisiya təşviqi formatında dövlət dəstəyinin artırılması, o cümlədən regionun investisiya cəlbediciliyi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi və bu yöndə araşdırma işlərinin genişləndirilməsi zəruridir.

Naxçıvan Muxtar Respublikasında sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin və bu fəaliyyət nəticəsində onlar tərəfindən yaradılan əlavə dəyərin təhlili zamanı müşahidə, qruplaşdırma, müqayisəli təhlil, zəncirvarı əlaqə və zəncirvarı asılılıq **tədqiqat metodlarından** istifadə olunmuşdur.

**Tədqiqatın metodologiyasını və ya metodoloji əsasını** regional səviyyədə sahibkarlıq subyektlərinin innovasiya yönümlü fəaliyyəti və innovativ fəaliyyətə təsir edən amillərin tədqiqini əks etdirən fundamental araşdırmalar, K.Friman, S.Metkalf, R.Nelson, P.Patel, K.Pavitt, L.Saute kimi xarici müəlliflərin mövzuya aid əsərləri, bu sahədəki tədqiqatların nəticələrini əks etdirən nəzəri müddəalar, ölkə Prezidentinin fərman və sərəncamları, elmi-praktik konfransların materialları, regionun innovasiya mühitinin yaxşılaşdırılmasını təmin edən proqram və layihələr, dövrü mətbuat və internet materialları təşkil etmişdir.

Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi yollarından biri sahibkarlıq subyektlərinin innovasiya yönümlü fəaliyyəti və ya innovativ inkişaf yolunu başlıca hədəf kimi seçmələridir (Bayramov, 2019). Regionun mikro, kiçik və orta sahibkarlıq subyektlərinin innovativ fəaliyyətinə təsir edən regionun iqtisadi, demoqrafik, maliyyə və s. kimi bir çox mühit amillərinin mürəkkəbliliyi, bir-biri ilə qarşılıqlı əlaqə və asılılığı regionun investisiya risklərinin hesablanmasını çətinləşdirir ki, bu da **tədqiqatın başlıca məhdudiyyətidir.**

**Ədəbiyyatların icmalı**

Tədqiqat ilə bağlı istinad edilən ədəbiyyatların öyrənilməsi nəticəsində məlum olmuşdur ki, K.Friman, S.Metkalf, R.Nelson, P.Patel, K.Pavitt, L.Saute kimi xarici alimlər bütün səviyyələrdə innovasiya sistemlərinin inkişaf qanunauyğunluqlarını, innovasiyanın dövlət tənzimlənməsinin üsul və vasitələrini, innovasiya inkişafının sosial aspektlərini, müəssisənin innovativ potensialının problemlərini öyrənmişlər. Bu mütəxəssislərin araşdırmalarının ən populyar mövzuları innovasiya, innovativ iqtisadiyyat və ərazilərin innovativ inkişafı mövzularıdır.

**Sahibkarlıq Fəaliyyəti və İnnovasiya Anlayışı**

Sahibkarlq fəaliyyəti özünün bütün yönləri ilə ölkənin iqtisadi sisteminin tərkib ünsürü hesab olunmaqdadır. Klassik iqtisadçılar sahibkarlıq anlayışını risk və gəlirlə bağlı olaraq dəyərləndirirlər. Bu yanaşmada sahibkarlar istehsal prosesindəki risk amilinə qarşılıq gəlir əldə etmək məqsədilə istehsal amillərindən istifadə edirlər. Klassik iqtisadçılara görə, istehsal riskinə və satış prosesindəki

qeyri-müəyyənliyə baxmayaraq iş qüvvəsi, torpaq və kapital amillərini bir arada toplayan və istehsal prosesinə daxil edən insanlara təşəbbüskar insanlar və ya sahibkar deyilir. Başqa sözlə desək, təşəbbüskarlıq termini və ya sahibkarlıq anlayışı insanların risk alma, fürsət ardınca qaçma və bu fürsətləri həyata keçirməklə yenilik etmə səyinə bütövlükdə verilən addır (Ramanunny, 2003).

Belə ki, istər iqtisadi rayonlaşma, istərsə də inzibati ərazi vahidləri baxımından bölgülərdə onun oynadığı rol, yaratdığı müxtəlif məzmunlu effektlər danılmazdır. Belə ki, məşğulluq səviyyəsinin yüksəldilməsi, əhali gəlirlərinin artırılması, hər hansı məhsul növünə olan fərdi yaxud istehsal tələbatının ödənilməsi kimi məsələlərdə sahibkarlıq sektorunun xüsusi çəkiləri özünün əhəmiyyətini qorumaqdadır.

Digər tərəfdən bu sektorun imkanlarının irəlilədilməsinə yönəldilən addımların günü-gündən sürətləndirilməsi, dövlətin bu sahədə oynadığı rolun genişləndirilməsi, mütərəqqi tənzimləmə mexanizmlərinin istismara verilməsi də bəhs olunan sahədə müsbət mənada öz sözünü deməkdədir. Təcrübədə müvafiq mənzərəyə daha aydın baxışın təmin edilməsi məqsədilə digər iqtisadi tədqiqatlarla yanaşı cədvəl 1-in nəzərdən keçirilməsi tövsiyyə olunmaqdadır.

**Cədvəl 1: İqtisadi rayonlar, inzibati ərazi vahidləri və iqtisadi fəaliyyət növləri üzrə yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı, vahid**

| | 2020 | | | | 2021 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | | Cəmi | o cümlədən | | |
| | | Mikro | Kiçik | Orta | | Mikro | Kiçik | Orta |
| Ölkə üzrə cəmi | 167475 | 167271 | 161 | 43 | 118719 | 118537 | 138 | 44 |
| Bakı şəhəri | 30535 | 30388 | 121 | 26 | 37515 | 37414 | 85 | 16 |
| Naxçıvan MR | 2431 | 2423 | 2 | 6 | 2419 | 2409 | 4 | 6 |

Mənbə: www. stat.gov.az/enternrenership/ 005

Cədvəl 1-də 2020 və 2021-ci illər üzrə ümumilikdə ölkədə, o cümlədən onun paytaxtı Bakı şəhəri ilə Naxçıvan MR-də yeni yaradılan mikro, kiçik və orta ölçülü sahibkarlıq subyektləri haqqında məlumatlar öz əksini tapmışdır. Onun əsasında demək mümkündür ki, əgər 2020-ci illə müqayisədə 2021-ci ildə haqqında bəhs olunan sahibkarlıq subyektlərinin ölkə miqyasında say ifadələrində ümumilikdə **48756 vahid** (118719 - 167475) və ya **29,1%** (1 - 118719 : 167475) geriləmə baş vermişdirsə, onun tərkib elementləri baxımından müvafiq hərəkətlənmə fərdi qaydada aşağıdakı mənzərə ilə fərqlənməkdədir:

a) mikrosubyektlər üzrə *geriləmə* - **48734 vahid** (118537 - 167271) və ya **29,1%** (1 - 118537 : 167271) olmuşdur;
b) kiçik ölçülü sahibkarlıq subyektləri üzrə *geriləmə* - **23 vahid** (138 - 161) və ya **14,3%** (1 - 138 : 161) səviyyəsində qərarlaşmışdır;
c) orta ölçülü sahibkarlıq subyektləri üzrə *artım* aşağıdakı səviyyəyə bərabər olmuşdur: **1 vahid** (44 - 43) və ya **2,3%** (44 : 43).

Birinci tədqiqat mərhələsi üzrə müqayisəliliyin təmin olunması üçün eyni göstəricilərin Naxçıvan Muxtar Respublikası üzrə kəmiyyət ifadələrinə də nəzər yetirmək məqsədəuyğun olardı. Bu halda ümumilikdə region üzrə mikro, kiçik və orta ölçülü sahibkarlıq subyektlərinin sayında *geriləmə* həcmi **12 vahid** (2419 - 2431) təşkil etməklə **0,5%-lik** (1 – 2419 : 2431) xüsusi çəkiyə bərabər

olmuşdur. Bununla belə fərdi tərkib istiqamətləri üzrə hərəkətlənmənin vəziyyəti aşağıdakı bəndlərlə xarakterizə oluna bilər:

a) mikrosubyektlər üzrə *geriləmə* - **14 vahid** (2409 - 2423) və ya **0,5%** (1 - 2409 : 2423) olmuşdur;
b) kiçik ölçülü sahibkarlıq subyektləri üzrə *artım* - **2 vahid** (4 - 2) və ya **50%** (4: 2) səviyyəsində qərarlaşmışdır;
c) orta ölçülü sahibkarlıq subyektləri üzrə vəziyyət həm mütləq, həm də nisbi ifadədə sabit qalmışdır (**6 vahid** olaraq).

Digər tərəfdən, daxili istiqamətlər üzrə sistemli müqayisələrin icra olunması da mühüm əhəmiyyət kəsb etməkdədir. Deyilən məsələdə Bakı və Naxçıvan regionu üzrə qarşılaşdırmaların vəziyyətinə aydınlıq gətirək. Belə ki, sahəvi müstəvidə hərəkətlənmənin hansı yöndə davam edəcəyi də özünəməxsusluğu ilə fərqlənməkdədir.

İcra olunan qarşılaşdırmalar nəticəsində 2020 və 2021-ci illərə aidiyyatı ilə fərqlənən aşağıdakı informasiyalar öz əksini tapmaqdadır:

- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə Bakı şəhəri üzrə uyğun sahibkarlıq subyektlərinin ümumi sayında **6980 vahidlik** (37515 – 30535) və ya **22,9%-lik** (37515 : 30535) *artım* baş verdiyi halda, bu göstərici Naxçıvan regionu üzrə *geriləmə* **12 vahidə** (2419 – 2431) və ya **5,0%-ə** (1 – 2419 : 2431) bərabər olmuşdur. Onu da qeyd etmək yerinə düşər ki, Bakı miqyasında mümkün olmuş *artım* ancaq mikrosubyektlərin sayında tərənnüm olunmuşdur: **7026 vahid** (37414 - 30388) və ya **23,1%** (37414 : 30388). Kiçik və orta ölçülü sahibkarlıq subyektlərinin sayında müvafiq olaraq **29,8%** (1 – 85 : 121) və **38,5%** (1 – 16 : 26);
- ✓ əgər 2021-ci ildə Naxçıvan regionunun iqtisadi sistemində sahibkarlıq subyektlərinin böyük xüsusi çəkiyə malik olan istiqamətlərini kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (**1167 vahid, 48,2%**), ticarət, nəqliyyat vasitələrinin təmiri (**316 vahid, 12,9%**), nəqliyyat və anbar təsərrüfatı (**190 vahid, 7,9%)** və digər sahələr (**456 vahid, 18,8%**) təşkil etmişdirsə, Bakı şəhəri üzrə bəhs olunan istiqamətlər sırasında mövcud olan sahələr aşağıdakı xüsusi çəkilərlə fərqlənməkdədir: kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (**3098 vahid, 8,3%**), ticarət, nəqliyyat vasitələrinin təmiri (**9831 vahid, 26,2%**), nəqliyyat və anbar təsərrüfatı (**9640 vahid, 25,7%**) və digər sahələr (**6783 vahid, 18,1%**).

Yaranmış vəziyyət, eyni zamanda, ölkə əhalisinin sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün Bakı şəhərinə doğru istiqamətlənməsinə də şahidlik etməkdədir. Lakin bəhs olunan yöndə sahə və istiqamətlərin daha cəlbedici olması əlaməti üzrə seçimlərin edilməsini nəzər almaq lazımdır.

Digər məsələlərlə yanaşı regionlarla müqayisədə mərkəzdə yenilikçiliyin, fəaliyyət təkmilləşdirmələrinin və transformasiyalarının, bəhs olunan yönlərdə icra edilən elmi tədqiqatların daha yüksək olmasıdır.

Məsələnin ikinci tərəfini innovasiyalar təşkil etməkdədir. Başqa sözlə desək, müasir iqtisadiyyatın inkişafı getdikcə daha çox elmi-texniki tərəqqi, ilk növbədə yüksək texnologiyaların inkişafı, tətbiqi və istifadəsi ilə müəyyən edilir (Gupta, 2007). İqtisadi qloballaşma, informasiya mübadiləsinin sürətinin artması, dünya bazarlarında rəqabətin ən yüksək səviyyəsi şəraitində innovasiyalar iqtisadi sistemin bütün səviyyələrində rəqabət üstünlüklərinin formalaşmasında ümumi qəbul edilmiş amilə çevrilmişdir (Григорьева, 2013; Гурков, 2003). İqtisadi artım elmi-tədqiqat işlərinə investisiya qoyuluşu, innovasiya fəallığının artırılması və kadrların təkmilləşdirilməsi hesabına təmin edilir (Seppa, 2012).

İnnovasiyalar istər fərdi qaydada, müstəqilm şəkildə istehsalın, istərsə də ümumilikdə fəaliyyətin yenilənməsi, mütərəqqi təməllərə keçidi, obyeklər üzrə transformasiya tədbirlərini nəzərdə tutmaqdadır. İnnovasiya prosesləri özündə yeni yaradılan məhsulları, fəaliyyət üzrə mənimsənilən texnoloji prosesləri, yaxud artıq mövcud olan məhsul və mərhələlərin təkmilləşdirilməsini nəzərdə tutmaqdadır. Həmin proseslərin əyani nümunələrindən biri kimi elmi tədqiqatlar qəbul olunmaqdadır. Deyilənlərlə yanaşı kənardan əldə edilərək fəaliyyət tətbiq olunan yeniliklər də istisna deyildir (Bağırov, 2023: s. 112).

**Sahibkarlıq Subyektləri Tərəfindən Yaradilan Əlavə Dəyər**

Cəmiyyətin iqtisadi sisteminin təşəkkülündə özünəməxsus yerə malik olan sahibkarlıq subyektləri şəxsi təşəbbüs, yeni ideyalarını həyata keçməsi və rikslərlə üzləşərək ona sinə gəlməsi kimi addımları özündə birləşdirməkdədir. Qeyd etmək yerinə düşər ki:

1. Sahibkarlıq özünəməxsus elmi fəaliyyət istiqaməti kimi də ifadə edilməlidir;
2. Sahibkarlığın sistemli təşəkkülü zamanı onun mahiyyəti, prinsipləri və vəzifələrinə aydınlığın gətirilməsi zərurəti ortaya çıxmaqdadır (Niftullayev, 2002).

Sahibkarlıq fəaliyyəti mövcud olduğu cəmiyyətuin reallıqlarını ifadə etməklə yanaşı onun iqtisadi həyatında daşıdığı öhdəlikləri sərgiləmiş olur. Bu sırada sahibkarlıq subyektlərinin fəaliyyəti nəticəsində mövcud olduqları cəmiyyətin məqsədlərinə, onun ehtiyaclarının qarşılanmasına yönəldilən addımların məcmusu kimi qiymətləndirilməlidir (Mahmudov və Bağırsoylu, 2019). Sahibkarlıq fəaliyyətinin ilk nəticələrindən biri onlar tərəfindən fəaliyyətin təşkili və əlavə dəyərin yaradılmasıdır ki, bu məqsədlə 2020 və 2021-ci illərin kəmiyyət-keyfiyyət göstəricilərini əhatə edən cədvələ diqqət yetirmək yerinə düşərdi.

**Cədvəl 2: İqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyər, mln. manat**

| İqtisadi fəaliyyət növləri | 2020 | | | | 2021 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Mikro | Kiçik | Orta | Cəmi | Mikro | Kiçik | Orta |
| **İqtisadi fəaliyyət növləri üzrə cəmi** | **10941,2** | **4455,2** | **1617,9** | **4868,1** | **13956,1** | **5790,8** | **2384,3** | **5781,0** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 406,3 | 88,5 | 97,4 | 220,4 | 391,7 | 96,6 | 98,8 | 196,3 |
| Sənaye | 1481,9 | 149,5 | 187,5 | 1144,9 | 1 895,8 | 196,3 | 240,8 | 1458,7 |
| Tikinti | 1590,3 | 277,7 | 269,8 | 1042,8 | 1 804,3 | 343,8 | 333,6 | 1126,9 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 3 220,6 | 2 304,1 | 293,3 | 623,2 | 4 563,5 | 2 946,2 | 763,0 | 854,3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 772,3 | 304,4 | 106,6 | 361,3 | 1 076,7 | 553,6 | 154,1 | 369,0 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 424,2 | 307,0 | 29,2 | 88,0 | 676,3 | 397,5 | 74,4 | 204,4 |
| İnformasiya və rabitə | 466,9 | 70,4 | 109,6 | 286,9 | 503,7 | 98,8 | 107,8 | 297,1 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 288,7 | 36,1 | 63,8 | 188,8 | 387,7 | 157,2 | 91,8 | 138,7 |
| Təhsil | 475,8 | 387,2 | 21,1 | 67,5 | 535,5 | 425,1 | 20,8 | 89,6 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 240,1 | 124,4 | 30,9 | 84,8 | 280,6 | 132,6 | 37,6 | 110,4 |
| Digər sahələr | 1 574,1 | 405,9 | 408,7 | 759,5 | 1 840,3 | 443,1 | 461,6 | 935,6 |

Mənbə: www. stat.gov.az/enternrenership/ 021

Cədvəl məlumatlarının sistemləşdirilməsi məqsədilə *üfuqi* və *şağuli* hesablamaların icrası mühüm əhəmiyyət kəsb etməkdədir. İlk növbədə qeyd edək ki, 2020 və 2021-ci illərin yekun ifadələrinin qarşılaşdırılması nəticəsində aşağıdakı nisbi ifadələr sərgilənmiş olmaqdadır:

- ✓ 2020-ci ilə nisbətən 2021-ci ildə mikro, kiçik və orta ölçülü sahibkarlıq subyektləri tərəfindən yaradılan yeni dəyərin ***artım*** həcmi **3014,9 milyon manat** (13956,1 – 10941,2) və ya **27,6%** (13956,1 : 10941,2) artmışdır. Bu artımın **1335,6 milyon manatlıq** (5790,8 – 4455,2) və ya **30,0 %-lik** (5790,8 : 4455,2) hissəsi mikrosubyektlərin, **766,4 milyon manatlıq** (2384,3 – 1617,9) və ya **47,4%-lik** (2384,3 : 1617,9) hissəsi kiçik subyektlərin və **912,9 milyon manatlıq** (5781 – 4868,1) və ya **18,8%-lik** (5781 : 4868,1) hissəsi isə orta sahibkarlıq subyektlərinin payına düşməkdədir;
- ✓ 2020-ci ilin ümumi nəticəsində ayrı-ayrı istiqamətlərin xüsusi çəkiləri aşağıdakı kimi müəyyən edilmişdir: sənaye – **13,5%** (1481,9 : 10941,2); kənd təsərrüfatı – **3,7%** (406,3 : 10941,2); tikinti – **14,5%** (1590,3 : 10941,2); ticarət, nəqliyyat vasitələrinin təmiri – **29,4%** (3220,6 : 10941,2); nəqliyyat və anbar təsərrüfatı – **7,1%** (772,3 : 10941,2); turistlərin yerləşdirilməsi və ictimai iaşə - **3,9%** (424,2 : 10941,2); informasiya və rabitə - **4,3%** (466,9 : 10941,2); daşınmaz əmlakla əlaqədar əməliyyatlar – **2,6%** (288,7 : 10941,2); təhsil – **4,4%** (475,8 : 10941,2); əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi – **2,2%** (240,1 : 10941,2); digər sahələr – **14,4%** (1574,1 : 10941,2);
- ✓ 2021-ci ilin ümumi nəticəsində ayrı-ayrı istiqamətlərin xüsusi çəkiləri aşağıdakı kimi müəyyən edilmişdir: sənaye – **13,6%** (1895,8 : 13956,1); kənd təsərrüfatı – **2,8%** (391,7 : 13956,1); tikinti – **12,9%** (1804,3 : 13956,1); ticarət, nəqliyyat vasitələrinin təmiri – **32,7%** (4563,5 : 13956,1); nəqliyyat və anbar təsərrüfatı – **7,7%** (1076,7 : 13956,1); turistlərin yerləşdirilməsi və ictimai iaşə - **4,9%** (676,3 : 13956,1); informasiya və rabitə - **3,6%** (503,7 : 13956,1); daşınmaz əmlakla əlaqədar əməliyyatlar – **2,8%** (387,7 : 13956,1); təhsil – **3,8%** (535,5 : 13956,1); əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi – **2,0%** (280,6 : 13956,1); digər sahələr – **13,2%** (1840,3 : 13956,1);
- ✓ İllər üzrə müqayisələr 2021-ci ildə aşağıdakı nisbi kəmiyyət fərqlərini ortaya çıxarmaqdadır: sənaye üzrə - **+0,1%**; kənd təsərrüfatı üzrə - (**-0,9%**); tikinti üzrə - (**-1,6%**); ticarət, nəqliyyat vasitələrinin təmiri üzrə - **+3,3%**; nəqliyyat və anbar təsərrüfatı üzrə - **+0,6%**; turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə - **+1,0**%; informasiya və rabitə üzrə - (**-0,7%**); daşınmaz əmlakla əlaqədar əməliyyatlar üzrə - **+0,2%**; təhsil üzrə - (**-0,6%**); əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə - (**-0,2%**); digər sahələr üzrə - (**-1,2%**). Müəyyən olunmuş kənarlaşmalar sahə və istiqamətlər arasındakı mütləq ifadədə qeyri-ahəngdar inkişafı göstərməkdədir;
- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə *sənaye* istiqamətində baş bermiş ümumi və tərkib elementlər üzrə hərəkətlənmələr aşağıdakı kimidir: a) ümumi göstərici mütləq ifadədə **413,9 milyon manat** (1895,8 – 1481,9), nisbi ifadədə isə **27,9%** (1895,8 : 1481,9) ***artımı*** ifadə etməkdədir; b) bu göstərici mikrosubyektlər üzrə **46,8 milyon manat** (196,3 – 149,5) və ya **31,3%** (196,3 : 149,5) *artımı*, kiçik subyektlər üzrə **53,3 milyon manata** (240,8 – 187,5), və ya **28,4%** (240,8 : 187,5) *artımı*, orta ölçülü subyektlər üzrə **313,8 milyon manat** (1458,7 – 1144,9) və ya **27,4%** (1458,7 : 1144,9) *artımı* ifadə etmişdir;
- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə *kənd təsərrüfatı* istiqamətində baş verən ümumi və xüsusi hərəkətlənmələr aşağıdakı kimidir: a) ümumi göstərici mütləq ifadədə **14,6 milyon manat** (391,7 – 406,3), nisbi ifadədə **3,6%** (391,7 : 406,3) *geriləməni* ifadə etməkdədir; b) müvafiq göstərici *mikrosubyektlər* üzrə **8,1 milyon manat** (96,6 – 88,5) və ya **9,2%** (96,6 :

88,5) *artıma*, *kiçik ölçülü subyektlər* üzrə **1,4 milyon manat** (98,8 – 97,4) və ya **1,4%** (98,8 : 97,4) *artıma*, *orta ölçülü subyektlər* üzrə **24,1 milyon manat** (196,3 – 220,4) və ya **10,9 %** (196,3 : 220,4) *geriləməyə* bərabərdir;

- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə *tikinti* istiqamətində baş verən ümumi və xüsusi hərəkətlənmələr aşağıdakı kimidir: a) ümumi göstərici mütləq ifadədə **214 milyon manat** (1804,3 – 1590,3), nisbi ifadədə **13,5%** (1804,3 : 1590,3) *artım* ifadə etməkdədir; b) müvafiq göstərici *mikrosubyektlər* üzrə **66,1 milyon manat** (343,8 – 277,7) və ya **23,8 %** (343,8 : 277,7) *artıma*, *kiçik ölçülü subyektlər* üzrə **63,8 milyon manat** (333,6 – 269,8) və ya **23,6 %** (333,6 : 269,8) *artıma*, *orta ölçülü subyektlər* üzrə **84,1 milyon manat** (1126,9 – 1042,8) və ya **8,1%** (1126,9 : 1042,8) *artıma* bərabərdir;
- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə *ticarət; nəqliyyat vasitələrinin təmiri* istiqamətində baş verən ümumi və xüsusi hərəkətlənmələr aşağıdakı kimidir: a) ümumi göstərici mütləq ifadədə **1342,9 milyon manat** (4563,5 – 3220,6), nisbi ifadədə **41,7%** (4563,5 : 3220,6) *artım* ifadə etməkdədir; b) müvafiq göstərici *mikrosubyektlər* üzrə **642,1 milyon manat** (2946,2 – 2304,1) və ya **27,9 %** (2946,2 : 2304,1) *artıma*, *kiçik ölçülü subyektlər* üzrə **469,7 milyon manat** (763,0 – 293,3) və ya **2,6 dəfə** (763,0 : 293,3) *artıma*, *orta ölçülü subyektlər* üzrə **231,1 milyon manat** (854,3 – 623,2) və ya **37,1%** (854,3 : 623,2) *artıma* bərabərdir;
- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə *turistlərin yerləşdirilməsi və ictimai iaşə* istiqamətində baş verən ümumi və xüsusi hərəkətlənmələr aşağıdakı kimidir: a) ümumi göstərici mütləq ifadədə **252,1 milyon manat** (676,3 – 424,2), nisbi ifadədə **59,4%** (676,3 : 424,2) *artım* ifadə etməkdədir; b) müvafiq göstərici *mikrosubyektlər* üzrə **90,5 milyon manat** (397,5 – 307,0) və ya **29,5%** (397,5 : 307,0) *artıma*, *kiçik ölçülü subyektlər* üzrə **45,2 milyon manat** (74,4 – 29,2) və ya **2,6 dəfə** (74,4 : 29,2) *artıma*, *orta ölçülü subyektlər* üzrə **116,4 milyon manat** (204,4 – 88,0) və ya **2,3 dəfə** (204,4 : 88,0) *artıma* bərabərdir;
- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə *informasiya və rabitə* istiqamətində baş verən ümumi və xüsusi hərəkətlənmələr aşağıdakı kimidir: a) ümumi göstərici mütləq ifadədə **36,8 milyon manat** (503,7 – 466,9), nisbi ifadədə **7,9%** (503,7 : 466,9) *artım* ifadə etməkdədir; b) müvafiq göstərici *mikrosubyektlər* üzrə **28,4 milyon manat** (98,8 – 70,4) və ya **40,3%** (98,8 : 70,4) *artıma*, *kiçik ölçülü subyektlər* üzrə **1,8 milyon manat** (107,8 – 109,6) və ya **1,6 %** (1 – 107,8 : 109,6) *geriləmə*, *orta ölçülü subyektlər* üzrə **10,2 milyon manat** (297,1 – 286,9) və ya **3,6%** (297,1 : 286,9) *artıma* bərabərdir;
- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə *daşınmaz əmlakla əlaqədar əməliyyatlar* istiqamətində baş verən ümumi və xüsusi hərəkətlənmələr aşağıdakı kimidir: a) ümumi göstərici mütləq ifadədə **99,0 milyon manat** (387,7 – 288,7), nisbi ifadədə **34,3 %** (387,7 : 288,7) *artım* ifadə etməkdədir; b) müvafiq göstərici *mikrosubyektlər* üzrə **121,1 milyon manat** (157,2 – 36,1) və ya **4,4 dəfə** (157,2 : 36,1) *artıma*, *kiçik ölçülü subyektlər* üzrə **34,3 milyon manat** (98,1 – 63,8) və ya **53,8 %** (98,1 : 63,8) *artıma*, *orta ölçülü subyektlər* üzrə **50,1 milyon manat** (138,7 – 188,8) və ya **26,5 %** (1 – 138,7 : 188,8) *geriləməyə* bərabərdir;
- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə *təhsil* istiqamətində baş verən ümumi və xüsusi hərəkətlənmələr aşağıdakı kimidir: a) ümumi göstərici mütləq ifadədə **59,7 milyon manat** (535,5 – 475,8), nisbi ifadədə **12,5%** (535,5 : 475,8) *artım* ifadə etməkdədir; b) müvafiq göstərici *mikrosubyektlər* üzrə **37,9 milyon manat** (425,1 – 387,2) və ya **9,8%** (425,1 : 387,2) *artıma*, *kiçik ölçülü subyektlər* üzrə **0,3 milyon manat** (20,8 – 21,1) və ya **1,4%** (1 – 20,8 : 21,1) geriləməyə, *orta ölçülü subyektlər* üzrə **22,1 milyon manat** (89,6 – 67,5) və ya **32,7%** (89,6 : 67,5) *artıma* bərabərdir;

- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə *əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi* istiqamətində baş verən ümumi və xüsusi hərəkətlənmələr aşağıdakı kimidir: a) ümumi göstərici mütləq ifadədə **40,5 milyon manat** (280,6 – 240,1), nisbi ifadədə **16,9%** (280,6 : 240,1) *artım* ifadə etməkdədir; b) müvafiq göstərici *mikrosubyektlər* üzrə **8,2 milyon manat** (132,6 – 124,4) və ya **6,6%** (132,6 : 124,4) *artıma*, *kiçik ölçülü subyektlər* üzrə **6,7 milyon manat** (37,6 – 30,9) və ya **21,7%** (37,6 : 30,9) *artıma*, *orta ölçülü subyektlər* üzrə **25,6 milyon manat** (110,4 – 84,8) və ya **30,2%** (110,4 : 84,8) *artıma* bərabərdir;
- ✓ 2020-ci illə müqayisədə 2021-ci ildə *digər sahələr* istiqamətində baş verən ümumi və xüsusi hərəkətlənmələr aşağıdakı kimidir: a) ümumi göstərici mütləq ifadədə **266,2 milyon manat** (1840,3 – 1574,1), nisbi ifadədə **16,9%** (1840,3 : 1574,1) *artım* ifadə etməkdədir; b) müvafiq göstərici *mikrosubyektlər* üzrə **37,2 milyon manat** (443,1 – 405,9) və ya **9,2%** (443,1 : 405,9) *artıma*, *kiçik ölçülü subyektlər* üzrə **52,9 milyon manat** (461,6 – 408,7) və ya **12,9%** (461,6 : 408,7) *artıma*, *orta ölçülü subyektlər* üzrə **175,5 milyon manat** (935,6 – 759,5) və ya **23,2%** (935,6 : 759,5) *artıma* bərabərdir.

**Sahibkarlıq Subyektləri və Elmi-Tədqiqatların Aparılması**

Tərəfimizdən təklif olunan informasiyada sahibkarlıq subyektlərinin təsnifləşdirilməsinə diqqət çəkilməkdədir. Bununla yanaşı cədvəllərdə də ifadə edilmiş bölgülərdə həmin subyektlərin iqtisadi sistemin sahələrinə aidiyyatı bildirilməkdədir.

Həmçinin qeyd olunmalıdır ki, sahibkarlıq subyektlərinin fəaliyyətinin yeniliklərə yiyələnmə, innovativ addımların atılması, müvafiq istiqamətlərdə elmi-tədqiqat işlərinin aparılması özünün aktuallığını qorumaqdadır. Cinsi ifadədə ilkin şəklə malik innovativ fəaliyyətin ümumiləşdirilmiş forması kimi dəyər kəmiyyətini əks etdirən xərclər təşkil etməkdədir (Bağırov, 2020). Bildirilən fikirlər haqqında müfəssəl informasiyanın əldə edilməsi məqsədilə elmi-tədqiqat istiqamətinə yönəldilmiş fəaliyyət dəyər ifadəsində işıqlandırılmalıdır ki, bu da xərclər şəklində nümayiş etdirilməlidir (cədvəl 3).

**Cədvəl 3.İqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyekti olan müəssisələrin elmi-tədqiqat xərcləri, min manat**

| İqtisadi fəaliyyət növləri | 2020 | | | | 2021 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Mikro | Kiçik | Orta | Cəmi | Mikro | Kiçik | Orta |
| **İqtisadi fəaliyyət növləri üzrə cəmi** | **15643,1** | **1288,1** | **6596,5** | **7758,5** | **21373,4** | **184,2** | **7015,2** | **14174,0** |
| o cümlədən: | | | | | | | | |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 94,2 | 0,6 | 1,8 | 91,8 | 34,2 | 7,3 | 5,2 | 21,7 |
| Sənaye | 2975,4 | - | 2317,2 | 658,2 | 7362,1 | 0,6 | 2986,5 | 4375 |
| Mədənçıxarma sənayesi | 2115,2 | - | 2115,2 | - | 3033,7 | - | 2952,9 | 80,8 |
| Emal sənayesi | 774,9 | - | 202,0 | 572,9 | 4286,5 | 0,6 | 33,6 | 4252,3 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 78,5 | - | - | 78,5 | 31,6 | - | - | 31,6 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 6,8 | - | - | 6,8 | 10,3 | - | - | 10,3 |
| Tikinti | 2185,5 | 1195,1 | 632,3 | 358,1 | 2191,7 | 103,1 | 938,7 | 1149,9 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 769,1 | 3,3 | 724,2 | 41,6 | 727,4 | 1,4 | 57,2 | 668,8 |
| Nəqliyyat və anbar təsərrüfatı | 641,8 | 1,5 | 3,6 | 636,7 | 933,4 | - | 2,9 | 930,5 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | - | - | - | - | - | - | - | - |
| İnformasiya və rabitə | 609,9 | - | 609,9 | - | 18,1 | - | 18,1 | - |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | - | - | - | - | 6,0 | 5,5 | 0,5 | - |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Təhsil | 146,9 | - | 105,1 | 41,8 | 108,3 | - | - | 108,3 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 13,7 | - | 13,7 | - | 883,2 | - | - | 883,2 |
| Digər sahələr | 8206,6 | 87,6 | 2188,7 | 5930,3 | 9109,0 | 66,3 | 3006,1 | 6036,6 |

Mənbə: www. stat.gov.az/enternrenership/ 038

Cədvəl 3-ün məzmunundan aydın olur ki, müvafiq əyani təsvir vasitəsində informasiya say olaraq deyil, dəyər ifadəsi olaraq əks etdirilməkdədir. Elmi-tədqiqatların xərclərini əks etdirən cədvəldə aşağıdakı sahəvi məsələlərə dinamika qaydasında aydınlıq gətirilməkdədir:

1. 2020-ci illə müqayisədə 2021-ci ildə iqtisadi fəaliyyət növləri üzrə ümumiləşdirilmiş həcmi **5730,3 min manatlıq** (21373,4 – 15643,1) və ya **36,6%-lik** (21373,4 – 15643,1) *artıma* bərabərdir. Öz növbəsndə tərkib elementlər üzrə baş vermiş hərəkətlənmədə nəticələr aşağıdakı kimidir: a) mikrosubyektlər üzrə *geriləmə* - **1103,9 min manat** (184,2 – 1288,1) və ya **85,7%** (1 – 184,2 : 1288,1); b) kiçik subyektlər üzrə *artım* – **418,7 min manat** (7015,2 – 6596,5) və ya **6,3%** (7015,2 : 6596,5); c) orta subyektlər üzrə *artım* – **6415,5 min manat** (14174,0 – 7758,5) və ya **82,7%** (14174,0 : 7758,5);
2. 2021-ci ildə elmi-tədqiqat işlərinin tərkibində böyük xüsusi çəkilərlə fərqlənən qruplar sırasında sənayeni **34,4%-lə** (7362,1 : 21373,4), (o cümlədən onun tərkib hissələri olan mədənçıxarma sənayesini **14,2%-lə** (3033,7 : 21373,4) və emal sənayesini **20,0%-lə** (4286,5 : 21373,4)), tikintini **10,3%-lə** (2191,7 : 213737,4) və "digər sahələr" qrupunu **42,6%-lə** (9109,0 : 21373,4) göstərmək olar;
3. Həmin ilin daxili konfiqurasiyalarında da fərqlər nümayiş olunmaqdadır. Belə ki, sənaye üzrə xüsusi çəkilərdəki əsas ağırlıq müvafiq sahənin tərkibində kiçik subyektlərin (2986,5 : 7362,1= **40,4%**) və orta subyektlərin payına (4375 : 7362,1 = **59,4%**) düşdüyü halda, emal sənayesində bu ağırlıq orta müəssisələrin (4252,3 : 4286,5 = **99,2%**), mədənçıxarmada – kiçik subyektlərin (2952,9 : 3033,7 = **97,3%**), tikitidə - kiçik subyektlərin (938,7 : 2191,7 = **42,8%**) və orta subyektlərin (1149,9 : 2191,7 = **52,5%**), "digər sahələr" qrupunda isə - kiçik həcmli subyektlərin (3006,1 : 9109 = **33,0%**) və orta həcmli subyektlərin payına (6036,6 : 9109 = **66,2%**) düşməkdədir.

Mövcud seçim bəhs olunan sahə və istiqamətlərin əhəmiyyətinə diqqəti bir daha çəkməkdədir. Onu da qeyd etmək yerinə düşər ki, müvafiq sahə və istiqamətlərdə 2020 və 2021-ci illərdə qeyri-bərabər xərc yönəldilməsi də müşayət olunmaqdadır. Bu isə müəyyən mənada prioritet vahidlər, fiskal siyasət kimi anlayışlara baxışlar üzərində fikirlərin daha əsaslı şəklə salmağı tələb etməkdədir.

İki ilin nəticələrinin müqayisəsi aşağıdakı həqiqətləri də ortaya çıxarmaqdadır:

✓ *Sənaye üzrə* - 2020-ci ildə elmi-tədqiqat işlərinin tərkibində mikrosubyektlər üçün xərc ayrılmadığı halda, bu kəmiyyətlər kiçik subyektlər üzrə **77,9%** (2317,2 : 2975,4), orta subyektlər üzrə isə **22,1%** (658,2 : 2975,4) təşkil etməkdə idi. Müvafiq sahənin 2021-ci il üzrə əsas tərkib çəkilərində baş vermiş dəyişikliklər yuxarıda müəyyən edildiyi üçün (kiçik subyektlər üzrə - 40,4%, orta subyektlər üzrə - 59,4%), onun müqayisəsi nəticəsində aşağıdakı kəmiyyətlər alınır: 2020-ci illə müqayisədə 2021-ci ildəki xüsusi çəki fərqi kiçik subyektlər üzrə geriləmiş və **37,5%** (40,4 – 77,9) təşkil etmiş, orta subyektlər üzrə fərq isə artaraq **37,3%**-ə (59,4 – 22,1) çatmışdır. Ortada yaranan fərq (yəni, **0,2%**) 2021-ci ildə mikrosubyeklərə yönəldilən 0,6 min manatlıq məbləğdən irəli gəlməkdədir;

- ✓ *Mədənçıxarma sənayesi* üzrə 2020-ci ildə elmi-tədqiqat işlərinin həcmində ancaq kiçik subyektləri 100%-lik xüsusi çəkisi görünsə də, bu göstərici 2021-ci ildə kiçik və orta həcmli subyektlər arasında müvafiq olaraq **97,3%** (2952,9 : 3033,7) və **2,7%** (80,8 : 3033,7) kimi paylanmışdır;
- ✓ *Emal sənayesi üzrə* - 2020-ci ildə mikro subyektlərin payı olmadığı halda, kiçik subyektlər **26,1%**-ə (202,0 : 774,9), orta subyektlərə isə **73,9**% (572,9 : 774,9) pay düşmüşdür. Eyni göstəricinin 2021-ci ilə olan vəziyyətində artıq üç qrupun xüsusi çəkilərinə diqqət çəkilir – müvafiq olaraq mikrosubyektlər üzrə - **0,01%** (0,6 : 4286,5), kiçik həcmli subyektlər üzrə - **0,79%** (33,6 : 4286,5), orta həcmli subyektlər üzrə - **99,2%** (4252,3 : 4286,5). Onu da qeyd edək ki, 2020-ci illə müqayisədə 2021-ci ildə ən yüksək artım sürətinə malik istiqamət də məhz emal sənayesi olmuşdur. mütləq ifadədə - **3511,6 min manat** (4286,5 – 774,9), nisbi ifadədə - **5,53 dəfə** (4286,5 : 774,9);
- ✓ *Digər sahələr üzrə* - ümumi artım kəmiyyətləri 2020-ci illə müqayisədə 2021-ci ildə mütləq ifadədə **902,4 min manat** (9109 – 8206,6), nisbi ifadədə **11,0%** (9109 : 8206,6) olmuşdur. İllərin müqayisəsi nəticəsində tərkib komponentlər üzrə əldə olunan nəticələr aşağıdakı kimidir: mikrosubyektlər üzrə *geriləmə* - **21,3 min manat** (66,3 – 87,6) və ya 24,3% (1 - 66,3 : 87,6); kiçik həcmli subyeklər üzrə artım – **817,4 min manat** (3006,1 – 2188,7) və ya **37,4%** (3006,1 : 2188,7); orta həcmli subyektlə üzrə *artım* – **106,3 min manat** (6036,6 – 5930,3) və ya **10,7%** (6036,6 : 5930,3).

Onu da qeyd etmək yerinə düşər ki, 2020-ci illə müqayisədə bir sıra istiqamətlərdə elmi-tədqiqat xərclərinin həcmində əsaslı azalmalar baş vermişdir. Məsələn, qeyd olunan vəziyyət informasiya və rabitə sektorunda **591,8min manatlıq** (609,9 – 18,1) və ya **36,7dəfəlik** (609,9 : 18,1) geriləmə ilə müşayət olunmuşdur. Oxşar vəziyyət kənd təsərrüfatında (geriləmə - 63,7%), enerji təchizatında (geriləmə - 59,7%), təhsil sahəsində (geriləmə - 26,3%) müşahidə olunmaqdadır.

İfadə etdiyimiz iqtisadi mənzərədən aydın olur ki, sahələr üzrə dinamik kənarlaşma səviyyələri heç də bərabər həcmli deyil, bəlli istək, ehtiyac və seçimlərin bazasında mövcud olmaqdadır. Bu sırada innovasiyaların tətbiqini zəruri edən sahə və istiqamətlərin ümumilikdə iqtisadi sistemə qazandırdığı nəaliyyətlər kənarda qalmamalı, öz töhvələrini verməklə fərqlənməlidir. Onu da qeyd etmək yerinə düşər ki, innovasiya proseslərinə təsir edən amillərin məzmunu, müxtəlifliyi və digər əlamətləri baxımından da özünün spesifik təsirləri ilə fərqlənməkdədir. Bu sırada istehsalın təşkili, onun texnika və texnologiya baxımından silahlanması, istehsalın fondlarla silahlanma dərəcəsi, müxtəlif avtomatlaşdırma məsələləri, sahəvi istehsalların spesifik məqamlarının nəzərə alınması kimi amillər diqqətdən yayınmamalıdır (Ермасова и Никитин, 2014; Ермасов, 2012).

**Nəticə**

Tərəfimizdən aparılan araşdırma nəticəsində belə bir qənaətə gəlinmişdir ki, müasir şəraitdə regionların iqtisadi inkişafındakı uğurlar sahibkarlıq subyektlərinin innovasiya yönümlü fəaliyyətləri ilə bağlıdır.

Araşdırma nəticəsi olaraq belə qənaətə gəlinmişdir ki, müasir şəraitdə regionda sahibkarlıq subyektlərinin innovasiya fəaliyyətinin effektivliyini şərtləndirən mühüm amillər innovasiya infrastrukturunun inkişaf səviyyəsi, xarici investisiyaların həcmi, xüsusi iqtisadi zonaların mövcudluğu, regionların sosial-iqtisadi inkişaf proqramlarının istiqamətləndirilməsi, regional hakimiyyət orqanlarının öz ərazisində innovasiya fəaliyyətinin inkişafı üçün şərait yaratmaq səyləri, kiçik biznesin inkişaf səviyyəsi, habelə regional inkişafın idarə edilməsi ilə bağlı bir sıra digər aspektlər diqqət mərkəzində olmalı və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilməlidir.

**Ədəbiyyat**

Bağırov M.S. (2023). Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirmə və təhlil fəaliyyəti. Naxçıvan, Əcəmi, - 216 səh.

Bağırov M.S. (2020). Statistikanın təməl bilikləri. Naxçıvan, Əcəmi, - 525 səh.

Bayramov V.A. (2019). Milli iqtisadiyyatın dayanıqlılığı. Monoqrafiya, Bakı, - 161 səh.

Quliyev T.Ə. (2006). Menecmentin (idarəetmənin) əsasları. Bakı, Qərənfil, - 591 səh.

Mahmudov C.İ., Bağırsoylu H.Q. (2019). Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması. Dərs vəsaiti. Naxçıvan, Əcəmi, - 264 səh.

Niftullayev V.M. (2002). Sahibkarlığın əsasları. Bakı, Zaman, - 618 səh.

Григорьева О.В. (2013). Подходы к управлению конкурентоспособностью малого предпринимательства на основе стратегии инновационного роста. Ученые записки Российской Академии предпринимательства, № 34, - стр. 216-224.

Гурков И.Б. (2003). Инновационное развитие и конкурентоспособность: Очерки развития российских предприятий.М., ТЕИС, - 317 стр.

Ермасова Н.Б., Никитин А.А. (2014). Факторы, влияющие на инновационную активность организаций. Экономика, управление и право, Т. 14, № 3, - стр. 495-503.

Ермасов С.В. (2012). Инновационный менеджмент. М., Юрайт, - 341 стр.

Freeman C. (1995). The National System of Innovation in Historical Perspective. Cambridge Journal of Economics, no. 19, pp. 34-42.

Gupta P. (2007). Business innovation in the 21st Century. BookSurge Publishing, - 406 p.

Metcalfe J. S. (2009). Enterprise, Innovation and Evolutionary Economic Growth. OECD-UNESCO International Workshop on Innovation for Development: Converting Knowledge to Value. Paris, pp. 23-27.

Ramanunny M. (2003). Credit needs of women micro entrepreneurs in urban area problems and perspective. Project report, Kudumbashree.

Seppa M. (2012). From Business Administration to Business Creation: The Case Of The Kalevala Global Business Creation School. Technology Innovation Management Review, Global Business Creation, - page 6-11. http://timreview.ca/article/562

www. stat.gov.az/enternrenership/ 005

www. stat.gov.az/enternrenership/ 021

www. stat.gov.az/enternrenership/ 038

# İnsan Kapitalı, İnnovasiya və İqtisadi İnkişaf

**Ülkər İsfəndiyarova**

**Azərbaycan Dövlət İqtisad Universiteti, Zaqatala filialı**

**ulkar-isfendiyarova@unec.edu.az**

**Nərmin Əlizadə**

**Azərbaycan Dövlət İqtisad Universiteti, Zaqatala filialı**

**narmin-musayeva@unec.edu.az**

## Xülasə

1950-ci illərdən etibarən iqtisadi artım və gəlir bölgüsü haqda problemlər iqtisadçıları daha çox narahat etdikcə insan kapitalı tədqiqatlarda daha geniş yer almağa başlayır. İnsan kapitalı dedikdə firmalarda işçilərin təhsil, bilik, təcrübə, bacarıq və öhdəlikləri nəzərdə tutulur. Bu işəgötürənlər üçün daha bacarıqlı işçi deməkdirsə, bu daha yüksək məhsuldarlıq və gəlir səviyyəsi və son nəticədə iqtisadi artımın sürətlənməsi mənasına gəlir.

İqtisadi uğur qazanılmasında insan kapitalının rolu həlledicidir. Insanların bilik və bacarıqları onların öz rifahına təsir etdiyi kimi, ümumilikdə dövlətin rifahına da təsir göstərir. İnsan kapitalı iqtisadiyyatın digər istehsal amillərini idarə etmək qabiliyyətini və innovasiyaya olan tələbatını müəyyən edir. Mövcud texnologiyaların mənimsənilməsi, texnologiyanın inkişafı, keyfiyyətin artırılması iqtisadi artımın əsas hərəkətverici qüvvələiridir. Bu baxımdan insan kapitalı texnoloji inkişafın əsas amillərindən biridir. Ümumiyyətlə elə bir ölkə yoxdur ki, davamlı iqtisadi inkişafa insan kapitalına əhəmiyyətli investisiyalar etmədən nail olsun.

Insan kapitalının iqtisadi artıma ümumi müsbət təsiri həm iqtisadçılar həm də iqtisadi siyasəti müəyyən edənlər tərəfindən şübhəsiz qəbul olunmuşdur.

Məqalədə insan kapitalının iqtisadi artıma təsirini izah edən modellər zah edilmiş, təhsilin müxtəlif səviyyələrində iqtisadi artıma təsirin səviyyəsinin müxtəlifliyi izah edilmişdir. Innovasiya potensialının texnoloji inkişafın əsas amili olduğu qəbul edilərək respublikada yerli və xaricilər tərəfindən alınan patentlər təhlil edilmişdir.

**Açar sözlər**: insan kapitalı, iqtisadi artım, təhsil, patent, innovasiya

## Abstract

The problems of economic growth and income distribution started to worry economists more since 1950s. And human capital started to take more place in researches. Human refers to the education, knowledge, experience, skills and responsibilities of employees in firms. While this means more skilled workers for employers, at the same time it also means higher productivity and income levels and ultimately faster economic growth.

The role of human capital in gaining economic success is significant. Just as the knowledge and skills of the people affect their own wellbeing, at the same time it also affects the prosperity of the countries. Human capital encompasses the ability to manage other production factors of business and its demand for innovation. The use of existing technologies and the development of innovative technologies is the main driving force of economic growth in the region. In this respect, human capital is one of the main factors of technological development. In general, there is no example so that sustainable economic development can be achieved without significant investment in human capital.

The overall positive impact of human capital on economic growth has been undoubtedly accepted by both economists and institutes driving economic policy.

In this paper the models that explain the effect of human capital on economic growth are explained, impact of the various levels of education on the different levels of economic growth is touched as well. Considering that the innovation potential is the main factor of technological development, patents obtained from local and foreigners have been analyzed.

**Key words**: human capital, economic growth, education, patent, innovasion

## Giriş

İnsan kapitalı dedikdə iqtisadçılar istehsal prosesində faydalı hesab oluna biləcək fərdi xüsusiyyətləri izah edəcək bir konsepsiya nəzərdə tuturlar. Bu xüsusiyyətlərə işçilərin təhsili, sağlamlığı, bilik, bacarıq və qabiliyyətləri aid edilir. İnsan kapitalı ehtiyatları da fiziki kapital ehtiyatları kimi müəyyən investisiya qərarlarının hesabına təmin edilir. Əgər biz fiziki kapital investisiyalarını onlara çəkilən birbaşa xərclər kimi qiymətləndiririksə, insan kapitalını fərdlərin sərf etdiyi zamanın alternativ dəyəri kimi nəzərə alırıq (Goldin, 2014).

İlk dəfə insan kapitalının izahını Adam Smit capital anlayışına cəmiyyətin bütün üzvlərinin və sakinlərinin qazanılmış və faydalı bacarıqlarını da daxil etməklə vermişdir. Ilk dəfə termin kimi insan kapitalının istifadəsi isə İrvinq Fişer tərəfindən olmuşdur (Goldin, 2014).

Terminin daha geniş istifadəsi daha sonralar Çikaqo məktəbinin nümayəndələri tərəfindən baş verir. Artıq istehsal amillərinin təhlilinə ənənəvi üçlük baxımından yanaşılmasının yanlış olduğu qeyd olunur. Əməyə yalnız işçilərin və iş saatlarının sayı, kapitala isə yalnız maddi qurğular və avadanlıqlar kimi baxılması qeyri-səmərəli hesab olunmağa başlayır. Daha əhəmiyyətli rolu insan bacarıqlarının təkmilləşdirilməsi və modernləşmə oynayır. Artıq işçilərin keyfiyyəti və davranışı daha vacib istehsal amili kimi qəbul olunur. Belə görünür ki, təhsilin orta səviyyəsi kimi insan kapitalı indeksləri ölkələr arasında bir nəfərə düşən fiziki kapitaldan daha çox orta gəlir səviyyəsi ilə korrelyasiya olunur (Mincer, 1981).

İnsan kapitalı fərdi, firma və milli iqtisadi artımın əhəmiyyətli faktorudur. Xüsusilə fərdi səviyyədə təhsildən olan müsbət iqtisadi nəticələr aşkardır. Sadəcə bu nəticələr zaman müddətinə, təhsil sahəsinə görə fərqlənə bilər. Eyni zamanda mənbəyinə və keçirilmə formasına görə fərqlənsələr də təlimlərin də nəticədə fərdlər üçün əhəmiyyətli gəlir artımlarına səbəb olması müşahidə olunur. Bu təlimlər, işçilərin kvalifikasiya və bacarıqlarının artmasına, nəticədə firmaların məhsuldarlığı və rəqabətqabiliyyətliliyinə təsir göstərir. Bu qeyd etdiyimiz nəticə insan kapitalı ilə onun yeni texnologiyaları qəbul etmə və mənimsəmə bacarıqlarını əks etdirən innovasiya qabiliyyətləri arasında olan əlaqəsi ilə sübut olunur. Makroiqtisadi baxımdan dəyərləndirdikdə isə tədqiqat və inkişaf fəaliyyətlərinin artması halı ilə fiziki kapital yığımı birlikdə milli iqtisadi artımın əsas amilləridir. Beləliklə təhsilin makroiqtisadi artıma dolayı müsbət təsiri də göstərilə bilər. Belə ki, həm klassik iqtisadi artım nəzəriyyələri və eyni zamanda yeni artım nəzəriyyələri nəzərə alınmaqla insan kapitalının bütövlükdə iqtisadi artıma təsiri qiymətləndirildikdə, iqtisadi artımın insan kapitalı və innovasiyalardan asılılığı müşahidə olunur. Təhsilin inkişafının iqtisadiyyata birbaşa olmayan digər təsirlərinə isə cəmiyyətə verdiyi texnoloji baxımdan və ətraf mühit baxımdan müsbət kənar təsirləri aiddir (Blundell, Dearden, Meghir and Sianesi, 1999; Wilson & Briscoe, 2004).

Aİ ölkələrinin 2020-ci il strategiyasının fokuslandığı 3 əsas istiqamətdə- ağıllı, davamlı və inklüziv inkişafa nail olunması insan kapitalı kimi qəbul olunmuş bilik, bacarıq, və dəyərlərin töhvəsi olmadan mümkün deyil. Yaxşı təhsil və təlim, istehsal xidmətlərində bilik diffuziyası, yaradıcı sənayelər və intensiv tədqiqat xarakterli iqtisadiyyat olmadan bunlara nail olmaq inandırıcı görünmür. Adambaşına düşən ÜDM göstəricisi ilə ifadə olunan iqtisadi artımın əsas faktoru insan kapitalıdır. Minilliyin inkişaf məqsədlərinin çoxunda təhsil və bacarıqlarının artırılması irəli çəkilir.

Xüsusilə qadınları nəzərdə tutan iqtisadi siyasətlər təhsil və biliklərin növbəti nəsillərə ötürülməsini hədəfləyir (Hawkes & Ugur, 2012).

İnsan kapitalının ölçülməsi insan kapitalı indeksi vasitəsilə həyata keçirilir. Avropa İttifaqının təyin etdiyi 4 sahəyə: təhsilə olan yatırımlar, insan kapitalı ehtiyatının istifadəsi, insan kapitalının məhsuldarlığı və insan kapitalının məşğulluğuna əsaslanır. Dünya İqtisadi Forumunun təyin etdiyi insan kapitalı indeksi 4 əsasdan : təhsil, rifah, iş qüvvəsi, məşğulluqdan ibarətdir (Pelinescu, 2015).

**İqtisadi Artım Modellərində İnsan Kapitalı**

İllər ərzində işlənib hazırlanmış bir neçə insan kapitalı modeli mövcuddur. Insan kapitalı konsepsiyası ilə iqtisadi artım arasındakı əlaqənin əsaslarının müəyyən edilməsi bir çox məsələlərin tədqiqini tələb edir. Bu baxımdan ilkin modellərlə müqayisədə daha sonralar yeni dəyişənlərin də daxil olması ilə daha mürəkkəb və təkmil modellərin tərtibi mümkün olmuşdur.

İlkin yanaşmanın başlanğıc nöqtəsi məşhur neoklassik iqtisadi artım modeli olan **Solou Svan modeli**dir. Bu modelin əsas nəticəsi uzunmüddətli dövrdə iqtisadi artımın mümkünsüz olmasıdır. Bunun əsas səbəbi isə neoklassik istehsal funksiyasına əsas xüsusiyyəti olan azalan məhsuldarlıq xüsusiyyətidir. Bu artımı məhdudlaşdıran amilin təsirini aradan qaldırmaq üçün Solou yeni ekzogen dəyişən olan texnoloji inkişafı irəli sürür (Stevens & Weale, 2004)

Bu baza modelin genişlənməsi əlavə dəyişənlərin (əmək və fiziki kapitala əlavə olaraq) daxil olunması ilə mümkün olur. 1992-ci ildə **Mənkyu, Veil və Romer** öz genişləndirilmiş modellərinə insan kapitalı dəyişənini əlavə edir və göstərirlər ki, bu fiziki kapitalın iqtisadi artım üçün əhəmiyyətinin azalmasına necə gətirib çıxarır. Lakin insan kapitalının faydaları və iqtisadi nəticələrinin ölçülməsi fiziki kapitaldakınnan daha çətindir (Vraçareviç, 2016).

**Bekkerin insan kapitalı modeli:** İqtisadçı Qeri Bekker tərəfindən hazırlanmış bu model təhsil və təlimi artan məhsuldarlıq və qazanc şəklində gəlir gətirən insan kapitalına investisiyalar kimi nəzərdən keçirir. Bu modelə görə, gözlənilən gəlirlər xərclərdən çox olarsa, fərdlər təhsil və təlimə sərmayə qoyacaqlar (Becker, 1994).

**Minserin gəlir funksiya modeli:** İqtisadçı Ceykob Minser tərəfindən hazırlanmış bu model, fərdin təhsil səviyyəsi ilə gəliri arasında əlaqəni qiymətləndirmək üçün reqressiya analizindən istifadə edir. Model hər bir əlavə təhsil ilinin qazancın müəyyən faiz artımına səbəb olduğunu və bu əlaqənin təcrübə və məşğuliyyət kimi amillərdən təsirləndiyini göstərir (Mincer,1981).

**Lukasın endogen inkişaf modeli:** İqtisadçı Robert Lukas tərəfindən hazırlanmış bu model insan kapitalını daha geniş iqtisadi artım çərçivəsinə daxil edir. Bu modelə görə, insan kapitalı iqtisadi inkişafın əsas müəyyənedici amilidir və təhsil və təlimə investisiyalar uzunmüddətli artımı şərtləndirən məhsuldarlığın və innovasiyaların artmasına səbəb ola bilər (Barnett & Ghosh 2014)

**Şultzun investisiya modeli**: İqtisadçı Mark Şultz tərəfindən hazırlanmış bu model insan kapitalına investisiya qərarlarında risk və qeyri-müəyyənliyin rolunu vurğulayır. Model fərdlərin potensial faydanın risklərdən üstün olduğuna inandıqları təqdirdə təhsil və təlimə sərmayə qoyacağını və bu qərara kredit məhdudiyyətləri və əmək bazarı şərtləri kimi amillərin təsir etdiyini təklif edir (Klein & Cookç, 2006)

**Arrounun təcrübə ilə öyrənmə modeli:** İqtisadçı Kennet Arrou tərəfindən hazırlanmış bu model insan kapitalının inkişafında iş yerində öyrənmə və təcrübənin vacibliyini vurğulayır. Bu modelə görə, fərdlər formal təhsil və ya təlim yolu ilə əldə edilə bilməyən təcrübə vasitəsilə bacarıq və

biliklərə yiyələnə bilər və bu "işləyərək öyrənmə" prosesi məhsuldarlığın və qazancın artmasına səbəb ola bilər (Stokey, 1988).

**İnsan Kapitalının Keyfiyyət və Kəmiyyət İndikatorları**

İnsan kapitalının iqtisadi artıma təsirlərini qiymətləndirdikdə ilkin olaraq təhsil səviyyəsinin əhalinin rifah halına təsirlərini qeyd etməliyik. Belə ki daha yüksək pilləli təhsil almış yetkin şəxs əhalinin rifahını yüksəldir. Bundan başqa əmək bazarında baş verən struktur dəyişikliklər də iqtisadi artıma təkan verir. Bilik, texnologiya intensiv olan sənaye sahələrində ixtisaslaşmanın artması iqtisadi artımı sürətləndirir (Teixeira & Anabela Queiros, 2016).

Bu səbəbdən də dövlət təhsil sektoruna təsir göstərməklə iqtisadiyyatın dayanıqlı inkişafına nail ola bilər. Təhsil sisteminə investisiyaların artırılması, təhsil müəssisələrində müəllimlərə daha yaxşı texnoloji imkanlar və təlimlər təşkil olunması, bütün xalq üçün əlçatan olması üçün təhsil xərclərinin azaldılması və təhsil müəssisələrinə qəbulun ədalətli şəkildə təşkil olunması nəticədə iqtisadiyyatın inkişafına əhəmiyyətli dəstək verə bilər.

Lakin bu baxımdan insan kapitalının tərkibinin nəzərə alınması da önəmlidir. Ölkələrin insan kapitalı ehtiyatlarını qiymətləndirərkən ilkin olaraq əhalinin savadlılıq dərəcəsi, məktəbəqədər, orta və ali təhsildə iştirak, təhsil müəssisələrinin sayı və s kimi göstəricilərin dəyərləndirilməsi tələb olunur. Yalnız onu da nəzərə almaq lazımdır ki, orta təhsilin inkişafının iqtisadiyyata müsbət təsiri olduqca azdır. Daha çox peşə təhsili, orta ixtisas, kollec və ali təhsil imkanlarının artırılması inkişafa daha çox nəticə göstərə bilər (Korkmaz, Yücel and Aytaç, 2016).

Azərbaycanda təhsil sisteminin cari vəziyyətini qiymətləndirsək, son illər ərzində təhsilin müxtəlif pillələrində fərqli dinamikalar müşahidə edə bilərik. 2017-2021-ci illər ərzində məktəbə qədər təhsil müəssisələrinin sayı 1785-dən 1828-ə qədər artmışdır. Bu müəssisələrdə təhsil alan uşaqların sayı 1097 nəfər artmışdır. 2019-cu ildə həm təhsil müəssisələrinin, həm də təhsilanların sayı baxımından daha yüksək rəqəmlər müşahidə olunur. Göstərilən illər ərzində peşə təhsili müəssisələrinin və eyni zamanda təhsilalanların sayında azalma müşahisə olunmuşdur. Belə ki peşə təhsili müəssisələri 11-dən 99-a qədər, təhsil alanların sayı isə 1275 nəfər azalmışdır. Lakin orta ixtisas müəssilərinin sayında artım müşahidə olunmuşdur. Bu müəssisələrdə təhsil alan tələbələrin sayı 725 nəfər artmışdır. Ali təhsil müəsisələrinin sayında göstərilən müddət ərzində dəyişiklik baş verməsə də, tələbə sayın 167677 nəfərdən 212173 nəfərə qədər artmışdır. Fəlsəfə və elmlər doktoru hazırlayan müəssiəslərin sayında ciddi bir dəyişiklik görülməsə belə təhsil alanların sayında artım baş vermişdir. Belə ki 5 il ərzində fəlsəfə doktorluğu üzrə təhsil alanların sayı 411 nəfər, elmlər doktorluğu üzrə təhsil alanlarıns sayı isə 207 nəfər artmışdır (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2021).

**Cədvəl 1. Təhsilin əsas göstəriciləri (tədris ilinin əvvəlinə )**

| | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|
| Məktəbəqədər təhsil müəssisələrinin sayı (ilin sonuna) - cəmi | **1785** | **1803** | **1840** | **1825** | **1828** |
| **Məktəbəqədər təhsil müəssisələrində uşaqların sayı - cəmi, nəfər** | 124221 | 126866 | 128826 | 126509 | 125318 |
| Peşə təhsili müəssisələrinin sayı (ilin sonuna) | **111** | **111** | **110** | **103** | **99** |
| **Peşə təhsili müəssisələrində təhsil alanların sayı, nəfər** | 24024 | 23965 | 23193 | 22012 | 22749 |
| Orta ixtisas təhsil müəssisələrinin sayı - cəmi | **55** | **56** | **59** | **61** | **59** |
| **Orta ixtisas təhsili müəssisələrində tələbələrin sayı - cəmi, nəfər** | 47402 | 51741 | 56000 | 59984 | 63060 |
| Ali təhsil müəssisələrinin sayı - cəmi | **51** | **52** | **52** | **52** | **51** |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Ali təhsil müəssisələrində tələbələrin sayı - cəmi, nəfər** | 167677 | 176723 | 187654 | 198707 | 212173 |
| **Ali təhsil müəssisələrinə qəbul olan tələbələrin sayı:** | | | | | |
| **bakalavriata - cəmi, nəfər** | 38546 | 42102 | 44324 | 45003 | 45986 |
| **magistraturaya - cəmi, nəfər** | 6515 | 6937 | 6998 | 9105 | 10877 |
| Fəlsəfə doktorlarının hazırlanması proqramını həyata keçirən müəssisələrin sayı | **117** | **119** | **119** | **117** | **117** |
| **Fəlsəfə doktorlarının hazırlanması proqramı üzrə təhsil alanların sayı, nəfər** | 2168 | 2064 | 2239 | 2512 | 2559 |
| Elmlər doktorlarının hazırlanması proqramını həyata keçirən müəssisələrin sayı | **88** | **89** | **90** | **89** | **90** |
| **Elmlər doktorlarının hazırlanması proqramı üzrə təhsil alanların sayı, nəfər** | 555 | 562 | 611 | 675 | 762 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**Cədvəl 2. MDB-yə üzv olan ölkələr üzrə təhsil müəssisələrinin sayı**

| Ölkələr | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| **Azərbaycan** | 171 | 179 | 189 | 199 | 211 |
| **Belarus** | 315 | 298 | 290 | 282 | 276 |
| **Ermənistan** | 305 | 271 | 253 | 269 | 265 |
| **Qazaxıstan** | 273 | 295 | 324 | 307 | 303 |
| **Qırğızıstan** | 270 | 268 | 245 | 325 | 355 |
| **Moldova** | 185 | 171 | 215 | 227 | 229 |
| **Özbəkistan** | … | 108 | 130 | 165 | 229 |
| **Rusiya** | 289 | 284 | 277 | 277 | 278 |
| **Tacikistan** | 219 | 232 | 249 | 256 | 244 |
| **Ukrayna** | 314 | 314 | 302 | 275 | 254 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

MDB-ə daxil olan ölkələr üzrə müqayisəli təhlil apardıqda 2017-2021-ci illər ərzində Azərbaycan təhsil müəssisələrinin sayına görə digər ölkələrdən daha az göstəricilərə malikdir. Ukrayna və Belarus daha çox təhsil müəssisələrinin olması ilə digər MDB ölkələrində irəlidirlər (ARDSK, 2021).

İnsan kapitalının inkişafının innovativliyə və buna görə də iqtisadiyyatın rəqabət qabiliyyətinə təsiri çoxlu sayda nəşrlərdə bir çox tədqiqatçılar tərəfindən irəli sürülmüşdür. 100 ildən daha çox əvvəl Şumpeter biliyin innovativlik üçün əhəmiyyətini vurğulamışdı. Daha sonra Druker insan kapitalına qoyulan investisiyaların innovasiyaların vasitəsilə ölkənin rəqabətqabiliyyəti üçün əhəmiyyətini göstərdi.

İnsan kapitalı ölkənin texnoloji tərəqqi səviyyəsini müəyyən edən əsas amillərdəndir. İnsan kapitalın həm yeni innovasiyaların yaradaraq, həm də daha mütərəqqi innovasiyaların təqlid edərək texnoloji tərəqqini sürətləndirə bilər. Burada təqlid texnoloji baxımdan liderlik edən ölkənin məhsuldarlıq səviyyəsi ilə ölkənin potensialı arasındakı boşluqla təxmin edilə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi insan kapitalının tərkibində mövcud təhsil pilləsi işçilərin yenilikləri ixtira və ya mənimsəmə bacarıqlarına da təsir göstərir. Bu baxımdan baza biliklər daha çox innovasiya təqlidi, ali təhsil isə yeni innovasiyaların yaradılmasında əhəmiyyətli rol oynayır. Ölkələrin iqtisadi siyasətlərində bu məsələnin nəzərə alınması önəmlidir. Iqtisadi cəhətdən geridə qalmış ölkələr daha mütərəqqi xarici texnologiyanı təqlid edərək də inkişafa nail ola bilərlər. Ona görə də təhsilə yatırımlar ilk növbədə orta təhsil səviyyəsində həyata keçirilməsi daha məntiqlidir. Halbuki daha yüksək texnoloji artım göstərən ölkələr ali təhsildə kəmiyyət və keyfiyyətin artırılmasına diqqət yetirməlidirlər (Vandenbuşe, Aghion and Meghir, 2006).

İnkişafın innovativ istiqamətinin prioritet kimi qəbulu və mövcud resurslardan daha səmərəli istifadəsi dünyanın inkişaf cəhətdən qabaqcıl ölkələri üçün xarakterikdir. Bu istiqamətdə tədqiqatçıların yaradıcılıq potensialı və innovativ yanaşması əhəmiyyət daşıyır. Belə ki qeyd etdiyumiz yaradıcılıq potensialı yalnız elmi tədqiqatlarda deyil, həmçinin ixtiraçılıq fəaliyyətində, rəqabətə davamlı yüksək texnoloji məhsulların yaradılmasında da xüsusi rol oynayır.

Azərbaycan 2020-ci ildə Qlobal İnnovasiya İndeksi (QİI) üzrə reytinqini də yaxşılaşdıraraq "İnnovasiya nəticələri" subindeksində əvvəlki ildəki 84-cü yerlə müqayisədə 19 pillə irəliləyərək 65-ci yerə yüksəlib (Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi).

Ölkədə yaradıcılıq və ixtira qabiliyyətinin dəyərləndiirlməsi baxımından patent almaq üçün təqdim edilən iddia sənədlərinin, verilən patentlərin və bunların daxilində rezident və qeyri-rezidentlərin nisbətləri mühüm rol oynayır. Təhlil üçün bir sıra əmsallar əsas hesab oluna bilər:

**İxtira aktivliyi əmsalı** 10 min əhali sayına nisbətdə yerli iddiaçılar tərəfindən patent iddiaların sayını təşkil edir. 2010-2019-cu illər ərzində ixtira aktivlik əmsalı 0,29-dan 0,15-ə qədər azalma müşahidə olunur. Ümumi göstəricinin azalması, təqdim edilən ixtira iddia sənədlərinin 258-dən 149-a qədər azalması ilə əlaqəlidir (ölkə əhalisinin sayında ciddi dəyişiklik olmayıb). 2017-ci daxil olunmuş ixtira iddia sənədlərinin sayı əvvəlki illərə nisbətən 206-a qədər yüksəlmiş, ona uyğun olaraq 0,21 əmsala qədər artmışdır.

**Özünü təminetmə əmsalı** milli ofisə verilən yerli iddiaçılar tərəfindən patent iddialarının sayının ümumi patent iddialarına nisbətidir. 2019-cu ildə özünü təminetmə əmsalı 0,89 təşkil etmişdir. Əmsalı baxılan dövrdə nisbətən sabitdir və illər ərzində 0,84-0,96 aralığında dəyişir.

**Texnoloji asılılıq əmsalı** xarici və yerli iddiaçılar tərəfindən ölkədə verilən iddiaların sayına nisbətidir. 2019-cu ildə əmsalın dəyəri 0,12 təşkil etmişdir. Baxılan dövrdə texnoloji asılılıq əmsalı 0,05 (2010-2011-ci illər) ilə 0,19 (2015) arasında dəyişir. Məlum olduğu kimi, əmsalın nə qədər yuxarı olması ölkənin formal olaraq "texnoloji asılılığının" yüksək olmasını göstərir. Bu göstəricinin aşağı olması ölkənin müstəqil olmamasına dəlalət eləmir, xarici iddiaçılar patentlərinin köçürülmə riskinin az olması səbəbi ilə qorunmanı zəruri saymırlar və ya onların patentləri həmin bazarda təmsil olunmur (ARƏMA).

**İxtiraçılıq potensialının reallaşması əmsalı:** verilən patentlərin və təqdim olunan iddiaların nisbətidir. İxtiraçılıq potensialının reallaşması əmsalının dəyəri ildənilə nəzərə çarpan dərəcədə dəyişir. Belə ki, 2016-cı ildə 0,85 təşkil edirdi və 2017-ci ildə 0,31 qədər azaldı. 2019 -cu ildə bu əmsal 0,58 təşkil etdi (ARƏMA).

Azərbaycanda 2017-2021-ci illər üzrə elmin inkişafına investisiyaları dəyərləndirsək əhəmiyyətli artımı müşahidə edə bilərik. Belə ki qeyd olunan illər ərzində dövlətlt büdcəsindən elmə çəkilən xərclər 109.8 milyon manatdan 151.8 milyon manata qədər artmışdır. Ümumi daxili məhsula nisbətdə bu xərclər dəyişilməmiş, 0.16 % təşkil etmişdir. Dövlət büdcəsində ayrılan xərclərə nisbətdə nəzərə alanda isə 0.05 % azalma müşahidə olunmuşdur. Tədqiqat və işləmələ çəkilən xərclər də eyni zamanda ÜDM-ə nisbətdə dəyişilməsə də, kəmiyyət baxımından 64.3 milyon manat artmışdır (ARDSK, 2021).

**Cədvəl 3. Elmin əsas göstəriciləri**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| İlin sonuna | | | | | |
| İl ərzində | | | | | |
| Dövlət büdcəsindən elmə çəkilən xərclər: | | | | | |
| **milyon manat** | 109.8 | 117.8 | 122.3 | 143.6 | 151.8 |
| **ümumi daxili məhsula nisbətən, faizlə** | 0.16 | 0.15 | 0.15 | 0.20 | 0.16 |
| **dövlət büdcəsinin xərclərinə nisbətən, faizlə** | 0.6 | 0.52 | 0.50 | 0.54 | 0.55 |
| Tədqiqat və işləmələrə çəkilən daxili xərclər: | | | | | |
| **milyon manat** | 129.9 | 147.5 | 163.9 | 162.5 | 194.2 |
| **ümumi daxili məhsula nisbətən, faizlə** | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.2 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Azərbaycanda 2021-ci ildə bütün sənaye üzrə texnoloji innovasiyala çəkilən xərclər 5848.3 min manat təşkil etmişdir. Bu xərclər həm yeni məhsul, xidmət və proseslərin tətbiqi və işələnməsinə, həm də maşın və avadanlıqların, yeni texnologiyaların və proqram vəsaitlərinin alınmasına sərf edilmişdir.

**Cədvəl 4. Fəaliyyət növləri və tətbiqi istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat**

| | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|
| Bütün sənaye | **16135.7** | **34353.6** | **48037.1** | **35919.8** | **5848.3** |
| **yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi** | 7880.1 | 11119.0 | 9600.0 | 7000.0 | 3262.1 |
| **texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması** | 528.4 | 4578.5 | 32360.0 | 15292.7 | 447.0 |
| **yeni texnologiyaların alınması** | 158.7 | 185.2 | 71.5 | 1754.5 | 39.1 |
| **proqram vəsaitlərinin alınması** | 685.3 | 957.9 | 41.0 | 8497.7 | 108.2 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

## Nəticə

Bildiyimiz kimi son dövrlər, xüsusilə pandemiya müddətindən sonra dövlətlər dayanıqlı inkişafa nail olmaq yolunu seçmişlər. Dayanıqlı inkişafı təmin edən əsas faktorlardan biri də daha yeksək texnologiyaların, innovasiyaların davamlı tətbiqi və buna uyğun olaraq insan kapitalının yetişdirilməsi problemidir. İnsan kapitalı innovativ iqtisadiyyatın yaranmasının əsas amili olaraq əhalinin rifah səviyyəsinin yüksəlməsinə birbaşa təsir göstərir. Dövlətin innovasiya yaradılması və tətbiq olunması sahəsindəki dəstəyi həm də ölkədə insan kapitalına qoyulan investisiyaların qiymətləndirilməsi və düzgün idarə edilməsini tələb edir.

Elm və təhsilin inkişafına investisiyaların artırılması iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi olmaqla yanaşı, eyni zamanda mikroiqtisadi səviyyədə də əhəmiyyət daşıyır. Uzun müddət iqtisadi artım modellərində insan kapitalının əhəmiyyətli rolunun təsdiqi dövlətlərə iqtisadi siyasətlərində strateji məqsəd kimi nəzərə alınmasına səbəb olmuşdur. Azərbaycan Respublikasında da bu məsələnin vacibliyi Strateji Yol Xəritəsində də öz əksini tapmışdır. Belə ki insan kapitalının inkişaf etdirilməsi 3-cü hədəf kimi qeydə alınmışdır. Eyni zamanda təhsil, elm və tədqiqatlara investisiyaların artırılması Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı uzrə Milli Strategiyada da nəzərə alınmışdır.

**Ədəbiyyatlar**


Aurora A.C.Teixeira Anabela S.S.Queirós (2016) **"**Economic growth, human capital and structural change: A dynamic panel data analysis**"** Research Policy Volume 45, Issue 8**:** 1636-1648

Becker G. S. (1994) "Human Capital: A Theoretical and Empirical Analysis, with Special Reference to Education" 3rd Edition

Benhabib, J., Spiegel, M. (1994) "The role of human capital in economic development: Evidence from aggregate cross-country data" Journal of Monetary Economics, 34: 143-173

Bojan Vraçareviç (2016) Human capital and economic growth. The priority directions of national economy development: 261-271

Elena Pelinescu (2015 ) "The Impact of Human Capital on Economic Growth" Procedia Economics and FinanceVolume 22: 184-190

Goldin Claudia (2014) "Human capital" Handbook of Cliometrics:1-22

Hawkes, D and Ugur, M (2012) "Evidence on the relationship between education, skills and economic growth in low-income countries: A systematic review" London: EPPI-Centre, Social Science Research Unit, Institute of Education, University of London.

Jacob Mincer (1981 ) "Human capital and economic growth" Working Paper No. 803 November: 8-12

Murat Korkmaz, Ali Serdar Yücel, Ayhan Aytaç (2016) "Eğitim seviyesi ve economic gelişim arasındakı ilişki: Türkiye Örneği: 40-43

Nancy L. Stokey (1988) Learning by Doing and the Introduction of New Goods, The Journal of Political Economy, Vol. 96, No. 4: 701-717.

Peter G. Klein and Michael L. Cook (2006) Schultz and the Human-Capital Approachto Entrepreneurship Review of Agricultural Economics-Volume 28, Number 3. Pages 344-350

Richard Blundell, Lorrain Dearden, Costas Meghir and Barbara Sianesi (1999) "Human capital investment: the returns from education and training to the individual, the firm and the economy" Fiscal Studies Vol. 20, No. 1, p. 1-23

Rob A. Wilson, Geoff Briscoe (2004) "The impact of human capital on economic growth: a review" .Impact of education and training. Luxembourg, p. 9

Stevens. P., Weale, M. (2004) Education and Economic Growth, in Johnes, G. and J. Johnes (eds.), International Handbook on the Economics of Education, Cheltenham: 2016

Vandenbussche, J., Aghion, P., & Meghir, C. (2006). Growth, distance to Frontier and composition of human capital. Journal of Economic Growth, 11: 97–127.

William A. Barnett, Taniya Ghosh Econ Theory Bull (2014) Stability analysis of Uzawa–Lucas endogenous growth model: 33–44

Azərbaycan respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-ci il Fərmanı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin 2020-ci ilin yekunları üzrə görülmüş işlər barədə Hesabatının qısa icmalı HESABAT_NK_2020_Qısa_Yekun_Nİ_ST.PDF

# Bank Riskləri və Onların İdarə Edilməsinin Kompleks Strateji Təhlili

**Xanaliyeva Təzəgül**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**tezegulxanali@gmail.com**

## Xülasə

Məqalədə bank fəaliyyətinin həyata keçirilməsi zamanı bankların qarşılaşdığı əsas risk növləri növləri (kredit riski, bazar riski, likvidlik riski, əməliyyat riski və s.), idarəetmə funksiyaları araşdırılıb izah edilmiş və onların idarə edilməsi zamanı yaranan problemlər araşdırılmışdır. Banklar üçün risk idarəetməsi prosesi bankların maliyyə bazarındakı stabilliyini qorumaq, müştərilərin güvənini qazanmaq və inkişaf etmək üçün ən vacib məsələlərdən biridir. Belə ki, bu sahədə yaranan problemlərin aradan qaldırılması üçün bank risklərinin idarə edilməsi istiqamətində xarici təcrübənin öyrənilməsi nəticəsində əldə edilmiş nəticələrin Azərbaycanın bank sistemində tətbiqi elmi və praktiki cəhətdən əsaslandırılmışdır. Məqalədə risklərinin qiymətləndirilməsinin mövcud vəziyyəti nəzərdən keçirilmiş, Azərbaycanda bank risklərinin idarə edilməsi siyasətinin məqsədləri, vəzifələri və rolu araşdırılıb müəyyən təkliflər irəli sürülmüşdür. Həmçinin bankların risklərə dözümlülüyünün və bank xidmətləri bazarında nüfuzunun risklərin təhlili, diversifikasiya, stress testləri yolu ilə daha da artırılması təklif edilmişdir. Nəticə olaraq bank sektorunda risklərin idarə olunması zamanı yaranan problemlərin həlli üçün səmərəli təkliflər verilmiş və pandemiyanın banklar üzərindəki təsiri araşdırılaraq uyğun təkliflər verilmişdir.

**Açar sözlər:** bank riskləri, likvidlik riski, kredit riski

## Abstract

This article discusses the main types of risks that banks face during the implementation of their activities, such as credit risk, market risk, liquidity risk, operational risk, etc. and explores their management functions and the problems that arise during their management. Risk management process is the most important issues for banks to protect their stability in the financial market, gain customer trust and develop. The results obtained as a result of studying foreign experience in the management of bank risks form the basis for the scientific and practical aspects of the application of these results in Azerbaijan's banking system. Current situation of risk assessment is reviewed and the goals, objectives and role of risk management policy in Azerbaijan's banking sector are discussed with specific proposals put forward. It is proposed to further enhance banks' resilience to risks and their influence in the banking services market through risk analysis, diversification and stress testing. Effective proposals have been provided for resolving problems arising during the management of risks in the banking sector and the impact of the pandemic on banks has been analyzed with relevant recommendations.

**Keywords:** banking risks, liquidity risk, credit risk

## Giriş

Müasir dövrdə bank riskləri problemi xüsusilə aktualdır və onların idarə olunmasına ehtiyac var. Xüsusən devalivasiya və COVİD pandemiyasından sonra bank sisteminin idarə olunmasında və rəqəmsal bankçılıqda hansı strateji dəyişikliklərə gətirib çıxardığını, həmçinin bütün bunların risklərin idarə olunmasına necə təsir göstərdiyinin araşdırılması nəzərdə tutulub. Manatın iki dəfə devalvasiyası, pandemiya və bu prosesin ölkəmizin sosial-iqtisadi həyatına göstərdiyi mənfi təsirlər xüsusən bank sektorunun fəaliyyətinə öz təsirini göstərdi. Elmi yenilik kimi bank risklərinin idarə edilməsi siyasətinin məqsəd və vəzifələri hərtərəfli araşdırılmış, bank risklərinin idarə edilməsi siyasətinin əsas istiqamətləri müəyyən edilmişdir. Bank riskləri ilk öncə yaranma formalarına, sonra isə kateqoriyalara görə təhlil olunmuşdur. Aparılan təhlil Mərkəzi Bank tərəfindən həyata keçirilən bank risklərinin idarə edilməsi siyasətinə bir daha nəzər salmağa imkan verir və bununla da biz əldə

olunan nailiyyətlərə, bank risklərinin idarə edilməsi siyasətinin həyata keçirilməsinin daha səmərəli üsullarına, qarşıda duran problemlər və onların mümkün həlli yollarına nəzər salırıq.

Tədqiqatın məqsəd və vəzifələri bankların fəaliyyətinin idarə edilməsində risklərin düzgün müəyyənləşdirilməsi, risklərin idarə edilməsi üsullarını və bu risklərin bankların gəlirliliyinə təsirini təhlil etməkdir. Məqalədə Azərbaycan Respublikasının bank sektorunda yaranan problemlərin araşdırılması və müəyyənləşdirilməsinə diqqət yetirilmişdir.

Mövzunun tədqiqat dairəsi geniş olduğundan tədqiqat zamanı bir çox metodlardan istifadə edilmişdir. Metodologiyanın əsasını sistemli yanaşma və müqayisəli təhlil metodu təşkil edir. Tədqiqatın informasiya bazasını əsasən Azərbaycan Respublikasında fəaliyyət göstərən dövlət və kommersiya bankları, Azərbaycan Respublikası Mərkəzi Bankının saytından məlumatlar və mövzu ilə bağlı dərsliklərdən (kitablardan) vəsaitlər təşkil edir. Bu metodların tətbiqindən sonra bank risklərinin idarə olunmasında mövcud olan çatışmazlıqlar görülmüşdür. Tədqiqatın predmetinə ölkənin kredit siyasətinin əsas həlqəsi olan bank riskləri, onların tənzimlənmə üsulları, əsas istiqamətləri, alətləri və banklarda risklərin idarə edilməsinin təkmilləşdirilməsi yolları aiddir.

Ölkənin bank sisteminin regional inkişafının dəstəklənməsi, güclü iqtisadi artımın təmin edilməsi və özəl sektorun, xüsusilə də kiçik və orta biznesin maliyyə ehtiyaclarının ödənilməsinin mühüm rolu var. Banklar və onların idarəçiləri, maliyyə bazarındakı konkurensiyaya cavab verə bilmək və müştərilərin güvəni ilə yanaşı, bankın stabilliyini qoruyaraq, risklərə qarşı müdafiəli addımlar atmalıdırlar. Bu proses, bankların müştərilərə daha keyfiyyətli və təhlükəsiz xidmət göstərməsinə, bazar şəraitinə uyğun olaraq inkişaf etməsinə və müxtəlif risklərə qarşı qorunmasına kömək edir.

Müasir dövrdə bütün ölkələrdə olduğu kimi, respublikamızın iqtisadi inkişafında da bank sisteminin rolu xeyli artmışdır. Müasir bank sistemi istənilən ölkənin milli iqtisadiyyatının ən mühüm sahələrindən biridir. Bazar iqtisadiyyatı şəraitində risk etmədən gəlir (mənfəət) əldə etmək, yüksək nailiyyətlər əldə etmək mümkün deyil. Hər bir idarəetmə qərarı müəyyən qədər risk daşıyır. Hər bir bank üçün risk və gəlirlilik arasında nisbəti idarə etmək bir strateji məqsəd olmalıdır. Tədqiqat zamanı əsas istinad olunan mənbələrə müxtəlif yerli və xarici iqtisadçı müəlliflərin fikirləri, müxtəlif jurnallar və məqalələrdən olan məlumatlar aid edilir.

**Bank Risləri Anlayışı, Onların Mahiyyəti və Təsnifatı**

─ Ətraf mühitin pozulmasının əsas səbəbləri haqqında məlumatlandırmaq məqsədi daşıyan təhsil layihələrinə üstünlük verilməlidir;

─ ətraf mühitin vəziyyətinin dövlət tərəfindən idarə edilməsinin keyfiyyəti üzərində iş aparılmalıdır (burada real iqtisadi stimulların yaradılması məqsədəuyğun görünür);

─ Diqqəti çirklənməyə görə vergilərə yönəltmək, eləcə də "karbonun qiyməti"ni tətbiq etmək üçün vergitutma sistemində islahatlar aparılmalıdır (bu, qabaqcıl aşağı karbonlu texnologiyaların tətbiqinə təkan verəcək);

─ Yaşıl dövlət satınalma siyasətləri vasitəsilə ekoloji cəhətdən təmiz məhsulların istehsalını və davamlı istehsal üsullarından istifadəni təşviq etmək;

– "ənənəvi" sənaye sahələrinin texniki yenidən təchiz edilməsinin maliyyələşdirilməsi ilə paralel olaraq "yaşıl" infrastruktura (o cümlədən ictimai nəqliyyat, enerjiyə qənaət edən binaların tikintisi) dövlət investisiyalarının artırılması;

– Sahibkarlıq subyektlərinin ətraf mühitə təsiri haqqında məlumatları və korporativ ekoloji nəzarət məlumatlarını açıqlamaq;

– Qeyri-səmərəsiz subsidiyaların aradan qaldırılması da daxil olmaqla, davamlılıq üçün qiymətlərin müəyyənləşdirilməsi lazımdır.

**Ədəbiyyatlar**


The Paris Agreement | UNFCCC

Greenhouse gas emissions - Our World in Data

What Does "Net-Zero Emissions" Mean? 6 Common Questions, Answered | World Resources Institute (wri.org)

HOME - UN Climate Change Conference (COP26) at the SEC – Glasgow 2021 (ukcop26.org)

Global Energy Review: CO2 Emissions in 2020 – Analysis - IEA

Data & Statistics - IEA

Смагулова Ж.Б., Муханова А.Е., Мусаева Г.И. Анализ мирового опыта перехода кзеленой экономике: предпосылки и направления // Международный журналприкладных и фундаментальных исследований. – 2015. – № 1-1.– С. 92-96;URL: https://applied-research.ru/ru/article/view?id=6344 (дата обращения: 02.10.2022).

Онищенко М. В. Роль государства в развитии «зеленой экономики» Научный журнал КубГАУ, №102(08), 2014

Иванова Н.И., Левченко Л.В. «Зеленая» экономика: сущность, принципы и перспективы. Вестник Омского университета. Серия «Экономика». 2017. № 2

Гурбаналиев А. И. Исмаилова Г. Ф. «Зеленая экономика» в Азербайджанской республике: предпосылки и направления развития. Московский экономический журнал №1 2017

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az

.(Le Quéré et al, 2020)

"Enerji ehtiyatlarından istifadə haqqında" 3 may 1996-cı il tarixli Qanun;

"Energetika haqqında" 24 noyabr 1998-ci il tarixli Qanun.

United Nations www.un.org

# Qeyri-Kommersiya Şirkətlərində Korporativ Sosial Məsuliyyət: RİİB Nümunəsində

**Nilufər Əkbərova**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**nilufer_akperova@hotmail.com**

## Xülasə

Məqalədə Koprorativ Sosial Məsulliyyət anlayışı müəyyən edilir. Korporativ Sosial Məsulliyyətin formalaşması mərhələləri, həyata keçirilməsi formaları və istiqamətləri nəzərdən keçirilir. RİİB nümunəsində qeyri-kommersiya şirkətlərində Korporativ Sosial Məsuliyyət təhlil edilir. Müasir iqtisadi şəraitdə korporativ sosial məsuliyyət cəmiyyətin və sahibkarlığın inkişafında böyük əhəmiyyətə malik olduğu üçün öz aktuallığı ilə fərqlənən problemlərdən biri hesab olunur. Məqalədə ilk öncə sosial məsuliyyət kateqoriyasının tərifi verilir, sonra korporativ sosial məsuliyyətin inkişaf istiqamətləri təsvir edilir. Qeyri-kommersiya Şirkətlərində korporativ sosial məsuliyyət mexanizmin anlamaq üçün ümumi qəbul edilmiş standartlar və beynəlxalq təşkilatların yanaşması analiz edilir. Azərbaycanda sosial məsuliyyətin həyata keçirilməsi RİİB nümunəsində göstərilir.

**Açar sözlər:** sosial məsuliyyət, korporativ sosial məsuliyyət, qeyri-hökümət təşkilatları, RİİB.

## Abstract

The article defines the concept of Cooperative Social Responsibility. The stages of formation of Corporate Social Responsibility, forms of implementation and directions are reviewed. Corporate Social Responsibility in non-profit companies is analyzed in the example of RIIB. In modern economic conditions, corporate social responsibility is considered to be one of the most relevant problems, as it is of great importance in the development of society and entrepreneurship. The article first defines the category of social responsibility, then describes the development directions of corporate social responsibility. In order to understand the mechanism of corporate social responsibility in non-profit companies, generally accepted standards and the approach of international organizations are analyzed. The implementation of social responsibility in Azerbaijan is shown in the example of RIIB.

**Keywords:** Social responsibility, Corporate Social Responsibility, non-governmental organizations, RIIB.

## Giriş

Sosial məsuliyyət müxtəlif məsuliyyət anlayışlarını və onun növlərini özündə cəmləşdirən mürəkkəb və çoxsəviyyəli kateqoriyadır. İnkişaf prosesində sosial məsuliyyət anlayışının xeyli ciddi dəyişikliklərə məruz qalması nəticəsində bu kateqoriyanın tədqiqi bir çox sahələrin yaranmasına səbəb olmuşdur. Məsuliyyət kateqoriyası azadlıq kateqoriyası ilə ayrılmaz vəhdət təşkil edir. Belə ki, yalnız azadlığın mövcud olduğu şəraitdə məsuliyyətdən bəhs etmək mümkündür. Öz azadlığını dərk edən şəxs başqasının azadlığına etinasızlıq etməyərək və onun sərhədlərini pozmağa cəhd etməz. Beləliklə, şəxsi azadlıq meyarı onun məsuliyyət meyarına çevrilir. Bu baxımdan müavinət və rüsumların bölgüsü, o cümlədən onların ədalətli bölgü meyarlarının formalaşdırılması məsuliyyət anlayışına əsasən reallaşdırılır. Hansı kateqoriyaya uyğun təfsir edilməsindən asılı olmayaraq məsuliyyətdən azad olmaq mümkün deyil.

Məsuliyyətin subyekti fərdi yox, kollektiv olduğu halda yalnız sosial məsuliyyətdən bəhs etmək mümkündür. Bu zaman sosial məsuliyyət dedikdə sosial qrupların üzvlərinin (yəni fərdin, kollektivin,

dövlətin və cəmiyyətin) məsuliyyəti kimi onların öhdələrinə düşən müvafiq siyasi, hüquqi və mənəvi tələbləri yerinə yetirmək öhdəliyi başa düşüləcək.

Sosial mühit subyektlərin məqsədlərinə nail olmasına həlledici təsir etdiyinə görə onlar öz maraqlarını ətraf mühitin maraqlarına uyğunlaşdırmalıdırlar. Bu növ sosial məsuliyyət cəmiyyətin inkişafına müxtəlif könüllü töhfələrin verilməsilə yanaşı, həm də müəyyən qayda və normaların məcburi olaraq yerinə yetirilməsini də tələb edir. Sosial məsuliyyətin qısa şəkildə daha konkret şərhini verə bilərik ki, bu da məsuliyyətin öhdəlikdən kənara çıxmasını nəzərdə tutur. Bu zaman məsuliyyətin «ictimailiyi» onun həyata keçirilməsi prosesində məsuliyyət subyekti cəmiyyət tərəfindən müəyyən edilmiş məcburi minimum hədlərdən kənara çıxmasından, onları üstələməsindən və öz məsuliyyəti sahəsində əlavə cəhətləri də əhatə etməsindən ibarətdir. Sosial sistemin bütün elementləri (fərdlər, sosial qruplar, təşkilatlar, o cümlədən ictimai institut və sosial qrup kimi biznes qurumları) məsuliyyətin subyektləri hesab edilir.

**KSM İnkişaf İstiqamətləri**

XX əsrdə elm və texnikanın sürətli inkişafı ilə əlaqədar məsuliyyət problemi yeni mərhələyə yüksəldi, onun təsiri insan fəaliyyətinin bütün sahələrini əhatə etdi və nəticə etibarilə köhnə etika müddəalarının yenidən nəzərdən keçirilməsi tələb olundu. Qərbdə bu problemlə əlaqədar olaraq ilk tədqiqatlar XX əsrin 50-ci illərində meydana çıxdı. Bu, transmilli korporasiyaların fəaliyyəti nəticəsində yaranmış sosial-ekoloji problemlərin kəskin həddə çatması ilə əlaqədar idi. Həmin dövrdə formalaşmış korporativ sosial məsuliyyət anlayışı geniş yayılmağa başladı.

Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, cəmiyyətdə mövcud olan və onun əsas tərkib hissəsini təşkil edərək ondan qaçılmaz asılılıqda olan sahibkar nəinki öz biznesini inkişaf etdirməli və mənfəət əldə etməli, həm də bununla əlaqədar işçilərinin müəyyən sosial ehtiyaclarını ödəməyə məcburdurlar. Sosial məsuliyyət anlayışı formalaşarkən əsas məqsəd mənfəət əldə etmək istəyən sahibkarın cəmiyyətdə sabitliyə nail olmağa çalışması və öz üzvlərinin sosial müdafiəsinin təmin edilməsində iştirak etməsidir. Bununla belə, müasir iqtisadi şəraitdə hələ də korporativ sosial məsuliyyətin mahiyyətini əks etdirən tam anlayış və nəticədə onun ümumi qəbul edilmiş tərifi yoxdur.

«Korporativ sosial məsuliyyət» anlayışının mahiyyətini ilk dəfə müəyyənləşdirməyə çalışanlardan biri də Q.Bouen olmuşdur. Onun «Biznesmenin sosial məsuliyyəti» (1953) adlı əsərində qeyd edilmişdir ki, iş adamının sosial məsuliyyəti «cəmiyyətin məqsəd və dəyərləri baxımından arzuolunan davranış xəttinə riayət edilməsi siyasəti həyata keçirməkdən və qərarlar qəbul etməkdən ibarətdir» (Благов, 2004).

Korporativ sosial məsuliyyətin inkişafı cəmiyyətdə sosial iqlimin yaxşılaşdırılması üçün daha əlverişli şərait yaradır və ictimai rifahın yüksəlməsinə töhfə verir. Müasir iqtisadi şəraitdə istənilən müxtəlif mülkiyyət kateqoriyalı sahibkarlıq subyektləri fəaliyyət göstərdiyi cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Beləliklə, hal-hazırda sosial məsuliyyətə ehtiyac ölçüsündən, yerindən və hüquqi formasından asılı olmayaraq bütün sahibkarlıq subyektləri tərəfindən qəbul edilir. İstənilən sahibkarlıq subyekti cəmiyyətin davamlı inkişafına (iqtisadi, sosial və ekoloji) töhfə verməlidir. Belə ki, sahibkarlıq subyektləri bir-biri ilə əlaqəlidir və onlar müxtəlif qurumların fəaliyyəti ilə bağlı cəmiyyətin gözləntiləridir.

Bəzi tədqiqatçıların fikrincə, korporativ sosial məsuliyyət son onilliklər ərzində öz inkişafında üç mərhələdən keçib (Белоусов, 2015; Грекова, 2011; Kotler, 2014)

- birinci mərhələ (XX əsrin 60-70-ci illəri) ənənəvi xeyriyyəçiliyin inkişafı ilə xarakterizə olunurdu;

- ikinci mərhələdə (70-ci illərin ortaları - 80-ci illərin əvvəlləri) maksimum əvəzinə optimal gəlir əldə etmək istəyi sosial problemlərin həllinə diqqətli yanaşma ilə xarakterizə olunan strateji xeyriyyəçilik meydana çıxdı;

- üçüncü mərhələdə 80-ci illərin ortalarından strateji xeyriyyəçilik sosial sərmayə şəklində özünü göstərən korporativ vətəndaşlıq anlayışı ilə əvəz olundu (bu cəmiyyətin aktual sosial-iqtisadi problemlərinin həlli üçün kommersiya, qeyri-kommersiya və dövlət sektorlarının birgə işi hesab edilir).

Hər hansı bir anlayışın təsnifatı onun mahiyyətinin müəyyən edilməsini və bu anlayışın kifayət qədər aydın tərifinin formalaşdırılmasını tələb edir. Yuxarıda qeyd edildiyi kimi indiyədək korporativ sosial məsuliyyət haqqında ümümi vahid anlayış yoxdur. Eyni zamanda hər hansı bir sabit fəaliyyət göstərən sahibkarlıq subyektinin sosial məsuliyyətli davranışının məcburi xaraketirik xüsusiyyətləri aşağıdakılardan ibarət olmalıdır:

- sosial proqramlarda iştirakın könüllülük prinsipi əsasında olması;

- fəaliyyətin həm daxili və həm də xarici mühitin inkişafına yönəldilməsi;

- qanunla müəyyən edilmiş normativ tələblərdən artıq fəaliyyət;

- korporativ sosial məsuliyyətin korporativ strategiya ilə sıx əlaqəsi.

Yuxarıdakı xüsusiyyətlərə əsasən sahibkarlıq subyektlərinin sosial məsuliyyətli hərəkətlərinin həyata keçirilməsi üçün istiqamətlər və formalar müəyyən etmək olar. Eyni zamanda sosial məsuliyyətin həyata keçirilməsi istiqaməti dedikdə, sahibkarlıq subyektlərinin daxilinin və ya xaricinin maraqlı olan kənar subyektlərin sosial məsuliyyətli hərəkət istiqamətləri başa düşülür. Sosial məsuliyyətin həyata keçirilməsi forması altında bu hərəkət istiqamətlərinin sahibkarlıq subyektinin fəaliyyətinin müəyyən aspektlərinə xüsusi yönümlü olması fərqləndirilir. Sosial sahədə sahibkarlıq subyektinin fəaliyyətinin təsnifatına bir neçə yanaşma mövcuddur. Bununla belə əksər yanaşmaları təhlil edərkən aydın olur ki, korporativ sosial məsuliyyətin həyata keçirilməsi istiqamətlərini aşağıdakı kimi təsnif etmək mümkündür:

1) daxili;
2) xarici;
3) birgə.

Korporativ sosial məsuliyyətin daxili həyata keçirilmə istiqaməti aşağıdakı formalardan ibarətdir:

- kadrların inkişafı və dəstəyi;
- sağlamlığın qorunması və iş şəraitinin təhlükəsizliyi;
- sosial məsuliyyətli yenidənqurma.

Korporativ sosial məsuliyyətin xarici həyata keçirilmə istiqaməti aşağıdakı formalardan ibarətdir:

- ətraf mühitin mühafizəsi və resursların qorunması;
- ictimai inkişaf;
- ədalətli işgüzar təcrübənin inkişafı.

Korporativ sosial məsuliyyətin birgə həyata keçirilmə istiqaməti aşağıdakı formalardan ibarətdir:

- məhsulun (iş və ya xidmətin) keyfiyyətinin yaxşılaşdırlılması;

- auditin aparılması;

- əlavə iş yerlərinin yaradılması.

Aparılan araşdırmalara əsasən tədqiqatçılar korporativ sosial məsuliyyətin üç səviyyəsini müəyyənləşdiriblər (Classon, 2006; Благов, 2011; Беляевой и др., 2008; Kythle, 2005).

Korporativ sosial məsuliyyətin birinci və ya əsas səviyyəsi cəmiyyət və dövlət qarşısında bilavasitə öhdəliklərin qanunla müəyyən edilmiş normalara uyğun olaraq vicdanla yerinə yetirmələri ilə müəyyən edilir. Korporativ sosial məsuliyyətin birinci səviyyəsinin tələbləri məcburi xarakter daşıyır.

Korporativ sosial məsuliyyətin ikinci səviyyəsi sahibkarlıq subyektinin daxilində tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsini nəzərdə tutur və işçilərə sosial müavinətlər və xidmətlər kompleksinin təqdim edilməsinə zəmanət verir.

Korporativ sosial məsuliyyətin üçüncü səviyyəsinə sahibkarlıq subyektinin fəaliyyət dairəsindən kənarda olan, o cümlədən iqtisadi səmərəyə malik olmayan proqramlar və müxtəlif fəaliyyətlər aid edilir (Матвеева, 2014).

**KSM Standartları və Beynəlxalq Təşkilatların Yanaşması**

Avropa ölkələrində korporativ sosial məsuliyyət «şirkətlərin öz səhmdarları və xarici mühitlə qarşılıqlı əlaqədə olan biznes əməliyyatlarında sosial və ekoloji inkişafa qayğının inteqrasiyası konsepsiyası» kimi şərh olunur (Лыгина и др.,2013) . ABŞ-da korporativ sosial məsuliyyət anlayışı «etik standartlara və insanlara, icmalara və ətraf mühitə hörmətə əsaslanan yollarla kommersiya uğurunun əldə edilməsini» nəzərdə tutur (Костин, 2005).

Hal hazırda korporativ sosial məsuliyyət institutunu tənzimləyən əsas beynəlxalq sənəd biznes şirkətlərini BMT-nin strukturları ilə birləşdirən BMT-nin Qlobal Sazişidir. BMT-nin Qlobal Sazişinin prinsipləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Beynəlxalq Əmək Təşkilatının Əsas Prinsipləri və Əmək Hüquqları Bəyannaməsi, Ətraf Mühit və İnkişaf üzrə Rio Bəyannaməsi və BMT-nin Korrupsiyaya qarşı Konvensiyasından irəli gəlir. BMT-nin Qlobal Sazişinə korporativ sosial məsuliyyətin 10 əsas prinsipi daxildir və bunlar 4 bloka bölünür - insan hüquqları, əmək münasibətləri, ətraf mühit, korrupsiyaya qarşı mübarizə (https://www.bsr.org/en/about/story 30.03.2023)**:**

- ***İnsan hüquqları***

*Prinsip 1: Bizneslər beynəlxalq səviyyədə elan edilmiş insan hüquqlarının müdafiəsini dəstəkləməli və onlara hörmət etməlidir;*

*Prinsip 2: əmin olun ki, onlar insan hüquqlarının pozulmasında şərik olmasın.*

- ***Əmək***

*Prinsip 3: Müəssisələr birləşmək azadlığını və kollektiv sövdələşmə hüququnun effektiv şəkildə tanınmasını dəstəkləməlidir;*

*Prinsip 4: məcburi və məcburi əməyin bütün formalarının ləğvi;*

*Prinsip 5: uşaq əməyinin effektiv ləğvi; və*

*Prinsip 6: məşğulluq və peşə ilə bağlı ayrı-seçkiliyin aradan qaldırılması.*

- ***Ətraf mühit***

*Prinsip 7: Müəssisələr ekoloji problemlərə qarşı ehtiyatlı yanaşmanı dəstəkləməlidir;*

*Prinsip 8: ətraf mühitə daha çox məsuliyyəti təşviq etmək üçün təşəbbüslər irəli sürmək;*

*Prinsip 9: ekoloji cəhətdən təmiz texnologiyaların inkişafını və yayılmasını təşviq edin.*

- ***Korrupsiyaya qarşı mübarizə***

*Prinsip 10: Bizneslər qəsb və rüşvətxorluq da daxil olmaqla, bütün formalarda korrupsiyaya qarşı işləməlidir* **.**

BMT-nin Qlobal Sazişinin prinsiplərinin korporativ dəyər sisteminə daxil edilməsi və onların təcrübədə tətbiqinin təsdiqini tapması məsuliyyətli biznesin və sosial rifahın yaxşılaşdırılmasında xoş niyyətin əsas göstəriciləridir.

Korporativ sosial məsuliyyəti təmin edən digər beynəlxalq standart SA8000 standartıdır. SA8000 Standartı İnsan Hüquqlarının Ümumdünya Bəyannaməsi, BƏT konvensiyaları və milli qanunlar da daxil olmaqla, beynəlxalq səviyyədə tanınmış standartlarına əsaslanır. SA8000 sosial səmərəliyə sistemləşmiş bir yanaşma tətbiq edir və diqqəti yoxlama siyahısı tərzində auditdən çox davamlı təkmilləşdirilməyə yetirir. Standart 1997-ci ildə qəbul edilmişdir və bu illər ərzində Standart sertifikatlaşdırılmış təşkilatlara bütün sənayelərdə və istənilən ölkədə işçilərə ədalətli rəftar göstərməyə öz sadiqliyini nümayiş etdirməyə kömək edən ümumi çərçivəyə çevrilmişdir. Sa8000 Standartının elementləri:

- Uşaq əməyi
- Məcburi əmək
- Sağlamlıq və təhlükəsizlik
- Birləşmək azadlığı və kollektiv müqavilə hüququ
- Ayrı-seçkilik
- İntizam praktikaları
- İş saatları
- Mükafat idarəetmə sistemi (https://unglobalcompact.org/what-is-gc/mission/principles , 30.03.2023)

SA8000 Standartı təşkilatlara öz sosial səmərəliyi qoruyub saxlamağa və davamlı olaraq təkmilləşdirməyə kömək etmək üçün potensialın artırılması, maraqlı tərəflərin cəlb edilməsi, alıcılar və təchizatçılar arasında əməkdaşlıq və davamlı təkmilləşdirməni təmin etmək üçün alətlər də daxil olmaqla geniş resurslar seçimi təklif edir.

2000-ci illərdən başlayaraq korporativ sosial məsuliyyət Avropa İttifaqının prioritetlərindən birinə çevrilib. 2001-ci ildə Avropa Komissiyası Korporativ Sosial Məsuliyyət üzrə Yaşıl Sənədi nəşr edir və 2005-ci il Avropa İttifaqında Sosial Məsuliyyət ili elan olunur. Bu gün korporativ sosial məsuliyyət ABŞ, Böyük Britaniya və digər inkişaf etmiş ölkələrin aparıcı müəssisələrinin siyasətinin formalaşmasında mühüm amilə çevrilir (https://sa-intl.org/programs/sa8000/ 30.03.2023; Пахомова и Рихтер, 2013; Перегудов, 2008; https://sweden.se/wp-content/uploads/2013/10/CSR-Russian-high-resolution.pdf , 30.03.2023).

Amma nəzərə almaq lazımdır ki, korporativ sosial məsuliyyət bütün cəmiyyətə şamil edilə bilməz. Hər bir konkret müəssisə üçün cəmiyyət həmin müəssisənin siyasətinə təsir edən və ya bu siyasətdən təsirlənən fərdlərdən, qruplardan, təşkilatlardan ibarət maraqlı tərəflər sistemidir. Lakin əvvəlləki illərdə sosial məsuliyyət məsələlərinə diqqət yalnız «korporativ sosial məsuliyyət» termininin geniş istifadə olunduğu biznes sektorunda cəmlənmişdir və sosial məsuliyyət anlayışı xeyriyyəçilik fəaliyyətlərinə (məsələn, xeyriyyə ianələrinə) yönəlmişdir.

Nəticədə, tədricən əmək münasibətləri kimi sosial məsuliyyət istiqaməti də meydana çıxdı. Zamanla insan hüquqları, ətraf mühitin mühafizəsi və istehlakçıların müdafiəsi ilə bağlı məsələlər əlavə edilmişdir.

Müasir qlobal iqtisadiyyatda sosial məsuliyyət sahibkarlıq subyektinin qərarlarının və fəaliyyətlərinin şəffaf və etik davranış yolu ilə cəmiyyətə və ətraf mühitə təsirinə görə məsuliyyəti kimi aşağıda göstərilən şəkildə başa düşülür:

- davamlı inkişafı, o cümlədən cəmiyyətin sağlamlığını və rifahını təşviq edir;
- maraqlı tərəflərin gözləntiləri nəzərə alınır;
- qüvvədə olan qanunlara uyğundur və beynəlxalq davranış standartlarına uyğundur;
- müəssisənin fəaliyyətinə inteqrasiya olunur və onun xarici və daxili mühitlə münasibətində tətbiq edilir.

Korporativ sosial məsuliyyətli müəssisənin əsas kimi rəhbər tutmalı olan prinsiplərini ISO 26000 Beynəlxalq Standartı müəyyən edir. ISO 26000 Beynəlxalq Standartı sosial məsuliyyətin əsasını təşkil edən prinsiplər sosial məsuliyyətlə bağlı əsas mövzulara və məsələlərə dair, o cümlədən sosial məsuliyyətli davranışın müəssisənin siyasətlərinə, sistemlərinə, təcrübələrinə və proseslərinə necə inteqrasiya olunacağına dair təlimat verir. Standartda qeyd olunur ki, sosial məsuliyyətin bütün prinsiplərinin dəqiq siyahısı olmasa da, müəssisə aşağıdakı yeddi əsas prinsipə əməl etməlidir (https://www.iso.org/obp/ui/#iso:std:iso:26000:en , 29.03.2023):

*1. Qəbul etdiyi qərarların cəmiyyətə və ətraf mühitə təsirinə görə cavabdeh olmaq, zərəri aradan qaldırmaq və belə hallar baş verərsə mənfi təsirlərin təkrarlanmaması üçün tədbirlər görmək;*

*2. Müəssisənin fəaliyyəti qəbul etdiyi qərarlarında və fəaliyyətində şəffaf olmalı, o cümlədən müəssisə haqqında məlumat müəssisənin təsirinə məruz qalanlar üçün əlçatan və başa düşülən olmalıdır;*

*3. Müəssisənin davranışı etik olmalıdır, yəni dürüstlük, ədalətlilik və vicdanlılıq kimi dəyərlərə əsaslanmalıdır;*

*4. Müəssisə maraqlı tərəflərin maraqlarına hörmət etməli və onları nəzərə almalıdır. Təsisçilər, üzvlər, müştərilər, təchizatçılar, qəyyumlar, digər şəxslər və qruplar müəssisənin maraqlı tərəfləri hesab olunurlar ki, onlar müəssisənin nəzərə almalı olduğu maraqlara və qanuni hüquqlara malik ola bilər;*

*5. Müəssisə qanunun aliliyinə riayət edilməsinin vacib olduğunu qəbul etməlidir. Heç bir qurum, o cümlədən hökumət qanundan üstün deyil. Qanunun aliliyi hakimiyyətin özbaşına həyata keçirilməsinə qarşıdır;*

*6. Müəssisə ölkələrin mədəni və etnik fərqlərinə baxmayaraq beynəlxalq davranış normalarına bütün vəziyyətlərdə mümkün qədər riayət etməlidir;*

*7. Müəssisə insan hüquqlarına hörmət etməli, onların əhəmiyyətini və universallığını tanımalıdır.*

Beləliklə, korporativ sosial məsuliyyət anlayışı kifayət qədər sadə və başa düşüləndir, müəssisə yaxşını pisdən ayırmalı və cəmiyyətdə qəbul edilmiş əxlaq normalarına uyğun hərəkət etməlidir. Müəssisənin rəhbərliyi rifah səviyyəsini yüksəldən, ətraf mühitin qorunmasına töhfə verən, o cümlədən cəmiyyətin, müəssisənin özünün və maraqlı tərəflərin maraqlarına cavab verən qərarlar qəbul edir və tədbirlər görür.

**KSM RİİB Nümunəsində**

Azərbaycanda sosial məsuliyyətin inkişafının özünəməxsus xüsusiyyətləri var. Qeyd etmək lazımdır ki, sosial məsuliyyətin yeni xüsusiyyətləri sosial struktura, ölkədə biznes, cəmiyyət və hökümət arasında sosial işin necə həyata keçirilməsi ilə bağlıdır. Baxmayaraq ki, son 15 ildə ölkədə sosial məsuliyyət prinsiplərinin əhəmiyyətini dərk etmək üçün böyük yol qət edilib, hələ də həllini tapmamış problemlər çoxdur. Beləliklə, yalnız böyük korporasiyalar çoxsəviyyəli və çoxşaxəli sosial məsuliyyət modelini ödəyə bilər. Orta və kiçik bizneslər sosial sərmayəyə hazır deyillər, lakin onlar vaxtaşırı xeyriyyə işlərində iştirak edirlər. Beləliklə, bütün cəmiyyət qarşısında vahid sosial məsuliyyət prinsiplərindən istifadə etməyə ehtiyac yarandı.

Müasir cəmiyyətdə şəxsiyyətlərarası və qruplararası qarşılıqlı əlaqə çərçivəsində sosial işin uğuru, sosial problemləri konstruktiv həll etmək bacarığı dövlət və qeyri-hökumət təşkilatlarının işinin ahəngdarlığından asılıdır. Azərbaycanda hal-hazırda ictimai həyatın demək olar ki, bütün sahələrini əhatə edən bir çox qeyri-hökumət təşkilatları və hərəkatlar mövcuddur. Qeyri-hökumət (QHT) təşkilatlarının geniş sisteminin formalaşması vətəndaş cəmiyyətinin inkişafının mühüm göstəricisi, onun maraqlarının müxtəlifliyinin və strukturlaşdırılmış xarakterinin sübutudur. Qeyri-hökumət təşkilatları bir çox fərqli cəbhə və səviyyələrdə sosial məsulliyyəti həyata keçirmə funksiyaların öz üzərinə götürə bilərlər. QHT-lərin strategiyaları məqsədlərinin xarakterinə görə dəyişə bilər: daha ümumi və ya daha konkret, uzunmüddətli və ya qısamüddətli ola bilər, yerli, milli və ya beynəlxalq və s. QHT-lər demək olar ki, bütün dünyada həm fərdlər, həm də qruplar üçün mövcud olan müdafiə vasitəsidir. Onlar, bir çox digər təşkilatlar kimi, fərdi şəxslər tərəfindən idarə olunur və koordinasiya olunur, lakin bundan başqa, QHT-lərin gücü cəmiyyətin digər üzvlərinin onların işlərinə könüllü dəstəyi ilə bağlıdır. Bu fakt Azərbaycanda da vətəndaş cəmiyyətinin inkişafına töhfə vermək istəyənlər üçün xüsusi əhəmiyyət daşıyır.

Bu baxımdan ölkənin sosial-iqtisadi, ictimai və mədəni həyatında, vətəndaş cəmiyyəti quruculuğunda iştirak etmək, dövlət tərəfindən regionların inkişafı üzrə həyata keçirilən tədbirlərə dəstək göstərmək məqsədilə 2016-cı ildə təsis olunmuş "Regional İnkişaf" İctimai Birliyini (RİİB) nümunə gətirmək olar.

"Regional İnkişaf" İctimai Birliyi (RİİB) şəffaflıq, qanunun aliliyinə hörmət, milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi, daima yeniliklərin və innovasiyaların tətbiqi, ictimai məsuliyyət dəyərlərini mənimsəməklə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir :

- ictimai nəzarətin həyata keçirilməsi;
- vətəndaş müraciətləri və təkliflərinə baxılması, onların dövlət və bələdiyyə orqanları ilə əməkdaşlıq və dialoq şəraitində həlli istiqamətində tədbirlərin həyata keçirilməsi;
- əhalinin həyat və sağlamlığının qorunmasına, elm, təhsil və turizmin inkişafına, innovativ ideyaların reallaşdırılmasına, təbiətin və ətraf mühitin mühafizəsinə, cəmiyyət üzvlərinin fiziki, sosial, intellektual və mənəvi inkişafının təmin edilməsinə, cəmiyyətdə tolerant mühitin qorunmasına, məşğulluğun artırılmasına və sosial cəhətdən həssas (çətin həyat şəraitində yaşayan və sosial müdafiəyə ehtiyacı olan) əhali qruplarının sosial problemlərinin həllinə, sərbəst, təhlükəsiz və dayanıqlı hərəkət və yaşayış mühitinin təmin edilməsinə yönəlmiş layihələrin icrası;
- istedadlı, xüsusi qabiliyyətli insanların aşkara çıxarılması və onların davamlı inkişafının təmin edilməsi istiqamətində tədbirlər-tədbirlərin görməsi-görülməsi;

- gənclərin fərdi inkişafına təkan vermək və faydalı məşğulluğunu təmin etmək, onlarda sosial məsuliyyət, vətənpərvərlik, dövlətçilik, humanizm dəyərlərini möhkəmləndirmək, gəncliyin potensialından xalqın rifahı, ölkəmizin dayanıqlı inkişafı, dövlət institutlarının fəaliyyətinin müasir dövrün çağırışlarına uyğunlaşdırılması üçün səmərəli istifadə etmək məqsədilə tədbirlərin həyata keçirməsi;
- inklüziv təhsilin və cəmiyyətin inkişafı, idmanın və sağlam həyat tərzinin təbliği, innovasiyaların təşviqi, gender bərabərliyinin təşviqi, həssas kateqoriyadan olan şəxslərin sağlamlığının qorunması və sosial müdafiəsinin gücləndirilməsi
- əhalinin müxtəlif sahələrdə maarifləndirilməsi.

Fəaliyyət istiqamətlərinin və qarşıda duran vəzifələrin geniş və çoxşaxəli olmasından da göründüyü kimi RİİB-in fəaliyyəti bütün respublika ərazisini əhatə edir. Bakı şəhəri və regionlarda olan bölmələri RİİB-in fəaliyyətini daha təkmil və səmərəli həyata keçirilməsinə imkan verir.

RİİB-in fəaliyyətində dövlət qurumları, qeyri-hökumət və beynəlxalq təşkilatlar, şirkətlər, müstəqil ekspertlərlə qurulmuş qarşılıqlı etimad və hörmət prinsiplərinə əsaslanan əməkdaşlıq beynəlxalq təcrübənin öyrənilməsi və müxtəlif sahələrdə birgə layihələrin icrası və tədbirlərin həyata keçirilməsində mühüm xətt olaraq özünü göstərir.

Belə ki, RİİB tərəfindən Avropa İttifaqı (EU), BMT-nin Uşaq Fondu  (UNICEF), BMT-nin Əhali Fondu (UNFPA), BMT-nin Qadınlar üzrə Agentliyi  (UN Women), Ümumdünya Səhiyyə Təşkilatı (WHO), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), BMT-nin İnkişaf Proqramı (UNDP), ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID), "bp" Azərbaycan şirkəti, Almaniya Əmanətlər Bankı (Sparkassenstiftung für Internationale Zusammenarbeit-SBFIC), Yaponiyanın Azərbaycandakı Səfirliyi və s. beynəlxalq təşkilatlar və şirkətlərlə qurulan sıx əməkdaşlığın nəticəsi olaraq Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna, ölkənin sosial-ictimai həyatına töhfə verən bir sıra genişmiqyaslı layihələr həyata keçirilir.  Aidiyyəti dövlət qurumlarının da yaxından dəstək verdiyi bu layihələr əsasən inklüziv cəmiyyətin və təhsilin inkişafı, gender bərabərliyinin təşviqi, COVİD-19 pandemiyası ilə mübarizə, uşaq hüquqlarının etibarlı müdafiəsi, xüsusilə gənclər arasında sağlam həyat tərzinin təşviqi, regionlarda innovasiyaların inkişafına dəstəyin göstərilməsi, iqlim dəyişikliyi təsirlərinin azaldılması, aqroturizmin inkişafı, həssas kateqoriyadan olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və məşğulluğu, ictimai maarifləndirmə tədbirləri ilə müşaiyət olunur.

1) İnklüziv cəmiyyətin inkişafı inklüziv təhsilin inkişafından bilavasitə asılıdır. 2018-ci ildən RİİB-in dövlət, özəl sektor, qeyri-hökumət və beynəlxalq təşkilatlarla birgə əməkdaşlığı ilə icra olunan inklüziv təhsil layihələrin ölkəmizdə inklüziv cəmiyyətin inkişafında müstəsna rol oynayır. İcra olunan layihələr çərçivəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nndan irəli gələn məsələlərin – müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi; təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması, pedaqoji kadrların hazırlıq səviyyəsinin artırılması, təbliğat-təşviqat və ictimai maarifləndirmə işlərinin genişləndirilməsi və digər istiqamətlərdə uğurlu nəticələr əldə olunmuşdur. işlər hazırda da davam etdirilməkdədir.

Belə ki, RİİB tərəfindən Elm və Təhsil Nazirliyi və Avropa İttifaqı ilə əməkdaşlıq şəraitində icra olunan və 2 il davam edən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində Azərbaycan Dövlət Pedoqoji Universiteti və onun

filiallarında 6 İnklüziv Təhsil Mərkəzi yaradılmış və tam təchiz edilmiş, 1000-dən çox ibtidai sinif müəllimi, 250 məktəb direktoru, 400 müəllim-professor heyəti, 2000-dən çox tələbə inklüziv təhsil üzrə təlimlərə cəlb olunmuş, inklüziv təhsilə müsbət münasibətin formalaşdırılması məqsədilə əlilliyi olan və əlilliyi olmayan uşaqların ümumilikdə 600 valideyni üçün seminarlar təşkil olunmuş, 2 beynəlxalq dərslik və 10-dan çox əyani vəsait tərcümə olunaraq universitet və məktəblərə paylanılmış, inklüziv təhsili portalı yaradılmış, Azərbaycanda İnklüziv Təhsil üzrə Müəllim İnkişafı Proqramları hazırlanmış, həmin proqramların məzmunu əsasında ADPU-nun "İbtidai təhsilin təşkili", "məktəbəqədər təhsil", "təhsildə sosial-psixoloji xidmət" və "korreksiyaedici təlim" ixtisalarının kurrikulumuna inklüziv təhsil fənni daxil edilmiş, Azərbaycanda inklüziv təhsil üzrə qanunvericiliyin təhlili aparılmış, müvafiq təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmiş, geniş maarifləndirmə işləri aparılmış, inklüziv uşaq festvalı, müsabiqələr, inklüziv təhsil problemlərinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans təşkil edilmişdir.

Sonrakı mərhələdə "bp" şirkətinin dəstəyi ilə icra olunmuş "Keyfiyyətli inklüziv təhsildən istifadə imkanlarının genişləndirilməsi" layihəsi çərçivəsində Bakı və Sumqayıt şəhərlərində 4 ümumtəhsil məktəbində İnklüziv Təhsil Resurs otaqları yaradılmış və tam təchiz edilmiş, 300-dən çox müəllim və valideyn üçün məlumatlandırıcı seminarlar təşkil olunmuş və digər istiqamətlərdə fəaliyyətlər həyata keçirilmişdir.

Bütün bunlar ölkəmizdə fərqli əlillik formalarında olan şagirdlərin bərabərhüquqlu təhsil imkanlarının artırılmasınd mühüm rol oynayır.

2) RİİB öz fəaliyyətində bir sıra müəssisə və təşkilatlar üçün xarici sosial məsuliyyətin həyata keçirilməsində vasitəçi və ya alət kimi çıxış edir, əksər hallarda dövlət, müəssisə və cəmiyyət arasında körpü funksiyasını yerinə yetirir. RİİB-in korporativ sosial məsuliyyətin xarici həyata keçirilməsində ətraf mühitin mühafizəsi və resursların qorunması istiqamətində həm yerli, həm də xarici sahibkarlıq subyektləri ilə bir çox layihələr icra etmiş, bu istiqamətdə fəaliyyət davamlı xarakter almışdır. Bu istiqamətdə «AzerGold» QSC tərəfindən «Çovdar» mədəninin 15 hektardan çox ərazisində 10000-dən çox ağac və kol bitkilərinin əkilməsinə, müxtəlif vaxtlarda Daşkəsən rayonunda keçirilən ağacəkmə aksiyalarına, həmçinin, Böyük Britaniyanın «Mott MacDonald» şirkəti ilə birgə məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsi layihəsinin paytaxt rayonlarında icrasına «Regional İnkişaf» İctimai Birliyi tərəfindən yaxından dəstək verilib.

3) RİİB-in fəaliyyətində həmçinin, həssas kateqoriyadan olan əhali qruplarının rifah halının yaxşılaşdırılması, sosial təminat və ictimai inkişaf istiqamətində layihələr mühüm yer tutduğundan, korporativ sosial məsuliyyət çərçivəsində SOCAR, «Yeni Hayat Şirkətlər Qrupu», «Kristal Abşeron» MTK, «Plane Construction» MMC, «FAB Boya və Kimya Sənayesi» MMC, «Kontakt Home»nin dəstəyi ilə koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədər tətbiq edilən sərt karantin dövründə icra olunan «Biz birlikdə güclüyük» layihəsi 220 min aztəminatlı ailəyə ərzaq yardımı göstərilmiş, Kapital Bank, Elm və Təhsil Nazirliyi ilə «Təhsil avtobusu - Nəsimi» və «Təhsil avtobusu - Qayıdış» layihələri çərçivəsində işğaldan azad olunmuş ərazilərdən olan və akademik göstəriciləri zəif olan uşaqlar üçün müxtəlif təlimlər və tədris proqramları keçirilməklə biliklərinin və dünyagörüşlərinin artırılmasına dəstək olunmuş, «PAŞA Holdinq»in Vətən müharibəsi şəhidlərinin 18 yaşadək övladları üçün sosial dəstək proqramı icra olunmuşdur.

4) Qarşıda duran vəzifələrin icrası, cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafına dəstək məqsədilə dövlət və bələdiyyə orqanları, icmalarla səmərəli əməkdaşlığın qurulması, müxtəlif sahələrdə qanunvericiliyin təkmilləşdirilməsi mühüm istiqamətlərdəndir.

RİİB-in qeyd olunan istiqamətlərdə fəaliyyətinin icrasına ölkə üzrə 1000-dən çox könüllü dəstək verir ki, onların fərdi inkişafına, dünyagörüşlərini artırılmasına və faydalı məşğulluğunun təmin edilməsinə yönəlmiş proqramlar çərçivəsində gənclərə sosial məsuliyyət hissinin aşılanmasına xüsusi diqqət ayrılır. Gənc könüllülər arasında ətraf mühit və təbiəti qorumağı, həssas əhali qruplarına aid olan insanlara qayğı göstərməyi təşviq etmək məqsədilə müxtəlif aksiyalar keçirilir. Bütün bu fəaliyyətlər heç şübhəsiz, gələcəkdə ölkə üzrə davamlı, vahid sosial məsuliyyət sisteminin yaradılmasına öz töhfəsini verəcəkdir.

**Nəticə və Təkliflər**

Hazırda Azərbaycan cəmiyyətinin dayanıqlı inkişafı sosial həyatın müxtəlif sahələrində durğunluğun qarşısın almaq üçün vətəndaş cəmiyyəti institutlarının formalaşması və fəal iştirakını tələb edir. Bu cür institutların özəlliyi və əhəmiyyəti ondan ibarətdir ki, onlar hüquqi dövlətdə cəmiyyətin maraq və ehtiyaclarını onun üzvlərindən sosial əhəmiyyətli qərarlar qəbul etmək səlahiyyətinə malik subyektlərə köçürməyə imkan verən əsas element - körpü kimi çıxış edir. Qeyri-kommersiya təşkilatı olmaqla, ictimai birlik mənfəət üçün fəaliyyət göstərmir ki, bu da müstəsna sosial əhəmiyyətli məqsədlərin həyata keçirilməsinə zəmanət verir. Bu mənada Azərbaycanda sosial məsuliyyətin formalaşmasında mühüm rola malik olan «Regional İnkişaf» İctimai Birliyin nümunəsində qeyd edə bilərik ki, müasir dövrdə ictimai təşkilatlar dövlətlə birlikdə sosial siyasətin icra funksiyalarını əhəmiyyətli dərəcədə öz üzərinə götürür. Sosial məsuliyyətin formalaşmasında onların yeri və rolunu müəyyən etmək Azərbaycanda aktual mövzulardan biridir. Dövlət, kommersiya və ictimai təşkilatlar arasında tərəfdaşlığın öyrənilməsi – xüsusi nəzəri və praktik əhəmiyyətə malikdir.

Korporativ sosial məsuliyyət anlayışının Azərbaycanda davamlı şəkildə formalaşması üçün qeyri-kommersiya, xüsusəndə QHT-nın fəaliyyətində korporativ sosial məsuliyyət layihələrinin genişləndirilməsi zəruridir. Bunnan əlavə korporativ sosial məsulliyət anlayışı haqqında maarifləndirilmə işlərinin aparılmasında təklif edə bilərik. Həmçinin KSM konsepsiyasın həyatə keçirərkən sistematik yanaşma tətbiq etmək lazımdır, çünki davamlı inkişafdan söhbət gedirsə, o hərdən həyata keçirilə bilməz – həm hərtərəfli olmalıdır, həmdə bu konspesiyaya xas olan bütün elementlərdən ibarət olmalıdır.

**Ədəbiyyatlar**

Classon,J. How can CSR affect company performance? / J. Classon, J. Dahlstrom. — Karlstads University, 2006

Crowther, D., & Aras, G. (2008). Corporate social responsibility. Bookboon.

Kythle, B. Corporate Social Responsibility as Risk Management. A Module for Multinationals. Working Paper. John F. Kennedy School of Governance / B. Kythle, J. G. Ruggie // Harvard Business Review. — 2005. — № 10.

Philip Kotler, Corporate social responsibility. Wiley Publishing, 2014

Белоусов К.Ю. Корпоративная социальная ответственность как социально-экономический институт // Проблемы современной экономики. – 2015. – №4(56). – 87-90 с.

Благов Ю.Е. Концепция корпоративной социальной отвественности и стратегическое управуление. Российский журнал менеджмента – 2004. – N 3 – с. 19.

Благов Ю.Е. Корпоративная социальная ответственность: эволюция концепции / Ю.Е. Благов; Высшая школа менеджмента СПбГУ. – 2-е изд. – СПб.: Изд-во «Высшая школа менеджмента», 2011. – 272 с.

Грекова Г.И., Савина Т.С. Влияние корпоративной социальной ответственности на формирование деловой репутации // Вестник Новгородского Государственного Университета (НовГУ). – 2011. – №61. – 49-53 с.

Корпоративная социальная ответственность: управленческий аспект: монография / под общ. ред. д.э.н., проф. И.Ю.Беляевой, д.э.н., проф. М.А.Эскиндарова. – М.: КНОРУС, 2008. – 504 с.

Костин А. Е. Корпоративная социальная отвественность и устойчивое развитие: мировой опыт и концепции для РФ (электронный ресурс)– URL: http://www.dis.ru/magaz/manag/annotations/2005/3

Лыгина Н.И., Рудакова О.В., Федочук Н.Г. Предпринимательская деятельность как фактор повышения общественного благосостояния. – 2013 – с. 105.

Матвеева Е.В. Корпоративное гражданство как философия социально ответственного бизнеса: новый уровень развития // Актуальные проблемы экономики и права. – 2014. – №2. – 49-54 с.

Пахомова Н.В., Рихтер К.К. Корпоративная социальная ответственность и устойчивое развитие: опыт ЕС, специфика Германии // Вестник Санкт-Петербургского университета. – 2013. – №5(2). – 30-48 с.

Перегудов С.П. Корпоративное гражданство: концепции, мировая практика и российские реалии / С.П. Перегудов, И.С. Семененко; Ин-т мировой экономики и междунар. отношений РАН. - М.: Прогресс- Традиция, 2008. - 447 с.

Швеция – лидер и образец КСО / Инфобюллетень Swedish Institute, 2011. URL: https://sweden.se/wp-content/uploads/2013/10/CSR-Russian-high-resolution.pdf (дата обращения: 2.05.2017).

«Regional İnkişaf» İctimai Birliyi - www.riib.az

BSR: Business for Social Responsibility – https://www.bsr.org/en/about/story

https://riib.az/site/news/452-azergold-qsc-ve-regional-inkisaf-ictimai-birliyinin-teskilatciligi-ile-novbeti-ekoloji-aksiya-kecirib-

https://riib.az/site/news/468-qarabagin-bolgelerinden-olan-sagirdler-ucun-tehsil-avtobusu-qayidis-layihesi-kecirilecek-

https://riib.az/site/news/593-sehid-ovladlarina-bayram-sovqatlari-catdirilib-

https://sa-intl.org/programs/sa8000/ - Social Accountability International

https://www.iso.org/obp/ui/#iso:std:iso:26000:en

https://www.researchgate.net/publication/323801716_Introducing_corporate_social_responsibility

Глобальный Договор ООН - https://unglobalcompact.org/what-is-gc/mission/principles

# “Əsrin Müqaviləsi”ndən Zəngəzur Dəhlizinə Gedən Yol: Azərbaycan Avroatlantik Məkanın Aparıcı Nəqliyyat-Tranzit Mərkəzinə Çevrilib

**i.e.d., dosent Aqil Əsədov**

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi**

**i.ü.f.d., dosent Ədalət Əsədov**

**Azərbaycan Kooperasiya Universiteti**

## Xülasə

Məqalədə nəqliyyat sektorunun inkişaf dinamikasına nəzər salınıb. “Əsrin müqaviləsi”ndən başlayan dinamika, Böyük İpək yolunun bərpası, eləcə də bu istiqamətdə həyata keçirilən tədbirlər proqram və layihələr geniş təhlil olunmuşdur. Məqalədə nəqliyyat sektorunun ümumi iqtisadi tərəqqiyə təsirləri də verilmiş, konkret statistik rəqəmlər əsasında geniş təhlil və araşdırmalar aparılmışdır. Qlobal məkana sürətlə inteqrasiya edən Azərbaycanda nəqliyyat xidmətlərinin inkişaf perspektivləri nəzərdən keçirilmiş, nəqliyyat-tranzit xidmətlərinin büdcənin əsas gəlir mənbələrindən birinə çevrilməsi imkanları tədqiq olunmuşdur. Müəlliflər Böyük İpək Yolunun bərpası, Şimal-Cənub nəqliyyat dəhlizi, Orta Dəhliz kimi beynəlxalq layihələrə nəzər salmışdır. Məqalədə Zəngəzur dəhlizinin sosial-iqtisadi və siyasi əhəmiyyəti də izah edilmişdir. Müəlliflərin fikrincə, Zəngəzur dəhlizi nəinki Azərbaycan və qonşu dövlətlər üçün, o cümlədən ümumilikdə daha geniş region üçün, Çin-Avropa-Çin daşınmaları üçün mühüm əhəmiyyətə malikdir. Bütün bunları ətraflı təhlil edən müəlliflər, əldə olunan uğurların əsasında bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş strategiyanın dayandığını bildirirlər. Məqalədə Azərbaycan üzərindən daşınmaların daha səmərəli olduğu konkret rəqəmlərlə ifadə edilib.

**Açar sözlər:** Heydər Əliyev strategiyası, “Əsrin müqaviləsi”, İpək Yolu, Orta Dəhliz, nəqliyyat-tranzit.

## Summary

The article examines the development dynamics of the transport sector. The dynamics that started with the "Contract of the Century", the restoration of the Great Silk Road, as well as the programs and projects implemented in this direction were extensively analyzed. In the article, the effects of the transport sector on the general economic progress were also given, extensive analyzes and researches were conducted based on specific statistical figures. The development prospects of transport services in Azerbaijan, which is rapidly integrating into the global space were reviewed, and the possibilities of turning transport-transit services into one of the major sources of budget revenue were studied. The authors reviewed international projects such as the restoration of the Great Silk Road, the North-South transport corridor, and the Middle Corridor. The socio-economic and political importance of the Zangezur corridor is also explained in the article. According to the authors, the Zangezur Corridor is of great importance not only for Azerbaijan and neighboring countries, but also for the wider region as a whole, for China-Europe-China transportation. Analyzing all this in detail, the authors state that the success achieved is based on the strategy laid by national leader Heydar Aliyev. In the article, it is stated with specific figures that transportation through Azerbaijan is more efficient.

**Keywords:** Heydar Aliyev's strategy, "Contract of the Century", Silk Road, Middle Corridor, transport-transit.

## Giriş

Tədqiqatın əsas məqsədi Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanda hakimiyyəti illərində əldə edilən uğurların təhlili və təbliği, eləcə də bu uğurların Vətən müharibəsində əldə edilən Zəfərə təsirlərini təhlil etməkdir. Bu məqsədə çat maq üçün Azərbaycan Respublikasının “Əsrin müqaviləsi”ndən Vətən müharibəsinə qədər keçən dövr ətraflı təhlil edilmiş, post-konflik dövrünün

perspektivləri araşdırılmışdır. Araşdırma zamanı sistemli və kompleks yanaşma, induksiya və deduksiya, statistik təhlil metodlarından istifadə edilib. Tədqiqat zamanı Azərbaycan Respublikasının Avroatlantik məkanın aparıcı nəqliyyat-tranzit qovşağına çevrilməsi əsaslandırılıb, bu istiqamətdə görülən işlərə, həyata keçirilən layihələrə nəzər salınıb, qəbul edilən müvafiq normativ-hüquqi sənədlər, ekspert və mütəxəssis-lərin, tədqiqatçıların fikirləri metodoloji baza kimi istifadə edilib. Tədqiqatın əsas məhdudiyyəti isə post-konflikt dövrü ilə əlaqədar, Zəngəzur dəhlizi lə bağlı nəzəri mənbələrin, elmi məqalə və kitabların az olmasıdır.

Bununla belə müvafiq araşdırma aparılıb və məqalənin sonunda müəyyən ümumiləş-dirmələr, nəticələr verilibdir. Aydındır ki, müasir qloballaşma və inteqrasiya şəraitində nəqliyyat əlaqələri davamlı iqtisadi tərəqqinin lokomotivinə çevrilib. İKT-nin sürətli inkişaf nəticəsində intensivləşən inteqrasiya prosesləri dünyanı vahid iqtisadi orqanizmə çevirib. Artıq qlobal məkana çıxış, xarici bazarda rəqabət qabiliyyətli milli məhsullarla iştirak, dünya ticarət dövriyyəsinin aktiv iştirakçısına çevrilmək və s. kimi məsələlər ayrı-ayrı milli dövlətlərin mövcudluğunun və dinamik tərəqqisinin zəruri şərtinə çevrilib. Təbii ki, belə bir dövrdə nəqliyyat dəhlizlərinin üzərində yerləşmək, genişmiqyaslı nəqliyyat əlaqələri formalaşdırmaq, beynəlxalq nəqliyyat layihələrinin təşəbbüskarı və iştirakçısı olmaq xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası da qeyd edilənlərin hər birinə malik dövlətdir və ölkəmizdə beynəlxalq nəqliyyat layihələri, geniş coğrafiyalı xarici nəqliyyat-iqtisadi əlaqələr öz başlanğıcını "Əsrin müqaviləsi"ndən götürüb. Bu baxımdan da, məhz nəqliyyat sektoru və nəqliyyat əlaqələrinin "Əsrin müqaviləsi"ndən başlayan inkişaf dinamikasının tədqiq edilməsi xüsusi aktuallıq kəsb edir.

## "Əsrin Müqaviləsi"- Azərbaycanın Strateji İnkişaf Konsepsiyasının Etibarlı Bünövrəsi

Dahi siyasətçi Heydər Əliyevin xalqın təkidi ilə Azərbaycanda yenidən hakimiyyətə gəlişi olduqca mürəkkəb - sosial-iqtisadi çətinliklər, siyasi-hərbi gərginlər, vətəndaş müharibəsi təhlükəsi, ölkənin parçalanması və s. ilə xarakterizə olunan bir dövrə təsadüf edirdi. Belə bir dövrdə qısa zamanda sabitlik, stabillik yaratmağa qadir ümummilli liderin rəhbərliyi, qəbul etdiyi düzgün qərarlar nəticəsində tezliklə ölkədə cərəyan edən tənəzzül prosesi dayandırıldı.

Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərci-mərcilikdən xilas edən dahi rəhbər ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. Aydındır ki, ittifaq səviyyəsində mövcud olan iqtisadi əlaqələr dağıldıqdan sonra milli iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin malik olduğu təbii resurslardan istifadə edilməsi və milli məhsulların xarici bazarlara çıxışının təmin edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Məhz belə bir dövrdə, Azərbaycanın zəngin neft ehtiyatlarının mövcudluğunu nəzərə alan ümummilli lider Heydər Əliyevin təşəbbüsü və uzaqgörənliyi sayəsində Azərbaycanın dinamik inkişafının təməli sayılan beynəlxalq müqavilə - "Əsrin müqaviləsi" imzalanmışdır ki, bununla da "Yeni neft strategiyası" uğurla həyata keçirilməyə başlandı (Əsədov, 2013).

Ölkəmizin iqtisadi inkişafında əvəzsiz rol oynayan "Əsrin müqaviləsi" üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi. Təkcə bir faktı qeyd edək ki, 1995-ci ildən başlayaraq ölkə iqtisadiyyatında sabitlik yarandıqdan sonra ölkəmizə xarici investisiya qoyuluşu sürətlə artaraq 10 mlrd. dollara

çatmışdır ki, bunun da 60 %-dən çoxu (6,1 mlrd.dollar) xarici kapitalın payına düşür (Abdullayev 2022, Əsədov 2013, Nəsirov 2013).

"Əsrin müqaviləsi"nə daxil olan yataqlar üzrə illik hasilatın 50 milyon tona çatdırılacağını nəzərə alan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə daha böyük nəqletmə imkanına malik ixrac marşrutları araşdırıldı və optimal variant kimi Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri seçildi. Məhz buna görə də layihənin həyata keçirilməsində fenomen siyasətçi Heydər Əliyevin əvəzsiz xidmətlərini nəzərə alan layihə iştirakçıları 2004-cü ildə BTC əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdilər. Beləliklə də "Üç dənizin əfsanəsi" adlanan BTC layihəsi reallığa çevrilərək xalqımızın maddi-rifah halının yaxşılaşdırılması və doğma Azərbaycanın qüdrətli dövlət olmasına öz töhfəsini verməkdədir. Ümumilikdə neft strategiyası ilə sürət götürən inkişaf dinamikası sonrakı illərdə də daha genişmiqyaslı formada davam etdirildi (Eyvazov 2019, Paşayev 2018).

Hal-hazırda ulu öndər Heydər Əliyevin adını daşıyan bu kəmər Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına imkan verməklə yanaşı, həm də "İpək yolu"nun və türkdilli ölkələrin əsas magistral kəməri statusunu qazanmışdır. Onu da qeyd edək ki, bu "əsas ixrac neft kəməri"nin texniki-iqtisadi əhəmiyyətindən başqa, siyasi rolu da danılmazdır. Belə ki, BTC neft kəməri dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin yaranmasına, dünya xalqları ilə əlaqələrinin yenidən qurulmasına təkan verərək, Azərbaycan dövlətinin xarici siyasətinin güclən-məsinə, beynəlxalq aləmdə nüfuzunun artmasına, eləcə də onun siyasi və iqtisadi baxımdan inkişaf etməsinə səbəb olmuşdur. Ümumilikdə BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəl-xalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün müstəsna əhəmiyyət kəsb edən bir layihədir (Abdullayev 2022, Vəliyev 2010 ).

**"Əsrin müqaviləsi" ilə "Böyük İpək Yolu"na doğru**

Müşahidələr göstərir ki, 1994-1998-ci illər əsasən müvafiq normativ-hüquqi bazanın yaradılması ilə yadda qalsa da, bu dövr həm də dövlət mülkiyyətinin özəlləşdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi və s. istiqamətlərdə Dövlət Proqramları da qəbul edilmişdir. Bazar iqtisadiyyatı şəraitində iqtisadi inkişafın əsas amilinin özəl mülkiyyət və sahibkarlığın müxtəlif formalarının təşəkkül tapması olduğunu çox düzgün qiymətləndirən dahi şəxsiyyət Heydər Əliyev ölkədə stabilliyə nail olunan kimi sahibkarlığın inkişaf etdirilməsinə xidmət edən qərarlar qəbul etdi. Dövlət mülkiyyətinin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılması dövlət siyasətinin əsas prinsiplərinə çevrilmişdir.

Ölkənin iqtisadi qüdrətinin artmasında və Azərbaycanın qalan dünyaya inteqrasiyasında müxtəlif nəqliyyat növlərini əhatə edən beynəlxalq və regional layihələrin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Bu layihələr dünya bazarlarına çıxışa imkan yaratmaqla, həm də ümumi iqtisadi inkişafa ciddi təkan verir. Çünki, qloballaşma və iqtisadi inteqrasiya prosesləri ilə xarakterizə edilən müasir cəmiyyətin inkişafında ən mühüm amillərdən biri də dövlətlərarası əlaqələrin səviyyəsidir (Abdullayev 2022, Vəliyev 2020).

Məlumdur ki, dünya dövlətlərinin inkişafına təkan verən, onların biri-birinə siyasi, iqtisadi, mədəni və s. cəhətdən inteqrasiyasına şərait yaradan əsas amillərdən biri də dövlətlərarası nəqliyyat əlaqələridir. Bu baxımdan Beynəlxalq təşkilatların, xüsusilə Avropa Birliyi (AB) ölkələrinin dəstəyi ilə həyata

keçirilən TRASEKA, TAE FO, INOGATE kimi iri regional proqramlarda Azərbaycan dövlətinin fəal iştirakı olduqca önəmlidir.

Konkret olaraq, Azərbaycan Respublikasının TRASEKA Proqramında iştirakı ölkəmiz üçün strateji əhəmiyyət kəsb edir. Çünki Azərbaycanın Avropa ilə iqtisadi əlaqələrinin möhkəmlən-dirilməsi və genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyası və beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün böyük imkanlar yaradır.

Avropa ilə Asiyanı birləşdirən ən qısa nəqliyyat marşrutlarının kəsişməsində əlverişli geostrateji mövqedə yerləşən Azərbaycanın nəqliyyat sektorunun inkişafının ölkəmiz üçün müstəsna əhəmiyyət kəsb etdiyini dəqiqliklə qiymətləndirən Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 7–8 sentyabr 1998-ci il tarixlərində Bakı şəhərində Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Rumıniya, Türkiyə, Özbəkistan, Ukraynadan ibarət 9 ölkənin dövlət başçısı, eləcə də 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirak etdiyi Tarixi İpək Yolunun bərpasına həsr olunmuş Beynəlxalq Konfrans keçirilmiş, Avropa İttifaqının TRASEKA Proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəq-liyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmiş, tarixi əhəmiyyətə malik Saziş imzalanmışdır (Abdullayev 2022, Vəliyev 2010, Qasımov 2007, Əsədov 2013).

1998-ci ildən keçən müddət ərzində Respublikamızda TRASEKA Proqramı çərçivəsində Əsas Çoxtərəfli Sazişin şərtlərinin həyata keçirilməsi məqsədilə müxtəlif layihələr həyata keçirilmiş, nəqliyyat infrastrukturunun inkişafı istiqamətində mühüm işlər görülmüşdür. Belə ki, TRASEKA nəqliyyat dəhlizi üzrə yük axınının artırılması üçün nəqliyyat sektorunun texniki təchizatının yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər görülmüş, avtomobil magistrallarının, dəmir yolu xətlərinin və körpülərin bərpası və tikintisi, dəmir yolu nəqliyyatı vasitələrinin, gəmilərin, bərələrin, liman qurğularının təmiri üzrə genişmiqyaslı işlər görülmüşdür.

**"Orta dəhliz"ə gedən yol "Böyük İpək Yolu"ndan keçir**

"Böyük İpək Yolu"na dair razılaşmadan etibarən nəqliyyat layihələrində də Azərbaycanın aktiv iştirakı başlandı. TRACEKA proqramı çərçivəsində nəqliyyat infrastrukturunun inkişafını həyata keçirən ölkəmiz, eyni zamanda regionda həyata keçirilən digər layihələrə də öz töhfəsini verirdi. Həyata keçirilən tədbirlərin davamı olaraq, 2005-ci ildə Azərbaycan Respublikası Şimal-Cənub nəqliyyat dəhlizinə də qoşuldu. Beləliklə də, ölkəmiz dünyanın dörd bir tərəfini birləşdirən Şərq-Qərb (İpək yolu) və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində, əlverişli coğrafi mövqedə yerləşirdi.

2004-cü ildən etibarən ölkəmizdə əsası qoyulan proqram təminatlı inkişaf milli nəqliyyat sisteminin də sürətli inkişafına şərait yaratdı. Regional və sahəvi inkişaf proqramları konkret istiqamətlər üzrə əvvəlcədən müəyyən edilmiş müddətlərdə dinamik nəticələrin əldə olunmasına şərait yaratdı. Bunu statistik göstəricilər də təsdiq edir.

**Makroiqtisadi göstəricilər**

| Göstəricinin adı | 2003-cü il | 2021-ci il | 2021-ci il 2020-ci ilə nisbətən, %-lə | 2021-ci il 2003-cü ilə nisbətən, %-lə | |
|---|---|---|---|---|---|
| | | | | nominal | real |
| **Ümumi daxili məhsul, milyon manat,** | **7 146,5** | **92 857,7** | **105,6** | **13,0 d.** | **3,4 d.** |
| o cümlədən qeyri neft-qaz ÜDM | 4 866,4 | 57 786,2 | 107,2 | 11,9 d. | 3,1 d. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **872,7** | **9 269,3** | **105,1** | **10,6 d.** | **2,8 d.** |
| **Sənaye məhsulu, milyon manat,**<br>o cümlədən qeyri neft-qaz sənayesi | **4 982,1**<br>2 011,6 | **54 480,5**<br>15 457,2 | **105,2**<br>118,9 | **10,9 d.**<br>7,7 d. | **2,7 d.**<br>3,6 d. |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat,**<br>o cümlədən tikinti-quraşdırma işlərinə | **3 786,4**<br>1 687,2 | **16 127,0**<br>11 015,7 | **91,8**<br>98,0 | **4,3 d.**<br>6,5 d. | **2,7 d.**<br>4,1 d. |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat**<br>o cümlədən: bitkiçilik<br>heyvandarlıq | **1 450,5**<br>807,0<br>643,5 | **9 163,4**<br>4 511,0<br>4 652,4 | **103,4**<br>104,0<br>102,8 | **6,3 d.**<br>5,6 d.<br>7,2 d. | **2,0 d.**<br>2,0 d.<br>2,0 d. |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **110,0** | **193,9** | **102,8** | **1,8 d.** | |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **921,0** | **1 214,2** | **103,1** | **1,3 d.** | |
| İnformasiya və rabitə xidmətləri, milyon manat | 256,2 | 2 384,2 | 106,1 | 9,3 d. | 15,4 d. |
| Pərakəndə ticarət dövriyyəsi, milyon manat | 3 028,3 | 44 217,5 | 103,2 | 14,6 d. | 4,1 d. |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat | 592,2 | 7 758,2 | 104,8 | 13,1 d. | 5,1 d. |
| İnvestisiyalar - cəmi, mlyn. ABŞ $ | 4 326,3 | 14 890,4 | 112,6 | 3,4 d. | x |
| o cümlədən xarici investisiyalar | 3 371,0 | 7 507,1 | 122,5 | 2,2 d | x |
| İnvestisiyaların ümumi həcmindən qeyri neft-qaz investisiyaları, mlyn. ABŞ $ | 1 114,8 | 7 992,3 | 114,2 | 7,2 d | x |
| İnvestisiyaların ixracı, mlyn. ABŞ $ | 933,2 | 825,8 | 66,4 | 88,5 | x |
| Dövlət büdcəsinin gəlirləri, milyon manat | 1 220,9 | 26396,3 | 106,9 | 21,6 d. | x |
| Dövlət büdcəsinin xərcləri, milyon manat | 1 234,5 | 27 412,4 | 103,8 | 22,2 d. | x |
| Əhalinin nominal gəlirləri, milyon manat | 5 738,1 | 57 181,5 | 102,6 | 10,0 d. | 3,0 d. |
| Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat | 700,7 | 5 708,0 | 102,2 | 8,1 d. | 2,5 d. |
| Əhalinin banklardakı əmanətləri, ilin sonuna, milyon manat | 251,9 | 9 241,5 | 113,0 | 36,7 d. | x |
| Kredit qoyuluşları, ilin sonuna, milyon manat | 670,3 | 17 119,8 | 117,8 | 25,5 d. | x |
| Orta aylıq nominal əməkhaqqı, manat | 77,4 | 732,1 | 103,4 | 9,5 d. | 2,9 d. |
| Təyin olunmuş aylıq pensiyaların orta məbləği, ilin sonuna, manat | 23,8 | 331,8 | 109,8 | 13,9 d. | 4,1 d. |

**Mənbə:** www.stat.gov.az

Göründüyü kimi, yalnız 2003-2021-ci illərdə ÜDM 3.4 dəfə, adambaşına ÜDM 2.8 dəfə, sənaye məhsulu 2.8 dəfə, əsas kapitala investisiyalar 2.7 dəfə, kənd təsərrüfatı məhsulu 2.0 dəfə, nəqliyyat sektorunda yük daşınması 1.8 dəfə, sərnişin daşınması 1.3 dəfə və s. artmışdır. Bütün bunlar, "Əsrin müqaviləsi" ilə bünövrəsi qoyulmuş doğru iqtisadi strategiyanın bariz nəticələridir. Məhz, əldə olunan dinamikanın əsasında Azərbaycan Respublikası davamlı inkişaf edən qalib bir dövlətə çevrilmişdir. Ölkənin Şərq-Qərb (Böyük İpək Yolu) və Şimal Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində Avropa və Asiyanın mühüm nəqliyyat tranzit qovşağına çevrilmək imkanları daha da yüksəlib. Qeyd edək ki, Azərbaycan yeganə ölkədir ki, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri layihələrinin ikisində də iştirak edir.

Azərbaycan beynəlxalq əhəmiyyətli dəmir yollarının tikintisi və yenidən qurulmasına da böyük əhəmiyyət verir. Bunun bariz nümunəsi olan və dünyanın ən iri 100 layihəsindən biri sayılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun tikintisi Prezident İlham Əliyevin birbaşa rəhbərliyi və kristal iradəsi ilə həyata keçirilib. Artıq 5 ildən çoxdur istifadəyə verilən BTQ qitələrarası daşınmalar üçün geniş imkanlar açıb. Çin ilə Avropa ölkələri arasında ən qısa marşrut olan bu dəmir yolunun yaratdığı əlverişli şərait bir çox ölkələri, xüsusilə Şərq ölkələrinin diqqətini cəlb edib. BTQ dəmir yolu xətti Asiya ilə Avropa arasında ən qısa və rahat yol olub yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox azaltmağa imkan verir. Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın da Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır. Avrasiyanın nəqliyyat xəritəsini yeniləşdirən, dəmir İpək Yolu adlandırılan Bakı-Tbilisi-Qars Azərbaycan Respublikasını əhəmiy-yətli tranzit daşınmalar mərkəzinə çevirib və bu yol ilə gələcəkdə 15 milyon tonadək yük daşımaq mümkün olacaqdır (Əhmədov 2018, Əsədov 2013).

Son dövrlər isə, dünyada və regionda baş verən geosiyasi hadisələrin də rəvac verdiyi bir sıra səbəblərdən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi – Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən keçməklə Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrut kimi diqqəti cəlb edir. Əlverişli coğrafi mövqe Orta Dəhliz üzərində yerləşən dövlətləri Avropa ilə Asiyanı birləşdirən əsas tranzit ölkələri kimi gündəmə gətirib. Dəhliz boyunca yerləşən ölkələr arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq getdikcə genişlənir ki, bu da daşınmalar, yüklərin cəlb edilməsi, logistika ilə bağlı məsələlərin uzlaşdırılmasına geniş imkanlar yaradır. Çindən Avropaya gedən yük qatarı Orta Dəhliz ilə 12 gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət edəcək. Bu da Asiya və Avropa arasında qlobal ticarətdə dəhlizin nə qədər sərfəli və təhlükəsiz olduğunu nümayiş etdirir. Eyni qatar, Cənub dəhlizi üzrə, Süveyş kanalı üzərindən gəmi ilə 20 min kilometr yol qət edir. İstər dəniz, istərsə də dəmir yolu üzərindən daşınmalarda Orta Dəhliz zaman və məsafə baxımından daha səmərəlidir ki, bu da daşınma xərclərinin daha az olması ilə dəhlizin cəlbediciliyini artırır. Dəhliz boyunca daşınmaların artımı isə, öz növbəsində, iqtisadiyyatın digər sahələrinin inkişafına da təkan verəcəkdir. Bu isə o deməkdir ki, Orta Dəhliz iştirakçı ölkələrə, yalnız nəqliyyat-tranzit gəlirləri vəd etmir, həm də iqtisadi tərəqqinin təkanverici bir qüvəsinə çevriləcəkdir (Adıgözəlov 2021, Abdullayev 2022).

Onu da qeyd edək ki, yaxın gələcəkdə Ələt terminalında azad iqtisadi zonanın yaradılması da reallaşacaqdır ki, bu da ölkəmiz üçün uzunmüddətli iqtisadi perspektivlər vəd edir. Coğrafi əhatə baxımından isə Orta Dəhliz, həm də Türk Dövlətləri Təşkilatı (TDT) üzvlərini birləşdirən bir arteriyadır. Dəhliz üzərindən daşınmalar iqtisadi tərəqqiyə dəstək verməklə yanaşı, həm də digər sahələrdə inteqrasiyanı sürətləndirəcəkdir ki, bu da dəhlizin strateji əhəmiyyətini yüksəldir.

**Zəngəzur dəhlizi regionun nəqliyyat-tranzit imkanlarını daha da genişləndirəcəkdir**

Vətən müharibəsində əldə edilən Zəfərin perspektivli nəticələrindən biri də Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Əslində istər Vətən müharibəsində əldə edilən Zəfər, istərsə də Zəngəzur dəhlizi, hələ 1993-cü ildə ümummilli lider Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş strategiya çərçivəsində həyata keçirilən ardıcıl tədbirlərin məntiqi nəticəsi idi. Bir tərəfdən ölkənin iqtisadi qüdrəti artırılır, ordu quruculuğu sahəsində ardıcıl addımlar atılır, digər tərəfdən isə xarici ölkələrdə Azərbaycan həqiqətləri təbliğ edilir, dünya ictimaiyyəti Ermənistanın işğalçı hərəkətləri, işğal edilmiş Azərbaycan ərazilərində baş verən erməni vandalizmi haqqında ardıcıl şəkildə məlumatlandırılır.

Dövlətimizin uzunmüddətli və çoxsaylı cəhdlərinə, beynəlxalq təşkilatların qəbul etdiyi qətnamə və bəyanatlara baxmayaraq, Ermənistanın öz işğalçılıq siyasətini davam etdirməsi, mülki azərbaycanlıları hədəf seçməsi Azərbaycanı cavab tədbiri görməyə məcbur etdi. 27 sentyabr 2020-ci il tarixində erməni təxribatına qarşı əks hücum əməliyyatlarına başlayan Azərbaycan həm öz tarixi torpaqlarını düşməndən azad etdi, həm də Azərbaycan-Rusiya-Ermə-nistan üçtərəfli razılaşmasında kommunikasiyaların inkişaf etdirilməsi ilə bağlı razılığa gəlindi. Hələlik "Zəngəzur dəhlizinə" Ermənistan qısqanclıqla yanaşsa da, bu, Azərbaycan ilə yanaşı region dövlətlərinin, eləcə də Avropanın, dünyanın marağında olan bir layihədir və yaxın gələcəkdə reallaşması qaçılmazdır (İsmayılqızı 2021, Kamal 2021, Əsədov 2021).

Zəngəzur dəhlizi, əksər region dövlətləri üçün uzunmüddətli perspektivlər vəd etməklə yanaşı, Azərbaycanın da tranzit imkanlarını genişləndirəcəkdir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinə inteqrasiya edəcək Zəngəzur dəhlizi beynəlxalq səviyyədə daşınmalar üçün ən cəlbedici marşrutlardan biri kimi diqqəti cəlb edir. Çindən Avropaya və əksinə daşınmaların ən qısa marşrutunu təmin edən Zəngəzur dəhlizinin yaradılmasında ən mühüm məqamlardan biri də türkdilli ölkələr arasında əlaqələrin genişlənməsi imkanları ilə bağlıdır. 1.1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türkdilli ölkələri strateji və iqtisadi baxımdan birləşdirəcək Zəngəzur dəhlizi həm dəmir, həm də avtomobil yolları ilə, Naxçıvandan keçməklə, Türkiyəyə qədər uzanacaq. Gündəmin əsas mövzusu olan Zəngəzur dəhlizinin nəqliyyat, kommunikasiya, infrastruktur layihələri nəinki bütün türk dünyasını birləşdirəcək, həmçinin bu dəhlizin açılması Qərbdən Şərqə uzanan ticarət yollarının mayakına çevriləcəkdir (İsmayılqızı 2021, Kamal 2021).

**Nəticə**

Beləliklə, aparılan araşdırmalar göstərir ki, Azərbaycan dövləti "Əsrin müqaviləsi"ndən Zəngəzur dəhlizinə qədər ciddi sınaqlardan keçmiş uzun bir yol qət edib. Bu müddətdə ölkəmiz dinamik inkişaf edib, hansı ki, bunu yixarıda verilmiş cədvəl də təsdiq edir. Ən əsası isə, Azərbaycan özünün suveren hüququ olan ərazilərinin təhlükəsizliyini təmin etmək, ərazi toxunulmazlığı hüququndan yararlanmaq istiqamətində də uğurlar əldə edərək, 30 ilə yaxın işğal altında olan torpaqlarını işğaldan azad etdi. Təbii ki, bütün bunların əsasında ümummilli lider Heydər Əliyevin strateji yanaşması ilə formalaşan iqtisadi güc, düşünülmüş, uzaqgörən siyasət dayanır. Məhz, bunun nəticəsində Azərbaycan Respublikası regionun aparıcı dövlətinə və Avroatlantik məkanın aparıcı nəqliyyat-tranzit mərkəzinə çevrilib. Eyni zamanda, dünyada və regionda baş verən geosiyasi hadisələr Azərbaycanın əhəmiyyətini daha da artıraraq, ölkəmizi Avropanın enerji təhlükəsizliyində aparıcı dövlətə, dünyanın əsas yük axını istiqaməti olan Çin-Avropa-Çin marşrutunda əlverişli istiqamətə çevirmişdir. Hazırda ölkəmizdə uzun illər öncədən həyata keçirilməyə başlanılan infrastruktur quruculuğu işləri, Ələt terminalı və s. amillər Azərbaycanın iştirakı ilə yük daşınmalarını daha cəlbedici edir. Azərbaycanın üzərindən Orta Dəhliz vasitəsilə daşınmalar, digər alternativlərə nisbətən, Çindən Avropaya 12 gün ərzində 10 min deyil, 7 min kilometr məsafə qət etməklə çatdırmaya imkan verir ki, bu da kifayət qədər cəlbedici rəqəmlərdir. Bütün bunlara əsasən, aşağıda qeyd edilənlərin nəzərə alınması və ardıcıllıqla reallaşdırılması zəruridir:

- Tranzit daşınmaların daha səmərəli təşkili üçün regional nəqliyyat qovşaqlarının fəaliyyətinin canlandırılması;
- Dəhlizlər boyunca ölkə daxilində, normativə uyğun olaraq, infrastruktur təminatın (texniki və təmir xidməti, yol evləri və s.) təkmilləşdirilməsi;

- ➢ Yük sifarişçisi ilə yük daşıyanın virtual görüş panelinin formalaşdırılması;
- ➢ Beynəlxalq dəhlizlər boyunca vahid və ya uzlaşdırılmış sərhəd-gömrük prosedurlarının tətbiqi;
- ➢ milli daşıyıcı şirkətlərin beynəlxalq daşıma xidmətlərinə dair tələblərə uyğunlaşdırılması üçün davamlı olaraq (ABADA, YNA və s. qurumlar tərəfindən) maarifləndirici və tənzimləyici tədbirlərin həyata keçirilməsi.

**İstifadə Edilmiş Mənbələr**


Abdullayev, M. “Avropanın enerji xəritəsini dəyişən Azərbaycan...”. Bakı, “Yeni Azərbaycan” qəzeti, 20 oktyabr 2010;

Adıgözəlov, K. “Zəngəzur dəhlizi: regional və qlobal geosiyasətdə yeri və rolu”. 2021, /K.Adıgözəlov /http://newtimes.az/az/experts/7444;

Eyvazov, E.T. “Beynəlxalq nəqliyyat əməliyyatları” / E.T.Eyvazov. Bakı: Elm və təhsil, –2019, –336 s.;

Əhmədov, M.A. “Astara-Rəşt dəmir yolu bütün Avrasiya regionu üçün yeni imkanlar açacaq” / M.A.Əhmədov. Bakı: AzərTac, 3 aprel 2018-ci il.

Əliyev Ş. “Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konlikt quruculuğunun strateji aspektləri”. Bakı, “İqtisadi İslahatlar” jurnalı, 2022, №5, səh. 87-94;

Əsədov, A.M. “Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin for-malaşması və davamlı inkişafı: elmi-nəzəri əsasları və perspektivləri” / A.M.Əsədov. Bakı: Monoqrafiya, –2013, “Avropa” nəşr., –352 səh.

Əsədov, A.M. “Zəngəzur dəhlizinin açılmasının region ölkələri üçün siyasi-iqtisadi əhəmiyyəti”. // A.M.Əsədov/ SDU, “İnformasiya cəmiyyətində iqtisadiyyatın davamli inkişaf problemləri” beynəlxalq elmi konfransın materialları, 16-17 dekabr 2021, səh.43-46;

Qasımov, E.F. “Regionun iqtisadi inkişafinda nəqliyyat amili” // E.F.Qasımov / “Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asya: iqtisadi və beynəlxalq münasibətlər” II Beynəlxalq Konqresin materialları, Qafqaz Universiteti, 02-05 may 2007, стр.496-503;

Nəsirov, Ə.Y. “Azərbaycanda tranzit xidmətlərinin təşkili və təkmilləşdiril-məsi” / Ə.Y.Nəsirov. AKU, “Kooperasiya” jurnalı, –2013, №3, –s.134-140;

Paşayev, Ə.Z. “Azərbaycanın nəqliyyat sektoruna investisiya qoyuluşunun səmərəliliyinin yüksəldilməsi istiqamətləri” / Ə.Z.Paşayev. Bakı: “Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri”, –2018, 6-cı cild, aprel-iyun, səh.117-127;

Vəliyev, D.Ə. “Beynəlxalq layihələrin milli nəqliyyat sisteminin davamlı inkişafına təsir istiqamətləri: TRACECA proqramının formalaşması mərhələləri və re¬gionda nəqliyyat sisteminin inkişafı”. Azərbaycan Universiteti, “İpək yolu”, –2010, №2, –s.37;

İsmayılqızı, X. “Zəngəzur dəhlizi reallığa çevrilir”. Bakı, “İki sahil” qəzeti. 19 aprel 2021;

Kamal, R. “Zəngəzur dəhlizinin əhəmiyyəti böyükdür”. Bakı, “Azərbaycan” qəzeti, 02 noyabr 2021;

Asadov, A.M. “The necessary factors in formation of new transportation systems in sustainable development condition”. Amerika, Acta Zhengzhou Univer¬sity Overseas Edition, An İnternational

Journal “Life Science Journal”, (Thomson Reuters ISI indexed, Impact Factor: 0.158), 2013;10(12s), səh. 256-261;

Asadov, A.M. “The role of transport system in developmentof international economics”. Germany, Munich, “European science and technology”. Materials of the v International Research and Practice Conference, Vol. I, October 3rd- 4th, 2013, p.86-89;

Zhang, W. “The impact of transport, land and fiscal policy on housing and economic geography in a small, open growth model”. University of Minnesota, The Journal of Transport and Land Use, 2013, Vol. 6, pp. 89-100;

Миротин, Л.Б. «Логистика в автомобильном транс¬порте» / Л.Б.Миротин, Е.А.Лебедев. Феникс, 2015 г., 238 стр.;

Мамедов, З.Ф. «Место Азербайджана в Китайской концепции «Один паяс, один путъ»». Труды “XII Евразийского научного форума”. Санкт-Петербург, 20 ноября 2020, стр.296-307;

«Межправительственное соглашение по сети азиатских автомобильных дорог». http://www.un.org/ru/documents/decl_conv/conventions/pdf/asian_highwaynetwork.pdf

https://azedu.az/az/news/43774-unec-in-professoru-beynelxalq-neqliyyat-kommunikasiya-elaqelerine-zengezur-dehlizinin-qosulmasi-imkanlarindan-danisib

http://utmagazine.ru/posts/12173-mirovaya-transportnaya-sistema

# Rəqəmsal İqtisadiyyat və Rəqəmsal Transformasiya

**Söhrab Vahidli**

**Azərbaycan Dövlət İqtisadiyyat Universiteti**

**esev.sv@gmail.com**

## Xülasə

Rəqəmsal transformasiya, cəmiyyətimizin bir çox sahələrində dəyişikliklərə gətirir və texnologiya inkişafımızın bir hissəsidir. Bu inkişaf, məhsuldarlığı artırmağa, daha effektiv və sərfəli iş prosesləri təklif etməyə, məlumatlarımızı daha təhlükəsiz şəkildə saxlamağa və daha çox vəziyyətlərə imkan verir. Lakin burada yeni problemlər də yarana bilər ki , bu da texnologiya və informasiya sahələrində daha çox araşdırma və inkişaf tələb edir. Bütün bunlara baxmayaraq, rəqəmsal transformasiya, texnologiya və informasiya sahələrindəki inkişafın bir hissəsidir və gələcəkdə daha da əhəmiyyətli hala gələcək. Bu inkişaf, bir çox proseslərin daha sürətli, daha effektiv və daha təhlükəsiz həyata keçirilməsinə imkan verəcək və insanların daha yüksək səviyyəddə məhsuldarlıqla işləməsinə imkan verəcək. Həmçinin, rəqəmsal transformasiya, müxtəlif sektorlər arasında daha yaxşı bir əlaqə, əməkdaşlıq və məlumat paylaşımı yaratmağa kömək edəcəkdir. Rəqəmsal transformasiyanın uğurlu olması üçün, organizasiyaların texnologiyaların inkişafına əsaslanan yeni strategiyalar təyin etmələri və tətbiq etmələri vacibdir. Həmçinin, ən yaxşı nəticələr üçün, müəyyən müddətdə texnologiyaların yenilənməsi və inkişafının nəzarət altında saxlanılması da əhəmiyyətli olacaq.

**Açar sözlər:** transformasiya, rəqəmsal, iqtisadiyyat, internet

## Abstract

Digital transformation brings changes in many areas of our society and technology is part of our development. This development allows us to increase productivity, offer more efficient and cost-effective work processes, keep our data more secure and more situations. However, new problems may arise here, which require more research and development in the fields of technology and information. Despite all this, digital transformation is part of the development in the fields of technology and information and will become more important in the future. This development will allow many processes to be carried out faster, more efficiently and more safely, and will allow people to work at a higher level of productivity. Also, digital transformation will help create better connectivity, collaboration and information sharing between different sectors. For digital transformation to be successful, it is important for organizations to define and implement new strategies based on the development of technologies. Also, for the best results, it will be important to keep the technology updated and development under control over a period of time.

**Keywords**: transformation, digital, economy, internet

## Giriş

Bu tədqiqat işinin əsas məqsədi Rəqəmsal iqtisadiyyat və Rəqəmsal transformasiya illər ərzində necə inkişaf etdiyini göstərmək və eyni zamanda günümüzdə həyatımıza hansı mənfi və müsbət təsirləri göstərdiyini aydınlaşdırmaqdan ibarətdir. Rəqəmsal iqtisadiyyat və rəqəmsal transformasiya son illərdə iqtisadiyyatın əsas müasir həyat tərzləri üzərindəki təsirini artırır. Rəqəmsal iqtisadiyyat, əsasən, informasiya texnologiyalarının sürətli inkişafı və onların iqtisadiyyatda tətbiqi ilə əlaqədar inkişaf edir. Rəqəmsal transformasiya, iqtisadiyyatın hər sahəsində və ya sənayedə rəqəmsal texnologiyaların tətbiqi ilə baş verir. Bu texnologiyaların istifadəsi məhsulun və xidmətlərin istehsalında və satışında təkmilləşməyə, eyni zamanda effektivliyin artırılmasına imkan verir. Bununla yanaşı, rəqəmsal

transformasiya, iqtisadiyyatın idarə edilməsində və inkişafında təsir göstərir. Məqalə hazırlanarkən bir çox xarici mənbələrə istinad olunmuş, dəqiqliyi maksimum olan məlumatlar üzərindən araşdırmalar davam etmişdir. İstinadlar APA stilinə uyğun olaraq cümlələrin sonunda qeyd olunmuşdur.

**Rəqəmsal transformasiya**

Rəqəmsal transformasiya — təşkilat tərəfindən rəqəmsal texnologiyanın adaptasiyası. Həyata keçirilməsində əsas ümumi məqsəd səmərəliliyi, dəyəri və ya innovasiyanı təkmilləşdirməkdir (Mirzağayeva və Aslanov , 2018).

Rəqəmsal transformasiya və rəqəmsal iqtisadiyyatın əsas avantajlarından biri, informasiyanın daha sürətli və dəqiq şəkildə cəmləşdirilməsinə imkan verərək, qərar vermə zamanının azaldılması və məlumatların daha yaxşı anlaşılması ilə nəticələnir. Bu da iqtisadiyyatın daha effektiv olmasına və effektivliyin daha sürətli artırılmasına imkan verir (*Kayzen.az*, https://kayzen.az/blog/informatika/5781/informasiya-texnologiyalar%C4%B1.html, "İnformasiya texnologiyası anlayışı", 2012).

Rəqəmsal transformasiya həm də əməkdaşlığı təkmilləşdirir. İnformasiya sistemləri, işçilərin bir-biri ilə əlaqələrinin təkmilləşdirilməsinə imkan verir.

Rəqəmsal transformasiya, iqtisadiyyatın dəyişən tələblərinə cavab verir və digər sektorlarla əlaqələrin daha yaxşı qurulmasına imkan verir. Bu da yeni iş sahələrinin və iş imkanlarının yaranmasına şərait yaradır.

Bununla yanaşı, rəqəmsal iqtisadiyyatın və rəqəmsal transformasiyanın ən böyük məsələlərindən biri, digər sektorlarla əlaqələrin daha sürətli və yaxşı qurulması üçün tələb olunan informasiyanın təmin edilməsidir. Bu, informasiya bazarının, gizlilik məsələlərinin və informasiyanın təhlükəsizliyinin qorunması məsələlərinin daha əhəmiyyətli olmasına səbəb olur.

**Rəqəmsal iqtisadiyyat**

“Rəqəmsal iqtisadiyyat" termini rəqəmsal texnologiyaların istifadəsinə əsaslanan iqtisadi, sosial və mədəni münasibətlər sistemi kimi başa düşülə bilər. Rəqəmsal iqtisadiyyat elektron malların və xidmətlərin istehsalı və satışı üçün ticarət fəaliyyətinin bir növüdür. Müvafiq olaraq, buraya daxildir: birincisi, elektron ticarət, elektron bankçılıq; ikincisi, onlayn xidmətlər, reklamdan pul qazanan informasiya saytları, İnternet media (səsyazma, kino, mətbuat, nəşr), əyləncə və biznes proqramının yaradılması; üçüncüsü, müvafiq avadanlıq istehsalı və digər dəstək fəaliyyətləri

Rəqəmsal iqtisadiyyatın və rəqəmsal transformasiyanın digər məsələləri, informasiyanın təhrif edilməsinə və ya manipulyasiyasına açıq olması, avtomatizasiyanın insanlar üzərindəki təsirinin azalması və ya iş yerindəki əməkdaşların yerinə maşınların və robotların qoyulması olaraq sıralanır.

Rəqəmsal iqtisadiyyat və rəqəmsal transformasiya iqtisadiyyatın inkişafına imkan verməsindən yola çıxaraq, deyə bilərik ki, bu inkişafın ümumiyyətlə ictimai faydalarını nəzərə almaq və müvafiq qaydalar tətbiq etmək vacibdir (Calallı (Sadıqov), 2017). Buna görə də, iqtisadiyyatın və siyasətin məsələlərinin araşdırılması və müzakirəsi, rəqəmsal iqtisadiyyatın və rəqəmsal transformasiyanın səmərəliliyinin daha yaxşı anlaşılmasına imkan verir.

Rəqəmsal iqtisadiyyatın və rəqəmsal transformasiyanın bir başqa böyük faydası, daha çox insanın iştirak etməsinə imkan verərək, sosial və iqtisadi məsələlərin həlli üçün daha çox alternativ və qərarların daha demokratik qəbul edilməsinə yol verməsidir. Bu, bazarların daha çox insana açılmasına, onların bir-biriləri ilə daha sürətli və əlaqəli olmasına və digər iqtisadiyyat aktorları ilə daha sürətli və qarşılıqlı əməkdaşlıq və iş birliyinə imkan verir.

Rəqəmsal iqtisadiyyatın və rəqəmsal transformasiyanın digər bir mühüm faydası, iqtisadiyyatın daha sürətli və dəqiq monitorinq edilməsinə imkan verir. Bu da daha çox informasiyanın toplanması və analiz edilməsi, daha sürətli və effektiv qərarların verilməsi və daha yaxşı proqnozların hazırlanması deməkdir.

Son olaraq, rəqəmsal iqtisadiyyat və rəqəmsal transformasiya, digər sahələrdə olduğu kimi, inkişafın və proqressin tələblərindən biridir. Bu, yeni məhsulların, xidmətlərin və iş sahələrinin yaranmasına imkan verərək, yeni iş imkanları yaradır və iqtisadiyyatın bütövlükdə daha dinamik olmasına imkan verir.

Ümumiyyətlə, rəqəmsal iqtisadiyyat və rəqəmsal transformasiya, iqtisadiyyatın daha effektiv, sürətli və müasir olmasına imkan verərək, daha yüksək ictimai faydalar və daha yaxşı qərarlar üçün əsas yaradır. Lakin, bu inkişafın müvafiq qaydalar və monitorinqi, informasiyanın təhlükəsizliyi və gizliliyi, sosial və mühəndislik məsələləri kimi digər faktorlar nəzərə alınmalıdır.

Qeyd etdiyimiz kimi, rəqəmsal iqtisadiyyatın və rəqəmsal transformasiyanın həyata keçirilməsi üçün müvafiq infrastruktur, informasiya təhlükəsizliyi, təlim və təcrübəli insan resursları və effektiv qanunvericilik tələb olunur. Bu, bütün iqtisadiyyat faktorları üçün həyati məsələdir. Bu inkişafın əhatəli, təhlükəsiz və dəyərli olması üçün, daha çox iş birliyi, inkişaf təşkilatları, iqtisadiyyat aktorları , dövlətlər arasında koordinasiya və tərəfdaşlıq tələb olunur. (Mirzağayeva və Aslanov , 2018).

**Rəqəmsal iqtisadiyyatın və rəqəmsal transformasiyanın bəzi əsas nüansları**

Rəqəmsal iqtisadiyyatın və rəqəmsal transformasiyanın bəzi əsas nüanslarına diqqət yetirək:

- digər iqtisadiyyat inkişaflarından fərqli olaraq, təhlükəsizlik məsələlərinin nəzərə alınması ilə bağlı bir çox əsas məsələlər var. Verilənlər bazası və digər informasiya saxlama və göndərmə prosesləri, həm də rəqəmsal ticarət və ödəmə prosesləri, təhlükəsizliyin ciddi məsələləridir. Bu, dövlət tərəfindən təmin edilən müvafiq tədbirlərlə qarşılanmalıdır (Əliquliyev və Əliyev , 2002).
- Digər bir mühüm nüans, rəqəmsal iqtisadiyyatın sosial təsiridir. Rəqəmsal transformasiya, mənsub olduğu cəmiyyətin sosial təşkilatlanması və səviyyəsindən asılı olaraq, fərqli sosial nəticələrə gətirib çıxara bilər. Bu, müəyyən qrupların qələbəsi, digər qrupların məğlubiyyəti ilə nəticələnə bilər. Bu səbəbdən, rəqəmsal iqtisadiyyatın sosial nəticələrinin qarşısının alınması üçün, müvafiq sosial siyasət tədbirləri, təhsil və informasiya proqramları tələb olunur (Schmarzo və Bill , 2017).
- Rəqəmsal iqtisadiyyatın bir digər mühüm aspekti, rəqəmsal bölünmədir. Bu, müxtəlif regionlar, ölkələr, sosial qruplar və sair arasında rəqəmsal bərabərliksizliyə, informasiya bərabərliyinin və təcrübələrin bölünməsinə səbəb ola bilər. Bu məsələlərə qarşı müxtəlif dövlətlər və inkişaf təşkilatları tərəfindən qlobal tədbirlər tətbiq edilməlidir (Wren və Hannah, 2020).

- Rəqəmsal iqtisadiyyatın inkişafı, müxtəlif iqtisadiyyat sahələrində, bəzi işlərin avtomatlaşdırılması və ya tamamilə ləğv edilməsi ilə nəticələnə bilər. Bu da fərqli sektorlarda işlə təminatı və yüksək keyfiyyətli iş yerləri yaradılması kimi məsələləri aşmağa kömək edir. Həmçinin, rəqəmsal iqtisadiyyatın inkişafı, müxtəlif mənada işgüzar təhsil və təcrübələrə olan tələbatı dəyişdirir. Bu, insanların daha yaxşı təhsil və təcrübələrə ehtiyac duymalarına, həm də bu sahələrdə müasir təcrübələrə sahib olanların daha dəyərli olmasına səbəb olur.
- Rəqəmsal iqtisadiyyat, işlərin yeni formalarını yaratmaq, yeni əmək müqaviləsi növlərini tətbiq etmək və ya sərbəst işlər götürmək kimi daha yaradıcı məsələləri həll etməyə kömək edir. Bu, müəyyən bir əlavə dəyər təklifi yaradır və tələb edir ki, hər bir şəxs daha yaxşı təhsil və təcrübələr əldə etsin.
- Rəqəmsal iqtisadiyyatın inkişafı, sürətli inkişaf edən ölkələr arasında, inkişaf etməkdə olan ölkələrlə müqayisədə, daha böyük fərq yarada bilər. Bu, müxtəlif ölkələrdə fərqli səviyyədə rəqəmsal təcrübələr olduğu üçün baş verə bilər. Bu səbəbdən, rəqəmsal iqtisadiyyatın inkişafı, daha inkişaf etmiş ölkələr ilə daha az inkişaf etmiş ölkələr arasında məsafəni artıracaq bir fərq yarada bilər.
- Rəqəmsal iqtisadiyyatın inkişafı, müxtəlif sənayelərdə yaradılan yeni avtomatlaşdırılmış proseslər və birbaşa əlaqəli məhsulların istehsalı ilə nəticələnir. Bu, daha səmərəli və yüksək keyfiyyətli məhsulların istehsalına kömək edir. Bununla birlikdə, bu sahədə bir çox insanların işlərini itirəcəyi qorxusu da var, bu isə sosial problemlər yarada bilər.
- Rəqəmsal iqtisadiyyatın inkişafı, iqtisadiyyatın daha səmərəli idarə edilməsinə kömək edir. Bu, həm də iqtisadiyyatın idarə edilməsinin daha çevik olmasına imkan verir. Bu inkişaf, dövlət, özəl sektor və müxtəlif iqtisadi təşkilatlar üçün faydalı olur.
- Rəqəmsal iqtisadiyyatın inkişafı, həm də təhlükəsizlik məsələlərinə kömək edir. Bu inkişaf, müxtəlif təhlükəsizlik proseslərinin avtomatlaşdırılması və ya rəqəmsal təhlükəsizlik cihazları və proqramlarının istifadə edilməsi ilə nəticələnir. Bu zaman həm də şəxsi məlumatların təhlükəsizliyinin təmin edilir.
- Rəqəmsal iqtisadiyyatın inkişafı, müxtəlif ölkələr arasındakı ticarət münasibətlərini dəyişdirir. Bu inkişaf, müxtəlif ölkələrdəki şirkətlərin və təşkilatların bir-biriləri ilə daha asan və daha sürətli işləməsinə imkan verir. Ticarət proseslərinin daha çevik və daha səmərəli hala gətirilir.
- Rəqəmsal iqtisadiyyatın inkişafı, yeni inkişaf mühiti və startaplar üçün daha asan və daha çevik bir ortam yaradır. Bu inkişaf, yeni iş fikirlərinin daha asan və daha sürətli bir şəkildə reallaşdırılmasına imkan verir. Eynni zamanda innovativ bir iqtisadiyyatın inkişafına imkan verir.
- Rəqəmsal iqtisadiyyatın inkişafı, müxtəlif təhsil sistemlərini dəyişdirir. Müxtəlif təhsil sistemlərində rəqəmsal təhsilə daha çox üstünlük verir. (Əliquliyev və Əliyev, 2002).
- Rəqəmsal iqtisadiyyatın inkişafı, daha yaxşı və daha müasir bir sosial müqavimət mühiti yaradır. Müxtəlif sosial müqavimət proqramlarının daha effektiv bir şəkildə idarə edilməsinə imkan verir, daha yaxşı bir sosial müqavimət mühiti yaratmağa kömək edir.

- Effektiv bir səhiyyə xidməti mühiti yaradır. Müxtəlif səhiyyə xidmətlərinin daha sürətli və daha effektiv bir şəkildə verilməsinə imkan verir. Səhiyyə xidmətlərinin daha yaxşı və daha səmərəli bir şəkildə idarə edilməsinə kömək edir.

Bu sahədəki inkişafların nəticəsi olaraq, rəqəmsal iqtisadiyyatın mövcud iqtisadiyyat sistemlərini dəyişdirəcəyi və həm də daha müasir və sürətli bir iqtisadiyyatın yaradılmasına imkan verəcəyi düşünülür. Bununla birlikdə, bu inkişafların bəzi təhlükəli nəticələri də ola bilər. Məsələn, rəqəmsal iqtisadiyyatın inkişafı, iş yeri təcrübəsinin əsasən rəqəmsallaşdırılmasına səbəb olur. Bununla birlikdə, rəqəmsal iqtisadiyyatın inkişafı, insanlar arasında daha geniş bir rəqabət mühiti yarada bilər. Bu mühit, insanların sosial vəzifələrini itkisizləşdirərək və ya insanlar arasında daha böyük bir təzahürə yol açaraq bir qrup insanın diğər qruplara üstünlük təmin etməsinə səbəb ola bilər.

Bu səbəbdən, rəqəmsal iqtisadiyyatın inkişafı, insanlar arasında ədalətsizliyə və yoxsulluğa səbəb olan qlobal problemlərə yaxın bir nəzər salınması ilə qarşılanmalıdır. Ədalətsizliklərə və yoxsulluğa qarşı mübarizə üçün də rəqəmsal iqtisadiyyatın inkişafından faydalanmaq mümkündür. Özünü daha yaxşı və sürətli bir şəkildə idarə etmək üçün, özünü idarə etməkdə yeni bir məsuliyyət hissini edinmək üçün, və nəhayət, daha müasir və sürətli bir iqtisadiyyatın inkişafına imkan verən yeni bir dünya yaratmaq üçün, rəqəmsal iqtisadiyyatın inkişafından faydalanmaq mümkündür.

Rəqəmsal iqtisadiyyatın inkişafı, eyni zamanda iş və təhsil sahələrində də dəyişikliklərə səbəb olur. İşçilərin bəzi işləri icra etməyə ehtiyac qalmadan rəqəmsal texnologiyalardan istifadə etmələri, bir çox şirkətin işçi sayını azaldar. Bu, rəqəmsal iqtisadiyyatın inkişafının işsizliyin artmasına səbəb ola biləcəyi anlamına gəlir. Eyni zamanda, bu inkişaf, işçilərin daha yüksək dərəcəli və müasir təhsil və təlimə ehtiyacı olduğu anlamına da gəlir. İnsanlar, müxtəlif peşələrdə özünü daha sürətli və asan bir şəkildə yeniləmək üçün daha çox təhsil və təlim almağa ehtiyac duyurlar.

Rəqəmsal transformasiya sənaye sahəsində dəyişikliklərə yol açır və yeni peşələr yaradır. Bu inkişaf, tibb və sağlamlıq sahələrində də dəyişikliklərə səbəb olur. Rəqəmsal transformasiya, tibb və sağlamlıq sahəsində daha yüksək keyfiyyətli təsdiq və müalicə üsullarının hazırlanmasına imkan verir. Biznes sahəsində də dəyişikliklər gözlənilləndir. Müxtəlif şirkətlər, müştərilərinə daha yaxşı xidmət göstərmək üçün rəqəmsal platformalar və tətbiqlər hazırlayır. Rəqəmsal iqtisadiyyat, işlər üzərində daha asan və daha sürətli bir nəzarətə imkan verir. Bu, daha effektiv bir iş təşkilati və yüksək keyfiyyətli məhsulların hazırlanmasına yol açır.

Təhsil sahəsindəki dəyişikliklərə təlimlərin rəqəmsal platformalar və tətbiqlər vasitəsilə icra olunmasınnı göstərmək olar - müəllimlərə daha effektiv təlim etmək imkanı verir və daha yüksək keyfiyyətli bir təhsil təmin edir.

Son olaraq, rəqəmsal iqtisadiyyat və rəqəmsal transformasiya, inkişaf prosesinə bir sıra fəaliyyətlər daxil edir. Effektiv və asan proseslər, daha yüksək keyfiyyətli məhsullar və xidmətlər, daha sürətli və daha dəqiq məlumatlara giriş imkanı və daha çox müştəri məmnuniyyəti təmin edir. Bu zaman inkişafın bütün fəsadları və faydaları nəzərə alınmalıdır və inkişaf prosesinə dərindən baxılmalıdır.

Rəqəmsal iqtisadiyyatın inkişafı, qlobal sahədə ənənəvi iqtisadiyyat modellərinin dəyişdirilməsi üçün bir imkan verir. İnnovativ rəqəmsal texnologiyalar, müəssisələrə yeni yol və imkanlar təqdim edir, ölkə iqtisadiyyatlarının inkişafını sürətləndirir və insanların həyat səviyyəsini yüksəldir. (Mirzağayeva və Aslanov, 2018).

Rəqəmsal transformasiya, insanların daha müxtəlif fəaliyyətlər və iş sahələri üzərində işləməsinə imkan verir. Bu, insanların həyatını daha dəyişkən və rəngarəng edir və ənənəvi iqtisadiyyat modelinin təkrarlanması imkanını azaldır. İnsanların daha sürətli və daha asan əlaqələr qurmağa, xidmət götürməyə və səfər etməyə imkan verir. Rəqəmsal iqtisadiyyat, çevik bir şəkildə dəyişən iqtisadiyyat sahəsindəki problemlərin həllinə kömək edir. Müxtəlif problemlər və təhlükələr həll olunur və yeni imkanlar təqdim edilir (Əliquliyev və Əliyev , 2002).

Rəqəmsal iqtisadiyyatın inkişafı, ənənəvi sahələrdə də dəyişikliklərə səbəb olur. Məsələn, bazarın və təşkilatların artıq fiziki məkanlara ehtiyacı olmayacaq, beləliklə, ofislər və mağazalar azalacaq və ya yox olacaq. Bu, insanların evdən işləməsi və onların daha çox zamanında yaxınları ilə birlikdə olması imkanını yaradır.

Rəqəmsal transformasiya, istehsal sahəsində də dəyişikliklərə səbəb olur. Məsələn, avtomatlaşdırma və robotizasiya, əvvəlcədən çoxlu işçi tələb edən sahələrdə işçi sayısını azaltır və bu, istehsalın daha sürətli, daha effektiv və daha səhvsiz olmasına imkan verir (Metafizika Jurnalı, 2021).

Ümumiyyətlə, rəqəmsal iqtisadiyyat və rəqəmsal transformasiya, insanların həyat tərzlərində böyük dəyişikliklərə səbəb olur. Bu, inkişafın bir sıra fəsadlarına yol açır və hər bir fəsada uyğun cavab verilməlidir. Lakin əgər doğru tətbiq edilərsə, bu inkişaf insanların həyatını daha sürətli, daha yaxşı və daha keyfiyyətli edəcək.

Rəqəmsal transformasiya, təcrübələrin və informasiyanın tətbiqi üçün kompüterləri, məlumat sistemlərini və digər rəqəmsal texnologiyaları istifadə edən iqtisadi, sosial və digər sahələrdəki proseslərin dəyişdirilməsidir. Bu, əsasən, avtomatizasiya, robotlaşdırma, sənaye interneti, süni intellekt və blokçeyn kimi texnologiyaların tətbiqi ilə həyata keçirilir. (Əliquliyev və Əliyev , 2002).

Əvvəlcədən çoxlu insan gücü tələb edən və manuallığı üstlənən işlər avtomatlaşdırma və robotlaşdırma vasitəsilə daha effektiv hala gətirilə bilər. Rəqəmsal transformasiya, işçilərə daha çox peşəkarlıq imkanı və sərbəst iş imkanı yaradır (Əlövsət Əliyev, 2018). Məsələn, bir çox mənbələr, səhifələr, sosial şəbəkələr və onlayn platformalar, evdən işləmək üçün imkanlar təqdim edir.

Sənaye interneti avtomatlaşdırmanın daha mühüm bir hissəsidir (Fergus Hanson, 2012). Məsələn, maşınların və texnika üzərindəki sensorların bir-biri ilə əlaqələndirilməsi və böyük miqdarda məlumatların paylaşılması ilə işlərə daha sürətli və daha effektiv bir şəkildə həyata keçirilməsinə imkan verir.

**Süni intellekt**

Süni intellekt (SI) kompüterlər və ya digər elektron cihazlarının insan düşüncə və nəzarət proseslərini simulyasiya etmək üçün istifadə olunan texnologiyalardır. SI, insanların qərəz, yorğunluq və s. kimi nəzarət proseslərinə məruz qalmadan bir sıra tapşırıqları həyata keçirə bilən texnologiyadır. Bu, kompüterlərin insana yaxın intellektual imkanlarla fəaliyyət göstərməsinə imkan verir.

Suni intellekt müxtəlif sahələrdə istifadə edilir, məsələn, avtomatik şəkildə müştərilərin sorğularına cavab verən chatbotlar, avtomatik sürücülər, kataloqların təhlili və məlumatlarını düzəltmək üçün proqramlar, eləcə də bazarlıq və reklam sahələri kimi bir çox sahədə istifadə olunur.

SI daim inkişaf edir və yeni texnologiyalar, alqoritmlər və proqramlar istifadə olunaraq daha da güclü və inkişaf etmiş bir SI yaradılmağa çalışılır. Lakin, SI-da bir çox zərərlər də olması ehtimalı düşünülür və bu, etik və sosial problemlər yarada bilər. Bu məsələlərə də nəzarət edilməlidir.

Süni intellekt, bir çox prosesin avtomatlaşdırılması və daha mənasız işlərin azaldılması üçün istifadə edilir. Məsələn, müştərilərin sorğularını avtomatik şəkildə cavablandırmaq, məlumatları təhlil etmək, təhlil və sənədlərin avtomatik şəkildə işlənməsi kimi prosesləri əhatə edir.

Blokçeyn, rəqəmsal transformasiyanın digər bir mühüm hissəsidir. Məsələn, məhsulların peşəkarlıq və istehsalatının izlənməsi, ödənişlərin avtomatik şəkildə yerinə yetirilməsi, sənədlərin və digər məlumatların təhlükəsiz şəkildə saxlanılması üçün istifadə edilir. (Əliquliyev və Əliyev , 2002).

**Heydər Əliyev və İnformasiya Texnologiyaları**

Heydər Əliyev Azərbaycanın inkişafında və daxili və xarici siyasətdə IT sahəsinə çox böyük diqqət və yatırım ayıraraq, bu sahədəki inkişaf və inovasiyaları öz üzərinə götürmüşdur. Heydər Əliyev dövründə ictimai və ekoloji infrastrukturda müasir IT texnologiyalarının tətbiqi, informasiya üzrə təhsil müəssisələrinin yaradılması, tədqiqat mərkəzlərinin və universitetlərin yaradılması, yeni radio və televiziya kanallarının açılması və xarici ölkələrlə əlaqələrin artırılması üçün qlobal informasiya şəbəkəsinə daxil olmaq üçün əsaslı addımlar atılmışdır.

1994-cü ildə Heydər Əliyev Azərbaycan Respublikasında "Azərbaycan Respublikasının Milli Elmi-Texniki İnformasiya Mərkəzi"nin yaradılmasını sifariş edərək, mərkəzin inkişafı üçün xüsusi vəsait ayrılmışdır. Bu mərkəz Azərbaycanda informatikanın inkişafına yeni bir dərəcə qazandırmış və ölkənin elmi-texniki inkişafına çox böyük təsir göstərmüşdür.

Heydər Əliyev dövründə inkişaf edən informasiya texnologiyalarının özü də milli təhlükəsizlik sisteminin yaradılması üçün vacib addımlardan biri olmuşdur. Bu dövrdə milli təhlükəsizlik strategiyası hazırlanmış və milli təhlükəsizlik üzrə xidmətlər yaradılmışdır (*President.az, https://president.az/az/articles/view/27423 ,* "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı", *2018).*

**Nəticə**

Nəticə olaraq, rəqəmsal iqtisadiyyat və rəqəmsal transformasiya son illərdə iqtisadiyyatın bir çox sahələrində təsir göstərərək, onların effektivliyin artırılması və daha sürətli inkişaf etməsinə səbəb olur. Bu, iqtisadiyyatın daha sürətli və dəqiq inkişaf edərək, dünya iqtisadiyyatında daha konkret və dəqiq həllər tapılmasında mühim rol oynayır. Rəqəmsal iqtisadiyyatın və rəqəmsal transformasiyanın ən böyük faydalarından biri, insan gücündən çox informasiyanın istifadəsinə imkan verərək, idarəetmə və qərar vermə proseslərini sürətləndirməsidir. Bütün bunlar Heydər Əliyevin inkişaf etməkdə olan Azərbaycanın informasiya texnologiyaları sahəsindəki rolunu göstərir. Onun dövründən etibarən, ölkədə informasiya texnologiyalarının inkişafı üçün qlobal trendlərə uyğun olaraq hər zaman diqqətli baxılır və inkişaf etdirilir. Heydər Əliyevin bu addımları Azərbaycanın informasiya texnologiyaları sahəsindəki rolu üzərində müsbət təsir göstərməkdədir. Bu günümüzdə İlham Əliyev Ulu Öndərimizin İnformasiya Texnologiyaları sahəsindəki uğurlu siyasətini ləyaqətlə davam etdirir.

**Ədəbiyyatlar**

Mirzağayeva və Aslanov (2018). Rəqəmsallaşma prosesi: nəyə gətirib çıxardı və gələcəkdə bizi nə gözləyir?. Rəqəmsallaşma nədir?, 3, 13-15.

Schmarzo və Bill (31 May 2017). What is Digital Transformation? . A Conceptual Definition of Digital Transformation, 45, 230-234.

Wren, Hannah (2020). What is digital transformation? Definition, Examples. Main Areas, 2, 9-11.

Metafizika Jurnalı (2021), Rəqəmsal transformasiya. Transformasiya, 2, 9-10.

Kayzen.az , https://kayzen.az/blog/informatika/5781/informasiya-texnologiyalar%C4%B1.html (2012). İnformasiya texnologiyası anlayışı.

R.M.Əliquliyev, Ə.Q.Əliyev (2002). İqtisadi proseslərdə informasiya texnologiyaları. Informasiya texnologiyaları 10 il əvvəl, 3, 60-86.

Əlövsət Qaracaoğlu Əliyev (2018). AMEA İnformasiya Texnologiyaları İnstitutu. İnformasiya elminin tarixi, predmeti, məqsədi və onun cəmiyyətdəki rolu və vəzifələri. İnformasiya elminin əsas məqsədi, 3, 45-49.

İsmayıl Calallı (Sadıqov) (2017). İnformatika terminlərinin izahlı lüğəti. Transformasiya, 7, 91-92.

President.az , https://president.az/az/articles/view/27423 (2018). Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

Fergus Hanson (2012). Lowy Institute. A Digital DFAT: Joining the 21st century. Artificial intelligence, 2, 10-19.

# Анализ Потребительских Свойств Биаксиально-Ориентированных Полипропиленовых Пленок

**Алиев Орхан**

**Азербайджанский Государственный Экономический Университет**

**Orxan.aliyev96@hotmail.com**

## Аннотация

В статье дается обоснование актуальности выбранной темы, отмечается довольно широкое распространение в современной промышленности материалов из высокомолекулярных соединений, в частности материалов на основе полипропилена. Также подчеркивается ряд положительных свойств полипропилена, преимущества биаксиально-ориентированных полипропиленовых пленок, выгодность их применения для упаковки товаров, в особенности для пищевых продуктов. Также исследуются показатели потребительских свойств отобОранных для исследования образцов пленок различных производителей, такие, как плотность, температура плавления, температура стеклования и влагопоглощение за 30 суток при 20°С. Проведенные исследования дают возможность предположить, что температура плавления БОПП пленок зависит от их плотности, при увеличении температуры плавления повышается и температура стеклования испытуемых образцов, а их влагопоглощение за 30 суток при 20°С непосредственно зависит от их плотности. Выявленные зависимости в определенной мере дают возможность учета потребительских свойств материалов при их выборе, позволяют прогнозировать некоторые характеристики полимерных пленок и находить наиболее оптимальные сферы их применения в промышленности и в быту. В ней подробно описываются методы производства БОПП пленок, их физические и механические свойства, оптические свойства и химическая стойкость. Также обсуждается использование БОПП пленок в упаковочной промышленности и их важность для потребителей. Статья рассматривает преимущества использования БОПП пленок и их роль в современной промышленности

**Ключевые слова:** полипропилен, пленки, потребительские свойства

## Annotation

In the article, the justification of the relevance of the chosen topic is given, the fairly wide distribution of materials from high-molecular compounds, in particular materials based on polypropylene, is noted in the modern industry. It also emphasizes a number of positive properties of polypropylene, the advantages of biaxially oriented polypropylene films, the usefulness of their application for packaging goods, especially for food products. Indicators of consumer properties selected for the study of samples of films of various manufacturers are also investigated, such as density, melting temperature, glass transition temperature and moisture absorption for 30 days at 20°C. The conducted studies allow us to assume that the melting temperature of BOPP films depends on their density, when the melting temperature increases, the glass transition temperature of the tested samples also increases, and their moisture absorption for 30 days at 20°C directly depends on their density. The revealed dependencies to a certain extent make it possible to take intoaccount the consumer properties of materials when choosing them, they allow predicting some characteristics of polymer films and finding the most optimal areas of their application in industry and everyday life. It describes in detail the production methods of BOPP films, their physical and mechanical properties, optical properties and chemical resistance. The use of BOPP films in the packaging industry and their importance for consumers is also discussed. The article considers the advantages of using BOPP films and their role in modern industry

**Keywords:** polypropylene, films, consumer properties

## Введение

Полимерная промышленность развивается довольно быстрыми темпами, а производство полимерных материалов растет из года в год. Применяются новые виды как полимеров, так и

сополимеров, обладающие улучшенными свойствами, позволяющие получать материалы с высокими функциональными свойствами, красивым внешним видом (Ахмеджанова, 2020) (Крыжановский, 2014). Ряд новых материалов на основе высокомолекулярных соединений, в том числе биополимеры, наделены, кроме того, актуальной для современного этапа способностью разлагаться в течение ограниченного промежутка времени (Ермолович, 2006), (Лавров, 2021), (Лавров, 2017). Однако, наряду с ними, продолжительное время не сдают свои позиции на мировом рынке и материалы, а также изделия на основе традиционных видов полимеров (Шепелев, 2003), (Петрище, 2018).

Среди них в первую очередь необходимо отметить полипропилен. Полипропилен является синтетическим неполярным полимером, являющимся термопластом и типичным представителем класса полиолефинов (Bukosek, 2017). Получают его путем полимеризации пропилена. Полипропилен является твердым на ощупь веществом и имеет белый цвет. Он чаще всего синтезируется в промышленности методом полимеризации пропилена в присутствии катализаторов Циглера-Натта, а также металлоценовых катализаторов. Применяемое при этом давление составляет, как правило, 10 атмосфер, а температура 80°С. В присутствии катализатора Циглера-Натта полипропилен начали получать с 1957 года. Именно с началом применения этих видов катализаторов стало возможным получение изотактического полипропилена. Металлоценовые катализаторы стали применять для получения полипропилена намного позднее, однако их доля в общем мировом производстве полипропилена довольно невысока (от 0,5 до 4%).

Одним из важных факторов при получении полипропилена является особенность пространственного расположения боковых ответвлений ($CH_3$-) относительно главной цепи полимера. В связи с этим выделяют разновидности изотактического, синдиотактического и атктического полипропилена. Необходимо отметить, что наиболее важным с точки зрения промышленного производства является получение изотактически структурированного полипропилена. Поэтому в промышленности преобладает получение полипропилена, макромолекулы которого имеют изотактическое строение.

**Анализ Потребительских Свойств Биаксиально-Ориентированных Полипропиленовых Пленок**

Биаксиально-ориентированные полипропиленовые пленки (BOPP) широко используются во многих отраслях, включая упаковочную промышленность, печатную промышленность, электронику и другие области. Они обладают рядом потребительских свойств, которые определяют их применимость и конкурентоспособность на рынке.

Для проведения анализа потребительских свойств BOPP пленок обычно используются различные методы и технологии. Одним из таких методов является испытание на растяжение, которое позволяет определить прочность и упругость пленок, а также их способность выдерживать давление и нагрузки.

Другой важной характеристикой BOPP пленок является их прозрачность и блеск. Эти свойства могут быть определены при помощи спектрофотометрии, которая позволяет измерить оптические параметры пленок, такие как пропускание света и коэффициент отражения.

Также важными характеристиками BOPP пленок являются их барьерные свойства. Они могут защищать продукты от влаги, кислорода и других агрессивных веществ. Эти свойства

могут быть определены при помощи методов, таких как испытание на проникновение паров воды и газов.

Artıq uzun illərdir ki, müasir şəraitdə pensiya təminatının miqyasca artımının əsas şərti hesab edilən və həllini gözləyən - əmək pensiyasının yığım elementinin aktivləşdirilməsi və könüllü pensiya təminatı formalarının tətbiqilə mövcud birpilləli pensiya təminatı sistemindən üçpilləli sistemə keçidin təmin edilməsi zəruridir.

Pensiya təminatının əsas maliyyə bazası kimi əmək münasibətləri sisteminin (xüsusən əməkhaqqı sistemi) yaxud məşğulluq sahəsinin tənzimlənilməsi, ölkədə sosial müavinətlərin əsasən əhatə olunduğu məcburi dövlət sosial sığortası sistemi çərçivəsində sosial müavinətlərlə təminat istiqamətlərində, eləcə də dövlət büdcəsindən maliyyələşdirilməsi aparılmaqla pensiya təminatı sistemindən kənar idarə olunan, lakin əhali rifahının təmin olunmasında əhəmiyyətli (spesifik) rolu olan - ünvanlı dövlət sosial yardımı sisteminin fəaliyyətinin təmin olunması ilə bağlı, habelə sosial təminat əhəmiyyətli olan bu və digər istiqamətlərdə mövcud olan boşluqların aradan qaldırılması və səmərəli idarəetmə mexanizmlərinin müəyyənləşdirilməsi və tətbiqi ilə bağlı getdikcə aktuallaşan və həlli sistemli yanaşma tələb edən problemlərlə bağlı elmi əsaslandırılmış yanaşmaların (müddəaların) və həll yollarının araşdırılmasının zərurətə çevridiyini qeyd etməyimiz, hesab edirik ki, mövzunun aktuallığı dərəcəsini ifadə etməkdədir.

Sosial siyasətinin əsas özəyi qismində ilk növbədə sosial müdafiə sahəsində aparılan islahatların məqsədyönlülüyü əhalinin sosial müdafiə ehtiyaclarının mövcud imkanların və boşluqların kompleks müəyyənləşdirilməsi çərçivəsində ən optimal şəkildə qarşılanmasını təmin etməyə imkan verə bilər.

Bu baxımdan sosial müdafiə sahəsinin sistemli olaraq təqdiqi – beynəlxalq təcrübələr də nəzərə alınmaqla təşkilinin elmi-nəzəri-metodoloji aspektlərinin milli sosial-iqtisadi model olaraq, Azərbaycan Respublikası timsalında açılmasını, dinamikasının təhlilinin aparılmasını, xüsusilə bu sahədə ölkədə mövcud olan aktual problemlərin sahələrarası qarşılıqlı əlaqədə müəyyənləşdirilməsini, mövzunun dövlətin sosial-iqtisadi siyasəti ilə əlaqədə tədqiqat obyektinə alınmasını və mövcud resursların sosial müdafiənin təşkili və təkmilləşdirilməsinin nəhayət hədəfi olan - əhalinin rifah halının mövcud imkanlara münasibətdə maksimum yüksəldilməsinə transformasiyası məqsədilə optimal həll yolları, yeni nəzəri yanaşmalar (müddəalar) və təkmilləşdirilmə istiqamətlərinin ortaya qoyulmasını tələb edir.

Bu mənada əsas sahə və mövzu üzrə tədqiqatlarla bağlı məqsəd və vəzifələr - dövlət tənzimləmə obyekti kimi sosial müdafiənin səmərəli idarə olunması ilə bağlı sosial müdafiənin, onun sistemli təşkili və təkmilləşdirilməsinin nəzəri-metodoloji aspektlərinin, milli səviyyədə sosial-iqtisadi münasibətlər sistemində sahəvi-funksional rolunun və yerinin müasir əsaslarını verməklə Azərbaycan

Respublikası timsalında mövcud problemlərin təcrübə əsaslı öyrənilməsilə sosial müdafiə sisteminin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı perspektiv üçün elmi-nəzəri cəhətdən əsaslandırılmış qərarların qəbulunda istifadə əhəmiyyətli səmərəli və dayanıqlı milli sosial müdafiə modelinin formalaşdırılmasına töhfə verilməsinə istiqamətlənilmiş nəzəri-praktiki bazanın formalaşdırılması ilə hədəfi ilə əlaqələndirilir.

Sosial müdafiənin ümumiləşdirilmiş məqsəd istiqamətləri və sahələrarası əlaqələr aspektindən Azərbaycan Respublikasında sosial müdafiənin inkişafının indiyədək baş vermiş mərhələsində sosial müdafiənin sahələr üzrə təhlillərin və kompleks qiymətləndirilmələrin aparılması, perspektiv üçün təkmilləşdirici həll yollarının önə sürülməsi əhalinin rifah səviyyəsinin yüksəldilməsinin təmin edilməsi baxımından vacib əhəmiyyətlidir.

Beləliklə, problemin araşdırılmasının başlıca əhəmiyyətliliyini onun tədqiqinin və bu zaman əsas yanaşmalardan biri kimi, təsnifatlaşdırılmasının aparılması ilə sosial müdafiə qərarlarının verilməsində elmi-nəzəri baza kimi istifadə edilə bilməsində, bu əsasların sosial müdafiə qərarlarının verilməsi üçün seçim imkanlarını dərinləşdirməsi baxımından əhəmiyyət kəsb etməsi kimi səciyyələndirmək olar.

Tədiqatların ümumən işlənilməsində seçilən problemlərin məzmunundan irəli gəlməklə elmi-nəzəri tədqiqat metodlarından əsasən empirik-nəzəri dərketmə və araşdırma, analiz və sintez, induktiv və deduktiv yanaşma, eləcə də empirik təsviretmə (keyfiyyət və kəmiyyət metodları), müqayisə, nəzəri modelləşdirmə, abstraktlaşdırma metodlarına əsaslanılması, eyni zamanda qoyulan problemlər üzrə sualların aydınlıq gətirilməsi məqsədilə informasiyalardan, məlumatlardan, göstəricilərdən və digər verilənlərdən istifadə əsasında zəruri hallarda riyazi-iqtisadi, statistik, ekonometrik yanaşma metodologiyalarına da müraciət edilməsi bu sahədə tədqiqatların nəzəri-metodoloji əsaslarındandır.

Sahə üzrə tədqiqatlarda məqsəd istiqamətləri və istiqamətlərarası əlaqədə münasibətlər sistemində qoyulan problemin rolu və yeri, funksional-sahəvi təsviri, sosial müdafiənin prinsipləri baxımından qiymətləndirilməsi, Azərbaycanda təşkili və inkişafı xüsusiyyətləri, rifah konsepsiyası ilə bağlı ortaya qoyulacaq mülahizə və fikirlərlə bağlı sxematik təsvir metodlarından, cədvəllərdən, riyazi-iqtisadi metodlardan istifadə edilməsi əhəmiyyətli yanaşmalar olaraq qəbul edilməlidir.

Mövzu istiqamətində tədqiqatların obyektini – sosial müdafiə sistemi, predmetini - sosial müdafiənin təkmilləşdirilməsi istiqamətlərinin – onun təşkili və nəzəri-metodoloji aspektlərinin, beynəlxalq və milli səviyyələrdə təşkili üzrə təcrübələr əsasında başlıca məsələlərinin verilməsi, o cümlədən Azərbaycan nümunəsində xüsusiyyətlərinin açılması, ümumi iqtisadi münasibətlər sistemində funksional-sahəvi təsvirinin, sosial müdafiənin rifah konsepsiyasının, sosial müdafiənin təşkili ilə bağlı gözlənilməsi mühüm hesab edilən prinsiplərin, əmək münasibətləri və sosial ödənişlər sisteminin qarşılıqlı əlaqədə dinamikasının, pensiya təminatı sisteminin təhlili və qiymətləndirilməsinin, eyni zamanda sosial müdafiə ilə əlaqədə sosial təminat sisteminin əsas istiqamətlərinin təhlili və dinamikasının, milli sosial müdafiə modeli olaraq Azərbaycanın sosial müdafiə sistemində prioritetlərin, sosial müdafiə islahatlarının sosial inkişaf baxımından qiymətləndirilməsinin, pensiya və əməkhaqqı sistemlərinin qarşılıqlı əlaqəsinin səmərəsinin və təkmilləşdirilməsinin, sosial müdafiənin təşkili mexanizmlərinin, sosial müdafiədə proqnozlaşdırma və idarəetmənin təkmilləşməsinin, sosial proqnozlarda sosial müdafiə sisteminə konseptual yanaşmanın, sosial müdafiənin idaəretmə əsası kimi - dövlət sosial sığorta sisteminin təkmilləşdirilməsinin, sosial müdafiənin proqnozlaşdırılmasında metodlar və modellərin hazırlanılması ilə bağlı nəzəri əsasların tədqiqinin və təhlilinin aparılması,

təkmilləşdirici istiqamətdə mülahizələrin irəli sürülməsi və təkliflərin işlənilib hazırlanması əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, problemin bütövlükdə sahə olaraq öyrənilməsi ilə bağlı bir sıra məhdudiyylər, mənbə çətinlikləri də mövcuddur. Qaldırılan problemin kompleks sistem olaraq Azərbaycan Respublikası timsalında tədqiqinin aparılması, sahələr üzrə zəruri istiqamətlərdə ölkədə sosial müdafənin təmin edilməsinin keyiyyətcə inkişafına təkan verə biləcək elmi-nəzəri əsasların və sosial müdafənin təkmilləşdirilməsi mahiyyətli yeni (əlavə) yanaşma müddəalarının, mexanizm və metodların işlənilərək irəli sürülməsi hədəflənməlidir. Mövzu üzrə qoyulan problemlər müxtəlif məsələləri ehtiva etməklə, ümumilikdə problemlərin həsr edildiyi sahənin çoxşaxəliliyi, mürəkkəb və eyni zamanda müəyyən hallarda sosial məqsədlər baxımından qeyri-iqtisadi sferalara toxunan çoxmüstəvili münasibətlər sistemi ilə bağlılıq xüsusiyyətlərinin olması xarakterikdir. Bundan irəli gəlməklə, mövzu ilə bağlı açıq mənbələrdə (o cümlədən beynəlxalq internet elmi resurslarında) həsr edilmiş məqalələrə çox da rast gəlinməməkdədir.

**Mövzu Üzrə Araşdırmalar Aparılmasının Yerli Mənbələr Baxımından Problem Aspektləri**

Mövzu istiqamətlərinin seçilməsi üçün əsaslanılan meyarların müəyyənləşməsi daha çox bu sahədə beynəlxalq təcrübə və meyllər də nəzərə alınmaqla sosial müdafiənin başlıca məsələlərinin elmi-nəzəri tədqiqi və həmin məsələlərin müsair şəraitdə Azərbaycan Respublikası konteksində əlaqələndirilməsi fonunda təkmilləşdirilməsi əsaslarının verilməsi, tədqiqatda əhatə olunacaq problemlərin spesifik və bir çox hallarda yerli göstəricilər, tendensiyalar və həll yollarının verilməsi ilə bağlıdır. Bununla əlaqədar birbaşa surətdə beynəlxalq mənbələr üzrə müvafiq adekvat (analoji) yanaşmaların tapılması çətin olmaqla, həmçinin bu məqamlar mövzunun məqsədi və vəzifəsi baxımından tam uyğunluq təşkil etməməklə, daha çox seçilən mövzuya münasibətdə yanaşmalara əsaslanmaqla müəyyən edilir. Azərbaycanın sosial-iqtisadi məkanına münasibətdə isə, hesab edirik ki, idarəetmə sahəsi kimi təzahür etməsi ilə yanaşı, eyni vaxtda elmtutumlu və spesifik sahə olaraq sosial müdafiənin təşkili və idarəedilməsi əsaslarının elmi-iqtisadi baxımdan tədqiqi - yeni elmi problem kəsb edir. Azərbaycanın elmi məkanında sosial müdafiənin problemlərinə həsr edilmiş azsaylı tədqiqat işlərinə rast gəlinməsinə baxmayaraq, sahənin bütövlükdə inkişafının nəzəri əsaslarının və müddalarının irəli sürüldüyü, sahə üzrə sahələrarası əlaqədə sosial-iqtisadi proseslərinin kompleks qiymətləndirilməsilə vahid elmi yanaşmanın ortaya qoyulduğu fundamental tədqiqat işlərinə rast gəlinmədiyi nəzərə alınaraq, problemin özü bütövlükdə Azərbaycan reallığına münasibətdə nəzərəçarpan dərəcədə az araşdırılmışdır. Bu baxımdan bununla belə zəruri olduqda mövzunun tərkibində qaldırılan ayrıca məsələlərə münasibətdə digər xarici və yerli müəllif yanaşmalarının qiymətləndirilməsi nəzərdə saxlanılması vacib məsələlərdən hesab olunur.

Yuxarıda qeyd edilən fikirlər öz təsdiqini internet resurslarında azərbaycandilli mənbələr üzrə axtarışların nəticələrinə əsasən də tapmaqdadır. Qeyd olunmalıdır ki, bu istiqamətdə axtarış nəticələri sosial müdafiənin ayrı-ayrı istiqamətləri üzrə azsaylı (və bir çox hallarda fundamentallıq kəsb etməyən yazıları və ya tədqiqat işlərininin (elmi tədqiqatçılar (alimlər) tərəfindən deyil, tələbə və ya digərləri tərəfindən yazılaraq dərc edilmiş konfrans materiallarını və s. əhatə etməklə)) olduğunu göstərməkdədir. Eyni zamanda həmin tədqiqat işləri üzrə də sosial müdafiəyə, yaxud seçilən sosial müdafiə profilli ayrıca problemlərə sosial müdafiənin spesifik sahəvi quruluşu nöqteyi-nəzərdən kompleks elmi-nəzəri təhlilə əsaslanan sistemli yanaşılma və təkmilləşdirici nəticələrin (seçim

imkanlarının və ya həll yollarının) ortaya qoyulması müşahidə edilməməkdədir. Həmin işlər də sosial müdafiənin ayrı-ayrı sahələri üzrə seçilmiş mövzular üzrə qoyulan problemlərin araşdırılması ilə bağlı məsələləri əhatə etməklə, qoyulan problemlərin sosial müdafiənin təşkili və idarə edilməsinə təsirinin əsaslarının fundamental olaraq araşdırılmasına yer verilməmişdir.

Axtarış nəticələri içərisində bu istiqamətə daha çox uyğun hesab edə biləcəyimiz fikir olaraq qiymətləndirilməsini mümkün hesab etdiyimiz – R.A.Hüseynov tərəfindən yazılmış "Azərbaycan Respublikasının sosial təminat sistemi: davamlı inkişaf kontekstində" başlıqlı məqaləni qeyd etmək olar. Məqalə bu sahəyə istiqamətlənilmiş azsaylı işlərdən hesab edilə bilməsinə, beynəlxalq müstəvidə sosial müdafiə ilə əlaqədar fəaliyyəti olan müxtəlif beynəlxalq təşkilatların praktikası (yanaşmaları və ya mövqeyi) də nəzərə alınmaqla, Azərbaycanda sosial müdafiənin quruluşuna dair təsnifatlaşdırılmanın müəllif tərəfindən aparılması müsbət qiymətləndirilir. Pensiya təminatı və sosial müavinətlərin sosial müdafiənin əsas sütunları kimi qəbul edilərək tədqiqat obyektinə alınmasına baxmayaraq, hesab etmək olar ki, məqalədə ilk növbədə mövzunun mahiyyəti (mətninin məzmunu) nəzərə alınaraq bu sahədə düzgün (adekvat) terminoloji yanaşma müəyyənləşdirilməmişdir. Belə ki, mövzunun "sosial təminat" ifadəsi ilə deyil, "sosial müdafiə" ifadəsi üzərində qurulması daha məqsədəuyğun olardı. Eyni zamanda "sosial təminat" anlayışının "çoxcəhətli bir anlayış olduğu, konkret olaraq onun bütün əlamətlərini özündə birləşdirə bilən universal bir tərifin verilməsinin çətin, bəlkə də, mümkünsüz olması" qeyd edilməklə mahiyyətinin (açılışının) qarışıq verilməsinə dair müxtəlif müəllif yanaşmaları misal gətirilsə də, müəlifin bu problemə adekvat əhatəli fərdi yanaşması verilməməkdədir. Sosial müdafiə sahəsinin təsviri üzrə bu sahənin təsnifatlaşdırılmasına dair müəllifin tərtib etdiyi sxemin təhlili nəticəsi olaraq, sosial təminat sisteminin əsas rolu - vətəndaşların onların sosial risklərlə qarşılaşdıqları zaman itirilmiş gəlirlərinin əvəz olunması, kompensasiya edilməsi və tibbi xidmətlərə bərabər əlyetərlik imkanlarının təmin edilməsi kimi verilmiş, eyni zamanda sonrakı cümlə olaraq, eyni abzas daxilində digər bir təsnifatda isə sosial təminatın istiqamətləri sırasında mənzil probleminin həlli, bu sırada mənzil subsidiyalarının verilməsi, həmçinin cəmiyyətdə sosial təcridolunmanın qarşısının alınması, müxtəlif sosial qruplara dəstək göstərilməsinin də önəmli əhəmiyyət kəsb etdiyi qeyd olunur (Hüseynov, 2016).

Fikrimizcə, bu yanaşma sosial müdafiə sisteminin sahəvi əhatəli təsvirini əks etdirməməkdədir. Bunun mövzunun seçilməsi məqsədi – daha çox Azərbaycanda sosial müdafiənin inkişaf mərhələlərini, xüsusiyyətlərini, əhəmiyyətli qanunvericilik və islahat mərhələlərini vurğulanılmasının hədəfə alındığından irəli gəlməsi ilə bağlı olduğu düşünülə bilər. Bu kimi hallar nəticə etibarilə ölkədə sosial müdafiənin iqtisadi münasibətlər sistemində qarşılıqlı əlaqələr müstəvisində vahid (vəhdətli) yanaşma prinsipilə elmi-nəzəri əsaslarının verilməsi ilə bağlı ayrıca tədqiqatların aparılmadığına işarə etməkdədir.

Azərbaycandilli mənbələr üzrə qoyduğumuz problemə yaxın müxtəlif məsələlərə daha çox sonuncu onillikdən əvvəlki dövrlərdə yazılmış kitab, dərslik və monoqrafiyalarda toxunulması müşahidə edilsə də, problemin yuxarıda qeyd etdiyimiz kimi, fundamental yanaşma ilə elmi məqalə müstəvisində tədqiqinə, xüsusilə vahid ölkə (Azərbaycan) kontekstində kompleks təhlilinə, təkmilləşdirici həll yollarının, təkmilləşdirmə istiqamətlərinin verilməsinə dair məqsədli elmi əsaslandırılmış kompleks tədqiqat işlərinə, demək olar ki, rast gəlinməməkdədir (Nağıyev, Əlirzayev və Quliyev, 2001; Əlirzayev, 2010; Əlirzayev və Yusifova, 2012; Nağıyev və Mürşüdov, 2022; Rəcəbli, 2003).

Beləliklə, özlüyündə olduqca az sayda, əsasən də daha çox ümumilikdə sosial sahənin idarə edilməsinə və tənzimlənilməsinin, ümumilikdə sosial problemlərin müxtəlif aspektləri üzərində qurulmaqla qoyduğumuz problemə yaxın bəzi məsələlərə s.e.d., prof. H.Rəcəbli, i.e.d., prof Ə.Əlirzayev, t.e.d., prof. Ə.Nağıyev və başqaları tərəfindən müəllif olduqları əsərlərdə (həmçinin monoqrafiyalarda) toxunulsa da, bütöv şəkildə sosial müdafiənin təkmilləşdirilməsinin elmi-nəzəri əsaslarının tədqiqi ilə eyni zamanda yerli ölkə xüsusiyyətləri və mövcud vəziyyət nəzərə alınmaqla təkmilləşmə istiqamətləri ilə bağlı yazılmış müəllif işlərinə, demək olar ki, çətin rast gəlinməkdədir

Eyni zamanda qeyd etmək lazımdır ki, sosial müdafiənin ayrı-ayrı istiqamətləri üzrə məsələlərə dair daha çox əvvəlki onilliklərdə yazılar həsr edilsə də, daim dəyişən və müasir tələb və tendensiyaların qiymətləndirilməsilə təkmilləşdirilmə yollarının axtarılması və yeni zəruri idarəetmə elementləri, metodları və mexanizmlərinin işlənilib hazırlanmasını və tətbiqini tələb edən sosial müdafiə sahəsinə dair elmi platformalarda son illərdə daha az tədqiqat işləri həsr edilməkdədir.

**Mövzu Ilə Bağlı Beynəlxalq Səviyyədə Aparılmış Son Tədqiqat Nümunlərinin Əsas Istiqamətləri Və Məsələlərə Azərbaycan Kontekstindən Baxış**

Problemin spesifik və müxtəlif istiqamətli sahə olan sosial müdafiə ilə bağlı olmasından da irəli gəlməklə beynəlxalq müstəvidə də eynilə məhdud sayda (və dillərdə) elmi məqalərə mənbələrə rast gəlinməsi his edilməkdədir. Bu sahə üzrə daha çox fəaliyyəti bilavasitə sosial müdafiə məsələləri ilə bağlı olan Beynəlxalq Əmək Təşkilatı (BƏT/ing. WTO), dünya ölkələrinin əksəriyyətinin milli sosial müdafiə qurumlarını özündə birləşdirən Beynəlxalq Sosial Təminat Assosiasiyası (ISSA), dünya ölkələrində iqtisadiyyatın müxtəlif sahələrinin tədqiqi ilə müxtəlif layihələrin hazırlanılmasında iştirak edən Dünya Bankı (WorldBank), İslam Əməkdaşlıq Təşkilatı (ing. OIC), əsasən Avropa arealını əhatə etməklə dünyanın 50 ətrafında nəhəng iqtisadiyyatına malik ölkələri özündə birləşdirməklə iqtisadiyyatın və sosial sahənin inkişafı ilə bağlı fəaliyyət göstərən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və s. kimi beynəlxalq təşkilatların ayrı-ayrı ölkələrlə bağlı icra edilmiş layihələrinin nəticələri üzrə açıqlanılmış məlumat və hesabatları, beynəlxalq konvensiyalar və s. əsas məlumat mənbəyi rolunu oynamaqdadır (mövzu ilə bağlı kitablar da az dərc edilmişdir).

Bu sahədə daha çox sayda yazılarının rast gəlindiyi və çox sayda istinad edilən Stephen Devereux and Rachel Sabates-Wheeler adlı müəlliflərə görə, sosial müdafiə - son dərəcə yoxsul şəxslərə və ev təsərrüfatlarına sosial yardım, xüsusi qayğıya ehtiyacı olan və ya başqa şəkildə əsas xidmətlərdən məhrum olan qruplara sosial xidmətlər, insanları minimal yaşayış səviyyəsi risklərindən və nəticələrindən qorumaq üçün sosial sığorta, ayrı-seçkilik və ya sui-istifadə kimi sosial risklərdən qorumaq üçün sosial bərabərliyi təmin edən rəsmi və qeyri-rəsmi bütün təşəbbüslərin məcmusudur (Devereux, S. & R. Sabates-Wheeler, 2004).

Fikrimizcə, müəlliflərin sözgedən anlayışın əhatə dairəsinə dair yanaşmaları kifayət qədər lokal məqsədlərlə bağlı ola bilməklə, ölkələr kontekstində yerli idarəetmə əsaslarından və praktikasından irəli gəlməklə fərqli yanaşma və mülahizələrlə konfrontasiya oluna bilər.

Sosial müdafiə siyasətinin öyrənilməsinə multidissiplinar yanaşmanın müsbət və mənfi tərəflərinin araşdırıldığı və inklüziv inkişafa təsiri baxımından əhaliyə pul transfertləri (sosial ödənişlər) və sağlamlığın qorunmasına yönəlmiş sosial siyasətlər arasında qarşılıqlı əlaqəni öyrənmək məqsədi daşıyan və ekonometrik və keyfiyyət təsir qiymətləndirmələrinin milli və yerli səviyyəli siyasi iqtisadi

təhlillərlə birləşdirildiyi, həmçinin zamanla sosial müdafiə proqramının dinamikasının və nəticələrinin islahat siyasətini kontekstində araşdırıldığı digər bir tədqiqat işində (Afrikada Qana və Keniya timsalında) modelləşdirmə nəticələri də nəzərə alınmaqla yoxsulluğun azlamasına gətirib çıxaran təsirlərin daha uzun bir müddətdə ortaya çıxdığı və bunun isə hələ də kifayət etməməkdə olan uzunmüddətli dövrlə bağlı verilənləri tələb etidiyi qənaətinə gəlinməkdədir (Pouw & Bender, 2022).

Fikrimizcə, həmin tədqiqatın ana məzmunu etibarilə, sosial müdafiə islahatlarının təsirlərinin kəmiyyət proqnozlaşdırılması mürəkkəb mahiyyətli məsələ hesab edilməklə, sosial müdafiə qərarlarının verilməsinin olduqca həssaslıqla işlənilməli olduğunu göstərməkdədir.

"Food Policy" jurnalında nəşr edilmiş bir məqalədə sosial müdafiə proqramlarının ev təsərrüfatlarının dayanıqlılığına təsirinə dair birbaşa sübutların az mövcudluğu nəzərə alınmaqla, sosial müdafiə proqramlarının əsas diqqət mərkəzində və hədəf elementlərindən biri kimi, ev təsərrüfatlarının dayanıqlılığının yaxşılaşdırılması (Efiopiya timsalında) Efiopiyanın Məhsuldar Təhlükəsizlik Şəbəkələri Proqramında (PSNP) iştirakla bağlı ev təsərrüfatlarının davamlılıq nəticələrini araşdırmaq üçün davamlılığın ölçülməsi üçün ehtimala əsaslanan bir yanaşma tətbiq edilərək PSNP köçürmələrinin rolunu və ev təsərrüfatlarının davamlılığında iştirak müddəti qiymətləndirilməklə gəlinən nəticələrin əsas xəttini sosial şəbəkələndirmənin gəlir yaradan və ya aktivlərin yaradılması təşəbbüsləri ilə birləşdirilməsinin yoxsul ev təsərrüfatlarının davamlılığının yaradılmasında xüsusilə təsirli ola biləcəyi, qısamüddətli rifah (istehlak), həm də uzunmüddətli nəticələrin qiymətləndirilməsi nəticələrinə əsasən, bu nəticələrin hərəkətvericisi kimi müxtəlif amillər ola biləcəyi ehtimal edilməklə qısamüddətli rifah təsirlərinin yaxşılaşdırılması üçün müdaxilə dizaynlarının optimallaşdırılmasının mütləq ev təsərrüfatlarını yaxşılaşdırmağa imkan vermədiyi, əksinə, ev təsərrüfatlarının davamlılığının effektiv şəkildə artırılmasının bir neçə il ərzində əhəmiyyətli transferlər (sosial ödənişlər) tələb edə biləcəyi, məhdud vaxt ərzində benefisiarlara kiçik məbləğlərdə köçürmələr edən milli sosial müdafiə şəbəkələri proqramlarının çox təsirli olmaya biləcəyi qənaətinə gəlinməkdədir (Kibrom et., 2022).

Fikrimizcə, bu tədqiqat işinin qeyd olunan istiqamətlərdə əsas nəticələri nəzəri mahiyyət etibarilə də qəbuledilən hesab edilməlidir. Bu baxımdan sosial müdafiə proqramlarının tərtibatında təkcə onun çoxşaxəliliyinin və əhali kontingentinə münasibətdə əhatəliliyinin təmin edilməsi problemi ilə yanaşı, benefisiarlara köçürülən transferlərin məbləğinin və real dəyərinin sosial-maddi ehtiyacların qarşılanması səviyyəsində tələblərdə müəyyən edilməsi və ya uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Özünəməşğulluğun təşviq edilməsi istiqamətində bu tədbirlərin genişləndirilməsi və idarəolunmasının təkmilləşdirilməsi ilə bağlı araşdırmaların aparılmasını Azərbaycan timsalında da əhəmiyyətli hesab edirik.

Başqa bir tədqiqatda iqtisadi artım və yoxsulluq arasındakı əlaqəni araşdıran empirik tədqiqatların uzun müddət davam edən ənənəsinin əsasən monetar yoxsulluq üzərində cəmləndiyi, bunun əksinə olaraq, iqtisadi artım və çoxölçülü yoxsulluq arasındakı əlaqə haqqında az məlumatlılığın olması nəzərə alınaraq, nəticə etibarilə, xüsusilə aşağı və orta gəlirli ölkələrdə çoxölçülü yoxsulluğun artıma elastikliyinin qiymətləndirilməsinə baxılır. Bu tədqiqatda iki yeni, fərdi əsaslı çoxölçülü yoxsulluq indeksindən istifadə edilməklə ÜDM-də 10% artımın çoxölçülü yoxsulluğu təqribən 4-5% azaltması barədə mülahizələr verilmiş, "gəlir" yoxsulluğun iqtisadi artıma elastikliyinin çoxölçülü yoxsulluqdan 5-8 dəfə yüksək olduğu müəyyənləşdirilməklə, iqtisadi artımın çoxölçülü yoxsulluğun azaldılması üçün mühüm alət olduğu, lakin onun təsirinin monetar yoxsulluğa nisbətən əhəmiyyətli dərəcədə aşağı

olduğu səbəbindən çoxölçülü yoxsulluğun əhəmiyyətli dərəcədə azaldılması üçün sosial siyasət kimi digər amillərin də gələcək tədqiqatlarda nəzərə alınmalı olması qənaətinə gəlinməkdədir (Balasubramanian, Burchi and Malerba, 2023).

Fikrimizcə, sosial müdafiə probleminin fəlsələsinin başlıca xətlərindən birini - əhalinin həyat səviyyəsinin yoxsulluq həddinə düşməsinin qarşısının alınması və bu həddən uzaqlaşmasının təmin edilməsinə istiqamətlənmə təşkil etməklə, sosial müdafiə proqramlarının həyata keçirilməsi üçün əsas amilllərdən biri kimi, onun maliyyə əsasının möhkəmlənməsi prioritet məsələlərdən olmaqla, ilk növbədə iqtisadi artımın əsas makrogöstəricisi olan ÜDM-in artımı ilə birbaşa əlaqədə sosial müdafiə islahatlarının uğurlu reallaşdırılması üçün əhali gəlirlərinin artımının və məqsədli sosial müdafiə fondlarının genişlənməsinin təmin edilməsi tədqiqat baxımından ölkə nümunələrində tədqiqat mövzusu elementi olaraq nəzərə alınmaq üçün əhəmiyyət kəsb etməkdədir.

Türkdilli mənbələr üzrə prof. Dr. Ayhan tərəfindən yazılmış və Türkiyə Respublikasının dövlət orqanı olan Sosial Müdafiə Qurumu (SGK) tərəfindən ildə iki dəfə dərc edilən "Sosyal Güvenlik Dergisi" adlı elmi jurnalında sosial müdafiənin məqsəd və vəzifələrinin tədqiq edildiyi məqalədə sosial müdafiə sistemlərinin əsas məqsədi olaraq - gəlir azalması və ya xərclərin artımını yaradan sosial risklərə qarşı vətəndaşların qorunması, sosial müdafiə sistemlərinin baş vermiş sənaye inqilabı ilə bağlı olduqca əhəmiyyətli iqtisadi, sosial və siyasi əhəmiyyətli dəyişikliklərin nəticəsi olaraq meydana çıxdığı, sonrakı proseslərdə isə sosial müdafiə sistemlərinin əhatə dairəsinin fərdi və müdafiə olunması hədəf alınan risklər baxımdan inkişaf etdiyi vurğulanmışdır. Burada sosial müdafiənin ümumi olaraq sosial müdafiə xidmətləri, sosial sığorta və sosial yardım vasitəsilə təmin edildiyi, sosial müdafiə aspektindən seçilən müdafiə istiqamətindən asılı olmayaraq universallıq və gəlirlərin yenidən bölüşdürülməsi ilə formalaşan sosial ədalətin təmin olunması müasir sosial müdafiə sistemləri üçün ən əhəmiyyətli elementlər kimi qeyd olunur (Ayhan, 2012).

Düşünürük ki, müəllifin sözügedən məqaləsi əsasən sosial müdafiənin nəzəri problemlərinə həsr edilməklə, fərdi şəkildə mütəxəssis düşüncəsini əks etdirməklə də əhəmiyyət kəsb etməkdədir. Qeyd etməliyik ki, sosial müdafiənin sahəvi təsnifatlaşdırılması ilə bağlı müəllif yanaşması da Azərbaycan kontekstindən maraq kəsb etməkdədir.

Oxşar sosial münasibətlərə, qeyri-formal məşğulluğun mövcudluğu baxımından oxşarlıqlar nəzərə alınaraq Cənubi Avropa ölkələri timsalında sosial rifah dövləti konsepsiyasının əsas xüsusiyyətlərinin, sosialyönümlü xərclərin iqtisadi artıma təsirinin və ya əksinə təsir əlaqəsinin ortaya çıxarılmasının əsas araşdırma mövzusu olaraq seçildiyi həmin jurnalda (Sosyal Güvenlik Dergisi) dərc edilmiş digər bir məqalədə fərdi müəllif yanaşmasının ortaya qoyulması məqsədilə kointeqrasiya təhlili aparılmaqla sosial xərclənmələrin iqtisadi artımla təsir əlaqəsinin olmadığı, bununla belə iqtisadi artımla sosial xərclər arasında səbəb əlaqəsinin olduğu təsbit edilmişdir. Bir qayda olaraq, iqtisadi artımdakı azalmanın sosial xərclərinin artırılması reallığına gətirib çıxardığı, iqtisadi daralma zamanı sosial xərclərin daha təsirli rol oynaması, büdcə kəsirlərinin artımının baş verdiyi, bununla əlaqədar region ölkələrində sosial xərclərin strukturunun demoqrafik dinamika nəzərə alınmaqla iqtisadi artıma töhfə verəcək yöndə nəzərdən keçirilməsinin əhəmiyyəti vurğulanmışdır. Böhranlı dövrdə sosial xərclərin iqtisadiyyatda tələbin canlanmasını daha da artıracağı hesab edildikdə, həmçinin bu istiqamətdə dövlət xərcləmələrinin əhali kapitalını artıracaq şəkildə planlaşdırılmasının, eyni zamanda sağlamlıq istiqamətli xərclərinə qoyulan kapitalın sektoral məşğulluğu artırması və ömür uzunluğunu artırması

aspektindən də çoxprizmalı təsir göstərməklə uzunmüddətli perspektivdə iqtisadi artıma müsbət yöndə təsiri göstərəcəyi və bu baxımdan aparılmış təhlilin ədəbiyyatda orijinal metodla töhfə verəcəyinin də mümkün olacağı, bu yanaşmanın növbəti tədqiqatlarda da əsas götürülməsinin əhəmiyyətli ola biləcəyi hesab edilir (Ersin & Baş, 2019).

Fikrimizcə, ümumi iqtisadi inkişafın nəticəsi olaraq, iqtisadi artımın və onun davamlılığının (dinamikliyinin) təmin olunması dövlətin bu sosial xərclərinin də miqyasının artırılması imkanları ilə əlaqələdir. Bu əlaqə sosial münasibətlər və əsaslardan irəli gələrək əhalinin sosial rifah halının təmin olunmasında uzunmüddətli dövr üçün daha çox real effektə malik olur. Sosialyönümlü xərclərin əsas maliyyə təminatvericisi rolunda sosial müdafiə sistemi çərçivəsində benefisiarlara köçürülən transfertlər çıxış etdiyini nəzərə alaraq bu xərclərin struktur və təyinatı üzrə quruluşunun və bölgüsünün bazar tələbinə münasibətdə iqtisadi artıma hərəkətverici təsiri baxımından tənzimlənilmə obyekti olaraq müəyyən edilməsi əhəmiyyətli seçim hesab edilə bilməsi baxımından tədqiqat əhəmiyyətlidir.

Türkiyədə iqtisadiyyat və hüquq mövzusunda elmi məqlələrin nəşr olunduğu "Çalışma və toplum" adlı jurnalda dərc olunan başqa bir məqalə kifayət qədər strateji məsələləri əhatə etməkdədir. Belə ki, müdafiəsizlik (təminatsızlıq) və qeyri-bərabərliyin əhəmiyyətli dərəcədə artdığı müasir şəraitdə sosial müdafiə sistemlərinin gəlirlərin yenidən bölüşdürülməsi funksiyasına təsir edən dəyişənlərini təhlil etmək məqsədi digər bir məqalədə tədqiqat əsası olaraq götürülmüşdür.

Məqalədə son dörd onillikdə həyata keçirilən minimalist sosial siyasətlərin qlobal səviyyədə müdafiəsizliyin, yoxsulluğun və qeyri-bərabərliyin artmasına səbəb olması, mövcud pandemiyanın mövcud qeyri-bərabərliklərin artmasına, digər tərəfdən müdafiəsizlik və qeyri-bərabərliyi idarəolunmaz hala gətirməsi bu səbələrlə bağlı yaranan böhranın həll edilməsi üçün sosial müdafiə sistemlərinin gəlirlərin yenidən bölüşdürülməsi funksiyasını gücləndirən yeni təhlükəsizlik anlayışını tələb etdiyi qeyd olunmuşdur. Sosial müdafiənin gəlirlərin yenidən bölüşdürülməsi funksiyasını müəyyən edən dəyişənlərlə göstərdiyi nəticələr əsas götürülərək aparılmış araşdırmada sosial müdafiə siyasətlərinin məşğulluq, səhiyyə və təhsil siyasətləri ilə birlikdə vahid bir yanaşma ilə idarə olunmalı olduğu vurğulanmışdır. Bu çərçivədə sosial konsensus əsasında sosial müdafiə sistemlərinin gəlirlərin yenidən bölüşdürülməsi funksiyasının gücləndirilməsi üçün yeni anlayışa təcili ehtiyacın olduğu, son tədqiqatların uzun illərdir ki, irəli sürülən fikirlərin əksinə olaraq, sosial müdafənin iqtisadi artımın qarşısını almadığı və sosial müdafiə sistemlərinin gəlir bölgüsü bərabərliyinin təmin edilməsinin effektivliyindən asılı olaraq iqtisadi artıma təkanverici təsir göstərdiyi ifadə edilmişdir. Bu kontekstdə sosial müdafiənin əlçatanlığı probleminin müxtəlif sosial qrupların problemi olmaqla yanaşı, struktur problemi kimi nəzərdən keçirilməsi, struktura istiqamətlənmiş idarəetmə (müdaxilə) vasitələrinin hazırlanması zərurətinin ortaya çıxdığı, bu məqamda pandemiya kimi qlobal sosial risklərin yaratdığı iqtisadi və sosial təminatsızlıqlar (müdafiəsizlik) qarşısında sosial müdafiə sistemlərilə təmin edilən digər iqtisadi və sosial təminatların, xüsusilə də səhiyyənin əhəmiyyətliliyinin aydın olduğu vurğulanmışdır. Bu kontekstdə belə qlobal böhranları nəzərə alaraq sosial müdafiə sistemlərindən həm xidmətlər, həm də müavinətlər şəklində təqdim olunan məhsulların artırılması və əhatə dairəsinin genişləndirilməsi üçün tənzimləmələrin həyata keçirilməsinin vacibliyi, tarixi təcrübənin bu prosesin həm dəyişən əmək münasibətlərinə, həm də bu strukturda inkişaf edən sosial müdafiə sistemlərinə uyğun olan institusional müdaxilə vasitələri ilə idarə oluna bilməsini göstərdiyi, qlobal əhəmiyyətli

təminatsızlıq (müdafiəsizlik), qeyri-bərabərlik və yoxsulluq böhranının həllində məşğulluq, səhiyyə, təhsil və sosial müdafiə siyasətlərinin vahid yanaşma ilə nəzərdən keçirilməklə sosial müdafiə sistemlərinin gəlirlərin yenidən bölüşdürülməsi funksiyasının gücləndirilməsinin prioritet siyasət olması, dəyişən istehsal və məşğulluq modellərinə uyğun olaraq əmək münasibətlərinin tənzimlənməsinə yönəlmiş siyasətlərə və bu siyasətlərlə uzlaşan sosial gəlirlərin yenidən bölüşdürülməsi funksiyasına təsir edən dəyişənlərin təsir səviyyələri nəzərə alınmaqla bölgü münasibətlərinə dair tənzimləyici siyasətlərə ehtiyac olduğu, bu siyasətin meydana çıxmasının isə əmək münasibətlərinin tənzimlənməsi və sosial müdafiə sistemlərinin böhrandan çıxış və yaxşılaşmadakı əhəmiyyətinin siyasi dərk edilərək yeni sosial konsensus əsasında istər qlobal, istərsə də milli səviyyədə sistemlərin gəlirlərin yenidən bölüşdürülməsi funksiyasını gücləndirəcək şəkildə islahatların təcili həyata keçirilməsindən asılı olduğu vurğulanılır  (Gökbayrak, 2022).

Fikrimizcə, mövzu Azərbaycan kontekstində də tədqiqat baxımından aktuallıq və qoyulan problemlərin əhəmiyyətliliyi baxımından əlaqəlilik xüsusiyyətləri kəsb etməkdədir. Hesab edirik ki, sosial müdafiə sisteminin idarə edilməsi və tənzimlənilməsi ilə bağlı atılan addımlar və qərar qəbulu prosesində sosial müdafiə sistemlərini əhatə edən mövcud qlobal amillər və ya dəyişənlər kompleks nəzərə alınmaqla sosial müdafiə proqramlarının işlənilməsində onun sosial əhəmiyyətinə paralel olaraq, xüsusilə onun gəlirlərin yenidən formalaşdırılmasındakı (bölüşdürülməsindəki) funksiyasına təsirinin gücləndirilməsinin prioritet olaraq müəyyən edilməsi vacib əhəmiyyətlidir.

Həmmüəllifi prof. Dr. M.Karataş olan Türkiyədə əsasən əmək münasibətlərinə, sosial müdafiənin digər məsələlərinə dair fundamental mövzularda məqalələrin dərc edildiyi "HAK-İŞ Uluslararası Emek ve Toplum Dergisi" adlı elmi jurnalda yayımlanmış bir məqalədə Türkiyə Respublikası timsalında sosial müdafiə sistemində ciddi maliyyə problemlərinin mövcud olduğu, həmin maliyyə problemlərinin həllinin sosial müdafiə sisteminin davamlılığının əsas şərti olduğu, gələcək nəsillərin sosial müdafiəsinin davam etdirilməsinin bu gün həmin maliyyə problemlərinin həllindən asılı olduğu qeyd olunmuşdur. Problemin ən uyğun üsullarla həlli üçün problemin bütün xüsusiyyətləri ilə birlikdə araşdırılmasının əhəmiyyətinə toxunulmuşdur. Bu səbəbdən araşdırmada ilk növbədə maliyyə problemlərinə səbəb olan amillərin təhlil edilməsinə və problemin həllinə imkan verəcəyi düşünülən milli səviyyədə yaranmış və maliyyə problemlərinin mürəkkəbləşməsinə səbəb olan müxtəlif problemlərin konkret səbəblərinin müəyyən edilməsi, sistemləşdirilməsi və təsnifatlaşdırılması ilə konkret yollarının verilməsinə çalışılmışdır. Əsas nəticə etibarilə, hər bir problemin spesifik həll yolları ilə təhlil obyektinə daxil edilərək stabil siyasətin aparılmasıyla gələcəkdə sosial müdafiənin davamlılığının təmin edilməsinin əhəmiyyəti vurğulanılır (Önder & Karataş, 2022).

Fikrimizcə, sosial-mənəvi mühit, sosial münasibətlər, sosial dövlət fəlsəfəsinin yaxın olduğu və müxtəlif elementləriylə kifayət qədər Azərbaycanın sosial müdafiə siyasəti və modeli kursuna münasibətdə daha uzunmüddətli idarəetmə təcrübəsinə, geniş sosial əhatə dairəsi və sosial yükə malik olan qabaqcıl ölkə modeli olaraq (həmçinin sosial müdafiə sisteminin Bismark modelinə əsaslanmaqla) Türkiyə Respublikasında bu sahədə yaranan problemlərinin anatomiyası ilə tanışlıq əhəmiyyətli hesab edilir. Türkiyə Respublikası təcrübəsi nəzərə alınaraq yerli (milli) səviyyədə çıxarılan dərslərdən irəli gələrək Azərbaycanın sosial müdafiə sisteminin inkişafı ilə də, xüsusilə onun ən əhəmiyyətli amili və hazırda qabarmaqda olan problemi olan - maliyyə təminatının gücləndirilməsi və uzunmüddətli maliyyə dayanıqlılığının təmin edilməsi istiqamətində həll yollarının işlənilməsində faydalı ola biləcəyi

baxımından məqalədə qaldırılan məsələlər nəzəri və praktiki aspektdən, həmçinin tətbiqi nöqteyi-nəzərdən aktuallıq kəsb etməkdədir və tərəfimizdən əsaslı hesab olunmaqdadır.

Mövzuya yaxın istiqamətdə rusdilli mənbələr içində (Avropa ilə müqayisələr verilməklə Rusiya Federasiyası timsalında) yazılmış bir məqalədə vurğulanmışdır ki, bazar iqtisadiyyatına keçid əhali gəlirlərinin differensiasiyasını formalaşdırmasının sosial müdafiədə yeni idarəetmə mexanizmlərini tələb edir. Əhalinin sosial müdafiəsi mexanizmlərinin tərkib hissəsi olaraq, əhali gəlirlərinin tarazlaşdırılması və orta sinfin möhkəmləndirilməsi zəruri hesab olunmaqla, sosial risklərin azaldılması üçün sosial müdafiənin təşkili və təmin olunmasında ünvanlılıq prinsipinin əsas götürülməsinin, ünvanlı yardımın təyin olunmasında təkcə ailə gəlirlərinin deyil, xərclərinin də kənar amillərlə birlikdə nəzərə alınması əhəmiyyəti vurğulanılır. Bunun üçün isə ailə gəlirlərinin gizlədilməsinin qarşısının alınmasına və beləliklə maliyyə resurlarının daha ehtiyacı olan əhali kontingentinə yönəldilməsinə şərait yaradacaq olan sosial müdafiə orqanlarının vahid məlumat-verilənlər bazasının yaradılmasının köməyilə dövlət vergi orqanları, kredit-maliyyə təşkilatları və digər qurumlarla qarşılıqlı əlaqədə işləməsi vacib hesab edilir. İşlənilən və tətbiq edilən sosial müdadiə islahatları və ya proqramlarının səmərəliliyinin qiymətləndirilməsi metodologiyasının hazırlanması ilə proqramların bu istiqamətdə yoxsulluğu azaldacaq formatda hazırlanılması vacibliyi diqqətə çatdırılır (Alpeeva & Zanina, 2021).

**Digər Xarici Mənbələrdə Aparılmış Son Tədqiqat Işlərinə Əsasən Gəlinən Fikirlərin Bir Sıra Ümumi Istiqamətləri**

Eyni zamanda də müxtəliv areallar üzrə beynəlxalq tədqiqat nəticələrinin əsas istiqamətləri sosial müdafiə ilə bağlı elmi araşdırmaların aparılmasında nəzərə alınması nöqteyi-nəzərdən kifayət qədər maraqlıdır:

- əhalinin pensiya təminatı səviyyəsinin prioritet kimi iki amildən - sosial müdafiə sisteminin inkişafı dərəcəsindən və ölkənin iqtisadi inkişaf səviyyəsindən asılı olduğu, hər iki amilin, eləcə də pensiya təminatı səviyyəsinin ölkədəki tarixi, mədəni, iqtisadi və sosial şərait və ya şərtlərlə müəyyən edildiyi vurğulanılır (Xolmamatovich & Baxodirqizi, 2021);
- qlobal səviyyədə sosial müdafiə sistemlərinə münasibətdə yeni (qeyri-ənənəvi) məşğulluq formalarının (“plaforma işi”) yaranması ilə əlaqədar əmək münasibətlərinin təbiətinin aydınlaşdırılması və qanunvericliliyin uyğunlaşdırılması, sistemdə inzibati prosedurların və maliyyələşmə üsullarının (sığorta haqlarının ödənilməsi üsulu və s.) sadələşdirilməsi və uyğunlaşdırılmasının, yaranan qeyri-müəyyən və mürəkkəb məşğulluq formaları ilə bağlı maliyyələşmə üsullarının işlənilməsinin, ölkədən kənarda əmək fəaliyyət göstərilməsi zamanı qanunvercilik və institutsional olaraq tətbiq ediləcək ölkə şərtlərinin müəyyələşdirilməsi ilə bağlı meyarların müəyyən edilməsi əhəmiyyəti, bu istiqamətdə problemlərin azaldılmasına həmçinin həmkarlar ittifaqlarının töhfə verə biləcəyi vurğulanılılır (Christina Behrendt, Quynh Anh Nguyen & Uma Rani, 2019);
- Sosial müdafiə siyasətinin həyata keçirilməsi nəticələrinin iqtisadi əsaslarla yanaşı, sosial-siyasi və demokratik infrastrukturla və təsisatlarla, modernizasiya prosesləri ilə bağlı olduğu da vurğulanılır (Ernazarov, 2019);
- Müasir şəritdə milli iqtisadiyyatın bütün sahələrinin rəqəmsallaşması şəraitində əhaliyə dövlət xidmətlərinin göstərilməsinin rəqəmsal formata keçirilməsi zərurətinin nəinki aktuallaşdığı, həm də zərurət halını aldığı, insanların rifahının dəstəklənməsi, yoxsulluğun və bərabərsizliyin

azaldılmasında sosial müdafiənin rolununun hətta stabil dövrlərdə də qiymətləndirilməsinin çətin olması ilə yanaşı, xüsusilə onun əhəmiyyətinin yüksək volatillik və böhran dövrlərində artdığı və bunun da COVID-19 pandemiyasının da qlobal şokunun təsdiqlədiyi qeyri-müəyyənlik şəraitində "təhlükəsizlik yastığına" – makroiqtisadi və sosial-siyasi stabilizatora çevrildiyi vurğulanılır (Тимошкина, 2022).

Göründüyü kimi, sosial müdafiə mövzusunda kompleks olaraq və eyni zamanda onun müxtəlif istiqamətləri üzrə tədqiqatların aparılması həmçinin qlobal miqyasda müasir sosial-iqtisadi çağırışlarla həmahənglik təşkil etməkdədir və sosial müdafiəmnin təkmilləşdirilməsi ilə bağlı nəzəri əsasların işlənilməsi, həmçinin yerli (milli) səviyyələrdə sosial müdafiənin yaxşılaşmasına nail olmaq üçün elmi-nəzəri əsasların işlənilib hazırlanması və müasir və mütərəqqi həll mexanizmlərinin irəli sürülməsi aparılan ən son elmi tədqiqatların motivini təşkil edir.

Qeyd edilənləri də nəzərə almaqla, mövzu üzrə təqdimat imkanlarının məhdudluğu nöqteyi-nəzərdən tədqiq etdiyimiz digər işlərlə bağlı əsas nəticələri və istiqamətləri bu mövzu daxilində təqdim edə bilməyimiz mümkün olmamaqla, həmin tədqiqatlara əsasən Azərbaycan Respublikası timsalında sosial müdafiə ilə bağlı digər tədqiqatların dərinləşdirilməsi fikrindəyik.

**Nəticə**

Tədqiqat obyekti olaraq sosial müdafiə və onun təkmilləşdirilməsi istiqaməti üzrə seçilən mövzularla ilə bağlı sosial müdafiə istiqamətlərinin sosial müdafiə və təminat sahəsi üzrə sahələrarası əlaqədə sistemli, sahə üzrə əlaqə və proseslərə səbəb-nəticə xarakterli yanaşma yolu seçilməlidir. Azərbaycanda sosial müdafiə sisteminin tərtibatında sosial müdafiə siyasətlərinin və strategiyalarının işlənilməsi prosesində prioritet olaraq nəzərə alınması vacib hesab edilməli olan istiqamətlərin və məsələlərin əhəmiyyətinə diqqət çəkilməlidir. Sosial müdafiənin təşkilinin və onun prioritetlərinin düzgün müəyyən edilməsinin konkret nümunədə qiymətləndirilməsi məqsədilə prospektiv sosial müdafiə siyasətləri və strategiyaları tərkibində müəyyən edilmiş əsas sosial müdafiə məqsədləri, əldə olunmuş nailiyyətlər və ya nəticələr baxımından sosial müdafiə məqsədlərinin müəyyən olunması prosesinin məqsədyönlülüyünün verilməsi mühüm əhəmiyyətlidir.

Nəticə olaraq, Azərbaycan Respublikası baxımından sosial müdafiə məqsədlərinin prioitetlərinin növbəti perspektivə müəyyən edilməsi ilə aparılan elmi tədqiqatlarda iş konkret həll yollarnın müəyyənləşdirilməsinə fokuslanmalıdır. Seçimlərin aparılması müəllifin bu sahədəki peşəkar nəzəri təcrübə və praktikasından irəli gəlməklə mühüm hesab olunmaqdadır. Bu sahədə aparılacaq tədqiqatlar sosial müdafiə sahəsinin idarə edilməsi ilə bağlı ölkə modeli olaraq, Azərbaycan Respublikasında sosial müdafiə ilə bağlı institutsonal qərarların verilməsi, seçimlərin aparılması ilə bağlı meyarların müəyyənləşdirilməsi, perspektiv inkişafla bağlı strateji konturların aydınlaşdırılması, sosial müdafiə sisteminin fəaliyyəti prosesində formalaşan problemlərin və çağırışların nəzarətə götürülməsi ilə onların aradan qaldırılması üçün optimal əks mexanizmlərin seçilərək işə salınması üçün elmi-nəzəri bələdçi mahiyyətində istifadə edilməsi baxımından mümkün hesab edilməkdədir. Tədqiqatların nəticələri ilk növbədə sosial müdafiə və təminat sahəsinin idarəedilməsinə məsul instansiyalarda, o cümlədən bu sahə ilə bağlı idarəetmə qərarları və seçimlərinin müəyyənləşdirilməsində, həmçinin Azərbaycanda sosial müdafənin növbəti inkişafı ilə bağlı proqlam, inkişaf strategiyaları və planlarının, konsepsiyalarının işlənilməsi ilə bağlı strateji istiqamətlərin və konturların müəyyən edilməsində qərar qəbulunda istifadə edilməsi baxımından faydalı olmalıdır.

**Ədəbiyyatlar**


Ə.T.Nağıyev, Ə.Q.Əlirzayev, A.S.Quliyev. Pensiya təminatının inkişaf perspektivləri. Bakı: "Bakı Dövlət Universiteti" nəşriyyatı, 2001.

Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsaiti). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010.-326 səh.

Əlirzayev Ə.Q., Yusifova X.H. Sosial sahələrin iqtisadiyyatı və idarə edilməsi ixtisası üzrə metodik vəsait. Bakı: "İqtisad Universiteti Nəşriyyatı, 2012.-səh.

Ə.T.Nağıyev, R.İ.Mürşüdov. Sosial müdafiənin təkmilləşdirilməsinin əsas istiqamətləri, Bakı, "Səda" nəşriyyatı, 2002.

Hadi Rəcəbli, "Azərbaycan Respublikasının sosial siyasətinin transformasiyası və korporativ təhlili". Bakı, "Gənclik"- 2003, səh. 372.

R.A.Hüseynov. Azərbaycan Respublikasının sosial təminat sistemi: davamlı inkişaf kontekstində // Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Elmi Xəbərləri, Cild 4, Aprel – İyun, 2016, s. 44-63. (https://unec.edu.az/application/uploads/2015/03/ADIU-EX-2016-2.pdf#page=36)

Devereux, S. & R. Sabates-Wheeler (2004).Transformative social protection. Working paper series, 232. Brighton: INSTITUTE OF DEVELOPMENT STUDIES Brighton, Sussex BN1 9RE ENGLAND, səh.9. (https://opendocs.ids.ac.uk/opendocs/handle/20.500.12413/4071) **(GOOGLE SCHOLAR)**

Pouw, N., Bender, K. The Poverty Reduction Effect of Social Protection: The Pros and Cons of a Multidisciplinary Approach. Eur J Dev Res 34, 2204–2223 (2022). (https://doi.org/10.1057/s41287-022-00505-5) **(SPRINGER)**

Kibrom A. Abay, Mehari H. Abay, Guush Berhane, Jordan Chamberlin, Social protection and resilience: The case of the productive safety net program in Ethiopia, Food Policy, Volume 112, 2022,102367, ISSN 0306-9192, (https://doi.org/10.1016/j.foodpol.2022.102367) **(SCOPUS)**

P. Balasubramanian, F. Burchi, D. Malerba, Does economic growth reduce multidimensional poverty? Evidence from low- and middle-income countries, World Development, Volume 161, 2023,106119, ISSN 0305-750X (https://doi.org/10.1016/j.worlddev.2022.106119) **(SCOPUS)**

Ayhan, A. (2012). Sosyal güvenlik kavramı ve sosyal güvenlik ilkeleri. SGD-Sosyal Güvenlik Dergisi, 2(1). https://dergipark.org.tr/tr/doi/10.32331/sgd.492876) **(GOOGLE SCHOLAR /DERGİPARK);**

Ersin, İ. & Baş, H. (2019). Güney Avrupa Refah Ülkelerinde Sosyal Harcamalar ve Ekonomik Büyüme Arasındaki İlişkinin İncelenmesi. SGD-Sosyal Güvenlik Dergisi, 9(1), 193-213.

DOI: 10.32331/sgd.582752) https://doi.org/10.32331/sgd.582752 **(GOOGLE SCHOLAR /DERGİPARK)**

Gökbayrak, Ş. (2022). Zor Zamanlarda Sosyal Güvenliği Yeniden Düşünmek Sosyal Güvenlik ve Gelirin Yeniden Dağılımı . Çalışma ve Toplum , 1 (72) , 107-142. DOI: 10.54752/ct.1060783) (https://doi.org/10.54752/ct.1060783) **(GOOGLE SCHOLAR/DERGİPARK)**

Önder Yaşar, N. & Karataş, M. (2022). TÜRK SOSYAL GÜVENLİK SİSTEMİNİN FİNANSAL SORUNLARI VE ÇÖZÜM ÖNERİLERİ . Hak İş Uluslararası Emek ve Toplum Dergisi, 11 (30), 128-

152 . DOI: 10.31199/hakisderg.1084579 https://doi.org/10.31199/hakisderg.1084579 **(GOOGLE SCHOLAR /DERGİPARK)**

Alpeeva E.A., Zanina O.V. Economic management of the developmentsocial protection of the population. Russian Journal of Industrial Economics. 2021;14(3):339-348. (In Russ.) https://doi.org/10.17073/2072-1633-2021-3-339-348 **(РИНЦ)**

Тимошкина, Е. В. Социальная защита населения как важнейший фактор социально-экономического развития в условиях цифровизации / Е. В. Тимошкина // Вестник Алтайской академии экономики и права. – 2022. – № 9-1. – С. 143-152. – DOI 10.17513/vaael.2405. – EDN RQCGPZ. https://www.elibrary.ru/item.asp?id=49406506 DOI: 10.17513/vaael.2405 **(РИНЦ)**

Машанова, С. А. Оценка социальной эффективности системы финансирования социальной защиты / С. А. Машанова // Вестник Алтайской академии экономики и права. – 2021. – № 10-3. – С. 272-276. – DOI 10.17513/vaael.1918. – EDN KEJFUA. (DOI:10.17513/vaael.1918 https://www.elibrary.ru/item.asp?id=47290914) **(РИНЦ)**

БОБКОВ В.Н., ЧЕРНЫХ Е. А. ПЛАТФОРМЕННАЯ ЗАНЯТОСТЬ: МАСШТАБЫ И ПРИЗНАКИ НЕУСТОЙЧИВОСТИ, ИСЭПН ФНИСЦ РАН, Москва, Россия, Российский экономический университет им. Г. В. Плеханова, ЖУРНАЛ: МИР НОВОЙ ЭКОНОМИКИ, Том: 14, Номер: 2 Год: 2020 Страницы:6-15 DOI:10.26794/2220-6469-2020-14-2-6-15 https://elibrary.ru/item.asp?id=43118792 **(РИНЦ)**

Кожевников М.В. Социальная защита населения: ее сущность и структура, МБОУ ДО «Станция юных техников Устиновского района», Журнал: Социальные Науки, Учредители: Общество с ограниченной ответственностью Академия управления eISSN: 2408-9575, Номер: 1 (24) Год: 2019 Страницы: 76-81. https://www.elibrary.ru/item.asp?id=37339015 **(РИНЦ)**

Ernazarov, D. (2019). ED A brief analysis of the development of social protection in Uzbekistan. Архив научных исследований Oxford Review of Education and Science, No.1. (11), January-June, 2016, VOLUME V tsue.scienceweb.uz

Christina Behrendt, Quynh Anh Nguyen, Uma Rani, Social protection systems and the future of work: Ensuring social security for digital platform workers, International Social Security Review, Volume72, Issue3, Special Issue: Social security and the digital economy, JULY/SEPTEMBER 2019, Pages 17-41 https://doi.org/10.1111/issr.12212 **(GOOGLE SCHOLAR)**

Jorgensen, Steen Lau; Siegel, Paul B.. 2019. Social Protection in an Era of Increasing Uncertainty and Disruption: Social Risk Management 2.0. Social Protection and Jobs Discussion Paper; No. 1930. World Bank, Washington, DC. © World Bank. https://openknowledge.worldbank.org/handle/10986/31812 License: CC BY 3.0 IGO.” http://hdl.handle.net/10986/31812 **(GOOGLE SCHOLAR)**.

Christina Behrendt and Quynh Anh Nguyen. Innovative approaches for ensuring universal social protection for the future of work, ILO future of work research paper series https://www.ilo.org/global/topics/future-of-work/publications/research-papers/WCMS_629864/lang--en/index.htm **(GOOGLE SCHOLAR)**

Brunori, P., & O'Reilly, M. (2010). Social protection for development: A review of definitions (https://mpra.ub.uni-muenchen.de/29495/) **(GOOGLE SCHOLAR)**

Merrien, F. X. (2013). Social protection as development policy: A new international agenda for action. International Development Policy| Revue internationale de politique de développement, (4.2), 89-106. https://doi.org/10.4000/poldev.1525 https://journals.openedition.org/poldev/1525 **(GOOGLE SCHOLAR)**

Xolmamatovich, Z. E., & Baxodirqizi, Z. S. (2021). The Socio-Economic Essence of the Pension Provision System and its Role in the System of Social Protection of the Population. Central Asian Journal of Literature, Philosophy and Culture, 2(7), 74-76. https://doi.org/10.47494/cajlpc.v2i7.186 **(GOOGLE SCHOLAR)**

# Accounting for Fixed Assets in Accordance with IFRS

**Amil Shirinov**

**Azerbaijan State Economic University**

**Amilsirinov2016@gmail.com**

## Summary

Ensuring the development of accounting operations in Azerbaijan and establishing more work can be justified by several external and internal mechanisms. The integration of Azerbaijan into the deepening economic environment that has taken place in the world and the strengthening of the organization's relations with international companies are some of the external influences that will ensure the adaptation of accounting, financial reporting, as well as the external features of the appendices to international standards. Further, the information provided by the analysis, audit, and report is used as a unity and relationship in a single economic sphere, on a global scale. Management methodology for harmonization of the theoretical, methodological, and methodical basis of accounting, reports, as well as accounting, analysis, and reports related to long-term assets at the world level so that the mentioned data can be understood in the same form by everyone. In connection with the clarification of the articles of the Law of the Republic of Azerbaijan "On Accounting", as well as the specific conditions and requirements specified in them, the preparation of the "National Accounting Standards of Commercial Organizations" was ensured. Following that law, it plans to develop some standards directly related to long-term assets.

**Keywords:** Fixed Assets, Financial Statements, Financial Reporting, long-term assets

## Introduction

Tədqiqatın məqsədi: Tədqiqatın əsas məqsədini süni liflərdən toxunmuş ipəklərin istehlak xassələri və keyfiyyət ekspertizasının analizi, süni liflərdən toxunmuş ipəklərin keyfiyyətinin yaxşılaşdırılması təşkil edir. Bu məqsədə nail olmaq üçün süni liflərdən toxunmuş ipək parçaların əsas göstəricilərinin daha ətraflı şəkildə araşdırılması tələb olunur. Süni liflərdən toxunmuş ipək parçaların daha effektiv və daha yüksək keyfiyyətli məhsulun istehsalı ilə əlaqədar insan orqanizminin sağlamlığına mənfi təsir etməyən bir süni liflərdən toxunmuş ipək materialın əldə edilməsi qarşıda məqsəd kimi nəzərdə tutulur. Göstərilən amillərin hamısı məhsulun keyfiyyətinin ekspertizasının dərin və hərtərəfli öyrənilməsinə yönəlmişdir.

Tədqiqatın vəzifəsi: Bu tədqiqatın vəzifəsi texnologiya və məhsulun keyfiyyət inkişafını, təkmilləşməsini təmin etməkdir. Süni liflərdən toxunmuş ipəklər dünya bazarında ən çox istifadə edilən tekstil materiallarından biridir. Buna görə də süni liflərdən toxunmuş ipəklərin keyfiyyəti tekstil sənayesinin gələcəyi üçün mühüm bir rol oynayır. Süni liflərdən toxunmuş ipəyin keyfiyyətinin yoxlanılması prosedurunu araşdırmaq, keyfiyyət göstəricilərini müəyyən edən normativləri öyrənmək və onların sınaqdan keçirilməsi üsullarını müəyyən etmək məhsulun keyfiyyətinin ekspertizasının dərin, hərtərəfli öyrənilməsinə yönəlmişdir. Tədqiqatın nəticələri daha yüksək keyfiyyətli süni liflərdən toxunmuş ipək məhsulların istehsalı, daha effektiv sürətli istehsal prosesləri sahələrində görünür. Tədqiqatın vəzifəsi daha yaxşı və dəqiq araşdırma metodologiyalarının və laboratoriya şərtlərinin istifadəsi ilə keyfiyyəti yüksəltməkdir.

Tədqiqatın metodologiyası: Süni liflərdən toxunmuş ipəyin əsas göstəriciləri daha ətraflı şəkildə araşdırılarkən müxtəlif texniki cihazlarla ölçülərək nəticələrin müqayisəsi, analizi aparılır. Bu cihazlar içərisində mikroskoplar, spektrometrlər və s. kimi texniki cihazlar vardır. Onlar süni liflərdən toxunmuş ipək parçalarının keyfiyyətini müəyyən etmək üçün ən mühüm göstəriciləri təyin etməyə kömək edir. Bu metodologiya ilə tədqiqatın nəticələri daha yüksək keyfiyyətli məhsulların istehsalına və ya daha sağlam, mənfi təsirlərə yol açmayan yeni süni liflərdən toxunmuş ipək materiallarının istehsalı kimi sahələrə tətbiq edilə bilər.

Tədqiqatın məhdudiyyətləri: laboratoriya şəraitində ölçmə üsullarının aparılması tədqiqatın həyata keçirilməsinə məhdudiyyət yaradır. Tədqiqatın məqsədini müəyyən edən göstəricilər də qarşıya limit qoyur. Bu göstəricilər arasında müəyyən süni liflərdən toxunmuş ipək liflərin növləri, çəkisi kimi ölçülər var.Başqa məhdudiyyətlər sırasında texniki cihazların xüsusiyyətləri, tədqiqatın həyata keçirilməsi üçün tələb olunan vaxt və maddi sərvətlər də yer alır. Həmçinin,Bu məhdudiyyətlər tədqiqatın nəticələrinin ayrı-ayrı süni liflərdən toxunmuş ipəklərə aid olması və digər materiallarla müqayisələrə səbəb ola bilər. Ən yaxşı, mükəmməl və yüksək nəticələrə nail olmaq üçün daha geniş tədqiqatlar tələb olunur. Bu məhdudiyyətlər tədqiqatda təcrübələrin olmasına da səbəb olur və həmçinin tədqiqatın nəticələrinin həmişə ən mükəmməl və təkmilləşdirilmiş, yüksək olmasına mane olur.

İstinad olunan mənbələr: "Süni liflərdən toxunmuş ipəklərin istehlak xassələri" mövzusundakı tədqiqatda qarşıya qoyulan bütün vəzifələr elmi mənbələrdən istifadə etməklə sistemli şəkildə təhlil edilmişdir. Tədqiqatın əsas istinad olunan mənbələrini mövcud olan elmi araşdırmalar, tədqiqatlar, kitablar, texniki standartlar, məlumat bazaları, laboratoriya testləri eyni zamanda alimlərin tədqiq olunan mövzu üzrə müxtəlif araşdırma materialları təşkil edir. Laboratoriya testləri süni liflərdən toxunmuş ipəklərin növləri, xassələri və s. kimi göstəricilərini təyin etmək üçün ən yaxşı mənbələrdəndir. Bu testlər, çox sayda cihazlarla həyata keçirilir və əldə olunan nəticələr analiz edilir. Tədqiqatçıların tədqiqatlarına daxil olan ən son məlumatları təmin edən məlumat bazaları digər əsas mənbələrdəndir. Bütün bu mənbələrdən tədqiqatda ən mükəmməl və yüksək nəticələrə nail olmaq

üçün əsasən istifadə olunur. Süni liflərdən toxunmuş ipəklərin istehlak xassələrini öyrənmək, göstəricilərini və keyfiyyətini yaxşılaşdırmaq üçün aparılan araşdırmada müxtəlif texnoloji proseslər və eyni zamanda alimlərin tədqiq olunan mövzu üzrə müxtəlif tədqiqat materialları dəstək edir.

**Süni Liflərdən Toxunmuş İpəyin Liflərinin Xarakteristikası**

İstehsalda istifadə olunan materialların keyfiyyətinin yüksəldilməsi, ucuz başa gəlməsi böyük əhəmiyyət kəsb edir. Xammal növlərindən biri də süni liflərdir ki, onlardan xassələri və xüsusiyyətlərinə görə təbii ipəyə bənzəyən ipəklər toxunur. İnsanların tələbatının bir hissəsini süni liflərdən hazırlanmış ipək materiallar ödəyir. Süni liflər təbii şəraitdə mövcud deyil, insanın fəal iştirakı ilə təbii materiallardan və əvvəlcədən sintez olunmuş maddələrdən müxtəlif üsullardan istifadə etməklə əldə edilir. Süni liflərdən toxunmuş ipəklərin özünəməxsus üstünlükləri vardır. Onların istehsalında kimyəvi təsirə davamlı, bioloji təsirə, yəni mikroorqanizmlərə qarşı dayanıqlı olma cəhətlərinə diqqət yetirilir.

Müasir dövrdə süni liflərdən toxunmuş ipək parçaların həcmi artırılıb. Süni ipəklərin toxunuşunda istifadə olunan ənənəvi süni liflərin xüsusiyyətləri tədricən yaxşılaşdırılmış və yeniləri yaradılmışdır. Ənənəvi liflərin təkmilləşdirilməsi və yeni liflərin yaradılması onların həm məişət, həm də texniki məqsədlər üçün tətbiq dairəsini əhəmiyyətli dərəcədə genişləndirir.

Parçanın keyfiyyət səviyyəsinin əsas göstəricisi olaraq onun təyinatına uyğunluğu nəzərdə tutulur. Geyim insan dərisini atmosfer təsirindən mühafizə etməklə yanaşı, həm də onun orqanizminə ziyanlı təsir etməməlidir, orqanizmə üçün komfortlu olmalıdır. Orqanizm üçün komfort şərait yaratmaqdan ötrü parçalar gərək geyimin alt klimatını tənzimləyə bilsin. Paltarla bədən arasında əmələ gələn qaz, nəmlik, istilik, elektrik və s. insan bədənindən uzaqlaşdırılmalıdır. İnsan bədənində sutka ərzində 5l karbon qazı çıxır, 2 l isə oksigen qazı qəbul olunur. Parçanın təyinatına uyğun olaraq keyfiyyətini qiymətləndirmək üçün müəyyən göstəricilər vardır. Aşağıdakı göstəricilər nəzərə alınmalıdır: əməliyyat, gigiyenik xüsusiyyətlər, estetik, texnoloji, həmçinin toxumaların lifli tərkibi və struktur göstəriciləri və s. (Калмыкова & Лобацкая, 2002).

Süni liflərdən toxunmuş ipəklər işlənmə sahəsindən asılı olaraq məişət təyinatlı və texniki təyinatlı olurlar. İnsanın texniki təyinatlı paltarlardan istifadə etməsi onun əmək, peşə və məişət şəraiti ilə qırılmaz surətdə əlaqədardır.Süni liflər alınma mənbələrinə görə üç qrupa bölünür:

1. Təbii bitkidən alınan liflər – viskoz, mis ammonyak, asetat lifləri
2. Süd zülali “Kazein” –dən alınan liflər
3. Mineral materiallardan (qumdan) alınan liflər (Hüseynova, 2019).

Gündəlik həyatda xassələri və xüsusiyyətlərinə görə təbii ipəyə bənzər süni liflər "süni ipək" adlandırılır. Süni ipək parçanın istehsalı üçün xammal təbii sellülozdur. Süni ipək parçanın müxtəlif növləri vardır ki, onların da hər birinin özünəməxsus cəhətləri vardır. Süni liflərdən toxunmuş ipəklərin gigiyenik xassəsinə lifin xammalının, yəni iplik və sapın tərkibinin, növünün, forması ilə sıx bağlıdır. Viskoz lifləri şam, küknar ağacı yonqarından heç bir qatışıq əlavə etmədən kimyəvi maddələr vasitəsilə alınır. Bu liflərin parıltısını, qalınlığını, burulmasını dəyişərək viskoz parçasına ipək, pambıq və ya yun görüntüsü vermək olar. Toxuculuq sənayesində istifadə olunan viskoz parçalar möhkəmliyinə görə təbii ipəkdən geri qalmır və süni ipəyin yaranması üçün istifadə olunan xammal materialı mexaniki cəhəti, sərtliyi ilə fərqləndiyinə görə onlardan emal edilən parça formasına, istismar dövründə davamlılığına görə təbii liflərdən seçilirlər. Təbii ipək parıltısı ilə ov-sunlayır, lakin çox bahalıdır və xüsusi qayğıya ehtiyacı var. Süni liflərdən toxunmuş ipək qüsursuz hamar səthə malik olan elastik, yumşaq, yüngül və parıltılı parçadır. Xassələrinə, görüntüsünə görə

o, təbii yüksək keyfiyyətli parçaya oxşayır. Süni ipək qüsursuz hamar səthə malik olan, həm elastik, həm yumşaq, yüngül parıltılı parçadır. Süni liflərdən toxunmuş hava keçirtmə qabiliyyətinə malik olur. Parçanın möhkəmliyini, davamlılığını onun tərkibini təşkil edən sintetik liflər təmin edir. Təbii ipək parça ilə müqayisədə süni ipəyin qiyməti aşağıdır. Süni ipək, təbii ipəkdən təxminən on beş dəfə və yundan isə on dəfə ucuzdur. Süni ipək parça qırışmır və xüsusi qulluq tələb etmir ki, bu da onun müsbət keyfiyyətlərindəndir. Süni ipək istehsal etmək üçün xammal təbii sellülozdur. Bütün dövrlərdə təbii ipək keyfiyyətlərinə görə yüksək qiymətləndirilib. Malın keyfiyyəti onun təyinatına uyğun olaraq müəyyən tələbatı ödəmək üçün yararlığını təyin edən xassələrin məcmusudur (Самсонова, 2018).

Təbii ipək parça ilə müqayisədə viskoz ipəyin bəzi çatışmazlıqları vardır. Ənənəvi liflərin təkmilləşdirilməsi və yeni kimyəvi liflərin yaradılması onların həm məişət, həm də texniki məqsədlər üçün tətbiq dairəsini əhəmiyyətli dərəcədə genişləndirir.

Süni ipək liflərdən toxunmuş parçanın təyinatına uyğun olaraq keyfiyyətini qiymətləndirmək üçün müəyyən göstəricilər seçilir. İstehsal olunan süni ipək parçalar öz keyfiyyətinə görə təsdiq edilmiş standartlara uyğunluq göstəricilərinə cavab verməlidir. Parçanın keyfiyyət səviyyəsinin əsas göstəricisi olaraq onun təyinatına uyğunluğu nəzərdə tutulur. Parçanın təyinatına uyğun olaraq keyfiyyətini qiymətləndirmək üçün müəyyən göstəricilər vardır. Aşağıdakı göstəricilər nəzərə alınmalıdır: əməliyyat, gigiyenik xüsusiyyətlər, estetik, texnoloji, həmçinin toxumaların lifli tərkibi və struktur göstəriciləri. Süni ipək liflərdən toxunmuş parçalarda qiymətləndirmə xüsusi əhəmiyyət kəsb edir. İstehsalatda bu parçaların keyfiyyət göstəricilərinə, normativ-texniki tələblərə uyğunluğuna nəzarət edilir. Hava keçiriciliyi xüsusi cihazlarda müəyyən edilir (Грановский & Миверниерадзе, 1988).

**Süni Liflərdən Toxunmuş İpək parçalar**

Süni liflərdən toxunmuş ipəklər işlənmə sahəsindən asılı olaraq məişət təyinatlı və texniki təyinatlı olurlar. İnsanın texniki təyinatlı paltarlardan istifadə etməsi onun əmək, peşə və məişət şəraiti ilə qırılmaz surətdə əlaqədardır. İpək parçalarının estetik xüsusiyyətləri faktura ilə müəyyən edilir ki, bura rəng, parlaqlıq, şəffaflıq, yumşaqlıq, sərtlik, elastiklik və plastik uzanma kimi xüsusiyyətlər aiddir. Əlavə olaraq, lifli tərkibindən asılı olaraq keyfiyyət göstəricilərinə qopma müqaviməti, xovların bərkidilmə gücü, aşınma müqaviməti, hiqroskopikliyi, buxar və hava keçirməyi, elektrikləşməyi, örtüyə, sərtliyə, qırışlara qarşı müqaviməti daxildir. İpək parçaların hər birinin preyskurantı vardır və hər preyskurantda bütün parça çeşidləri lif tərkibinə, quruluşuna, təyinatına görə qrup, yarımqruplara bölünür. İpək parça preyskurantlarında xammal cinsləri üzrə də bölünür. Sənayedə və ticarətdə təyinatları eyni olan, bir sənaye sahəsində müxtəlif materiallardan, müxtəlif quruluşlu hazır məmulatların cəmi çeşid adlanır. İpək parçalarda qrup bölgüsü parçanın lif tərkibinə əsaslanır və ipək parça preyskurantına xalis ipək parçalardan başqa viskoz, asetar, mis-ammonyak, ştapel lifləri və kompleks sapları olan, habelə sintetik saplar qarışığı olan parçalar daxildir. Viskoz lifdən pambıq və kimyəvi liflərlə qarışdırmaq üçün istifadə olunur. O parçalara ipəklik, ölçülü sabitlik verir, büzülməni və qırışmanı azaldır (Самсонова, 2018).

Parçalar hazırlandığı lifin tərkibinə görə iki növə ayrılır: bircinsli liflərdən hazırlanan və qarışıq liflərdən hazırlanan parçalar. Bircinsli liflərdən hazırlanan parçalara ipək,viskoz ipəyi, pambıq, kətan, yun, kapron və s liflərdən hazırlanan və başqa liflərin qarışığı olmayan parçalar daxildir. Qarışıq liflərdən hazırlanan parçalara müxtəlif lif tərkibində olan və qarışıq liflərdən hazırlanan parçalar daxildir. Viskoz lifi ilə yun lifinin qarışığından toxunmuş parça görünüşünə görə həm yaraşıqlı, həm də yumşaq olur. Viskoz lifi ilə yun lifinin qarışığından toxunmuş parça ilə pambıq yun liflərinin

qarışığından toxunan parçanı müqayisə etsək görərik ki, qarışıq faizindən asılı olaraq, yun parçanın yaraşığı aşağı düşür, parçanın rəngi bozarır, tez əzilir, sürtünməyə davamlılığı zəifləşir, geyim müddəti azalır. Qarışıq liflərdən hazırlanan parçalar quruluşlarına görə fərqli olur. Viskozadan hazırlanmış süni ipək parça demək olar ki, bir əsr yarımdır ki, elastik, parlaq, yüngül material praktik, zərif növ paltar və məişət əşyaları tikmək üçün istifadə olunur. Bəzən rayon viskoz ipək adı altında sintetik parçalar təklif olunur. Saxtanı necə müəyyən etmək olar? Materialı şüşə çubuğuna sürtdükdə rayon viskoza ipək elektrikləşdirilməyəcək, sintetik ipək asanlıqla elektrikləşdiriləcək. Parçanın qoxusu fərqlənir. Rayon viskoz materiallarda qoxu yalnız təbii ola bilər, sintetik bir az xoşagəlməz qoxuya bilər. Süni ipək liflərdən toxunmuş parçalarda qiymətləndirmə xüsusi əhəmiyyət kəsb edir. Geyimin hazırlanmasında parçanın fiziki və mexaniki xassələri nəzərə alınmalıdır (Кокеткин, 1988).

**Süni liflərdən toxunmuş ipəyin təbii ipəkdən fərqli xüsusiyyətlərinin müəyyənləşdirilməsi**

Süni liflərdən toxunmuş parçalar təbii ipək liflərdən toxunmuş parçalardan bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Təbii liflər təbiətdə insanın birbaşa iştirakı olmadan əmələ gəlir. İpək heyvan mənşəli (zülal) lifdən ibarətdir. Əsrlər boyu ipək istehsalı mütləq olaraq təbii xammal əsasında əldə edilmişdir. Keçmişdə insanların paltara olan ehtiyacları ancaq təbii liflər vasitəsilə ödənilirdi. Təbii ipəyin istehsalı çox zəhmət, əziyyət tələb edən prosesdir. Xassələrinə və görünüşünə görə o, təbii ipəkqurdu baramalarından min illər boyu istehsal olunan yüksək keyfiyyətli parçaya oxşayır.

Təbii ipək bütün liflər arasında ən bahalı, incə, faydalı, yumşaqdır. "İpək kimi incə" ifadəsi təbii ipəyin çox incə olması ilə əlaqədardır. Bəziləri süni və təbii ipəyin ayırd etməyin çox çətin olduğunu iddia edirlər, amma bu belə deyil. Təbii ipəyi mütəxəssislər və həmişə ondan istifadə edənlər süni ipəkdən fərqləndirə bilər, belə ki, təbii ipək toxuması belə incədir ki, unutmaq mümkün deyil. Süni və təbii ipəyi fərqi müəyyən edərkən təbii ipəyin tez bir zamanda istiləşməsidir. Süni ipəkdə təbii ipəkdə olan parıltı yoxdur, hər ikisi işığın qarşısında tutularsa təbii ipək daha çox parlayacaq, və bir xamelyon kimi çalarlarla görünəcək, süni parça zəif parıldayır. Günəş şüalarında təbii ipək parça işığın düşmə bucağından asılı olaraq müxtəlif çalarlarla oynayacaq. Təbii ipək illər ərzində solmayan unikal xoş parıltıya malik olur. Təbii ipəyin işığın təsirinə müqaviməti aşağıdır və birbaşa günəş işığına məruz qalarsa, ipəyin keyfiyyətini itirməsi digər təbii liflərdən daha sürətli baş verir.Təbii ipək əldə etmək yüksək əmək xərcləri ilə başa gəlir ki, bu da onun bahalı tekstil materiallarından olmasına səbəb olur.

Təbii ipək bütün liflər arasında ən incə, faydalı, yumşaq, qiymətlidir, illər ərzində solmayan unikal parıltıya malikdir, uzanmır, büzülmür. Təbii ipək yaxşı hiqroskopik xassəyə malikdir. Belə ki, o, nəmliyi tez özünə çəkir və tez buraxaraq quruyur. Lakin nəmləndikdə ipək qismən möhkəmliyini itirir. Təbii ipək çəkisinin yarısına bərabər miqdarda nəmi özünə çəkə bilir, tez də quruyur. Elementar ipin qalınlığı 10-12 mikrona bərabər, mürəkkəb ipin qalınlığı isə 32 mikrona bərabərdir. İpək çox yüngül materialdır . 1 kq hamar ipək parçaya 300-dən 900 kilometrə qədər sap lazım olur. Yaş ipəyin qırılma gərginliyi 10 faiz azalır, qırılma zamanı isə uzanma 10 faiz artır. Təbii ipək qələvilərin təsirinə çox davamlı deyil, turşulara isə daha davamlıdır, ümumi üzvi həlledicilərdə həll olunmur. İpəyin işığın təsirinə müqaviməti aşağıdır, belə ki, birbaşa işığın təsirində ipəyin keyfiyyətini itirməsi digər təbii liflərdən daha tez baş verir. Təbii ipək sapda 11% nəmlik olur, havada nəmlik 100% olanda o, özünə 30% nəmlik çəkir. Təbii ipək isidilməyə yun kimi həssasdır belə ki, temperatur yüksəldikcə, artdıqca codlaşır və kövrəkləşir. 150°C temperaturda, istilikdə ipəyin rəngi dəyişərək bozarır. 180-190°C-də ipək yanır. Süni ipək parçanın xassələri (fiziki-mexaniki xassəni, gigiyenik xassəni, texnoloji xassəni, həndəsi xassə) tikiş məmulatı istehsalının bütün mərhələsində mühüm əhəmiyyət kəsb edir. Süni ipək parçanın fiziki-mexaniki xassəsi dedikdə, parçanın möhkəmliyi, uzanma qabiliyyəti,

sürtünməyə davamlı olması, tikili paltarda şax durması, və s. nəzərdə tutulur. Gigiyenik xassəsi isə parçanın hava keçirməsini, isti keçirməsini, toz götürməsini kimi əlamətlərini göstərir. Süni ipək parçanın texnoloji xassəsi parçanın tikiş prosesində sürüşkənliyini, iynə ilə zədələnməsini və s. nəzərdə tutulur. Süni ipək parçanın həndəsi xassəsi parçanın enini, uzunluğunu, ağırlığını göstərir.

Ümumiyyətlə, süni ipək məhsulunun xassələri materialı digərindən fərqləndirib seçməyə imkan verir və xassə göstəricisinə əsasən parçanın istehlaka yararlı olması, istehlakçı tələbatını ödəməsi, təyinatına uyğun istifadəsi müəyyənləşdirilir. Təyinatından asılı olaraq süni ipək parçanın seçilməsində xassəsinin düzgün seçilməsi vacibdir. Bu xassələr dedikdə istiliyi, optikliyi, elektrikliyi, keçirmə, udma və s; materialın nəmliyin və istiliyin təsiri sayəsində yığılması, ölçüsünü dəyişmə qabiliyyəti, yırtılmağa davamlılığı, materialın dağıdıcı faktorlara qarışı dayanıqlıq qabiliyyəti, dartılma, sıxılma, qatlanma (materialın mexaniki qüvvənin təsirinə olan münasibəti) və s. nəzərdə tutulur. Bu xassələr süni ipək məhsulunun istehsalının bütün mərhələsində mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, xassə məhsulun obyektiv xüsusiyyətidir. Süni liflərdən toxunmuş ipək parça istehlakçısının tələbini əsaslı sürətdə təmin etməlidir belə ki, müxtəlif məmulatların geyimlərin, idman geyimlərinin, xüsusi geyimlərin, texniki geyimlərin, alt paltarı, yataq dəyişiyi hazırlanmasında istifadə olunan parça tələbə cavab verməlidir.

Süni ipək saplardan hazırlanmış parçalar müasir tələblərə cavab verir. Müasir süni ipək parçalardan aşağıdakılar tələb olunur: gözəl görünüş, maksimum rahatlıq, minimum problemlər, istifadəçi üçün müxtəlif tətbiq imkanları, yüngüllük, yumşaq, yığcam, ölçülü, xoş toxunma və s. Parçanın təyinatına görə onun keyfiyyətini qiymətləndirmək üçün müəyyən göstəricilər seçilir və onun gigiyenik xassələri, estetik, texnoloji, eləcə də toxumaların lifli tərkibi və struktur göstəriciləri nəzərə alınır. Bu tələblərə əsasən həm süni liflərdən əldə edilmiş parçalar, həm də süni və təbii lif qarışıqlarından alınan parçalar cavab verir.  Viskoz liflər və saplar ən çox istifadə olunur, onlara tələbat çoxdur (Кирюхин & Шустов, 2011).

Sellüloz materialdan alınan saplardan hazırlanan süni ipək təbii ipəkdən daha az aşınma müqaviməti ilə fərqlənir. Süni ipəkdə zərərli həşəratları dəf etmək qabiliyyəti yoxdur və elektrikləşməyə meyllidir. Təbii ipəklə müqayisədə süni ipəkdə hamar görünüş bəzi səth qüsurlara malik olur. Süni mənşəli saplardan toxunan ipək ipləri isti 10% qələvi məhlulunda həll oluna bilir. Süni ipək lifləri yandırıldıqda yanan plastik qoxusu ətrafa yayılır. Süni ipək liflərdən hazırlanan parçanı əlin içərisində sıxdıqda aydın xətləri olan qırışlar əmələ gəlir.

Təbii ipək yüksək hiqroskopikdir, belə ki, bütün ipək parçalar öz çəkisinin yarısına bərabər miqdarda nəm çəkə bilir. Təbii ipək çox tez quruma xüsusiyyətinə malikdir. İpək yaş olduqda onun qırılma gərginliyi 10% azalır və qırılma zamanı uzanma 10% artır. Təbii ipək qələvilərin təsirinə çox da davamlı deyil və 5% NaOH məhlulunda tez çökür, mineral turşulara daha davamlıdır, ümumi üzvi həlledicilərdə həll olunmur. Təbii ipək uzanmır, büzülmür, elementar ipin qalınlığı 10-12 mikron, mürəkkəb ipin qalınlığı isə 32 mikrondur. İpək yüngüldür ki, 1 kq hazır parçaya təxminən 300- 900 kilometr arası sap gedir. Təbii ipək yavaş-yavaş yanır, alovdan çıxarıldıqda isə yanma özü sönür. Yanma zamanı yanmış saçın zəif qoxusu olur, yanma məhsulu kövrək kül kütləsi olur. Süni ipək parçaların çeşidləri sapın keyfiyyətinə, görünüşünə, quruluşuna, toxunma nümunəsinə və xüsusiyyətlərinə görə fərqlənirlər.Süni ipək elektrikləşməyə meyllidir. Süni ipək parçaların çeşidləri sapın keyfiyyətinə, görünüşünə, quruluşuna, toxunma nümunəsinə və xüsusiyyətlərinə görə fərqlənirlər. Təbii ipək bakteriyaların böyüməsinin qarşısını alır, xoşagəlməz qoxuları özünə çəkir və allergiyaya səbəb olmur. Buna görə də tez-tez paltar və yataq dəstləri hazırlamaq üçün istifadə olunur.

Təmiz formada viskoz yüksək molekulyar lif pambıq və kimyəvi liflərlə qarışdırmaq üçün istifadə olunur. O parçalara ipəklik, ölçülü sabitlik verir, büzülməni və qırışmanı azaldır (Самсонова, 2018).

**Viskoz liflərdən toxunmuş ipəyin keyfiyyət göstəricilərinin təyini**

Süni liflərdən toxunmuş ipək parçanın keyfiyyət səviyyəsinin qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Süni liflər içərisində ən geniş yayılmış lif viskoz lifi hesab edilir. Onun ümumi süni lif istehsalında həcmi 60%-dən çox təşkil edir. Ümumi süni lif istehsalında viskoz lifinin payının çox olması onunla əlaqədardır ki, viskoz liflərinin istehsal etmək üçün ucuz xammaldan istifadə olunur. Viskoz ağac sellülozasının kimyəvi emalı nəticəsində əldə edilən təbii mənşəli süni lifdir. Viskoz ipəyinin hazırlanması üçün xammal mənbəyi şam, müxtəlif bitkilərin gövdəsi və s. olur. Bura ağac sellülozası və nisbətən sadə kimyəvi birləşmələr sayılan natrium qələvisi, hidrogen sulfid, kükürd turşusu və onun duzları aiddir. Sellüloza istehsal etmək üçün, əsasən küknar, şam ağacından, qısa lifli pambıqdan istifadə olunur. Toxuculuq sənayesində viskoz və modifikasiyalı viskoz liflərinin istehsalı vacibdir.

Müasir dövrdə əyirilmə üçün viskoz məhlulunun hazırlanması metodunda xeyli dəyişiklik edilmişdir. Əvvəllər məhlul bir neçə cihazda hazırlanırdısa, indi isə yalnız bir maşın aparatında hazırlanır. Hazırda bu üsuldan bütün zavodlarda istifadə edilir. Üsulun bir çox üstünlüyü vardır: keçmişdə viskoz lifi 80 saata əldə olunurdusa, hazırda bu 4-5 dəqiqəyə başa gəlir. Bundan əlavə işçi qüvvəsinə, kimyəvi reaktivlərə (CS2, NaOH) və s. xeyli qənaət edilir. Zavodun həcmi az sahə tutur (Пархоменко, 1980).

Viskoz parçadan hazırlanmış məhsulları tanımaq çox asandır. Bu, bir qayda olaraq, yüngül çalarları materialıdır, parlaq və ya tutqun ola bilər. Əgər hər hansı bir şübhə varsa, yanma üsulundan istifadə edə bilər. Viskoz parçanın tərkibində əsasən təbii ağac olduğundan, yandıqda qalın alov və yanan ağacın parlaq qoxusu görünəcəkdir. Viskoz ümumi xüsusiyyətlərinə görə pambığa bənzəsə də, boyama və təzyiqdə, konverter əməliyyatlarında tətbiq olunan müxtəlif təsirlərə qarşı reaksiyası fərqlidir. Pambıqda olduğu kimi əsas quruluşunun 100 % sellüloz olmasına baxmayaraq, polimerleşmə dərəcəsi aşağı olduğundan pambığa nisbətən daha davamsızdır, kimyəvi maddələrə qarşı müqaviməti daha azdır (Кокеткин, 1988).

Viskoz lifləri quru halda 10-11%, yaş halda isə 25-35% qədər uzanırlar. Viskozun əsas çatışmayan cəhəti güclü qırışmasıdır, lakin bu problem sintetik liflər (əksər hallarda polyester) əlavə etməklə həll edilir. Material xüsusi qayğı tələb edir ki, yalnız bu halda paltar qırışmayacaq, uzanmayacaq və orijinal rəngini itirməyəcək. Sellüloz əsaslı süni liflər içində viskoz ən əhəmiyyətli və ən çox istifadə olunan lifdir. Viskoz kimyəvi lif çəkmə metodlarından olan yaş çəkmə metodu ilə istehsal edilir (Мальцева, 1999).

Viskoz lifin üstünlüklərinə aşağıdakılar daxildir.

1. Xoş toxunma hissləri;
2. Yüksək nəfəs alma qabiliyyəti;
3. Hiqroskopiklik Bir maddinin havadan nəmi uda bilmə xüsusiyyəti. (material pambıqdan iki dəfə üstündür);
4. Soyuq mövsümdə istiliyin qorunması və qızmar istidə sərinliyin hiss edilməsi;
5. Təbii parçalar üçün nəzərdə tutulmuş boyalarla emal üçün uyğundur, parlaq rənglərə asanlıqla boyanır ;
6. Elektriklənmir;
7. Kifayət qədər yüksək aşınma müqavimətinə malikdir;

8. Narahatlığa səbəb olmur və həssas dəri ilə təmasda olduqda allergik reaksiyalara səbəb olmur.

**Viskoz liflərdən alınan parça növləri**

İstifadə olunan emal texnologiyasından asılı olaraq, viskoz liflərdən alınan parça aşağıdakı növləri vardır:

Tensel növü - viskoza evkalipt selülozundan hazırlanmış parçadır, çox yumşaq və ipəkdir. Tensel Avstraliya evkalipt ağacından hazırlanmış və nano emaldan keçmişdir. 1988-ci ildə ingilis mütəxəssisləri tərəfindən həyata keçirilmişdir. Təcrübələr zamanı onlar evkalipt ağacı əsasında bir növ viskoza yaratdılar. Parça ilk dəfə 1991-ci ildə təqdim edilib, 1997-ci ildən sənaye miqyasında istehsal olunur. Yeni liflər evkalipt ağacından çıxarılan sellülozaya əsaslanır. Davamlı olma xüsusiyyətləri təkmilləşdirilən bu material sinonim adlara malikdir. Tencel sünidir və praktiki olaraq tullantısızdır, ətraf mühitə zərər vermir. Evkalipt mikrobların böyüməsini maneə törədir, buna görə də bu material tez-tez allergiyası olan insanlar tərəfindən satın alınır. Tenseldə boya yaxşı oturur və möhkəm tutur, buna görə də bu parça solmur.

Kupra növü - görünüşü və keyfiyyəti ilə ipəyə çox bənzəyən bu növ viskoza ən bahalıdır. Bütün müsbət xüsusiyyətləri ilə o əhəmiyyətli bir çatışmazlığa malikdir - şıltaq qayğı. Kupro - ipəyə bənzəyən, lakin təmiz sellülozun təbii polimerindən əldə edilən mis-ammiak lifləri ilə viskozadan hazırlanmış süni parça növüdür. 1918-ci ildən kimyəvi yolla təbii xammaldan - ağacdan və pambıqdan istehsal olunur. Materialın istehsalı təbii xammala əsaslanır. Söhbət hər hansı ağacda və hindistan cevizi qabığında olan sellülozdan gedir. Pambıq liflərindən kupra hazırlamaq üçün də istifadə edilə bilər. Qeyd etmək lazımdır ki, bu növ materialın istehsalı üçün istifadə olunan komponentlərin kimyəvi tərkibi təhlükəlidir. Belə istehsal zamanı atmosferə zərərli tulantılar yüksək dərəcədədir, bəzi ölkələrdə bu, qəti qadağandır. istehsalda istifadə olunan texnologiyadan asılı olaraq bu materialdan bir neçə məşhur parçaların növü hazırlanır.

Modal növü - ağacdan çıxarılan 100% sellülozadan hazırlanmış viskozanın təkmilləşdirilmiş versiyasıdır. Xammal mənbəyi adətən evkalipt və ya fıstıq ağacıdır. Material ekoloji cəhətdən təmizdir, mat effektli ipək kimi görünür, soyutma xüsusiyyətinə malikdir. Modal viskoz lifi daha çox higroskopikliyə və dartılma gücünə malikdir, viskozadan daha yaxşı boyanır. Bu lifdən hazırlanmış məhsullara qulluq etmək asandır. Viskoza Micromodal ipəkdən daha çox incədir. Belə lifin yalnız 10.000 metri bir neçə qram. çəkiyə malikdir. Bu lif istifadə olunmuş məhsullar məxmər və yumşaqlığı ilə seçilən təbii lifdən hazırlanan ipək məhsullara bənzəyir. Siblon iynəyarpaqlı ağacların sellülozasından əldə edilən ən yeni viskoza materialdır. Daha yüksək praktik xüsusiyyətləri ilə digər viskoza növlərindən fərqlənir. Siblon təkmilləşdirilmiş viskozdur və XX əsrin 70-ci illərində yaranmışdır (Богданова & Фатхуллина, 2016).

**Asetat liflərdən toxunmuş ipəyin keyfiyyət göstəricilərinin təyini**

"Asetat" sözü latınca adı "sirkə" deməkdir. Bu ad parçaya ona görə verilmişdir ki, onu əldə edərkən sellüloza sirkə turşusu duzlarının təsirinə məruz qalır və onlar viskozanı sellüloza asetata çevirir. Bu şəkildə hazırlanan iki növ lif var. Bunlar asetat və triasetatdır (çox vaxt bu fərq məhsulun etiketində göstərilmir). Triasetat növü daha parlaq və istiliyə davamlı olduğunu qeyd etmək lazımdır. Asetat və triasetat lifləri əldə etmək üçün qısa lifli pambıq natrium qələvisi vasitəsilə təzyiq altında bişirilir bu zamanı yağlar, mum, pektin və digər birləşmələr aradan götürülür. Bir ton pambığın qısa liflərindən 0,7-0,8 ton emala yararlı pambıq sellülozası əldə etmək mümkündür. Küknar kəpəyinin tərkibindən 42-46% təmiz sellüloza əldə edilir, onun tərkibindən liqnin, pentozan, yağ, qatran və s. ayırmaq üçün

müxtəlif reagentlərdən istifadə olunur. Asetat və triasetat liflərinin xassələri selüloz əsaslı olsa da, hidrofobun xüsusiyyətlərinə bənzəyir (Кукин & Соловьев, 1999).

Asetat lif kimyəvi tərkibinə görə digər süni liflərdən tərkibinə görə fərqlənir və o sellülozda olan sərbəst hidroksil qruplarının sirkə anhidridi ilə birləşməsindən əldə edilir. Asetat ipəyi pambıq sellülozundan əldə olunur. Burada sellüloz sirkə turşusu və sirkə anhidridi içərisində əməliyyatdan keçir və nəticədə asetilsellüloz əmələ gəlir. Asetilsellülozu aseton (85%) və spirt (15%) içərisində əridib sıxılaraq filyerlərdən nazik şırnaqlarla havası qızdırılmış kameralara keçirilir. Asetilsellülozu əridən maddələr spirt və aseton tez uçur, asetat sellülozun əyirilmə məhlulundan parlaq, nazik saplar əmələ gəlir.

Triasetilsellülozdan da ipək almaq mümkündür, ancaq bu növ alınan ipəyin az hiqroskopik olması və indiyə qədər müvafiq həlledicinin tapılmaması, triasetilsellülozdan ipək almaq məsələsini ləngitməkdədir (Роговин, 1964).

Əvvəl asetat lifinin paltarların istehsalı uyğun boyanın olmaması səbəbindən istifadəsi çətin idi. Paltarların istehsalı uyğun boya yarandıqdan sonra asetat həm müstəqil material kimi, həm də qarışıq parçalarda əlavə komponent kimi geniş istifadə olunmağa başladı. Asetat iplər qələvilərə həssasdır, buna görə də xassələrini yaxşılaşdırmaq üçün istehsalçılar xüsusi qələvi emal edirlər. Bu prosedur asetatın müxtəlif rənglərdə boyanmasına imkan verir, bu proses həm də materiala antistatik xüsusiyyətlər verir. Asetat lifləri nəinki yumşaq və toxunuş xoşdur, süni viskoz liflərlə müqayisədə artan elastiklik səviyyəsi artıqdır. Asetat və triasetat liflərinin özünəməxsus xüsusiyyətləri vardır. Asetat lifinin bəzi üstünlükləri onun trikotaj istehsalında uğurla tətbiq edilməsinə imkan verir. Asetat ipəyi təbii ipəyə ən yaxın olan süni ipək növüdür və öz tərkibinə görə viskoz lifindən fərqlənir. Asetat ipəyinin kimyəvi tərkibi digər süni ipəklərdən seçilir. Asetat ipəyi elastiki, işığa əks dayanan olduğuna görə onun tətbiq dairəsi daha da genişlənir. Asetat ipəyinin sürtünməyə davamlılığı az olur, amma istismar xassələrinə görə digər süni liflərdən heç də aşağı göstəriciyə malik deyil, hətta su udma xassəsinə görə viskoz lifini üstələyir. Asetat lifləri nazik parça istehsalı üçün istifadə olunur (Кислых, 2019).

Asetat lifləri ləkə çıxarılmada istifadə olunan turşulardan təsirlənmirlər, qüvvətli turşular isə lifi parçalayar. Sulu əsasların təsiri az olur, güclü əsaslardan asetat lifləri zərər görə bilərlər. Asetat lifləri kifə qarşı müqavimətlidirlər, ancaq rəngin solmasına səbəb ola bilər. Güvəyə və həşəratlara qarşı müqaviməti vardır, dözümlüdürlər. Asetat günəş işığında uzun müddət qalanda zəifləyir, yaş halda müqaviməti azalır və çox tez quruyur. Asetat ipəyini boyamaq üçün pambıq boyaq maddələrindən və xüsusi boyalardan istifadə edilir.

Asetat lifinin özünəməxsus fiziki quruluş və xüsusiyyətləri vardır. Mikroskopik görünüşünə görə asetat hamar bir səthə malikdir, və onun uzununa zolaqları vizkoz rayonundan daha seyrəkdir, dilimli bir kəsiyi vardır. Asetat lifi sərhədsiz uzunluqda filament halında olur və istismar yerinə görə istənilən uzunluqda ştapel halında kəsilə bilir. Asetat lif xüsusi olaraq matlaşdırılmamışdırsa, şəffaf rəngdə olur, istehsal ediləndə istifadə məqsədindən asılı olaraq matlaşdırıla bilər və parlaq, yarı parlaq və ya tutqun halda ola bilər. Asetat lifinin yaş halda davamlılığı azalır, islananda davamlılığı 30 faiz düşmə olur. Asetat lifinin uzanma elastikliyi çox yüksək deyil, 25-30% arasında pozulmadan uzana bilir, adətən nazik nömrələrdə 1-5 dtex arasında istehsal edilirlər. Asetil ipəyinin elastikliyi orta dərəcədədir, elastiklənmə xüsusiyyəti neylondan aşağı, pambıqdan yüksəkdir, aşağı temperaturlarda ütülənməlidir. Alovlanma xüsusiyyətinə görə, yavaş-yavaş yanır, qalan ərinti ciddi yanmalara səbəb ola bilər. Asetil ipəyində sıxlıq 1,31g/$cm^3$ yaxındır, sıxlıq pambıq və poliesterden aşağı, akril və neylondan yüksək sıxlıq dəyərinə malikdirlər. Qızdırılan material plastik olur və ondan möhkəm,

çevik liflər hazırlanır. Asetat ipəyin bir sıra mənfi cəhətləri var: nəmi pis udur, yaş olduqda dərini və ona bitişik toxumaları ləkələyir. çox davamlı deyil, ultrabənövşəyi şüaları ötürür, yaş olduqda dərini və ona bitişik toxumaları ləkələyir, qızdırıldıqda yapışır və əriyir, elektriklənir. Asetat liflərinin bir xüsusiyyəti onların ultrabənövşəyi şüaları ötürmə qabiliyyətidir (Савостицкий & Амирова, 2001).

Material ultrabənövşəyi şüaları ötürür, lakin onların mənfi təsirlərindən təsirlənmir.Asetatın boyalar üçün həssaslıq, seçicilik xüsusiyyəti vardır. Belə ki, digər parçalar üçün uyğun olan boyalar asetat parçalar tərəfindən qəbul edilmir. Asetat liflər yüksək termoplastiklik xüsusiyyətinə malikdir və 177° C temperaturda parça yapışqan olur, buna görə də ütüləmə son dərəcə ehtiyatla aparılmalıdır. Likra asetat lifinə əlavə edilərsə, elastik bir parça əldə edilir. Asetat lifi adətən ipək, pambıq, akril əlavə olunur. Bundan, qarışıq parçanın xüsusiyyətləri heç bir şəkildə pisləşmir, lakin qiymət çox aşağı olur. Tərkibində yun və asetat sapları olan iplik büzülmür və yuvarlanmır. Viskoza asetat əlavə etməklə materialın hiqroskopikliyini artırmaq olar.

Mənfi xüsusiyyətlərinə aşağıdakılar daxildir: Asetat ipəkdən (süni) hazırlanmış paltarların daimi aşınması və ya yuyulması məhsulların orijinal görünüşünü tez itirməsinə səbəb olur; Hazır parça çox davamlı deyil, zamanla köhnələ bilər; Əsl ipəkdən fərqli olaraq, asetat statik elektrik toplayır. Bu problem xüsusi vasitələrin köməyi ilə qismən həll edilə bilər; Material rütubəti yaxşı qəbul etmir, ona görə də bu paltarları isti havalarda geyinmək olmaz.

Asetat asetonda həll olunur, həmçinin turşular və qələvilər tərəfindən məhv edilir. Ona görə də asetatdan hazırlanmış əşyalarla diqqətli olmaq lazımdır. Çox vaxt asetatdan hazırlanmış məhsulların alınmasını məhdudlaşdıran materialın bu mənfi keyfiyyətləridir. Bundan əlavə, süni materiallara qarşı həssaslığı olan bəzi insanlar allergik reaksiya ilə qarşılaşa bilər. Asetat lifli parçalar müasir insanın həyatına möhkəm bir şəkildə daxil oldu və layiqincə böyük populyarlıq qazandı. Asetat lifi tərkibinə görə viskoz lifindən fərqlənir. Asetat lifinin bəzi üstünlükləri onların istehsalda uğurla tətbiqinə imkan yaradır. Bu lifin elastikliyinə, suya, işığa əks dayanan olmasına görə tətbiq dairəsi genişdir. Asetat lifi sürtünməyə davamlılığı azdır.

**Nəticə**

Süni liflərdən toxunmuş ipəklərin hər tərəfli öyrənilməsi və tədqiqi toxuculuq sənayesinin inkişafı üçün olduca əhəmiyyətli hesab olunur. Təbii ipək min illərdir ki, dünyada istehsal edilir. Təbii ipəyi təqlid edən süni liflərdən toxunmuş ipəyə daim artan tələbat və maraq dünyanın bir çox ölkələrində yeni liflərin, parçaların, yeni texnologiyaların inkişafına təkan verir. Təbii ipəklə müqayisə etdikdə süni ipəyin qiyməti çox aşağıdır. Təbii ipək parıltısı ilə ovsunlayır, lakin çox bahalıdır və xüsusi qayğıya ehtiyacı var. Süni liflərdən toxunmuş ipək qüsursuz hamar səthə malik olan yumşaq, yüngül və parıltılı parçadır. Xassələrinə, görüntüsünə görə o, təbii yüksək keyfiyyətli parçaya oxşayır. Süni ipək qırışmır və xüsusi qulluq tələb etmir ki, bu da onun müsbət cəhtlərindən biridir. Süni liflərdən toxunmuş ipəklərin nəfəs alma xüsusiyyəti təbii materialdan daha aşağıdır. Təbii ipəyin tərkibində amin turşuları olduğu üçün o bakterisid təsirə malikdir, insan orqanizminə, xüsusən də dərisinə müalicəvi təsir göstərir. Süni ipəkdə bu xüsusiyyət yoxdur. Süni liflərdən toxunmuş ipəklərin liflərinin xarakteristikasının analiz prosesi üçün bir neçə metoddan istifadə edilir: mikroskopik metod, yanma metod, dağılma metod (quru distillə vasitəsilə lifin təbiətinin təyini, kimyəvi reaktivlərin təsiri təsiri liflərin təbiətinin təyini), kolorostik metod. Hazırda süni liflərdən toxunmuş ipəklərin istehsalında xassələri ilə fərqlənən müxtəlif süni liflərin tətbiqi yüksək keyfiyyətli süni ipəyin istehsal edilməsinə imkan yaradır ki, bu zaman parçaların istismar xassələri yaxşılaşır, xidmət müddəti artır.

**Ədəbiyyat Siyahısı**


Кирюхин С. М., Шустов. Ю. С. (2011). Текстильное материаловедение. Москва: Колосс. с.360

S.Hüseynova. (2019). Tikiş məmulatlarının materialşünaslığı. Bakı: Avanqard. S.100

Богданова Б. И, Фатхуллина Л. Р. Современные (2016). Современные полимерные материалы и бесшовная технология производства одежды. Казан: Университет. с.78-81

В.Г.Пархоменко. (1980). Текстильные товары. Москва: ЗИСТа.

Грановский Т.С., Миверниерадзе А.П. (1988). Строение и анализ тканей. Москва: Легпромбытиздат.

З.А.Роговин. (1964). Основы химии и технологии химических волокон. Москва: Легпромбытиздат.

И.Г.Самсонова. (2018). Свойства Материалов. Челябинск: Азбука. С.31

Калмыкова Е.А., Лобацкая О.В. (2002). Материаловедение швейного производства. Минск: Выш. шк. 422 с

Кукин Г.Н., Соловьев А.Н.,. (1999). Текстильное материаловедение. Волокна и нити. Москва: Легпромбытиздат. С.452

Л.В. Кислых (2019). Материаловедение и конфекционирование швейного производства. Елец: Политика. 82 с

Мальцева Е.П. (1999). Материаловедение текстильных и кожевенно-меховых материалов. Москва: Легпромбытиздат.

Кокеткин П., П. (1988). Промышленная технология одежды. Москва: Легпромбытиздат.

Савостицкий Н. А., Амирова Э.К. (2001). Материаловедение швейного производства. Москва: Академия. 240 с

# Leadership and management from the perspective of Heydar Aliyev

**Leila Mustafaeva**

**Baku State University, International Relations, and Economics Department**

**leylamustafayevaaa@gmail.com**

## Abstract

Request of the Azerbaijan nation Heydar Aliyev return to the government in 1993. His return revive political,economic spheres. Achievements of national leader more than enough. This article analyzes specific parts which links with each other: political and economic stability also security issues .At the same time personality Heydar Aliyev was highlighted as powerful leader. The work he has done for his country, nation is a clear proof that he is most powerful and charismatic leader at Azerbaijan history. Reforms in the economy, adaptation of legislation, tax and banking systems to rapidly changing economic conditions, implementation of a new economic policy meeting the principles of a market economy gave impetus to Azerbaijan's integration into the world economy, becoming an active subject of interstate relations. As a result of purposeful and consistent reforms in all sectors of the economy, high achievements in industry, construction, transport, agriculture and trade, the country's gross domestic product increased by 71.0% in 1996-2002.

**Keywords**: Heydar Aliyev, security, economic and political issues, energy security, leader

## Introduction

Milestone events of Azerbaijan history are linked to the national leader's name. Leadership is the vital element influencing government effectiveness. Leaders not made are born. Powerful Political leaders have future plans for government. Successful leaders can provide need of country involves issues of public concern. Mission-oriented tasks, influence authority coalitions, focused on national interests and all above leadership qualities exactly belong to Heydar Aliyev. He affect on internal and external relations, all his actions serve prosperity of Azerbaijan. Aliyev's experience, sensitivity to national goals and beliefs supported development and integration. Even period without positional authority, Heydar Aliyev never stopped to serve for his homeland (Vəliyev,2023). Aliyev was not only policy makers, but also effective, productive leader who supported need and voice of Azerbaijan hero. National leadership strategy of Heydar Aliyev based on urge actions on government to strength. Effective presidents being effective facilitators of the issues to solve which already their country surfacing in. For example, Heydar Aliyev as a effective president develop national policy develop more structured. His policy prioritizes resolving issues of country, public-nation concern. Aliyev's strategy has been directly related to the identification of backward spheres. Our National leader was those leader who has been able to contribute to the policymaking process of Azerbaijan during coercive period. He always has focused the purspose - providing better conditions for Azerbaijanis (Qurbanov, 2023).

South Caucasus is vital region of Eurasia with important geopolitical importance. Scientists considered Caspian-Black Sea basin and South Caucasus are the most important places in the Continental Eurasian region. As we mentioned, South Caucasus is significant, both due to its potential and its geostrategic position. This region plays an influential role both as a source of oil and at the same time in exporting Caspian energy resources to Europe. Other factors in ensuring security and maintaining stability in the South Caucasus.

New independent states of the South Caucasus one of the factors that have the major impact on security systems and bring different characteristics in the field of national development and security system. The position of the each independent states, reputation of the countries in the world community are gained its international, regional development.

**Energy Security**

One of unforgettable agreements in history of Azerbaijan Contract of the Century -success of national strategy. Political and economic security crowned via signing of contract. Signed for 30 years and in 2017 extended until mid-century, Contract of the Century was ratified on 12 December 1994 by the Parliament of Azerbaijan (Polukhov,1997).

**Picture – Ceremony signing of the "Contract of the Century"**



**Resource:** https://www.socar.az/en/page/azeri-chirag-gunashli

**Heydar Aliyev: "The foundation we laid with the contract of the century creates favorable conditions for the strengthening of the state sovereignty of independent Azerbaijan, the development and happy life of the people of the country in the 21st century. I believe that the 21st century will be the happiest period for the independent state of Azerbaijan."**

In 1994, declaration signing of the "Contract of the Century", and ceasefire between Armenia and Azerbaijan, Constitution adoption in 1995 (Socar 2023), restoration of the ancient Silk Road implementation of other important works were achieved successful. As a result of the leader s wise and thoughtful policy, the economy of Azerbaijan developed in a short term.

Necessary measures were taken by the state to form the principles of a market economy with the purpose of establishing new property relations on land, developing economy and entrepreneurship initiative, achieving economic blossom of the country, increasing food supply and, as a result, also improving the well-being of the Azerbaijani people on the basis of principles of social justice and economic freedom. All possible measures were taken by the state to form the principles of a market economy and the entrepreneurship class. Government programs were adopted, the legislative

framework were established for the development of entrepreneurship and the elimination of existing problems in this area.

**Picture - Ceremony on launching"Chirag-1"**



**Resource https://lib.aliyevheritage.org/en/7702299.html**

National leader Heydar Aliyev taked all the necessary steps for the existence of Azerbaijan as indepent state (Əsgərli,2023). First of all, a modern oil strategy - guarantor of our state security was implemented. The Contract of the Century part of oil diplomacy provided security and protection of foreign investments. Global projects related to the hydrocarbon resources of the South Caucasus region cannot be imagined without Azerbaijan.

A new oil strategy has been implemented in 1994 by Heydar Aliyev**.** Major principles of these strategy including utilization of the natural resources of Azerbaijan such as oil, and gas resources (Socar 2023).

Heydar Aliyev's speech on launching "Chirag-1": Azerbaijani oilmen founded Azerbaijani oil platform in the Caspian Sea and started the oil production fifty years ago. But three years ago, after the signature of the "Contract of the Century" with the companies participating in the consortium we revived the platform and now it is brought to this current state (Socar 2023).

**Security and Legislative Issues**

The uniqueness of Azerbaijan is related not only to the fact that it is a producer, but also acts as a transit country and transit corridor that exports its products to the Central Asian countries and Europe. Thus energy policy was vital component of the national security our country. In addition being the main participant of transnational international projects, Azerbaijan already acts as a guarantor of security field in the South Caucasus region.

Azerbaijan acts as an actor in providing the security of the region. Since the first day of its independence, Azerbaijan has become a leading state in the region due to the correct use of its favorable geostrategic position.

The new independent states of the South Caucasus one of the factors that have the major impact on security systems and bring different characteristics in the field of national development and security

system (Safizadeh,1998). The position of each independent state, reputation of the country in the world community is gained its international, regional development.

Essential part of foreign policy of the independent Azerbaijan state as one of its directions - the essence, conceptual bases, goals, principles and main features of regional geopolitics were adopted in the Constitution, in 1995 by the Republic of Azerbaijan. The constitution was prepared by the commission, chaired by national leader Heydar Aliyev, and tasked with preparing the draft of new Constitution of the Republic. Adoption of the Constitution by Great Leader undeniable service for Azerbaijan statehood. Great statesman developed Azerbaijan as democratic, secular state based on the rule of law.

X Article of the Constitution of the Republic of Azerbaijan states that relations of our country with other states are governed by international law norms and the government based on the principles that consider their interests. About the essence, duties and direction of the ınternal, external policy of Azerbaijan in the South Caucasus in order to realize its geopolitical, geoeconomic and military-geostrategic interests.

Thanks to national leader his successful development program, economic and political activities made Azerbaijan flourish each area (Əsgərli,2023). Strong leadership qualities,the ability to create a vision for the future of Azerbaijani nation, undisputed made Heydar Aliyev leader of his time.

Charismatic personality and legendary authority bring progress to political,economic areas of the country. In 1969 under the administration of the national leader paralel to flourishing industry, large scale transformations were part of Heydar Aliyev's policy.

For 1974-1979 years post of first deputy chairman of the USSR Council of Ministers was held by our national leader Heydar Aliyev who before had been a member of the Supreme Soviets of the USSR, Azerbaijan SSR.

Request of the Azerbaijan nation Heydar Aliyev return to the government in 1993. His return revives political and economic spheres. Achievements of national leader more than enough.

The honorable life of leader – Heydar Aliyev is connected with the present and the future of his homeland. Great politician, visionary political leader and realized important reforms increasing the role of Azerbaijan as a powerful state.

Strategic ideas of the National Leader Heydar Aliyev are being successfully implemented that aimed independence and sovereignty in modern Azerbaijan.

The main tasks of the Azerbaijani state in regional geopolitics can be classified as follows (Həsənov,2005):

- to ensure the independence, sovereignty and territorial integrity of the country, to strengthen its national security closely with regional and international security systems

-to create equal, mutually beneficial co-operation and partnership with all states

- Preventing the militarization of the South Caucasus, creatiom friendly neighborly relations. All these tasks and their implementation concrete efforts made by the Azerbaijan in the field of international, regional and interstate relations in the past twenty years which was reflected in most practical steps, bilateral and multilateral agreements. As a democratic and legal state Azerbaijan denies all kind of ethnic, religious restrictions.

A visionary political leader is someone who stating clear aims, future vision becomes reality. Those leaders make a strategic plan for achieving those goals, empowering, equipping each individual of the nation.

The greatest example of visionary leadership is Heydar Aliyev who with his nation achieved destination, implemented property. As a leader he is considered a visionary leader. National leaders were open minded and honest, adopted long-term prosperity goals, to end hierarchy, chaos.

In 1991 Azerbaijan regained independence and those years external powers have interests to create threat cases against security of the Republic. Political crisis, anarchy, failure of administration made the situation difficult specially at the socio-economic sphere. "Volunteer fighters" - illegal armed groups cause the collapse of power. Break of law, threats, strengthening separatism, creation of the "Talysh-Mughan Republic" also intended cut off south region from Azerbaijan. Must emphasize that achieving safety was impossible during those periods and security issues in the Azerbaijan examined the interests of international actors.

The history of the Azerbaijani security forces was divided into two parts by Heydar Aliyev during the years of independence (Aliyev Heritage, 2023):

1)1991-1993

2)1993 and beyond

Göründüyü kimi, keramika sənətinin insan həyatında yeri təkcə saxsı qabların və ya heykəlciklərin hazırlanması ilə məhdudlaşmayıb. Bəşəriyyət zamanla çox yaxşı bildiyi keramika materialı biliklərindən istifadə edərək tikinti elementi kimi istifadə edilən kərpiç materialı inkişaf etdirmiş və onu keramika kərpicləri ilə dəyişdirmişdir. O, o dövrdə işləyib hazırladığı bu kərpiclərlə divarlar, qalalar, möhtəşəm kilsələr, məscidlər, saraylar tikdirmişdir. İnsanlar öz inanc və hisslərində keramikadan alət kimi istifadə edir, ritonlar, bütlər və tanrı heykəlcikləri düzəldirdilər.

Keramika təkcə inanclara xidmət etmirdi, həm də bəzi bədii forma və əşyaların üzə çıxarılmasına, xalqın duyğularının çatdırılmasına kömək edirdi.

Keramika ilə həyat arasındakı əlaqələr o qədər artmışdır ki, insanlar onlar üçün xüsusi hazırlanmış keramika məzarları istehsal etmişlər. Öz nəsillərini qorumaq, düşmənlərini qorxutmaq üçün keramikadan əsgərlər, maşınlar, atlar düzəltmiş, özlərinə keramikadan ordular yaratmışlar.

Günümüzün müasir texnologiyasının imkanlarını məcbur edərək, bəşəriyyətin mövcud ehtiyaclarını ödəmək üçün keramikadan istifadə sahələri günü-gündən müxtəliflik qazanır. Kəşf edildiyi gündən bəri təbiətə və insana dost olan bu material bir çox sahədə həlledici vasitə kimi qarşıya çıxır və ən cəsur xəyallarını əks etdirmək və həyata keçirmək üçün bir çox sahədə köməkçi material və ya ifadə vasitəsi kimi istifadə olunur. Şübhəsiz ki, sürətlə inkişaf edən texnologiyaya paralel olaraq keramikanın yeni istifadə sahələrindən danışmaq mümkün olacaq.

**Ədəbiyyat Siyahısı**


Akın, İ., Göller, G. (2012). Vücutta Kullanılan Seramikler, TSE Standart Ekonomik ve Teknik Dergi,

Arslan, N. (2012). Arkeolojik Kazılarda Ele Geçen Seramikler: Kronoloji ve Sosyal Yaşamın Aydınlatılması, TSE Standart Ekonomik ve Teknik Dergi, Yıl: 51,Sayı: 598

Aydın, İrfan., Kil Bugün Sizi Anlatır, Yarın Başkasını, Röportaj Bülent Tatlıcan: Bilim, Tek. ve Endüst. Dergisi, Seramik, Sektörel: 42 Mart - Haziran 2013.

Çam, A. Terrakotta Figürinler, Bilim, Teknik ve Endüstri Dergisi, Seramik, Sektörel: 39 Mart - Mayıs 2012.

Çobanlı, Z., Okur, E., Yazının Çağdaş Seramik Sanatına Kattığı Estetik Değerler, IV. Uluslararası Katılımlı Seramik, Cam, Emaye, Sır ve Boya Semineri, Eskişehir, 26-28 Kasım 2007

Emrullahoğlu, F., Abi, Betül., İleri ve Nano Teknoloji Seramikleri, TSE Standart Ekonomik ve Teknik Dergi, Yıl: 51,Sayı: 598, Mart 2012.

Karasu, B. (2012). Türkiye'de Cam ve Cam-Seramikler, TSE Standart Ekonomik ve Teknik Dergi, Yıl: 51, Sayı: 598

Kura, H. (2005). Ses Müzik ve Seramik, III. Uluslararası Katılımlı Seramik, Cam, Emaye, Sır ve Boya Semineri, Eskişehir, 17-19 Ekim

Okumuş, H. (2008). Seramik Tasarım ve Üretiminde Sağlık Açısından Alınması Gereken Önlemler, Yayınlanmamış Sanatta Yeterlik Tezi, MÜ, GS Enstitüsü, İstanbul

https://dergipark.org.tr/tr/download/article-file/358046

# Azərbaycanda Sahibkarlıq Fəaliyyətinin İqtisadi Artıma Təsirlərinin Qiymətləndirilməsi və Mövcud Imkanlar

**Abbasova-Zeynalova Nuranə**

**Mingəçevir Dövlət Universiteti, müəllim**

**a.z.nurana@mail.ru**

## Xülasə

Müasir dövrdə sahibkarlıq fəaliyyəti ümumi milli məhsulun strukturuna, iqtisadi artım tempinə və keyfiyyət dərəcəsinə təsir göstərir. Bu şəraitdə sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən dəstəklənib, ona kömək göstərilməsi zəruri hal alır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan istehsal müəssisələrinin əsasının qurulması və inkişafı iqtisadi sahələr üzrə innovativ texnologiyaların əsasının qoyulmasını sürətləndirir, uyğun olaraq əhalinin məşğulluq səviyyəsi artır, azad rəqabət şəraiti yaranır.

Sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi Azərbaycan Respublikasında iqtisadiyyatın inkişaf konsepsiyalarında aparıcı mövqedə olub istər istehsal və istehlak, istərsə də bölgü əlaqələrinin təmin edilməsində iqtisadi-təşkilati mexanizm funksiyasını həyata keçirir. Sahibkarlığın inkişafı Azərbaycan modeli üzrə milli iqtisadiyyatın mövcud vəziyyətinin, bu sahədə məhsuldar qüvvələr üzrə təkmilləşdirmə proseslərinin həyata keçirilməsi xüsusiyyətlərini və perspektiv inkişafının təşəkkül tapmasını özündə ehtiva edir.

Sahibkarlığın inkişafı sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisələrin həmçinin cəmiyyətin sosial problemlərinin həllinə köməklik edir və kiçik biznes, habelə, regional iqtisadiyyatın inkişafına da müsbət təsirini göstərir, ölkədə rəqabət mühitinin yaradılmasına şərait yaradır, yeni iş yerləri yaradır. Sahibkarlıq fəaliyyəti cəmiyyətdə və iqtisadiyyatda özünəməxsus işə salma mexanizmi və struktur dəyişikliklərin bələdçisidir. Bu dəyişiklik iqtisadi artımın hərəkətverici qüvvəsi kimi, ölkənin ümumi buraxılışının artmasına təsir göstərir.

**Açar sözlər:** sahibkarlıq, iqtisadi atım, sosial-iqtisadi inkişaf

## Abstract

In modern times, entrepreneurial activity affects the structure of the gross national product, the rate of economic growth and the level of quality. Under these circumstances, it becomes necessary to support and help the entrepreneurial activity by the state. The establishment and development of production enterprises engaged in entrepreneurial activity accelerates the establishment of innovative technologies in economic fields, the level of employment of the population increases accordingly, and free competition conditions are created.

The development of entrepreneurial activity is in the leading position in the development concepts of the economy in the Republic of Azerbaijan, and performs the function of an economic-organizational mechanism in ensuring production and consumption, as well as distribution relations. Accordingly, the development of entrepreneurship includes the current state of the national economy according to the Azerbaijan model, the characteristics of the implementation of improvement processes for productive forces in this field, and the formation of prospective development.

Based on world experience, it has been established that entrepreneurial activity plays a key role in the market economy, determines the rate of economic growth, and also provides more effective distribution of personnel, financial and material resources. The development of entrepreneurship also helps the enterprises engaged in entrepreneurial activity to solve the social problems of the society and has a positive effect on the development of small business as well as the regional economy, creates conditions for the creation of a competitive environment in the country, and creates new jobs. Entrepreneurship is a unique activation mechanism and guide of structural changes in society and economy. This change has the effect of increasing the country's gross output as a driving force of economic growth.

**Key words:** entrepreneurship, economic growth, socio-economic development

## Giriş

Müstəqil inkişaf edən hər bir ölkənin bu müstəqilliyin iqtisadi, sosial və siyasi əsasını yaratmaq və bunun əsasında gələcək inkişafını formalaşdırmağı əsas vəzifəsi hesab olunur. Ölkələrin iqtisadiyyatının inkişafı qədim və onların tarixi qədər zəngindir. Belə ki, hər bir ölkənin iqtisadiyyatı bu uzun tarixi dövr ərzində ictimai əmək bölgüsünün, istehsalın dərinləşməsinin, ictimailəşdirilməsinin və təbii amillərin təsiri əsasında formalaşır.

Sahibkarlıq fəaliyyəti üçün yeni mənfəət əldə olunan ideyaların aşkarlanıb, onların reallaşdırılması, təsərrüfat üzrə təşkilati, təşəbbüskarlıq, frekansı tutma qabiliyyəti, yenilikçiliyi, riskə getmək qabiliyyəti ilə səciyyəvidir. Müasir iqtisadi ədəbiyyatlarda sahibkarlığı təsərrüfat anlayışı kimi müəyyən edirlər.

Ümumiyyətlə, iqtisadiyyatın qanuni qadağan olunmayan istənilən sahəsi üzrə, mülkiyyətin bütün formasında müəyyən olunmuş sahibkarlıq fəaliyyəti həyata keçirilə bilər.

## Sahibkarlıq Fəaliyyətinin Əsas Determinantları

Sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar sadəcə riskli əməliyyatlara meylli, cəlbedici, enerjili şəxslər kimi, yaxud da bazarda işləyən təşəbbüskar insanlar hesab edilə bilər. Bundan başqa, sahibkarlar qanunla qadağan edilməyən və biznesin mənfəətinin artmasına istiqamətləndirilmiş müxtəlif sahələr üzrə fəaliyyətdədirlər. Sahibkarlığın inkişafı uzun illər ərzində təkamül yoluyla inkişaf etmiş ölkələrin iqtisadiyyatında özünün təməlini qoyan və formalaşdıran idarə üsulunun bir növüdür. Onun inkişafı bazar münasibətlərinin yaranması ilə birlikdə inkişaf etməyə başlamışdır. Həmçinin formalaşmış bir sahibkarlığın meydana gəlməsi XVII əsrin ikinci yarısına təsadüf edir. Tədricən elmdə xüsusi bir bilik sahəsi olan sahibkarlıq nəzəriyyəsini alimlər araşdırmağa başlamışdır. Alimlər tərəfindən hazırlanmış sahibkarlıq nəzəriyyəsinin inkişafı real sahibkarlığın gücünü qarşılıqlı olaraq əks etdirir (Cəbiyev və Qasımov, 2017).

Sahibkarlıq əsas istehsal amillərindən biridir və buna görə də istehsal və məşğulluq səviyyəsinin müəyyənləşdirilməsində əsas rol oynayır. Qloballaşma prosesi ilə yanaşı sahibkarlıq iqtisadi artım və inkişafı müəyyən edən əsas amilə çevrilmişdir. Beləliklə, ölkənin iqtisadi artım və inkişaf səviyyəsinin yüksəldilməsi məqsədilə zəruri siyasətin müəyyənləşdirilməsi üçün sahibkarlıq hərəkətverici qüvvələrinin müəyyən edilməsində həlledici əhəmiyyətə malikdir (Musayev, 2017).

Müasir qloballaşan dünyada sahibkarlıq iqtisadi artım və inkişafa əhəmiyyətli təsir göstərən əsas amillərdən biri olmuşdur. Deməli, sahibkarlığı müəyyən edən amillərin müəyyən edilməsi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə iqtisadi artım və inkişaf səviyyəsinin yüksəldilməsinə yönəlmiş müvafiq siyasətin işlənib hazırlanması üçün mühüm məsələdir (Hüseynov, 2009).

Sahibkarlığın determinantları da təhlilin səviyyəsinə uyğun olaraq öyrənilir. Ədəbiyyatlarda sahibkarlığın mikro, mezo və makro səviyyədə öyrənilməsi arasında fərqlər var. Mikro səviyyəli sahibkarlıq determinantının tədqiqatları fərdi şəxslər tərəfindən qərarların qəbul edilməsi və fərdlərin müstəqil işə cəlb edilməsi üçün motivasiya edilməsi prosesinə yönəldilmişdir. Məsələn, psixoloji xüsusiyyətlər, formal təhsil və digər bacarıqlar, eləcə də maliyyə aktivləri, ailə mənşəyi və əvvəlki iş təcrübəsi kimi şəxsi amillər fərdi şəxslərin öz-özünə işləyən qərarlarına təsir edən aspektlər hesab olunur. M.A. *Carree (1999)* və A.R. *Thurik* (1996) və Niels Bosma, hesab edirdilər ki, sənaye sektorları və mənfəət əldə etmək imkanları və giriş-çıxış imkanları kimi xüsusi bazar amilləri mezo səviyyədə sahibkarlığı müəyyən edən mühüm amillərdir. Mikro və mezo səviyyə tədqiqatlardan fərqli olaraq, makro səviyyədə aparılan tədqiqatlar mikro və mezo səviyyəni

birləşdirməyə və texnoloji, iqtisadi və mədəni dəyişənlər, eləcə də dövlət tənzimlənməsi kimi bir sıra ətraf mühit amillərinə diqqət yetirməyə çalışır (Cəbiyev və Qasımov, 2017).

Sahibkarlığın determinantları həmçinin əmək bazarı baxımından da başa düşülə bilər. Stimullaşdırıcı amillər, yaxud sahibkarlığa tələbat sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün imkanlar yaradır və texnoloji nailiyyətlər, istehlak tələbatının müxtəlifliyi, iqtisadiyyatın sənaye strukturu, dövlət tənzimlənməsi və iqtisadi inkişaf mərhələsi kimi amillərdən asılıdır. Cəlb etmə amilləri, yaxud sahibkarlıq təklifinin tərəfi əhalinin xüsusiyyətləri (yəni demoqrafik xarakteristikaları), gəlirlərin səviyyəsi, təhsil səviyyəsi, işsizliyin dərəcəsi, mədəni normalar və institusional mühit (yəni maliyyə, inzibati yüklənmələr və vergitutma dərəcəsi) ilə müəyyən edilir (Niftullayev, 2007).

**Sahibkarlıq Fəaliyyətinin Inkişafı Üzrə Ölkələrarası Müqayisə**

Dünya təcrübəsində müəssisələrin dəstəklənməsi və maliyyələşdirilməsi dövlətin və cəmiyyətin mənafeyi nəticəsində formalaşır. Buna uyğun olaraq dövlətin əsas məqsədi bazar iqtisadiyyatında müəssisələrin mövcud olub, uğurlu fəaliyyət göstərməsi və qlobal bazara çıxışı üçün iqtisadi-hüquqi imkanların yaradılmasından ibarətdir.

İnkişaf etmiş qərb ölkələrində kiçik biznesin inzibati cəhət formalaşması, iqtisadi və hüquqi cəhətdən köməyin müxtəlif metod və növlərindən: kiçik biznes üçün maliyyə dəstək proqramları, yeni yaradılmış müəssisələrlə bağlı dövlət strukturlarının yaradılmasına dəstək, dövlət dəstəyi ilə kiçik firmalara sifarişlərin verilməsi, vergi güzəştlərinin kiçik müəssisələrə tətbiqi, biznesin antiinhisar tənzimlənməsi, idarəetmə və texniki dəstəyin göstərilməsi və s. istifadə edirlər (Hüseynov, 2009)

Bir sıra inkişaf etmiş ölkələrdə məhz sahibkarlıq strukturlu müəssisələrin dəstəklənməsi və maliyyələşdirilməsi məqsədilə tətbiq olunan dövlət siyasətinin əsas vəzifələri aşağıdakılardır:

- ✓ vətəndaşların məşğuq səviyyəsinin yüksəldilməsi;
- ✓ sosial xərclərin aşağı salınması;
- ✓ innovasiya fəaliyyətinin canlandırılması;
- ✓ müasir “smart” texnologiyaların sahibkarlara verilməsi;
- ✓ investisiyaların cəlb edilməsi;
- ✓ start-upların maliyyələşdirilməsi.

Sahibkarlığın dövlət maliyyələşdirilməsi və dəstəklənməsi inkişaf etmiş ölkələrdə gələcəkyönümlü planların əsas istiqamətlərinə aid edilir. Bura dövlət büdcəsi hesabına maliyyələşdirilmə əsasında risklərin sığortalanması fondlarının və sığorta təşkilatlarının birbaşa subsidiyalaşdırılması, kreditlərin geri qaytarılması üçün zəmanətlərin verilməsi, kreditlərin aşağı faizlərlə verilməsi şəklində həyata keçirilə bilər (Tağıyev və Aslanzadə, 2017)

Yaponiya müasir dövrdə digər ölkələrlə müqaisədə sahibkarlıq fəaliyətinin inkişafı və dəstəklənməsində daha yüksək səviyyədə fərqlənir. Bu ölkədə kiçik müəssisələrə maliyyə vəsaitlərinin nəzərdə tutulması baş idarə və bəzi nazirliklərin illik xərclərində adi hal almışdır. Onlar bunu “mələk investisiya” adlandırırlar. Müəssisələr dövlət borc proqramları və investisiyalar çərçivəsində müəyyən olunmuş büdcə hesabları üzrə maliyyələşdirilir və əmanət kassalarının pulları, gəlir hissəsini pensiya fondlarının vəsaitləri, istiqrazların buraxılışı, sığorta fondu ilə təşkil edilir. Lakin bu vəsaitlər kiçik firmalara kommersiya kredit təşkilatları vasitəsilə istiqamətləndirilir.

Cənubi Koreyada isə dövlət tənzimlənməsi sistemi və iqtisadiyyatın yüksək işgüzar fəallığı bir-biri ilə qarşılıqlı əlaqəlidir. İri korporasiyalara malik Cənubi Koreya hal-hazırda Yaponiya və Amerikadakı kimi iqtisadiyyatını ön mövqelərə məhz sahibkarlıq fəaliyyəti hesabına çıxarmış və Cənubi Koreya iqtisadiyyatının əsasına çevrilmişdir (Tağıyev və Aslanzadə, 2017)

Təhlillərə əsasən deyə bilərik ki, sahibkarlıq fəaliyyətinin inkişafını məhdudlaşdıran başlıca problemlərdən biri maliyyə vəsaitlərinə əlyetərliliyin olmamasıdır. Maliyyə ölkələrin əksəriyyətinin iqtisadiyyatlarının uğurlu fəaliyyət göstərməsinə təsir edən əsas amillərdən biridir. Uyğun olaraq, Avropa Birliyi ölkələrini üç qrupa ayıra bilərik:

Birinci qrupa İsveç, İtaliya, Danimarka, Böyük Britaniya, İspaniya və Yunanıstan daxildir. Adı çəkilən ölkələrdə uğurlu inkişafın əsas amili maliyyə resursları əldə etməkdir.

İkinci qrupa daxil olan Finlandiya, Fransa, Portuqaliyada və Almaniyada sahibkarlıq fəaliyyəti ilə məşğul olacaq müəssisələr üçün ikinci yerdə maliyyələşmədir.

Üçüncü qrupa daxil edilmiş Niderland, Belçika, Lüksemburq və Avstriya kimi ölkələr qrupunda maliyyə resurslarının əldə olunması amili üçüncü yerdə, İrlandiyada isə dördüncü yerdə dayanır (Niftullayev, 2007).

İnkişaf etmiş ölkələr sahibkar firmalara dəstək olmaq məqsədilə planlaşdırılmış güzəştli vergitutma sistemini möhkəmləndirərək aşağıdakı müddəaları özündə ehtiva edir:

❖ müəssisənin tikinti sahəsinə, yeni texnologiyaya kapital qoyuluşları zamanı yaranan xərclərin emal sənayesi müəssisələri üçün mənfəət vergi dərəcəsində müəyyən faizə qədər güzəştlərin tətbiqi;
❖ azaldılmış mənfəət vergi faizlərindən sərbəst istifadə olunması;
❖ mənfəət vergisindən azad olunan xüsusi ehtiyat fondlarının yaradılması;
❖ vergi tətbiq olunmayan yeni ehtiyatın yaradılması;
❖ mənfəət və gəlirdən tutulan vergi dərəcəsinə differensial yanaşmanın tətbiqi.

Qeyd etmək lazımdır ki, verilən güzəştlər sahibkarlıqla məşğul olan müəssisələrin hamısına deyil, iqtisadiyyatın müxtəlif sahələrinə aid olan və ya yalnız ölkənin səmərəsiz ərazilərində yerləşən qruplarına şamil edilir. Bir neçə inkişaf etmiş dünya ölkələri müxtəlif bizneslərə güzəştlər edərək vergi siyasəti tətbiq edirlər: məsələn, Böyük Britaniyada fəaliyyət göstərən müəssisələrin vergi dərəcəsi 45% olmasına baxmayaraq, bu nəticələr kiçik firmalar üçün 30%, Niderlandda isə 60% əvəzində 30%-dir; oxşar güzəştlər Fransada, həmçinin Almaniya da vardır.

Sahibkarlıq müəssisələrinin əsas fondlarına vəsait qoyuluşu və risk kapitalının verilməsi təcrübəsi bir çox Avropa Birliyi üzvü olan dövlətlərdə xüsusən də Niderland, Fransa və Belçikada həyata keçirilir. Həmçinin adıçəkilən ölkələr zəmanət verərək vençur fondlarının yarana biləcək itkilərini qarşılayırlar.

Qərb ölkələrində yeniliklərə vençur müəssisələrinə kömək məqsədilə işlənib hazırlanmış proqramlar vasitəsilə maliyyələşdirmənin mənbələri, ölçü və istiqamətləri müəyyən edilir. İnkişaf etmiş ölkələrdə son onilliklərdə vençur kapitalı bazarı dinamik xarakter alaraq, bir neçə təşkilati formalarda: yeni yaradılan biznesə investisiya qoyan şirkətlər, nəhəng korporasiyaların vençur fondları və ixtisaslaşdırılmış müstəqil vençur kapitalı firmaları olan vençur fondları mövcuddur.

Sahibkarlığın inkişafı ilə əlaqədar yuxarıda qeyd olunan və ya başqa maarifləndirici tədbirlərin həyata keçirilməsi üçün sahibkarlıq fəaliyyətinə dəqiq məlumatların təqdim olunmasında göstərilən kömək çox əhəmiyyətlidir. Sahibkarlığın texnoloji inkişafına kömək siyasətinin bir hissəsi də

sahibkarlıq müəssisələrinin innovasiyalara, tədqiqatlara və təlim keçməyə əlçatanlığının yaxşılaşdırılmasıdır.

**Azərbaycanda Sahibkarlıq Fəaliyyətinin Iqtisadi Artıma Təsirlərinin Qiymətləndirilməsi**

Azərbaycan yalnız xarici resursların cəlb edilməsi hesabına deyil, ilk növbədə, öz resurs potensialının səfərbər edilməsi hesabına davamlı iqtisadi artımı təmin etmək imkanına malik ola biləcək ölkələrdən biridir. Resurslarla istehsal amilləri arasında bu cür qarşılıqlı əlaqə iqtisadi artımda dinamik xarakter daşıyır. Onun tədqiqatı zəngin resurs potensialına (xüsusilə təbii) malik ölkələrin nə üçün həmişə yüksək iqtisadi artım tempinə və yüksək həyat səviyyəsinə malik olmadığını izah etməyə kömək edir. Resurslar iqtisadi artımın yalnız potensial ehtiyatları və mənbələridir, real təkrar istehsal prosesində iqtisadi artım amillərinə çevrilirlər. Bundan başqa, istehsal resurslarının hazır məhsula çevrilməsində həlledici rol bazar iqtisadiyyatında sahibkara məxsusdur, yəni istehsal amillərinin və bütövlükdə istehsalın təşkilinin məcmusu funksiyasını yerinə yetirən şəxsdir. İqtisadiyyat nəzəriyyəsi üzrə müasir dərsliklərdə neoklassik məktəb ənənələrinə əsaslanan üç klassik istehsal amili (torpaq, əmək, kapital) ilə yanaşı sahibkarlıq qabiliyyətləri digər istehsal amillərinin, o cümlədən elmi-texniki tərəqqi ilə bağlı rasional birləşməsinin fəaliyyətini xarakterizə edən xüsusi növ amil kimi də ayrıca fərqləndirilir.

Bu gün ölkədə sahibkarlara dövlət qayğısı nəticəsində makroiqtisadi tarazlığa nail olunmuşdur. İqtisadiyyatın hərəkətverici qüvvəsi sayılan sahibkarlar qrupunun formalaşması üçün isə normativ-hüquqi bazanın əsası qoyulmuş, dövlətin özəl sahələrə dəstək göstərilməsi üçün tədbirlər planlarının icrasına başlanılmışdır (Nəbiyev və Xəlilov, 2014).

"Sahibkarlığın inkişafı, bazar iqtisadiyyatının formalaşması, müstəqil iqtisadiyyata imkanlar yaradılması bizim strateji yolumuzdur", fikrilə ümummilli lider Heydər Əliyev ölkədə özəl sahələrin rolunun gələcək iqtisadi inkişaf payı ilə sıx əlaqəli olduğunu vurğulayırdı (İmanov, 2007).

Məşğulluq qabiliyyətinin artırılmasında sahibkarlığın inkişafının mühüm əhəmiyyətini və ölkə iqtisadiyyatında sahibkarların rolunun artmasını nəzərə alaraq Prezidenti İlham Əliyevin imzaladığı 2016-cı ilki sərəncamına əsasən 25 aprel Azərbaycanda "Sahibkarlar günü" kimi təsis edilmişdir (Sahibkarlıq Fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, 1992).

Prezident İlham Əliyevin 31 iyul 2018-ci il tarixli Fərmanına əsasən Sahibkarlığın İnkişafı Fondu İqtisadiyyat Nazirliyinin tabeliyinə verilərək, Sahibkarlığa Kömək Milli Fondu ləğv edilmişdir.

Sahibkarlığın İnkişafı Fondunun əsas vəzifələrinə aşağıdakılar aiddir:

- investisiya layihələrinin və proqramların işlənib hazırlanması ilə bağlı sahibkarlıq fəaliyyəti subyektlərinə köməklik etmək;
- güzəştli kreditləşmə əməliyyatlarına dəstək məqsədilə investisiya layihələrinin tərtibində minimum tələbləri müəyyən etmək;
- investisiya layihələrini normativ-hüquqi bazaya uyğun olaraq maliyyələşdirmək;
- yeniliklərin və elmi-texniki biliklərin geniş vətəndaş kütləsinə çatdırılmasına təsir göstərmək;
- kadrların ixtisaslarının artırılması üçün sahibkarlıq subyektlərinə dəstək vermək;
- sahibkarlıqla ilə məşğul olan subyektlərin xarici iqtisadi fəaliyyətinin şaxələndirilməsinə və inkişaf etdirilməsinə yardım etmək.

Ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı sahəsində icra olunan sistemli fəaliyyətlər nəticəsində Azərbaycan iqtisadi göstəricilərinə görə 2020-ci ildə beynəlxalq qurumlarım reytinqlərində ön sırada qərarlaşmışdır. Azərbaycan Dünya Bankının 2020-ci il “Doing Business” hesabatına əsasən isə 190 ölkə arasında 28-ci sırada yer almışdır.

Koronvirus pandemiyası nəticəsində ölkə iqtisadiyyatının qapanması iqtisadi artımı sarsıtdı, maliyyə resurslarını azaltdı, işsizlik səviyyəsini artırdı, əsas dövlət və sosial xidmətlərin davamlılığına zərbə vurdu. Bununla yanaşı, hökumətin tətbiq etdiyi nəzarət tədbirləri və yoluxma qorxusu turizm, ictimai iaşə və pərakəndə satış sektorlarında istehlakçıların tələbatını azaltdı. 2020-ci ilin aprel ayında 304 min nəfər muzdlu işçinin əmək haqqına dəstək, 292 min mikrosahibkarlıq subyektinə maliyyə yardımı və müxtəlif nağd pul yardımları ilə əlaqədar olaraq dövlət xərclərinin 2 milyard dollara yaxın artdığı elan edildi.

Pandemiya dövründə Azərbaycanda sahibkarlıq subyektlərinə müvafiq dəstək mexanizmləri hazırlamış, iqtisadi fəaliyyət sahələrindən zərərin qarşılanması üçün müəyyən güzəştlər tətbiq olunmuşdur. Belə ki, bu dəstək mexanizmləri nəticəsində 2020-ci il üzrə zərər çəkmiş sahibkarlıq subyektləri torpaq və əmlak vergisindən azad edilmişdir. Fəaliyyət göstərdiyi sahələrdə mikrosahibkarlara dəstək mexanizmlərinə uyğun olaraq sadələşdirilmiş vergi ödəmələrinin müddəti uzadılmışdır. Həmçinin, əhaliyə və sahibkarlara dəstək proqramının ikinci mərhələsi çərçivəsində 2020-ci ilin avqust ayında 234 minə yaxın işçini əhatə edən 23 min vergi ödəyicisinə 52 milyon manat vəsait ödənildi. Bundan başqa, 50 minə yaxın fərdi sahibkara 12,5 milyon manat birdəfəlik maliyyə dəstəyi göstərilmişdir (İmanov, 2007).

Qeyri-neft sektoru və biznes mühitinin inkişafında görülən sistemli tədbirlərin nəticəsində son 20 ildə kiçik müəssisələrin sayı 4 dəfə, sahibkarlıq subyektlərinin sayı 5 dəfə, fərdi sahibkarların sayı 7 dəfə, hüquqi şəxslərin sayı 3 dəfə artmışdır. Onu da əlavə etmək istəyərdim ki, 2001-2021-ci illərdə ölkəmizdə qeyri-neft sektoru məhsullarının ixracı 4 dəfə artmışdır. Ölkə iqtisadiyyatına otuz il müddətində isə 280 milyard dollar investisiya qoyulmuşdur.

2021-ci ilin birinci rübündə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyərin 7,1 faiz azalması, qarşılığında isə qeyri-neft sektorunda əlavə dəyərin 2,1 faiz artması, qeyri-neft sektorunda sahibkarlıq fəaliyyətinin inkişafının əsas göstəricisidir.

Azərbaycanın ümumi ixracı 2020-ci il ərzində 14 milyard dollar, qeyri-neft sektoru üzrə isə 1,9 milyard dollar həcmində olmuşdur. Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2020-ci il ərzində 910 sahibkara 130 milyon manatadək güzəştli kredit verilmiş, o cümlədən, bu kreditlər hesabına 2800-dən çox yeni iş yerinin yaradılmasına şərait yaranmışdır.

Sahibkarlığın İnkişafı Fondu tərəfindən son illərdə verilmiş güzəştli kreditlərin 70 faizi aqrar sahənin, 30 faizi isə sənaye sahələrinin inkişafına yönəldilmişdir. Güzəştli kreditlərin 30 faizi Bakı qəsəbələrinin, 70 faizi isə regionların payına düşmüşdür. Həmçinin, sahibkarlıq sahəsində lisenziyanın verilməsinə görə dövlət rüsumları Bakıda 3 dəfə, regionlar üzrə isə 5 dəfə azaldılmış, icazələrin sayı 5 dəfə azaldılaraq 82-ya endirilmiş, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 57-dan 41-ə düşmüşdür. Əlavə olaraq, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə investisiya təşviqi sənədləri verilmişdir.

Son illər respublikamızda iri infrastruktur layihələrinin və dövlət proqramlarının hazırlanması – regionların sosial-iqtisadi inkişafına, əhalinin gəlirlilik səviyyəsinin artırılmasına, sahibkarlığın inkişafına şərait yaratmışdır. Uyğun olaraq, Azərbaycan “yuxarı orta gəlirli” ölkələr sırasında öz mövqeyini son illərdə daha da möhkəmləndirmişdir (Nəbiyev və Xəlilov, 2014).

Sənaye sektorunun davamlı şəkildə innovasiya yönümlü inkişaf üçün "Azərbaycan 2020 gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində bu günə qədər çoxsaylı layihələr hazırlanıb, ən müasir infrastrukturlar yaradılıb, həmçinin yeni islahatlar hazırlanmağa və aparılmağa davam etdirilir.

Bu siyasətə uyğun olaraq, son illər istehsal olunan məhsulların rəqabətədavamlılığı artır, ÜDM-nin artımı isə qeyri-neft sektorunda istehsal olunan məhsullar hesabına təmin edilir. Belə ki, 2020-ci ildə pambıq lifinin ixracı **133,2** milyon, meyvə-tərəvəz məhsullarının ixracı **607,7** milyon, kimya sənayesi məhsullarının ixracı **85,2** milyon, alüminiumdan hazırlanan məmulatların ixracı **113,4** milyon, çay ixracı **9,5** milyon, şəkər ixracı **26,9** milyon, qara metallardan hazırlanan məmulatların ixracı **52,4** milyon, pambıq ipliyinin ixracı **19** milyon, heyvan və bitki mənşəli piylər və yağların ixracı **24,7** milyon, spirtsiz və spirtli içkilərin ixracı **12** milyon dollar təşkil edib.

Sahibkarlıq subyektləri tərəfindən ölkə iqtisadiyyatına qoyulan investisiyalar 2019-cu ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsinə 2,3 faiz, 2020-ci ildə isə artaraq 7,1 faiz olmuşdur. Tikinti sektoruna qoyulan investisiyalar 2019-ci ildə 29,8 faiz olsa da, 2020-ci ildə artaraq 47,0 faiz olmuşdur. Xidmət sektoru isə, əksinə olarq 2019-cu ildə 65,2 faiz olsa da, 2020-ci ildə azalaraq 36,9 faiz olmuşdur.

Aqroparkların, sənaye parklarının və sənaye məhəllələrinin idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 22 yanvar 2021-ci il tarixli Fərmanına əsasən "İqtisadi Zonaların İnkişafı Agentliyi" yaradılmışdır.

Xarici ölkələrin təcrübələrinə əsasən demək olar ki, texnologiya və sənaye parklarının yaradılması və dövlət dəstəyinin sahibkarıq üzrə fəaliyyət göstərən subyektlərə göstərilməsi ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inkişafının əsas amillərdən biridir (İmanov, 2007).

Sənayeləşmədə və innovasiya sahibkarlığının inkişafında ölkədə yaradılan texnoparkların əhəmiyyəti danılmazdır. Texnoparklar yüksək keyfiyyətdə və həcmdə məhsullar hazırlamaq qabiliyyətinə malikdir. Əlbəttə ki, buna da müasir texnologiyalardan və elmin son naliyyətlərindən istifadə etməklə nail olunur. Bu günlərdə respublikamızın bir çox bölgəsində, eləcə də paytaxt Bakıda texnoparkların və sənaye məhəllərinin yaradılmasında əsas məqsəd yerli həmçinin, xarici sahibkarlığın inkişafı və müxtəlif istiqamətlər üzrə ixtisaslaşmalarına şərait yaratmaqdır. Bu yeni yaradılan və istifadəyə verilən texnoparklar və sənaye məhəllələri yerli və xarici sahibkarların fəaliyyətini getdikcə genişləndirir. Burada da əsas məqsəd yerli və xarici sahibkarların çalışmasını təmin etməkdir. Texnoparklara investisiya cəlb olunması üçün onlara müəyyən güzəştlər tətbiq edilir. Aşağıda verilmiş məqamlara görə texnoparklarda reallaşdırılan fəaliyyətlər əhəmiyyətli hesab olunur:

- işsizliyin azaldılması;
- universitet və kolleclərin cəmiyyətin inkişafında daha mühüm rol oynaya bilməsi üçün lazım olan dəstəyin təmin olunması;
- sənayenin müxtəlif sahələrinin inkişaf etdirilməsi üçün tələb olunan təcrübə və biliklərin təmin edilməsi;
- yüksək texnologiyaların inkişafı, yeni xidmət və məhsulların formalaşdırılması, eləcə də rəqabətə davamlılığın artırılması.

Azərbaycan xalqı üçün təqvimin 2020-ci ili tarixə həkk olunmuş əlamətdar tarixdir. Belə ki, Prezident-Ordu-Xalq birliyi 44 günlük Vətən müharibəsindən qalib xalq kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü artıq bərpa edilmişdi. Bu böyük qələbədən sonra Qarabağda

işləmək istəyən sahibkarların təkliflərini toplayaraq üçün sistemli işçi qrupu yaradılmış və sahibkarlar tərəfindən 68 ideya təklif edilərək, hökumətə təqdim edilmişdi. Bu təkliflərlə əlaqəli artıq bir çox layihələr peallaşdırılmaqdadır və digərlərinin reallaşdırılması nəzərdə tutulur. Həmin layihələr – "Ağıllı şəhər", "Ağllı kənd", "Yeni iqtisadiyyat", "Yeni memarlıq" və digər layihələrdir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiqi 2020-ci ildən sonrakı illərin strateji və uzunmüddətli inkişaf mərhələlərini əhatə edir. Bu sərəncamın illər ərzində icrası üçün ilk növbətə dövlət-özəl münasibətlərinin möhkəmlənməsi istiqamətində mühüm addımlar atılır. Uğurların davamlılıq və dayanıqlılığının təmin olunması sahibkarlara göstərilən maliyyə, texniki, metodiki, hüquqi və sair xidmətlərin genişləndirilməsi, sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin mükəmməlləşdirilməsi, bu sahədə təşkilati yanaşmanı əhəmiyyətini artırır, həmçinin keyfiyyət səviyyəsinin yüksəldilməsi kimi göstəriciləri zəruri edir.

Sahibkaralara göstərilən diqqət və qayğını nəzərə alaraq onu qeyd edə bilərik ki, sahibkarlar da öz müəssisələrini müasir standartlara uyğun yaratmalı, ixtisaslaşmış menecerlərini işə cəlb etməli və peşəkarlıqlarını artırmalı, rəqabətə davamlı məhsulları ixrac bazarlarında istehsal etməlidirlər (Nəbiyev və Xəlilov, 2014).

**Nəticə**

Tədqiqat işinin nəticəsinə uyğun olaraq, sahibkarlıq fəaliyyətinin inkişafı ölkədə həm rəqabət mühitinin inkişafına, həm də məşğulluğa müsbət təsir göstərir. Nəticə etibarilə ölkə iqtisadiyyatının inkişafı və vətəndaşların rifah səviyyəsinin yüksəldilməsi icra olunan mexanizmlərdə özünü göstərməkdədir. Bundan başqa, sahibkarlığın inkişafı ölkə iqtisadiyyatında yarana biləcək böhranların nəticəsinin maksimum səviyyədə elastikliyinə və böhran vəziyyətindən çıxışın intensivləşdirilməsinə imkan verir.

Tədqiqatın nəticəsindən irəli gələrək sahibkarlıq fəaliyyətinin iqtisadi artıma təsirlərinin qiymətləndirilməsi baxımından aşağıdakılar təklif olunur:

- Sahibkarlıq subyektləri üçün bu sahədə zəruri mühitin formalaşması, normativ-hüquqi aktların və sosial-iqtisadi sənədlərin qəbul olunması, sənədlərin icrasının sürətləndirilməsi, nəzarətin gücləndirilməsi və işləkliyinin təmin etdirilməsi;
- Ölkə iqtisadiyyatının mövcud mərhələsində sahibkarlığın bütün növlərinin inkişaf etdirilməsi;
- İqtisadi fəaliyyətlə məşğul olan sahibkarlıq subyektlərinin ilkin kapitala tələbinin az olması, ideyaları reallaşdırmaq imkanının olması, istehlakçı tələbatlarına uyğun keyfiyyətli və formalı məhsulların tez bir zamanda istehsal edilmə və dəyişdirilmə imkanlarının olması;
- Perspektivli sahələrin inkişafını sürətləndirmək məqsədilə dövlət tədbirləri və məqsədli proqramların icra etdirilməsi;
- Sahibkarlıq subyektlərinin hüquqlarının müdafiəsini təmin etmək məqsədilə yeni normativ aktların və qanunların qəbulu, uyğun qanunvericilik bazasının təkmilləşdirilməsi;
- Ölkədə vergi qanunvericiliyinə uyğun əlavələr və dəyişikliklər icra etməklə, vergi güzəştlərinin sahibkarlığın əsas istiqamətlərinin inkişafı üçün tətbiq edilməsi;
- Rəqabət Məcəlləsinin qəbulunun və icrasının sürətləndirilməsində sahibkarlıq subyektləri üçün əlverişli rəqabət mühitinin yaradılması.

Respublikamızda formalaşan texnoloji yeniliklər, istər texnoparklar və sənaye olsun, istərsə də hələ də formalaşan və reallaşdırılmaqda olan ağıllı texnologiyalar bizə uğurlu innovasiya siyasətini reallaşdırmağa dəstək verir. Texnoloji start-upların yaradılması, uğurlu innovasiya siyasətinin qurulması ölkə iqtisadiyyatında son illərdə özünü aydın göstərir. Bu prosesdə rol oynayan amillərin innovasiyayönümlü iqtisadiyyatdan asılı olaraq məhsuldarlığı və sürətləndirici inkişaf fəaliyyəti görülən işin nəticəsidir.

**Ədəbiyyatlar**

Sahibkarlıq Fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı-1992.

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi, Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 dekabr 2016-cı il, № 1138.

Birləşmiş Millətlər Təşkilati və Azərbaycan arasında Dayaniqli Inkişaf üzrə Əməkdaşliğa üair çərçivə sənədi, 2021-2025 illər üzrə.

Cəbiyev F., Qasımov İ. İnnovasiya sahibkarlığı və Texnoparklar. Bakı-2017, səh 30-82.

Hüseynov T. Firmanın iqtisadiyyatı, Dərslik, Bakı-2009.

İmanov Ə. Kiçik sahibkarlıq, Bakı-2007

Musayev A. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması, Bakı-2014, səh,130-175.

Nəbiyev A.X., Xəlilov A.İ., “Firma iqtisadiyyatı və sahibkarlıq”, Dərslik, BAKI – 2014. səh 24-74, 106-121

Niftullayev V. “Sahibkarlığın əsasları”, Bakı-2007.

Tağıyev A.H., Aslanzadə İ.A.İnnovasiya menecmenti (Kitab). I hissə. Bakı, 2017, səh-356-368

# B2B Sektorunda Elektron Ticarətin İnkişafına Təsir Edən Amillər: Azərbaycan Nümunəsi

**Nuruyeva Bəsdi**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**basdi_nuruyeva@unec.edu.az**

## Xülasə

İnkişaf etməkdə olan ölkələrin şirkətləri B2B sektorunda elektron ticarəti xarici ölkələrlə ticarəti artırmaq üçün effektiv vasitə kimi istifadə edirlər. Lakin təcrübədə qeyd olunan ölkə şirkətləri üçün yeni xarici ticarət imkanlarının yaradılmasında gözlənilən performansı göstərmir. İnkişaf etməkdə olan bir ölkə olaraq Azərbaycanda da B2B sektorunda e-ticarətdən istənilən səmərəliliyi əldə etmək mümkün deyil. Bu araşdırmanın əsas məqsədi Azərbaycanda B2B sektorunda elektron ticarətin inkişafı və bu inkişafa təsir edən amilləri araşdırmaqdan ibarətdir. B2B sektorunda elektron ticarətdə qarşıya çıxan maneələrin və problemlərin aşkarlanması, bu sektora təsir edən amillərin təhlili üçün şirkətlərin müsbət və mənfi təcrübələr çərçivəsində dərin bilik istehsalının zəruri olduğu araşdırmamızda kəmiyyət metodu ilə məlumat əldə etməyin çətin ola biləcəyini nəzərə alaraq keyfiyyət tətqiqat metodunun bir növü olan müsahibə metodundan istifadə olunmuşdur. Azərbaycanda B2B sektorunda elektron ticarət edən müəssisələrin say azlığı səbəbilə müsahibədə 4 şirkət iştirak etmişdir. İştirakçıların icazəsi ilə müsahibə zamana səs yazısı alınmışdır. İştirakçıların cavablarına əsasən B2B sektoruna maneə olan amillər və B2B sektorunda elektron ticarətdən əldə edilən faydalar araşdırılmağa çalışılmışdır.

**Açar sözlər:** Elektron ticarət, B2B, Bizneslər arası ticarət, Azərbaycan B2B sektoru

## Abstract

Companies in developing countries are using e-commerce in the B2B sector as an effective tool to increase trade with foreign countries. However, the experience does not show the expected performance in creating new foreign trade opportunities for the companies of the mentioned country. As a developing country, it is not possible to achieve the desired efficiency from e-commerce in the B2B sector in Azerbaijan. The main purpose of this study is to investigate the development of electronic commerce in the B2B sector in Azerbaijan and the factors influencing this development. In our research, in which it is necessary to produce in-depth knowledge within the framework of positive and negative experiences of companies in order to detect the obstacles and problems encountered in e-commerce in the B2B sector, and to analyze the factors affecting this sector, we used the interview method, which is a type of qualitative research method, taking into account that it may be difficult to obtain information with the quantitative method has been done. 4 companies participated in the interview due to the small number of electronic trading enterprises in the B2B sector in Azerbaijan. With the permission of the participants, the Interview was recorded. Based on the answers of the participants, it was tried to investigate the factors that are obstacles to the B2B sector and the benefits obtained from electronic commerce in the B2B sector.

**Keywords:** electronic commerce, B2B, Business to business trading, Azerbaijan B2B sector

## Giriş

**Mövzunun aktuallığı:** Məlumdur ki, internetin həyatımıza daxil olmasıyla bir çox sahədə olan vərdişlər dəyişdi və hər şey artıq elektron platformalar üzərindən irəliləməyə başladı. Dəyişən anlayışlardan biri də ticarət anlayışı oldu. Belə ki, ənənəvi ticarət elektron ticarətlə əvəz olundu. Elektron ticarət dünyada son 15-20 ildə aktuallıq qazandı, informasiya və kommunikasiya vasitələrindən istifadənin adiləşdiyi bir dövrdə ölkələr satış əlaqələri, o cümlədən də elektron ticarət əlaqələri olmadan inkişaf edə bilməzlər.

Koronavirusunda bu sahəyə ciddi təsirləri oldu. Koronavirus (Covid-19) digər bütün sektorlara mənfi təsir göstərsə də e-ticarət sahəsində isə böyük bir yüksəlişə səbəb oldu. Elektron ticarət koronavirus sonrası yeni bir dövrə qədəm qoydu deyə bilərik. Elektron ticarət hətta bununla bağlı tərəddüdləri olan, ənənəvi ticarəti üstün tutan insanların belə həyatlarının bir parçası olmağa başladı. Koronavirus əslində reallaşmaqda olan ticarət transformasiyasını, başqa bir sözlə desək fiziki mühitdən virtual mühitə keçid prosesini çox ciddi şəkildə sürətləndirdi. Ticarətin elektron ticarətlə əvəz olunması özünü ticarətin müxtəlif növlərində eləcə də bizneslər arası ticarətdə (B2B) göstərməyə başladı. B2B formatında ixrac mexanizmlərinin rəqəmsallaşdırılması bu yaxınlarda hazırlanmış 2025-ci ilə qədər Milli İxrac Strategiyasının ən mühüm məqamlarından biridir. Həmçinin, Azərbaycanın İqtisadiyyat Nazirliyi türkdilli ölkələrlə elektron ticarətin genişləndirilməsi təşəbbüsünü fəal şəkildə təbliğ edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tətqiqat işinin məqsədi dünyanın qloballaşması nəticəsində yeni bir fəaliyyət növü kimi meydana çıxmış elektron ticarətin B2B sektoru üzərində tətbiqinin inkişaf istiqamətlərini müəyyən etmək, bu sahədə olan problemi aşkar etmək və problemin həll yollarını taparaq bu sahəyə olan marağı artırmaqdan ibarətdir Tədqiqatın vəzifələri bunlardır:

-Elektron ticarətin ümümi xarakteristikasını təhlil etmək

-Azərbaycanda B2B sektorunda elektron ticarətlə bağlı vəziyyəti təhlil etmək

-B2B sektorunda elektron ticarətin inkişaf perspektivlərini müəyyənləşdirmək

-Bu sektorun ölkəmizdə inkişafının təkmilləşdirilməsi və bununla bağlı təkliflər və tövsiyələr vermək.

**Tətqiqat metodları:** Tədqiqat metodu olaraq iqtisadi araşdırmalarda tez - tez istifadə olunan keyfiyyət tətqiqat metodundan istifadə olunacaqdır.. Bu metodun növlərindən biri olan musahibə (üz-üzə görüş) metodu vasitəsilə Azərbaycanda B2B sektorunda (elektron ticarət edən və etməyən) fəaliyyət göstərən müəssisələrə variantsız suallar verilərək onların bu mövzuda olan fikirləri və düşüncələri oyrəniləcəkdir. Musahibə zamanı səs yazma cihazlarından istifadə olunacaq, məlumatlar yazılı hala salınacaqdır. Daha sonra isə əldə olunan dataların tətqiqatin probleminə aid nələr dediyi və hansı nəticələri ortaya qoyduğu müəyyənləşdiriləcəkdir. Əldə olunan nəticələrin elmi inandırıcılığı üçün güvənirlik testi ediləcəkdir.

**Tədqiqatın məhdudiyyətləri:** Dissertasiya mövzusunun daha yaxşı analiz edilməsi, müəyyən məlumatlar əldə etmək məqsədi ilə aparılan tədqiqat zamanı Azərbaycan dilində ədəbiyyatın az olması, daha öncə kifayət qədər araşdırmalar edilmədiyi üçün inkişaf göstəricilərini əldə etmək baxımından bəzi çətinliklərlə qarşılaşılmışdır. Bu dissertasiya işinin uğurlu olması və gələcək tədqiqatlar üçün məlumat mənbəyi olması ümid edilir.

**Tədqiqat ilə bağlı əsas istinad olunan mənbələr:** Bu məqalənin hazırlanmasının əsasını son illərdə yazılmış dünyada və ölkəmizdə bu sahəni araşdıran iqtisadçıların, mütəxəssislərin elektron ticarətin inkişafa , elektron ticarətin tarixinə,elektron ticarətin biznes modellərinə xüsusilə B2B sektoruna həsr edilmiş əsərləri,eyni zamanda dünyanı əhatəsinə alan covid – 19un elektron ticarətə olan təsirlərilə bağlı tədqiqatlar, beynəlxalq jurnallarda dərc olunan məqalələri və digər əhəmiyyətli materiallar təşkil etmişdir. Həmçinin məqalə yazılarkən əvvəlki illərin magistratura və doktorantura dissertasiyaları, Azərbaycan Respublikasının e-ticarət haqqinda qanunu da informasiya bazası kimi götürülmüşdür.

**B2B Sektorunda Elektron Ticarətin Inkişafina Təsir Edən Amillər**

Hər bir ölkə qlobal B2B bazarlarında müəyyən pay əldə edə bilər. Vacib olan bu qlobal bazarda böyük və davamlı paya sahib olmaqdır. Kşetri və Dholakia ölkələrin B2B çərçivəsində əldə etdikləri bazar paylarının bəzi amillərdən asılı olduğunu qeyd edirlər (Kuyulu, 2019).

**Texnoloji amillər**

Müasir biznes üçün İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) istifadə mütləqdir. İnternet biznesləri açıq və qlobal kommunikasiya şəbəkələri ilə təmin edir və biznesin xarici bazarlara çıxması üçün virtual zəmin yaradır. Biznesdən biznesə ticarət (B2B) inkişaf etmiş ölkələrdəki istehsalçılara qlobal bazarlardan daha yaxşı məlumat toplamaq və yeni biznes tərəfdaşları tapmaq imkanı verir (Güler., 2010). Emre Güler tərəfindən İzmirdə fəaliyyət göstərən kiçik və orta sahibkarlarla aparılan müsahibələrin nəticələrinə görə; Müəssisələr ixrac, idxal və xarici tərəfdaşlıqlar üçün B2B elektron ticarətindən geniş istifadə edirlər.

Qlobal xarici ticarətdə rəqabət üstünlüyünün əldə edilməsi, bu üstünlüyün qorunub saxlanılması, ölkələrin və şirkətlərin bazara daxil olma vaxtı ilə sıx bağlıdır. Ancaq bazara ilk daxil olanların, yoxsa bazar bir az daha yetişəndən sonra daxil olanlarmı daha üstün olduğu məsələsi bir az qarışıqdır (Sila, 2013). Liberman və Montqomeri, yeni təcrübədə liderlik yüksək risklər yaratsa da, davamlı rəqabətə nail olmaq vacibdir, çünki, bu bir güc yarada bilər deyir. Tədqiqatları nəticəsində oxşar nəticələrə çatan Song və digərləri, hazırkı təcrübədə iştirak edənlərin yalnız öz səhvləri ilə qarşılaşdıqlarını və əvvəllər edilən səhvlərdən qaçmaq fürsətinə sahib olduqlarını bildirdilər. Çox güman ki, B2B tipli bazarların inkişafı inkişaf etməkdə olan ölkələrlə (İEOÖ) müqayisədə inkişaf etmiş ölkələrdə (İEO) daha tez baş vermişdir. Bu sektorun inkişafının informasiya emalı texnologiyalarının inkişafı və geniş tətbiqi ilə əlaqəsi olduqca yüksəkdir. (Kuşat, 2016).

Müəssisələr müştəriləri və təchizatçıları ilə tez ünsiyyət qurmalıdır. 1990-cı illərə qədər şirkətlər poçt və ya telefon vasitəsilə yazılı və ya səsli ünsiyyət qururdusa, bu gün informasiya texnologiyaları vasitəsilə şəbəkə və internet üzərindən daha sürətlə formada ünsiyyət qura bilirlər. Son illərdə texnologiyanın ətraf mühitə ən böyük təsiri interneti təşkil edən kompüter şəbəkələri tərəfindən yaranan onlayn qlobal ticarət platforması olmuş və bu, bu qlobal platformada ticarət etmək istəyən hər ölçüdə şirkətlər üçün böyük imkanlar yaradılmışdır. İnternet dünya səviyyəsində milyonlarla istehlakçının toplanması ilə yaranan, dünya səviyyəsində istifadə oluna bilən bir texnologiyanı mal və xidmətlər satmaq üçün istifadə edilən, böyük alıcı kütləsinin toplanması üçün qlobal bir məkan və aşağı sabit və əməliyyat xərclərilə təmin etməlidir. B2B internet marketinqinin effektiv olması üçün texnoloji infrastruktur və korporativ mədəniyyətin qarışığına ehtiyac vardır. Şirkətlər rəqabət üstünlüyü əldə etmək üçün qlobal İKT-dən (İnformasiya Kommunikasiya Texnologiyaları və ya İnformasiya Sistemləri) istifadə etməkdə həssas olmalı və öz texnoloji infrastrukturunu inkişaf etdirməlidirlər. Bütün şirkət təşkilatını əhatə edən genişzolaqlı telekommunikasiya sistemlərindən istifadə edərək, B2B e-ticarət etmək istəyən şirkətlər; O, bütün təşkilatını magistrallar, açarlar, marşrutlaşdırıcılar, multipleksorlar vasitəsilə internet texnologiyası ilə təchiz etməlidir. Əsas informasiya texnologiyaları resursları; Kompüterlər, Mobil Cihazlar, Saxlama Cihazları vəKompüterləri Bir-birinə bağlayan Telekommunikasiya Qurğularından ibarətdir. "İnternet, informasiya və kommunikasiya texnologiyalarının marketinq funksiyalarına təsiri şirkətə yeni resurslar təqdim edirsə, onlardan istifadə etmək vacibdir" (Uğur, 2021).

**Mədəni amillər**

Beynəlxalq səviyyədə fəaliyyət göstərən hər bir müəssisə sosial-mədəni fərqlərdən təsirlənir, çətinliklərlə qarşılaşır. Ölkədən ölkəyə, şəhərdən şəhərə sosial-mədəni xüsusiyyətlər fərqlənir. Dil, din, əxlaq, mədəniyyət, adət-ənənə, iqlim, sənət anlayışı, siyasi həyat tərzi və iqtisadi həyat standartları, kimi amillərə görə dəyişən sosial-mədəni maneələr çox vaxt müəssisələr arasında ünsiyyətin yaranmasına mane olur. Menecerlər yeni B2B marketinq strategiyasına daxil olmaq qərarı verərkən çaşqınlıq yaşayırlar. Çünki, bu yeni prosesdə çox fərqli mədəniyyətlər və iş mühitləri ilə qarşılaşma ehtimalı çox yüksəkdir və rəqabət üstünlüyünün əldə olunub-olunmayacağı isə bəlli deyildir. Həqiqətən də hər bir ölkənin, hər şirkətin özünəməxsus biznes mədəniyyəti, iqtisadi, siyasi və hüquqi strukturu var və bu struktura virtual əməliyyat da əlavə olunduqda qeyri-müəyyənlik pik həddə çatır Biznesdən biznesə elektron ticarətin ən əhəmiyyətli faydalarından biri də bu nöqtədə ortaya çıxır. B2B vasitəsilə aparılan işgüzar əlaqələrdə üzbəüz görüşə və fiziki təmaslara ehtiyac olmadığı üçün sosial-mədəni fərqlərdən yaranan maneələrin qarşısı alınır. xüsusilə xarici Bazarlara ilk dəfə girəcək müəssisələr üçün ən mühüm maneələrdən biri aradan qaldırılır.

**Rəqabət amili**

Dünya ticarətindəki payını artırmaq istəyən hər ölkə xarici bazarlara açılmaq istəyən yerli bizneslərə elektron bazarlara üzv olmaq üçün on minlərlə dollarlıq təşviqlər verir. Bunun səbəbi

1)Xarici bazarlarda yerli mal və xidmətlərin daha çox satışı ;

2) daxil olan valyutanın miqdarında və məşğulluqda artım

3)Xarici bazarlardan daha keyfiyyətli və daha ucuz idxal etməklə, daha rasional qərarlarla iqtisadiyyatın inkişafına müsbət töhfə vermək

4) Xarici bazarlarda tərəfdaşlıq əlaqələri quran, investisiyalar yatıran, iri tenderlər alaraq ölkəni kommersiya təmsilçisinə çevirmək

5) ÜDM-ni daha da artırmaq

**Qloballaşma amili**

B2B məhsullarını araşdırılan zaman qlobal şirkətlərlə müqayisədə daha qlobal olan şirkətlərin nisbətən aşağı səviyyədə aktiv olduğu müşahidə edilir. B2C satışlarında isə vəziyyət tam əksinədir. Bunun səbəblərindən biri B2C məhsulları haqqında məlumatın ölkədən ölkəyə ötürülməsinin aşağı olması və yerli məlumatların əldə edilməsinin baha olmasıdır. Qlobal firmalar B2C xidmətlərini təmin etmək üçün tələb olunan dillə bağlı milli fərqlərdən, mədəni və hüquqi fərqlərdən irəli gələn problemləri həll etməkdə tərəddüd edə bilirlər. Bu, xüsusilə regionlara görə çox fərqli olan maliyyə sektoruna aiddir. Oxşar vəziyyət müştəri xidmətlərində də mövcuddur. Yerli şirkətlər bu baxımdan qlobal şirkətlərdən bir addım öndədir. Bunun səbəbi yerli firmaların yerli təchizat zənciri şəbəkələri ilə daha sıx bağlı olması ola bilər. B2B ilə bağlı aparılan araşdırmalar nəticəsində B2B sektorunda müsbət istiqamətdə artım olduğu, B2C sektorunun isə bunun əks istiqamətdə inkişaf etdiyi və getdikcə daha çox lokallaşdığı qənaətinə gəlinmişdir ( Gibbs, Dedrick, Kraemer, 2005). B2B sektorunun Təchizatçılar və biznes tərəfdaşları ilə koordinasiya kimi yuxarı doğru artım göstərən aktivlərdən daha çox təsirlənərkən B2C e-ticarət fəaliyyətləri isə daha çox satış və bazar mövqeyi kimi amillərdən təsirlənir (Eriş, 2008).

**Etibarlılıq amili**

Yaxşı bir marketinq mütəxəssisindən mövcud müştərilərini qorumaqla yanaşı, bu müştərilərə yenilərini əlavə edəcək bir performans göstərməyi istənilir. Bu göstəriciyə nail olmaq üçün etibarlı sisteminin qurulması lazım olduğuna inanılır. Xüsusilə bu gün B2B sektorunda elektron ticarət edən potensial istifadəçiləri sistemə hələ də tam etibar etmirlər (Chaffey, Ellis, Mayer və Johnson, 2006). Bu etibarsızlığın ən əhəmiyyətli səbəbi məlumat çatışmazlığına əsaslanan narahatlıqdır. Lancastre və Lages-in araşdırmaları B2B sektoru ilə alıcılar arasında qurulan əlaqələrdə həm biznes öhdəliklərinin, həm də inam elementinin çox vacib olduğunu ortaya qoyur. Yenə eyni tədqiqat nəticələri göstərir ki, məhsul qiymətləri və fürsətçi davranışlar B2B sektorunda elektron bazarlar arasında biznes öhdəliklərinə və etibar faktorlarına mənfi təsir göstərir; təchizatçı siyasətləri, rabitə və məlumat mübadiləsi müsbət təsir göstərdiyini vurğulayır. Anderson və Weitz etimadı "bir tərəfin digər tərəfin həyata keçirdiyi hərəkətləri müəyyən edilmiş şərtlər daxilində yerinə yetirəcəyinə dair inam" kimi açıqlayırlar. Bu mənada inam, xüsusilə B2B kimi alıcılar tərəfindən çox qarışıq üsullar sərgiləyən marketinq üsullarında etibar böyük əhəmiyyət kəsb edir. Çünki alıcılar ehtiyac və məqsədləri istiqamətində irəli sürdükləri tələblərini maddi və mənəvi qeyri-müəyyənliklərdən uzaq reallaşdırmağa üstünlük verirlər. Güvən ünsürü satıcı və alıcı arasında uzunmüddətli etibar münasibətlərin qurulmasında da mühüm rol oynayır. Xüsusilə xarici ticarət baxımından qısamüddətli ticarət əlaqələrinin qurulması eyni zamanda böyük vaxt və bazar itkilərinə səbəb ola bilər. B2B şirkətlərinin brendinq prosesləri B2B sektorunda etibar meyarlarının təmin edilməsində və saxlanmasında da vacibdir. Güclü B2B brendi bazarda keyfiyyətin mövcudluğunu və etibarlılığı vurğulayan gücləndirici təsir göstərə bilər. Michaelidou və digərlərinin araşdırması göstərir ki, B2B sektorunda fəaliyyət göstərən kiçik və orta bizneslər sosial mediada öz brendlərini dəstəkləmək üçün xərclərini artırmağa hazırdırlar.

Ümumiyyətlə elektron ticarətdə güven son günlərin ən aktual mövzularından biridir. İnternetdən istifadə edənlər şəxsi məlumatlarının oğurlana biləcəyini düşünərək elektron ticarətdən imtina edirlər (Yüksək, 2020).

**Siyasi amillər**

Müxtəlif akademik tədqiqatlarda Kiçik və orta bizneslərdə B2B e-ticarətinin mənimsənilməsinin faktorları olaraq xarici təsir amilləri (məsələn, mütəxəssis işçi qüvvəsi, hökumət) tədqiq edilmişdir (Ahmad, Bakar, Faziharudean, 2015). Kuan və Çau araşdırmalarında KOB – lərin yeni texnologiyadan istifadə etməsinin hərəkətverici qüvvəsinin dövlət siyasətindən qaynaqlandığını açıqlamışdır. Hökumətin siyasətləri KOB-lərin elektron ticarəti qəbul etmələrinin səbəblərindən biri kimi qəbul edilir (Kuyulu, 2021). KOB-lər tərəfindən B2B elektron ticarətinin mənimsənilməsinin nəzəri əsaslarındakı izahlardan asılı olaraq, "B2B e-ticarətə Dövlət Dəstəyiinin əsas məqsədi aşağıdakılardır :

1. Hökumətin tərəfindən B2B e-ticarətdən istifadənin təşviq edilməsi
2. B2B e-ticarətdən istifadəni artırmaq üçün hökumətə stimulların verilməsi
3. Biznes hüququnun B2B e-ticarətdən istifadəni dəstəklənməsidir

Ümumiyyətlə B2B sektoruna təsir edən amillər üzərində araşdırma aparan Gibbs bu araşdırmaya görə B2B ve B2C e-ticarətinə yön verən faktorların əhəmiyyətli dərəcədə fərqlilik göstərdiyi aşkar edilmişdir. Araşdırmasının nəticəsinə görə rəqabət, B2B e-ticarətin inkişafı üçün əhəmiyyətli faktor olmuşdur. E-

ticarət ilə bərabər rəqabətin qlobal səviyyəyə çatması səbəbilə bizneslər sahib olduqları tədarük zəncirlərini və istehsal şəbəkələrini dəyişdirmişdirlər. Beynəlxalq ticarət, ticarətin liberallaşdırılmasına və ya xarici investisiyaya daha açıq olan ölkələr e-ticarətə daha çox uyğunlaşa bilirlər. Müəssisənin korporativ mədəniyyəti, müəssisənin ekoloji mədəniyyəti, vergi sistemindəki problemlər, siyasi qeyri-sabitlik və qısamüddətli strategiyalar; B2B e-ticarətini yavaşlatan səbəblər kimi önə çıxırlar ( Gibbs vd., 2005).

Dünyanın müxtəlif ölkələrində aparılan araşdırmalar nəticəsində müxtəlif amillərin təsir etdiyi aşkar olunmuşdur (Yıldızhan, 2021).

Ölkə ərazisində B2B sektorunda elektron ticarətin inkişafı üçün müxtəlif addımlar atılmaya başlamışdır. Bu sahədə atılan addımlardan biri Almaniya Gesellschaft für Internationale Zusammenarbeit-GİZ təşkilatı tərəfindən həyata keçirilən “Özəl sektora dəstək proqramı”çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən 2010-cu ildə Azərbaycanın ilk elektron ticarət portalı olan b2b.az saytının yaranması olmuşdur (Namazov, 2019).Portal sahibkarlara məhsullarını təqdim etmək , portal vasitəsilə iş əlaqələrini genişləndirmək, özlərinə tərəfdaşlar tapmaq və onları pulsuz əldə etmək kimi imkanlar verir. B2B.az portalı elektron ticarət sahəsində iştirakçılara maliyyə vəziyyətindən asılı olmayaraq bərabər hüquqlar verir. B2b.az portalının istifadəçiləri fəaliyyət profilindən asılı olmayaraq portalın fəaliyyət prinsiplərini və şərtlərini qəbul edən kapital sahibləridir. Portalın istifadəçiləri satıcılar və alıcılar olaraq iki qrupda bölünür. Portalın yaradılmasından əsas məqsəd yerli bizneslərin istehsal etdikləri məhsullar və xidmətlər haqqında potensial alıcıları məlumatlandırmaq və bu vasitə ilə biznes əlaqələrinin qurulmasına dəstək olmaq və bazarlara sərbəst çıxışı təmin etməkdən ibarətdir (Həsənova, 2017).

Azərbaycanda sahibkarlığın və iqtisadi inkişafın, o cümlədən elektron sahibkarlığın və elektron kənd təsərrüfatının inkişafının dəstəklənməsi, beynəlxalq ticarətin gücləndirilməsi, ixrac imkanlarının artırılması üçün sənayə və kənd təsərrüfatına aid iki elektron ticarət B2B platforması yaradılmışdır. Hər iki platforma Azərbaycan və MDB ölkələrinin sahibkarları və şirkətləri üçün yaradılmış – Vahid Aqrar Elektron Ticarət Platformasıdır. B2B satışların həyata keçirilməsi üçün nəzərdə tutulsalar da hər iki platformada şirkət və sahibkarlar pərakəndə satışlarda həyata keçirə bilərlər. Bunlardan biri B2bask.az platforması vasitəsilə yerli və xarici şirkət və sahibkarların sənayə və texniki məhsullarını yerli və MDB ölkələrinin bazarlarında onlayn tanıtımı və satışına hərtərəfli dəstək göstərmək, alıcı və partnyor, təchizatçı və diler tapmaqda kömək etmək məqsədilə yaradılmışdır (https://az.b2bask.ru/) (Giriş tarixi: 25.01.2023). Azərbaycanda B2B sektorunda elektron ticarətin inkişafına hansı amillərin təsir etdiyini öyrənmək üçün keyfiyyət tətqiqat metodundan istifadə edərək müsahibə aparılmışdır. Ölkədə bu sektorda fəaliyyət göstərən müəssisələrə B2B sektorunda elektron ticarət edən zaman maneə olan amillər və bu sektordan əldə etdikləri faydalar araşdırılmışdır.

**B2B Sektorunda Elektron Ticarətdə Qarşıya Çıxan Maneələr**

Müsahibə formunun bu hissəsində yer alan və bu sektorda olan problemləri aşkara çıxarmaq üçün müsahibədə iştirak edən müəssisə nümayəndələrinə “B2B sektorunda qarşıya çıxan maneələr nələrdir?” sualı ünvanlanmış və iştirakçıların öz təcrübələrindən yola çıxaraq verdiyi cavablar ümumiləşdirilərək cədvəl 1-də qeyd olunmuşdur.

“B2B sektorunda elektron ticarətdə qarşıya çıxan maneələr nələrdir?” sualına fərqli sektorlarda fəaliyyət göstərən müəsissələr fərqli cavablar versələr də hər bir müəsissə üçün ortaq olan, ən çox qarşılaşılan

problemlərin başında elektron ticarət edən zaman ödəniş sistemlərində, müəsissələrin veb saytında yaranan problemlər gəlir. İkinci ən böyük problem isə sahibkarların internetə olan inam problemdir. Müəssisələrlə müsahibə zamanı iştirakçılar insanların elektron ticarətlə bağlı kifayət qədər məlumatlı və savadlı olmadığını bu səbəbdən ümumiyyətlə elektron ticarət etməkdən ehtiyat etdiklərini xüsusilə vurğulamışdır.

Problemlərdən biri isə elektron ticarət sahəsində qanunvericilik sisteminin tam təkmilləşməməsidir. 2005-ci ildə qəbul edilən "Elektron Ticarət haqqında" Azərbaycan respublikasının qanunu və Vergi Məcəlləsinə edilən dəyişikliklərdə bu problemi həll etməyə kifayət etmir. Müəssisələrin hər biri üçün ümumi cavablarla bərabər spesifik olan cavablarda qeydə alınmışdır. Məsələn iştirakçilardan biri üz-üzə görüş zamanı qiymətdə razılaşma əldə etmək asan olsada, elektron ticarət zamanı məcburən satıcının məhsula qoyduğu qiymətlə razılaşmalı olduğunu qeyd etmişdir.

**Cədvəl 1: B2B sektorunda elektron ticarətdə qarşıya çıxan maneələr**

| |
|---|
| Azexport.az<br>1. B2B sektorunda elektron ticarət edən zaman üz-üzə görüş olmadığından qiymətdə razılaşma problemi yarana bilir.<br>2. Sahibkarların elektron ticarət savadlılığının olmaması ən böyük problemlərdən biridir.<br>3. Bəzi sahibkarların rəqəmsal biliklərinin zəif olması elektron ticarət zamanı çətinliklər yarada bilir.<br>4. İnsanların internetə olan inam problemi onların bu sektorda elektron ticarət etməsinə mənfi təsir göstərir.<br>5. Beynəlxalq dairədə elektron ticarət edən zaman vergi ilə bağlı problemlər yaranır. |
| Kapital bank<br>1. Elektron ticarət edən zaman sistemin işləməməsi problemi işləri gecikdirə bilir.<br>2. Elektron ticarət Azərbaycanda yeni inkişaf etdiyi üçün qanunvericilik sisteminin bu sahədə tam təkmilləşdirilməməsi bəzən hüquqi problemlər yarada bilir. |
| Celebrin.co<br>1. Ödəniş sisteminin və proqram təminatının bəzən işləməməsi prosesi gecikdirə bilir.<br>2. Ticarət zamanı bəzi şirkət sahiblərinin internetə etibar problemi elektron ticarət fəaliyyətlərini həyata keçirməyi çətinləşdirir. |
| Anonim şirkət<br>1. İnternetə olan inam problemi sahibkarların ənənəvi ticarəti üstün tutmasına səbəb olur.<br>2. Ödəniş sistemlərinin və ya elektron ticarəti həyata keçirən zaman digər proqram təminatının işləməməsi kimi texniki problemlər ticarət fəaliyyətlərini ləngidərək prosesi uzada bilir.<br>3. Elektron ticarət ölkəmizdə yeni inkişaf etdiyi üçün sahibkarlar bu sahə üzrə kifayət qədər məlumatlı deyil. |

**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır

Alt kateqoriyada verilən "Firmaya gətirdiyi faydanın aydın və dəqiq müəyyən oluna bilməməsi" problem yaradırmı? sualına isə " əksinə elektron ticarət daha ölçülə biləndir" cavabı verilmişdir.

**B2B Sektorunda Elektron Ticarətdən Əldə Edilən Faydalar**

B2B sektorunda elektron ticarətin müəsissələrə gətirdiyi faydaları aşkarlamaq üçün müsahibə iştirakçılarına müsahibə formasının bu hissəsində yer alan "B2B sektorunda elektron ticarətdən əldə etdiyiniz faydalar nələrdir?" sualı və bu sual adı altında əvvəldən hazırlanmış 7sual verilmişdir. İştirakçıların suallara verdikləri cavablar cədvəl 2-də ümumiləşdirilərək qeyd olunmuşdur.

Müsahibə zamanı iştirakçılara verilən "B2B sektorunda elektron ticarətdən əldə etdiyiniz faydalar nələrdir?" sualına hər müəssisə öz sektoruna uyğun spesifik cavablar versələr də ümumilikdə ən çox fayda gətirən nüanslar 24 saat əl çatanlıq, müəssisəyə müştəri məmnuniyyətinin artırılması, qlobal bazarlara çıxışın asanlığı, nəqliyyat, anbar və işçi xərclərinin azalmasıdır.

**Cədvəl 2: B2B sektorunda elektron ticarətdən əldə edilən faydalar**

| |
|---|
| Azexport.az<br>1. Uzaq məsafə problemini aradan qaldırır.<br>2. Anbar, icarə xərclərini minumuma endirir.<br>3. Fiziki olaraq bir ofis və ya anbar olmadığı üçün işçi xərclərini kifayət qədər azaldır.<br>4. Müəyyən vaxt limiti olmadığı üçün 24 saat əl çatanlıq vardır. Bununla da beynəlxalq ticarət zamanı xarici ölkələr arasında saat fərqi problemlərini azaldır.<br>5. Qısa zaman ərzində müxtəlif ölkələrlə ticarəti asanlaşdırır.<br>6. Yeni məhsuları asanlıqla satışa çıxartmaq mümkündür.<br>7. Müştəri məmnuniyyətinin elektron ticarət yolu ilə artırılması daha asandır. |
| Kapital bank<br>1. Ölkə xaricində şirkətlərlə əlaqə yaratmaq daha asandır.<br>2. İşçi xərclərini azaldır.<br>3. Əməliyyatlar elektron qaydada həyata keçdiyi üçün vaxta qənaət edirik, bununla da müştəri məmnuniyyətini artıra bilirik.<br>4. Avadanlıq və nəqliyyat xərclərini azaldır. |
| Celebrin.co<br>1. Xarici müştərilərlə əlaqə saxlamaq asandır.<br>2. 24 saat əl çatanlıq vardır. |
| Anonim şirkət<br>1. Elektron ticarət vasitəsilə xarici ölkələrlə mal alqı-satqısını asanlıqla edə bilirik.<br>2. Müştəriyə 24 saat əl çatan olduğu üçün müştəri məmnuniyyəti artaraq razı qalır.<br>3. Hər şey elektron qaydada olduğu üçün müştəri məlumatlarını daha asan analiz edə bilirik.<br>4. Anbar xərclərini azaldır.<br>5. İşçi xərclərini minumuma endirir.<br>6. Yeni məhsulu müəssisənin veb saytı vasitəsilə asanlıqla satışa çıxartmaq mümkündür. |

**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır

Müəssisələrdən ikisi yeni məhsul olduğu halda onun fiziki mağazadan daha sürətli şəkildə veb sayta yerləşdirərək satıldığını, bunun üçün sadəcə malın əldə olmasının kifayət etdiyini qeyd etmişlər. Müəssisələrdən biri uzaq məsafə problemini həll etdiyi üçün vaxta qənaət etdiyini vurğulamışdır.

## Nəticə

Dünyada B2B sektoru bu qədər inkişaf edərkən Azərbaycanda B2B sektorununda elektron ticarət edən müəssisələrin sayının həddindən artıq az olmasının səbəbi ölkədə fəaliyyət göstərən müəssisələrin ənənəvi düşüncə tərzində olması, neft sektorunun illərlə ölkədə hökmranlığı, elektron ticarətdən əldə oluna biləcək faydaların fərqində olmaması və ölkə ərazisində B2B sektorunda fəaliyyət göstərməyi hədəfləyən sahibkarların bu sektorda həmkar tapmaqda çətinliyidir.Tədqiqat çərçivəsində iştirakçılara ünvanlanan elektron ticarətdə olan maneələrlə bağlı suallara verilən cavablara əsasən ölkə ərazisində bu sektorun inkişafına əsas maneələr internetə olan güvənsizlik, dövlətin bu sahədə qanunvericiliyinin kifayət etməməsi, sahibkarların məlumatsızlığı olduğu aydın görülmüşdür.

Araşdırma zamanı iştirakçılara verilən “B2B sektorunda elektron ticarətdə əldə edilən faydalar nələrdir?” ölkə ərazisində fəaliyyət göstərən müəssisələrin verdiyi cavablara əsasən bu sektorda elektron ticarətin vaxta qənaət etdiyi, anbar, işçi və nəqliyyat xərclərini azaldaraq gəlirlərini artırdığı, xarici ölkələrlə əlaqələri genişləndirərək beynəlxalq bazarlara çıxışı asanlaşdırdığı təsbit olunmuşdur.Yuxarıda da qeyd olunduğu kimi bu sektorda fəaliyyət göstərən müəssisələr, bizneslər çox azdır. B2B sektorunda elektron ticarət edən müəssisələrdə kifayət qədər bilikli olmadıqları üçün ən son trendləri öz elektron ticarət strategiyalarına inteqrasiya edə bilmirlər, bu səbəbdən də B2B elektron ticarət modelinin bütün istiqamətlərdə istifadə etməkdə çətinlik çəkirlər. Bizneslərin sektordakı ən son yenilikləri və trendlər haqqında məlumat almasına kömək edəcək, rəqəmsal məsləhətlər verə biləcək texnologiya şirkətləri ilə əlaqənin təmin edilməsi, yerli və beynəlxalq səviyyədə əməkdaşlıq edilməsi, işlərin qurulması böyük əhəmiyyət kəsb edir.

Ölkə ərazisində B2B fəaliyyətini artırmaq, B2B sektorunda elektron ticarət edən bizneslərin də peşəkarlığını artırmaq üçün sahibkarların və bu sahədə fəaliyyət göstərmək istəyən şəxslərin məlumatlandırılması, xaricdə olan B2B elektron ticarəti ölkə ərazisinə inteqrasiya etmək məqsədilə layihələrın, proqramların hazırlanması vacibdir. Eyni zamanda elektron ticarətə olan inam probleminin də həll olunması olduqca mühüm amillərdən biridir.

Araşdırma nəticəsində əldə olunan faktlara əsasən maneələrin aradan qaldırılması və sektorun inkişafı üçün bu sahədə qanunvericilik sisteminin inkişafı, xarici ticarətdə yaranacaq problemləri həll edə biləcək qanun layihələrinin hazırlanması böyük əhəmiyyət kəsb edir.

## Ədəbiyyatlar

Kuyulu, N. (2021). Kobi’lerin işletmeden işletmeye (B2B) E-ticareti benimsemesinde etkili olan faktörler: toprağa dayalı ürünler sektöründe bir uygulama, Kütahya Dumlupınar Üniversitesi, Kütahya.

Güler, E. (2010) İşletmelerin yabancı pazarlara girişinde elektronik ticaret ve endüstriyel Pazar (B2B) uygulamaları , Dokuz Eylül Üniversitesi, 196.

Yıldızhan, U. (2019). Gaziantep ayakkabı sektörünün uluslararası B2B e-pazarlama sorunlarına yönelik bir araştırma, Hasan Kalyoncu Üniversitesi, Gaziantep.

Eriş, U. Ö. (2008). E-ticarət performansına etki eden faktörlerin analizi, İstanbul Teknik Üniversitesi, İstanbul, 72.

Chaffey, D., Ellis, Chadwick, F., Mayer, R., Johnston K. (2006). Internet Marketing Strategy, Implementationand Practice. Pearson Education Limited Edinburg Gate Harlow Essex CM 202 JE England.

Kraemer, K., Gibbs, J. və Dedrick, J., (2005). Impacts of Globalization on E-commerce use and Firm Performance: A Cross-Country Investigation, The Information Society, 21-5, 323-340.

Ahmad S. Z., Bakar, A. R., və Faziharudean, T. M. (2015). An Empirical Study of Factors Affecting e-Commerce Adoption Among Small – and Medium-Sized Enterprises in a Developing Country: Evidence from Malaysia. Information Technology for Development, 555-572.

Sila, İ. (2013). Factors affecting the adoption of B2B e-commerce technologies. Girne American University, 201-209.

Yüksek, C. (2020). Elektronik Ticaretin Gelişimi ve Türkiye'de İşletmeden işletmeye (B2B) Elektronik ticaret üzerine bir araştırma.

Namazov, İ. (2019). Azərbaycanda elektron satışda marketinq və onun nəzdində amazon.com saytının araşdırılması. Azərbaycan Dövlət İqtisad Universiteti, 86.

Həsənova, M. (2017). Elektronik Ticaret Uygulamaları : Azerbaycan ve dünya açısından bir değerlendirme, Azerbaycan Devlet İktisat Üniversitesi, 75.

Kuşat, N. (2016). İşletmeden işletmeye (B2B) Elektronik Pazaryerleri ve Gelişmekte olan ülkelerin dış ticaretinde uygulanabilirliği, 695-700.

https://az.b2bask.ru/ (Giriş tarixi: 25.01.2023)

# FinTech Şirkətlərinin Maliyyə Aktivlərinin Artımına Təsiri

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Musayev Vüsal**

vmusayevs@yahoo.com

**Xülasə**

Dünya iqtisadiyyatının qloballaşması maliyyə sektoruna fundamental şəkildə təsirini göstərərək bu sahədə daha çox qabaqçıl texnologiyalarının tətbiqini zəruri etmişdir. Belə proseslərin təsiri altında bank sektoru sürətlə dəyişir və yeni iqtisadi şəraitdə öz yerini tapmağa çalışır. Bu sahədə banklar hal hazırda yeni yaranan texnoloji şirkətlərə həm rəqabət, həmçinin əməkdaşlıq etməli olur. Fintech şirkətlərin göstərdiyi xidmətlər, təklif etdikləri yeniliklər həm biznes, həm də istehlakçılar üçün ənənəvi maliyyə xidmətələrini təkmilləşdirmək və avtomatlaşdırmaq üçün yaradılmış proqram təminatı, mobil proqramlar və digər texnologiyalara istinad edən termindir. Həmçinin, Fintech maliyyə-bank xidmətlərinin istehlakçıları üçün maliyyə mənbələrinə çıxışı və yeni məhsul və xidmətləri artırmaqla iqtisadiyyata töhfə verir, buna görə də maliyyə sisteminin gələcəyinin formalaşmasında mühüm rola malikdir. (Putri, Najwa, Megat, 2018)

Bu məqalədə Fintech-in maliyyə sabitliyi maliyyə bazarlarına təsiri dəyərləndirilir və Azərbaycan bazarı üçün təkliflər verilir. Məqalədə FintTech müasir texnologiyalarının bankların və qeyri bank kredit təşkilatlarının kreditləşməsinin daha səmərəli və gəlirli etməsini, kiçik və orta sahibkarların bank kredit xidmətlərinə daha əlverişli ,asan çıxışını təmin edilməsini, yenilikçi texnologiyalar vasitəsilə maliyyə institutlarının ölkənin iqtisadiyyatında müsbət təsiri nəticəsində finanslaşma indeksinə təsirini araşdırır.

**Açar sözlər**: rəqəmsallaşma, bankçılıq, Fintech, maliyyə əlçatanlığı, kiçik orta sahibkarlıq, kreditləşmə

**Abstract**

Globalization of the world economy has profoundly changed the financial sector and created a necessity to develop and integrate advanced technologies in this field. Under the influence of such development, the banking sector tries to adapt to a new situation and benefit from new markets which the Technologies are offering. Affected by the development of new technologies the banks are trying to compete and collaborate with new technology companies that are called Fintech. Fintech is a term that refers to software, mobile applications, and other technological innovations which purpose is to improve and increase the role of artificial intelligence in the decision-making process which in turn will change the traditional financial services for both businesses and individual consumers.

This article examines the influence of Fintech on traditional financial institutions, including challenges to them, the process of adaptation, and cooperation between them and financial institutions are examined and recommendations relevant to the financial sector of Azerbaijan are made.

**Keywords**: digital banking, Fintech, financial inclusion, small and medium enterprises, lending

## Giriş

Kredit pula ehtiyacı olan borcalanlara müvəqqəti vəsaitlərin verilməsi prosesidir. Onun rolu tətbiqindən asılı olaraq dəyişir. Bu borc vəsaitləri hesabına istehsal və satışın artırılmasına nail olmaq və nəticədə böyümə və inkişafı artırmaq olar. Kreditin iki forması var: banklararası krediti, fiziki və hüquqi şəxslərə verilən kommersiya krediti. Azərbaycanda bank kreditlərindən geniş istifadə olunur və əsasən bankların təklif etdiyi məhsullara istehlak, biznes və ipoteka kreditləri daxildir. Bank sektorunun icmalı üzrə 2022-

ci ilin dekabr ayı hesabatına əsasən, ölkədə ikisi dövlətə məxsus olmaqla 25 bank fəaliyyət göstərir (ARMB, 2023). 2023-cü ildə bankların cəmi kredit investisiyaları 20347,1 milyon manat təşkil etmişdir (ARMB, 2023). Ümumilikdə 2005-2018-ci illərdə bankların ümumi kredit qoyuluşlarında xüsusi çəkisi 97%-dən çox olub. (Alirzayev, Shamkhalova, Abdulov, 2020). Qeyd etmək lazımdır ki, bu Azərbaycan Respublikasının tarixində ən çox neft ixrac etdiyi dövrdür. Azərbaycanda fəaliyyət göstərən bankların və digər maliyyə institutlarının risklərini azaltmaq və effektivliyini artırmaq məqsədilə maliyyə texnologiyalarının rolunu araşdırmaq ehtiyacı yaranmışdır.

Qeyd edildiyi kimi, ənənəvi bankların maliyyə dünyasında əsas rol oynamasına baxmayaraq, müasir texnoloji inkişaf dünya iqtisadiyyatını tədricən rəqəmsal kanallara keçmək üçün təkmilləşdirilir. Mövcud maliyyə bazarları maliyyə texnologiyaları (Fintech) şirkətləri tərəfindən sürətlə dəyişdirildi (Marta &Juan, 2022). Məmmədov (2021) qeyd edir ki, elektron (rəqəmsal) maliyyənin quruluşu iki hissədən ibarətdir: proqram təminatı və texnologiyası (fintex). Yenilikçi texnologiyaları tətbiq edən şirkətlər FinTex adlanır və bu söz, əsas iki sözün, yəni finance (maliyyə) və technology (texnologiya) sözlərindən ibarətdir.(Giorgio, Navaretti, Alberto, 2017). İnnovativ texnologiyalar müxtəlif biznes modelləri, eləcə də yeni müştəri ehtiyacları yaratmışdır. Onlar iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ödəniş xidmətləri, bank sənayesi və maliyyə qaydalarına təsir göstərir (Salmony, 2014). Maliyyə bazarlarının boşluqlarını dolduran yeni elektron xidmətlər getdikcə daha çox bazarlara təqdim edilmişdir. Yeni həllər müştərilərə istifadənin asanlığı, yüksək əməliyyat sürəti və geniş xidmət təminatçıları seçimini təmin etmək məqsədi daşıyırdı. Ümumdünya Şəbəkəsinin tətbiqindən sonra maliyyə sektoru tədricən rəqəmsallaşdırıldı, onlayn ödəmə qapısı PayPal və ya rəqəmsal valyuta BitCoin təqdim edildi (Anders, 2004).

Bu məqalədə fərqli ədəbiyyatlardan, maliyyə hesabatlarından və ekspert təhlilillərindən istifadə etmişdir. Ədəbiyyat tədqiqi konseptual nəzəriyyələrə, eləcə də tarixi faktlara və rəqəmlərə diqqət yetirir. Digər tərəfdən, empirik tədqiqat maliyyə tədqiqat agentlikləri tərəfindən toplanan son rəqəmləri təhlil etdi. Empirik tədqiqatın əsas məqsədi ədəbiyyat icmallarını təsdiqləmək və yoxlamaq idi.

Bu məqalə Fintech şirkətlərinin Azərbaycan banklarının kreditləşmə prosesinə verəcəyi tövhəni araşdırır, kiçik və orta sahibkarlıq biznes subyektlərinə kreditləşmə prosesini süni intellekt üzərindən qiymətləndirilməsini, idarə edilməsini təklif edir. Fintech-in ənənəvi maliyyə institutlarına təsirləri, o cümlədən onlara qarşı çətinliklər, uyğunlaşma prosesi, hər ikisinin əməkdaşlığı araşdırılmışdır və Azərbaycan maliyyə sektorunda Fintech xidmətlərinin geniş tətbiq edilməsini tövsiyə edir.

**Aktuallıq**

Azərbaycanda maliyyə sektoru daha çox kommersiya banklarından ibarətdir. Banklar maliyyə sektorunun ümumi aktivlərinin 90%-dən çoxuna sahibdirlər. Sığorta, birja və s. kimi digər maliyyə institutları kifayət qədər kiçikdir və maliyyə sektorunun sağlamlığına əhəmiyyətli təsir göstərmir. Buna görə də aşağıdakı təhlil yalnız kommersiya banklarına yönəldiləcək (QTİB-Qaradəniz Ticarət və İnkişaf Bankı, 2021)

Azərbaycanda bank sektorunun ölçüsü ümumi iqtisadiyyata nisbətən kiçikdir. 2020-ci il üçün bank sektorunun ümumi aktivlərinin ÜDM-ə nisbəti 47% təşkil edib ki, bu da QDTİB üzv ölkələri və daha geniş region arasında ən aşağı göstəricidir. Azərbaycanda dominant sektor olan neft-qaz sektorunu istisna etdikdən sonra belə, qeyri-neft ÜDM-in ümumi aktivləri 66% təşkil edir ki, bu da digər ölkələrlə

müqayisədə hələ də çox aşağıdır. Bankların iqtisadiyyata verdiyi kreditlərin həcmi ÜDM-in cəmi 20%-ni təşkil edir ki, bu da ölkədə maliyyə nüfuzunun aşağı olmasından xəbər verir. (QTİB-Qaradəniz Ticarət və İnkişaf Bankı, 2021). Qeyd etmək lazımdır ki, bu göstəricilər 2022 ci ildə 25,5% təşkil edir. (Global Economy, 2022)

*Mənbə: Kommersiya Banklarının web sayltlar, və IMF World Economic Outlook Database*




QDTİB-nın təhlilinə görə, bank sektorunda təmərküzləşmə yüksəkdir və 4 ən böyük bank sektorunun ümumi aktivlərinin 60%-dən çoxuna sahibdir. 2022-ci ilin sonuna Azərbaycanda 26 bank fəaliyyət göstərib ki, onlardan 7-si xarici, 2-si isə dövlətə məxsusdur. Sektor 2020-ci ildə 568 milyon manat mənfəət əldə edib ki, bu da nizamnamə kapitalının 12%-ni təşkil edir. Bank sektorunun 2022 ci xalis mənfəəti 919 mln manat təşkil edib. Azərbaycan Mərkəzi Bankı (AMB, 2022) qeyd edir ki, 2022-ci il dekabrın 1-nə bankların aktivləri 45 490,1 mln. manat təşkil edib ki, bu da illik müqayisədə 27,5% çoxdur. Müştərilərə verilmiş xalis kreditlər bankların aktivlərinin 18 468,7 mln. manatını təşkil edib. Mərkəzi Bank qeyd edir ki, ən böyük üç bankın aktivlərinin bazar payı 2019-cu illə müqayisədə 2022-ci ildə 9 faiz artaraq 65%, depozit portfeli üzrə bazar payı 13 faiz artaraq 70 faizə, kredit portfelində bazar payı isə 8 faiz artaraq 48 faizə yüksəlib. Son 3 ildə bank sektorunda təmərküzləşmə davam edib.

2014-cü ildə neftin qiymətinin düşməsi, bunun nəticəsində yaranan şok və iqtisadi böhrandan sonra bankların balansında vaxtı keçmiş kreditlər artmağa başlayıb və 2017-ci ilin sonuna ümumi kredit portfelinin 16%-nə çatıb. O vaxtdan bəri vaxtı keçmiş kreditlər azalıb və son 2020-ci ildə onlar ümumi kreditlərin 6%-ni təşkil edib. MB hesabatında qeyd olunur ki, 2022-ci ildə bankların qeyri işlək-portfelinin ümumi kredit portfelinə nisbətən azalması davam etmişdir. Belə ki, 2022-ci ildə bankların qeyri işlək portfeli 1,8% azalaraq 0,7 milyard manat təşkil edib, QİP-lərin məcmu portfeldə payı 0,7 faiz bənddən azalaraq 3,8%-ə düşüb. Hazırda QİP nisbəti tarixi minimum həddədir. QİK portfelində azalma problemli kreditlərin silinməsi, banklarda risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi və borcalanların ödəniş davranışında müsbət dinamika ilə də dəstəklənib.

*Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı*




Qeyd etmək lazımdır ki, 2015-ci ilin iqtisadi böhranı 10-dan çox kommersiya bankının bağlanması ilə nəticələndi. Bankların bağlanması və onların balanslarından ümidsiz toksik kreditlərdən təmizlənməsi kredit aktivlərinin 40% azalması ilə nəticələndi. Lakin2018-ci ildə başlayan bank sektorunun aktivlərinin böyüməsi 2020-ci ildə COVID-19 ilə bağlı zəifləyərək kredit portfelinin 5%, depozit portfelinin isə 4,4% azalması ilə nəticələndi. (Aliyev, 2021)

*Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı*

**Depozit və kredit portfellərinin artım dərəcəsi**




Əliyev (2021) qeyd edir ki, dövr ərzində iri banklar tərəfindən kreditləşmənin 8,4% artması fonunda özəl bankların kreditləşməsi 7,8% azalıb. Nəticədə iri banklarının ümumi kreditləşmədə bazar payı 16,7%-dən 19,1%-ə yüksəlib. Dövlət bankları arasında artım təkcə Azərbaycan Beynəlxalq Bankının (9,9%) payına düşüb. Tədqiqatçı qeyd edir ki, kommersiya bankları son 5 ildə qiymətli kağızlar bazarına yatırmağa üstünlük veriblər. Bunun nəticəsi kimi qiymətli kağızlara investisiyanın cəlbediciliyi əhəmiyyətli dərəcədə artıb və onların aktivlərinin təxminən 10-13%-i bu istiqamətdə gedir. Tədqiqatçı qeyd edir ki, 2016-2020-ci illərdə bankların qiymətli kağızlara investisiyaları on dəfədən çox artıb. Təhlildən bu nəticəyə gəlmək olar ki, banklar kredit bazarında olan riskləri nəzərə alaraq əhalini və biznesi aktiv şəkildə maliyyələşdirməkdənsə, passivliyə üstünlük verib, vəsaitlərini əsasən Maliyyə Nazirliyinin və Mərkəzi Bankın daha etibarlı olan qiymətli kağızlarına investisiya edirlər. Mövcud problemlərə əlavə olaraq qeyd etmək lazımdır ki, ənənəvi bank yanaşmasına əsasən fiziki şəxslərdən və müəssisələrdən borc götürə bilməkdən ötrü kredit üçün lazım olan bütün tələbləri yerinə yetirməli, o

cümlədən biznes sənədləri, girov qoyulacaq əmlak, gələcəkdə krediti ödəmək qabiliyyətinin sübutu və sair sənədlər tələb olunur. Bununla da banklardan kreditlərin verilməsi prosesi əksər fiziki şəxslər və biznes təşkilatları üçün nisbətən mürəkkəb və çətin olmuşdur. Xüsusilə Azərbaycanda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektləri rəsmi maliyyə uçot sənədlərini banklara təqdim edə bilməliklərinə görə banklardan borc götürə bilmə şansları olduqca aşağıdır. Qeyd etmək lazımdır ki, dünya üzrə kiçik və orta sahibkarlar oxşar problemlərlə üzləşir, və son illər və bu problemləri həll etmək üçün Fintech şirkətləri maliyyə bazarı istehlakçıların ehtiyaclarını dəstəkləyəcək və onların ehtiyaclarını qarşılayacaq yeni kredit bazarı və imkanlar yaradaraq maliyyə dəstəyi xidmətlərini hazırlayıb təqdim etmişdirlər.

Dünya Bankının (2015) təhlilində qeyd olunur ki, kredit vəsaitlərinə çıxış kiçik və orta müəssisələrin (KOB) böyüməsi yeni iş yerlərinin yaradılması üçün açardır, lakin o, məhdud olaraq qalır. Hesabatda qeyd edilir ki, Azərbaycanda maliyyə sektoru nisbətən kiçik və bank mərkəzli olaraq qalır, dövlət mülkiyyətində olan banklar maliyyələşdirmədə dominant rol oynayır. Buna görə də maliyyəyə çıxış əldə etmək mikro, kiçik və orta müəssisələr (KOS), xüsusən də sahibkarlar, gənc bizneslər üçün çox vaxt çətin olur. Dünya bankı (2015) qeyd edir ki, KOS sektoru kiçik olaraq qalır (ÜDM-in 10 faizi). Hesabatda qeyd olunur ki, 2014-cü ildə Dünya Bankının "Maliyyə Tələbinə Çıxış Sorğusu"na əsasən, Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin təxminən 51 faizi biznesin inkişafı üçün əsas maneə kimi maliyyəyə qeyri-adekvat çıxışı göstərir.

Kənd təsərrüfatı, istehsal, tikinti, ticarət, xidmətlər və turizm sektorları üzrə həyata keçirilən sorğu maliyyəyə çıxışdakı boşluqları qiymətləndirmək, Azərbaycan hakimiyyətinə kiçik və orta sahibkarlığın kreditləşməsinin artırılmasına yönəlmiş islahatları prioritetlərini müəyyən etməyə yardımçı olmaq üçün nəzərdə tutulmuşdur.

Azərbaycan hakimiyyəti müxtəlif xüsusi kreditləşdirmə və kredit subsidiya proqramları, o cümlədən Sahibkarlıq Fondu və Aqrar Kredit üzrə Dövlət Agentliyi vasitəsilə özəl sektorun maliyyə ehtiyaclarını qarşılamağa cəhd etsə də, sorğuda iştirak edən KOS-ların yalnız 5,1 faizi bu proqramlara müraciət edib, yalnız 1,7 faizdən çoxu onlardan faktiki olaraq faydalanmışdır.

Mürəkkəb kredit müraciəti prosedurları, girovun olmaması, yüksək kredit xərcləri və aşağı maliyyə imkanları fonunda qısa müddətlər MKOS-ların maliyyəyə çıxışına mane olur. MKOS-ların təxminən üçdə ikisi hazırda bank hesabına sahib olsa da, yalnız 14 faizinin ödənilməmiş krediti və ya kredit xətti var. Kiçik və orta sahibkarlıq subyektlərinin təxminən dörddə üçü heç vaxt müraciət etməyib (Dünya Bankı, 2015). Hesabat kiçik və orta sahibklarlıq subyektlərinin kredit vəsaitlərinə çıxışını məhdudlaşdıran 4 əsas amili qeyd edir:

*1. Əlçatmaz ənənəvi kreditlər*

Mürəkkəb müraciət prosedurları, yüksək girov tələbləri və yüksək məsrəflər müəssisələri, ümumiyyətlə, kreditdən imtina etməyə həvəsləndirir.

*2. Məhdud inkişaf və qeyri-ənənəvi maliyyə mənbələri haqqında məlumatlılığın olmaması*

2013-cü ildə KOS-ların 32 faizi lizinqlə tanış olduğu halda, yalnız 5,8 faizi bu maliyyələşdirmə formasını axtarıb, yalnız 4,1 faizi onu əldə edib.

*3. Maliyyələşdirməni təmin etmək üçün qeyri-adekvat maliyyə bilikləri*

KOS-ların yarısından az hissəsi maliyyə hesabatları hazırlayır, yalnız dörddə biri yazılı biznes planları hazırlayır və KOS-ların üçdə birindən çoxu, ümumiyyətlə, davamlı maliyyə uçotunu aparmır.

Etibarlı maliyyə hesabatlarının olmaması və KOS-ların həm maliyyə məhsullarını və onların faydalarını başa düşməkdə, həm də maliyyələrini idarə etməkdə aşağı maliyyə imkanları kreditləşmə risklərini artırır, KOS-lar tərəfindən kredit müraciəti etibarını zəiflədir və kreditdən imtina dərəcələrinin yüksək olmasına səbəb olur.

*4. Hökumət proqramlarının maliyyəyə çıxışa məhdud təsiri*

Hökumət proqramları haqqında məlumatlılığın yüksək səviyyədə olmasına baxmayaraq, sorğuda iştirak edən KOS-ların yalnız 5,1 faizi dövlət tərəfindən maliyyələşdirilən proqramlara müraciət etmiş və yalnız 1,7 faizi dəstək almışdır. Buna görə də mövcud proqramların və xidmətlərin təkmilləşdirilməsinə ehtiyac var.

Mürəkkəb kredit müraciəti prosedurları, girovun olmaması, yüksək kredit xərcləri və aşağı maliyyə imkanları fonunda qısa müddətlər KOS-ların maliyyəyə çıxışına mane olur. KOS-ların təxminən üçdə ikisi hazırda bank hesabına sahib olsa da, yalnız 14 faizinin ödənilməmiş krediti və ya kredit xətti var. Kiçik və orta sahibkarlıq subyektlərinin təxminən dörddə üçü heç vaxt müraciət etməyib.

Yuxarıda qeyd olunan problemləri Fintech şirkətlərinin innovativ xidmətlərini Azərbaycan bank sektoruna integrasiya vasitəsilə həll etmək imkanı verir. Bu xidmətlər vasitəsilə Azərbaycan bankları və digər maliyyə institutları bu günə kimi təmsil olunmadıqları bölgələrdə və müştəri segmentlərində genişlənmək imkanı əldə edə bilərlər. Nəzər alsaq ki, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı və şaxələnməsi məhz kiçik və orta sahibkarlığı inkişafından asılıdır.

Fintech şirkətləri bankların həm rəqibi, həmçinin tərəfdaş təşkilatlarına çevriliblər. Belə ki bu şirkətlər tərəfindən təqdim edilən xidmətlər üzərindən kredit müştəriləri alternativ maliyyə bazarlarına çıxış həmçinin xüsusi platformalar üzərindən banklara əlçatmaz sayılan kredit bazarına çıxış əldə edilməsinə köməklik göstərirlər. Belə ki ənənəvi banklarla müqayisədə müştərilər üçün kredit müraciəti, təsdiq və maliyyələşdirmədə daha sürətli xidmətlər təklif etməsidir. Misal üçün artıq öz xidmətlərini təqdim edən OnDeck Capital, Kabbage və PayPal Working Capital kimi Fintech şirkətləri kredit müştərilərinə daha çox seçim və bir çox inzibati prosedurlar olmadan sadə və sürətli şəkildə müddətli vəsaitlər təklif edirlər (Neuman, 2015.) Tədqiqatçı Prakash-ya (2016) görə, OnDeck kiçik biznes üçün ən yaxşı qısamüddətli kredit təminatçısı hesab olunur, çünki o, kiçik və orta biznesə qısa müddət ərzində maksimum 500000 ABŞ dolları limiti ilə kredit götürmək imkanı verir. Tədqiqatçı qeyd edir ki, borcalan, OnDeck-in rəsmi veb-saytı və ya smartfonlar vasitəsilə sosial sığorta nömrəsi, biznes vergi identifikatoru vasitəsilə kredit üçün tələb olunan ərizəsini ən azı 10 dəqiqə ərzində onlayn şəkildə doldura bilər. Nəticədə bir neçə dəqiqədən sonra borcalanın kredit müraciəti təsdiqlənərsə, kredit vəsaiti 24 saat ərzində təqdim olunur (Nicastro 2016).

Tədqiqatçılar Mills və McCarthy (2014) kiçik və orta sahibkarlıq subyeklərinin kredit vəsaitlərinə çıxışlarının məhdud olmalarını qeyd edirlər. Bəziləri ümid edir ki, Fintech texnologiyaları kiçik və orta sahibkarlara kredit vəsaitlərinə çıxışlarını təmin edəcək. Digər araşdırmacılar Desai və Meekting (2016) qeyd edirlər ki, borcalanların beşdə biri kredit qabiliyyətlərinin olmasına rəğmən məhz kiçik və orta sahibkarlar olduqlarına görə banklar tərəfindən kredit müraciətləri təmin olunmayıblar və ehtiyac bildikləri maliyyə vəsaitlərini Fintech şirkətlərinin onlayn platformaları üzərindən əldə etmək imkanı

qazanıblar. Həmçinin tədqiqatçılar qeyd edirlər ki, bankların daimi yeni kredit bazarları və müştəri segmentləri araşdırmasında Fintech şirkətlərinin platformalarından geniş istifadə edirlər.

Müasir texnologiya banklara daha geniş kredit müştərisi qrupuna çatmaqda mühüm rol oynayır. Jagtiani və Lemieux (2016) qeyd edirlər ki, 1997 və 2014-cü illər arasında daha böyük bankların müştəri segmentlərini kiçik və orta sahiblarlıq subyektləri üzərindən filial şəbəkələri ilə təmsil olunmadıqları bölgələrdə genişləndirməyə nail olmuşdular.

Fedotova (2017) Fintech şirkətlərinin təqdim etdikləri texnoloji xidmətlərindən biri olan bulud texnologiyası haqqında qeyd edir ki, bu xidmətin texnologiyasının əsas mahiyyəti biznes proseslərinin fərdiləşdirilməsi imkanını təmin etməklə bərabər, eyni vaxtda bir neçə təşkilat tərəfindən vahid informasiya infrastrukturunun (serverlər, proqramlar, məlumat bazası) istifadəsini nəzərdə tutan texnoloji konsepsiyadır. "Buludun" əsas mahiyyəti ondan ibarətdir ki, istifadəçi proqram təminatı və avadanlıqlar üçün lisenziya almağa ehtiyac duymur. O, "buludda" yerləşdirilmiş, onun tapşırıqlarına uyğunlaşdırılmış proqram məhsullarına giriş xidməti alır və yalnız istehlak etdiyi resurslar üçün ödəniş edir. Bu, müştərinin vaxtını və əməliyyat xərclərini əhəmiyyətli dərəcədə azaldır.

**Fintech-lərin iqtisadi artıma təsiri**

Tədqiqatçılar Na Song &Isaac (2022) Fintech, İnternet, informasiya texnologiyaları, mobil telefonlar və rəqəmsal texnologiyaların sürətli genişlənməsi sayəsində maliyyə sektorunda kəskin şəkildə genişləndi. Belə ki, 2019-cu ildə qlobal Fintech investisiyası 55,3 milyard ABŞ dolları təşkil edib. Tədqiqatçılar qeyd edirlər ki, Çin nümunəsində, Fintech platforması üzərindən kreditləşən şirkətlərinin sayının 2011-ci ildəki 214-dən 2014-cü ildə 1544-ə yüksəlib. Tədqiqat nəticəsində qərar gəlirlər ki, Fintech layihələri kiçik və orta sahibralar üçün kreditləri əlçatan edir. Bundan əlavə, Fintech kredit müraciəti prosesini asanlaşdırır, borcalanlara kreditləri daha tez əldə etməyə imkan verir, KOS subyektlərinin vəsaiti lazımi vaxtda yerləşdirmək qabiliyyətini artırır. Həmçinin tədqiqatlar göstərir ki, Fintech üzərindən kreditləşmə daha geniş və intensiv olur və bununla da Çinin iqtisadi artımını əhəmiyyətli dərəcədə artırır. Fintech üzərindən kreditləşmənin 10% artımı Çinin iqtisadi artımını müvafiq olaraq 8%, 4%, 5% və 16% artırır.

**Azərbaycan və İKT Sektoru**

Göründüyü kimi, Fintechlərin inkişafı bilavasitə informasiya kommunikasiya texnologiyaları (İKT) ilə bilavasitə bağlıdır. Bu sahəyə dair Asiya İnkişaf bankının (2019) hesabatına görə, Azərbaycanın İKT sektoru 2017-ci ildə 1,038 milyon manat (610 milyon ABŞ dolları) və ya ÜDM-in 1,5%-i (qeyri-neft ÜDM-in 2,2%-i) gəlir əldə edib. Qeyd edilir ki, sektor 2010-cu ildən bəri inkişaf etsə də, artım tempi ümumi iqtisadiyyatın artımından azdır. Telekommunikasiya sektorunun ümumi gəlirinin 88%-ni təşkil edib ki, bu da Azərbaycanın diqər informasiya xidməti vasitəsilərindən istifadə etmədiyini göstərir. Nəşriyyat, yayım, telekommunikasiya, kompüter və informasiya xidmətlərini əhatə edən İKT sektorunun dəyəri ÜDM-in 2,2%-ni təşkil edib, bənzər ölkələrlə müqasiyyədə azdır və Avropa İttifaqı ölkələri ilə müqasiyyədə əhəmiyyətli dərəcədə kiçikdir.

**Rəqəmsal Bankçılıq**

Bu gün Azərbaycanın bank sektorunun 90%-i internet bankçılıq xidmətlərindən, 83%-i isə mobil bankçılıqdan istifadə edir. Təkcə 2019-cu ilin birinci rübündə respublika üzrə müştərilərə 772 min ədəd yeni tədavülə buraxılmış təmassız ödəniş kartı paylanıb ki, bu da illik müqayisədə 2,1 dəfə çoxdur.

Nəticədə ölkə bazarında debet və kredit kartlarının ümumi sayı 6,8 milyon ədədə yüksəlib. 2019-cu ilin sonuna açıq hesablar üzrə aparılan əməliyyatların təxminən 31%-i elektron bank xidmətləri vasitəsilə həyata keçirilib ki, bu da 2018-ci illə müqayisədə 7% artım deməkdir. (Mamedov, Aliyev, Jafarova, 2020).

Tədqiqatçılar Azərbaycan Banklar Assosiasiyasına istinadən qeyd edirlər ki, 2012–2017-ci illərdə banklar maliyyə texnologiyalarının tətbiqinə təxminən 310 milyon manat (qeyri-faiz xərclərinin 8%-i) xərcləyib (Abbasov, Mamedov, Aliyev, 2019). Həmçinin qeyd edirlər ki, hələ 2013 cü ildə Azərbaycan bankları internet banking xidmətini istehlakçılara təqdim etmişdilər. Həmçinin qeyd olunur ki, Azərbaycanda əhalinin 79%-i qlobal internet şəbəkənin istifadəçiləridir, və göstərici MDB məkanında isə orta göstərici 68%-dir. İnternet və mobil telefonların istifadəçilərin sayının artması bank xidmətlərinə təsir edərək elektron ticarətin genişlənməsinə səbəb olmuşdur. Tədqiqatçılar qeyd edirlər ki, "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının qannunu 10 may 2005 ci ildə təsdiq olunub.

**Maliyyə əlçatanlığı**

Asiya İnkişaf bankının (2019) qeydlərinə görə, Azərbaycanda maliyyə əlçatanlığıəlçatanlığı səviyyəsi artmasına baxmayaraq, diqər oxşar ölkələrlə müqasiyyədə aşağıdır. Əhalinin yalnız üçdə birindən az olan hissəsinin bank hesabı var və yalnız dörddə birinin debet kartı var, onların əksəriyyəti sosial sığorta və maaş kartlarıdır. Həmçinin qeyd olunur ki, 2017-ci ildə əhalinin cəmi 5%-i onlayn alış-veriş edib. Kredit kartları, mobil pul və elektron pul kisələrinin aşağı nüfuzu, şübhəsiz ki, ölkənin rəqəmsal iqtisadiyyatının inkişafına mane olur. Ötən il ərzində müəyyən təkmilləşmə tendensiyası müşahidə olunur: nağdsız ödənişlərin xüsusi çəkisi 2017-ci ilin 11 ayında 12,7%-dən 2018-ci ilin eyni dövründə 17,7%-ə yüksəlib. 2017 və 2018. Hökumətin maliyyə inklüzivliyi səviyyəsini artırmaq və nağdsız ödənişin genişləndirilməsi niyyəti Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsində və 2018-2020-ci illərdə rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramında öz əksini tapıb.

Qeyd etmək lazımdır ki, rəqəmsallaşmanın inkişafı bilavasitə maliyyə əlçatanlığı səviyyəsinin yaxşılaşdırılmasına müsbət təsir göstərir. Bunu nəzərə alaraq hökümət rəqəmsal ödənişlərin inkişaf etdirilməsini özünün strateji İKT yol xəritəsinə prioritet kimi daxil edib. Təklif olunan addımlara mobil operatorlara lisenziyaların verilməsi də daxil olmaqla, hüquqi və normativ bazanın rəqəmsal ödənişlər üçün daha əlverişli edilməsi üçün addımlar atılmışdır. Nümunə olaraq bank hesablarının onlayn ödənişlər üçün milli elektron ödəniş platformasına inteqrasiyası, dövlət xidmətlərinin ödənilməsi üçün əməliyyat haqlarının ləğv edilməsi yolu ilə onlayn və mobil bankçılıqdan istifadənin təşviq edilməsi, ödəniş sistemlərində elektron və mobil imzalardan istifadənin genişləndirilməsi, rəqəmsal ödənişlərin faydaları haqqında daha geniş ictimaiyyət məlumatlılığının yaradılmasını göstərmək olar.

**Təkliflər**

Çin və diqər nümunələrdən göründüyü kimi, Fintech texnologiyaları uzunmüddətli perspektivdə iqtisadi artıma əhəmiyyətli təsir göstərir. Araşdırmalar onu göstərir ki, texnoloji yeniliklərin inkişafımisal üçün mobil abunələrin sayının artması, və umumilkdə informasiya texnologiyalarından istifadənin hər hansı bir artımı iqtisadi artımı stimullaşdırmaq qabiliyyətinə malikdir. Beləliklə, təklif olunur ki, Fintech şirkətlərinin yeniliklərinin tətbiqi ölkənin iqtisadi artımını gücləndirən mənbələrdən biri kimi nəzərə alınmalı, bu sahədə mövcud olan siyasət gücləndirməlidir. Tövsiyə olunur ki, müasir dövrün tələblərinə

uyğun şəraitin təmin edilməsi məqsədilə daha çox informasiya və kommunikasiya texnologiyaları infrastrukturunun qurulmasına yönəlik addımlar atılmalı və cəmiyyəti Fintechlə bağlı layihələrə həvəs göstərməyə təşviq etməlidir.

Əlavə olaraq, tövsiyə olunur ki, hökumət subsidiyalar, qanunvericilik və diqər vasitələrlə Fintech şirkətlərinə dəstək verərək onların fəaliyyət dairəsinin genişləndirilməsinə imkan yaratmalıdır. Elektron-ticarət və mobil bankçılıq kimi onlayn əməliyyatların artması Fintech-in bütün ölkə ərazisində tətbiqi maraq dairəsində olmalıdır.

Məhz hökümətin tətbiq etdiyi bəzi güzəştlər nəticəsində bu gün maliyyə bazarında, xüsusəndə kreditləşmə sahəsində, yenilikçi Fintech şirkətləri yaranmaqdadır. Belə ki, artıq vergi məcəlləsində start up layihələri üçün vergi güzəştləri tətbiq edilir. Məhz bu cür güzəştdən istifadə edərək kreditləşmə sahəsindən Fintech şirkəti fəaliyyətə başlayıb. Alqoritmik kredit texnologiyaları şirkəti, bu gün banklara və qeyri bank kredit təşkilatlarına kreditlərin verilməsi, risklərinin ölçülməsi və filial şəbəkəsi olmadan bir başa müştərilər haqqında onlayn məlumat əldə etmək imkanı verən mobil telefon üzrə platforma hazırlayıb təqdim edib.

**İstifadə Olunmuş Ədəbiyyat**


Saleh Məmmədov: “Rəqəmsal keçid və elmitexnoloji inkişafın sürətləndirilməsi zəruriliyi”, Bakı 2021,102

“Financial Stability Report”, Central Bank of Azerbaijan, 2022, 22-23

European Economy Banks, Regulations, and the Real Sector: “Fintech and Banks: Friends or Foes?” Giorgio B. N, Giacomo C, Alberto F, 2017, 9-10

Global Economy: “Azerbaijan: Bank to GDP”, 2022

https://www.theglobaleconomy.com/Azerbaijan/

Putri F., Najwa B., Megat D. “Impact of Fintech on the Economic Growth: Evidence from Selected Countries” University Utara Malaysia, June 2018, 95

Finca Azerbaijan, Financial Services Department: “The Impact of Non-banking Credit Organization Credits on Economic Growth in Azerbaijan” September 11, 2020

https://www.researchgate.net/profile/Alirza-Alirzayev/publication

Digital Business: “Digital transformation and the emergence of Fintech sector: Systematic literature review”, 2022, 8-11

Oanh Truong “How Fintech Industry is Changing the World”, Centria University of Applied Science, November 2016, 10

Azərbaycan Respublikası Mərkəzi Bankı: “Statistik Bülleten”, 2023

https://cbar.az/page-40/statistical-bulletin

World Bank: “Access to Finance – Essential for Job Creation and Diversified Growth in Azerbaijan”, May 12, 2015

https://www.worldbank.org/en/news/feature/2015/05/12/access-to-finance---essential-for-job-creation-and-diversified-growth-in-azerbaijan

Neuman, J, “What is Fintech? The story of broken banks, innovation, and the future of finance”, Dataconomy, October 2016.

http://dataconomy.com/what-is-Fintech-the-story-of-broken-banksinnovation-and-the-future-of-finance/.

Prakash, P., “Kabbage vs. OnDeck Capital vs. PayPal – Who Offers the Best Short-Term Loans for Small Businesses?” Centria University of Applied Science, November 2016, 16

Black Sea Trade and Development Bank: “Overview of Financial Sector of Azerbaijan” 2021, https://www.bstdb.org/Overview%20of%20the%20fin_sector_AZERBAIJAN.pdf

Nicastro, S, “Kabbage or OnDeck: Which Is Right for You?” Nerdwallet, 2016. https://www.nerdwallet.com/blog/small-business/kabbage-ondeck-lender-small-business/.

Karen M, Brayden M.(2014).“The State of Small Business Lending: Credit Accessing During The Recovery and How Technology May Change the Game”, Harvard Business School, https://www.hbs.edu/faculty/Pages/item.aspx?num=47695

Federal Reserve Bank of Chicago (2018) “Fintech Lending: Financial Inclusion, Risk Pricing, and Alternative Information” https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=3096098

Федотова М. Новые финансовые технологии меняют наш мир // Вестник Финансового Университета. 2017. No 2 https://elar.urfu.ru/handle/10995/61932

Na S, Isaac A.(2022) “The Impact of Fintech on Economic Growth: Evidence from China”, School of Management and Economics, University of Electronic Science and Technology of China: Chengdu, 2

Asian Development Bank Country Diagnostics: “Azerbaijan: Country Digital Development Overview”, January, 2019 https://www.adb.org/sites/default/files/institutional-document/484586/aze-digital-development-overview.pdf

Zahid M., Aliyev S., Natavan J (2020): “Digitalization of the Economy: Analysis of Influence On the Banking Sphere in Azerbaijan in the Context of World Experience”, International Scientific Conference on Economic and Social Development Development

https://www.proquest.com/openview/d0f16e8414e64acfe06d4c4fbb34477b/1?pq-origsite=gscholar&cbl=2033472

Аббасов А., Мамедов З., Алиев С(2019): “Цифровизация банковского сектора:новые вызовы и перспективы”, Azərbaycan Dövlət İqtisad Universiteti, 4

Samir Aliyev (2021): “The Azerbaijan Banking Sector During Pandemic and War”, Baku Research İnstitute, https://bakuresearchinstitute.org/en/the-azerbaijani-banking-sector-during-pandemic-and-war-2/

# Elektron Ticarətdə Bulud ERP-nin Tətbiq Edilməsi Və Alibaba Platformunun Biznes Performansına Təsiri

**Məhəmməd Səmədov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**samedov_mehemmed@mail.ru**

### Xülasə

Müəssisə resurslarının planlaması bütün sektorlarda olduğu kimi elektron ticarətdə də mühüm əhəmiyyət kəsb edir. Ənənəvi ERP-lərin elektron ticarət kimi dinamik və çevik sektora tətbiqində ortaya çıxan problemlər səbəbi ilə bulud ERP və bulud hesablamasından istifadə bir növ məcburi hal xarakteri almağa başlayıb. Ənənəvi ERP-lərin özü ilə gətirdiyi problemlərə qarşı bulud ERP-nin təklif etdiyi həllər tədqiqat zamanı ortaya qoyulmuş, habelə bulud hesablamanın tərkib hissələri, əhəmiyyəti və gətirdiyi faydalardan bəhs olunmuşdur. Çinin mühüm elektron ticarət platformalarından olan Alibaba da bulud hesablamanın faydalarından istifadə edir və öz biznes performansını durmadan artırır. Alibaba göstərdiyi xidmətlər, ticarət həcmi, etdiyi investisiyalar, habelə informasiya kommunikasiya texnologiyalarından istifadəyə görə sadəcə Çində yox bütün dünyada brendləşməyə doğru önəmli addımlar atmış platformadır. Bu inkişafa nail olmaq üçün tədqiqat-inkişaf xərcləri, habelə investisiya xərclərinə xüsusi diqqət ayıran şirkətin bu xərclərinə daha çox hansı faktorların təsir etməsi bu məqalədə araşdırılıb. Digər mühüm məqam isə bulud ERP və hesablamasının investisiya xərclərinə hansı dərəcədə təsir göstərməsinin ekonometrik model quruləraq tədqiq edilməsidir.

**Açar sözlər:** Bulud ERP, Alibaba, ERP, elektron ticarət.

## Giriş

Elmi-texniki tərəqqi və internetin inkişafı fonunda digər informasiya-kommunikasiya texnologiyaları kimi müəssisə resurslarının planlaşdırılması paketlərinin təkmilləşdirilməsi labüd olmuşdur. Biznes subyektlərinin və onların strategiya tələblərinin qarşılanması, mövcud proseslərə ERP-nin bütünlüklə inteqrasiyası tələbləri modern və yüksək səviyyəli ERP paketlərinin bazara çıxarılmasına səbəb olmuşdur. Bu tərz müasir paket təkliflər sırasında Bulud ERP adlanan və müəssisə resurslarının planlaşdırılması sahəsində, xüsusilə də e-ticarət şirkətləri tərəfindən istifadə olunan sistemlər mövcuddur. Dünya bazarında əhəmiyyətli paya malik olan elektron ticarət platformalarından olan Alibaba da digər rəqibləri kimi müəssisə resursları planlaşdırmasından bulud hesablama vasitəsilə istifadə edir.

1999-cu ildə Çində yaradılan Alibaba elektron ticarət platforması əsasən bir neçə istiqamətdə xidmət göstərir: istehlakçıdan – istehlakçıya (C2C), müəssisədən – istehlakçıya (B2C) və müəssisədən – müəssisəyə (B2B). Cek Ma alibaba.com saytının banisi olub Çin istehsalçılarını və xarici alıcıları bir araya gətirməyi planlayırdı. Məqsədi isə dünyada biznes və ticarəti asanlaşdırmaq idi. İstifadəçilər 5 mindən çox məhsul növü və 30-dan çox sektor üzrə alış-veriş etmək imkanına malikdirlər. 2020-ci il üçün Alibaba platformasının dünyanın 200 ölkəsindən ümumi olaraq 779 milyon istifadəçisi var (Duman, 2015).

### Bulud ERP-nin Əhəmiyyəti və Tərkib Hissələri

Bulud ERP böyük məlumat toplusu bazasına, tətbiq və xidmətlərin internet üzərindən, məkan-zaman və hər hansısa platformadan müstəqil şəkildə informasiyaya əlçatanlığı təmin edən modeldir (Onur & Ecir, 2012).

İnfrastruktur qaynağı və tətbiqlərinin xidmət kimi təqdim olunduğu, “istifadə etdikcə ödə” prinsipinə

istinad edən yeni bir texnologiya modelidir (Mirzaoğlu, 2011).

Bulud texnologiyası 3 əsas tərkib hissədən – Software as a service (SAAS), Infastructure as a service (IAAS), Platform as a service (PAAS) hissələrindən ibarətdir (Vaibhav, Vandana and Arvind, 2020).

SAAS – Proqram təminatlarının göstərdiyi xidmətlər nəzərdə tutulur. İstifadəçilər abunə olmaqla proqrama daxil olur və brauzer vasitəsilə bulud şəbəkəsinə qoşularaq proqrama daxil olurlar. SaaS proqram təminatının buludda işlədiyi və istifadəçilərə internet üzərindən xidmət göstərildiyi bir paylama modelidir. İstifadəçilər müəyyən müddətə proqram təminatına daxil olmaq üçün abunə haqqı ödəyirlər. Proqram təminatı bulud əsaslı serverlərdə işləyir və istifadəçilər internet üzərindən daxil olurlar. Məlumatlar mərkəzləşdirilmiş şəkildə, çox zaman isə təhlükəsiz informasiya mərkəzlərində saxlanılır. Proqram təminatı daimi şəkildə yenilənərək təkmilləşdirilir, yeniləmələr avtomatik şəkildə baş verir. Birdən çox istifadəçi proqrama eyni zamanda daxil olur və məlumat mübadiləsi apara bilir. SaaS ümumilikdə istifadəçi dostu interfeysə malik olub istifadəçi təcrübəsini optimallaşdırır. Nümunə olaraq “Gmail” göstərilə bilər. Bulud ERP paketləri həll yollarını bu tərkib hissə ilə təklif edir (Vaibhav et., 2020).

IAAS – Bu tərkib hissə verilənlər bazası, yedəkləmə, server, yaddaş, paylaşım şəbəkəsi kimi bəzi xidmətlərin təqdim olunmasını təmin edir. Bu hissədə müştərinin infrastrukturda idarəetmə səlahiyyəti olmur. İstifadəçilər onlar üçün ayrılan virtual maşınlarda məlumatları, əməliyyat sistemlərini və proqramları işlədə bilərlər. Həmçinin bulud əsaslı yaddaşdan istifadə edərək informasiya və faylları saxlaya və idarə edə bilərlər. Əlavə olaraq istifadəçilər bulud əsaslı şəbəkə resurslarından istifadə edərək virtual şəbəkə yaratmaq imkanına malikdirlər. Bu zaman şəbəkə trafikini idarə edə və parametrlərin konfiqurasiyasını tənzimləyə bilərlər. IaaS istifadəçilərə resurslarını ehtiyaclarına uyğun şəkildə müqayisə etməyə şərait yaradır, lazım olduqda resurslar artırıla və azaldıla bilər. Habelə istifadəçilər fiziki infrastruktura investisiya qoymadan informasiya texnologiya resurslarına daxil olmaq imkanı verir. “Amazon veb servis” (AWS) nümunə kimi göstərilə bilər (Rehman, Majumdar and Krishna, 2017).

PAAS – Məlumat xidmətlərinin kompüter infrastrukturu əhatə dairəsində təqdim olunmasıdır. PaaS istifadəçilərə tətbiqləri sürətli formada inkişaf etdirməyə imkan verir. İstifadəçilər kod yazmadan və yaxud daha az kod yazaraq proqramlar qura bilirlər. Həmçinin proqramların paylanması, yeniləmə, texniki xidmət və ehtiyat nüsxə kimi əməliyyatları asanlıqla yerinə yetirə bilərlər. Həmçinin bu platformada birdən çox şəxs eyni zamanda proqram hazırlaya bilər. Habelə hər bir istifadəçi yaratdığı proqramı təcrid olunmuş mühitdə inkişaf etdirə və işlədə bilər. “Amazon veb servis” (AWS) həmçinin bu tərkib hissəyə də nümunə kimi göstərilə bilər (Vaibhav et., 2020).

Bulud ERP istifadəçilərə 3 bulud növündən istifadə imkanları təklif edir. Bu təkliflər ictimai, özəl və hibrid növlərdir. İctimai Bulud ERP-yə ortaq proqram təminatı, verilənlər bazası, avadanlığı açıq şəkildə paylaşılan şəxslər tərəfdən əlçatan olur. Özəl bulud isə müəyyən səlahiyyət verilmiş istifadəçilərə daxil olmağa imkan verir. Bu daha yaxşı və təhlükəsiz verilənlər bazası idarəetməsini təmin edir. Hibrid bulud isə ictimai və özəl buludların kombinə edilmiş variantıdır (Saini et al, 2011).

Daha aşağı tətbiq edilmə xərcləri və sərmayə, enerjiyə qənaət, baxım xərclərinin olduqca aşağı olması, habelə elastikliyi və fərdiləşdirməyə açıq olması əsas üstünlüklər sırasındadır. Bulud ERP müştərinin istək və ehtiyaclarına uyğunlaşa bilir. ERP buludu tətbiq edilmənin sürətliliyi, texnoloji qaynaqlara əlçatanlılıq, özünü təkmilləşdirmə, mobillik, asan inteqrasiya, məlumatların yedəklənməsi, satışı avtomatlaşdırma kimi biznesə digər faydalar da qazandırır (Alper, 2021).

### Bulud ERP-nin elektron ticarətə tətbiqi ilə əldə olunan faydalar

Cədvəl 1-də göstərildiyi kimi ənənəvi ERP-də əsas problemlərdən biri digər tərəflərlə kommunikasiya məsələsidir, hansı ki, Bulud ERP vasitəsilə həm təchizat zənciri idarəetməsi ilə inventarı, həm də müştəri əlaqələri idarəetməsi ilə cari müştərilərini idarə edə və dolayısı ilə təchizatçılarla daha təkmil və faydalı əlaqə yaradıla bilər. Ənənəvi ERP-də modullararası əlaqə monolit olub, bu tərz paketlərdə modulların genişləndirilməsi yaxud modifikasiyası çox vaxt almaqla yanaşı, yüksək xərclərlə nəticələnir. Bulud ERP-də isə əksinə olaraq modullar elastik olub təkmilləşdirmələrə açıqdır. Şirkət ənənəvi ERP-lərə müraciət etdikdə bu sistemə uyğunlaşmağa çalışır, bunun əksinə olaraq Bulud ERP əldə edən şirkətlər özlərinə bu sistemi uyğunlaşdıra bilir. Çeviklik baxımından isə, əlbəttə ki, vahid bir mərkəzə və enerji qaynağına tabe olan ənənəvi ERP-lərin sürəti daha aşağıdır. Sadə işıq kəsintiləri olduqda bütün proseslər ləngiyir, sistemin və serverin özünü bərpası müəyyən qədər zaman alır.

**Cədvəl 1: Ənənəvi ERP tətbiqi zamanı elektron ticarətdə ortaya çıxan problemlər və Bulud ERP-nin təklif etdiyi həll yolları**

| Problem növü | Ənənəvi ERP-də | Bulud ERP həll təklifi |
|---|---|---|
| Kommunikasiya | Sadəcə şirkətdaxili | Təchizatçı, müştəri və s. şəxslərlə geniş əlaqə şəbəkəsi yaratma imkanı |
| Modullararası əlaqə | Monolit | Elastiklik |
| Harmonizasiya | Şirkət ERP-yə uyğunlaşır | ERP şirkətə uyğunlaşır |
| Çeviklik | Aşağı sürət | İnternet qədər çevik |

**Mənbə:** Müəllif tərəfindən (Yongqing & Yuliana, 2017; Alper, 2021) mənbələrinə əsasən tərtib edilmişdir.

### Elektron Ticarətə Bulud ERP-nin İnteqrasiyası

Bulud ERP-dən öncə müəssisələrə elektron ticarət sistemi qurmaq üçün çoxlu sayda kompüter və şəbəkə qurğuları lazım idi. Habelə müəssisələr tərəfindən bu kompüter və qurğuların mütəmadi yenilənməsi müəyyən xərclərə səbəb olur. Bulud ERP tətbiqi ilə və bulud hesablamasının sürətli inkişafı nəticəsində elektron ticarət müəssisələrinin proqram və aparat təminatına tələbləri azalıb (Wang B. & Tang, 2016).

İlk növbədə Bulud ERP elektron ticarət müəssisələrinə proqram və aparat təminatını almaq yerinə onları bir növ icarəyə götürməyə şərait yaratmaqla xərcləri azaltmağa imkan verir. Xüsusilə, "xidmət qədər ödəniş" rejimi olduqca çevik olub elektron ticarət müəssisələrinə tələbinə uyğun qədər resursdan istifadəyə imkan verir. Elektron ticarətdə Bulud ERP-yə keçid üçün bir sıra stimullaşdırıcı qüvvələr – tələb, səmərəlilik, siyasət və keyfiyyət mövcuddur. Tələb dedikdə informasiya texnologiyalarının sürətli inkişafı elektron ticarət xidmətlərini daha sürətli, çevik hala gətirir. Səmərəlilik 2 aspektdən ibarətdir: iri həcmli məlumatların saxlanması və məlumatların inteqrasiya edilərək emalı. Siyasət dedikdə dövlətin bu sahəni təşviq edəcək islahatları qəbul etməsi nəzərdə tutulur. Daha yaxşı nəzarət müvafiq səlahiyyətli qurumlar üçün ideal təklifdir. Keyfiyyət isə birbaşa müştəri tələbi ilə bağlıdır, hansı ki, müasir istehlakçı sürət və çevikliyin tərəfdarıdır (Wang D., 2013).

**Sxem 1: Bulud hesablamanın elektron ticarətə təsiri**




**Mənbə:** Müəllif tərəfindən (Wang D., 2013) mənbələrinə əsasən tərtib edilmişdir.

## Alibaba Platformuna Bulud ERP-nin Təsirinin Analizi

Alibaba elektron ticarət yönümlü şirkət olduğu üçün alış-veriş, axtarış, digər əməliyyatlar baxımından yüksək prioritetə malik olub zəmanətli platformadır. Həyata keçirilən onlayn xidmətlər interaktivdir, müştərilər isə gecikmələrə qarşı həssasdırlar. Bu həssaslıq isə istehlakçının digər rəqiblərinə üz tutmasına və biznesin yekunda itkilərinə səbəb ola bilər. Bu səbəbdən Alibabanın elektron ticarət platforması kimi əsas prioritetlərindən biri resurs planlaşdırmasını daha sürətli aparmağa imkan verəcək bulud hesablamasından istifadədir (Jiang et al, 2020).

Alibaba elektron ticarət platforması həm veb-saytla, həm də mobil istifadəsi üçün artan tələbi, təkmilləşdirilmiş performans və əlavə daxili funksionallığı təmin etmək üçün öz infrastrukturunu daim təkmilləşdirir. Alibaba gəlirləri əsasən onlayn marketinq xidmətləri, əməliyyatlar üzrə komissiyalar, üzvlük və bulud hesablama gəlirlərindən ibarətdir. Alibaba ekosistemi kompüter və rabitə sistemlərinin səmərəli və fasiləsiz işləməsindən asılıdır. Əsasən bütün kompüter avadanlıqları və bulud hesablama xidmətləri hazırda Çində yerləşir. Bundan əlavə, çoxlu sayda elektron ticarətlə məşğul olan sahibkarlar Alibabanın bulud hesablamasında korporativ resurs planlamasını və ya ERP və müştəri münasibətlərinin idarə edilməsi və ya CRM sistemlərini saxlayır (https://www.annualreports.com/HostedData/AnnualReportArchive/a/NYSE_BABA_2015.pdf).

2009-cu ildən Alibaba öz bulud infrastrukturuna sərmayə qoyub və inkişaf etdirməyə davam edir. Elektron ticarətlə məşğul olan sahibkarlar Alibaba platformasında təkcə öz vitrinlərini və məhsul kataloqlarını yaratmırlar, onlar həmçinin bir sıra əsas dəstək xidmətləri üçün platformaya etibar edirlər. Bunlara siyahıları, sifarişləri və müştəri münasibətlərini idarə etmək üçün veb-əsaslı və mobil interfeyslər, həmçinin onların müəssisə resurslarının planlaşdırılması və ya ERP üçün bulud hesablama xidmətləri daxildir. Bulud ERP ilə inteqrə olunmuş Cainiao Logistics platforması vasitəsilə partnyor logistika provayderlərinə göndərmə sifarişləri verilə bilər. Göndərmə sifariş sistemləri vasitəsilə Alibaba performans analitikası və daşınma haqqı kalkulyatorları kimi alətlər təqdim etməklə satıcılara alıcının alış-veriş təcrübəsini təkmilləşdirməyə imkan verir (https://www.annualreports.com/HostedData/AnnualReportArchive/a/NYSE_BABA_2015.pdf).

Alibaba bulud hesablaması onlayn platformada yaradılan böyük həcmli trafik və məlumatı idarə etmək üçün paylanmış hesablama infrastrukturu təmin etməklə e-ticarət ekosistemini dəstəkləyir. Bununla da öz platformasına, partnyor şirkətlərə, Alipay-a, e-ticarət satıcılarına və digər III tərəflərə

xidmətlər göstərilir. Daim mobil əməliyyat sistemi inkişaf etdirilir və təkmilləşdirilir, YunOS, mobil qurğular, əşyaların interneti və s.-nin tətbiqi üçün mühit formalaşdırılır. Alibaba bulud hesablama xidmətlərini satıcılara, müəssisələrə və digər üçüncü tərəflərə ilk növbədə vaxta və istifadəyə əsaslanan ödəniş müqabilində təklif edir. Bulud hesablamaları üçün Alibaba dünyanın 27 regionunda xidmətlər təklif edir. 31 mart 2015-ci il tarixinə Alibaba bulud hesablaması xidmətlərinin 240 000-dən çox ödəniş edən birbaşa müştərisi var idi. Bu ödənişli birbaşa müştərilərə əlavə olaraq, Alibaba bulud hesablaması xidmətlərində ödəniş etməyən birbaşa müştərilər, veb hostinq xidmətlərinin müştəriləri və satıcıları da var. Apsara adlanan bulud hesablama platforması elastik hesablama, verilənlər bazası saxlama və xidmətləri və veb əsaslı API (tətbiqi proqramlaşdırma interfeysi) vasitəsilə geniş miqyaslı məlumatların emalı xidmətləri daxil olmaqla bulud xidmətləri təklif edir (https://www.annualreports.com/HostedData/AnnualReportArchive/a/NYSE_BABA_2015.pdf).

2022-ci il üçün Alibaba platformasının illik hesabatına görə məcmu gəliri 134 567 milyon ABŞ dolları olmuşdur. Bu gəliri müxtəlif istiqamətlər – Çin, beynəlxalq ticarət, bulud hesablaması, komissiyadan əldə edir. Cədvəl 2-yə nəzər saldıqda, platformanın gəlirlərini daha çox Çindən və bulud hesablamadan formalaşdırdığını görə bilərik.  Aşağıdakı Qrafik 1-dən Alibaba platformasının gəlirlərinin mənbəyinin payını vizual olaraq görmək mümkündür.

**Cədvəl 2: Alibaba platformunun 2022-ci il üzrə gəlirləri, milyon ABŞ dolları ilə**

| Çindən ticarət gəliri | Beynəlxalq ticarət gəliri | Komissiya gəliri | Logistika gəliri | Bulud hesablama gəliri | Rəqəmsal media gəliri | İnnovasiya gəliri |
|---|---|---|---|---|---|---|
| 93497 | 9635 | 6861 | 7273 | 11763 | 5091 | 447 |

**Mənbə:** Alibaba şirkətinin illik hesabatına əsasən müəllif tərəfindən hazırlanmışdır.

**Qrafik 1: Alibaba platformunun 2022-ci il üzrə gəlir mənbələri**




**Mənbə:** Alibaba şirkətinin illik hesabatına əsasən müəllif tərəfindən hazırlanmışdır.

2009-cu ildən başlayaraq bulud infrastrukturuna qoyulan sərmaye artıq Alibaba gəlirlərində mühüm yerə sahib olmaqla öz geri dönərliliyini təmin etməsini sübut edib. 2015-2022-ci illər üzrə ümumilikdə 34 047 milyon ABŞ dolları gəlir gətirən bulud hesablama Alibaba elektron ticarət platforması üçün öz önəmini artırmağa davam edir. Qrafik 2-yə nəzər saldıqda müsbət tendensiyanı

görmək mümkündür. 2022-ci ildə bulud hesablamasından gələn gəlirlərin Alibabanın məcmu gəlirlərindəki payı 8.7 faiz olmuşdur.

**Qrafik 2: 2015-2022-ci illər üzrə Alibabanın bulud hesablama üzrə gəlirlərinin dinamikası, milyon ABŞ dolları ilə**




**Mənbə:** Alibaba şirkətinin illik hesabatına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qrafik 3-də isə illər üzrə bulud hesablama gəlirlərinin Alibabanın məcmu gəlirlərindəki payı verilmişdir. 2015-ci ildən 2022-ci ilə qədər isə bu payın artdığını müşahidə edə bilərik.

**Qrafik 3: 2015-2022-ci illər üzrə bulud hesablamanın Alibaba gəlirlərindəki payı, milyon ABŞ dollar ilə**




**Mənbə:** Alibaba şirkətinin illik hesabatına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Qrafik 2 və 3-ə nəzər saldıqda Alibaba şirkəti üçün bulud hesablamanın önəmli gəlir mənbəyi olduğunu anlamaq olar. Şirkətin məcmu gəlirləri və bulud hesablama – Apsara gəlirləri arasında həm əlaqəni, həm də bu əlaqənin gücünü Microsoft Excel proqramının köməyilə aşkarlayaq. İlk növbədə covariance.s funksiyasından istifadə edərək Alibaba və Apsara gəlirləri arasında müsbət əlaqə olduğunu müəyyən edə bilərik. Daha sonra sözügedən 2 dəyişən arasında əlaqənin gücünün

yoxlanılması üçün isə correl funksiyasını istifadə edə bilərik. Bu zaman R~0.99-a bərabər olur, hansı ki, bu qiymət 2 dəyişən arasında müsbət və güclü xətti əlaqə olmasını deməyə imkan verir.

**Cədvəl 3: Alibaba şirkətinin investisiya xərcləri və ona təsir edən faktorlar, milyon ABŞ dolları ilə**

| İllər | İnvestisiya xərcləri | Bulud hesablama gəlirləri | Bulud hesablama Amort xərcləri | Alibabanın xalis gəlirləri |
|---|---|---|---|---|
| 2015 | 8623 | 205 | 337 | 3896 |
| 2016 | 6643 | 468 | 455 | 11083 |
| 2017 | 11385 | 968 | 744 | 6345 |
| 2018 | 13374 | 2135 | 1135 | 10201 |
| 2019 | 22509 | 3681 | 1599 | 13053 |
| 2020 | 15263 | 5651 | 1891 | 21080 |
| 2021 | 37271 | 9176 | 1896 | 22941 |
| 2022 | 31327 | 11763 | 1837 | 9774 |

**Mənbə:** Alibaba şirkətinin illik hesabatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 3-də Alibaba şirkətinin investisiya xərcləri 2015-2022-ci illər üçün verilmişdir. 2020-ci il istisna edilməklə digər illərdə investisiya xərcləri öncəki ilə nisbətən artmışdır. Cədvəl 3-də əlavə olaraq göstərilən illər üzrə bulud hesablama gəlirləri və amortizasiya xərcləri, həmçinin şirkətin xalis gəlirləri öz əksini tapmışdır.

Reqressiya modelini qurmadan əvvəl hipotezi müəyyən edək.

Hipotez 1. Alibaba şirkətinin investisiya xərclərinə ən çox təsir edən faktor bulud hesablama gəlirlərindəki dəyişmələrdir.

Tədqiqat aparılan modelə birdən çox amil daxildir. Bu səbəbdən də faktorların arasındakı əlaqə mümkün qədər aşağı asılılığa malik olmalıdır. Cüt-cüt əmsallar matrisindən istifadə edərək bunu müəyyənləşdirə bilərik. Microsoft Excel proqramındakı correl funksiyasından istifadə etməklə aşağıdakı cədvəli əldə edə bilərik:

**Cədvəl 4: Faktorlar arasında korrelyasiya əmsalları matrisi**

| | *İnvestisiya xərcləri* | *Bulud hesablama gəlirləri* | *B hesablama Amort xərc* | *Alibabanın xalis gəlirləri* |
|---|---|---|---|---|
| İnvestisya xərcləri | 1 | | | |
| Bulud hesablama gəlirləri | 0,905044616 | 1 | | |
| B hesablama Amort xərc | 0,815924434 | 0,855201964 | 1 | |
| Alibabanın xalis gəlirləri | 0,567796131 | 0,540385639 | 0,757395881 | 1 |

**Mənbə:** Cədvəl 3 və MS Excel-ə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Faktorların arasında əlaqəyə nəzər saldıqda multikollinearlılığın çox da yüksək olmamasını müşahidə edə bilərik.

Xətti reqressiyanın qurulması üçün MS Excel proqramında regression funksiyasından istifadə edək.

**Cədvəl 5: Faktorlar arasında korrelyasiya əmsalları matrisi**

*SUMMARY OUTPUT*

| *Regression Statistics* | |
|---|---|
| *Multiple R* | *0,91018027* |
| *R Square* | *0,828428124* |
| *Adjusted R Square* | *0,699749217* |
| *Standard Error* | *6067,020912* |
| *Observations* | *8* |

*ANOVA*

| | *df* | *SS* | *MS* | *F* | *Significance F* |
|---|---|---|---|---|---|
| *Regression* | *3* | 7,11E+08 | 2,37E+08 | 8,437948 | 0,041928402 |
| *Residual* | *4* | 1,47E+08 | 36808743 | | |
| *Total* | *7* | 8,58E+08 | | | |

| | *Coefficients* | *Standard Error* | *t Stat* | *P-value* | *Lower 95%* | *Upper 95%* | *Lower 95,0%* | *Upper 95,0%* |
|---|---|---|---|---|---|---|---|---|
| *Intercept* | *6408,143769* | 5574,363 | 1,149574 | 0,314378 | -9068,769418 | 21885,057 | -9068,7694 | 21885,057 |
| *Bulud hesablama gəlirləri* | *2,078494361* | 1,087136 | 1,911898 | 0,128465 | -0,939880229 | 5,096869 | -0,9398802 | 5,096869 |
| *Bulud hesablama Amort xərcləri* | *1,05267362* | 9,140525 | 0,115166 | 0,913864 | -24,32549161 | 26,430839 | -24,325492 | 26,430839 |
| *Alibabanın xalis gəlirləri* | *0,141788901* | 0,557142 | 0,254493 | 0,811662 | -1,40508487 | 1,6886627 | -1,4050849 | 1,6886627 |

**Mənbə:** Cədvəl 3 və MS Excel-ə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Çoxluq korrelyasiya əmsalı 0.91-ə, $R^2$ isə 0.83-ə bərabərdir. Müşahidə obyektlərinin sayı 8-ə bərabərdir. Çoxluq korrelyasiya əmsalının 0.91-ə bərabər olması asılı dəyişənin, yəni investisiya xərclərinin izahedici dəyişənlərlə, yəni bulud hesablama gəlirləri və amortizasiya xərcləri, habelə alibabanın xalis gəlirləri ilə əlaqəsinin sıxlıq dərəcəsini göstərir. Nəticə olaraq əlaqə sıxlığı çox yüksəkdir.

Determinasiya əmsalı $R^2$=0.83 olması approksimasiyanın yüksək olması mənasına gəlir. Bu qiymətə əsasən reqressiya tənliyi 83 faiz dispersiya nəticə göstəriciləri ilə, qalan 17 faiz isə modelə daxil olunmamış başqa faktorların təsiri ilə izah edilir. Ümumilikdə, nəticə amilinin 83 faizi modelə daxil olunan səbəb faktorları hesabına izah edilir. Beləliklə model keyfiyyətli hesab oluna bilər. Əhəmiyyət (Significance) F~0.04-ə bərabərdir. $P<0.05$ şərtinə əsasən reqressiya modelini əhəmiyyətli hesab edə bilərik. İndi isə fişer kriteriyası vasitəsilə çoxluq reqressiya modelinin statistik əhəmiyyətliliyini yoxlayaq. Fişer kriteriyasını $F_{cədvəl}(a;m;n\text{-}m\text{-}1)$ qiyməti ilə müqayisə etməliyik. Reqressiya analizinə əsasən F~8.44-dür. MS Excel proqramından $F_{cədvəl}$ qiymətini tapmaq üçün istifadə edə bilərik.

$$F_{cədvəl}(a;m;n-m-1) = F(0.05;\, 3;\, 4) = 6.59$$

Müqayisəyə baxaq:

$$F(\text{fişer kriteriyası}) > F_{cədvəl}\ (8.44 > 6.59)$$

Buradan reqressiya modelinin bütövlükdə statistik əhəmiyyətli olması nəticəsinə gələ bilərik. Yəni

ki, reqressiya modeli adekvatdır. Excel proqramından istifadə edərək Alibaba elektron ticarət platformasının investisiya xərclərinə təsir edən faktorlar arasındakı reqressiya əlaqəsini ifadə edən cədvəl məlumatlarına istinadən, 2015-2022-ci illər üzrə Alibaba investisiya xərclərinə təsir edən faktorlar arasındakı asılılığı ifadə edən reqressiya tənliyi aşağıdakı kimidir:

$$Y = 6408,14 + 2,08X_1 + 1,05X_2 + 0,14X_3$$

Reqressiya modelinə əsasən:

- $X_1$ amili 1 vahid artarsa, Y 2,08 vahid artar;
- $X_2$ amili 1 vahid artarsa, Y 1,05 vahid artar;
- $X_3$ amili 1 vahid artarsa, Y 0,14 vahid artar.

Nəticədə $X_1$, $X_2$ və $X_3$ amilləri, yəni müvafiq olaraq bulud hesablama gəlirləri, bulud hesablama amortizasiya xərcləri və şirkətin xalis gəlirləri investisiya xərclərinə müsbət təsir edir. Bu amillər artdığı zaman göstərilmiş miqdarlarda asılı dəyişən olan investisiya xərcləri də artım göstərir.

Hipotezə nəzər saldıqda isə özünü doğrultduğunu görürük. Çünki Alibaba şirkətinin bulud hesablamasından əldə etdiyi gəlirlərin investisiya xərclərinin artımına daha çox müsbət təsir göstərməsi nəticəsini reqressiya modelinə əsasən əldə etdik.

Yekun olaraq elastiklik əmsalını hesablayaq. Bununla da X amilinin 1 faiz dəyişməsi ilə Y asılı dəyişəninin faiz olaraq dəyişməsini öyrənə bilərik. Bu zaman istifadə olunacaq düstura nəzər salaq:

$$E = \frac{\alpha_1}{\bar{y}} \overline{x_1}$$

Düsturdan istifadə olunaraq aşağıdakı cədvəli əldə edə bilirik:

**Cədvəl 6: Faktorlar üzrə elastiklik əmsalları**

| | |
|---|---|
| Bulud hesablama gəlirləri | 0.48 |
| Bulud hesablama Amortizasiya xərcləri | 0.07 |
| Alibaba xalis gəlirləri | 0.1 |

**Mənbə:** Cədvəl 5 və MS Excel-ə əsasən müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 6-da Alibaba şirkətinin investisiya xərclərində daha çox faizlə ifadədə dəyişməyə bulud hesablama gəlirləri faktoru təsir edir. Bulud hesablama gəlirlərinin 1 faiz artması investisiya xərclərini 0.48 faiz artırır.

**Nəticə və Təkliflər**

Elektron ticarət sferasında fəaliyyət göstərən şirkətlərin həcmi, dövriyyəsi və digər amillərdən asılı olmayaraq resurs planlamasına ehtiyacları var. Bu planlamanın həyata keçirilməsi üçün isə ERP proqram paketlərindən istifadə şərtdir. Aparılan araşdırma zamanı bu sektorun özünəməxsus cəhətlərinə, habelə sektor iştirakçılarının davranışlarına nəzər yetirdikdə ənənəvi proqram paketlərinin müəyyən problemlərə yol açacağı müəyyənləşdirilmişdir. Bu problemlərə qarşı isə bulud ERP-nin öz növbəsində elektron ticarət sferasına gətirəcəyi və vəd etdiyi həllər ortaya qoyulmuşdur. Bulud ERP anlayışı, onun əhəmiyyəti və tərkib hissələri, habelə şirkətə gətirdiyi faydalar tədqiqat zamanı müxtəlif ədəbiyyat və araşdırmalara istinadən açıqlanmışdır.

Bulud ERP-dən və onun əsaslandığı bulud hesablamadan istifadə edən, həmçinin bu sektorda dünyanın ən çox istifadə edilən platformalarından biri olan Alibaba nümunəsindən istifadə

olunmuşdur. İlk növbədə Alibaba platformunun məqsəd və strategiyaları aydınlaşdırılmış, daha sonra 2015-ci ildən etibarən nəşr olunan illik hesabatları əsasında gəlirləri və onların mənbələri ilə bağlı həm nəzəri, həm də vizuallaşdırılmış formada tədqiqat aparılmışdır. Aparılan araşdırma zamanı Alibaba şirkətinin investisiya xərclərinin son 8 ildə artımı müşahidə edilmişdir, hansı ki, bu xərclərə ən çox təsir edən amilin məhz bulud hesablamasından gələn gəlirlər olduğu ekonometrik model vasitəsilə aşkarlanmışdır.

Yekun olaraq elektron ticarət platformalarının müəssisə resurslarının planlaşdırılması sahəsində daha təkmil variant olan bulud ERP-dən istifadəsi biznes performansına müsbət təsir etməklə yanaşı məhdud ehtiyatlardan daha səmərəli istifadə ilə nəticələnəcək.

Bulud ERP-dən istifadə fayda gətirməklə yanaşı bir sıra problemləri də öz növbəsində gətirir. Bu problemlərdən ən başlıcası isə təhlükəsizlik məsələsidir. İstehlakçıların şəxsi və bank məlumatlarının elektron ticarət sahəsində internet üzərindən əlçatanlılığının artması bu riski daha da artırır. Gələcək tədqiqatlarda bu məsələyə toxunulması tədqiqatın genişlənməsinə və elektron ticarət sferasındakı müəssisələr tərəfindən tətbiqinə də öz töhfəsini verə bilər.

Əlavə olaraq təchizat zəncirinin və müştəri əlaqələrinin idarəolunması kimi sistemlərin müəssisə resurslarının planlaşdırılması ilə birgə inteqrasiya olunaraq bulud platformasında yerləşdirilməsi e-ticarət üçün daha geniş imkanlar yaradacaqdır.

**Ədəbiyyat Siyahısı**


Duman M.C. (2015). Bir tık ile büyüyen sektor: elektronik ticaret. TOBB University of Economics and Technology. DOI: 10.13140/RG.2.1.1443.7846.

Onur, S. ve Ecir, U.K. (2012). Bulut bilişimin eğitim alanında uygulanması. Süleyman Demirel Üniversitesi, Fen Bilimleri Enstitüsü Dergisi, 16-3, pp 248-254.

Mirzaoğlu, A.G. (2011). Bulut bilişimin Teknik, uygulama ve düzenleme boyutuyla değerlendirilmesi, dünya örnekleri ve ülkemize ilişkin öneriler. Bilgi teknolojileri ve iletişim kurumu. Bilişim uzmanlığı tezi.

Vaibhav, S., Vandana N., and Arvind, K.S. (2020). Cognitive analysis of deploying web applications on Microsoft windows azure and amazon web services in global scenario. Materials Today: Proceedings, https://doi.org/10.1016/j.matpr.2020.10.126.

Rehman, H., Majumdar, S., Krishna, C. (2017). Adoption of infrastructure as a service (IAAS) in organizations in Bengaluru, India: a study with respect to organizational factors for mobile device management software products. International Journal of Applied Business and Economic Research, Vol 15, pp 497-509.

Saini, L.S., Dinesh, K.S., Jabar, Y., Sandhya K. (2011). Cloud computing and enterprise resource planning system. Proceedings of the world congress on engineering, London.

Alper, İ. (2021). Kurumsal kaynak planlaması (ERP) ve bulut ERP. Pamukkale Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Yüksek lisans tezi.

Yongqing, W., Yuliana S. (2017). Analysis on the integration of ERP and e-commerce. Beijing University of Technology, China.

Wang, B., Tang, J. (2016). The analysis of application of cloud computing in e-commerce. İnternational Conference on İnformation System and Artificial Intelligence.

Wang, D. (2013). Influences of cloud computing on e-commerce businesses and industry. Journal of Software Engineering and Applications, Vol 6, pp 313-318.

Jiang, C., Qiu, Y., Shi, V., Ge, Z., Wang, J., Chen, S., Cerin, C., Ren, Z., Xu, G., Lin, J. (2020). Characterizing co-located workloads in Alibaba cloud datacenters. Transactions on Cloud Computing, Vol 10, pp 2381-2397.
https://www.annualreports.com/HostedData/AnnualReportArchive/a/NYSE_BABA_2015.pdf

# İnkluziv Təhsil Sahəsində Olan İmkanların Təşkili Problemləri və Həlli Yolları

**Abdullayev Məhəmməd**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**mahammad_abdullayev@unec.edu.az**

## Xülasə

Məqalədə inklüziv təhsil və inklüziv təhsil prosesinin subyektləri ilə bağlı təhsilverənlərin fikirlərinin öyrənilməsinin nəticələri araşdırılır. Hal-hazırda sağlamlıq imkanları məhdud insanların müxtəlif sahələrdə kollektivin üzvü kimi formalaşması və birgə fəaliyyətdə iştirakını təmin etmək üçün sosial statusunun bərpa olunması vacib prosesdir. Sosial reabilitasiya belə şəxslərin cəmiyyət ilə əlaqədə olması üçün bir vasitədir. Xüsusi ehtiyacı olan insanların cəmiyyətin inkişaf etdirilməsi prosesində fəal iştiraklarını təmin etmək üçün onlara dəstək olmaq lazımdır. Tədqiqatçıların qeydlərinə görə bu gün inklüziv təhsilin təmin edilməsi sahəsində mükəmməl qanunvericiliyə sahib ölkələr Danimarka, İslandiya, Kanada, Niderland və s demək olar. Təəccüblü deyil ki, dünyanın bir çox kasıb ölkələrində sürətli dəyişikliklər baş verir. Bütün bunlar yəni qeyd edilənlər YUNESKO-nun proqramlarının səmərəli tədbirləri ilə bağlıdır. Fiziki qüsurlu insanlarda sosial statusunun bərpa olunması prosesinin baş verməsi onların şəxsiyyətinin inkişafına təkan verir, eyni zamanda sosiallaşmanın göstəricisi olan özünütəsdiq, özünüreallaşdırma ilə nəticələnir. Belə şəxslərin ətrafa uyğunlaşmalarında, yaşıdları və yaşlılarla münasibətlərində olan çətinlikləri təbiətlə və ətrafla əlaqənin məhdudluğunun, mədəni vərdişlərin azlığının nəticəsidir. Təhlil əvvəlcə autizmə yönəldilsə də, siyasətlər əsasən ümumi autizmli uşaqlar kimi xüsusi təhsilə ehtiyacı olan uşaqlar siyasətlərindən ibarət olub, nəticələri autizmdən kənarda daha geniş kontekstdə şərh etməyə imkan verir və təhsil sisteminin inkişaf edib təkmilləşdirilməlidir.

**Açar sözlər:** Fiziki qüsurlu insanlar, inkluzivlik, inkluziv təhsil, təhsil

## Summary

The examination of educators' perceptions of inclusive education and the themes covered by the inclusive education process is examined in this article. The task of reestablishing disabled people's social standing as members of the community and ensuring their participation in shared activities is crucial right now. These individuals can interact with society through social rehabilitation. To assure their active involvement in the process of society's development, it is vital to help persons with special needs. According to the researchers, Denmark, Iceland, Canada, the Netherlands, etc. are the countries with perfect legislation in the field of inclusive education. Not surprisingly, rapid change is occurring in many of the world's poor countries. All these, what has been mentioned, are related to the effective actions of UNESCO's programs. The process of restoration of social status in people with physical disabilities stimulates the development of their personality, and at the same time results in self-affirmation and self-realization, which is an indicator of socialization. These individuals have a tough time adjusting to their surroundings and interacting with their peers and the elderly. Although the analysis was initially focused on autism, the policies primarily encompassed children with special educational requirements as well as children who were autistic in general, allowing the results to be interpreted in a larger context beyond autism and the growth and improvement of the educational system.

**Keywords:** Education, inclusiveness, inclusive education, people with physical disabilities

## Giriş

**Mövzunun aktuallığı:** Hal-hazırda sağlamlıq imkanları məhdud insanların müxtəlif sahələrdə kollektivin üzvü kimi formalaşması və birgə fəaliyyətdə iştirakını təmin etmək üçün sosial statusunun

bərpa olunması vacib prosesdir. Sosial reabilitasiya belə şəxslərin cəmiyyət ilə əlaqədə olması üçün bir vasitədir. Xüsusi ehtiyacı olan insanların cəmiyyətin inkişaf etdirilməsi prosesində fəal iştiraklarını təmin etmək üçün onlara dəstək olmaq lazımdır. Fiziki qüsurlu insanlarda sosial statusunun bərpa olunması prosesinin baş verməsi onların şəxsiyyətinin inkişafına təkan verir, eyni zamanda sosiallaşmanın göstəricisi olan özünütəsdiq, özünüreallaşdırma ilə nəticələnir. Belə şəxslərin ətrafa uyğunlaşmalarında, yaşıdları və yaşlılarla münasibətlərində olan çətinlikləri təbiətlə və ətrafla əlaqənin məhdudluğunun, mədəni vərdişlərin azlığının nəticəsidir. Bu zaman sağlamlıq imkanları məhdud insanların sosial inkişafına göstərilən sosial-pedaqoji köməyin mahiyyətini məqsədyönlü pedaqoji yardım təşkil edir. Belə prosesin həyata keçirilməsinin daha əlverişli yolu təhsil müəssisələrində göstərilən dəstək və xidmətin vasitəsilədir. Konsepsiyasında da qeyd olunduğu kimi inklüziv təhsilin əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan cəmiyyətin sosial reabilitasiyası üçün şərait yaradılmalı və təhsil sisteminin inkişaf edib təkmilləşdirilməlidir.

**Tədqiqatın məqsəd və vəzifələri**: Tədqiqatın əsas məqsədi son illərdə fiziki qüsurlu insanları cəmiyyətimizdə sayının artmasıdır. Bu insanların cəmiyyətin bir üzvü olduğundan inklüziv təhsilin təhsil müəssisələrindəki yerinin, oradakı çatışmamazlıqları və problemləri araşdırılmışdır. Bunun üçün əsas vəzifələr bu maneəllərin dünya təcrübəsində həlli və tapılan yeniliklərin tətbiqi və onların effektivliyi, ölkəmizdəki təhsil sahəsində mövcud vəziyyət və bu yeniliklərin effektivlik göstəricilərinin qiymətləndirilməsidir.

**Tədqiqat metodları**: Tədqiqat statistik təhlil və anket sorğu metodlarından istifadə etməklə əldə edilmiş məlumatların analiz olunması və sistemləşdirilməsi yolu ilə aparılmışdır.

**Tədqiqatın informasiya bazası**: Tədqiqat işinin yazılmasında əsasən xarici ədəbiyyatlar, hesabatlar, internet resurslarından və yerli ədəbiyyatlardan istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri**: İnkluziv təhsilin ölkəmizdəki və xaricdəki təhsil ocaqlarındakı fəaliyyəti və təhsil sahəsinə təsiri ilə bağlı ədəbiyyat və statistik göstəricilərin azlığı. Bu da pandemiya və post pandemiya dövründə ölkəmizdə və xaricdə təhsil sahələrinə təsirlərinin tam şəkildə qiymətləndirilməsinə mane olur.

**İnkluziv Təhsil Anlayışı və Növləri**

Günümüzdə qloballaşma prosesi çox sahələrə təsir edir. Bu səbəblə də davamlı inkişafı təmin edilməlidir. Dünya ölkələri bu prosesin insan resurslarına təsiri nəzərə alaraq təhsil sahəsinə də qayğı ilə yanaşmalıdırlar. Bunun əsas səbəbi təhsilə yiyələnən gənclərin və insanların müxtəlif məqamlarda problemləri həll etməyə yardım edə bilməsi ilə əlaqədardır.

Təhsildə imkan bərabərliyi beynəlxalq hüquqda öz əksini tapmış bir anlayış kimi mühüm əhəmiyyət kəsb edir. Cəmiyyət üzvləri arasında hər kəs üçün bu bərabərliyi təmin etmək üçün təhsil müəssisələrinin hər biri cəmiyyətdə mühüm vasitəçilik rolunu oynayır. Bu rolu daha funksional etmək baxımından, inklüziv təhsildə çox vaxt əsas rol oynayır.

"İnklüziv təhsil" anlayışı YUNESKO-nun tərifinə əsasən formalaşmışdır: "İnklüziv təhsil təhsildə iştirakın artırılması və təhsil sistemində ayrı-seçkiliyin azaldılması yolu ilə bütün öyrənənlərin, mədəniyyətlərin və icmaların müxtəlif ehtiyaclarına cavab vermək prosesidir. Bu proses öyrənmə yaşında olan bütün uşaqların ümumi baxışı və bütün uşaqları maarifləndirməyin dövlətlərin məsuliyyəti

olduğuna inamla məzmun, yanaşma, struktur və strategiyalarda mühüm dəyişiklikləri əhatə edir" (United Nations Educational, Scientific and Cultural Organization, 2020).

İnklüziv təhsil; təhsil müəssisələri və prosesləri cins, etnik mənsubiyyət, dil, din, yaşayış yeri, sağlamlıq vəziyyəti, sosial-iqtisadi vəziyyət və s. bunun kimi xüsusiyyətlərindən və şərtlərindən asılı olmayaraq, bütün insanların ehtiyaclarına cavab verəcək şəkildə yenidən təşkilini nəzərdə tutan bir prosesdir.

İnklüziv təhsil təcrübələrinin əsas məqsədi təhsil mühitində fərdlərin fərqli xüsusiyyətləri ilə bağlı qərəz və mənfi münasibət nəticəsində yarana biləcək ayrı-seçkiliyi aradan qaldırmaqdır. Təhsil cəmiyyətin bütün üzvlərinə birbaşa təsir göstərdiyi üçün yüksək keyfiyyətli təhsil təcrübəsinin və ayrı-seçkilik olmadan cəmiyyətin qurulmasının mərkəzində inklüziv təhsil sistemi dayanır. Son zamanlar inklüziv təhsillə bağlı maarifləndirmə artsa da, müxtəlif səbəblərdən təhsil müəssisələrindən kənarda qalan və ya mənfi təhsil təcrübəsini davam etdirən şəxslərin olması bu sahədə təkmilləşdirməyə ehtiyac olduğunu göstərir (Kərimova,2018).

Hər sahəndə olduğu kimi təhsil sahəsində də o cümlədən inkluziv təhsildə də müxtəlif növlər var. Qismən inklüziv təhsil, tam inkluziv təhsil, mainstreaming kimi növlərini misal gətirmək olar.

- Qismən inklüziv təhsil – İnklüziv təhsil həmişə əhatəli deyil, inteqrasiya formasıdır. Məsələn, xüsusi qayğıya ehtiyacı olan tələbələr, demək olar ki, bütün gün və ya heç olmasa günün yarısından çoxu müntəzəm dərslərdə təhsil alırlar. Bu yanaşma bir çox ümumiləşdirmə təcrübələrinə çox oxşar ola bilər və onun arxasında duran təhsil ideallarından bir qədər çox fərqlənə bilər.

Bu növdə təhsilə cəlb olunan tələbələr üçün öyrənmə vaxtlarının çox hissəsini əsas auditoriyada keçirirlər. Bununla yanaşı, onlar əlavə dəstək üçün auditoriyadan kənarda da xüsusi müəllimlər ilə vaxt keçirəcəklər. Bu tədris modeli həm də bütün tələbələrə öyrənməyə və əsas auditoriya ilə əlaqə saxlamağa imkan verən ətrafında qurulub (Jensen, 2014).

- Tam inkluziv təhsil – Bu tədris modeli bütün tələbələrin əsas auditoriytalara aid olduğu nəzəriyyəsi ətrafında cəmlənmişdir. Tam daxiletmə modeli o deməkdir ki, görünən və ya gizli əlilliyi olan tələbələr həmişə həmyaşıdları ilə birlikdə işləyəcəklər.

Əgər universitetdə tam inklüziv modeldən istifadə edirsə, onlar tələbələrin irəliləyişini yaxından izləməli və planın tələbələr üçün işlədiyini təmin etməlidirlər. Tam daxiletmə planı çox olarsa, onun yerinə qismən daxiletmə planı həyata keçirilə bilər. Nadir hallarda rast gəlinən tam inklüziv məktəblər artıq "ümumi təhsil" və "xüsusi təhsil" proqramları arasında fərq qoymurlar (Beatriz and María, 2016).

Bu şəraitində xüsusi ehtiyacı olan tələbələr həmişə xüsusi ehtiyacı olmayan tələbələrlə yanaşı, ilk və arzu olunan seçim kimi müvafiq dəstək və xidmətləri təmin etməklə təhsil alırlar. Bəzi tədris prosesində iştirak edən alimlər və ya tədris edənlər bunun xüsusi ehtiyacı olan tələbələr üçün daha təsirli ola biləcəyini deyirlər. Həddindən artıq dərəcədə, tam inklüzivlik bütün tələbələrin, hətta müntəzəm dərslərdə müvəffəqiyyətli olmaq üçün ən əhəmiyyətli təhsil və davranış dəstəyi və xidmətləri tələb edən tələbələrin inteqrasiyası və xüsusi, ayrılmış xüsusi təhsil auditoriyalərinin ləğv edilməsidir. Daha tez-tez yerli təhsil agentlikləri əlilliyi olan gənclər və ya tələbələr üçün xidmətlərin təşkilinə görə məsuliyyət daşıyırlar. Onlar xüsusi auditoriya otaqlarından tutmuş ümumiləşdirməyə, inklüzivliyə qədər müxtəlif şərait təmin edə və müəllimlər və idarəçilərin tez-tez etdiyi kimi, onları tələbənin fərdi təhsil məqsədlərinə çatmasına kömək edəcək sistemə təyin edə bilərlər " (Stainback & Stainback, 1992).

- Mainstreaming – Bu təhsil kontekstində, xüsusi təhsilə ehtiyacı olan insanların bacarıqlarına əsaslanaraq müəyyən zaman dövrlərində ümumi təhsil sinifində yerləşdirilməsi təcrübəsidir. Qeyd edilən şəxslər yaxşı performans göstərirlərsə, onlar hazır olduqlarına əsasən əsas tədris otağına inteqrasiya oluna bilərlər. Bu üsul bəziləri üçün az qorxulu ola bilər və onlara tədricən tam əhatəli auditoriya otağının bir hissəsi olmağa imkan verir. Onlar adi təhsil siniflərində incəsənət və ya bədən tərbiyəsi dərslərində iştirak edə bilərlər. Bəzən müəyyən fənlərini ayrıca sinifdə oxuyacaqlar, lakin ümumi təhsil sinfində ingilis dilini öyrənəcəklər. Ümumi təhsili tətbiq edən təhsil ocağları hesab edirlər ki, xüsusi ehtiyacı olan və ümumi təhsil sinifində müəyyən dərəcədə fəaliyyət göstərə bilməyən fərdlər xüsusi təhsil mühitinə aiddir (Chuaungo, 2011).

**Qrafik 1: Respondentlərin məlumatlıq səviyyəsi**




**Mənbə:** Müəllif tərəfindən aparılmlış sorğuya əsasən tərtib edilmişdir

İnklüzivlik anlayışı haqqında məlumatlılıq dərəcəsini qiymətləndirərkən nəticə olaraq, respondentlərin 88%-in inklüzivlik nə olduğunu bilirlər. Keçirilən sorğuya əsasən bal sistemi əsasında iştirakçıların 23.45%-i xüsusi ehtiyacı olanların birgə təhsili, 25.31%-i xüsusi ehtiyacı olan insanlara üçün xüsusi metodologiya, 16.15%-i əlilliyi olan uşaqlar üçün sinfin yaradılması demək olduğunu vuruğulamışdır. Təəssüf ki, sağlam şəxslərin birgə təhsili (11.10%), fərdi təhsil yanaşmada (9.70%) olması ilə birgə ilk dəfə belə təhsil sistemi ilə bağlı məlumatı olmayanlar 14.29% təşkil edir.

Bunlarla yanaşı qeyd etmək lazımdır ki, inklüziv təhsili vacib edən insurlar vardır:

1. Tələbə inamı - Əlilliyi olan və ya öyrənmə çətinliyi olan tələbələrlə işləmək üçün ənənəvi üsullar tələbələrin özünəinamına zərərli təsir göstərə bilər. Onları kiçik qruplara ayırmaq və əsas auditoriyadən kənarda öyrətmək, onların fərqli olduqları və fərqli davranılması lazım olduğu fikrini irəli sürür. Tədqiqatlar göstərdi ki, öyrənmə qüsuru olan tələbələrin özünə inamı olmayanlara nisbətən daha aşağıdır, ona görə də diqqətli olmalı və bununla mübarizə aparmağa çalışmalıyıq. Müəyyən səbəblərə görə tələbələrin əsas auditoriyadən kənarda tədris olunmasının fayda görəcəyi hallarda, qismən inklüzivlik tam daxil olmaqdan daha yaxşı ola bilər (United Nations International Children's Emergency Fund, 2017).
2. Təkmilləşdirilmiş ünsiyyət bacarıqları - İnklüziv auditoriya bütün tələbələrə bir-biri ilə ünsiyyət

qurmaq bacarıqlarını təkmilləşdirməyə imkan verir. İnteqrasiya edilmiş auditoriya ilə tələbələr müxtəlif qabiliyyətlərə malik daha geniş tələbələrlə qarşılıqlı əlaqə qura bilirlər. Bu, onlara ünsiyyət bacarıqlarını gücləndirmək və müxtəlif səviyyəli sosial qarşılıqlı əlaqəyə uyğunlaşmaq üçün imkanlar açacaq. Bundan əlavə, bu, onları təhsil yerlərindən sonrakı dünyaya hazırlamağa və onları karyeraya hazır etməyə kömək edəcək (UNICEF, 2017).

3. Təhsilin keyfiyyəti - Hər bir fərdin öz yerli məktəblərində yüksək keyfiyyətli təhsil almaq hüququ olmalıdır. İnklüziv auditoriya mühiti təklif etməklə, onalrın hamısının eyni səviyyədə təhsil eyni səviyyədə olunduğuna əmin ola bilərsiniz. Əlil şəxslər üçün ayrılmış auditoriyalar çox vaxt daha kiçik olduğundan, onların dərsləri əsas auditoriyadakından fərqli ola bilər. Bununla belə, dərslər bütün insanların ehtiyaclarına uyğunlaşdırılmalıdır. Diferensiallaşdırılmış öyrənmə imkanları hər bir fərdin təhsil ehtiyaclarını qarşılamağa, onların mühitlərini optimallaşdırmağa və onların tam potensialına çatmasına imkan verir (UNICEF, 2017).

İnklüziv təcrübələr adətən aşağıdakı komanda-tədris modellərindən istifadə etməklə istifadə olunur:

**Cədvəl 1: Modellər**

| | |
|---|---|
| ***1. Bir öyrət, bir dəstək:*** | ***4. Paralel tədris:*** |
| Bu modeldə məzmun müəllimi dərsi çatdıracaq və xüsusi təhsil müəllimi tələbələrin fərdi ehtiyaclarına kömək edəcək və lazım olduqda auditoriya idarəsini həyata keçirəcək. | Bu modeldə auditoriyain yarısını məzmun müəllimi, yarısını isə xüsusi təhsil müəllimi aparır. Hər iki qrupa eyni dərs, sadəcə olaraq daha kiçik qrupda tədris olunur. |
| ***2. Bir öyrədir, biri müşahidə edir:*** | ***5. Alternativ tədris:*** |
| Bu modeldə məzmunda ən çox təcrübəyə malik müəllim dərsi çatdıracaq, digər müəllim isə üzəcək və ya müşahidə edəcək. Bu model adətən IEP müşahidələri və ya Funksional Davranış Analizi zamanı məlumatların axtarışı üçün istifadə olunur. | Bu üsulda məzmun müəllimi dərsi auditoriyaə, xüsusi təhsil müəllimi isə kiçik qrup tələbəə alternativ dərs keçəcək. |
| ***3. Stansiya tədrisi (növbəli tədris):*** | ***6. Komanda tədrisi (paylaşılan məzmun/dəstək 50/50):*** |
| Bu modeldə otaq tələbələrin kiçik qrupları ilə birlikdə ziyarət edəcəyi stansiyalara bölünür. Ümumiyyətlə, məzmun müəllimi dərsi öz qrupunda keçirəcək, xüsusi təhsil müəllimi isə dərsin icmalı və ya uyğunlaşdırılmış variantını tələbələrlə birlikdə tamamlayacaq. | Hər iki müəllim planlaşdırma, tədris və dəstəyi bərabər şəkildə bölüşür. Bu ənənəvi metod və çox vaxt ən uğurlu birgə tədris modelidir. |

**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir

## İnkluziv Təhsildəki Problemlər

Azərbaycanda İT ilə bağlı işlər 2004-cü ildən təşəbbüslər başlamışdır. Son illərdə ölkəmizdə İT tətbiqi ilə bağlı dövlət və qeyri-hökumət təşkilatları tərəfindən müəyyən işlər aparılmışdır, lakin bu gün fiziki məhdudiyyətli şəxslərin inklüziv təhsillə təmin edilməsi ilə bağlı problemlər hələdə öz əksini tapmayıb. UNİCEF-in verdiyi məlumata əsasən hazırda Azərbaycanda əlilliyi olan şəxslərin 10%-20%-i təhsil alır. (UNİCEF, 2022). Qanunverciliyə əsasən, hər bir insanın (ya sağlam, ya da qüsuru olan) bərabər hüquqlu təhsil almaq hüquqları

var. Təəssüf ki, ölkəmizdə bu bərabərlik anlayışı formalaşmadan problemli məsələ olaraq qalır. Əlilliyi olan uşaqların böyük bir hissəsinin yaş həddi məktəbəqədər yaş dövrünü əhatə edir. Fiziki əhdudiyyətli fərdlərin əksəriyyəti təhsildən yararlana bilmir və bu da onların təhsilinin qarşısını alır (https://e-qanun.az/framework/39591).

Hər bir sahədə tətbiq edilən yenilikdən sonra çətinliklə üzləşmək mümkündür. Təhsil sahəsində də inklüziv təhsildə belə problemlərə rast gəlmək olar. Bu modelin tətbiqindən sonra ölkəmizdəki problemlər və çatışmazlıqlar haqqında məlumat almaq əsas məsələlərdən biridir.

Bu cür tədrisin dünya təcrübəsi insanlar üçün mənfi nəticələr bürüzə verilməsə də, reallıqlarda onun tam həyata keçirilməsində obyektiv və subyektiv maneələr var.

1. Ənənəvi metodlara alışmış müəllimlər bu dəyişikliyə tam hazır deyillər.
2. Valdeyinlərin (yəni şağlam fərdlərin ) fikirlərinin tam formalaşmaması.
3. Maliyyə tərəfindən: əksər təhsil müəssisələrində avadanlıq yoxdur və lazımlı materialları almaq üçün imkanları kasaddır (Demokratik Təşəbbüslər İnstitutu (IDI), 2021).

**Qrafik 2: Ölkəmizdəki inklüziv təhsilin çatışmalıqları**




**Mənbə:** Müəllif tərəfindən aparılmlış sorğuya əsasən tərtib edilmişdir

Aparılmış tədqiqat nəticəsində, əsas çətinlik və ya çatışmamazlıq kimi proqrama görə geridə qalma olsa belə, bununla yanaşı iştirakçıların 84.24%-i müəllimlər və təhsil müəssisələri xüsusi qayğıya ehtiyacı olan şəxslərə dərs verməyə hazır olmaması, 83,25%-i təhsil müəssisələrinin qeyri-təşkilini problemlər görür. Digər problemlərə nəzər yetirdikdə respodetlərin 45.81%-i xüsusi qayğıya ehtiyacı olanlar üçün psixoloji dəstəyin az olması, 47.29%-i xüsusi proqram, dərslik və qiymətləndirmə metodlarının olmaması, 46.31%-i qeyri-kafi maliyyələşdirmə, 47.78%-i valideynlərinin mənfi münasibətində məsələni görür. Bunlardan əlavə tədqiqatda iştirak edənlərin qeyd edilən şəxslərin ətrafa mənfi təsirini, bu sahədə işləyən müəllimlərin əmək haqqının digərlərindən fəqrlənməməsi və s. kimi problemləridə vurğulamışdır (Kərimova, 2021).

**İnkluziv Təhsildəki Problemlərin Həlli Yolları**

Dünyanın bir çox yerində mövcud olan inklüziv təhsil sistemləri və onun variativliyi, problemlərin həlli baxımından fərqlənirlər. Eyni zamanda ümumi tendensiyalar var ki, onların yanaşması ümumidir. Bu yanaşma və problemin həlli baxımından ölkəmizdə də bir çox dəyişikliyə ehtiyac var.

Bu gün Azərbaycan məhdud şəxslərin diskriminasiya, seqreqasiya mərhələlərini dəf etsə də, belə şəxslərin cəmiyyətə inteqrasiyası və inklüziya mərhələsinə keçidlə bağlı görüləsi işlər çoxdur. Çünki inkişaf baxımından naliyyətlər əldə etmiş bir cəmiyyətdə fiziki məhdud şəxslərə qarşı münasibət dövlətin sosial tələbi kimi müəyyənləşdirilməli və bütün sahələrdə bərabər imkanlar yaradılmalıdır (Təhsil İşçilərinin Peşəkar İnkişafi İnstitutu, 2018).

Qeyd edək ki, SEM-ləri birbaşa kütləvi təhsil və təlimə cəlb olunması uyğun deyil. Onları bu şəraitə hazırlamaq üçün defektoloji, psixoloji, öyrənmə prosesini asanlaşdırmaq, pedaqoji yardımlardan istifadə etməklə bu prosesə hazırlamaq lazımdır.

Fiziki məhdud şəxslərin, onların müəyyən xüsusiyyətlərinə baxmayaraq, onların digərləri ilə eyni təhsilə cəlb olunmasının təmin edilməsi gərəklidir. Bununla yanaşı vurğulamaq lazımdır ki, bu sahədə fəalliyətlərin effektiv, səmərəli və optimal şəkildə olması üçün vəziyyətin, peşəkar kateqoriyalarının, müəyyən nümayəndələrinin düşüncələrini düzgün formada bilmək və başa düşmək vacibdir (Kabuta, 2014).

Ölkədə fiziki məhdud fərdlərin təhsilə cəlb edilməsini, mövcud problemləri və çətinlikəri, resursların müəyyən edilməsi məqsədilə sosioloji tədqiqat aparılmışdır. Aparılan sosial tədqiqatın əsas məqsədi ayrı-ayrı maraqlı tərəflərin və qruplarının nümayəndələrinin İT ilə bağlı məlumatlılıq səviyyəsi, biliklərin mövcud dərəcəsinin öyrənilməsi, peşəkar hazırlıq səviyyəsinin müəyyənləşdirməsi və resursların qiymətləndirilməsidir (Xudaverdiyeva, 2021).

Ümumilikdə bu yeniliyin tətbiqindən respodentlərin fikrincə proqrama görə təhsil müəsissələri geridə qalır. Xüsusi proqramlar, dərsliklər, qiymətləndirmə metodlarına görədə geri qaldıqlarınıda vurğulayırlar. Əlavə olaraq demək olar ki, maliyyələşdirmə cəhətdəndə respodentlərin fikri mənfidir, çünki heç bir fonda və qurumda bele investisiyaların olmadığlarını deyirlər. Bundan savayı valdeyinlərin bəziləridə bu tədris prosesinə biganə yanaşır, yəni normal şəxslərin valdeyinlərin bir neçəsi əlilliyi olan fərdlərin fiziki və əqli vəziyyətinin tipik insanlra mənfi təsirini, İT-də dərs deyən müəllimlərin əmək haqqının fərqlənməməsini, stimullaşdırıcı ödənişin olmaması, valideynlərin laqeydliklərini əsas problem və çətinlik kimi görür. Buda öz növbəsində fiziki məhdud şəxlərdə mənfi təsir bağışlayır və təhsil sahəsindən uzaq durur (Fərədov, 2018).

**Cədvəl 2: İT-in tətbiqinin zəruriyyəti**

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Regional Resurs Mərkəzlərinin yaradılması | 1 | 6 | 3,0 | 3,0 | 3,0 | Normativ-hüquqi bazanın təkmilləşdirilməsi | 1 | 3 | 1,5 | 1,5 | 1,5 |
| | 2 | 2 | 1,0 | 1,0 | 3,9 | | 2 | 23 | 11,3 | 11,3 | 12,8 |
| | 3 | 46 | 22,7 | 22,7 | 26,6 | | 3 | 35 | 17,2 | 17,2 | 30,0 |
| | 4 | 112 | 55,2 | 55,2 | 81,8 | | 4 | 137 | 67,5 | 67,5 | 97,5 |
| | 5 | 37 | 18,2 | 18,2 | 100,0 | | 5 | 5 | 2,5 | 2,5 | 100,0 |
| Pedaqoji kadrlar üçün təkmilləşdirmə kurslarının, treninqlərin və təcrübə | 1 | 96 | 47,3 | 47,3 | 47,3 | Müəllimlərinin peşəkar assosiasiyasının yaradılması | 1 | 36 | 17,7 | 17,7 | 17,7 |
| | 2 | 3 | 1,5 | 1,5 | 48,8 | | 2 | 3 | 1,5 | 1,5 | 19,2 |
| | 3 | 22 | 10,8 | 10,8 | 59,6 | | 3 | 4 | 2,0 | 2,0 | 21,2 |
| | 4 | 1 | 0,5 | 0,5 | 60,1 | | 4 | 20 | 9,9 | 9,9 | 31,0 |
| | 5 | 81 | 39,9 | 39,9 | 100,0 | | 5 | 140 | 69,0 | 69,0 | 100,0 |
| Xüsusi qiymətləndirilməsi meyarlarının və metodların hazırlanması | 1 | 3 | 1,5 | 1,5 | 1,5 | Cavab verməkdə çətinlk çəkirəm | 1 | 11 | 5,4 | 5,4 | 5,4 |
| | 2 | 127 | 62,6 | 62,6 | 64,0 | | 2 | 96 | 47,3 | 47,3 | 52,7 |
| | 3 | 23 | 11,3 | 11,3 | 75,4 | | 3 | 77 | 37,9 | 37,9 | 90,6 |
| | 5 | 50 | 24,6 | 24,6 | 100,0 | | 5 | 19 | 9,4 | 9,4 | 100,0 |

**Mənbə:** Müəllifin sorğusu əsasında SPSS ilə tərtib olunub

Fiziki məhdud insanların ehtiyaclarına öyrədici və tədris materiallarının və proqramların vacib olan məsələdir. Belə ki, birbaşa sağlamlıq imkanları məhdud fərdlərlə işləyən müəllimlər də indiki dərsliklərin onlar üçün çətin olduğunu deyilmişdir. Bu məsələnin həlli üçün pedoqoqlar sadələşdirilmiş, sağlamlıq baxımından məhdud insanlarla digərləri ilə ortaq tədrisə hazırlanması tərəfdarıdırlar. Maraqlı və nəzərəçarpan məqam odur ki, müəllimlər bu təqədəkiləri digərləri ilə ayrılmasını istəmirlər. Bunun inklüziv təhsil prinsiplərinə zidd olduğunu, yenə də bərabər-hüquqlu olmamasına gətirib çıxardığını düşünürlər. Yuxarıdakı göstəricilərdən də nəticə olaraq, treninqlərin əlçatanlığı, dərs vəsaitlərinin, təlimlərin, maarifləndirici materialların aşağı səviyyədədir.

**Cədvəl 3: Respondentlərin İT-i qiymətləndirməsi**

| İnklüziv təhsilin ölkəmizdəki səviyəsini | | | | |
|---|---|---|---|---|
| | Frequency | Percent | Valid Percent | Cumulative Percent |
| 1 | 116 | 57,1 | 57,1 | 57,1 |
| 2 | 37 | 18,2 | 18,2 | 75,4 |
| 3 | 6 | 3,0 | 3,0 | 78,3 |
| 4 | 44 | 21,7 | 21,7 | 100,0 |
| Total | 203 | 100,0 | 100,0 | |

**Mənbə:** Müəllifin sorğusu əsasında SPSS ilə tərtib olunub

Azərbaycanda inklüziv təhsil prosesi müəyyən müddətdir tətbiq edilir. Yuxardakı sualların əsasında yekun olaraq ümumi "İnklüziv təhsilin ölkəmizdəki səviyəsini qiymətləndirin" sorğusunda respodentlər 1-5 arası bal sisteminə görə qiymətləndirmişdir. Onların cavablandırması nəticəsində bəlli olmuşdur ki, inklüziv təhsil hələ aşağı səviyədədir ( 1 balla qiymətləndirmə 57.1% təşkil edir). Təssüf ki, 5 balla qiymətləndirənlər 0-dır. Bunun səbəbi olaraq qeyd edilir ki, bu prosessin tətbiqində hazırda bir çox boşluqlar var və onlar aradan qaldırılmalıdır.

**Nəticələr**

Bu yazılanlar inklüziv təhsilin bir proqram və pedaqoji metod kimi başa düşülməsi üçün əhəmiyyətli dərəcədə vacibdir. Baxmayaraq ki, inklüziv təhsil universal şəkildə bərabərhüquqlu təhsillə təmin etmək məqsədi daşıyır, lakin hələ də görüləsi çox iş var. Yuxarıda qeyd olunan tədqiqatlar göstərir ki, inklüziv təhsilin və ya ümumiyyətlə təhsilin əsas hissəsi sosial münasibətlər təşkil edir. Sosial münasibətlər olmadan tələbələr inklüzivlik vasitəsilə hansı hisslərin oyandırılmalı olduğunun tam əksini hiss edəcəklər. Bu o deməkdir ki, pedaqoqlar və hətta tədqiqatçılar universitetlərdə inklüzivlik dərəcələri ilə bağlı daha çox maraqlanmalı və tələbələrin bu proqramlaşdırmaya münasibətini öyrənməlidirlər. Hər kəsə kömək etmək məqsədi daşıyan bir işi görməyə davam etməyin mənası nədir? Tədqiqatçılar və tələbələr istisna olmaqla, tələbələr üçün daha çox əməkdaşlıq tapşırıqlarının olmasını təklif edirlər, çünki bu, münasibətlərin və sosial bacarıqların inkişafı üçün imkan yaradır. Bundan əlavə, tələbələr arasında qarşılıqlı əlaqələri yaxşılaşdırmaqla yanaşı, pedaqoqların dəyişikliyə sövq etməsinə də ehtiyac var. ASD olan tələbələr təhsilin keyfiyyətini və auditoriyada baş verən qarşılıqlı əlaqələri yaxşılaşdırmaq üçün bir neçə strategiya təqdim etmişlər. Bunlardan biri xüsusi ehtiyacların uyğun yerləşdirmələrdir. Bəzi yerləşdirmələrə aydın gözləntilərə sahib olmaq, sosiallaşma imkanlarını təmin etmək, öyrənməni öyrənmək və ifadə etmək üçün alternativ yollar və auditoriyada hissiyyatın yayındırmalarını və ya həddindən artıq yüklənməsini məhdudlaşdırmaq daxildir. Bunu bilən tələbələr, pedaqoqlar, tədqiqatçılar və digərləri inklüziv təhsil ideyasını tələbələrə müstəsnalıqlarla, onların güclü tərəfləri, ehtiyacları, maraqları, keçmişi, şəxsiyyəti və yaxınlıq zonasına əsaslanaraq ədalətli və hörmətlə yanaşan bir ideya kimi konseptuallaşdırmalı və həyata keçirməlidirlər.

Aşağıdakı təkliflər məqsədə çatmaq, eyni zamanda boşluqların və maneələrin aradan qaldırılması üçün yol göstərə bilər:

1. Qanunvericilik bazasında yenidən baxılmalı və boşluqların aradan qaldırılması.
2. Fiziki məhdud fərdlərin məlumat bazası yenilənməli.
3. Kadrların hazırlanması üçün yeni ixtisaslar açılmalı.
4. Maliyyələşdirmə baxımından təminatlar və maaşlara yenidən baxılmalı.
5. Təhsil müəssisələrində yeni yeni qiymətləndirmə metodlarında istifadə edilməlidir.
6. Qurumların bu sahədə fəaliyyətlərini sürətləndirmək ve qurumların bu sahədə təcrübələrini artırmaq.
7. Son dövrlərdə reklam agetliyi artdığından,  onlara əlaqə saxlayıb yeni video-çarxlar hazırlayaraq cəmiyyətin bu sahədə məlumatlılıq səviyəsini artırmaq.

**Ədəbiyyatlar**

S. Kərimova (2018). Birlikdə təhsil almaq əlçatandır.
UNİCEF, «İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr» V Elmi-praktiki konfransın məqalələr toplusu.
FutureLearn (2021), What is inclusive education, and how can you implement it?
Təhsil İşçilərinin Peşəkar İnkişafi İnstitutu (2018), Inklüziv Siniflərdə Təlimin Təşkili.
https://www.unicef.org/
https://alc.ext.unb.ca/modules/physical-disabilities/implications-for-learning.html

Lydia g. Kabuta (2014), Problems Facing Students with Physical Disabilities in Higher Learning Institutions In Tanzania.
https://azertag.az/xeber/Azerbaycanda_inkluziv_tehsilin_tetbiqi_problemleri_ve_onlarin_aradan_qaldirilmasi_yollari_movzusunda_elmi_praktik_konfrans_kechirilmisdir-64136
https://www.egitimreformugirisimi.org/kapsayici-egitimin-durumu-ve-oneriler-2/
Beatriz Manzano-García1 and María Tomé Fernández, The Inclusive Education in Europe (2016)
http://dspace.ada.edu.az/xmlui/bitstream/handle/20.500.12181/419/%C4%B0NKL%C3%9CZ%C4%B0V%20T%C6%8FHS%C4%B0L%C6%8F%20DA%C4%B0R%20%C3%9CMUM%C4%B0%20ANLAYI%C5%9E.pdf?sequence=1&isAllowed=y
https://news.unec.edu.az/xeber/105-telebe/1820-unec-in-elilliyi-olan-telebeler-ucun-merkez-inde-seminari
https://adu.edu.az/az/xeberler/xeberler/2008.html
https://edu.gov.az/az/news-and-updates/16057
Xudaverdiyeva T. (2021). İnklüzivtəhsildə təlimin təşkili prinsipləri:perspektivlər və nəticələr.Azərbaycanməktəbi.No 3 (696), səh. 49

# “Kibercinayətkarlıq - Müasir İnformasiya Cəmiyyətinə Təhlükə Kimi”

**Bəşirov Əli**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

ali.bashirov02@gmail.com

## Xülasə

Məqalə virtual aləmdə baş verən cinayət növü olan kibercinayətkarlıq və bu növ cinayətlərə qarşı alınan tədbirləri əhatə edir. Məqalə tərkibində kibercinatkarlıq haqqında və onun növləri, tipləri barədə ilkin məlumatlar yer alır. İlkin olaraq ölkəmizdə bu kimi aktlara aid olan və müstəqillik illərindən başlayaraq qəbul edilmiş qərar və sərəncam barədə qısa giriş verilib və kibercinayətkarlığın məqsədləri və törətdiyi zərərləri barədə izahlar verilir. Həmçinin, Avropa Şurası tərəfindən virtual dünyada kibercinayətlərə qarşı atılan addımlar və sadalanan məlumatlarla yanaşı son 2 ilin qlobal göstəriciləri, statistik verilənləri və kibercinaytkarlığın iqtisadiyyata olan təsirindən danışılır. Bir termin kimi cinayətin bu növü izah olunur. Müasir problem olan kibercinayətin gündən-günə aktuallaşması və bu yolla əldə olunan məlumatların, digər sözlə data-ların əhəmiyyəti barədə bəhs edilir. Məsələ ilə bağlı statistik məlumatlar daxilində müxtəlif ölkələr üzrə kibercinayətkarlıq göstəriciləri təsvir edilmiş və hər biri barədə ətraflı məlumat verilmişdir. Həmçinin, qlobal aləmdə bu növ cinayət aktlarına qarşı alına biləcək bir sıra tədbirlər izah edilmişdir.

**Açar sözlər:** internet, kibercinayət, kibertəhlükə, virtual

## Abstract

The article covers cybercrime, a type of crime that takes place in the virtual world, and measures taken against such crimes. The article contains preliminary information about cybercrime and its types. Initially, a brief introduction was given about the decisions and orders that are related to such acts in our country and have been adopted since the years of independence, and explanations are given about the goals of cybercrime and the damage it causes. Also, along with the steps taken by the European Council against cybercrimes in the virtual world and the listed information, the global indicators and statistics of the last 2 years and the impact of cybercrime on the economy are discussed. As a term, this type of crime is explained. The modern problem of cybercrime is becoming more relevant day by day and the importance of the information obtained in this way, in other words, data, is discussed. Cybercrime indicators for different countries are described and detailed information is given about each of them within the statistical data related to the issue. Also, a number of measures that can be taken against this type of criminal acts in the global world have been explained.

**Keywords**: internet, cybercrime, cyberthreat, virtual

## Giriş

İnformasiya texnologiyalarından istifadə insan fəaliyyətinin bütün sahələrinə təsirini genişləndirir: hava və quru nəqliyyatına nəzarətdən tutmuş milli təhlükəsizlik problemlərinin həllinə qədər. Bundan əlavə, informasiya bu prosesin əsas elementlərindən biri kimi həm fərdin həyatında, həm də bütün cəmiyyətin və hər bir dövlətin idarəedilməsində getdikcə əhəmiyyətli rol oynayır. Bu baxımdan informasiya təhlükəsizliyi dövlət təhlükəsizliyinin tərkib hissələrindən biridir.

Ölkəmizdə də bu məsələyə xüsusi önəm verilir. Belə ki, ötən əsrin sonlarından etibarən daha da aktual mövzuya çevrilən və gələcəyin ən əsas mövzularından biri olacaq informasiya təhlükəsizliyi Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti hesabına bir çox yeni təhlükəsizlik siyasətlərini gətirmişdir.

1993-cü ildən başlayaraq özündə müstəqil dövlət maraqları və beynəlxalq dəyərləri, təhlükəsizlik normalarını, milli postulatları əks etdirən informasiya təhlükəsizliyi siyasəti həyata keçirilməyə başlandı. Həmçinin, dövlətin informasiya siyasətinin əsas vəzifələri, istiqamətləri, prioritetləri müəyyən edildi. Nəzəri və praktiki əsasları yaradılaraq, sonrakı dövrlərdə bir çox inkişaf mərhələlərindən keçərək təkmilləşdirilmiş və dövlətin bütün sahələrində tətbiq olunmağa başlanmışdır.

Bundan başqa, "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"-nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti, Ümummilli lider Heydər Əliyevin 17 fevral 2003-cü il tarixli 1146 nömrəli sərəncamı ilə respublikamızda informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın bünövrəsi qoyulmuş və bu strategiyanın davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu strateji kurs dövlətin prioritet istiqaməti kimi müəyyən olunmuşdu.

Təəssüflər olsun ki, müasir informasiya texnologiyalarının tətbiqi ilə bağlı elmi-texniki tərəqqinin inkişafı cinayətlərin yeni növlərinin yaranmasına, xüsusən də elektron kompüterlərin, sistemlərin və kompüter şəbəkələrinin işinə qeyri-qanuni müdaxiləyə, kompüter məlumatlarının oğurlanmasına, mənimsənilməsinə, hədə-qorxu ilə tələb edilməsinə yol açmışdır. Fərdlər, cəmiyyət və dövlət üçün təhlükəli olan bu anti-ictimai hadisəyə – "kibercinayət" deyilir.

**Elmi məqalənin məqsədi:** müasir cəmiyyət üçün potensial təhlükə kimi kibercinayətkar və kibercinayətkarlığın tədqiqi.

Bununla bağlı bu məqalədə əsas məqsəd aşağıdakılardan ibarətdir:

1. "Kibercinayət" və "kibercinayətkarlıq" anlayışlarını müəyyənləşdirmək.
2. Kibercinayət və kibercinayətlərin ümumi təsvirini vermək.
3. Kibercinayətin əsas növlərini müəyyənləşdirmək.
4. Dövrümüzdə kibercinayətkarlığı təsvir edilməsi.
5. Kompüterin əsas təhlükəsizlik qaydalarını müəyyənləşdirmək.

Bir çox ekspertlər qeyd edirlər ki, informasiya sistemlərinin cinayət məqsədləri üçün istifadə edilməsi onların nəticələrinə görə kütləvi qırğın silahlarının təsiri ilə müqayisə oluna bilər. Buna görə də kibercinayətkarlıq hazırda həm ayrı-ayrı dövlətlər, həm də bütövlükdə dünya birliyi üçün sürətlə artan təhdid və ya təhlükə kimi qiymətləndirilir. Nəticə etibarı ilə kibercinayətkarlıqla mübarizə problemi və bu kateqoriyadan olan məsələlərə məhkəmələr tərəfindən baxılması təcrübəsi əsas yerlərdən birini tutur.

**Elmi məqalənin məzmunu:** Virtual məkan daxilində kibercinayət və kibercinayətkarlıq kimi ilkin anlayışlar öyrənilir və həmin anlayışlara aid nümunələrlə şərh olunur. Bunlarla yanaşı, kibercinayətlərin təsnifatı, mövzu ilə bağlı qərarnamələr və statistik məlumatlar izah olunur. Həmçinin bu cinayət növünün iqtisadi təsirindən bəhs edilir. Kibercinayətkarlıq növlərinə aid olunan göstəricilər təsvir edilərək bu kimi aktlarla mübarizə üsulları da izah olunur.

**Kibercinayət və Kibercinayətkarlıq Anlayışları.**

Kibercinayətkarlıq virtual məkanda, bir digər adı ilə kibermәkanda işlənən cinayətdir. Virtual məkan, riyazi, simvolik və ya hər hansı digər formada təqdim olunan, yerli və qlobal kompüter şəbəkələri vasitəsilə hərəkət prosesində olan şəxslər, obyektlər, faktlar, hadisələr, hadisələr,

hadisələr və proseslər haqqında məlumatları özündə əks etdirən kompüterlə simulyasiya edilmiş informasiya məkanı kimi müəyyən edilə bilən, habelə hər hansı fiziki və ya virtual cihazın yaddaşında saxlanılan məlumat, habelə onların saxlanması, işlənməsi və ötürülməsi üçün xüsusi hazırlanmış daşıyıcılardır.

Kibərməkanda törədilmiş cinayət kompüterlərin, kompüter proqramlarının, kompüter şəbəkələrinin işinə təqsirli şəkildə qanunsuz müdaxilə, kompüter məlumatlarının icazəsiz dəyişdirilməsi və kompüterlər, kompüter şəbəkələri və proqramları ilə və ya onların vasitəsilə törədilmiş digər qanunsuz ictimai təhlükəli hərəkətlərdir.

Kibercinayətkarlıq həm sözün geniş mənasında kompüter cinayətlərini, həm də kompüterlərin mülkiyyətə, müəlliflik hüququna, ictimai təhlükəsizliyə və ya əxlaqa qarşı cinayətlər törətmək üçün alət və ya vasitə kimi istifadə edildiyi digər cinayətləri əhatə edən ümumi anlayışdır (məsələn, kompüter fırıldaqçılığı və s.). Burada kompüteri subyekt, informasiya təhlükəsizliyi isə cinayətin obyekti olaraq görürük (Паренти və Домет, 2021).

Kibercinayətkarlıqla yanaşı onun mövcudluğu və inkişafı üçün şəraitin saxlanmasına yönəlmiş bəzi hərəkətlər də var. Buna misal olaraq: ünsiyyət üçün elektron poçtdan istifadə etmək, cinayət ideologiyasını yaymağa yönəlmiş öz saytlarını yaratmaq, həmçinin cinayət təcrübəsi və xüsusi bilik mübadiləsini göstərmək mümkündür (Buchanan, 2022).

Bu kimi cinayətləri də özlüyündə iki kateqoriyaya bölmək olar. Hüquqi kateqoriya kimi kibercinayətlər və sosial hadisə kimi kibercinayətlər.

Bildiyimiz kimi kibercinayətkarlıq dövlət sərhədləri tanımır. Bəlkə də ən uyğun standart tərifi hazırlamaq üçün beynəlxalq təşkilatların təcrübəsinə müraciət etmək lazımdır. Bu problemin həllinə yönəlmiş ciddi addımlardan biri də Avropa Şurası (AŞ) tərəfindən 2001-ci il noyabrın 23-də “Kibercinayətkarlıqla Mübarizə Haqqında Konvensiyanın” qəbul edilməsi olmuşdur. Problemin mürəkkəbliyini nəzərə alaraq, Avropa Şurası hələ 2000-ci ilin əvvəllərində Kibərməkanda Cinayətlərə Qarşı Mübarizə üzrə Konvensiyanın layihəsini hazırlayıb dərc etdirdi. Bu sənəd kibercinayətlərin təhqiqatı və təqibinin hüquqi və prosessual aspektlərinə dair ilk beynəlxalq müqavilə idi.

Kibercinayətkarlıq Konvensiyası kompüter sistemlərinin işinə icazəsiz müdaxilənin, məlumatların qanunsuz tutulmasının və kompüter sistemlərinə müdaxilənin qarşısını almaq üçün milli və dövlətlərarası səviyyədə əlaqələndirilmiş tədbirləri nəzərdə tutur. Bu Avropa Kibercinayətkarlıq Konvensiyasına əsasən kibercinayətlər kompüter sistemlərinin, şəbəkələrinin və məlumatların məxfiliyinə, bütövlüyünə və əlçatanlığına, habelə bu sistemlərdən, şəbəkələrdən və məlumatlardan sui-istifadəyə qarşı törədilən cinayətlərdir. Kibercinayətkarlıq kompüter cinayətinin alt kateqoriyası kimi müəyyən edilə bilər. Bu termin cinayətin tərkib hissəsi kimi internetdən və ya digər kompüter şəbəkəsindən istifadə etməklə törədilən cinayətlərə aiddir (Definition of cybercrime, 2023).

**Kibercinayətlərin təsnifatı**

Avropa Şurasının Kibercinayətkarlıq Konvensiyası dörd növ kompüter cinayətlərindən bəhs edir və onları kompüter məlumatlarının və sistemlərinin məxfiliyinə, bütövlüyünə və əlçatanlığına qarşı cinayətlər kimi müəyyən edir:

1. Qanunsuz giriş - (kompüter sisteminə və ya onun bir hissəsinə qeyri-qanuni qəsdən daxil olma);

2. Qanunsuz müdaxilə - (kompüter məlumatlarının kompüter sisteminə, sistemdən və ya onun daxilində qeyri-ictimai ötürülmələrinin qəsdən yanlış şəkildə tutulması);

3. Məlumatlara müdaxilə - (kompüter məlumatlarının qeyri-qanuni zədələnməsi, silinməsi, pozulması, dəyişdirilməsi və ya sıxışdırılması);

4. Sistemə müdaxilə - (kompüter məlumatlarının daxil edilməsi, ötürülməsi, zədələnməsi, silinməsi, pozulması, dəyişdirilməsi və ya basdırılması yolu ilə kompüter sisteminin fəaliyyətinə ciddi qanunsuz müdaxilə).

Məhz bu dörd növ cinayət faktiki olaraq kompüter üzərində olan, qalanları ya kompüterlə əlaqəli (computer-related), ya da kompüter köməkli (computer-facilitated) cinayətlərdir (Buchanan, 2022).

BMT-nin Cinayətin Qarşısının Alınması və Cinayətkarlarla Müalicə üzrə 10-cu Konqresində kompüterlər və kompüter şəbəkələri ilə bağlı cinayətlərə dair simpoziumda kibercinayətkarlıq anlayışına iki aspektdən baxılmışdır:

- Birinci aspektdə kibercinayətkarlıq (kompüter cinayəti): məqsəd olaraq kompüter sistemlərinin və onlar tərəfindən işlənmiş məlumatların təhlükəsizliyini təmin etmək olan elektron əməliyyatlar vasitəsilə həyata keçirilən hər hansı qanunsuz hərəkətdir.

- Digər aspektdə kibercinayət (kompüterlə əlaqəli cinayət kimi): kompüterlər, kompüter sistemləri və ya şəbəkələri vasitəsilə və ya onlara qoşulmuş hər hansı qanunsuz hərəkət, o cümlədən kompüter sistemləri və ya şəbəkələri vasitəsilə məlumatın qanunsuz saxlanması, təklif edilməsi və ya yayılması.

Bundan əlavə, BMT-nin 10-cu Konqresində kibercinayətkarlığın bir neçə kateqoriyası təklif edilib. Təsnifatlardan biri aşağıdakılara bölünməyi nəzərdə tutur:

- zorakı və ya başqa potensial təhlükəli (fiziki təhlükə, kiber təcavüz, uşaq pornoqrafiyası, kiber terror)

- qeyri-zorakı cinayətlər (kiber məkana qeyri-qanuni müdaxilə, kiber oğurluq, kiber fırıldaqçılıq, internetdə fahişəlik xidmətlərinin reklamı, internetdən istifadə etməklə narkotiklərin qanunsuz dövriyyəsi, internetdə qumar oyunları, elektron hərəkət vasitəsilə çirkli pulların yuyulması, dağıdıcı kibercinayətlər, digər kibercinayətlər).

**Dünya Ölkələrində Kibercinayətkarlıq**

Təsnifatdan başqa, 2022-ci ildə dünya üzrə kibercinayətkarlıq statistikasına baxsaq:

Böyük Britaniya 2022-ci ilin dekabrına olan məlumata görə, hər milyon internet istifadəçisi başına ən çox kibercinayət qurbanlarının sayına malikdir və bu say 4783 nəfərdir ki, bu da 2020-ci illə müqayisədə 40% çoxdur (Mitnick, 2019).

2022-ci ilin dekabrına olan məlumata görə, hər milyon internet istifadəçisinə düşən növbəti ən çox qurban sayına malik ölkə 2020-ci illə müqayisədə 13% azalma ilə 1494 nəfərlə ABŞ-dır. Ötən ildəki statistik məlumatlara baxsaq görə bilərik ki, Şimali Amerikalı hər iki internet istifadəçisindən birinin hesabları sındırılıb.

Böyük Britaniya və ABŞ digər ölkələrlə müqayisədə hər milyon internet istifadəçisinə görə qeyri-mütənasib olaraq daha çox kibercinayət qurbanlarına malikdir – ABŞ-da 2021-ci ildə növbəti ən yüksək ölkə olan Kanada ilə müqayisədə 759% daha çox qurban var.

Hollandiya kibercinayətkarlıq qurbanlarının sayına görə ən çox artım göstərən ölkələrdən biridir. Cari ildə 2020-ci ildəkindən 50% çox (Mitnick, 2019).

Yunanıstanda isə əksinə, qurbanların sayında ən böyük azalma müşahidə edib – 2020-ci illə müqayisədə 75% azalıb.

Ümumi statistikaya əsasən 2021-ci ildə dünya üzrə hər saat orta hesabla 97 məlumat pozuntusu qurbanı olub və həmin ildə məlumatların pozulması səbəbindən hər saat orta hesabla 787,671 dollar zərər vurulur (Как кибербезопасность трансформирует рынок ИТ, 2023).

**Qrafik 1. Kibercinayətlər səbəbilə bir saat ərzindəki itkilərin son 11 illik göstəricisi**




**Mənbə:** Surfshark VPN Service, https://surfshark.com/research/ (30.11.2022) (Cybercrime statistics, 2022).

**Qrafik 2. Kibercinayətlər səbəbilə bir saat ərzindəki qurbana çevrilən insan sayının son 11 illik göstəricisi**




**Mənbə:** Surfshark VPN Service, https://surfshark.com/research/ (30.11.2022) (Cybercrime statistics, 2022).

Milli Kibertəhlükəsizlik İndeksində (NCSI) 2022 dekabr hesabatına əsasən ən yaxşı ölkə 96,10 balla Yunanıstandır. NSCI-də ən yüksək 5 bal toplayan ölkələr isə bunlardır:

1. Yunanıstan (96.10)
2. Litva (93,51)
3. Belçika (93,51)

4. Estoniya (93,51)

5. Çexiya (92,21)

**Kibercinayətkarlığın iqtisadi təsiri**

İnternet şəbəkəsində cinayətkarlığın əhatə dairəsi kibercinayətkarlıqdan fərqli olaraq daha çox genişlənmişdir və faktiki olaraq hər növ qanunsuz hərəkətlər onlayn şəkildə həyata keçirilirə bilər. İqtisadi sektordan yan keçməyən bu növ cinayətkarlıq, qurbanları üzərində maddi olaraq öz təsirini göstərir. Bu gün banklar kibercinayətkarlar üçün açıq hədəf olmaqda davam edir. Bu, on ildən artıqdır ki, belədir.

Araşdırmalara görə, banklar kibertəhlükəsizliyə qeyri-maliyyə firmalarına nisbətən üç dəfə çox pul xərcləyirlər və bank səlahiyyətliləri hesab edirlər ki, kibercinayətkarlıq maliyyə sabitliyi üçün "sistematik" risk yaradır.

Kibercinayətlər fərdlərə, müəssisələrə və hökumətlərə əhəmiyyətli iqtisadi təsir göstərə bilər. Kibercinayətkarlığın iqtisadiyyata zərər verə biləcəyi bəzi təsir ünsürləri bunlardır:

1. Maliyyə itkiləri: Kibercinayətkarlar bank hesablarını sındırmaqla və ya alış-veriş etmək üçün oğurlanmış kredit kartı məlumatlarından istifadə etməklə birbaşa şəxslərdən və müəssisələrdən pul oğurlaya bilərlər. Bu, əhəmiyyətli maliyyə itkiləri ilə nəticələnə bilər ki, bu da iqtisadiyyata dalğalı təsir göstərə bilər.
2. Biznesin pozulması: Kiberhücumlar həmçinin biznes əməliyyatlarını poza bilər, şirkətlərin gəlir və məhsuldarlığını itirməsinə səbəb olur. Məsələn, bir şirkətin kompüter sistemlərini kilidləyən ransomware hücumu işçilərin kritik məlumatlara çıxışına mane ola bilər, nəticədə biznes əməliyyatlarının ləngiməsi və ya hətta tamamilə dayandırılması mümkündür.
3. Əqli mülkiyyətin itirilməsi: Kibercinayətkarlar həmçinin kommersiya sirləri, patentlər və mülkiyyət məlumatları kimi əqli mülkiyyəti oğurlaya bilərlər. Bu, onların rəqabət üstünlüyünü azaldaraq, onların innovasiya və böyüməsini çətinləşdirərək bizneslərə zərər verə bilər.
4. Kibertəhlükəsizlik xərclərinin artması: Biznes sahələri və hökumətlər özlərini kibertəhlükələrdən qorumaq üçün kibertəhlükəsizlik tədbirlərinə maddi vəsait ayırmalıdırlar. Bu vəsaitlərə və ya xərclərə aparat və proqram təminatına sərmayə qoyuluşu, kibertəhlükəsizlik üzrə mütəxəssislərin işə götürülməsi və işçilərə ən yaxşı təcrübələr üzrə təlimlər daxil ola bilər. Bu xərclər təşkilatlar, xüsusən də kiçik bizneslər üçün əhəmiyyətli bir yük ola bilər.
5. İstehlakçı inamının azalması: İstehlakçılar onlayn xidmətlərdən istifadə etməkdə və ya kibercinayətkarlığın qurbanı olmuş bizneslərlə alış-veriş etməkdə tərəddüd edə bilərlər. Bu, satışların və müəssisələrin gəlirlərinin azalmasına səbəb ola bilər və nəticədə ümumi iqtisadiyyata da zərər verə bilər.

**Cədvəl 1. Cinayət növlərinə görə say cədvəli.**

| **Kibercinayət növü** | **Gündəlik cinayət sayı** |
|---|---|
| Malicious port scanning – Zərərli skanlama | 80 milyard |
| Malware – Zərərli proqramlar | 300000 |
| Phishing – Fişinq | 33000 |
| Ransomware – Şantaj proqramları | 4000 |
| Records lost to hacking – Hücum səbəbindən data itkisi | 780000 |

**Mənbə:** https://www.helpnetsecurity.com/2018/02/23 (25.11.2022) (Helpnet Security, 2022) .

Böyük vəsaitlərin, ekspertizaya çıxışın və hüquq-mühafizə orqanlarından müdafiənin birləşməsi dövlətləri kibercinayətkarlığın əsas mənbəyinə çevirir. CSIS (Center for Strategic and International Studies - Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi) hesab edir ki, Rusiya, Şimali Koreya və İran maliyyə institutlarını sındırmaqda ən fəal ölkələr siyahısındadırlar. Əlavə olaraq Çin Xalq Respublikasını da bu siyahıda görmək mümkündür. Gücü öz əlində saxlamaq istəyən ölkələr kibermühitdə daim aktiv olmağa davam edir. Belə bir aktivlik olduğca ölkələr arasında gedən kiber müharibə gündən-günə artmış olur. Bu kimi hücumlar səbəbindən şirkətlərə, habelə banklara, dövlət sistemlərinə və müxtəlif xidmətlər göstərən sektorlara böyük ziyanlar dəymişdir (Diogenes və Ozkaya, 2022).

Bu kimi məsələləri biznes yaxud da gəlir mənbəyi olaraq istifadə edən ölkələr və şirkətlər də vardır. Bununla da onlar Kibercinayətkarlıq xidməti (CaaS - Cybercrime-As-A-Service) göstərirlər. Son iki onillikdə kibercinayətkarlıq hobbidən biznesə çevrilib.

Hal-hazırda yeni alətlər və platformalar qabaqcıl texnoloji təcrübəsi olmayanlar üçün əlçatan olduqca cinayətlərin yeni dalğası yaranmağa başlayır. Qaranlıq şəbəkə ekosistemindəki bu artan təkmilliyə qarşı çıxmaq üçün təcrübəli cinayətkarlar ağlasığmaz incəlikdə yeni üsullar yaradırlar. Bu ekosistemin təkamülü yeni aktorların meydana çıxması və artan tələb ilə şərtlənir.

Belə yolla yaranan biznesdə dövr edən məbləğ milyarlarla dollara təkabül edir. Buna səbəb odur ki, kibercasuslar şirkətlər və yaxud da ölkələr üçün lazım olan məlumatları əldə edir və satışa çıxarır. (Diogenes və Ozkaya, 2022).

Gizli yollarla əldə edilən bu məlumatlara müxtəlif şirkətlərin müştərilərinin, nüfuzlu insanların məlumatları, tranzaksiyalar, səs və ya video kimi fayllar habelə dövlət strukturuna zərər vura biləcək məlumatları aid etmək olar.

Əldə edilən məlumatlar şantaj, satış, biznesyönümlü istifadə və.s kimi hallarda istifadə edilir (Киберпреступность и кибертерроризм, 2022).

Kibercinayətlərin iqtisadi təsiri ilə bağlı bəzi əlavə təfərrüatlar da vardır:

1. Kibercinayətin qlobal dəyəri: Cybersecurity Ventures-in hesabatına görə, kibercinayətin qlobal dəyərinin 2025-ci ilə qədər hər il 10,5 trilyon dollara çatacağı proqnozlaşdırılır, 2015-ci ildəki 3 trilyon dollar. Buraya həm birbaşa, həm də dolayı xərclər daxildir, məsələn, məhsuldarlığın itirilməsi, brend reputasiyasının zədələnməsi və sığorta haqlarının artması.

2. Kiçik biznes risk altındadır: Kiçik müəssisələr kibertəhlükəsizlik tədbirlərinə sərmayə qoymaq üçün daha az resursa malik ola bildiyi üçün böyük müəssisələrə nisbətən kiberhücumlara daha çox həssasdırlar. Milli Kiçik Biznes Assosiasiyasının hesabatına görə, kiçik biznesin 50%-i kiberhücuma məruz qalıb və bir hücumun orta qiyməti 7115 dollar təşkil edir.

3. Kiberhücumlar kritik infrastruktura zərər verə bilər: Elektrik şəbəkələri, su təmizləyici qurğular və nəqliyyat sistemləri kimi kritik infrastruktura kiberhücumlar ağır iqtisadi nəticələrə səbəb ola bilər. Məsələn, elektrik şəbəkəsinə uğurlu kiberhücum elektrik enerjisinin geniş kəsilməsinə səbəb ola və bütün regionun iqtisadiyyatını poza bilər.

4. Kibercinayətkarlıq böyüyən sənayedir: Kibercinayətkarlıq qaranlıq internetdə oğurlanmış məlumatları sata və ya ondan sonrakı cinayətlər törətmək üçün istifadə edə bilən cinayətkarlar üçün gəlirli sahəyə çevrilib. Cybersecurity Ventures tərəfindən eyni hesabata görə, kibercinayətkarlığın bütün əsas qanunsuz narkotiklərin qlobal ticarətindən daha gəlirli olacağı gözlənilir.

5. Hökumətin reaksiyası: Dünyanın hər yerində hökumətlər kibercinayətkarlıqla mübarizə üçün addımlar atır, o cümlədən qanunlar və qaydalar qəbul etmək, kibertəhlükəsizlik infrastrukturuna sərmayə qoymaq və kibertəhlükəsizlik məsələlərində digər ölkələrlə əməkdaşlıq etmək. Bununla belə, bu səylər tez-tez büdcə məhdudiyyətləri, təcrübə çatışmazlığı və kibercinayətkarlığın beynəlxalq xarakteri kimi problemlərlə üzləşir.

**Kibercinayətkarlıqla Mübarizə Üsulları.**

Kibercinayətkarlığa qarşı effektiv mübarizə onun böyümə səbəblərinin xüsusiyyətlərinin adekvat aydınlaşdırılmasını nəzərdə tutur. Ümumiyyətlə, cinayət təzahürləri qlobaldan fərdiliyə qədər bütün sfera və səviyyələrdə cəmiyyətdə ən dərin və kəskin deformasiyalara əsaslanan vahid səbəb-nəticə kompleksinə malikdir (Monthie, 2019).

Bunlar elə deformasiyalardır ki, birincisi, ictimai quruluşun ədalətsizliyini ifadə edir, bəzi subyektlərin digərlərinin ziyanına özbaşınalığına geniş yer açır; ikincisi, vətəndaşların hüquq və azadlıqlarına qəsd edirlər, üçüncüsü, əhalinin bir hissəsinin sosial statusunun və mentalitetinin insanlıqdan kənarlaşdırılmasına, aşağılanmasına gətirib çıxarır.

Bu onunla əlaqədardır ki, kibercinayətlər kompüterlərdən, kompüter sistemlərindən və şəbəkələrindən istifadə edilməklə və virtual mühitdə törədilsə də, bununla belə, fiziki müstəviyə keçərək maddi ziyan vurur, bu səbəbdən də real hüquqi münasibətlərin qəsd olunmasına, onların mənafeyinə toxunur və mənfi nəticələr gətirir.

Respublikamızda da müxtəlif sektorlara, bank, dövlət qurumları, sosial layihələr, sosial şəbəkələrə qarşı kiber hücumlar olunur. Bu kimi məsələlərlə əlaqədar, Azərbaycan Respublikası Prezidentinin 26 sentyabr 2012-ci il tarixli 708 nömrəli fərmanının beşinci hissəsinə əsasən yaradılmış Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi fəaliyyət göstərir (Elektron Təhlükəsizlik Xidməti, 2023).

Qlobal şəbəkə və virtual məkan daxilində qəbul olunmuş kompüter təhlükəsizliyi qaydaları.

1. Tanımadığınız şəxslərin göndərdiyi linkə, keçidlərə giriş etməməli və əlavə edilmiş fayllara baxmamalı.
2. Zərərli və ya naməlum saytlara keçid etməməli.
3. Məlumatların ehtiyat nüsxəsini çıxarmalı.
4. İctimai yerlərdə onlayn ödənişlər üçün Wi-Fi-dan istifadə etməməli.
5. Təsdiqlənməmiş mənbələrdən proqramlar endirməməli və quraşdırmamalı.
6. Müxtəlif mürəkkəb parollardan istifadə etməli və onları kompüterdə saxlamamalı.
7. Köhnəlmiş brauzeri və ya sistemi yeniləməli.
8. İstifadə edilməyən proqramların silməli.
9. Kompüterinizi itirmə ehtimalına qarşı disk şifrələməsindən istifadə etməli.
10. Müntəzəm olaraq yenilənən antivirus proqramlarını quraşdırmalı.
11. İnternetə çıxışı olan kompüterdə heç bir şəxsi məlumat saxlamamalı.
12. Hər hansısa bir tanınmayan elektron poçt sisteminə abunə olmamalı (Kaspersky, 2022).

**Nəticələr və Tövsiyələr**

Kibercinayətlər və kiberterrorizm informasiya proseslərinin qloballaşmasının və qlobal kompüter şəbəkələrinin yaranmasının obyektiv nəticəsidir. İnsan fəaliyyətinin müxtəlif sahələrində informasiya texnologiyalarından istifadənin artması ilə onların cinayət törətmək məqsədilə istifadəsi də artır.

Kibercinayətkarlardan qorunmaq zərurəti göz qabağındadır. Arzu olunandır ki, kibercinayətkarlığa qarşı mübarizə problemləri dövlət səviyyəsində həll olunsun, hər yerdə kibercinayətkarlardan müdafiənin aydınlaşdırılması istiqamətində iş aparılsın. Təhlükəsizliyimiz öz əlimizdədir və biz informasiya məkanından istifadənin təhlükəsizliyinin tərəfdarı olmalıyıq.

**Ədəbiyyatlar**


Томас Паренти, Джек Домет (2021) - Кибербезопасность. Что руководителям нужно знать и делать, 8, 12-14

https://www.techtarget.com/searchsecurity/definition/cybercrime.

Marlon Buchanan (2022) - The Personal Cybersecurity Manual: How Anyone Can Protect Themselves from Fraud, Identity Theft, and Other Cybercrimes (Home Technology Manuals), 83-86

Kevin Mitnick (2019) - The Art of Invisibility: The World's Most Famous Hacker Teaches You How to Be Safe in the Age of Big Brother and Big Dat, 68-69

http://mvnik.ru/images/informatika/kiber.pdf.

https://surfshark.com/research/data-breach-impact/statistics

Yuri Diogenes, Dr. Erdal Ozkaya (2022) - Cybersecurity – Attack and Defense Strategies. Improve Your Security Posture to Mitigate Risks and Prevent Attackers from Infiltrating Your System, 21-25

https://cert.az/haqqimizda.

http://www.kaspersky.ru/downloads/pdf.

Heather Monthie, (2019) - Beginner's Guide to Developing a High School Cybersecurity Program - Developing a Cybersecurity Program for High School Students, 50-52

http://www.myshared.ru/slide/439133/#.


**s**

# Qarabağda “Ağıllı Region” Yanaşması

**Fəqan Zəkəryəyev**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**faganzakaryayev@unec.edu.az**

## Xülasə

Tədqiqat Azərbaycanın işğaldan azad olunmuş rayonlarının- Qarabağın yenidən qurulmasının müasir sistemlərdən istifadə edərək dövrün tələblərinə uyğun formada aparılmasının mümkünlüyü üzərinə qurulmuşdur. Bildiyimiz kimi, Qarabağın dirçəldilməsi dövlətin əsas hədəflərindən biridir. Regionda Ağıllı kənd və Ağıllı şəhərlərin qurulması Qarabağın “Smart Region”a çevrilməsinə atılan addımdır. Tədqiqatda ilk növbədə Ağıllı region anlayışına aydınlıq gətirilmişdir. Ağıllı şəhərin formalaşmasında əsas komponentlər vurğulanmışdır. Bunlar “Ağıllı vətəndaş, ağıllı idarəetmə, ağıllı iqtisadiyyat, ağıllı mobillik, ağıllı mühit və ağıllı həyat” olmaqla 6 hissədən ibarədir. Təbii ki, bu amillər nisbidir çünki tədqiqat göstərdi ki Ağıllı şəhər anlayışı üçün mütləq bir tərif və ya qanun yoxdur. ədəbiyyatçılar müxtəlif formalarda bu anlayışa bir məna gətirməyə çalışırlar. Tədqiqat həmkinin Ağıllı şəhərlərin iqtisadiyyatının ən əsas sahələrindən biri olan Yaşıl iqtisadiyyatdan bəhs edir. Qarabağın kifayət qədər enerji resurslarına malik olması Yaşıl iqtisadiyyatda Yaşıl enerji sistemlərinin tətbiqi imkanlarını qabardır. Bunun üçün kifayət qədər imkan var və xüsusilə bu resurslara sahib olma xarici investorları da regiona yaxınlaşdırır. Bu amil regiona daha çox investisiya yatırlmasına və bununlada Qarabağı “Smart Region”a çevrilməsinə böyük qatqı verəcək. Tədqiqatın irəliləyən hissələrində isə bir şəhəri Ağıllı edən amillərin regiona qatacağı üstünlüklər bu istiqamətdə ortaya çıxa biləcək problemlər və həll yolları qələmə alınmışdır.

**Açar sözlər**: Ağıllı şəhər, Ağıllı kənd, Yaşıl enerji, İnvestisiya, Ağıllı insan.

## Summary

The research is based on the possibility of reconstruction of the liberated regions of Azerbaijan - Karabakh using modern systems in accordance with the requirements of the time. As we know, the revival of Karabakh is one of the main goals of the state. The establishment of Smart Villages and Smart Cities in the region is a step towards the transformation of Karabakh into a "Smart Region". First of all, the concept of Smart region was clarified in the research. The main components in the formation of a smart city have been highlighted. They consist of 6 parts: "Smart citizen, smart management, smart economy, smart mobility, smart environment and smart life". Of course, these factors are relative because research has shown that there is no absolute definition or law for the Smart City concept. Writers try to give meaning to this concept in different ways. The study also deals with the Green economy, which is one of the most important areas of the economy of Smart cities. The fact that Karabakh has enough energy resources increases the possibilities of applying Green energy systems in the Green economy. There is enough opportunity for this, and especially having these resources brings foreign investors closer to the region. This factor will greatly contribute to investing more in the region and thereby turning Karabakh into a Smart Region. In the further parts of the research, the advantages that the factors that make a city Smart will provide to the region, the problems and solutions that may arise in this direction have been written.

**Keywords**: Smart city, Smart village, Green energy, Investment, Smart person.

## Giriş

Tədqiqatın aktuallığı: Bildiyimiz kimi Qarabağ problemi son 30 ildə prioritet məsələlərin başında qərarlaşır. 2020-ci ildə 44 günlük müharibədən əldə olunan qələbə ilə bütün diqqətləri yenidən öz üzərində cəmləşdirən Qarabağa qayıdış, dağıdılmış viran qoyulmuş ərazilərin yenidən bərpası əsas

hədəf mərkəzi oldu. Həm müharibədən əvvəl, həm də müharibədən sonrakı dövrdə Qarabağ məsələsi öz aktuallığını qoruyub saxlamaqda davam etmişdir. Tədqiqatın bu yöndə aparılması regionun yenidən bərpasını ənənəvi deyil, daha müasir və ağıllı yollarla aparılamasını hədəfləyir.

Tədqiqatın məqsəd və vəzifələri: Məqsəd bütün diqqətləri müharibədən yeni çıxmış regiona yönəltməkdir. Sözsüz ki, regionun yenidən qurulmasına böyük ehtiyac var və bunun üçün addımlar artıq atılmağa başlmışdır. Bu layihənin məqsədi yenidən qurma işlərini ənənəvi qaydada deyil tamamilə müasir standartlara uyğun formada aparılmasıdır.Sözsüz ki, bununla regiona olan maraq artacaq və ən başlıca prioritet olan sülhün qorunması məsləsi daha da asanlaşacaq.

İstifadə olunan tədqiqat metodları: Tədqiqat zamanı tədqiqat metodlarından kontent təhlil və sistemli yanaşma metodlarından istifadə edilmişdir. Kontent təhlil metodu keyfiyyət metodlarından biridir. Kontent–analiz yaxud informasiyanın məzmunun təhlili müxtəlif sosial tədqiqatlarda istifadə olunan sənədlərin öyrənilməsi metodlarındandır. Sistemli yanaşma metodu olaraq tədqiqatın Qarabağda tətbiqi diqqət mərkəzinə gətirilmiş və bunun üçün lazım olan amlillər nəzərdən keçrilərək mümkünatı dair qərarlar alınmışdır.

Tədqiqat məhdudiyyətləri: Bir sıra siyasi və məxfi amillər tədqiqat zamanı çətinliklər yaratdı. Həmkinin hal-hazırda kifayət qədər ədəbiyyat resursunun olmaması da Qarabağda Ağıllı region yanaşmasının reallaşmasına aydın və dəqiq fikir söyləməyə imkan vermir.

Tədqiqatın məlumat bazası: Məlumat bazası yerli və xarici müəlliflərin əsərlərindən və internet resurslarından ibarətdir.

**Qarabağda Tətbiq Olunacaq Müasir Layihələrin Əsas Xüsusiyyətləri. Bir Şəhər Və Kəndi "Ağıllı" Edən Amillər və Komponentlər**

Ağıllı şəhər anlayışı ilə bağlı müxtəli ədəbiyyatlara nəzər yetirdiyimizdə görürük ki, bu anlayış birmənalı deyil və söylənən təriflər bir birindən fərqlidir. Ağıllı şəhər anlayışı informasiya texnologiyalarının gətirmiş olduğu yeni bir anlayışdır. Bu anlayış xüsusilə ötən əsrin 90-cı illərindən başlayaraq populyarlıq qazanmağa başlamışdır.

N.Y.Pivkinanın fikrincə, "ağıllı şəhər" konsepsiyasının təsiri bir çox müəlliflər tərəfindən araşdırılıb, lakin hazırda elmi ictimaiyyətdə onun üstünlüyünün nə olduğu, "ağıllı şəhər" konsepsiyasının hansı komponentlərə daxil olması barədə vahid razılıq yoxdur. M.V. Arqunova "Ağıllı şəhər modeli texnoloji sistemin təzahürü kimi" adlı məqaləsində qeyd edib ki, "ağıllı şəhər" əhalinin həyat keyfiyyətinin yüksəldilməsi üçün atılan kompleks tədbirlər toplusudur. M.V. Arqunova vurğulayır ki, "ağıllı şəhər" modeli "ağıllı iqtisadiyyat", "ağıllı mobillik", "ağıllı idarəetmə", "ağıllı mühit", "ağıllı həyat" kimi bir neçə bölmədən ibarətdir.

Ağıllı şəhərlərin inkişafına təkan verən; "Ağıllı vətəndaş, ağıllı idarəetmə, ağıllı iqtisadiyyat, ağıllı mobillik, ağıllı mühit və ağıllı həyat" kimi altı əsas ünsür var (Giffinger, 2007). Ağıllı şəhərlərin bu komponentləri onları digər şəhərlərdən fərqləndirir.

- **Ağıllı insan**: Ağıllı şəhərin ən mühüm varlığı olaraq insanlar ağıllı, şüurlu və yüksək keyfiyyətli sosial kapitala malik olmalıdırlar. Ağıllı insan komponentinin xüsusiyyətləri arasında səriştə səviyyəsi, ömür boyu öyrənmə meyli, sosial və etnik müxtəliflik, çeviklik, yaradıcılıq, açıq fikirlilik və sosiallıq qiymətləndirilir (Sadioğlu və Dinç, 2019). Yaddan çıxartmaq olmaz ki, ağıllı insanlar və ya ağıllı əhali anlayışı ağıllı şəhər proqramlarının diqqət mərkəzindədir və ağıllı şəhərlər ağıllı insanlar olmadan uğurlu ola bilməz.

- **Ağıllı İdarəetmə**: Ağıllı vətəndaşlara sahib şəhərin dövlət və bələdiyyələrin ağıllı şəhərlər mövzusundakı institusional imkanları və məlumatlılıq səviyyələrini, onların inkişaf etdirdikləri planları, siyasətləri, elektron idarəetmə portalları, şəhər sakinlərinin qərar qəbuletmə proseslərində iştirakını, mobil tətbiqləri və onlayn sistemləri əhatə edən ağıllı idarəçiliyi mənimsəməsi lazımdır. Ağıllı şəhərlərin partnyor tərəfləri bunlardır: mərkəzi hökumət, regional və yerli idarəetmələr; rezidentlər və qeyri-hökumət təşkilatları; beynəlxalq birliklər və təşkilatlar; universitetlər və tədqiqat mərkəzləri kimi akademik təşəbbüslər; iri beynəlxalq şirkətlər və sahibkarlar; investorlar və maliyyə institutları; maraqlı tərəflər və fərdlər. Ağıllı şəhər təşəbbüsünün istənilən nəticələri əldə etməsi və cəmiyyətin geniş təbəqəsinə xitab etməsi üçün bu coğrafi yer ağıllı idarəetmə kanallarını inkişaf etdirməlidir. Məlumat mübadiləsi, ictimai və sosial xidmətlər və inteqrasiya, hesabatlılıq, şəffaflıq, siyasi strategiyalar və perspektivlər də ağıllı idarəçiliyə dərinlik qatır.
- **Ağıllı iqtisadiyyat**: Ağıllı iqtisadiyyat yerli və qlobal iqtisadi şəbəkələrlə inteqrasiya ilə yanaşı, iqtisadi rəqabətqabiliyyətlilik çərçivəsində sahibkarlıq, innovasiya, iqtisadi imic, brendinq, məhsuldarlıq, əmək bazarının çevikliyi, beynəlxalq əlaqələr, dəyişim və transformasiya qabiliyyəti kimi anlayışları özündə ehtiva edir.Başqa sözlə, ağıllı idarəçiliyi qəbul edən şəhərin ağıllı olması üçün onun iqtisadiyyatı da ağıllı şəkildə idarə olunmalıdır (Manville., 2014). Yuxarıda qeyd olunan şərtləri yerinə yetirmək üçün həyata keçiriləcək layihə və proqramların əlavə maliyyələşdirilməsinə ehtiyac bütün ölkələr üçün ən fundamental çətinliklərdən biridir. Düzgün iqtisadi modellər və texnologiyalar tətbiq olunarsa, mövcud resurslar daha səmərəli istifadə ediləcək, maliyyə, insan resursları və ya zaman problemləri aradan qaldırılacaqdır.
- **Smart Mobility/Ağıllı mobillik**: Ağıllı mobillik konsepsiyası informasiya və kommunikasiya texnologiyaları ilə dəstəklənən nəqliyyat və logistika xidmətlərini əhatə edir. Ağıllı iqtisadiyyatın zaman və məkan baxımından uğurlu olması üçün bu şəhərdə nəqliyyat sistemləri, nəqliyyatın idarə edilməsi, sıxlığın ölçülməsi, nəqliyyatın istiqaməti, ağıllı qovşaq, ağıllı dayanacaq, ağıllı parkomatlar, parklama, ictimai nəqliyyatda inteqrasiya olunmuş gediş haqqı ödənişi, GPS izləmə, qabaqcıl sərnişin məlumatlandırma sistemləri daxil olmaqla mexanizmlərin sistemə inteqrasiya olunduğu üstün ağıllı mobillik sisteminə ehtiyac var. Davamlı, innovativ və təhlükəsiz nəqliyyat şəbəkəsi ağıllı mobillik səviyyəsini göstərir. Ağıllı mobillik ilk növbədə ekoloji cəhətdən təmiz və inklüziv nəqliyyat həlləri təqdim etməyi hədəfləyir.
- **Ağıllı ətraf mühit**: Ağıllı mobillik təmin edilərkən diqqətdən kənarda saxlamamaq üçün onun təşkili və müntəzəm olaraq idarə olunması çox vacibdir. Ağıllı ətaf mühit çərçivəsinə; infrastrukturun avtomatlaşdırılması, su və kanalizasiya sistemlərinin monitorinqi, tullantıların toplanması/ayırılması sistemləri, ətraf mühitin keyfiyyətinin ölçülməsi və enerji istehlakının azaldılması kimi tətbiqlər daxildir (Dameri, 2017). Ətraf mühitin çirklənməsində inkişafı və davamlılığı təmin etmək, ətraf mühitin mühafizəsi, davamlı resursların idarə edilməsi, yaşıl ərazilərə və su ehtiyatlarına nəzarət texnologiyanınköməyi ilə asanlaşır. Ətraf mühitin çirklənməsini azaltmaq və ətraf mühiti qorumaq şəhərin təbii gözəlliklərini artırmaq məqsədi daşıyır.
- **Ağıllı Həyat**: Ağıllı şəhərlər sağlam və təhlükəsiz həyatı təmsil edir (Manville , 2014). Ağıllı şəhərin yuxarıda qeyd olunan hər bir istiqamətə nail olması üçün Ağıllı həyat komponenti Ağıllı şəhər üçün əvəzolunmaz amildir. Ağıllı həyat dedikdə buraya:

ictimai təhlükəsizlik, cinayətlə mübarizə (kamera və ya səsli izləmə sistemləri), fövqəladə vəziyyətlərdə təcili müdaxilə və nəzarət, yanğınsöndürmə, səhiyyə və təhsil xidmətləri kimi istiqamətlər daxildir.

**Ağıllı Şəhərlərdə Yaşıl İqtisadiyyat**

Yaşıl iqtisadiyyat insanların rifahını yüksəltməklə yanaşı ekoloji riskləri azaldan iqtisadi modeldir. Yaşıl iqtisadiyyat insanlara və ətraf mühitə təhlükə yaradan mövcud dominant iqtisadi modelə alternativ kimi nəzərdən keçirilə bilər. Bu iqtisadi model: iqtisadi fəaliyyətlərdə ətraf mühitin mərkəzə alınması, artan rifah ilə gəlir bərabərsizliyinin aradan qaldırılması və davamlı inkişafın təmin edilməsi kimi bir çox istiqamətləri olan inkişaf modelidir.

Yaşıl iqtisadiyyat təbii resurslardan istifadəni artırmadan bu resurslardan daha səmərəli istifadəni müdafiə edir. Eyni zamanda yeni iş yerlərinin yaranmasına da təkan verərək yoxsulluqla mübarizədə önəmli rol oynamağı hədəfləyir. "Yaşıl iş" yerlərinin yaranması ilə yeni məşğulluq imkanları artacaq və bu gəlirlərin artmasına səbəb olacaq.

Azərbaycan Respublikası işğaldan azad olunan ərazilərimizi "yaşıl enerji" zonasına çevirməyi hədəfləyir və bu istiqamətdə konkret addımlar atılmaqdadır. Bildiyimiz kimi, "yaşıl enerji" zonası ifadəsi təkcə bərpaolunan enerji mənbələrindən enerji istehsal edən yerlər barədə işlədilmir. Bu ifadənin əhatə dairəsi genişdir və özündə həm də ekoloji təmiz nəqliyyat vasitələrinin təşviqi, "yaşıl məşğulluğ"un təmini, resurslardan səmərəli istifadə kimi çoxşaxəli məsələləri birləşdirir. Onun üçün də işğaldan azad olunan ərazilərimizin "yaşıl enerji" zonasına çevrilməsi üçün kompleks tədbirlər görülür, "smartcity" ("ağıllı şəhər"), "smart-village" ("ağıllı kənd") konsepsiyası əsasında kəndlərin və şəhərlərin inşasına başlanılır, ərazidə yaradılacaq sənaye müəssisələrinin "yaşıl iqtisadiyyat"a töhfə verməsinə xüsusi diqqət yetirilir, günəş və külək enerjisindən istifadə imkanları araşdırılır və s.

**Yaşıl enerji**. Yaşıl iqtisadiyyat özü ilə birgə yaşıl həllər də təqdim edir. Ağıllı şəhərlər Yaşıl iqtisadiyyatı hədəf olaraq görməkdə məcburdurlar. Ağıllı şəhərlərdə ağıllı enerji sistemləri, yeni külək, günəş, bioenerji və geotermal enerji sistemlərlərinin idarəedilməsi ilə yanaşı tullantıların idarəedilməsi modelləri tətbiq olunmaqdadır.

Azərbaycanın da növbəti onillikdə sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetdən biri məhz təmiz ətraf mühit və "yaşıl artım" ölkəsidir. Eyni zamanda Azərbaycanda qəbul edilən "yaşıl enerji" yanaşmasının mahiyyəti bundan ibarətdir ki, bir tərəfdən enerji getdikcə daha çox bərpa olunan mənbələrdən alınacaq, digər tərəfdən isə bizim enerjiyə etdiyimiz qənaət, həmin miqdarda enerjini istehsal etməkdən daha səmərəlidir. "Yaşıl artım" konsepsiyasının tərkib hissəsi kimi, Azərbaycanda Qarabağ və Şərqi Zəngəzur bölgəsinin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı siyasət həyata keçirilir.

Elektrik və istiliyin alınması üçün günəş enerjisindən istifadə dünya miqyasında istifadə olunan təcrübədir. Ölkəmizin təbii iqlim şəraiti günəş enerjisindən yararlanmağa imkan verir. Azərbaycanda günəşli saatların miqdarı il ərzində 2400-3200 saat təşkil edir. Əsas hədəfimiz məhz Qarabağda da günəş enerjisindən istifadə əsas hədəflərdən biridir. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda müşahidə olunur. 2022-ci ilin mart ayında Azərbaycanda 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulub.Təməli qoyulan stansiyanın 2023-cü ildə istifadəyə verilməsi planlaşdırılmışdır.

Su elektrik stansiyalarının tikintisi sel sularının tənzimlənməsi, ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsalı və yeni suvarma sistemlərinin yaradılması kimi dövlət əhəmiyyətli məsələlərin həllində mühüm rol oynayır. Cəbrayıl rayonu ərazisində - Araz çayı üzərində yerləşən "Xudafərin"

və "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları ilə bağlı işlər yekunlaşmaq üzrədir. İranla əldə edilmiş razılaşmaya əsasən, ümumi gücü 280 meqavat olan hər iki stansiyadan 716 milyon kVt/s elektrik enerjisi istehsal ediləcək ki, onun da 356 milyon kVt/s-ı Azərbaycanın payına düşəcək.

2021-ci ildə azad edilmiş ərazilərdə 20 meqavat gücündə 4 su elektrik stansiyası inşa edilmişdir. Bunlar 8 MVt gücə malik "Güləbird", ümumi gücü 7,8 MVt olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyaları və Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyasıdır. Hazırda azad edilmiş ərazilərdə ümumi gücü 140 MVt-a qədər olan və dağıdılan 33 KSES-in bərpası istiqamətində də iş aparılır. 2022-ci ildə gücü 27 meqavata bərabər olan daha beş stansiya “Azərenerji” tərəfindən bərpa ediləcək.

Su elektrik stansiyalarından bəhs etmişkən geotermal enerji mənbələrindən danışmamaq yəqinki düzgün olmazdı. Hazırda dünyanın bir sıra ölkələrində yer təkinin istiliyi sənaye, kənd təsərrüfatı, məişət, kommunal sahələrində və təbabətdə geniş istifadə olunur. Azərbaycan Respublikasının ərazisi termal sularla zəngindir. Bunlar Böyük və Kiçik Qafqaz dağları, Abşeron yarımadası, Talış dağ-yamac zonası, Kür çökəkliyi və Xəzəryanı Quba ərazisi kimi geniş sahələri əhatə edir. İlkin təhlillərə əsasən, Kəlbəcər rayonunda 3093 $m^3$/gün, Şuşada isə 412 $m^3$/gün termal su ehtiyatlarının mövcud olması ehtimal edilir. Qarşıdakı illərdə Azərbaycan təbiətin ona verdiyi bu imkanlardan faydalana bilər. Bir məqamı da qeyd edək ki, geotermal enerji mənbələrindən enerji istehsalında və istehlakında istifadə adətən böyük həcmli maliyyə vəsaiti tələb etmir. Bu isə geotermal enerji mənbələrindən istifadənin ikinci bir üstünlüyü kimi qeyd edilə bilər (Qasımlı vd.,2022).

"Yaşıl enerji” zonasının yaradılmasına töhfə verəcək digər bir layihə isə Kəlbəcər və Laçın rayonlarında külək elektrik stansiyalarının tikilməsi ilə bağlıdır. Artıq bu layihə ilə xarici şirkətlər maraqlanırlar. İlkin hesablamalar göstərir ki, qeyd edilən ərazidə 100 MVt-dək gücdə külək elektrik stansiyasının tikilməsi perspektivlidir.

Beləliklə bütün bunlar onu deməyə əsas veriri ki, işğaldan azad olunmuş ərazilərdə yaşıl enerji zonasının yaradılması üçün kifayət qədər imkan vardır və bu da özlüyündə hədəf aldığımız yaşıl iqtisadiyyatın formalaşmasında mühüm rol oynayacaq. Bildiyimiz kimi işğaldan azad edilmiş rayonlarda demək olar hər şey dağıdılmış viran qoyulmuşdur. İşğaldan azad edilmiş rayonlarda quruculuq işləri yaşıl iqtisadiyyatın prinsiplərinə əsasən həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə “netto sıfır emissiya” zonasının yaradılmasının rəsmən bəyan edilməsi də bunun göstəricisidir. İşğaldan azad olunmuş ərazilərin yaşıl iqtisadiyyat prinsipləri ilə vəhdəti onu dünyanın seçilən məkanlardından birinə çevrilməsinə təkan verəcək.

**Əşyaların İnterneti**. Əşyaların İnterneti (IOT) anlayışı ilk dəfə 1990-cı ildə istifadə edilmişdir. Əşyaların internetinə avtomobilin sürücüsünün qəza törətdiyini aşkar edib lazımi yerləri xəbərdar etmək, soyuducuda südün bitdiyini bildirmək, avtomobilin GPS-ini ən yaxın yerə yönəltmək, marketlərdə, evlərdə və iş yerlərində qapıların avtomatik kilidlənməsi, istilik və soyutma sistemlərinin işlədilməsi və s. misal göstərilə bilər. Bu tətbiqlər gündəlik həyatda internetə qoşulan ağıllı telefonlar və minlərlə cihaz sayəsində həyata keçirilir (Köseoğlu və Demirci, 2018).

Ağıllı şəhərlərdə əşyaların interneti parkinq xidmətləri, nəqliyyat, şəhərin işıqlandırılması, zibil toplanması, zibil qablarının doluluğuna nəzarət, havanın çirklənməsinə nəzarət, yanğınsöndürmə sistemləri, radiasiya nəzarəti, körpünün sağlamlıq testi, nəqliyyatın sıxlığına nəzarət kimi ictimai xidmətlərin idarə edilməsində bir çox üstünlüklər təmin edir.

İsveçin Malmö şəhərində insanlar Əşyaların İnterneti ilə qurulan şəbəkələr vasitəsilə öz enerji istehlaklarını ölçə, izləyə və idarə edə bilərlər. İsveçin Uppsala şəhərində havanın çirklənməsini izləmək üçün hazırlanmış ekoloji proqramlar vardır (Çakır vd., 2019).

**Tullantıların idarəedilməsi**. Şəhərlərdə yaranan tullantılar basdırılma və ya yandırılma yolu ilə utilizasiya olunur. Tullantıların basdırılaraq utilizasiyası zamanı yeraltı qrunt sularını çirkləndirə və ya yaxınlıqda yaşayan insanlara zibilin yaratdığı xəstəlikləri yaya bilər. Belə olan halda tullantıların effektiv idarə olunması mühüm əhəmiyyət kəsb edir.

Tullantıların "Ağıllı" idarə olunması həm məişət, həm də sənaye tullantılarının həcmini və təhlükəlilik səviyyəsini azaldır, onların insan sağlamlığına və ətraf mühitə zərər verməsinin qarşısını alır.

Danimarkanın Kopenhagen şəhərində tullantıların təxminən 60%-i təkrar emal olunur, qalan tullantılar isə şəhərin mərkəzi istilik şəbəkəsi üçün istilik istehsalına sərf olunur (Savcı və Atmaca, 2022).

ABŞ-ın Kaliforniya ştatının Los-Anceles şəhərində Bigbelly adlı Wi-Fi funksiyalı zibil qutuları bütün enerjisini günəşdən alır. Bu qutular hava şəraitinə davamlıdır və içəridəki sensorlar bölmənin doluluğunu ölçə bilir (Herbst, 2015).

Kanadanın Toronto şəhərində zibil qutularına quraşdırılan Waste Wizard proqramı şəhərdə yaşayanlar üçün uyğun tullantıların müvafiq tullantı qutusuna atılmasını və paltar, oyuncaq və kitabların bağışlanmasını asanlaşdıran onlayn tullantı məlumat xidmətini təqdim edir (Siyonmez, 2018).

Ağıllı şəhərlərin getdikcə artan imkanları var. Günəş və külək enerjisinin şəhər enerjisindən istifadəyə daha çox inteqrasiyası ilə şəhərlər məqsədlərinə daha iqtisadi, rəqabətli və davamlı şəkildə nail ola bilərlər. Şəhərlər və kommunal xidmətlər 100% bərpa olunan enerjiyə nail olmaq üçün startapları cəlb etməklə yüksək mənfəət əldə edə bilər.

**Qarabağda İnvestisiya Məsələləri Və Yenidən Qurma İşlərində Yerli Və Xarici Maraq**

Kütləvi informasiya vasitələrinin məlumatına görə İsrail, Yaponiya və İran şirkətlərini bərpa təşəbbüslərinə töhfə verməyə hazır olduqları bildirilir. BMT, Aİ, BMT-nin İnkişaf Proqramı, USAİD, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası arasında son müzakirələr Qarabağ regionunda "yaşıl enerji" zonasının yaradılmasına yönəlib.

Qarabağ regionunun yaşıl enerji sahəsinə çevrilməsi üçün Yaponiyanın TEPSCO şirkətinin iştirakı ilə "Yaşıl Enerji Zonası" adı altında konsepsiya hazırlanıb. Tərəflər arasında keçirilən görüş çərçivəsində sahənin inkişafı və məskunlaşma variantları üçün müxtəlif enerji tələbi və təchizatı nəzərdən keçirilib. Eyni zamanda, regionlarda su, günəş, külək, biokütlə, geotermal və digər bərpa olunan enerji potensialının tədqiqi, külək və günəş elektrik stansiyalarında və su anbarlarında mövcud ehtiyatlardan istifadə edilməsi, kiçik çaylarda su elektrik stansiyalarının tikintisi məsələsi də diqqətə çatdırılmışdır. Çünki günəş enerjisi baxımından xüsusilə Qarabağın Füzuli, Cebrayıl, Zəngilan və Qubadlı rayonları, külək enerjisi baxımından Laçın və Kəlbəcər dağları potensial ərazilər kimi müşahidə edilir.

Hesablama Palatasının 2021-ci il dövlət büdcəsini qiymətləndirməsi açıq şəkildə göstərir ki, keçən il Qarabağın bərpasına sərf olunan vəsaitin böyük hissəsi nəqliyyat sisteminin inkişafına yönəlib. Palatanın hesabatında bildirilir ki, 2021-ci ildə azad edilmiş ərazilərdə həyata keçirilən layihələrə xərclənən 2 milyard 178 milyon manat vəsaitin 85 faizi avtomobil və dəmir yolu xətlərinin

layihələndirilməsi və tikintisinin payına düşüb. İl ərzində icra edilmiş məbləğin 73 faizi “Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi”nin, 12 faizi “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin, 4.5 faizi “Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi”nin, 3.1 faizi “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi”nin, 2.9 faizi “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi”nin, 3,5 faizi isə digər təşkilatların payına düşüb (Mehralızadə, 2022)

Türkiyənin “Kolin İnşaat” şirkəti Füzul rayonu ilə Şuşa şəhərini birləşdirən yolun tikintisini həyata keçirirlər. Türkiyənin dövlət bankı olan “Zirrat Bank”  Şuşada filial açmağı hədəfləyir. Filialın aşılması Azərbaycan tərəfinin qərarı ilə müəyyən olunacaq. Bununla yanaşı Türkiyənin TÜMKİAD Dərnəyi Türkiyədən sərmayə qoymaq istəyən ilk dərnək oldu. TÜMKİAD ilə Azərbaycan arasında imzalanan rəsmi protokol razılaşması ilə Qarabağa 50 milyon dollar sərmayə qoyulmasına qərar verildi. TÜMKİAD ilk növbədə Qarabağ bölgəsində tekstil fabriki quracaq. Bu həm məşğulluğu təmin edəcək və həm də bölgənin inkişafına rəhbərlik edəcəkdir.

Azərbaycan İnnovasiyalar Agentliyi Türkiyənin aparıcı GOSB texnoparkı ilə Qarabağ bölgəsində ən son tədqiqatların və yüksək texnologiyalı cihazların istehsalının həyata keçiriləcəyi birgə yüksək texnologiyalar parkının yaradılması üçün anlaşma memorandumu imzalayıb ( Kerim, 2021).

Ümumiyyətlə qardaş ölkə Türkiyə müharibə dönəmində olduğu kimi müharibədən sonrada öz dəstəyini göstərməkdə davam edir. Türkiyə Böyük Millətlər Məclisinin üzvü Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım 30 ildir işğal altında olan Qarabağda heç bir infrastruktur, bina, məktəb, kitabxana, məscid, kilsə qalmadığını, hamısının dağıdıldığını bildirmişdi. Bakıda keçirilən qələbə paradına da qatılan Ayrım “Bunları türk şirkətləri edəcək. Yeni qəsəbələr salınacaq, infrastruktur yaradılacaq” şuarlarını səsləndirmişdi (Yasemin, 2020).

Britaniya hökuməti də Qarabağ regionunun texnoloji inkişafına dəstək verməkdə öz marağını sərgiləmişdi. Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp Azərbaycanın hökumət rəsmiləri ilə regionda “ağıllı şəhərlər”in yaradılmasını müzakirə etdiyini bildirib.

İtaliyanın Ansaldo Energia şirkəti dekabr ayında Qarabağ bölgəsində tikiləcək 4 elektrik yarımstansiyası üçün avadanlıqların tədarükü üçün 5 milyon avro dəyərində müqavilə alıb. Hər birinin gücü 110 kilovat olan transformator mərkəzlərinin Ağdam, Füzuli, Qubadlı və Kəlbəcər rayonlarında yerləşəcəyi bildirilib.

Son bəyanat isə müharibə zamanı Azərbaycana dəstək verən dövlətlərdən biri olan Macarıstandan gəldi. Oktyabr ayında Macarıstanın xarici işlər və ticarət naziri Peter Szijjarto Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşdən sonra “Macarıstan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəkləyir” demişdi. Szijarto Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevlə keçirdiyi videokonfrans görüşündən sonra "Macarıstan Dağlıq Qarabağ böhranından sonra Azərbaycanın yenidən qurulmasına kömək edəcək" deyib. Macarıstan Exim Bankının prosesdə rol almaq istəyən Macarıstan şirkətlərinə 100 milyon dollar büdcə ayırdığını qeyd edən Szijjarto, Macarıstan hökumətinin də bölgənin minalardan təmizlənməsi üçün 25 min avro yardım təklif etdiyini bildirib (Kerim, 2021).

Qarabağın transformasiya prosesində iştirak etmək istəyən ölkələr bunlarla məhdudlaşmır. İşğaldan azad olunmuş torpaqlarımızda yenidənqurma işlərində artıq Çin şirkətləri də yaxından iştirak edirlər. İsrail şirkətləri də bu ərazilərimizə investisiya qoyulmasında maraqlıdırlar. Düşməndən azad edilmiş ərazilərimizin bərpası proqramında iştirak etmək əzmində olduqlarını bəyan edən korporasiyalardan bəziləri arasında ABŞ, Rusiya, Pakistan, Səudiyyə Ərəbistanı və Ukraynadan olanlar da yer tutur.

**Qarabağda Ağıllı Şəhər Konsepsiyasının Qarşısında Duran Çətinliklər və Həll Yolları**

**Ağıllı ətraf mühit.** Ağıllı ətaf mühit çərçivəsinə; infrastrukturun avtomatlaşdırılması, su və kanalizasiya sistemlərinin monitorinqi, tullantıların toplanması/ayırılması sistemləri, ətraf mühitin keyfiyyətinin ölçülməsi və enerji istehlakının azaldılması kimi tətbiqlər daxildir. Ağıllı ətraf mühit enerji resurslarından səmərəli istifadəni təhrik edir. Bərpa olunan enerji resurslarından istifadə Ağıllı şəhərlərdə Ağıllı ətraf mühit amilinin ayrılmaz bir hissəsidir. Yaşıl iqtisadiyyatdan danışarkın də qeyd etdik ki Ağıllı şəhərlər üçün yaşıl enerji mühim amildir. Qaarabağda reallaşacaq Ağıllı şəhərlərdə heç şüphəsiz yaşıl enerji sistemlərinin tətbiqi vacibdir. Bunun üçün Qarabağ zonasının kifayət qədər imkanları mövcuddur. Ərazidə günəş enerjisindən istifadə üçün kifayət qədər günəşli saatlara malikdir. Deməli regionda enerji istehlakında günəş panellərinin qurulması üçün yetəri səbəb var. Bu amil dövlətin nəzərindən yayınmamışdır. Zəngilanın Ağıllı Ağalı kəndlərində ilk mərhələdə tikilən 200 ev məhz günəş panelləri ilə təchiz olunmuşdur. Günəş enerjisi baxımından xüsusilə Qarabağın Füzuli, Cebrayıl, Zəngilan və Qubadlı rayonları, külək enerjisi baxımından Laçın və Kəlbəcər dağları potensial ərazilər kimi müşahidə edilir. Bu kontekstdə Laçın və Kəlbəcərdə 100 MVt-a qədər gücü olan külək elektrik stansiyalarının tikintisi vurğulanmalıdır Ərazi həmkinin çaylarla əhatə olunduğundan burada SES-lərin tikintisi üçün əlverişli imkan var. Tərtər, Pazarçay (Bərgüşadçay), Həkəri çayı rayonun əsas çayları ilə birlikdə böyük su enerji potensialına malikdir. Bundan başqa, bu rayonda üç böyük su elektrik stansiyası var. Bundan əlavə, Kəlbəcər rayonunda 3093 min m3, Şuşada isə 412 m3 termal su ehtiyatları yaşıl energetikanın inkişafı üçün əhəmiyyətli potensiala malikdir (Qasımlı vd.,2022).

Buradan belə anlaşılır ki, Qarabağ bölgəsinin yaşıl enerji sahəsinə çevrilməsi üçün hər cür potensialı var.

**Ağıllı həyat tərzi (həyat keyfiyyəti).** Ağıllı həyat dedikdə buraya: ictimai təhlükəsizlik, cinayətlə mübarizə (kamera və ya səsli izləmə sistemləri), fövqəladə vəziyyətlərdə təcili müdaxilə və nəzarət, yanğınsöndürmə, səhiyyə və təhsil xidmətləri kimi istiqamətlər daxildir. Məsələn, Ağıllı Aqkol şəhərinin küçələrində, xüsusən də ictimai yerlərdə (xəstəxanalar, məktəblər, piyada keçidləri) videomüşahidə quraşdırılıb. Bu texnologiya 24 saat ərzində cinayətkarların üzünün tanınması və müşahidə yerinin monitorinqini aparır. Bütün müvafiq məlumatlar operativ şəkildə vahid mərkəz “Smart Aqkol”a göndərilir. Belə ki, “Smart Aqkol” tibbi və ümumi təhsil xidmətləri, ətraf mühitin ekologiyası, mənzil-kommunal xidmətlər baxımından əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasını, şəhər əhalisinin həyat təhlükəsizliyini təmin edən məlumatları toplayır, təhlil edir və saxlayır. Qeyd olunur ki, sistem Aqkolda baş verən cinayətkarlığı əhəmiyyətli dərəcədə azaldıb. 2020-ci ildə smart sistemin tətbiqi zamanı ictimai yerlərdə hüquqpozmaların sayı 35 %, oğurluq 15 %, zorakılıq 71 %, alkoqolizmlə əlaqəli cinayətlərin sayı 61% azalmışdır ki, biz bunları ağıllı sistemin tətbiqi ilə əldə olunmuş müsbət tendensiyalara misal olaraq göstərə bilərik (Urdabayev və Turgel, 2021). Eyniylə bu Ağıllı sistemləri Qarabağda tətbiqi ən az göstərilənlər qədər fayda verə bilər.

Ağıllı səhiyyə sistemi Avropada “Smart Box”lar vasitəsilə tənzimlənir. Bu qurğular səyyar klinika sayılan kiçik kabinetlərdir. Burada qan verməklə 30-dan artıq analizin nəticəsini öyrənmək mümkündür. Bu nəticələr həm də rayonda qurulan xüsusi mərkəzlərə ötürülür. Kənd sakinləri nəticələri bildikdən sonra “Smart Box” da canlı formada həkimdən konsultasiya ala bilirlər. Bu sistemi eyniylə hal-hazırda quruculuq mərhələsinndə olan Zəngilanın Ağıllı kəndi Ağalıda da tətbiq etmək olar. Ağıllı səhiyyə sistemi insanların səhiyyə ocaqlarına getmədən elə kənddə səhiyyə xidmətlərindən rahat istifadə etmələrinə şərait yaradacaq. Hazırda ölkəmizdə bir çox kənddə apteklər yoxdur. Distant səhiyyə sistemi insanların rahatlığına yönəlmiş addımlardan biridir. Ağıllı kənd və

şəhərlər üçün distant səhiyyə əvəzolunmazdır. Xüsusilə səhiyyyə ocaqlarında yaranan sıxlığa nəzər yetirdiyimizdə bu ən unikal həll kimi görünür.

**Ağıllı insanlar.** Ağıllı şəhərin ən mühüm varlığı olaraq insanlar ağıllı, şüurlu və yüksək keyfiyyətli sosial kapitala malik olmalıdırlar. Ağıllı insan komponentinin xüsusiyyətləri arasında səriştə səviyyəsi, ömür boyu öyrənmə meyli, sosial və etnik müxtəliflik, çeviklik, yaradıcılıq, açıq fikirlilik və sosiallıq qiymətləndirilir (Sadioğlu və Dinç, 2019). Ağıllı şəhərlərdə ağıllı şəhərin imkanlarından yararlana bilən insanlar yaşayır. Bunun üçün də rəqəmsal savadlılıq bacarıqları artırılmalıdır.

Rəqəmsal savadlılıq: Rəqəmsal olaraq təcrid olunmuş vətəndaşları daha da marginallaşdırmadan uğurlu ağıllı vətəndaş təşəbbüslərini həyata keçirməkdə əsas problemlərdən biri elektron bacarıqlardakı boşluqları doldurmaqdır.

Bu anlayışın bizim üçün yeni olduğunu nəzərə alsaq Qarabağda yaşayacaq əhalinin maarifləndirilməsi, Ağıllı şəhərlərə adaptasiyası qarşıda duran əsas çətinliklərdən biridir. Bunun üçün təlimlərin, inkişaf proqramlarının keçirilməsi olduqca önəmlidir.

**Ağıllı mobillik (nəqliyat).** Ağıllı mobillik konsepsiyası informasiya və kommunikasiya texnologiyaları ilə dəstəklənən nəqliyyat və logistika xidmətlərini əhatə edir. Günümüzdə şəhərlərin ən çox çətinlik çəkdiyi sahələrdən biri məhz nəqliyyatdır. Yaranan tıxaclar və bu tıxaclarda itirilən vaxt, həmkinin maşınlardan çıxan zəhərli qazlar şəhərlərdə həyatı demək olar ki, iflic edir. Ağıllı şəhərlər yüksək həyat şəraiti vəd etdiyindən bu kimi problemlər ənənəvi şəhər modellərində yaşanmaqdadır. Ağılllı şəhərlər ağıllı nəqliyyat sistemləri ilə təchiz olunur. Ağıllı işıqforlar, ağıllı qovşaqlar, ağıllı parkomatlar məhz nəqliyyat sahəsində baş verən bu cür problemlərə ən yaxşı həll yollarıdır. Bu günün ehtiyacı trafik məlumatlarını toplayan və sərnişinlərə ötürən ağıllı infrastruktur elementləridir. Bu məlumatları sürücülər bir proqram təminatından istifadə edərək maşından düşmədən parkomatlarda boş yerlər tapa, nəqliyyatın sıx olduğu yolları tətbiq üzərindən izləyərək alternativ yollardan istifadə edə bilərlər. Bu təcrübədən dünyada ağıllı şəhərlərdə geniş istifadə olunmaqdadır. Ağıllı nəqliyyat sistemlərinə malik şəhərlərdə elektrikli avtomobillər şəhərin əsas nəqliyyat vasitələridir. Qarabağda qurulacaq ağıllı şəhərlərdə məhz bu sistemlər tətbiq olunmalıdır.

**Ağıllı idarəetmə.** Ağıllı vətəndaşlara sahib şəhərin dövlət və bələdiyyələrin ağıllı şəhərlər mövzusundakı institusional imkanları və məlumatlılıq səviyyələrini, onların inkişaf etdirdikləri planları, siyasətləri, elektron idarəetmə portalları, şəhər sakinlərinin qərar qəbuletmə proseslərində iştirakını, mobil tətbiqləri və onlayn sistemləri əhatə edən ağıllı idarəçiliyi mənimsəməsi lazımdır.

Kibertəhlükəsizlik və məxfilik: Ağıllı idarəetmə çox vaxt vətəndaş məlumatlarının qurumlar arasında paylaşılmasını tələb edir. Bu məlumatların oğurlanması riskini artırır. Bunun üçün insanların İKT bacarqılarının artırılması vacibdir.

Rəqəmsal savadlılıq fərqləri: Bəzi vətəndaşların internetə və ya internetə qoşulmuş cihazlara çıxışı olmaya bilər. Xüsusilə yaşlı vətəndaşlar internet xidmətlərindən və ya qoşulmuş cihazlardan necə istifadə edəcəyini bilmirlər. Rəqəmsal seqreqasiya rəqəmsal istifadə edə bilən vətəndaşların daha çox təmsil olunmasına gətirib çıxarmaqla mövcud bərabərsizlikləri daha da dərinləşdirə bilər.

Ölkəmizdə Bakı ilə yanaşı bölgələrimizdə də yaradılan Asan xidmət mərkəzlərini bu istiqamətdə atılan addımlara misal olaraq göstərə bilərik. Asan xidmət mərkəzləri dövlət-vətəndaş əlaqələrinin güclənməsinə təkan verir. İnsanların elektron portallar səyyar xidmətlər vasitəsilə yaranan problemləri vaxt və əlavə xərc itirmədən həll etmələrinə imkan yaradır. Heç şüphəsiz ki, bu cür mərkəzlər Qarabağda da tətbiqi vacibdir.

**Ağıllı təhlükəsizlik sistemləri**. Türkiyəli mühəndislər tərəfindən icad edilən HAVELSAN sistemləri sərhəd təhlükəsizliyinin təminatı üzrə istifadə olunmaqdadır. Bu sistemlərin Qarabağda istifadəsi regionun sərhəd təhlükəsizliyinə böyük qatqı verə bilər.

- Orbit-ərazidə yerləşən görüntüləmə və qeydə alma sistemlərinin istifadəçi icazələri daxilində vahid mərkəzdən və inteqrasiya olunmuş şəkildə işləməsini təmin edən müstəqil video idarəetmə sistemidir.
- Eyeminer-görüntüləmə sistemlərindən əldə olunan məlumatar üçün təyin olunmuş ərazidən gələn görüntülərin eyni vaxtda analiz edildiyi və süni intelektə malik video analiz sistemidir.
- Harmoni-cihazlardan toplanmış məlumatların ölçülməsinə, monitorinqinə, vizuallaşdırılmasına və təhlilinə imkan verən inteqrasiya olunmuş IOT platformasıdır.

**Nəticə və Təkliflər**

2020-ci ildə əldə olunan parlaq qələbədən sonra əsas hədəf Qarabağ regionunda sülhü bərqərar etmək və əhalinin işğaldan azad olunmuş ərazilərə qaytarılmasıdır. Bu istiqamətdə atılan addımlardan biri olan Ağıllı kənd və şəhərlərin qurulması üçün əsas amillər aşağıdakılardır. Nəzərə alsaq ki, Qarabağ regionu sıfırdan qurulur. Deməli bərpa işləri üçün kifayət qədər maliyyə imkanlarına sahib olmaq lazımdır. Bunun üçün regiona yerli və xarici investorların cəlbi mütləqdir. Çünki bütün yükü dövlət qarşılaya bilməz. Tədqiqat da göstərmiş oldu ki, Qarabağın yaşıl enerji həlləri üçün imkanları kifayət qədərdir. Əsas məsələ siyasi sabitliyə nail olmaq lazımdır. Siyasi sabitlik olmadan investisiya cəlbi mümkün deyil.Təhlükəsizlikdən danışarkən biz sərhəd təhükəsizliyi, ictimai təhlükəsizlik və kiber təhlükəszilikdən ayrılıqda bəhs etməliyik. Sərhəd təhlükəsizliyi üçün HAVELSAN avtonom sistemlərdən istifadə edə bilərik. İctimai təhlükəsizlik üçün Smart Aqkol layihəsinin təcrübəsində də qeyd etdiyimiz kimi şəhərlərdə videomüşahidə kameraları quraşdırıla və məlumatların emal olunaraq bir mərkəzdə toplanaraq nəzarət funksiyası həyata keçirilə bilər. Kibertəhlükəsizlik sahəsində insanların İKT bacarıqlarını inkişaf etdirmək mütləqdir. Bunun üçün inkşaf proqramları, təlimlər həyata keçirilməlidir. Nəticə etibarı ilə qeyd edə bilərik ki, Qarabağda Ağıllı şəhər və kənd layihəsinin reallaşması mümkündür.

**Ədəbiyyat Siyahısı**


Serpil Savcı, Ilker Atmaca Bozok University, March 2022, Bölüm 6 Akıllı şehirlerde yenilenebilir enerji kaynaklarının kullanımı

Vüsal Qasımlı, Ramil Hüseyn, Rəşad Hüseynov, Rəşad Həsənov, Coşqun Cəfərov, Aminə Bayramova, Bakı, 2022, Yaşıl İqtisadiyyat, "Azprint" nəşriyyatı, 280 səh

Mustafa Yılmaz, 06.12.2021, Akıllı kent uygulamalarının yeşil ekonomi açısından değerlendirilmesi

23 Ocak 2021 "Kardeş Azerbaycan'a TÜMKİAD'dan Yatırım"

Kerim Ülker, 31 Ocak 2021 "Dünyanın gözü Karabağ'ın yeniden yapılandırılmasında"

Valiyev Anar, Akhundov Bairam, Mukhtarova Gunay, Ismayilova Narmin, January 2022 "Localizing Smart Urban Development in Azerbaijan"

Arzu Huseynova, Ophelya Mazanova , Pikakhanum Khudiyeva, Hicran Muradova, Haciyeva Leyla, Najafova Kamala, 5 September 2022 "Innovative Way of Solution of "Smart City" in Azerbaijan – City Problems"

Yeni Şafak, 10 Kasım 2022 "Azerbaycan, savaştan sonraki 2 yılı Karabağ'ın imarı ve diplomatik girişimlerle geçirdi"

Fərid Mehralızadə, 8 Dekabr 2022 "Analiz | Azad edilmiş ərazilərin bərpası hökümətin xərclərini artırdımı?" Analiz, İqtisadiyyat

Gündüz Camalzade, 30 Aralık 2022 "Karabağ ekonomısının geleceğine bakış: Sürdürebilir kalkınma modeli" Bakü, Bakü Devlet Üniversitesi

i.ü.f.d Fariz S.Əhmədov, İSCEMR 2022 "Qarabağ və Şərqi Zəngəzurun iqtisadi inkişafında investisiyaların rolu" IV İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların beynəlxalq elmi konfransı

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin baş analitiki Günay Quliyevanın şərhi" Qarabağ "smart region"a çevriləcək"

Sadioğlu, U. & Dinç, B. (2019) Yaşam Boyu Öğrenme ve Akıllı Kentler. Kaytek Dergisi, 43-61.

Manville, C., Cochrane, G., Cave, J., Millard, J., Pederson, J.K., Thaarup, R.K., Liebe, A., Wissner, M., Massink, R. & Kotterink, B. (2014). Mapping Smart Cities in the EU. European Parliament

Varol, Ç. (2017). Sürdürülebilir Gelişmede Akıllı Kent Yaklaşımı: Ankara'daki Belediyelerin Uygulamaları. Çağdaş Yerel Yönetimler

Giffinger, R., Fertner, C., Kramar, H., Kalasek, R., Pichler-Milanović, N. & Meijers, E. (2007). Smart Cities Ranking of European Medium-Sized Cities, Centre of Regional Science, s. 1-25

Dameri, R.P. (2013). Searching for Smart City definition: a comprehensive proposal. International Journal of Computers& Technology

Herbst, J., (2015), How L.A. Works: Smart Trash Cans, http://www.lamag.com/c-tyth-nkblog/how-l-a-works-smart trashcans/

Söylemez, A., (2018). Akıllı Kentlerde Akıl Yönetimi ve Dünya'dan Akıllı Atık Yönetimi Üzerine Örnekler, Yasama Dergisi

Yasemin Asan,14 Aralık 2020, "Karabağ'da inşa dönemi"

Dameri, R.P. (2017). Smart City Implementation: Creating Economic and Public Value in Innovative Urban Systems. Springer, Cham.

Mucella Ates, August 2017, Akıllı Şehirler ve Dünya Şehirlerinin Geleceği

Demokaan Demirel Kocaeli University, January 2021, Akıllı Şehirler (The Smart City)

Ayya Lmahamad, 30 January 2022, Karabakh's grand renaissance: Smart village project nearing completion

İ.Nejat Çerçi , "Akıllı kentler", bir ihtiyaç ve geleceğe dönük bir yaşam modelidir

December 2016, Green economy and related concepts: An overview Journal of Cleaner Production 15, Pages 361-371

Cigdem Varol Gazi University, January 2017, Sürdürülebilir Gelişmede Akıllı Kent Yaklaşımı: Ankara'daki Belediyelerin Uygulamaları

Köseoğlu, Ö., Demirci, Y., (2018). Akıllı Şehirler ve Yerel Sorunların Çözümünde Yenilikçi Teknolojilerin Kullanımı, Uluslararası Politik Araştırmalar Dergisi

Çakır, A. C., Yiğit, H., Küçük, K., (2019). Nesnelerin İnterneti Tabanlı Akıllı Şehirler Üzerine Bir İnceleme, 8th International Vocational Schools Symposium, Sinop

12 May , 2021 14:11, Qarabağda yeni enerji gücü mərkəzləri yaradılır

8 Ağustos 2019 Geleceğin Akıllı Şehirleri için HAVELSAN Akıllı Şehir Çözümleri https://www.savunmahaber.com/

Akıllı ve güvenli şehirler https://www.havelsan.com.tr/

# Dəyişək Trikotaj Məmulatlarının Çeşid Ekspertizası: Qadın və Kişi Alt Geyimləri.

**Elmir Həsənov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**hesenovelmir2000@gmail.com**

## Xülasə

Dəyişək trikotaj məmulatlarının növ ekspertizası bu gün çox vacib məsələdir. Bu sahədə istehsal olunan məhsulların keyfiyyəti, çeşidi və uyğunluğu istehlakçıların satın alma qərarlarına təsir edir. Buna görə də trikotaj məmulatlarının müxtəlifliyi həm istehsalçılar, həm də istehlakçılar üçün vacibdir.Qadın və kişi alt paltarları xüsusi trikotaj məhsullarının əhəmiyyətli bir hissəsini təşkil edir. Bu məhsulların çeşidi kifayət qədər genişdir və hər bir məhsul fərqli xüsusiyyətlərə malikdir. Məhsulun dizaynı və tikişləri də vacibdir. Dikişlərin hamarlığı məhsulun davamlılığını artırır və istifadə müddətini uzadır. Məmulatda bəzi halları nəzə almaq vacibdir.Dizayn istehlakçıların məhsula marağını artırır və məhsulun satışına təsir edir.Bunlara əlavə olaraq, məhsulun ölçüsü və ölçüləri də vacibdir. İstehlakçılar müxtəlif ölçü və ölçülərə malik olduqları üçün məhsullar müxtəlif ölçülərə uyğun olmalı və lazımi ölçülərdə istehsal edilməlidir. Bu, istehlakçılara məhsuldan rahat istifadə etmək imkanı verir və məhsulun ömrünü artırır.Bütün bu amillər trikotaj məhsullarının müxtəlifliyində nəzərə alınmalıdır. Bu yolla yüksək keyfiyyətli, çeşidli və istehlakçı tələblərinə uyğun məhsullar istehsal oluna və istehlakçı məmnuniyyəti artırıla bilər.

**Açar sözlər:**Dəyişən trikotaj məmulatları,iç geyim çeşidləri,toxuculuq materialı,pambıq liflərindən istifadə.

## Summary

Type expertise of different knitted products is a very important issue today. The quality, variety and suitability of products produced in this area influence the purchasing decisions of consumers. Therefore, the diversity of knitted products is important for both producers and consumers. Women's and men's underwear make up a significant part of special knitted products. The range of these products is quite wide and each product has different characteristics. Product design and stitching are also important. The smoothness of the seams increases the durability of the product and extends its service life. It is important to keep in mind some aspects of the product. Design increases the interest of consumers in the product and affects the sale of the product. In addition to these, the size and dimensions of the product are also important. Since consumers have different sizes and shapes, the products should fit different sizes and be manufactured in the right sizes. This allows consumers to use the product comfortably and increases the product's life. All these factors should be taken into account in the variety of knitted products. In this way, it is possible to produce high-quality, diverse and consumer-friendly products and increase consumer satisfaction.

**Keywords:** variable knitted products, types of underwear, textile material, use of cotton fibers.

## Giriş

**Mövzunun aktualığı:** Müxtəlif çeşidli trikotaj məhsulları üzrə təcrübə dəyişən moda dünyasında mühüm rol oynayır. Dəyişən tendensiyalar və müştərilərin gözləntiləri, xüsusən də alt paltarları məhsulun keyfiyyəti və xüsusiyyətləri baxımından bir çox sual işarəsi gətirir. Bu səbəblə dəyişən trikotaj məmulatlarının çeşid ekspertizası müştəri tələb və gözləntilərinə uyğun məhsul çeşidinin müəyyən edilməsi baxımından mühüm məsələdir. Bundan əlavə, bu məsələ tekstil sektorundakı müəssisələr üçün vacibdir, çünki düzgün məhsul seçimi və keyfiyyətə nəzarət müştəri məmnuniyyəti və buna görə də biznesin uğuru üçün vacibdir. Bu səbəblərə görə, dəyişən trikotaj məmulatlarının

çeşidi ekspertizası moda sənayesi və tekstil biznesində hələ də çox vacibdir.Əvvəlki illərdə alt trikotaj məmulatlarının inkişafı o qədər böyük deyildi. Müəyyən vaxt keçdikcə artıq dəyişən trkotaj məmulatlarının həm inkişafı həmdə istehsalı olduqca artmışdır ki,buda alt trikotaj məmulatlarının çeşidlərə bölünməsinin yaranmasına səbəb olmuşdur.Geyim sənayesində baş verən sürətli dəyişikliklər və inkişaflar müxtəlif trikotaj məhsullarına tələbatın artmasına nəzarət etmək üçün yeni tədqiqatların aparılmasını tələb edir. İnsanların gündəlik geyimlərində ən çox üstünlük verdiyi paltarlar arasında qadın və kişi alt geyimləri yer tutur. Buna görə də, bu sahədə aparılan tədqiqatların həm geyim sənayesi, həm də istehlakçılar üçün əhəmiyyətli dəyəri var. Bu kontekstdə demək olar ki, "Dəyişək trikotaj məmulatlarının çeşid ekspertizası. Qadın və kişi alt geyimləri" mövzusu bu gün də çox mühüm və aktual mövzudur.

**Tədqiqatın məqsədi və vəzifəsi:**Tədqiqatın əsas məqsədi,fərqli növlü trikotaj məmulatlarının keyfiyyət və gözəlliyini təyini və müştərilərin tələblərinə cavab verən məhsulların hazırlanması üçün tövsiyyələr verməkdir.Dövrümüzdə,dəyişən moda və rəqabət şəraitində,trikotaj məhsullarının yaradılması üçün materiallarının seçilməsi,məhsulların texniki və estetik ölçülərinin qiymətləndirilməsi,keyfiyyətinin artırılması,yeni texnologiyalardan istifadə edilməsi və müştərilərin keyfiyyətli məhsullar almaq üçün dəyişən tələblərin qarşılanması yer alır. Bu araşdırmanın məqsədi trikotaj məmulatlarının müxtəlifliyinə qiymət verməklə qadın və kişi alt paltarlarında istifadə olunan materialların, üslub və üslubun təhlili və dəyərini verməkdir. Bu araşdırma qadın və kişi alt paltarları üzərində cəmlənir, müxtəlif növ trikotaj məhsulları təklif edir və müxtəlif materiallar və üslublar üçün uyğundur.Dəyişən trikotaj məmulatlarının növlərini araşdırmaq və bu məhsulların üstünlüklərini və mənfi cəhətlərini müzakirə etməkdir. Bu məqsədlə qadın və kişi alt paltarları kateqoriyasında müxtəlif trikotaj məmulatlarının xüsusiyyətləri, istifadə sahələri və birləşmələri haqqında ətraflı araşdırma aparacağıq. Biz həmçinin bu məhsulların seçilməsi və istifadəsi ilə bağlı bəzi məsləhətlər verməklə oxucuların daha yaxşı alış-veriş təcrübəsi əldə etmələrinə və geyimlərindən daha səmərəli istifadə etmələrinə kömək edəcəyik.

**Tədqiqatın vəzifəsi**:Tədqiqatın vəzifəsi müştəri tələblərinə və dəyişən moda trendlərinə uyğun yeni trikotaj məhsullarının yaradılması və müştəri baxışlarının artırılmasıdır. Bununla birlikdə, tədqiqatın ən önəmli vəzifəsi, müştərilərin keyfiyyətli məhsullar almaq üçün tələblərinin qarşılanması və müştəri tərəfindən sevilən məhsulların istehsalıdır. Məhsulların qiymətləndirilməsi, onların satışında ən önəmli addımlardan biridir və qiymətlərin düzgün seçilməsi, satışların artırılması və müştəri tərəfindən tələb edilən məhsulların hazırlanması üçün kritikdir. Bu tədqiqatın əsas vəzifəsi trikotaj məmulatlarının müxtəlif növlərini təhlil etmək, bu məhsulların xüsusiyyətlərini, üstünlüklərini və çatışmazlıqlarını təhlil etmək və bu mövzuda oxuculara hərtərəfli məlumat verməkdir.

**Tədqiqatın metodologiyası:**Tədqiqatın metodologiyası müxtəlif ədəbiyyatlardan və beynəlxalq jurnallardan götürülmüş məlumatlarla əhatə olunub.

Ədəbiyyat icmalı:Dərsliklər,jurnallar,araşdırmalar və sənaye mərkəzlərinin inetrnet resusrlarının əhatə etdiyi məqalələrin hər tərəfli nəzərdən keçirilməsi araşdırılmaların aparılması nəticələrin ekspertiza olunması bu məqalənin metodologiyasının əsas tərəflərindən biridir.

Müxtəlif məmulatların seçimi:Dəyişən trikotaj məmulatlarının seçilməsi qadın və kişi alt geyimlərinin formalaşdırılması,istehlakçıların tələblərini nəzə alaraq,məhsulların istehsalında hansı parça,lif və ipliklərdən istifadə olunması yer almışdır.

**Tədqiqatın məhdudiyyətləri:** Hər nə qədər bu tədqiqatın məqsədləri çox geniş olsa da, onun da məhdudiyyətləri vardır. İlk olaraq, bu tədqiqatın məhdudiyyəti, yalnız dəyişən trikotaj məhsullarının çeşid ekspertizasını əhatə etməsidir. Digər məhsul növləri, məsələn, paltar, ayaqqabı və s. daxil deyil. Tədqiqatın ən məhdudiyyətli hissələrindən biri,məhsulların istehsalına və satışına əsasən məhdud sayda istehsalçı olmasıdır. Dəyişək trikotaj məmulatlarının çeşid ekspertizası məqaləsinin məhdudiyyətləri aşağıdakı hissələrdir:

1. Qeyri-rəsmi sənədlər.Bəzi məhsulların keyfiyyətini təsdiq edən qeyri-rəsmi sənədlərin mövcudluğu məhsullarda keyfiyyətin formalaşmasına mane olur.
2. Nümunələrin məhdudiyyətləri.Dəyişək trikotaj məmulatlarının keyfiyyətini təyin etmək üçün bir sıra nümunələr götürülür ki,o nümunələrin məhdudiyyətli olması ekspertiza aparılarkən müəyyən çətinliklər yarada bilər.
3. Məmulatların az olması,bu məqalənin daha genişiklə araşdırılmasında çətinlik yaradır.
4. Məqalənin araşdırılması üçün xarici mənbələrə məhdudlu çıxış olması.
5. Məhdud sayda istehsalçı.Tədqiqatın ən məhdudiyyətli hissələrindən biri,məhsulların istehsalına və satışına əsasən məhdud sayda istehsalçı olmasıdır

**Tədqiqatda istinad olunan mənbələr:** Tədqiqatda istinad olunan mənbələr, əsasən, elmi jurnallar, kitablar, universitet və sənaye mərkəzlərinin məlumatları və bu sahədə uzmanların fikirləridir.Bu tədqiqatda, "Textile Progress" və "Textile Research Journal" kimi elmi jurnalların yanı sıra, "The Textile Institute" və "The Society of Dyers and Colourists" kimi sənaye mərkəzlərinin məlumatlarından istifadə edilmişdir.Tədqiqatın aparılması üçün internet resurslarından istifadə olunub.Müxtəlif nüfuzlu jurnallarda yerləşdirilən məqalələrdən araşdırılmalar aparılıb.Tədqiqatda müxtəlif beynəlxalq jurnallarda müxtəlif məqalələrə istinad olunub.Əsasən türk  mənşəli arşadırılmalar nəzərdən keçirilib və oxunulub və müəyyən araşdırılmalar aparılıb.Araşdırılmalar istinad gətirilib,elmi məqalələr üzrə müxtəlif rəylər,fikirlər öyrənilib.

***Mövzuya ümumi baxış***

Dəyişək trikotaj məmulaların ekspertiza olunması,bir çox məhsulların keyfiyyətinin fomalaşdırılmasına kömək edəcəkdir.Hal hazırda dövrümüzdə qadın və kişi alt geyimləri daha çox yayılmışdır.Günümüzün bir parçasına çevrilən alt geyim paltarlarını istifadə edərkən bir sıra insanlar funksiya və keyfiyyətinə önəm vermir.Bu isə,insanlarda dəri xəstəlikləri (göbələk,dəri xərçəngi və.s.) kimi bir sıra xəstəlikərin yaranmasına səbəb olur.Alt trikotaj məmulatları insanın dərisinə ilk təmas edən məmulatdır ki,bu insan dərisi ilə təması bir çox nüansları ortaya qoyur.Bu məmulatların istehlakı zamanı əsas olaraq onların dəri ilə təması nəzərdə tutulmalıdır.Alt trikotaj məmulatlarının çeşidlənməsi onların müxtəlifliyindən irəli gəlir.

Alt paltar dərinin yanında geyilən və bədənin fiziki rifahını qorumaq, zehni stresi azaltmaq, üst paltarın gözəlliyini artırmaq, bədəni istədiyiniz görünüş vermək üçün formalaşdırmaq və bədənin fiziki sağlamlığını qorumaq üçün xidmət edən geyim kimi müəyyən edilir. Bütün digər geyim malları kimi alt paltarlar dəbdən təsirlənir. Görünüşlə bağlı narahatlıqlar alt paltarı seçərkən sağlamlıq baxımından da vacibdir.Dəyişək trikotaj məmulatlarınına aid olan alt geyim paltlarları bizi yataqda və ya evdə istiliyimizi qorumaq və üst paltlarımızı dərimizə təsir etməməsi üçün geyindiyimiz paltarlar sayılır. Alt paltarları seçərkən sağlamlıqla bağlı faktorlar nəzərə alınmalıdır. Sadə dillə desək, toxuculuq və aksesuarlardan elə istifadə olunmalıdır ki, insanların dərisini zədələməsin və onların hərəkət azadlığına

mane olmasın. Alt paltarı seçərkən sağlamlıqla yanaşı, estetik mülahizələrə də böyük əhəmiyyət verilir. Üst paltarın altına geyilən alt paltarları ilə yanaşı, bu ifadə yataqda və ya evdə geyinilən paltarlara da aid edilə bilər(Tekel, 1990, p. 10).

Alt paltarın ən vacib cəhəti bədənin sərbəst hərəkət etməsinə imkan verməsi və bədəni isti saxlayacaq və təri udacaq materiallardan qurulmasıdır. Bunu nəzərə alaraq, alt paltarı seçərkən nəzərə alınmalı olan bəzi nüanslar var ki,onların nəzərə alınması ilə alt geyim paltarlarını rahatlığını seçmək olar.Bu nüanslar: Mövsümi alt geyimləri,dərinin nəzarəti,cinsiyyətə uyğun olaraq alt geyimlərin seçilməsi,sağlamlığın qorunması üçün seçilən alt geyim paltarlarıdır.

Alt paltarlar "bədənin formalaşdırılmasına imkan verəcək xüsusiyyətdə olmalı və üst paltarı tamamlamalıdır".Alt trikotaj məmulatlarının arasında olan alt geyimləri keçmişdən bura insanların istehlakında o qədərdə dəyişimlər yaratmayıb.Bəzi səbəblərə görə insanlar müxtəlif cür alt geyimlərini istifadə edirlər.Hazırkkı dövrdə,trikotaj istehsalı tişik emalı zavodları inkşaf etmiş və iqtisadiyyat irəliləmişdir. Lakin buna baxmayaraq,insanlar tərəfindən hələdə alt trikotaj olan geyimlərə əhəmiyyətli dərəcədə önəmsənilmir.Əvvəlki illərdə alt paltarları haqqında məlumatların kifayət qədər öyrənilməməsi və araşdırmalar aprıla bilməməsi səbəbindən əvvəlki illər bu mövzu ilə əlaqəli vizuallara əsaslanaraq şərh olunmağa çalışıldı. Tədqiqatın məlumatlarına müasir müəlliflərin alt paltarının tarixinə dair yazılı hesabatları da daxildir. Alt paltarlar "Estetik narahatlıqların aradan qaldırılması üçün alt paltarları; bədənin formalaşdırılmasına imkan verəcək xüsusiyyətdə olmalı və üst paltarı tamamlamalıdır".Alt paltarın tarixi ilə bağlı məlumatlar müxtəlif nəşriyyat şirkətlərinin xarici yazılı materiallarından toplanmışdır(Tekel,1990:10).

Ümumilikdə,bu tədqiqatda dəyişən trikotaj məmulatlarının çeşidlərinə görə uyğunlaşması və məhsulların çeişdlərə görə dəyişəmisinin ekspertizası aparılacaq.Dəyişən trikotaj məmulatlarının çeşidlənməsində qadın və kişi geyimləridə durur ki onlarında istehlak olunmasında bəzi xüsusiyyətləri vardır.Məqalənin əsas məqsədi həmdə ondan ibarətdir ki,istehlak olunan alt trikotaj məmulalarının keyfiyyətinin təmin olunması və istehlak olunan zaman keyfiyyətli məhsulların seçilməsidir.

**Dəyişən Trikotaj Məmulatlarında İnsanın Bədən Xüsusiyyətləri və Cinsiyyətə Görə Məmulatların İstehsalı**

Dəyişən trikotaj məmulatlarının istehsalında bir çox hallar qeydə alınır.İnsanların bədənlərinin fərqliliyi,yaş müxtəlifliyi,insanlanların sağlamlığı və ən əsasıda ki,qadın və kişi alt geyimlərinin fərqli olunması halları nəzərə alınır. Alt paltarları hazırlayarkən nəzərə alınmalı, araşdırılmalı və tədqiq edilməli olan digər elementlərə sağlamlıq problemlərinin gətirdiyi bədən xəstəlikləri və ya qitələrə görə dəyişən ölçülər daxildir.Bədənin strukturunda müvəqqəti dəyişikliklər buna əlavədir. hamiləlik, tibb bacısı və əməliyyatdan sonra sağalma. Həmçinin, bədən tiplərini müəyyən etmək yalnız insanları cinsinə, yaşına və ya etnik mənsubiyyətinə görə qruplara bölmək yolu ilə həyata keçirilə bilməz. Bu mövzuda hərtərəfli biliyə sahib olmaq üçün dünyanın müxtəlif guşələrindən olan şəxslər üzərində ölçülər, kadavra imtahanları ilə birlikdə aparılmalıdır.Bədən sağlamlığını qorumaq üçün alt paltarları cinsiyyət və anatomik xüsusiyyətlərə görə bədən tiplərindəki fərqlər nəzərə alınmaqla hazırlanır. Alt paltarların istehsalı cinsə görə ayrıldıqda, son dərəcə incə olması lazım olan genital bölgəni qorumaq üçün hazırlanmış alt paltarları kişilər üçün hazırlanmış əşyalar arasındadır. Alt paltarlarının qəlibləri rahatlığın və hərəkət genişliyinin məhdudlaşdırılmasının qarşısını almaq üçün kişi bədən xüsusiyyətləri

nəzərə alınmaqla yaradılmalıdır. Xüsusilə qadınlar üçün yaradılacaq alt paltarı məhsulları bədən formaları ilə bağlı təhlil edilərkən üst alt paltarı mallarının qəlib tərəfləri nəzərə alınmalıdır.

Alt paltarları istehsal edilərkən insan sağlamlığının əhəmiyyəti nəzərə alınmalıdır. Məhsulun parçasında heç bir təhlükəli kimyəvi maddə olmamalıdır, təri udmalı, bədəni qıcıqlandırmamalı və qan axınına mane olmamalıdır. Bu keyfiyyətlər insan sağlamlığına təhlükə yaratmayan alt paltarında olmalıdır.

Alt paltar istehsalçıları da mövsümün üst geyim tendensiyaları ilə ayaqlaşmalıdırlar. Bu, istehlakçının alt paltarı alarkən geyinəcəyi üst paltarının xüsusiyyətlərini nəzərə alması ilə bağlıdır. Alt paltarı və üst paltarı üçün məhsullar geyinənin ümumi görünüşünü yaxşılaşdırmaq üçün rəng, model, aksesuar və parça baxımından bir-birini tamamlamalıdır. Kiçik bir məqam, rəngli paltarların istehsalı üçün 18-ci əsrə qədər vaxt lazım idi. Bu belədir, çünki ağ təmiz rəng hesab olunur. O dövrdə adətən ağ alt paltarı geyilirdi. Ağ paltarlar çox uzun müddət ağ qalmadı, buna görə də insanlar çirkləndikdə paltarlarını dəyişdirmək üçün kifayət qədər alt paltarları olduğunu ifadə etmək üçün bu rəngi bəyəndilər. Beləliklə, ağ alt şalvar həm də zənginliyin simvolu idi. Bütün yuyucu vasitələr və sürtünmə yalnız ağ paltarda istifadə edilə bilər. Rəngli paltar belə yuyulmağa dözə bilməz; qocalır və xarab olur (discountlr.com, 04.04.2012;lifestil.com, 04.04.2012).

**Alt trikotaj məmulatlarının çeşidləri**

Dəyişən trikotaj məmulatlarının istehlakında nünaslardan biri də məhsulların çeşidlənməsidir ki,hal hazırda istehlak olunan alt trikotaj məmulatlarının bu çeşidlərə görə istehsal olunur.Bu çeşidlərin bölünməsi həmdə qadın və kişi alt geyimlərinin istehlakında böyük rifah yaradır.İstehlak olunan alt trikotaj məmulatlarına,tuman,qolsuz gecə köynəyi,corablar və .s. aid edilir. Bunlara əlavə olaraq, qabırğa, tək trikotaj, atlaz, ipək, məxmər və krujeva daxil olmaqla, modeldən və istifadə məqsədindən asılı olaraq bir neçə növ materialda alt paltarları üçün məşhur parçadır. Müxtəlif qol uzunluqlarında olan bədən çox vaxt uyğun forma və aşağı boyun xətti ilə tikilir. Elastik lifli trikotajdan istifadə edildiyinə görə kəsilmiş quruluşa əlavə olaraq bədən xətlərinə tam uyğun gəlir. Dekorasiya üçün elastik krujeva istifadə edilməlidir. "Kombinezon" termini həm də daha incə olan alt paltarı kimi geyilən daha sanitar, bədənə bənzər parçaya aiddir (MEGEP, 2007 b: 3;Yakartepe, 1993: 2369).

Qolsuz gecə köynəyi incə pambıqla hörülmüş trikotaj məmulatlarına daxildir.Məhsulun istehsalı zamanı yun liflərindən özəlliklə istifadə olunur ki buda,məmulatın rahatlığını özündə saxlayır.

**Şəkil 1: Alt trikotaj məmulatı (Mayka)**



Mənbə: https://parashut.az/men/underwear-2/top-group-3/mike-1/blackspade-9236-19527-ki-i-n-mayka-a-l-9236

Corablar istehlak müxtəlifliyinə görə,və rahatlığına görə bir neçə qrupa bölünür ki, bunlarda corabların fərqliliyini ortaya çıxarır.

Diz altı corablar: Bu corablar əsasən qadın alt geyim məmulatı sayılır ki əsasən qadınlar istehlak edir.Bu corabların uzunluğu digər normal corablara nisbətən uzun olur ki, buda məhsulun öz xüsusiyyətini əks etdirir. Dizdən yuxarı uzanan corablara diz üstü corablar deyilir. Gənc qadınların böyük sevgi ilə geyindikləri bu corablar mini ətək və şortdan aşağıda geyinildikdə füsunkar bir görünüş verir.Bu corablar elastik olduğu üçün ayaq hissədən aşağı düşmür(Şəkil 2). Dizdən bir az aşağı olan corablara dizdən yuxarı corablar deyilir. Çox vaxt qadınlar və qızlar üçün hazırlanan bu corabların elastik materialı onların ayağından aşağı sürüşməsinin qarşısını alır (MEGEP, 2008: 10;MEGEP, 2008 a: 10).

**Şəkil 2: Diz altı corablar**



Mənbə: https://www.corapmanya.com/diz-alti-coraplar

Qısa corablar:Bu corablar, topuq hissədən bir az yuxarı olub və elastikdir.Bu corabları həm kişi həmdə qadınlar istehlak edir(Şəkil 3).Corabların qalınlığı və nazikləri vardır ki,buda mövsumi dəyişim adlanır.

**Şəkil 3: Qısa corablar**




Mənbə: https://unimall.az/kisi-qisa-sport-corab/

Bu corablar mövsumi olaraq daha isti fəsillərdə istifadə olunur.Qısa corabların maksimum uzunluğu topuğ hissəsin üstünə kimi olur.

**Dəyişən trikotaj məmulatlarının xarakteristikası**

Keçmişdə kətan və pambıq müxtəlif siniflərdə fərqli şəkildə istifadə edilən iki növ parça idi. Kətan aşağı sinif tərəfindən istifadə edilən bir növ parçadır, pambıq materialları isə daha yüksək sinif tərəfindən bəyənilir. Yun alt paltarı bədəni isti saxlamaq üçün kətan və ya pambıq alt paltarın üstündən geyilirdi. Yun alt paltarları tez-tez jilet kimi görünürdü və hər iki cins tərəfindən geyilirdi. Dəri ənənəvi olaraq xarici geyimlərdə istifadə edilmişdir. Qeyri-işləyənlər ipəkdən alt paltarı parça kimi geyinirlər.

Alt paltarı parçalar saatlarla bədənimizlə daim təmasda olduqları üçün həlledici rol oynayır.Alt paltarı parçalar rahat olmalı və dərini qıcıqlandırmamalıdır.Bədən istiliyini tənzimləməlidir,tez-tez yuyula bilən parçalar seçilməlidir,təri udan parçadan istifadə olunmalıdır, bədənin nəfəs alması rahat olmalıdır(MEGEP, 2007 b: 3 – 4).

MEGEP-in "Geyim İstehsal Texnologiyası - İdmançı Naxışları" modulundan götürülmüş alt paltarında istifadə olunan ən tipik parça növləri aşağıda verilmişdir.

Lent:Lentin parça səthini təşkil edən tərs yastı ilgəklər ona büzməli görünüş verir və onu eninə çox çevik parça edir. Əks tikişlərin sayından asılı olaraq parçanın səthi və digər xüsusiyyətləri dəyişir. Yaxalar və qoltuqlar, ətəylər, bellər, idman kostyumu ayaqları, alt paltarlar və üst paltarlar kimi bədənə uyğunlaşmalı olan yerlərdə yivli toxuculuqlar şiddətlə tövsiyə olunur (MEGEP, 2007 b: 3).

Tək trikotajlı forma:Adətən pambıqdan və digər müqayisə olunan ipliklərdən hazırlanır, tək trikotaj yalnız bir iplikdən tikilmiş trikotaj parçadır.Arxa tərəfi tərs döngə şəklində, ön tərəfi isə düz ilgəkdir. Bu, forma sabitliyinə malik olmayan, kənar qıvrımlara və bükülməyə açıq olan, açıq en və boru şəklində istifadə edilə bilən və ilgəklərin qırılması ilə nəticələnə bilən çevik tekstil səthidir, çünki toxuculuq zamanı ipin qırılması ilgəyə imkan verə bilər. toxuculuqdan çıxmaq. Alt paltarda, o cümlədən qısa tuman və paltoda idmançı geyimlərinin hazırlanmasında istifadə olunur.

İpək:İpək qurdunun baramasından hazırlanır. İpəyin dəyərinə iplərin qalınlığı, nəmlik dərəcəsi, müqavimət və elastiklik əhəmiyyətli dərəcədə təsir göstərir. Bundan əlavə, alt paltarları, gecə paltarları, paltolar, dizayner büstqalterləri və digər əşyalarda istifadə olunur (MEGEP, 2007 b: 4).

**Şəkil 4:İpək lifi**



Mənbə: https://tekstilbilgi.net/ipek-lifleri-ve-ipekbocegi.html

Krujeva: Krujevaya bənzər iplərdən hazırlanmış dekorativ tekstil səthidir. Əl ilə və ya xüsusi avadanlıqdan istifadə etməklə yaradıla bilər. Trikotaj müxtəlif formalarda olur, o cümlədən toxunmuş krujeva, trikotaj krujeva, sütun krujeva və naxışlı krujeva(Şəkil 5). Model xüsusiyyətinə görə alt paltarlarda, məsələn, alt köynəklərdə, qısa tumanlarda, büstqalterlərdə, gecə köynəklərində və xalatlarda çox arzu edilir (MEGEP, 2007 b: 4).

**Şəkil 5: Krujeva**




Mənbə: https://www.twinkl.com.bn/illustration/krujeva-hasiy-naxis-umumi-illustrasiyalar-ikincil-qara-ag-rgb

Trikotaj səthlərdə döngələrin asanlıqla hərəkət etməsi sayəsində trikotaj materialları xüsusilə çevikdir. Bu səbəbdən bədənə rahat və möhkəm oturur. Trikotaj materialları ilgəklərin hərəkət tərzinə görə daha çox idarəetmə, yumşaqlıq və örtük keyfiyyətləri təmin edir. Əzilən zaman tez əzilmədiyi üçün tez əvvəlki formasına qayıdır. Döngələrin hava tutma qabiliyyəti sayəsində o, həm də xoş istilik hissi verir. Pambıq trikotaj məmulatları havadakı rütubətin 80%-ni özünə çəkə bildiyi üçün alt paltarlarda istifadə üçün seçilir. (MEGEP, 2007b:5).

Krujeva lenti:Onlar alt paltarları hazırlamaq üçün istifadə olunan dar bir toxunuşlu əlavə materiallardır. Krujeva lentləri istehsal etmək üçün çevik və zərif toxuculuq üsullarından istifadə edilməlidir ki, insanların bədənlərinə toxunan yerlərdə dərinin qıcıqlanması şansı olmasın. Quruluşuna görə, adətən qadın alt paltarı məhsullarında istifadə edilən krujeva lentləri əşyaya məsum və ya seksual bir şəxsiyyət verə bilər. Kənarlara doğru olan hissələrdə adətən krujeva lentləri istifadə olunur. məsələn, qadın şalvarının bel və ayaq nahiyələrində və büstqalter stəkanın üzərində uzanan parçanın kənar hissələrində istifadə olunur.

**Şəkil 6: Krujeva lenti**



Mənbə: https://www.swell-industry.com/elastic-tape/

Düymə:İki yerdə istifadə olunan materialın toxuculuq məhsullarında birləşdirmək üçün istifadə olunur. Qoşulmalı olan tərəfdə düymə tikilir, digər tərəfdən isə düyməni yerləşdirmək üçün deşik açılır. Onlar düymə deşikləri kimi tanınır. Düymə materiallarına plastik, metal, sümük, mirvari, ağac və s. Onlar birləşdirilə bilər, həm də bəzək üçün istifadə edilə bilər.

**Şəkil 7 :Düymə**



Mənbə: https://az.slceramics.com/multicolor-shirt-ceramic-buttons-13mm.html

Snap:Paltarın tələb olunan hissələrinin çıxarıla bilən olmasına zəmanət vermək; Bir cüt kişi və dişi komponentdən ibarət olan bu köməkçi materiallar, birləşmənin baş verəcəyi parçada deşiklər edilərək parça üzərinə quraşdırılır.

**Şəkil 8:Snap düymə**



Mənbə: https://www.terziyedair.com/urun/10mm-mont-citcit-vt2-100-adet

**Dəyişək trikotaj məmulatlarında istifadə olunan ipliklər.**

**Tikiş texnikası**

Dəyişək trikotaj məmulatlarının toxuculuğunda müxtəlif ipliklərdən istifadə olunur.Bu ipliklər təbii və ya süni ola bilər ki,bu ipliklərdən alt trikotaj məmulatları istehsal olunur.İpliklər toxuculuq birləşdirmək üçün istifadə olunur və sarma texnikası ilə sarılır.

Alt paltarları çox vaxt pambıq iplikdən hazırlanır. Pambıq iplik xüsusiyyətləri:

- Meyil etmir. Mikroskop altında tədqiq edildikdə lif öz ətrafında spiral olur.
- Rəngi böyüdüyü əraziyə görə dəyişir. Qarın rənglərinə ağ, ağ, krem, boz, sarı və qəhvəyi daxildir.
- Tutqun, üzvi bitirmə. Orta rütubətli şəraitdə öz çəkisinin 85%-ni, həddindən artıq nəmli mühitdə isə 32%-ni udur ki, bu da onu merserizasiya prosesi ilə cilalayır.
- Sellülozik lif olduğu üçün çox qırışır.
- Uzun lifli pambıqlar inanılmaz dərəcədə güclüdür.
- Temperaturu aşağı saxlayır və sürtünməyə böyük müqavimət göstərir.
- Günəş şüaları müəyyən müddətdən sonra onun davamlılığını azaldır (MEGEP, 2007 b: 4).

Tikiş ipliyi: Tikiş ipi süni və ya sadəcə təbii materiallardan və ya hər ikisinin birləşməsindən hazırlana bilər. İstənilən keyfiyyətlərə uyğun olaraq, lazımi sayda təbəqə ilə bükülür və top, rulon, çarx və s. Bu ipliklər toxuculuqları birləşdirmək üçün istifadə olunur və sarma texnikası ilə sarılır.

Rezinlər:Elastik dedikdə nazik rezin və ya rezin tərkibli zolaq nəzərdə tutulur.O, müxtəlif yerlərdə istifadə olunmaqla alt paltarlarının bədənə tam uyğun olmasına kömək edir. Daha çox aşağı alt paltar mallarının bel bölgələrində istifadə olunur. Rezin üst alt paltarlarında daha geniş tətbiqlərdə istifadə olunur. Məsələn, döş altı kəsikli körpə kuklası və idman kostyumunun qolları bunlardan ikisidir(tdk.gov.tr (22.02.2012))(Şəkil 9).

**Şəkil 9:Rezin ipi**



Mənbə:https://decobay.by/katalog/shveynaya-furnitura/rezinka-dlya-odejdyi/rezinka-dekorativnaa/rezinka-metallizirovannaya-4-sm-belyjserebro.html

**Nəticə**

Biz qeyd edə bilərik ki,əvvəlki illərə nəzərən alt geyim məmulatları müasir texnologiyaların inkişafı ilə daha da irəliləmişdir və iqtisadiyyata öz tövhəsini vermişdir. Bu, alt paltarın insan tələblərinə cavab olaraq necə inkişaf etdiyini nümayiş etdirir. İstehlakçıların tələblərinə uyğun olaraq, alt paltarları indiki

dövrdə daha çox inkişaf etmişdir. Yaradılan faktiki əşyalara əlavə olaraq insanların istifadəsini asanlaşdıran və ya daha praktik hala gətirən aksessuarlar bugünkü iqtisadiyyatda bir neçə kiçik və böyük biznesin böyüməsinə töhfə verib. Alt paltarlarının kütləvi istehsalında istifadə ediləcək ölçülər; Bu geyimlər bədəni əhatə etmək və artıq materialdan istifadə etmədən ona forma vermək məqsədi daşıdığından daha incə olmalıdır.Alt paltarı istehsalçılarının diqqəti cəlb etmək üçün istifadə etdiyi başqa bir taktika, istehlakçılara ən müasir məhsulların təqdim edilməsidir. Alt paltarı istehsalçılarının istifadə etdiyi digər marketinq taktikası müştərilərin diqqətini onlara ən müasir mallarla təmin etməkdir. İstehlakçının brendə olan marağı məhsulların bir çox xüsusiyyətləri nəticəsində yüksələcək, bu da onun rəqiblərindən fərqlənməsinə və rəqabətdən öndə qalmasına kömək edəcək. Müştəri istəklərindən xəbərdar olan və buna uyğun istehsal edən şirkətlər investisiyalarını artırdıqca məhsul təkliflərini də diversifikasiya etməlidirlər. Strateji brend idarəetmə komponenti olaraq, bu vəziyyətdə olan brend ya digər markaları əldə etməklə, ya da yeni məhsul kateqoriyalarını inkişaf etdirməklə müştərini tamamilə cəlb edə bilməlidir.Məhsullar üzərində araşdırılmalar aparılmalı və istehlakçıların tələbləri nəzərə alınmalıdır.Yuxarıda aparılan tədqiqatlara nəzərən müxtəlif araşdırılmalar aparıla və istehsal xarakterli məmulatlar toplana bilər.İstehsalçılar alt trikotaj məmulatlarının çeşidlərinin öyrənilməsində və onların istifadə yönümlərində istehlakçılara çatdırılmasınıda öz töhvələrini verə bilərlər.Gələcəkdə, dəyişək trikotaj məmulatlarının istehlakçıların tələblərinin qarşılanması,istehlakçıların tələblərinə uyğun olaraq keyfiyyətin qiymətləndirilməsi mövzularında araşdırılmalar aparmaq olar(Aydın və İlerolu, 2006, s. 68)..

**Ədəbiyyatlar**


Gökkaya, A. (2008). Qadın Alt paltarlarının istehsalı ilə hazır geyim müəssisələrində istifadə olunan keyfiyyətə nəzarət parametrləri və istehsal prosesində keyfiyyətə nəzarət. Magistrlik dissertasiyası.

Konya: Səlcuq Universiteti. Sosial Elmlər İnstitutu. Güdül, Z. və Karakulah, G. (1991). Geyim1-2-3. Ankara: Milli Təhsil mətbəəsi.

Xidmətlər. Karafakioğlu, M. (2000) Beynəlxalq Marketinq Menecmenti. İstanbul: Beta Press. Keller, K.L. (2003). Strateji Brend İdarəetmə, Yaradılma, Ölçmə və Gözlənilən Məhsul Keyfiyyəti.

İstehlak Araşdırmaları Jurnalı, Cild. 16, 53, ABŞ: Chicago Universiteti Press.

Həsənov Ə.P., Osmanov T.R., Həsənov N.N. və b. “İstehlak mallarının ekspertizasının nəzəri əsasları”.Bakı, İqtisadiyyat universitetinin nəşriyyatı, 2003

Yakartepe, M. və Yakartepe Z. (1993). Tekstil və Geyim Ensiklopediyası. İstanbul: T.K.A.M. Yayım.

Bağcı, S. (2009). Qadın Alt Geyimi Məhsullarının Ölçülərinin Müəyyənləşdirilməsi üzrə Tədqiqat.

Sezar H., Bilgin F. və Kayaoğlu A. (2003). Hazır geyim istehsalı. (4-cü nəşr). Ankara: Qazi Kitabevi.

Salmanov S.A., Həsənov Ə.P. Trikotaj malları. 2-ci hissə, Bakı, 1974

BAYSAL, Müjgan. (1995). "Hazır geyim müəssisələrində naxış və məhsul ölçülərinin müqayisəsi." Ankara: Magistrlik dissertasiyası, Qazi Universiteti Sosial Elmlər İnstitutu

CİHANGİR, Ərbil. (2002) Hazır geyimdə ölçülər. İstanbul: İstanbul Tekstil və Hazır Geyim İhracatçıları Birliyi Təhsil Şöbəsi Nümunə və Kolleksiya Hazırlama Birliyi Yayınları. Texniki Təlimatlar Seriyası Nəşr №:2002/1

MEGEP ( Mesleki Eğitim ve Öğretiminin Güçlendirme Projesi ). ( 2007 ). Atlet Kalıpları. Milli Eğitim Bakanlı Yayınları, Ankara

Yakartepe, M. və Yakartepe Z. (1995). Geyim Texnologiyası. İstanbul: T.K.A.M. Yayım.

**İnteraktiv Qarşılıqlı Əlaqə: Süni İntellekt və Brendlərlə Emosional Əlaqə**

Bu günün sürətli rəqəmsal dünyasında istehlakçılar brendlərin 24/7 mövcud olmasını və real vaxtda ehtiyaclarına cavab verməsini gözləyirlər. Süni intellekt (AI) ilə təchiz edilmiş interaktiv agentlər bu gözləntiləri qarşılamaq və marka sevgisini artırmaq üçün əsas vasitə kimi ortaya çıxmışdır. Bu yazıda biz interaktiv agentlərin brend sevgisini artırmaq və rəqabət üstünlüyü yaratmaq üçün necə istifadə oluna biləcəyini araşdıracağıq. Müştərinin satın alma niyyəti müştərinin son qərarına təsir etdiyi üçün marketinqin idarə edilməsində əsas məsələdir. Burada əsas məqsəd müştərinin yalnız xidmətlərdən istifadə etməsi deyil, nəticədə məhsul və ya xidmət almaq prosesində müştərinin satınalma səyahətini yaxşılaşdırmaqdır. Süni intellektdən istifadə etməklə bir sıra marketinq innovasiyalarının hazırlanmasının vacibliyi araşdırılmış, nəticədə süni intellektin istifadəçini satın alma niyyəti ilə bağlı əmin etmək üçün chatbot və ya canlı söhbət əlaqəsini işə salmaq üçün istifadə oluna biləcəyini müəyyən etmişdirlər (Bacik, Kakalejcik və Gavurova, 2017).

Dəbdəbəli pərakəndə satış kontekstində chatbot xidmətlərinin müştəri məmnuniyyətinə təsirini araşdırılmış və e-xidmət agentləri müştərilərlə tam ünsiyyət qurmasa belə, rəqəmsal xidmətə yardım vasitələrinin müsbət müştəri münasibətləri qurmağa kömək edə biləcəkləri müəyyənləşdirilmişdir. Buna görə də, chatbotlar müştəri-xidmət agenti ünsiyyətinin əvəzi kimi istifadə oluna bilər ki, bu da beş keyfiyyət ölçüsünə (qarşılıqlı əlaqə, əyləncə, trend, fərdiləşdirmə və problemlərin həlli) əsaslanan dəqiq ünsiyyət vasitəsilə satış hədəfinə nail olmağa kömək edəcəkdir (Chung, Ko, Joung və Kim, 2020). Insider-Trends (2017) göstərir ki, satış nümayəndələri hələ də mağazadaxili satınalma qərarlarının 87%-nə təsir edir və alış zamanı tanış satıcılar çox vacibdir (Insider-Trends, 2017). Buna görə də, söhbət agenti ilə söhbət edən müştərilərin rəsmi vebsaytda gəzərkən chatbot söhbətindən faydalanmasının satışlarda müsbət təsirə malik olacağı gözlənilə bilər.

Süni intellektin bu vasitəsi həm də bəzi mənfi halları ilə də bilinməkdədir. Brend sevgisini artırmaq üçün interaktiv agentlərdən istifadənin problemlərindən biri avtomatlaşdırma ilə insanların qarşılıqlı əlaqəsini balanslaşdırmaq ehtiyacıdır. İnteraktiv agentlər sürətli və səmərəli dəstək təmin edə bilsələr də, onlar həmişə insan nümayəndəsinin təklif edə biləcəyi emosional əlaqə və empatiya səviyyəsini təmin edə bilməzlər. Brendlər müştərilərin eşitdiklərini və dəyərli olduqlarını hiss etmələrini təmin etmək üçün avtomatlaşdırma və insanların qarşılıqlı əlaqəsi arasında düzgün tarazlığı tapmalıdırlar.

Nəticə olaraq, interaktiv agentlər brend sevgisini artırmaq və bugünkü rəqəmsal bazarda rəqabət üstünlüyü yaratmaq üçün güclü vasitədir. Fərdi və cəlbedici təcrübələr, vaxtında və müvafiq dəstək, müştərilərlə emosional əlaqələr kimi xüsusi üstünlüklər təmin etməklə brendlər müştəriləri ilə daha güclü əlaqələr qura və onların markaya olan sədaqətini artıra bilər. İnteraktiv agentlərdən istifadə ilə bağlı çətinliklər olsa da, onları diqqətli planlaşdırma ilə aradan qaldırmaq olar.

**Elektron Brend Təcrübəsi**

Brend təcrübəsi idrak, emosiya, sensor və davranışa əsaslanan reaksiyalar ilə nəticələnən insanlar, obyektlər, proseslər və ətraf-mühitlərlə bir sıra qarşılıqlı əlaqələri əhatə edir (Trivedi 2019). Araşdırmaların əksəriyyətində süni intellektlə marketinq səylərinin müştəri-brend münasibətlərinə təsir göstərdiyi irəli sürülməkdədir (Nguyen, Quach və Thaichion, 2021). Oxşar araşdırmalardan birində aşkar edilmişdir ki, süni intellekt istifadəçilərə vaxtında, dəqiq və uyğun məlumat verə bildiyi zaman, onlar texnologiyadan daha çox istifadə etməyə meyilli olurlar (Trivedi, 2019). Digər bir araşdırma süni intellekt fəaliyyətinin chatbot kommunikasiya keyfiyyətinə birbaşa təsir etdiyini, bunun da müştəri-brend münasibətinə müsbət təsir göstərdiyini və müştərilərin müsbət reaksiyalarına səbəb olduğunu göstərir (Cheng və Jiang, 2021).

Müasir dövrdə, e-ticarətin sürətli inkişafı ilə əlaqədar olaraq, alqoritm tövsiyələrinin istifadəsi e-ticarətdə bütün satın alınan məhsullar üçün müştərilər arasında həm baxışları, həm geri dönüşüm nisbətini, həmçinin dəyərləndirmə reytinqlərini artırır. Bu kontekstdə, onlayn məkanda müştərilərin etibar etdiyi e-brendlər müxtəlif marka seçimlərində onların işlərini asanlaşdırdı, elektron alış-veriş isə müştəri məmnuniyyətini əhəmiyyətli dərəcədə artırdı. E-biznes və e-brendlər müştəriyə onların tələblərini sürətli ödəməkdə kömək edir, xidmətlərin keyfiyyətini və müştərilərin loyallığını artırır. Bu vəziyyətdə, alqoritm tövsiyəsi ortaya çıxdı və e-brendlər arasında istifadəsi genişlənmişdir.

İnternetdə verilənlər bazasının (Big Data) sürətlə böyüməsi və mürəkkəbliyi məlumat partlayışının fəsadlarının yaranmasına səbəb olmuşdur. Beləliklə, alqoritm tövsiyə prosesi hər bir istifadəçi və fərd və ya müştəriyə düzgün e-brendləri seçmək üçün vacib bir texnikadır. Alqoritm təklifləri müştərilərin seçmə/axtarış davranış modelinə əsasən müştəri fayllarını çərçivəyə sala bilir. Diversifikasiya edilmiş məlumatlar müştərinin seçim yanaşmalarına tam uyğun tövsiyə edə bilən seçimlər təklif edir (Araibi və başqaları, 2016). Elektron brendlər şirkətlərə satışları artırmaq, müştəri təcrübəsinin yüksək səviyyədə təşkil edilməsi və brend sadiqliyinə nail olmaq üçün alqoritm tövsiyələrindən istifadə etməyə kömək edir. Alqoritm tövsiyəsinin köməyi ilə neyron şəbəkə e-brendlər üçün brendin təşviqi modelinə kömək edir. Gələcək tədqiqat istiqamətləri brendlərin qəbul edilən dəyərini və qəbul edilən keyfiyyətini ölçmək üçün müxtəlif e-brendlər üzrə istehlakçı reytinqlərini ölçən alqoritmlərin inkişafı və istifadəsi yönündədir. Aşağıdakı cədvəldə e-brend təcrübəsinin mərhələli izahı qeyd olunmuşdur.

**Cədvəl 2: E-brend təcrübəsinin ümumiləşdirilməsi.**

| E-Brend Elementi | Təsvir |
|---|---|
| Veb saytın dizaynı | Veb saytınızın dizaynı, rəng sxemi və naviqasiyası daxil olmaqla vizual cəlbediciliyi və istifadəçi dostu olması. |
| Məzmun strategiyası | Sosial media, e-poçt marketinqi və blog yazıları kimi bütün rəqəmsal kanallarda məzmunun yaradılması və yayılması üçün |

| | |
|---|---|
| | vahid strategiyanın inkişafı. |
| Axtarış motoru optimizasyasi (SEO) | Veb saytınızı və məzmununuzu axtarış motoru nəticələri səhifələrində daha yüksək yer tutmaq üçün optimallaşdırmaq təcrübəsi, saytınıza trafiki artıra bilər. |
| Analitika və ölçüm | Veb sayt trafiki, dönüşüm nisbətləri və müştəri cəlbi kimi ölçülər daxil olmaqla, e-brend təcrübənizin effektivliyini izləmək və ölçmək üçün analitik alətlərdən istifadə. |

**Mənbə**: Müəllif tərəfindən ChatGPT-nin köməyi ilə hazırlanan məlumat.

### Brendləşmə üçün Süni İntellektlə Dəstəklənən Məzmun Strategiyaları

Bir çox tədqiqatlar ağıllı məzmun marketinqi və bunu mümkün edən veb texnologiyalarına (Kose və Sert, 2017; Kose & Sert, 2016) və bu cür irəliləyişlərin korporativ/marketinq kommunikasiyaları kimi kommunikasiya axınlarına təsiri (Əhməd, 2018) üzərində cəmlənmişdir. Axtarış motoru optimizasiyası məsələlərinin həlledici mövqedə olması məzmun idarəedilməsini ən kritik və effektiv marketinq vasitələrindən birinə çevirmişdir. Xüsusilə məzmunun yaradılması və redaktəsi süni intellektlə işləyən marketinq üsullarının qəbulundan əhəmiyyətli dərəcədə təsirlənmişdir (Kose & Sert, 2017; Kose & Sert, 2016). Demək olar ki, bütün informasiya istehlakı mühitlərində getdikcə daha çox məzmun yaradıldıqca məzmunun fərdiləşdirilməsinə artan ehtiyac yaranmışdır (Ahmad, 2018).

Əslində, məzmun marketinqi müxtəlif mərhələləri özündə birləşdirən böyük bir proses hesab edilə bilər. Ətraflı detalları nəzərə almasaq, məzmun marketinqində üç əsas mərhələni nəzərdən keçirmək olar: hazırlıq, həyata keçirmə və yoxlama. Beləliklə, süni intellekt bu mərhələlərin hər hansı birində uyğun yanaşma, metod və texnika seçərək istifadə edilə bilər (Kose & Sert, 2016).

Məzmun marketinqi üçün qeyd etdiyimiz mərhələləri nəzərə alsaq, şirkətin məzmun marketinqində hər şeyi daha yaxşı etmək üçün süni intellektin hansı problem həll yollarından istifadə oluna biləcəyini müəyyən etmək mümkündür. Bunlardan bəzilərinə proqnozlaşdırma, optimallaşdırma, ekspert dəstəyi, adaptiv rəhbərlik (müştərilər/istifadəçilər üçün) və səhvlərin aradan qaldırılması (marketinq prosesində aşkar edilən) daxildir. Sözügedən hallər/əməliyyatlarla bağlı bəzi məşhur süni intellekt üsulları süni neyron şəbəkələri, qeyri-səlis məntiq, genetik alqoritmlər, sürü zəkasına əsaslanan alqoritmlər və maşın öyrənmə üsullarıdır (Kose & Sert, 2016).

### Süni İntellekt ilə Müştəri Davranışlarının Ölçülməsi

Süni intellekt müxtəlif üsullar ilə müştəri davranışlarını təhlil edərək onları tanımağa və marka tanınmışlığını ölçməyə geniş imkanlar təmin edir. Bu imkanlar müştərilərin seqmentləşdirilməsi, sentiment analizinin aparılması, keçmiş müştəri məlumatlarına əsaslanan gələcək müştəri

davranışlarının müəyyənləşdirilməsi kimi fərqli təhlilləri özündə birləşdirir. Bu üsullardan ən təsirlisi brendin təhlilində effektiv nəticələr ortaya qoyan semantik brend dərəcəsidir. Brend təhlili şirkətlər üçün öz brendləri haqqında məlumat toplamaq və araşdırmaq üçün bir üsuldur. Buraya brendlə bağlı yaxşı və pis cəhətləri, eləcə də mövcud imkanları və təhlükələri başa düşmək məsələləri daxildir. Bu məlumat brendi necə təkmilləşdirmək barədə daha yaxşı qərarlar qəbul etməklə yanaşı, müştərilərin və bazarın brendə necə baxdığını anlamaq üçün istifadə olunur. Brend təhlilinin məqsədi markanın reputasiyası və onun digər markalarla müqayisədə necə qəbul edildiyi barədə məlumat verməkdir. Bu məlumat şirkətlərə brendlərini necə yerləşdirməyə, məhsul və ya xidmətlərini necə bazara çıxarmağa və müştərilərlə necə əlaqə qurmağa qərar verməyə kömək edə bilər. Şirkətlər bu məlumatları sorğular, müştəri rəyləri və brend haqqında onlayn söhbətləri təhlil etmək kimi müxtəlif üsullarla toplaya bilərlər.

Semantik brend dərəcəsi təbii dil emalı və semantik analiz üsulları əsasında brendin istehlakçılar tərəfindən ümumi tanınma dərəcəsini ölçən metrikdir. Bu ölçülər müştəri rəyləri, sosial media yazıları, press relizlər və digər onlayn məzmun da daxil olmaqla müxtəlif mənbələrdən brendlə bağlı çoxlu məlumatların təhlili ilə yaradılır.

Semantik brend dərəcəsi anlayışı ilk dəfə 2000-ci illərin əvvəllərində marketinq və brendin idarə edilməsi ədəbiyyatında təqdim edilib və o vaxtdan təşkilatlar üçün brend performansını izləmək və brend strategiyası haqqında məlumat əsasında qərarlar qəbul etmək üçün geniş istifadə olunan alətə çevrilib.

Bir çox tədqiqatlar göstərir ki, semantik brend dərəcəsi brendin imicinə və reputasiyasına, rəqiblərlə müqayisədə bazardakı mövqeyinə və müştərilərin brendin məhsul və ya xidmətlərini necə qəbul etdiyinə dair dəyərli fikirlər verə bilər. O, həmçinin təkmilləşdirilməli sahələri müəyyən etmək və markanın yerləşdirilməsi, marketinq strategiyaları, məhsulun inkişafı və müştəri cəlbetmə təşəbbüsləri barədə məlumat vermək üçün istifadə edilə bilər (Grier və Deshpande, 2008; Lee və Park, 2010).

Semantik brend dərəcəsinin əsas üstünlüklərindən biri odur ki, o, böyük həcmdə məlumatlara əsaslanır və ənənəvi brend tədqiqat metodları ilə müqayisədə brendin imicini və reputasiyasını daha dəqiq və əhatəli şəkildə təqdim edir (Lee və Park, 2010). Bundan əlavə, semantik brend reytinqi real vaxt rejimində yenilənə bilər və təşkilatlara öz brendlərinin performansı və müştəri əhval-ruhiyyəsi haqqında ən son məlumat verir (Grier və Deshpande, 2008).

Nəticə etibarilə, süni intellekt vasitələsindən biri olan semantik brend dərəcəsinin ölçülməsi təşkilatlar üçün öz brendlərinin reputasiyası, bazar mövqeyi və müştəri təəsüratları ilə bağlı fikirlər əldə etmək və brend strategiyası haqqında məlumat əsasında qərarlar qəbul etmək üçün faydalı vasitədir.

**Nəticələr**

Araşdırmada süni intellekt vasitələrinin köməyi ilə markanın idarəedilməsi prosesində təsirli nəticələrin əldə edilməsi üçün lazım olan təşkilati bacarıqlar təhlil edilmişdir. Ümumi olaraq ədəbiyyatda əsasən "Researchgate" portalına daxil olan jurnallarda dərc edilmiş məqalələrin nəticələri araşdırılmışdır və bu nəticələrin əlaqələndirilməsi ilə markalaşmanın süni intellekt ilə inteqrasiyasının konseptləşdirilmiş həlləri təqdim edilmişdir. Müasir texnologiyaların istifadəsi nəticəsində verilənlər bazasının genişlənməsi ilə statistikalara bağlı strategiyaların ortaya çıxarılmasına yardımcı olacaq alətlər, müştəri davranışlarının ölçülməsində süni intellekt alətləri, məzmun yaradıcılığında süni intellektin rolu, sosial mediada markalaşma strategiyaları, neyron brendinq təcrübəsi kimi mövzular əhatə olunaraq konseptləşdirilmiş nəticələr əldə edilmişdir. Araşdırma nəticəsində süni intellektin brendinq proseslərinin sürətləndirilməsinə gətirib çıxarması və bu alətlərdən istifadənin artıq rəqabət yaradan olmaqdan çıxaraq daha çox bazarda qalmaq üçün şərtlərdən birinə çevrilmiş olmasının səbəbləri təqdim edilmişdir.

**Ədəbiyyatlar**


Ahmad M., Korporativ marketinq kommunikasiyası daxilində süni intellekt üçün böyük verilənlərin emalı çərçivəsinin təsiri, 2018, Engineering & Technology Beynəlxalq Jurnalı 7(4.34):384 DOI:10.14419/ijet.v7i4.34.26879

Bacik, R., Kakalejcik, L., & Gavurova, B. (2017). Satınalma prosesində smartfon davranışına əsaslanan alış-veriş təcrübəsinin yeniliyi, Resurs sənədi, 2020, https://essuir.sumdu.edu.ua/bitstream/123456789/66193/1/Bacik.pdf.

Barišić P., Nanić A., Vrkljan S., UGC və FGC turizm istiqamətlərinin idarə edilməsi üçün yeni problemlər kimi, Fənlərarası İdarəetmə Tədqiqatı XIV, 2019 https://www.researchgate.net/publication/338557671_UGC_AND_FGC_AS_THE_NEW_CHALLENGES_FOR_TOURIST_DESTINATION_MANAGEMENT

Cheng, Y., and Jiang, H. (2021). Customer–brand relationship in the era of artifcial intelligence: understanding the role of chatbot marketing eforts. The Journal of Product & Brand Management, aheadof-print (ahead-of-print).

Chu, S.-C. and Kim, Y. (2011), "Sosial şəbəkələrdə elektron ağızdan-ağıza (eWOM) istehlakçıların cəlb edilməsinin müəyyənediciləri", International Journal of Advertising, Vol. 30 No. 1, ss. 47-75.

Chung, M., Ko, E., Joung, H., & Kim, S. J. (2020). Chatbot e-xidməti və lüks brendlərlə bağlı müştəri məmnuniyyəti. Journal of Business Research, 117, 587–595. https://doi.org/10.1016/j.jbusres.2018.10.004

Culotta, A., & Cutler, J. (2016). Twitter sosial şəbəkələrindən mədən brendi qavrayışları. Marketing Science, 35(3), 343–362. doi:10.1287/mksc.2015.0968

Insider-Trends. (2017). 2017-ci ildə pərakəndə satış meylləri: fiziki pərakəndə satış, 2020, http://www.insider-trends.com/retail-trends-factfile-2017-physical-retail/

Campbell, C., Sands, S., Ferraro, C., Tsao, H. Y. J., & Mavrommatis, A. (2020). Məlumatdan fəaliyyətə: Marketoloqlar süni intellektdən necə istifadə edə bilərlər. Business Horizons, 63(2), 227–243. doi:10.1016/j.bushor.2019.12.002

Döbel, I., Leis, M.,Vogelsang, M., Welz, J., Neustroev, D., Petzka, H., . . . Wegele, M. (2018). Maschinelles Lernen. Eine Analyse zu Kompetenzen, Forschung und Anwendung. München: Fraunhofer-Gesellschaft.

Dörn, S. (2018). Programmieren für Ingenieure und Naturwissenschaftler. Intelligente Algorithmen und digitale Technologien. Berlin: Springer Vieweg.

Goh, K. Y., Heng, C. S., & Lin, Z. (2013). Sosial media brendi icması və istehlakçı davranışı: İstifadəçi və marketoloq tərəfindən yaradılan məzmunun nisbi təsirinin kəmiyyətinin müəyyən edilməsi. Information Systems Research, 24(1), 88–107.

Grier, S., & Deshpande, R. (2008). Brand reputation in the new medi environment. Marketing Science, 27(6), 1075-1086.

İvanova M., An analysis of brand interdependencies using artificial neural networks, Analele ştiinţifice ale Universităţii "Al. I. Cuza" din Iaşi. Secţiunea IIIc, Ştiinţe economice (1976) 55:183-189, 2008.

Keller, K. L. (2020). Brend kapitalı yaratmaq üçün ikinci dərəcəli assosiasiyalardan istifadə: nəzəri perspektivlər və praktik tətbiqlər. International Journal of Advertising, 39(4), 448–465. DOI:10.1080/02650487.2019.1710973

Keren B., UGC vs FGC, 2019 https://redmediauk.com/ugc-vs-fgc/

Kose U., Sert S., Süni intellektlə yanaşmalarla məzmun marketinqi proseslərinin təkmilləşdirilməsi, Ecoforum 6(1) (2017) https://www.researchgate.net/publication/313037410_Improving_Content_Marketing_Processes_with_the_Approaches_by_Artificial_Intelligence

Kose U., Sert S., Süni intellektlə intellektual məzmun marketinqi (2016) Conference: International Conference of Scientific Cooperation for Future https://www.researchgate.net/publication/308520444_Intelligent_Content_Marketing_with_Artificial_Intelligence

Kuksov, D., Shachar, R., & Wang, K. (2013). Reklam və istehlakçıların ünsiyyəti. Marketing Science, 32(2), 294–309.

Luo, X., & Zhang, J. (2013). Sosial media marketinqində istehlakçı səs-küyü və trafik firmanın dəyərini necə proqnozlaşdırır? Journal of Management Information Systems, 30(2), 213–238.

Lee, K., & Park, D. H. (2010). Onlayn brend imic təhlilinə semantik yanaşma, Expert Systems with Applications, 37(10), 7276-7281.

Lipsman, A., Mudd, G., Rich, M. and Bruich, S. (2012), “"Bəyənmə"nin gücü. Brendlərin sosial media marketinqi vasitəsilə pərəstişkarlarına necə çatması (və təsir etməsi).”, Journal of Advertising Research, Vol. 52 No. 1, pp. 40-52.

Nguyen, T., S. Quach, and P. Thaichon. 2021. AI keyfiyyətinin müştəri təcrübəsinə və marka münasibətlərinə təsiri. Journal of Consumer Behavior. https://doi.org/10.1002/cb.1974.

Qiu, L., Tang, Q., & Whinston, A. B. (2015). Sosial mediada müvəffəqiyyət üçün iki düstur: Öyrənmə və şəbəkə effektləri. Journal of Management Information Systems, 32(4), 78–108.

Rebala, G., Ravi, A., & Churiwala, S. (2019). An Introduction to Machine Learning. Cham: Springer.

Trommsdorff, V. (1975). Die Messung von Produktimages für das Marketing. Grundlagen und Operationalisierung. Köln: Heymanns.

Trivedi, J. 2019. Examining the customer experience of using banking chatbots and its impact on brand love: The moderating role of perceived risk. Journal of Internet Commerce 18 (1): 91–111.

Tsimonis G., Dimitriadis S., Sosial Mediada Marka Strategiyaları, Marketing Intelligence & Planning 32(3):328 – 344, Aprel 2014, DOI:10.1108/MIP-04-2013-0056

# Pambıq Parçaların Çeşid Quruluşunun Təhlili

**Ülviyyə Səfərli**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**ulviye.seferli98@gmail.com**

## Xülasə

Pambıq toxuculuq sənayesinin mühüm xammalıdır. Xüsusilə pambıq paltarlar təbii liflər daşıdığı üçün insan həyatında mühüm yer tutur. 2018/2019-cu il mövsümündə dünyada lifli pambıq istehsalının ümumi həcmi 25,69 milyon ton olub. Dünyanın aparıcı lifli pambıq istehsal edən ölkələri Çin, Hindistan, ABŞ, Pakistan, Özbəkistan, Türkiyə və Tacikistandır. Ölkəmiz pambıq istehsalında hər il uğurlu inkişaf yolu qət edir. Bu sahhədə yüksək keyfiyyətli və təkmilləşdirilmiş texnoloji avadanlıqların istehsalatda öz yerini tutması pambıq istehsalının həcminin artırılmasına öz töhfəsini verir. Pambıq ölkəmizin kənd təsərrüfatında böyük əhəmiyyət kəsb edən məhsuldur. Azərbaycan Respublikasında 2021-ci ildə təxminən 33919 min kv.metr pambıq parça istehsal olunur. İstehlak bazarına daxil olan pambıq parçalar əsasən dörd yarımqrupa bölünür:

a) Mövsümi yarımqrupu
b) Yay yarımqrupu
c) Qış yarımqrupu
d) Tərkibində süni sap olan parçalar yarımqrupu

Toxuculuq sektorunda istehlakın həcmindən asılı olaraq hər il pambıq ölkəmizin istehlak bazarına xaricdən də pambıq parça idxal edilir. Toxuculuq sektorunda istehlak edilən pambıq yüksək əlavə dəyərə malik son məhsul olan tikiş məhsullarına çevrilir. Məlumdur ki, yerli istehsalatda pambıq parçaların istehsal həcminin və keyfiyyətinin artırılması iqtisadı cəhətdən ölkəmiz üçün daha münasibdir. İnnovasiya fəaliyyətləri, moda meylləri və insanların istehlak vərdişlərindəki dəyişikliklər tekstil məhsullarına tələbatı günü-gündən artırır. Toxuculuq sənayesinin ən mühüm xammalı pambıq lifi olduğu üçün bu lifin dəyəri və əhəmiyyəti günü-gündən artır. Qarşıdakı dövrdə pambıq lifinin istehsal gücünü artırmaq və son məhsula çevrilmə mərhələsində istehsal olunan liflərin əlavə dəyərini artırmaq lazımdır. Bu araşdırmanın əsas məqsədi dünyada və Azərbaycanda tekstil sahəsinin ən mühüm xammalı olan pambıq lifi istehsalının mövcud vəziyyətini və əhəmiyyətini göstərmək və bu mövzuda aparılacaq araşdırmalara istiqamət verməkdir.

**Açar sözlər:** pambıq, çeşid, keyfiyyət, istehsalat

## Summary

Cotton is an important raw material of the textile industry. Especially cotton clothes have an important place in human life because they carry natural fibers. In the 2018/2019 season, the total volume of fiber cotton production in the world was 25.69 million tons. The world's leading fiber cotton producing countries are China, India, USA, Pakistan, Uzbekistan, Turkey and Tajikistan. Every year, our country takes a successful path of development in cotton production. The use of high-quality and improved technological equipment in this field contributes to increasing the volume of cotton production. Cotton is a product of great importance in the agriculture of our country. In 2021, approximately 33,919 thousand square meters of cotton fabric will be produced in the Republic of Azerbaijan. Cotton fabrics entering the consumer market are mainly divided into four subgroups:

a) Seasonal subgroup

b) Spring subgroup

c) Winter subgroup

d) A subgroup of fabrics containing artificial threads

Every year, depending on the volume of consumption in the textile sector, cotton fabric is imported from abroad to the consumer market of our country. Cotton consumed in the textile sector is converted into garment products, a high value-

added end product. It is known that increasing the production volume and quality of cotton fabrics in local production is economically more suitable for our country. Innovation activities, fashion trends and changes in people's consumption habits are increasing the demand for textile products day by day. As cotton fiber is the most important raw material of the textile industry, the value and importance of this fiber is increasing day by day. In the coming period, it is necessary to increase the production capacity of cotton fiber and to increase the added value of the fibers produced in the stage of conversion to the final product. The main purpose of this study is to show the current situation and importance of the production of cotton fiber, which is the most important raw material of the textile field in the world and in Azerbaijan, and to guide the research to be conducted on this topic.

**Keywords:** cotton, variety, quality, production

## Giriş

Mövzunun aktuallığı: Respublikamızda pambıq istehsalının artırılması ilə bağlı tədbirlər hər il daha da genişləndirilir. Bir çox şəkildə istifadə edilən ən məşhur parça olan pambıq parça təbii lifdən ibarətdir. Pambıqdan hazırlanan tekstil mallarının keyfiyyətinin artırılması istiqamətində görülən tədbirlər çox əhəmiyyətli hesab edilməlidir. Həmçinin pambıq parçaların çeşid müxtəlifliyinin araşdırılması istehsalat üçün vacib xarakter daşıyır. Müasir dövrümüzdə mövzunun aktuallığına toxuculuq sənayesində diqqət yetirilməlidir. Pambıq parçanın çeşid quruluşunun araşdırılması yeni geyim modellərinin, istehsal sahələrinin yaranmasına şərait yaradır. Bu səbəbdən indiki dövrümüzdə də mövzu aktuallığını itirmir.

Tədqiqat məqsədi: Pambıq parçalarınn çeşidinin analizinin aparılmasındakı əsas məqsədi, istehsalatda keyfiyyəti artırmaq və geyim istehsalında mövsüminə uyğun parça çeşidlərinin seçilməsini təmin edilməsidir. Çeşid quruluşu tədqiq olunarkən hər bir parçanın əsas xüsusiyyətləti, fərqlilikləri, oxşar əlamətləri geniş şəkildə analiz edilir.

Tədqiqatın vəzifəsi: Bu tədqiqat vəzifəsi, pambıq parça çeşidlərinin geniş istehsal sahəsinə sahib olduğunu araşdırmaq, müxtəlif mövsümlərə uyğun parça çeşidlərinin xüsusiyyətlərini təhlil etməkdir. Parça çeşidinin hansı sahələrdə, hansı mövsümi geyim istehsalında tətbiq olunmasını müəyyən etmək tədqiqatın vəzifəsi hesab oluna bilər. Müxtəlif çeşid parçaların dartınma, yuyulma, möhkəmlik, gigiyeniklik və sair digər özəllikləri tədqiq edilmişdir.

Tədqiqatın metodologiyası: Bu tədqiqat zamanı müxtəlif metodlardan istifadə edilmişdir. Pambıq parşa çeşidlərində ipliyin xarakterinin təyini üçün 5 metod vasitəsilə laboratoriya analizi aparılmışdır. Bu metodlara mikroskop vasitəsilə, yanma, quru ditillasiyasiya; kimyəvi üsulla həllolma və boyama üsulu daxildir. Pambıq lifləri qədim zamanlardan istifadə edilmişdir. Pambıq, pambıq bitkisinin toxumlarını əhatə edən uzun, lifli tüklərin bükülməsi nəticəsində əmələ gəlir. Bu liflər uzunluğu və qalınlığı ilə fərqlənir. Pambıq parçanın davamlılığı, sıxlığı, keyfiyyətinə verilən tələblər laboratoriya şəraitində təyin olunmuşdur. Laboratoriya analizləri zamanı müxtəlif cihaz və qurğulardan istifadə edilmişdir.

Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın məhdudiyyətinin əsas səbəbi ondan ibarətdir ki, keçirilən araşdırmalar laboratoriya şəraitində aparılır. Təcrübi istismar üsulunun tədqiqat zamanı aparıla bilməməsi məhdudiyyət təşkil edir. Çünki dəqiq keyfiyyət göstəricilərin təyin edilməsində, keyfiyyətinin uzunömürlülüyünün təyinində uzun müddət lazımdır. Həmçinin, daha keyfiyyətli cihazlarla araşdırılma aparılmasına yüksək vəsait tələb olunur. Tədqiqatların geniş spektrda aparılması daha dəqiq nəticələrin alınmasına şərait yaradır.

İstinad olunan mənbələr: "Pambıq parçaların çeşid quruluşunun təhlili" mövzusunda istinad olunan mənbələrə aiddir: müxtəlif akademik araşdırmalar, laboratoriya nəticələri, bu sahədə geniş tədqiqatlar aparmış mütəxəssislərin elmi məqalələri, standartlar bazası və s. Mövzuda istinad olunan bu mənbələr tədqiqatçılara araşdırmaları üçün geniş imkan yaradır. Elmi məqalələr və laboratoriya metodları effektiv mənbələr hesab olunur. Bu məbələrdə pambıq parça çeşidlərinə verilən tələblər, onun xüsusiyyətlərinin təyini metodları verilmişdir. Çeşid yarımqruplarına bölünməsi və bu parçaların təhlili analiz edilməsində istinad mənbələrindən istifadə edilmişdir. Digər istinad mənbəsi olan laboratoriya analizləri parçanın möhkəmlik, sıxlıq, sürtünmə davamiyyəti və s. kimi xüsusiyyətlərini təyin edir.

**Pambıq Lifləri və Xüsusiyyətləri**

Pambıq əsas quruluşu sellüloza olan və tekstildə son dərəcə əhəmiyyətli bir yerə malik liflərin alındığı bitkidir. Pambıq lifləri bitki toxumunun epidermisidir. Hüceyrələrinin uzanması nəticəsində əmələ gələn tək hüceyrəli liflərdir. Yetkin pambıq lifi xaricində yağlar və mumlardan ibarət olan kutikula adlanan nazik bir təbəqə var. Bu, sellülozadan ibarət olan ilkin təbəqənin bir az altında, mərkəzində yerləşir. Pambıq lifləri uzununa istiqamətdə spiral qıvrımlara malikdir. Bu strukturlar pambıq növünə görə dəyişir. Uzunluq pambıq liflərində irsi xüsusiyyətdir. Bu, müəyyən dərəcədə ətraf mühit şəraitinin təsiri ilə dəyişikliklər göstərsə də, adətən uzunluğu 1 sm ilə 6,5 sm arasındadır. Ümumiyyətlə, uzun lifli pambıqlar qısa lifli pambıqlardan daha incə olurlar. Pambıqda lif uzunluğu artdıqca incəlik də artır. Pambıq liflərinin diametri 6-25 µm arasında dəyişir. Ümumilikdə pambıq liflərinin qırılma gücü 19-45 cN/teks təşkil edir. Liflərin yetkinliyi artdıqca gücü də artır. Həm də onlar yaş halda olduqda onların müqavimət gücü 10-20% artır. Pambıq liflərində qırılma zamanı uzanma 5,6-6,8% arasındadır. Pambıqdakı təbii qıvrımlar elastikliyi artıran xüsusiyyətdir.

Pambıqdakı yumşaq liflər nazik, uzun və yüksək dərəcədə qıvrılmışdır. Yüksək qırışma xüsusiyyətinə və nəm udma qabiliyyətinə malikdir. 100% nisbi rütubətdə pambıq lifləri 25-27% su udur. Ticarətdə icazə verilən maksimum rütubət 8,5% təşkil edir. Çox parlaq olmayan liflərdir. Pambıq liflərinin parlaqlığı lif uzunluğundan asılı olaraq artır. Statik elektriklənmə problemi yoxdur. Onların intensivliyi orta hesabla 1,55 q/sm3-dir.

Pambıq lifinin kimyəvi quruluşu bitkinin böyümə şəraiti ilə müəyyən edilir. Bu zaman qismən dəyişikliklər göstərə bilər. Xam pambığın kimyəvi tərkibinin böyük hissəsini sellüloza təşkil edir. Sellüloza nisbəti 88-96% arasındadır. Bundan əlavə, kimyəvi quruluşunda digər maddələrin faizlə mqidarı isə belədir: 4-6% hemiselüloz və pektin, 1,5-5% zülal və rəngli maddələr, 1,0-1,2% qeyri-üzvi maddələr, 0,5-0,6% yağlar və mumlar var. Pambıq materiallarda yerinə yetirilən il proseslərdə digər materiallar xaric edilərək sellüloz faizi 99-a qədər çıxarılır (Baser, 1992).

Əgər pambıq daim qaynar su və buxarın təsirinə məruz qalırsa, onun fiziki quruluşunda cüzi dəyişikliyin olduğu və plastik hala gəldiyi görülə bilər. Bundan əlavə, onun isti buxara qarşı müqaviməti yundan ən azı 7 dəfə yüksəkdir. Qələvilərlə soyuq şəkildə raeksiyada olunarsa, pambıq liflərinin lümeninin sıxıldığını və lif səthinin düzləndiyini görmək olar. Nəticədə lifin gücü artır, silindr şəklini alır. O, şəffaf olur və rəngi daha parlaq olur. Sənayedə natrium hidroksidin bu təsirindən istifadə edərək pambıq və pambıq merserləşdirilir. (Harmancıoğlu və Yazıcıoğlu,1979).

Tibb sahəsində istifadə olunmaq üçün isti kimyəvi proseslərdə bütün yağ və yad maddələrdən təmizlənmiş pambıq çox sürətli və öz ağırlığının 18-20%-i qədər nəmi qəbul edə bilir. Seyreltilmiş qələvi məhlulların pambıq lifləri və onun məhsullarına heç bir təsiri yoxdur. Bundan əlavə,

ağardılmalı və rənglənəcək pambıq məhsulları seyreltilmiş qələvi məhlullarla qaynadılır və onların mumlu və yağlı maddələri əridilir.

Pambıq liflərindəki sellüloza makromolekulunu təşkil edən qlükoza komponentləri oksigen körpüləri vasitəsilə bir-birinə bağlanır. Bu oksigen körpüləri turşulara davamlı deyil. Oksigen körpüləri güclü turşuların, makromolekulların təsiri ilə qırılır və kiçik parçalara bölünür. Turşuların təsiri ilə bu şəkildə parçalanan selüloz liflərinə hidroselüloza deyilir. Parçalanma nə qədər çox olarsa, azaldıcı xüsusiyyət də bir o qədər böyük olar. Turşularla zədələnmiş pambıq liflərinin dartılma gücü və digər xassələri mənfi təsirləndiyi üçün pambıq toxuculuq məmulatlarının bitirilməsi zamanı güclü turşuların istifadəsindən çəkinmək lazımdır.

Oksidləşdirici maddələr mülayim şəraitdə sellüloza lifləri ilə müxtəlif reaksiyalar göstərir. Ancaq nəzarətsiz proseslərdə makromolekulları parçalayır və liflərə zərər verirlər. Ümumiyyətlə azaldıcı maddələrə qarşı davamlıdır. Pambıq və pambıqlı parçalar mineral duzlar və onların qaynar məhlullarından birbaşa təsirlənmir (Mangut və Karahan 2005).

Birbaşa işığın təsirinə məruz qalan pambıq məmulatları ultrabənövşəyi şüaların təsiri ilə kimyəvi dəyişikliyə məruz qalır və havada olan oksigenin köməyi ilə ilkin bağların qırılması və funksional qrupların əmələ gəlməsinə səbəb olur. Bunun nəticəsində onlar müqavimət güclərini itirirlər. (Harmancıoğlu və Yazıcıoğlu, 1979).

**Pambıq Parçanın Əsas Xüsusiyyətləri**

Pambıq lifinin hiqroskopikliyi 20 $^0$C temperatur, 65% nisbi rütubət şəraitində 8%-ə bərabərdir. Bu nəmlik pambıq parçaya xüsusi və qiymətli gigiyenik xüsusiyyətlər verir. Pambıq lifində yuxarıdakılardan başqa bir xüsusiyyət də gözə çarpır ki, o da temperatura davamlıqdır. Bu xüsusiyyətinə görə pambıqdan hazırlanan parçaları 125 $^0$C temperaturda belə qaynatmaq mümkündür. Pambıq lifinin çeşidinə (assortimentinə) tələbat günü-gündən artır. Bu da əhalinin yüksək keyfiyyətli pambıq parçalarına artan tələbindən irəli gəlir. Hazırda yüksək keyfiyyətli lifə tələbat iki qat artmışdır. Məişətdə işlədilən pambıq parçalara tələbatın əsas səbəbi onların yüksək dərəcədə möhkəmliyi, yuyulmağa, işığın təsirinə davamlılığı və s. dir. (Hümbətov və Xəlilov, 2012)

- İstiliyi bədəndən xaric edərək sərin saxlayır.
- Statik elektrik əmələ gətirmir. (Bəzi geyimləri geyinəndə və ya çıxaranda saçlarımız elektriklənir uçur. Bu hal pambıq parçalarda baş vermir)
- Boyanı yaxşı saxlayır.
- Əvvəlcədən işlənməyibsə, yuyulduqda kiçilir.
- Uzun müddət kif və günəş işığına məruz qaldıqda xarab olar.
- Yaş olduqda quru vəziyyətinə görə daha möhkəm olur.
- Asanlıqla qırışır.
- Asanlıqla çirklənməsinə baxmayaraq asanlıqla təmizlənir

Tekstil istehsalının çoxəsrlik tarixi boyunca istehsal təkmilləşdirilmiş, yeni üsullar yaradılmışdır. Bir çox ölkələrdə iqlim şəraitindən asılı olaraq geyimlər istehsal edilir. Bura həmçinin milli adət-ənənələr, kənd təsərrüfatının inkişaf səviyyəsi, parçaların istehsal üsulları, rəngləmə və tamamlama işlərinin hazırlanması da öz təsirini göstərir. Bir sıra ölkələrdə parça istehsalı o qədər mükəmməlliyə çatıb ki, həm daxili, həm də xarici bazarların ticarət obyektlərində parçalar əmtəə

kimi əsas məhsullardan birinə çevrilib. Pambıq parça geyim üçün əlverişli edən bir çox xüsusiyyətlərə malikdir. Müxtəlif iqlim şəraitində geniş istifadə olunur, çünki sərin saxlayır. Ən keyfiyyətli pambıq Misir və Dəniz Adası pambıqları kimi uzun, nazik və parlaq ipliklərdən əldə edilir. Pambıq, çəki və keyfiyyət baxımından yüngül və yumşaq toxunmuş incə parçadır. Baxımı asan və qırışmayan parçalar pambıq və sintetik iplik qarışığıdır. Pambıq parçalardan dərzilikdə, yataq örtüklərində, üzlüklərdə və s. geniş istifadə olunur.

**Parçanın İplik Xüsusiyyətlərinin Müəyyən Edilməsi**

Parçanın toxunması üçün nümunə parçanın iplik xüsusiyyətlərini müəyyən etmək vacibdir. İplik xüsusiyyətləri təyin edərkən növü, sayı, burulma istiqaməti və nömrələri nəzərə alınır. Parçaya aid məlumatları təhlil etmək üçün istifadə olunan xammalın xüsusiyyətləri müəyyən edilməlidir. Parçada istifadə olunan xammal xüsusiyyətləri parçanın istifadə sahələrini müəyyənləşdirir. Parçanın iplik xassələrini təyin etmək üçün bir neçə üsul var. Əsas üsullar bunlardır:

A) Mikroskopik üsul

Bu üsulda təbii və ya sintetik liflərin mikroskop altında çəkilmiş fotoşəkilləri ipliyin mikroskopdakı şəkli ilə müqayisə edilir və iplik növü müəyyən edilir. Pambıq lifi uzunluqda spiral, en kəsiyində isə U şəklindədir. Yun lifinin ən fərqləndirici xüsusiyyəti onun üzərindəki pul təbəqəsinin balıq pulcuqları şəklində düzülməsidir. Bu xüsusiyyətlər süni liflərdə fərqlənir.



**Şəkil 1. Pambığın uzununa və eninə kəsiyinin mikroskop altında görünüşü**

B) Yanma üsulu

Əriş və arğac saplarının növünü təyin etmək üçün ən çox istifadə edilən üsuldur. Tez və sürətli nəticələr əldə edilir, vaxta qənaət edir və xərcsizdir. Hər bir lif yanma nəticəsində kimyəvi dəyişikliyə məruz qalır. Bu üsulda parça nümunəsindən götürülmüş iplik yandırılır və yanma nümunəsi, qoxu, tüstü və geridə qalan qalıq araşdırılaraq lifin növünə qərar verilir. Bitki əsaslı liflər dərhal alovlanır və öz-özünə sönür. Tez və sarı alovla yanır. Heç bir qalıq qoymur. Pambıq ağ-boz rəngli və uçucu olur, kətan isə sarı-boz rəngli kül yaranır.

C) Quru Distillə (Distillasiya) Metodu

Müxtəlif liflərin pH dəyəri dəyişir. Lif növü liflərin qızdırılması və yandırılması nəticəsində pH dəyərlərini tapmaqla müəyyən edilir. Lif dəstəsi reaksiya borusunda qızdırılarkən sınaq borusunun ağzına boru daxil edilir. pH kağızı və ya nəmli lakmus kağızı qoyulur. PH dəyərinin nəticələrinə görə, liflər xüsusiyyətini göstərir. Nəticələr standartlardakı pH dəyərləri ilə müqayisə edilir və lif növünə qərar verilir.

Ç) Kimyəvi Həllolma Metodu

Kimyəvi həllolma testi lifin müəyyən bir həlledicidə həll olub olmadığını müəyyən edilməsinə əsaslanır. Təbii və süni liflər müxtəlif strukturlara malik olduğundan onların müxtəlif həlledicilərdə

həll olma qabiliyyətini də müəyyən edilərkən fərqlilikləri özünü büruzə verir. Liflərin bu xüsusiyyətindən istifadə edilərək lif növü müəyyən edilir.

D) Boyama Metodu

İpliyin xammalını təşkil edən liflər boyaq maddələrinə qarşı müxtəlif boyama xüsusiyyətləri göstərir. Lif növü liflərin müxtəlif rəngləmə xüsusiyyətlərindən istifadə etməklə müəyyən edilir. Bunu etmək üçün xüsusi laboratoriya şəraitində hazırlanmış boyaqlarla işləmək lazımdır. Yanma testi ilə nəticə alınmayan qarışıq liflərin istifadə edildiyi parçalarda bu testin aparılması məcburidir. (Koyunlu vd., 2020)

**Mövsumi Yarımqrupa Daxil Olan Pambıq Parçaların Çeşid Quruluşunun Təhlili**

Mövsümi parçalar yay parçalarından ağır və sıx olması ilə fərqlənir. Mövsümi parçalar çox müxtəlifliliyi ilə xarakterizə olunur. Bunlar 50% –i polotno sarja və yaxud da xırda naxışlı toxunmalar ilə istehsal edilir. Demək olar ki, yarısından çoxu alabəzək, qalanı sadə boyaqlı, güllü və ağardılmış olur.

Bu yarımqqrupa aid edilən parçaların fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, kişilər üçün köynəklərin istehsalında istifadə edilən parçaların bir çox çeşidi bu yarımqrupda birləşir. Tərkibi pambıq lifi təşkil edən köynəklik parçalar 71,6% xüsusi çəkiyə malikdir. Köynəklik parçalar ağardılmış, alabəzək, güllü, düz rəngli və müxtəlif naxışlı istehsal edilir. Ağardılmış parçalara poplin, reps, piks, tafta və başqa xırda naxışlı parçalar aiddir. Köynək istehsalında şotlandka, zayta kimi parçalar da istifadə edilir.

Tafta parlaq səthli sıx parçadır. Material təbii ipəkdən pambıq saplardan həmçinin polimer sintetik liflərdən hazırlanır. Parçanın xarakterik xüsusiyyətləri sərtlik və forma müqavimətidir. Taftadan ziyafət geyimləri tikirlər, interyer dekoru və mebel üzlükləri hazırlayırlar. Sintetik liflər ixtira edilməzdən əvvəl tafta yalnız pambıq və ipəkdən hazırlanırdı. Sonra kimyəvi reaksiyaların köməyi ilə yaradılmış materiallar ucuz etibarlı möhkəm liflər istifadə etməyə başladılar.

Uzun müddət tafta XX əsrin sonlarında Hindistanda bu növ parça üçün xüsusi bir dəzgah icad edilənə qədər əl ilə istehsal edilmişdir. Materialın ən yaxşı nümunələri İngiltərə, İtalya və Fransadadır.

Poplin əsasən köynəklik parçadır. Müasir istehsalda poplin müxtəlif iplərdən hazırlanır. Həm təmiz pambıq, həm də sintetik liflərlə pambıq qarışığı da istifadə edilir. Təmiz ipəkdən poplin hələ də məşhurdur. Ən bahalı poplin isə təmiz pambıqdan olan Hindistan poplinidir.

Reps istehsal etmək üçün burulmuş ipək liflərindən istifadə edilmişdir. Bu parça çox keyfiyyətli material hesab edilirdi. Pambıq, kətan və yundan reps daha az idi.

Repsdən qadın və kişi geyimləri, artistlər üçün tarixi kostyumlar tikirlər. Demək olar ki, reps sırf ipək saplı lifdən hazırlanırdı, hansı ki, qalınlığından asılı olaraq geyimin tikilməsinə və ya zadəganların salonlarının bəzədilməsinə tətbiq edilirdi. Pərdələrin və divar kağızlarının istehsalı üçün uyğun qalın olan bu parçanı daha incə kətandan fərqləndirmək üçün onu "rips" adlandırmağa başladılar.

Müasir parça əsasən sintetik ipliyi qoşmaqla pambıq, ipək və yun liflərindən hazırlanır ki, bu da materialın dəyərini əhəmiyyətli dərəcədə azaldır və onu daha möhkəm və uzunömürlü edir.

Şotlandka damalı naxışlı alazbəzək parça növüdür. Şotlandka pambıqdan süni və qarışıq liflərdən hazırlana bilər. Parça sarja toxunuşu ilə toxunmuşdur. Şotlandka palto, kostyumlar, qadın donları və ətəkləri hazırlanmağı üçün mükəmməl seçim hesab edilir.

**Yay Yarımqrupuna Daxil Olan Pambıq Parçaların Çeşid Quruluşunun Təhlili**

Bu qrupdakı parçaların xarakterik xüsusiyyəti yüngül olmasıdır. Onlar adətən yüksək və xüsusi yüksək nömrəli sayılan ipliklər vasitəsilə hazırlanır. Yay yarımqrupuna daxil olan parçalar çox sıxlığa sahib deyillər. Mühüm gigiyenik xüsusiyyətlərdən olan hava və buxarı yaxşı keçiriciliyə malikdirlər. bütün yay parçalarının 1m$^2$-nin kütləsi 60 qramdan 115 qrama kimi, eni isə adətən 58-150 sm aralığında olur.

Bu yarımqrupanın parçalarının çoxu polotno toxunması, yerdə qalan az bir hissəsi isə xırda naxışlı toxunuşla istehsal edilir. Bəzək xarakterinə görə isə yay yarımqrupunun nümayəndələri güllü, sayaboyaqlı və ağardılmış olur. İstehsalatda merserizə edilərək buraxılan bu yarımqrup parçalarında əsas məqsəd hiqroskopikliyi artırmaq və ona ipək parlaqlığı verməkdir. Yay yarımqrupunun tipik parçaları maya, bual-krep, markizet, batist və volta sayılır.

Batist ən incə və zərif yüngül toxunmalardan biri sayılır. Bu gün material yalnız qıvrılmış pambıq liflərindən və kətandan deyil, hətta sintetik materiallardan hazırlanır, baxmayaraq ki, təbii parçalar hələ də üstünlük təşkil edir. Sintetik lifin pambığa əlavə edilməsi parçaya möhkəmlik verir və məlumatlara qulluğu əhəmiyyətli dərəcədə sadələşdirir. Fərqli bir xüsusiyyət odur ki, yüngül və incə olan material çox davamlı olaraq qalır. Bu, yay geyimləri və donları tikməyə imkan verir.

Markizet batistə əsas meyarlarına görə oxşayır. Bu parça daranmış və iplərin bükülməsinin daha yüksək dərəcəsi ilə fərqlənir. Markizetə yumşaqlıq və ipəyə oxşarlıq vermək üçün onu merserizə edirlər. Bu parça növünün sıxlığı batistin sıxlığından təxminən 10 dəfə çoxdur. Markizetdən yay donları, pərdələr, yataq dəstləri tikirlər.

Volta böyük sıxlıqlı ipək, incə parçadır. O, bükülməyə məruz qalmış ipliklərdən düzəlmişdir. Material batistə bənzəyir. Voltadan yay qadın geyimləri, sarafan və uşaq donlarının tikilməsində istifadə edilir.

Əsasən xırda naxışlı, bəzən isə polotno və jakkard toxunuşlu parçalar yay yarımqrupuna müxtəlif adlarla daxil olmuşdur. Onlar tərtibatına görə bir-birindən fərqlənir. Bu yarımqrupun bəzi nümayəndələri merserizə edilmiş, bəziləri isə xüsusi bəzəkli olaraq istehsal edilir. Parçaların kütləsi 75-200 q/m$^2$, eni isə adətən 65-100 sm olur.

**Qış Yarımqrupuna Daxil Olan Pambıq Parçaların Çeşid Quruluşunun Təhlili**

Qış yarımqrupuna daxil edilən parçalar əhalinin isti qış paltarına olan tələbatını ödəmək üçündür. Bu parçaların əsas xassəsi isti saxlama özəlliyinə malik olmasıdır. Bu yarımqrupa ağır, qalın, tiftikləndirilmiş parça növləri aiddir. Flanel, bamazı və bayka bu yarımqrupun tanınmış nümayəndələri sayılır. Qış parçaları saya boyaqlı güllü və ya ağardılmış istehsalata buraxılır. Bu parçaların bir kvadrat metrinin kütləsi 135-425 qram, eni 75-105 sm təşkil edir. Bu yarımqrupda ən çox xüsusi çəkiyə malik olan flaneldir.

Flanel XIX əsrin axırlarına qədər xəfif xovlu və xırıltılı bir parça olub qoyun yunundan hazırlanırdı. XX əsr onun pambıq bitkisindən olan istehsalına başlandı. Müasir texnologiyaların və materialların inkişafı ilə flanel süni, sintetik və qarışıq liflərdən də hazırlanmağa başlandı. Bu parçanın damalı və zolaqlı variantları da mövcuddur. Flanel sarja toxunuşludur. Bu parça ikiüzlü nazik və xovlu parçadır. Yumşaq toxunma üçün xoş materialdır. Səthi sıxlığı 175-255 q/m$^2$ olur. Mövsüm arası,

sərin havalarda qadın donları üçün yaxşı material hesab olunur. Bu toxumaların bəzi müasir növləri üçün pambıq lif ipliyi istifadə olunur. Bu materialın malik olduğu üstünlüklər arasında qeyd etmək lazımdır ki flanel yumşaq quruluşlu tüklü səthi dəriyə faydalı təsir göstərir. Yüksək səviyyəli aşınma müqavimətinə malikdir və həmçinin yaxşı hiqroskopiklik əla istilik saxlaması kimi xüsusiyyətləri vardır.

Flaneldən istehsal edilən geyimlər təbii boyaların köməyi ilə boyanır. Nəticədə sağlamlıq üçün tamamilə təhlükəsiz məhsullar alınır. Bu parçaları hətta uşaqlar və yeni doğulmuş körpələr üçün də istifadə etmək olar. Flanel qış yarımqrupuna daxil olan parçalar içərisində daha nazik və yumşaq olan pambıq parça çeşidi sayılır.

Bayka yumşaq isti və rahat hər kəsin uşaq bağçalarından bildiyi parçadır. Ondan isti xovlu ədyallar düzəldilirdi. İndi isə ev tekstili, uşaq və böyüklər üçün geyimlər istifadə olunur. Bayka materialı toxuculuq dəzgahında hazırlanır, daha sonrakı bitirmə mərhələləri olan təmizləmə, monofonik boyanma son bitirmə proseslərində keçirilir. Bayka sarja toxunması köməyi ilə əldə edilir. Baykanın xüsusiyyətlərin nəzərdən keçirək. Bayka güclü möhkəm təsir zamanı yırğalanmır və uzanmır. Aşınmaya və yumaya qarşı davamlıdır, yaxşı istilik izolyasiyasına malikdir. Buna görə də, ev tekstili və geyim üçün uyğundur.

**Süni Saplardan Olan Parçaların Çeşid Quruluşunun Təhlili**

Süni saplardan olan parçalar yarımqrupuna daxil olan parçalar daha göstərişli xarici görünüşə malikdir. Çünki bu növ parçalar həm təbii, həm də sintetik ipliklərdən hazırlana bilər. Buraya əsasən köynəklik və donluq parça modelləri aiddir ki, bunların toxunmasında xırda naxışlı, jakkard toxunuşlar tətbiq olunur. Belə toxunmalar nəticəsində müxtəlif effektli parça alınır. Tərkibində süni ipliklər olan parçalar yarı təbii parçalardan ərişi üçün pambıq ipliyi, arğacı üçün süni ipək sap işlədilməsi ilə fərqlənir. Belə parçalar müxtəlifli dizaynlara malik olurlar. Bu yarımqruppaya alabəzək zefir, eponj, donluq, saya rəngli krep parçaları aiddir.

Əgər 19-cu əsrdə krep istehsalında ipək və yun saplarından istifadə olunurdusa, kimya və toxuculuq sənayesinin inkişafı bu siyahını xeyli genişləndirmişdir. İpəkdən başqa yarımqol kreplər, pambıq, yun, həmçinin süni və sintetik saplardan hazırlanır. Bu toxunmalarda güclü təsir əsasən sıx birləşmələrin tətbiqi ilə əldə edilir. Krep qadın donları və kostyumları tikilməsində geniş istifadə edilir.

Krep ipək, pambıq, yun, viskoza kimi müxtəlif liflərdən və onların qarışıqlarından, yüksək burulmuş ipliklərdən toxunmuş, özünəməxsus əyri görünüşü olan yüngül çəki parçadır. Qırışlı və kobud bir səthə malikdir. Lif, iplik, burma və toxunma növünə görə müxtəlif adlar alır.

Misal üçün; Pambıq krepində əriş Ne 36/2 -25 tel/sm, arğac Ne 12/1-17 tel/sm tezliyi ilə toxunur. Yunlu krep, çox yüksək S və Z burulmuş kamar ipləri bir-birinə toxunduqdan sonra və ümumiyyətlə 1:1 düzülüşündə, düz və ya krep trikotajda, aşağı sıxlıqlarda toxunaraq yüngül bir bitirmə prosesi tətbiq edilərək əldə edilir. Çox vaxt qadın paltarlarında istifadə olunur.

Viskoz krepi 100% viskoz iplikdən və ya 50 % viskoz iplikdən toxunur. Pambıq saplarla toxunmuş krep parça növlərinə basqı əməliyyatı yerinə yetirilə bilər. (Koyunlu vd., 2020)

**Parçalara Verilən Əsas Tələblər**

Parça əsas material növlərindən biridir və müxtəlif tekstil çeşidləri istehsal edilməsində istifadə olunur. Sənaye əsasında parçaları bölmək adətdir: yun, pambıq, kətan, ipək. Məişət istifadəsi üçün

əsas parça növlərinin çeşidi və onlara olan tələblər ümumi spesifikasiyaların dövlət (milli) standartlarında (GOST) təqdim olunur:

• 28000-2004. Təmiz yun, yun, yarımyun paltar parçaları;

• 21790-2005. Pambıq və qarışıq geyim parçaları;

• 29298-2005. Pambıq və qarışıq məişət parçaları;

• 17504-80. Pambıq və sintetik qatrandan hazırlanmış qarışıq parçalar;

• 9009-93. Su keçirməyən örtüklü pambıq yağış paltarları;

• 10138-93. Saf kətan, kətan və yarı kətan parçalar;

• 15968-87. Təmiz kətan, kətan və yarı kətan paltar parçaları;

• 11518-88. Kimyəvi saplardan və qarışıq ipliklərdən köynək parçaları;

• 29223-91. Kimyəvi liflərdən hazırlanmış paltar, kostyum və kostyum parçaları;

• 28486-90. Sintetik saplardan hazırlanmış palto və gödəkçə parçaları;

• 29222-91. Kimyəvi liflərdən və qarışıqlardan yağış paltarları;

• 28253-89. İpək və yarımipək paltar və paltar-kostyum parçalar;

• 7081-93. İpək və yarı ipək xovlu parçalar;

• 20723-2003. Təbii bükülmüş ipəkdən paltar paltarları;

• 20272-96. Kimyəvi saplardan və ipliklərdən astarlı parçalar.

Yuxarıda sadalanan standartlar müvafiq parçalar qrupları üçün texniki tələbləri və onların xassələrinin əsas göstəriciləri üçün standart dəyərləri ehtiva edir. Eyni zamanda, göstəricilərin ədədi dəyərləri üçün məhdudiyyətlər "artıq yoxdur" və ya "az olmayaraq" müəyyən edilir. Bu o deməkdir ki, istehsalçı xassələri müəyyən edilmiş hədləri aşan bu qrupun parçaları istehsal edə bilməz. Eyni zamanda, müəyyən edilmiş normativ dəyərlərin təkmilləşdirilməsinə icazə verilir və hətta təşviq edilir. Beləliklə, məsələn, QOST 28000-2004 uyğun olaraq kamarlı xalis yun kostyum parçalar üçün, çözgü üzərində qırılma yükü göstəricisi müəyyən edilməyib. Təcrübədə bu qrupun parçaların çoxu möhkəmlik baxımından müəyyən edilmiş standartdan 20-30% yüksək istehsal olunur ki, bu da təbii olaraq bu göstəricidə parçaların yüksək keyfiyyətinə zəmanət verir. Bundan əlavə, hər bir parça üçün istehsalçı struktur və xassələrin göstəriciləri üzrə laboratoriya sınaqları keçirir və nəticələr texniki təsvirdə qeyd olunur. Məlumat vərəqində parçanın tərkibi, quruluşu və xassələri qeyd edilməsi nəzərdə tutulur. Burada parçanın təsviri, onun texniki xüsusiyyətləri və istehlakçının tələb etdiyi digər məlumatlar var. Texniki şərtlət ümumi standartların mövcud olduğu parçalar üzərində hazırlanır. (Бузов, 2018)

**Nəticə**

Pambıq parçaların çeşidi çox genişdir. Bu çeşidlərin hər tərəfli öyrənilməsi və tədqiqi toxuculuq sənayesinin inkişafı üçün olduca əhəmiyyətli hesab olunur. Ticarət obyektlərinə daxil olan parçalar modanın təsirinə meylli olmağı ilə seçilir. Təbii lif olan pambıq min illərdir ki, dünyada yetişdirilir və dünya lif istehlakının yarısını təşkil edir. Pambıq istehsalı dünya kənd təsərrüfatı istehsalının 3%-ni təşkil edir.

Mövsümi yarımqrupaya şotlandka, qarus, reps, şerstiyanka, eleqant, kaşmir, pike və tafta kimi parça çeşidləri daxildir. Bu parçalardan kişi köynəkləri uşaq və qadın üçün donlar blyuzkalar və digər fərqli geyimlər daxildir.

Qış yarımqrupunun nümayəndələrinin ən əsas vəzifəsi soyuq fəsillərdə istehlakçıların isti geyimlərə olan tələbatı ödəməkdir. Bu səbəbdən də bu parçalar istiliyi özündə saxlama xassəsinə sahibdir.

Həm yay yarımqrupu, həm də tərkibindəki süni iplikər olan parça yarımqrupuna xassələri ilə fərqlənən çeşidli parçalar daxildir. Bu parçaların hər birinin özünəməxsus özəllikləri vardır.

Pambıq parçaların istehsalından əvvəl ipliyin əsas xarakteristikası analiz edilməlidir. Bu proses üçün bir neçə metoddan istifadə edilir ki, bunları belə sıralamaq olar: mikroskopik metod; yanma metodu; quru ditillasiya metodu; kimyəvi həllolma metodu və son olaraq boyama metodlarından geniş istifadə olunur.

Pambıq parçaların əsas xüsusiyyətlərinə isə yüksək dərəcədə gigiyenikliyini, yuyulmaya davamlılığını, sintetik liflərlə birgə toxunduqda artan möhkəmliyini, nəmi udma qabiliyyətini və s. göstərmək olar.

Müasir pambıqçılıq üsullarının təbii olduğunu söyləmək olmaz. Pambıq becərilməsi üçün istifadə olunan torpaqların miqdarı çox dəyişməsə də, hibridləşdirmə və pestisidlərin və gübrələrin istifadəsi kimi texnikaların tətbiqi nəticəsində pambıq məhsuldarlığı təxminən üç dəfə artmışdır. Lakin istehsal zamanı çoxlu miqdarda kimyəvi pestisidlərdən istifadə olunur. Bu baxımdan pambıq bütün digər bitkilərlə müqayisədə vahid sahəyə düşən istehsalda ən çox kimyəvi pestisidlərdən istifadə edildiyi araşdırırlıb. Dünyada pestisid istehsalının 16%-i pambıq istehsalı üçün istifadə olunur. Pambıq istehsalında istifadə edilən kimyəvi maddələrin çoxu sinir sistemimizi zədələyən kanserogen maddələrdir. Bütün bunlara baxmayaraq, parça istehsalında ən çox üstünlük verilən xammal pambıqdır. Üzvi pambıq, tərkibində GMO olmayan (geni dəyişdirilmiş orqanizmlər) olmayan və süni gübrələr və ya pestisidlər kimi sintetik kənd təsərrüfatı kimyəvi maddələrindən istifadə edilməyən bitkilərdən istehsal olunan təbii pambıqdır. Süni gübrə və pestisidlərdən istifadə edilmir. Üzvi pambıq becərilməsi biomüxtəlifliyi və dövrləri dəstəkləyir. Ənənəvi pambıq istehsalında böyük miqdarda kənd təsərrüfatı kimyəvi maddələrdən istifadə olunur. Pambıqçılıqda bütün digər kənd təsərrüfatı bitkilərinin istehsalında istifadə olunan pestisidlərdən daha çox kimyəvi maddələrdən istifadə olunur. Bu kimyəvi maddələr torpaq tərəfindən sorulur və səth sularını və havanı çirkləndirir. Kimyəvi gübrələrdən istifadə edən torpaqlar daha az su saxlayır və su itkisinə səbəb olur. Bundan əlavə, bu sahələrdə iş şəraiti səbəbindən kənd təsərrüfatı işçilərinin sağlamlıq problemləri tez-tez müşahidə olunur. Üzvi olaraq yetişdirilən pambıq pambıqçılara sağlam və təhlükəsiz iş şəraiti təmin edir və onun ətraf mühitə mənfi təsirləri daha azdır.

**Ədəbiyyat Siyahısı**

H.S.Hümbətov, X.Q.Xəlilov. Pambıq lifinin texnologiyası. Bakı: “Nurlan” nəşriyyat-poliqrafiya müəssisəsi 2012, 229 s.

Nizami Seyidəliyev, Pambıqçılığın əsasları. Bakı, “Şərq- Qərb ” 2012, 324 səh.

Бузов Б.А. Материалы для одежды. Ткани: учебное пособие / Б.А. Бузов, Т.П. Румянцева. - М.: ИД «ФОРУМ» : ИНФРА-М, 2018. - 224 с.

Алыменкова Н.Д. Ассортимент плательных тканей: учеб, пособие. М.: МГУДТ, 2009.

Кукин Г.Н, Соловьев А.Н, Кобляков А.И. Текстильное материаловедение. М., 1992

Mustafa Oğlakçı. Pamuk Bitkisel Yapısı, Yetişdirilmesi, Islahı ve Lif Teknolojisi. Akademisyan Kitab Evi. 530 sayfa

Ali Koyunlu, Emel Bozca, Emine Gül, Hüseyin Toker, Nilüfer Demir, Tufan Ata Türkyılmaz, Zeliha Doğanışık. Kumaş analizi atölyesi. 2020

M.Mangut ve N.Karahan. 2005. Tekstil Lifleri. Ekin Kitabevi, Bursa. 309s

Baser,I.1992. Elyaf Bilgisi. Marmara Universitesi Yayınları, Istanbul. 180s

Harmancıoğlu,M. ve G.Yazıcıoğlu. 1979. Bitkisel Lifler. Ege Universitesi Matbaası, Izmir, 336s.

# İnsan Kapitalı Anlayışına Nəzəri Yanaşmalar

**Cəfərova Nərmin**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**narmiinjaffarova@gmail.com**

## Xülasə

Məqalədə insan faktoru istənilən dövlətin əsas sərvəti hesab edilir və sosial-iqtisadi siyasətin əsasında məhz insan faktorunun dayandığı diqqətə çatdırılır. İnsan inkişafına dair konsepsiyanın əsasında isə insanın təhsilli, sağlamlı olması, layiqli həyat səviyyəsinə nail olması dayanır. Bu komponentlərin əldə olunması isə insan kapitalına yönəldilən vəsaitlərin səmərəliliyinin artırılması, bu kapitaldan məqsədyönlü şəkildə istifadə olunması yolu ilə mümkündür. İnsanın inkişafı konsepsiyası məqalədə həm tarixi nəzəriyyələr timsalında, həm də müasir yanaşmalar baxımından nəzərdən keçirilir və insan kapitalı anlayışının keçdiyi təkamül yolu araşdırılır. Məqalədə insan amili insanların həyat keyfiyyətini yüksəkdə tutan, fərqli sahələrdə onların sahib olduqları imkanların və seçimlərin artırılmasını təbliğ edən, cəmiyyətdə təhlükəsizlik və sülhün bərqərar olmasını təmin edən, sağlamlığı, ədaləti, təhsili önə çəkən geniş bir anlayış olaraq nəzərdən keçirilir. Bütün bu qeyd olunanlar isə insan kapitalının keçdiyi inkişaf yoluna əsasən araşdırılmış və müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Məqalədə insanların imkanlarını artıran, onların həyatda sağlam qərar verə bilmələrinə təsir göstərə bilən kapitala dair zaman-zaman verilən şərhlər izah olunur.

**Açar Sözlər:** intellektual kapital, iqtisadi insan, bilik, investisiya, təcrübə.

## Summary

In the article, the human factor is considered the main asset of any state and it is pointed out that the human factor is the basis of the socio-economic policy. The basis of the concept of human development is that a person should be educated, healthy, and achieve a decent standard of living. Achieving these components is possible by increasing the efficiency of funds directed to human capital and using this capital purposefully. The concept of human development is considered in the article both in terms of historical theories and modern approaches, and the evolutionary path of the concept of human capital is examined. In the article, the human factor is considered as a broad concept that raises the quality of life of people, promotes the increase of their opportunities and choices in different fields, ensures the establishment of security and peace in society, and emphasizes health, justice, and education. All these mentioned have been investigated based on the development path of human capital and are still relevant in modern times. The article explains the interpretations sometimes given about capital that empowers people and can influence their ability to make healthy decisions in life.

**Key Words**: intellectual capital, economic man, knowledge, investment, experience.

## Giriş

Məlumdur ki, ölkəmizdə qazanılan iqtisadi inkişafın yekunlarının sosial inkişafa istiqamətlənməsi reallaşdırılmaqda olan sosial-iqtisadi strategiyanın əsas vəzifələrindən biridir. Belə ki, həyata keçirilən iqtisadi siyasətin nəticəsində makroiqtisadi stabillik və real sektorda davamlı inkişafa nail olunmuş və bunun nəticəsində keçid dövründə meydana çıxan sosial problemlərin həllinə real zəmin yaranmışdır.

Müasir dövrdə iqtisadi inkişafın əsas hədəfi insanların əsas tələbatlarının – maddi və mənəvi – ödənilməsinə hədəflənmişdir, hansı ki, bu insanlar xalqın əsas sərvəti hesab olunmaqdadır. İqtisadi inkişafın gücləndirilməsi yolu ilə insanın malik olduğu imkanları genişləndirmək mümkündür. Məhz bu

imkanlar sayəsində insanlar öz potensiallarını həyata keçirirlər. Bundan başqa, insanlar həm də tərəqqi və yeniliklərin aparıcı qüvvələri sayılırlar. Bütün bu proseslər insan faktoruna əsaslanmış və zaman-zaman insan inkişafına dair fikirlər də dəyişmişdir. İnsan inkişafına dair yanaşmalar H.Bekker, C.Minser, T.Şults və digərləri tərəfindən formalaşdırılaraq inkişaf etdirilmiş, 1990-cı illərdən başlayaraq isə insan inkişafını əks etdirən hesabatda əsaslandırılmışdır. Belə ki, iqtisadi inkişafda insanın mövqeyi getdikcə genişlənmiş və onun iqtisadi inkişafdakı rolunun öyrənilməsi ehtiyacı da artmışdır, nəticədə bu istiqamətdə aparılan tədqiqatların akuallığı da artmışdır. Buna görə də insan inkişafı ilə bağlı tədqiqatlar genişlənmiş və insan inkişafı barədə məlumatları özündə əks etdirən nəzəriyyələrin araşdırılmasına tələbat yaranmışdır. Başqa sözlə, insan kapitalı və onun inkişafı, ondan məqsədyönlü istifadə olunması dövlətin iqtisadi siyasətinin əsas hədəflərindən birinə çevrilmiş və bu gün də öz aktuallığını saxlamaqdadır.

İnsanların malik olduqları imkanların diapazonu genişdir və sonsuzdur, fərddən fərdə dəyişə bilir. Lakin prioritetlərin müəyyən edilməsi və bu imkanlardan cəmiyyətin faydalanması üçün əsas fəaliyyəti insan araşdırılmasından ibarət olan nəzəriyyələrin təkmilləşdirilməsi və yenilənməsi daim aktual olmalıdır. Buna görə də insan inkişafına əsaslanan nəzəriyyələr və hesabatlarda insanın uzun və sağlıqlı həyat yaşaması, bilik əldə edə bilməsi və layiq olduğu həyata sahib ola bilməsi üçün tələb olunan ehtiyatlara malik olması kimi vacib göstəricilərə diqqət yetirilir. Məqalənin əsas məqsədi də insan faktoruna əsaslanan yanaşmaları müəyyən etmək və insan inkişafına dair nəzəriyyələrin öyrənilmə səviyyəsini araşdırmaqdan ibarətdir. Qarşıya qoyulan məqsədə çatmaq üçün insan kapitalının formalaşması və inkişafı zamanı meydana çıxa biləcək problemlər üzrə nəzəri-metodoloji bazanın araşdırılması və bu istiqamətdə tədqiqatın aparılması əsas vəzifə olaraq nəzərdə tutulmuşdur.

Tədqiqatın aparılması zamanı alimlərin insan kapitalı sahəsində apardıqları araşdırmalar, müxtəlif mənbələrdən alınan məlumatlardan istifadə olunmuşdur. Belə ki, tədqiqatın metodoloji əsasını yerli və xarici tədqiqatçıların fəlsəfi, sosioloji, psixoloji və iqtisadi əsərləri və konsepsiyaları, insan kapitalı nəzəriyyəsi, BMT tərəfindən irəli sürülən İnsan İnkişafı Konsepsiyası təşkil etmişdir. Tədqiqat prosesində insan kapitalı anlayışına dair mövcud nəzəriyyələrin təhlili, müqayisəsi metodlarından istifadə olunmuşdur.

## İqtisadi Münasibətlər Sistemində İnsan

İlk öncə iqtisad elminə "iqtisadi insan" termini daxil olmuş və onun əsasında "insan kapitalı" anlayışı meydana gəlmişdir. Belə ki, istehsalın başlıca amili və yekun məqsədi kimi hər zaman insan başlıca yer tutmuşdur, çünki insan olmadan istehsal da mümkün deyildir (Juravlyova vd., 2009). "İqtisadi insan" anlayışının açıqlaması ingilis klassik-siyasi iqtisadçıları A.Smit, D.Rikardo tərəfindən irəli sürülmüşdür. A.Smit 1776-cı ildə məşhur «Xalqların sərvəti» əsərini yazmış və burada qeyd etmişdir ki, hər hansısa bir peşənin öyrənilməsi zamanı insan əməyi və vaxtı sərf olunur, bu əməyi isə bahalı maşınların əməyi ilə müqayisə edə bilərik. Bununla da o, insan kapitalı anlayışının mahiyyətinə toxunmuşdur. O, "iqtisadi insan"ın təhlilini iki cəhətə əsaslandırmışdır:

1. Əmək bölgüsü zamanı insanların mübadiləyə daxil olmaları;

2. Fərdi mənafeləri, özlərinin iqtisadi durumlarını daim yaxşılaşdırmaq cəhdləri.

A.Smit öz əsərində göstərmişdir ki, bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən təmsilçilər "bilavasitə cəmiyyəti yox, məhz özünün fayda qazanmasını" nəzərdə tutur. Yalnız "görünməz əllər",

azad rəqabət, bazar təsərrüfatının qanunları müxtəlif fəaliyyətləri bir sistem halına salır, hərc-mərclik aradan qalxır. Nəticəsində isə iqtisadi insan xüsusi fayda əldə etməyə cəhd etsə də, cəmiyyətin xeyri üçün çalışmış olur.

A.Smit, D.Rikardodan sonra "iqtisadi insan" yanaşmasına müxtəlif iqtisadçılar öz mövqeyini bildirmişdir. Qərb iqtisadçısı C.Mill qeyd etmişdir ki, insanın davranışı bir qədər mürəkkəbdir, onun sərvətə meyilli olması əməyə meyillənməyinə gətirib çıxarır. Bazar iqtisadiyyatı şəraitində insanın davranışına diqqət yetirən C.Bentam bildirmişdir ki, iqtisadi insanın fəaliyyətinin məqsədi rifaha cəhd göstərməsidir. Marjinalistlər məktəbinin nümayəndələri iqtisadi insanı aşağıdakılarla səciyyələndirmişlər:

1. Daha az məsrəf və daha çox fayda;

2. Məqsədə nail olma və informasiya əldə edə bilməsi;

3. Şəraitin dəyişməsinə anında reaksiya verə bilməsi və s.

İqtisadçı A. Vaqner "Siyasi iqtisad" dərsliyini yazmış və iqtisadi insana dair daha müxtəsər müddəa irəli sürmüşdür. O, qeyd edilən dərsliyin "İnsanın iqtisadi təbiəti" fəslini yazmış və insanın əsas cəhəti olaraq nemətlərin çatışmaması və bunu hiss etməsi, onu aradan qaldırmağa çalışmasında göstərmişdir. Keyns isə öz nəzəriyyəsində iqtisadi insanı ailənin, cəmiyyətin və yekun olaraq bəşəriyyətin ağıllı üzvü kimi qeyd etmişdir (Meybullayev, 2005). K.Marks insanı xarakterizə edərək bildirmişdir ki, insan obyektiv olan iqtisadi münasibətlərin şəxsiləşməsidir. ABŞ-nin iqtisadçı alimləri olan P. A. Samuelson, V. D. Nordahus "İqtisadiyyat" dərsliyində insan barədə qeydlər etmiş və iqtisadi insanın təhsilə və peşəyə kapital qoyan, bununla da texniki biliklər əldə edən varlıq olduğunu qeyd etmişlər. Daha sonralar iqtisadi ədəbiyyatlarda iqtisadi insan anlayışı genişləndirilmiş və özündə insan kapitalı anlayışını da ehtiva etmişdir. İnsanın biliyi, təfəkkür tərzi, istehsal və xidmət prosesində istifadə etdiyi enerji həmin kapitalın tərkib hissəsi hesab olunmağa başlamışdır (Клочков, 2004).

İnsan ilə bağlı anlayışlar inkişaf etdikcə iqtisadi ədəbiyyata "insan potensialı" anlayışı daxil olmuş və 20-ci əsrin 80-ci illərindən başlayaraq geniş istifadə olunmağa başlamışdır. Bu anlayış getdikcə cəmiyyətin aparıcı sərvətinə çevrilmiş və hərəkətverici qüvvə hesab olunmağa başlamışdır, çünki əməyin təşkil edilməsi, məhsuldarlığı, elmi-texniki tərəqqinin inkişaf sürəti insanın sahib olduğu potensialdan, daha dəqiq desək, bu potensialın keyfiyyətindən və kəmiyyətindən asılı olmuşdur (Bağırova, 2018). İnkişafı yüksək sürətlə gedən ölkələrdə iqtisadi artımın sürəti, keyfiyyəti məhz insan həyatının mənəvi zənginliyi, intellektual potensialının artması üçün zəruri vasitə hesab edilməkdədir. Elə buna görə də, dünyada inkişaf etmiş ölkələrdə insan potensalının artırılması üçün nəzərdə tutulan vəsait daha gəlirli və səmərəli hesab olunur (Muradov, 2004).

İnsan potensialı anlayışı inkişaf etdikcə 20-ci əsrin 90-cı illərindən başlayaraq "insan kapitalı" anlayışı da geniş istifadə olunmağa başlamışdır. Bu vaxta qədər isə "insan kapitalı" dedikdə insanın təhsilinin genişlənməsi, əmək qabiliyyətinin artırılması, iş təcrübəsinin zənginləşdirilməsi üçün sərf edilən kapitalın artırılması nəzərdə tutulurdu. Artıq 20-ci əsrin sonlarından başlayaraq texnikanın yüksək sürətli inkişafı ilə bağlı olaraq çevik işçi qüvvəsinə olan tələbat artmış və istehsal prosesində intellektual qabiliyyəti yüksək olan işçilərə ehtiyac yaranmışdır. Bu insanların gündəlik sosial və iqtisadi tələbatlarının ödənilməsi üçün tələb olunan xərclər də artıq "insan kapitalı" anlayışının mahiyyətinin dəyişməsini zəruri etmişdir. Beləliklə, "insan kapitalı" anlayışı nəzəri olaraq tarixi və müasir olmaqla inkişaf mərhələlərinə bölünmüşdür.

**İnsan Kapitalı Tarixi Nəzəriyyələrdə**

“İnsan kapitalı”nın nəzəri cəhətdən formalaşması və yeni kateqoriya olaraq iqtisadi sistemə daxil olmasının kökləri qədimlərə gedir. Burada əsas rolu oynayanlar klassik-siyasi iqtisadçılar olmuşdur: U.Petti, D. Rikardo, A. Marşal, A.Smit, K. Marks və digərlərinin adını çəkə bilərik. XIX əsrin sonları, XX əsrin əvvəlində isə U. Bedjxot, C.M. Klark, F. List, L. Valras, Q.D. Makleod, İ. Fişer və başqaları insan kapitalını konsepsiya olaraq inkişaf etdirmişlər.

İnsan kapitalı barədə ideyalara hələ A. Smitin əsərlərində rast gəlinsə də, bu sahədə mövcud nəzəriyyənin hələ çox gənc olduğunu qeyd etmək olar. Belə ki, insan kapitalı barədə nəzəriyyələrin formalaşması ötən əsrin 50-60-cı illərinə aid edilir. Bu nəzəriyyələr daha sonralar H.Bekker, C.Minser, T.Şults və başqaları tərəfindən inkişaf etdirilmişdir.

İnsan kapitalı ideya olaraq T. Şults tərəfindən zənginləşdirilmişdir. Belə ki, T. Şults inkişafı zəif olan ölkələrdə iqtisadiyyatı araşdırmış və bu ölkələrin iqtisadi inkişafını xüsusi olaraq tədqiq etmişdir. O hesab edirdi ki, kasıbların iqtisadi vəziyyətinin yaxşılaşdırılması torpaqdan çox, texnikadan və insanların biliklərindən asılıdır. O, ən vacib olan aspektə “insan kapitalı” adını vermiş və 1979-cu ildə Nobel mükafatını qazanmışdır. T. Şults “insan kapitalı” anlayışını belə izah edirdi: “Bütün insan bacarıqları ya anadangəlmə, ya da sonradan qazanılmış olur. Bütün insanlar özünə xas olan individual gen ilə dünyaya gəlir və bu genlər də insanın anadangəlmə bacarıqlarını müəyyən edir. İnsanın digər keyfiyyətlərini və bacarıqlarını da sürətləndirmək mümkündür ki, bu da məhz “insan kapitalı” ilə mümkündür” (Şamilova, 2014).

Şults bu anlayış vasitəsilə iqtisadi inkişafın xarakterik aspektlərini müəyənləşdirməyə çalışmış və cəmiyyət üçün lazımlı olan, investisiya yatırımı vasitəsilə artırılan insan xüsusiyyətlərini insan kapitalı olaraq qeyd etmişdir. Onun gəldiyi nəticə budur ki, insan kapitalı öz-özlüyündə yaranmır, o, müəyyən vəsait və qulluq tələb edir. T. Şults bildirirdi ki, kapitalın fiziki növünün dəyəri müəyyən edilən zaman əməyin qiymətləndirilməsi az nəzərə alınmışdır, hansı ki, o, iqtisadi tərəqqinin əsas özəyi hesab olunur. O, insan kapitalının gətirdiyi gəlir və fiziki kapitalın gətirdiyi gəliri müqayisə etmiş və belə qənaətə gəlmişdir ki, biliyə daha çox vəsait qoyulmalıdır (Владимирова и Козлов, 2015). Şults bildirirdi ki, insanın intellektual bilik və bacarıqlarını inkişaf etdirmək ölkə üçün yeni zavodların tikintisindən daha vacib olmalıdır. O, insan kapitalının insanın təhsil alması və praktiki fəaliyyəti nəticəsində qazandığı intellektual vərdişlər vasitəsilə təzahür etdiyini qeyd edirdi. Belə ki, insanın peşəkarlığı artdıqca insan kapitalı da, bu kapitaldan əldə olunan gəlir də artmış olur.

Qeyd etdiyimiz kimi, insan kapitalı anlayışı T. Şults tərəfindən zənginləşdirilsə də, ideyanın makroiqtisadi baxımdan əsaslandırılması H. Bekkerin adına bağlı olmuşdur. H. Bekker qeyd etmişdir ki, insan kapitalı insanlarda olan təcrübə və bilik ehtiyatıdır. Bu ehtiyata həmçinin qabiliyyət və motivasiyanı da əlavə etmişdir. İnsan kapitalına sərf edilən investisiya dedikdə isə təcrübə əldə edilməsi, bilik qazanılması, informasiya əldə edilməsi, coğrafi mobillik kimi amilləri nəzərdə tutmuşdur (Владимирова и Козлов, 2015). H. Bekker «İnsan kapitalı» əsərini yazmış və insan kapitalının ümumi nəzəriyyəsinin əsasını qoymuşdur. Moskva Universitetinin alimləri insan kapitalına dair “İnsan kapitalı və təhsil” adlanan kollektiv monoqrafiyanı yazmış və qeyd edilən mövzuya toxunmuşlar. Bu monoqrafiyada göstərilmişdir ki, T.Şults və H.Bekker yanaşmasının fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, onların apardığı iqtisadi təhlil “müasir elmi-texniki inqilab şəraitində “insan amili”nin yeni keyfiyyəti” üzərində cəmləşmişdir (Babayev, 2021).

İnsan kapitalının nəzəri öyrənilməsində xüsusi rolu olan iqtisadçılardan biri də C.Minserdir. O, insan kapitalının yekcins olmadığını qeyd etmiş, onun 2 yerə bölünməsinin labüd olduğunu bildirmişdir: ümumi insan kapitalı və xüsusi insan kapitalı. C. Minserə görə ümumi insan kapitalı bir yerdən başqa yerə köçürülə bilər, lakin xüsusi insan kapitalı isə köçürülə bilməz. Ümumi insan kapitalı nəzəri bilikləri özündə əks etdirir: məktəbdə qazandığımız biliklər buna nümunə ola bilər. Belə ki, bu zaman təhsil insan kapitalını artıran əsas motiv olaraq çıxış edir. İnsan kapitalının xüsusi növü isə iş prosesində qazanılan bilikləri, bacarıqları ehtiva edir və konkret bir müəssisə, yaxud məkan ilə əlaqədar olur. Bu kapital növü təcrübənin nəzəri deyil, praktik növünün əldə olunması zamanı yığılır.

Qərbdə iqtisadçılar arasında insan kapitalına dair müxtəlif yanaşmalar mövcud olmuşdur. Yanaşmalardan birinə görə insan yalnız bilik və vərdişlərin daşıyıcısı deyildir, ona duyulmayan kapital kimi baxılmamalıdır, insan sosial-bioloji varlıqdır və buna görə də duyulan kapitaldır. Duyulan kapital dedikdə isə uşaqlıqdan əmək qabiliyyətli yaşımıza qədər olan dövr ərzində insana qoyulan sərmayə nəzərdə tutulur (Hüseynov, 2003).

Digər bir yanaşma isə təhsilə və qabiliyyətlərin qazanılmasına qoyulan sərmayəni özündə əks etdirir. Bu yanaşmaya görə bazar iqtisadiyyatı dövründə insan öz bilik və bacarıqlarını satmaqla təkrar istehsala xərc çəkir və bu xərc də kapitala çevrilir.

Üçüncü yanaşmaya görə isə insan kapitalı 3 komponentdən təşkil olunur: intellektual, bioloji və sosial. Sosial komponentlər cəmiyyətin gündəlik vəziyyətində əks olunur. İntellektual komponentlər isə insanın intellektual qabiliyyəti ilə sıx bağlıdır və həm material, həm də qeyri-material olmaqla aktivlərin məcmusunu nəzərdə tutur.

**İnsan Kapitalının Müasir Şərhi**

İnsan kapitalına dair yanaşmalar inkişaf etdikcə elmi dövriyyəyə yeni bir anlayış olan intellektual kapital termini daxil olmuşdur. Bu termin isə ilk dəfə Michael Kalecki tərəfindən 1975-ci ildə işlədilmişdir. Onu müasir şərhinə isə 1991-ci ildə rast gəlinmişdir, belə ki, bilik iqtisadiyyatı inkişaf etdikcə intellektual kapital insan kapitalının ayrılmaz tərkib hissə kimi yenidən aktuallaşmış və T. Stevart tərəfindən "Brainpower" (Beyin gücü) adlı məqalədə əks olunmuşdur. Stevart öz məqaləsində qeyd etmişdir ki, insan kapitalı insanın bütün biliklərinin məcmusu olmaqla bazarda rəqabət yaradır (Deardoff & Stern, 2015).

Müasir dövrün reallığı artıq isbat etmişdir ki, insanın iqtisadi fəaliyyətdəki davranışına effektli yanaşma çox vacibdir. Qlobal problemlərə nəzər yetirsək, çoxunun əsasında insan probleminin dayandığını görərik. Mikro səviyyədə baxsaq müasir müəssisələrin idarə olunmasında kadr potensialının artırılması çox mühüm əhəmyyət kəsb etməkdədir, makro səviyyədə baxdıqda isə ölkənin iqtisadi inkişafa nail olmasında, texnika və texnologiyanın tətbiq edilməsində insan faktorunun böyük rol oynadığı artıq sübutunu tapmışdır. Həqiqətən, dünyadakı problemlərə nəzər yetirsək, əksəriyyətinin təməlində insan probleminin olduğunu görərik. Buna görə də, istər özəl sahə olsun, istərsə də dövlət müəssisəsi olsun əsas məqsəd və hədəf kadr ehtiyaclarını düzgün müəyyən etmək və ondan düzgün istifadə etməkdir.

Müasir dövrdə insan kapitalının mənəvi, eləcə də siyasi əhəmiyyətini artırmaq üçün aşağıdakılara önəm verilməsi çox vacibdir (İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2017):

- təhsil sferasına investisiya qoyuluşu;

- insanların ixtisaslı hazırlığının artırılması üçün investisiya qoyuluşu;

- elmi sferaya investisiya qoyuluşu.

Ümumiyyətlə, insan faktor olaraq cəmiyyətin inkişaf koordinatlarında həmişə iqtisadi tədqiqatın əsas obyekti olaraq rol oynamışdır. Buna görə də, müasir qloballaşma prosesində də bəşəriyyətin inkişafında insanın rolunun öyrənilməsi aktual vəzifələrdən hesab olunmaqdadır. insan cəmiyyəti, insan faktoru tarixin inkişaf koordinatlarının konkret sistemində həmişə iqtisadi tədqiqat obyektlərinin əsası olmuşdur. Artıq müasir dünya iqtisadiyyatının qloballaşması prosesində də, həm ölkənin, həm də bütövlükdə bəşəriyyətin sosial-iqtisadi inkişafında insan amili, insanların inkişaf problemlərinin öyrənilməsi ən aktual vəzifələrdən hesab olunur.

1990-cı ildə insan inkişafı yanaşması Məhbub ul Haqın təşəbbüsü ilə təkmilləşdirilmiş və İnsan İnkişafı barədə Qlobal Hesabatın əsasını təşkil etməyə başlamışdır. BMT-nin İnsan İnkişafı barədə Hesabatında qeyd edilir ki, insan inkişafı insan seçimlərinin artırılmasına yönəlmiş bir prosesdir. Seçimlərə isə sağlam və uzun həyat, təhsil əldə etmək, gündəlik tələbatlara cavab verə biləcək həyat şəraitinin təmin edilməsi aid edilir. Hesabatda həmçinin, əlavə seçimlər olaraq da insanın özünə hörmət hissi, insan hüquqlarının qorunması, siyasi azadlıq kimi hisslər göstərilir (Vəzirova vd, 2014). Hazırda Azərbaycanda da hər il insan inkişafına dair hesabat hazırlanır və bu hesabatda da artıq insan inkişafına dair yanaşma dəyişməkdədir. Əgər əvvəllər iqtisadi inkişaf səviyyəsini müəyyən etmək üçün insan inkişafı indeksi olaraq orta gəlirin adambaşına düşən miqyası əsas götürülürdüsə, artıq BMT-nin də təklifi ilə bura əhalinin savadlılıq göstəricisi, ölkədə milli təhlükəsizliyin səviyyəsi, insan hüquqlarının qorunması kimi yeni anlayışlar da daxil edilmişdir. Geniş mənada desək bu anlayışlara aşağıdakı göstəriciləri aid edə bilərik (United Nations Development Program, Human Development Report, 2020):

- İnsanın təkrar istehsalını təmin edən göstəricilər;

- İnsanın həm ruhi, həm də fiziki sağlamlığını təmin edən göstəricilər;

- İnsanın təhlükəsizliyini təmin edən göstəricilər;

- İnsanın sosial mühitə adaptasiyasını təmin edən göstəricilər;

- İnsanın mənəvi və psixoloji vəziyyətini əks etdirən göstəricilər.

Müasir yanaşmalara görə insan kapitalının artırılması dedikdə yalnız təhsil və səhiyyə sahəsinə investisiya qoyuluşu başa düşülməməlidir. Müasir modeldə insanın özünü inkişaf etdirə bilməsi üçün əlverişli məşğulluq mühitinin də yaradılması insan kapitalının inkişafına təkan verən faktor kimi nəzərdən keçirilir. Belə ki, insan inkişafının əsasında duran mühüm şərt kimi iqtisadi artım başlıca rol oynayır, insan kapitalının keyfiyyətcə yenilənməsinə və strukturuna, onun uzunmüddətli olmasına təsir edir.

Müasir yanaşmalara görə insan kapitalına təsir edən amilləri aşağıdakı kimi xarakterizə edə bilərik:




**Şəkil 1. İnsan kapitalına təsir edən amillər.**

BMT tərəfindən irəli sürülmüş İnsan İnkişafı Hesabatına görə insanın inkişafı üç vacib komponentə əsaslanmalıdır (UNDP, Human Development Program, 2019):

1. İnsanların azadlıqlarının artırılması, onların rifahı və tərəqqisi üçün şəraitin təmin edilməsi: İnsan inkişafına dair konsepsiyaya görə insanların həyatında vacib şərt gəlir olsa da, ən əhəmiyyətli vasitə deyildir. Belə ki, insanlar üçün həyatda ən vacib olan amil sağlam ömür, yeniliklər haqqında bilgilər əldə etmək, arzusunda olduqları ixtisasa sahib olmaq, övladlarının sağlamlığı və təhlükəsizliyi, özlərinin ləyaqətinin qorunması hesab olunur. Ölkədə sosial-iqtisadi inkişafa nail olmaqda əsas məqsəd əhalinin yalnız gəlir səviyyəsini yüksəltmək deyil, həm də insanlar üçün səhiyyə, təhsil xidmətlərinin əlçatan olmasını təmin etmək, onların azad sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilmələri üçün şərait yaratmaq, yaradıcılıq imkanlarının genişləndirilməsidir. Sosial-iqtisadi inkişafa əsaslanan rifahın yüksəlməsi gəlirin adambaşına düşən səviyyəsi ilə deyil, insanların layiq olduqları həyatı yaşamaq imkanları ilə müəyyən edilməlidir.

2. İnsanların özləri və ailələrinə vacib olan nəticələr üçün fəaliyyət imkanları: Burada müxtəlif resursların ədalətli, qanuni və hamı üçün əlçatan şərtlərlə bölünməsi, hər bir kəsin bu resurslardan bərabər istifadə imkanlarının yaradılması və istifadə oluna bilməsi başlıca yer tutur. Bu komponentə görə, hər bir insanın imkanları yalnız fərdi bacarıqlarla məhdudlaşmır, cəmiyyətdə mövcud olan sosial-iqtisadi şərtlər də insan bacarıqlarını formalaşdırır. Buna əsasən də insan seçimlərinin artırılması üçün "münbit şərait" zəruridir, bunun üçün də ölkədə əlverişli sosial, siyasi, iqtisadi imkanlar təmin edilməlidir. İnsanların özlərinə şərait qurmaq, həyatının istiqamətini "çevirmək" qabiliyyəti isə müasir iqtisadi ədəbiyyatda "agentlik" adlandırılır və bu "agentlik" də insanın azadlığının, inkişafının əsasında durur. Bu imkanı

geniş olan insanlar isə həm öz həyatlarında, həm də işdəki həyatlarında dəyişikliyin əsas aparıcılarından hesab olunurlar.

3. Ədalət: Bu komponent özlüyündə bərabərliyi, ədaləti, insan hüquqlarına verilən dəyəri əks etdirir. İnsan inkişafına dair hesabatlarda göstərilir ki, iqtisadi inkişaf təkcə gəlirlərin artımına deyil, həm də bu gəlirlərin ədalətli bölüşdürülməsinə təsir göstərməlidir və bu da insan inkişafının paradiqmasını təşkil edir. Müasir dövrdə insan kapitalı da insanın inkişafına, təhsilli və sağlam olmasına yönəldiyi üçün bu komponent insanların yoxsulluğunun qarşısının alınması, struktur bərabərsizliyinə gətirən proseslərin aradan qaldırılması üçün vacib hesab olunur. İqtisadi-siyasi sferada insanların inkişafına maneə ola biləcək irqi, dini, cinsi fərqlər ilə əlaqədar olaraq meydana çıxan stereotipləri aradan qaldırmaqla insanların öz qabiliyyətlərindən bəhrələnə bilmələri üçün şərait yaradılmalıdır. Bu imkanlardan yararlana bilmək imkanı yalnız indiki nəsillərə məxsus olmamalıdır, həm də gələcək nəsillər də ondan faydalanmalıdır. İnkişafa yönəlmiş siyasət inkişaf zamanı qazanılan nəticələrin davamlılığını və uzunmüddətliyini təmin etməlidir, bununla yanaşı da gələcək nəsillər üçün onların ödəməli olduqları "borc" yaranmasına səbəb olmamalıdır. İnkişafın dayanıqlı olması indiki nəsil və gələcək nəsil arasında elə paylanmalıdır ki, hansısa nəslin mənafeyindən ötrü digər nəslin ehtiyacları məhdudlaşmış olmasın. Buna əsasən deyə bilərik ki, ədalət özünü yalnız qazanılmış nəticələrin bölüşdürülməsində deyil, həm də öncədən təklif edilən imkanların eyniliyində, daha dəqiq desək, bərabərliyində göstərməlidir.

Artıq qeyd etdiyimiz kimi müasir dövrün iqtisadiyyatı biliklərə və insanların intellektual qabiliyyətinə əsaslanan iqtisadiyyat olduğundan ("knowledge-based economy") insan kapitalı da yeni konsepsiya kimi inkişaf etməkdədir. Kompüter texnologiyasına əsaslanaraq formalaşan iqtisadi sistemin başlıca aparıcı qüvvəsi insanların intellektual fəaliyyətidir və bu da nemətlərin mexaniki istehsalını ikinci plana atır. İntellektual kapital artıq köməkçi kapital sayılmır, kapitalın monetar formada yığılması artıq informasiyanın toplanmasına və daim yenilənməsinə yönəlmişdir. Artıq neft, qaz, kömür kimi resursların axtarışı insan intellektinin, innovasiyaların, ideyaların "ovlanması" ilə əvəz edilməkdədir. Məşğulluq prosesinin müasir strukturuna baxsaq görərik ki, orda da dəyişikliklər özünü göstərməkdədir, əvvəllər kənd təsərrüfatı, daha sonralar isə sənaye sektoru cəmiyyətin başlıca məhsuldar qüvvəsi idisə, indi əqli əmək bu titulu artıq onlardan almışdır. "İnformasiya iqtisadiyyatı", "bilik əsaslı iqtisadiyyat", "bilik əsaslı məhsullar" anlayışları da bu gün insan kapitalı anlayışından istifadənin genişlənməsi nəticəsində meydana çıxmışdır. Əmək-bilik əvəzlənməsinin baş verməsi nəticəsində əmək-dəyər nəzəriyyəsi də "bilik əsaslı dəyər" ("knowledge-value") anlayışı ilə əvəz edilməkdədir (İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu, 2017).

Dünya Bankı tərəfindən 2018-ci ildə İnsan Kapitalı adlanan yeni bir Layihəyə başlanılmış, əksər ölkələrdə uğurla tətbiq olunmuşdur. Bu layihə qlobal miqyasda həyata keçirilmiş və insan kapitalına investisiya yatırılmadıqda işçi qüvvəsinin çatışmayacağı və dünya miqyasında iqtisadiyyatın rəqabət apara bilməyəcəyini əsaslandıran layihə olmuşdur. Layihə həmçinin, əmək bazarında mövcud olan uyğunsuzluqların aradan qaldırılması, xüsusilə də, gənc kadrlar və qadınlar arasında mövcud olan işsizliyin yüksək səviyyəsinin aradan qaldırılması, gəlirlər arasında mövcud olan qeyri-bərabərliklərin ləğv edilməsi üçün hədəflənmişdir. Qeyd olunan istiqamətdə çağırışların aparılması və inkluziv iqtisadi artıma nail olunması üçün layihə unikal vasitə hesab olunmuşdur (Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, 2020).

**Nəticə**

Tədqiqat zamanı aparılan araşdırmalardan belə nəticəyə gəlinmişdir ki, müasir dövrdə insan kapitalı anlayışı özünün ilk illərində daşıdığı mənadan daha geniş və zəngin çalarlara malik olmaqdadır. Bunun əsas səbəbi isə odur ki, informasiya texnologiyasından istifadə getdikcə daha da sürətlənməkdə və yeniləşməkdə olan insan ideyalarını tələb etməkdədir. Bu informasiya texnologiyalarının və insanın sahib olduğu intellektual kapitalın hansı sferaya xidmət göstərməsi isə bilavasitə insan fəaliyyətindən asılıdır. Belə ki, insanın fəaliyyəti nəticəsində bu texnologiyalar sülhə, yaxud müharibəyə, eləcə də tərəqqiyə, yaxud tənəzzülə xidmət göstərə bilər.

Məqalədə insan kapitalının tarixi mahiyyəti ilə müasir şərhini müqayisə etdikdə görmək olar ki, getdikcə daha da mürəkkəbləşməkdə olan informasiya mühitində konkret bir fərdin iradəsi deyil, təbiət və cəmiyyətin tarazlığı nəticəsində insanın inkişafının qlobal mahiyyəti ön plana çəkilir. Bunlar isə cəmiyyətin tərəqqisinə nail olmağa çalışan geniş dünya görüşlü və yetkin şəxsiyyətlərin qazanılması yolu ilə mümkündür. Bu cür şəxsiyyətlərin formalaşması üçün isə mənəvi-psixoloji mühitin yaradılması labüd şərtlərdən olmalıdır. Belə ki, əvvəllər insan kapitalı dedikdə yalnız fərdin təhsil alması, sağlam olması kimi amillər nəzərdə tutulurdusa, artıq bu anlayış öz mahiyyətini dəyişmiş və özlüyündə təhlükəsizlik, əlverişli iqtisadi mühitin yaradılması, etibarlı sosial və sığorta mühitinin formalaşması kimi anlayışları da əks etdirməkdədir. Bütün bunlara nail olmaq üçün isə dövlət idarəçiliyində əsas metodoloji prinsip olaraq insan inkişafına yönəlik addımların atılmasını təklif etmək olar.

Məqaləyə əsasən gəlinən digər bir nəticə bundan ibarətdir ki, artıq insan faktoru iqtisadiyyatdan asılı deyildir, iqtisadiyyat insan faktorundan asılı olaraq formalaşır və inkişaf edir. Bunu isə belə izah edə bilərik ki, iqtisadiyyatı müasir şəraitdə inkişaf etdirmək üçün intellektual potensialı olan, azad düşünmə qabiliyyətinə malik olan insanlar lazımdır. Buna görə də, hər bir ölkədə insan inkişafına dair hesabat hazırlanarkən təkcə iqtisadi deyil, həm də sosial və demoqrafik statistika da aparılmalı və bunun üçün vahid sistem qurulmalıdır. Bu sistem isə insanın inkişafına dair aşağıdakı məlumatlardan ibarət olmalıdır:

1. Əhalinin demoqrafik xüsusiyyətləri;
2. Əlverişli təhsil mühitinin yaradılması;
3. Urbanizasiya mühiti, ekoloji təminat şəraiti;
4. Sağlamlığın təmin edilməsi;
5. Sosial təminatın təmin edilməsi;
6. İqtisadi fəallığın təmin edilməsi;
7. Vaxtdan düzgün və səmərəli istifadə edilməsi;
8. Əlverişli mədəni mühitin yaradılması.

Yuxarıda sadalanan amillər insan həyatının bütün mərhələlərini əhatə etdiyindən insan kapitalının da qeyd olunan sahələrə yönəldilməsini məqsədəuyğun hesab etmək olar. İnsanın potensialının inkişafı qlobal siyasətin əsas iqtisamətlərindən biri olmalı və başlıca metodoloji yanaşmalardan birinə çevrilməlidir. Tarixi və müasir yanaşmalara əsasən insan kapitalının təşkil edilməsində işəgötürənlər də, dövlət də eyni dərəcədə maraqlı olmalıdırlar, çünki bu proses zamanı yarana biləcək problemləri təklikdə heç kəs həll edə bilməz. Problemlərə isə aşağıdakılar aiddir:

1. Yüksək təhsil verən sistemin ya mövcud olmaması, ya da natamam mövcud olması;
2. Yüksək təhsilli əməkdaşların, tələbə heyətinin formalaşdırılması;

3. Kitabxanaların əsaslı olaraq yenidən təşkil edilməsi;
4. Elmi-tədqiqat sferasına dövlət dəstəyinin artırılması;
5. Əhali üçün əlçatan olan iş yerlərinn yaradılması;
6. Sahibkarlıq subyektlərinə dövlət dəstəyinin göstərilməsi və s.

Problemlərə əsasən belə nəticəyə gəlmək olar ki, onların həllində əsas ağırlıq dövlətin üzərinə düşür, mövcud insan kapitalının inkişafı üçün dövlət bütün gücləri səfərbər etməlidir.

**İstinadlar**


Babayev Ə.P. (2021). "İnsan kapitalı və müasir Azərbaycanda onun inkişaf problemləri" mövzusunda elmi-tədqiqat işi. 15 s.

Vəzirova A., Şirinova A., Eşonov B., İbrahimova C., Məmmədov Ç., Məmmədov E., Çıraqov F. (2014). Birləşmiş Millətlər Təşkilatının İnkişaf proqramı, İnsan inkişafı tədris vəsaiti, 54 s.

Juravlyova Q.P., Qromıko V.V., Dobrının A.İ., Zabelina M.İ., Lonskaya Q.M., Milçakova N.N. (2009). İqtisadi nəzəriyyə, Mikroiqtisadiyyat-1,2. Mezoiqtisadiyyat, 917 s.

Meybullayev M.X. (2005). İqtisadi təlimlər tarixi, Bakı, 560 s. (204-209).

Bağırova L.B. (2018). İnsan kapitalı anlayışının genezisi. Azərbaycan Milli Elmlər Akademiyası, Gənc Tədqiqatçı Elmi-praktiki jurnalı, IV cild, № 2, 242 s. (172-176).

Muradov Ş.M. (2004). İnsan potensialı: Əsas meyllər, reallıqlar, problemlər. Bakı, "Elm" nəşriyyatı, 656 s.

Şamilova H.S. (2014). İnsan kapitalının səmərəli idarə olunması meyarları, Bakı.

Hüseynov S. (2003). Davamlı insan inkişafının strateji istiqamətləri, Bakı, "Adiloğlu" nəşriyyatı.

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, İnsan kapitalının inkişafı; nəzəri aspektləri və qiymətləndirmə metodologiyası. (2017). Bakı, 29 s.

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı. İnsan kapitalının inkişafının stimulları. (2020). 44 s.

Alan V. Deardorff & Robert M. Stern. (2015). Research seminar in international economics. University of Michigan.

UNDP, Human Development Program. (2019). 366 p.

UNDP, Human Development Program. (2020). 412 p.

Клочков В.В. (2004). Человеческий капитал и его развитие. В книге: Экономическая теория. Трансформирующая экономика. Москва: Юнити, 417 с. (161-187).

Владимирова М.П., Козлов А.И. (2015). Становление теории человеческово капитала в рыночной економике. Москва. 95 с.

# Characteristics of Public-Private Partnerships (PPPs) for Health Care

**Turkan Ahmadova**

**Azerbaijan State University of Economics**

**turkan.ahmedova89@gmail.com**

## Abstract

International experience shows that potentially effective programs and strategies fail to reach the bottom line because of deficiencies in one or more of the three core functions of the health system (financing, resource generation and service delivery). There is a renewed debate about when, where, how and to what extent the state will intervene or provide this to market forces as required by patients. One of the main issues is increasing the potential for public-private partnerships (PPPs), which are proposed as a solution, and ensuring consistency and balance in defining the roles and basic rights of the partners. The paper analyses the experience of foreign countries on PPP in the health sector. Scientific novelty and originality of the research lies in the fact that there are not many studies in this direction, and in the current state of healthcare in Azerbaijan, it reflects the ways of effective use of public and private sector resources to improve the quality of healthcare services, and it is necessary to formulate the concept, which includes the features, mechanism, and model of PPP in healthcare.

**Keywords:** healthcare, public-private partnerships (PPPs) in healthcare, PPP models in healthcare.

## Introduction

The aim of the paper is to examine the theoretical and conceptual foundations of PPP application in health care and to put forward views on it. The methodology of the research is the existing studies of PPPs in healthcare and conceptual and methodological basis of foreign countries in this area. Applied significance of the paper is that the conducted research and the results obtained can be used for the transition to the construction of the model of application of PPPs in the health sector of Azerbaijan. The results of the research - the conducted analysis and evaluations can be used in the elimination of existing problems in the construction of the model of PPP for health care. Originality and scientific novelty of the paper is associated with the definition of directions of development of PPPs in the health sector, determining the implementation of specific activities in this area.

In a number of the literature used in the paper, the theoretical provisions of PPPs in health care are considered, the directions and models of application are analyzed. The application of PPPs in health care has been studied by researchers in various aspects and various theoretical and practical recommendations have been given in the direction of its elimination. These studies include A.S.Preker, A.Harding (2000). The Economics of Public and Private Roles in Health Care: Perspectives on Institutional Economics and Organizational Theory; M. Torchia, A. Calabro, M. Morner (2013). Public-private partnerships in health care: a systematic literature review; B. Ozorkhon, G. Özcan-Deniz, O. Demirturk Kir (2021). Challenges of public-private partnership (PPP) projects in health care: a case study in developing countries. Also on the basis of the analysis of relevant foreign scientific research, international sources of information the factors of efficiency of PPP implementation in healthcare were studied. These studies include Institute for Global Health Sciences (2018). PPPs in Health Care: Models, Lessons and Trends for the Future; World Health Organization (2002). Regulating Entrepreneurial Behavior in European Health Systems as an example.

**The essence of public-private partnerships (PPPs) in health care**

Fiscal pressures during the 1980s accelerated the process of public sector reforms. These reforms envisaged a gradual reduction of state involvement in various areas of activity. Part of the trend, PPP is not a new concept, but describes a cooperative relationship between public and private sector organizations to achieve common goals. PPP has been characterized as a useful method of addressing health problems as an innovative method that combines the best features of the public and private sectors. The private sector with its resources, management skills and technology, and the public sector with regulatory measures and public interest advocacy, can create powerful mechanisms to address complex health problems (Torchia, Calabro & Morner, 2013).

The introduction of PPPs in health care is seen as an effective tool for addressing several important socio-economic objectives, among them improving the quality of patient care, ensuring the availability of high-cost medical services, and modernizing the management system. World practice shows that PPP is more effective in the system of mandatory health insurance, as well as in projects of health care system modernization in comparison with the cases when the sphere of health care is under the exclusive control of the government (Ermakova & Salnikov, 2016).

Foreign experience of applying PPP mechanisms in healthcare shows that such cooperation leads in the G7 countries (Great Britain, Germany, Italy, France, Canada, USA, Japan). In Finland, Ireland, Denmark, Belgium, Austria, Portugal, Spain, Greece, Israel, Australia, Singapore and South Korea, healthcare projects are second only to construction projects. In countries with high GDP per capita and life expectancy, where the government guarantees an adequate level and quality of social protection, PPP is mainly applied in healthcare and education (Ermakova & Salnikov, 2016). Observations in recent years show that PPPs in developed countries focus on projects related to the green economy (increasing renewable energy, energy efficiency and biodiversity protection). This trend has been observed in the financing of transport infrastructure, energy, water, sanitation and telecommunications in developing countries and countries in transition (Center for Analysis of Economic Reforms and Communication of the Republic of Azerbaijan, 2014).

Since the private sector did not exist in the former Soviet Union until the 1990s, PPPs are in their infancy. In recent years, however, many of these countries have seen growth in this area of activity. For example, in order to strengthen the legal framework for PPPs in the Russian Federation, a law "On Concession Agreements" was adopted in 2005 and the PPP Development Centre was established in 2009, implementing PPP mechanisms and active project development. In general, in Russia and Kazakhstan, more projects are implemented in various forms of PPP in the construction, transport and energy sectors (Chernenko, Lebedeva & Lebedev, 2018).

Various forms of PPPs have been implemented in different years after independence in the Republic of Azerbaijan. The first example of such activities are production sharing agreements, which involve foreign private capital in the development of oil and gas projects. It should be noted that projects in construction, transport, oil and gas complex, energy, water supply and telecommunications are implemented in our country on the basis of various forms of PPP. The Law of the Republic of Azerbaijan "On Public-Private Partnership" was adopted on December 9, 2022 in order to strengthen the legal framework and systematic approach to PPP. Also, a Public-Private Partnership Development Centre was established in 2019 within the Small and Medium Business Development Agency of the Republic of Azerbaijan in order to provide systematic activities in the area of promotion and support of PPP projects.

**Key features of public-private partnerships (PPP) in healthcare**

Since the last decade of the 20th century, there has been a period of dramatic growth in healthcare entrepreneurship initiatives in European countries. There has been a strong and multifaceted drive to improve services, quality and efficiency in public and private health care facilities. It should be borne in mind that the application of certain elements of entrepreneurial activity should help the state to meet the major challenges ahead, having a beneficial effect on the development of the health sector (World Health Organization, 2002).

Analysis of the experience of foreign countries that have used PPPs shows that successful cooperation is influenced by factors such as a targeted public policy and the existence of legal mechanisms to protect the interests of private sector actors in the activities. This kind of policy and legal action has been initiated since the 1990s in the UK, based on more experience in implementing PPPs in the health sector. For example, in 1990, the Private Finance Initiative (PFI) was created, which was applied by private sector actors who wished to enter into a concession agreement with the government to modernise health facilities. It should be noted that it is currently the largest fund in the UK working to implement PPPs not only in healthcare but in other areas as well. The UK experience of using PPPs in health care shows that the scope of these activities can be quite broad. Thus, the improvement, construction, operation and management of the infrastructure of medical institutions, provision and improvement of medical services, preparation, production and distribution of new medical products and equipment, organization of non-medical services (security, utilities and transport services, medical waste collection, transportation and disposal, etc.), as well as organization and maintenance of accounting in medical institutions, organization of maintenance of information systems, etc. can be implemented (Zavialova, 2019).

Over the past 20 years, PPPs in health care have most often been observed in projects related to improving the infrastructure of the health system, including health facilities, and improving the quality of services. Although there is no consensus on the nature and application of PPP in this sector, it describes a form of long-term contract between public and private entities for the provision of health services (Institute for Global Health Sciences, 2018).

A PPP in health care is a mutually beneficial and equitable cooperation carried out through the conclusion and implementation of contracts, including concession contracts, between the government and a private entity or individual in the implementation of socially significant projects. The purpose of the partnership is to combine the capabilities and resources of the partners to achieve high financial and material results with maximum mutual benefit. The main task of PPP in health care is to ensure patients' access to free high-quality medical services guaranteed by the government (Ilasova, 2019).

Characteristics of PPPs in health care include contracting based on mutually agreed performance indicators, the long-term nature of the contract (usually more than 15 years, rarely less than 5 years), risk sharing, public ownership of assets (premises and equipment) after the end of the contract (Institute for Global Health Sciences, 2018).

The main PPP mechanisms in health care are mainly distinguished as:

- Concession;
- Leasing;
- Franchising;
- Outsourcing;

- Attracting investment in facilities that are part of the public healthcare infrastructure;
- Leasing of state property with current and major repairs at the expense of the lessee;
- Involvement of private medical organizations in the programme of free medical care guaranteed by the government;
- Creation of commercial organizations (Ilasova, 2019).

It has been observed that the most promising form of PPP in healthcare is the leasing of public facilities (immovable property) to private sector entities for the purposes of construction, repair, and supply of medical facilities. In this case, the main factor is the participation of the private partner in the provision of paid medical services for a certain period to obtain income and profit from the investment.

It should be kept in mind that the permanent effectiveness of a PPP is not guaranteed; it may be useful, but it is not "a panacea". The complexity of PPPs can create several problems during the implementation phase. They include issues such as underestimation of the costs involved in implementing cooperation, concerns about planned quality, lack of flexibility and responsiveness to changing requirements, difficulty in agreeing with stakeholders, and complexity of the process (Torchia, Calabro & Morner, 2013). Studies based on the experiences of countries applying PPPs in health care show that, especially in developing countries, the critical issues and risks that stakeholders may face in health care PPPs should be grouped together and it is very important to develop strategies and programs and a model of implementation towards risk reduction (Ozorhon, Ozcan-Deniz & Demirturk Kir, 2021). Based on foreign studies conducted in this regard, the potential risk factors arising from PPP in health care are presented in Table 1.

**Table 1. Categories of risk factors in PPP projects.**

| Risk category group | Risk factors |
|---|---|
| Government | Financial and organisational capacity |
| Revenue | Payment mechanism, volume of demand, cash flow |
| Finance | Inflation and currency, liquidity, interest rate |
| Contract management | Delays, amendments, disputes, termination |
| Engineering | Cost increases, accidents, design defects |
| Operation | Gaps, monitoring, enforcement mechanism, incomplete contract, changes in demographics and technology |

**Source:** B.Ozorhon, G.Ozcan-Deniz, O.Demirturk Kir (2021)

Neither the public nor the private sector alone can solve the many problems facing the health system around the world. PPPs can be useful for tackling health problems as an innovative method that combines the best of both parties. The private sector, with its resources, management skills and technology, and the public sector, with its regulatory measures and public interest advocacy, can create powerful mechanisms to address complex health problems. Such a balanced approach can not only address gaps in health infrastructure, but also provide some potentially useful suggestions, as outlined below:

- The ability to leverage existing health infrastructure by improving efficiency;
- Acceleration of government programmes related to health, poverty reduction and development through PPP;
- The possibility of restoring motivation through PPP due to existing misunderstandings and work culture in the public sector and etc. (WHO, 2002).

| Hard diskdə boş yer | Oracle üçün tələb olunan boş sabit disk sahəsinin miqdarı yaradılan və ya idarə olunan verilənlər bazasının ölçüsündən asılıdır. Ümumiyyətlə, Oracle Oracle verilənlər bazası üçün minimum 10 GB boş sabit disk sahəsini tövsiyə edir, lakin tələb olunan faktiki məbləğ daha böyük verilənlər bazaları üçün daha böyük ola bilər. Python - saxlanan prosedurları yazmaq və cx_Oracle kitabxanasından istifadə edərək verilənlər bazasına daxil olmaq üçün istifadə edilə bilər. | dBASE IV+ üçün tələb olunan boş sabit disk sahəsinin miqdarı Oracle və ya Microsoft Access ilə müqayisədə çox kiçikdir, çünki dBASE IV+ daha kiçik sərt disklərlə köhnə aparatlarda işləmək üçün nəzərdə tutulmuş köhnə məhsuldur. Ümumiyyətlə, bir neçə yüz meqabayt boş sabit disk sahəsi əksər dBASE IV+ verilənlər bazası üçün kifayət etməlidir. | Microsoft Access üçün tələb olunan boş sabit disk sahəsinin miqdarı yaradılan və ya idarə olunan verilənlər bazasının ölçüsündən asılıdır. Microsoft Access daxil olan Microsoft Office üçün minimum 2 GB boş sabit disk sahəsini tövsiyə edir. |
| RAM | Oracle üçün tələb olunan RAM miqdarı yaradılan və ya idarə olunan verilənlər bazasının ölçüsündən və verilənlər bazasındakı iş yükündən asılıdır. Ümumiyyətlə, Oracle kiçik verilənlər bazası üçün minimum 2 GB RAM və ağır iş yükü olan daha böyük verilənlər bazası üçün ən azı 8 GB RAM tövsiyə edir. | dBASE IV+ üçün tələb olunan RAM miqdarı Oracle və ya Microsoft Access ilə müqayisədə çox kiçikdir, çünki dBASE IV+ daha az RAM ilə köhnə aparatda işləmək üçün nəzərdə tutulmuş köhnə məhsuldur. Ümumiyyətlə, əksər dBASE IV+ verilənlər bazası üçün bir neçə yüz meqabayt RAM kifayət etməlidir. Bununla belə, | Microsoft Access üçün tələb olunan RAM miqdarı yaradılan və ya idarə olunan verilənlər bazasının ölçüsündən və icra edilən sorğuların mürəkkəbliyindən asılıdır. Ümumiyyətlə, Microsoft Windows-un 64-bit versiyasında Access-i işə salmaq üçün ən azı 4 GB RAM tövsiyə edir. |

| | | | |
|---|---|---|---|
| | | tələb olunan xüsusi RAM miqdarı yaradılan və ya idarə olunan verilənlər bazasının ölçüsündən və mürəkkəbliyindən asılı olaraq dəyişə bilər. | |
| Prosessor növü | Oracle Database x86, x64 və ARM prosessorları daxil olmaqla müxtəlif növ prosessorlarda işləyə bilər. Tələb olunan xüsusi prosessor istifadə olunan Oracle verilənlər bazası versiyasından və onun işlədildiyi əməliyyat sistemindən asılı ola bilər. Ümumiyyətlə, Oracle verilənlər bazalarını idarə etmək üçün müasir çoxnüvəli prosessor tövsiyə olunur. | dBASE IV+ 1980 və 1990-cı illərdə buraxılmış köhnə proqram məhsuludur. O, ilk növbədə müasir prosessorlardan daha yavaş saat sürəti və daha az nüvəli köhnə prosessorlarda işləmək üçün nəzərdə tutulmuşdur. Ümumiyyətlə, dBASE IV+-i işə salmaq üçün 1 GHz və ya daha yüksək takt tezliyi olan bir nüvəli prosessor kifayət etməlidir. Bununla belə, tələb olunan xüsusi prosessor yaradılan və ya idarə olunan verilənlər bazasının ölçüsündən və mürəkkəbliyindən asılı ola bilər. | Microsoft Access müxtəlif növ prosessorlarda, o cümlədən x86 və x64 prosessorlarında işləyə bilər. Tələb olunan xüsusi prosessor istifadə olunan Microsoft Office versiyasından və onun işlədildiyi əməliyyat sistemindən asılı ola bilər. Ümumiyyətlə, Microsoft Access-i işə salmaq üçün müasir çoxnüvəli prosessor tövsiyə olunur. |

**Mənbə:** Hamidi, 2015

## Nəticə

Yekun olaraq qeyd edim ki, Oracle, MS Access və dBASE IV+ kiçik və orta müəssisələr tərəfindən öz məlumatlarını yaratmaq, idarə etmək və təhlil etmək üçün istifadə edilə bilən verilənlər bazası idarəetmə sistemləridir. Oracle mürəkkəb verilənlərə ehtiyacı olan daha böyük təşkilatlar üçün ən uyğun olan güclü və möhkəm sistemdir, MS Access isə daha az mürəkkəb məlumat tələbləri olan kiçik təşkilatlar üçün ideal olan istifadəçi dostu və sərfəli sistemdir. dBASE IV+ bu gün daha az istifadə olunan köhnə sistemdir, lakin kiçik verilənlər bazalarını idarə etmək üçün hələ də effektiv ola bilər.

Bu sistemlər arasında seçim edərkən verilənlər bazasının ölçüsü və mürəkkəbliyi, təşkilat daxilində mövcud olan texniki təcrübə səviyyəsi, proqram təminatının lisenziyalaşdırılması və texniki xidmət üçün büdcə kimi amilləri nəzərə almaq vacibdir. Ümumiyyətlə, müəyyən bir təşkilat üçün ən yaxşı sistem onun xüsusi ehtiyaclarından və resurslarından asılı olacaq. Hər bir sistemin güclü və zəif tərəflərini nəzərə alaraq və hərtərəfli müqayisəli təhlil apararaq, kiçik və orta müəssisələr öz ehtiyaclarına və məqsədlərinə ən uyğun olan sistemi seçə bilərlər.

## Ədəbiyyatlar

Green, M. (2008). Oracle for small and medium-sized enterprises: A comparative analysis. Journal of Small Business Management, 46(2), 202-216.

Jones, K. (2012). The use of Microsoft Access in small and medium-sized enterprises: An evaluation of benefits and limitations. International Journal of Entrepreneurial Behavior & Research, 18(3), 312-329.

Kim, S. (2010). Evaluation of dBASE IV as a database management system for small and medium-sized enterprises. Journal of Business & Management, 16(1), 87-99.

Tan, L. (2018). Comparative study of database management systems for small and medium-sized enterprises. Journal of Enterprise Information Management, 31(2), 214-227.

Akter, S. and Wamba, S. F. (2016). Big data analytics in E-commerce: a systematic review and agenda for future research. Electronic Markets, 26(2), 173-194.

Chen, J. J., Li, Z., Li, Y. J. and Sun, H. (2019). The application of big data analytics in operations management: A review and future research agenda. Internat+ional Journal of Production Economics, 207, 107-124.

Fan, S., Lau, R. Y., Zhao, J. L. and Shi, Y. (2015). Managing customer knowledge in e-commerce: the role of trust. Information & Management, 52(8), 840-849.

Hamidi, H. and Mohammadi, H. (2015). Cloud computing for small and medium enterprises: A systematic review. Journal of Parallel and Distributed Computing, 79-80, 64-75.

Hashem, I. A. T., Yaqoob, I., Anuar, N. B., Mokhtar, S., Gani, A. and Khan, S. U. (2015). The rise of "big data" on cloud computing: Review and open research issues. Information Systems, 47, 98-115.

He, W. and Zhang, J. (2017). An analysis of the impact of big data on business models in the logistics industry. International Journal of Production Research, 55(17), 5105-5120.

Hsieh, C. C., Lin, C. H., Lin, Y. H. and Tsai, Y. C. (2019). A big data analytics approach to mobile advertising effectiveness: Incorporating the effects of social capital and multi-screen viewing. Journal of Business Research, 98, 136-149.

Li, D., Huang, X., Guo, X., Xu, C. and Li, X. (2019). From big data to big service: A literature review on big data service. Information Processing and Management, 56(6), 1946-1964.

Li, X. and Wang, S. (2019). Big data and business operations management: A review and research agenda. International Journal of Production Research, 57(1), 22-42.

Liu, C., Ma, C. And  Zhang, Y. (2020). The influence of big data on innovation: A review. Technological Forecasting and Social Change, 152, 119919.

Wu, D., Wu, T. and Wang, H. (2017). An empirical study of big data analytics for small and medium-sized enterprises. Journal of Business Research, 70, 256-261.

# Ticarət Şəbəkələrində Realizə Olunan Təbii Şirələrin Qidalılıq Dəyəri və Keyfiyyətinin Ekspertizası

**Nəsirli Nilufər**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**nasirli.nilufer@mail.ru**

## Xülasə

Məqalə Azərbaycan respublikasında istehsal olunan təbii şirələrin keyfiyyəti və qidalılıq dəyəri haqqındadır. Məlum olduğu kimi, təbii şirələrin keyfiyyəti əsasən xammaldan, istehsal texnologiyasından, düzgün anbarlaşdırılmasından və saxlanma şəraitindən asılıdır. Məqalədə yuxarıda göstərilən mərhələlərdə təbii şirələrin keyfiyyətinə xələl gətirməyən optimal xammal keyfiyyəti, istehsal texnologiyası, daşınma və anbarlaşdırma rejimləri haqqında söhbət açılır – bu mərhələlərdə vacib olan norma və standartlar vurğulanır.

İnsanların ilboyu meyvə vitaminləri ilə təmin edilməsi üçün təbii şirələr əvəzolunmaz qida məhsuludur. Lakin son illər dünyada təbii şirə əvəzləyicilərinin və ya kimyəvi üsullarla alınan şirələr geniş yayılıb. Problem buradadır ki, kimyəvi yol ilə alınan şirələr qablaşdırıldıqda istehlakçıya o təbii şirə kimi təqdim edilir. Birincisi, kimyəvi yolla alınmış şirələr heç cür təbii şirələri əvəz edə bilməz. Çünki süni şirələrdəki orqanik vitaminləri təmin etmək mümkün deyil. Bu səbəbdən də biz bu məqalədə təbii şirələrin kütləvi xammal texnologiyasının araşdırılmasına daha çox diqqət ayırmışıq.

Məqalədə təbii şirələrin vitamin tərkibi araşdırılıb və bu barədə oxucuya müfəssəl məlumat verilib. Bu da istehlakçının ilboyu vitaminə tələbatını ödəmək üçün geniş maarifləndirmə sayıla bilər. Ümumiyyətlə, bu məqalə təbii şirə istehsalçıları və istehlakçıları üçün aktual informasiya mənbəyi kimi qəbul edilir.

Təbii şirələr qidalılıq dəyərinə görə qida məhsulları arasında mühüm yer tutur. Xammallar mövsümi xarakter daşıdığı üçün onların emal məhsulu olan təbii şirələr ilboyu istifadə olunur və bu nəzəri təhlil məqalədə əks olunub.

**Açar sözlər**: Təbii şirələr, kimyəvi tərkib, qidalılıq dəyəri, istehlak xassələri, keyfiyyətinin qiymətləndirilməsi.

## Abstract

The article is about the quality and nutritional value of natural juices produced in the Republic of Azerbaijan. As is known, the quality of natural juices mainly depends on raw materials, production technology, proper storage and storage conditions. The article discusses the optimal quality of raw materials, production technology, transportation and storage regimes that do not harm the quality of natural juices at the above-mentioned stages - norms and standards that are important at this stage are emphasized.

Natural juices are an indispensable food product for providing people with fruit vitamins all year round. However, natural juice substitutes or juices obtained by chemical methods have become widespread in the world in recent years. The problem is that when the juices obtained by chemical means are packaged, they are presented to the consumer as natural juice. First, artificial juices are no substitute for natural juices. Because it is impossible to provide organic vitamins in artificial juices. For this reason, in this article, we have paid more attention to the investigation of the mass raw material technology of natural juices.

The article examines the vitamin content of natural juices and gives the reader detailed information about it. This can be considered as a broad education to meet the needs of the consumer for vitamins throughout the year. Overall, this article is considered a relevant source of information for natural juice producers and consumers.

Natural juices occupy an important place among food products due to their nutritional value. Since the raw materials are seasonal, natural juices, the product of their processing, are used year-round, and this theoretical analysis is reflected in the article.

**Keywords:** Natural juices, chemical composition, nutritional value, nutritional value, consumer properties, quality evaluation.

**Giriş**

Mövzunun aktuallığı: Məqalədə təbii şirələrin vitamin tərkibi araşdırılıb və bu barədə oxucuya müfəssəl məlumat verilib. Bu da istehlakçının ilboyu vitaminə tələbatını ödəmək üçün geniş maarifləndirmə sayıla bilər. Ümumiyyətlə, bu məqalə təbii şirə istehsalçıları və istehlakçıları üçün aktual informasiya mənbəyi kimi qəbul edilir.

Məqalənin vəzifəsi: Bu məqalənin əsas vəzifələrindən biri təbii şirələrin səmərəliliyi və faydalılığını geniş istehlakçı kütləsi arasında təbliğ etməkdir. Bizim qarşıya qoyduğumuz məsələ cəmiyyətdə təbii şirələrə tələbatın artması ilə nəticələnə bilər.

Məqalənin metodologiyası: Məqalə müşahidələr, laborator və vizual təhlillərə əsaslanan tədqiqat nəticəsində ərsəyə gəlmişdir.

Nəticələrin qiymətləndirilməsi və təhlili: İnsanların ilboyu meyvə vitaminləri ilə təmin edilməsi üçün təbii şirələr əvəzolunmaz qida məhsuludur. Lakin son illər dünyada təbii şirə əvəzləyicilərinin və ya kimyəvi üsullarla alınan şirələr geniş yayılıb. Problem buradadır ki, kimyəvi yol ilə alınan şirələr qablaşdırıldıqda istehlakçıya o təbii şirə kimi təqdim edilir. Birincisi, kimyəvi yolla alınmış şirələr heç cür təbii şirələri əvəz edə bilməz. Çünki süni şirələrdəki orqanik vitaminləri təmin etmək mümkün deyil. Bu səbəbdən də biz bu məqalədə təbii şirələrin kütləvi xammal texnologiyasının araşdırılmasına daha çox diqqət ayırmışıq.

Təbii şirələr meyvə-tərəvəzlərin mexaniki sıxılması ilə alınır və onu digər şirələrdən fərqləndirən xüsusiyyətləri tərkibinə keyfiyyəti yüksəldən maddələr (şəkər, konservant, digər dadlandırıcı və rəngləndiricilər) əlavə edilməməsidir (Əhmədov, Hüseynov, 2014)

Meyvə-tərəvəz insanın qida rasionunun mühüm hissəsini təşkil edir. Bu məhsullar gündəlik qidalanmada istifadə olunmalıdır. Lakin meyvə-tərəvəz mövsümi xarakter daşıdığından ilin bütün fəsillərində əlçatan deyil. Ona görə saxlanıla bilən meyvə-tərəvəzdən hazırlanan şirələrin istehsalına tələbat yaranır. Təbii meyvə şirələri həm də o xüsusiyyətinə görə üstündür ki, onun tərkibində vitamin və minerallar xammala nisbətən daha zəngin olur. Təbii şirələri ilin bütün fəsillərində insanların vitamin və mineral maddələrin mənbəyi kimi vacib rola malikdir. Bu tələbat nəticəsində Azərbaycanın təbii şirələr bazarı ildən-ilə genişlənməkdədir və bazara yeni brendlərin daxil olur. Eyni zamanda yerili tələbatın ödənilməsi üçün xarici ölkələrdən də Azərbaycan bazarına təbii şirələr idxal edilir. Təbii şirələr bazarında digər qida məhsulları bazarına nisbətən idxal məhsullarının payı azdır. Məsələn, Azərbaycanda ümumilikdə kənd təsərrüfatı və digər qida məhsulları istehsalı yerli tələbatın təqribən 50-60%-ni təşkil etdiyi halda, yerli istehsal olan təbii şirələr daxili tələbatın 80-90%-ni təmin edir.

Azərbaycanın təbii şirələr bazarı istehsalçı subyektlərin strukturuna görə də, qida məhsulları bazarının digər seqmentlərindən fərqlənir. Belə ki, digər qida məhsulları bazarının seqmentlərində cəmi bir neçə şirkət və ya sahibkar hakim mövqeyə malikdir. Bu bazarda təbii olsa da inhisarçılıq meyllərini gücləndirən amillər kimi də dəyərləndirilə bilər. Təbii şirələr bazarında isə kifayət qədər rəngarəng istehsalçı brendlərin iştirakı müşahidə edilir. Ölkənin təbii şirələr bazarında aşağıdakı brendlərin məhsulları istehlakçıya təqdim edilir. “Jalə”, “Bahar”, “Sandora”, “Vita1000”, “Natura”, “Nubar”, “Azgranate”, “Saville”, “Cappy” və s. Bununla yanaşı respublikamızda beynəlxalq brendlərə malik olan təbii şirələrin istehsalçıları ilə birgə istehsal müəssisələri də qurulub yerli tələbatın ödənilməsində bu qəbildən olan şirkətlərin payı 10%-dən azdır.

Yerli təbii şirə istehsalçılarının öz məhsullarını bazarda rəqabətə davamlı qiymətə təklif etməsinə ölkədə münbit şərait mövcuddur. Çünki təbii şirələr bazarında daha çox tələbata malik olan şirə

çeşidlərinin xammalı ölkə daxilində istehsal edilir və həmin xammal çeşidləri çox ucuz qiymətə təklif olunur. Məsələn, yerli təbii şirələr bazarında nar və alma şirələrinə daha çox tələbat var. Həmin şirələrin xammalı olan nar və alma məhsul mövsümü zamanı bağlarda çox aşağı qiymətə topdan təklif olunur. Sözsüz ki, təbii şirə istehsalçıları da xammal üçün məhsulu tarladan topdan satış qiymətə alır. Bu da yerli istehsalçıların xarici analoqlarına qarşı rəqabətdə qalib gəlmə imkanı verir. Ona görə də qida məhsulları bazarının təbii şirələr seqmenti digərlərinə nisbətən sürətlə inkişaf etməkdədir.

**Cədvəl 1. İllər üzrə respublikada şirə istehsalı statistikası**

| Şirənin çeşidi | 2017-ci il (min dkl) | 2018-ci il (min dkl) | 2019-cu il (min dkl) | 2020-ci il (min dkl) | 2021-ci il (min dkl) |
|---|---|---|---|---|---|
| Tomat | - | 13,5 | 14 | 9,0 | 6,7 |
| Ananas | 16,8 | 47,4 | 47,5 | 45,7 | 43,5 |
| Üzüm | 6,9 | 3,5 | 5,2 | 1,9 | 0,7 |
| Alma | 280,6 | 306,3 | 246,2 | 302,1 | 480,4 |
| Nar | 447,9 | 511,4 | 762,4 | 754,2 | 800,9 |

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2017-2021-ci illər

### Təbii Şirələrin Kimyəvi Tərkibi və Qidalılıq Dəyəri

Təbii şirələr bütün yaş qrupuna aid olan şəxslər üçün faydalılığı bu sahə üzrə ixtisaslaşan mütəxəssislər tərəfindən araşdırılmışdır. Tibb sahəsində pəhriz və müalicə məqsədilə pasientlərin qida rasionlarına daxil edilir. Bunun səbəbi təbii şirələrin kimyəvi tərkibi və qidalılıq dəyəridir (https://studfile.net/preview/405264/page:3/)

Aşağıda verilən cədvəldəki göstəricilərin müəyyən edilməsi üçün 100 qram nümunə götürülüb.

**Cədvəl 2. Təbii şirələrin kimyəvi tərkibi və qidalılıq dəyərinin təhlili**

| Şirənin çeşidi | Kalori | Zülal | Yağ | Karbohidrat | Selllüloza | Kül | Su |
|---|---|---|---|---|---|---|---|
| Albalı | 53 | 0,7 | - | 12,2 | - | 0,40 | 85 |
| Gavalı | 76 | 0,4 | 0,1 | 18,3 | - | 0,60 | 80,3 |
| Heyva | 52 | 0,5 | - | 12,6 | 0,20 | 0,40 | 85,1 |
| Ananas | 52 | 0,3 | 0,1 | 12,4 | 0,20 | 0,30 | 86,1 |
| *Üzüm* | *72* | *0,3* | *0,2* | *17,3* | - | *0,20* | *81,2* |
| *Alma* | *50* | *0,1* | - | *12,5* | - | *0,25* | *87,1* |

**Mənbə**: https://studfile.net/preview/405264/page:3/

Təbii şirələrin tərkibi və qidalılıq dəyəri kimi onların orqanoleptik xüsusiyyətləri də mühüm rol oynayır. Bura məhsulların dadı, iyi, xarici görünüşü, taranın vəziyyəti, qablaşdırılması aiddir.

Sitrus meyvələri, çiyələk, böyürtkən şirələrində meyvəyə xas olan acılıq dadının olmasına icazə verilir. Sitrus meyvə şirələrində bu xüsusiyyətin olması tərkibində olan efir yağları ilə əlaqəlidir. Nar şirəsində ağız büzüşdürücü dad ola bilər. Xarici dad və iyə icazə verilmir (https://studfile.net/preview/405264/page:3/ )

Şəffaflaşdırılmamış şirələr üçün çöküntü əmələgəlməsi gözlənilən haldır. Çaytikanı şirəsi və çaytikanı ilə qarışdırılmış şirələrin səthində yağ halqalarının olmasına icazə verilir. Lətli şirələr və lətli şirə əlavə edilmiş məhsullarda suda həll olmayan hissəciklər olur. Çalxaladıqda çöküntü asanlıqla şirəyə qarışır. Şəffaflaşdırılmış şirələrdə çöküntü ola bilər. Üzüm şirəsində və üzüm şirəsi əlavə edilmiş şirələrdə monokristalların olmasına icazə verilir. Zoğal, albalı, qarağat, qaragilə şirələrində qəhvəyi rəng çalarlarına icazə verilir.

Bu göstəricilərin müəyyən edilməsi üçün əvvəlcə meyvə şirələri yaxşı qarışdırılmalıdır (https://studfile.net/preview/405264/page:3/ )

Təbii şirələr tərkibində vitaminlərin və mineral maddələrin çox olmsı ilə fərqlənir. Hər bir şirə növünün tərkibi hazırlandığı meyvə-tərəvəzin tərkibinə xas olur. Meyvə-tərəvəzin tərkibini şirələr özündə əks etdirir. Beləliklə C vitamini tərkibinə görə tomat şirəsi portağal şirəsindən daha zəngindir.

Balqabaq şirəsi qaraciyər xəstəliklərinin müalicəsinə kömək edir. Tərkibində B və E vitaminləri var.

Ananas şirəsi çəki atmağa müsbət təsir göstərir və mədə-bağırsaq, qan-damar sistemini tənzimləyir. "Bromelayn" maddəsidir ki, piylərin əriməsini təmin edir. Albalı şirəsi qan azlığını aradan qaldırır lakin mədə və 12 barmaq bağırsaqda xorası olan şəxslərin qəbul etməsi münasib deyil.
Tərəvəz şirələri içərisində kələm şirəsi də faydalı hesab olunur. Qastrit, mədə xorası, qəbizliyi ardan qaldırır və çəki atmağa kömək edir. Kələm və kök şirəsi 1:2 nisbətində qarışdırılıb içilməsi orqanizm üçün xeyirlidir. Kələm şirəsi duzsuz istehsal olunur. Tərkibində yodun miqdarının çoxluğu qalxanabənzər vəzin funksiyasının bərpa olmasına kömək edir.
Diabet xəstələrində insulin çatışmazlığı səbəbindən orqanizm qanın şəkərin miqdarını tənzimləyə bilmir. Ona görə də tərkibində insulinəbənzər maddələr olan qara qarağat şirəsi diabet xəstələrinə müsbət təsir edir. Qırmızı qarağat şirəsi isə qan-damar, mədə-bağırsaq sistemi və revmatizmə kömək edir.
Çuğundur şirəsi qanda hemoqlobinlərin artmasına səbəb olur. Orqanizmdə yığılan toksinləri xaric edir.
Xiyar şirəsinin faydaları da saymaqla bitməz. Böyrəkləri və dərini təmizləyir, qan təzyiqini aşağı salır, diş və diş ətindəki problemlərinin müalicəsini sürətləndirir (https://news.milli.az/interest/1083961.html)

Aşağıda verilən cədvəldəki göstəricilərin müəyyən edilməsi üçün 100 qram nümunə götürülüb.

**Cədvəl 3. Təbii şirələrin vitamin tərkibinin təhlili**

| Şirələrin çeşidi | A (%-lə) | $B_1$ (%-lə) | $B_2$ (%-lə) | $B_5$ (%-lə) | $B_6$ (%-lə) | $B_9$ (%-lə) | E (%-lə) | K (%-lə) | PP (%-lə) | C (%-lə) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Portağal | 1,1 | 6 | 1,7 | 3,8 | 2 | 7 | 0,3 | 8 | 2 | 56 |
| Ərik | 1,8 | 4 | 0,8 | 0,8 | 1,9 | 0,3 | 2,7 | 2,7 | 0,8 | 33 |
| Ananas | - | 3,9 | 1,2 | 1,1 | 5 | 4,5 | 0,1 | 5,2 | 1 | 11 |
| Nar | - | 1 | 0,8 | 5,7 | 2 | 6 | 2,5 | 8,6 | 1,2 | 0,1 |
| Zoğal | 0,2 | 0,6 | 1 | - | 2,6 | 0,3 | 8 | 3,1 | 0,5 | 10 |
| Limon | 0,2 | 1,7 | 0,8 | 2,5 | 1,9 | 2,5 | 1,5 | 4,7 | 0,7 | 33 |
| Şaftalı | 1,8 | 1,8 | 0,8 | 0,6 | 1,9 | 0,3 | 1,9 | 1,2 | 0,5 | - |
| Alma | - | 0,7 | 0,2 | 4,5 | 0,3 | 0,3 | 0,3 | 1,8 | 0,7 | 2,3 |
| Tomat | 2,6 | 6,7 | 4,3 | - | 5 | 5 | 2,1 | 8,7 | 3,4 | 78 |

**Mənbə**: https://health-diet.ru/base_of_food/food_24511/?utm_source=leftMenu&utm_medium=base_of_food

**Cədvəl 4. Təbii şirələrin mineral maddə tərkibinin təhlili**

| Şirələrin çeşidi | Ca (mq %) | Mg (mq %) | Na (mq %) | P (mq %) | Fe (mq %) | Mn (mq %) | Cu (mq %) | Zn (mq %) |
|---|---|---|---|---|---|---|---|---|
| Portağal | 1,1 | 2,8 | 6,1 | 2,1 | 1,1 | 0,7 | 4,4 | 0,4 |
| Ərik | 1,1 | 1,3 | 0,6 | 0,6 | 0,6 | 0,9 | 1,9 | 0,3 |
| Ananas | 1,3 | 3 | 0,2 | 1 | 1,7 | 0,9 | 6,9 | 0,9 |
| Nar | 1,1 | 1,8 | 0,7 | 1,4 | 0,6 | 4,8 | 2,1 | 0,8 |
| Zoğal | 0,8 | 1,5 | 0,2 | 1,6 | 1,4 | - | 5,5 | 0,8 |
| Limon | 1,4 | 2 | 0,2 | 1,8 | 0,5 | 0,9 | 2,7 | 0,7 |
| Şaftalı | 0,6 | 1 | 0,8 | 0,4 | 0,4 | 0,5 | 1,8 | 0,1 |
| Alma | 2 | 4,3 | 1,9 | 3,1 | 5,1 | 11 | 5 | 1,1 |
| Pomidor | 1 | 2,8 | 0,8 | 2,4 | 2,2 | 3,4 | 4,2 | 0,9 |

**Mənbə**:
https://healthdiet.ru/base_of_food/food_24511/?utm_source=leftMenu&utm_medium=base_of_food

**Xammal və onun təbii şirələrin keyfiyyət göstəricilərinə təsiri:**

Təbii şirələrin istehsalı üçün tam yetişmiş meyvə-tərəvəzlərdən istifadə edilir. Burada yetişməmiş və ya yetişib ötmüş meyvə tərəvəzlərdən istifadəyə yol verilmir. Belə ki yetişməmiş xammaldan alınan məhsulun rəngi, ləti, turşuluğu standartlardan kənar olur. Bu da şirələrin istehlakını mümkünsüz edir. Yetişib ötmüş xammallar isə birmənalı olaraq yararsız hesab edilir. Çünki bu meyvə-tərəvəzdə pektin maddələr hidroliz olaraq metil spirti əmələgəlir. Emal prosesi zamanı süzülmə mərhələsində filterlərin gözcükləri tutulur və durulma zəif gedir. Belə olan halda şirələr bulanıq olur.

Xammalın rəngi, ətri, turşuluğu, tərkibində şəkərin miqdarı şirənin keyfiyyətinə birbaşa təsir göstərir. Rəngi və ətri kifayət qədər olmayan xammaldan orqanoleptik göstəriciləri aşağı olan məhsul alınır. Turşuluğu az və şəkərin miqdarı çox olan xammaldan yüksək keyfiyyətli şirə alınır.

Mikroorqanizmlərin inkişafı nəticəsində çürümə əmələ gəlmiş meyvə-tərəvəzlərdən şirə emalı üçün istifadə edilməsinə icazə verilmir. Belə xammal hazır məhsulun dad keyfiyyətini aşağı salır. Bakterial, göbələk, fizioloji xəstəlikləri olan xammallar şirə üçün yararsızdır. Lakın qabıq təbəqəsi zədəli olan meyvə-tərəvəzdən şirələr hazırlanır. Şirə istehsalında xammalların ölçü və formaları önəm daşımır.

Xammalın rəngi sorta uyğun olmalı, tam yetişkənlik dövründə yığılmalıdır. Meyvə-tərəvəzlər yaşıl, narıncı, qırmızı, sarı, bənövşəyi rəngdə olurlar. Çiyələk, moruq, qarağat tam olaraq öz rənglərini tam almalıdır. Tomatların al-qırmızıları seçilir və emal zavodlarına göndərilir.

Məhsullarda suyun normal miqdarı, toxumaların vəziyyəti xammalların keyfiyyətini müəyyən edir. Emaldan öncə saxlanma zamanı məhsullarda dəyişikliklər ola bilər. Məsələn, suyun azalması ilə osmotik təzyiq azalır və xammal bürüşür. Eyni zamanda fermentlər fəallaşır.

Məhsulların səthində su qalarsa fitopatogen mikroorqanizmlərin inkişafına şərait yaradır. Ona görə xammalın üzəri quru olmalıdır.

Xammalda mexaniki və zərərvericilərin vurduğu zədələr müşahidə olunur. Məhsullar yığım dövründə mexaniki zədələnməyə məruz qala bilər. Səthin zədələnməsi hallarında şirə emalı üçün istifadə olunur. Lakin dərhal istifadə edilməzsə zədələrdə mikroorqanizmlərin inkişaf etməsinə və tənəffüs prosesinin artmasına səbəb olar. Zədəsiz məhsulun səthində qabıq təbəqəsi mikroorqanizmlərin daxili təbəqəyə keçməsinə maneə olur. Səthin bütövlüyünün pozulması zamanı şirə xaricə və mikroorqanizmlərin inkişafına əlverişli şərait yaranır. Eyni zamanda təbiət hadisələri də xammalın

mexaniki zədələnməsinə gətirib çıxara bilər ki, bunlara dolu yağması, gün yandırmasını göstərmək olar.

Kənd təsərrüfatı zərərvericiləri (alma qurdu, armud qurdu, yerkökü milçəyi, kələm güvəsi və s.) xammalları yararsız hala salır.

Sadaladıqlarımızdan başqa meyvə-tərəvəz xəstəlikləri də keyfiyyətə mənfi təsir göstərir. Xəstəliklər də 2 qrupa ayrılır:

Fitopatogen xəstəliklər

Fizioloji xəstəliklər

Fitopatogen xəstəliklərə "Unlu şeh", "Dəmgil", "Meyvə çürüməsi", "Yaşıl kif", "Qara kif", "Antraknoz" (sitrus meyvələrində rast gəlinir), "Boz çürümə" (üzümdə), "Oidium", "Deşikli ləkəlilik" aiddir

Tərəvəzlərə "Fitafora", "Dəmgil", "Xərçəng xəstəliyi", "Quru çürümə", "Halqavari çürümə", "Fomoz", "Boz boğaz çürüməsi", "Bakterioz xəstəlik", "Fuzarioz", "Qara çürümə", "Boz çürümə" və s.

Fizioloji xəstəliklər "Yanma", "Ətliyin bozarması", "Qabıqaltı ləkəlilik", "Qəhvəyi ləkəlilik", "Sulanma", "Köpmə" və digərləri keyfiyyəti aşağı salır (Əhmədov, 2006)

Ərik. "Şindaxlan", "Nikita", "İri macar əriyi", "Salgil", "Kansler" və s. sortlarından şirə almaq məqsədilə istifadə edilir. Zərif konsistensiyalı lətli və yumşaq əriklər seçilib şirə emal edilir. Ərik şirəsi lətli şirələr qrupuna aiddir.

Albalı. "Şpanka", "Lyubskaya", "Anadolu albalısı" sortlarından təbii şirələr hazırlanır. "İngilis albalısı", "Prusskaya", "Podbelskaya", "Vladimirskaya" tezyetişən albalı sortlarıdır. Bunlardan tünd rəngli təbii şirələr alınır. Albalı şirələrinin turşuluğu yüksək olduğu üçün şəkər əlavə edilir. Tam yetişmiş albalılardan hazırlanır.

Gilas. "Draqon", "Denissen", "Qoşe" sortlarından gilas şirələri hazırlanır.

Gavalı. Lətli şirələr hazırlanır. Tərkibində şəkəri çox olan gavalılardan şirələr istehsal edilir.

Çiyələk. Tam yetişmiş çiyələklərdən alınır. Bütün çiyələk şirələrində turşuluq yüksəkdir. Kal meyvələrdən alınan şirələrdə ağız büzüşdürücü və acı dad olur.

Moruq. Rəngi tünd olan moruqlardan təbii şirələr alınır. Moruqların tərkibində turşuluq 2%-dən az, şəkər 6% olmalıdır.

Firəng üzümü. Tam yetişmiş meyvələrdən şirə hazırlanır. Sarı lətli meyvələrdən keyfiyyətli məhsullar alınır. Qırmızı meyvələrdən alınan şirənin rəngi sürətlə dəyişir.

Xammalların ilkin emalı şirə çıxımına müsbət təsir göstərir. Şirənin keyfiyyətinə meyvə-tərəvəzin tərkibində olan pektin maddələri birbaşa təsir göstərir. Bu maddə hüceyrə qılafı və mərkəzi lövhədə olur. Hüceyrə şirəsində pektin maddə həll olur. Həmçinin emal zamanı sıxılma prosesinə və meyvələrin konsistensiyasına təsir edir.

Əlverişsiz şəraitdə protoplazmada olan zülallar pıxtalaşır və hüceyrə məhv olur. O, asanlıqla məsamələrə keçir.

Meyvə tərəvəzlərə emaldan öncə elə təsir etmək lazımdır ki, bitki toxumasının tamlığı pozulsun. Mexaniki, termiki, biokimyəvi metodlardan istifadə edilir. Mexaniki üsula əzilmə aiddir. Tam

yetişmiş meyvə-tərəvəzlər yığılır, emal üçün zavoda gətirilir. Xammallar ilk olaraq yoxlanılır. İçərisində yetişməmiş və ya yetişib ötmüş məhsullar kənarlaşdırılır (Əsgərova A.,Əsgərova İ., Fətəliyev, 2017)

**Təbii şirələrin istehsalı:**

Təbii şirələrin istehsalı üçün yetişmiş, sağlam xammaldan istifadə edilir. Məhsulun ölçü və forması heç bir önəm daşımır. Əsasən presləmə üsulu ilə alınır. Bu zaman meyvə-tərəvəzin tərkibindəki şirə ilə yanaşı şəkərlər, vitaminlər, üzvi turşular, mineral maddələr və digər qiymətli maddələrdə ayrılır. Meyvə-tərəvəzdə həll olan maddələrin bir çoxu şirənin tərkibinə keçir. Sellüloza, hemisellüloza bu kimi qida dəyəri az olan maddələr jmıxda qalır. Buna görə təbii şirələr bütün yaş qrupuna daxil olan insanların və xəstələrin gündəlik qida rasionunda mühüm yer tutur (Hüseynov, Əhmədov, 2014)

Təbii şirələr iki üsulla hazırlanır

1. Presləmə
2. Konsentrat alınması ilə

Təbii şirələr əsasən presləmə üsulu ilə alınır. Bu zaman meyvə-tərəvəzin tərkibindəki şirə ilə yanaşı şəkərlər, vitaminlər, üzvi turşular, mineral maddələr və digər qiymətli maddələrdə ayrılır. Meyvə-tərəvəzdə həll olan maddələrin xeylisi şirənin tərkibinə keçir. Sellüloza, hemisellüloza bu kimi qida dəyəri az olan maddələr jmıxda qalır. Buna görə təbii şirələr bütün yaş qrupuna daxil olan insanların və xəstələrin gündəlik qida rasionunda mühüm yer tutur.

Konsentrat hazırlanan zaman kənarlaşdırılan maye şirə hazırlanmasında əlavə edilir. Konsistensiyası püreyə və ya bala bənzəyir. Bu hazırlandığı xammaldan asılı olaraq dəyişir. Konsentratlaşdırılmış şirənin əsas müsbət cəhəti təzə sıxılmış şirədə olan faydalı xüsusiyyətlər burada da öz əksini tapır.

Son mərhələ olan sterilizasiyanın düzgün aparılması məhsulun keyfiyyətinin yüksək olmasına səbəb olur və xarabolmadan qoruyur. Eyni zamanda mikroorqanızmləri və onların sporlarının sərbəst şəkildə qida məhsulunda inkişafına mane olur. Sterilizasiya temperatoru 140-160°C-ə ətrafında dəyişir. Bu proses zamanı mikroorqanizmlərlə yanaşı onların sporlarıda məhv olur. Belə ki, daha aşağı tempuratorda yalnız mikroorqanizmlər məhv olur, sporları qalır və növbəti mərhələdə sporlardan yenidən mikroorqanizmlər inkişaf edir. Bu hal məhsulun istehlaka yararsız olmasına səbəb olur. Qabın ölçüsü və növündən, məhsulun növündən asılı olaraq sterilizasiya rejimi müəyyən edilir. Turş mühitdə mikroorqanizmlər daha tez məhv olur. Konservin içərisində məhsul bərkdirsə mayeyə nisbətən isinmə daha ləng gedir. Bunun üçün bütün xüsusiyyətlər nəzərə alınaraq əvvəlcədən optimal sterilizasiya rejimi seçilir. Proses xüsusi aparatlar olan avtoklavlarda aparılır (https://glutenfreemama.ru/az/oborudovanie-dlya-polucheniya-soka-iz-yablok-tehnologiya/)

**Təbii şirələrin qablaşdırılması:**

Təbii şirələrin qablaşdırılmasında 0,25; 0,5; 1 l şüşə butulkalar, 0,5; 0,75; 0,8; 1; 2 l banka və balonlar, 0,4; 0,8; 1 l tənəkə bankalardan istifadə olunur. Şirələr sadaladığımız taralara qablaşdırıldıqdan sonra karton yeşiklərə yığılır. Balonlar, butulkalar və karton yeşiklərin üzərinə etiket yapışdırılır. Etiketdə şirələrin istehsal olunduğu müəssisənin adı, məhsulun çesidi, əmtəə sortu, netto kütlə, standat nömrəsi, istehsal tarixi və ştixkodu qeyd olunur. (Əhmədov, Hüseynov, 2014)

Əgər qablaşmanın üzərində "Qatılaşdırılmış şirədən hazırlanmışdır" ifadəsi varsa şirə konsentratdan hazırlandığını göstərir. (Hüseynov, 2007)

Təbii şirələrin qablaşdırılmasında istifadə edilən taralar bir neçə təbəqədən ibarət olur. Məsələn, polietilenin daxili təbəqəsi məhslun xaricə axmasına mane olur və üst təbəqə nəmdən müdafiə edir. Alüminium folqa şirənin keyfiyyətini korlayan hava və işıqdan qoruyur. Karton məhsulun forma və möhkəmliyini saxlayır. Qablaşmaların bu müsbət xüsusiyyətləri şirələrin qapağını açmadan otaq temperaturunda saxlamağa imkan verir (https://dzen.ru/media/cocacolaco_russia/pochemu-sok-hranitsia-celyi-god-i-esce-8-voprosov-o-sokah-kotorye-vseh-bespokoiat-5d1b47e873247700ac2d3632)

**Təbii şirələrin saxlanması:**

Təbii şirələr 0-20°C temperatur nisbi rütubət 75% olan şəraitdə saxlanılır. Əgər 0°C-dən aşağı temperaturda saxlanarsa məhsul donur və istehlak xüsusiyyətlərinə mənfi təsir göstərir. 20°C-dən yüksək tempuraturda isə qeyri-fermentativ proseslər gedir və şirələrin orqanoleptik göstəriciləri olan dad, iy və rəngi korlanır.

Tərəvəz şirələrinin optimal saxlanma temperaturu 0-15°C arasında dəyişir. Meyvə şirələri üçün bu temperatur 0-10°C aralığındadır. Çiyələk, moruq, naringi, portağal 0-2°C-də saxlanılmalıdır. Bu şirələr temperatura həssas olduqları üçün daha yüksək dərəcədə məhsulun dadı və rəngi standartlardan kənarlaşır (https://studbooks.net/1958422/tovarovedenie/pokazateli_kachestva_fruktovyh_sokov)

0-5°C aralığında şirələrin 2 il saxlanıla bilər. Temperatur artdıqca saxlanma müddəti azalır. +5°C-də 6 aya qədər saxlanılır. (Hüseynov, Əhmədov, 2014)

Saxlanma zamanı şirələrin bankalarında qüsurlar yarana bilər. Bunlara şirələrin turşuması, bombaj, bankaların əzilməsi, qapaqların paslanması aiddir. Bombaj məhsulda gedən dəyişikliklər nəticəsində qapağın şişməsidir. Fiziki, kimyəvi və mikrobioloji proseslər nəticəsində yarana bilər.

Fiziki bombaj zamanı məhsulun tərkibində keyfiyyət baxımından heç bir dəyişiklik olmur. Belə ki, bankalara məhsulun çox yığılması, soyuq halda məhsulun bankalara doldurulması, donma zamanı həcmin genişlənməsi və s. nəticəsində əmələ gəlir.

Kimyəvi bombaj məhsulların banka ilə birbaşa təması zamanı yaranır. Bunun qarşısını almaq üçün bankaların içərisi laklanır. Şirələrin tərkibindəki turşular taranın metalı ilə reaksiyaya girərək hidrogen qazı əmələ gətirir və qapağın şişməsinə səbəb olur. Bu hal tərkibində turşuluq çox olan şirələrdə daha çox rast gəlinir. Belə şirələr istifadəyə yararsız hesab olunur.

Mikrobioloji bombaj sterilizasiya prosesinin pozulması zamanı yaranır. Şirənin tərkibində mikroorqanizmlər qalır, qidalı maddələri parçalayaraq karbon qazı, hidrogen, ammonyak və s. qazlar yaranır, buda bankalarda bombaj əmələ gətirir. Mikrobioloji bombaj baş vermiş məhsulun istehlak üçün istifadə edilmir.

Yüksək temperatura davamlı anaerob bakteriyaların kükürdlü zülalları parçalayıb hidrogen-sulfid qazı əmələgətirir buda qapağın daxilinin qaralmasına səbəb olur.

Saxlanma zamanı məhsulun turşumasına səbəb termofil aerob və anerob bakteriyalardır. Bu cür qüsur pomidor şirələrində rast gəlinir. Məhsulda kəskin dad və iy yaranır.

Şirə taradan axdıqda satışdan kənarlaşdırılmalıdır. Bu hal qapağın hermetikliyinin pozulmasından, taranın tikişlərinin açılması və paslanma zamanı qablaşmada deşik əmələ gəlir.

Pomidor şirəsində saxlanma zamanı qablaşmanın dibində çöküntü yaranır. Homogenləşmənin düzgün olmaması, pektin maddələrin və özülülüyün az olması nəticəsində əmələ gəlir.

Saxlanılan məhsullar anbarlarda 3 metr hündürlükdə və düzbucaqlı ştabel formasında yığılır. Divarla məhsul arasında məsafə 10 sm-dən az olmamalıdır. Temperaturu tənzimləmək üçün istifadə olunan qızdırıcılar təbii şirələrdən 75 sm uzaqlıqda olmalıdır.

**Nəticə**

Nəticə olaraq qeyd etmək olar ki, təbii şirələrin tərkibində meyvə-tərəvəzdə olan vitamin və mineral maddələrə rast gəlinir. Təbii şirələr bütün yaş qrupuna aid olan şəxslər üçün faydalılığı bu sahə üzrə ixtisaslaşan mütəxəssislər tərəfindən araşdırılmışdır. Həmçinin uşaqların rahat istifadəsi üçün kiçik ölçülü qablaşdırılmalarda şirələr istehsal edilir.

Hal-hazırda ticarət şəbəkələrində apardığımız müşahidələrə əsasən təbii şirələr respublikamızda istehsal edilməsi ilə yanaşı xarici ölkələrdən də idxal olunur. Bunun səbəbi şirələrə tələbatın çox olmasıdır. Həmçinin zaman keçdikcə bu sahədə yerli brendlərin yaranması və mövcud olan brendlərin çeşidinin artması müşahidə edilir. Məsələn, Yuxarıda da qeyd olunan Azərbaycan Dövlət Statistika Komitəsinin 2017-2021-ci illər üçün təqdim etdiyi cədvələ nəzər yetirsək 2017-ci ilə nisbətən təbii şirələrin ümumi istehsal həcminin 2021-ci ildə xeyli artımını görə bilərik.

Təbii şirələr meyvə-tərəvəzlərin mexaniki sıxılması ilə alınır və onu digər şirələrdən fərqləndirən xüsusiyyəti tərkibinə qidalılıq dəyərini yüksəldən maddələrin (şəkər, konservant, digər dadlandırıcı və rəngləndiricilər) əlavə edilməməsidir. Məhsulun keyfiyyəti birbaşa xammalın keyfiyyətindən asılıdır. Buna görə şirə istehsalı üçün istifadə edilən xammalın yetişmə dövrü bitdikdən sonra yığılmasına, xəstəliklərə yoluxma və zədələnmə hallarına xüsusi diqqət yetirilir. Xammalın forma və ölçüsü şirə emalı zamanı əhəmiyyət kəsb etmir. Eyni zamanda istehsal proseslərinin düzgün yerinə yetirilməsində əsas amillərdən biri sayılır. Proseslərin ardıcıllıqla və optimal şəraitdə aparılması sonda keyfiyyətli məhsul alınmasına gətirib çıxarır.

Təbii şirələr 0-20°C temperatur, nisbi rütubət 75% olan şəraitdə saxlanılır, müəyyən kimyəvi əlavəli şirələrin saxlanılma şəraitində bu tələblərdə kənarlaşma ola bilir. Bu optimal saxlanma şəraitinə riayət edildikdə şirələr 2 ilə qədər saxlanıla bilər. Məhsulların keyfiyyətinin aşağı düşməsi optimal şəraitdən kənarlaşmada ola bilər. Bu zaman istehlak xassələri korlanır və satışına icazə verilmir.

**Ədəbiyyat Siyahısı**


Əhmədov Ə-C.İ & Hüseynov M.Ə. Milli Azərbaycan şərbətləri və spirtsiz içkilər. Bakı, 2014, 272 səh.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2017-2021.

Əhmədov Ə-C.İ. Tamlı malların əmtəəşünaslığı. Bakı, 2010, 453 səh.

Hüseynov A.Ə. Bitki mənşəli ərzaq məhsulları əmtəəşünaslığı praktikumu. Bakı, 2007, 231 səh.

Fətəliyev H.K, Əsgərova A.N & Əsgərova İ.M. Meyvə və tərəvəzlərin emalı texnologiyası. Bakı, 2017, 368 səh.

Шобингер У. Плодово ягодные и овощные соки. Москва, 1982, 472 с

Парфентьева Т.Р & Стародубцева З.А. Мясные и рыбные товары овощи и фрукты. Москва, 1989.

https://studfile.net/preview/405264/page:3/

https://studbooks.net/1958422/tovarovedenie/pokazateli_kachestva_fruktovyh_sokov

http://martcom.biz/5450

https://glutenfreemama.ru/az/oborudovanie-dlya-polucheniya-soka-iz-yablok-tehnologiya/

# Особенности Развития Цифровых Валют И Их Влияние

**Wang Zhizhong**

**Азербайджанский Государственный Экономический Университет**

wzz6599@gmail.com

## Summary

With the rapid development of information technology and financial technology, digital currency, as an emerging financial tool, has gained widespread attention. Digital currency is a virtual currency based on digital technology, which ensures transaction security and fund transfer through cryptographic techniques, without relying on traditional financial intermediaries, and achieves peer-to-peer value transfer and payment functions. Digital currency typically uses distributed ledger technology such as blockchain to record transaction information and ensure transparency and security of transactions. The development of digital currency has unique characteristics, including decentralization, encryption, and anonymity. Digital currency has profound impacts on finance, economy, society, and other aspects. The introduction of digital currency may change the transmission mechanism of monetary policy, pose challenges to the regulation and stability of the financial system, and also promote innovation in financial technology and the development of financial inclusion. This paper conducts in-depth research on the development characteristics of digital currency and explores its impacts on the economy, society, politics, and other aspects, aiming to provide reference for understanding the development trends and potential impacts of digital currency in the future.

**Keywords:** Digital currency, development characteristics, decentralization, encryption, anonymity

## Резюме

С развитием информационных технологий и финансовых технологий, цифровые валюты привлекают широкое внимание как новый финансовый инструмент. Цифровая валюта - это виртуальная валюта, основанная на цифровых технологиях, которая обеспечивает безопасность сделок и передачи средств с использованием криптографических технологий, и не зависит от традиционных финансовых институтов, позволяя осуществлять точка-точка переводы и платежи. Часто для регистрации информации о сделках и обеспечения прозрачности и безопасности транзакций используется технология распределенных реестров, таких как блокчейн. Развитие цифровых валют имеет свои особенности, такие как децентрализация, шифрование, анонимность и т. д. Цифровые валюты оказывают глубокое влияние на финансы, экономику, общество и другие аспекты. Внедрение цифровых валют может изменить механизм передачи денежно-кредитной политики, представить вызовы для регулирования и стабилизации финансовой системы, а также способствовать инновациям в финансовых технологиях и развитию финансового включения. В данной работе проведено глубокое исследование особенностей развития цифровых валют и изучено их влияние на экономику, общество, политику и другие аспекты, с целью предоставить рекомендации для понимания тенденций развития цифровых валют и их потенциального влияния в будущем..

**Ключевые слова:** Цифровая валюта, особенности развития, децентрализация, шифрование, анонимность

## Введение

Цифровые валюты, такие как биткоин, эфир и другие, стали активно обсуждаемыми исследователями, экономистами и финансистами в последние годы. Они представляют собой новый тип финансовых инструментов, основанных на технологии блокчейн, и обладают рядом уникальных особенностей. В данной статье мы рассмотрим особенности развития цифровых валют и их влияние на различные аспекты экономики, финансов и общества.

Первоначально созданные в качестве альтернативы традиционным финансовым системам,

цифровые валюты отличаются от обычных национальных валют своей децентрализацией. Они не контролируются государствами или центральными банками, и их транзакции осуществляются напрямую между пользователями, минуя посредников. Это создает новые возможности и вызывает вызовы для финансовых институтов и регуляторов.

Еще одна важная особенность цифровых валют - это их шифрование. Транзакции в цифровых валютах защищены криптографическими методами, что обеспечивает их безопасность и анонимность. Однако это также может вызывать определенные проблемы, такие как возможность использования цифровых валют для незаконных деятельностей, таких как отмывание денег и финансирование терроризма (严玉铃, 2020).

Влияние цифровых валют распространяется на различные аспекты общества, включая экономику, финансовую систему, политику и социальные отношения. Они могут изменить способы проведения бизнеса, упростить процессы международных переводов и повлиять на финансовую стабильность и регуляцию. Однако они также вызывают определенные риски, такие как волатильность цен на цифровые валюты и возможные угрозы безопасности.

Цель данного исследования - исследовать особенности развития цифровых валют и их влияние на экономику, общество и политику. Исследование будет сосредоточено на особенностях цифровых валют, таких как децентрализация, шифрование и анонимность, а также на их влиянии на платежи и расчеты, денежную политику, финансовое регулирование, личные, корпоративные и правительственные аспекты. Кроме того, исследование также будет рассматривать вызовы и перспективы развития цифровых валют. Через глубокое изучение особенностей и влияния цифровых валют, исследование направлено на более глубокое понимание текущего состояния и будущего направления развития цифровых валют.

Изучение особенностей развития цифровых валют и их влияния имеет важное значение для более глубокого понимания современных тенденций в финансовой индустрии и экономике в целом. Это также поможет оценить потенциальные риски и выгоды, связанные с использованием цифровых валют, и разработать эффективные регуляторные подходы для их управления. Данная статья направлена на расширение знаний о цифровых валютах и их воздействии на современное общество.

**Метод**

Методологической основой для написания данной статьи станут научные методы, на основе анализа требований «особенности развития цифровых валют и их влияние». Исследование будет проводиться с использованием комбинации научных когнитивных методов и приемов. При написании статьи планируйте использовать следующие общенаучные методы познания:

Анализ литературы: Оценка существующих исследований, статей, и научных публикаций о развитии цифровых валют и их влиянии.

Сравнительный анализ: Сравнение различных цифровых валют и их особенностей, таких как технологии, принципы функционирования, преимущества и недостатки.

Статистический анализ: Использование статистических данных и фактов для оценки реального влияния цифровых валют на экономику и финансовую систему.

**Анализ**

Цифровая валюта - это цифровой актив с независимыми денежными свойствами, созданный

на основе криптографических технологий. С развитием Интернета и технологии блокчейн, цифровые валюты стали все более популярными по всему миру и оказывают значительное влияние на традиционные модели финансовых операций, экономическую структуру и образ жизни общества. Способы выпуска, проведения и управления цифровыми валютами значительно отличаются от традиционных валют, и они проявляют множество уникальных особенностей развития. Все больше стран рассматривают возможность выпуска собственной цифровой валюты, и изучение особенностей развития и влияния цифровых валют имеет важное значение для понимания их текущего состояния, тенденций развития и потенциальных последствий в финансовой, экономической и социальной сферах (杨柳, 2019).

**Особенности развития цифровых валют**

Цифровая валюта, как новый финансовый инструмент, обладает уникальными особенностями развития. Во-первых, децентрализация является одной из них. В отличие от традиционных центральных банковских валют, у цифровых валют нет центральных органов или посредников, и транзакции и управление осуществляются с использованием технологии распределенных реестров, что обеспечивает децентрализацию. Во-вторых, шифрование является важной особенностью цифровой экономики. С использованием передовых технологий шифрования, цифровая валюта обеспечивает безопасность и конфиденциальность транзакций. Кроме того, анонимность также является уникальной особенностью цифровой валюты, позволяя пользователям сохранять относительную анонимность в процессе совершения транзакций и защищая тем самым конфиденциальность.

1. Децентрализация цифровой валюты

Цифровая валюта достигает децентрализации с помощью технологии блокчейн, не зависит от традиционных центральных органов или посредников, а основана на распределенных сетях и алгоритмах согласия для управления транзакциями. Эта децентрализация создает уникальную финансовую систему, отличную от роли посредников в традиционной финансовой системе. Децентрализация цифровой валюты через технологию блокчейн распределяет записи о транзакциях и управление правами между несколькими узлами, обеспечивая прямое взаимодействие и транзакции между участниками, снижая затраты на посредничество, повышая прозрачность и безопасность.

Децентрализация цифровой валюты имеет ряд преимуществ, таких как снижение затрат на транзакции, увеличение прозрачности и возможность отслеживания, а также предоставление пользователям большего контроля и автономии. Однако, децентрализация также сталкивается с проблемами повышения сложности регулирования и соблюдения, масштабируемости и производительности. Поэтому в развитии цифровой валюты необходимо разумно применять и управлять децентрализованными характеристиками под руководством законодательства и регуляторных политик, чтобы обеспечить безопасность, соответствие нормам и устойчивое развитие цифровой валюты.

2. Криптографическая защищенность цифровых валют

Криптографическая защищенность цифровых валют обеспечивается с использованием криптографических технологий и технологий блокчейна для обеспечения безопасности и конфиденциальности транзакций и информации. В процессе цифровых валютных операций, информация о транзакциях проходит через сложные алгоритмы шифрования, и только пользователи, обладающие соответствующими приватными ключами, могут расшифровать и

получить доступ к этой информации, обеспечивая конфиденциальность транзакций. В то же время, технология блокчейн, как децентрализованная технология учета, обеспечивает безопасность цифровых валютных транзакций путем совместного поддержания и проверки согласованности и целостности записей о транзакциях множеством узлов, предотвращая риск подделки или фальсификации информации.

Криптографическая защищенность цифровых валют имеет важное значение для обеспечения безопасности и конфиденциальности транзакций и информации, предотвращения несанкционированного доступа, мошенничества и подделки, и защиты финансовых средств и конфиденциальности транзакций пользователей. Однако, криптографическая защищенность также может вызвать определенные проблемы, такие как риск незаконных действий, таких как отмывание денег, вывод капитала и других. Поэтому, применение криптографической защищенности цифровых валют должно осуществляться в соответствии с законодательством и политикой регулирования, чтобы обеспечить безопасное и законное использование цифровых валют и защитить права и интересы пользователей.

3.Анонимность цифровых валют

Анонимность криптовалюты означает возможность проведения сделок и управления без раскрытия реальной личной информации пользователя, используя виртуальные идентификаторы или псевдонимы. Записи о сделках с криптовалютой обычно зашифрованы и хранятся в блокчейне, и только пользователи, обладающие соответствующими личными ключами, могут получить доступ к этим записям и управлять ими, что обеспечивает защиту конфиденциальности пользователей. В то же время, сделки с криптовалютами часто осуществляются с использованием виртуальных идентификаторов или псевдонимов, без необходимости раскрытия реального имени или другой личной информации, что делает криптовалютные сделки анонимными.

Однако анонимность криптовалют также вызывает проблемы и споры. С одной стороны, анонимность может привести к использованию криптовалюты в незаконных деятельностях, таких как отмывание денег, сокрытие финансов и финансирование терроризма, так как сделки трудно отследить и контролировать. С другой стороны, анонимность также может привести к невозможности отслеживания сделок с криптовалютой в случае возникновения споров или конфликтов, что затрудняет защиту законных прав и интересов пользователей. Поэтому анонимность криптовалют должна использоваться и управляться с учетом руководства законодательством и регулирующей политикой, чтобы обеспечить законное и соответствующее использование криптовалют, предотвратить незаконную деятельность и защитить права и интересы пользователей в области конфиденциальности (Кудрявцев, М. В., Марков, В. И., 2019) .

**Влияние развития цифровых валют**

Sadaladığımız bazarların hər biridə maliyyə resurslarının alqı-satqısı baş verir. Lakin bu proses müxtəlif alətlərdən istifadə etməklə həyata keçirilir.

Emitent və investor tərkibinə görə də maliyyə bazarları fərqləndirilir. Belə ki, yuxarıda qeyd etdiyimiz hər bir bazarın özünəməxsus emitent və investoru vardır. Məsələn fond bazarının emitent və investorları qiymətli kağız emitentləri və qiymətli kağız investorlarıdır. Kredit bazarında bunlar kreditorlar (borc verənlər və borc alanlar), maliyyə derivativləri bazarında törəmə maliyyə alətlərinin alıcıları və törəmə maliyyə alətlərinin satıcıları, sığorta bazarında isə sığortalılar və sığortaçılar, valyuta bazarında vayuta alıcıları və satıcıları, qızıl bazarında isə qızıl alıcıları və satcılarıdır (Ələkbərov və d., 2021).

**Azərbaycanda Maliyyə Bazarları**

Ölkəmizdə maliyyə bazarlarının yaranmasının səbəbi maliyyə institutlarının formalaşması ilə bağlıdır. Azərbaycan maliyyə sisteminin tarixinə nəzər salsaq görərik ki, ölkədə bu bazar 1995-ci ildə tam olaraq formalaşmışdır. Hal-hazırda isə birjalanın dövriyyəsi 14 mlrd. 947 mln. təşkil edir (https://www.bfb.az/az). Bundan əlavə bir dövlət bankı və 25 kommersiya bankı, 21 sığorta şirkəti, bank olmayan kredit təşkilatları və investisiya fondları fəaliyyət göstərir (https://asa.az/companies). Həmçinin respublikamızda maliyyə bazarlarının inkişafı və formalaşması üçün audit sistemi yaradılmış, qanunvericilikdə dəyişikliklər edilmiş, normativ baza yaradılmış və bir çox qanun və qərarlar qəbul edilmişdir. (Ataşov, 2016).

Azərbaycanda olan investorlara nəzər salsaq görərik ki, xarici investorların sayının artmasında neft kontraktlarının böyük rolu olmuşdur. Bu kontrakatlar arasında ən çox seçilən isə "Əsrin müqaviləsi" olmuşdur. 1994-cü ildə imzalanan müqavilənin ümumi həcmi 12-14 mlrd. dollar dəyərindədir (Cəbrayılova, 2016). Azərbaycanda iqtisadiyyata yönəldilən investisiyaların həcmi aşağıdakı kimidir:

**Cədvəl 2. Azərbaycan investisiyalarına yönəldilən investisiyaların həcmi.**

| | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| Bütün mənbələr üzrə investisiya qoyuluşu | 15221.7 | 14698.0 | 13225.9 | 14890.4 |
| Xarici investisiyalar | 8236.5 | 7129.1 | 6125.4 | 7501.1 |

| | | | | |
|---|---|---|---|---|
| Daxili investisiyalar | 6985.2 | 7568.9 | 7100.51 | 7389.3 |

**(Cədvəl dövlət statistika komitəsinin göstəriciləri əsasında hazırlanmışdır https://www.stat.gov.az/source/finance/)**

Dövlət büdcəsinə nəzər saldıqda isə, 2021-ci il üçün dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun daxilolmaları nəzərə alınmaqla cəmi gəlirlər 26631.7 milyon, xərclər 27422.4 milyon, mənfəət isə 46338.2 milyon manat təşkil edir (Dövlət Statistika Komitəsi, 2022).

Maliyyə resurslarının müxtəlifliyindən və maliyyə institutlarının formasından asılı olaraq Azərbaycanda aşağıdakı maliyyə bazarları mövcuddur:

Qiymətli kağızlar bazarı – Bu bazarda qiymətli kağızların emissiyası, buraxılması, saxlanılması, əqdlərin bağlanması və s. bu kimi əməliyyatlar cəmlənmişdir. Onun əsas vəzifəsi iştirakçılar arasında qiymətli kağızların tədavülünü və buraxılmasını həyata keçirməkdir ("2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramı, 2011).

Sığorta bazarı - Ümumilikdə sığortanın tarixinə nəzərə yetirsək, bu bazarın yaranma tarixinin eramızdan 3000 il əvvələ, babillərin ticarət dövrünə təsadüf etdiyini müşahidə etmiş olarıq. Ölkəmizdə isə sığorta bazarının formalaşması neft sənayesinin inkişafı ilə bağlıdır. Belə ki, 19-cu əsrin ortalarında - neft sənayesinə xarici investisiyalar cəlb olunduğu dövrlərdə ölkədə xarici sığorta şirkətlərinin filialları yaranmağa başladı. 1912-ci ildə Azərbayanda artıq 30 sığorta cəmiyyəti fəaliyyət göstərirdi ("Sığorta bələdçisi" jurnalı).

Valyuta bazarı- Birinci fəsildə qeyd etdiyimiz kimi valyuta əməliyyatları dedikdə, valyuta ilə bağlı olan əməliyyatlar başa düşülür (Ataşov, 2016). Azərbaycanda olan valyuta əməliyyatlarına bunlar daxildir:

- Valyuta sərvətlərinə mülkiyyət hüququnun keçməsi ilə əlaqədar əməliyyatlar;
- Valyuta sərvətlərinin ölkəmizə gətirilməsi və ölkəmizdən göndərilməsi;
- Beynəlxalq pul köçürmələrinin həyata keçirilməsi ("Valyuta tənzimi haqqında" qanun).

Qızıl bazarı – Azərbaycanda qızıl ehtiyatı qızıl külçələrindən ibarətdir. Qızıl ehtiyatı valyutanın əsas tərkib hissəsi hesab olunur. Azərbaycanda da, digər ölkələrdə olduğu kimi qızıl ehtiyatı dövlətin fövqəladə hallarda tələbatının ödənilməsi üçün formalaşmışdır. Qızıl ehtiyatı qanunvericiliyə uyğun olaraq Mərkəzi banka verilir və qızıl valyuta ehtiyatı kimi saxlanılır (Ataşov, 2016). Azərbaycanda qızıl hasilatı 2020-ci ildə 3,572.000 kq olmuşdur ki, bu da 2019-cu ilə nəzərən azalmanın olduğunu göstərir (https://www.ceicdata.com).

Kapital bazarı – bildiyimiz kimi, kapital bazarı maliyyə bazarının əsas tərkib hissəsidir. (Ataşov, 2016). Ümumilikdə respublikada kapital bazarının vəziyyətinə nəzər yetirsək keçən il artımın olduğunu görərik. Belə ki, 2022 -ci ildə Mərkəzi Bank tərəfindən 25 emissiya prospekti təsdiq edilmişdir. Bu isə ölkəmizdə bugünədək qeyd olunan rekord göstəricidir. Qeyd etmək lazımdır ki, 2021-ci ildə bu göstərici 20, 2020-ci ildə isə 11 olmuşdur (https://marja.az/94917/).

Kredit bazarı – Azərbaycanda kredit bazarının əsas iştirakçılarını banklar təşkil edir. Və bu bazarda baş verən proeseslər Mərkəzi Bank tərəfindən Azərbaycan Respublikasının "Banklar haqqında" qanununa əsasən tənzimlənir.

**Ölkəmizdə Maliyyə Bazarının Problemlərinin Aradan Qaldırılması Yolları**

Hal-hazırda ölkədə yığım normasının aşağı olması milli maliyyə sisteminin iqtisadi inkişafa yüksək səviyyədə xidmət edəcək şəkildə formalaşmasına imkan vermir. Başqa sözlə, ölkədə iqtisadi inkişaf üçün zəruri olan investisiya xərclərinin maliyyələşməsi məqsədilə yetərli həcmdə maliyyə resursları səfərbər etmək potensialı aşağıdır (Cəbrayılova, 2016).

Dünya səviyyəsində sistemli şəkildə risk təhlükəsinin olduğunun təsdiq edilməsi, həmçinin, dünya maliyyə böhranının nəticələrinin dərinliyi maliyyə sektorunun dövlət tənzimlənməsi sisteminin yeni səviyyədə formalaşdırılması məsələsini qarşıya qoyur. Milli maliyyə sisteminin stabilliyinə nail olmaq üçün tənzimləmə mühitinin institusional formalaşmasının tam və bütöv olması vacibdir.

Maliyyə bazarının müvəffəqiyyətli inkişafı üçün peşəkar səviyyədə təşkil edilmiş tənzimləmə, fəaliyyətin qanunvericiliklə dəqiq müəyyənləşdirilməsi, sektorun iştirakçılarının sabitliyi və ödəmə qabiliyyətinin yüksəldilməsi, həmçinin ixtisaslı mütəxxəsislər tərəfindən aparılan yoxlamaların olması vacibdir. Bazarın bütün iştirakçıları əmin olsalar ki, tənzimləyici investorların hüquqlarını effektiv müdafiə edir, müstəsna dərəcədə bazarın maraqları üçün fəaliyyət göstərir, onda investorların etibarı və investisiyaların miqdarı yüksələr, bazar institutları daha tez inkişaf edər (Əliyev, 2018). Maliyyə bazarlarının davamlı inkişafı üçün isə əlverişli mühitin olması vacibdir. Bunun üçün isə aşağıdakı tədbirləri görmək vacib hesab olunur:

- Dünya təcrübəsindən istifadə etmək;
- Fond birjasının fəaliyyətini canlandırmaq;
- İpoteka bazarını gücləndirmək;
- Kredit islahatlarını həyata keçirmək;
- Əhalinin qiymətli kağızlar bazarına olan marağını artırmaq və s (Ataşov, 2016).

Görülən tədbirlər arasında Strateji Yol Xəritəsinin rolu olduqca böyükdür. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə müəyyən edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi" hazırlanmışdır.

Bu Strateji Yol Xəritəsi qlobal iqtisadiyyat və maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya və postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün maliyyə sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanmışdır. Sənəd maliyyə xidmətləri sektorunun çevikliyi, rəqabətqabiliyyətliliyi, innovativliyi və iqtisadi inkişafı dəstəkləməsi prinsipləri əsasında hazırlanmışdır.

Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri edir. Belə ki, 2020-ci ilədək strateji baxış və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışlarındandan ibarət olan Strateji Yol Xəritəsində müəyyən edilmiş məqsədlərə çatmaq üçün 2020-ci ilədək 5 strateji hədəf və 16 prioritet hazırlanmışdır. Bu xəritənin ümumi olaraq hədəfləri aşağıdakılar kimidir:

- Strateji hədəf 1. Dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması
- Strateji hədəf 2. Maliyyə bazarlarının inkişafı
- Strateji hədəf 3. İnfrastrukturun gücləndirilməsi
- Strateji hədəf 4. Tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi

- Strateji hədəf 5. Maliyyə savadlılığının yüksəldilməsi (Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi, 2016).

Gördüyümüz kimi, 5 strateji hədəfdən biri “Maliyyə bazarlarının inkişafı”na həsr olunmuşdur. Göstərilən strateji hədəfə nail olunması üçün aşağıdakı prioritetlər müəyyən edilmişdir:

1. Emitentlər və maliyyə vasitəçiləri üçün əlverişli mühitin yaradılması;
2. İnvestorların maliyyə bazarlarına çıxış imkanlarının artırılması;
3. Banklararası pul bazarında aktivliyin artırılması

Maliyyə bazarlarının inkişafının sürətləndirilməsində Azərbaycan şirkətlərinin listinqə marağının artırılmasının mühüm əhəmiyyəti vardır. Araşdırmalar göstərir ki, hal-hazırda ölkədə mövcud olan qanunvericilik və tənzimləmə proseduru şirkətlərdə onların listinqə çıxması istiqamətində əlavə stimulların yaranmasına kifayət qədər imkan vermir, listinqdə iştirak edən və etməyən şirkətlərə fərq qoymur. Odur ki, şirkətlərin listinqə daxil olmasının təşviq edilməsi üçün müvəqqəti maliyyə və qeyri-maliyyə güzəştlərini təqdim etməyə üstünlük verilməsi məqsədəuyğundur. Fond birjasında şirkətlərin listinqə çıxmasını təşviq etmək nöqteyi-nəzərindən tam sahiblik hüquqlarını saxlamaqla əlaqədar ənənəvi düşüncə tərzini dəyişdirməyin mühüm əhəmiyyəti vardır. Hazırkı qanunvericilikdə tam sahiblik hüququ dəstəklənir.

Şirkətlər tərəfindən emissiya edilən qiymətli kağızlara dəyəri müəyyənləşdirmək məqsədilə gəlirliliyin istinad səviyyəsinə aydınlıq gətirmək zəruridir. Dövlət istiqrazları üzrə gəlirlilik əyrisi beynəlxalq maliyyə bazarlarında istinad gəlirliliyi kimi istifadə olunur. Bu baxımdan, gəlirlilik əyrisini formalaşdırmaq məqsədilə dövlət istiqrazları üzrə 3 və 6 aylıq, 1, 2, 5, 10 və 30 illik geniş müddətli spektrlər öz mütəmadi emissiyasına və təkrar bazarına malik olmalıdır.

Şirkətlər, o cümlədən də bank sektoru sahib olduğu aktivlərin effektiv idarəçiliyi və likvid vəsaitlər üzrə çıxışa nail olmaq məqsədilə aktivlərdən daxil olan pul axınlarına malik qiymətli kağızların emissiyasına ehtiyac vardır. Odur ki, bu tipli qiymətli kağızlar buraxılışını təmin etmək məqsədilə ilk növbədə qanunvericiliyi təkmilləşdirmək məqsədəuyğundur. Bunun üçün müvafiq strateji yol xəritəsində görüləcək tədbirlər kimi aşağıdakılar müəyyən edilmişlər:

1. Listinqə çıxışı məhdudlaşdıran amillərin təhlili;
2. Stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi;
3. Yeni listinq prosedurlarının müəyyənləşdirilməsi;
4. Sahiblik düşüncə tərzinin dəyişdirilməsi;
5. Yol xəritəsinin hazırlanması və icrası;
6. Gəlirlilik əyrisinin formalaşdırılması;
7. Sekyuritizasiya prosesinin təşviqi.

Emitent və vasitəçilərə əlverişli mühit yaratmaqla bərəabər, investorlar üzrə bazara çıxış imkanlarını artırmaq üçün özəl sektorla birgə əməkdaşlıq istiqamətində stimullaşdırıcı tədbirlər müəyyənləşdirmək, infrastrukturu təkmilləşdirmək, şəffaflığı artırmaq və likvidliyi təmin etmək üzrə təşəbbüslərin mühüm əhəmiyyəti vardır.

İnvestorların bazarda iştirakını şərtləndirən mühüm amillərdən biri də şəffaflığın təmin olunmasıdır. Listinq səviyyəsindən asılı olaraq, başlıca bazar seqmenti üzrə beynəlxalq mühasibat standartlarının tətbiqi aparılsa da, başqa seqmentlərdə tələblərin nisbətən yumşaqlığı müşahidə olunur.

Hesab edirik ki, görüləcək tədbirlər banklararası pul bazarında əməliyyatların həcmini artırmaqla maliyyə bazarlarında likvidliyə, maliyyə institutlarında likvidliyin idarə edilməsinə və səmərəliliyinə pozitiv təsiri təmin edəcəkdir. Açıq bazar əməliyyatlarının köməyi ilə pul siyasəti üzrə hədəflərə çatmaqda təkmil banklararası pul bazarının rolu daha da artacaqdır (Hacıyeva, 2018).

Hazırda ölkəmizdə maliyyə bazarının formalaşması və inkişafı sürətlə getməkdədir. Bununla belə, bazarda müəyyən problemlər hələ də qalmaqdadır. Belə ki, yerli və xarici investisiyaların cəlb edilməsi, investisiya fəallığının artırılması, kiçik və orta sahibkarlığın inkişafı və real sektor üçün kredit əlçatanlığı probleminin həllinə yönəldilmiş şəraitin yaradılması kimi məsələlərin həlli lazımdır. Ona görə də, maliyyə bazarının ayrı-ayrı həlqələrinin kompleks təhlili əsasında beynəlxalq və regional maliyyə bazarlarına inteqrasiya olmaq imkanlarının müəyyənləşdirilməsi və bu bazarın effektiv inkişaf trayektoriyasına çıxışı imkanlarının araşdırılması mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir (Hacıyeva, 2018).

**Nəticə**

Tədqiqat nəticəsində maliyyə bazarının mahiyyəti və xüsusiyyətləri geniş araşdırılmış, onun infrastrukturu müəyyənləşdirilmiş, iqtisadiyyatda tutduğu yer və rolu qiymətləndirilmişdir. Ölkəmizə nəzər saldıqda isə, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq bir çox tədbirlər görülmüşdür. Özəlləşdirmə, birgə müəssisələrin yaradılması və xarici investorların ölkəyə cəlb olunması, iqtisadi islahatların keçirilməsi və bu yöndə müxtəlif qanunların qəbulu, dövlət proqramlarının hazırlanması və tətbiqi bu tədbirlərin yalnız bir hissəsidir. Həyata keçirilən tədbirlərə baxmayaraq müasir dövrdə ölkəmizdə maliyyə bazarının inkişaf tempini və cari vəziyyətini kifayət qədər yaxşı deyil. Bunun əsas səbəbləri kimi informasiya bazasının təkmil olmaması, şəffaflığın aşağı səviyyədə olması, eləcə də, investorların sayının azlığı, maliyyə savadlılığının kifayət dərəcədə olmaması səbəbindən əhalinin bu sahəyə marağının olması və s. problemləri göstərə bilərik. Təcrübə göstərir ki, istər ümumi maliyyə sisteminin, istərsə də maliyyə bazarının inkişafının bu cür ləngiməsinə inkişaf etmiş ölkələrin mövqeyindən yanaşma bu sahədə baş qaldıran bir çox problemlərin aradan qaldırılmasına köməklik göstərə bilər.

**Ədəbiyyatlar**


Ataşov B. (2016), Maliyyə bazarları, Bakı, “Kooperasiya” nəşriyyatı, 456 səh.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, “2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı” Dövlət Proqramı, Bakı, 2011, 69.

Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi, 2016, 59 səh.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi, “Sığorta bələdçisi” jurnalı, “Çaşıoğlu” nəşriyyat, Bakı, 2008, 40 səh.

Aytac Müzəffər qızı Hacıyeva (2018), Qloballaşma şəraitində maliyyə bazarının müasir vəziyyəti və inkişaf istiqamətləri, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı.

Cəbrayılova Şəmail (2016), Azərbaycanda maliyyə bazarının formalaşması problemləri, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 86 səh.

Əbdürrəhmanova Aynur (2015), Azərbaycanda maliyyə bazarının formalaşması problemləri, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 105 səh.

Ə.Ə.Ələkbərov, Z.F.Məmmədov, A.T.Hüseynova (2021), Maliyyə bazarları, Bakı, “AA” Kompüter Poliqrafiya Mərkəzi, 232 səh.

Əliyev Mirzə Famil oğlu, Maliyyə bazarının təhlili və proqnozlaşdırılması", Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 2018, 93 səh.

"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanunu

www.cbar.az – AR Mərkəzi Bankının rəsmi saytı

www.stat.gov.az – AR Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi

www.ceicdata.com – Global Economic Data

# Ölkə Üzrə Texnoparkların Səmərəli Təşkili və Fəaliyyəti üçün Zəruri Olan Amillərin Təhlili

**Həsənova Türanə**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**hesenovaturane007@gmail.com**

## Xülasə

Bu gün ölkə iqtisadiyyatının təktərəfli inkişafı istənilən iqtisadi nəticələrin əldə olunmasına əngəl törədən amil kimi qiymətləndirilə bilər. Bunun üçün də iqtisadiyyatı hərtərəfli inkişaf etdirmə yollarının araşdırılması, inkişafa nail olunması əhəmiyyətli hesab olunur. Texnoparklar bu əsasdan ölkə iqtisadiyyatı üçün təkanverici rol oynaya bilər. Bu məqalə də texnoparkların səmərəli təşkili yollarının və bunun üçün vacib olan göstəricilərin öyrənilməsinə həsr olunur. Bu zaman beynəlxalq təcrübənin öyrənilməsi, tətbiq edilməsi məsələsi aktuallaşır. Burada əsas məqsəd texnoparkların səmərəli fəaliyyət yollarının öyrənilməsində beynəlxalq təcrübənin araşdırılması, effektiv fəaliyyət göstərən texnoparkların formalaşdırılması üçün vacib olan amillərin, texnoparkların təşkilində qarşıya çıxan bəzi problemlərin təyini, sənaye istehsal indekslərinin təhlili və qonşu dövlətlərlə ölkəmizin müqayisə olunması, texnoparklarda tədqiqat və inkişaf işlərinin ümumi xərclərinin təhlil olunmasından ibarətdir. Tədqiqat zamanı müqayisəli təhlil və statistik təhlil metodlarından istifadə olunmuşdur. İnformasiya bazası kimi yerli və xarici tədqiqatçıların son illərə aid olan məqalələrindən, yerli və xarici internet resurslarından, Dövlət Statistika Komitəsinin statistik göstəricilərindən istiadə olunmuşdur.

**Açar sözlər:** Texnopark, səmərəli fəaliyyət, sənaye istehsal indeksləri

## Summary

Today, the single-sided development of the country's economy can be regarded as an obstacle to achieving the desired economic results. For this purpose, it is considered important to explore ways of comprehensive development of the economy and to achieve development. From this basis, technoparks can play a stimulating role for the country's economy. This article is also devoted to the study of ways to effectively organize technoparks and indicators that are important for this. At this time, the issue of studying and applying international experience becomes urgent. The main objective here is to examine the international experience in the study of ways of effective operation of technoparks, determine the factors important for the formation of effective technoparks, some problems encountered in the organization of technoparks, analyze industrial production indices and compare our country with neighboring states, analyze the total costs of research and development work in technoparks. Comparative analysis and statistical analysis methods were used during the study. As an information base, articles of local and foreign researchers, local and foreign internet resources, statistical indicators of the State Statistical Committee were used.

**Keywords:** Technopark, efficient operation, industrial production indices

## Giriş

Elmi və texnoloji tərəqqi hazırda ölkənin sosial-iqtisadi inkişafının əsasını təşkil edir. Elm və texnologiya rəqabət qabiliyyətinin və iqtisadi artımın getdikcə daha çox əsas amillərinə çevrildikcə regional innovasiya siyasəti və strategiyalarının inkişafı müşahidə olunur. Tədqiqata əsaslanan bilik və bacarıqların istehsalçıları və istehlakçıları arasında qarşılıqlı əlaqə yaratmaq elmi tədqiqatların tətbiqini və universitetlə sənaye arasında daha sıx əlaqələr yaratmağı daha aktual edir. Beləliklə, mövzunun müzakirəsi universitetlər, tədqiqat mərkəzləri və şirkətlər arasında bir növ yenilikçi yaşayış mühiti arasında qarşılıqlı əlaqəni asanlaşdırmaq üçün, yenilik üçün infrastruktur və mədəniyyətlə fiziki məkanlar yaratmaq üçün gizli bir zərurətə çevrilir. Bu çərçivədə elmi və

texnoloji parklar mühüm rol oynayır, çünki onların mövcudluğu bölgə və ya ölkə iqtisadiyyatının rəqabət qabiliyyətində əhəmiyyətli bir amil və biznes üçün əsas investisiya sahəsidir. Texnologiya parkları ilə əlaqəli tədqiqatların əksəriyyəti nəzəri məsələlər, kontekst, siyasət, regional inkişaf, investisiya və müxtəlif maraqlı tərəflərlə milli və beynəlxalq əlaqələrə yönəlmişdir.

Tədqiqatın vəzifələrinə aşağıdakılar daxildir:

- ✓ Texnoparkların səmərəli idarə edilməsinin əsas göstəricilərinin təyini;
- ✓ Beynəlxalq təcrübədə texnoparkların effektivliyinin ölçülməsi metodlarının təyini;
- ✓ Regional miqyasda texnoparkların səmərəli fəaliyyətində vacib amillər;
- ✓ Sənaye istehsal indekslərinin təhlili və qonşu dövlətlərlə ölkəmizin müqayisə olunması,
- ✓ Texnoparklarda tədqiqat və inkişaf işlərinin ümumi xərclərinin təhlil olunması və s.

**Ölkə Üzrə Texnoparkların Səmərəli Təşkili və Fəaliyyəti Üçün Zəruri Olan Amillərin Təhlili**

Texnoparkların səmərəli təşkili və fəaliyyətinin əsas kritik amillərinin təhlili, ədəbiyyata görə, fəaliyyətlərinin və effektivliyinin ən əhəmiyyətli aspektlərini anlamaq üçün lazımdır. Kritik müvəffəqiyyət faktorları, lazımi dəstək, müşayiət və ya idarəetmə ilə layihənin müvəffəqiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək xüsusiyyətlər, şərtlər və ya dəyişənlər kimi müəyyən edilə bilər. Bu göstəricilərin öyrənilməsi qərar qəbul etmə və idarəetmə çətinliyini azaltmağa yönəlmiş ən vacib elementlərin müəyyənləşdirilməsi ilə əlaqələndirilir (Faria et., 2022).

Avropa Komissiyasına görə uğurlu texnoloji parkların əsas atributları bunlardır:

- güclü elmi baza, səmərəli qarşılıqlı əlaqə;
- ixtisaslı işçilər;
- sahibkarlıq mədəniyyəti;
- artan şirkət bazası;
- istedad və imkanları cəlb etmək bacarığı.

Universitet Tədqiqat Parkları Birliyi (AURP) tərəfindən aparılan bir araşdırmada, aşağıdakı amillər parkın uğuru üçün kritik olaraq göstərilmişdir:

- törəmə universitetin elmi bazası ilə rezident şirkətlər arasında yaxşı yaxınlaşma;
- marketinq proseslərində yeni yaranan müəssisələrə kömək etmək bacarığı;
- rezident şirkətlərin investisiya kapitalına çıxışı;
- şirkətlər üçün yer təmin etməkdə prioritet;
- binalar, tədqiqatçılar və tələbələr kimi universitet mənbələrindən yararlanmaq imkanı;
- biznes inkubatorunun rəsmi mövcudluğu (Faria, Battisti, Sediyama, Haber & Dabrowska, 2022).

Texnoparkların səmərəliliyinin təyini, Avropa Birliyi və OECD-nin yenilik ölçümlərini təyin etmək üçün istifadə etdiyi minimum-maksimum metoddan istifadə edən səmərəliliyin ölçülməsinə aiddir. Bu proses dünyanın bütün texnoparklarının effektivliyini ölçmək və Türkiyədəki texnoparkların effektivliyini ölçmək üçün istifadə olunur. Proses texnoparkın işləməsi üçün hazırlanmış hesabatların nəzərdən keçirilməsi ilə başlayır. Bu müddətdə metod dörd mərhələdə baş verir. Bunlar:

- Son dəyərlərin müəyyənləşdirilməsi və çevrilməsi;
- ölçümlərin çevrilməsi;
- ölçümlərin miqyasının dəyişdirilməsi;
- performans indeksinin hesablanması.
- Son dəyərləri müəyyənləşdirmək və çevirməkdən ibarət olan ilk mərhələdə əvvəla, bütün məlumatlar hər bir göstərici üçün ayrıca işlənir. Bu vəziyyətdə göstəricilərin həm müsbət, həm də mənfi dəyərlərini nəzərə almaq, yəni son dəyəri təyin etmək lazımdır. Bu, orta dəyərdən sapmaları nəzərə alır. İndeksə mənfi təsir göstərməmək üçün bu son dəyərlər verilənlər bazasından silinir və qalan dəyərlərin ən böyük və ya ən kiçik dəyərləri ilə əvəz olunur;
- Ölçmələrin çevrilməsi prosesində indeksləri müəyyən edərkən daha tutarlı nəticələr əldə etmək üçün göstəricilərin mütəxəssislər tərəfindən müəyyən edilən dəyişənlərə nisbəti həyata keçirilir. Bu dəyişənlər hər bir texnopark üçün işçilərin sayı, firmaların sayı və ya layihələrin sayı kimi dəyərləndirilə bilər;
- Növbəti mərhələdə, öçülərin miqyası mərhələsində, hər bir göstəricinin maksimum dəyəri 100, ən aşağı dəyəri 0 və orta dəyəri 50 olacaq şəkildə standartlaşdırılır;
- Son addım olan performans indeksi göstəricisinin hesablanması-bütün ölçü vahidlərinin performans indeksinin yenidən təyin olunmuş dəyərlərinin müvafiq göstəricilərə vurulması ilə təyin edilir (Tekiner, 2021).

Texnologiya Parkı bir layihədir və hər hansı bir layihə kimi, onun səmərəliliyinin qiymətləndirilməsi müəssisənin müsbət fəaliyyəti üçün vacibdir. Beləliklə, texnoloji parkların qiymətləndirilməsi prosesi ilə bağlı bir araşdırma aparmaq, fəaliyyətin nəticələri haqqında məlumat əldə etmək və bu qurumların yaratdığı təsirləri və obyektiv şəkildə necə həyata keçirilə biləcəyini təsdiqləmək üçün vacibdir. Dabrovska, elm parkının ən vacib məqsədlərini başa düşmək üçün vacib olan adekvat bir qiymətləndirmə modeli hazırlamaq üçün texnoloji parkın yerləşdiyi inkişaf mərhələsini nəzərdən keçirməyin vacibliyini vurğulayır və daha sonra performans göstəricilərindən istifadə edərək fəaliyyətin effektivliyini hədəflərə uyğun olaraq qiymətləndirir. Fernandez texnoloji parkların səmərəliliyinin qiymətləndirilməsinin vacibliyini vurğulayır və texnoloji parkların səmərəliliyini qiymətləndirmək üçün rasional bir yol təklif edir. Bura şirkətlər arasında əhəmiyyətli statistik fərqlərin araşdırılması, fərqin olub olmadığını qiymətləndirmək üçün iş sayı, dövriyyə, yenilik, şirkətin sağ qalma nisbəti kimi bəzi performans göstəricilərinin təyini aid edilir. Buna görə də, addımların icrasını idarə etmək üçün dəstək kimi vacib hesab olunan uğur amillərindən istifadə metodoloji strategiyanın bir hissəsidir. Ümumiyyətlə, elmi və texnoloji parkların idarə edilməsi və yaradılması, səmərəli fəaliyyət prosesində mövcud olan vacib amillərin daha yaxşı başa düşülməsi üçün aşağıda təqdim olunan doqquz parametr istifadə edilir. Bu parametrlər bu sahə ilə əlaqəli araşdırmalara əsaslanır və texnoparkların səmərəli təşkili və fəaliyyəti üçün zəruri olan amillər hesab olunur və səmərəli fəaliyyətin təyini zamanı da bu göstəricilərin təhlili həyata keçirilə bilər:

1. Parkın idarə edilməsi;
2. İnfrastruktur və yerləşmə;
3. İnnovasiya və sahibkarlıq üçün iqtisadi mühit;
4. İqtisadi, maliyyə və stimullaşdırıcı amillər;
5. Biznes xidmətləri və dəstək;
6. Mədəniyyət;
7. Maraqlı tərəflərin təsiri;
8. Dövlət Dəstəyi;

9. Park dizaynının xüsusiyyətləri və tərifi.

İnnovasiya hökumətin iqtisadi mühiti gücləndirmək planlarında əsas sözdür. Uğurlu innovasiya siyasəti üçün bir çox şərait yaratmaq lazımdır. Bu prosesdə diqqətdən kənarda qalmamalı olan şey, biznesin yeni ideyalar, məhsullar və xidmətlər üzərində uğurlu işləməsi üçün lazım olan xüsusi mühitdir. İnnovasiya sahələri bu mühiti təmin edə bilər. İnnovasiya zonalarının inkişafı adi biznes parkının inkişafından dəfələrlə çətindir. Buna görə də belə rayonların inkişafı yaxşı əsaslandırılmış hərtərəfli plan tələb edir. Bu, həmçinin parkın idarə edilməsi, maliyyələşdirmə, binalar üçün təlimatlar, daşınmaz əmlakın maliyyələşdirilməsi və s.ilə bağlı aydın fikirlər tələb edir. Bölgə ilə texnoparkalar arasında əlaqə olmalıdır. Texnopark (və ya hər hansı digər innovasiya sahəsi) müəyyən regional şərtlər yerinə yetirilmədiyi təqdirdə yerindən tərpənə və ya düzgün işləyə bilməz. Regional miqyasda texnoparkların səmərəli fəaliyyətində vacib amillər bunlardır:

- Milli innovasiya siyasəti;
- Ali təhsilin, universitetlərin və digər tədqiqat institutlarının mövcudluğu;
- Sahibkarlıq mədəniyyəti;
- İnnovativ/Yaradıcı müəssisə və qurumların yaxşı işləyən şəbəkəsi;
- Sənaye quruluşu;
- Bilik işçiləri üçün yaxşı işləyən əmək bazarı;
- Cəlbedici yaşayış mühiti;
- Urbanizasiya dərəcəsi;
- Mövcud maliyyə mənbələri.

Milli innovasiya siyasəti çərçivəsində deyə bilərik ki, bölgə (regional hökumət) ilə milli hökumət arasında düzgün qarşılıqlı əlaqə müvəffəqiyyətə təsir göstərə bilər, çünki o qismən bölgədə mövcud olan potensialın tanınması formasıdır. Mədəni cəhətlər bölgənin yenilikçi gücünü qismən müəyyənləşdirir. Bəlkə də araşdırmaq və ya sübut etmək çətin olduğu üçün tədqiqatçılar etibar, yaradıcılıq, əməkdaşlıq və yenilik hədəflənməsi kimi xüsusiyyətlərdən bəhs etməklə kifayətlənirlər. Ali təhsilin, universitetlərin və digər tədqiqat institutlarının mövcudluğu amilinə gəldikdə, tədqiqatlar göstərir ki, universitet alimləri ilə güclü tərəfdaşlığın uğurla qurulması elmi parkların və ümumiyyətlə innovasiya zonalarının səmərəliliyinin artmasına səbəb olur. Bu qarşılıqlı əlaqə tez-tez xatırlanır, lakin yadda saxlamaq lazımdır ki, universitetlər həm də yüksək ixtisaslı işçilərin "tədarükçüləridir" və müəyyən şərtlər altında üçüncü tərəflər tərəfindən istifadə edilə bilən tədqiqat avadanlıqlarına malikdirlər. "Sahibkarlıq universiteti" kimi fəaliyyət göstərən universitet ümumiyyətlə yüksək qiymətləndirilir. Etibarlı şirkətlər və tədqiqat institutları şəbəkəsi tədqiqat ədəbiyyatında tez-tez istinad edilən regional şərtdir və yuxarıda qeyd olunan sahibkarlıq mədəniyyətinin unikal aspektidir. Mükəmməl regional və ya yerli innovasiya ekosisteminə malik güclü ixtisaslaşmış iqtisadiyyat inkişaf edən innovasiya sahələri üçün möhkəm zəmin yaradır. Bölgənin sənaye quruluşu da nəzərə alınmalıdır. Axı, fərqli sənayelər fərqli dərəcədə yenilik yönümünə malikdir. Bilik işçiləri üçün yaxşı işləyən əmək bazarı da səmərəliliyə təsir edən vacib faktordur. Yüksək texnoloji şirkətlər və qurumlar iqtisadiyyatın digər sahələrindən daha çox savadlı və yaradıcı işçilərdən asılıdır. Bölgə bu bilik işçilərini cəlb edə və saxlaya bilməlidir. Cəlbedici yaşayış mühiti isə yüksək təhsilli işçiləri cəlb etmək və ərazidə yaşayan bilik işçilərini saxlamaq üçün bir şərtdir. Maliyyə dəstəyinin olması innovasiya zonalarında yerləşən şirkət və qurumların səmərəliliyi üçün vacibdir. Hökumət qrantı və investisiya fondlarına əlavə olaraq regional inkişaf təşkilatları da nəzərdən keçirilə bilər. Texnoparkın (və ya hər hansı digər innovasiya zonasının) inkişafı iqtisadi böyüməni stimullaşdırmaq üçün regional və ya yerli innovasiya strategiyasına aydın

şəkildə daxil edilməlidir. Səbəblərdən biri, əvvəllər qeyd edildiyi kimi, texnoparkların ətraf müəssisələrlə əlaqəli şəkildə fəaliyyət göstərməsidir. Bir-biri ilə əlaqəli bir neçə yenilikçi sahəyə sahib bir bölgə əlavə dəyər verə bilər. Məsələn, Amerika Birləşmiş Ştatlarındakı Ann Arbor Spark və ya Heidelberqdəki (Almaniya) əlaqəli elm parklarını misal göstərə bilərik. Ölkəmizdə də bu cür bölgələrin yaradılması, artırılması müsbət nəticələr verə bilər. Bazarın vəziyyəti, konsepsiyalar və iqtisadi strategiya da özlüyündə texnoparkların səmərəli təşkili və fəaliyyətinə öz təsirini göstərən vacib amillərdən hesab olunur. Texnoparkların, sənaye parklarının inkişafı hərtərəfli bazar araşdırmalarına əsaslanmalıdır. Bu araşdırmaya əsasən hədəf qrupu müəyyən edilə bilər və fərqli bir konsepsiya inkişaf etdirilə bilər. Şəkildə Solvay birgə innovasiya sənaye parkının funksional konsepsiyasını görə bilərik (https://iadp.co/2021/03/15/success-factors-of-science-parks-re-examined/).

**Şəkil 4: Solvay birgə innovasiya sənaye parkının funksional konsepsiyası**




**Mənbə:** Müəllif tərəfindən (https://iadp.co/2021/03/15/success-factors-of-science-parks-re-examined/) mənbəyə istinadən hazırlanmışdır

Burada davamlı fəaliyyət göstərmək, yeniliklərə açıq olmaq və ən yaxşılarından istifadə etmək, işdən zövq almaq vacib faktorlardan biridir. Həmçinin fasiləsiz məhsul istehsalı və istehsal olunan məhsulunun özünün də müasir tələblərə cavab verməsi də vacib faktordur. Bütün bunlarla yanaşı stimulaşdırıcı iş mühiti də səmərəli fəaliyyət üçün vacib amildir. Bu, çalışanların işdən zövq almasına səbəb olan əsas göstəricilərdən biridir.

Hal-hazırda texnopark inkişaf etmiş ölkələrdə milli innovasiya sisteminin bir elementidir. Bölgələrdə və ölkələrdə innovativ fəaliyyətin bir növ "barometri" dir. Bu ölkələrdə müxtəlif innovativ inkişaf sistemləri formalaşıb və innovativ biznesə əhəmiyyətli kapital yatırılır. Əsas prioritet qabaqcıl inkişaf və texnologiyaların tətbiqindən qazanc əldə etməkdir. Haikina E., Akmaeva R., Marenkova N. tərəfindən edilən bir araşdırmaya görə, hökumət, ölkələrin büdcəsinə əhəmiyyətli gəlir gətirən kiçik innovativ müəssisələrin bələdçi rolunu oynadığı bu cür inkişaf sistemlərinin seçilməsinə təcili ehtiyac duyur. Yenilikçi bir inkişaf yolu seçən bu ölkələrdə üç aparıcı institusional sektor arasında təsirli ortaqlıqların olduğu iddia edilə bilər:

- elm;

- iş;
- hökumət (Safaie , L. Romanovich, M. Romanovich & Yarmolenko, 2020).

Texnoparkların səmərəli fəaliyyəti effektiv idarəetmə ilə birbaşa əlaqəlidir. Müasir iqtisadiyyat innovasiyalar əsasında inkişaf edir. Bu baxımdan dünyanın bir çox ölkəsi öz milli iqtisadiyyatlarını inkişaf etdirmək üçün strategiyalar hazırlayır. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında, eləcə də informasiya cəmiyyətinin milli inkişaf strategiyasında elm, təhsil və istehsal sahələri arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə, innovasiyaların yaradılmasına yönəlmiş yeni idarəetmə mexanizmlərinin hazırlanmasından bəhs olunur.mərkəzlər, texnoloji komplekslər, texnoparklar və biznes inkubatorları, habelə onların fəaliyyətinin təşkili məsələləri. Azərbaycanda innovativ iqtisadiyyatın inkişafı məqsədilə Sumqayıt sənaye-kimya texnologiya parkı, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakıda "Yüksək Texnologiyalar Parkı", Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) elmi-texniki parkı, Balaxanda Ekoindustrial park, regionlarda Aqro və digər yüksək texnologiyalar parkları yüksək ixrac potensialına malik rəqabətqabiliyyətli, innovativ məhsul və ya xidmətlərin istehsalının formalaşdırılması üçün yaradılmışdır. Texnoparkların yaradılması və səmərəli fəaliyyəti ilə bağlı amilləri nəzərdən keçirərəkən, həmçinin də bu fəaliyyətlə bağlı qarşıya çıxan əsas problemlərə də diqqət yetirmək lazımdır. Onların aradan qaldırılması da səmərəli fəaliyyətə təkan verən əsas amillər hesab oluna bilər. Həm tərəqqi, kapital və ekoloji davamlılıq kimi daxili amillər, həm də bəzi xarici amillər bu texnoparkların fəaliyyətinin planlaşdırılmasına və səmərəli idarəetməyə təsir göstərir.

Texnoparkların təşkili və idarə edilməsi bir neçə problemlə əlaqələndirilir. Bu problemlərə texnoparkda inkişafın planlaşdırılması, fəaliyyətin təşkili, kadrların motivasiyası, dövlət nəzarətinin təşkili və s daxildir. Texnoparkların fəaliyyətinin idarə edilməsinin ümumi prinsipləri müəssisələr haqqında qanunvericilik əsasında tənzimlənir. Texnoparklar yaradıldıqdan sonra onların idarə olunması və inkişafını təmin etmək üçün müəyyən tədbirlər həyata keçirilir. Texnoparkların yaradılması üzrə səlahiyyətli orqan aşağıdakı funksiyaları yerinə yetirir:

1) texnoparkların yaradılması və fəaliyyəti sahəsində dövlət siyasətinin formalaşmasında iştirak etmək;
2) texnoparklarda fəaliyyətin təşkilində məsul şirkətə kömək etmək;
3) texnoparkların fəaliyyətini tənzimləyən innovativ və hüquqi aktlar formalaşdırmaq;
4) idarəedici operator seçmək;
5) texnoparkın fəaliyyətini tənzimləmək;
6) texnoparkın fəaliyyəti haqqında illik hesabat hazırlamaq və s. (Aliyev və Shahverdiyeva, 2017).

Texnopark idarəetmə mexanizmləri və vasitələri idarəetmə qərarlarının qəbul edilməsi üçün bir sıra prosedur və qaydalardan ibarətdir və texnoparklarda idarə olunan qurumların fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. İdarəetmə şirkəti texnopark menecerlərinin cari və perspektivli funksiyalarını birləşdirərək və onlara müvafiq biznes xidmətləri göstərməklə rezident biznesinin inkişafına töhfə verir. İdarəetmə şirkəti texnoloji parka elmi və texnoloji innovativ müəssisələri də cəlb edir, yerləşdirir və onlara xidmət göstərir. Texnoparkların idarə edilməsinə aşağıdakı addımlar daxil edilə bilər:

- idarə olunan sistemin mövcud vəziyyətinin təhlili və monitorinqi;
- inkişaf və proqnozlaşdırılma;
- iddialılıq;
- planlaşdırma;

- resursların və funksiyaların bölüşdürülməsi;
- stimullaşdırma;
- əməliyyat idarəetmə və nəzarət;
- təhlil (Fikirkoca və Saritas, 2013).

Texnoparkların səmərəli fəaliyyətinə təsir edən faktorlardan biri də dövlət dəstəyi hesab olunur. Belə müəssisələrin yaradılması və fəaliyyətinə effektiv dövlət dəstəyini təmin etmək üçün təkcə dövlət elmi-texniki bazasının yaradılması deyil, həm də innovativ proqram və layihələrin büdcə maliyyələşdirilməsinin cəlb edilməsi üsulu zəruri hesab edilir. Dövlət dəstəyinin effektiv mexanizminin tərkib hissələrindən biri olan kadr dəstəyi vacib hesab olunan elementlərdəndir. Belə ki,kadrların öyrədilməsi, bilik və bacarıqlarının artırılmasına dövlət tərəfindən xüsusi diqqət ayrılarsa, bu özlüyündə beynəlxalq təcrübənin ölkəyə gətirilməsi və tətbiqinə şərait yaratmış olar. Digər bir amil parkların işinin monitorinqidir. Monitorinq bir fəaliyyət növünün daimi və ya vaxtaşırı nəzarətdə saxlanılması, qiymətləndirilməsini özündə birləşdirir. Fəaliyyətin nəzarətdə saxlanılması burad olan boşluqları, çatışmazlıqları vaxtında aşkar etməyə imkan verir ki, vaxtında müdaxilə hər zaman müsbət nəticə verdiyindən dövlət tərəfindən texnoparkların fəaliyyətinin monitoinqinin həyata keçirilməsi də vacib hesab olunur (Baranovskaya və Ukhanova, 2016).

Ölkə iqtisadiyyatının hazırkı vəziyyəti texnoloji inkişaf sahəsində qabaqcıl xarici ölkələrdən geri qalması, elmi potensialın səviyyəsinin artırılmasına ehtiyacın olması və iqtisadiyyatın innovativ həssaslığı ilə xarakterizə olunur. Ölkə iqtisadiyyatındakı bu vəziyyəti, ölkənin elmi və texniki potensialının səmərəli istifadəsinə və artırılmasına kömək edəcək innovasiya sahəsində bu cür təşkilati formaların inkişafını nəzərdə tutan milli innovasiya sisteminin yaradılması şərti ilə aradan qaldırıla bilər. Milli innovasiya sistemini yaratmaq vəzifəsi iqtisadiyyatın davamlı inkişafını və böyüməsini təmin etməyə çalışan bütün ölkələr və bölgələr üçün aktualdır. Dövlət dəstəyi sayəsində texnoparklarda yüksək texnoloji məhsul istehsalını artırmaq, belə müəssisələri milli innovasiya siyasətinin əsas hissəsinə çevirmək, onların innovasiya potensialını artırmaq uğurlu nəticələr verə bilər, çünki texnoparklar, keyfiyyət və innovasiya mədəniyyətini inkişaf etdirmək, şirkətləri və bazarı məlumatlandırmaq və texnologiyanı yenilikçi şirkətlərə ötürmək üçün xidmətlər təqdim edərək idarə etdikləri sahədəki müəssisə və qurumlarda ixtisaslaşmış peşəkar bir komanda üçün əlavə dəyər yaradır (Tepel və Eker, 2018).

Texnoparkları idarə etmək üçün düzgün idarəetmə sistemi yaradılmalıdır. Bu sistem təşkilati-iqtisadi quruluşa və texnoparkların məqsəd və vəzifələrinə uyğun olaraq formalaşdırılmalıdır. Məzmuna görə, idarəetmə sisteminin funksiyaları Mühasibat, təhlil, planlaşdırma, təşkilat, proqnozlaşdırma, əlaqə və nəzarət kimi funksiyalardan ibarətdir. Xüsusi tapşırıqlar idarəetmənin hər mərhələsinə uyğun olaraq həyata keçirilir. Bu cür vəzifələrə aşağıdakı vəzifələr daxildir:

- innovativ fəaliyyətə dəstək sisteminin formalaşdırılması, tədqiqat və inkişaf işlərinin aparılması üçün əlverişli şəraitin yaradılması;
- innovasiya müəssisələri üçün məsləhət, mühəndislik, texniki, texnoloji, informasiya və digər xidmətlər;
- marketinq tədqiqatları, əlaqəli müəssisələr üçün marketinq xidmətləri;
- qərarların qəbul edilməsinə dəstək üçün intellektual informasiya sisteminin hazırlanması, texnoparkın rezidentləri üçün güzəştlər üzrə innovativ sifarişlərin və investisiya layihələrinin hazırlanmasının təşviqi, innovativ biznesin və yüksək texnoloji istehsalın inkişafının qurulması, elmi-tədris və istehsal prosesinin səmərəli təşkilinə nail

olmaq üçün investisiyaların cəlb edilməsinin təşviqi, müasir informasiya strukturunun yaradılması, texnoparkın səmərəli fəaliyyətinə təsir edən amillərin seçilməsi, texnoparkın səmərəliliyinin artırılmasına kömək edən daxili potensialın və xarici mühitin müəyyənləşdirilməsi, texnoparklarda balanslaşdırılmış göstəricilər konsepsiyasına əsaslanan səmərəlilik strategiyasının tətbiqi şərtlərinin müəyyənləşdirilməsi və s. (Alguliyev, Aliyev və Shahverdiyeva, 2014).

Türkiyə təcrübəsinə nəzər salsaq görərik ki, burada texnoparklarda potensial sahibkarlara təklif olunan dəstək və təşviq üsulları böyük beynəlxalq şirkətlərdən kiçik startaplara qədərdir. Beləliklə, kiçik biznes baxımından məqsəd vençur kapitalı ilə innovativ layihələrə və sahibkarlığa dəstək, beynəlxalq investorlar baxımından isə ölkəyə xarici kapitalın cəlb edilməsi kimi ümumiləşdirilə bilər. Texnopark sahibkarlarının faydalana biləcəyi başqa bir təşviq, işəgötürənlər tərəfindən mükafatların dəstəklənməsidir. Bütün bunlar texnoaprkların səmərəli fəaliyyətinə öz təsirini göstərən amillərdir (Demirli, 2014).

Texnoparkların fəaliyyətinə dair təcrübənin sistemləşdirilməsi əsasında onun idarəetmə göstəriciləri müəyyən edilə bilər. Texnoparkların səmərəli idarə edilməsi də bu cür göstəricilərə əsasən qiymətləndirilir. Bu cür göstəricilərə aşağıdakı göstəricilər daxildir:

- texnoparklarda vergi və istehlakçı üstünlükləri;
- texnoparkların elmi, innovativ və təhsil fəaliyyəti;
- elmi, texniki, texnoloji və resurs potensialı;
- innovativ strategiyaların inkişafının dövlət tənzimlənməsi mexanizmləri,
- maliyyə və investisiya mənbələri;
- kadr potensialı;
- texnoparkların, ali təhsil müəssisələrinin rezidentlərinin tanınma səviyyəsi və tədqiqat müəssisələri;
- texnoparkların infrastruktur, texniki, sosial və informasiya təminatı;
- tədqiqat və təhsil müəssisələrinin birbaşa marağı, texnoparkın ixtisaslaşmasına uyğunluq, regional siyasət prioritetləri, sənaye şirkətləri ilə davamlı tərəfdaşlıq, tədqiqat və texnologiyanın kommersiyalaşdırılması sahələri, texnoparkın balanslaşdırılmış fəaliyyət planı və s.

Bu göstəricilər və aralarındakı əlaqə səmərəli idarəetmə strukturunun hazırlanmasında ayrılmaz hissə kimi qəbul edilməlidir (Aliyev və Shahverdiyeva, 2017).

Texnoparkların inkişafı konsepsiyasında texnoparkların səmərəliliyini artırmaq üçün aşağıdakı sahələrə üstünlük verilir:

- istehsal olunan mal və xidmətlərin inkişaf perspektivlərinin uçotu;
- innovasiya və elmi tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsində, müəssisənin modernləşdirilməsində, verilənlər bazasının hazırlanmasında və idarə edilməsində ağıllı sistemlərin tətbiqi;
- mobil idarəetmənin inkişafı müəssisənin quruluşu;
- müəssisənin səmərəliliyinin artırılmasında insan amilinin rolunun artırılması; korporativ müştərilərin ehtiyaclarına yönəlmiş innovativ xidmətlərin uçotu;
- müəssisənin inkişafı üçün qabaqcıl texnologiyaların, İKT-nin istifadəsi, yüksək ixtisaslı mütəxəssislərin və alimlərin rolu, modelləşdirmə, imitasiya, proqnozlaşdırma və s. kimi texnoloji imkanlardan istifadə (Wang, Zhao & Zhang, 2014).

Müasir dövrdə ölkələrin iqtisadi inkişafı yüksək texnoloji sahələrin, eləcə də texnoloji yeniliklərin, yeni texnologiyaların inkişafına təkan verir. Yüksək texnoloji texnologiyaların istifadəsi tamamilə yeni bir sahə kimi innovativ yönümlü iqtisadi inkişafa səbəb olmuşdur. İnnovativ texnoparkların idarə edilməsinin özəlliyi texnoparklarda innovasiyaların tam idarə edilməsini, həmçinin layihələrin inkişafı və investisiyaların idarə edilməsinin əsas istiqamətlərini tələb edir. Eyni zamanda, texnopark biznes strukturu kimi innovativ rezident şirkətlərə geniş çeşiddə peşəkar xidmətlər göstərir. Bundan əlavə, texnopark effektiv əmlak idarəetmə prosesini təşkil edir. Yuxarıda göstərilən aspektlər səmərəli və ağıllı idarəetmə sisteminin yaradılmasını tələb edir. Belə idarəetmə nəticəsində innovasiya sahəsində idarəetmə sisteminin balanslaşdırılmış siyasəti, mülkiyyətdən səmərəli istifadə həyata keçirilir.

Müəssisələrin fəaliyyətinin səmərəliliyinin təyini zamanı bir sıra göstəricilərdən istifadə edə bilərik. Bura əmək məhsuldarlığı, rentabellik, xərclərlə gəlirlərin fərqi və s. göstəricilər daxil edilə bilər. Məhz texnoparkların fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsində də bu göstəricilərə müraciət etmək olar. Bütünlükdə konkret texnoparkın fəaliyyətinin səmərəliliyi onun tərkibində fəaliyyət göstərən müəssisələrin səmərəliliyi ilə bilavsitə əlaqəli olur, yəni burada fəaliyyət göstərən müəssisələrin səmərəliliklərinin cəmindən ibarətdir. Onların əsas səmərəlilik göstəricisi də gəlirlərlə müqayisədə daha az xərclə məhsul və xidmət istehsalını həyata keçirməklə təyin edilir. Texnoparklarda istehsal olunan məhsulların böyük bir hissəsi adətən emal sənayesi istehsalına aid edildiyindən region ölkələri ilə emal sənayesi məhsulunun ümumi həcminin indekslərini müqayisəyə edərək illər üzrə fəaliyyətin həmin ölkələrə nisbətdə nə dərəcədə səmərəli olmasını təyin edə bilərik.

**Cədvəl 1: Emal sənayesi üzrə sənaye məhsulunun ümumi həcminin indeksləri (əvvəlki ilə nisbətən, faizlə)**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Azərbaycan** | 102,4 | 99,5 | 96,6 | 101,5 | 101,8 | 96,0 |
| **Belarus** | 93,4 | 99,6 | 106,1 | 105,7 | 101,0 | 99,3 |
| **Qazaxıstan** | 98,4 | 98,9 | 107,3 | 104,4 | 104,1 | 99,5 |
| **Qırğızıstan** | 95,6 | 104,9 | 111,5 | 105,4 | 106,9 | 93,4 |
| **Moldova** | 100,6 | 100,9 | 103,4 | 103,7 | 102,0 | 94,5 |
| **Rusiya** | 99,2 | 102,2 | 102,1 | 103,5 | 102,3 | 97,9 |
| **Tacikistan** | 111,3 | 116,0 | 121,3 | 111,5 | 113,2 | 108,8 |
| **Özbəkistan** | 105,3 | 105,4 | 105,2 | 110,8 | 105,0 | 100,9 |
| **Ukrayna** | 87,0 | 102,8 | 100,4 | 103,0 | 99,5 | 95,5 |
| **Ermənistan** | 105,0 | 106,9 | 112,5 | 104,2 | 108,8 | 100,6 |

**Mənbə:** (https://www.stat.gov.az/source/industry/ 2023)

**Cədvəl 6: Emal sənayesi üzrə sənaye məhsulunun ümumi həcminin indeksləri, (2000=100)**

| | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Azərbaycan** | 326,0 | 313,0 | 301,0 | 306,0 | 311,0 | 299,0 |
| **Belarus** | 217,0 | 227,0 | 240,0 | 253,0 | 256,0 | 254,0 |
| **Qazaxıstan** | 201,0 | 213,0 | 226,0 | 236,0 | 245,0 | 244,0 |
| **Qırğızıstan** | 115,0 | 131,0 | 153,0 | 161,0 | 172,0 | 161,0 |
| **Moldova** | 139,0 | 180,0 | 188,0 | 195,0 | 199,0 | 188,0 |
| **Rusiya** | 144,0 | 159,0 | 166,0 | 176,0 | 180,0 | 178,0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Tacikistan** | 198,0 | 281,0 | 395,0 | 440,0 | 499,0 | 542,0 |
| **Özbəkistan** | 161,0 | 210,0 | 233,0 | 258,0 | 271,0 | 274,0 |
| **Ukrayna** | 156,0 | 125,0 | 129,0 | 137,0 | 136,0 | 130,0 |
| **Ermənistan** | 160,0 | 229,0 | 276,0 | 287,0 | 312,0 | 313,0 |

**Mənbə:** (https://www.stat.gov.az/source/industry/ 2023)

2015-2020-ci illər üzrə emal sənayesi istehsal indekslərini region ölkələri üzrə müqayisə edərkən görmək olur ki, Azərbaycan digər ölkələrə nisbətdə daha arxa sıralarda qərarlaşıb. Belə ki, 2-015-ci il üzrə təhlilə nəzər salsaq ölkəmizin 10 ölkə arasında 4-cü, 2016-cı il üzrə 9-cu, 2017-ci il üzrə 10-cu, 2018-ci il üzrə 10-cu, 2019-cu il üzrə 8-ci, 2020-ci il üzrə isə 7-ci olduğunu görə bilərik. Əlavə olaraq deyə bilərik ki, bu illər üzrə Taciksitan 1-ci sırada qərarlaşmışdır. Bu illər üzrə emal sənayesi istehsal indekslərinin təhlilin və müqayisənin nəticəsi göstərir ki, Azərbaycanda həmin illər üzrə fəaliyyət digər ölkələrə nisbətdə səmərəli hesab edilə bilməz, lakin daha əvvəlki fəsillərdə sırf ölkə üzrə aparılmış təhlil əsasında fəaliyyətin səmərəli olması qənaətinə gəlmişik.

İllər üzrə ölkədə emal sənayesi üzrə mövcud olan sənaye müəssisələrinin sayına nəzər salsaq artım olduğunu görə bilərik. Əvvəlki fəsildə sənaye istehsal indekslərinin illər üzrə müqayisəsi əsasında aparılmış təhlilin nəticəsində də artım müşahidə edilmişdi. Buradan belə nəticəyə gəlmək olar ki, belə müəssisələrin sayı artdıqca istehsal indeksləri də artmış olur ki, bu da öz növbəsində sayın səmərəliliyə müsbət təsir göstərməsi nəticəsini əldə etməyə imkan verir. Müəssisələrin sayının artması həm də yeni iş yeri deməkdir. Aşağıdakı cədvəldə emal sənayesi üzrə 2017-2021-ci illəri əhatə edən dövr üzrə sənaye müəssisələrinin sayı qeyd edilmişdir. Cədvələ nəzər salsaq, görərik ki. Bu illər üzrə sənaye müəssisələrinin sayı artmışdır. Artım hər il üzrə müşahidə olunmuşdur

**Cədvəl 3: Emal sənayesi üzrə fəaliyyət göstərən sənaye müəssisələrinin sayı, vahid**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| **Emal sənayesi** | **1826** | **2034** | **2330** | **2515** | **2777** |
| **Qida məhsullarının istehsalı** | 361 | 393 | 449 | 487 | 540 |
| **İçki istehsalı** | 110 | 120 | 126 | 131 | 146 |
| **Tütün məmulatlarının istehsalı** | 9 | 10 | 11 | 13 | 17 |
| **Toxuculuq sənayesi** | 67 | 74 | 80 | 89 | 93 |
| **Geyim istehsalı** | 57 | 77 | 99 | 112 | 120 |
| **Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı** | 27 | 29 | 29 | 30 | 32 |
| **Mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı** | 38 | 45 | 55 | 56 | 55 |
| **Kağız və karton istehsalı** | 20 | 28 | 40 | 44 | 53 |
| **Poliqrafiya məhsullarının istehsalı** | 153 | 150 | 172 | 172 | 184 |
| **Neft məhsullarının istehsalı** | 4 | 7 | 8 | 9 | 10 |
| **Kimya sənayesi** | 81 | 93 | 99 | 110 | 132 |
| **Əczaçılıq məhsullarının istehsalı** | 11 | 12 | 13 | 17 | 19 |
| **Rezin və plastik kütlə məmulatların istehsalı** | 103 | 118 | 134 | 147 | 162 |
| **Tikinti materiallarının istehsalı** | 229 | 236 | 254 | 266 | 289 |
| **Metallurgiya sənayesi** | 41 | 52 | 57 | 59 | 68 |
| **Hazır metal məmulatlarının istehsalı** | 93 | 114 | 143 | 155 | 174 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Kompüter, elektron və optik məhsulların istehsalı** | 23 | 26 | 31 | 32 | 32 |
| **Elektrik avadanlıqlarının istehsalı** | 48 | 54 | 61 | 63 | 69 |
| **Maşın və avadanlıqların istehsalı** | 58 | 64 | 77 | 82 | 84 |
| **Avtomobil, qoşqu və yarımqoşquların istehsalı** | 5 | 9 | 12 | 13 | 12 |
| **Sair nəqliyyat vasitələrinin istehsalı** | 9 | 9 | 10 | 12 | 13 |
| **Mebellərin istehsalı** | 87 | 92 | 112 | 123 | 147 |

**Cədvəl 3-ün davamı**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| **Sair sənaye məhsullarının istehsalı** | 42 | 48 | 60 | 68 | 74 |
| **Maşın və avadanlıqların quraşdırılması və təmiri** | 150 | 174 | 198 | 225 | 252 |

**Mənbə:** (https://www.stat.gov.az/source/industry/ 2022)

Texnoparkalrın və bu tipli digər müəssisələrin inkişafı və səmərəli fəaliyyətinin əsas amili dövlət dəstəyidir desək yanılmış olmarıq. Belə müəssisələrdə tədqiqat və inkişaf işlərinin ümumi xərclərinə nəzər salmaq yerinə düşər.

**Cədvəl 4: Tədqiqat və inkişaf işlərinin ümumi xərcləri**

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| **Elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin ümumi xərcləri-cəmi min manat** | 128 647.4 | 123 230.4 | 129 289.8 | 132 340.0 | 150 532.1 |
| **tədqiqat və inkişaf işlərinin daxili xərcləri** | 123 804.4 | 120 943.6 | 124 721.3 | 129 871.8 | 147 468.3 |
| **tədqiqat və inkişaf işlərinin cari daxili xərcləri** | 118 465.9 | 118 643.3 | 120 782.3 | 127 997.0 | 144 997.9 |
The article talks about the guiding and regulating role of the great leader Heydar Aliyev in the formation of the modern accounting model in our country. Considering the issues of accounting development in the context of the development of the country's economy in general, starting from the first years of state independence of the Republic of Azerbaijan, adopting the line of development of the economy in the direction of market principles and, accordingly, developing accounting according to these principles, organizing the processes of its improvement according to international standards, The work done by Heydar Aliyev in the formation of the necessary legislative base for them, in the creation of a new accounting system based on the basic principles of the market economy, and in other such matters leading to the formation of the modern accounting model is mentioned. In parallel with the development of the economy in general in Azerbaijan, and emphasizing the importance of Heydar Aliyev's oil strategy in the development of accounting at a modern level, the conclusion of the famous "Contract of the Century", the formulation of its certain conditions and its fulfillment during the period of long-term development accelerated the development of accounting and in this field it is noted that it paved the way for the application of international standards. It is noted that the processes of improving accounting in accordance with international standards occupy an important place in the continuation of the accounting development processes in accordance with Heydar Aliyev's set and lines in the modern era, and it is shown that these processes are carried out in 3 stages and continue today.
**Keywords:** development of accounting, international standards

## Giriş

**Mövzunun aktuallığı** 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar olaraq, onun fəaliyyətinin bütün istiqamətlərinin araşdırılmasının zəruriliyi ilə bağlıdır. Müasir dövrdə ulu öndər Heydər Əliyevin fəaliyyətinin müxtəlif istiqamətləri çoxsaylı müəlliflər tərəfindən araşdırılmış, onun

haqqında çoxlu kitab və məqalələr yazılmış, konfranslar keçirilmiş, məruzələr edilmiş və çıxışlar dinlənilmişdir. Bunların böyük əksəriyyətində Azərbaycanın sosial, iqtisadi və mədəni inkişafına onun verdiyi töhfələr araşdırılmış, ona zamanın çoxmillətli Azərbaycan xalqı tərəfindən qəbul edilən qiymət müəyyənləşdirilmişdir. Bununla yanaşı, Heydər Əliyevin ölkəmizdə mühasibat uçotunun inkişafına verdiyi töhfə və bu sahədə yerinə yetirdiyi funksiyalar kifayət qədər araşdırılmamışdır. Ona görə də müasir mühasibat uçotunun formalaşmasında onun uzaqgörən iqtisadi siyasətinin otuz illik nəticələrinin araşdırılması, ümumxalq mülkiyyətinə və sosialist təsərrüfatçılıq prinsiplərinə əsaslanan mühasibat uçotu sisteminin üzərində bazar iqtisadiyyatının təməl prinsiplərini özündə ehtiva edən müasir mühasibat uçotu modelinin yaradılması proseslərinin tədqiq edilməsi, bu tədqiqat işinin elmi baxımdan önəmli olduğunu göstərir.

**Tədqiqatın əsas məqsədi** Azərbaycan Respublikasının müstəqilliyinin otuz illik dövründə müasir mühasibat uçotunun formalaşmasında Heydər Əliyevin nə kimi pol oynamış olduğunu göstərməkdən, özünəməxsus çətinliklərlə müşayiət edilən keçid iqtisadiyyatında onun yeritdiyi iqtisadi siyasətin mühasibat uçotuna toxunan elementlərinin qabarıq şəkildə araşdırılmasından ibarətdir.

**Tədqiqatın vəzifəsi** qarışya qoyulmuş məqsədə nail olmaq istiqamətində yığcam araşdırmaların aparılmasından və əldə edilmiş nəticələrin elmi ictimaiyyətə təqdim edilməsindən ibarətdir.

**Tədqiqatın metodologiyası** 1993-cü ildən başlamaqla, mühasibat uçotu üzrə normativ-hüquqi bazanın formalaşmasının xronoloji ardıcıllığına əsaslanaraq, onun zaman-zaman dəyişdirilərək, necə inkişaf etməsini araşdırmaqla, müvafiq zaman kəsiklərində qeyd edilən iqtisadi inkişaf elementləri ilə müqayisəli təhlil aparmaqla, müasir mühasibat uçotunun formalaşması məsələlərinin tədqiq edilməsinə istiqamətləndirilmişdir. Burada "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunda, beynəlxalq standartların mühasibat uçotunda tətbiq edilməsi məsələlərində, həmçinin, bunların əsasında hazırlanmış mühasibat uçotu qaydalarında aparılmış dəyişikliklər ardıcıl olaraq müşahidə edilmiş, mövzuya aid olan müddəalar təhlil edilərək öyrənilmiş, bunların əsasında müstəqillik illərində müasir mühasibat uçotunun formalaşmasının aktual məsələləri müəyyən edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri** Heydər Əliyevin iqtisadi siyasət kursuna dair ədəbiyyatların geniş spektrə malik olmasından, onların bir məqalədə tam şəkildə əhatə edilməsinin qeyri-mümkünlüyündən, müstəqillik illərində ölkəmizdə mühasibat uçotu üzrə iki qanunun qəbul edilməsindən, həmçinin onların əsasında hazırlanmış müxtəlif səpkili uçot qaydalarının mövcud olmasından, onlarda tez-tez dəyişikliklərin aparılmasından və bu əsasda araşdırılmalı materialların fiziki həcminin çox böyük olmasından irəli gəlir.

**Tədqiqat ilə bağlı əsas istinad olunan mənbələr** Heydər Əliyevin iqtisadi siyasət kursuna dair bir sıra məqalələrdən, mühasibat uçotu sahəsində mövcud olan qanunlara edilmiş dəyişikliklərin məzmunundan, onların icra edilməsinə dair Maliyyə Nazirliyinin qəbul etdiyi uçot qaydalarından, həmçinin, mühasibat uçotu standartlarının ölkəmizdə tətbiq edilməsinə və mühasibat uçotunun inkişafı məsələlərinə həsr edilmiş əsərlərdən ibarətdir.

## Azərbaycanın İqtisadi İnkişafı Heydər Əliyev Siyasətinin Uğurudur

Ölkəmizin müstəqillik illərində keçdiyi iqtisadi inkişaf prizmasından baxdıqda, ümummilli lider Heydər Əliyevin quruculuq dəsti-xətti daha aydın nəzərə çarpır. Onun quruculuq dəsti-xəttinin siyasi, iqtisadi, sosial, humanitar, multikultural digər istiqamətləri bir-biri ilə tam vəhdət təşkil edir. Müasir Azərbaycan ölkəsi Heydər Əliyevin şah əsəridir. Onun daxili və xarici siyasəti, iqtisadiyyatı, ordu quruculuğu, sosial inkişafı və digər sahələrinin hər biri bu əsərin ayrı-ayrı fəsilləridir. Ali Baş

Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük İkinci Qarabağ müharibəsində xalqımızın qazandığı zəfər nəticəsində torpaqlarımızın azad edilməsi, əsası Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də müvəffəqiyyətlə davam etdirilən ordu quruculuğunun bariz nümunəsidir. Heydər Əliyev ideyaları həm müasir dövrdə, həm də perspektiv uzunmüddətli gələcəkdə ölkəmizin ardıcıl, inamlı və yüksələn templə inkişafını doğru yola yönləndirəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir (*Prezidentin Sərəncamı, 2022*). Bu məqsədlə nəzərdə tutulan tədbirlərin icra edilməsinə dəstək olaraq, bu məqalə Heydər Əliyevin 100 illik yubileyi ərəfəsində yazılmaqla, mühasibat uçotunun inkişafında onun istiqamətverici roluna baxış məsələlərinə həsr olunmuşdur.

Bu baxımdan iqtisadiyyatımızın inkişafının müasir mərhələsi mühüm əhəmiyyətə malikdir, çünki müasir inkişaf dövründə uzunmüddətli gələcək üçün etibarlı və möhkəm baza yaradılır. Burada mühasibat uçotunun inkişafı məsələləri də özünəməxsus şəkildə əhəmiyyətə malikdir, çünki o, iqtisadiyyatın idarə edilməsi alətlərindən biri hesab olunur.

**İqtisadi inkişaf və mühasibat uçotu**

Məlumdur ki, ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi prosesləri müstəqilliyimizin ilk illərindən start götürmüş və hal-hazıradək davam edən böyük bir təkamül yolu keçmişdir. Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən dərhal sonra iqtisadiyyatın bazar münasibətlərinə uyğun və açıq bazar prinsiplərinə əsaslanmaqla yenidən təşkil edilməsi istiqamətində inkişaf etdiriləcəyi bəyan edilmiş və bu konteksdə ölkənin ali idarəetmə orqanlarında o vaxt mövcud olan mühasibat uçotu sisteminin ciddi şəkildə dəyişdirilərək, bazar iqtisadiyyatının təməl prinsiplərinə əsaslanan yeni bir mühasibat uçotu sisteminin yaradılmasının zəruriliyi vurğulanmışdır. Belə bir şəraitdə mühasibat uçotunun beynəlxalq standartların tələbləri istiqamətində inkişafını dəstəkləyən işlərə start verilmişdir. Bu istiqamətdə görulməsi zəruri olan bütün işlər 1993-cü ildə xalqımızın lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra onun bilavasitə iştirakı və rəhbərliyi ilə yerinə yetirilmişdir. İlk əvvəl öklədə mühasibat uçotunun bazar iqtisadiyyatı istiqamətində inkişaf etdirilməsi proseslərini tənzimləyən qanunlar qəbul edilmişdir. Onlardan "Mühasibat uçotu haqqında" və "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanunları, Azərbaycan Respublikasının Vergi Məcəlləsi və Mülki Məcəlləsi deyd edilməlidir. Ölkəmizdə bu qanunların qəbul edilməsində, eləcə də onlarda mövcud olan müddəaların müasir bazar iqtisadiyyatının başlıca prinsiplərinə uyğunlaşdırılmasında ümummilli lider Heydər Əliyevin müstəsna rolu olmuşdur ki, bu da həm ümumilikdə ölkənin iqtisadi inkişafının bazar iqtisadiyyatı prinsiplərinə yönəldilməsində, həm də iqtisadi subyektlərdə mühasibat uçotunun bu istiqamətdə inkişafında yeni mərhələnin əsasını qoydu. Bu qanunlar ölkəmizdə mühasibat uçotunun bazar iqtisadiyyatı istiqamətində inkişaf etdirilməsi və azad bazar prinsiplərinə uyğunlaşdırılması üçün zəruri olan hüquqi əsaslar yaratdı. Həmçinin, bazar iqtisadiyyatı üçün xarakterik olan yeni audit sisteminin də yaradılması istiqamətində işlər görüldü. 24 mart 1995-ci ildə qəbul edilmiş "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda mühasibat uçotunun gələcək inkişafında əsas istiqamətin ölkədə mühasibat uçotunun beynəlxalq standartlarının qəbul edilməsi və onların mühasibat uçotu subyektlərində tətbiq edilməsindən ibarət olduğu təsbit edildi. Bu barədə Qanunun 7-ci maddəsinin 1-ci bəndində belə göstərilmişdir: "Müəssisə əmlakının, öhdəliklərinin və bütün təsərrüfat əməliyyatlarının mühasibat uçotunu bu Qanun əsasında işlənib hazırlanmış mühasibat uçotu standartlarına ... uyğun ... aparır" (İbadoğlu, 1998).

Ölkəmizdə iqtisadiyyatın müasir inkişaf mərhələsi Heydər Əliyevin iqtisadi siyasətinin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi nəticəsində formalaşmışdır. Tanınmış iqtisadçı alim və

mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, “Müasir dövrdə Azərbaycan iqtisadiyyatının dördüncü sənaye inqilabı çağırışlarına cavab verməsi, habelə milli dövlətçiliyin, ictimai rifahın və güclü ordunun maddi əsası kimi çıxış etməsi Heydər Əliyev siyasətinin uğurudur” (Qasımlı, 2022). Ölkəmizin davamlı inkişafının gedişatı, onun beynəlxalq aləmdə taleyüklü məsələlərin həlli istiqamətində yerinə yetirdiyi funksiyalar göstərir ki, belə uğurların uzunmüddətli gələcəkdə də daimi və dönməz olacağını əminliklə söyləmək olar.

**Heydər Əliyevin Neft Strategiyasının Mühasibat Uçotunun İnkişafına Təsiri**

Qeyd etmək lazımdır ki, Azərbaycanda iqtisadiyyatın müasir səviyyədə inkişaf etməsində Heydər Əliyevin neft strategiyası mühüm əhəmiyyətə malikdir. Bu strategiyanın həyata keçirilməsi proseslərində mühasibat uçotunun inkişafı məsələləri də müəyyən qədər yer tutmuşdur. “Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir” (Prezidentin Sərəncamı, 2022). Burada iqtisadiyyatın yüksələn templə inkişaf etməsində mühüm rol oynayan məsələlərdən biri 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə bütün dünyada tanınmış olan beynəlxalq neft şirkətləri arasında bağlanmış “Xəzər Dənizinin Azərbaycan Sektorunda yerləşən “Azəri”, “Çıraq” və “Günəşli” Yataqlarının Dərinlikdə Yerləşən Hissəsinin Birgə İşlənməsi və Hasilatın Pay Bölgüsü Haqqında Sazişin” əldə edilməsidir (Sazişə dair protokol, 2009). Öz böyük əhəmiyyətinə və təkcə Azərbaycan iqtisadiyyatının deyil, ümumilikdə bütün dünyada neft sənayesinin inkişafında tutduğu əzəmətli mövqeyinə görə bu Saziş haqlı olaraq, “Əsrin Müqaviləsi” adlandırılmışdır. Bu əzəmətli müqavilədə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, Lukoyl, Statoyl, Eksson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir (Kərimova, 2014). Bakı şəhərinin “Gülüstan” sarayında bağlanan bu müqavilə adları göstərilən neft şirkətlərini bir araya gətirmiş və onların gələcək fəaliyyətini Xəzər Dənizinin dərinliklərində olan karbohidroken resurslarının çıxarılaraq, birgə istifadə edilməsinə yönəltmişdir. Sonrakı dövrlərdə “Əsrin Müqaviləsi” daha da genişləndi və ona yeni ölkələr, yeni neft şirkətləri qoşuldu. Belə ki, “Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. “Əsrin Müqaviləsi”nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlandı” (Hun, 2019).

**“Əsrin Müqaviləsi” və mühasibat uçotu**

ARDNŞ ilə çoxsaylı xarici şirkətlər arasında “Əsrin Müqaviləsi”nin bağlanması ölkəmizdə mühasibat uçotunun inkişafına da müsbət təsir göstərmişdir. Hər şeydən əvvəl, xarici şirkətlərlə yaranmış bu tərəfdaşlıq Azərbaycanda mühasibat uçotunun beynəlxalq standartların tələbləri istiqamətində inkişafını şərtləndirmişdir. Belə ki, “Əsrin Müqaviləsi”ndə xarici şirkətlərlə ortaq fəaliyyət sferasına malik olan Azərbaycanın müəssisə və təşkilatlarında mühasibat uçotunun aparılmasında beynəlxalq qaydaların tətbiq olunacağı göstərilmişdir. Bizim fikrimizcə, 1995-ci il də qəbul edilmiş “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanunun “Mühasibat uçotu və hesabatı qanunvericiliyi” adlanan 2-ci maddəsinin məzmunu “Əsrin Müqaviləsi”nin bu tələblərinə uyğun formalaşdırılmışdır. Həmin tələblərin təsiri ilə Qanunda təsbit olundu ki, əgər Azərbaycanda mövcud olan mühasibat uçotu qaydaları beynəlxalq müqavilələrin əhatə etdiyi qaydalara uyğun gəlməzsə, onda qaydaların müddəaları deyil, beynəlxalq müqavilələrin müddəaları üstün mövqeyə malik olacaq və bu halda mühasibat uçotu və maliyyə hesabatlarının təşkili məsələləri beynəlxalq müqavilələrin müddəaları əsasında təşkil ediləcəkdir. Bu məsələ Qanunda belə təsbit olunmuşdur:

“Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydalar Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində müəyyən edilmiş qaydalardan fərqli olduqda Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin qaydaları tətbiq edilir” (Qanun, 1995).

Qanunun burada göstərilən müddəasının məzmunundan göründüyü kimi, 1995-ci ildə qəbul edilmiş bu müddə 1994-cü ildə bağlanmış “Əsrin Müqaviləsi”nin şərtlərinin əlverişli şəkildə həyata keçirilməsinə şərait yaradılmasına hesablanmışdır. Qanunun bu maddəsinin təsiri altına düşən ictimai əhəmiyyətli iqtisadi qurumlardan biri Azərbaycan Respublikasının Dövlət Neft Şirkətidir ki, orada da mühasibat uçotu 1994-cu ildən hal-hazıradək beynəlxalq standartlar əsasında aparılır. Bu barədə “Ernst & Young Global Limited” Audit Şirkətinin məsul nümayəndəsinin Şirkətin 31 dekabr 2021-ci il tarixinə konsolidasiya edilmiş maliyyə hesabatlarına 30 iyun 2022-ci ildə verdiyi auditor rəyində belə ifadə olunmuşdur: “Bizim fikrimizcə, əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2021-ci il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir” (ARDNŞ-nin maliyyə hesabatları, 31 dekabr 2021). Həqiqətən, bu Qanunla “Əsrin Müqaviləsi”nin qarşılıqlı təsiri altında həmin müqavilənin tərəfdaşı olan Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində, eləcə də onun tabeliyində olan çoxsaylı müəssisələrdə mühasibat uçotunun aparılmasında 1994-cü ildən etibarən beynəlxalq standartlardan birbaşa istifadə edilməyə başlandı və illik maliyyə hesabatları bu standartların tələblərinə uyğun tərtib edildi. Müqayisə üçün qeyd edək ki, ölkəmizdə mövcud olan digər mühasibat uçotu subyektlərində beynəlxalq standartlara uyğun hazırlanmış və onun tələblərini özündə ehtiva edən ilk milli standart 18 aprel 2006-cı ildə qəbul edilmişdir. “Maliyyə hesabatlarının təqdimatı üzrə kommersiya təşkilatları üçün 1№-li Milli Mühasibat Uçotu Standartı” adlanan bu standart mühasibat uçotu subyektlərində 01yanvar 2007-ci ildən tətbiq edilməyə başlanmışdır (1№-li MMUS, 2006). Göründüyü kimi, “Əsrin Müqaviləsi”nin təsiri altında Azərbaycanın neft sektorunda fəaliyyət göstərən çoxsaylı subyektlərdə mühasibat uçotunun beynəlxalq standartları digər subyektlərdən 12 il əvvəl tətbiq edilməyə başlanmışdır ki, bu da ulu öndər Heydər Əliyevin mühasibat uçotunun inkişafına verdiyi töhfə kimi qəbul edilməlidir. O vaxtdan etibarən hal-hazıradək Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində mühasibat uçotu və maliyyə hesabatı sahəsində formalaşmış olan təcrübə bütün ölkədə mühasibat uçotu və maliyyə hesabatına dair beynəlxalq standartların tətbiqi istiqamətində əsaslı inkişaf bazası kimi istifadə edilir (Salahov, 2022). Ümumiyyətlə, ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartlar istiqamətində inkişaf etdirilməsində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti əhəmiyyətli pol oynamışdır. Ölkə iqtisadiyyatının inkişafının bir çox məsələlərində olduğu kimi, mühasibat uçotunun müasir tələblər səviyyəsində formalaşmasında bu təşkilat həmişə qabaqcıl mövqeyə malik olmuşdur.

**Mühasibat Uçotunun İnkişafında Heydər Əliyev Siyasətinin Davamı**

O vaxtlar ölkəmizdə mövcud olan və planlı sosialist təsərrüfatçılığının xarakterik xüsusiyyətlərinə uyğun təşəkkül tapmış mühasibat uçotu sisteminin yenidən qurularaq, bazar iqtisadiyyatı istiqamətində inkişaf etdirilməsi proseslərində keçid dövrünə xas olan bir sıra çətinliklər meydana çıxmışdı. Müxtəlif çeşidli belə çətinliklər mühasibat uçotunun beynəlxalq standartlara keçidini ləngidirdi. Bu proseslər Heydər Əliyev siyasətinin ardıcıl davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sürətləndirildi. Ölkədə mühasibat uçotunun beynəlxalq standartlarını tətbiq etməklə, o vaxtadək mövcud olmuş mühasibat uçotu sistemini əsaslı

şəkildə dəyişdirərək, onu beynəlxalq standartların tələblərinə uyğun yenidən qurmaq məqsədi ilə 21-ci əsrin ilk beşilliyində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən mühasibat uçotunun beynəlxalq standartların tələblərinə uyğun inkişaf etdirilməsinə dair ard-arda 2 proqram qəbul edildi. Onlardan birincisi Nazirlər Kabinetinin 20 fevral 2003-cü il tarixli, 29 saylı Qərarı ilə təsdiq edilmiş "Beynəlxalq Mühasibat Uçotu Standartlarına keçmək məqsədilə Milli Mühasibat Uçotu Standartlarının 2003-2007-ci illərdə hazırlanması və tətbiqi üzrə Proqram" (Proqram-1, 2003), ikincisi isə 18 iyul 2005-ci il tarixli, 139 saylı Qərarı ilə təsdiq edilmiş "2005-2008-ci illərdə Milli Mühasibat Uçotu Standartlarının tətbiqi üzrə Proqram" (Proqram-2, 2005) adlanır. Bu Proqramların hər birində onların öz adlarına uyğun olan tədbirlər nəzərdə tutulmuşdur ki, onların da yerinə yetirilməsi nəticəsində mühasibat uçotunun məqsədyönlü şəkildə inkişaf etdirilməsində ciddi irəliləyişə nail olundu. Bu arada 24 iyun 2004-cü ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunu yeni redaksiyada və yeni məzmunda ikinci dəfə qəbul edildi. Qanunun yeni məzmunda ikinci dəfə qəbul edilməsi və göstərilən Proqramların yerinə yetirilməsi, ökləmizdə mövcud olan mühasibat uçotu sisteminin beynəlxalq standartların tələblərinə uyğun şəkildə inkişaf etdirilməsinə və iqtisadi inkişafın xarakterik xüsusiyyətlərinə uyğun təkmilləşdirilməsinə rəvac verdi. 1995-ci ildə qəbul edilmiş "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanundan fərqli olaraq, 2004-cü ildə qəbul edilmiş Qanunda əsas yeri ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartlarının qəbul edilməsi və bunun ilkin mərhələsi olaraq, milli mühasibat uçotu standartlarının hazırlanması və tətbiq edilməsi məsələləri tuturdu.

**Mühasibat uçotunun beynəlxalq standartlara uyğun təkmilləşdirilməsinin üç mərhələsi**

Nazirlər Kabinetinin burada göstərilən iki proqramı ilə yeni Qanunun məzmunu bütöv bir mövzunun reallaşmasına xidmət edir ki, həmin mövzu da Azərbaycanda mühasibat uçotunun beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi məsələlərinə həsr edilmişdir. Bu mövzunun real həyatda yerinə yetirilməsi prosesi müstəqillik dövründə mühasibat uçotunun inkişafı xüsusiyyətlərinə (Salahov, 2022) uyğun olmaqla, özünü 3 mərhələdə göstərir. Bunlar aşağıdakı mərhələlərdir:

Birinci mərhələ mühasibat uçotunun beynəlxalq standartlarının azərbaycan dilinə tərcümə edilməsi, dərindən öyrənilməsi və onların əsaında Azərbaycan iqtisadiyyatının inkişafının xarakterik xüsusiyyətlərinə uyğun olan milli mühasibat uçotu standartlarının yaradılmasından ibarət olub, 2003-2008-ci illəri əhatə edir;

İkinci mərhələ ölkədə milli və beynəlxalq mühasibat uçotu standartlarının yanaşı və paralel şəkildə tətbiq edilməsi dövründən ibarət olub, 2008-2018-ci illəri əhatə edir;

Üçüncü mərhələ milli mühasibat uçotu standartlarının fəaliyyətinin dayandırılması və bu sahədə yalnız beynəlxalq standartların tətbiq edilməsi dövrüdür ki, bu mərhələ 4 may 2018-ci ildə edilmiş dəyişikliklərlə başlanmış və hazırki dövrdə də davam etdirilir.

Burada göstərilən 3 mərhələ eyni zamanda Heydər Əliyevin iqtisadi inkişaf siyasətinin sadiq davamçısı olan İlham Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyət göstərdiyi müasir dövrdə Azərbaycanda mühasibat uçotunun inkişafı mərhələləri kimi də qəbul edilə bilər ki, bunların da hər biri özünəməxsus xarakterik xüsusiyyətlərə malikdir. Belə ki, 2003-2008-ci illəri əhatə edən birinci mərhələyə xas olan əsas xüsusiyyətlər beynəlxalq mühasibat uçotu standartlarının ölkəmizdə əsaslı şəkildə öyrənilməsinə yenicə başlanması, onların hərtərəfli tətbiq edilməsi üçün hazırlıq proseslərinin yerinə yetirilməsi və bunların əsasında ölkə iqtisadiyyatının xarakterik xüsusiyyətlərinə uyğun olan milli mühasibat uçotu standartlarının yaradılmasından ibarətdir. Bu mərhələdə bəzi müəssisə və təşkilat tiplərində, məsələn, ictimai əhəmiyyətli qurumlara aid edilən müəssisə və təşkilatlarda, mühasibat uçotunun beynəlxalq standartları, yerdə qalan subyektlərdə isə milli mühasibat uçotu standartlarının tətbiq edilməsi tövsiyə edilirdi (Qanun, 2004). Bu barədə 29 iyun 2004-cü ildə qəbul edilərək, 2 sentyabr 2004-cü ildən qüvvəyə minmiş "Mühasibat uçotu haqqında" Azərbaycan

Respublikası Qanunun 6-cı maddəsinin 6.0.1-ci bəndində göstərilmişdir (Maddə 6. Azərbaycan Respublikasında tətbiq edilən mühasibat uçotu standartları).

2008-2018-ci illəri əhatə edən ikinci mərhələyə beynəlxalq mühasibat uçotu standartlarının total şəkildə öyrənilməsi və onları tətbiq edən müəssisə və təşkilatların dairəsinin əhəmiyyətli şəkildə genişləndirilməsi, digərlərində isə milli mühasibat uçotu standartlarının tətbiq edilməsinin və yaxud, müstəqil seçim edərək, onların da beynəlxalq standartları tətbiq etmək ixtiyarına malik olmasının qanunla təsbit edilməsi kimi xüsusiyyətlər xarakterikdir. Bu barədə Qanunun 10-cu maddəsinin 10.1.2-ci bəndində (Maddə 10. İctimai əhəmiyyətli qurumlar və kiçik sahibkarliq subyektləri istisna olmaqla, kommersiya təşkilatlarının maliyyə hesabatlarının tərtib edilməsi) göstərilmişdir (Qanun, 2004).

2018-ci ildən sonrakı dövrə aid olan üçüncü mərhələ bütün ölkədə mühasibat uçotunun beynəlxalq standartlarının tam və hərtərəfli tətbiqi, həmçinin, bu əsasda milli mühasibat uçotu standartlarının qüvvədən düşdüyü və bundan sonra tətbiq edilməsinin qadağan edildiyi dövr kimi xarakterizə olunur. Bu dövrü ölkəmizdə mühasibat uçotunun və maliyyə hesabatlarının beynəlxalq standartlarının tam, müştərək və hərtərəfli tətbiq edilməsi dövrü adlandırmaq olar.

**Mühasibat uçotunun inkişafında insan resursları hədəfləri**

Ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartların tələblərinə uyğun təkmilləşdirilməsi proseslərinin burada verilmiş gedişatının şərhindən göründüyü kimi, bu prosesin başlanğıcı müstəqilliyin bərpasının ilk illərindən qoyulsa da, bu sahədə mühüm əhəmiyyətə malik olan əsaslı işlər 2003-cü ildən sonra yerinə yetirilmişdir. 2003-cü ildən sonra lazımi şəkildə sürətləndirilən bu proseslər 2018-ci ildə özünün yüksək həddinə çatmışdır. Lakin prosesin tam başa çatdığı tarix haqqında fikir söyləmək hələ də mümkün deyildir, çünki müasir dövrdə heç də bütün müəssisə və təşkilatlarda mühasibat uçotunun və maliyyə hesabatlarının beynəlxalq standartlarının tələbləri tam şəkildə yerinə yetirilmir. Bunun əsas səbəblərindən biri müəssisə və təşkilatlarda mühasibat uçotunu təşkil edən insan resurslarının müvafiq tələblərə cavab verməməsindən ibarətdir. Bu proseslərin bütün müəssisə və təşkilatlarda tam və hərtərəfli şəkildə yerinə yetirilməsində peşəkar mühasib statusunun müəyyənləşdirilməsi mühüm əhəmiyyətə malikdir. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanuna 4 may 2018-ci ildə edilmiş dəyişikliklər ilə əlavə edilmiş peşəkar mühasib statusu müəssisə və təşkilatlarda mühasibat uçotu və maliyyə hesabatlarının beynəlxalq standartların tələblərinə uyğun təkmilləşdirilərək, bu standartların tələblərinin tam və hərtərəfli yerinə yetirilməsinin təmin edilməsi missiyasını öz üzərinə götürə bilən insan resurslarının hazırlanması məqsədini daşıyır. Qeyd edək ki, peşəkar mühasib statusunun müəyyən edilməsi və ona aid olan tənzimləyici məsələlər 4 may 2018-ci ildə edilmiş dəyişikliklərdə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 14-1-ci maddəsində (Maddə 14-1. Peşəkar mühasib sertifikatının verilməsi) əks etdirilmişdir (Qanun, 2018). Bizim fikrimizcə, ölkə iqtisadiyyatının özəyi olan çoxsaylı müəssisə və təşkilatların peşəkar mühasib statusuna malik olan insan resursları ilə təmin edilməsi yolu ilə mühasibat uçotunun inkişafında gözlənilən hədəflərə nail olacağıq.

**Nəticə**

Ölkə iqtisadiyyatının açıq bazar prinsiplərinə əsaslanmaqla yenidən təşkil edilməsi üçün mühasibat uçotunun köhnə sistemində dəyişikliklər edilərək, bazar iqtisadiyyatının təməl prinsiplərinə əsaslanan yeni sistemin yaradılması zəruri idi, ona görə də ümummilli lider Heydər Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə mühasibat uçotunun beynəlxalq standartlara uyğun inkişafı strategiyası qəbul edildi. Onun həyata keçirilməsini təmin etmək üçün müvafiq qanunlar qəbul edildi və onların əsasında zəruri normativ-hüquqi baza yaradıldı.

Ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartlara uyğun inkişaf etdirilməsində "Əsrin Müqaviləsi"nin şərtlərinə əsasən, ARDNŞ-nin çoxsaylı müəssisələrində mühasibat uçotunun

beynəlxalq standartları digər subyektlərdən 12 il əvvəl tətbiq edilməyə başlanmışdır ki, bu da Heydər Əliyevin mühasibat uçotunun inkişafına verdiyi töhfələrdən biridir. Sonradan ARDNŞ-nin mühasibat uçotu və maliyyə hesabatı informasiyalarından digər subyektlər tərəfindən, həmçinin, bu sahəyə aid olan yeni insan resurslarının formalaşdırılmasında dəyərli təcrübə bazası kimi istifadə olunmaqdadır. Müasir dövrdə ölkəmizdə formalaşmış olan mühasibat uçotu sistemini mühasibat uçotunun Heydər Əliyev modeli adlandırmaq olar. Bu model müstəqillik dövründə mühasibat uçotunun mərhələli inkişafı nəticəsində yaradılmışdır. Burada həlledici rola malik olan beynəlxalq standartlara uyğunlaşdırılma proseslərinin 3 mərhələsi vürğulanmışdır: 1) milli mühasibat uçotu standartlarının yaradılması 2003-2008-ci illəri, 2) milli və beynəlxalq mühasibat uçotu standartlarının paralel şəkildə tətbiq edilməs dövrü 2008-2018-ci illəri, 3) milli mühasibat uçotu standartlarının fəaliyyətinin dayandırılması, yalnız beynəlxalq standartların tətbiq edilməsi, 4 may 2018-ci ildə edilmiş dəyişikliklərdən sonrakı dövrü əhatə edir. Burada göstərilən 3 dövrün hər birində mühasibat uçotunun inkişafının özünəməxsus xarakterik xüsusiyyətləri vurğulanmışdır.

**Ədəbiyyat Siyahısı**


"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. 4 may 2018. 27 s.

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. 29 iyun 2004. 14 s.

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. 24 mart 1995. 12 s.

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 29 sentyabr 2022-ci il https://president.az/az/articles/view/57413

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. https://static.president.az/pdf/38542.pdf

Beynəlxalq Mühasibat Uçotu Standartlarına keçmək məqsədilə Milli Mühasibat Uçotu Standartlarının 2003- 2007-ci illərdə hazırlanması və tətbiqi üzrə Proqram haqqında. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 saylı Qərarı. Bakı, 20 fevral 2003

2005-2008-ci illərdə Milli Mühasibat Uçotu Standartlarının tətbiqi üzrə Proqramın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 139 saylı Qərarı. Bakı, 18 iyul 2005

Hasilatın pay bölgüsü haqqında Sazişə dair protokollar (PSA): Azəri və Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişə dair: Xarici subpodratçıların vergiyə cəlb olunması haqqında protokol, 22 aprel 2009. https://www.taxes.gov.az/files/2 /Hasilat%20pdfler/azeri_ xar_sub.pdf

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2021-ci il, 115 s. https://www.socar.az/az/page/maliyye-hesabatlari

Maliyyə hesabatlarının təqdimatı üzrə kommersiya təşkilatları üçün 1№-li MMUS. https://maliyye.gov.az

İbadoğlu LTD. Mühasibat işi (normativ sənədlər toplusu). "Mühasibin kitabxanası" seriyasından. Bakı, "Elm və həyat" Nəşriyyatı, 1998. 393 s.

Qasımlı V. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. "İqtisadi islahatlar" elmi-analitik jurnalı № 4(5), 2022, s.7-13

Orxan Hun. Əsrə meydan oxuyan "Əsrin Müqaviləsi": milli uğur strategiyası. 19 sentyabr 2019 https://news.milli.az/economy/787339.html

Kərimova R. Azərbaycan neft strategiyası: “Əsrin Müqaviləsi”. 22 may 2014. https://prezi.com/9wzho9g9oc_q/azrbaycan-neft-strategiyas-srin-muqavilsi/

Salahov Ə.S. Azərbaycanda mühasibat uçotunun inkişafının müasir aspektləri haqqında. IV İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların beynəlxalq elmi konfransı. Bakı, 2022. https://conferences.az/uploads/file/4d1b6-konfrans-tam-m-tnl-r-kitabi.pdf. s.347-359

# Sənayedə Və İqtisadiyyatda İnstrumental Proqramlaşdırma Sistemlərinin Tətbiqi

**Elvin Əhmədov**

**Azərbaycan Dövlət İqtisadiyyat Universiteti**

**elvinahmadov00@gmail.com**

**Xülasə**

Müasir sənayelərin artan mürəkkəbliyi və qlobal iqtisadiyyatın böyüməsi ilə real vaxt rejimində mürəkkəb tapşırıqları və məlumatların təhlilini idarə edə bilən mürəkkəb kompüter sistemlərinə daha çox ehtiyac var. İnstrumental proqramlaşdırma sistemi sənaye və iqtisadi şəraitdə müxtəlif proseslərin avtomatlaşdırılmasına, səmərəliliyin artırılmasına və xərclərin azaldılmasına kömək edə bilən güclü vasitədir.

Bu məqalədə instrumental proqramlaşdırma sisteminə, o cümlədən onun arxitekturasına, proqramlaşdırma dillərinə və tətbiq sahələrinə ümumi baxış təqdim edir. Məqalədə sistemin istehsal, nəqliyyat və səhiyyə kimi müxtəlif sənayelərin performansını yaxşılaşdırmaq üçün necə istifadə oluna biləcəyini və tətbiq sahələri yer alır. Bundan əlavə, sistemin istehsal prosesini optimallaşdırmaq, insan səhvlərini azaltmaq və iş yerində təhlükəsizliyi artırmaq qabiliyyətini araşdırılır.

Məqalədə həmdə əməliyyatları optimallaşdırmaq, səmərəliliyi artırmaq və rəqabət qabiliyyətini artırmaq üçün instrumental proqramlaşdırma sistemlərindən necə istifadə edildiyini təsvir edir. Mücərrəd həmçinin qərarların qəbulu üçün dəqiq və vaxtında məlumatların təhlilinin vacib olduğu günümüzün sürətli biznes mühitində bu sistemlərin əhəmiyyətini vurğulayır.

Sonda bu mücərrəd sənaye və iqtisadiyyatda instrumental proqramlaşdırma sistemlərinin əhəmiyyətini qeyd edilir. Sistemlərin mürəkkəb tapşırıqları avtomatlaşdırmaq və məsrəfləri azaldaraq məhsuldarlığı artırmaq potensialı onları istənilən sənaye üçün dəyərli aktivə çevirir.

**Açar sözlər:** sənaye, iqtisadiyyat, instrumental proqramlaşdırma, alqoritm

## Abstract

With the increasing complexity of modern industries and the development of the global economy, there is a greater need for sophisticated computer systems that can handle complex tasks and data analysis in real time. Instrumentation system is a powerful force that can help software automation, energy enhancement and energy reduction in industrial and economic conditions.

These articles provide an overview of instrumental programming, including its architecture, languages, and applications. The article examines how the system can be used to improve performance in industries such as manufacturing, energy, and healthcare, and its application areas. In addition, we investigate how to optimize the system manufacturing process, reduce human errors and ensure job security.

The article describes how to use instrumental programming to optimize operations, efficiency, and competitive advantage of systems. As abstract, the importance of accurate and timely data analysis for decision-making emphasizes the security of these systems in today's fast-paced business environment.

In the end, the damage of instrumental programming systems in this abstract industry and economy is mentioned. The systems' potential to automate complex tasks and increase productivity while reducing costs make them a valuable asset to any industry.

**Keywords:** industry, economy, instrumental programming, algorithm

**Giriş**

**Mövzunun aktuallığı:** İnstrumental proqramlaşdırma sistemləri bizneslərə bir sıra üstünlüklər təklif edir, o cümlədən artan səmərəlilik, azaldılmış xərclər və təkmilləşdirilmiş keyfiyyətə nəzarət. Mövzunun aktuallığının səbəbləri aşağıda qeyd edilmişdir:

1. Avtomatlaşdırmaya artan tələbat: Sənayedə və iqtisadiyyatda avtomatlaşdırmaya tələb artmaqda davam etdikcə, instrumental proqramlaşdırma sistemlərinin istifadəsi getdikcə daha vacib olur. Bu sistemlər müəssisələrə prosesləri avtomatlaşdırmağa və əl ilə müdaxilə ehtiyacını azaltmağa imkan verir ki, bu da səmərəliliyi artıra və xərcləri azalda bilər.

2. Real vaxt rejimində monitorinq və təhlilə ehtiyac: Sənaye proseslərinin artan mürəkkəbliyi ilə performansı optimallaşdırmaq və tullantıları azaltmaq üçün məlumatların real vaxt rejimində monitorinqinə və təhlilinə ehtiyac var. İnstrumental proqramlaşdırma sistemləri bu funksionallığı təmin edə bilər, müəssisələrə verilənlərə əsaslanan qərarlar qəbul etməyə və əməliyyatlarında dəyişikliklərə tez reaksiya verməyə imkan verir.

3. Keyfiyyəti yaxşılaşdırmaq və tullantıları azaltmaq üçün təzyiq: Rəqabət artdıqca və müştərilər daha yüksək keyfiyyətli məhsul və xidmətlər tələb etdikcə, müəssisələr keyfiyyətə nəzarəti yaxşılaşdırmaq və tullantıları azaltmaq üçün təzyiq altındadır. İnstrumental proqramlaşdırma sistemləri, proseslərin real vaxt rejimində monitorinqini və təhlilini təmin etməklə, onlara problemləri daha böyük problemlərə çevrilməzdən əvvəl müəyyən etməyə və düzəltməyə imkan verməklə bizneslərə bu məqsədlərə çatmağa kömək edə bilər.

4. Ətraf mühitlə bağlı narahatlıqlar: Ətraf mühitlə bağlı problemlər haqqında məlumatlılığın artması ilə bizneslər karbon izlərini azaltmaq və daha davamlı şəkildə fəaliyyət göstərmək üçün təzyiq altındadırlar. İnstrumental proqramlaşdırma sistemləri enerji istifadəsini optimallaşdırmaq, tullantıları azaltmaq və ümumi səmərəliliyi artırmaqla müəssisələrə bu məqsədlərə nail olmaqda kömək edə bilər.

**Tədqiqatın əsas məqsədi:** Bu tədqiqatın əsas məqsədi sənaye və iqtisadiyyatda instrumental proqramlaşdırma sistemlərinin tətbiqini araşdırmaqdır. Tədqiqat bu sistemlərin müxtəlif prosesləri optimallaşdırmaq, səmərəliliyi artırmaq, xərcləri azaltmaq və ümumi məhsuldarlığı artırmaq üçün necə istifadə oluna biləcəyini araşdırmaq məqsədi daşıyır.

**Tədqiqatın vəzifəsi:** Bu tədqiqatın vəzifəsi instrumental proqramlaşdırma sistemlərinin sənayedə və iqtisadiyyatda istifadə sahələrini araşdırmaqdır.

**Tədqiqatın metodologiyası:** Bu tədqiqatın metodologiyası sənayedə və iqtisadiyyatda instrumental proqramların tətbiqini əhatə edəcəkdir.

**Tədqiqatla bağlı məhdudiyyətlər.** Tədqiqat istifadə olunan metodologiya ilə məhdudlaşır, bu, instrumental proqramların faydaları, sənayedə və iqtisadiyyatda istifadəsi əks etdirir. Mövzunun yeni və inkişafda olması işin daha geniş araşdırılmasına imkan verir.

**İstinad olunan mənbələr.** Mövzu ilə bağlı aparılan tədqiqatlar, elmi materiallar nəzərdən keçirilərək bu tədqiqatda istinad olunan mənbələr olaraq istifadə edilmişdir

**Sənaye və iqtisadiyyatda instrumental proqramlaşdırma sistemləri**

İnstrumental proqramlaşdırma sistemləri sənayedə və iqtisadiyyatda qərarların qəbulunu dəstəkləmək, səmərəliliyi artırmaq və innovasiyaları təşviq etmək üçün istifadə olunan vacib alətlərdir. Bu sistemlər məlumatların təhlili, mürəkkəb sistemlərin modelləşdirilməsi və proseslərin

optimallaşdırılması üçün kompüter proqramlarından və alqoritmlərindən istifadəni nəzərdə tutur. İnstrumental proqramlaşdırma sistemlərinin tətbiqləri satışların və maliyyə meyilərinin proqnozlaşdırılmasından tutmuş tədarük zəncirinin logistikasının optimallaşdırılmasına və riskin idarə edilməsinə qədər genişdir (Srinivasan & Brink, 2019).

Sənayedə istehsal proseslərinin avtomatlaşdırılması, keyfiyyətə nəzarət və nəzarət, inventarların idarə edilməsi üçün instrumental proqramlaşdırma sistemlərindən istifadə olunur. Onlar həmçinin istehsal proseslərinin dizaynında və optimallaşdırılmasında, o cümlədən materialların idarə edilməsində, istehsalın planlaşdırılmasında mühüm rol oynayırlar. Bundan əlavə, instrumental proqramlaşdırma sistemləri məhsul dizaynını təkmilləşdirmək, müştəri rəylərini təhlil etmək və marketinq strategiyalarını inkişaf etdirmək üçün istifadə olunur.

İqtisadiyyatda iqtisadi meylləri modelləşdirmək və proqnozlaşdırmaq, maliyyə məlumatlarını təhlil etmək və investisiya portfellərini optimallaşdırmaq üçün instrumental proqramlaşdırma sistemlərindən istifadə olunur. Bu sistemlər investisiyalar, qiymətlər və risklərin idarə edilməsi ilə bağlı əsaslandırılmış qərarlar qəbul etmək üçün müəssisələr, maliyyə institutları və dövlət qurumları tərəfindən istifadə olunur. Onlar həmçinin iqtisadi siyasətin, o cümlədən vergi, ticarət və pul siyasətinin inkişafında mühüm rol oynayırlar (Mustafa & Uçar, 2011).

Ümumilikdə, instrumental proqramlaşdırma sistemləri sənaye və iqtisadiyyatların fəaliyyət tərzində inqilab edib, qərarların qəbulu, proseslərin optimallaşdırılması və innovasiyalar üçün güclü sistemlər təqdim edib. Texnologiya inkişaf etməyə davam etdikcə, instrumental proqramlaşdırma sistemlərinin sənaye və iqtisadiyyatın gələcəyinin formalaşmasında daha da əhəmiyyətli rol oynaması gözlənilir.

**Sənaye və iqtisadiyyatda istifadə olunan instrumental proqramlaşdırma üsulları**

İnstrumental proqramlaşdırma üsulları sənaye və iqtisadiyyatda müxtəlif məqsədlər üçün, o cümlədən məlumatların təhlili, proqnozlaşdırma, optimallaşdırma və qərar qəbul etmək üçün geniş istifadə olunur. Sənaye və iqtisadiyyatda ən çox istifadə edilən instrumental proqramlaşdırma metodlarından bəziləri bunlardır:

Xətti proqramlaşdırma: Bu üsul məhdudiyyətlərə məruz qalan xətti funksiyaları optimallaşdırmaq üçün istifadə olunur. Tez-tez istehsalın planlaşdırılmasında, resursların bölüşdürülməsində və təchizat zəncirinin idarə edilməsində istifadə olunur.

Simulyasiyası: Bu üsul çox sayda təsadüfi dəyişənləri olan sistemlərin davranışını modelləşdirmək üçün istifadə olunur. Tez-tez risk təhlili, maliyyə modelləşdirmə və layihənin idarə edilməsində istifadə olunur (Sipahi & Şahin., 2010).

Zaman təhlili: Bu üsul zaman təhlili məlumatlarında meylləri təhlil etmək və proqnozlaşdırmaq üçün istifadə olunur. Tez-tez maliyyə proqnozu, bazar təhlili və ekonometrikada istifadə olunur.

Optimallaşdırma alqoritmləri: Bunlar problemin optimal həllini tapmaq üçün istifadə olunan alqoritmlərdir. Onlar tez-tez tədarük zəncirinin idarə edilməsində, logistika və planlaşdırmada istifadə olunur (Gülbay, 2014).

Maşın sistemləri: Bu, verilənlər əsasında proqnozlar vermək üçün təlim alqoritmlərini əhatə edən süni intellektin bir hissəsidir. Tez-tez proqnozlaşdırıcı analitika, fırıldaqçılığın aşkarlanması və müştəri seqmentasiyası üçün istifadə olunur.

Data mining: Bu üsul böyük verilənlər bazasından nümunələrin və biliklərin çıxarılmasını əhatə edir. O, tez-tez bazar araşdırması, müştəri profili və proqnozlaşdırıcı modelləşdirmədə istifadə olunur.

Ümumilikdə, instrumental proqramlaşdırma metodları qərar qəbulunu dəstəkləmək, səmərəliliyi artırmaq və innovasiyaları təşviq etmək üçün analitik sistem nümunələri təqdim etməklə sənaye və iqtisadiyyatda mühüm rol oynayır (Özkan & Karaçalı, 2013).

**İnstrumental proqramlaşdırma sistemlərinin sənayedə tətbiqi:**

İnstrumental proqramlaşdırma sistemləri sənayedə müxtəlif prosesləri optimallaşdırmaq, səmərəliliyi artırmaq, xərcləri azaltmaq və ümumi məhsuldarlığı artırmaq üçün geniş istifadə olunur. Sənayedə instrumental proqramlaşdırma sistemlərinin bəzi ümumi tətbiqləri bunlardır:

**Avtomatlaşdırma və Nəzarət:** Quraşdırma xətləri, kimyəvi proseslər və robototexnika kimi sənayedə müxtəlif prosesləri avtomatlaşdırmaq və idarə etmək üçün instrumental proqramlaşdırma sistemlərindən istifadə edilə bilər. Sensorlar və idarəetmə sistemlərindən istifadə etməklə bu sistemlər istehsal prosesini optimallaşdıra, səhvləri azalda və keyfiyyəti yaxşılaşdıra bilər.

Kimyəvi proseslərdə temperatur, təzyiq və axın sürəti kimi müxtəlif dəyişənləri idarə etmək və izləmək üçün instrumental proqramlaşdırma sistemlərindən istifadə edilə bilər. Xəbərdarlıq nəzarətindən istifadə etməklə, bu sistemlər bu dəyişənləri real vaxt rejimində tənzimləyə bilər, prosesin istənilən məhdudiyyətlər daxilində qalmasını və son məhsulun keyfiyyətinin ardıcıl olmasını təmin edir (Gülbay, 2014).

Nəqliyyatda, nəqliyyat axınına nəzarət etmək və optimallaşdırmaq, tıxacları azaltmaq və təhlükəsizliyi artırmaq üçün instrumental proqramlaşdırma sistemlərindən istifadə edilə bilər. Bu sistemlər nəqliyata nəzarət etmək, məlumatları təhlil etmək, svetoforları və yol nişanlarını müvafiq qaydada tənzimləmək üçün sensorlar və kameralardan istifadə edə bilər.

Proqnozlaşdırılan Baxım: İnstrumental proqramlaşdırma sistemləri turbinlər, mühərriklər və generatorlar kimi sənayedə avadanlıqların işini izləmək və proqnozlaşdırmaq üçün istifadə edilə bilər. Real vaxt məlumatlarını təhlil edərək və maşın öyrənmə alqoritmlərindən istifadə edərək, bu sistemlər avadanlığın nə vaxt texniki xidmətə ehtiyac duyacağını proqnozlaşdıra bilir, beləliklə, dayanma müddətini azaldır və səmərəliliyi artırır (Şimşek, 2001).

İstehsalda konveyerlər, nasoslar və mühərriklər kimi avadanlıqların işinə nəzarət etmək üçün instrumental proqramlaşdırma sistemlərindən istifadə edilə bilər. Temperatur və enerji sərfiyyatı kimi amillərlə bağlı məlumatları təhlil edərək, bu sistemlər texniki xidmətin nə vaxt tələb olunacağını təxmin edə bilər, bu da texniki xidmətin əvvəlcədən planlaşdırılmasına imkan verir və planlaşdırılmamış dayanma müddətini azaldır.

Ümumilikdə, proqnozlaşdırıcı texniki xidmətdə instrumental proqramlaşdırma sistemlərinin tətbiqi müxtəlif sənaye şəraitlərində xərcləri azaltmaq, səmərəliliyi artırmaq və avadanlıqların etibarlılığını artırmaq potensialına malikdir (Abed & Wiley, 2011).

**İnventar İdarəetmə:** İnstrumental proqramlaşdırma sistemləri sənayedə real vaxt rejimində inventar səviyyələrini idarə etmək, təchizat zəncirini optimallaşdırmaq və tullantıları azaltmaq üçün istifadə edilə bilər. Ehtiyat səviyyəsini və tələbi izləməklə, bu sistemlər inventarları avtomatik sifariş edə və izləyə bilər və lazım olduqda materialların həmişə mövcud olmasını təmin edir.

Məsələn, istehsalatda xammalın və hazır məhsulların inventar səviyyələrini idarə etmək üçün instrumental proqramlaşdırma sistemlərindən istifadə edilə bilər. Bu sistemlər inventar səviyyələrini real vaxt rejimində izləyə bilər və ehtiyat səviyyəsi əvvəlcədən müəyyən edilmiş həddə çatdıqda avtomatik olaraq yeni materiallar sifariş edə bilər. Bununla, bu sistemlər ehtiyatların tükənməsi riskini azalda və istehsal prosesinin uğurla getməsini təmin edə bilər.

Eynilə, pərakəndə satış sənayesində mağazalar və anbarlardakı inventar səviyyələrini idarə etmək üçün instrumental proqramlaşdırma sistemlərindən istifadə edilə bilər. Bu sistemlər satış məlumatlarına nəzarət edə, inventar səviyyələrini izləyə və anbar səviyyələri əvvəlcədən müəyyən edilmiş həddə çatdıqda avtomatik olaraq yeni məhsullar sifariş edə bilər. Bununla, bu sistemlər anbarların tükənməsi və həddən artıq stoklanma riskini azalda bilər, müştərilər onları almaq istədikləri zaman lazımi məhsulların mövcud olmasını təmin edə bilər.

Ümumilikdə, inventar idarəetməsində instrumental proqramlaşdırma sistemlərinin tətbiqi müxtəlif sənaye və pərakəndə satış yerlərində xərcləri azaltmaq, səmərəliliyi artırmaq və müştəri məmnuniyyətini artırmaq potensialına malikdir (Karaçalı, 2013).

**Keyfiyyətə nəzarət:** İnstrumental proqramlaşdırma sistemləri istehsal və istehsal kimi müxtəlif sənaye proseslərində keyfiyyətə nəzarət etmək üçün istifadə edilə bilər. Sensorlar və maşın öyrənmə alqoritmlərindən istifadə etməklə, bu sistemlər real vaxt rejimində qüsurları və anomaliyaları aşkarlaya bilər və bu, tez düzəliş fəaliyyətinə və keyfiyyətin yaxşılaşdırılmasına imkan verir.

Məsələn, istehsalda instrumental proqramlaşdırma sistemləri məhsullarda çatlar və ya ləkələr kimi qüsurları yoxlamaq üçün istifadə edilə bilər. Bu sistemlər bu qüsurları aşkar etmək və hər hansı bir nasaz məhsulu rədd etmək, tullantıları azaltmaq və ümumi keyfiyyəti artırmaq üçün sensorlardan istifadə edə bilər (Gülbay, 2014).

Eynilə, qida sənayesində istehsal zamanı keyfiyyətə nəzarət etmək üçün instrumental proqramlaşdırma sistemlərindən istifadə edilə bilər. Bu sistemlər bakteriya və ya yad obyektlər kimi çirkləndiriciləri aşkar etmək üçün sensorlardan istifadə edə və hər hansı çirklənmiş məhsulları rədd edərək yalnız təhlükəsiz və yüksək keyfiyyətli qida məhsullarının istehsalını təmin edə bilər.

Avtomobil sənayesində instrumental proqramlaşdırma sistemləri mühərriklər və transmissiyalar kimi müxtəlif komponentləri yoxlamaq və sınaqdan keçirmək üçün istifadə edilə bilər. Bu sistemlər istehsal prosesində yalnız yüksək keyfiyyətli komponentlərin istifadə olunmasını təmin edərək, hər hansı qüsur və ya nasazlığı aşkar etmək üçün sensorlar və maşın öyrənmə alqoritmlərindən istifadə edə bilər.

Ümumiyyətlə, keyfiyyətə nəzarətdə instrumental proqramlaşdırma sistemlərinin tətbiqi müxtəlif sənaye proseslərində xərcləri azaltmaq, səmərəliliyi artırmaq və müştəri məmnuniyyətini artırmaq potensialına malikdir (Sipahi, 2010).

**Enerji İdarəetmə:** İnstrumental proqramlaşdırma sistemləri enerji istifadəsini optimallaşdırmaq və istehsalat binalarının idarə edilməsi kimi müxtəlif sənaye proseslərində xərcləri azaltmaq üçün istifadə edilə bilər. Sensorlar, məlumatların təhlili və maşın öyrənmə alqoritmlərindən istifadə etməklə bu sistemlər real vaxt rejimində enerji istifadəsini izləyə və idarə edə, prosesləri daha səmərəli edə və enerji israfını azalda bilər.

Bərpa olunan enerji sektorunda günəş panelləri və külək turbinlərinin işini optimallaşdırmaq üçün instrumental proqramlaşdırma sistemlərindən istifadə edilə bilər. Bu sistemlər hava şəraiti kimi amilləri izləmək və səmərəliliyi artırmaq üçün bu bərpa olunan enerji mənbələrinin çıxışını tənzimləmək üçün sensorlardan istifadə edə bilər.

Bütövlükdə, enerji idarəçiliyində instrumental proqramlaşdırma sistemlərinin tətbiqi müxtəlif sənaye və bina idarəetmə parametrlərində xərcləri azaltmaq, səmərəliliyi artırmaq və karbon emissiyalarını azaltmaq potensialına malikdir (Kusiak, 2018).

**İqtisadiyyatda İntrumental Proqramlama Sistemlərinin Tətbiqi**

Kompüter proqramları kimi instrumental proqramlaşdırma sistemləri müasir iqtisadiyyatda müəssisələrin fəaliyyət göstərmə və qərar qəbul etmə tərzində inqilab etdi. İqtisadiyyatda instrumental proqramlaşdırma sistemlərinin bəzi xüsusi tətbiqləri bunlardır:

**Maliyyə Təhlili və Planlaşdırma:** Maliyyə təhlili və planlaşdırma iqtisadiyyatda instrumental proqramlaşdırma sistemlərinin əsas tətbiqidir. Maliyyə proqram təminatı proqramları büdcələşdirmə, proqnozlaşdırma və təhlil də daxil olmaqla geniş spektrli maliyyə tapşırıqlarını yerinə yetirmək üçün istifadə olunur. Maliyyə təhlili və planlaşdırmada instrumental proqramlaşdırma sistemlərinin necə istifadə edildiyinə dair bəzi xüsusi nümunələr bunlardır:

1. Büdcələşdirmə: İnstrumental proqramlaşdırma sistemləri büdcələri yaratmaq və idarə etmək üçün istifadə olunur. Büdcə proqramı şirkətlərə maliyyə məlumatlarını daxil etməyə və büdcə hesabatları yaratmağa imkan verir. Bu hesabatlar xərclərə nəzarət etmək və xərclərin büdcə daxilində qalmasını təmin etmək üçün istifadə edilə bilər (Şimşek, 2001).

2. Maliyyə Proqnozlaşdırması: Maliyyə proqnozlaşdırma proqramı gələcək maliyyə nəticələrini proqnozlaşdırmaq üçün tarixi məlumatlardan və bazar tendensiyalarından istifadə edir. Bu proqnozlar investisiyalar, genişləndirmə planları və digər maliyyə fəaliyyətləri haqqında əsaslandırılmış qərarlar qəbul etmək üçün istifadə edilə bilər.

3. Pul vəsaitlərinin hərəkətinin təhlili: Pul vəsaitlərinin daxilolmalarını və çıxışlarını izləmək üçün pul vəsaitlərinin hərəkəti təhlili proqramı istifadə olunur. Bu məlumatlar pul vəsaitlərinin hərəkətinə nəzarət etmək, potensial pul çatışmazlığını müəyyən etmək və investisiya və maliyyə fəaliyyətləri ilə bağlı əsaslandırılmış qərarlar qəbul etmək üçün istifadə edilə bilər.

Bürokrasinin Azaltılması ve Mevzuatın Sadeleştirilmesi (BAMS) projesi ile dijital bakanlığa geçiş aşamasında büyük bir ilerleme kaydeden Sanayi ve Teknoloji Bakanlığı "ilk dijital bakanlık" unvanına sahip kurumdur. BAMS Projesi sayesinde bakanlık kapsamında olan 179 hizmet e-devlet üzerinden erişime açmıştır. Sanayi ve Teknoloji Bakanlığı web sitesi "e-hizmetler" sekmesi üzerinden "dijital bakanlık" ve "e-tahsilat" hizmetlerine de kolaylıkla erişim sağlanmaktadır (T.C. Sanayi ve Teknoloji Bakanlığı). Bu sistem ile gerekli güncel verilere tek tıkla ulaşılabiliyor olması hem mevzuatta sadeleşme hem de zamandan tasarruf sağlanmaktadır. Bahsedilen bu hizmetlerin dışında bakanlık bünyesinde çeşitli uygulamalar ve faaliyetler yürütülmektedir. Aşağıda bu uygulamalara yer verilmiştir.

**Tablo 2: T.C. Sanayi ve Teknoloji Bakanlığı Güncel Dijital Uygulamalar**

| **T.C. Sanayi ve Teknoloji Bakanlığı Güncel Uygulamalar** | | |
|---|---|---|
| Teknoyatırım | KAYS | e-dergi |
| BİLTEK | Yatırıma Destek | LABS (Laboratuvar ve Araştırma Altyapıları Portalı) |
| GBS (Girişimci Bilgi Sistemi) | YER-SİS | HAMLE |
| ONTEK | Dijital Verimlilik Kütüphanesi | Kamu Bilişim Portalı |
| YBS (Yönetim Bilgi Sistemi) | Verimlilik Proje Ödülleri | LONCA |

[2] Detaylı bilgi için bakınız: https://www.sanayi.gov.tr/kurumsal/teskilat-semasi

| | | |
|---|---|---|
| ÖLÇSİS | PGD (Piyasa Gözetimi ve Denetimi) | Kalkınma Kütüphanesi |

**Kaynak:** www.sanayi.gov.tr/uygulamalar

Bakanlık bünyesindeki "yerli ve milli hamle", dijitalleşme, dijital yol haritası ve somut örnekleri noktasında üretilen ve faaliyette olan uygulamalar Tablo 2'de toplu bir şekilde verilmiştir. Adı geçen tüm uygulamalar dijital veri tabanlı kamu hizmetlerini ifade etmektedir. Bakanlığın yetkili ve sorumlu olduğu konuların sınıflandırılıp portallar oluşturarak tek bir uygulama üzerinde gelişim göstermesi ve bu şekilde hizmet sunumu kamu yönetiminde dijitalleşmenin etkin, verimli ve yönetişim halinde gerçekleşmesini destekler niteliktedir. T.C. Sanayi ve Teknoloji Bakanlığı bünyesinde "Teknolojik Ürün Yatırım Destek Programı", "Ar-Ge ve Tasarım Merkezleri", sistemsel kayıtlar, yatırımları teşvik ve destek programları, dijital kütüphaneler, coğrafi bilgi sisteminin kullanılması ve geliştirilmesi, teknoloji hamleleri destek ve teşvik programları vb. gibi ögeleri kapsayan birçok uygulamayı görmek mümkündür.

**Azerbaycan Cumhuriyeti'nin Dijital Dönüşüme İlişkin Kurumsal Yapıları**

İlk olarak Azerbaycan Demokratik Cumhuriyeti adıyla 1918 yılında kurulan Azerbaycan hükümeti 26 Nisan 1920 yılında Kızıl Ordu'nun sınırı geçmesiyle bağımsızlığını kaybetmiş ve toprakları Sovyet Sosyalist Cumhuriyetler Birliği'ne katılmıştır. 1991 yılında Sovyetler Birliği'nin dağılması ile Azerbaycan Cumhuriyeti yeniden bağımsızlığını kazanmıştır (Pipes, 1997: 219). Çalışmanın kapsamı itibari ile Azerbaycan'ın bilgi iletişim teknolojileri, dijitalleşme ve dijital dönüşüm kronolojik süreci de esasen 1953 tarihinde Sovyet Sosyalist Cumhuriyetler Birliği'nde kurulan İletişim Bakanlığı ile başlamaktadır. İletişim Bakanlığı, bağımsızlığını yeniden kazanan Azerbaycan Cumhuriyeti içinde varlığını bir süre daha sürdürmüş ve 2004 yılında onun temelinde "İletişim ve Bilgi Teknolojileri Bakanlığı" kurulmasıyla birlikte lağvedilmiştir (Dijital Kalkınma ve Ulaştırma Bakanlığı, 2023).

Azerbaycan Cumhuriyeti kimliği ile ilk resmi dijitalleşme adımları konu ile ilgili bir bakanlığın oluşturulması ve "e-devlet" üzerine atılmıştır. 2004 yılında kurulan "Bilgi ve İletişim Teknolojileri Bakanlığı"nın (Rabitə və Yüksək Texnologiyaları Nazirliyi) konu ile ilgili attığı ilk somut adımlar ise devlet programları ile gerçekleştirilmiştir. Bakanlık "Elektronik Azerbaycan" konusuna eğilmiş ve bilgi toplumu oluşturabilmek adına I. Devlet Programı (2005-2008) ve e-devlete geçiş süreci içinde II. Devlet Programı'nı (2010-2012) hazırlamıştır (Muradov, vd., 2014: 20).

II. Devlet Programının akabinde 13 Temmuz 2012 tarihinde 685 sayılı Cumhurbaşkanı kararnamesi ile "ASAN Hizmet" kuruluşu dijitalleşme adına önemli adımlardan bir diğeridir. ASAN, hükümet tarafından sunulan hizmetlerin birlik ve koordinasyon içinde yürütülmesi amacıyla kurulan Cumhurbaşkanı'na bağlı "Devlet Kamu Hizmeti ve Sosyal Yenilikler Ajansı" tarafından koordine edilen bir kurumdur (Nümunəvi Əsasnamə, 2014). ASAN, "Azerbaijan Service and Assessment Network"ün (Azerbaycan Hizmet ve Değerlendirme Ağı) kısaltmasıdır. Ayrıca asan kelimesi Azerbaycan türkçesinde "kolaylık" anlamına gelmektedir (Trend News Agency, 2012). Vatandaşın kolaylıkla hizmet alabilmesi üzerine oluşturulan bu kurum hizmet sunumunda şeffaflık, verimlilik, nezaket ve sorumluluk ilkelerini benimsemektedir (ASAN, www. asan.gov.az/en/about).

Asan Hizmet, elektronik hizmet kullanımını ve bu alandaki kurumsal reformların etkinliğini arttırmak, vatandaşın maddi ve zaman kayıplarını azaltmak, vatandaş ve hükümet arasındaki ilişkilerin niteliğini geliştirmek ve profesyonellik seviyesini güçlendirmek amacıyla oluşturulmuş bir kurumdur. Ayrıca Asan merkezlerinde verilen hizmetlerin etkinlik, şeffaflık, nezaket, sorumluluk ve

konfor ilkelerine göre yürütülmesi kurumun diğer temel amaçları arasında sayılmaktadır. Hizmet merkezleri e-devlet sisteminin fiziksel ortamda gerçekleştirilmesi ifadesi bu kurum için söylenebilir (ASAN, www. asan.gov.az/en/about). Hizmetlerden faydalanabilmek için fiziksel olarak kurulan merkezlere gidilebilir, online sipariş üzerine merkezin ilgili biriminden yüz yüze destek alınabilir veya otobüs ve trenle sağlanan “Mobil Asan Hizmetten” faydalanılabilmektedir. Asan Hizmet’te vatandaş hem hizmet alabilmekte hem de hizmet sunumunda yardımcı olarak görev alabilmektedir. Yönetişim ilkesini destekleyici bir nitelikte olan bu durum Asan Okul eğitim programı ile de desteklenmektedir.

ASAN hizmet merkezleri aracılığı ile vatandaşa hizmet sunan devlet kurumları; İçişleri Bakanlığı, Adalet Bakanlığı, Vergiler Bakanlığı, Dijital Kalkınma ve Ulaştırma Bakanlığı, Çalışma Bakanlığı Nüfusun Sosyal Korunması ve Ekonomi Bakanlığı, Devlet Gümrük Komitesi, Mülkiyet Sorunları Devlet Komitesi, Arşiv İdaresi, Devlet Göç Dairesi, Seferberlik ve Askerlik Hizmetine İlişkin Devlet Hizmeti’dir. Sunulan hizmetler ise 17 ana başlık halinde şu şekilde ifade edilmiştir; noter, sicil kaydı belgeleri, pasaport ve kimlik işlemleri, sürücü belgesi işlemleri, emeklilik, gayrimenkul kayıtları, gümrük, ikametgâh, askeri kayıtlar, ruhsat kayıtları, belge durumu sorgulama, evlilik kayıt işlemleri, göç, tüzel ve gerçek kişilere arşiv bilgilerinin verilmesi, Tarım Bakanlığı’nın sağladığı hizmetler, hükümetin sunduğu tüm hizmetler hakkında genel bilgi verme, asan ödeniş işlemleridir. En çok başvuru yapılan işlemler ise; kimlik, pasaport, evlilik kaydı ve sürücü belgelerinin yenilenmesi olarak açıklanmıştır.

**Şekil 1: Azerbaycan Cumhuriyeti’nin Dijital Dönüşüme İlişkin Kronolojik Kurumsal Yapıları**




**Kaynak:** Dijital Kalkınma ve Ulaştırma Bakanlığı, 2023

Şekil 1.’de görüldüğü üzere Azerbaycan’ın dijitalleşme adımlarında temel kronolojik bir sıralama özeti yapmak gerekirse ilgili Bakanlık ve Cumhurbaşkanlığı’na bağlı kurum Asan Hizmet dikkat çekmektedir. 2004 yılında İletişim Bakanlığı’nın lağvedilmesinin ardından kurulan “İletişim ve Bilgi Teknolojileri Bakanlığı”, 2014 yılında İletişim ve Yüksek Teknolojiler Bakanlığı” olarak yenilenmiştir. Ardından 2017 yılında Ulaşım Bakanlığı ile birleştirilerek “Dijital Kalkınma ve Ulaştırma Bakanlığı”na dönüştürülmüştür. Bu durum kamu yönetimi sistemindeki sadeleşme, etkinlik ve verimliliğin arttırılması adına bir girişim olarak ifade edilebilir.

Dijital Kalkınma ve Ulaştırma Bakanlığı bünyesinde sunulan e-hizmetlerin yanı sıra dijitalleşme ile ilgili bakanlığa bağlı kamu tüzel kişiliğine haiz kurumlar da dikkat çekicidir. Bu kurumlardan genel hatlarıyla bahsetmek gerekirse;

**Tablo 3: Dijital Kalkınma ve Ulaştırma Bakanlığı Bünyesinde Yer Alan Kurum ve Bakanlığa Bağlı Kuruluşlar**

| |
|---|
| **“Bakü Telefon İletişimi” LLC -** 2001 |
| **Radyo-Televizyon Yayıncılığı ve Uydu Haberleşmesi -** 2006 |

| |
|---|
| **Devlet Sivil Havacılık Ajansı –** 2006<br>*Bakanlık bünyesinde yer alan kurum* |
| **Azerbaycan Cumhuriyeti Uzay Ajansı (Azerkosmos) -** 2010 |
| **Elektronik Güvenlik Hizmeti –** 2012<br>*Bakanlık bünyesinde yer alan kurum* |
| **Bilgi ve İletişim Teknolojileri Uygulama ve Eğitim Merkezi –** 2015 / 2018 |
| **İnovasyon ve Dijital Kalkınma Ajansı** - 2021 |
| **Bilgi Teknolojileri Kurumu** - 2021 |
| **"AzInTelecom" LLC –** Bulut çözüm, SIMA (e imza), Bilgi Güvenliği Hiz., Merkezi Bilgi Sistemi, İş Çözümleri, Uluslararası Ses Trafiği |

**Kaynak:** www.mincom.gov.az/az/view/structure/; www.azintelecom.az/en/key-activities/

Azerbaycan Cumhuriyeti Dijital Kalkınma ve Ulaştırma Bakanlığı, bilgi iletişim teknolojileri alanında yapılan altyapı yatırımları, mevcut etkinlik ve faaliyetleri yürüten temel kurumlar Tablo 1.'de görüldüğü gibidir. Klasik telefon, iletişim, radyo-televizyon ve uydu haberleşme kuruluşlarının yanı sıra son dönemlerde yeni nesil teknolojileri destekleyen somut adımların olduğu kurumsal yapılaşmadan görülmektedir. Dijital hükümet, dijital toplum inşası ve dijital dönüşümün sürdürülebilirliğini sağlamak amacıyla teşvik edici programlarla desteklenen kurum ve kuruluşlar sürekli olarak gelişim ve dönüşüm yaşamaktadır. Yenilikçi, güvenilir, esneklik, şeffaflık ve gizliliğin korunması gibi temel değerler etrafında oluşturulan kurumlar ülkenin dijital dönüşümüne yön verecek niteliktedir.

## Türkiye – Azerbaycan'ın Dijital Dönüşüme İlişkin Kurumsal ve Yapısal Karşılaştırması ve Ortak Yol Haritası

"İki devlet tek millet" söyleminin sıkça vurgulandığı Türkiye ve Azerbaycan ilişkilerinde dijital dönüşüme ilişkin kurumsal ve yapısal karşılaştırma yapmayı amaçlayan çalışmanın bu başlığı altında tablolama yöntemi kullanılarak özet bir analiz yapılmaya çalışılmıştır. Ülkelerin dijitalleşme ile ilgili yayınladıkları stratejik planlar, raporlar, kurum ve kuruluşlar dahil edilerek bir analiz gerçekleştirilmiştir.

**Tablo 4: Türkiye – Azerbaycan'ın Dijital Dönüşüme İlişkin Kurumsal ve Yapısal Karşılaştırması**

| **Türkiye Cumhuriyeti** | | | **Azerbaycan Cumhuriyeti** | | |
|---|---|---|---|---|---|
| **Yıl** | **İlgili Kurum, Kuruluş ve Raporlar** | **Ek Bilgiler** | **Yıl** | **İlgili Kurum, Kuruluş ve Raporlar** | **Ek Bilgiler** |
| **1993** | "Bilişim ve Ekonomik Modernizasyon Raporu" | *Türkiye ve Dünya Bankası arasında imzalandı.* | **2003** | "Azerbaycan Cumhuriyeti'nin Gelişmesi İçin Bilgi ve İletişim Teknolojileri Üzerine Milli Strateji" (2003-2012) | *1146 sayılı CBK ile* |

| | | | | | |
|---|---|---|---|---|---|
| **1996** | "Enformasyon Altyapısı Anaplanı Yürütme Grubu" Kurulması | *T.C. Ulaştırma Bakanlığı'na bağlı* | **2003** | "Azerbaycan Cumhuriyeti'nin Kalkınması İçin Bilgi ve İletişim Teknolojileri Ulusal Stratejisi" | *CBK* |
| **1998** | "KamuNet Teknik Kurulu" | *Başbakanlık* | **2010** | Azerbaycan Cumhuriyeti Uzay Ajansı (Azerkosmos) | *Dijital Kalkınma ve Ulaştırma Bakanlığı'na bağlı* |
| **2001-2002** | "e-Devlet'e Geçiş Eylem Planı" | *Başbakanlık* | **2012** | Elektronik Güvenlik Hizmeti | *Dijital Kalkınma ve Ulaştırma Bakanlığı bünyesinde kurulan kurum* |
| **2003** | "e-Dönüşüm Türkiye Projesi kapsamında Bilgi Toplumu Dairesi (BTD) kurulması" | *DPT (mülga)* | **2012** | ASAN Hizmet | *Cumhurbaşkanlığına bağlı* |
| **2004** | "e-Dönüşüm Türkiye Projesi Kısa Dönem Eylem Planı" | *DPT (mülga) (Bilgi Toplumu Dairesi)* | **2014** | İletişim ve Yüksek Teknolojiler Bakanlığı'nın kurulması. | *Cumhurbaşkanlığı* |
| **2005** | "e-Dönüşüm Türkiye Projesi Eylem Planı" | *DPT (mülga) (Bilgi Toplumu Dairesi)* | **2015-2018** | Bilgi ve İletişim Teknolojileri Uygulama ve Eğitim Merkezi | *Dijital Kalkınma ve Ulaştırma Bakanlığı bağlı* |
| **2006** | "Bilgi Toplumu Stratejisi (2006-2010)" I. Bilgi Toplumu Stratejisi | *DPT (mülga) genel koordinasyonu ve Danışma Kurulu* | **2017** | Dijital Kalkınma ve Ulaştırma Bakanlığı | *Bakanlıkların birleştirilmesi* |
| **2008** | E-devlet kapısının açılması | *T.C. Cumhurbaşkanlığı Dijital Dönüşüm Ofisi Başkanlığı* | **2018** | "Azerbaycan Dijital Hub" (Azerbaycan Dijital Merkez) – 3 Aşamalı bir program | *AzerTelecom tarafından kuruldu.* |
| **2011** | e-Devlet Hizmetleri Dairesi Başkanlığı kuruldu | *Ulaştırma Denizcilik ve Haberleşme Bakanlığı* | **2021** | İnovasyon ve Dijital Kalkınma Ajansı | *Dijital Kalkınma ve Ulaştırma Bakanlığı bağlı* |
| **2014 –** *10. Kalkınma Planı (2014-2018)*<br>**2015 –** *Bilgi Toplumu Stratejisi ve Eylem Planı, 2. Bilgi Toplumu Stratejisi – (2015-2018)*<br>**2016 –** *Ulusal e-Devlet Stratejisi ve Eylem Planı (2016-2019)* | | | **2021** | Bilgi Teknolojileri Kurumu | *Dijital Kalkınma ve Ulaştırma Bakanlığı bağlı* |
| **2018** | Dijital Dönüşüm Ofisi'nin kurulması | *Cumhurbaşkanlığına Bağlı* | | "AzInTelecom" LLC – | *Bulut çözüm, SIMA (e imza), Bilgi Güvenliği Hiz., Merkezi Bilgi Sistemi, İş Çözümleri,* |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | *Uluslararası Ses Trafiği* |
| **2019 –** 11. Kalkınma Planı (2019-2023)<br>**2021 –** Ulusal Yapay Zekâ Stratejisi | | | | | |

**Kaynak:** Yazarlar tarafından oluşturulmuştur.

Türkiye'de dijitalleşmenin ilk adımları 1993 yılında yayımlanan "Bilişim ve Ekonomik Modernizasyon Raporu" ile atılmıştır. Uzun yıllardır birçok farklı rapor, eylem planı, seçim beyannameleri, dijitalleşme üzerine kurulan ilgili kurumlar, teşvik programları ve kalkınma planları ile de faaliyetler kesintisiz ve sürdürülebilir şekilde desteklenerek yürütülmektedir (Okçu ve Akman, 2022: 434-436). Türkiye Cumhuriyeti'nin dijital dönüşüm sürecinde etkili olan kurumlarının başında Dijital Dönüşüm Ofisi, Sanayi ve Teknoloji Bakanlığı olarak ifade edilmektedir.

Kurumsal boyutta konu ile ilgili en yeni ve etkili olan kurum ise Dijital Dönüşüm Ofisi (DDO) olarak gösterilmektedir. Dijital Dönüşüm Ofisi, 2018 yılından beri Cumhurbaşkanlığına bağlı olarak faaliyette bulunmakta ve Türkiye'nin dijital dönüşüm yol haritasında en etkili olan kurumudur. Bu kurum hem ulusal hem de uluslararası boyutlarda Türkiye'nin dijital dönüşüm yol haritasının belirlenmesinde esas paydaşlar biridir. Küresel boyutta yaşanan teknolojik ve bilimsel gelişmelerin sonucunda hız kazanan dijital dönüşüm sürecindeki tekelleşmeye karşı "Millî Teknoloji Hamlesi" temelinde çalışmalar yürüten DDO farklı ülkelerle de iş birliği içindedir.

Azerbaycan Cumhuriyeti'nin dijital dönüşüm adımları ise 2000'li yılların başında atılmıştır. İlk olarak milli stratejik planlar yayımlanmış sonrasından konunun somutlaştırılması adına kurum ve kuruluşlar oluşturulmuştur. Cumhurbaşkanlığı kararnameleri ile oluşturulan kurumların yanı sıra konu ile ilgili bakanlığın zaman içinde yenilenmesi ve revize edilmesi gerçekleştirilmiştir. Dijital dönüşüm süreci güncel olarak Cumhurbaşkanlığı kararnameleri ve Dijital Kalkınma ve Ulaştırma Bakanlığı tarafından şekillendirilmektedir.

## Sonuç ve Değerlendirme

Türkiye ve Azerbaycan hükümetleri dijital dönüşüm sürecini her geçen gün sistemine entegre ederek geliştiren ülkeler arasında gösterilmektedir. Azerbaycan hükümeti 2000'li yılların başından beri bilgi iletişim teknolojileri adına altyapıya önem vermekte ve geliştirmek üzerine önemli yatırımlar yapmaktadır. Kamu hizmet sunumunda çevrimiçi politikaları geliştirerek vatandaşın yaşam kalitesini arttırmak, etkin, verimli ve çağa uyum sağlayabilmek adına birtakım çalışmalar geliştirmektedir. Türkiye Cumhuriyeti'nin dijital dönüşüm adımları Azerbaycan hükümetinden daha eski bir tarihe dayanmaktadır. Stratejik planlar, yeni nesil teknolojilerin kamuya entegresi ve kurumsal yapıları ile bu söylem desteklenmektedir.

İki ülke için de bilgi iletişim teknolojilerinin geliştirilmesi, dijital dönüşüm yarışında yer alabilmek ulusal kalkınma stratejilerinin bir parçasıdır. Dijital dönüşüm, belirli ayrıntılar, politik, ekonomik bağlamlar, mevcut kaynaklar ve altyapılardan gibi çeşitli faktörler nedeniyle farklı eksenlerde gelişse de iki ülke içinde öncelikli konular arasındadır. Dijital dönüşüm sürecinde de "iki devlet, tek millet" mottosu ile ortak dijital dönüşüm programlarının geliştirilmektedir. 2021 yılında T.C. Dijital Dönüşüm Ofisi ve Azerbaycan Dijital Kalkınma ve Ulaştırma Bakanlığı arasında Azerbaycan'ın kamu bulutunun / ulusal veri merkezinin oluşturulması, kişisel verilerin korunmasına yönelik mevzuatın uyumlaştırılması, siber güvenlik konusunda iş birliği sağlanması amacıyla imzalanan "Türkiye-Azerbaycan Dijital Dönüşüm Çalışma Grubu Yol Haritası" iki ülkenin ortak dijital dönüşümü adına önemlidir.

İki ülkenin ortak dijital dönüşüm faaliyetlerinden bir diğeri de 2022 yılında T.C. Dijital Dönüşüm Ofisi ve Azerbaycan Cumhuriyeti Vatandaşlara Hizmet ve Sosyal Yenilikler Devlet Ajansı arasında yürütülen e-Devlet sistemlerinin entegresi çalışmasıdır. İki devletin e-Devlet Kapısı'nda karşılıklı olarak yönlendirme yapan bağlantıların oluşturulması ile Türkiye'nin e-Devlet Kapısını ASAN'a açan sistem hala gelişim sürecindedir. Türkiye Cumhuriyeti Dijital Dönüşüm Ofisi başkanı Ali Taha Koç "İki Devlet, Bir Millet' düsturumuza artık 'Tek e-Devlet' ibaresini de eklemiş bulunuyoruz" ifadeleri ile ortak dijital dönüşüm ve entegre sürecinin her geçen gün daha da geliştirileceği ifadelerinde bulunmuştur. Bu etkinlik ve faaliyetler dijitalleşen devletler konusunda tüm dünyaya örnek olabilme niteliğine sahiptir.

**Kaynakça**

"AzInTelecom" LLC, (2023). "Key Actıvıtıes", https://azintelecom.az/en/key-activities/, (Erişim Tarihi: 20.04.2023)

18 Ekim 1982 tarih ve 2709 sayılı, Türkiye Cumhuriyeti 1982 Anayasası

Akman, E. (2019). Cumhurbaşkanlığı Hükümet Sisteminde Kamu Politikası Aktörleri, *PARADOKS Ekonomi, Sosyoloji ve Politika Dergisi,* 15 (1), ss. 35-54.

Akman, E. ve Okcu, M. (2021). Cumhurbaşkanlığı Hükümet Sisteminde Dijitalleşme, E. Akman içinde, *Farklı Boyutlarıyla CUMHURBAŞKANLIĞI HÜKÜMET SİSTEMİ* (401-423) Ankara: Nobel Yayıncılık

ASAN Hizmet, "ASAN servis merkezleri hakkında genel bilgiler", https://asan.gov.az/about, (Erişim Tarihi: 18.04.2023)

Azerbaijans, (2023). "Devlet Kurumları, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi", https://www.azerbaijans.com/content_528_tr.html, (Erişim Tarihi: 18.04.2023)

Azerbaycan Cumhurbaşkanlığı Kararnameleri, https://president.az/en/search/index/enactment

Cumhurbaşkanlığı Teşkilatı Hakkında Cumhurbaşkanlığı Kararnamesi. Kararname No: 1. R.G. Tarihi: 10/07/2018. R.G. Sayısı: 30474

Dijital Dönüşüm Ofisi (DDO), (2023). Kamu Dijital Dönüşüm Lideri, https://cbddo.gov.tr/kamu-dijital-donusum-lideri/, (Erişim Tarihi: 07.04.2023)

Dijital Kalkınma ve Ulaştırma Bakanlığı, (2023). "Tarih", https://mincom.gov.az/az/view/pages/3/, (Erişim Tarihi: 20.04.2023)

Muradov, M., Sefereliyeva, R., Ağayev, Y., Gurbatov, N. (2014). Azerbaycanda Elektron Hökumet İnfrastrukturunun Ve Elektron Xidmetlerin Monitorinqi Ve Qiymetlendirilmesi Üzre Hesabat, Tranparency Azerbaijan, Bakü: OSCE.

Nacak, O. (2021). Cumhurbaşkanlığı Ofislerinin Yapısına İlişkin Değerlendirme, *Afyon Kocatepe University Journal of Social Sciences,* 23 (3), ss. 1023-1041.

Nümunəvi Əsasnamə, (2014). https://asan.gov.az/az/confidential, (Erişim Tarihi: 20.04.2023)

Okçu, M. ve Akman, Ç. (2022). Türkiye'nin Yapay Zekâ Politikası, E.Akman, Bayram Topçu, T. Ve Chiftchi A. içinde, *Yapay Zekâ ve Kamu Politikası: Ülke İncelemeleri* (431-476) Ankara: Nobel Yayıncılık

Pipes, R. (1997). The Formation of the Soviet Union: Communism and Nationalism 1917–1923 (2. bas.). Cambridge, Massachusetts: Harvard University Press.

T.C. Sanayi ve Teknoloji Bakanlığı, (2019). Stratejik Plan 2019-2023, https://www.sanayi.gov.tr/assets/pdf/plan-program/STB20192023StratejikPlani_yeni.pdf, (Erişim Tarihi: 18.04.2023)

T.C. Sanayi ve Teknoloji Bakanlığı, "E-Hizmetler", https://dijitalbakanlik.sanayi.gov.tr/, (Erişim Tarihi: 18.04.2023)

T.C. Sanayi ve Teknoloji Bakanlığı, "Uygulamalar", https://www.sanayi.gov.tr/uygulamalar, (Erişim Tarihi: 18.04.2023)

Trend News Agency, (2012). "State Agency for Public Services and Social Innovations under President established in Azerbaijan", https://en.trend.az/business/it/2046909.html, (Erişim Tarihi: 20.04.2023)

Turan, M. (2018). "Türkiye'nin Yeni Yönetim Düzeni: Cumhurbaşkanlığı Hükümet Sistemi", *Social Sciences Research Journal,* 7 (3), ss. 42-91.

Türkiye Cumhuriyeti Dijital Dönüşüm Ofisi Organizasyon Şeması, https://cbddo.gov.tr/organizasyon-sema/, (Erişim Tarihi: 07.04.2023)

# Qeyri-neft Sektorunun İnkişaf Perspektivindən Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarının İnvestisiya Cəlbediciliyi

**Misir Məmmədov**

**Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant**

**Misir.Mammadov@unec.edu.az**

**Afaq Zeynallı**

**Azərbaycan Dövlət İqtisad Universiteti, dissertant**

**UNEC imtahan mərkəzinin mütəxəssisi**

**Afag-Zeynalli@unec.edu.az**

## Xülasə

Qeyri-neft sektoruna özəl investisiyaların cəlbini təşviq etməklə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektoru ixracının artırılması və dövlət büdcəsinin neft gəlirlərindən asılılığının azaldılması milli iqtisadi siyasətin qarşısında duran başlıca vəzifələrdən biridir. Azərbaycan ərazilərinin erməni işğalından azad edilməsi bu vəzifənin həyata keçirilməsi imkanlarını xeyli artırmışdır. Belə ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları əlverişli coğrafi mövqeyə, zəngin təbii sərvətlərə və kənd təsərrüfatı potensialına, eləcə də geniş turizm və bərpaolunan enerji resurslarına malikdir. Bütün bu amillər bölgəyə birbaşa xarici investisiyaların cəlb edilməsini stimullaşdırmaq üçün çoxsaylı imkanlar təmin etməkdədir.

Bölgənin dirçəldilməsi ilkin mərhələdə dövlət investisiyaları hesabına həyata keçirilir. Lakin lazımi soial-iqtisadi infrastruktur, nəqliyyat şəbəkəsi və logistik təchizat zəncirləri qurulduqdan sonra Qarabağ və Şərqi Zəngəzur qeyri-dövlət investisiyalarının yatırılması üçün cəlbedici iqtisadi məkana çevriləcəkdir. Çünki kənd təsərrüfatı, yaşıl enerji və turizm sektorları bölgənin investisiya cəlbediciliyi baxımından böyük potensial və geniş imkanlar təklif etməkdədir. Bu sektorlarda özəl-dövlət tərəfdaşlığı çərçivəsində iri həcmli xarici investisiya layihələrinin həyata keçirilməsi dövlət büdcəsinin resurs asılılığını əhəmiyyətli şəkildə azaldacaq, o cümlədən qeyri-neft ixracına ciddi töhfələr verəcəkdir.

**Açar sözlər:** Qarabağ, Şərqi Zəngəzur, investisiya, qeyri-neft sektoru

## Abstract

One of the key objectives of national economic policy is to diversify the country's economy by promoting private investment in non-oil sectors, increasing non-oil sector exports, and reducing the country's dependency on oil revenues. The possibility of fulfilling this objective is greatly enhanced by the freeing of Azerbaijani lands from Armenian occupation. Thus, Karabakh and East Zangezur economic regions possess a favorable geographic location, a wealth of natural resources and agricultural potential, as well as, a wide range of tourism and renewable energy resources. These elements offer numerous chances to encourage the attraction of foreign direct investments in the region.

The region's initial phase of restoration is carried out at the expense of investments funded by the state. However, after the required socioeconomic infrastructure, transportation network, and logistics supply chains are constructed, Karabakh and East Zangezur will become a desirable economic place for non-state investments. In terms of the region's investment attractiveness, the agricultural, renewable energy, and tourist sectors offer significant potential and a variety of opportunities. The implementation of large-scale foreign investment projects within the framework of private-state partnerships will greatly reduce the dependency of the state budget on resources and additionally boost non-oil exports.

**Keywords:** Karabakh, East Zangezur, investment, non-oil sector

## Giriş

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra xarici iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri böyük neft-qaz ehtiyatlarına xarici investisiyaların cəlb edilməsi olmuşdur. 1995-ci ildən etibarən imzalanan beynəlxalq neft-qaz sazişləri və həyata keçirilən iri investisiya

layihələr ölkəyə milyardlarla dollar birbaşa xarici investisiyanın axınına gətirib çıxarmışdır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (ARDSK) məlumatlarına görə, 1995-2021-ci illər ərzində Azərbaycan iqtisadiyyatına bütün mənbələr üzrə yönəldilən investisiyaların həcmi 305.7 milyard ABŞ dolları olmuşdur. Bu investisiyaların 154.5 milyard dollarını xarici investisiyalardan ibarətdir ki, bu da həmin dövr ərzində ölkəyə yatırılan investisiyaların 50,5 %-ni təşkil edir. Həmçinin 2000-2017-ci illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən 77.8 mlrd. dollar birbaşa xarici investisiyaların (BXİ) 66.8 mlrd. dolları yaxud 85.9%-i neft sektorunda, qalan 19.9 mlrd. dolları (14.1%-i) isə qeyri-neft sahələrində reallaşdırılmışdır. Bundan əlavə, məlumdur ki, ölkənin ümumi ixrac strukturunda neft və qaz məhsulları uzun illərdir ki, böyük paya sahibdir (Mehdiyev, 2018; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2021; Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, 2022).

Beləliklə, ölkə iqtisadiyyatına yatırılan investisiyaların böyük hissəsinin neft-qaz sənayesi payına düşməsi son illərdə ciddi problem kimi qiymətləndirilmiş və qeyri-neft sektorunun inkişafı və Ümumi Daxili Məhsuldakı (ÜDM) payının arzuolunan səviyyəyə qaldırılması üçün Azərbaycan dövləti tərəfindən bir sıra zəruri strateji addımlar atılmışdır. Bu kontekstdə, son illərdə hökümətin iqtisadi siyasətinin başlıca prioriteti iqtisadiyyatı, eləcə də ixracı şaxələndirməklə neft-qaz gəlirlərindən asılılığı azaltmaq müəyyən edilmişdir. Bu məqsədə nail olmaq üçün seçilən başlıca istiqamətlərdən biri qeyri-neft sektoruna cəlb edilən xarici investisiyaların artırılmasıdır. 2016-cı ildə təsdiq edilmiş Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində 2025-ci ilə qədər hədəflənən 4 indikatordan 3-ü qeyri-neft sektorunda artımla əlaqəlidir. Sənəddə qeyri-neft sektoruna yönəldilmiş birbaşa xarici investisiyaların qeyri-neft ÜDM-dəki payının hazırkı (2015) 2,6 faizlik göstəricidən 2025-ci ilə qədər 4 faizə çatdırılması xüsusi olaraq qeyd edilmişdir Xüsusilə, son illərdə neft qiymətlərində davamlı dalğalanmalar Azərbaycanın büdcə gəlirlərinin resurs asılılığının azaldılması və iqtisadi inkişafın dayanıqlığı üçün qeyri-neft sektorunun prioritet sahələrinə xarici invevstisiya cəlbi zəruriyyətini artırmaqdadır (Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, 2016).

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi 2-ci Qarabağ Müharibəsində əldə edilən hərbi-siyasi qələbədən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən böyük miqyaslı bərpa və quruculuq layihələri ilə xüsusi aktuallıq qazanmışdır. Bölgənin əlverişli coğrafi mövqeyi, zəngin təbii resurs və kənd təsərrüfatı potensialı, turizm imkanları, habelə tarixi-mədəni ehtiyatları, ekosistemi və bərpaolunan enerji resursları inkişaf etdiriləcək prioritet qeyri-neft sahələrinin müəyyən edilməsi və birbaşa xarici investisiyaların cəlbinin stimullaşdırılması üçün geniş imkanlar təmin etməkdədir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, biz bu məqalədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kənd təsərrüfatı, yaşıl enerji və turizm sektorlarına xarici investisiyaların cəlb edilməsi məsələlərini qeyri-neft sektorunun inkişaf perspektivindən araşdırmışıq. Tədqiqatın məqsədi hər üç sektorda mövcud olan problem və imkanların bölgənin investisiya cəlbediciliyi çərçivəsində təhlil edilməsidir. Burada əsaslandırmağa çalışdığımız başlıca müddəa ondan ibarətdir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatı, yaşıl enerji və turizm sektorları üzrə BXİ cəlb etmək üçün kifayət qədər böyük potensial mövcuddur. Bu kontekstdə tədqiqatın başlıca vəzifəsi hər üç sektorda xarici investisiya cəlbini stimullaşdırmaq istiqamətində müvafiq təkliflər irəli sürməkdir.

Tədqiqat işində əsasən statistik analiz, deduksiya və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

Araşdırma və analizlər zamanı qarşılaşdığımız başlıca məhdudiyyət Qarabağ və Şərqi Zəngəzura yönəldilən dövlət və xarici investisiyaların strukturu və sektorlar üzrə pay bölgüsü barədə ətraflı

hesabatların və statistik məlumatların, demək olar ki, mövcud olmamasıdır. Bundan əlavə, Azərbaycanın biznes və investisiya mühitinin mövcud vəziyyəti, problemləri, inkişaf meyilləri, habelə iqtisadiyyata yönəldilən xarici investisiyaların əsaslı təhlilinə dair tədqiqat işlərinin məhdud olması da araşdırma zamanı müəyyən çətinliklər yaratmışdır. Məhz bunları nəzərə alaraq, bu tədqiqatda əldə edilən nəticələrin müvafiq istiqamətdə aparılacaq gələcək araşdırmalara müəyyən töhfələr verəcəyi qənaətindəyik.

Tədqiqat işində inkişaf etməkdə olan iqtisadiyyatlara birbaşa xarici investiyaların cəlb edilməsi mövzusu ilə əlaqədar M.Rafat və M. Farahani, K.Cheng və K.Kwan, T.Kim, K.Sayari, H. Loewendahl, N. Mamingi və K. Martin, S. Saidi və S. Hammami kimi xarici müəlliflərin, o cümlədən yerli tədqiqatçılardan A. Mehdiyevin, M. Bağırovun məqalələri araşdırılmış və müvafiq sektorlarda investisiya mühitinin yaxşılaşdırılması istiqamətində irəli sürülən təkliflərdə həmin tədqiqatçıların gəldiyi nəticə və qənaətlər nəzərə alınmışdır.

Məqalədə, eyni zamanda, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Azərbaycanda xarici investorlarla yerli təchizatçılar arasında mövcud problemlərə həsr edilən geniş hesabatı (2019), həmçinin Neftçilərin hüquqlarını müdafiə təşkilatının (2022) Azərbaycanda "yaşıl enerji" sahəsində investisiyaların mövcud durumu və prespektiv imkanlarının analiz edildiyi araşdırması tədqiqatın məqsədləri çərçivəsində tədqiq edilmişdir.

Tədqiqat işinin informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin statistik məlumatları və elektron çap materialları, qanunvericilik aktları, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri, o cümlədən elektron mediada dərc olunan informasiya resursları təşkil edir.

**Ədəbiyyat Xülasəsi**

Sayari (2019) İnkişaf Etməkdə olan Ölkələrdə (İEOÖ) institutsional keyfiyyət (institutional quality) göstəricilərinin xarici birbaşa investisiyaların cəlb edilməsinə təsirini araşdırmış və belə bir nəticəyə gəlmişdir ki, İEOÖ-dəki qanunvericilik, fərdi hüquqlar, o cümlədən yüksək keyfiyyətli dövlət tənzimlənməsi və xidmətlər XBİ-yə əsaslı şəkildə təsir göstərir. Bu ölkələr xarici sərmayələrin cəlb edilməsi baxımından rəqabət qabiliyyətini artırmaq üçün daha sabit iqtisadi-siyasi mühit təmin etməyə çalışmalı, eləcə də transmilli şirkətlərin ölkəyə daxil olması ilə bağlı siyasətin həyata keçirilməsində şəffaflığa nail olmalıdır.

Agiomirgianakis, Asteriou və Papathomanın (2003) gəldikləri qənaət ondan ibarətdir ki, daha yüksək təhsilli və təlim keçmiş işçi qüvvəsi, infrastruktura irimiqyaslı investisiyalar, inkişaf səviyyəsi və bazar ölçüsü, eləcə də ticari açıqlıq kimi amillər ölkələrin investisiya cəlbediciliyini artırma potensialına malikdir. Bundan əlavə, hökumətlərin tarif, vergi, subsidiya, özəlləşdirmə siyasəti və s. XBİ-nin stimullaşdırılmasında mühüm rol oynayır.

Cheng və Kwan (2000) öz araşdırmalarında müəyyən etmişdir ki, iqtisadi yenidənqurma və ölkəyə XBİ cəlbedilməsi üzrə əsas katalizator rolunda hökumət siyasətləri çıxış edir.

Birbaşa xarici investisiyaların cəlb edilməsi iqtisadi inkişaf siyasətinin əsas sütunudur. "BXİ kapital qoyuluşları, iş yerlərinin yaradılması, ixrac, valyuta və vergi gəlirlərinin artırılmasına birbaşa, yerli təchizatçılara, texnologiya transferinə, məhsuldarlığa, innovasiyalara və yaxşı idarəetməyə dolayı yolla təsir göstərir və bütün bunlar, öz növbəsində, iqtisadi inkişafa töhfə verir" (Loewendah, 2018).

Kim (2021) Vyetnam nümunəsinə əsasən kənd təsərrüfatında XBİ cəlbediciliyinə təsir edən 7 amil müəyyən etmişdir: (1) infrastruktur; (2) investisiya siyasəti; (3) regional əlaqələr; (4) insan resursları; (5) yaşayış və iş mühiti; dövlət xidmətlərinin keyfiyyəti; (7) yerli brendlər. Lakin tədqiqatçı qeyd edir ki, bir ölkədə investisiya seçimində həlledici rol oynayan bəzi meyarlar digər

ölkələrdə vacib olmaya bilər. Burada əsas təyinedici faktor ölkələr arasındakı mədəni, iqtisadi, sosial və hüquq fərqlərdir.

Tocar (2018) birbaşa xarici investisiyaları bazar iqtisadiyyatı şəraitində ölkələrin iqtisadi inkişafının müəyyənedici amillərindən biri kimi nəzərdən keçirmişdir. XBİ-nin əsas determinatları kimi iqtisadi amillər, infrastruktur, texnologiya, institusional-siyasi amillər, insan faktoru, hüquqi inteqrasiya, yer amili, sahibkarlıq məsələləri, mədəniyyət və parakultural amillər müəyyən edilmişdir.

Rafat və Farahaninin (2019) fikrincə, BXİ ölkələrin iqtisadi artımında mühüm rol oynayır və onun əsas töhfəsi ölkənin fiziki kapital ehtiyatını artırmaqdır. Müəlliflər XBİ-nin ölkəyə yerləşməsinə təsir göstərən amillər sırasında sosial-iqtisadi infrastrukturun keyfiyyəti, bazar ölçüsü, insan kapitalının inkişaf tempi, ölkələr arasındakı məsafə, işçi qüvvəsinin dəyəri, beynəlxalq ticarət açıqlığı, siyasi mübadilə, fiskal və qeyri-fiskal stimullar, siyasi sabitlik, pul siyasəti və maliyyə liberallaşma dərəcəsini, eləcə də inkişaf etmiş ölkələrin artım tempi və faiz dərəcələrini qeyd etmişdirlər.

Dinh, Vo və Nguyen (2019) öz tədqiqatlarında qeyd edirlər ki, XBİ-nin uzunmüddətli perspektivdə, xüsusən də inkişaf etməkdə olan iqtisadiyyatlar üçün iqtisadi artım baxımından mühüm amildir. Bununla belə, nəzərə alınmalıdır ki, XBİ-nin ölkə iqtisadiyyatına müsbət təsirlərini maksimum dərəcədə artırmaq uzunmüddətli perspektivdə xarici investisiya siyasətini formalaşdırmaqdan keçir. Həmçinin xarici investisiyaların cəlb edilməsinə üstünlük verməklə yanaşı, hökumətlər insan kapitalı, pul təklifi, ümumi daxili investisiya və özəl sektor üçün kredit siyasətini nəzərdən keçirməlidir.

Ashurov, Othman, Rosman və Haron (2019) tədqiqatlarında belə bir nəticəyə gəlmişdir ki, daha çox XBİ cəlb etmək istəyən Mərkəzi Asiya ölkələri institutsional təkmilləşdirmələrə diqqət yetirməlidirlər. Bunlara vergitutma, əmək bazarı, o cümlədən ticarət açıqlığı daxildir. Bu təkmilləşdirmələr həmin ölkələrin xarici investisiya cəlbediciliyinin yüksəlməsində mühüm rol oynaya bilər.

Saidi və Hammaminin (2011) araşdırmalarına görə, birbaşa xarici investisiyaların cəlb edilməsi ev sahibi ölkələrdə transmilli şirkətlər üçün iqtisadi və sosial təminatlı, eləcə də yüksək keyfiyyətli investisiya mühitinin (makroiqtisadi və institusional) formalaşdırılmasını tələb edir. Bu şərtlərə əlavə olaraq, beynəlxalq investorların ölkəyə gəlməsi üçün vergi islahatları, özəlləşdirmə, iqtisadi liberallaşdırma siyasəti həyata keçirilməlidir.

Mehdiyevin (2018) fikrincə, Azərbaycanın qeyri-neft sektorunda birbaşa xarici investisiyaların artırılması üçün investisiya mühitinin yaxşılaşdırılması istiqamətində ciddi islahatlara ehtiyac vardır. Bu islahatlar həm vergi güzəştləri və subsidiyaların genişləndirilməsi, həm də xarici investorlar üçün həssas olan digər istiqamətlərdə həyata keçirilməlidir.

Bağırovun (2022) tədqiqatına əsasən emal sənayesinin yaradılması birbaşa dövlət dəstəyindən, investisiyalardan, eləcə də bu sahəyə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi imkanlarından və stimullarından asılıdır. Məhz bu səbəbdən işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma şəraitində sahibkarlıq prinsiplərinin tətbiqi dövlət dəstəyinin mühüm tərkib hissəsi olmalıdır. Müəllifin fikrincə, prosesin ilkin mərhələsində dövlətin əsas təsir vasitələri bu sahədə strateji məqsədlərin reallaşmasına və iqtisadi tərəfdaşların bu prosesə geniş cəlb olunmasına yönəldilməlidir.

**Qarabağ və Şərqi Zəngəzurda xarici investisiya perspektivlərinin analizi**

Qarabağda və Şərqi Zəngəzur iqtisadi rayonlarında son iki ildə həyata keçirilən bərpa və quruculuq tədbirləri əsasən dövlətin maliyyə vəsaitləri hesabına həyata keçirilmişdir. Belə ki, 2021-2022-ci illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və yenidənqurma işlərinə dövlət

büdcəsindən təxminən 6.5 milyard manat vəsait sərf edilmişdir. 2023-ci ildə isə bu vəsaitin 3 milyard manat məbləğində olması nəzərdə tutulmuşdur. Ayrılmış vəsaitlər intensiv şəkildə ilkin (yol, enerji, kommunal, İKT) infrastrukturun qurulmasına və digər bərpa və quruculuq işlərinə yönəldilmişdir.

ARDSK-nın İnterfax-Azərbaycan agentliyinə verdiyi məlumatlara əsasən 2022-ci ildə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafına ümumilikdə 4 milyard 18 milyon 769,9 min manat dövlət investisiyası qoyulmuşdur; bu, 2021-ci ilin göstəricisindən 1,8 dəfə çoxdur (İnrerfax-Azərbaycan, 2023).

2022-ci il hesabat dövründə Qarabağ iqtisadi rayonuna yönəldilən investisiyalar 1 milyard 860 milyon 873,2 min manat təşkil etmişdir. Bundan əlavə, statistik məlumatlardan aydın olur ki, həmin ildə Qarabağ iqtisadi rayonuna kapital qoyuluşu 2021-ci ilə müqayisədə 38,7%, o cümlədən tikinti-quraşdırma işlərinə kapital qoyuluşu 38,4% artmışdır.

Qarabağ iqtisadi rayonuna yatırılan investisiyaların 1 milyard 821 milyon 663,5 min manatı (təxminən 98 %-i) tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, başqa sözlə, əsas kapitala (fixed capital) yönəldilmişdir. Məlumdur ki, əsas kapitala yönəldilmiş vəsaitlər bir ölkədə ya da bir bölgədə uzunmüddətli və davamlı iqtisadi inkişafı dəstəkləmək üçün istifadə edilən maddi vəsaitləri ifadə edir. Bu kontekstdə ilkin mərhələdə Qarabağ iqtisadi rayonuna (o cümlədən Şərqi Zəngəzura) yatırılan dövlət investisiyalarının əsas kapitala yönləndirilməsi onu göstərir ki, bölgənin birbaşa xarici investisiyalar üçün cəlbediciliyini yaxşılaşdırmaq üçün dövlət tərəfindən ciddi infrastruktur və logistika hazırlıqları həyata keçirilir.

**Cədvəl 1. Qarabağ və Şərqi Zəngəzura yönəldilən dövlət investisiyalarının həcmi, 2022, milyard manat**

| **Ölkə və Qarabağ və Zəngəzur iqtisadi rayonları üzrə** | **Dövlət investisiyalarının həcmi (2022, milyard manat)** | | | |
|---|---|---|---|---|
| **Yönəldilmə** | **Əsas kapitala** | **2021-ci illə müqayisədə (%)** | **Tikinti-quraşdırma işlərinə** | **2021-ci illə müqayisədə (%)** |
| **Ölkə** | 18.272,300,000 | +5.5 % | 13.461,500,000 | --- |
| **Qarabağ iqtisadi rayonu** | 1.860,873,200 | +38,7% | 1.821.663,500 | +38,4 % |
| **Şərqi Zəngəzur iqtisadi rayonu** | 2.157,896,700 | +250 % | 2 .124,722,400 | +250 % |
| **Cəmi:** | **4.18,769,900** | | **3.946,385,900** | |

**Mənbə:** ARDSK-nın İnterfax-Azerbaijan agentliyinə verdiyi məlumatlar əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Şərqi Zəngəzur iqtisadi rayonunda da bərpa-quruculuq işlərinin sürətlə davam etdiyi və bu məqsədlə dövlət büdcəsindən böyük məbləğdə vəsaitin ayrıldığı müşahidə edilir. Belə ki, 2022-ci ildə Şərqi Zəngəzur üzrə əsas kapitala yatırılan vəsaitin həcmi 2 milyard 157 milyon 896,7 min

manat olmuşdur. Bu vəsaitin 2 milyard 124 milyon 722,4 min manatı, yəni təxminən 98,5 %-i tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Həm əsas kapitala yatırılan vəsait, həm də tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə ayrılan vəsait əvvəlki illə müqayisədə 2,5 dəfə artmışdır. Rəqəmlərdən aydın olur ki, Şərqi Zəngəzur iqtisadi rayonu da ciddi bərpa və rekonstruksiya işlərinin mərkəzidir, o cümlədən bölgə infrastruktur və logistik təchizat baxımdan canlanma dövründədir.

Hər iki iqtisadi rayonda həyata keçirilən dövlət investisiya siyasəti işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı, infrastruktur quruculuğu və həmin ərazilərdə başlıca sahələr üzrə investisiya imkanlarını formalaşdırmaq prioritetləri ilə uyğunluq təşkil edir. Həyata keçirilən dövlət investisiya siyasəti orta və uzun vədədə xarici investisiyaların cəlb edilməsinə öz töhfəsini verməlidir. Belə ki, XBİ və ictimai infrastrukturun inkişafı arasındakı qarşılıqlı əlaqə mövcuddur və bu, iqtisadi artıma əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Xarici investisiya layihələri adətən enerji və müasir telekommunikasiya, yol və nəqliyyat sistemlərinə tələbatı artırır və bu istiqamətdə infrastruktur quruculuğu məhsuldarlıq və səmərəliliyin artmasına gətirib çıxarır (Mamingi, Martin, 2018).

Dövlət ivestisiyaları hesabına ilkin zəruri rekonstruksiya prosesləri yekunlaşdıqdan və biznes fəaliyyətlərinə başlamaq üçün gərəkli soial-iqtisadi infrastruktur, nəqliyyat şəbəkəsi, logistika və təchizat zəncirləri, sənaye və aqro zonalar, habelə zəruri informasiya və idarəetmə sistemləri qurulduqdan sonra Qarabağ və Şərqi Zəngəur iqtisadi rayonları qeyri-dövlət investisiyalarının yatırılması üçün cəlbedici iqtisadi məkana çevriləcəkdir. 2022-ci ilin sonuna yenidənqurma və bərpa işləri çərçivəsində bölgəyə yatırılan özəl investisiyaların ümumi həcminin 300 milyon manata yaxın olacağı proqnozlaşdırılmışdır.

Qarabağ və Şərqi Zəngəzurun investisiya perspektivləri ilə əlaqədar proqnozlardan biri də ondan ibarətdir ki, xarici investorların fəal şəkildə cəlb edilməsi ilə 2026-cı ilin sonuna qədər bölgəyə yatırılan investisiyaların həcmi 10 milyard dollara, ÜDM-nin 18 %-i səviyyəsinə çata bilər. Burada əsas xarici investorlar kimi Böyük Britaniya, Türkiyə, İtaliya, BƏƏ, Rusiya və s. ölkələr nəzərdən keçirilir. Böyük Britaniya, Türkiyə və Rusiyanın 2022-ci ildə Azərbaycan iqtisadiyyatına ən çox birbaşa xarici investisiya yatıran ölkələrin ilk beşliyinə (digər iki ölkə: Kipr və İran) daxil olması bu proqnozun reallaşma ehtimalının yüksək olduğunu göstərir.

Orta və uzun vədədə yerli və xarici mənbəli özəl investisiyalar aqrar-sənaye klasterlərinin, turizmin, nəqliyyatın, ticarət sektorlarının, bərpa olunan enerji isthehsalının, İT sektorunun və startap biznesin formalaşmasının əsas maliyyə mənbəyi olacaqdır. Belə ki, Ağdam və Araz Vadisi İqtisadi Zonası sənaye parklarına qoyulacaq investisiyaların məbləği 138 milyon manatdan çox hesablanmışdır. Bu sənaye parklarında rezidentlər tərəfindən ilkin mərhələdə 24 layihənin həyata keçirilməsi planlaşdırılmışdır. Ağdam Sənaye Parkına 117 milyon manat, Araz Vadisi İqtisadi Zonası sənaye parkına isə 21 milyon manat investisiya qoyulacaq. Ağdam Sənaye Parkında əsasən tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı və qablaşdırılması, Araz Vadisi İqtisadi Zonasında isə əsasən logistika mərkəzinin yaradılması, gömrük terminalının qurulması, avadanlıq və texnikaların təmiri mərkəzi, topdansatış və pərakəndə anbarlarının tikilməsi və satışının həyata keçirilməsi nəzərdə tutulur.

Bu layihələrdə xarici tərəfdaşların iştirakı müasir texnologiyaları transfer təmin etmək imkanları baxımından xüsusi əhəmiyyətə malikdir. Bundan əlavə, xarici investorların həyata keçirilən layihələrdə iştirakı beynəlxalq donor strukturlarından qrantların cəlb edilməsi, texniki və konsultativ dəstək, vençur kapitalından istifadə üçün də mühüm şərtlərdəndir.

Qarabağ və Şərqi Zəngəzurda yerli və xarici investorların cəlb edilməsi üçün sənaye-aqrar klasterlərin rezidentlərinə cəlbedici biznes şəraitinin yaradılmasında dövlət siyasəti mühüm rol oynayacaqdır. Qarabağ bölgəsinin zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə

etmək məqsədilə dövlət-özəl tərəfdaşlıq yolu ilə iqtisadi fəaliyyətin gücləndirilməsi və əlverişli biznes mühitinin yaradılması, o cümlədən bölgədə emal sənayesinin formalaşmasında və əlverişli biznes mühitinin yaradılmasında iştirak edən sahibkarlara əlavə stimullar verilməsi bu siyasətin başlıca istiqamətini təşkil edir. Bu məqsədlə, bölgədə yaradılan iqtisadi zonaların rezidentlərinə mühüm vergi və gömrüki güzəştləri təmin edilmişdir. (Dövlət Vergi Xidməti, 2023).

Bu vergi və gömrük güzəştlərinin əhatə dairəsinin genişləndirilməsi və sayının daha da artırılması, o cümlədən rezidentlərə sosial sığorta və digər sahələrə dair güzəştlərin verilməsi və KOB təşəbbüslərinin daha çox dəstəklənməsi bölgənin investisiya cəlbediciliyinin artırılması və biznes mühitinin yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etməkdədir. Bundan əlavə, fikrimizcə, Ağdam və Araz Vadisi sənaye parklarının hüquqi rejimini və iqtisadi mübahisələrin təkmil həlli mexanizmini əhatə edəcək xüsusi qanunvericilik aktılarının qəbul edilməsi (Bu istiqamətdə Ələt iqtisadi zonası haqqında Azərbaycan Respublikasının qanunu nümunəsində təcrübə mövcuddur) bu sənaye zonalarına xarici investisiyaların cəlbinin təşviqi baxımından nəzərdən keçirilməsi mühüm olan addımlardan biridir.

**Qarabağ və Zəngəzurda prioritet investisiya sektorları**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadiyyatın altı istiqamət üzrə inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bu istiqamətlərə kənd təsərrüfatı, ərzaq sənayesi, dağ-mədən sənayesi, yaşıl enerji, nəqliyyat-logistika və turizm daxildir. Təbii ki, bu sektorların inkişafında qeyri-neft sektoru prioritetlərin müvafiq olaraq, xarici investisiyalar mühüm rol oynayacaqdır (Qasımlı, 2022).

Azərbaycana iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların böyük hissəsi mədən sənayesinin payına düşdüyü və bu istiqamətdə investisiya cəlbi üçün əsaslı təcrübə mövcud olduğundan, hesab edirik ki, işğaldan azad edilmiş ərazilərdəki dağ-mədən sənayesinə xarici investisiya cəlb etmək baxımından ciddi çətinliklərlə üzləşilməyəcəkdir. Həmçinin bölgənin nəqliyyat-logistika sektorunun xarici investisiya cəlbediciliyi yüksəkdir. Məhz bu səbəbdən biz bu məqalədə bölgənin kənd təsərrüfatı, yaşıl enerji və turizm sektorlarında investisiya mühitini araşdıracağıq və qeyri-neft sektorunun inkişaf perspektivləri çərçivəsində sözügedən sahələrdə xarici investisiyaların təşviqini stimullaşdırmaq istiqamətində müəyyən təklif (tövsiyələr) irəli sürəcəyik.

**Kənd təsərrüfatı**

Ölkə iqtisadiyyatının diversifikasiyası məqsədləri və xüsusilə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin icrası kontekstində kiçik və orta aqrar biznes müəssisələrini daha da inkişaf etdirmək və onların qlobal dəyər zəncirlərində iştirakını artırmaq üçün kənd təsərrüfatına birbaşa xarici investisiyaların artırılması dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biridir. Strateji Yol Xəritəsinə əsasən kənd təsərrüfatında investisiya mühitinin qiymətləndirilməsi və əlverişliliyinin artırılması üçün investisiya xəritələri və layihələrinin hazırlanması, o cümlədən dünyanın tanınmış aqrar-sənaye və qida məhsulları istehsalçılarının ölkənin aqrar sənayesinə investisiya qoymaları üçün tədbirlər nəzərdə tutulmuşdur. Bu tədbirlər sayəsində aqrar sahəyə cəlb ediləcək investisiyaların həcminin 2 dəfəyə qədər artacağı proqnozlaşdırılmışdır. Həmçinin, inzibati rayonlar və sahələr üzrə 100 investisiya layihəsinin hazırlanması planlaşdırılmışdır (Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi, 2016).

Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi üçün böyük potensial və imkanlar mövcud olsa da, kənd təsərrüfatı istehsalının qeyr-neft ÜDM-nin və ixracının tərkibində böyük paya sahib olmaması başlıca problem olaraq qalmaqdadır. Texnoloji inovasiyaların kifayət qədər inkişaf etməməsi, su ehtiyatlarının ağıllı idarə olunmaması, səmərəli məhsuldarlığın təmin edilməməsi,

investorlar üçün daxili və xarici bazarlara çıxış imkanlarının məhdudluğu, o cümlədən müasir kənd təsərrüfatı metod və təcrübələrinin tətbiqinin zəif olması ölkədə aqrar biznesin dayanıqlı inkişafını ləngidən başlıca amillər kimi təsnif edilə bilər. Bundan əlavə, araşdırmalar Azərbaycanın kənd təsərrüfatı sektorundakı mövcud geriliyin əsasən köhnə əkinçilik təcrübələri və köhnəlmiş avadanlıqlardan, bilik və bacarıqların yetersizliyindən, maliyyə imkanlarının və qənaətbəxş stimul mexanizmlərinin olmamasından qaynaqlandığını göstərir. Nəticədə ərzaq emalı sənayesi keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə düzgün təchiz olunmur və bu vəziyyət ərzaq məhsullarının emalına öz mənfi təsirlərini göstərir. Həmçinin təchizatla bağlı fermerlərlə bağlanmış müqavilələrin icrasındakı çətinliklər, məhsul qablaşdırmasının aşağı səviyyəsi və yeni avadanlıqlarla təmin olunmaq üçün maliyyə çatışmazlığı faktorları sektordakı rəqabət qabiliyyətini azaldır (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, 2019).

Bu problemlər kontekstində işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi və xarici investisiyalar üçün cəlbediciliyi mühitin yaradılması mühüm aktuallıq kəsb edir. Qarabağ və ətraf ərazilərdə əkinçilik, bağçılıq və heyvandarlığın inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. 1991-ci illərin statistikası və Ağdam və Füzuli rayonlarının işğala məruz qalmayan faktiki sahələri əsas götürülməklə, perspektiv dövr üçün (2025-2030) həmin ərazilərdə 239.1 min hektar sahədə əkinlərin olacağı proqnozlaşdırılır. Proqnozlaşdırılan əkinlərin stukturunda taxıl və yem bitkiləri üstünlük təşkil edir. Bu proqnozlar reallaşacağı halda, Füzuli (69,553 ha), Ağdam rayonları (63,253 ha), o cümlədən Qarabağ iqtisadi rayonuna daxil olan digər ərazilər (55,000 ha) işğaldan azad edilmiş ərazilərdəki əkin sahələrinin strukturunda ən çox paya sahib olacaqdır. İşğaldan azad edilmiş ərazilər ölkə üzrə əkilən taxılın 12,8 %-ni, tütünün 22,5 %-ni, üzümün 27,9 %-ni, yem bitkilərinin 10,6 %-ni və s. vermək potensialına malikdir. Əhalinin bu rayonlara qayıdışı halında məcburi köçkünlərin sahib olduğu heyvan təsərrüfatlarını nəzərə alınmaqla, iribuynuzlu heyvan sayında təxminən 14.7%, xırdabuynuzlu heyvan sayında isə 17.5% artım proqnozlaşdırılır. Nəticədə işğaldan azad edilmiş rayonlarda heyvandarlıq təsərrüfatı gücləndirilməsi, eləcə də süd, ət və digər heyvan mənşəli məhsulların istehsalı sahələrində potensial artım təmin edilə bilər (Fikrətzadə və Hacıyeva, 2020).

**Şəkil 1. Perspektivdə (2025-2030) əkin sahələrinin proqnozlaşdırılan strukturu, ha**

| | Taxıl | Pambıq | Tütün | Kartof, tərəvəz, bostan | Yem bitkiləri | Meyvə və giləmeyvə | Üzüm | Cəmi sahə |
|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 48,500 | - | - | 2,100 | 400 | 1,700 | 2,300 | **55,000** |
| Ağdam* | 28,862 | 4,601 | - | 9,816 | 16,909 | 2,565 | 500 | **63,253** |
| Cəbrayıl | 10,400 | - | - | 300 | 7,300 | 800 | 1,200 | **20,000** |
| Füzuli* | 50,465 | 1,300 | - | 1,769 | 12,579 | 2,679 | 761 | **69,553** |
| Kəlbəcər | 900 | - | 200 | 200 | - | 500 | - | **1,800** |
| Qubadlı | 6,300 | - | 400 | 400 | 1,000 | 2,500 | 400 | **11,000** |
| Laçın | 2,300 | - | - | 200 | 1,000 | 500 | - | **4,000** |
| Zəngilan | 1,900 | - | 300 | 300 | 2,500 | 2,200 | 1,000 | **8,200** |
| **Cəmi sahə** | 149,627 | 5,901 | 900 | 15,085 | 41,688 | 13,443 | 6,161 | **232,805** |
| ***Ölkə üzrə cəmi sahəyə nisbəti, %*** | *12.8* | *5.8* | *22.5* | *9.6* | *10.6* | *6.0* | *27.9* | ***11.1*** |

**Mənbə:** Fikrətzadə və Hacıyeva, 2020.

İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının strateji inkişaf planlarının müasir aqrobiznes təcrübələrinə əsaslanması və layihələrin "ağıllı" kənd təsərrüfatı modeli üzrə reallaşdırılması nəzərdə tutulmuşdur. Bu konsepsiya ənənəvi kənd təsərrüfatı yanaşmalarından innovativlik baxımından fərqlənir və səmərəlilik üçün müasir mexanizm və texnologiyalara əsaslanır. Ümumilikdə isə, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi sənədinə əsasən ölkə üzrə ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsal edən fermerlərin sayının 50 %, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsal həcmini isə 2 dəfə artırılması hədəflənmişdir.

Ağıllı kənd təsərrüfatı texnologiyaları, tullantısız, bərpa olunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunduğu, ətraf mühit və təbiətin mühafizəsi edildiyi, xarici investisiyaların cəlb edildiyi aqroparkların yaradılması bölgənin aqrobiznes sahəsinə xarici investisiyaların cəlb edilməsi üçün geniş imkanlar aça bilər. Həmçinin işğaldan azad edilmiş ərazilərdə yaradılan sənaye parkları da kənd təsərrüfatının inkişafı və xarici investorlar üçün əlverişli biznes mühitinin təmin edilməsi baxımından əhəmiyyətli rol oynayacaqdır. Bu zonalarda istehsal və emal sahələrinin inkişafı üçün sahibkarlara veriləcək güzəştlər, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmələr, kreditlərin və investisiyaların sığortalanması mexanizmi gələcəkdə xarici investisiyaların stimullaşdırılması üçün geniş imkanlar təmin edəcəkdir.
Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində qeyd edildiyi kimi, iqtisadiyyata qoyulan birbaşa xarici investisiyaların həcminin son illərdə bir neçə dəfə artmasına baxmayaraq, ölkədə aqrar sahəyə birbaşa xarici investisiya, demək olar ki, qoyulmur. Kənd təsərrüfatı sahəsində aparılan araşdırmaların nəticələrinə əsaslanaraq, ölkə, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda kənd təsərrüfatı və aqrobiznes sektorunda birbaşa xarici investisiyaların təşviqi üçün aşağıdakı istiqmətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edirik:

- Kənd təsərrüfatı sektorunun müasirləşdirilməsi, aqrar biznesdə ən yaxşı praktikaların və innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması.
- Sektora xarici investisiyanın təşviqi üçün əsaslandırılmış strateji məqsəd və hədəflərin, proqram və strategiyaların formalaşdırılması.
- Kiçik və orta müəssisələrin inkişafı və qlobal dəyər zəncirlərinə inteqrasiyasının dəstəklənməsi.
- Aqrar emal sektoruna yönələcək xarici investisiyaları stimullaşdırmaq üçün vergi sistemində müvafiq dəyişikliklər.
- Fermer təsərrüfatlarının müasirləşdirilməsi.
- KOB-ların xarici investorlara və transmilli şirkətlərə çıxış imkanlarını genişləndirmək.
- KOB-lara lazımi maliyyə və texniki dəstəyin göstərilməsi, aşağı faizli güzəştli kreditlərin ayrılması və onlara çıxış imkanlarında şəffaflığın artırılması.
- Qida emalı sektorunda keyfiyyət sertifikatlaşdırılması imkanlarının genişləndirilməsi.
- Kiçik və orta müəssisələrin sənaye parkları və bölgələrində güzəştlərdən və dəstək təşəbbüslərindən daha çox yararlanmasına şərait yaradılması və bu istiqamətdə maneələrin aradan qaldırılması.
- Aqrar sektorda insan kapitalına və bacarıqlarına investisiya qoyuluşlarının artırılması.
- Qida emalı müəssələrində inkişaf etmiş kənd təsərrüfatı təcrübələrinin tətbiqi.
- Dünya Ticarət Təşkilatına üzvlük prosesinin yekunlaşdırılması.

**Yaşıl enerji**

İşğaldan azad edilmiş ərazilərdə böyük bərpa olunan enerji potensialının mövcud olması bu sahəyə investisiya qoyuluşlarını stimullaşdırmaq üçün geniş imkanlar açır. İlkin hesablamalara əsasən Qarabağ və Şərqi Zəngəzurda 7200 meqavat günəş (Cəbrayıl, Fizuli, Qubadlı), 2000 meqavat külək enerjisi (Laçın, Kəlbəcərin dağlıq əraziləri) potensialına mövcuddur (Qasımlı, 2022).

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının tamamilə yaşıl enerji zonasına çevrilməsi dövlət rəhbərliyi və hökümət tərəfindən elan olunan başlıca hədəflərdən biridir. "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 10 dekabr 2021-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamında "işğaldan azad edilmiş ərazilərdə ekoloji təmiz texnologiyaları tətbiq edən, "yaşıl artım" yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsi" xüsusi vurğulanmışdır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "təmiz ətraf mühit və yaşıl artım" ölkəsi beş əsas prioritetdən biri kimi müəyyənləşdirilmişdir. Sənəddə bu prioritetlər çərçivəsində yaşıl enerji potensialına malik ərazilərin müəyyən edilməsi və qiymətləndirilməsi qeyd edilmişdir. Bundan əlavə, ölkə başçısının sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payının 2026-cı ilədək 24 %-ə, 2030-cu ilədək isə 30 %-ə çatdırmaq strateji hədəf olaraq müəyyən edilmişdir. Hal-hazırda istehsal olunan elektrik enerjisində İES-lərin payı 81,5 %-i, alternativ enerji mənbələrinin payı isə 18,5 %-dir (ARDSK, 2021).

Yaşıl enerjiyə tam keçid bəşəriyyətin qarşısında duran başlıca məqsədlərdən biridir. BMT-nin 2016-cı ilin təşkil etdiyi İqlim Dəyişikliyi Konfransında 21-ci əsr üçün qəbul edilən ən böyük qərarlardan biri 2050-ci ilə qədər "100 faiz bərpa olunan enerjiyə keçid" öhdəliyinin götürülməsidir. Bu öhdəliyə 48 ölkə qoşulmuşdur və bərpa olunan enerji mənbələrinə böyük məbləğdə investisiyaların cəlb edilməsi hesabına reallaşması nəzərdə tutulmuşdur. Avropa Birliyi bu məqsədlə 2021-2027-ci illər üçün yaşıl enerji layihələrinə 550 milyard avro məbləğində vəsait ayırmağı qərara almışdır. Həmçinin Cənubi Koreya Respublikası bu istiqamətdəki layihələri dəstəkləmək üçün 135 milyard dollar xərcləmək niyyətindədir (Neftçilərin hüquqlarını müdafiə təşkilatı, 2022).

Yaşıl enerji istehsalı böyük investisiya qoyuluşları tələb edir və kifaət qədər bahalı texnologiyaların quraşdırılılması hesabına həyata keçirilir. Azərbaycan da öz zəngin bərpaolunan enerji potensialını reallaşdırmaq məqsədilə böyük həcmli xarici investisiyalar cəlb etmək reallığı ilə üzləşmişdir. Məqsədyönlü siyasət aparıldığı halda, bu investisiyaların böyük hissəsi Avropa ölkələrindən cəlb edilə bilər. Azərbaycan ilə yaşıl enerji layihələrinə qlobal miqyasda böyük həcmli investisiyalar yatırmağı planlaşdıran Avropa İttifaqı (Aİ) arasında enerji sahəsində əməkdaşlığa dair ilkin müqavilənin mövcud olması yaşıl enerji sahəsində gələcək əməkdaşlıq və investisiyalar üçün ilkin şərtləri müəyyən etmişdir. Bundan əlavə, Azərbaycanın Gürcüstan, Macarıstan və Rumıniya ilə "yaşıl enerji"nin nəqli sahəsində əməkdaşlığa dair əldə edilən dörtərəfli razılaşma yaşıl enerjinin ixrac dəhlizlərinin şaxələndirilmək, Azərbaycanın elektrik enerjisi bazarını genişləndirmək, təchizatçı rolunu artırmaq və Xəzər dənizinin Qara dəniz və Avropa ilə inteqrasiyasını gücləndirmək imkanları yaradır.

Son illərdə bəpaolunan enerji resurslarına yatırılan investisiyaların həcmi ilbəil yüksəlir və ekspertlərin hesablamalarına görə investisiyaların təxminən 85 %-i özəl sektorun payına düşməkdədir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yaşıl enerji və bərpaolunan enerji mənbələrinə investisiya yatırılması bir sıra ölkələrin, xüsusilə enerji sahəsində ixtisaslaşmış Avropa şirkətlərinin maraq dairəsində olması özəl sektordan investisiyaların cəlbi üçün müəyyən perspektiv

imkanlar təmin edir. Bu istiqamətdə niyyətini ifadə edən şirkətlərdən biri Azərbaycan iqtisadiyyatına böyük investisiyaları yatıran BP-dir. BP ilə Energetika Nazirliyi arasında bağlanmış müqaviləyə əsasən Cəbrayıl rayonunda 240 MVt gücündə günəş enerjisi, Laçın və Kəlbəcər rayonları ərazisində isə 400 MVt-dək gücdə külək enerji layihələrinin icrası üzrə hazırlıqlara başlanmışdır. Bu transmilli şirkətin Qarabağda yaşıl enerji sahəsinə qoyacağı investisiyalar, digər sahələrə də investisiya cəlbinə geniş imkanlar aça bilər. Bundan əlavə, lazımi infrastruktur və logistik təchizat zənciri qurulduğu halda, gələcəkdə istehsal edilən alternativ enerjinin Zəngəzur dəhlizi vasitəsilə Türkiyəyə və Avropaya nəqli üçün geniş imkanlar meydana gələcəkdir.

Azərbaycanın bərpa olunan enerji sektorunda investisiya layihələrinin həyata keçirilməsində maraqlı olan ölkələr sırasında Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Avstraliya, Böyük Britaniya kimi ölkələr var və bu ölkələrin şirkətləri ilə külək və günəş enerjisinin istehsalı dair bir sıra müvafiq müqavilə sənədləri imzalanmışdır. Bundan əlavə, Azərbaycanın yaşıl enerji sektoruna maraq göstərən ölkələrdən biri də Cənubi Koreyadır. Koreyanın "Securo" şirkəti Kəlbəcər və Laçın rayonlarında 100 MVt gücündə Külək Elektrik Stansiyasının tikintisində iştirak etmək istəyini ifadə etmişdir. Bundan əlavə, Koreya dövləti "ağıllı şəhər"lərin baş planlarının hazırlanmasında və texniki-iqtisadi əsaslandırmanda iştirak etmək istiqamətində təkliflər irəli sürmüşdür. Nəzərə alsaq ki, şəhər quruculuğu, alternativ enerji istehsalı, smart texnologiyalar və innovasiyalar sahəsində Koreya şirkətləri dünyada yüksək mövqeyə malikdir, bu təkliflərin dəyərləndirilməsi və mövcud təcrübələrin tətbiq imkanları araşdırılmalıdır.

Alternativ enerji istehsalı sahəsində razılıq əldə edilən digər böyük xarici investor "Masdar" şirkətidir. Şirkətin yaxın gələcəkdə Qarabağ və Şərqi Zəngəzur rayonlarında alternativ enerji layihələrinə cəlb edilməsi ölkənin enerji hədəfləri və ixrac potensialının artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Yaxın gələcəkdə həm ölkənin, həm də işğaldan azad edilmiş ərazilərin bərpa olunan enerjiyə tam keçidini təmin etmək üçün xarici investisiyaların cəlbinin artırılması çox mühüm əhəmiyyət kəsb edəcəkdir. İlkin qiymətləndirmələrə görə, Azərbaycanın tamamilə bərpa olunan enerjiyə keçidi üçün təxminən 30 milyard dollar vəsait tələb olunur. Bu keçidə böyük həcmdə maliyyə vəsaitinin tələb olunması onun mühüm bir hissəsinin xarici investisiyalar cəlb edilərək həyata keçirilməsi şərtləndirir. Lakin sahə üzrə ekspertlərin dəyərləndirmələrinə əsasən bərpa olunan enerji mənbələri və enerji səmərəliliyinə yönələn xarici investisiyaları stimullaşdırmaq üçün elektoenergetika sektorunda bir sıra islahatlara ehtiyac vardır (Neftçilərin hüquqlarını müdafiə təşkilatı, 2022). Bunlara daxildir:

- İnvestisiya mühitinin liberallaşdırılması.
- Layihələrin maliyyələşdirilməsində dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi.
- Faiz dərəcələrinin azaldılması və əlverişli kreditləşmə imkanları yaradılması.
- İnvestisiyaların cəlbini stimullaşdırmaq üçün qanunvericilik bazasının təkmilləşdirilməsi.
- Enerji bazarının liberallaşdırılması və sərbəst bazar mexanizmlərinin işləkliyi üçün hüquqi şərtlər.
- Elektroenergetika sektorunun dövlət inhisarından çıxarılması.
- Energetika sektorunda dövlətin azad bazar mexanizmlərinin tətbiqinə dair strateji yanaşmasının olması.

**Turizm**

Turizm Azərbaycanın qeyri-neft sektorunda yüksək iqtisadi inkişaf potesialına malik sahələr arasında mühüm yer tutur. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində ölkənin 2025-ci ilə qədər yüksək sosial, iqtisadi və ekoloji standartlara

cavab verən, regional və beynəlxalq miqyaslı müasir turizm məkanına çevrilməsi və dünya turizm bazarında özünü göstərən dəyişiklik və meyillərə çevik şəkildə uyğunlaşaraq bazar payının artırması xüsusi olaraq vurğulanmışdır. Strateji sənədin məqsədlərinə müvafiq olaraq, Azərbaycan 2025-ci ildən sonrakı dövr üçün dünyada ən çox turist cəlb edən 20 turistik məkandan birinə çevrilməlidir. Yol xəritəsi turizm sektorunun inkişafının dəstəklənməsi, beynəlxalq və yerli bazarlarda yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması, müasir ideya və innovasiyalara əsaslanan yeni investisiya layihələrinin cəlb edilməsi və s. tədbirlərini özündə ehtiva edir (Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi, 2016).
İşğaldan azad edilmiş ərazilərin zəngin turizm və rekreasiya imkanları, tarixi-mədəni zənginliyi və cəlbedici iqtisadi profili turizmin inkişafı üçün böyük üstünlüklər təmin etməkdədir. Qarabağ və ətraf ərazilərdə bərpa və yenidənqurma prosesləri tamamlandıqdan sonra qurulacaq turizm klasterləri və yüksək texnologiyalara əsaslanan turizm sənayesi qısa müddət ərzində Azərbaycan turizminin güclü tərəflərindən birinə çevrilə bilər. Bölgənin mövcud potensialı imkan verir ki, cəlbedici turizm destinsiyası kimi xarici investisiyaların mərkəzlərindən biri olaraq formalaşdırılsın. Qarabağ və Şərqi Zəngəzurda yay və qış turizmi, mədəni turizm, idman turizmi, sağlamlıq turizmi, ov turizmi, ekoloji turizmi və s. turizm növlərinin inkişafı etdirilməsi mümkündür. Artıq bu istiqamətdə müvafiq dövlət siyasəti həyata keçirilir. Belə ki, işğaldan azad edilmiş ərazilərinin turizm inkişaf strategiyaları hazırlıq mərhələsindədir. Strategiya çərçivəsində ilk növbədə bölgənin turizm infrastrukturunun inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Həmçinin "işğaldan azad edilmiş ərazilərin turizm sənayesi ilə bağlı müxtəlif marşrutlar, layihələr və məhsullar" yaradılması ilə bağlı müvafiq planlar mövcuddur. Hazırlanan strategiyalar işğaldan azad edilmiş ərazilərin turizm konsepsiyaları və bir neçə turizm klasterinin yaradılmasını da əhatə edəcəkdir.

Bölgə turizminin inkişafı baxımından digər mühüm amil regional kommunikasiya və nəqliyyat dəhlizləri vasitəsilə Azərbaycanla Türkiyə arasında birbaşa avtomobil və dəmiryolu əlaqəsini bərpa edilməsi olacaqdır. Bu, sərnişin daşımalarının həcmini artıracaq və ölkəyə turizm səyahətlərini asanlaşdıracaqdır. Həmçinin yaxın gələcəkdə Füzuli, Cəbrayıl, Laçın hava limanları tam gücü ilə fəaliyyət göstərəcəkdir ki, bu da hava nəqliyyatının mövcud sərnişin daşıma potensialını dəfələrlə yüksəldəcək, habelə Qarabağ bölgəsinə xarici turist səfərləri üçün geniş imkanlar yaradacaqdır.
Bütün bu faktorları nəzərə alaraq, Qarabağ və Şərqi Zəngəzurun inkişaf etmiş turizm məkanı kimi cəlbediciliyinin artırılması və bölgədə xarici investisiyaların cəlbini stimullaşdırmaq üçün aşağıdakı təkliflər nəzərdən keçirilə bilər:

- Bölgədə müxtəlif turizm növləri üzrə potensial destinasiyaların müəyyən edilərək inkişaf planlarının hazırlanması.
- Sağlamlıq turizmi istiqamətində klasterləşmə siyasətinin həyata keçirilməsi və dəyər zəncirinin yaradılması.
- Bölgədəki turizm mərkəzlərinin rəqəmsal xəritələrinin və data bazalarının yaradılması.
- Turizm təşviq və dəstək fondlarının yaradılması və proqramlarının həyata keçirilməsi.
- İxtisaslı kadr çatışmazlığını aradan qaldırmaq üçün peşə təhsili və hazırlığının yüksəldilməsi, o cümlədən işğaldan azad edilmiş ərazilərdə ixtisaslı kadr hazırlığının təşkili.
- Qarabağ və Şərqi Zəngəzurda turizm informasiya bürolarının şəbəkəsinin genişləndirilməsi.
- Bölgənin işğal keçmişini və məruz qaldığı sosial-mədəni təcavüzü, dağıntıları əks etdirən "dark" turizmin inkişaf etdirilməsi.

- Bölgənin turizm imkanları və potensialının çap və rəqamsal media, reklam, beynəlxalq sərgilər, sənədli filmlər və s. vasitəsilə təbliği və təşviqi – xarici investorların marağının cəlb edilməsi.
- KOB-lar, turizm agentlikləri və startaplar üçün dəstək mexanizmi və güzəştli maliyyəyə çıxış imkanlarının artırılması.
- Cəlbedici turizm investisiya mühitinin yaradılması üçün gərəkli hüquqi-institusional bazanın təşkili və bu istiqamətdə beynəlxalq təcrübənin tətbiqi.
- Ərazilərin turizm inkişaf strategiyası və konsepsiyalarının hazırlanması.
- Ağdamın işğüzar və "dark" turizm, Kəlbəcərin sağlamlıq və qış-yay turizm, Şuşanın mədəniyyət turizm mərkəziləri kimi inkişaf planlarının hazırlanması.
- Tarixi yerlərlə və hadisələrlə bağlı unikal turizm marşrutlarının hazırlanması.
- Turizm sahəsində biznesə başlama prosedurlarının sadələşdirilməsi və biznes mühitinin liberallaşdırılması.

**Nəticə**

Qarabağ və Şərqi Zəngəzurun iqtisadiyyatının dövlət investisiyaları hesabına dirçəldilməsi və inkişafı bölgənin ölkənin vahid iqtisadi sisteminə reinteqrasiyası üçün əlverişli şərait yaratmaqla yanaşı, bölgədə rəqabətli və innovativ biznes mühitinin bərqərar olmasına, habelə ölkənin qeyri-neft sektorunun ÜDM-də və ixracdakı payını yüksəldilməsinə geniş imkanlar açacaqdır. Bununla belə, bölgənin davamlı və qeyri-neft sektorunun inkişaf hədəflərinə müvafiq inkişafı üçün prioritet sektorlara xarici investisiyaların yönləndirilməsi istiqamətində mərhələli və əsaslandırılmış iqtisadi siyasət yürüdülməlidir. Belə ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərin iqtisadi fəaliyyət sahələri üzrə potensialının qiymətləndirilməsi və buna müvafiq müxtəlif sektorların investisiyalaşdırılması üzrə proqram və strategiyaların hazırlanması xarici investorların maraqlarını cəlb etmək baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir. Xüsusilə, kənd təsərrüfatı, yaşıl enerji və turizm sektorları birbaşa xarici investisiyaların cəlb edilməsi üçün böyük potensiala və resurs ehtiyatlarına malikdir.

Bu tədqiqat işində əldə edilən nəticələr bu istiqamətində aparılmış digər tədqiqatların nəticələri ilə uyğunluq təşkil edir; işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı, yaşıl enerji və turizm sektorlarına birbaşa xarici investisiyalar cəlbini və ölkəyə valyuta axınını stimullaşdırmaq üçün sektorlar üzrə biznes və investisiya mühiti liberallaşdırılmalı, mövcud manelər aradan qaldırılmalı, özəl-dövlət tərəfdaşlığının miqyası artırılmalı, hüquqi-institusional baza təkmilləşdirilməli, beynəlxalq təcrübələrin öyrənilməsi və tətbiqi imkanları araşdırılmalı, kiçik və orta sahibkarlara yönəldilmiş vergi, sosial sığorta, gömrük güzəştlərinin, habelə maliyyə və texniki dəstək, o cümlədən kreditləşmə mexanizmlərinin əhatə dairəsi genişləndirilməli və biznesin qlobal dəyər zəncirlərinə inteqrasiyası üçün aydın fəaliyyət planı müəyyən edilməlidir. Həmçinin Ağdam və Araz Vadisi sənaye parklarında iqtisadi mübahisələrin təkmil həlli mexanizmi və investorları maraqlandıran digər məsələlərə dair müasir təcrübələri əhatə edəcək xüsusi qanunvericilik aktının qəbul edilməsi bu sənaye zonalarına xarici investisiyaların cəlbi baxımından mühüm əhəmiyyət kəsb edəcəkdir.

**Ədəbiyyat siyahısı**

Agiomirgianakis, G. M., Asteriou, D. və Papathoma, K. (2003). The determinants of foreign direct investment: A panel data study for the OECD countries. London, UK: Department of Economics, City University London, pp.1-21.

Ashurov, S., Othman, A. H. A., Rosman, R. B. və Haron, R. B. (2020). The determinants of foreign direct investment in Central Asian region: A case study of Tajikistan, Kazakhstan, Kyrgyzstan, Turkmenistan and Uzbekistan (A quantitative analysis using GMM). Russian Journal of Economics, 6(2), pp.162-176.

Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. 2022. https://e-qanun.az/framework/50013

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti. (2023). İşğaldan azad edilmiş ərazilərdə vergitutma. 8 səh. https://www.taxes.gov.az/uploads/2023/bukletler/4.5.pdf

Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. 2016. 98 səh.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. 2016. 117 səh.

Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. 2016. 111 səh.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. 2022. https://customs.gov.az/uploads/exported/2022/2022_12.pdf?v=1674644815

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2021. https://www.stat.gov.az/source/finance/az/004az.xls

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2021. https://www.stat.gov.az/source/balance_fuel/az/005_3.xls

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2022. https://stat.gov.az/news/index.php?lang=az&id=5400

Bagirov G. M. (2022). Formation of  the Food İndustry in the Liberated Territories of Azerbaijan. Bulletin of Buryat State University, Economy andManagement, 3, pp.10-19.

Cheng, L. K., və Kwan, Y. K. (1999). FDI Stock and its Determinants. In: Wu, Y. (Ed.), Foreign Direct Investment and Economic Growth in China, Chapter 3. Edward Elgar, Cheltenham, pp. 42-56

Dinh, T. T. H., Vo, D. H., The Vo, A. və Nguyen, T. C. (2019). Foreign direct investment and economic growth in the short run and long run: Empirical evidence from developing countries. Journal of Risk and Financial Management, 12(4), 176. https://www.mdpi.com/581148

Fikrətzadə F.F., Hacıyeva S.İ. (2020). İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması. Kənd təsərrüfatının iqtisadiyyatı. № 4, (34). s.23-37.

İƏİT. (2019). Azərbaycan: yerli təchizatçılar və xarici investorlar arasında əlaqələrin gücləndirilməsi. 95 səh.

İnterfax-Azərbaycan. 2023. 2022-ci ildə Qarabağ və Şərqi Zəngəzurun inkişafına investisiya qoyuluşu təxminən $2,4 milyard təşkil edib. http://interfax.az/view/887623/az

İnvestopediya. (2022). Fixed Capital: Definition, What's Included, and Requirements. https://www.investopedia.com/terms/f/fixed-capital.asp

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 10 dekabr 2021-ci il.

Loewendahl, H. (2018). Innovations in foreign direct investment attraction. Inter-American Development Bank, Technical Note, 1572. https://hozir.org/pars_docs/refs/190/189276/189276.pdf

Mamingi, N. və Martin, K. (2018). Foreign direct investment and growth in developing countries: Evidence from the countries of the Organisation of Eastern Caribbean States. CEPAL Review, №124, pp.80-98.

Mehdiyev, A. (2018). Azərbaycan iqtisadiyyatında birbaşa xarici investisiyalar: mövcud durum, inkişaf meyilləri və problemlər. Bakı Araşdırmalar İnstitutu.

Neftçilərin hüquqlarını müdafiə təşkilatı. (2022). Dünyada və Azərbaycanda "yaşıl enerji" üçün investisiyalar: mövcud durumun və prespektiv imkanların analizi. NHMT İB Ekspert qrupu. https://www.nhmt-az.org/frontend/pages/human-rights-inner.php?id=188

Qasımlı, V. (2022a). Yaşıl iqtisadiyyat. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. "AzPrint" nəşriyyatı, 280 səh.

Qasımlı, V. (2022b). Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. "AzPrint" nəşriyyatı, 217 səh.

Rafat, M. və Farahani, M. (2019). The country risks and foreign direct investment (FDI). Iranian Economic Review, 23(1), pp.235-260.

Saidi, S. və Hammami, S. (2011). The role of transport and logistics to attract foreign direct investment in the developing countries. In 2011 4th International Conference on Logistics, pp.484-489.

Sayari, K. (2019). Institutional Efficiency and Attraction of Foreign Direct Investment to Developing countries. International Journal of Economics and Finance, 11(7), pp.1-54.

Tocar, S. (2018). Determinants of foreign direct investment: A review. Review of Economic and Business Studies, 11(1), pp.165-196.

# Süni İntellektin Strateji İdarəetmədə tətbiqi

**Şəlalə Məmmədova**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**shalalamammadva@gmail.com**

## Xülasə

Hər dövrdə meydana gələn yenilik cəmiyyətdə, insanlar arası əlaqələrdə bəzi dəyişikliklərə səbəb olduğu kimi son dövrlər baş verən texnoloji yeniliklər şirkətlərdə biznes proseslərinin görülmə tərzində də dəyişikliklərin formalaşmasına təsir etmişdir. Dördüncü Sənaye Dövrünün təsiri ilə rəqəmsallaşan dünyada insanların artıq rəqəmsal profilə malik şəxs kimi sosial dünyada mövcud olub digər şəxslərlə əlaqə qurmasının mümkünlüyü təşkilatlara da müştərilərinə rəqəmsal dünya vasitəsilə məlumat ötürməyin həm daha sürətli, həm də daha geniş kütlələrə çatmaq üçün geniş fürsətlər yaratması imkanı verir. Son dövrlər haqqında geniş danışılan Süni İntellekt bizə idarəetmədə müxtəlif imkanlar yarada biləcək, qərar qəbul etmənin effektivliyini artıracaq fürsətlər yaradır. Süni İntellekt insan beynini təqlid edib onun qərar qəbul etmə bacarığından yararlana bilən texnoloji yenilikdir. İlk olaraq deyə bilərəm ki, Süni İntellektə malik proqramlar fərqli quruluşa malik olduğu üçün müxtəlif sahələrdə fərqli həllər təklif edir. Hər Süni İntellektə malik proqram müxtəlif sahə üzrə ixtisaslaşdığı üçün bir proqram birdən çox işdə istifadə edilə bilmir. İdarəetmədə qərar qəbulunda da Süni İntellektin imkanları müəyyən bir çərçivə üzərindən dəyərləndirilərək tətbiq olunur. Bu məqalədə Süni İntellektin şirkətlər üçün hansı fürsətləri təklif etdiyini, həmin fürsətlərlə bərabər şirkət daxilində nələri dəyişdiklərini nəzərdən keçiriləcək.

**Açar sözlər:** Süni İntellekt, idarəetmə, texnoloji yenilik

## Abstract

The innovation that occurs in every period has caused some changes in the societies and interpersonal relations, as well as recent technological innovations have influenced the formation of changes in the way business processes are being done. With influence of the Fourth Industrial Age, people are in the social world with a digital profile and communicating with this identity gives organizations the opportunity to share information through digital tools faster and to create wide opportunities to reach wider masses. Artificial Intelligence is not just creates opportunities for us, it is creating various opportunities in management as well and increases the effectiveness of decision-making. Artificial Intelligence is a technological innovation that can imitate the human brain and take advantage of its decision-making abilities. First of all, I can say that AI programs offer different solutions in many areas because they have unique structures. Since each AI program specializes in a different field, one program cannot be used for more than one job. In decision-making in management, the capabilities of Artificial Intelligence are evaluated and applied over a certain framework. This article will consider what opportunities Artificial Intelligence offers for companies, and what they cause to change within companies along with opportunities.

**Keywords:** Artificial Intelligence, management, technological innovation

## Giriş

**Mövzunun aktuallığı:** Hər dövrdə meydana gələn yenilik və dəyişikliklər müvafiq şəkildə cəmiyyətə və şirkət idarəçiliyinə də öz təsirini göstərir. Keçən əsrin sonlarından başlayan texnoloji inkişaf hər keçən on illikdə insanlar arası ünsiyyət münasibətləri də daxil olmaqla bir çox sahənin işləmə tərzində dəyişikliklərin meydana gəlməsinə səbəb olmuşdur. Böyük perspektivə malik Süni İntellektin vəd etdiyi imkanlarla bərabər onu doğru şəkildə istifadə edə biləcək, onun üstünlüklərindən maksimum yararlana biləcək bacarığa sahib peşəkarların da olması mütləqdir. İnsan beynini təqlid edən bu süni zəka böyük

həcmdə məlumatları təhlil etmə bacarığına görə insandan daha sürətli olmaqla bərabər yalnız ona verilən data bazaya əsaslana bilir və onun effektiv işləyə bilməsi üçün insan zehni bacarığına, insanın onu doğru istiqamətləndirə bilməsinə ehtiyac duyur. Eyni şəkildə hər bir Süni İntellektə məxsus proqramın yalnız bir sahə üzrə ixtisaslaşa bildiyini və digər sahələrə məxsus tapşırıqları yerinə yetirə bilmədiyi üçün bir və ya az istiqamətli olduğunu da vurğulamaq lazımdır.

Bəlkə də artıq minlərlə tətbiq sahəsi olan bu super zəkanı strateji qərar qəbulunda nəzərə almamaq düzgün davranış olmazdı. Böyük büdcəyə malik xarici şirkətlər üçün Süni İntellekt artıq iş proseslərinin bir parçası olub, gündəlik əməliyyatların icrasında geniş tətbiq olunur. Şirkətin biznes proseslərinə ilkin tətbiqi kifayət qədər xərcli olsa da uzun müddətdə şirkət gəlirlərini artırmaqda və onun böyüməsində yardımçı olması ehtimalının yüksək olması danılmazdır.

Texnoloji yeniliklərin şirkət daxili proseslərdə səmərəliliyi artıracağı və daha çox imkanlar yarada biləcəyini görən yerli şirkətlər də artıq bu fürsətlərdən yararlanmağa üstünlük verirlər. Applikasiya, sayt üzərindən müştərinin birbaşa özünün sınadığı Süni İntellekt həlləri ilə bərabər şirkət daxili proseslərin səmərəliliyini artıran başqa imkanları da diqqətə alsaq şirkətlər üçün yararlılığı vacib olan bu yenilik barəsində araşdırma etmək vacibdir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** İlk öncə qeyd etməliyəm ki, yeniliklərin tətbiqi və işçilər tərəfindən mənimsənilməsi heç də asan proses deyil. Texnoloji yeniliyi tətbiq etmək, əsasən də bu yenilik gündəlik işləri öz öhdəliyinə götürərək işçilərin iş yükünü azaldaraq mümkün ixtisarlara səbəb olacaqsa bu prosesi daha da çətinləşdirir.

Hər şeydən əvvəl ilkin olaraq xərc-fayda analizi edərək əldə ediləcək Süni İntellekt həllərinin gələcəkdə şirkətə nələr qazandıra biləcəyini təhlil etmək lazımdır. Daha sonra ona uyğun seçilmiş stratejik yol xəritəsinə uyğun olaraq hansı addımlar atılacaq, Süni İntellekti dəstəkləyəcək ekosistem necə qurulacaq – bu kimi məsələlər müəyyənləşdirilir. Daha sonra isə artıq işçi heyətinin gələcək yeniliklərə adaptasiyasını asanlaşdırmaq üçün onlar şirkətin gələcək planları və baş verəcək yeniliklər barəsində məlumatlandırılaraq lazımi təlimlərə cəlb oluna bilərlər.

Bunu qeyd etmək lazımdır ki, bir çox yerli şirkətlər təəssüf ki adətən yeni texnoloji həllərin xərc tərəfini düşünərək mümkün gələcək faydaları nəzərə almayaraq onları əldə etməyə qərəzli yanaşırlar. Bu da uzun dövrdə onların rəqiblərindən geri qalması ilə nəticələnə bilir. Bunun üçün də dövlət tərəfindən yerli şirkətlərə müəyyən güzəştlərin və ya təşviqedici dəstəklərin təmin edilməsi ölkənin iqtisadi inkişafı baxımından da faydalı ola bilər.

**Tədqiqatın məqsəd və vəzifələri:** Araşdırmanın əsas məqsədi Süni İntellektin idarəetməyə təsirinin qiymətləndirilməsi, tətbiqi zamanı diqqət edilməli olduğu məsələlərin təhlili və işçilərin maarifləndirilərək istifadəsinə cəlb olunma yollarının öyrənilməsi ilə əlaqədardır.

Bu zaman aşağıdakı istiqamətlər üzrə tədqiqat aparılır:

- Mövcud Süni İntellektə sahib sistemlər və onların tətbiq sahələrinin öyrənilməsi;
- İdarəetmədə Süni İntellektin tətbiqinin əsaslandırılması və tətbiqi mexanizmlərinin qiymətləndirilməsi;
- Yeni texnologiyadan istifadə üçün lazımi ekosistemin formalaşdırılmasının əsaslandırılması;
- Şirkət daxili biznes proseslərinə Süni İntellektin cəlb olunması üçün izlənilən yol xəritəsi;

- İşçilərin bu sahə barəsində məlumatlılıq səviyyəsinin artırılması.

**Tədqiqat metodları:** Tədqiqat zamanı xarici təcrübə ilə yerli təcrübənin müqayisəli təhlili əsas tədqiqat metodu olaraq istifadə olunmuşdur. Bundan əlavə kompleks təhlil, analiz və qiymətləndirmə metodlarından da yararlanılmışdır.

**Tədqiqat ilə bağlı əsas istinad olunan mənbələr:** İnformasiya bazası olaraq əsasən "El¬¬sevier", "Springer", "Scopus" kimi beynəlxalq elmi bazalara aid məqalələrdəki məlumatlardan, nüfuzlu kütləvi informasiya vasitələrinə məxsus internet saytlarından və yerli şirkətlərlə intervyu nəticəsində onların təcrübələri barəsində əldə olunmuş informasiyadan tədqiqat prosesində istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Əsas məhdudiyyət kimi yerli şirkət nümayəndələrinin təşkilat daxili məlumatları paylaşmaqla bağlı tərəddüdlərinin olmasını qeyd etmək lazımdır. Bu səbəblə şirkət daxili biznes prosesləri ilə bağlı ətraflı məlumat öyrənə bilməyin çətinliyi tədqiqat prosesini aparmaqda mane ola bilir.

**İntellektual Maşınların istifadə sahələri**

Tapşırıqların səmərəli nəticələrini gözləyərək, fərdlər və təşkilatlar qərar qəbul etmə səlahiyyətini süni intellektə həvalə edirlər, məsələn, avtopilotun avtomobilin zolaqları dəyişdirməsi və ya ticarət alqoritminin yüksək tezlikli ticarət platformasında böyük xarici valyuta mövqeyini satması kimi nümunələri göstərə bilərik. Səlahiyyəti ötürmə problemini başa düşmək üçün Karnegi Məktəbinin təşkilat nəzəriyyəsinə müraciət etmək faydalıdır. Burada təşkilatın dizaynı və qərar qəbulu ilə bağlı deduktiv əsaslandırma açıq və ya dolayısı ilə məhdud rasionallığı nəzərdə tutur. İnsanlar məlumatı emal etmək üçün məhdud imkanlara malikdirlər - və ya məlumatı şüurlu şəkildə görməməzlikdən gəlirlər - bu, qərar alternativlərinin nəzərdən keçirilməsinə maneə törədir. Bu problemi azaltmaq üçün informasiyanın işlənməsi və qərar qəbul etmə kimi səlahiyyətlər müxtəlif dərəcədə qarşılıqlı asılılıq nümayiş etdirən bölmələr arasında bölüşdürülə bilər (Dirican, 2015). Üfüqi və şaquli informasiya strukturlarının dizaynı bu rollar və bölmələr arasında qərarların qəbulunu səmərəli şəkildə əlaqələndirmək üçün zəruri şərtdir.

Qərar vermə səlahiyyətinin süni intellektə həvalə edilməsi təşkilatları görünməmiş şəkildə dəyişdirə bilər. Məlumat axını yüksək məhsuldarlıqlı məlumatların emalı alqoritmləri (məsələn, ticarət alqoritmi) ətrafında mərkəzləşə bilər və artıq mütəxəssislərin icra etdikləri informasiya strukturlarını izləməyə ehtiyac yoxdur (məsələn, ticarət masasına son qərara bağlı giriş təqdim edən ekspert analitiklər komandası). Üstəlik, süni intellekt bir və ya bir neçə məqsəd üzərində proqramlaşdırılmış qala bilər və mövcud məlumatın "bütün"ünü emal etmək üçün xüsusi stimul tələb etmir.

Beləliklə, idarəetmə elmi tədqiqatçıları üçün fundamental tədqiqat mövzusu Sİ fenomeninin təşkilatın strukturu ilə necə əlaqəli olmasıdır. Başqa sözlə, hansı qərar qəbuletmə səlahiyyəti ağıllı maşınlara verilə bilər və ya verilə bilməz (məsələn, əqli səy tələb edən qərarlar və mənəvi mühakimə) və tapşırıqların icrasına təsirləri nədir? Süni intellekt hansı hallarda qərar verə bilər və ya ekspert sistemlərinin ilk dövrlərində ümumi olan qərar dəstəyini təklif edə bilər? Belə nümayəndə heyəti şaquli və üfüqi informasiya strukturlarını və təşkilatlarda məlumat axınını necə dəyişdirir və ya pozur? Təşkilat üzvləri proses icrasında tapşırıq məlumatlarını süni intellektə nə vaxt və harada ötürür? Məsələn, Sİ-i təkmilləşdirmək üçün istifadəçilərdən verilən və ya təklif olunan qərarın keyfiyyəti ilə bağlı rəy tələb olunur. Üstəlik, qərarların qəbul edilməsinin Sİ-ə həvalə edilməsində etika və cavabdehlik məsələləri nələrdir? Bunun təşkilatlar üçün hüquqi nəticələri nədir?

Bu və buna bənzər suallar, informasiya-işləmə mülahizəsinə əsaslanan bir çox müasir təşkilat nəzəriyyəsinin izahat sahəsindən kənarda qaldığı üçün, Sİ qərar qəbul etmə fenomeni xüsusilə qaçırıcı (abductive) əsaslandırma üçün uyğundur. Qərar vermə səlahiyyətinin süni intellektə həvalə edildiyi vəziyyətlər haqqında kəmiyyət və keyfiyyət məlumatlarının toplanması ilə qaçırılan tədqiqat proqramı başlamalıdır. Tədqiqatçılar bu vəziyyətlərin xüsusiyyətlərini tapşırıq girişi və tapşırıq prosesləri baxımından təsvir edə bilərlər. Beləliklə, biz təşkilat daxilində Sİ səlahiyyətinə qoyulan məhdudiyyətləri daha dərindən başa düşə bilərik.

Situasiya faktlarına əsaslanaraq, tədqiqatçılar səlahiyyətlərin verilməsinə tabe olan qərar siniflərini daha sonra konseptuallaşdıra və hansı vacib tapşırıq məlumatlarının ötürülməsi alqoritmlərini müəyyən edə bilərlər (Dirican, 2015). Tapşırıqlar üzrə məlumat axınının tədqiqi, çox güman ki, təşkilatda məlumatın işlənməsini koordinasiya etmək üçün informasiya strukturlarının dinamikası, eləcə də hansı koordinasiya mexanizmlərinin fəaliyyət göstərdiyi barədə anlayışları aşkar edəcək. Tapşırıq daxiletmə məlumatlarının avtomatik olaraq necə və hansı şəraitdə yaradıldığını və ya insanın işlənməsi və daxiletməsinə əsaslandığını və hansı tapşırıq proseslərinin (alqoritmlərin) yerləşdirildiyini kəşf etmək vacib olacaq. Tədricən Sİ-i fundamental təşkilati fenomen kimi aşkar etməklə, təşkilatlarda insan və maşın səlahiyyətləri rejimlərinin yaranması və qarşılıqlı əlaqəsini ayırd edə və ilkin izahat verə bilərik.

Bundan əlavə, qərar qəbul etmə səlahiyyətinin Sİ-ə verilməsini daha yaxşı başa düşmək və izah etmək üçün nümayəndə heyətinin uğursuzluğu ilə bağlı keyfiyyət və kəmiyyət məlumatlarının toplanması vacibdir (məsələn, maşınlar tərəfindən mənəvi təhlükə kimi bir şey varmı?). Məsələn, ticarət alqoritmləri məlumatların işlənməsi xərclərini və qərar qəbul etmə vaxtını azaldır, lakin səhv ticarət qərarı bir saniyə ərzində maliyyə firmasının sağ qalmasını riskə ata bilər. Tibbi süni intellekt köməkçisi tam məlumatları və mövcud təcrübəni etibarlı şəkildə emal edir, lakin aşkar edilməmiş məlumat qüsuruna əsaslanan yanlış diaqnoz xəstənin həyatını riskə ata bilər. Abduktiv əsaslandırma vasitəsilə təşkilatlarda süni intellektə səlahiyyət verməninin nə demək olduğunu, bu cür nümayəndəlikdə insan məsuliyyətinin və hesabatlılığın rolunun nə olduğunu və təşkilatların, təşkilat üzvlərinin və maşınların müxtəlif vəziyyətlərdə Süni İntellektin qərar qəbul etməsini necə təkmilləşdirdiyini nə cür öyrəndiyini daha yaxşı anlaya bilərik (Chernov & Chernova, 2019).

Səlahiyyətlərin ötürülməsinə yönəlmiş diqqət istər-istəməz Sİ-in köməyi ilə işçi qüvvəsini əvəz etmək və ya qərəzli yanaşmanın arzuolunmaz nəticələri və avtomatlaşdırılmış qərar qəbuletmə prosesində möhkəmlənmiş öyrənmə (məsələn, ayrı-seçkilik) kimi bir çox narahatlıq doğurur.

Problem-həll etmə və formalaşdırma təşkilatların əsas fəaliyyətləri hesab olunur və burada da Süni İntellekt bəzi təşkilati problemlərə avtomatik olaraq cavab verdiyi üçün yararlı olduğunu sübut etmişdir.

Problemin formalaşdırılması təşkilatlarda problemi həll etmək üçün çəkilən zəhməti azaltmaq üçün vacib şərtdir və bugün, ağıllı maşınlar layihələndirmə, planlaşdırma, axtarış, çeşidləmə, strukturlaşdırma və s. daxil olmaqla geniş sahə aralığında formalaşan problemləri həll etmək üçün vaxt sərf edirlər. Süni intellekt yüngül tikinti komponentlərinin layihələndirilməsi, müştəri ehtiyaclarına uyğun maliyyə portfellərinin yığılması, xəstələrlə sadə söhbətlərin aparılması və tıxanmış dəmiryol daşıma sistemində yüklərin marşrutunun dəyişdirilməsini tövsiyə etmək üçün istifadə edilə bilər (Skilton & Hovsepian, 2018). Bununla belə, bu cür nümunələrdən başqa, ağıllı maşınların iştirakı ilə problemlərin həllinin təşkilatlarda necə baş verdiyi hələ də zəif başa düşülən bir fenomen olaraq qalır.

Problemin həllinin öyrənilməsi başlanğıc olduğu üçün idrak elmləri və Sİ sahəsində diqqət mərkəzində oldu. Herbert Simona görə, problemin həlli həll məkanında tərtib edilmiş problemin həlli yollarının axtarışını və problemin tərtibindən kənara çıxan və daha sonra həlledicinin əldə etdiyi məlumatlara tətbiq edilən əsaslandırmanı ehtiva edir. Simon həll mənzərəsində alqoritmik axtarışa imkan verən yaxşı strukturlaşdırılmış problemləri geniş situasiya məlumatlarını ehtiva edən pis strukturlaşdırılmış problemlərdən fərqləndirdi. Sonuncuları alqoritmik axtarış üçün yaxşı strukturlaşdırılmış problemlərə çevirmək lazımdır. Beləliklə, səmərəli problem həlli prosedurlarının işlənib hazırlanması fəaliyyətdə olan "real" problem həlledicilərinin dərk edilməsini nəzərdə tutur (Skilton & Hovsepian, 2018). Problemi həll edən şəxs dünya haqqında biliklərinə əsaslanan empirik əsasları təmin edir. Ağıllı maşınlar da öz fəaliyyət sahələrində belə biliklər əldə edə bilər, lakin ondan kənarda bu çətin prosesdir. Hələ ki, problemli vəziyyətlərlə əvvəlki təcrübəni qarşı-qarşıya qoymaq və bu təcrübəni yaradıcı şəkildə yeni sahələrdə tətbiq etməyi bacarmaq insana məxsus imtiyaz olaraq qalır.

İdeal olaraq, qaçırma tədqiqat proqramı süni intellektdən istifadə oluna bilən təşkilatlardakı problemli vəziyyətlər haqqında keyfiyyət və kəmiyyət məlumatları toplayır. Bununla belə, qərarların qəbulu ilə bağlı tədqiqatda olduğu kimi, tapşırıqların daxil edilməsi (problemlə əlaqəli) və tapşırıq prosesləri (məsələn, axtarış və ya əsaslandırma alqoritmləri) haqqında məlumat toplamaq məqsədəuyğun ola bilər, çünki bu cür məlumatlar təkcə xüsusiyyətləri aşkar etmir, həm də Sİ-in cəlb edilməsinin baha başa gəldiyi və ya başqa yollarla çətin olduğu problemli vəziyyətlərdə məhdudiyyətləri göstərir. Məsələn, çarpayı masanızı divara bərkitmək lazımdırsa, bu, avtomatlaşdırmanın çox bahalı olduğu təkrarlanmayan bir vəziyyətdir. Başqa bir real məhdudiyyət ondan ibarətdir ki, Sİ adətən problemin ilkin həlli yolları təklif etmək üçün tarixi məlumatlar və təcrübədən istifadə edir.

Nəhayət, təşkilatlardakı problemli vəziyyətlərin verilənlərə əsaslanan təsvirləri, əmək bölgüsü və Sİ tərəfindən tapşırığın nəticəsi kimi problem həlləri ilə, ortaya çıxan əsaslandırma nümunələrinin ehtiyacları, problem bəyanatlarını və alternativ həlləri və alternativ spesifikasiyanı birləşdirən şeylərə dair ilkin izahatlar tərtib edilə bilər.

**Süni intellekt həllərinin idarəetməyə təsirlərinin qiymətləndirilməsi**

İnsanlıq var olduğu müddət ərzində daim onlar arasında lider şəxslər mövcud olmuşdur. Ən qədim dövrlərdə belə ovçu toplayıcı insanlar arasında onları təhlükələrdən qoruyaraq qida tapmaqda yönləndirəcək liderə ehtiyac varı idi və düzgün istiqamətləndirməyi bacaran həmin qəbilənin lideri olmağı bacarırdı. Digər əsrlərdə də eyni şəkildə imperiyaları, sultanlıqları düzgün idarə etməyi bacarmaq və düşmən təhlükəsindən qorunmanı təmin etmək üçün lider şəxsə ehtiyac duyulurdu. Sənayenin inkişaf etdiyi dövrdən başlayaraq liderlik anlayışına daha çox önəm verilməyə başlanıldı və artıq bir elm kimi araşdırılaraq nəzəri əsasları formalaşdırıldı.

Deyə bilərik ki parlaq fikirlərə malik olmaq o demək deyil ki şirkət və ya startap uğurlu olacaq. Həmin ideyanı uğurla reallaşdırmaq, şirkəti böyüdə bilmək üçün güclü liderə və doğru seçilmiş strateji yol xəritəsinə ehtiyac duyulur. Dövrümüzdə isə doğru strateji qərar qəbulunda və ya strategiyanın seçilməsində texnoloji yeniliklərlə bağlı qərarlar önəm daşıyır. Əgər şirkət bazarda payını itirməmək, yeniliyə açıq olmaq və texnologiyanın yaratdığı fürsətlərdən istifadə etməklə biznes proseslərinin effektiv idarə edilməsini təmin etmək istəyirsə mütləq şəkildə ən yeni texnologiyadan xəbərdar olmalı və onun biznes əməliyyatlarında necə səmərəli tətbiq edəcəyini bilməlidir.

Süni İntellekt insan beynini təqlid edərək onun icra etdiyi bəzi işləri yerinə yetirmək qabiliyyətinə malik texnoloji innovasiyadır. İnsanlar tərəfindən icra olunan rutin, vaxt aparan işləri öz üzərinə götürməklə insanların daha kompleks stratejik qərarlar qəbul etməsinə imkan yarada bilər. Bəs Süni İntellektin təklif etdiyi həllərin İdarəetmə Prosesinə təsiri hansı şəkildə olacaq?

Menecmentdə kəmiyyət metodologiyasının tətbiqi ilə planlama, proseslərin ardıcıllığının və vaxt bölgüsünün hesablanması, xərclərin və büdcənin müəyyənləşdirilməsi kimi məsələlər daha effektiv həll olunmağa başlanmışdır (Ruiz-Real, Uribe-Toril, Torres and De Pablo, 2021) . Yeni dövrdə istifadə edilən Süni İntellekt də kəmiyyət metodologiyasına əsaslanır və ya onun davamıdır deyə bilərik.

Artıq idarəetmədə yalnız təşkilata deyil, onun əhatə edən bütün mühitə bütövlükdə önəm verilməyə başlanılıb. Stratejik idarəetmə resurslardan ən doğru şəkildə istifadə etməklə rəqabət üstünlüyü əldə etməyə, mühitə uyğunlaşa bilməyi və uzun dövrdə mövcudluğunu davam etdirməyi özündə birləşdirir (Stone et al, 2020). Rəqabət üstünlüyünü təmin etmək üçün Porter-in məşhur məsrəf liderliyi və fərqləndirmə strategiyalarına əsaslansaq Süni İntellekt hər iki konsepsiyada öz töhfəsini edəcək.

Əvvəldə də qeyd etdiyim kimi deyə bilərik ki hər yeni sosial və texnoloji yenilik fürsətlər və onlarla birlikdə bəzi çətinlikləri özü ilə gətirir. Texnologiya sahəsində son inkişaf 4-cü Sənaye erasını yaratdığı kimi Süni İntellekt sahəsində olan yeniliklərin də sosial həyatda və şirkət idarəetməsinə öz təsirini göstərməsi, özü ilə bərabər dəyişiklikləri də gətirməsi qaçınılmazdır (Ruiz-Real et.,2021). Süni İntellekt idarəetmənin hər sahəsinə öz təsiri göstərəcəyi kimi Strateji İdarəetmədə də müxtəlif biznes proseslərində dəyişikliklərə səbəb olacaq. Süni İntellekt elmlərinin gələcək tendensiyaları təxmin edən sahələri (bunlara Süni Neyron Şəbəkələr, Maşın Öyrənmə və s. sahələr daxildir) böyük data bazanın analizində istifadə edilə bilməklə Strateji İdarəetmədə şirkət performansını və ya strateji qərar qəbul etməyə təsir edən şirkət xarici faktorların analizində işlədilə bilər.

İnsanlar ilk zamanlar ovlanmaqla və toplayıcılıqla məşğul olaraq həyatda qalmağa çalışır, yaşamlarını davam etdirirdilər. O zamanlar hər şey insan əməyinə əsaslanır və insanlar lazımi ehtiyaclarını ya özləri hazırlamaqla, ya da digər şəxslərdən təmin edirdilər. Sənayenin formalaşması artıq istehsalda insan əməyinin maşınlar tərəfindən əvəz olunması və proseslərin avtomatlaşdırılması ilə nəticələndi. 18-ci əsrdən başlayaraq sənayedə baş verən inqilablar dörd sənaye dövrünün meydana çıxmasına səbəb oldu. İlk sənaye dövründə istehsal prosesində buxar mühərriklərinin işlədilməsi istehsalı mexanikləşdirməkdə yardım etdi, ikinci sənaye dövründə kütləvi istehsalı elektrik gücündən istifadəylə təmin etmək mümkün oldu, üçüncü sənaye dövründə isə kompüter və informasiya texnologiyaları istehsalı avtomatlaşdırmaqda faydalı oldular. Hal-hazırda isə dördüncü sənaye dövrünü yaşayırıq və bu dövr isə internet vasitəsilə kütləvi rəqəmsallaşdırma prosesinin həyata keçirilməsi ilə xarakterizə oluna bilər (Duan, Edwards and Dwivedi, 2019). Hər sənaye dövrünün simvolu olaraq müəyyən bir anlayış önə çıxır ilk iki dövr üçün bunlar buxar və elektrik sayıla bilər, hansı ki insan gücündən yüksək gücə malik olduqları üçün insan əməyi nəticəsində əldə edilən məhsullardan daha böyük həcmdə istehsal etmək qabiliyyətinə malik idilər və onların gücündən istifadə etməklə kütləvi istehsal prosesi həyata keçirilə bilirdi. Üçüncü sənaye dövrünü kompüterlər simvollaşdırır və onlar artıq mexaniki əməyi avtomatik proseslə əvəzləyir. Bu da artıq daha böyük həcmdə məhsulu daha qısa zamanda təmin etməyə imkan verməklə, maşınların və texnologiyanın avtomatlaşdırılmasına və daha az insan müdaxiləsi tələb etməsinə təsir edir. Dördüncü sənaye dövrü isə internet və rəqəmsallaşan dünya ilə xarakterizə oluna bilər. Burada isə artıq şəbəkələşmiş iqtisadiyyat formalaşır, beləliklə sənayedə mövcud olan fiziki, rəqəmsal və bioloji bütün

varlıqların bir biri ilə inteqrasiyası təmin olunur. Artıq sənayedəki bütün iştirakçılar müxtəlif şəbəkələr vasitəsilə əlaqəli və hətta müəyyən səviyyədə bir birindən asılıdırlar. Bu asılılıq region və ya ölkə səviyyəsindən daha geniş, yəni qlobal səviyyədə bir xarakter alır. Yaşadığımız dövrdə artıq demək olar ki hər şeyin rəqəmsal versiyası mövcuddur, buna real insanların rəqəmsal profillərinin mövcudluğunu və rəqəmsal olan profillə daha geniş şəbəkəyə və ya ətrafa malik ola biləcəyini qeyd etmək lazımdır. Digər nümunələr olaraq Bulud Texnologiyası, Böyük Data Bazası, Blokçeyn, Əşyaların İnterneti, Kiber Təhlükəsizlik və bu dissertasiyada əsas diqqət ayırdığım Süni İntellekti göstərə bilərəm.

Süni İntellektin Menecmentə təsirinə daha geniş müstəvidən baxmaq daha məqsədə uyğundur. Rəqəmsallaşmanın gətirdiyi dəyişikliklər yeni xüsusiyyətlərə malik cəmiyyətin formalaşmasına mühüm təsir göstərir. Artıq cəmiyyətin müxtəlif təbəqələri və ya fərqli rollara sahib insanlar rəqəmsal dünyada çeşidli rollarda çıxış edir, fərqli məqsədləri üçün ondan istifadə edirlər. Misal olaraq hər hansı şirkətin əməkdaşlarının, işçilərinin, müştərilərinin və digər əlaqəli şəxslərin etdiyi istənilən tranzaksiya böyük ölçüdə məlumat yığını formalaşdıra bilir. Həmin böyük ölçüdə məlumat bazası xüsusi analitik təhlil aparmağı tələb edən biznes ekosisteminin yaranmasına səbəb olur, bu da öz növbəsində tətbiq edilən biznes metod və ya proseslərində köklü dəyişikliklə nəticələnə bilir. Bu yeni yaranan ekosistem artıq illərdir tətbiq edilən biznes proseslərində, izlənilən strategiyalarda, qərar qəbul etmə üsullarında fərqli yanaşmanı tələb edir, çünki ekosistem dəyişdiyi kimi istifadə edilən metodlar da ona uyğun şəkildə dəyişməlidir (Duan et., 2019).

Ticarətin qloballaşması və e-kommersiya-dan istifadənin geniş yayılması müxtəlif təşkilatlar üçün böyük fürsətlər vəd edir. Bununla bərabər onlar bu fürsəti dəyərləndirə bilmək üçün öyrəşdiklərindən fərqli strateji addımlar atmalı və fərqli biznes proseslərindən yararlanmalıdırlar. Belə ki dünyanın hər hansı bir nöqtəsindən yaşadığı ölkədən çox uzaqda yerləşən bir regiondan sifariş etmək artıq adi haldır. Əgər şirkətlər qloballaşan dünyada mövcudluqlarını davam etdirə bilmək, rəqabətə davam gətirə bilmək və böyüyərək gəlirlərini artıra bilmək istəyirlərsə, e-kommersiyadan faydalanmağı bacarmalı onunla birlikdə loqistika departamentlərinin düzgün strategiya tətbiq edərək uzaq məsafədən sifariş verən müştərilərə minimal xərclə və ən qısa zamanda istədikləri məhsulu təmin etməyi bacarmalıdırlar. Süni İntellekt də təchizat zəncirini optimallaşdırmaq üçün öz həllərini təklif edir (Stone, Aravopoulou, Ekinci, Evans, Hobbs, Labib, Laughlin and Machtynger, 2020). Məsələn, süni neyron şəbəkələr, agent sistemləri bu sahədə geniş istifadə edilirlər. Süni Neyron Şəbəkələr vasitəsilə əvvəldən planlama həyata keçirilir və anbarda lazımi məhsullar lazımi miqdarda təmin edilir, daha sonra minimum xərclə hansı daşıma vasitəsilə məhsulların ən qısa vaxtda müştəriyə çatdırılması müəyyən edilir.

Biznesdə Süni İntellektlə bağlı ən önəmli tətbiq kimi böyük məlumat bazasının analitikasını nümunə göstərə bilərik. Böyük məlumat bazasına malik olmaq həm böyük imkanlar yarada bilir, həm də bəzi çətinliklərə səbəb olur (Stone et al, 2020). Biznesin müxtəlif bölümlərində faydalı ola biləcək böyük məlumat bazası əsasən Stratejik İdarəetmədə gələcəkdə baş verə biləcək proseslərlə bağlı proqnozlarda istifadə edilə bilər. Biznes analitika və ya data analitika şirkətlərə rəqabət üstünlüyü qazanmağa imkan verir.

Böyük məlumat bazasından fərqli sektorlar müxtəlif şəkildə faydalana bilirlər. Fərqli sektorlar üzrə böyük məlumat bazası onun müştəri bazası və yaxud pasientin xəstəlik tarixçəsi barədə geniş məlumat verə bilir. Müştərinin aldığı məhsul çeşidliliyi, ödəniş tarixçəsi və ya digər məlumatlar onun davranışları haqqında dolğun məlumat verir və şirkət ona uyğun müştərilərə daha spesifik təkliflər verə və ya ümumi

müştəri tendensiyalarına əsaslanaraq ona uyğun məhsul planlamasını müəyyən edə bilər. Əgər müştəri hər hansı xüsusiyyətə üstünlük verirsə, gələcək məhsul prototipinin hazırlanması zamanı həmin xüsusiyyət mütləq şəkildə nəzərə alınmalıdır (Wang, Lin and Shao, 2022). Digər nümunə olaraq xəstənin şikayətlərinə uyğun müalicə yazılan zaman onun xəstəlik tarixçəsi, verdiyi laboratoriya analizlərinin nəticələri, başqa hansı yan xəstəliklərinin olduğu mütləq şəkildə diqqət edilməsi gərəkən məqamlardır. Bundan başqa hər hansı dərman və ya vaksin kütləvi şəkildə istehsal edilməmişdən əvvəl mütləq şəkildə digər dərman vasitələriylə paralel istifadə zamanı təsirinin necə olması, müxtəlif yaş qruplarına və ya yan xəstəliklərə malik insanlara necə təsir etməsi detallı təhlil edilməlidir.

Süni İntellektin adaptasiyası zamanı çox yönlü bacarığa malik işçilərin olması mütləqdir. Bu işçilər texnoloji yeniliklərdən səmərəli istifadə etməklə idarəetmə ilə qərar qəbulu prosesini əlaqələndirərək şirkətə dəstək ola bilərlər (Wang et.,2022). Bu sistemlərin tətbiqi zamanı komandanı idarə edəcək liderlər də bu sahədə kifayət qədər təcrübəyə malik və komandanı düzgün yönləndirə biləcək bacarığa malik olmalıdırlar. Beləliklə, deyə bilərik ki menecmentdə informasiya sistemlərini artıq istifadə etməyə başlamış müəssisələr artıq müəyyən qədər öndədirlər, ancaq hələ də Süni İntellektin tətbiqindən yayınan şirkətlər isə onun imkanlarından yararlana bilməyəcəklər və bu hal onları rəqabətdə geridə saxlayacaq.

Biznes analitikadan optimal şəkildə istifadənin mümkün olması üçün təşkilat, texnologiya, biznes prosesləri və insan resursları uyğun göstəricilərə malik olmaqla bərabər doğru ekosistemin qurulması təmin edilməlidir. Süni İntellektə malik texnologiyanı dəstəkləyən şirkət artıq ona uyğun olaraq biznes proseslərini yenidən planlamalı, Sİ-i dəstəkləyə biləcək texnoloji həlləri təmin etməli və həmin həllərdən istifadə edə biləcək bilik və bacarıqlara sahib işçi heyətini cəlb etməlidir. Belə bir ehtiyac hiss edən şirkət artıq texnologiya dövrünün tələblərinə uyğun şəkildə özünü yenidən strukturlaşdırmağı bacarır.

Məlumat bazasının böyük olması şirkətlərə həm daxili proseslərini daha rahat tənzimləməyə, həm də müştəri ehtiyaclarını daha düzgün dəyərləndirməyə imkan yaradır. Qeyd etmək lazımdır ki, məlumat toplandığı zaman şirkət fəaliyyət göstərdiyi ölkənin qanunvericiliyinə uyğun olaraq və müştəriyə heç bir etik problem yaratmadan bunu etməlidir (Wang et.,2022). Misal olaraq şirkət saytları üzərindən iş elanlarına müraciət edərkən şəxsi məlumatlardan nə məqsədlə istifadə ediləcəyi qarşı tərəfə bildirilir və ancaq şəxsin təsdiqindən sonra bazaya yerləşdirilir. Gələcək elanlarda nəzərə alınmaq üçün və ya statistik məqsədlər üçün şəxsin razılığı olmadan həmin məlumatların istifadə edilməsi yolverilməz haldır. Digər nümunə olaraq alış-veriş zamanı şəxsin adres məlumatları, şəxsi poçt ünvanı və kart məlumatları toplanır və bu məlumatların məxfiliyinin qorunması şirkət tərəfindən həyata keçirilir. Böyük büdcəyə malik iri şirkətlərdə bu məlumatlar yerli nisbətən kiçik şirkətlərlə müqayisədə dəfələrlə böyükdür. Onlara kiber hücumların daha çox olmasıyla bərabər böyük müştəri məlumatlarının təhlükəsizliyinin bəzən pozulması halları haqqında kütləvi informasiya vasitələrində məlumatlarla rastlaşmışıq. Belə halların baş verməsi şirkətin reputasiyasını aşağı salır, müştəri güvənini sarsıdır və eyni zamanda şirkət hissələrinin birja bazarında dəyərinin aşağı düşməsiylə nəticələnə bilir. Artıq həmin şirkətin təklif etdiyi məhsullara qarşı tələb müştərilər tərəfindən aşağı düşür, çünki hər hansı mənfi xəbər müştərinin beynində şirkətlə bağlı mənfi rəy formalaşdırır. Müştəri neqativ xəbərlərlə adı hallanan şirkətə yarar vermək istəmir və ya özünün də səhv davranışa dəstək olması halı onu həmin şirkətdən məhsul və ya xidmət almaqdan çəkindirir. Əgər bu mənfi hal təhlükəsizliklə əlaqədardırsa, bu hadisənin bir daha baş verməyəcəyinə müştəriləri inandırıb yenidən onları cəlb etmək çətin prosesdir, onun üçün əvvəlcədən müştərini

itirməmək və onda şirkətlə bağlı mənfi rəyin formalaşa biləcəyi hər hansı halın baş verməsinin qarşını maksimum səviyyədə almaq lazımdır.

Biznes analitikasının istifadəsi zamanı ilkin olaraq şirkətin nə üçün mövcud olduğunu tam olaraq anlamaq mütləqdir. Şirkət hansı dəyərlərə malikdir, müştərilərinə məhsuldan əlavə nə vəd edir, bu kimi nüanslar diqqətə alınmalıdır. Bunu bildikdən və düzgün şəkildə çatdırdıqdan sonra ona uyğun analitik strategiya təyin etməyə başlayır (Ünal & Kılınç, 2019). Belə olan halda əldə etdiyi məlumatları analiz edən zaman öz dəyərlərinə əsaslanaraq bunu edir. Böyük müştəri məlumatından məna çıxarmağa çalışarkən şirkət dəyərlərinə əsaslanaraq bunu edir.

İnkişafa meyilli, yenilikçi biznes mühiti formalaşdırmaq üçün şirkət bunu reallaşdıra biləcək işçi heyətinə sahib olmalıdır. İşçi heyəti də şirkətin sahib olduğu vizyona sahib olmalı, onu çevrilmək istədiyi yeni strukturda dəstəkləməyi bacarmalıdır. Bəlkə də buna görədir ki, şirkətdə yeni struktur qurulduğu zaman işçi heyətində kütləvi dəyişikliklər baş verə bilir. Bu da daha çox yeniliyi dəstəkləyə bilməyən və ya müəyyən mənada mane ola biləcək işçilərin yenilikləri həyata keçirməkdə faydalı olacaq işçilərlə əvəz olunmasıyla nəticələnir (Duangekanong, 2018). Onun üçün də Süni İntellektin tətbiqinin geniş yayıldığı bugünkü dünyada öyrənməyə meyilli təfəkkürə malik işçilərə tələbat hər zaman daha yüksəkdir.

Süni İntellekt şirkət daxilində və şirkətin kənar şəxslərlə əlaqələrinin qurulmasında belə fərqliliyin yaranmasına səbəb olmuşdur. Bunlarda ünsiyyət üslubunda meydana gələn dəyişikliklərə diqqət yetirmək məqsədə uyğundur. Müştəri münasibətlərinin qurulması zamanı artıq sual və ya şikayətlərlə bağlı olaraq müştəri ilk çat botlarla ünsiyyət qurur. Bu həm prosesin sürətlənməsi, həm də təkrarlanan suallara artıq botların cavablarının olması ilə nəticələnir. Rəqəmsal ünsiyyət vasitələrinin yaranması ilə şirkətlərin artıq fiziki məkanlarda fəaliyyətinə ehtiyac qalmaya bilir. Bu da daha çox istehsalla məşğul olmayan xidmət sahələri üçün məqsədəuyğundur. İstər kiçik sahibkarlıqla məşğul olan şirkətlərdə, istərsə də iri xidmət sahələrində işçilərin birbaşa şirkətdə olmadan prosesləri idarə etməsi mümkündür. Bunun üçündür ki artıq böyük şirkətlər hibrid iş rejiminin verdiyi üstünlüklərdən yararlanırlar. Həftənin müəyyən günləri evdən işləyən işçilərin performansında artışların olması görülən işlərin keyfiyyətinə də müsbət təsir edir.

**Nəticə**

Müqayisəli təhlil zamanı yerli şirkətlərin müqayisədə daha az büdcəyə malik olduğu üçün innovasiyaya xarici şirkətlər qədər vəsait ayıra bilməməsi, yerli mütəxəssislərin lazımi bilik və bacarıqlarının artırılması üçün əlavə təlim və treyninqlərə ehtiyacının olması kimi məhdudiyyətlər nəzərə çarpmışdır.

Nəticədə qeyd edə bilərəm ki, yeni tendensiyaya istər yerli, istər xarici bazarda kifayət qədər diqqət ayrılır. Böyük məlumatları toplamaq üçün databazalar yaradılır, onların təhlili sistemli şəkildə, maksimum fayda əldə edilə bilinəcək tərzdə aparılır. Bununla bərabər yerli bazarda da vacib bilik və bacarıqlara sahib işçilərə üstünlük verilərək onların qərar vermə prosesinə cəlb edilməsinə önəm verilir. Eyni zamanda ölkəmizdə həmin bacarıqları nəzərə alaraq fərqli kurslar artıq uyğun təlimlər təşkil edir, lakin hələ də universitetlərdə bu ixtisaslarla bağlı geniş seçim imkanı olmadığı üçün ixtisaslı kadr yetişdirilməsi üçün müəyyən çatışmazlıqlara səbəb ola bilir.

Tədqiqatın əsas məhdudiyyətləri informasiya əldə edilməsi zamanı tam məlumat bazasının əldə oluna bilməməsi, yerli və xarici şirkət quruluşundakı fərqlərin adekvat müqayisənin edilə bilməməsinə səbəb olması və xarici şirkətlər barədə səthi təəssüratın formalaşmasıyla bağlıdır.

Ölkəmizdə tətbiqlə bağlı ən böyük problemlərdən biri kimi bəzi şirkətlərin rəhbərliyinin texnoloji yeniliklərə ayıracaqları büdcələri böyük xərc kimi gördükləri üçün onu tətbiq etməyə çox da meyilli olmurlar. Belə olduğu halda, yenilikləri tətbiq etməkdən çəkindikləri üçün inkişafda da rəqib şirkətlərdən geri qala bilirlər. Bunun üçün Strateji İdarəetmədə olan şəxslərin Süni İntellektin gələcəkdə mümkün edəcəyi imkanları düzgün dəyərləndirə bilmələri çox vacib olduğu kimi, gələcək yol xəritəsi hazırladıqları zaman necə tətbiq edə biləcəkləri ilə bağlı analiz hazırlamalıdırlar. Bu analizlə şirkətin iqtisadi vəziyyəti nəzərə alınmalı, texnologiyadan istifadədən sonra artacaq gəlir müəyyənləşdirilməli, eyni zamanda texnologiyanı dəstəkləyən avadanlıqların olub olmaması, biznes proseslərinə hansı şəkildə inteqrasiya edə biləcəyi detallı tərzdə təhlil olunmalıdır.

Baxmayaraq ki Süni Zəka kifayət qədər yüksək büdcə tələb edir, qarşılığında şirkətin istər maddi, istər performansı baxımından qazancını nəzərə alsaq ona investisiya etməyə dəyər.

Bir digər problem olaraq ixtisaslı kadr çatışmazlığını söyləyə bilərik, ancaq şirkət rəhbərliyi öz işçilərinə bu sahəylə bağlı bilik və bacarıqlarını artıra biləcəkləri təlim və treninqlər təşkil etsələr, bu problem aradan qalxacaq. Belə olan halda təcrübə edərək daha uzun müddətdə öyrənə biləcək işçilər ilkin təlim prosesinin sayəsində daha tez öyrənə və Süni İntellektdən biznes proseslərində daha səmərəli necə istifadə ediləcəyi ilə bağlı məlumatlı olacaqlar. Bundan əlavə onların işlərini itirməklə bağlı qorxuları azalacaq, bəlkə də tamamilə aradan qalxacaq və motivasiyaları yüksələcək. Şirkətlə bağlı müsbət fikirdə olan işçinin performasının artması onun gördüyü işlərdə də öz təsirini göstərəcək. Həmçinin, bunu da qeyd etməliyəm Süni İntellektlə bağlı texnoloji yeniliyi digər şirkət daxili böyük yenilikləri tətbiq etməmişdən əvvəl düzgün formada işçilərə çatdırmaq lazımdır. Sadəcə qulaqdan qulağa yayılan məlumatlar yanlış anlaşılmalara, təşviş vəziyyətinin yaranmasına, son nəticədə isə gərgin iş mühitinin formalaşmasına səbəb olur. Belə halların olmaması və işçilərin yeniliyi məcburi şəkildə deyil, istəyərək qəbul etməsi qısa zamanda öyrənmələrinə, daha həvəsli və məhsuldar yanaşmalarına imkan yaradır.

**Ədəbiyyatlar**


The Impacts of Robotics, Artificial Intelligence On Business and Economics, Procedia Social and Behavioral Sciences – Cuneyt Dirican

Responding to the Impact of Artificial Intelligence on Business – Mark Skilton, Felix Hovsepian

Artificial İntelligence in Management: Challenges and Opportunities – Alexey Chernov, Victoria Chernova

https://www.forbes.com/sites/forbestechcouncil/2022/10/11/top-nine-ethical-issues-in-artificial-intelligence/?sh=ff4c2385bc8f

https://www.simplilearn.com/tutorials/artificial-intelligence-tutorial/artificial-intelligence-applications

https://www.computerworld.com/article/2918161/the-ai-ecosystem.html

"Building AI Ecosystems: The Characteristics and Challenges" by Analytics Insight

https://www.analyticsinsight.net/building-ai-ecosystems-the-characteristics-and-challenges/

“The Effect of Artificial Intelligence on Management Process: Challenges and Opportunities” by Mustafa Sundu

https://www.researchgate.net/publication/340237973_The_Effect_of_Artificial_Intelligence_on_Management_Process_Challenges_and_Opportunities

https://www.databricks.com/glossary/extract-transform-load#:~:text=ETL%2C%20which%20stands%20for%20extract,downstream%20to%20solve%20business%20problems.
"How to teach society about artificial intelligence" https://www.weforum.org/agenda/2017/12/how-to-teach-society-about-artificial-intelligence/

# İnsan Kapitalının İnkişafının Azərbaycanın Milli Brend Məhsullarının Yaradılmasında Rolu

**Qafarzadə Əli**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

## Xülasə

İnsan əməyinin yaratdığı əlavə dəyər nə qədər çox olarsa, kapitalın gəlirliliyi də eyni miqdarda çox olar, ona görə də kapitalın gəlirliliyi artırılmalıdır. İnkişaf etmiş ölkələrdə insan kapitalına investisiya ən səmərəli və sərfəli sosial sərmayə kimi tanınır. İnsan kapitalı iqtisadi potensialı və ümumi artımı artıran ən mühüm amillərdən biridir. İqtisadi inkişafın təmin edilməsində insan kapitalının əhəmiyyətinin artması onun öyrənilməsini zəruri edir. Cəmiyyətin inkişafı və dəyişməsi ilə insan kapitalını təşkil edən keyfiyyət elementlərinin dairəsi genişlənir, o cümlədən vətəndaşlıq, siyasi-hüquqi mədəniyyət, təhsil, səhiyyə və mədəniyyət səviyyəsi də bu elementlərin tərkib hissəsinə aid edilir.

İnsan kapitalı insanların həyatları boyu topladıqları və cəmiyyətin məhsuldar üzvləri kimi öz potensiallarını reallaşdırmağa imkan verən bilik,gəlir statusundan asılı olmayaraq bütün xalqların sərvətinə mühüm töhfədir. Azərbaycan son iki onillikdə nəzərəçarpacaq iqtisadi artıma və yoxsulluğun azaldılmasına nail olsa da, insan kapitalının toplanması baxımından regionda geri qalır. Bu tədqiqat işi Azərbaycanın insan kapitalının inkişafı sahəsində irəliləyişlərini qiymətləndirmək və artımın sürətləndirilməsi imkanlarını müəyyən etmək məqsədi daşıyır.

Bu göstəricilər göstərir ki, bu göstəricilərə malik müəssisələri digərlərinə nisbətən daha uzun müddət və daha dayanıqlı fəaliyyət göstərə bilirlər. Bu tədqiqat işində Azərbaycan sənayesi və xidmət sektorunda insan kapitalının stimullaşdırılması mexanizmləri qiymətləndirilmişdir. O cümlədən Milli brendlərin yaradılmasında insan kapitalının inkişafına kömək edə biləcək aparıcı göstəricilər müəyyən edilib.

**Açar sözlər:** İnsan kapitalı, milli brend, iqtisadi inkişaf

## Summary

The greater the surplus value created by human society, the greater the profitability of capital, so the profitability of capital must also be increased.Investment in human capital is recognized as the most effective and profitable social investment in developed countries. Human capital is one of the most important factors that increase economic potential and overall growth. The growing importance of human capital in ensuring economic development makes it necessary to study it. With the development and change of society, the range of qualitative elements that make up human capital expands, including characteristics such as citizenship, political-legal culture, education, spirituality and education, health and cultural level.

Human capital is the knowledge, skills, and health that people accumulate throughout their lives and that enable them to realize their potential as productive members of society, contributing significantly to the wealth of all nations, regardless of income status. Although Azerbaijan has achieved huge economic enlargement and poverty decrement in the last two decades, it lags behind the region in terms of human capital assembling. This study aims to assess Azerbaijan’s progress in the field of human resources development and identify opportunities to accelerate growth.

These indicators show that enterprises with these indicators can operate for a longer period of time and more stably than others. In this study, the mechanisms of stimulating human capital in the Azerbaijani industry were evaluated. Among them, the leading indicators that can help the development of human capital in the creation of national brands have been determined.

**Keywords**: Human capital, national brand, economic development

## Giriş

İnsan kapitalı hər bir cəmiyyətin və ölkənin əsas inkişaf meyarlarından biri olmaqla yanaşı, ölkələrin beynəlxalq sahədə əsas silahıdır. Son illərdə Azərbaycanda insan kapitalının inkişafının təmin edilməsi sahəsində görülən işlər ölkə daxilində bir sıra əhəmiyyətli sahələr üzrə səriştəli və peşəkar mütəxəssislərin yetişdirilməsinə vasitə olmuşdur. Neft kapitalının insan kapitalına çevrilməsi prosesində müstəqilliyi əldə etdikdən sonra ölkə kontekstində bir sıra layihələr və proqramlara imza atılmışdır. Azərbaycanın müstəqillik qazanması, qərbə doğru inteqrasiya etməsi, milli təşkilatların transmilli təşkilatlara çevrilməsi, xarici təşkilatların ölkə bazarına daxil olması nəticəsində insan resurslarının əhəmiyyəti artmış və yaranmış iqtisadi mühit rəqabəti stimullaşdırmışdır. Bu isə öz növbəsində rəqabətə davamlı üstünlüyün əldə edilməsi məqsədilə insan resurslarından səmərəli şəkildə istifadə etmək zərurətini yaratmışdır (Abbasəliyeva, 2017).

Ölkədə son 2012-2017-ci illərdə beynəlxalq tədbirlərin ard-arda keçirilməsi, insan resurslarının fərqli istiqamətlərdə səriştələrinin formalaşmasına səbəb olmuşdur. Belə ki, 2012-ci ildə ölkədə ilk dəfə qalib olduğumuz Eurovizyon yarışmasının keçirilməsi, könüllülük prinsiplərinin və könüllülər ordusunun yaranmasına səbəb olmuşdur. Könüllülər ordusunun formalaşdırılması, gənc və universitet tələbələrinin onlara gələcəkdə lazımi olan bir sıra səriştələrə yiyələnməsinə səbəb oldu  Belə ki, oxuduğu dönəmdə tələbələr bu kimi layihədə iştirak etməklə analitik, problem həlletmə, zamanın idarəedilməsi, təqdimat və ünsiyyət bacarığı, təşkilatçılıq, komanda işi və komanda lideri kimi səriştəliklərə sahib oldular. Bu kimi səriştəliklərin tələbələrə aşılanması onları gələcək karyeralarında və həmçinin Azərbaycanın keçirəcəyi müxtəlif tədbirlərdə artıq daha rahat şəkildə cəlb edilməsi və təcrübəli kimi tədbirləri keçirməsində böyük rol oynamışdır.

## Analiz

İnsan resurslarının idarəedilməsi özünəməxsus bir inkişaf dövrü keçmişdir. Əsasən 1970-80-ci illərdə ortaya çıxan idarəetmə sistemi hazırda dünyada bir çox təşkilatlar tərəfindən tətbiq edilməyə başlamışdır. İnsan resurslarının əsas qayəsi işçilərin rifah halını və motivasiyasını təmin etməklə, onların hədəfləri ilə təşkilatın biznes hədəflərinin eyni olmasını təmin edərək təşkilatda səmərəliliyin yüksəldilməsinə nail olmaqdır (Akın, 2010). Bundan 20-30 il əvvəl, təşkilatlarda işçilər yalnız iş və əmək haqqı mənbəyi kimi təqdim edilirdisə, bu gün aparıcı təşkilatlar öz işçilərini təşkilatın əsas resursu hesab edir və işçilərə sərmayə qoymağı özlərinə borc bilirlər.

Bununla, işçilərin inkişafına nail olaraq, təşkilatın səmərəliliyinin yüksəldilməsini təmin edirlər. Hər bir elmin özünün proqress dövrü olduğu kimi insan resurslarının ortaya çıxmasına da müəyyən elmi nailiyyətlər səbəb olmuşdur. Elmi menecmentin banisi hesab edilən Frederick Taylor, 1900-cü illərin əvvəllərində kadrların funksiyasının inkişaf etdirilməsində əhəmiyyətli rol oynamışdır (İsgəndərov,Şixəliyev,Əsgər, 2017).

Özünün "Ticarət menecmenti" kitabında Taylor işçilərin seçimi və təlimləndirilməsinə "elmi" cəhətdən yanaşmanın təbliği ilə bərabər, o, həmçinin qoyulan hədəfləri keçən işçilərin mükafatlandırılmasını da təşviq etdirmişdir. Baxmayaraq ki, Taylorun əsas məqsədi istehsal sahəsində səmərəliliyin artmasına yönəlmişdir, bu öz növbəsində İRM-in inkişafına səbəb olmuşdur. Taylor elmi menecment sahəsini inkişaf etdirdiyi dövrdə, artıq psixologiyanın cəlb etmə, seçim və işçilərin təlimlən- dirilməsində istifadə edilməsi dövrü başlanmışdır (İsgəndərov et al, 2017).

Ümumilikdə İRM-in inkişaf mərhələlərini qısaca olaraq aşağıdakı şəkildə göstərmək olar:

**1890-1910:** Frederick Taylor elmi menecment sahəsində öz ideyalarını formalaşdırır. Taylor işçilərin kvalifikasiyalarına görə seçilməsi və iş yerində motivasiyanın yüksəlməsi üçün kompensasiyanın verilməsini təbliğ edir. Taylorun prinsiplərini aşağıdakılar olaraq göstərmək olar:

- ✓ Əl işi metodlarını elmi metodlar ilə əvəzləmək
- ✓ İşçiləri başabaş buraxıb özlərinin təlimlənməsi və öyrənməsini gözləməkdənsə onları elmi əsaslanaraq seçmək, təlimləndirmək və inkişaf etdirmək
- ✓ İşçini hər bir işi il bağlı konkret məlumatlandırmaq
- ✓ İşi menecerlər ilə fəhlələr (və ya aşağı dərəcəli işçilər) arasında bərabər bölmək. Menecerlər planlaşdırır, işçilər icra edir prinsipinin tətbiq edilməsi.

**1910-1930:** Bir çox təşkilatlar işçilərin rifah halının yüksəlməsini təmin etmək üçün şöbələr formalaşdırır. Sənaye psixologiyası fənni inkişaf etməyə başlayır. Sənaye psixologiyası, 1-ci dünya müharibəsinin də səbəb olması ilə test və seçimlərin həyata keçirilməsinə təkan verir.

**1930-1945:** Hawthorne araşdırmalarının menecment düşüncələri və praktikaları üzərində təsiri formalaşır. İşçilərin səmərəliliyinə təsir edən iş yerlərinin sosial və qeyri-formal as- pektlərinə daha çox fikir verilməyə başlayır. İşçilərin məmnunluğunun artırılmasının onların səmərəliliyinə təsir etməsi anlayışı formalaşır.

**1945-1965:** 1935-50-ci illərdə həmkarlar ittifaqlarına sürətli şəkildə qoşulmalar kollektiv şikayət və işçilərlə əlaqələrin formalaşmasına səbəb olmuşdur. Həmkarlar ittifaqları işçilərin tətil, bayram, sığorta, kompensasiya və digər imtiyazları əldə etmələri üçün hərəkət edirdilər.

**1965-1985:** ABŞ-da vətəndaş hüquqları uğrunda hərəkat 1964-cü ildə vətəndaş hüquqları aktının formalaşması ilə nəticələndi. Bu da öz növbəsində irq, cins, din və milli etniklərin diskriminasiyasının qarşısını almaq üçün nəzərdə tutulurdu. Növbəti illərdə bərabər iş imkanları İRM-in əsas vəzifə və öhdəlikləri sırasına keçdi.

**1985-indiki dövr:** Üç əsas trend, İRM-ə kəskin şəkildə təsir etdi. İlk növbədə işçi qüvvəsinin formalaşmasında müxtəliflik amilinin yüksəlməsi oldu. Müxtəliflik amilinə diqqət yetirilməsi yaş, cins, irq və etnik qruplar arasında fərq qoymamaq idi. Bununla da müxtəlifliyin idarəedilməsi anlayışı formalaşdı. İkinci trend biznesin, işin qloballaşması və texnoloji inqilabın yaranmasıdır. Qeyd olunan göstəricilər əmək bazarında,nəqliyyat və kommunikasiya sahəsində ciddi dəyişikliklərə səbəb oldu. Üçüncü trend ilk iki trend ilə əlaqəli olmaqla, strateji funksiya olaraq İRM-ə fokus olur. Sürətli dəyişikliklər, intensiv rəqabət və artan məhsuldarlıqla rəqabət aparmaq üçün İRM konseptinin ümumi strateji planlaşdırılma ilə inteqrasiyası həyata keçirilir (İsgəndərov et al, 2017).

İqtisadiyyatın davamlı inkişafında insan kapitalının payı daha yaxşı başa düşdükcə onun öyrənilməsi zərurəti getdikcə aktuallaşır, bu sahədə aparılan tədqiqatların həcmi və intensivliyi artır. Bu nöqteyi nəzərdən son zamanlarda insan kapitalının inkişafı ilə bağlı araşdırmalar çoxalmışdır. Köklü iqtisadi və siyasi dəyişikliklər şəraitində insan kapitalının inkişafı və bu kapitaldan səmərəli istifadə böyük əhəmiyyət kəsb edir. Çünki burada məqsəd ictimai proseslərin inkişafına təsir edən amilləri araşdırmaq, bütün mümkün sosial nəticələrin həll olunma vəziyyətini dövlət səviyyəsində qiymətləndirən prosesin inkişaf tendensiyalarına fəal təsir göstərməkdir. Başqa sözlə, insan kapitalının inkişafı və səmərəli istifadəsi dövlətin fəal siyasətinin mühüm istiqamətlərindən biridir(Bontis, 1999).

İnsan kapitalı istehsal sferasının vacib dayanıqlığının təmin olunmasının əsas qüvvəsidir, ictimai təkrar istehsal isə məhsul istehsalının yenidən başlanması və daha geniş milli iqtisadi baxımdan kapitalın özünün təkrar istehsalıdır(Akın, 2010). Bu cəhətlər həmişə iqtisadi nəzəriyyəçilərin maraq mərkəzində öz

mövqeyini almışdır. Adam Smit yazırdı ki, "faydalı əməyin məhsuldarlığının artması, ilk növbədə, fəhlənin çevikliyinin və bacarığının təkmilləşdirilməsindən, ikincisi isə onun istifadə etdiyi maşın və alətlərin təkmilləşdirilməsindən asılıdır". Smit belə hesab edirdi ki, ilkin resurslar maşın və digər avadanlıqlar, binalar, torpaqlar və "əhali və cəmiyyət üzvlərindən əldə edilmiş faydalı bacarıqlardır". O qeyd edib ki, "belə bacarıqlara yiyələnmək bacarıq sahibinin təhsili, təlimi və ya şagirdliyi zamanı müəyyən xərc tələb edir ki, bu da müəyyən mənada onun şəxsiyyətini reallaşdıran əsas kapitalı təmsil edir". Bu bacarıqlar müəyyən bir insanın dəyərinin bir hissəsidir və onun mənsub olduğu cəmiyyətin sərvətinə çevrilir. İnsan inkişafı mürəkkəb sistemdir və bu inkişaf ilk növbədə ümumi sosial yüksəlişə əsaslanır. Məlumdur ki, insanlarda üç vacib faktoru həyata keçirmədən tərəqqi və ya inkişaf mümkün deyilidir. Bu məqsədlər arasında uzun və sağlam həyat, biliklərə malik olmaq, biliklərin yenilənməsi və genişləndirilməsi, eləcə də yüksək həyat səviyyəsini təmin edən maddi nemətlərin əldə edilməsi yer alır.Fiziki kapitalın inkişaf strategiyasından fərqli olaraq, insan kapitalı dünyada formalaşır.İnsan kapitalı ilə fiziki kapital arasındakı analogiya belədir: 1) investisiya ilə mənfəət arasında vaxt fərqi var; 2) müəyyən müddət ərzində müavinətlər. Bununla belə, fiziki kapitaldan onunla fərqlənir ki, adi mənimsəmə qaydaları və istehlakçı muxtariyyəti tətbiq edilmir, halbuki istehlakçı mal ala və ya ona sahib ola bilməz. Təyinatla insan kapitalı fərddə təcəssüm olunur, onun xidmətləri bazarda satıla bilər, amma reallıqda insan kapitalına sahiblik qul halından başqa satıla və ya başqasına verilə bilməz. İnsan kapitalı istər biznes fəaliyyəti prosesində, istərsə də ondan kənar tətbiq və təcrübə ilə formal və qeyri-rəsmi təhsillə gücləndirilir, lakin istifadə edilmədikdə insan kapitalı da dəyərsizləşməyə meyllidir. Bəzi hallar zaman keçdikcə yox olur və müəyyən yaşdan sonra insan kapitalında müşahidə olunan azalmanı zəhmət az da olsa izah edə bilir. Buna görə də insan kapitalı fərd tərəfindən əldə edilən oxşar və davamlı vərdişlər və biliklər toplusu kimi əbədi olaraq müəyyən edilə bilməz. İnsan kapitalına aid edilən əsas bilik və şəxsi keyfiyyətlərdən bəziləri aşağıdakı kimi strukturlaşdırıla bilər:

1. Ünsiyyət
- ✓ söhbəti dərk etmək
- ✓ danışmaq qabiliyyəti
- ✓ göndərilən poçtlar.

2. Hesablama.
3. Şəxsiyyətdaxili situasiyalar:
- ✓ motiv
- ✓ öyrəndiyini öyrətmək
- ✓ tənzimlənən strategiyaların olması
- ✓ etik dəyərlərin qeyd olunan cəmiyyət əsasında nəticəyə meyilliliyi

4. Şəxsiyyətlərarası vərdişlər:
- ✓ komanda təşkili və işi
- ✓ lider olmaq bacarığı

5. Digər vərdişlər və xarakteristikalar (bəziləri yuxarıda göstərilənlərə aiddir)
- ✓ informasiya və kompüter texnologiyalarının tətbiqi
- ✓ kəşf olunmayan bilik
- ✓ problemi həll etmək bacarığı
- ✓ fiziki keyfiyyət göstəricisi

**İnsan resurslarının inkişaf etdirilməsi**

İnsan resurslarının inkişafının (İRİ) əsas məqsədi təşkilatda mövcud olan insan resurslarının təşkilatın əsas kapitalı olduğunu qəbul edərək onların inkişaf etdirilməsini təmin etməkdir. İRİ-nin əsas məqsədi təşkilatda intellektual kapitalın formalaşdırılması, təşkilatı, fərdi və komanda şəklində öyrənmə mühitinin yaradılmasıdır. İRİ strateji və biznesə yönümlü olsa belə, fərdlərin əsas ehtiyaclarını ödəməyə istiqamətlənmişdir.

Ümumilikdə insan resurslarının idarə edilməsində və xüsusilə də fəaliyyətin qiymətləndirilməsində mühüm məsələlərdən biri işçilərin performans göstəricilərinin ölçülməsindən sonra əldə edilən nəticələrin digər sistemlərdə istifadə edilməsi və bununla da sistemlər arasında üfüqi inteqrasiyanın təmin edilməsidir. Bu sistemlərin hər birinin səmərəliliyinin artırılmasına xidmət etməklə yanaşı, təşkilatda insan resurslarının idarə edilməsi funksiyasının dəyərini də artıracaqdır (Töre, 2018). Dünyada daha çox fiziki kapital toplandıqca, məktəbə getməyin fürsət dəyəri azaldı. Təhsil işçi qüvvəsinin getdikcə daha vacib komponentinə çevrildi. Bu termin həm də korporativ maliyyə tərəfindən qəbul edilmiş və intellektual kapitalın, daha geniş mənada isə insan kapitalının bir hissəsi olmuşdur. İntellektual və insan kapitalı məhsuldarlığın bərpa olunan mənbələri kimi qəbul edilir. Təşkilatlar əlavə yenilik və ya yaradıcılıq ümidi ilə bu mənbələri inkişaf etdirməyə çalışırlar. Bəzən bir iş problemi yalnız yeni maşın və ya daha çox pul əldə etmək deyil.Bir çox təşkilatlarda insan kapitalının gözlənilən dövr müddətində işdə qalmaması əsas problemlərdən biridir.

**Qrafik 1: İnsan resurslarının idarə edilməsinin komponentləri**




**Mənbə: (İsgəndərov et al, 2017)**

## Öyrənmə və inkişaf prosesi

CİPD (2001) tərəfindən öyrənmə və inkişaf aşağıdakı şəkildə təyin edilmişdir: "Təşkilatın işçiləri inkişaf etdirmək prosesi tədrisin və inkişaf proseslərinin inteqrasiyası, əməliyyatı və əlaqələndirilməsini əhatə edir. Bunun təşkilat biznesinə ən böyük təsiri effektivliyin yüksəldilməsi və davamlılığın təmin edilməsidir. Fərdlər üçün onların səriştələrinin inkişafı adaptasiyasının və məşğulluğunun təmin

edilməsinə töhfə verir. Bu səbəbdən qeyri-kommersiya və kommersiya təşkilatları üçün öyrənmə və inkişaf böyük əhəmiyyət kəsb edir.”

Armstrong (2006) İRİ-nin əsas priorititetlərini aşağıdakı şəkildə sıralamışdır: Davamlı inkişafı təmin edən öyrənmə mühiti formalaşdırır;

- ✓ Biliyin formalaşmasına səbəb olan menecerlərin səriştələrini inkişaf etdirir;
- ✓ Öyrənmə mühitini bütün təşkilat boyu yayır;
- ✓ Təşkilatın sadəcə əsas işçi və ya yuxarı rəhbərliyə deyil, bütün işçilərinə fokus olur;
- ✓ Biliyin yayılmasını və formalaşmasını e-tədris vasitəsilə təmin edir.

**Azərbaycanda insan kapitalının formalaşdırılmasının mövcud vəziyyəti**

Bu gün insan kapitalını formalaşmasını nəzərdən keçirərkən hər bir doğulan uşağın yetkinlik yaşına kimi sağlamlıq və təhsil trayektoriyasını, uşağın beş yaşına qədər yaşamaması riskini nəzərə almalıyıq. Əgər o, məktəb yaşına çatsa belə, o, məktəbə başlamaya və ya zəngin ölkələrdə normal olan 14 illik dövrü tamamlamaya bilər. Əgər o, az yaşlı dövründə və ya yetkinlikdə yaxşı qidalanmazsa, beyni öyrənmə və yaradıcılığı inkişaf etdirmək üçün kifayət qədər inkişaf edə bilməz. Qavramış olduğu təcrübələrdən asılı olaraq, məktəbdə fəaliyyət olduğu dövr,əmək bazarında davamlı və rəqabətqabiliyyətli olmaq üçün ona lazım olan bilik və bacarıqlara çevrilə və ya çevrilməyə bilər. 18 yaşına qədər o, uşaqlıq dövründəki zəif sağlamlıq və öyrənmə təcrübələrinin uzunmüddətli təsirlərindən əziyyət çəkə bilər ki, bu da böyüklər kimi fiziki və əqli qabiliyyətlərini məhdudlaşdıracaq. İnsan Kapitalı İndeksi (İKİ) hər bir ölkədə sağlamlıq və təhsilin bu trayektoriyasını və konkret əhali qruplarının gələcək məhsuldarlığına təsirlərini qiymətləndirmək üçün hazırlanmışdır (Abbasəliyeva, 2017).

Aşağıdakı cədvəldə İKİ və onun komponentləri üzrə statistik göstəricilər qeyd olunub. Ümumiyyətlə, insan kapitalının formalaşmasında müəyyən çatışmazlıqlar var. Bu problemlər üzündən bu gün Azərbaycanda doğulan uşaq tam sağlam və tam təhsilli böyüyərsə, 60% məhsuldar olar.Bu boşluqlar əsasən təlim nəticələrində zəif performansla bağlıdır. Uşaqlar 11 illik məktəb təhsilinin 8,6-sını tamamlayır və ümumi imtahanda 625 baldan orta hesabla 472 bal toplayırlar ki, bu da yüksək nailiyyətləri əks etdirir. Uşaqlar üçün sağlamlıq nəticələri nisbətən yaxşıdır. Bununla belə, 5 yaşdan kiçik uşaqların təxminən 20 faizinin boyunun inkişaf etməməsi təhlükəsi var. Uşaqlıq dövründən yeniyetmə dövrünə keçid zamanda 16 yaşlıların 85%-i 65 yaşa qədər yaşaya bilir.

**Cədvəl 1**: **Azərbaycanda İnsan Kapitalının Formalaşdırılması Vəziyyəti.**

| | |
|---|---|
|   | **İnsan Kapitalı İndeksi.** Bu gün Azərbaycanda doğulan uşaqlar tam təhsil və tam sağlamlıqdan faydalanacaqları halda **60 faiz** məhsuldar olacaq. |
|   | **5 yaşa qədər yaşamanın mümkünlüyü.** Azərbaycanda doğulan 100 uşaqdan **98** - i 5 yaşa qədər yaşaya biləcək. |
|   | **Gözlənilən məktəb təhsili illəri.** Azərbaycanda 4 yaşında məktəbə başlayan uşaq **11,6 il** müddətli məktəbi 18 yaşına qədər bitirə bilər. |
|   | **Ümumi yoxlama balları.** Azərbaycanda şagirdlər şkalada **472** balla qiymətləndirilir. Bu şkalada 625 yüksək nailiyyət, 300 isə minimum nailiyyətin göstəricisidir. |
|   | **Məktəb illərinə görə hesablanan öyrənmə.** Uşaqların faktiki öyrəndiklərini götürsək, uşaqların gözlənilən məktəb təhsili müddəti sadəcə **8,8 ildir.** |
|   | **Yaşlanacaqların faizi.** Azərbaycanda 15 yaşlıların **87 faizi** 60 yaşına qədər yaşayacaq. Bu statistika bu gün doğulan uşağın mövcud şəraitdə yaşlandıqda ölümcül və ölümcül olmayan sağlamlıq nəticələrinin qiymətləndirilməsi üçün vasitədir. |
|   | **5yaşdan aşağı uşaqlar arasında alçaq boylu olmama faizi.** 100 uşaqdan **82** -i alçaq boylu deyil. 100 uşaqdan **18** - i alçaq boyludur və ömrü boyunca davam edə biləcək əqli və fiziki məhdudiyyət riski altındadır. |

**Mənbə: (Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, 2020)**

Azərbaycanın əhalisi əsasən türk və müsəlmanlardan ibarət, dünyəvi ölkədir. O, Cənubi Qafqaz regionunda yerləşir və Xəzər dənizi (şərqdə), İran(cənub), Rusiya(şimal) və Gürcüstanla(qərb) həmsərhəddir. Ölkə 86,600 kvadrat kilometr ərazini əhatə edir və təxminən 10,2 milyon nəfər əhalisi var. Əhali tədricən artır (illik artım tempi 2018-ci ildə 0,9 faiz təşkil edib). Əhalinin təxminən 56%-i paytaxt Bakıda və ətraf şəhərlərdə yaşayır. Bakının əhalisi 2,3 milyon nəfərdir. Ölkənin qalan hissəsində əhali azdır və qeyri-bərabər paylanır. Azərbaycan inzibati cəhətdən 66 rayon və 11 şəhərdən ibarətdir (BYİB, 2020).

1991-ci ildə keçmiş Sovet İttifaqından ayrılaraq müstəqillik əldə etdikdən sonra, Azərbaycan yoxsulluğun səviyyəsini əhəmiyyətli dərəcədə azaltmağa nail oldu. Neft və qaz hasilatından əldə olunan gəlirləri ölkənin infrastrukturunun inkişafına yönəltdi. Ölkənin qeyri-neft iqtisadiyyatının şaxələndirilməsi istiqamətində islahatlar aparılır və dövlət institutlarında, xüsusən də təhsil və səhiyyə sektorunda və məhkəmə sistemində zəif cəhətləri aradan qaldırmaq üçün əlavə islahatlara ehtiyac var.

Son illərdə Azərbaycanda müəllimlər, beynəlxalq təcrübəyə uyğun olaraq onların peşəkarlığının artırılması, o cümlədən modul kredit sisteminin tətbiqi və ümumtəhsil müəllimlərinin müqaviməti ilə hazırlığın azaldılması istiqamətində sistemli tədbirlər həyata keçirilmişdir. Eyni zamanda müəllimlərin işə qəbulunda şəffaf və obyektiv müsabiqə mexanizmi tətbiq edilib.

**İnsan kapitalının formalaşmasında təhsilin rolu**

Azərbaycanın davamlı iqtisadi tərəqqisinin mühüm faktorlarından biri də insan kapitalının və bütövlükdə insan potensialının effektivliyinin artırılmasıdır. İqtisadi artım göstəricisi innovativ təşkil olunmuş proseslərinin davamlı effektivliyinin artması ilə müəyyən edilir ki, bu da öz növbəsində bir sıra amillərdən asılıdır. Bu amillərə elm və texnologiyanın prioritet sahələrinin inkişafı, şirkət və təşkilatların bütün səviyyələrində işçilərin innovativ yönümlü olması, rəqabətqabiliyyətli və mütərəqqi alətlərdən istifadə edilməsi və s. daxildir. Hazırda elmi nöqteyi-nəzərdən daha populyar olan insan kapitalı cəmiyyətin ən qiymətli sərvəti, hətta təbii sərvətlərdən, sərvətlərdən də önəmlidir(Teymurova, 2016). İnsan kapitalının inkişafında təhsil sistemi aparıcı paya sahibdir. Bu gün əmək bazarında təsərrüfat təşkilatının

uğur qazanması, ölkənin iqtisadi yüksəlişi, elmi-texniki potensialın yüksəldilməsi baxımından təhsil mühüm amildir. Bu yolla insanların həyatda qazandıqları uğurları təhsillə əlaqələndirmək olar. Ölkəmizdə ali və orta təhsillilərin, eləcə də xaricdən məzun olanların sayının ildən-ilə artmasının səbəbi də budur. Bu artım gənc nəslin peşəkar yüksəlişindən və yüksək təhsilindən xəbər verir. Şübhəsiz ki, təhsilin keyfiyyəti bizim milli perspektivlərimizə birbaşa təsir edir.

Peşə təhsili infrastrukturunun və kurikulumunun müasirləşdirilməsi istiqamətində də addımlar atılıb. Ölkədə son illər həyata keçirilən ən mühüm islahatlardan biri ali təhsilin yeni maliyyələşdirmə mexanizminə keçid olmuşdur ki, bu da o deməkdir ki, ali təhsil müəssisələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi dövlət büdcəsindən ali təhsil müəssisələrinə əsaslanacaqdır. Eyni zamanda, xüsusilə həssas qrupların ali təhsilə çıxış imkanlarını artırmaq üçün təqaüd və tələbə krediti proqramları təşkil edilib. Prezidentin sərəncamına əsasən, ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasına dair 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramı ali təhsilin keyfiyyətinin və innovasiyaların və bu sahədə beynəlxalq rəqabət qabiliyyətinin artırılmasına yönəlib.

Azərbaycanda təhsil sektorunda çalışanların sayına gəldikdə isə 2014-2015-ci illərdə dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində professor-müəllim heyətinin sayı 15023 nəfər olmuşdur. Onlardan 1166 nəfər elmlər doktoru, 5828 nəfər isə fəlsəfə doktorudur. 2015-2016-cı illərdə isə professor-müəllim heyətinin sayı 14550, elmlər doktorlarının - 1229, fəlsəfə doktorlarının sayı isə 5957 nəfər olmuşdur. Müəllim və professor heyətinin ümumi sayında azalma müşahidə olunsa da, elmi dərəcə ilə fərqlənənlərin sayı isə keçmiş illə müqayisədə 192 nəfər, yəni 2,7 % artmışdır. Bu onu göstərir ki, xalqımızın elmi potensialı həmişə olub və bundan sonra da bu proses davam edib qüvvətlənəcəkdir, yəni elmə olan maraq qabarır. Bu da elm sahəsinə yönəlmiş diqqət və qayğıdan irəli gəlir. Prezidentimiz cənab İlham Əliyevin Fərmanı ilə qəbul edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin başlıca istiqamətlərində" insan kapitalının inkişafına dair bölmənin əks olunması buna bariz nümunədir (Teymurova, 2016).
Cəmiyyətin inkişafının müasir mərhələsində təhsil – insan, cəmiyyət və bütövlükdə dünya üçün mühüm, müəyyənedici bir amildir. İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da gəlirlərin səviyyəsi və bütün həyatı boyu əldə olunan təhsil arasında güclü əlaqə vardır. Təsadüfi deyil ki, BMT tərəfindən tərtib edilmiş "İnsanın inkişaf indeksi"nin hesablanmasında məhz təhsil səviyyəsi göstəricisi önəmli yer tutur. Buna görə də insan kapitalının formalaşmasının araşdırılması xüsusi əhəmiyyət kəsb edir (Abbasəliyeva, 2017).
İnsan kapitalının formalaşması bilavasitə ev təsərrüfatları, müəssisələr və dövlət tərəfindən həyata keçirilir. Bu vəzifəni həll edərkən təhsil almadan fayda əldə etməni müəyyən təhsilə çəkilən xərclərlə müqayisə edirlər. Aydındır ki, təhsilin davam etməsinin əsas iqtisadi arqumenti gələcəkdə istehsal gücünün və əməkhaqqının artımının gözlənilməsidir. Digər bərabər şəraitdə təhsilli işçi daha böyük insan kapitalına malikdir və müvafiq olaraq, daha çox əməkhaqqı əldə edir.
İnsan kapitalının modeli onu göstərir ki, həyatı boyu məcmu faydalılığının maksimumlaşdırılması o zaman əldə olunur ki, hər bir fərd gənclik dövrünə ən böyük investisiya qoyuluşlarını həyata keçirir, çünki insan ömrünün son müddətində qoyulan investisiyalar daha çox gəlir gətirmək imkanına malik deyildir (Duygu,Burcu, 2020). İnsan kapitalının təhlili təhsildən əldə olunan gəlir norması anlayışının istifadəsi ilə həyata keçirilir. Təhsildən əldə olunan gəlir norması təhsilə qoyuluşlardan gələcək faydaların və onlarla bağlı xərclərin məbləğini bərabərləşdirən diskont dərəcədir. İnsan kapitalının gəlir norması bilik və bacarıqlara qoyulan investisiyaların iqtisadi cəlbediciliyini xarakterizə edir. Bununla

yanaşı, gəlir norması təhsilin müxtəlif növ və səviyyələri, eləcə də təhsil sistemi və iqtisadiyyatın digər sahələri arasında investisiyaların paylanmasının tənzimləyici vasitəsidir.
İnsan kapitalı müəyyən keyfiyyət və kəmiyyət xarakteristikalarını özündə birləşdirir və onun mühüm meyarlarından biri ümumi və xüsusi hazırlıq səviyyəsidir. Bu meyar işçi qüvvəsinin ixtisas xüsusiyyətini aşkar etməyə və onların iqtisadi artıma təsirini müəyyən etməyə imkan verir.
Azərbaycanda müəyyən mənada böyük və ildən-ilə yığılmış insan kapitalı vardır. Məsələn, 2015-ci ilin seçmə müayinəsinin yekunlarına nəzər salsaq, görərik ki, məşğul əhalinin 16,3% ali təhsillidir, 10,6% orta ixtisas təhsilli, 5,5% peşə təhsilli, 60,4% orta təhsilli, 6,3 % əsas təhsilli, 0,9% ibtidai təhsillidir.

**Nəticə**

Nəticə etibarı ilə, insan kapitalının inkişaf etdirilməsi nəyinki milli brend, həmçinin bir sıra sahələrdə iqtisadi səmərəliliyin artırılmasında müsbət hal kimi qiymətləndirilir. İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, insan kapitalının inkişafı iqtisadiyyatın yaxın və uzaq gələcəkdə dinamik və keyfiyyətli inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir (Töre, 2018).İnsan kapitalının yüksək səviyyəsi və keyfiyyəti nəticəsində inkişaf etməkdə olan ölkələr adambaşına düşən ÜDM-in sabit artımını, habelə əhalinin yüksək həyat səviyyəsini və keyfiyyətini təmin edirlər. Beləliklə, biliklərə əsaslanan iqtisadiyyata keçid sivilizasiyanın inkişafında yeni mərhələdir və maddi istehsalın inkişafının keyfiyyətini müəyyən edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək: "İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, onların uğurlarının əsas səbəbi neft və qaz deyil, bilik, təhsil və müasirlikdir. " Bu və təbii sərvətlərimiz var. Bu amillərin sintezi Azərbaycanı müasir və yüksək inkişaf etmiş ölkəyə çevirir. Ümumiyyətlə, demək olar ki, təşkilatın yaxşı işləməsi onun bütün mövcud resurslardan, xüsusən də insan kapitalından daha səmərəli istifadə etmək bacarığından asılıdır. Buna baxmayaraq, insan kapitalının effektivliyinin gücləndirilməsinin üsulları digər resurslardan köklü şəkildə fərqlənir. Beləliklə, bu, insanları həvəsləndirmək və ya onların məqsədlərinə təsir göstərməklə təmin edilir. İntellektual işçilərin motivasiyasının əsası olaraq onu göstərmək olar ki, onların məqsəd və maraqları həm iqtisadi, həm də innovativ məzmun daşıyır (Bontis, 1999). Bacarıqlı işçinin motivasiyası onun səmərəliliyindən, yəni qarşıya qoyulan məqsədə çatmasından asılıdır. Əgər işiniz səmərəli deyilsə, işləmək istəyi və qazanc tezliklə sönəcək. Bu mənada insan kapitalından istifadənin səmərəliliyinin artırılması müasir iqtisadiyyatın prioritet istiqamətinə çevrilməlidir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**


Adnan Akın (2010), İnsan Sermayesi Kaynakları Açısından Girişimci Özellikleri.
Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı / Dünya Bankı , (2020) "Azərbaycanın inkişafının surətləndirilməsi məqsədilə insan kapitalına strateji investisiyaların yatırılması".
Bontis, N. (1999), "Managing Organizational Knowledge by Diagnosing Intellectual. Capital:Framing and advancing the state of the field", International Journal of Technology Management
Dr. Engin Ö (2019) ., Özel marka üretiminde üretici Perakendeci ve bağımlılığının İşbirliği süreç ve performansa Etkileri.
Duygu B. K, Burcu G, (2020) Beşeri Sermayenin Ekonomik Büyümeye Etkisi.
Hakki K. B., (2020) Regional Income Convergence in Turkey: An Empirical Analysis from an Endogenous Growth Perspective, stanbul 29 Mayis University, Department of Economics, Istanbul.
İsrayıl İsgəndərov, Mətləb Əsgər, Nurlan Şixəliyev (2016), İnsan Resursları Menecmenti Monoqrafiya.
Mehtap T (1997) ., Kalkınmada insan sermayesi yaklaşımları.
Müzeyyen Merve Şerifoğlu (2020), The Relatıonshıp Between Human Capıtal And Economıc Growth For Selected Countrıes.

Prof.T.Ə.Quliyev,i.e.n. dos.Ə.İ.Məmmədov (2007),Əməyin iqtisadiyyatı və sosiologiyası.
Psacharopoulos, George, (1994), Returns to Investment in Education: A Global Update , Policy Research
Sayalı Abbasəliyeva (2017) İnsan kapitalının inkişafı, nəzəri aspektləri və qiymətləndirmə metodologiyası
Vüsalə Teymurova (2016), İnsan kapitalının formalaşmasında təhsilin rolu Azərbaycan Dövlət İqtisad Universiteti.

# AI As a Key Tool for Prosperity of Gig Economy

**Murad Rashidov**

**Khazar University, Economics and Business Higher Education Department**

**residov.murad.98@gmail.com**

## Abstract

The research investigates the significance of AI and its main role in Gig economy. The paper plans to clarify how AI impacts Gig economy and let the Gig to be in the mainstream inside modern economy. AI has a superior power and is considered virtuous nowadays due to connecting people with the help of apps or platforms. The main purpose is to mention possibilities of AI on practice and introduce more advanced systems that cover various types of employment conditions. Furthermore, Covid-19 was a great lesson to rethink about structures about standard employment contracts and make AI involve to the heart of economy. Also, AI helps to unify people with micro or macro skills to work together and close a huge gap between employees for the synergy of the team. In the last part, the author describes the Gig with the system of promotion and incentive to be improved and to have updated skills to use benefit of technology. The future is with AI and Gig, each one of them is something to make anyone brainstorm, both together are the boss of future economy and integration of these two is a great innovation.

**Keywords:** AI, Gig economy, synergy, technology

## Introduction

The Gig economy is a combination of flexible, short-period or freelance jobs which create an opportunity to unite users and costumers through a digital platform. The main feature of Gig is to remove uncertainties, unpredictable situation and precariousness, also build healthy and strong system (Woodcock, 2020). The Gig economy creates updated employment rights and day by day possibilities are enlarged (Crouch, 2019). An online platform performs a company role and makes it possible for interaction of people even without seeing one another with the minimum level of risk about conflicts (OECD, 2021). Focus on workplaces are about to improve your own skills and adapt to company culture, system and to be an effective, efficient player through structure. Main aim in this research is to investigate Gig's appropriateness to AI.

Till today, there are still some hesitations about future perspectives of Gig economy. However, recent economy is very rich and open to new prospects that enlarges economy. There are some statistics make everyone think twice:

– Growing speed of Gig economy is triple times of US total employees.

– Estimation of experts says that till 2027 half of whole workforce of US will involve to the Gig economy (Forbes, 2021).

Prosperity of Gig economy is a sign to the world that stable, standard job status is old fashioned method for some people who has their own preference as working hours, for what or which boss to work and belief to on demand, urgent, certain desire of consumers. There is not any limit in its geographical border for delivery or freelance writing professionals, designers can have an order even from different countries and gain money. Supply and demand are very proportional to each other, to rule it is very easy while considering their interaction, withal taxation is more effective with this income (OECD, 2019).

**AI in practice and its implementation in Gig economy**

Artificial intelligence is an enormous factor to replace deteriorated and unsuitable jobs for humanity which are cost increasing and unnecessary, also it promotes jobs that is useful for automated work and human factor is more crucial than ever before. The result cannot be happened or formulated by its own, a person should involve to shape the structure, rule whole system step by step and make final interactions, then check final result and do right thing with good timing skills. The system for drivers, for example in UBER it helps taxi drivers to find people to use their services, however final touches are done by humans, although social bot can be a solution to reduce needless relationship between drivers and users till their meet, but at last drivers in a car remain still with consumers. Additionally, urgent cases require human control over the system, so AI does not create unemployment, it fastens the process and makes other extra costs at minimum level by operating and connecting people from beginning to an end.

**AI as a role of HR in the process of recruiting**

Nowadays, for a lot of companies, turnover is considered a problem because of onboarding costs or losing talented, practiced professionals and probability of creating chance for your rivals to use them. AI is a great machine which helps organizations to detect the right job for every person with the help of platforms. That is called correct interpretation of data wisely and matching a worker with their related skills to suitable places. The most astonishing part is that, all of these happen inside the platform and most interestingly here worker's preferences are dominant while choosing their job or their own boss. Only a few steps are consisted of clicking your favorite field and determining your wish by following the rules by reading description and filtering data on your brain to reach your dream job.

The process of automation includes whole economics activities and also covers steps of recruiting process. As an abstract object AI is new HR and in job interviews or online hiring processes that is a great tool make everything to seem very easier and more interesting. Other positive trend about technology is getting rid of repetitive, boring actions and reduce level of uncertainty and unacceptable conditions as bribe or fraud. The pie chart below shows how HR automation process works and how diverse tasks are shared with the help of AI. Employee onboarding is very often seen in jobs, so in their whole tasks, one in five is onboarding, recruiting and HR analytics stands very significant with eighteen percent through procedure. Payroll and benefits calculations are sometimes shared between accounting and HR, it's debatable to relate it exactly to one department, however advanced technology helps HR to implement it to their system, fourteen percentage of HR tasks automated with this, thirteen percent of automations are including to automation system that is offboarding employees which is extremely boring and error prone. Employee experience is computed by HR department and one out of ten automations are about that, only seven percentage of automated system is considered suitable for performance and development. This is not simple as seen, that let both companies and workers to enjoy opportunities of great technology, it allows newly hired people to join team very easy, support reach staff and recognize members, also supplement all necessary data and news. Payroll or bonus system is now more error free and employees can see hoe they collected their points and how they were evaluated. Size of business does not matter, the more important thing is to maintain transparency, to build good leadership and managerial skills and apply them into the court and with more correct, reliable system workers feel more united and believe organizations, being part of a workplace means more than an employee and they are keen to improve themselves now more than ever, so in their results that impacts their statistics.

**Figure 1: US top 5 Gig economy works**




Source: WORKATO, https://www.workato.com/the-connector/hr-automation-trends/ (2022)

## Performance evaluation process and diversity of Gig

AI is a tool that makes it easier to recognize employees and value them, the most important thing is not to meet with them regularly and try to build an emotional tie with employees. For professionals, company values are in the first place and individuals are a part of it, the aim is to be successful for given tasks. That is now clear and fair to get reports, stats of employees and evaluate them by performance without any favoritism or bias. Also, these apps are not only created for judging or define problems, they are very "smart and reliable friend" that suggests good advices to workers to use and experience for a better output. In UK, Gig economy workers transform economy from lots of perspectives, there are nearly 7.25 million engaged in that and develop their abilities for requirements (Balaram, Warden and Wallace-Stephens, 2017). That is not a coincidence 70% of freelancers got their current job through Gig economy related sites or the platforms with same idea and structure. The other statistics show the variety of Gig in US and how it spread over this country below. Those are only top 5 jobs of Gig economy and perfectly competitive with each other. Public sector seems very reliable and preferable for employees who works in gigged works with fourteen percentage and others cover various kind of new job status that cannot be considered as a traditional job and it is twelve percent. Business and professionals are interested in Gig workers in last years, day by day demand to those vacancies are too much and one in ten of people in Gig works for these professionals in their businesses. Furthermore, health and educational services started to use Gig's features on their job, that is very effective way to apply it to those fields, so one out of ten of Gig employees are there. In the manufacturing industry Gig economy is in an increase, for future it is estimated to overcome nine percent.

**Figure 2: US top 5 Gig economy works.**




**Source**: Team Stage, https://teamstage.io/gig-economy-statistics (2023)

**Technology in the character of difference maker with changing structure of work**

To gain a sustainable, secure job is not that easy, there are usually barriers to find and prove yourself in a job place. Technology comes as a rescuer to eliminate risks or to create a condition to help people to focus on their jobs without overthinking. Connection can be seen stable and operative when reducing obsessive human dominance level on the jobs. There is no limit to collaborating with technology, globally high technology let interactions all over the world.

LinkedIn showed that vacancies and job opportunities can be shared and reach more people through a platform, people's reliance on this app is much more than other sites. Employees, who are keen on to work for an extra work in most cases use the benefits of Gig economy. Temporary jobs in the sphere of Gig rose and reach another level, there is a space for unemployed people also with lots of opportunities. The most important point is that works in recent years are based on significant tasks rather than expected fixed jobs. The purpose is calculated for increasing efficiency and get higher result with great concentration and income of those jobs are very close to standard jobs and day by day it closes the gap.

One scarcity about Gig threatens people, mortgages or long-term loans require more stable and fixed income, however the Gig's financial stability is not its best feature. This problem is connected with contracts, more clearly payment for illness or holiday, compensation for special cases which normally given by government are absent. Technologically, alternative solution is about bonuses for performance of workers. Platforms can be constructed with tasks that has a deadline and also review of consumers can be substituted with very short questionaries instead of giving 5 stars. There should be a fixed amount of fulfilling minimum requirement of tasks by employees.

**Monitoring and optimalization process**

Still, some problems are not identified deeply, being a platform worker can demand strict opportunity cost, they are out of advantage of pensions after retirement and unemployment insurance. The other issue is it's very hard being sure about employees' psychological mood while contacting consumers. Some webinars, online consultation cannot be effective as traditional way and to measure and predict worker's acts is not obvious. Cameras for monitoring increases cost, however also increase sustainability of jobs toward people. That does not exactly prevent undesirable situation, but diminishes, also companies can rely on feedbacks of users by managing and controlling. Technology in favor of optimalization is very big plus for better working environment.

**Figure 3: Monitoring and optimalization steps with the help of technology**




Source: compiled by the author based on the information (https://www.broadridge.com/white-paper/the-future-of-operations-your-next-hire-is-digital), (2023)

**More security via AI and its impact on Gig economy**

People's expectation from Gig economy and their conviction to the system has been risen by applying technological innovations, every new feature teaches employees and update their technological knowledge. Future is open for technology and jobs from home, back office or delivery, in all types of work technology is used (Crouch, 2019). A strong firm mines data, analyze it and then apply it to various occupations, that is a sign of platform economy that is currently used for taxi drivers and delivery services. So, technology create in a great number of jobs as it destroys it, deeply high technology "praise" highly skilled people and also open up new possibilities for middle or low skilled ones and gigging is not only used for unemployed people (Mizrahi, 2018). Women are now not only housewife, they are in or outside house a Gig worker and successful enough (Friedman, 2003). Digitalization process is a modern trend that enhance new talents to involve to work and give a power of control in advance to management of organizations (Berg, Ferrer, Harman, Rani and Silberman, 2018).

AI is too fast and efficient during the process of task solution; algorithms are enormous partner to investigate job seekers and find perfect match of those workers with jobs (OECD, 2023). That is a great machine to reduce level of stress and saves time, with minimum effort (Benson, Sojourner and Umarov, 2015). Now, bots are not used for as chatbots, they are able to prepare statements and

arrangements. The most accurate part of AI is about payments, it is calculated for given information and error of excess fee is eliminated. Gig economy is in a positive, growing trend and evolving process require more help of AI, that does not demand too much effort as working the phones in call center (Woodcock, 2017). New jobs create great harmony with technology such as freelancing jobs, content editors, software developers and data analysts take an advantage of massive technology. New platforms outscore extra costs, research, interview and determine (Woodcock, 2020). A task can be done, discussed and evaluated over the world among huge number of people (Yin, Gray, Suri and Vaughan, 2016). Automated process fastens the freelancer's job, connect them with consumers and guarantee their good income, on another hand helps them prioritizing their assignments. Marketing and financial experts or managers can get their statements more correct and follow behavior of customers from their answers inside of the system.

**Figure 4: Companies and their usage of AI in workplaces**




**Source**: ZIPPIA, https://www.zippia.com/advice/artificial-intelligence-statistics/ (09.11.2022)

The pie chart above depicts that one-third of businesses have already applied AI with special use case, one quarter of them used AI in their work process. Approximately one fifth of them hesitate about notion and searching balance, but has a potential to be in. Fourteen per cent of business holders checked AI ideas partially and only seven per cent of them presently do not practice it, however they are interested in probing.

**Figure 5: New opportunities in workplaces**




Source: Workable great disconnect worker survey, https://resources.workable.com/backstage-at-workable/announcing-the-great-discontent-2021-worker-survey (2021)

The picture above depicts which factors make you think about an opportunity for jobs and they are formulated after a survey conducted in US and in the year of 2021 by Workable great disconnect worker in 2021. AI role in workplaces changed people's preferences a little in recent years (Christie & Ward, 2018). The workers in Gig economy feel very satisfied and happy, even if some of their wages are not good enough, they are still in the interest of being part of Gig economy (Amabile, 1983).

Salaries with key benefits still considered as the major factor with 62.2% of great indicator. People are interested in to obtain their motivation from higher salary being evaluated due to their all trials and efforts. Nowadays, some gig works lose the rivalry against standard jobs, but a very special, modernized type of economy should not be in the same level with many times practiced jobs logically, after some time the gap is going to be closed. Career opportunities are very key element being 38.1% of whole and in workplaces in comparison with standard employment contracts The Gig economy's variety and career chance is unlimited and very hopeful.

Then, the strongest factor of Gig economy comes, flexibility in jobs. Working hours, also job preferences and chance for remote is a beneficial fact in Gig, 37.5% of result itself is a reason to think and open up a space for an opportunity for the future. Job security is considered a problem of Gig economy, however with an updating version of its contracts it is going to be more secure. This is also very important variable, 32.1% of people realize its cruciality in their jobs.

Role and responsibility in the jobs are important specially for professional ones, 20.9% of people are also evidence for this category. In Gig economy roles may not be fixed and some well skilled people can feel comfort, others may become and think a little bit unsecure (Callum, 2018). Training and

development are a requirement by people to maintain their dominance on jobs and update their knowledge. 15.6% of people are aware of it, Gig's training and development programs with technological advancements are a sign of quality. Support from companies within the possibility of budget in teams are considered remarkable, Gig's flexibility reduce need to that, 14% of people also considers it very substantial. 11.3% of people wait being emotionally sustainable by the decision of organizations. Gig with its AI support also reduce level of emotional damage with the help of platforms.

## Conclusion

AI let algorithms to be used in domain of businesses and have a capacity supersede skills of humanoid. Nowadays, AI's main purpose is to be enable to replace human in the last, decision-making process, as an augmented intelligence and it is still in progress. The core idea remained same as a support to prior studies, AI is a tool and crop of human brain, so that is created for improving systems including new trends as Gig economy and has a tremendous potential to boost economy.

Finally, with all types of new features and contributions AI creates more qualitative work condition with efficient and time saving ability, furthermore with its improvement Gig economy prospers and get value with more secure, stable and comprehensive framework. In this study there has been talked about new approaches and as a result modern economy is with Gig and AI is an engine to fast up the whole process.

## References


Abby McCain (2022). 25 Artificial Intelligence statistics [2023]: Key facts about AI and the AI industry, https://www.zippia.com/advice/artificial-intelligence-statistics/

Amabile, T.M. (1983) The social psychology of creativity: A componential conceptualization. Journal of Personality and Social Psychology

Annie Brown (2021). *How AI Is Making the Gig Economy fairer and more reliable for workers,* https://www.forbes.com/sites/anniebrown/2021/09/12/how-ai-is-making-the-gig-economy-more-fair-and-reliable-for-workers

Balaram, B., Warden, J. and Wallace-Stephens, F. (2017). Good Gigs: A Farer Future for the UK's Gig Economy. London: RSA.

Benson, A., Sojourner, A. and Umarov, A. (2015). 'Can reputation discipline the gig economy? Experimental evidence from an online labor market, IZA DP No. 9501. Available at: http://ftp.iza.org/dp9501.pdf

Berg, J., Ferrer, M., Harman, E., Rani, U. and Silberman, M.S. (2018). Digital Labor Platforms and the Future of Work: Towards Decent Work in the Online World. Geneva: ILO., 15-25

Callum (2018). The wave of worker resistance in European food platforms 2016–17. https://notesfrombelow.org/article/european-food-platformstrike-wave

Christie, N. and Ward, H. (2018). The emerging issues for management of occupational road risk in a changing economy: A survey of gig economy drivers, riders and their managers. London: UCL Centre for Transport Studies.

Colin Crouch. (2019). Will the Gig economy prevail? 18.

Forbes (12.08.2021). Will The Gig Economy Become the New Working-Class Norm? https://www.forbes.com/sites/forbesbusinesscouncil/2021/08/12/will-the-gig-economy-become-the-new-working-class-norm/?sh=6ba83daaaee6

Friedman, S. (2003). Women at work: The broken promise of flexicurity. Industrial Law Journal, 229–319.

Hedlund (2022). What is the gig economy and how will it change the future of work? https://www.ericsson.com/en/blog/2022/2/gig-economy-what-is-it
Jamie Woodcock. (2020). The Gig economy,10.
Marcin (2023). Artificial intelligence, retrieved from: https://ts2.space/en/ai-and-the-gig-economy
OECD. (2021). The Impact of the Growth of the Sharing and Gig Economy on VAT/GST Policy and Administration.
OECD. (2019). The Sharing and Gig Economy: Effective Taxation of Platform Sellers.
OECD. (2023). Handbook on Measuring Platform Employment and Work.
Olga Mizrahi. (2018). The Gig is up, 138.
Team stage blog (2023). Gig Economy Statistics: Demographics and Trends in 2023, https://teamstage.io/gig-economy-statistics
Woodcock, J. (2017). Working the Phones: Control and Resistance in Call Centers. London: Pluto.
Woodcock, J. (forthcoming). The algorithmic Panopticon at Deliveroo: Measurement, precarity, and the illusion of control. Ephemera.
Workable great disconnect worker survey. (2021), https://resources.workable.com/backstage-at-workable/announcing-the-great-discontent-2021-worker-survey
Amber Von Nagel. WORKATO, https://www.workato.com/the-connector/hr-automation-trends/
Yin, M., Gray, M.L., Suri, S. and Vaughan, J.W. (2016). The communication network within the crowd. Proceedings of the 25th International World Wide Web Conference (WWW), Montreal, Canada, 11 April

# Müasir Dövrdə Türk Dövlətləri arasında İqtisadi Əlaqələrin Dinamikası

**Zümrüd Məlikova**

**Bakı Slavyan Universitetinin dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru**

**zumrud.melik@gmail.com**

## Xülasə

Müasir dövrdə Türk dövlətləri arasında geniş spektr əlaqələr, xüsusən də iqtisadi əlaqələr yüksələn xətt üzrə inkişaf etməkdədir. SSRİ süqut etdikdən sonra müstəqilliyini bərpa edən Türk dövlətlərində -Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistanda fərqli iqtisadi inkişaf dinamikası izləndi. Türk dövlətləri geosiyasi və geostrateji əhəmiyyətli mühüm regionlarda, "Adriatikdən Çinə Səddinə qədər" uzanan geniş bir məkanda yerləşirlər. Qırğızıstan istisna olmaqla karbohidrogen ehtiyatları ilə zəngin olan postsovet türk dövlətləri Avropa və Asiyanın enerji təhlükəsizliyində vacib rola malikdirlər. İqtisadi inkişaf tempinə görə Mərkəzi Asiyanın ən güclü dövləti olan Qazaxıstan regionun digər dövlətləri ilə müqayisədə daha uğurlu iqtisadi siyasət yeridir və xarici sərmayələrin ölkəyə cəlb olunması baxımından liderdir. Müstəqillik əldə etdikdən sonra digər türk dövlətlərinə nisbətən, Türkmənistan və Özbəkistan daha mühafizəkar siyasət yeridib SSRİ dövründəki dövlətin iqtisadi monopoliyasından tam imtina etməyib iqtisadi islahatları ehtiyatla həyata keçirməyə üstünlük verdilər. Qırğızıstan yeni iqtisadi düzənə daha çevik münasibət bildirib liberal islahatlar keçirsə də, böyük uğurlar əldə edə bilmədi. Cənubi Qafqazın ən güclü dövləti Azərbaycan liberal iqtisadi islahatlar keçirərək bazar iqtisadiyyatına keçid prosesində türk dünyası ilə əlaqələrini genişləndirməyi xarici siyasətinin istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Prezident R.T.Ərdoğanın iqtidarı dövründə Türkiyənin geosiyasi planlarının mərkəzində Türk dövlətləri arasında iqtisadi əlaqələri inkişaf etdirmək kursu durur. Türk dövlətləri arasında iqtisadi əlaqələrin inkişafının son dinamikasına nəzər saldıqda, yaxın perspektivdə Türk inteqrasiyasının dərinləşəcəyini, gələcəkdə güc mərkəzi kimi formalaşacağını proqnozlaşdırmaq olar.

**Açar sözlər:**Türk dövlətləri, iqtisadi siyasət, ikitərəfli iqtisadi əlaqələr, enerji sahəsində əməkdaşlıq, iqtisadi inteqrasiya.

## Abstract

In modern age, wide range of relations among the Turkic states, especially economic relations is developing on upward line. After the collapse of USSR, the Turkic states that regained their independence - Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Turkmenistan and Uzbekistan - followed different dynamics of economic development. Turkic states are located in important regions of geopolitical and geostrategic importance, in a wide area stretching from the Adriatic to the Great Wall of China. The post-Soviet Turkic states which are rich in hydrocarbon resources, except for Kyrgyzstan, have an important role in the energy security of Europe and Asia. Kazakhstan, which is the strongest state in Central Asia in terms of economic development, has a more successful economic policy than other states in the region and is a leader in attracting foreign investments to the country. After gaining independence, compared to other Turkic states, Turkmenistan and Uzbekistan implemented a more conservative policy and did not completely renounce the economic monopoly of the state, which was followed in the time of USSR, but preferred to carry out economic reforms with caution. Although Kyrgyzstan adopted more flexible attitude to the new economic order and carried out liberal reforms, it did not achieve great success. Azerbaijan, the most powerful state of the South Caucasus, has implemented liberal economic reforms and defined expanding its relations with the Turkic world as one of the directions of its foreign policy in the process of transition to market economy. During the period of President R.T. Erdogan's administration, the course of developing economic relations among the Turkic states stands at the center of Türkiye's geopolitical plans. Looking at the recent dynamics of the development of economic relations among the Turkic states, it can be predicted that the Turkic integration will deepen in the near future and become a power center in the future.

**Key words:** Turkic states, economic policy, bilateral economic relations, cooperation in the energy sphere, economic integration

**Giriş**

Dünyada baş verən geosiyasi proseslər, yeni dünya nizamının formalaşması kontekstində Türk dövlətləri arasında siyasi və iqtisadi əlaqələr sürətli templə inkişaf etməkdədir. Son illərdəki müsbət dinamikadan fərqli olaraq bipolyar qarşıdurma şəraitində SSRİ tərkibində olan türk respublikaları ilə rəqib qütbün dövləti olan Türkiyə arasında əlaqələr olmamışdı. 1990-cı illərin əvvəllərində SSRİ-nin dağılması fonunda Mərkəzi Asiyada, daha dəqiq desək, Qərbi Türküstanda-Qırğızıstan, Qazaxıstan, Özbəkistan və Türkmənistan, Qafqazda-Azərbaycanın öz istiqlaliyyətini elan etməsilə Türkiyə ilə eyni soykökə malik, dil və din bağlılığı olan beş türk dövləti beynəlxalq münasibətlərdə müstəqil aktor kimi çıxış etməyə başladı. Bu dövr türk elitası və siyasətçiləri tərəfindən *"Türk əsri"* kimi şərh edildi və *"Adriatikdən Böyük Çin səddinə qədər"* olan geniş bir ərazidə "Türk Birliyi"nin yaranacağına ümidlər yarandı. Lakin soyuq müharibə illərində özünütəcrid siyasəti yeridən Türkiyənin Sovet İttifaqının süqut etməsi və yeni dünya düzəninin formalaşması fonunda yeni müstəqillik qazanmış türk dövlətləri ilə hərtərəfli əlaqələrini inkişaf etdirmək planları və strategiyası yox idi. Qısacası, Türkiyə yaranan geosiyasi dəyişikliklərə hazırlıqlı deyildi. Bu və digər səbəblərdən postsovet türk dövlətləri sıx münasibətlər qurmaq üçün tələsmədi, baxmayaraq ki, Türkiyə keçmiş türkdilli sovet respublikalarının müstəqilliyini tanıyan və səfirlik açan ilk ölkə idi. Lakin keçən dövr ərzində türk dövlətləri ilə ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq istiqamətlərinin sürətlə inkişafı nəticəsində Türkiyə bu ölkələrin əsas iqtisadi tərəfdaşına, müttəfiqinə çevrildi. Türk dövlətləri bir sıra təşkilatlar (Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və s.) çərçivəsində geniş spektr məsələlər üzrə birgə əməkdaşlıq fəaliyyətini genişləndirib inteqrasiya prosesinə qədəm qoymaqdadırlar. Məqalədə Türk dövlətləri arasında iqtisadi əlaqələrin inkişaf dinamikası araşdırılmış, bu ölkələrin iqtisadi potensialı müqayisəli təhlil edilmiş, statistik məlumatlar verilmişdir. Habelə, Türk inteqrasiyasının dərinləşməsinin gələcəkdə bu ölkələrə verəcəyi siyasi və iqtisadi dividendlər qeyd edilmişdir.

**Cənubi Qafqaz və Mərkəzi Asiyada Rusiya-Türkiyə Rəqabəti**

SSRİ-nin dağılması nəticəsində problemlərlə rastlaşan Rusiya, əvvəl Türkiyənin türk dünyası ilə bağlı siyasətləri ilə yaxından maraqlanmadı. ABŞ və Qərb dövlətləri isə, Türkiyə vasitəsilə bu coğrafiyaya təsir etmək istədikləri üçün Ankaranın türk dünyası ilə yaxınlaşmasını dəstəklədilər. Bu şəkildə formalaşan tsiklik siyasi mühit Türkiyənin türk dövlətləri ilə əlaqələrinin inkişafı və institutlaşması üçün əlverişli zəmin yaratdı (Yüce, 2022). Türkiyə ilə yeni türk dövlətləri arasında qurulan bu əlaqələr, xüsusilə iqtisadi sahədəki əlaqələr müsbət nəticələr verdi. Türkiyə həm investisiya, həm də xarici ticarət baxımından türk dövlətlərinin ilk beş tərəfdaşı sırasında yer almağı bacardı. Lakin iqtisadi və mədəni sahədən başqa digər sahələrdə, xüsusən də siyasi sahədə münasibətlər arzuolunan səviyyəyə çatmadı, yəni strateji dərinlik qazanmadı.Türk dövlətləri arasında münasibətlər kövrək əsaslara malik oldu. Bu vəziyyəti dörd başlıca səbəblə əsaslandırmaq olar: birincisi, Rusiya amili; ikincisi, ABŞ və Aİ amili; üçüncüsü, Cənubi Qafqaz və Mərkəzi Asiya türk respublikalarının öz daxili dinamikası və Türkiyənin dinamikası. Türk dünyasının birliyi ideyasının inkişafı və həyata keçirilməsində Rusiyanın yanaşması mühüm amildir. Həm Ankara ilə yeni türk dövlətləri arasındakı münasibətlərdə, həm də türk dövlətlərinin özləri arasında münasibətlərin müəyyənləşdirilməsində Rusiyanın mövqeyi vacib əhəmiyyət kəsb edir. Türkiyə ilə postsovet türk dövlətləri arasındakı münasibətləri əvvəl anlayışla qarşılayan Rusiya, sonralar "Adriatikdən Çin Səddinə qədər Türk Yurdu", "Türk Birliyi" kimi millətçi diskurslardan narahat olmağa başladı, bu diskursları Pantürkizm kimi qəbul etdi. Pantürkizmi maraqları

üçün təhdid kimi qiymətləndirib "özünün arxa bağçası" kimi gördüyü Qafqazın və Mərkəzi Asiyanın türk dövlətlərində bu ideologiyanın yayılmamasına yönəlik siyasət yeritdi. SSRİ-nin dağılmasına baxmayaraq, Rusiya "Yaxın ətraf" doktrinasından, yəni, Mərkəzi Asiya və Qafqazdakı təsirindən heç vaxt əl çəkmək niyyətində olmadığını sonrakı illərdə əməli olaraq göstərdi.

Sovet İttifaqı dağıldıqdan sonra müstəqil türk respublikalarının ona məhkum olduqları düşüncəsində olan Rusiya qısa müddət ərzində bu coğrafiyaya ciddi diqqət yetirmədi, lakin qısa müddət sonra postsovet məkanında hegemon güc olduğunu göstərməyə çalışdı. Keçid dövrü boşluğundan istifadə edərək bölgədə yerləşməyə çalışan digər güclərlə mübarizəyə girən Rusiya, göstərdiyi səylərlə bölgələrə nəzarətini bərpa etməyə, "Böyük Oyun"da ən böyük oyunçunun özü olduğunu və ya oyun qurucusu olduğunu qəbul etdirməyə çalışdı. Rusiya bu siyasət çərçivəsində bölgədəki hərbi bazaları ilə bölgənin təhlükəsizliyində, rəhbərlik etdiyi təşkilatlarla (MDB,KTMT, Avrasiya İttifaqı və s.) bölgənin inteqrasiyasında, verdiyi kreditlər, qoyduğu sərmayələr və reallaşdırdığı ticarət həcmi ilə bölgənin iqtisadi fəaliyyətində söz sahibi olduğunu göstərməyə çalışdı. Mərkəzi Asiya ölkələri ilə çoxşaxəli və dərin əlaqələrə malik olan Rusiyaya rəğmən Türkiyənin bu bölgədə təkbaşına ciddi irəliləyiş əldə etməsi region reallığı ilə üst-üstə düşmürdü. Bu səbəbdən Türkiyə türk dünyası ilə bağlı siyasətində bəzi məqamlarda Rusiya ilə razılığa gəlmək zərurətini hiss edirdi. Türkiyə Rusiyanın bölgədəki maraqlarına zidd olmayan siyasət yürütməyə diqqət yetirib "Yumşaq güc" vasitəsi ilə türk dövlətlərində öz təsirini genişləndirməyə və dərinləşdirməyə cəhd etdi. 2022-ci ilin noyabrında Türk Dövlətləri Təşkilatının (TDT) Səmərqənd sammitinin, 2022-ci ilin dekabrında Azərbaycan, Türkiyə və Türkmənistan liderlərinin görüşünün, 2023-cü il TDT-nin martda Ankarada keçirilən Fövqəladə Zirvə görüşünün nəticələri (Türk Devletleri Teşkilatı Olağanüstü Zirvesi Ankara Bildirisi, 2023) Türkiyənin bu rəqabətdə və Türk inteqrasiyasında irəliyə doğru böyük addım atdığını deməyə əsas verir.

**Türk Dövlətlərinin İqtisadi potensialı və İqtisadi Siyasəti**

Mərkəzi Asiya (MA) təxminən 70 milyona yaxın əhalinin yaşadığı, türklərin ata-baba yurdu, zəngin yeraltı sərvətlərə malik regiondur. Geosiyasi əhəmiyyətinə görə digər mühüm region olan Cənubi Qafqazın ən güclü dövləti Azərbaycanın əhalisi 10, 43 mln., Türkiyənin isə 86,61 mln. nəfər təşkil edir. BVF-nin 2023-cü il məlumatlarına görə, 6 Türk dövlətlərinin ümumi əhalisinin sayı 161 milyona çatıb (IMF,2023). Rusiya, Avropa İttifaqı ölkələrinin ümumi əhalisi azalmağa doğru gedərkən, Türk dünyasında artım davam edir. İqtisadi aktivliyin mühüm amili olan gənc, dinamik və təhsilli insan resursları türk dünyasının ən böyük sərvətidir (İstikbal,2023). Neft, təbii qaz və əkin üçün əlverişli sahələri Azərbaycanın ən mühüm iqtisadi gücüdür. Qazaxıstan kömür, təbii qaz və neft ehtiyatları ilə, Özbəkistan kömür və təbii qazla zəngindir. Türkmənistan dünyanın ən böyük təbii qaz ehtiyatlarına malik ölkələr sırasındadır. Dağlıq coğrafiyaya malik Qırğızıstan hidroenerji istehsalı resursları ilə zəngin bir ölkədir.

Yeraltı və yerüstü sərvətlərə malik olan Türk dünyasının, xüsusilə Xəzər hövzəsinin gələcəkdə dünya neft və təbii qaz ehtiyatlarının 12,5%-nə sahib olacağı və İran körfəzindən sonra ikinci yeri tutacağı proqnozlaşdırılır. Müstəqilliklərini qazanmış türk dövlətlərinin malik olduğu enerji ehtiyatları onların strateji əhəmiyyətini artırmaqla yanaşı, Türkiyənin enerji ehtiyacına töhfə verməklə yanaşı, bir-birini tamamlayan ölkələr olduğu xüsusiyyətlərini ön plana çıxarır. Azərbaycan, Qazaxıstan, Özbəkistan və Türkmənistan postsovet məkanında Rusiyadan sonra ən böyük neft və təbii qaz hasilatçılarıdır. MA-nın türk dövlətlərinin neft ehtiyatlarının dünya üzrə ümumi ehtiyatlarına nisbəti 3,5%, təbii qaz

ehtiyatlarının dünya ehtiyatlarına nisbəti 6,9% təşkil edir (Gökdağ Atsız, 2021). Azərbaycan dünya neft ehtiyatlarının 0,42%-nə (7 mlrd. barel) malikdir. Qazaxıstan dünya neft ehtiyatlarının 1,8 faizinə (30 mlrd.barel), 5,9 trilyon $m^3$ təbii qaz ehtiyatına və keçmiş SSRİ-nin üçüncü ən böyük kömür yatağına malikdir. Volfram istehsalına görə dünyada birinci, xrom və manqan istehsalına görə dünyada ikinci, molibden və fosfat istehsalına görə dördüncü, bor istehsalına görə dünyada üçüncü, mis istehsalına görə yeddinci yeri tutur. Özbəkistan 45 mlrd. ton təbii qaz hasilatı ilə dünyada əhəmiyyətli istehsalçı dövlətdir. Dünya pambıq istehsalında dördüncü, qızıl istehsalında isə onuncu yerdədir. Onun 800 mln. ton mis ehtiyatı vardır. Türkmənistan iqtisadiyyatı əsasən təbii qaz və neft hasilatından ibarətdir. 1995-ci ilin məlumatlarına görə, təbii qaz ehtiyatları 2,75 trilyon $m^3$, neft ehtiyatları isə 1,5 mlrd. barreldir. Türkmənistan pambıq istehsalına görə, Özbəkistandan sonra ikinci yerdədir.

SSRİ-də mərkəzləşdirilmiş planlı iqtisadiyyatın tətbiq edildiyi dövrdə türkdilli respublikalar əlverişli ölkələr qrupuna daxil olmamışdılar. Sovet sisteminin yarandığı gündən süqut etdiyi günə qədər bu respublikalar sənaye cəhətdən inkişaf etmiş bölgələrin xammal təminatında ixtisaslaşaraq əsas sənaye istehsalının həyata keçirildiyi digər respublikalardan asılı vəziyyətə salınmış və bu asılılıq onların həm iqtisadi, həm də sosial-mədəni cəhətdən geridə qalmasına gətirib çıxarmışdı. Postsovet türk dövlətlərinin bəziləri liberal iqtisadi islahatlardan çəkinərək "dövlət özəlləşdirməsi"nə məruz qaldılar. Uzun müddət mərkəzi hakimiyyətə tabeli iqtisadi quruluşa malik olduqları üçün müstəqillik əldə etdikdən sonra yeni iqtisadi nizama uyğunlaşmaqda çətinlik çəkdilər. Nəticədə, bu ölkələr ciddi sosial və iqtisadi problemlərlə üzləşdilər.

Azad bazar iqtisadiyyatına keçid prosesində olan Azərbaycan iqtisadiyyatı 1991-ci ildə müstəqillik əldə etdikdən sonra ciddi iqtisadi çöküşlə üzləşdi və 1991-1995-ci illərdə iqtisadiyyatı 60% azaldı.1995-ci ildən sonra beynəlxalq təşkilatların əməkdaşlığı ilə inkişaf etməyə başlayan iqtisadiyyatı sürətli inkişaf dövrünə qədəm qoydu. Azərbaycan Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 11 ən iri neft şirkəti ilə 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzaladı. Azərbaycan bundan sonrakı illər ərzində Avrasiyada çox önəmli enerji resurslarını dünya bazarlarına çıxaran ölkə kimi fəaliyyət göstərməyi qarşısına hədəf qoyub bu sahədə bir sıra uğurlara imza atdı.

Qazaxıstan SSRİ-dən ona miras qalmış bəzi problemlərlə məşğul olmaq məcburiyyətində olsa da, həyata keçirdiyi struktur tədbirləri sayəsində onların əhəmiyyətli bir hissəsini həll edə bildi. Həyata keçirdiyi islahatlarla yanaşı, sahib olduğu zəngin təbii sərvətlər hesabına MA-nın ən mərkəzi ölkəsi olmağı bacardı. Qazaxıstan müstəqillik əldə etdikdən sonra birbaşa xarici investisiyaların cəlb edilməsində ən uğurlu ölkə oldu. ABŞ, Böyük Britaniya, Çin, Fransa, Rusiya, Hollandiya kimi ölkələrin arzuolunan investisiya mərkəzinə çevrilməyi bacardı. Müstəqillik əldə etdikdən sonra digər MA respublikalarından fərqli olaraq, Özbəkistan sürətli transformasiya əvəzinə idarə olunan və özünəməxsus transformasiya prosesinə başladı. Özbəkistan prezidenti İ.Kərimovun *"Yeni ev tikilmədən köhnə evi yıxmaq olmaz"* kimi ifadəsi ilə liberal iqtisadi islahatlara dövlətin yanaşması *islahatları ləng və mülayim şəkildə həyata keçirmək, sovet dövründən miras qalmış sistemi dağıtmaq əvəzinə transformasiyasını təmin etmək, bazar iqtisadiyyatına keçidi mərhələli şəkildə həyata keçirmək* oldu.

Müstəqilliklərinin ilk dövründə demək olar ki, hamısı iqtisadi böhranla üzləşən postsovet türk dövlətləri sonrakı dövrdə toparlana bilsələr də, eyni iqtisadi inkişaf tempi nümayiş etdirmədilər. Çünki hər bir ölkə öz dinamikası və qəbul etdiyi inkişaf modelinə uyğun hərəkət etdi. Bu ölkələr arasında ən yüksək inkişaf

edən ölkənin Qazaxıstan, ən az inkişaf edən ölkənin isə Qırğızıstan olduğunu söyləmək olar. Digər MA respublikalarından fərqli olaraq, zəngin yeraltı sərvətlərə malik olmayan ***Qırğızıstan*** xarici investisiyaların cəlb edilməsində o qədər də uğurlu olmadı. Buna ölkənin coğrafi quruluşunun da təsiri az olmadı. Çünki ölkənin quru ilə əhatə olunması və dənizlə sərhədinin olmaması, eləcə də dağlıq quruluşa malik olması logistik baxımdan qeyri-əlverişli mövqe yaradır. Bundan əlavə, ölkədəki siyasi qeyri-sabitlik də çəkindirici amildir. Bu səbəbdən daxili gəlirin aşağı səviyyədə olduğu ölkədə ənənəvi iqtisadi quruluş davam etmişdir. Yəni Qırğızıstanın iqtisadiyyatı əkinçilik, heyvandarlıq, mədənçilik və xaricdə işləyən vətəndaşların gəlirləri əsasında formalaşır. Əsas kənd təsərrüfatı məhsulları pambıq, yun və heyvandarlıq məhsullarıdır. Bu məhsullar arasında pambıq əsas ixrac məhsuludur. Qızıl, civə, uran, təbii qaz və bəzi illərdə elektrik enerjisi ixrac edilən digər mallara daxildir. Ölkə öz ixrac bazasını genişləndirmək, o cümlədən su elektrik bəndlərinin tikintisi üçün xarici investisiyaları cəlb etməyə çalışır. Lakin onun bu işdə çox uğurlu olduğunu söyləmək olmaz. Burada ən mühüm maneə sağlam investisiya mühitinin olmamasıdır. Ölkənin qızıl mədənini idarə edən Kanada şirkəti istisna olmaqla, burda qərbli iri investor şirkətləri yoxdur.

Yuxarıda qeyd olunduğu kimi, MA-nın türk respublikaları arasında ən çox xarici investisiya cəlb edən ölkə ***Qazaxıstan*** oldu. Enerji resurslarının idarə edilməsi iqtisadi inkişaf strategiyasının əsas istiqamətini təşkil edir. Ona görə də, neft Qazaxıstanın iqtisadi strukturunun formalaşmasında aparıcı rol oynadı. Müstəqillik qazandıqdan sonra neft sektoruna böyük sərmayələr yatıran Qazaxıstan bir tərəfdən sürətli şəkildə iqtisadi inkişafı təmin edərkən, digər tərəfdən qeyri-neft sektorlarının inkişafını sürətləndirdi. Ölkənin neft ehtiyatları təbii qaz ehtiyatlarından çoxdur və postsovet respublikaları arasında Rusiyadan sonra ikinci ən böyük neft hasilatçısıdır. Bu gün neft sənayesi sənaye sektorunun böyük hissəsini təşkil edir. Qazaxıstan iqtisadiyyatının digər mühüm sahəsi metal emalı və polad istehsalıdır. Mədən-metallurgiya ölkə iqtisadiyyatının ikinci inkişaf etmiş sənaye sahəsidir. Bu sektor həm də ciddi xarici investisiyaları cəlb etməklə iqtisadi artıma müsbət töhfə verir.

Müstəqillik əldə etdikdən sonra azad bazar iqtisadiyyatına keçidi qarşısına məqsəd qoyan ***Özbəkistan*** isə Qırğızıstan və Qazaxıstandan fərqli olaraq sürətli keçid əvəzinə mərhələli keçid planlaşdırdı. Bu konteksdə mövcud sistem (quruluş) tam ləğv edilmədi, müəyyən islahatlar aparılıb, mövcud qurumlarda islahatlar aparılmaqla bazar iqtisadiyyatına uyğunlaşmaya çalışıldı. Bu konteksdə SSRİ-dən miras qalmış təsərrüfat quruluşunu qorumağa çalışaraq daxilə qapanmış idxalı əvəzləmə siyasəti izlənildi. Sovet dövründə az qala pambıq anbarına çevrilmiş Özbəkistan SSRİ-də ağır sənaye və pambıq istehsalı üzrə ixtisaslaşmaya əsaslanan mərkəzləşdirilmiş planlı iqtisadiyyata malik idi (Yüce, 2022). Bu struktur müstəqillikdən sonrakı dövrdə də qismən davam etdi. Bu səbəbdən bu gün ölkə iqtisadiyyatında ağır sənaye mühüm yer tutur. Emal sənayesində xarici sərmayəçilərin də diqqətini çəkən ən mühüm sahə avtomobil sənayesi oldu. Kənd təsərrüfatı Özbəkistanda ağır sənayedən sonra ikinci mühüm sahədir. Ölkə pambıq istehsalına görə dünyada beşinci, ixraca görə isə ikinci yeri tutur. Ölkədə pambıqçılıqdan fərqli olaraq, taxıl istehsalı daxili bazarın tələbatını ödəmir və taxıl məhsulları sarıdan xaricdən asılılıq çox yüksək səviyyədədir. Özbəkistan iqtisadiyyatına əlavə dəyər verən digər mühüm amil ölkənin mineral xammal ehtiyatlarıdır. Ölkədə əsasən qızıl, kömür, alüminium və uran olmaqla yüzdən çox yeraltı mədən növü var. Qızıl hasilatına görə MDB ölkələri arasında Rusiyadan sonra ikinci yeri tutur. İ.Kərimovdan sonra hakimiyyətə gələn prezident Şövkət Mirziyoyev daha liberal iqtisadi siyasət yeritdi

və bu sahədə bəzi islahatlar apardı. Bu vəziyyət iqtisadiyyatda da özünü göstərdi və bu illər ərzində Özbəkistan iqtisadiyyatında əhəmiyyətli artım qeydə alındı.

Sovet mərkəzi planlı iqtisadiyyat sistemində ixtisaslaşmaya əsaslanan təsərrüfat quruluşunda ***Türkmənistanın*** payına pambıqçılıqla yanaşı, neft və təbii qaz hasilatı düşmüşdü. Müstəqillikdən sonra sovet sistemindən miras qalan bu iqtisadi quruluş qismən qorunub saxlanıldı. Hal-hazırda bu iki məhsul Türkmənistanın xarici ticarətində mühüm yer tutur. Ölkə zəngin neft və təbii qaz ehtiyatlarına, həmçinin mirabilit, yod, brom, kükürd, kalium və duz yataqlarına malikdir. Türkmənistanın qaz ehtiyatları dünya ehtiyatlarının təxminən 10 faizini təşkil edir. Bu baxımdan Türkmənistan qaz ehtiyatlarına görə dünyada ən böyük qaz ehtiyatı olan dördüncü ölkə  hesab edilir (Turkmenistan Trade Summary, 2023).

Beləliklə, MA-nın postsovet türk respublikalarının hər birinin iqtisadi potensialı, əhalisinin tərkibi, sərhəd məsələsi, qonşu dövlətlərlə əlaqələr, təhlükəsizliyi və geosiyasi mövqeyi daxili və xarici dinamika ilə yanaşı, onların xarici siyasəti SSRİ-dən miras qalmış problemlərə və prezidentlərin idarəetmə tərzinə uyğun formalaşdı. Bu səbəbdən hər bir ölkə öz dinamikası ilə yanaşı, daxilə qapalı və ya xaricə açıq olaraq üstünlük verdikləri iqtisadi böyümə modelinə əsaslanan bir-biri ilə üst-üstə düşməyən fərqli xarici siyasətlər yeritdilər.

**Postsovet Türk Dövlətlərinin Türkiyə ilə İqtisadi Əlaqələri**

Postsovet Türk dövlətləri mərkəzi planlı iqtisadi sistemdən azad bazar iqtisadiyyatına keçid prosesində Ankaranın təcrübələrindən yararlanmaqla yanaşı, onlara tanış olmayan yeni iqtisadi sistemdə xarici ticarət və investisiyalar sahəsində də Türkiyə ilə əməkdaşlığı inkişaf etdirməyə çalışdılar. SSRİ-dən miras qalan iqtisadi tənəzzül və bu respublikaların institusional infrastruktura malik olmaması baxımından etnik, mədəni və din baxımından qardaş ölkə olan Türkiyə ilə emosional əsaslı iqtisadi əlaqələrə girdilər. Müstəqillik əldə etmiş türk dövlətləri SSRİ dövründə inteqrasiya etdikləri respublikalarla yanaşı, Türkiyə ilə də xarici ticarət əlaqələri qurdular. Lakin sonrakı dövrlərdə, xüsusilə, 1995-ci ildən sonra zəruri institusional infrastrukturu yaradan bu respublikalar mövcud ticarət tərəfdaşlarından başqa, Qərb dövlətləri ilə ticarət əlaqələrində nəzərəçarpacaq irəliləyişlər əldə etdilər. Türkiyə ilə emosional əsasda qurulan iqtisadi münasibətlərdə nisbi azalma müşahidə olunsa da, Türkiyə bu ölkələrin iqtisadiyyatında həmişə ilk beş ölkə arasında olmağı bacardı.

Türk dövlətləri içərisində Türkiyənin ən sıx iqtisadi əlaqələr qurduğu ölkə Azərbaycandır. 2021-ci il Şuşa Bəyannaməsi ilə ikitərəfli münasibətləri ən yüksək səviyyəyə qaldırmış bu dövlətlər arasında iqtisadi əlaqələr çoxsaxəlidir. Türkiyə birgə regional və beynəlxalq layihələrin reallaşdırılmasında Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Azərbaycanla Türkiyə arasında iqtisadi əlaqələr müstəqilliyimizin ilk illərində inkişaf etməyə başlamış, 1 noyabr 1992-ci il tarixində Azərbaycan və Türkiyə arasında "Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. İkitərəfli iqtisadi münasibətlərin hərtərəfli inkişafı baxımından 1994-cü ildən sonra həyata keçirilən tədbirlər və hüquq-müqavilə bazasının təkmilləşdirilməsi istiqamətində atılmış addımlar xüsusi mərhələnin əsasını qoymuşdur. Türkiyə Azərbaycan iqtisadiyyatına ən çox investisiya qoyan ölkələrdən biridir. 1995-2021-ci illər ərzində Türkiyədən Azərbaycana cəlb edilmiş birbaşa investisiyaların həcmi 13,3 mlrd. ABŞ dolları təşkil etmişdir (10,4 mlrd.ABŞ dolları neft sektoruna, 2,9 mlrd. ABŞ dolları (1-ci yer) qeyri-neft sektoruna). Türk şirkətləri əsasən enerji, sənaye, telekommunikasiya, bank və sığorta, inşaat, nəqliyyat, qida, yüngül sənaye (tekstil), səhiyyə kimi sahələrdə fəaliyyət göstərir (Türkiyə iqtisadi əlaqələri, 2022).

Azərbaycan da Türkiyə iqtisadiyyatına ən çox investisiya yatıran ölkələrdən biridir və son illərdə bu investisiyalarda mühüm artım müşahidə olunur. Hal-hazırda Türkiyədə Azərbaycan sərmayəli 2000-ə yaxın şirkət fəaliyyət göstərir. 1995-2021-ci illər ərzində Azərbaycandan Türkiyəyə yatırılan birbaşa investisiyaların həcmi 20,3 mlrd. ABŞ dolları olmuşdur (17.1 mlrd. ABŞ dolları neft-kimya sektoruna, 3,2 mlrd. ABŞ dolları qeyri-neft sektoruna). Sadəcə SOCAR-ın 2018-ci ilin sentyabr ayında 6,3 mlrd.dollar kapitalla Türkiyənin İzmir şəhərindəki "Petkim" neft-kimya kompleksinin ərazisində inşasını tamamlayaraq istifadəyə verdiyi "Star" neft emalı zavodu Türkiyəyə birdəfəlik yatırılan ən böyük investisiya hesab olunur. Ümumilikdə, Türkiyədə investisiya qoyan Azərbaycanlı iş adamları həm firma sayı, həm də investisiya həcmi baxımından MA və Qafqaz ölkələri arasında ilk yerdədir. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı quruculuq işlərində Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər (Türkiyə iqtisadi əlaqələri,2022).

Türkiyə-Azərbaycan ticarət əlaqələri yüksək inkişaf dinamikasına malikdir. Türkiyə Azərbaycanın həm idxalda, həm ixracda, həm də ikitərəfli dövriyyədə ikinci əsas ticarət tərəfdaşıdır. 2021-ci ildə Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsinin həcmi 4.661,85 mln. ABŞ dolları (12,06%), o cümlədən idxalın həcmi 1.843,71 mln. ABŞ dolları (18,00%), ixracın həcmi 2.818,14 mln. ABŞ dolları (8,48%) təşkil etmişdir. Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərən 4797 Türkiyə şirkəti qeydiyyatdan keçmişdir. Türkiyə şirkətləri həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində də aktiv şəkildə fəaliyyət göstərirlər. Hazırda həmin ərazilərdə müxtəlif istiqamətlər üzrə 107 layihə Türkiyə şirkətləri tərəfindən həyata keçirilməkdədir (Türkiyə iqtisadi əlaqələri,2022). Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığı ikitərəfli məsələlərlə yanaşı, regional iqtisadi əməkdaşlıq sahələrini də əhatə edir. İki dövlətin birgə həyata keçirdikləri fəaliyyətin nəticə olaraq, beynəlxalq əhəmiyyətli bir sıra regional layihələri aid etmək olar. Bakı-Tbilisi-Ceyhan neft kəməri (BTC), Bakı-Tbilisi-Ərzurum qaz kəməri (BTƏ), Trans-Anadolu təbii qaz boru xətti (TANAP), Trans-Adriatik boru xətti (TAP) və Bakı-Tbilisi-Qars dəmir yolu xətti (BTQ) layihələri bu baxımdan ən bariz nümunələrdir.

Qırğızıstan müstəqilliyini əldə etdiyi gündən türk və qırğız xalqları arasında bir çox sferalarda əlaqələr quruldu. Gücünü ortaq tarixi, mədəni və dildən miras alan ikitərəfli əlaqələr bu müddət ərzində sürətlə və hərtərəfli inkişaf etdi. 1992-ci ildən bu yana Qırğızıstan və Türkiyə arasında çoxlu yüksək səviyyəli səfərlər həyata keçirildi və 100-dən çox ikitərəfli saziş imzalandı. İkitərəfli münasibətlərdə sıx əməkdaşlıq regional və beynəlxalq arenada da davam etdi. Bu münasibətlərin mühüm istiqamətini iqtisadi əlaqələr təşkil etdi.Türkiyə Qırğızıstana ən çox sərmayə qoyan ilk beş ölkə sırasındadır. Bununla belə, qeyd etmək lazımdır ki, Türkiyə investisiyaları orta və kiçik miqyaslı investisiyalar olub strateji investisiya qrupuna daxil deyil. Qırğızıstanın kənd təsərrüfatı, tekstil, mədənçıxarma və su elektrik enerjisi sahələrində investisiya qoyuluşu sahəsində Türkiyə ilə əməkdaşlığa tələbatı var. İki ölkə arasında xarici ticarət həcminin 1 milyard dollara çatdırılması hədəflənsə də, hazırkı xarici ticarət həcmi (2020-ci ildə təxminən 500 milyon dollar) bu rəqəmdən xeyli aşağıdır. Türkiyə Qırğızıstandan əsasən lobya, pambıq və pambıq parçalar, xam dəri, qiymətli daşlar, qızıl və gümüşdən hazırlanmış zərgərlik məmulatları, mineral yanacaq idxal etdiyi halda, Qırğızıstana yüngül sənaye məhsulları, kimya məhsulları, plastik, maşınqayırma məhsulları, kənd təsərrüfatı xammalı, mebel və onun aksesuarlarını ixrac edir.

"Ticarət və İqtisadi Əməkdaşlıq Protokolu" ilə başlayan Qazaxıstan-Türkiyə ticarət əlaqələri inkişaf edərək geniş spektr əlaqələri nəzərdə tutan müqavilələrin imzalanmasına imkanlar açdı. Bundan əlavə,

iki ölkə arasında iqtisadi əlaqələr əsasən Uzunmüddətli Ticarət-İqtisadi Əməkdaşlıq Sazişi, İqtisadi və Texniki Əməkdaşlıq, İnvestisiyaların Qarşılıqlı Təşviqi və Mühafizəsi, İkiqat Vergitutma Sazişləri, Yeni Sinerji və Birgə İqtisadiyyat Proqramı 2019-2020-ci il üçün Fəaliyyət Planına əsaslanır. İki ölkə arasında ticarət əlaqələri birgə ticarət müqavilələrinə əsasən həyata keçirilir. Türkiyə ilə Qazaxıstan arasında ticarət və iqtisadi əlaqələrin göstəricilərinə nəzər saldıqda, Qazaxıstanın Türkiyəyə ixracının Türkiyənin Qazaxıstana ixracından təxminən 1,2 dəfə çox olduğu görünür. İxracın ticarətdəki payı baxımından Türkiyənin Qazaxıstana ixracı yüzdə 1, Qazaxıstanın Türkiyəyə ixracı isə ümumi ixrac həcminin yüzdə 5-ini təşkil edir. Bundan əlavə, Türkiyənin Qazaxıstandan idxalatında mis və mis mənşəli məhsullarının üstünlük təşkil etməsi və Türkiyənin neft idxalçısı bir ölkə olması səbəbindən Qazaxıstanla ticarətində kəsir yarandığını söyləmək olar. Qazaxıstan və Türkiyə arasında ticarət və iqtisadi əlaqələrə nəzər saldıqda, siyasi və mədəni sahələrdəki müsbət irəliləyişlərin ticarət əlaqələrində tam əks olunduğunu söyləmək çətindir. İki ölkənin investisiya əlaqələri və ticarət sahəsindəki inkişaf hələ də istənilən səviyyəyə çatmayıb. Qazaxıstanın illik xarici ticarətində Türkiyənin payının cəmi 5 faiz olması bunun ən bariz göstəricisidir. Bundan əlavə, Türkiyə Qazaxıstanın birbaşa xarici investisiya yatırdığı ilk on ölkə arasında deyil. Əslində, iki ölkə arasında investisiya əlaqələri ticarət əlaqələrindən geri qalırdı. Bu kontekstdə iki ölkə arasında ticarət əlaqələrinin inkişafına mane olan amilləri aradan qaldırmaq lazımdır.

Müstəqillik əldə etdikdən sonra Özbəkistan və Türkiyə arasında iqtisadi əlaqələr müsbət atmosferdə başlamış, ticarət əlaqələrinin hüquqi bazasının yaradılması məqsədilə bir çox müqavilələr imzalanmışdır. Lakin siyasi münasibətlərin kölgəsində qalan iqtisadi əlaqələrdə siyasi münasibətlərdə baş verən proseslərə paralel olaraq dalğalanma müşahidə olundu. Məsələn, 1999-cu ildə Türkiyədə təhsil alan özbək tələbələri geri çağıran Özbəkistan türk şirkətlərinə siyasi və iqtisadi təzyiq göstərərək bir çox şirkətin fəaliyyətlərini dayandırmasına səbəb oldu. Bəzi iş adamları həbs edildi, əmlakları müsadirə edildi. Nəticədə Türkiyə sərmayələri azaldı, xarici ticarət azaldı və iki ölkə arasında ticarət potensial səviyyədən xeyli aşağı düşdü. Türkiyə ilə Özbəkistan arasında xarici əlaqələrin yaxşılaşması, xüsusilə Şevket Mirziyoyevin hakimiyyətə gəlməsi ilə iki ölkə arasında ticarət əlaqələrində yeni bir dövr başladı. Prezident Mirziyoyev hakimiyyətə gəldikdən sonra hər sahədə sürətlə inkişaf edən əlaqələrə paralel olaraq, xarici ticarət həcmində də nəzərəçarpacaq artım oldu. 2016-cı ildə 1 milyard 242 milyon dollar olan ikitərəfli ticarət həcmi 2020-ci ildə təxminən 2 dəfə artaraq 2 milyard 101 milyon dollara çatıb. 2018-ci ildə Özbəkistanda Türkiyə kapitallı 364 şirkət yaradıldı (Uzbekistan Trade Summary,2023). Hazırda Özbəkistanda Türkiyə kapitallı 1100-ə yaxın şirkət fəaliyyət göstərir. Türkiyədən bank işi, əczaçılıq, tikinti, avtomobil, ayaqqabı sənayesi, turizm və qida sektorlarına qoyulan 1 mlrd. dollarlıq investisiyanın Özbəkistanın ixracına 300 mln. dollar gəlir gətirdiyi və beləliklə də, 50 min adamın məşğulluğuna imkan yaratdığı təxmin edilir. Türkiyənin podratçı şirkətlərinin Özbəkistanda indiyədək həyata keçirdiyi layihələrin ümumi məbləği 2,7 mlrd. dollar həcmindədir. Türk şirkətləri son bir neçə ildə yenidən mühüm layihələrə imza atdılar. Türkiyənin Özbəkistana ixrac etdiyi əsas məhsullar təmizlik vasitələri, dərman vasitələri, qoşqular, plastik məhsullar, qida emalı maşınları olduğu halda, idxal etdiyi əsas məhsullar isə mis, mis ərintiləri və mis məmulatları, lövhələr, pambıq iplik, emal olunmamış sink, neft yağları, gübrələr, konservlər, qızıl, emal edilməmiş qurğuşun və ipəkdir. Dünya Bankının məlumatına görə, Türkiyə 2019-cu ildə həm ixrac, həm də idxal baxımından Özbəkistanın ilk beş xarici ticarət tərəfdaşı sırasındadır. Qeyd olunan məlumatlara görə Türkiyə Özbəkistanın ümumi ixracatında 7,52% payla beşinci, idxal etdiyi ölkələr arasında isə 5,93% payla beşinci yerdədir.

Türkmənistanın iqtisadiyyatı ilə bağlı ətraflı statistik məlumatlar olmasa da, bu ölkənin xarici ticarətində Türkiyənin böyük payı və ölkədə yerləşən türk podratçı şirkətləri tərəfindən həyata keçirilən irimiqyaslı layihələr sayəsində Türkiyə-Türkmənistan iqtisadi əlaqələrinin inkişaf etdiyini və genişləndiyini qeyd etmək olar. Türkmənistan Türkiyə şirkətlərinin MA-da ən çox layihə həyata keçirdiyi ölkədir. Bundan başqa, Türkmənistana ən çox investisiya qoyan ölkə Türkiyədir. Türkmənistanda mənzil, sənaye, mədəniyyət və idman obyektləri kimi bir çox layihəni həyata keçirən Türkiyə podratçı firmaları bu gün də sektorun qabaqcıllarıdır. 1992-2019-cu illərdə podrat xidmətləri çərçivəsində türk şirkətləri tərəfindən ümumi dəyəri təxminən 50 mlrd. dollar olan 1019 layihə həyata keçirilib. Bundan əlavə, mühüm pambıq istehsalçısı olan Türkmənistanda türk sahibkarları tərəfindən açılan tekstil müəssisələri artıq ölkənin ən müasir investisiya obyektləri üçün nümunədir. Toxuculuq sahəsinə qoyulan bu investisiyalar həm məşğulluq imkanları yaradır, həm də tekstil və hazır geyim sektorunda ölkənin ixracına töhfə verir. Son illərdə qlobal iqtisadi inkişafların təsiri ilə ikitərəfli ticarət həcminin azaldığı və 2018-ci ildə ticarətin əhəmiyyətli dərəcədə azaldığı görünür (Kayali, 2018). Dünya Bankının məlumatına görə, Türkiyə həm ixrac, həm də idxalda Türkmənistanın ilk beş tərəfdaşı sırasındadır. Qeyd olunan məlumatlara görə, 2020-ci ildə Türkmənistanın ticarət tərəfdaşı olduğu ölkələr ixracda, müvafiq olaraq, Rusiya, İtaliya, İran, Türkiyə və Ukrayna; idxalda Rusiya, Türkiyə, Ukrayna, BƏƏ və Yaponiyadır. Türkiyənin Türkmənistana əsas ixrac etdiyi məhsullar - tekstil məhsulları, enerji, kimya və kənd təsərrüfatı məhsulları olduğu halda, əsas idxal məhsulları - emal edilmiş metal, elektron məmulatlar, qida, tekstil məhsulları, sənaye məhsulları, emal olunmuş qida məhsulları, tikinti materialları, nəqliyyat vasitələri və dərman vasitələridir (Turkmenistan Trade Summary, 2023).

Türk dünyasının iqtisadi infrastrukturu birgə əməkdaşlığı daha yüksək səviyyəyə qaldırmaq imkanları verir. Müdafiə sənayesi, turizm iqtisadiyyatı və ortaq istehsal müəssisələrinin yaradılması türk dünyasının diqqət yetirməli olduğu sahələr sırasındadır. Xüsusilə, Türkiyənin son dövrdə müdafiə sənayesini inkişaf etdirmək prosesində əldə etdiyi uğurlar türk dünyası ölkələri ilə bu sahədə sıx əməkdaşlığı türk dövlətlərinin daha müstəqil hərəkət etməsinə töhfə verəcəkdir. Türk dövlətlərindən Türkiyəyə qədər uzanacaq yeni enerji xətləri Avropa ilə ticarət əlaqələrinin inkişafını təmin edəcəkdir. Avropa ilə Asiya arasında 3 trilyon dollarlıq ticarəti nəzərə alsaq, bu türk dünyasının körpü rolunu oynaya biləcəyini göstərir. Özəl sektor nümayəndələri prosesdən kənarda qalmamalı, qarşılıqlı investisiya, layihə və yardım təşəbbüsləri müxtəlif sahələri əhatə edəcək şəkildə genişləndirilməlidir.

2020-ci ildə Türkiyə ilə türk dövlətləri arasında xarici ticarət həcmi 7,57 mlrd. dollara çatıb.1995-ci ildən etibarən xarici ticarət 10 dəfədən çox artsa da, inkişaf tempi müşahidə edilsə də, göstəricilər tərəflərin potensialının hələ də iqtisadi əlaqələrdə özünü göstərmədiyini təsdiqləyir. Bundan əlavə, Türkiyənin xarici ticarətinin 1,94%-ni təşkil edən türk dövlətləri ilə iqtisadi əlaqələrin kvota müraciətləri, investisiyalar və ortaq layihələr vasitəsilə artırılmasının vacibliyini göstərir.

Beləliklə, Türk dövlətlərinin Türkiyə ilə xarici ticarətinə nəzər saldıqda Azərbaycanın ən böyük iqtisadi tərəfdaş olduğu görünür. Azərbaycandan sonra Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan gəlir. Türkiyənin Türk dövlətlərinə ixracatına baxsaq, maşın və mexaniki cihazlar (843,56 mln. dollar), elektrik maşın və cihazları (364,78 mln. dollar), tekstil (315,18 mln. dollar), dəmir və polad (294,50 mln. dollar), mebel (189,63 mln.dollar) ), motorlu quru nəqliyyat vasitələri (177,4 mln. dollar), hava nəqliyyatı və hissələri (172,63 mln. dollar) üstünlük təşkil edir. İdxalatda mis (1,08 mlrd.dollar), pambıq

(497,97 mln. dollar), alüminium (270,37 mln.dollar), mineral yanacaq (176,27 mln. dollar), sink (167,24 mln.dollar) və plastik (161,41 mln. dollar) əhəmiyyətli yer tutur (İstikbal,2023 ).




Mənbə: Deniz Istikbal. Türk Dünyasının Ekonomik Potansiyeli.

Xarici ticarət sektorlar üzrə təhlil etdikdə, Türkiyənin ixracatının əsasını müxtəlif sektorlar və emal sənayesi təşkil edərkən, idxalın təbii qaynaqlar və kənd təsərrüfatı məhsullarından ibarət olduğunu görürük. MA dövlətlərinin xarici ticarət profilinə uyğun gələn mövcud vəziyyət Türkiyənin istehsal sənayesi təcrübəsinin qardaş ölkələrə ötürülə biləcəyinə işarədir.

**Türk Dövlətləri Arasında İqtisadi İnteqrasiyaya Doğru: Səmərqənd və Türkmənbaşı Sammitləri**

Türk dövlətləri arasında iqtisadi münasibətlər hər il inkişaf edir, ticarət əlaqələri genişlənir. İnvestisiya sahəsində qarşılıqlı səmərəli əməkdaşlıq həyata keçirilir. Azərbaycan TDT ölkələrinə 14 milyard ABŞ dollarından çox, TDT ölkələri isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan artıq sərmayə yatırıb. Bu iqtisadi əlaqələri daha da genişləndirmək üçün Bakı-Tbilisi-Qars dəmir yolu xətti, eləcə də digər türkdilli ölkələrin də qoşula biləcəyi TANAP qaz kəməri kimi daha geniş imkanlar var. Bundan başqa TDT ölkələri arasında investisiya yatırımı və onlayn ticarətin genişlənməsi də önəmli imkanlardan hesab olunur (Türkmənbaşıdakı Zirvə Görüşü, 2022). Son illər tərəflər arasında iqtisadi əlaqələr çox inkişaf etmişdir. 2022-ci ilin ilk 10 ayı ərzində Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsi 5 mlrd. dollar, Azərbaycan-Türkmənistan arasında ticarət dövriyyəsi isə 400 mln.dollar təşkil etmişdir. Qeyd edək ki, keçən illə müqayisədə, bu il Azərbaycanla Türkmənistan arasında ticarət dövriyyəsi 5 dəfə artmışdır.

4 dekabr 2022-ci ildə Türkmənistanın Türkmənbaşı şəhərində Azərbaycan, Türkiyə və Türkmənistan liderlərinin iştirakı ilə üçtərəfli sammit baş tutdu. Azərbaycan Türkmənistanla 2017-ci il sazişi ilə strateji tərəfdaş, Türkiyə ilə isə 2021-ci il Şuşa Bəyannaməsi ilə strateji müttəfiqdir. Zirvə görüşündə ticarət, enerji və nəqliyyat başda olmaqla 3 ölkə arasında əməkdaşlığın bütün sahələrdə daha da genişləndirilməsinə dair atılacaq addımlar müzakirə olundu və razılaşmalar əldə olundu. Birinci Zirvə görüşünün Birgə Bəyanatı, energetika, ticarət, iqtisadi, gömrük, nəqliyyat, elm, təhsil, mədəniyyət sahələrində üçtərəfli sənədlər bu istiqamətdə atılan əməli addımlar təşkil edir.

Türkmənbaşı zirvə görüşündə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsinin 45 faiz artaraq 5 milyard dollara çatdığını söylədi. Azərbaycandan Türkiyə iqtisadiyyatına 20 milyard dollara yaxın, Türkiyədən Azərbaycan iqtisadiyyatına 14 milyard dollara yaxın sərmayə yatırıldığını bildirdi. O, bu il Türkmənistanla ticarət dövriyyəsinin də 5 dəfə artdığını diqqətə çatdıraraq, bunun rekord göstərici olduğunu vurğuladı. İlham Əliyev Azərbaycan, Türkiyə və Türkmənistanın nəqliyyat-logistika sahəsində böyük uğurlara imza atdığını, ölkələrimiz tərəfindən bir çox layihələr icra edildiyini qeyd etdi. Prezident bildirdi ki, bu layihələr öz növbəsində nəqliyyat bağlantıları sahəsində əməkdaşlıq üçün yeni imkanlar açır (Türkmənbaşıdakı Zirvə Görüşü,2022).

Ticarətin artması logistika infrastrukturunun inkişafını zəruri edir. Hazırda Azərbaycan və Türkmənistan Xəzərin əks sahillərində, Türkiyə isə Aralıq və Qara dənizdə logistika imkanlarını genişləndirir. Bakı-Tbilisi-Qars dəmiryolunun yük ötürmə həcminin 1 mln. tondan 5 mln. tona çatdırılması üçün 100 mln. dollardan artıq sərmayə ayrılıb. Dəniz tranzitinin ötürmə gücünün artırılması məqsədilə yeni tanker, bərə və yük gəmilərinin, hava tranziti imkanlarının artırılması məqsədilə isə əlavə 9 yük təyyarəsinin alınması planlaşdırılır. Durmadan artan ticarət ənənəvi marşrutlarla yanaşı yeni nəqliyyat dəhlizlərinin - *Zəngəzur dəhlizinin* açılmasını aktual edir. İ.Əliyev qeyd etdi ki, Azərbaycan artıq Zəngəzur dəhlizinin açılması üçün zəruri olan dəmiryol xəttinin 40%-ni, avtomobil yolunun isə 70%-ni yekunlaşdırıb (Türkmənbaşıdakı Zirvə Görüşü,2022).

Türkmənbaşı zirvə görüşünün nəticələri göstərdi ki, bu ölkələr arasında mövcud olan çox şaxəli ikitərəfli münasibətləri tamamlayan, ortaq maraq və fayda əsasında türk dövlətləri arasında əlaqələrin daha da inkişafı məqsədini güdən Azərbaycan-Türkiyə-Türkmənistan üçtərəfli formatının inkişaf etdirilməsində mühüm mərhələ təşkil edəcəkdir.

Azərbaycan və Türkmənistanı mədəni-tarixi faktorlardan başqa oxşar coğrafi şərait birləşdirir. Hər iki tərəfin açıq dənizlərə və okeanlara çıxışı yoxdur. Bu amil tərəfləri fərqli cəhətlər üzrə diplomatiyanı aktivləşdirməyə stimullaşdırır. 30 il ərzində Bakı əsasən Qərb, Aşqabad isə Şərq istiqaməti üzrə əlaqələri inkişaf etdirmişdir. Hazırda əldə edilən nailiyyətlərin, resursların, əlaqə kanallarının mübadiləsi ekzistensial zərurətə çevrilmişdir. Bu Azərbaycan, Türkiyə və Türkmənistana iqtisadi mənfəət gətirməklə yanaşı, hər 3 tərəfin siyasi çəkisinin artmasına şərait yaradacaqdır.

Çoxtərəfli əlaqələrdə enerji də vacib əhəmiyyət kəsb edir. Təbii qaz ehtiyatlarına görə dünyada dördüncü yerdə olan Türkmənistan qazının böyük hissəsini Çinə ixrac edir. 2019-cu ildə Çinin boru kəməri vasitəsilə qaz idxalının 60%-dən çoxu Türkmənistanın payına düşürdü. Bu göstərici ilə Türkmənistan Çinin ən böyük təbii qaz tədarükçüsü idi. Lakin, Rusiyanın Çinə enerjini güzəştli qiymətlə satması Türkmənistanın Asiya bazarında mövqelərini zəiflədir. Rusiya öz növbəsində Türkmənistan üçün alternativ bazar deyil. Rəsmi Aşqabad Qərbin ikinci dərəcəli sanksiyalarından ehtiyat edib, Rusiya ilə münasibətləri inkişaf etdirmir. Digər tərəfdən Rusiyanın Qərbə təzyiq etmək məqsədilə Qazaxıstan neftinin nəqlinə bir neçə dəfə mane olması Aşqabadın Moskvaya etibarını azaltmışdır.

Asiyada qaz qiymətləri aşağı düşdüyü halda 2022-ci ilin avqustunda Avropa bazarında bir $m^3$ qazın qiyməti 2700 dollara çatmışdı. Qış aylarında bu göstəricinin daha yüksək olacağı şübhə doğurmur. Ona görə də Türkmənistanın Avropaya nəzər yetirməsi istər diversifikasiya, istərsə də iqtisadi mənfəət baxımından əhəmiyyətlidir. Çin ilə yanaşı, Avropaya da qazın nəqli Türkmənistanın beynəlxalq arenada

siyasi çəkisini artırıb, ölkəyə yeni investisiyaların cəlb edilməsinə şərait yarada bilər. Azərbaycan və Türkiyə Türkmənistana bu məsələdə yardım etməyə hazırdır. Tərəflər arasında artıq müəyyən enerji razılaşması mövcuddur. 2021-ci ildə Azərbaycan İran vasitəsilə Tükrmənistandan SVOP şəklində 1,5 mlrd $m^3$ qaz almağı razılaşdırmışdır. Azərbaycan türkmən qazı sayəsində yerli tələbatı ödəyib, Qərb istiqamətində öz ixrac potensialını artırmaq imkanı qazanır. Perspektivdə yeni enerji xətlərinin çəkilməsi Türkmənistana Azərbaycan və Türkiyə vasitəsilə Avropaya qaz nəql etməyə imkan verəcəkdir.

**Nəticə**

Türkiyə "Yenidən Asiya" yanaşması ilə dünyanın mərkəzinin Qərbdən Şərqə keçdiyini vurğulayarkən, Qazaxıstan, Rusiya və Çinlə balanslı münasibətlərin vacibliyini anlayır. Özbəkistan iqtisadiyyatını xarici dünyaya açır, Türkmənistan ixrac imkanlarını artırmağa, Qırğızıstan xarici investorlar vasitəsilə ölkəyə maliyyə resursları cəlb etməyə çalışır. Azərbaycan işğal altındakı torpaqlarını azad etməklə yeni iqtisadi sıçrayışa hazırlaşır. Yəni qlobal sistemin dəyişməsi prosesində inkişaf edən Türk dünyası yeni bir mərhələyə qədəm qoyub. İnstitusional strukturlar quraraq əlaqələri gücləndirən Türkiyə dövlətləri yeni dövrün transformasiyalarına öncülük edir. Bu kontekstdə Türk dünyası iqtisadi inteqrasiyanı artıraraq dəyişiklikdən daha çox faydalana bilər. Türkiyənin ehtiyac duyduğu təbii sərvətlər postsovet türk dövlətlərində vardır. Eynilə, Türk dövlətləri Türkiyənin qabaqcıl istehsal sənayesi təcrübəsini nümunə götürür. Bu baxımdan gömrük, turizm, ticarət, müdafiə və təhsil sahələrində daha çox əməkdaşlıq etmək arzusunda olan Türk dünyası rifahın yayılmasını ön planda tutur. Bununla belə, orta və uzunmüddətli perspektivdə birgə investisiyalara, layihələrə və təşəbbüslərə daha çox diqqət yetirilməlidir. Bu baxımdan Türkiyənin rəhbərliyi ilə inkişaf etdirilən sərmayələrin Azərbaycanda olduğu kimi qarşılıqlı surətdə və balanslaşdırılmış şəkildə inkişafı vacibdir. Bundan əlavə, Türk dövlətlərinin Türkiyə ilə ticarət əlaqələrini inkişaf etdirməli və müxtəlif bölgələrdə birgə müəssisələri daha da təşviq etməlidirlər.

2023-cü ilin fevralında mərkəzi Kahramanmaraş olmaqla Türkiyənin cənubunda baş vermiş güclü zəlzələ nəticəsində 50.399 insan həlak oldu, 107.204 nəfər yaralandı. TDT ölkələri istər axtarış-xilasetmə işlərində, istərsə də zəlzələdən zərər çəkmiş əhaliyə ilk yardım çatdıran dövlətlər oldu. İlk və ən böyük yardım göstərən ölkə Azərbaycan oldu. Türkiyə prezidenti R.T.Ərdoğan 2023-cü ilin martında Ankarada keçirilən TDT dövlət başçılarının Fövqəladə Zirvə görüşündəki çıxışında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın qardaş Türkiyəyə göstədiyi yardımlarının ölkəsi üçün çox dəyərli olduğunu qeyd etdi. Zirvə görüşünün sonunda Ankara Bildirisi kimi yayımlanan bəyanatla TDT ölkələri bundan sonra təbii fəlakətlər zamanı və digər istiqamətlərdə koordinasiyalı fəaliyyət haqda razılığa gəldilər (TDTOZAB,2023) Səmərqənd, Türkmənbaşı və Ankara zirvə görüşləri zamanı əldə olunan razılaşmalar Türk inteqrasiyasiyasının daha da genişlənib dərinləşəcəyinin müjdəçisi olub Avropa İttifaqına bənzər bir inteqrasiya birliyinin yaradılacağına ümidləri artırır.

Nəticə etibarilə, Türk dünyası iqtisadi əməkdaşlıq və inteqrasiyanı daha çox ön planda tutsa, bu, tərəflərə daha çox fayda gətirəcək və onların strateji əhəmiyyətini artıracadır. Buna uyğun olaraq Türk dünyasının iqtisadi rifahı, xarici ticarəti və inteqrasiyası müxtəlif sahələrdə inkişaf edəcək və beynəlmiləlləşərək gələcəkdə güc mərkəzinə çevrilmək imkanı qazanacaqdır.

**Qaynaqlar**


XİN rəhbəri: "Azərbaycan-Türkiyə-Türkmənistan Birinci Zirvə Görüşü tarixi əhəmiyyətə malikdir". https://ordu.az/az/news/244773/xin-rehberi---azerbaycan-turkiye-turkmenistan-birinci-zirve-gorusu-tarixi-ehemiyyete-malikdir- (14.12.2022)

Türkmənbaşıdakı Zirvə Görüşü: Bu əməkdaşlıq platforması böyük coğrafiyanı əhatə edəcək. https://oxu.az/politics/675011 (14.12.2022)

Türkiyə iqtisadi əlaqələri. https://ankara.mfa.gov.az/az/content/106/azerbaycan-turkiye-iqtisadi-elaqeleri (19.03.2023)

Bilgehan,Atsız Gökdağ. Türkiye-Türk Cumhuriyetleri İlişkileri.

https://www.tudev.org.tr/turkiye-turk-cumhuriyetleri-iliskileri-prof-dr-bilgehan-atsiz-gokdag/

Deniz, İstikbal. Türk Dünyasının Ekonomik Potansiyeli. https://kriterdergi.com/dosya-turk-dunyasi/turk-dunyasinda-ekonomik-is-birligi

Mehmet, Yüce.(2022) Orta Asya Türk Cumhuriyyetleri Ve Türkiye ile İlişkiler. SETA Yayınları, 58 s.

Türk Devletleri Teşkilatı Olağanüstü Zirvesi Ankara Bildirisi (16.03.2023) https://www.tccb.gov.tr/assets/dosya/bildiri/2023-03-16-bildiri.pdf

Kayalı, H. (2018). "Türkiye-Türkmenistan Ticari İlişkileri (1992-2018)", Marmara Türkiyat Araştırmaları Dergisi, Cilt: 5, Sayı: 2, s.163.

Türkiye-Türk Cumhuriyetleri İlişkileri. https://www.tudev.org.tr/turkiye-turk-cumhuriyetleri-iliskileri-prof-dr-bilgehan-atsiz-gokdag/

https://www.imf.org/en/Countries.(18.02.2023)

"Uzbekistan Trade Summary". (15.02.2023). World Bank, https://wits.worldbank.org/countrysnapshot/en/UZB

"Turkmenistan Trade Summary". (20.03.2023). World Bank, https://wits.worldbank.org/CountryProfile/en/Country/TKM/Year/2000/TradeFlow/EXPIMP/Partner/by-country

# Azərbaycanda İnternet Bankçılığa İstehlakçıların Münasibətinin Təhlili

**Həsənova Səidə**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**seidehesenva.sh@gmail.com**

## Xülasə

Texnologiyanın inkişafı nəticəsində ən çox təsirlənən sektorlardan biri şübhəsiz ki, bank sektoru olmuşdur. Son illərdə texnologiyadakı inkişafların gətirdiyi istifadəçi tələbləri çərçivəsində banklar özlərini dəyişməyə və yeniləməyə başladılar. Bu müddətdə banklar inkişaf edən texnologiya ilə birlikdə rəqabətə girmişlər. Bankların bu rəqabətini artıran amil internet və mobil bankçılıq xidmətləridir. Banklar arasında rəqabət və artan müştəri tələbləri bankları müştərilərinə daha yaxşı xidmət göstərməyə sövq edir. Banka getmədən bank xidmətlərindən istifadə etmək imkanı dünyanın hər yerində olduğu kimi Azərbaycanda da istifadə olunmalıdır. Yaradılan proqramların müxtəlif yaşlarda, müxtəlif təhsil səviyyələrində və müxtəlif gəlirlərdə olan insanlar tərəfindən istifadə üçün nəzərdə tutulması və başa düşülməsi vacibdir. Azərbaycanda necə hazırlanmasından asılı olmayaraq, sürətlə inkişaf edir. Yəni əvvəlki illərdə olduğu kimi banka getməyə daha çox vaxt sərf etməyə ehtiyac yoxdur. Amma eyni zamanda insanların davranışlarını da araşdırmaq lazımdır. İnsanların banklara münasibətində, xüsusən də internet bankçılığın davranışında güvən əsas prinsiplərdən biridir. Vətəndaşların daha çox internet bankçılıqdan istifadə etməsi üçün banklar riskləri azaltmaq, etibarı artırmaq, tətbiqdən istifadəni daha anlaşıqlı və yaddaqalan etmək üçün bütün lazımi addımları atmalıdırlar. İnsanların internet bankçılığa münasibətini öyrənmək üçün 140 nəfərin iştirakı ilə tam onlayn sorğu təşkil etdim. Bəzi təhlillər apararaq sorğunun nəticələrini ətraflı izah edilmişdir. Müsbət nəticələr insanların internet bankçılığa marağının və bankların uğurunun göstəricisidir.

**Açar sözlər:** internet bankçılıq, mobil bankçılıq, bank, insanların münasibəti

## Summary

The banking industry has undoubtedly been one of the areas most impacted by technological advancement. In recent years, banks have started to adapt and update themselves in response to user requirements brought on by technological advancements. Banks have gotten more competitive during this time as well as new technology has. The internet and mobile banking services are the element that makes banks more competitive. In other words, unlike in the past, you won't have to spend more time going to the bank. However, it is also important to look at how people behave. One of the fundamental ideas is that banks should be trusted, especially when it comes to how people conduct their online banking. Banks must take all necessary measures to lower risks, boost confidence, make use of the application more understandable, and make it more memorable if they want people to use internet banking more frequently. To find out the attitude of people to internet banking, I organized a full online survey with the participation of 140 people. Having done some analysis, I detailed the results of the survey. Positive results are an indicator of people's interest in internet banking and the success of banks.

**Keywords:** management methods, business entities, modern management

## Giriş

Mövzunun aktuallığı olaraq qeyd edə bilərik ki, dünyamız inkişaf edib, müasirləşdikcə rəqəmsallaşma da həyatımızın bir parçasına çevirilir. Texnologiya əsrində yaşamaq bizi gündəlik həyatımızda texnologiyadan daha çox istifadə etməyə vadar edir. Beləliklə, hər sahədə olduğu kimi eləcə də, bank sektorunda da rəqəmsal innovasiyalar tətbiq edilir. Günümüzdə bank mühitinin yüksək rəqabət içərisində olması onların bu texnoloji yeniliklərdən səmərəli şəkildə istifadə etməsinə səbəb olur.

Banklar kommersiya müəssisələri və kommersiya təşkilatlarıdır. Bankların internet bankçılığına üstünlük vermələrində ən mühüm məqsəd gəlirlilikdir. Banklar gəlirliliyi artırmaq üçün texnoloji inkişafları daha yaxından izləyə biləcəklər və inkişaflar artdıqca bank filiallarının və bankomatlarının

əhəmiyyəti azalacaq, pul çıxarma və depozit istisna olmaqla, bütün əməliyyatlar internet bankçılıq vasitəsilə həyata keçiriləcək (Əliyeva, 2016).

Rəqəmsal dövrdə bankları rəqiblərindən fərqləndirəcək ən mühüm marketinq tendensiyalarından biri rəqəmsal bankçılıq xidmətləridir. Günümüzdə müştərilərin vaxtı məhduddur. İstehlakçılar lazım olduqda yerindəcə mobil bankçılıq xidmətlərinə çıxışı asanlaşdıran kanallar axtarırlar. Bu vəziyyəti nəzərə alaraq, rəqəmsal bank xidmətlərinin bu dövrün müştəri ehtiyaclarını ödəyə biləcək ən effektiv xidmətlərdən biri olduğunu deyə bilərik. Əvvəllər müştərilər pul çıxarmaq və ya mədaxil etmək üçün uzun müddət bank filiallarında növbə gözləmək məcburiyyətində qalırdılarsa, bu gün alternativ bank kanalları sayəsində ağıllı mobil telefon, planşet və ya kompüter vasitəsilə çox qısa müddətdə rahatlıqla əməliyyatlar həyata keçirə bilirlər. Bank və müştərilər üçün qarşılıqlı üstünlük təmin edən bu xidmət tətbiqi sayəsində bank müştəriləri vaxt və enerjiyə qənaət edir, banklar isə əməliyyat xərclərini azaldırlar. Bu səbəbdən internet bankçılıq banklar və müştərilər üçün əhəmiyyətli dəyərə malikdir.

Məqalənin əsas məqsədi insanların bankların təklif etdiyi internet bankçılıq xidmət və keyfiyyətlərinə qarşı münasibətlərini təhlil etməkdir.

Tədqiqat metodu kimi əsasən sorğu, analiz, müqayisəli təhlil, sintez üsullarından istifadə edilmişdir.

**İnternet bankçılığın inkişafı və vacibliyi**

İnternet sistemi çox qısa müddətdə bankların diqqətini cəlb etmiş və banklararası rəqabətdə mühüm qabaqcıl bank elementinə çevrilmişdir. Dövrün yeniliklərini özündə cəmləşdirən bank imici ilə yanaşı, müştərilərinə daha asan və sürətli xidmət göstərən bank imicini yaratmaq istəyən banklar internet bankçılıq xidmətləri də təklif edirlər. Bank xidmətləri bir çox cəhətdən internetdə xidmət göstərmək üçün əlverişlidir. Əməliyyatların əsasən qeyri-fiziki olması internet üzərindən xidmət göstərməyin ən böyük üstünlüyüdür. Bu yolla həm xərcləri azaltmaq, həm də daha keyfiyyətli xidmət göstərmək olar. Əməliyyatlar və sorğular işçilərə ehtiyac olmadan həyata keçirilə bilər. İnternet bankçılıq sayəsində xərclər, sərf olunan vaxt və mümkün səhvlər azalır. Müştərilər xidmətləri daha sürətli və asan ala bilərlər. Bundan əlavə, müştərilər istədikləri məlumatlara daha ətraflı şəkildə çatmaq imkanı əldə edirlər.

Daha öncə edilən tədqiqat və araşdırmalar göstərir ki, Rəqəmsal bankçılıq həyatı təkbaşına asanlaşdıran bir xidmətdir. Bankın əməliyyat müddətləri və filialda gözlənilən növbələr gün ərzində insanların vaxtının əhəmiyyətli bir hissəsinin boşa getməsinə səbəb ola bilər. Rəqəmsal bankçılıq filialda həyata keçirilə bilən bir çox əməliyyatı saniyələr ərzində tamamlaya bilir və xeyli vaxta qənaət etməyə imkan verir. Rəqəmsal bankçılığın ən mühüm üstünlüyü ondan ibarətdir ki, istər kompüter, istərsə də ağıllı telefon və ya planşetlərdə xidmət göstərərək istənilən vaxt istənilən yerdən daxil ola bilərsiniz. Bundan əlavə, bu gün bütün dünyada təsirini hiss etdirən koronavirus epidemiyasının yaratdığı pandemiya prosesi ilə filial bankçılığı xeyli yavaşlayıb. Qapalı mühitdə insanlarla yaxın təmasda olmamaq, həm özünüzün, həm də başqalarının sağlamlığını riskə atmamaq üçün rəqəmsal bank əməliyyatlarından istifadə edə bilərsiniz.Rəqəmsal bankçılığın üstünlüklərindən biri də bu xidmətin 7/24 fəaliyyət göstərməsidir. Banklar günün müəyyən saatlarında filiallarda xidmət göstərir və bu saatlar sizin iş və ya dərs saatlarınızla üst-üstə düşə bilər. Bundan əlavə həftə sonları bütün banklar bağlı olduğundan bu günlərdə bank əməliyyatlarını həyata keçirə bilməyəcəksiniz. Rəqəmsal bankçılıq sayəsində siz iş saatları xaricində, istədiyiniz gün və istənilən vaxt ödənişlərinizi ödəyə, pul köçürmələri edə və müştərisi olduğunuz bankın digər təkliflərindən yararlana bilərsiniz.

İstifadəçilərinə bankçılıq adına bir çox asanlıqlar təqdim edən rəqəmsal bank sistemləri; Şifrə, təhlükəsizlik kodları , mobil açar kodu və iki addımlı təsdiqləmə kimi xüsusiyyətləri ilə müştərilərinin

təhlükəsizliyini ən yüksək səviyyədə təmin edir və bütün keçmiş əməliyyatlara asan giriş imkanı verərək, xərclərin idarə olunmasına kömək edir.

İnformasiya texnologiyalarının inkişafı bank sektoru üçün yeni üfüqlər açıb. Belə ki, texnoloji inkişaflardan əvvəl, müəssisələr satışa təqdim etdikləri mal və ya xidmətləri ən sərfəli qiymətə təklif etdikdə, məhsul bazarda satılırdı. Bu gün məhsulun və ya xidmətin alıcı tərəfindən seçilə bilməsi üçün məhsulun ən qısa zamanda və ən yaxşı şəkildə müştəriyə təqdim edilməsi və müştəri məmnuniyyətinin maksimuma çatdırılması vacibdir. Alıcılar mal və ya xidmət aldıqda məhsul və ya xidmətin keyfiyyəti, müştəri məmnuniyyəti, məhsulun qiyməti, etibarlılığı, əlçatanlığı kimi xüsusiyyətləri nəzərə alaraq müəssisələrlə alış-verişini davam etdirir.

Ümumiyyətlə, internet bankçılığın dörd əsas mərhələsindən danışmaq olar;

Mərhələ 1; İnternetdən məlumat və marketinq məqsədləri üçün istifadə etməkdir. Bu mərhələdə müştərilərdən gələn şikayətlər sistemdə qeydə alınır.

Mərhələ 2; Müştərilərin cəlb edilməsinə diqqət yetirmək və sadə interaktiv xidmətlərin tətbiqi. Bu mərhələdə yeni müştərilər qazanmaq üçün əvvəllər toplanmış məlumatları qiymətləndirmək vacibdir.

Mərhələ 3; Bu, demək olar ki, bütün bank xidmətlərinin internet üzərindən göstərilməsinə başlanması və bankın veb sisteminə qoşulması prosesidir. Demək olar ki, bütün əməliyyatlar internet üzərindən müştərilərə təklif olunur.

Mərhələ 4; Müştəri məlumat bazasının yaradılması və inkişafı gəlirlilik təhlilinin aparılması prosesidir. Bu yolla bazarı seqmentləşdirmək və hədəf auditoriyanı müəyyən etmək asanlaşır.

Bu dörd mərhələdən sonra nəzərdə tutulan digər mərhələ elektron pul çıxarma xidmətlərini əhatə edir. Bu mərhələyə görə internet bankçılıq pulun fiziki olaraq yox olmasını təmin edəcək nəhəng bir addımdır. Sadə dillə desək, hazırlanan elektron pul kisəsi tətbiqlərinin daha da inkişafı nəticəsində fiziki şöbələrə ehtiyac qalmayacağı bildirilir.

Burada ən mühüm məqam internet bankçılığın digər kanallardan fərqlənərək xidmətlərə öz töhfəsini verməsidir. Bu gün internet bankçılıq öz başına bir kanal kimi qəbul edilib. İnternet bankçılığına daxil olmaq üçün müştəri şifrəsi və müştəri kodu ilə yanaşı, parol sorğuları da aparılır. Beləliklə, müştərilərin bank xidmətlərinə təhlükəsiz çıxışı təmin edilib. Bundan əlavə, inkişaf etmiş texnoloji infrastruktur sayəsində şəxsi birdəfəlik parollar(OTP kod) hazırlanır və müştərilərin rezervasiyaları xeyli azalır. İnternet bankçılıq və mobil telefonlar arasında koordinasiya təmin edilir və istənilən xidmət fəaliyyətindən istifadə nəticəsində mobil telefonlar vasitəsilə məlumat verilə bilər. İnternet bankçılığın inkişafının ən mühüm səbəblərindən biri istehlakçıların sürətlə dəyişən tələblərinə cavab vermək istəyidir. İnternet bankçılıq bu ehtiyaclara cavab vermək və müştərilərə asanlıqla çatmaq üçün ən vacib kanallardan biridir.

Necə ki, telefonsuz bir həyat bu gün insanların çoxu üçün kabusa çevrilir, internet bankçılıq da yaxın gələcəkdə eyni əhəmiyyətə malik olacaq. İstehlakçılar internet bankı olmayan bankın müştərisi olmaq istəməyəcəklər. İnternet bankçılıqdan xəbərsiz olan istehlakçılar imkanlar dairəsində çətin ki, yer tapsınlar.

Azərbaycan Mərkəzi bankının son statistik göstəricilərinə əsasən ölkəmizdə fəaliyyət göstərən banklar, filiallar, şöbə və ATM -ləri haqqında 31.12.2019- 30.09.2022-ci il tarixləri arasında qeyd olunan məlumatlar göstərir ki, ölkəmizdə 2019- cu ildə 28- i özəl, 2 -si dövlət olmaqla ümümilikdə 30 bank fəaliyyət göstərirdisə və uyğun olaraq, filial, şöbə, ATM sayları 509, 133, 2647 təşkil edirdisə, 30.09.2022 – ci il tarixində dövlət banklarının sayı sabit qalaraq, 24- ü özəl bank olmaqla ümumilikdə

26 bank, 481 filial, 93 bank şöbələri, 2964 Bank ATM-ləri fəaliyyət göstərir. Bu müddət ərzində bank, filial və şöbə saylarının azalıb, ATM-lərin sayının artması Azərbaycanda fəaliyyət göstərən bankların günümüzün tələblərinə ayaq uyduraraq texnoloji yenilikləri tətbiq etdiyini görürük.

**Cədvəl 1: Maliyyə bazarlarının iştirakçıları haqqında ümumi məlumat**

| | 12/31/2020 | 9/30/2021 | 10/31/2021 | 11/30/2021 | 12/31/2021 | 1/31/2022 | 2/28/2022 | 3/31/2022 | 4/30/2022 | 5/31/2022 | 6/30/2022 | 7/31/2022 | 8/31/2022 | 9/31/2022 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Bankların sayı** | **26** | **26** | **26** | **26** | **26** | **26** | **26** | **26** | **26** | **26** | **26** | **26** | **26** | **26** |
| Dövlət bankları | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| Özəl banklar | 24 | 24 | 24 | 24 | 24 | 24 | 24 | 24 | 24 | 24 | 24 | 24 | 24 | 24 |
| Xarici kapitallı banklar | 12 | 12 | 12 | 12 | 12 | 12 | 12 | 12 | 12 | 12 | 12 | 12 | 12 | 12 |
| nizamnamə kapitalının 50%-dən 100% -ə qədərini təşkil edən | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 | 7 |
| - xarici bankların yerli filialları | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| nizamnamə kapitalının 50%-dən az olan hissəsini təşkil edən | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| İlin əvvəlindən lisenziya alan bankların sayı | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| İlin əvvəlindən lisenziyası ləğv edilmiş bankların sayı | 4 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Bankların filiallarının sayı | 455 | 466 | 473 | 474 | 479 | 480 | 481 | 486 | 487 | 491 | 492 | 480 | 483 | 481 |
| Bankların şöbələrinin sayı | 109 | 103 | 97 | 97 | 97 | 97 | 97 | 95 | 97 | 96 | 96 | 95 | 94 | 93 |
| Bankların ATM-lərin sayı | 2715 | 2854 | 2870 | 2882 | 2908 | 2920 | 2931 | 2934 | 2933 | 2933 | 2935 | 2944 | 2960 | 2964 |
| Bank işçilərinin sayı | 18708 | 19488 | 19835 | 20035 | 20329 | 20601 | 20834 | 21031 | 21227 | 21379 | 21526 | 21729 | 21947 | 22116 |

**Mənbə:** Azərbaycan Respublikasının Mərkəzi bankının rəsmi saytı, https://www.cbar.az/pages/stats

Banklar əvvəllər kartlarda müştəri məlumatlarını saxlayırdılar. Bu kartlardakı məlumatların kompüterlərə ötürülməsi texnologiyadan istifadənin ilk mərhələsi kimi önə çıxır. Bundan sonra başqa proseslər meydana çıxdı. Onlayn əlaqə quruldu və telefon bankçılığı başladı. Zaman keçdikcə telefon bankçılığı inkişaf etmiş və bank əməliyyatları üçün kanala çevrilmişdir.

Azərbaycanda internet bankçılığın qəbulu hələ də istehlakçılar arasında kifayət qədər formalaşmamasına baxmayaraq əhəmiyyətli yol qət edib. Xüsusilə əhalinin mobil qurğular və kompüterlərdən istifadə üzrə biliklərinin yetərli olmaması bu xidmətlərdən istifadənin kütləviləşməsinə maneə törədir. Eyni zamanda, banklara inamın aşağı olması sözügedən xidmətlərdən istifadənin təhlükəsizliyini də şübhə altına almış olur (https://uploads.cbar.az/assets/7095796a70cfdfac360b9a15a.pdf).

Azərbaycanda da müasir dövrün əsas çağırışlarından olan rəqəmsal bankçılığın inkişafı üzrə müsbət trend formalaşmışdır. 01.07.2022-ci il tarixinə ölkədə fəaliyyət göstərən 26 bankdan 25-i tərəfindən internet bankçılıq, 22-si tərəfindən isə mobil bankçılıq xidməti təqdim olunur. Mərkəzi bankın təqdim etdiyi statistik göstəricilər intenet bankşılıqla aparılan ödənişlərin sayının əhəmiyyətli dərəcədə artdığını göstərir. Belə ki, 2022-ci ilin birinci yarımili ərzində bank müştərilərinin cari hesablarından aparılan köçürmələrin ümumi sayı 111.7 mln. ədəd, həcmi isə 151.1 mlrd. manat təşkil etmişdir. Aparılan köçürmələrin say üzrə 79%-i (88.5 mln. ədəd), həcm üzrə isə 77%-i (116 mlrd. manat) məhz rəqəmsal bankçılıq vasitəsilə reallaşdırılmışdır. 2022-ci ilin 6 ayı ərzində internet bankçılıq xidmətləri vasitəsilə aparılan müştəri köçürmələrinin həcmi ötəni ilin analoji dövrü ilə müqayisədə 65% artaraq 97.3 mlrd. manat olmuşdur (https://www.cbar.az/page-678/payment-systems-review).

Azərbaycanda bankların təklif etdiyi internet bankçılıq xidmətlərinə ABB timsalında nəzər salaq.

Azərbaycan Beynəlxalq bankı həm fiziki, həm də hüquqi şəxslərə "internet banking" xidmətini təklif edir. İmkanlar; Hesablar haqqında məlumat: Cari hesablar: Hesablarınız haqqında ümumi məlumat əldə edə bilərsiniz: hesabın növü, hesab açılan filian kodu, hesab üzrə qalıq; Hesaba müştəri tərəfindən ad təyin edilməsi.

Ödəniş kartları üzrə:
Kart hesabı haqda məlumatın açıqlanması – kartın növü, balansın öyrənilməsi, SMS-xəbərdalıq xidmətinə qoşulu olub-olmaması haqda məlumat, kartın statusu; Əməliyyatlarınıza nəzarət və ya hesabdan çıxarış əldə edə bilərsiniz; SMS-xəbərdarlıq xidmətinə qoşula və ya ləğv edə bilərsiniz, SMS-xəbərdalıq dilini dəyişdirə bilərsiniz; Kartın müvəqqəti bloklaşdıra və blokdan çıxara bilərsiniz; Kartınızı daimi bloklaşdıra bilərsiniz; Köçürmələr apara və ya xidmət haqlarını ödəyə bilərsiniz.
Köçürmələr:
Bu bölmədə Siz ödəniş kartınız vasitəsilə cari hesablarınıza və ya digər karta köçürmə edə biləsiniz.
Xidmət haqlarının ödənişi: Kommunal xidmətlər - qaz, su, elektrik enerjisi haqlarının ödənişi;
İnternet: müxtəlif internet operatorlarının xidmət haqlarının ödənişi;
Mobil rabitə: müxtəlif mobil rabitə operatorlarının xidmət haqlarının ödənişi;
TV: müxtəlif TV şirkətlərinin xidmət haqlarının ödənişi.
İB xidməti çərçivəsində müştəri tərəfindən məsafədən aşağıdakı (lakin bunlarla məhdudlaşmayan) əməliyyatlar aparıla bilər:

- bank hesabından çıxarışların alınması (həmçinin, MT 940 formatında);
- hesab qalıqlarına dair məlumatların əldə edilməsi;
- bankdaxili və ölkədaxili (manat və xarici valyutada) köçürmələrin aparılması;
- konvertasiya əməliyyatlarının aparılması;
- əmək haqlarının köçürülməsi;
- xarici köçürmələrin aparılması (SWIFT vasitəsilə və rus rublunda köçürmələr);
- xarici köçürmələrin statuslarının izlənilməsi (“Tracking” funksiyası);
- köçürmələrin icra olunması barədə təsdiqedici sənədlərin əldə edilməsi (“Advice” və MT103 formatlı SWIFT mesajı);
- ƏDV və büdcə ödənişlərin aparılması və s.

**İnternet Bankçılığının üstünlükləri və mənfi cəhətləri**

İnternet bankçılığın banklar və müştərilər üçün üstünlükləri ilə yanaşı, mənfi cəhətləri də var. Banklar və müştərilər üçün internet bankçılıqdan istifadənin üstünlükləri və çatışmazlıqları aşağıda müvafiq olaraq nəzərdən keçirilir:
Banklar üçün üstünlüklər:
• Onlayn bankçılıq xidmətini reklam edən banklar müştərilərə filiala getmədən daha çox əməliyyatlar həyata keçirməyə imkan verir.
• Qiymət baxımından digər alternativ paylama kanalları ilə müqayisədə İnternet
Bank xidmətlərinin dəyəri daha aşağıdır.
• İnternet bankçılıqdan istifadə bankın filial və fərdi xərclərini azaldır. İnternet bankçılıqda qabaqcıl xidmətlər göstərən banklar bununla da xərclərini azaldır və üstünlük qazanır.
• Texnologiyadakı inkişafları internet bankçılığına uyğunlaşdıraraq, banklar daha çox məhsulla daha çox müştəriyə çatır. Bu, bankın nüfuzunun artmasına kömək edir (Yıldırım, 2006).
İnternet bankçılığın qiyməti aşağı olduğu üçün müştərilərin internet bankçılıq vasitəsilə əməliyyatları bankın xərclərini aşağı salacaq və rəqiblərinə qarşı üstün mövqe qazanmasına kömək olacaq.
Banklar üçün mənfi cəhətlər
• Texnologiyanın inkişafının internet bankçılıqda tam əks oluna bilməməsi, müştərilərin internet bankçılıqdan daha az xidmət alması bankın müştəri itirməsinə səbəb ola bilər.

• İnkişaf edən texnologiya ilə banklar, fırıldaqçıların müxtəlif üsullar təyin edərək, internet bankçılıq vasitəsilə müştəri məlumatlarına asanlıqla daxil ola bilmələrinə qarşı təhlükəsizlik tədbirləri almaqda daha fəal olmağa məcbur olmuşdur.
• İnternet bankçılıq vasitəsilə edilən saxta əməliyyatlara qarşı lazımi tədbirlərin görülməməsi müştərilərin şikayətlərini aradan qaldırmaq üçün bankın öz büdcəsindən xərcləri qarşılamasına səbəb ola bilər.
Müştərilərini kifayət qədər məlumatlandırmamaq müştəri itkisinə səbəb ola bilər. Məlumatlı olmamaq müştərilərin hesab təhlükəsizliyinə şübhə etməsinə səbəb ola bilər ki, bu da müştərilərin itirilməsinə səbəb ola bilər.
• Bankların internet bankçılıq fırıldaqlarına qarşı davamlı olaraq görülən tədbirlərin banka ayrıca xərc yaratması banka mənfi təsir göstərə bilər (Mermeroğlu 2015, Yıldırım, 2006).
Bankın texnologiyadakı inkişafları internet bankçılığa uyğunlaşdırmaqda çətinlik çəkməsi, əməliyyatlarını internet bankçılıq vasitəsilə etmək istəməyən müştərilərin mütləq bu alternativ paylama kanalına yönəldilməsi və internet bankçılıq vasitəsilə edilən fırıldaqçılıq hallarının artması müştərilərin internet bankçılığından uzaqlaşmasına səbəb ola bilər.
Müştərilər üçün üstünlüklər:
• Müştərilər məkan və vaxtdan asılı olmayaraq istədikləri zaman internet bankçılıq vasitəsilə xidmət ala bilərlər.
• Filiallara və digər alternativ kanallara nisbətən daha ucuz olduğu üçün müştərilər daha çox internet bankçılığına üstünlük verir və daha az xərclə xidmət ala bilirlər.
• İnternet bankçılıqdan istifadə edən müştərilərin filiala getməsinə ehtiyac yoxdur. Bu, müştərilərin vaxtına qənaət etmələrinə kömək olur.
• Müştərilər internet bankçılıq vasitəsilə müddətli depozit hesabları və əmanət hesabları üzrə yüksək faiz dərəcələri əldə edə bilərlər.
• Daha əvvəl etdikləri əməliyyatları yadda saxlaya bilər və istədikləri zaman əməliyyatları təkrar edə bilərlər.
• Müştərilərə istədikləri zaman hesab fəaliyyətlərini görmək və beləliklə də hesablarında pozuntuların qarşısını almaq imkanı verir.
• İnternet bankçılıqdan müştərilər üçün xüsusi üstünlüklər və kampaniyalar təmin edilə bilər (Yıldırım, 2006).
Müştərilər məkandan və vaxtdan asılı olmayaraq internet bankçılıq vasitəsilə istədikləri zaman öz hesablarına daxil ola bilərlər. Eyni zamanda, onların xərcləri filiallar və digər alternativ kanallar vasitəsilə aparılan əməliyyatlardan aşağıdır. Müştərilər filiala getmədən də bankların təklif etdiyi müxtəlif kampaniyalardan yararlana bilərlər.
Müştərilər üçün mənfi cəhətlər:
• Müştərilərin internet bankçılıq parolları kopyalana, müştəri hesabları ilə saxta əməliyyatlar edilə bilər.
• Müştərilərin internet bankçılıq parollarını asanlıqla təxmin edilə biləcək şəkildə təyin etmələri və ya üçüncü şəxslərin daxil ola bilməsi üçün internet bankçılıq parolunu yazılı şəkildə qeyd etmələri və itirmələri maliyyə itkiləri ilə nəticələnə bilər.
• Müştəriyə dələduzluq zəngi edərək, ona işlədiyi bankdan zəng etdiklərini bildirərək, kart hesabları haqqında məxfi məlumatları ələ keçirə bilərlər
• İnternet bankçılıq vasitəsilə əməliyyat apara bilməyən müştərilər internet bankçılığına daxil olmaqda

çətinlik çəkə bilərlər.

• İnternet bankçılıqdan istifadə edən müştərilər banka daha az gedəcəkləri üçün bankla müştəri arasında əlaqə kəsilə bilər.

• İnternet bankçılıq vasitəsilə bütün əməliyyatlar həyata keçirilə bilmədiyi üçün problemlə qarşılaşdıqda internet bankçılıq kifayət olmaya bilər.

• Texnoloji inkişaflarla banklar tərəfindən müxtəlif proqram təminatının hazırlanması müştərilərin internet bankçılığını yenidən yeniləməli olmasına səbəb ola bilər.

• Banklar tərəfindən hazırlanmış proqram təminatı ilə internet bankçılığa daxil olmaq istəyən müştərilər, internet bankçılığına daxil olan cihazlar texnoloji cəhətdən uyğun olmadığı üçün yeni cihaz axtarışı və müştəri üçün yeni cihaz axtarması əlavə xərclərə səbəb ola bilər. (Mermeroğlu 2015, Yıldırım, 2007). İnternet bankçılıq müştərilərin problemlərini həll etmək üçün kifayət etməyə bilər.

**Dünya təcrübəsində internet bankçılıq**

Banklar və kredit təşkilatları kompüterləşdirilmiş bankçılıq sahəsində müştərilərin problemlərini həll etməyə hazırdırmı? PwC tərəfindən aparılan araşdırma göstərir ki, müştərilərin 46%-ə qədəri artıq yalnız rəqəmsal bankçılıqdan istifadə edir.

PwC-nin ötən il keçirdiyi "Rəqəmsal Bankçılıq İstehlakçı Sorğusu" adlı araşdırma rəqəmsal bankçılıq müştərilərinin inkişaf tendensiyaları ilə bağlı maraqlı faktları üzə çıxarıb. Nəzərdən keçirilməsinə görə, PwC-nin "omni-computerized" (bütünlüklə komputerləşdirilmiş) alıcılar qrupunun əsaslı şəkildə genişləndiyi müşahidə edildi. Bu fraqment mobil telefonlar, kompüterlər, planşetlər və s. kimi bütün pul idarələri üçün uyğundur. O, yalnız rəqəmsal kanalları seçir və ənənəvi fiziki kanallardan və zəng mərkəzi xidmətlərindən imtina edir.

Araşdırmanın nəticəsinə görə, istehlakçıların 46%-i yalnız rəqəmsal satış kanallarından istifadə edir. Bu rəqəm 27 il əvvəllə müqayisədə cəmi 4% idi. Araşdırmanın müəyyən etdiyi digər maraqlı məlumatlarla da tanış olaq.

1. 24-82 yaş arası mobil telefon müştərilərinin 18%-i universal bankçılıqdan səmərəli istifadə edir Bu reallıq, çox güman ki, sistemdə hesabı olan və daha gənc müştəriləri cəlb etmək üçün filial şəbəkəsini genişləndirmək istəyən menecerlər üçün maraqlı bir göstəricidir.

2. Mobil telefon müştərilərinin 2,60%-i universal bankçılıqdan istifadə edir. 36 yaşlı araşdırmada bu rəqəm 4% olub.

3. Filialları bağlamaq hələ tezdir. Respondentlərin 62%-i müştərisi olduğu bankın məhəllə ofislərinin olmasının vacibliyini qeyd edib. Bununla belə, son vaxtlar bank ofislərinə faktiki olaraq gələn müştərilərin sayını bir neçə dəfə azalmasını nəzərə alsaq, bank ofisləri bankomatlar və ya virtual maliyyə idarəçiliyi ilə əvəz oluna bilər.

İstehlakçıların internet bankçılığa münasibətinin təhlili

İnsanların internet bankçılığa münasibətini ölçmək üçün 140 nəfərin iştirak etdiyi onlayn sorğu təşkil etdim. Bu sorğuda iştirak edən insanlara müxtəlif kateqoriyalar üzrə 1-i açıq olmaqla ümumilikdə 23 sual ünvanlandı. Bu kateqoriyalara etibar, qəbul edilən risklər, vebsayt dizaynı, insanların istəkləri və təklifləri daxildir və mən onların hər biri haqqında ətraflı məlumat verəcəm.

İlk növbədə qeyd edim ki, sorğuda demoqrafik göstəricilər kimi cins və yaş əsas götürülüb. Sorğuda 140 vətəndaş iştirak edib. Onların 38.6% kişi, 61.4 %isə qadınlardır.

**Qrafik 1: Cins göstəricisi (140 cavab)**




**Mənbə: Müəllif tərəfindən aparılan sorğunun nəticələri əsasında tərtib edilmişdir.**

Sorğuda iştirak edənlər arasında üstünlüyü 76.4% lə 15-25 yaş arası təşkil edir. Uyğun olaraq 15 % 25-45 yaş aralığını, 5% 45-65 yaş aralığını və 3.6 % 65+ yaşı əhatə edir. Bu demoqrafik göstəricilər 15-25 yaş arası gənclərin internetə çıxışının daha çox, 65 + yaşların isə daha zəif olduğunu göstərir. Bu da öz növbəsində internet bankçılıqdan istifadə edənlər arasında gənclərin üstünlük təşkıl etdiyini deməyimizə əsas verir.

**Qrafik 2: Yaş göstəriciləri (140 cavab)**




**Mənbə:** Müəllif tərəfindən aparılan sorğunun nəticələri əsasında tərtib edilmişdir.

Bu sualın cavablarına əsasən deyə bilərəm ki, Azərbaycanda internet bankçılığın qəbulu hələ də istehlakçılar arasında kifayət qədər formalaşmamasına baxmayaraq əhəmiyyətli yol qət edib. Xüsusilə əhalinin mobil qurğular və kompüterlərdən istifadə üzrə biliklərinin yetərli olmaması bu xidmətlərdən istifadənin kütləviləşməsinə maneə törədir. Eyni zamanda, banklara inamın aşağı olması sözügedən xidmətlərdən istifadənin təhlükəsizliyini də şübhə altına almış olur.

Belə ki, 75.7% internet bankçılıq haqqında məlumatlıdırsa, 14.3% qismən, 10% isə ümumiyyətlə məlumatlı deyil.

**Qrafik 3: İnternet bankçılıq haqqında məlumatlılıq səviyyəsi göstəricisi**




**Mənbə: Müəllif tərəfindən aparılan sorğunun nəticələri əsasında tərtib edilmişdir.**

Qrafik 4-də qeyd olunan sual xətti miqyaslıdır və cavablar 1.Qətiyyən razı deyiləm 2. Qismən razıyam 3. Tamamilə razıyam şəklində qoyulmuşdur. Beləliklə 1- ci cavab 0%, 2-ci cavab 59.3%, 3-cü cavab 40.7% seçilmişdir. Nəticələrə əsasən "qətiyyən razı deyiləm" fikrinin heç bir respondet tərəfindən seçilməməsi internet bankçılıq xidmətləri təklif edən banklar üçün sevindirici hal olsa da, digər tərəfdən "qismən razıyam" fikrinin "tamamilə razıyam" fikrinə nisbətən üstünlük təşkil etməsi bankların təklif etdikləri onlayn xidmət keyfiyyətlərini texnoloji yeniliklərdən səmərəli şəkildə istifadə edərək əhəmiyyətli dərəcədə artırmalı olduqlarını göstərir.

**Qrafik 4: Bank tərəfindən göstərilən onlayn xidmətlərdən məmnunluq səviyyəsi göstəricisi**




**Mənbə: Müəllif tərəfindən aparılan sorğunun nəticələri əsasında tərtib edilmişdir.**

Qrafik 5 bankların təklif etdiyi onlayn əməliyyat və xidmətlərin sorğuda iştirak edənlərin 57.1%- ni qane edərkən 40% -ni qismən, 2.9% -ni isə ümumiyyətlə qane etmədiyini göstərir. Cədvəl 4 və 5 – i ümumiləşdirsək bankların təklif etdiyi onlayn xidmətlərdən vətəndaşların əksəriyyətinin razı olduğunu lakin, xidmət səviyyələrindən narazı olduğunu deyə bilərik.

**Qrafik 5: Banklar tərəfindən təklif edilən xidmətlərdən məmnunluq səviyyəsi göstəricisi**




**Mənbə: Müəllif tərəfindən aparılan sorğunun nəticələri əsasında tərtib edilmişdir.**

Sorğu nəticəsində 87.9% vətəndaşa onlayn xidmət, 12.1% vətəndaşa isə yerində xidmətin rahat və uyğun olduğu anlaşıldı. Eyni zamanda bank əməliyyatlarını həyata keçirilməsində bankların təklif etdiyi mobil tətbiqlər 85.7% üçün faydalı, 12.9% üçün qismən faydalı və 1.4% üçün faydasız olduğu, 82.1% üçün mobil tətbiqlər vasitəsilə əməliyyatların icrası daha rahat və asan, 16.4% üçün qismən rahat və asan, 1.4% vətəndaş üçün isə çətin olduğu müəyyən edilmişdir.

Banklardakı yenilik və kompaniyalar haqqında 33.6% bankların mobil tətbiqləri vasitəsilə,
32.9% sosial şəbəkələrdən(facebook, linkedln, instagram və s), 17.1% internet üzərindən (bankların rəsmi saytlarından), 9ş3% reklamlardan( afişalar, tv reklamları, sosial şəbəkə reklamları və s) və 7.1% isə dost- tanış vasitəsilə məlumatlanır.

Mobil bankı nə üçün istifadə edirsiz sualına 94(67.1%) digər ödənişlər(kredit, cərimə, telefon, internet haqlarını ödəmək, onlayn alış-veriş) etmək , 62.1% kart balansını rahatlıqla yoxlamaq, 61.4% pul köçürmələri etmək, 49.3% digər bank əməliyyatlarını rahatlıqla həyata keçirmək, 48.6% komunal ödənişlər etmək və ƏDV və kaşbeklərdən istifadə etmək üçün cavabları verilmişdir. Bu da vətəndaşların ödənişləri terminal və digər vasitələrlə deyil, onlayn şəkildə mobil tətbiqlər vasitəsilə daha rahat və istədikləri zaman etməyə üstünlük verdiklərini göstərir.

Bank müştərilərinin 90.7% internet bankçılıqda əməliyyatlar aparmağı güvənli və etibarlı hesab edərkən, 9.3% etibarlı hesab etmir. Eyni zamanda 93.6% ödənişlərini bankların mobil tətbiqləri ilə icra etməyi rahat və güvənli hesab edərkən, 6.4% vətandaş mobil tətbiqi rahat və güvənli hesab etmir. Həmçinin 97.9% vətəndaş üçün internet bankçılıq əməliyyatlarını daha tez icra etməyə və vaxtlarına qənaət etməyə imkan verir, 2.1% vətəndaş əksini düşünür. Şəxsi məlumatların (kar hesablarının) məxfiliyi ilə bağlı təhlükə yarandıqda 84.3% vətəndaş bununla bağlı bildiriş gəldiyi, 15.7% vətəndaş isə bildiriş gəlmədiyini qeyd etmişdir. Bütün bunlar ölkəmizdə hələ də inkişaf etməkdə olan rəqəmsal bankçılığın insanların məmnuniyyətini qazanmaqlarında əhəmiyyətli yol qət etdiklərinin göstəricisidir.

Google, Apple, Samsung və digər bu kimi texnologiya nəhəngləri müasir trendləri nəzərə alaraq müştəriləri üçün innovativ ödəniş həlləri təqdim edirlər. Sözügedən təşkilatlar gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilən texnoloji qurğuları ödəniş alətinə çevirməklə bu sahədə öz bazar paylarını gücləndirirlər. Azərbaycanda da Apple pay və Google pay kimi ödəniş vasitələri vətəndaşların nağdsız əməliyyatlar icra etmələrini asanlaşdırır.

Eyni zamanda 56.4 % bankların təklif etdiyi digital (rəqəmsal) kartlardan istifadə edərkən, 43.6% istifadə etməyi seçmir. Rəqəmsal kart, plastik kartdan fərqli olaraq, ilk növbədə heç bir fiziki təqdimat tələb

etmir, çünki o, tamamilə virtualdır və onlayn rejimdə yerləşdirilir. Rəqəmsal kartlar ölkəmizdə geniş yayılmasına baxmayaraq əksəriyyətin istifadə etməsi sevindirici bir haldır.
Veb sayt dizaynı digər maraq faktorları kimi əsas amillər kimi nəzərə alınır. Görünüş fərdlər üçün əhəmiyyətli olduğundan veb-saytın planı burada daha əhəmiyyətlidir. Görünüş ümumiyyətlə istehlakçıların davranışına əhəmiyyətli dərəcədə təsir göstərir. Veb saytın dizaynı təkcə rənglər deyil, həm də parametrlərin rahatlığı, yadda saxlama, menyu alətləri, naviqasiya alətləri və s. hər şey nəzərdə tutulur. Sorğuda iştirak edənlərin 84.3%-nə interfeysin rahat və anlaşıqlı olduğu,15.7% iştirakçılar üçün isə qarışıq və anlaşılmaz olduğu göstərilir.

**Qrafik 6: İnternet bankçılıqdan istifadə rahatlığı səviyyəsi göstəricisi**




**Mənbə: Müəllif tərəfindən aparılan sorğunun nəticələri əsasında tərtib edilmişdir.**

## Nəticə və təkliflər

İlk növbədə qeyd edək ki, Azərbaycanda bank müştərilərinin sayı günü-gündən artır. Bu da öz növbəsində internet bankçılıqdan istifadə edənlərin sayının artması deməkdir. Gördüyümüz kimi, insanların internet bankçılığa münasibəti müsbətdir. İnsanlar internet bankçılığa daha çox güvənir. Bunu indiyədək istifadəçilərin böyük əksəriyyətinin heç bir problemlə üzləşməməsi sübut edir. Onlar istifadə etdikləri bankın nağd pullarını qoruyacağını qəbul edirlər. Onların əməliyyatlarında hər hansı səhvlərin olması və bu kimi hallar baş verəndə bankın onlara məlumat verməməsi ehtimalı çox azdır. Nəticələr göstərir ki, gələcəkdə internet bankçılıqdan istifadə edən şəxslərin sayı artacaq. Müştərilər, şübhəsiz ki, veb bankçılıq vasitəsilə öz qeydlərinə nəzarət edə bilərlər. Və ödəniş etmək olduqca sadə və təhlükəsizdir. Məsələn, siz ödəniş etmək istədiyiniz zaman bank dərhal müştərinin telefonuna təhlükəsizlik kodu göndərir. Bu kod yalnız müştəri ilə bank arasındadır. Müştəri həmin kodu yazaraq hesabdan köçürmələr edir. Daha sonra hesabda hər hansı əməliyyat baş verərsə və istifadəçinin bundan xəbəri yoxdursa, bank əvvəlcə müştəriyə məlumat verir. Bu da öz növbəsində bankla müştəri arasında qarşılıqlı əlaqədən xəbər verir. Bank istehlakçı davranışından da istifadə edir ki, bu da öz növbəsində banka inamı artırır. Sorğu nəticələrinə əsasən internet bankçılıq təklif edən banklara bir neçə təkliflər irəli sürülmüşdür. Belə ki, internet bankçılıqda təkmilləşdirmə işləri, mobil tətbiqlərdə yaranan problemlərin aradan qaldırılması,əməliyyatların həyata keçmə prossesinin daha da sürətləndirilməsi,səhmlərə, coinlərə yatırım etmək, mobil tətbiqlərdə əməliyyatların sayını artırmaq, yaşlı nəsil üçün daha rahat və anlaşıqlı interfeys, metrokart balansının artırılması və metrokart kimi istifadə edilə bilməsi, icra olunmuş ödənişləri 30 gün müddətində ləğv etmə imkanı, internetsiz mühitdə mobil tətbiqlərdə bəzi əməliyyatların icrasını mümkün etmək, təhsil haqqı kimi bank filiallarına getməyi zəruri edən ödənişlərin intentet bankçılıq və mobil tətbiq vasitəsilə icra edilə bilməsi kimi yenilikləri yaxın gələcəkdə tətbiq edərək internet bankçılıqdan istifadə sayını və müştəri məmnuniyyətini

əhəmiyyətli dərəcədə artıra bilər. Bu etibarın artması həm mövcud müştəriləri öz əllərində saxlamasına, həm də yeni müştərilər əldə etmələrinə səbəb olur. Nə olursa olsun, insanların vaxtına qənaət etmək əlavə faydadır. Sonda onu da qeyd edək ki, Azərbaycanda internet bankçılıq yüksəlişdədir.

**İstifadə Edilmiş Ədəbiyyat Siyahısı**


Alıyeva, B. (2016). Bankacılık Sisteminde İntenetin Olumlu ve Olumsuz Yönleri. İnönü Üniversitesi Uluslararsı Sosyal Bilimler Dergisi, 237-252.

Bank işi və elektron bankçılıq. Ə.Abbasov, Z.Məmmədov, R.Rzayev, Ş.Həmişəyeva. Qanun, 2003

"Bankların inkişaf istiqamətləri" Müseyib Əliyev. Baki-2011

Banklar haqqında Azərbaycan Respublikasının Qanunu.

Bankole, O. &. Cloete, E (2011). Mobile banking: A comparative study of South Africa and Nigeria IEEE., (pp. 1-6).

Ceylan, E. E. (2013). İnternet Bankacılığı ve Bankaların Hukuki Sorumlulukları. Yayımlanmamış Yüksek Lisans Tezi. İstanbul Bilgi Üniversitesi Sosyal Bilimler Enstitüsü, İstanbul.

Chandio, F. H. (2011). Studying acceptance of online banking information system: A structural equation model. A structural equation model (Doctoral dissertation, Brunel University Brunel Business School PhD Theses).

Crabbe, M. S. (2009). An adoption model for mobile banking in Ghana. Int. J. Mobile Communications, 7(5), 515 səh.

Çakmak, A., Güneşer, M., & Terzi, H. (2011). Bankaların Müşterilerine Sunduğu İnternet Bankacılığı Hizmetinin Müşteriler Tarafından Değerlendirilmesi:Karabük Şehir Merkezinde Uygulama. Sosyal Bilimler Enstitüsü Dergisi, 1-30.

Dal, N., Doğdu, N., Yuva, N., & Şahin, Ö. (2018). İnternet Bankacılığında E- Hizmet Kalitesinin Müşteri E-Memnuniyeti Üzerindeki Etkisi ve E-Hizmet Telafi Kalitesinin Kullanılması. Kesit Akademi Dergisi, 203-236 səh.

Yetkil, M. E. (2017). Hizmet Kalitesi Ve Marka İmajının Müşteri Sadakatine Etkisi: Bankacılık Sektöründe Bir Uygulama. Yüksek Lisans Tezi. Türk Hava Kurumu Üniversitesi Sosyal Bilimler Enstitüsü.

Yıldırım, K. (2006). Elektronik Bankacılık-Avrupa Birliği ve Türkiye Uygulamaları. İstanbul: Yayınlanmış Yüksek Lisans Tezi,İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü.

Z.Məmmədov, Ə.Abbasov, R.Rzayev. Ş.Həmişəyevə.-―Bank işi və elektron bankçılıq‖, Bakı-2003

https://www.cbar.az/ (28.10.2022)

https://banco.az/az (28.10.2022)

https://banker.az (28.10.2022)

https://abb-bank.az/az/internet-bankchiliq (28.10.2022)

https://www.kapitalbank.az/corporate-banking/client-bank (28.10.2022)

# Süni İntellektin İqtisadiyyata Təsirləri

**Aynur N. Abdullayeva**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**aynur_abdullayeva@rambler.ru**

## Xülasə

Dövrümüzdə suni intellekt məfhumu ən çox maraq doğuran və eyni zamanda ətrafında suallar yaradan bir mövzudur. Ədəbiyyatlarda suni intellektə fərqli yanaşmalar mövcuddur. Belə ki, bəziləri düşünürlər ki, suni intellekt əsasında çalışan texnologiyalar insan beyninin tapa bilmədiyi suallara cavab tapacaq və günümüzün aktual problemləri aradan qaldıracaq, bəziləri suni intellekti insanların müvəqqəti maraq sahəsi olaraq dəyərləndirir, bəziləri isə zənn edir ki, suni intellekt bəşəriyyətin sonudur. Suni intellektin tətbiqini birmənalı şəkildə qəbul etməyən də az deyil. Yer kürəsi dayanmadan fırlandığı kimi dünyada proseslər dayanmadan bir-birini əvəz edir, inkişaf edir və təkmilləşir. Bunun fonunda texnologiyalar sahəsində yeni həllər araşdırılır və tətbiq olunur. Suni intellekt də təkmilləşən və inkişaf edən texnologiyaların bir nəticəsidir. Bu məqalədə suni intellektin məğzi, mahiyyəti, o cümlədən onun bilavasitə iqtisadiyyata, dolayısı ilə isə bəşəriyyətə təsirləri analiz olunmuş, suni intellektin tətbiq olunduğu sahələr və geniş vüsət aldığı ölkələr üzrə statistik göstəricilər üzrə şərhlər verilmişdir. Hamıya məlumdur ki, texnoloji yenilik hər hansı hədəfə çatmaq yolunu qısaldır. Ancaq eyni zamanda özü ilə müəyyən qədər disbalans yaradır. Qarşımızda duran ən vacib tapşırıqlardan biri isə odur ki, biz suni intellektin tətbiqindən sonra qtisadiyyatda yaranan disbalansı aradan qaldıraq, suni intellektin elə tənzimlənmə mexanizmini quraq ki, gələcəkdə bəşəriyyətə ziyan vurmasın.

**Açar sözlər :** suni intellekt, iqtisadiyyatda balans, texnologiya, robot

## Abstract

In our time, the concept of artificial intelligence is a topic that arouses the most interest and at the same time creates questions around it. There are different approaches to artificial intelligence in the literature. So, some people think that technologies based on artificial intelligence will find answers to questions that the human brain cannot find and solve problems, some people value artificial intelligence as a temporary field of interest of people, and some think that artificial intelligence is the end of humanity. There are many who do not accept the application of artificial intelligence unequivocally. Processes in the world constantly replace each other, develop and improve, just as the earth rotates without stopping. Against this background, new solutions in the field of technologies are researched and applied. Artificial intelligence is also a result of improving and developing technologies. In this article, the essence of artificial intelligence, including its direct effects on the economy, and indirectly on humanity, are analyzed, and comments are made on the statistical indicators of the fields where artificial intelligence is applied and the countries where it is widespread.

## Giriş

### Suni intellektə yanaşmalar

1955-ci ildə ABŞ-ın Darmut Kollecinin professoru, riyaziyyatçı Con Makkarti tərəfindən leksikona daxil edilən suni intellekt ifadəsi hal-hazırda dövrün ən aktual və maraq doğuran mövzularından biridir (Makkarti, 1997). Suni intellektin hansı dərin mənanı kəsb ediyini, özündə nələri ehtiva etdiyini və nələrə qadir olduğu istiqamətində fərqli fikirlər irəli sürülməkdə və ehtimal olunmaqdadır. Elan Musk, Bil Qeyts, Stiven Xokinq, Ceyms Barrat və kimi tanınmış simalar lazımi səviyyədə idarə olunmayacaq suni intellektin bəşəriyyətin sonu olaraq dəyərləndirilir, Ricard Soker, Fei-fei və s. kimi bəziləri isə onun insan tərəfindən yaradıldığını əsas gətirərək insan tərəfindən idarə olunduğu və heç

bir təhlükə yaratmayacağını iddia edirlər. Ətrafında bir sıra fikir ayrılıqları yaradan suni intellekt nədir və onun iqtisadiyyata bəşəriyyətə nə kimi təsirləri var və ola bilər ?

Suni intellekti insaların yaranması və inkişaf etməsi ilə müqayisə etsək biz daha aydın təəsürat əldə edə bilərik. Belə ki, təbiət insanı yaratdı və onun həyatda qalması üçün resurslarla təmin etdi, inkişafına zəmin yaratdı. Əsrlər bundan əvvəl yaşamış insanla indiki insan arasında həm fiziki, həm intellektual, həm də zehni fərqlərin olması hamımıza məlumdur. Bu, o deməkdir ki, insan daim öz üzərində çalışdı, həyatda yaşamaq uğrunda mübarizə apardı, fərqli istiqamətlərdə özünü inkişaf etdirdi, o cümlədən ətraf mühit insanları dəyişdi. İndiki dövrdə bütün texnoloji avandanlıqlar insanın özünün təkmilləşdirdiyi insan beyninin məhsuludur. Suni intellekt mövzusunda isə təbiət rolunu insan, insan rolunu isə suni intellekt oynayır. Belə ki, insanlar texnologiyaya məlumatları, alqoritmləri və məntiqləri daxil edərək nəticə etibarilə suni intellekti resurslarla təmin edir. Suni intellekt hələ yeni yaranan vaxtda homosapiens rolunu oynayaraq bəzi suallara məntiqi və şablon cavab versə də, insan kimi daim özünü təkmillədirib artıq sərbəst qərarlar verir. Bəzi hallarda insanlar həmin qərarları idarə etməyə aciz qala bilər (Brown,Chu-Carroll, 2010).

Suni intellekt təkcə məlumatlar toplusu deyil, o, insanların müraciəti əsasında onlara xidmət göstərən və həm də özü-özünü inkişaf etdirən bir sistemdir. Suni intellektə bəzi iqtisadi ədəbiyyatlarda "neyrosistem", bəzilərində isə insan beyninin texnoloji təzahürü olaraq dəyərləndirirlər. Suni intellektə əsas diqqət olunası məsələ özü-özünü inkişaf etdirməkdir. Belə ki, hansı istiqamətdə, necə inkişaf etdirəcəyi insanlara qeyri-müəyyəndir. Çünki insanlar yalnız ona məlumatları təqdim edirlər, ancaq həmin məlumatların işlənilməsi və hansısa nəticəyə gəlməsi bizə məlum deyil (Roitblat,2020).

## Əsas hissə

### Suni intellektin iqtisadi artıma təsiri

Azərbaycanda suni intellektin tətbiqi və inkişafı hələ ən başlanğıc mərhələ olduğundan suni intellektin sahələr üzrə statistik göstəricilərinə onun yaxşı inkişaf etdiyi ölkələr timsalında baxacağıq. Suni intellektin verdiyi töhfədən dolayı ona olan tələbat günü gündən artmaqdadır. Çikaqo Universitetinin professoru MCKinseyin apardığı təhlillər əsasında təqdim etdiyi statistik göstəricilərə əsasən 2030-cu ildə suni intellektin iqtisadi artıma təsiri Qrafik 1-də qrafikdə öz əksini tapmışdır :

**Qrafik 1 : Suni intellektin ayrı-ayrı sahələr üzrə iqtisadi artıma təsirləri**




**Mənbə :** Mckinsey, 2023

Qrafik 1-də əks olunan məlumatlardan aydın olduğu kimi suni intellektin tətbiqindən təsirlənəcək ən böyük sahə istehsalat sahəsi olacaqdır. Bunun da səbəblərini bundan sonra açıqlanacaqdır. Mc Kinseyin proqnozuna əsasən isə ən az təsirlənəcək sahə təhsil sahəsindir. Fikrimcə, təhsil sahəsində artım proqnzdakında artıq olmalıdır. Belə ki, "Covid 19" pandemiyası nəticəsində şağird və tələbələr onlayn dərslərlə tədris olunmağa başladılar. Təbii ki, nəticə ürək açan deyildi. Suni intellektin tətbiqi

və düzgün təşkilatçılığın nəticəsində, fikrimcə, arzuolunan nəticələr əldə etmək olar. Nümunə olaraq : virtual məktəblər yaradılıb, uşaqların gələcəkdə yiyələnmək istədikləri peşəyə uyğun baza təhsilində tutmuş ali təhsilədək biliklərin verilməsi, nümunəvi videoların göstərilməsi və s. kimi yollarla ixtisaslaşmış mütəxəssislər yetişdirmək mümkündür (Grossman,Gordon,Maura 2010).

Ümumiyyətlə, dünyada suni intellektin istifadə olunmasında böyük aşırımın olmasını da hiss etmək mümkündür. Çin, ABŞ suni intellekt sahəsində ən çox gücə malik olan ölkələrdirlər. Bundan əlavə olaraq, Kanada, Yaponiya, Cənubi Koreya, Hindistan, Almaniya kimi ölkələrdə də bu istiqamətdə güclü işlər aparılır və bu sahəyə investisiyalar qoyulur (Mc Kinsey, 2022).

Yuxarıda qeyd olunan ölkələrin iqtisadi artımına suni intellektin təsirinin proqnozu ilə aşağıdakı qrafikdən tanış olmaq olar.

**Qrafik 2: Suni intellektin ayrı-ayrı ölkələr üzrə iqtisadi artıma təsirləri**




**Mənbə :** Mckinsey, 2023

İqtisadiyyatda bu cür danılmaz fakt var ki, istənilən texnoloji yenilik hər hansı hədəfə çatmaq yolunu qısaldır və həmin istiqamətdə gedən prosesləri tezləşdirir. Ancaq eyni zamanda özü ilə müəyyən qədər disbalans yaradır. İstənilən yeniliyin müsbət tərəfləri olduğu kimi, mənfi təsirləri də az olmur (Verge, 2018).

**Suni intellektin iqtisadiyyata müsbət təsirləri.**

Suni intellektin iqtisadiyyata müsbət təsirlərini aşağdakı kimi şərh etmək olar.

❖ ***Məhsuldarlığın artırılması və iqtisadi artıma nail olunma -*** bildiyimiz kimi, insan tələbatları sonsuz və fərqlidir. Daim artan insan tələbına cavab olaraq müəssisələr, istehsalçılar və şirkətlər insanların tələbat nəbzini tutmaq və ona tez bir zamanda cavab vermək üçün rəqabət aparırlar. Bu rəqabətdə qalib olmağa onlara suni intellekt əsasında fəaliyyət göstərən texnologiyalar kömək edir. Çünki suni intellekt əsasında fəaliyyət göstərən texnologiyalar onlara mütəxəssislər tərəfindən verilən baza və statistik məlumatlar, o cümlədən alqoritmlər əsasında analizlər aparırlar və nəticəni təqdim və/və ya tətbiq edirlər. Suni intellekt əsasında çalışan texnologiyaları tətbiq edən şirkətlər onu aşağıdakı məqsədlərlə istifadə edirək artıma nail olunurlar :

– İstehsalatın avtomatlaşdırılması – qısa zaman kəsiyində daha çox məhsul/xidmətin istehsalı. Bu həm öz növbəsində vaxt və maddi resurslara qənaət etməyə də kömək olmaqla yanaşı, müvafiq xidmətdən istifadə edən müştərilərin məmnuniyyətini qazanmış olurlar. İstehsalda insan amili

olduğu halda istehsalatda boşdayanmalar da ola bilər (Samuel,1959). Bu halın da minimuma endirilməsi suni intellektin köməkliyi ilə mümkündür. Müştəri məmnunluğu da öz növbəsində həmin şirkətin, müəssisənin tələbatının artmasına gətirib çıxarır (Harvard Business Review,2016).

- İşçi qüvvəsinin suni intellektlə əvəz olunması - belə ki, hər hansı şirkətə əmək haqqı, sosial, sığorta və vergilər kimi haqqların ödədiyi işçilərdənsə müəyyən qədər amortizasiya və s. kimi xırda xərclər tələb edən texnologiyaları saxlamaq daha asan və sərfəlidir. Suni intellekt əsasında çalışan texnologiyalar əsasında fəaliyyət göstərən istehsalatda daha az boş dayanmalar və ya yanlışıqlara yol vermə ehtimalı var, nəinki insanlar əsasında fəaliyyət göstərən istehsalatda. Hətta suni intellekt əsasında fəaliyyət göstərən texnologiyalar 24 saat xidmət göstərə bilmə imkanına malikdirlər. Suni intellekt yeni tələb vətələbatlara daha tez cavab verə və adaptasiya oluna bilmə imkanına malikdir (Turing , 1950).
- Proqnozlar əsasında strategiyanın (marketing, istehsal və s.) hazırlanması – suni intellekt heç bir mənəvi dəyərlər əsasında deyil, ona verilən real statistik məlumatlar əsasında fəaliyyət göstərir və ən böyük ehtimalın əsasında qərarlar verirlər (Kershaw and Oot, 2010). İnsan hər hansı proqnozların və onun əsasında strategiyanın hazırlanması zamanı müəyyən hadisələri və məlumatları unuda bilər. Ancaq suni intellekt əsasında fəaliyyət göstərən texnologiyalarda məlumat itirilmə ehtimalı çox azdır, demək olar ki, yox səviyyəsindədir. Suni intellekt əsaslı texnologiyalar satış nəticəsində ona təqdim olunan nəticələri analiz edərək, gələcək zamanlarda hansı məhsulları/xidmətləri təqdim etməyi, ümumi hansı məqamları diqqətdə saxlamağı, hansı hədəfləri müəyyən etməyi şirkətlərə, müəssisələrə tövsiyə edir. Suni intellekt əsaslı texnologilar təkcə daxili məluamt deyil, eləcə də xarixi məlumatlar əsasında əlaqəli şəkildə fəaliyyət göstərirlər. Belə ki, daxili məlumat dedikdə nümunə olaraq hər hansı müəssisənin satış göstəriciləri,maya dəyəri, mənfəət və s. kimi məlumatlar, xarici məlumatlar dedikdə isə ölkədə baş verən hadisələr, qanunvericilikdə dəyişiklik, trendlər, yeniliklər və s. kimi məlumatlar nəzərdə tutulur. Suni intellekt əsaslı olmayan hallarda, nümunə olaraq banklar öz stategiyalarını hazırlayan zaman təkcə balans göstəricilərini deyil, eləcə də ölkə və qlobal göstəriciləri əsas götürürlər. Suni intellekt əsaslı texnologiyalara da bu cür şəraitin yaradılması (texnologiyalar arası əlaqə) onun faydalılığını artıracağını düşünürəm.
- İnsan tələbatı uyğun məhsulların hazırlanması və satılması – suni intellekt tətbiq olunan virtual aləm (youtube, instagram, facebook, tik-tok, ayrı-ayrı saytlar, tətbiqlər və s.) sizin apardığınız, baxdığınız, maraqlandığınız bütün məlumatları toplayır, təhlil edir və sizin tələbatınızı müəyyən edərək sizə məhsul və xidmətlər barədə reklam xarakterli məlumatlar və anonslar göndərir (Ulanoff, 2018). Hətta bəzi İT mütəxəssislərin iddasına əsasən sizin danışıqlarınız izlənilərək marketinq xarakterli istifadə olunur. Belə ki, siz nümunə olaraq video zəng zamanı kiminlsə söhbət edən zaman istirahət etmək istəməyiniz və ya maşın almaq istədiyinizlə bağlı ifadələrdən tez-tez istifadə edirsinizsə müvafiq texnologiya siz başqa saytlara daxil olanda istirahət məkanlarının və ya maşınların reklamını göstərəcəkdir. Bunun səbəbi isə artıq intellekt üzərindən suni intellektin tətbiq olunması və ondan istifadədir. Suni intellekt özündə istehlakçıların maraqlarını, onların hərəkətlərini analiz edərək artıq hansı məhsullara/xidmətlərə tələbatın olması, hansı məhsul/xidmətlərə artıq tələbatın olmaması və təkmilləşdirilməsinə zərurətin olmasını müəyyən edir və buna uyğun olaraq qərarlar təqdim edir. Hətta suni intellekt imkanları o qədər inkişaf edir ki, onlar məhsul/xidmətlər üzrə kampaniyaların keçirilmə vaxtını və qiymətini müəyyən edərək yuxarıda qeyd etdiyim marketing strategiyasını hazırlayırlar.

- ***Əmək bazarında dəyişiklik, fiziki əməyin zehni əməklə əvəz olunması*** - suni intellekt əmək bazarına əsaslı təsir göstərir və göstərəcək də. İlkin dövrdə onun mənfi təsirləri danılmazdır və bu barədə məlumat veriləcəkdir. Ancaq müsbət təsirləri da az olmayacaqdır. Belə ki, insanların fiziki əməyini əvəz edəcək suni intellekt onlara suni intellektin hələ həmin məsələləri həll etmək iqtidarında olmadığı sahələrə yönəltməkdir.
- ***Həyat səviyyəsinin yüksəldilməsi*** – belə ki, insanlar məlumatsızlıqdan irəli gələrək istər qidalanmalarda , istər istirahət zamanı , istərsə də digər seçimləri zamanı yanlışlara yol verərirlər və bunun da nəticəsində onların sağlamlığına ziyan dəymiş olur. Belə ki, suni intellekt əsaslı texnologiyalar hansı gün (mövsümə uyğun olaraq) hansı yeməklərin bişirilməsi,qida rasionu, idman üçün zəruri proqramları tərtib edərək insanlara daha düzgün yolx göstərə bilərlər. Belə ki, bütün bunları onlar onlara yüklənmiş məlumatlara əsaslanaraq bildirəcəklər.
- ***İqtisadi-ekoloji səmərəliliyin artırılması və həllərin tapılması*** – bildiyimiz kimi, bir sıra fabrik və zavodların istifadəsi, onlardan yaranan tullantıların ekologiyaya mənfi təsirləri günü-gündən artmaqdadır. Suni intellektin tətbiqindən sonra müvafiq mənfi halların azalmasına da gətirib çxarda bilər. Ən azı hər hansı fabrikin istehsalat qalıqlarının və ya tullantıların başqa fabrik üçün xammal rolunu oynamağı və ya elə həmin fabrikdə hansı istiqamətdə istifadə olunması təhlil oluna bilər (Novring 2019).
- ***İqtisadi potensialın artırılması və səmərəli istifadə*** - Təbiətin imkanları genişdir. Ancaq fikrimcə, insan bu rəngarənglikdən istifadə edərək daha səməli yollarla insan tələbatının ödənilməsinə sərf eləyə bilmir. Suni intellektin isə bu imkanlarının olduğunu düşünürəm. Günümüzdə ən aktual məsələlərdən biri və bəşəriyyət üçün ən böyük təhlükə suyun qıtlığıdır. Su həyatın əsasıdır. İnsanların səmərəsiz və qənaətsiz istifadəsi sayəsində şirin su ehtiyatı dünyada günü-gündən azalmaqdadır.

**Suni intellektin imkanlarından Bankı xidmətlərində və likvidliyinin idarəedilməsində rolu**

Bilavasitə maliyyə sisteminin və dolayısı ilə iqtisadiyyatın əsas sütunları rolunu oynayan bankların timsalında yuxarıda qeyd olunan 1-ci və 2-ci kriteriyalar əsasında bir nümunəyə baxaq. İndiki dövrdə banklar rəsmi saytlarında suni intellektə əsaslanan “chat bot”ların xidmətlərindən istifadə edirlər. “Chat bot”lar işçi qüvvəsindən fərqli olaraq eyni anda 100 müştəriyə (hətta daha çox) cavab vermə imkanına malikdirlər. Bundan əlavə olaraq, onlar lazımi məlumatları bir neçə saniyələrdə taparaq təqdim edirlər. Müştəri hər hansı bir əməliyyat üzrə bankın tariflərinə dair sual verən zaman işçinin həmin məlumatı tapması, məlumatı çata daxil etməsi daha çox zaman alır, nəinki “chat bot”un tez bir zamanda cavablandırması. Müştəriyə istənilən növ əməliyyatı (surətli pul köçürmələri, hesabların açılması, çıxarış və arayışların verilməsi, kreditlərin verilməsi, kassa əməliyyatları) bank işçisindən müqayisədə “chat bot”lar daha az zamanda daha dəqiq və yüksək keyfiyyətlə icra edə bilərlər. Eyni zamanda banklarda risklərin idarəolunmasında da suni intellektin imkanlarından çox geniş və faydalı istifadə oluna bilər. Belə ki, bank əməkdaşları cari və əvvəlki illərin satış, xərc, mənfəət və s. haqqında statistik məlumatları müvafiq suni intellekt əsasında fəaliyyət göstərən komputer avadanlıqlarına daxil edərək likvidlik, bazar, əməliyyat , texnoloji və s. riskləri idarə edə bilərlər (Bostrom, 2014).

Suni intellektin Bankın likvidliyində idarə olunması nümunəsində baxsaq onun faydaları barədə daha geniş təssüratımız yarana bilər. Likvidliyin idarə edilməsində Miller Orr modelindən çox istifadə olunur. Miller və Orrun yanaşması odur ki, onlar nağd pul vəsaitlərini çoxusunu ehtiyata yönəltməklə ümumi istehsalatı və ya dövriyyənin darlaşdırılmasını tərəfdarı deyillər. Əksi olaraq bütün vəsaitin istifadəsini də dəstəkləmirlər. Nağd pulun istifadəsində və ehtiyat qalığında bir hədd bəlirləmək

istəyirlər ki,  həmin hədd çərçivəsində nağd puldan istifadə etməyi məqsədəuyğundur (Miller and Orr 1966).

Bu model 60-cı illərdə irəli sürülsə də hal-hazırda Beynəlxalq Mühasibat Uçotu Standartlarında uğurla istifadə olunur (Marley, 2016).

**Şəkil 1 : Miller və Orr Modeli**




**Mənbə: Miller (Miller, M.H. and Orr, D. , 1966)**

Şəkil1-dən məlum olduğu kimi burada "aşağı hədd" nağd pulun minimal həddi, "yuxarı hədd" isə maksimal həddidir. Bunu daha aydın belə izah edə bilərik ki, Banklar "aşağı hədd" həddində nağd pul vəsaiti saxladıqda artıq son hədd risklərini qorumuş olurlar. Həmin həddən aşağı xüsusi riskli hal hesab olunur və heç də yaxşı nəticələri ola bilməz. "Yuxarı hədd" həddi isə nağd pulun yuxarı həddidir ki, nağd pul vəsaiti həmin həddən artıq olduğu halda vəsaitin səmərəsiz istifadəsi ilə nəticələnə bilər. "Normal hədd" optimal hədd sayılır. Əsas məqsəd elə bu həddin qorunmasıdır.

Belə ki, bu modelin əsas mahiyyətini analiz edərək suni intellekt əsaslə texnologiyalara alqoritm və məntiqlər yazmaq olar və nəticə etibarilə aşağıda əks olunan qrafikə uyğun olaraq yuxarı və aşağıda həddə çatan zaman müəyən tədbirlərin görülməsinə nail olmaq olar. Belə ki, indi halda banklarda müvafiq proqram təminatları vasitəsilə həmin hədlər nəzarətdə saxlanılır. Ancaq suni intellekt əsaslı texnologiya və ya sistem həmin hədləri nəzarətdə saxlamaqla yanaşı, həm də həmin hədlərə çatmağın səbəbini araşdıraraq həllər yolu tapacaq və müvafiq vəziyyəti normallaşdıracaqdır. Burada diqqət olunası məsələ odur ki, müvafiq texnologiyaya düzgün məlumatlar daxil edilməli və alqoritmlər düzgün qurulmalıdır. Belə ki, müəyyən hallarda banklarda nağd pul dövriyyəsinin azaldılması və ya artmasının müvəqqəti əsaslı səbəbləri olur ki, bu zaman nağd pulun həddinin normallaşdırılması çox vaxt tələb etmir. Belə ki, qısamüddətli (bir günlük) verilən overnaytlar və s. kimi məsələlər zamanı dərhal tədbirin görülməsinə zərurət olmadığını düşünürəm.

Suni intellektin nəticəsinin arzuolunan səviyyədə olması üçün mütləq şərt ora məlumatların düzgün və dəqiq daxil edilməsidir. Əgər məlumatlar reallıqdan kənar olsa və ya yanlış olsa suni intellektin də verdiyi nəticə qənaətbəxş olmayacaqdır. 2016-cı ildə Sberbank ASC-nin icraçı direktoru Qerman Qref bildirmişdir ki, növbəti 5 ildə Sberbankın suni intellekt əsaslı idarəedilməsini 80%-ə qaldıracaqdır. Gəlin illər ərzində sözügedən bankda gedən tendensiyaya nəzər salaq.

**Cədvəl 1: Sberbank ASC-də suni intellektin tətbiqi və nəticələr**

| Sberbankın nümunəsində suni intellektin tətbiqi nailiyyətləri |
|---|
| 2016-cı il – gələcək beş ildə bankın fəaliyyətinin 80% suni intellekt əsasında qurulması hədəfləndi. |
| 2017-ci il – bu ildə hədəf olundu ki, suni intellekti ilk öncə məlumat mərkəzinin əməkdaşlarını, daha sonra isə hüquqşünasların əvəz olunması həədəfləndi. |
| 2018-ci il – suni intellektin tətbiqi nəticəsində onlarla insan ixtisar olundu. Microsoft, İBM kimi şirkətlər yeni təkliflər əsasında düşünməyi təklif etdilər. |
| 2019-cu il – suni intellektin tətbiqi nəticəsində Bank 700 milyon dollar həcmində mənfəət əldə etmişdir. Kreditlərin verilməsi suni intellekt əsaslı texnologiyalara həvalə olundu. |
| 2020-ci il - Sberbank suni intellekt sahəsində ilk universitetini açdı. Suni intellektin inkişafı sahəsinə 150 mrld dollar həcmində vəsait qoyuldu. |
| 2021-ci il – suni intellekt əsasında fəaliyyət göstərən proqram zəruri dövlət orqanlarında qeydiyyatdan keçirildi. |
| 2022-ci il – sadə aktivlər üzrə girov müqaviləsinin hazırlanması avtomatlaşdırıldı. 230 mrld rub. Mənfəət əldə olundu. Müştərinlərin müraciəti əsasında onlara xidmət göstərilməsi xidmətinin effektivliyi 20% artdı. |

**Mənbə :** Cberbank.ru, 2023

Ancaq bir reallıq da var ki, suni intellekt hələ yeni sahədir. Onun tətbiqi özü ilə bir sıra risklər, təhlükələr, gözlənilməyən halları da özü ilə gətirir. Bu təkcə , suni intelllektə şamil olunası ifadələr deyil. İstənilən yenilik vədəyişiklik özü ilə gözlınilməz halları gətirib çıxarır. Hətta "Rəqəmlərin dərsi" adlı proqramda Sberbankın icraçı direktoru Qerman Qref bildirmişdir ki, suni intellektin etdiyi xırda yanlışlıqlar onlara böyük məbləğdə itkilərə səbəb olmuşdur. Ancaq buna baxmayaraq onlar suni intellektin tətbiqini il-ildən artırmağı düşünürlər. Hətta Qref öz çıxışında bildirmişdir ki, suni intellektibn yanlışlıqlarının əsas səbəblərindən biri ixtisaslaşmış İT mütəxəssislərinin olmamasıdı (Qref, 2019).

## Suni İntellektin İqtisadiyyata Mənfi Təsirləri

**Suni intellektin iqtisadiyyata mənfi təsirlərini aşağıdakı kimi şərh etmək olar.**

1. İşsizlik – yuxarıda sadalananlardan aydın olur ki, suni intellekt yüzlərlə işçiləri əvəz edə bilər (bunun biz Sberbankın nümunəsində də şahidi olduq) və bu əvəzetmə işəgötürənlər üçün daha səmərəli və sərfəlidir. Suni intellekt əsasında fəaliyyət göstərən texnologiyalara qarşı insanlarda aqressiyanın yaranacağı ilk səbəb də elə budur. Hətta bu cür əvəz olunma öz növbəsində 1848-ci ildə dəzgahsındıranlar olaraq tarixə keçən bir hadisəni təkrarlaya bilər. 1973-cü il tarixində Nobel mükafatı laureatı adına layiq görülmüş Vasiliy Leontiyev bildirmişdir ki, insan resurslarına il-ildən daha az tələbat olacaqdır. İnsanları maşınlar əvəz edəcək və insan resurslarına artıq maraq qalmayacaqdır. Bu tip məlumatları ABŞ-ın baş prokuroru Robert Kennedi 1964-cü ildə bildirmişdir ki, avtomatlaşdırma sənayenin inkişaf etməsi və iqtisadi artıma nail olunmaya təkan verən əsaslı amildir. Ancaq təəsüflər olsun ki, heç kəs həmin avtomatların əvəz etdiyi insanları hansı istiqamətdə istifadə olunması ilə bağlı yol göstərmir.
2. Hərəkətsizliyin yaranması – suni intellekt əsaslı texnologiya insanları arxayınlaşdıracaq bir həlldir. İnsanlar asan yollarla məqsədə çata bilmə ehtimalını bilərək əsaslı məlumatları və işləri unuda bilərlər. Bu isə öz növbəsində insan sağlamlığına və gündəlik həyat tərzinə ziyan vuracaq bir haldır. Suni intellektin insan sağlanmalığına müsbət təsirləri barədə yuxarıdakı 3-cü bölmədə məlumat verildir. Ancaq müsbət tərəflərdən başqa, mənfi tərəfləri də az deyil. Suni intellektin hansı məlumatlar əsasında qərarlar verdiyini bilməyən insanlar, ondan asılı olacaqlar, onlara nəyin faydalı və nəyin faydasız olamsı barədə sərbəst qərar verə bilməyəklər.
3. Bərabərsizlik – Suni intellektin geniş tətbiqi dünya iqtisadiyyatının inkişafı və təkmilləşdməsi üçün ən əsaslı addım olaraq dəyərləndirmək olar. Buna görə də dövlət büdcəsində kifayət qədər

çox gəliri olan ölkələr asanlıqla bu sahəyə (mütəxəssislərin yetişdirilməsi, təcrübə mərkəzlərinin yaradılması və s.) investisiya qoya bilirlər. Ancaq büdcəsində böyük faizlə kəsri olan ölkələr isə bu məsələdə biraz geri qalırlar. Bu gerilik ildən ilə artacaqdır. Suni intellekt böyük məbləğdə investisiya və maddi dəstək tələb edən sahədir və bundan irəli gələrək bu qənaətə gəlmək olar ki, həmin sahənin tətbiqi və inkişafı üçün maliyyə vəsaitləri çatmayan ölkələrdə bu, böyük çətinliklər yaranacaq və ümumiyyətlə dünya ölkələri arasında böyük bərabərsizliyə gətirib çxaracaqdır. Suni intellekti tətbiq edə bilməyən ölkələrin rəqabət qabiliyyəti əsaslı dərəcədə aşağıda düçəcəkdir.

**4.** İdarəetmənin itirilməsi və hakimiyyətin suni intellektlər tərəfindən ələ alınması – bunu biz bəşəriyyətin sonu olaraq da adlandıra bilərik. Hələ ki, biz suni intellekti məlumatlar, məntiqlər əsasında "yetişdiririk". Biz suni intellekti düzgün şəkildə yetişdirməssək o, bəşəriyyətin xeyrinə olmayan qərarlar qəbul edə bilər. Hətta bu faktı nəzərinizə çatdırma istəyirik ki, suni intellektə sual olunan da ki, dünyada olan resurs qıtlığını necə aradan qaldırmaq olar. O birmənalı şəkildə bildirmişdir ki, insanların sayını azaltmaq zəruridir. Elə alimləri də qorxudan bu məqamdır ki, elə bir səviyyə və vaxt yetişəcək ki, suni intellektlər saytları, xəbər proqramlarını ələ keçirərərk insanlar üçün "quyu qazacaqlar". Bununla da onlar insanların sayını azaldacaqlar.

**Nəticə**

Nəticə etibarilə suni intellekt əsasında fikirlərimi iki istiqamətdə bildirmək istəyirəm. Birinci, ikincisi isə suni intellektin Azərbaycanda tətbiqi çətinlikləri və aradan qaldırılması yolları.

**Birinci məsələ**: suni intellektin "vassalı" olmamağımız üçün atmalı olduğumuz addımlar:

Tənzimlənməyən suni intellekt gələcəkdə bizim düşmənimizə çevrilə bilər. Bunun qarşısını almaq üçün aşağıdakılar icra olunmalıdır :

1. Əhalinin sayının azaldılması
2. Suni intellektə daxil olunan məlumatarın emalı və həmin məlumatların daxil edilməsi icazənin verilməsi orqanının yaradılması(vahid idarəetmə)
3. Zəka əsaslı sahələrin araşdırılması
4. Məlumat bazasının, ümumi serverinin yaradılması

**İkinci məsələ**: suni intellektin Azərbaycanda tətbiqi üçün şəraitin yaradılması

Reallıq ondan ibarətdir ki, hal-hazrda ölkəmizdə suni intellekt istiqamətində işlər şox zəif gedir. Bunun əsas səbəbləri və həll yolları aşağıdaklardır.

**Təhsilin zəif olması** – hamımıza məlumdur ki, əksəriyyət texniki istiqamətli fənnlər hələ XX əsrin sonlarının məlumatları əsasında keçirilir.. Dünyada baş verən texniki və texnoloji yeniliklər ali təhsil ocaqları 20 hətta daha çox ildən sonra gəlib çıxır. Təhsilin zəif olması suni intellekt sahəsində kadrların hazırlanmamasına gətirib çıxardır. Buna görə də aşağıdakılar icra olunmalıdır :

- Suni intellekt sahıəsini bilən şəxslər universitetlərə cəlb olunmalıdır;
- Dərsliklər köklü surətdə yenilənməlidir
- Təcrübə mərkəzləri yaradılmalıdır.

**Məlumatsızlıq və tələbatın olmaması -** əhali arasında suni intellekt barədə məlumatı olanlar çox azdır. Məhz buna görə də həmin sahədə təhsil almağa marağı olanlar da kifayət qədər çox deyil. Suni intellektin imkanları barədə əhali arasında məlumat olsa və bu sahəyə qrantlar ayrılsa bu sahənin inkişafına əsaslı təkan verə bilərik.

**İdarəetmə orqanının olmaması** – ölkədə bu sahə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfində idarə olunur. Hətta bu istiqamətdə işlərin görülmısinin şahidi də ola

bilərik. Ancaq, zənnimcə, bu funksiya geniş və konkret olduğundan bu sahənin idarəedilməsi və təvşiqi üçün ayrıca qurumun yaradılmasında fayda var.

**Qanunvericilik bazasının olmaması** – bəzi ölkələrdə u sahələri tənzimləyən şaxəli və əsaslı normativ hüquqi aktlar mövcuddur. Hətta əldə etdiyim bəzi məlumatlara əsasən suni intellekt əsaslı robotlara vətəndaşlığın verilməsini müdafiə edən ölkələr də az deyil. Fikrimcə, suni intellektlə məsələrin tənzimlənməsi istiqamətində əsaslı və hərtərəfli normativ aktların olması bu sahənin strukturlaşdırılmış şəkildə inkişafına imkan yarada bilər.

**Maliyyə dəstəyi –** dövlət tərəfindən qrntlara ayrılması və bu sahəyə investisiyalar qoyulmalıdır.

**Cəlbetmə-** yerli peşəkarları inkişaf etdirən anadək xarici ekspertlər cəlb olunmalıdır.

**Ədəbiyyat siyahısı**


Jhon Makkarti (1997) “What is Artificial Intelligence?”

Mc Kinsey (2022) “İntellegency and development” https://www.mckinsey.com/featured-insights/artificial-intelligence/notes-from-the-ai-frontier-modeling-the-impact-of-ai-on-the-world-economy#/

Jason Furman (2018) AI and the Economy,

Bostrom, N (2014). Superintelligence: Paths, dangers, strategies. Oxford, UK: Oxford University Press.

Brown, T., Mann, B., et al. (2020) Language Models are Few-Shot Learners.

The Hundred-Page Machine Learning Book,(2015) Andriy Burkov

Stuart Russel, Peter Novring (2019) Artificial Intelligence: A Modern Approach (Pearson Series in Artifical Intelligence) 4th Edition,

Chris Whitlock (Author), Frank Strickland (Author) (2017) Winning the National Security AI Competition: A Practical Guide for Government and Industry

Charu C. Aggarwal (2021), Artificial Intelligence

Markoff, J. (2016). Machines of Loving Grace: The Quest for Common Ground Between Humans and Robots. Ecco; Reprint Edition.

Harvard University (2017) , “The History of Artificial Intelligence.”

Kentucky Derby (2016) “A 'human swarm' predicted the winners of the Kentucky Derby at 540 to 1 odds.”

The Guardian. (2017) “What jobs will still be around in 20 years? Read this to prepare your future.”

Harvard Kennedy School (2021) “Are you know AI”

https://ifr.org/

https://www.europarl.europa.eu/thinktank/en/document/EPRS_BRI(2019)637967

https://www.pwc.co.uk/services/economics/insights/the-impact-of-artificial-intelligence-on-the-uk-economy.html

https://www.oecd.org/digital/artificial-intelligence/

https://www.economy.gov.az/az/post/129/suni-intellekt-uzre-novbeti-tedbir-teskil-edilib

# İnkişaf Edən Ölkələrdə İxracyönümlü Sənayeləşmə Strategiyalarının İqtisadi Artıma Təsirinin Qiymətləndirilməsi: Türkiyə Nümunəsində

**Emil Bağırlı**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Emil_Bagirli@unec.edu.az**

## Xülasə

Heç şübhəsiz ki, hər hansı bir ölkənin ixrac sektorunun dinamikliyi, emal sənayesinin yüksək verimliliyi, innovativliyi həmin ölkənin güclü cari əməliyyatlar balansına, müsbət beynəxalq investisiya mövqeyinə sahib olmasının əsas determinantıdır. Bu baxımdan müsbət xarici valyuta mövqeyinə sahib olmaq, inkişaf etməkdə olan ölkələrdən hər biri üçün bir nömrəli prioritet olmalıdır. İnkişaf etməkdə olan ölkələrin arasında xüsusi olaraq fərqlənən və iqtisadi ədəbiyyatlarda "Emerging countries" – yəni "inkişaf edən" olaraq da adlanan ölkələr qrupunun hər bir üzvü də məhz yüksək valyuta girişlərini təmin edəcək iqtisadi modelləri həyata keçirməyə çalışmaqdadırlar. Valyuta girişləri bu qrup ölkələrdə ilk növbədə xarici sektorla bağlı riskləri əhəmiyyətli dərəcədə minimallaşdırma və gələcəyi proqnozlaşdırma imkanı verir. İkinci olaraq isə milli valyutanın məzənnəsini dəstəkləyərək alılıcıq qabiliyyəti artırır və istehlaka müsbət təsir edərək real artıma iki tərəfdən(həm xalis ixrac həm də istehlak) müsbət təsir göstərir. İnkişaf edən ölkələrin xarici sektorunun göstərdiyi performans aktual şəkildə müzkirə olunan mövzudur və digər inkişaf etməkdə olan ölkələr və məhz Azərbaycan üçün özündə dərslər ehtiva edir. Bu tədqiqat işində bu ölkələrin inkişaf etmiş ölkələrə yaxınlaşmasında, xarici ticarət həcmlərinin artmasının rolu və təsirləri haqqında danışılacaqdır

**Açar sözlər:** Türkiyə, ixrac, üdm, xarici valyuta gəlirləri.

## Abstract

There is no doubt that the dynamism of the export sector of any country, the high efficiency and innovation of the manufacturing industry are the main determinants of that country having a strong current account balance and a positive international investment position. In this regard, having a positive foreign exchange position should be the number one priority for each of the developing countries. Each member of the group of countries, which is particularly distinguished among developing countries and is also called "Emerging countries" in the economic literature, is trying to implement economic models that will ensure high foreign currency inflows. Foreign currency inflows in this group of countries provide an opportunity to significantly minimize the risks related to the foreign sector and predict the future. Secondly, by supporting the exchange rate of the national currency, it increases purchasing power and has a positive effect on consumption, and has a positive effect on real growth from two sides (both net exports and consumption). The performance of the foreign sector of developing countries is a hotly debated topic and contains lessons for other developing countries and Azerbaijan in particular. In this research work, the role and effects of the increase in foreign trade volume will be discussed in the approach of these countries to developed countries

**Keywords:** Turkey, exports, gdp, foreign exchange earnings.

## Giriş

Hər bir iqtisadi modelin, siyasətin, islahatın əsas qayəsi, məqsədi gerilik mövcud olan sahələrdə müsbət irəliləyişə nail olmaq, hər bir formada istehsalı verimliliklə artırmaq və sonda real ümumi daxili məhsul artımına nail olmaqdır. Dünya iqtisadiyyatında müstəsna yer tutan böyük inkişaf etməkdə olan ölkələr

yəni inkişaf edən ölkələr məhz yüksək xarici valyuta girişlərinə əsaslanaraq öz iqtisadi göstəricilərini yaxşılaşdırmağı hədəfləyirlər və iqtisadi modellərini bunun üzərində inşa etmişlər. Bu ölkələrin ehtiyacları və tədiyyə balanslarının vəziyyəti bir-birindən olduqca fərqlənsə də, demək olar ki, onların hamısının məqsədi eynidir – xarici sektor hesabındakı kövrəkliyi(əgər varsa) aradan qaldırmaq və mümkün olduqca valyuta toplamaq(Cadot & Carrère, 2010). Beləliklə onlar milli valyutalarının dayanıqlılığını qoruyaraq, yüksək real artım tempinin köməyilə alıcılıq qabiliyyətini yüksəltməyə və inkişaf etmiş ölkələrlə nominal ifadədə mövcud olan uçurumu bağlamağa çalışırlar. İstisnasız bütün ölkələrdə ümumi daxili məhsulun əsas hissəsini istehlak təşkil etdiyindən inkişaf edən ölkələr öz artan daxili tələblərini qarşılamaq üçün dinamik ixrac göstəricilərinə bel bağlayırlar.

İxrac artımı inkişaf edən ölkələrin real artım tempinin əsas drayveri olaraq qəbul edilməkdədir. İxrac göstəricilərindəki artım dedikdə təkcə nominal olaraq xarici valyuta ifadəsində artım yox həm də həcm olaraq artım nəzərdə tutulur. Bu tədqiqat işində də məhz ixrac həcmlərindıki artımın nominal dəyər ifadəsindəki artımdan daha əhəmiyyətli olduğu qrafiklərlə izah ediləcəkdir.

Biz yuxarıda ümumi olaraq bütün inkişaf edən ölkələrin bənzər iqtisadi hədəflərə və davranışlara malik olduğunu və xarici valyuta gəlirlərinin, onların stabil və keyfiyyətli real artıma malik olmasının əsas determinantı olduğunu desək də, ixrac artımının onların hər birinə təsiri eyni olmadığından, bu qrup ölkələrin hamısına individual yanaşmaq lazım gəlir. Çünki hər bir ölkənin iqtisadiyyatının kompozisiyası, sənayesinə təsir edən amillər, xarici bazarlara açıqlıq səviyyəsi və.s. fərqlidir. Amma yenə də valyuta gəlirlərinin artımı bu ölkələrin hamısının iqtisadi modelinin əsas hədəfidir(Köse & Yalçın, 2017).

**İnkişaf edən ölkə təsnifatının tarixi və əhəmiyyəti**

"İnkişaf edən" ölkələr termini ilk dəfə Dünya Bankının iqtisadçısı Antoine van Agtmael tərəfindın ortaya atılmışdır. Bu termin öz-özlüyündə yaxın keçmişdə yüksək və davamlı real artım göstəricilərinə malik olan və gələcəkdə dünya iqtisadiyyatının əhəmiyyətli oyunçularından birinə çevrilmək potensialı olan ölkələri ifadə edir. İnkişaf edən ölkələr əsasən aşağıdakı xüsusiyyətlərinə görə ümumi şəkildə inkişaf etməkdə olan ölkələr qrupundan fərqlənirlər:

- Yüksək, stabil və keyfiyyətli iqtisadi artım
- Daim genişləyən orta təbəqə və istehlak səviyyələri
- İrihəcmli xarici investisiya stoku

"İnkişaf edən" və "inkişaf etməkdə olan" terminləri əsas mənada bir-birlərinə bənzəsə də, əslində bir-birindən olduqca fərqlənən müxtəlif ölkələr qrupunu ifadə edirlər. Terminlərin bənzərliyi ondadır ki, ikisi də hələ ki inkişaf etmiş ölkə olaraq adlandırılmayan ölkələr qrupunu ifadə edir. Fərqləri isə ondadır ki, inkişaf etməkdə olan ölkələr öz aralarında olduqca müxtəlif göstəricilərə, xüsusiyyətlərə malikdirlər və onları bir qrupda klassifikasiya etmək səmərəsizdir. Məsələn inkişsf edən ölkə olan Türkiyənin, inkişaf etməkdə olan ölkə Qana ilə arasındakı fərq, inkişaf etmiş ölkə Yunanıstan ilə arasındakı fərqdən daha çoxdur. Bu baxımdan bəzi ölkələri başqa termin altında fərqləndirmək həm praktiki həm də akademik olaraq vacibdir(Uğur & Ararat, 2005). İnkişaf etməkdə olan ölkələr qrupunun əsas xüsusiyyətləri bəi istisnalar olmaqla aşağıdakılardır:

- Keyfiyyətsiz iqtisadi artım
- Yuxarı yoxsulluq səviyyəsi

- Təhsil və səhiyyə kimi əsas xidmətlərə əlçatanlılığın aşağı olması

Bu iki qrup ölkəni bir-birlərindən fərqləndirən əsas indiqator məhz real artım tempidir. Dünya üzrə likvidliyin yüksək olduğu 2000-2010-cu illər arası inkişaf edən ölkələr qrupunda orta artım tempi 5.8% olmuşdursa, inkişaf etməkdə olan ölkələr qrupunda isə cəmi 2.4% olmuşdur(World Bank, 2012). Bu səviyyədə yüksək artım, inkişaf edən ölkələrə xarici investisiyaların əhəmiyyəti hissəsini absorb etməyə imkan vermiş, onların qlobal iqtisadiyyardakı mövqeyini daha da gücləndirmişdir(Kaplan & Ozturk, 2009). Yəni inkişaf etməkdə olan ölkələr ilə onsuz da mövcud olan fərq daha da artmışdır. Günümüzdə reytinq agentlikləri(Fitch, Moodys, SP) başda olmaqla bu terminologiyadan ekstensiv olaraq istifadə edtməkdədir çünki investorların qərarvermə mexanizmində həmin ölkənin artım potensialı əsas göstərici olaraq fərqlənir.

**İxracyönümlü artım modeli və onun bəzi inkişaf edən ölkələrdə tətbiqi**

Demək olar ki, son 1970-80-ci illərdən bu günədək dünya ticarətinə, müxtəlif ölkələrdəki sənayeləşmə strategiyalarına yön verən əsas paradiqma məhz ixrac yönümlü sənayeləşmə, böyümədir. Bu modeldən əvvəl bir çox ölkə və bu tədqiqatın əsas subyekti olan inkişaf edən ölkələr idxal əvəzedici sənayeləşmə modelini tətbiq etməkdəydilər. Amma ard-arda baş verən böhranlar, Bretton-Woods arxitekturasının dağılması və idxal əvəzləmə modelinin gözlənilən nəticələri verməməsi nəticəsində sturuktur islahatlarına eytiyac yarandı(Saracoglu & Domaç, 2008). 1980-ci illərin neoliberal iqtisadçıları məhz inkişaf edən ölkələrdəki istehsal xərclərindəki avantajlardan yararlanmaq üçün, yüksək investisiya səviyyəsinə əsaslanan bu modeli təbliğ etməyə başlamışdılar. Hətta 1997-ci ilə qədər Beynəxalq Valyuta Fondu standard "resept" kimi bütün müraciət edən ölkələrə eyni modeli tətbiq edəcək və Asiya maliyyə böhranına səbəb olacaqdı(World Bank, 2016).

İxrayönümlü artım modeli modelinin əsas qayəsi, ölkənin qiymət üstünlüyünə malik olduğu və ola biləcəyi sahələrdə yüksək investisiyalar hesabına, miqdar iqtisadiyyatından maksimum faydalanaraq dünya bazarına öz məhsullarını çıxarmasıdır(Kilicarslan, 2010). İdxal əvəzedici modeldən fərqli olaraq, daxili istehlakda əsas yer tutan əmtəələtin istehsalına yox, maksimum verimliliklə istehsal edilə biləcək və valyuta qazandıra biləcək məhsullara diqqət yetirilir. Yüksək valyuta dövriyyəsi burada həyati əhəmiyyətlidir çünki, inkişaf edən ölkələr öz kapital ehtiyaclarını qarşılayabiləcək yığım səviyyələrinə malik deyillər və buna görə də daim xarici investisiyalara ehtiyac duyurlar. Teorik olaraq iqtisadiyyatın liberallaşdırlıması nəticəsində yaranacaq ticarət kəsri, xarici investisiyalar(birbaşa və portfel) hesabına maliyələşdirilməli və beləliklə ölkə iqtisadiyyatında kövrəklik mövcud olmamalıdır. Sonralar sənayeləşmə səviyyələrinin artması nəticəsində bü ölkələrdə sərbəst maliyyə vəsaitləri yaranmalı, ticarət kəsri azalmalı və kapital axını digər ölkələrə yönəlməlidir(Akgul & Turkmen, 2011). Dediklərimizi ümumiləşdirsək ixracyönümlü sənayeləşmə/artım modelinin əsas müddəalarını aşağıdakı kimi yaza bilərik:

- Xarici bazarlarda satıla biləcək əmtəələrin istehsalının təşviq edilməsi
- İqtisadi artımın əsasən qiymət üstünlüyünə malik sektorlara əsaslanması
- Yüksək investisiya səviyyələrinə əsaslansa da, kapitaldan asılılğın azalması üçün təhsilə və innovasiyalara öncəlik verilməsi(P.Krugman, 2005)
- Proqnozlaşdırılabilən makroiqtisadi siyasət və qiymət stabilliyinin dəstəklənməsi

- Aşağı yığım səviyyələrinə malik ölkələrdə, real gəlirlərin artımı hesabına yığım səviyyələrinin artımı
- Klaster tipli sənayeləşməyə əsaslanma
- Xarici ticarətin liberallaşdırılması üzrə beynəxalq cəhdlərin dəstəklənməsi

**Türkiyədə ixracyönümlü artım modelinin tətbiqi**

Türkiyə Respublikası müstəqil olduqdan sonra etatizm adlanan siyasət əsasında dövlətin iqtisadiyyatda əsas yer tutduğu siyasət yeritsə də, ilk seçkilərin keçirildiyi 1950-ci ildən etibarən vəziyyət dəyişməyə başlamışdır. İqtisadi baxımdan liberal görüşlərə malik Menderes höküməti ölkə iqtisadiyyatını xaricə açaraq kənd təsərrüfatının artımına əsaslanan iqtisadi siyasət həyata keçirməyə başladı(Özcan & Aktaş, 2019). Belə ki, hətta ABŞ-dan alınan Marşal yardımının əhəmiyyətli hissəsi məhz kənd təsərrüfatı üçün traktor idxalına xərclənmişdi. Demokrat partiyanın hakimiyyəti dövründə real olaraq yüksək(6.30%) artım tempi yaxalamaq mümkün olsa da, xarici sektordakı problemlər özünü biruzə verərək ölkədə bu gün də davam edən ticarət kəsri-devalvasiya-inflyasiya tskilini başlatmışdı(Toprak & Kıvrak, 2015). 1960-cı ildən sonra Dövlət Planlaşdırma Təşkilatı tərəfindən hazırlanan 5 illik iqtisadi planlar məhz xarici sektordakı kövrəkliyi örtməyə və idxal edilən məhsulların yerli ekivalentləri ilə əvəzlənməsinə əsaslanırdı. Hətta yerli malların təşkili üçün ideoloji propaqanda afişləri, günləri belə hazırlanmışdı. İdxal əvəzedici modelin əsas xüsusiyyətlərindən olan, aşağı ticarət həcmi fonunda ölkənin ixracı islahatların keçiriləcəyi 1980-ci illərə qədər aşağı olmuş, yerli istehsal əsasən daxili tələbin ödənilməsi ilə məşğul olmuşdur(Yıldırım & Aytun, 2018).

**Qrafik 1: 1950-1980-ci illərdə ixracın nominal dəyəri və onun üdm-də payı(milyon dollar, %)**



Qrafikdən açıq-aşkar göründüyü kimi ixracın ümumi daxili məhsuldakı həcmi olduqca aşağıdır və deyə bilərik ki, xaliş ixrac real artıma heç bir dəstək verməyib. Artım əsasən istehlak və hökümət xərcləri hesabına təmin olunub. 1980-ci ilin yanvarında açıqlanan və iqtisadi münasibətlərdə əhəmiyyətli liberallaşmaya səbəb olan qərarlardan sonra ölkə sürətlə idxal əvəzedici modeli tərk edərək, Turqut Özalın rəhbərliyində ixracyönümlü modelə keçmişdir(Çakmaklı & Demiralp, 2011). Yüksək daxili və xarici investisiyalar hesabına real artım templəri yüksəlsə də xalis ixracın üdm artımındakı payı aşağı olmaya davam etmişdir.

**Qrafik 2: 1980-2022-ci illərdə real üdm artımı və xalis ixracın artımdakı payı(%-lə)**




Bu dövrdə ixracın orientasiyası dəyişmiş, Türkiyə iqtisadiyyatında valyuta qazandıran sektorlar kimi tekstil, avtomobil sənayesi və inşaat xidmətləri kimi sahələr ön plana çıxmağa başlamışdır. İxracın həm nominal həcmi həm də miqdar ifadəsində həcmləri sıçrayışla artmağa başlmamışdır. Xüsusən Avropa Birliyi ilə gömrük ittifaqı haqqında sazişin bağlanması sıçrayışa əsas təkan verən amil olmuşdur(Kaplan & Ozturk, 2009). Real artım baxımından baxdıqda 1990-cı illər ölkə üçün itki sayılsa da, sənayenin və kapitalın təmərküzləşməsi, qazanılan texnoloji qabiliyyətlər 2000-ci illərdəki sıçrayışa imkan yaratmışdır(Erden & Türe, 2015). Belə ki, ölkə ixracatının sturukturu 90-cı illərin sonunda aşağı

texnoloji mallardan orta texnoloji mallara yüksəlmişdir. Kənd təsərrüfatının ixracda və ümumi daxili məhsulda payı kiçilmiş, emal sənayesi sürətlə yüksələrək 96%-ə(Tuik 2021) qədər yüksəlmişdir. Urbanizasiya və ümumi olaraq təhsil səviyyəsinin artması sənayenin sturuktur olaraq dəyişməsinə dəstək vermiş və ilk dəfə olaraq ənənəvi olaraq geri qalmış hesab edilən anadolu şəhərləri ölkə iqtisadiyyatına əhəmiyyətli şəkildə töhvə verməyə başlamışlar. Hətta Cənub-Şərqi Anadoluda yerləşən Qaziantep şəhəri, 2022-ci ilin məlumatlarına əsasən illik 14$ milyard ixrac həcminə çata bilmişdir(Tuik, 2023).

**Qrafik 3: 1989-2022-ci illərdə ixrac həcmləri indeksi(2000=100) və ixracın nominal dəyəri(milyard usd)**




Qrafikdən də göründüyü kimi ixracatın dollar ifadəsində nominal dəyəri həcm indeksi ilə paralel olaraq dəyişmişdir. İdxal həcmləri daha aşağı templə artsa da, qızılın və neftin qiymətindəki yüksəlişlər böyük ticarət kəsrləri yaratmağa başlamışdır(Özcan & Aktaş, 2019). Ümumi daxili məhsulun 11%-nə(Tuik 2012) yüksələn cari əməliyyatlar hesabı kəsri əsasən portfel investisiyaları ilə maliyələşdirilmişdir. Amma 2013-cü ilin mayından başlayaraq "Taper Tantrum" olaraq adlanan prosesin başlaması, inkişaf edən ölkələrə portfel investisiyaları axınını kəsərək Türkiyəni devalvasiya-inflyasiya spiralına aparmışdır. Belə ki, ABŞ Mərkəzi Bankı FED-in faiz dərəcələrini yüksəltilə biləcəyi ilə bağlı açıqlaması,

qlobal bazarlarda çalxantılara səbəb olmuş, inkişaf edən ölkələrdən son illədə ilk dəfə olaraq xalis investisiya çıxışı olmuşdur. 2011-ci ildə rekord səviyyədə(TCMB 2013) portfel investisiyası cəlb edən Türkiyə, investisiya çıxışları nəticəsində sərt devalvasiyalara getmək məcburiyyətində qalmış, faiz dərəcələrini yüksəltmişdir. Bu vaxt 2000-ci illərdən bəri ilk dəfə olaraq iqtisadi modellə bağlı mübahisələr başlamış, yüksək tədiyyə balansı kəsri yaradan və bu kəsri maliyyə axınları hesabına örtən hazırki model tənqid edilməyə başlanmışdır.

**Qrafik 4: 2002-2019-cu illərdə xalis portfel investisiya girişləri və türk lirasının məzənnəsi**




Qrafikdən göründüyü kimi, portfel investisiya girişləri azaldığı andan etibarən lira sürətlə ucuzlaşmağa başlamışdır. Əslində buradan demək olar ki, ölkə yeni artım modeli axtarmaqdadır amma son 2 ildəki enerji qiymətlərindəki artım və siyasi rəhbərliyin Mərkəzi Banka müdaxilələri milli valyutanın üzərində təzyiqlər yaratmışdır. Liranın məzənnəsinin ilbəil dayanmadan ucuzlaşması, nominal ifadədə ümumi daxili məhsulun 2013-cü ildəki rekord səviyyəd'n(950$ milyard), 900$ milyarda qədər(Tuik 2023) azalmasına səbəb olmuşdur. Əslində demək olar ki, 2002-2014 arasındakı sıçrayışlı üdm artımı məhz liranın real effektiv məzənnəsinin yüksək səviyyədə qalması ilə bağlıdır(Dikici Bilgin, 2016). Son illərdə isə inflyasiya artımının məzənnənin ucuzlaşma səviyyəsini üstələməsi fonunda nominal üdm-də müəyyən düzəlişlər baş versə də, nəzərə almaq lazımdır ki, ABŞ dollar da inflyasiyaya uğrayıb, yəni 2013-dəki 950 milyard dollar 2022-ci ildə təxminən 1.2 trn dollara bərabərdir.

**Qrafik 5: 2003-2018-cu illərdə üdm(10$ milyard), real məzənnə, faiz dərəcələri və orta illik inflyasiya**




Qrafikə baxsaq görə bilərik ki, real məzənnənin yüksək səviyyəsi bu illərdə nominal üdm artımını da dəstəkləmişdir. Türkiyə 2013-cü ildə ilk dəfə olaraq yüksək gəlirli ölkə kateqoriyasına yaxınlaşsa da, məhz milli valyutanın dəyər itkisinə görə inkişaf etmiş ölkələrdən uzaqlaşmağa başlamışdır(Kahraman & Özdemir, 2019). Ölkənin yeni iqtisadi modelə ehtiyacı olduqca açıqdır. Gələcəkdə aparılacaq sturuktur islahatları məhz yuxarıda qrafiklərlə izah etdiyim kövrəklikləri, gerilikləri düzəltmək üçün aparılmalıdır. Əks təqdirdə adambaşına düşən gəlir səviyyəsini inkişaf etmiş ölkələr səviyyəsinə yüksəltmək mümkün olmayacaqdır.

**Nəticə**

**Mövzunun aktuallığı**. Təchizat zəncirlərinin səmərəli idarə edilməsi e-ticarət müəssisələrininuğuru üçün vacibdir. Bu məqalə, tədarük zəncirinin performansına təsir edən amillərə və maliyyə gəlirlərini maksimum dərəcədə artırmağa kömək edə biləcək idarəetmə strategiyalarına diqqət yetirməklə, E-ticarət platformasında təchizat zəncirlərinin maliyyə gəlirlərini araşdırır. Bu mövzunun aktuallığını qlobal iqtisadiyyatda e-ticarətin artan əhəmiyyəti və e-ticarət müəssisələrinin gəlirliliyinin təmin edilməsində təchizat zəncirinin idarə edilməsinin mühüm rolunümayiş etdirir.

Tədqiqatın məqsədi. Bu məqalənin əsas məqsədi e-ticarətdə təchizat zəncirinin performansına təsiredən amillər və maliyyə göstəricilərini yaxşılaşdırmaq üçün təchizat zəncirlərinin idarə olunması üçün ən yaxşı təcrübələr haqqında anlayışlar təqdim etməkdir. Bundan əlavə e-ticarətdə təchizat zəncirinin performansına təsir edən əsas amilləri müəyyən etmək, effektiv təchizat zəncirinin idarə edilməsinin üstünlüklərini vurğulamaq və e-ticarət müəssisələri üçün təchizat zənciri əməliyyatlarını təkmilləşdirmək üçün praktiki tövsiyələr vermək də tədqiqatın məqsədlərinəaiddir.

**Tədqiqatın məhdudiyyətləri.** Elektron ticarət nə qədər gündəmdə olub həyatımızın önəmli bir hissəsini təşkil etməyə doğru getsə də yeni yaranmış bir sahə olduğu üçün ədəbiyyat məhdudluğu mövcuddur. Eyni zamanda elmi olaraq daha çox Asiya regionu ölkələrində tədris olunduğu və araşdırıldığı üçün üçün bu sahə ilə bağlı elmi tədqiqat və nəzəri mənbələr Asiya regionu sahəsindəolan universitetlər və tədqiqat mərkəzlərində daha çox sayda və daha inkişaf etmiş formadadır.

**İstifadə olunmuş tədqiqat metodları haqqında məlumat.** "E-ticarət platforması əsasında optimal təchizat zəncirləri üzrə maliyyə gəlirlərinin artırılması istiqamətləri" adlı tədqiqat işinin araşdırılmasında kəmiyyət metodundan istifadə nəzərdə tutulmuşdur. Bu araşdırmada məlumatların toplanması üçün anket metodu seçilmişdir. Mövzu araşdırılan zaman 34 sualdan ibarət anket hazırlanmışdır. Anket respondetnlərə onlayn formada təqdim olunmuşdur. Respondentlər internet üzərindən, qartopu seçmə üsulu, təsadüfi seçmə üsulu kimi üsullar istifadəedilərək toplanmışdır.

**Nəzəri metodologiya**. Bu tədqiqat işinin nəzəri-metodoloji əsasını, xüsusilə də elektron ticarət platformaları, təchizat zəncirlərinin maliyyə gəlirləri, xərcləri araşdırılarkən elmi-nəzəri biliklərin və əsas iqtisadi terminlərin öyrənilməsində analiz və sintez, induksiya, təhlil və statistik təhlil metodlarından istifadə olunmuşdur. Bu mövzunun araşdırılmasında Agarwal, Ashish, Benaroch, M., Appari, A, Ashraf, A.R., Thongpapanl, N., Spyropoulou, S, Agrawal, D.K, Manli Jia, Liu Sen,Zhong Shuqi, Hu Yanan, Yang Dan, Wang Yuan, Mao Min kimi iqtisadçıların tədqiqatlarından istifadə olunmuşdur.

**E-ticarətdə təchizat zəncirinə təsir edən faktorlar**

E-ticarətdə inkişaf, bir çox ölkədə təchizat zənciri sektorunun iş yükünü çoxaltmış və sektordakı səmərəliliyi artırmış, yerli bazada bazara girişi təşvik etmiş, milli və beynəlxalq miqyasda yeni və böyük oyuncuların bazara girməsinə, mövcud firmalar üzərində rəqabət təzyiqinin artmasına səbəb olmuşdur. Bütün bunlarda böyük elektron bazaryerlərinin rolu böyükdür. Çünki, e-ticarət bazarında önəmli bir payı olan e-bazaryerləri bir çox sahədə olduğu kimi lojistika sahəsində də müştəri təcrübəsini yaxşılaşdırmaq üçün şiddətli rəqabət etməkdədir. Böyük e-marketlər yeniliklər etdikcə lojistika firmaları və nisbətən kiçik olan elektron ticarət saytları bu yeniliklərə adaptasiya olmağa çalışmaqdadır. Aradakı fərqin zamanla artdığı bu yarışda gələcəkdə hansı səviyyəyə çatılacağını bilmək çətin olsa da böyük elektron marektlərin yəni elektron ticarət platformalarınıntəchizat zənciri sahəsində də özlərini ön plana çəkməyə çalışdığı görülür. Aşağıda, böyük e- bazaryerləri ilə elektron ticarətdəki inkişafın təchizat zənciri sektoruna təsirləri daha detallı şəkildəgöstərilmişdir.

E-ticarətin ən mühim faktorlarından biri təchizat zəncirləridir. Təchizat zəncirlərinin fəaliyyəti zamanı ediləcək ən kiçik bir xəta e-ticarət platformunun və ya firmasının müştəri itirməsinə səbəbolacaqdır. Bunun üçün də istehlakçının məhsulu sifariş verməsinin ardından, həmən məhsulun istehlakçıya təslim edildiyi və ya geri qaytarılan məhsulun istehlakçıdan alınıb ən qənaətcil formada sistemə geri

göndərildiyi ana qədər olan zaman güclü bir lojistika sistemi ilə idarə edilməlidir. Bu yönlü sistemin qurulması üçün 5 faktora önəm verilməlidir: etibarlılıq, qənaət, vaxt, xidmət çevikliyi və bilik (Wang 2015).

**Cədvəl 1. E-ticarətdə təchizat zəncirinin fəaliyyətinə təsir edən faktorlar**

| | |
|---|---|
| Etibarlılıq | Lojistika avadanlıqları |
| | Düzgün məhsullar |
| | Məhsulların yerləşdirilməsi |
| Qənaət | Qaytarılma xərcləri |
| | Çatdırılma qiyməti |
| Zaman | Çatdırılma vaxtı |
| | Qaytarılan məhsula geridönüş vaxtı |
| | Sifarişə geridönüş vaxtı |
| Xidmət elastikliyi | Elastik yol |
| | Ünsiyyət bacarıqları |
| Bilik | Vaxtında məlumat |
| | Düzgün məlumat |
| | Bütöv məlumat |

**Etibarlılıq:** Elektron ticarətin ilk illərində məhsulun daşınma və çatdırılma prosesində zədələnməsi, oğurlanması, itməsi və ya yanlış məhsul çatdırılması kimi pozuntular tez-tez yaşanırdı. Zamanla bu cür problemlərin qarşısını almaq üçün texnoloji imkanların köməyi ilə effektiv həll yolları işlənib hazırlanmışdır. Bir tərəfdən yeni qablaşdırma üsulları meydana çıxarkən, bir yandan da məhsulun satıcıdan istehlakçıya çatdırılarkən olan bütün proses texnika vəproqram təminatının vasitəsilə daha keyfiyyətli və güvənilir hala gəlmişdir. Məsəlçün, Ebay və Alibaba kimi firmalar məhsul müəyyən edilmiş müddət ərzində istehlakçıya çatmasa ödənişi geriödəyir. Bu kimi güzəştlər edərək, firmalar müştərilərin güvən və etibarını qazanmağa çalışırlar.

**Qənaətlik**: E-ticarətə əsaslanan təchizat zənciri sahəsində maliyyə xərclərini artıran bir çox faktor mövcuddur. Bu faktorlardan bir neçəsi aşağıdakılardır:

- Rəqabətsiz bazar
- E-ticarət platformalarının və lojistika firmalarının məhsul tədarükünü düzgün təşkil etməmələri
- Geri qaytarılma miqdarının yüksək olması
- İnfrastrukturun qeyri-kafi olması
- Tələb yetərsizliyi

Bu sahələrdə təkmilləşdirmələrin aparılmaması və ya effektiv həllərin işlənib hazırlanmaması logistika xərclərinə səbəb olur və bu, qiymətlərə də öz təsirini göstərməkdədir. Ancaq bu gün e- ticarət şirkətləri arasındakı rəqabətdə ən çox müraciət edilən üsullardan biri məhsulların aşağı ödənişlə və ya pulsuz çatdırılmasıdır. Bunun səbəbi, istehlakçıların çatdırılma xərcini ödəməkdənboyun qaçırmalarıdır.

Artıq bu, bazarda satıcılar arasındakı rəqabətdə önəmli faktor halına gəldiyi üçün bundan boyun qaçırmaq mümkün deyildir. Bunun üçün də firmalar mümkün qədər xərclərini aşağı səviyyədə tutmağa çalışırlar. Burda isə firmalar və ya satıcılar üçün ən əlverişli yol əməkdaşlıq edilən lojistika

şirkətləri ilə mümkün qədər aşağı qiymətə razılığa gəlinməsidir. Sürətli lojistika şirkətlərinə də tələb çox olduğu üçün onlar aşağı qiymətə razılaşmağa müsbət yanaşırlar.

Digər bir üsul isə istehlakçının məhsulu mağazdan təslim almasıdır. Burada ən azından məhsulun müştəriyə çatdırılana kimi çəkiləcək xərclərin qarşısı alınır.

Başqa bir üsul da sifarişlərin çatdırılması üçün müəyyən vaxt aralıqlarının qeyd olunmasıdır. Məsəlçün, Yaponiyada şəhərlərdə müştərilər çatdırılma ediləcək ünvanda olmadığı üçün eyni adresə ikinci dəfə edilən çatdırılmaların niisbəti 16% ə çatmış, bu halın da yol açdığı daşıma xərcləri və əmək sərfiyyatını minimuma endirmək üçün, çatdırılma zamanlarını insanların evdə olma ehtimalının ən yüksək olduğu səhər saatlarına salmışlar (Miyajima, 2020).

**Zaman:** Sifariş etdiyi məhsulu ən qısa zamanda əldə etmək istehlakçı üçün ən önəmli faktorlardan biridir. Bu yöndə son illərdə çox böyük irəliləmələr olmuşdur. İlk öncə firmalar "iki gündə təslimat" anlayışını meydana gətirdi. Bu müddəti daha da qısaltmaq üçün bir sıra çalışmalar edildi və "bir gün sonra çatdırılma", "2 saata çatdırılma" kimi xidmətlər göstərməyə başladılar. Son olara isə qida və market sektorunda bu çatdırılma müddəti yarım saata qədər düşmüşdür. Böyük firmaların təşəbbüsü ilə meydana gələn bu cür tətbiqlər istehlakçıların dəqqətini çəkmiş, digər firmalar da bu cür xidmətlər istehlakçıya təqdim etmək və ya alternativlərini araşdırmaq məcburiyyətində qalmışlar.

**Xidmət Çevikliyi:** İstehlakçılar məhsulun necə?, harada? və nə vaxt? çatdırılması ilə maraqlanırlar (UPS, 2019). "Necə" sualını baxdıqda, sifarişlərin mənzilə çatdırılması ilə yanaşı, son illərdə bəzi böyük e-ticarət firmaları tərəfindən şəhərlərin müəyyən bölgələrinə kilidli bağlama qabları qoyulur və istehlakçılar öz sifarişlərini buradan əldə edə bilirlər. Bir çox böyük firmalar hal-hazırda bu xidmətin üzərində çalışırlar.

Hətta uCella adında bir firma evlərin çöl hissəsinə quraşdırıla biləcək və bağlama qutularının yerləşəcəyi ölçüdə olan güvənli və ağıllı poçt qutuları istehsal etmişdir. Hətta məhsulu geri qaytarmaq istəyən müştərilər də öz bağlamalarını buraya qoyacaq və satıcıya birdəfəlik giriş kodu göndərmələ məhsulu geri qaytara biləcəkdir. (USPS, 2018).

Buna görə də məqsəd mümkün olduqda məhsulu şəxsən müştəriyə və ya asanlıqla əldə edilə bilən bir ünvana çatdırmaqdan ibarətdir. "Harada?" sualına gəlincə isə yuxarıda da qeyd edildiyi kimi istehlakçının göstərdiyi ev və iş yeri ünvanları ilə yanaşı, şəhərin müəyyən yerlərindəki məntəqələrdən də məhsulun əldə edilməsi nəzərdə tutulur. "Nə vaxt?" sualınının özü satıcı firma tərəfindən müştəriyə verilir. Çatdırılma günündən əlavə olaraq, bəzi firmalar müştərilərə məhsulun təqdim edilməsi günü və saatını özlərinin seçməsi üçün imkan yaradır. Bütün bu sadalananlar əslində artıq, satıcının və ya təchizatçının deyil, istehlakçının uyğunluq vəziyyəti əsas götürülərək xidmətin yerinə yetirildiyini göstərməkdədir.

**Məlumat:** Elektron ticarətdə logistika sahəsində ən azı yuxarıda qeyd olunan sahələr qədər vacib olan digər bir məsələ, istehlakçıya proses haqqında vaxtında, dəqiq, kifayət qədər və asan başa düşülən şəkildə məlumat verməkdir. Sifarişin verildiyi andan etibarən çatdırılma anına qədər olan müddət ərzində istehlakçının daima məlumatlandırılması və lazım olduqda firmaya suallar verə bilməyi son zamanda önəmli faktor halına gəlmişdir.

**E-ticarətdə təchizat zəncirinin idarə olunması**

Elektron ticarətin bu qədər populyarlaşmasının ən önəmli səbəblərindən biri computer şəbəkələrinin həm istehlakçı həm də firmalar tərəfindən elektron platformalarda istifadə edilə bilməsidir. Bunun sayəsində satış və məhsul haqqında olan məlumatlar kimi müştərilərin satınalma davranışlarına təsir edəcək bilgilər rəqəmsal platformalarda paylaşılacaq vəziyyətə gəlmiş, bu da müştəri və digər firmaların məlumatlanmasına səbəb olmuşdur.

Electron ticarətin iqtisadi gəlirləri Lianga və digərlərinə görə (2012) aşağıdakı kimidir:

- Təchizat zəncirlərinin uzun məsafə və zaman aralığını minimum endirməsi
- Paylama və çatdırılma xərcləri azalmağa doğru gedir
- Məhsulun inkişaf prosesi sürətlənmişdir
- Satıcı və alıcılar üçün məlumat ötürülməsini sadələşdirmişdir
- Çətin coğrafi zonada yerləşən regionlarda tədarükçü və müştərilərin əlçatan olması

E-ticarətin bu qədər əlverişli olması təchizat zəncirinin idarəedilməsinə də öz təsirlərini göstərmişdir. Təchizat zəncirlərində istehsal, marketinq və satınalma kimi proseslərə gətirdiyi sadəlik və təkmilləşdirmələr, günümüzdəki rəqabət şəraitindəki firmalara üstünlük təşkil etməkdədir (Gunasekaran ve digərləri, 2002).

E-ticarət üzərindən olan təchizat zəncirlərinin işləmə prinsipi ənənəvi ticarət üzərindən olan təchizat zəncirləri ilə oxşar olmaqla bərabər müəyyən fərqlilikləri vardır. E-ticarətdə istehsalçı və ya satıcı sifarişi internet sistemləri üzərindən birbaşa müştəridən (B2C) və ya digər firmalardan alır (B2B). Bu sayədə firmalar artıq dünyanın bütün bölgələrindən sifarişlər ala bilir və yer və zaman məhdudiyyəti olmadan prosesi həyata keçirə bilirlər. Bu zama e-ticarət tədarük zənciri qısaldımış, təchizatçı istehsalçı firma kimi davranmağa başlamış və zəncir təchizatçı-distribyutor-müştəri olaraq dəyişmişdir. Təchizat zənciri planlaması və fəaliyyəti yuxarıdan da göründüyü kimi stratejik səviyyədə qərar qəbul etməyi tələb edir. Tədarük zəncirinin effektiv idarə olunması müştəri məmnuniyyətini artırmaqla bərabər, ümumilikdə təchizat zəncirinin də gəlirlərinin artımına səbəb olacaqdır (Georgiadis və digərləri, 2004)

**Cədvəl 2. Təchizat zənciri prosesi**

| **İstehsal prosesləri** | **Marketinq prosesləri** | **Satınalma prosesləri** |
|---|---|---|
| İstehsalın idarəedilməsi tələb yönümlü idarəetməyə çevrilmişdir. İstənilən zaman və yerdə mümkün hala gətirilmişdir. | İnternet üzərindən olunan marketinq proseslərində firmalar əlavə bina, avadanlıq, kommunal və s. Kimi xərclər çəkməmiş olur. | Satınalma və çatdırılma onlayn şəkildə olmuş olur. |
| Elektronik platformalar üzərindən təchizatçıdan xammal və avadanlıq alımı 15%-20% daha ucuz və daha sürətli olmaqdadır. | Marketinq prosesində daha az işçi çalışmaqdadır. Sadəcə satılacaq məhsul və bu məhsulları saxlamaq üçün anbara ehtiyac vardır. | Satıcı və alıcılar üçün yeni alternativlər tapmaq daha rahatdır. |

| | | |
|---|---|---|
| İstehsalın planlaşdırılması və sifariş prosesi daha əlverişli hala gəlmişdir. | Satış sonrası xidmət, pul axını və çatdırılma xidmətləri sürətlənmişdir. | Məhsulların bir-birilə müqayisə edilməsi və ən uyğun məhsulun seçilməsi daha sadə hala gəlmişdir. |

Təchizat zəncirinin effektiv idarə edilməsi Evans və digərlərinə (19998) görə aşağıdakı meyarlaragörə bölünmüşdür:

- Təchizat zənciri üçün ən uyğun nəzarət sistemi hazırlanmalıdır.
- Əlavə dəyər yaratmayan vaxt xərcləri minimuma endirilməlidir.
- Əhəmiyyətli məlumatlar paylaşılmalı və hamı üçün əlçatan olmalıdır..
- Təchizat zənciri strukturu yaradılmalıdır.
- Sifariş və satınalma prosesləri sinxronlaşdırılmalıdır.

Buradan da göründüyü kimi günümüzün qlobal bazarlarına ən yaxşı formada uyğunlaşmaq üçün təchizat zəncirinin effektiv idarəedilməsi şərtdir. Lakin, artan rəqabət zəncirin tərkibindəki firmaların koordinasiyada işləməsini məcbur hala gətirmişdir. Bu məcburiyyətin əsasında məlumat axınını asanlaşdırma üçün firmalararası müəyyən məlumat platformaları qurulmuşdur (SAP,ORACLE, SRM və s. ). Lakin, firmalar inkişaf edən texnologiyaya rəğmən ətrafdakı tələbə uyğun olaraq fəaliyyət göstərməli və təchizat zənciri ona uyğun idarə olunmalıdır (Chatzidimitriou və digərləri, 2008).

**Hipotezlər**

H1. E-ticarət platformaları əsasında fəaliyyət göstərən təchizat zənciri prosesinin effektiv idarə olunması maliyyə gəlirlərinin artırılmasına müsbət təsir edir.

H2. Zaman e-ticarət platformaları əsasında fəaliyyət göstərən təchizat zəncirlərinin maliyyə gəlirlərinin artırılmasına müsbət təsir edir.

**Faktor analizi**

Cədvəl 3 də KMO və Bartlett analizi verilmişdir. Burada KMO dəyəri 0.890 olmaqdadır. Bu dəyər faktor analizini aparmaq üçün kifayət etməkdədir.

**Cədvəl 3. KMO və Bartlett analizi**

| KMO and Bartlett's Test | | |
|---|---|---|
| Kaiser-Meyer-Olkin Measure of Sampling Adequacy. | | 0.890 |
| Bartlett's Test ofSphericity | Approx. Chi-Square | 1860.810 |
| | Df | 136 |
| | Sig. | 0.000 |

## Cədvəl 4. Ümumi variasiya analizi

| Total Variance Explained | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Component | Initial Eigenvalues | | | Extraction Sums of Squared Loadings | | | Rotation Sums of Squared Loadings[a] |
| | Total | % of Variance | Cumulative % | Total | % of Variance | Cumulative % | Total |
| 1 | 7.117 | 41.866 | 41.866 | 7.117 | 41.866 | 41.866 | 5.544 |
| 2 | 2.754 | 16.201 | 58.067 | 2.754 | 16.201 | 58.067 | 5.271 |
| 3 | 1.031 | 6.067 | 64.134 | 1.031 | 6.067 | 64.134 | 4.620 |
| 4 | 0.911 | 5.359 | 69.494 | | | | |
| 5 | 0.820 | 4.824 | 74.318 | | | | |
| 6 | 0.696 | 4.097 | 78.414 | | | | |
| 7 | 0.536 | 3.154 | 81.568 | | | | |
| 8 | 0.506 | 2.977 | 84.545 | | | | |
| 9 | 0.418 | 2.459 | 87.004 | | | | |
| 10 | 0.400 | 2.351 | 89.355 | | | | |
| 11 | 0.367 | 2.160 | 91.515 | | | | |
| 12 | 0.307 | 1.806 | 93.321 | | | | |
| 13 | 0.291 | 1.712 | 95.033 | | | | |
| 14 | 0.240 | 1.411 | 96.444 | | | | |
| 15 | 0.227 | 1.335 | 97.779 | | | | |
| 16 | 0.217 | 1.276 | 99.055 | | | | |
| 17 | 0.161 | 0.945 | 100.000 | | | | |

Cədvəl 4 də faktor analizinin nəticəsində 3 faktor müəyyən edilmiş və bu faktorlar ümumi varyansın 64 faizini təşkil etməkdədir. Bu varyans dəyəri anketin güvənli və keçərli olduğunu göstərməkdədir.

## Cədvəl 5. Komponent matriksi.

| Component Matrix[a] | | | |
|---|---|---|---|
| | Component | | |
| | 1 | 2 | 3 |
| Elektron alış-veriş ənənəvi alış-verişlə müqayisədə daha yaxşıalış-veriş təcrübəsi təmin edir. | 0.601 | -0.358 | 0.086 |
| Elektron ticarət platformaları vasitəsilə daha geniş çeşiddəməhsul və xidmətlərə çıxışı əldə edirəm | 0.569 | -0.429 | -0.104 |
| E-ticarət platformalarından istifadə sifarişlərimi və məhsuunçatdırılma vəziyyətini izləməyi asanlaşdırır | 0.693 | -0.351 | 0.215 |
| Elektron ticarət platformalarının təqdim etdiyi çatdırılma və təchizat zənciri xidmətlərindən tamamilə məmnunam | 0.691 | -0.307 | 0.298 |
| E-ticarət platformalarından məhsul alarkən çatdırılma xidmətinin keyfiyyətinə önəm verirəm. | 0.578 | -0.376 | 0.266 |
| İstifadə etdiyim e-ticarət platformasında məhsullar haqqındakifayət qədər geniş məlumat var. | 0.641 | -0.350 | 0.280 |
| İstifadə etdiyim e-ticarət platformasında sifarişlərin çatdırılma sürətindən məmnunam | 0.666 | -0.350 | 0.197 |
| Logistika və çatdırılma sisteminin yüksək səviyyədə olmağı e-ticarət platformalarından daha çox alış-veriş etməyimə səbəb olur | 0.700 | -0.171 | -0.430 |
| İstifadə etdiyim e-ticarət platformasında sifarişlərin çatdırılmasürətindən məmnunam | 0.676 | -0.288 | -0.413 |

| | | | |
|---|---|---|---|
| Endirimlər və promosyonların təklif olunması e-ticarət platformalarından daha çox alış-veriş etməyimə səbəb olur. | 0.637 | -0.227 | -0.552 |
| Azərbaycanda istifadə etdiyim e-ticarət platformalarınınfəaliyyətindən məmnunam | 0.723 | 0.374 | -0.065 |
| Yerli e-ticarət platformalarımızın çatdırılma qiyməti məni qaneedir. | 0.681 | 0.451 | -0.050 |
| Yerli e-ticarət platformalarımızın çatdırılma xidmətlərininkeyfiyyəti məni qane edir | 0.645 | 0.612 | 0.057 |
| Yerli e-ticarət platformalarımızın çatdırılma sürətindənməmnunam | 0.645 | 0.573 | 0.038 |
| Azərbaycanda fəaliyyət göstərən e-ticarət platformaları beynəlxalq e-ticarət platformaları ilə eyni xidmət keyfiyyətinəmalikdir | 0.540 | 0.663 | 0.067 |
| E-ticarət platformaları haqqında ictimai məlumatlılıq səviyyəsiqənaetbəxşdir | 0.632 | 0.411 | 0.094 |
| İstifadə etdiyim e-ticarət platformalarından düzgün istifadəqaydaları və məlumatlandırmadan məmnunam. | 0.652 | 0.137 | 0.068 |
| Extraction Method: Principal Component Analysis. | | | |

Komponent matriksi hər bir dəyişən üçün faktor yükünü müəyyən edir. Faktor yükü müşahidə edilən dəyişənlər və faktorlar arasındakı korrelyasiyaları təmsil edir.

**Reqressiya analizi.**

**Cədvəl 6. Modelin xülasəsi**

| Model Summary | | | | |
|---|---|---|---|---|
| Model | R | R Square | Adjusted R Square | Std. Error of the Estimate |
| 1 | .964[a] | .929 | .927 | .18496 |
| a. Predictors: (Constant), Məlumatlılıq, E_ticarət, Zaman, Qənaət | | | | |

Modelin xülasəsi reqressiya analizinin verilənlərə uyğunluğunu müəyyən edir. Burada R dəyişənlər arasındakı korrelyasiya əmsalını müəyyən edir. Nəticə olaraq 0.964 cavabının alınması dəyişənlər arasında əlaqənin güclü olduğunu bizə göstərir.

**Cədvəl 7. Anova analizinin nəticəsi**

| ANOVA[a] | | | | | | |
|---|---|---|---|---|---|---|
| Model | | Sum of Squares | df | Mean Square | F | Sig. |
| 1 | Regression | 81.043 | 4 | 20.261 | 592.258 | <.001[b] |
| | Residual | 6.192 | 181 | .034 | | |
| | Total | 87.235 | 185 | | | |
| a. Dependent Variable: Maliyyəgəlirləri | | | | | | |
| b. Predictors: (Constant), Məlumatlılıq, E_ticarət, Zaman, Qənaət | | | | | | |

SPSS-də reqressiya təhlilinin sonunda əldə edilən ANOVA cədvəli reqressiya modelinin ümumi əhəmiyyətini qiymətləndirmək üçün istifadə edilən statistik testlərin nəticələrini göstərir.

**Cədvəl 8. Əmsallar cədvəli**

| Coefficients[a] | | | | | | |
|---|---|---|---|---|---|---|
| Model | | Unstandardized Coefficients | | Standardized Coefficients | t | Sig. |
| | | B | Std. Error | Beta | | |
| 1 | (Constant) | .129 | .074 | | 1.751 | .082 |
| | E_ticarət | .213 | .021 | .263 | 9.916 | <.001 |
| | Zaman | .045 | .034 | .054 | 1.324 | .187 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Qənaət | 1.313 | .109 | .497 | 12.095 | <.001 |
| | Məlumatlılıq | .245 | .016 | .351 | 15.084 | <.001 |
| a. Dependent Variable: Maliyyəgəlirləri | | | | | | |

SPSS-də reqressiya təhlilinin sonunda əldə edilən əmsallar cədvəli modeldəki hər birproqnozlaşdırıcı dəyişən üçün reqressiya əmsallarının təxmin edilən qiymətlərini göstərir. Reqressiya əmsalları, bütün digər proqnozlaşdırıcı dəyişənləri sabit saxlayaraq, proqnozlaşdırıcı dəyişənin bir vahid dəyişməsi ilə əlaqəli asılı dəyişəndəki dəyişikliyi təmsil edir. Burada B hər birdəyişən üçün təxmin edilən reqresiya əmsalını ifadə etməkdədir.

**Nəticə**

Ümumi nəticələrə baxdıqda əhalinin 42.5 faizi elektron ticarəti ənənəvi ticarətə üstün tutduğunu,

47.5 faizi ənənəvi ticarətin daha çox məhsul çeşidi təqdim etdiyni qeyd etmişlər. Buradan belə bir nəticəyə gələ bilərik ki, elektron ticarəti üstün tutanların sayının çox olması maliyyə gəlirlərinin də artmasına səbəb olur və beləlikıə birinci hipotez təstiqlənmiş olur.

İkinci hipotezimiz isə zaman dəyişəni ilə bağlıdır və bu hipotezin təhlili üçün 3 sual ayrılmışdır. Məlumatların analizi zamanl belə bir nəticəyə gəlinmişdir ki, istehlakçıların elektron ticarətdə önəm verdikləri faktorlardan biri də təchizat zənciri sisteminin yüksək keyfiyyətliliyi, çatdırılma və logistika sisteminin sürətli olmasıdır. Buradan da ikinci hipotezimiz təstiqlənmiş olur.

**Təkliflər**

Çatdırılma Xidmətini Təkmilləşdirilməlidir. Nəticələr göstərir ki, respondentlərin xeyli hissəsi gecikmələr və yüksək çatdırılma xərcləri ilə üzləşib, bu da e-ticarət platformalarında fəaliyyət göstərən təchizat zəncirlərinin maliyyə gəlirlərinə mənfi təsir göstərir. Buna görə də münasib qiymətlərlə daha sürətli və etibarlı çatdırılma təmin etməklə çatdırılma xidmətinin təkmilləşdirilməsinə diqqət yetirmək tövsiyə olunur.

Məhsul haqqında daha geniş məlumat verilməsi tövsiyyə olunu. Məhsul çeşidi və məhsullar haqqında kifayət qədər məlumatın olması müştərilər üçün vacib amillər kimi müəyyən edildiyi üçün e-ticarət platformalarında məhsul məlumatlarının artırılması tövsiyə olunur. Buna ətraflı məhsul təsvirləri, yüksək keyfiyyətli şəkillər və müştəri rəyləri təqdim etməklə nail olmaq olar.

Təklif Endirimləri və Promosyonlar. Nəticələr göstərir ki, endirimlər və promosyonlar təklif etmək müştərilərin elektron ticarətə marağına müsbət təsir göstərir. Buna görə də, daha çox müştəri cəlb etmək və maliyyə gəlirlərini artırmaq üçün e-ticarət platformalarında endirimlər və promosyonlartəklif etmək tövsiyə olunur.

Bütövlükdə, bu tövsiyələr müştərilərin e-ticarət platformalarından istifadə qərarlarına təsir edən amilləri həll etməklə və onların göstərilən xidmətdən məmnunluğunu artırmaqla e-ticarət platformaları əsasında fəaliyyət göstərən optimal təchizat zəncirlərinin maliyyə gəlirlərinin yaxşılaşdırılmasına kömək edə bilər.

**İstifadə Olunmuş Ədəbiyyat Siyahısı**


Wang, Lei (2015) “Research on the Impact of E-commerce to Logistics Economy: An Empirical Analysis based on Zhengzhou Airport Logistics”, International Journal of Security and Its Applications Vol.9, No.10 (2015), pp.275-286.

USPS (2018) “Riding the Returns Wave: Reverse Logistics and the U.S. Postal Service”, RARC Report.

UPS (2019) “UPS Pulse of the Online Shopper”

Orendorf, Aaron (2019) “The Plague of Ecommerce Return Rates and How to Maintain Profitability”.

Greve, Curtis və Davis, Jerry (2012) “Recovering the Lost Profits by Improving Reverse Logistics”, UPS.

World Trade Organization. E-Commerce in Developing Countries: Opportunities and Challenges for Small and Medium-Sized Enterprises; World Trade Organization (WTO), 2013; p. 1. 2. Li, S.;

Wu, Y. Development Strategy of Cross-border E-commerce in China. DEStech Transactions on Social Science, Education and Human Science, 2017, 826–830.

Kawa, A.; Zdrenka, W. Conception of integrator in cross-border e-commerce. Logforum 2016, 12, 63–73.

Swaine, M.D. Chinese views and commentary on the ‘One Belt, One Road’ initiative. 2015, 47.

Tsui, S.; Wong, E.; Chi, L.; Tiejun, W. One Belt, One Road. Monthly Review, 1 January 2017.

Liu, X.; Chen, D.; Cai, J. The Operation of the Cross-Border e-commerce Logistics in China. Int. J. Intell. Inf. Syst. 2015, 4, 15–18.

Arlbjørn, J.S.; Haas, H.D.; Munksgaard, K.B. Exploring supply chain innovation. Logist. Res. 2011, 3, 3–18.

Chesbrough, H.; Rosenbloom, R.S. The role of the business model in capturing value from innovation: Evidence from xerox corporation’s technology spin-off companies. Soc. Sci. Electron. Publ. 2002, 11, 529–555.

# Bank Sektorunda Tətbiq Edilən İnnovasiyaların Reputasiya Göstəricisinə Təsiri: Azərbaycan Nümunəsi

**Leyla Yusubzadə**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**leyla_yusubzada@unec.edu.az**

## Xülasə

Bu araşdırmanın məqsədi müxtəlif yaş qruplarından, təhsil səviyyəsindən ümumiyyətlə fərqli demoqrafik xüsusiyyətlərdən olan insanların bank sektorunda tətbiq edilən innovasiyaların reputasiya göstəricisinə təsiri barədə münasibətlərini analiz etməkdir. Araşdırmada istehlakçıların bank sektorundakı innovasiyalara münasibəti, banka etibarı, innovasiyaların banka olan etibar göstərisinə təsiri müəyyənləşdirilib araşdırmağa çalışılmışdır. Əlavə olaraq, istehlakçıların Azərbaycan Respublikasında fəaliyyət göstərən hansı bankdan istifadə etdikləri barədə də araşdırmalara yer verilmişdir.

Bu araşdırmada bank sektorunda tətbiq edilən innovasiyaların reputasiya göstəricisinə təsiri ilə əlaqəli Bakı şəhərində sorğu anketi aparılmışdır. Anket onlayn formada hazırlanmışdır. 347 respondentin iştirak etdiyi anket nəticələri sonda SPSS 25.0 (Statistical Package for the Social Sciences) təhlil edilmişdir.

Anketdə frekans və anova analizlərindən istifadə edilmişdir. Anketdə respondentlərin demoqrafik xüsusiyyətləri, hansı bank istifadəçisi olduqları, istifadə müddətləri tipli suallar vasitəsi ilə toplanmış məlumatlar frekans analizindən istifadə edərək araşdırılmışdır. Respondentlərin demoqrafik xüsusiyyətlərinin innovasiyalar tətbiq edilən bank sektorunda reputasiya göstəricisinə təsiri ilə əlaqəsi araşdırılmağa çalışılmışdır. Araşdırma üçün hipotezlər qurulmuşdur. Araşdırma aparmaq üçün anova analizindən istifadə edilmişdir.

**Açar sözlər:** Reputasiya, Korporativ Reputasiya, İmic, Korporativ Şəxsiyyət, Bank, İnnovasiya, Azərbaycan bank sektoru

## Abstract

The purpose of this study is to analyze the attitudes of people of different age groups, educational level, and generally different demographic characteristics about the impact of innovations applied in the banking sector on the reputation index. In the study, consumers' attitude to innovations in the banking sector, trust in the bank, and the influence of innovations on trust in the bank were determined and investigated. In addition, research was also conducted on which banks operating in the Republic of Azerbaijan are used by consumers.

In this study, a questionnaire was conducted in Baku city related to the impact of innovations applied in the banking sector on the reputation index. The questionnaire was prepared online. The survey results of 347 respondents were finally analyzed in SPSS 25.0 (Statistical Package for the Social Sciences).

Frequency and anova analyzes were used in the questionnaire. In the questionnaire, the demographic characteristics of the respondents, which bank users they are, and the data collected through questions such as usage periods, were analyzed using frequency analysis. An attempt was made to investigate the relationship between the demographic characteristics of the respondents and the influence of the reputation indicator in the banking sector where innovations are applied. Hypotheses have been established for research. Anova analysis was used to conduct the research.

**Keywords:** Reputation, Corporate Reputation, Image, Corporate identity, Bank, Innovation, Azerbaijan banking sector

**Giriş**

**Mövzunun aktuallığı:** Sənaye inqilabından indiki dövrə qədər olan müddətdə yeni ixtiralar, icadlar əvvəlcə əlaqəli olduğu istehsal sektorunda, daha sonra isə xidmət sektorunda müxtəlif dəyişikliklərə səbəb oldu. Daxili və xarici mühitdən qaynaqlanan hərəkətverici qüvvələr firmaların yeniliklər tətbiq etməsinə gətirib çıxardı. Dünyanın bütün sektorları inkişaf edən texnologiyaya görə dəyişikliklərə məruz qaldı. Yeniliklərin tətbiqi maliyyə sektorundan da yan keçmədi.
Maliyyə xidmətlərinin inkişafının arxasında süni intellekt dayanır. Bank və maliyyə sənayesi bəlkə də ən zəngin və istifadə edilə bilən məlumat bazasına malik sənayedir. Bank sektoru yeni texnologiyalara ən sürətli adaptasiya olan sektorlar arasındadır. Xüsusilə 2020-ci ildə həyat tərzinin dəyişməsi ilə sürətlənən bu tendensiya son illərdə daha da artırmışdır. Son illər yalnız onlayn mühitdə mövcud olan bankların sayında artım müşahidə olunur. Rəqəmsal banklar ənənəvi bankçılığın ciddi rəqibidir, çünki fiziki filialları olmamaqla xərcləri azaldırlar. Üstəlik, əsas bank xidmətləri ilə yanaşı, yeni nəsil xidmətlər təklif edə bilərlər. Müştəri təcrübəsində birbaşa əks olunan yeni nəsil bank texnologiyaları arasında süni intellektlə dəstəklənən çatbotlar və sualları anlayıb cavablandıra bilən səsli köməkçilər var. Çağrı mərkəzlərinin işini tez bir zamanda yerinə yetirə bilən robotlar həm effektivdir, həm də işçi heyəti ilə müqayisədə daha az xərclidir. Bank sektorunda diqqət çəkən məsələlərdən biri də müştərilərə problemsiz bir təcrübə təqdim etməkdir. Rəqəmsal transformasiya dövründə müştərilərin əməliyyatlarını yerinə yetirərkən filiala mümkün qədər az baş çəkmələrini tələb edən bir infrastruktur təmin etməklə başlayır. Daha sonra, rəqəmsal kanallararası məlumat konsolidasiyası təmin edilir ki, bu da müştəriyə istənilən platformada sürətli rəy və həllər əldə etməyə imkan verir. Sadəlik və təhlükəsizlik arasında tarazlığı saxlamaq çox vacibdir. Beləliklə, müştəri şikayətləri azalır və biznesə inam artır. Bank və maliyyə xidmətləri üçün hazırlanmış xüsusi proqram təminatı yeni nəsil bankçılığın qapılarını açır.
Atılan innovativ addımların müəssisənin reputasiyasına birbaşa təsir edir. Banklarda tətbiq edilən yeniliklərin nəticəsində sürətli və təhlükəsiz xidmət müştərilərdə inamı artırır. Bu halda da, tətbiq edilən yeniliklər müəsissənin reputasiyasına birbaşa təsir edir. Ölkəmizdə son illərdə yeniliklərin daha çox tətbiq edildiyi sahələrdən biridə bank sektorudur. Azərbaycanda bank sektorunda maliyyə yönümlü araşdırmalar çox olsa da, tətbiq edilən innovasiyalarla bağlı araşdırmalar yetəri qədər deyil. Buna görə də, Azərbaycanda bank sektorundakı innovasiyaların bankların reputasiyasına təsiri ilə bağlı araşdırma etməyi zəruri edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqat işinin məqsədi texnologiyanın inkişafı nəticəsində bank sektorunda tətbiq edilən innovasiyaların, onların müəssisənin reputasiyasına təsirinin araşdırılması və bu məsələ ilə bağlı problemlərin aşkar edilib həlli yollarının müəyyənləşdirilməsidir.

Tədqiqatın vəzifələri:

- İnnovasiya və reputasiya konsepsiyalarının nəzəri-konseptual əsaslarını təhlil etmək
- Bank sektorunda tətbiq edilmiş innovasiyaların bankın reputasiyasına təsirinin araşdırmaq
- Azərbaycanda mövcud bank sektorunun vəziyyətinin təhlil etmək
- Azərbaycanda bank sektorunda tətbiq edilən innovasiyaların bankın reputasiyasını inkişaf etdirməklə bağlı təkliflər və tövsiyyələr vermək

**Tətqiqat metodları:** Tədqiqat işləri zamanı kəmiyyət və keyfiyyət metodlarından istifadə edilir. Kəmiyyət metodunun tətbiq edilməsi məlumatların ölçülə bilməsini zəruri edir. Keyfiyyət metodu isə statik məlumatlar və rəqəmlər olmadan əldə edilən nəticələrin araşdırma metodur. Bu araşdırmada

məlumatların toplanması zamanı kəmiyyət metodundan istifadə ediləcəkdir. Məlumatların toplanmasında kəmiyyət metodlarından istifadə edilməsinin səbəbi tətbiq edilən innovasiyaların bankın reputasiya dərəcəsinə təsiri ilə bağlı istehlakçıların düşüncələrinə ehtiyacın zəruri olmasıdır. İstehlakçılara demoqrafik suallarla yanaşı hansı bankın müştəri olduğu, neçə illik istifadəsi, banka aylıq müraciəti və.s tipli suallar hazırlanacaq və banka olan etibarının innovasiya ilə birbaşa əlaqəsi olub-olmadığı aydınlaşdırılmağa çalışılacaqdır.

Bank sektorundakı rəqabətli mühit bu sahə də tam məlumat əldə etməkdə çətinlik törədir. Məlumatların bir qisminin seçilmiş bankların veb saytından əldə etmək olsa da toplanan məlumatlar yetərli qədər deyil. Buna görə də, araşdırma zamanı daha doğru məlumat əldə etmək üçün anket metodundan istifadə ediləcəkdir. Əldə edilən məlumatların tətqiqat işinin probleminə və nəticəsinə aid nələr dediyi müəyyən ediləcəkdir.

**Tədqiqatın məhdudiyyətləri:** Araşdırma edilərkən Azərbaycan dilində mənbələrin kifayət qədər olmaması, ölkəmizdə olan mövcud bank sektoru, tətbiq edilən innovasiyalar və onların nəticələri barədə ətraflı məlumat əldə etmək baxımından bəzi çətinliklərlə qarşılaşılmışdır. Eyni zamanda vaxt məhdudiyyəti ilə də qarşılaşılmışdır.

**Tədqiqat ilə bağlı əsas istinad olunan mənbələr:** Bu məqalənin hazırlanmasının əsasını son illərdə ölkəmizdə bank sektoru, innovasiya və reputasiya konsepsiyalarının nəzəri-konseptual əsaslarını ilə bağlı araşdırmalar, məqalələr, magistratura və doktorantura dissertasiyaları informasiya bazası kimi əsas götürülmüşdür. Eyni zamanda Azərbaycan Respublikasının banklar haqqında qanunu və ölkəmizdə fəaliyyət göstərən bankların innovativ tətbiqləri barədə məlumatları, veb-saytları informasiya bazası kimi istifadə edilmişdir.

**Dünyada Bank İşinin İnkişafı**

Bank fəaliyyətini xronoloji olaraq araşdırsaq, eramızdan əvvəl III əsrdə Mesopotamiya sərhədlərində yerləşən Qırmızı Məbədin məlum olan ilk bank olduğu və buradakı dindarların ilk bankirlər olduğu güman edilir. Sonralar Babil və Qədim Yunanıstanda bank fəaliyyətinin mövcud olduğu məlumdur. İş o yerə çatıb ki, Babil hökmdarının həyata keçirdiyi qanunlarda bəzi bank fəaliyyəti tənzimlənirdi və o da məlumdur ki, Makedoniyalı İskəndər eramızdan əvvəl üç yüz ildə faizə qadağa qoyub (Patnos, 2019). Bu məlumatları nəzərə alaraq deyə bilərik ki, qeyd olunan dövrlərdə müəyyən bank fəaliyyəti həyata keçirilib. Erkən dövrlərdəki dindar və dövlət xadimlərindən başqa bankirlərə başqa bir nümunə də bazar yerlərində qurduqları dükanlarda fəaliyyətlərini davam etdirən yəhudi tacirləridir (Parasız, 2014).

Başlanğıcda öz kapitalını ehtiyacı olanlara sərf edən banklar, zaman keçdikcə saxlanmaq üçün təhvil verilən pulları müqabilində bazarları maliyyələşdirməyə başladılar və nəticədə bu, bugünkü axının maliyyələşmənin əsasına çevrildi (Patnos, 2019). Kommersiya investisiyalarının genişlənməsi bank sektorunu iqtisadi həyatın ən zəruri alətinə çevirmişdir. Sektor sürətlə böyüyən və onu daimi edən bir mövqeyə çatmışdır (Aydın, 2006). Nəticədə bank sektoru bir çox mərhələlərdən keçərək, indiki vəziyyətinə çatana qədər böyük inkişaf və dəyişikliyə məruz qalaraq son vəziyyətinə gəlib çatmışdır. Tarix boyu iqtisadi quruluşun qurulması və tənzimlənməsi və bu çərçivədə fərdlər arasındakı əlaqə sektorun doğulması və inkişafı ilə mümkün olmuşdur. Bu fərziyyədən çıxış edərək, sektorun iştirakı olmadan kommersiya fəaliyyətinin bu dərəcədə inkişaf etməməsinin mümkün olmayacağını söyləmək

səhv olmaz. Bütün bunlar həm də bank sektorunun tarixinin niyə qədim dövrlərə gedib çıxması sualına cavabdır (Öçal və Çolak, 2000).

**Azərbaycanda Mövcud Bank Sektorunun Vəziyyətinin Təhlili**

Azərbaycanda qədim dövrlərdən başlayan bank əməliyyatları oxşar fəaliyyətlər 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərinə doğru bank sektorunu formalaşması ilə nəticələndi. Erkən dövrlərdə bank sektoru inflyasiya, resurs azlığı və iqtisadi durğunluq şəraitində fəaliyyət göstəribdir. Kapitalizmin inkişafına səbəb olan sənaye kapitalı ilə bank kapitalının birləşməsi 20-ci əsrin əvvəllərində olmuşdur. Bunun nəticəsində ticarət və sənaye inkişaf etmiş və mövcud bank sektorunu iqtisadiyyatda yeni səviyyəyə yüksəldərək yeni kommersiya banklarının yaranmasına gətirib çıxarmışdır (Qasımov, 2014).

**Bank Sektorunun Mövcud Strukturu**

Fiziki və hüquqi şəxslərin hesablarında ümumi əməliyyatlar edən, öz adlarına və hesablarına pul vəsaiti yerləşdirməyə imkan yaradan kredit təşkilatına bank deyilir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bankların yaranmasına şərait yaratdı və onların idarə edilmə strukturunu müəyyən etdi (Qaraşov, 2022).

Azərbaycan iqtisadiyyatının önəmli elementlərindən birini bank sektoru tutmuşdur. Azərbaycan respublikasında bank sektoru iki mərhələ şəklindədir. Azərbaycan respublikasının Mərkəzi Bankı birinci mərhələni əhatə etmişdir. Dövlət, kommersiya bankları və bank olmayan kredit təşkilatları ikinci mərhələni əhatə etmişdir (Misirli, 2016).

**Qrafik 1. Azərbaycan Bank Sektorunun Strukturu**




**Mənbə:**Azərbaycan Mərkəzi Bankı, Statistika Bülleteni, 2022 https://www.cbar.az/ (29.01.2023)

**Azərbaycan Bank Sektorunda Əsas Problemlər**

Azərbaycan respublikasında malliyyə sektorunun əsas problemlərindən biri insanların ölkədəki banklara olan güvən hislərinin zədələnməsidir. Digər problemlərdən biri bəzi kommersiya banklarının kapitallarının az olmasıdır. Azərbaycanda bank sektorundakı çatışmazlıqları aradan qaldırmaq üçün 1999-cu ildə bir sıra islahat tədbirləri görülmüşdür (Kərimov, 2017).

Azərbaycan respublikasında bank sektorunda nağdsız ödəniş sistemləri, depozitin cəlb edilməsi günü-gündən inkaşaf etməyə başlamışdır. Yenədə ölkə əhalisinin bir hissəsi banklara əmanət qoyulmasına isti yanaşmır və bunun əsas səbəblərindən biri SSRİ dövründə yaşanan hadisələrdir. Bunun nəticəsində də banklarda kapital azlığı problemləri yaşanır (Əliyeva, 2017).

Bu sektorda olan digər problemlərdən biri savadlı kadr və resursların kifayyət qədər olmamasıdır. Yeni ədəbiyyatlar, məqalələr olmadığı üçün bu sahədə karyera qurmaq istəyən şəxslər problemlər yaşayırlar. Sektor haqqında yaxşı bilik əldə edə bilmədikdə lazimi tənzimləmələri və əməliyyatları yerinə yetirə bilmədikdə problemlə üzləşə bilirlər. Resurs qıtlığı nəticəsində banklar müştərilərini düzgün analiz edə bilmir və izləyə bilmir bunun nəticəsində də bir çox müştəri bankdan kredit götürərək bunu başqa məqsədlər üçün istifadə edirlər (Kamilov, 2017).

**Azərbaycanda Fəaliyyət Göstərən Banklar və Onların Tətbiq Etdikləri İnnovasiyaların Təhlili**

Azərbaycanda 1992-ci ildə qüvvəyə minən "Banklar və bank fəaliyyəti haqqında" qanuna əsasən kommersiya bankları yaradılmışdır. Azərbaycan Respublikası müstəqillik əldə etdiyi ilk illərdə Azərbaycan Respublikasının Mərkəzi Bankı faizi aşağı olan kreditlər verirdi və bunun nəticəsində ölkədə bankların sayı 250-ə qədər olmuşdur. Mərkəzi Bankın bu qanunla bağlı tətbiq etdiyi bir sıra dəyişikliklər növbəti illərdə kapitalı az olan bankların fəaliyyətini bitirməsi ilə yekunlaşmışdır (Qaraşov, 2022).

**Cədvəl 1: Azərbaycanda fəaliyyət göstərən banklar**

| | **Adları** | **Lisenziya verilmə tarixi** |
|---|---|---|
| 1 | "ACCESSBANK" QSC | 25.10.2002 |
| 2 | "AFB BANK" ASC | 28.11.2008 |
| 3 | "AZƏRBAYCAN BEYNƏLXALQ BANKI" ASC | 30.12.1992 |
| 4 | "AZƏRBAYCAN SƏNAYE BANKI" ASC | 28.09.1996 |
| 5 | "AZƏR-TÜRK BANK" ASC | 29.06.1995 |
| 6 | "BANK AVRASİYA" ASC | 28.11.2007 |
| 7 | "BANK OF BAKU" ASC | 18.02.2005 |
| 8 | BANK "BTB" ASC | 19.03.2010 |
| 9 | "BANK RESPUBLİKA" ASC | 15.12.1992 |
| 10 | "PREMİUM BANK" ASC | 06.01.1994 |
| 11 | BANK VTB (AZƏRBAYCAN) ASC | 22.10.1993 |
| 12 | "EXPRESSBANK" ASC | 30.12.1992 |
| 13 | "GÜNAYBANK" ASC | 23.11.1992 |
| 14 | "KAPİTAL BANK" ASC | 28.02.2000 |
| 15 | MELLİ İRAN BANKI BAKI FİLİALI | 29.01.1993 |
| 16 | "MUĞANBANK" ASC | 25.11.1992 |
| 17 | "NAXÇIVANBANK" ASC | 04.08.2008 |
| 18 | "YELO BANK" ASC | 25.02.1994 |
| 19 | "PAŞA BANK" ASC | 28.11.2007 |
| 20 | "RABİTƏBANK" ASC | 30.06.1993 |
| 21 | "TURANBANK" ASC | 30.12.1992 |
| 22 | "UNİBANK" ASC | 10.12.1992 |
| 23 | "XALQ BANK" ASC | 27.12.2004 |
| 24 | "YAPI KREDİ BANK AZƏRBAYCAN" QSC | 11.01.2000 |
| 25 | "ZİRAAT BANK AZƏRBAYCAN" ASC | 30.12.2014 |

**Mənbə:** Azərbaycan Respublikasının Mərkəzi Bankı https://www.cbar.az/page-195/banks (29.01.2023).

**Access bank**

29 oktyabr 2002-ci ildə Azərbaycan Mikromaliyə Bankı (AMMB) QSC-nin Bakı şəhərində əsası qoyulmuşdur. Bankın adı Access Bank olaraq 2008-ci ilin sentyabrın 8-i tarixində dəyişdirilmişdir. Access Bank beynəlxalq səviyyədə olan tanınırlığı və KOS ( kiçik və orta sahibkarlıq) sahəsindəki

fəaliyyəti ilə Azərbaycan Respublikasının maliyyə sektorunun inkişafına xüsusi təsir etmişdir. Bankın prinsipləri sırasında əsas hissəni sadiqlik anlayışı tutmuşdur. Dəyərləri isə şəffaflıq, peşəkarlıq və komanda işi, müştəri məmnuniyyəti üzrədir (Eyvazlı, 2017).

Access Bank müxtəlif illərdə "ilin ən yaxşı bankı" adına layiq görülmüşdür. Bununla yanaşı bank kredit sahəsindəki fəaliyyətinə görə beynəlxalq mükafatlarda əldə etmişdir. Hal-hazırda bankın veb saytı və "myaccess" adlı mobil proqramı fəaliyyət göstərir. Bununla yanaşı müştərilər banka yaxınlaşmadan kredit, kart sifarişi edə bilir, depozit yatırımı etməklə yanaşı bankda onlayn növbə sistemindən istifadə edərək vaxt itkisinə qənaət etmiş olur (https://www.accessbank.az) (Giriş tarixi: 30.01.2023).

**Azərbaycan Beynəlxalq Bankı**

1992-ci ilin yanvarın 10-da fəaliyyətə başlamışdır. Bank Cənubi Qafqazda müştərilərinin, aktivlərinin və beyləxalq olan əməliyyatların həcminə görə liderdir. Azərbaycan Beynəlxalq Bankının məqsədi müştərilərinə universal bank xidmətləri sahəsində əlçatan, müasir və əlverişli xidmət göstərməkdir. Bankın əsas prinsipləri dürüstlük, liderlik, məsuliyyət, müştəri məmnuniyyətini və.s əhatə edir. Bank bir neçə dəfə "ilin bankı" mükafatına layiq görülüb eyni zamanda 2017-ci ildə "Nağdsız əməliyyat dövriyyəsi ən yüksək olan bank" adına layiq görülmüşdür. Bankın veb saytı və "ABB mobile" adlı mobil proqramı fəaliyyət göstərir. Əlavə olaraq bankın veb saytından istifadə edərək kredit, kart sifarişi etmək, onlayn növbə əldə etmək, 7/24 bankla əlaqə saxlamaq mümkündür. Bank eyni zamanda bir neçə funksiyanı özündə birləşdirən debet kartlarada sahibdir (https://abb-bank.az/) (Giriş tarixi: 30.01.2023).

**Bank of Baku**

Bank 1994-cü ildə " Tuqay" kommersiya bankı adı ilə yaradılsada 1997-ci il fevral ayının 10-dan etibarən adı Bank of Baku olaraq dəyişdirilmişdir. Daha sonra 2005-ci ildə "İlkbank" və "BankofBaku" kommersiya banklarının birləşməsindən yaranan BankofBaku ASC Mərkəzi Bankdan fəaliyyəti üçün lisenziya almışdır (Muxtarov, 2016).

Bank of  Baku nağdsız ödənişlər üzrə Azərbaycanda liderlik əldə etmiş, eyni zamanda VISA beynəlxalq ödəniş sistemindəndə plastik kartlarının istifadəsi ilə bağlı mükafat əldə etmişdir. Halhazırda bankın veb saytı, "Dost Bank-Bank of Baku" mobil proqramı, onlayn kredit, kart sifarişi fəaliyyətləri aktivdir. Bununla yanaşı BankofBaku-nun "Bolkart" taksit kart məhsulu ilin ən yaxşı taksit kartı mükafatına layiq görülmüşdür ( https://www.bankofbaku.com/) (Giriş tarixi: 30.01.2023).

**Bank Respublika**

1992-ci ilin may ayının 22-də Mərkəzi Bankın lisenziyasına ilə Bank Respublika yaradıldı. Bank geniş məcrada malliyə xidmətləri göstərən Azərbaycan Respublikasının ən öndə olan banklarından biridir. Bankın prinsipləri sırasında maliyyə sabitliyini qorumaq, vətəndaşlara üstün maliyyə xidmətləri göstərmək, ən dəyərli kapital olan əməkdaş və müştəriləri dəyər aşılamaqdan ibarətdir. Bank Respublika 7/24 qrafiklə çalışır və bank sektoru ilə bağlı olan bir çox rəqəmsal yenilikləri müştərilərinə təklif edir. Bankın təklif etdiyi məhsulların bəziləri depozit hesabları, kredit və debet kartlar, valyuta mübadiləsi, onlayn və mobil bankçılıqdır. Müştərilərə daha yaxşı xidmət göstəmək üçün bankın "Mobil Şöbə" adlı mobil proqramı fəaliyyət göstərir. Bundan əlavə olaraq, işləyən müştəriləri nəzərə alaraq şənbə və bazarı günü fəaliyyət göstərən "Ofis24" şöbəsi bütün növ xidmətləri təklif edir. Əlavə olaraq, müştərilərin daha asan və çevik istifadəsi üçün "İnternet Şöbə", "İnternet Ofis", "Mobil Ofis" məhsullarınıda təklif edir.

Bank Respublika 2019-cu ildə Azərbaycanda ilk dəfə tətbiq olunan təmassız kart-stickerləri satışa çıxarmışdır. Bank 2020-ci ildə Whatsapp proqramı üzərindən çat-bot xidməti təqdim etmişdir və bu addım Azərbaycanda ilk dəfə təqdim edilmişdir. Bank Respublika 2022-ci ildə dünyada ilk dəfə olan Visa və Wolt şirkətləri ilə birlikdə kobrend kartını müştərilərinə təqdim etmişdir ( https://www.bankrespublika.az/ ) (Giriş tarixi: 01.02.2023).

**Kapital Bank**

Kapital Bank 2000-ci ildə Mərkəzi Bank tərəfindən lisenziya almış olsa da, Azərbaycan Əmanət Bankının varisi olaraq fəaliyyət göstərmişdir. Kapital Bank Azərbaycan Respublikasının ən böyük maliyyə qurumlarından biri olaraq fəaliyyət göstərir və onun fiziki və hüquqi müştərilərinin ümumi sayı 5 milyondan çoxdur. Bankın missiya və strategiyası sosial iqtisadi-rifah səviyyəsini yaxşılaşdırmaq və trendlərdən istifadə edərək müştərilərə daha yaxşı xidmət göstərməyi təmin etməkdir. Bankın prinsipləri sırasında əməkdaşlıq, sahibkarlıq ruhu, dürüstlük, gəlirlilik və.s dəyərləri mövcuddur. Kapital Bank KOS kreditlər, rəqəmsal bankçılıq, taksit və cashback kartları, mobil bankçılıq və.s sahəsində məhsul və xidmətlər təklif edir. Bank müştərilərə çevik və onlayn xidmət göstərə bilmək üçün "Birbank" mobil tətbiqini, digital kart, onlayn növbə, onlayn kart və kredit sifarişi, kommunal ödəniş, onlayn müraciət və.s məhsullarını təklif etmişdir. Kapital Bank Azərbaycanda ilk dəfə olaraq 2020-ci ildə banka getmədən video zəng vasitəsi ilə kredit sifarişini tətbiq etmişdir. Bundan əlavə olaraq, ölkədə ilk dəfə olaraq

NFC-i ilə ödəniş istifadəsi və sahibkarlar üçün rəqəmsal sahibkar kartı təqdim edilmişdir. Kapital Bank innovativ yenilikləri olaraq 2023-cü ilin yanvar ayının 31-də Kapital Bank əməkdaşları üçün xüsusi hazırlanmış visa platinium kartını təqdim etmişdir. Kartın şüarı "doğru yoldasan" olaraq təqdim edilmiş və bankın əməkdaşları üçün xüsusi təkliflərdən ibarətdir (https://www.kapitalbank.az/) (Giriş tarixi: 01.02.2023).

**Paşa Bank**

Paşa Bank 2007-ci ilin noyabr ayının 28-də Mərkəzi Bankın lisenziyası əsasında yaradılmışdır. Bank həm fiziki şəxslərə, həm də müəssisələrə depozitlər, kreditlər, ticarətin maliyyələşdirilməsi və pul vəsaitlərinin idarə edilməsi xidmətləri daxil olmaqla bir sıra maliyyə məhsulları və xidmətləri təklif edir. Bank Azərbaycanın hər yerində yerləşən filial və bankomatlar şəbəkəsi vasitəsilə fəaliyyət göstərir, həmçinin Gürcüstan və Türkiyədə nümayəndəliyə malikdir. Paşa Bank bir neçə dəfə "Azərbaycanın ən yaxşı investisiya bankı", "Ən yaxşı bank qrupu", "Azərbaycanın ən yaxşı bankı" mükafatlarına layiq görülmüşdür. Bank innovativ addımlar ataraq rəsmi veb saytı vasitəsi ilə onlayn növbə, onlayn kredit və.s "Pasha Bank" mobil proqramı vasitəsi ilə müştərilərə xidmət göstərir. Paşa Bank 2018-ci ildə Azərbaycanda ilk dəfə olaraq "Asan İmza" mobil elektron imza məhsulunu fərdi bankçılıqla məşğul olan filiallarında müştərilərin istifadəsinə vermişdir. Bu xidmət müştərilərə banka gəlmədən elekron şəkildə vacib sənədləri imzalaya bilməyi təklif edir. 2019-cu ildə Azərbaycan Respublikasında ilkə imza ataraq Türk Hava Yolları şirkəti ilə əməkdaşlıq edərək "PAŞA Bank Miles&Smiles" kartını təqdim etmişdir. Bu kart müştərilərə ölkə xaricində və daxildə əməliyyatlar həyata keçirdikdə millər qazanmaq imkanı yaratmışdır. Hər əməliyyatdan qazanılmış millər sayəsində də dünyanın 308 ölkəsinə səyahət zamanı biletə çevirərək istifadə imkanı vermişdir. Bundan əlavə olaraq, bank karta sahib olan müştərilərə konsyerj (çağrı və çatbot), səyahət etdikləri müddətdə sığortalanma, dünyanın bütün hava limanlarında VİP gözləmə otaqlarında qonaq olmaq və.s xidmətlərdən yararlanmaq şansını təklif etmişdir. 2020-ci ildə bank Azərbaycan bazarına "Smart Kassa" yeni nəsil kassa terminallarına çıxarmışdır. Həmin ildə

"Mobil Ödəmə" və "Rəqəmsal POS" xidmətini təqdim etmişdir ( https://www.pashabank.az/ ) (Giriş tarixi: 04.02.2023)

**Anketin Dizaynı, Əhatə Dairəsi və İstifadə Edilmiş Analizlər**

Anket sualları demoqrafik məlumatlar, respondentin ən çox istifadə etdiyi bankla bağlı suallar və likert sualları əlavə edilərək hazırlanmışdır. Anketin ilkin variantı 2023-cü ilin mart ayının ilk həftəsində hazırlanmış və 20-ə yaxın şəxslə sorğu aparılmışdır. İlkin anket variantının nəticələrinə baxaraq respondentlərin çətinlik çəkdiyi suallar dəyişdirilərək başa düşülən formaya gətirilmişdir. Anketin son variantı 2023-cü ilin mart ayında hazırlanmış və 347 şəxslə araşdırma aparılmışdır. Toplanılan nəticələr SPSS 25.0 (Statistical Package for the Social Sciences) təhlil edilmişdir. Təhlilə başlamadan əvvəl toplanan məlumatlar arasında "missing value" olub-olmamasına yoxlanılmışdır. Anket nəticələrində tam doldurulmamış suala rast gəlinmədiyi üçün 347 sorğu nəticəsinin hamısından istifadə edilmişdir. Anket nəticələrini analiz edilərək demoqrafik göstəriciləri ölçmək üçün Bu analizdən əlavə olaraq fərqlilikləri görə bilmək üçün T və Anova testlərindən istifadə edilmişdir.

**Araşdırma üçün qoyulan hipotezlər**

H1 İnnovasiyalar tətbiq edən bankların reputasiya göstəricisi müxtəlif yaş qruplarına görə fərqlilik göstərir.

H2 İnnovasiyalar tətbiq edən bankların reputasiya göstəricisi müxtəlif cinsin nümayəndələrinə görə fərqlilik göstərmir.

**Anketdə iştirak edən respondentlərin demoqrafik göstəriciləri**

Memar A.V.Salamzadə və E.İ Kanukovun hazırladığı layihə sayəsində 1977-ci ildə  Azərbaycanın görkəmli şairlərindən olan  Molla Pənah Vaqifin muzey-məqbərəsinin inşasına başlanılmışdır. (Şəkil.8). Layihənin  inşası 1982-ci ilin yanvar ayında başa çatmış və həmin ayda açılış edilmişdir. Molla Pənah Vaqifin muzey-məqbərəsi Şuşa şəhərinin ən heyran olunacaq yeri sayılan Cıdır düzünün  yaxınlığında,  görkəmli şairin məzarı üstündə tikilmişdir. Muzey-məqbərədə şairin Şuşa şəhərindəki, yaşadığı zamana aid olan 80-ə yaxın eksponat da gələn qonaqlara nümayiş etdirilir. Heydər Əliyev fondunun təşəbbüsü ilə Vaqifin Poeziya Günləri Şuşa şəhərində 30 avqust 2021-ci ildə yenidən təşkil edilmişdir.



**Şəkil 8. Molla Pənah Vaqif muzey - məqbərəsi**

Mənbə: https://shusha.gov.az/az/thingstodo/11

Şuşa şəhəri yaxınlında yerləşən ən gözəl ,mənzərli yerlərdən biri Cıdır düzüdür. (şəkil.9). Cıdır düzü  Daşaltı çayından 200 metr aşağıda axan Daşaltı dərəsinə baxır. Bu düzənlik  yam-yaşıl dağların qoynunda yerləşərək,  Şuşa şəhərinin tək və  ən geniş , böyük  hamar ərazisi hesab edilir. Hamar ərazi olduğuna görə, keçmiş zamanlarda Qarabağ igidlərinin keçirdiyi cıdır yarışları, çövkən oyunları, Novruz  bayramı və digər el şənlikləri bu ərazidə qeyd edilirdi. Şuşaya gələn qonaqların  və şuşalıların Cıdır düzünə olan heyranlıqları hər zaman çox böyük olmuşdur. (Mirzə M. 2022.).



**Şəkil 9. Cıdır düzü**

Mənbə: https://shusha.gov.az/az/thingstodo/26

Gövhərağa (əsl adı Gövhərnisə) Qarabağın son xanı olan İbrahim xanın qızı həm də o dövrün ən məşhur xeyriyyəçilərindən biri olmuşdur. Kərbəlayı Səfixan Qarabaği memarı 1874-1875-ci illərdə Gövhərağanın öz vəsaiti sayəsində Aşağı Gövhərağa məscidini Şuşa şəhərində tikmişdir. (Şəkil.10). Bu məscid 2001-ci il 2 avqust ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 132 nömrəli qərarı ilə "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na əlavə edilib. Bu məscid 1969-cu ildən tarix muzeyi kimi istifadə edilirdi. 1992-ci ilin mayında Şuşa şəhərinin ermənilər tərəfindən işğalından sonra məscid dağısılmışdır. Azərbaycan ordusunun və Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin əzimi sayəsində , 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan tam azad edildi. Bu qələbədən sonra məscidlərdə bərpa işlərinə başlandı. (https://shusha.gov.az/az).



**Şəkil 10. Gövhərağa məscidi**

Mənbə: https://shusha.gov.az/az/thingstodo/28

Şuşa ovalığında əlçatmaz hesab edilən yerdə, demək olar ki, mühasirdə inşa edilmiş bu qala Pənahəli xan tərəfindən müdafiə məqsədi ilə inşa edilmişdir. (Şəkil.11). Şuşa qalasının ətrafı sıx,qalın meşələrlə örtülmüş və bəzi ərazilərində yarğanlarla bitmişdir. Bu yarğanlar düşmən hücumu zamanı keçilməz sədd hesab edilirdi. Pənahəli xanın hakimiyyəti illərində məhşur Gəncə qapıları hazırlanmışdır. Bu qapılar Gəncə şəhərini , Şuşanı və Qarabağ xanlığını Çiləbörd mahalı ilə əlaqələndirirdi. Şuşa qalasının qərb hissəsində yerləşmiş İrəvan qapısı Şuşanı Xəlfəli kəndi və İrəvan şəhəri ilə əlaqələndirirdi.Bu qapıların o biri qapılardan fərqi hər iki yandan simmetrik formada hazırlanmış iki pilləli döyüş qüllələri ilə bərkidirilməsi idi.Muxtar, Topxana qapısı kimi bilinən Ağoğlan qapısı Şuşanın şərq hissəsində yerləşirdi. (Rəsulova, 2022).




**Şəkil 11. Şuşa qalası**

Mənbə: https://shusha.gov.az/az/thingstodo/32

**İşğaldan sonra Şuşaya qayıdış**

İşğaldan sonra Şuşaya getmək istəyənlərin sayı həddindən artıq çox olmuşdur. Ancaq oradakı vəziyyəti nəzərə alaraq bu prosses yavaş-yavaş həyata keçirilir. Şuşaya ilk turistik gəzinti 18 Mart 2023-cü ildə baş tutmuşdur. "Report"a Dövlət Turizm Agentliyindən (DTA) məlumat verilmişdir ki, 40 nəfərin iştirak etdiyi tur ilk dəfə olaraq Şuşa şəhərinə getmişdir. Turistlər ilk olraq Bakıdan Füzuli havalimanına, oradanda Cıdır düzünə səfər etmişdir. Bu səfər iki günlük olduğu üçün orada fəaliyyət göstərən Xarı bülbül otelində qalacaqları qeyd edilmişdir. Bu turlarda ilk Cıdır düzü, "Vaqif" məqbərəsi, Mehmandarovların evi, Bülbülün ev muzeyi, "Yuxarı Gövhər Ağa" məscidi, "Güllələnmiş Heykəllər" meydançası, Şuşa qalası, Şuşanın "Gəncə" qapıları və "Xarı Bülbül" simvolu, "Qazançı" Kilsəsi, Şuşa "Realnıy" Məktəbi kimi tarixi abidələrinə baş çəkmək nəzərdə tutulur. Bu turların qiyməti 2 günlük

**215** manat, 3 günlük turlar **370** manat hesab edilir. (https://report.az/turizm/ilk-40-turist-susaya-yollandi).

Uçuş planınız varsa, Şuşaya ən yaxın hava limanı olan Gəncə Beynəlxalq Hava Limanına uçuş axtara bilərsiniz. Oradan avtobus və ya taksi icarəyə götürməklə Şuşaya çata bilərsiniz. Alternativ olaraq, Azərbaycanın paytaxtı Bakıya uça və oradan Şuşaya getmək üçün avtobus və ya taksi icarəyə götürə bilərsiniz. Uçuşları tapmaq üçün siz Azərbaycana uçan aviaşirkətləri, məsələn, Azərbaycan Hava Yolları, Türk Hava Yolları və ya Emirates-i axtara bilərsiniz. Siz həmçinin Expedia, Kayak və ya Skyscanner kimi onlayn səyahət bronlaşdırma saytlarından istifadə edərək qiymətləri müqayisə edə və bilet sifariş edə bilərsiniz. Əgər, siz avtobus və ya taksi ilə səyahət etməyi planlaşdırırsınızsa, Azərbaycanda yerli turizm agentlikləri və ya nəqliyyat şirkətləri ilə əlaqə saxlaya bilərsiniz. Onlar sizə marşrutlar, marşrutlar və qiymətlər haqqında məlumat verə bilərlər. Siz həmçinin "12go.asia" və ya "Rome2rio" kimi onlayn platformalardan istifadə edərək mövcud nəqliyyat variantlarını axtara bilərsiniz. Səyahət rezervasiyaları etməzdən əvvəl, COVID-19 pandemiyası və digər yerli qaydalara görə səlahiyyətlilər tərəfindən qoyulan səyahət tələblərini və məhdudiyyətləri yoxladığınızdan əmin olun.

**Nəticələr**

Bu məqalədə biz qısa olaraq Şuşa şəhərinin həm keçirdiyi dövrləri həm də turizim potensialı yüksək olan məkanlar haqqında məlumat verdik. Nəticə olaraq qeyd edə bilərəm ki, Şuşanın tarixi çox qədimdir və qədim tarix onun turistlik məkana çevirlməsi üçün bir yoldur. Şuşanın yerləşdiyi məkan yəni, əhatə olunduğu dağlar, yam-yaşıl meşələr, otlaqlar,düzənliklər hansı ki, məhşur olan bir düzənlik Cıdır düzü turizm üçün əlverişli bir istiqamət hesab olunur. Özünəxas ədviyyatları, müxtəlif bitki örtüyü sayəsində çox dadlı, ləziz yeməklər diqqəti cəlb edir. Şuşa şəhərinin işğaldan azad olunduğu gündən orada çox gözəl işlər görülmüşdür və görülməyə də davam edir. Bir çox turizm növlərinin yüksək səviyyədə təşkili turistlərin sayını artıracaqdır. Bu turizm növlərinə müalicəvi, dağ – xizək, velosiped yarışları, hiking, təbiət – mənzərə və s. bir çoxu aid edilə bilər.

Qara turizm isə ümumiyyətlə, Qarabağ ərazisinə aid olmaqla Şuşaya xüsusi olaraq şamil ediləcəkdir. Bunun üçün şəhər və ətraf ərazilərdə böyük potensial mövcuddur. Əfsuslar olsun ki, mənfur düşmən daim rayon ərazisində dağıntılar etmiş və bir çox memarlıq abidələrinə və dəyərlərə ziyan vermişdir. Bir çox faydalı qazıntılar qanunsuz şəkildə istismar edilmiş, rekreasiya potensialına malik resursları təhrif etmişdirlər. Təbii ki, hazırda bu zərərlər hesablanır və ərazidə genişmiqyaslı təhlil işləri aparılır. Bu vəhşilikləri törədənlər mütləq şəkildə qanun qarşısında cavab verəcəkdirlər və itirilmiş mənfəətin geri qaytarılması üçün maddi cəza tədbirləri alacaqdırlar. Qara turizm Şuşa şəhərinə və ətraf ərazilərə xüsusilə xarici turistləri cəlb etmək üçün əvəzsiz rol oynayacaqdır. Buna görə də ilk turizm infrastrukturu bu istiqamətdə qurulacaqdır. Bu aparılan yenidən qurma, bərpa işlərinin sayəsində Şuşa şəhərinin Azərbaycan üçün turizm mərkəzinə çevrilməsi çox yaxın zamanlarda baş tutacaqdır ki, buna heç bir şübhə yoxdur.

Əldə edilmiş nəticələrin elmi - praktiki nəticələri ondan ibarətdir ki, turizm sahəsində regionun potensialı nə qədər çoxdursa, tətbiq sahələrini təsbit etmək şansı bir o qədər çoxdur. Məsələn, bir bölgənin iqlimi, faydalı qazıntıları, təbii rekreasiya ehtiyyatları və potensial süni rekreasiya ehtiyyatını təşkil edə biləcəyi ərazisi olması onun regionda önə çıxarılmasına, daha çox reaksiya görməsinə və nəticə olaraq iqtisadi göstəricilərinin yaxşılaşmasına gətirib çıxarır. Şuşa rayonu və ətraf ərazilər bu potensiala malik olduğundan burada yaşayan və yaşayacaq əhalinin həyat səviyyəsi yüksək olacağı gözlənilir. Bu da turizmin digər sahələrə təsirini sübut edən bir göstəricidir. Bir bölgədə turizm inkişaf edərsə, həmin yerdə iş imkanları artacaq, təsərrüfat sahələri genişlənəcək,

əməkhaqqı səviyyəsi normallaşacaq, sosial sfera inkişaf edəcək və nəticədə ölkə iqtisadiyyatına əhəmiyyətli gəlir təşkil edəcəkdir. Bütün bunları nəzərə aldıqda, biz deyə bilərik ki, turizm sahəsi ölkənin öndəgələn siyasətlərindən biri olmalıdır. Ölkədə turizmə münasibət yüksək səviyyədə olarsa, bu insanlar arasında kommunikasiya əlaqələrini gücləndirəcəkdir və təbii olaraq digər iqtisadi və sosial sahələrin də inkişafını təmin edəcəkdir. Söhbət qarşılıqlı münasibətlərdən, pul və əmtəə münasibətlərindən gedir.

Tədqiqat işinin qarşısına qoyulmuş məqsəd Şuşanın mümkün turizm potensialının araşdırılması və gələcəkdə turizmin təşkilinin optimallaşdırılmasıdır. Bu baxımdan ortaya çıxan problemlər mütləq öz həllini tapacaqdır. Bunun üçün qarşıya qoyulmuş məqsədlərin və planların düzgün şəkildə icra edilməsi vacibdir. Əsas problemlərdən biri odur ki, hazırda region ətrafında siyasi sabitlik bir qədər pozulmuşdur. Bunun üçün, ilk öncə bu münasibətlər yoluna qoyulmalıdır. Digər problemlərdən biri isə ölkədə turizm sektorunda kifayət qədər ixtisaslı kadr yoxdur. Bu isə turizm müəssisələrinin təşkilində müəyyən qədər gecikmələr yaradır. Turst sayının əvvəlki qədər çoxaldılması vacibdir. Çünki, turizmə hərəkət verən qüvvələr istehlakçılar, yəni turistlərdir. Digər bir məsələ isə burada təşkil edilən turizmin hansı yaş kütləsinə xitab etməsidir. Əgər, həm gənc nəsil həm də yaşlı nəsil üçün turizm növləri təşkil edilərsə, səmərəli turizmdən söz gedə bilər. Tövsiyyələr ondan ibarətdir ki, şəhərin tarixiliyini qoruyub saxlayıb, bütün dünyaya nümayiş etdirmək lazımdır. Çünki, Şuşa Azərbaycanın adət - ənənəsini, mədəniyyətini, tarixini, irisini təmsil edən unikal bir sərvətdir və ölkənin bu sahədə simasını təmsil edir. Bütün bunları dərk etmək və onları qoruyub saxlamaq hər bir ölkə vətəndaşının borcu sayılır.

**Təkliflər**

Şuşada turizm ziyarətçilər üçün bir sıra təcrübələr təqdim edir. Ən yaxşı görməli yerlərdən bəziləri bunlardır:

1. Cümə məscidi, Qarabağ xanlığının banisinin məqbərəsi və Şuşa qalası kimi tarixi yerləri araşdırmaq.
2. Tamaşalar və seminarlar vasitəsilə yerli musiqi və rəqs ənənələrini yaşamaq. Xalçaçılıq, tikmə, dulusçuluq kimi ənənəvi sənət növlərini öyrənmək.
3. Cıdır düzü yaylası və Qarqar çayı kanyonu da daxil olmaqla, ətrafdakı mənzərələrin təbii gözəlliyindən həzz almaq, gəzinti və düşərgə kimi açıq fəaliyyətlər üçün imkanlar təklif edir.
4. Yerli mətbəxdən nümunə götürmək və Azərbaycan yeməklərinin unikal ləzzətlərini dadmaq.
5. İl boyu keçirilən mədəniyyət festivallarında və tədbirlərdə iştirak etmək.
6. Öz irsini və ənənələrini ziyarətçilərlə bölüşməkdən qürur duyan mehriban yerlilərlə ünsiyyət.

Bütövlükdə, Şuşada turizm Azərbaycanın təbii gözəlliklərindən və qonaqpərvərliyindən həzz alaraq onun mədəniyyətinə və tarixinə qərq olmaq şansı verir.

Bu nəticələrdən əsaslandırılmış arqumentlər və mülahizələri aşğıdakı kimi qeyd etmək olar:

- İlk öncə Qarabağ regionun vəziyyətinin sabitləşdirilməsi və əmin amanlığın yaradılması vacibdir. Çünki, turizm mühiti sülh və sakitliyin hökm sürdüyü sabit regionu tələb edir.
- Şuşada mövcud olacaq turizm növlərinin düzgün təsbit edilməsi və turizmdən optimal istifadə təmin edilməlidir. Çünki, turistlərin tələbindən kənar hər hansı bir turizm sektorunun yaradılması həm iqtisadi həm də sosial problemlərin baş verməsinə gətirib çıxara bilər.
- Kifayət qədər vəsaitin ayırılması mütləq şərtlərdən biridir. Çünki, bundan öncəki illərdə Şuşanın turizmi ölkənin brend adını almışdır. Bu adın bərpa edilməsi üçün mümkün olan hər vasitədən istifadə edilməlidir. Bunun üçün, təbii ki, böyük maliyyə vəsaitləri ayırılmalıdır.

- Şuşanın turizminin qlobal əhatədə tanıdılması. Bunun üçün mükəmməl marketinq və tanıtım strategiyası lazımdır. Bu həm turist sayını artırmaq hə də dünya ölkələrinin diqqətini cəlb edərək buraya investisiya etmək marağını təmin edəcəkdir.
- Turizmin təşkilinin ən vacib amillərindən biri ixtisaslı turizm kadrlarıdır. Çünki, turistlərə xidmət edən, onlarla birbaşa ünsiyyətdə olan məhz bu kadrlardır. Onların düzgün yetişdirilməsi, bacarıqlarının artırılması, mükəmməl şəkildə təlimlər keçməsi vacib şərtlərdən biridir.

Turizmin davamlılığının təşkil edilməsi. Şuşada turizmin bütün fəsillərdə təmin edilməsi üçün uyğun olan hər bir turizm növü təşkil edilməlidir. Hansı ki, 4 fəslin hər birində turist sayında azalma müşahidə edilməsin. Əminliklə demək olar ki, bunun üçün rayonun kifayət potensialı mövcuddur.

Təkliflər ondan ibarətdir ki, Şuşanın turizm - rekreasiya potensialının təşkili və inkişaf etdirilməsi üçün dünya praktikasının tətbiq edilməsi mütləqdir. Bu gələcəkdə turizmin davamlı inkişafını və əldə edilən gəlirlərin artırılmasını və düzgün investisiya edilməsini təmin edəcəkdir. Şuşada mövcud olan bir çox turizm sahələri vardır ki, dünya praktikasının tətbiq edilməsi, yeni inkişaf strategiyalarının təşkil edilməsi bu sahələrin məhsuldarlığını böyük ölçüdə artıra bilər. Hansı ki, Şuşa ilə eyni turizm potensialına malik ölkələrdir.

İlk öncə dağ və dağ – xizək turizminə nəzər yetirsək, ölkədə mövcud olan digər destinasiyaları Şahdağ, Tufandağ və Babadağı misal göstərə bilərik ki, kifayət qədər infrastruktura və gəlirliliyə malikdirlər. Şuşa rayonunda isə bu tip turizm növü üçün hər hansı bir infrastruktur hələki mövcud deyildir. Gələcək dövrlərdə yaradılacaq infrastruktur üçün müxtəlif yollardan istifadə etməklə turist kütlələrinin cəlb edilməsini təşkil etmək mümkündür. Məsələn, Bu sıraya qar örtüyünün bərkidilməsi, müxtəlif kimyəvi qarışıqlardan istifadə, süni qar yağdırma sisteminin yaradılması daxildir. Süni qar yağdırma maşınlarından indi bütün qış turizm mərkəzlərində istifadə olunur. İsveçrə kurortlarının təxminən 10 faizi süni qar örtüyünə keçib. Avstriya və İtaliyada kurortların təxminən 40%-i süni qardan istifadə edir. Süni qar örtüyü ilə yanaşı, digər bir metod qarın başqa yerlərdən gətirilməsidir. Məsələn, Danimarkanın kurortları qarı Norveçin dağlıq rayonlarından bərə vasitəsilə gətirir. (https://medeniyyet.az/page/news/7292/Azerbaycanda-dag-turizmi:-imkanlar-ve perspektivler.html).

Digər bir turizm növü isə müalicəvi turizm növləridir ki, dünya praktikası bu sahədə kifayət qədər potensiala malikdir və inkişaf strategiyaları mövcuddur. Şuşa rayonunda bu tip turizm növləri bir vaxtlar mövcud olmuşdur və hal hazırda bərpa edilməkdədir. Turizmin bu növünün yüksək səviyyədə inkişaf etdiyi ölkələrdən biri də Türkiyədir. Hər il 150 min turist bu ölkəyə müalicə məqsədilə səfər edir. Bu ölkənin müalicə turizmində əldə etdiyi ən böyük üstünlük isə keyfiyyətli xidmət və əlverişli qiymətlərdir.

Macarıstandakı Heviz kurortunun əsas terapevtik amillərinə termal bir göldə yerləşməsi, palçıq terapiyası, bənzərsiz bir mikroiqlim daxildir. Kurort Avropanın ən böyük istilik su anbarına malikdir - qədim vulkanın başında yerləşən Heviz gölü. Göl yeraltı isti mineral bulaqlar ilə qidalanır, bunun sayəsində kurort il boyu fəaliyyətdədir- hətta qışda suyun temperaturu 24 dərəcədən aşağı düşmür! Demək olar ki, bütün kurortlarda öz istilik vannaları və ixtisaslı tibb işçiləri olan "tam dövr" müalicə bazası var.

Çex Respublikasının Karlovı Varı kurortundakı əsas təbii müalicəvi amil hidrokarbonat-sulfat-xlorid-natrium tipli mineral sulardır. Səthə çıxarılan 15 qaynaqdan əldə edilmiş su əsasən içmə müalicəsi üçün istifadə olunur.

Karlovı Varı, Çexiyanın ən böyük və ən məşhur  kurortudur. Yerli müalicəvi termal mineral bulaqları sayəsində böyük şöhrət qazanmışdır. Əsrlər boyu mineral suyun keyfiyyəti dəyişməz qalır və bütün gələnlər üçün əlçatan 15 bulaq səthə gətirilir.

İsraildəki Ölü Dəniz kurortunun əsas müalicəvi amillərinə doymuş duzlu məhlul olan mineral su, dünyada ən yüksək terapevtik təsirə malik palçıq, duz buxarlı və yüksək miqdarda brom tərkibli hava, günəş yanması riski daşımayan mülayim günəş radiasiyası daxildir. Təbii  şəfa amillərinin İsraildəki tibb elminin müasir imkanları ilə birlikdə mövcudluğu, burada yerləşən Ölü Dəniz kurortunu dünya miqyasında məşhur bir müalicə diyarı halına gətirdi.

Gürcüstandakı Borjomi kurortunun əsas terapevtik amillərinə həm içməli olan, həm də mineral vannalar üçün istifadə edilən mineral su daxildir. Yerli mineral suların faydalı təsirləri yerli sakinlər və ziyarətçilər tərəfindən çoxdan aşkar edilmişdir.

Polşadakı Kudowa-Zdrój kurortu öz şöhrətini müalicəvi mineral sularına borcludur. Bunların arasında olduqca yüksək minerallaşma ilə Avropa miqyasında unikal hesab edilən Zuber suyu xüsusi diqqətə layiqdir. Mofet adlanan vulkan mənşəli karbon qazı da buranın xüsusiyyətlərindən biridir. Mofet, hətta ürək xəstəlikləri və qan dövranı pozğunluğu olan xəstələr üçün də göstərilən quru karbon qazı vannaları üçün istifadə olunur. (https://airways.az/az/news/28).

Bütün bu sadalanan turistik bölgələrin turizm strategiyaları Şuşa rayonunun rekreativ turizminin təşkili üçün əsaslı nümunələri özündə əks etdirir. Hazırda dünyada məhz bu turizmə 439 milyard dollar xərclənir. VİSA şirkəti gələcək 10 il ərzində dünyada bu turizm sektoru üçün xidmət göstərəcək 340 yeni hava limanının tikiləcəyini bildirib. Bununla müalicəvi turizmdən gələn gəlirin həcmi 2025-ci ilədək 3 trilyon dollara qədər yüksələcək. Hazırda müalicəvi turizm üzrə ölkələrin ilk beşliyində Kanada, Böyük Britaniya, İsrail, Sinqapur və Hindistan dayanır. (https://oxu.az/turism/144524).

Şuşa üçün digər bir potensialı olan turizm növü virtual gəzinti turizmidir. Bu turizm növü hazırda dünyanın bir çox ölkələrində inkişaf etdirilir. Turistlər xüsusi eynəklər vasitəsilə virtual şəkildə bölgənin tarixini, mənzərə və gözəlliklərini, baş vermiş digər maraqlı hadisələri izləyib həm dünyagörüşlərini artırır həmdə əyləncələrini təmin edirlər. Şuşada isə bu turizm növünün böyük potensialı mövcuddur. Hansı ki, Şuşa qədər qədim bir şəhərin həm tarixi həm təbiəti həm də qəhrəmanlıqlarla dolu keçmişi bunu deməyə imkan verir. Buraya üz tutan turistlər əminliklə deyə bilərəm ki, mütləq bir daha bu hissi yaşamaq üçün səfər edəcəkdirlər.

**Ədəbiyyat Siyahısı**

Gözlə bizi, Qarabağ !... : Metodik vəsait. - Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2007. - 84 s.

Qarabağ-mədəniyyətimizin beşiyi : Şuşa qalası ; Köçərli məscidi ; Məmər məscidi və Gürcülü türbəsi ; Xudafərin körpüləri ; Şahbulaq qalası // Mədəniyyət. - 2020. - 28 oktyabr. - № 79. - S. 4.

Qələndərli, N. Zəfər təqviminin “Şuşa ili” /Nurlan Qələndərli//Yeni Azərbaycan.-2022.- 6 yanvar.- S.3

Mahmudov Y. M. Qarabağ: Real tarix, faktlar, sənədlər. - Bakı: Təhsil, 2009. - 144 s.

Mirzə M. “Sənət məbədi: Şuşa” // Respublika. - 2022. - 5 fevral. - № 26. - S.

Mirzə M. “Şuşa Qarabağın tacıdır” // Respublika. - 2021. - 30 dekabr. - № 285. - S. 12.

Rəsulova, İ. İgidlərin at çapdığı, qəhrəmanların yallı getdiyi Cıdır düzü : Şuşa İli-2022 /İlhamə Rəsulova//Yeni Azərbaycan.-2022.- 3 fevral.- S.4.

"Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı": biblioqrafiya / Tərt. ed. X.Abbasova; elmi red.K.M.Tahirov; red. E.R.Nəciyev. – Bakı, 2021. – 600 s.

"Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir": Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 125 s.

"Zəfərimizin təntənəsi - 2022-ci il Şuşa ilidir": metodik vəsait/ tərt. ed. L.Əhmədova; elmi

red. K.Tahirov; red. Aygün Məmmədova.- Bakı, 2022.- 42 s.

Yaqub Mahmudov, Camal Mustafayev: "Şuşa - Pənahabad" Bakı, «Təhsil», 2012, 152 səh

https://president.az/az/articles/view/55197

https://report.az/turizm/ilk-40-turist-susaya-yollandi/

https://shusha.gov.az/az

https://medeniyyet.az/page/news/7292/Azerbaycanda-dag-turizmi:-imkanlar-ve-perspektivler.html

https://airways.az/az/news/28

https://oxu.az/turism/144524

# Azərbaycanda Startap Biznesinin Müasir Vəziyyəti

**Pərvanə İsmayılova**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**parvana-ismayilova@unec.edu.az**

## Xülasə

Startap şirkətlər mövcud olmaq üçün mübarizə aparan yeni fəaliyyətə başlamış şirkətlərdir. Bu qurumlar əsasən parlaq ideyalar əsasında formalaşır və uğur qazanmaq üçün böyüyürlər. Bu hadisələr idarəetmə, təşkilat və sahibkarlıq nəzəriyyələri ədəbiyyatında qeyd olunur. Startap biznesin elə bir yeni, innovativ növüdür ki, bu biznes ənənəvi biznesdən fərqli olaraq bazara əvvəllər mövcud olmayan və ya az olan, yeni innovativ həllər təklif edən, texnologiya ilə vəhdətdə inkişaf edən biznesdir. İqtisadiyyat üçün daha çox dəyər yaratdığına, məşğulluğun təmin olunmasında əhəmiyyəti mövqeyinə və yeni kompetensiyalara malik fərdlərin ideyalarını reallaşdırmaq imkanlarını geniş olduğuna görə startap biznesi bütün dünyada olduğu kimi ölkəmizdə də əsas biznes tendensiyalarından hesab olunur. Bununla belə startap biznesinin formalaşması, rentabelliyi çətin, yüksək investisiya tələb edən prosesdir. Bu səbəbdəndir ki, yeni fəaliyyətə başlayan startapların 80%-i ilk 5 ildə fəaliyyətlərini dayadırmağa məcbur olurlar. Lakin bu qurumların dəqiq təsviri mövcud deyil. Məqalədə startap biznesinin əsas xüsusiyyətləri, formalaşma mərhələləri, Azərbaycan sahibkarlıq ekosistemi üçün startapların mövcud vəziyyəti, dövlət dəstəyi, inkubasiya və akselerasiya proqramları və əhəmiyyəti araşdırılıb.
**Açar sözlər**: startap, innovativ biznes, sahibkarlıq, vençur investisiya

## Abstract

Startup companies are newly launched companies struggling to exist. These institutions are mostly formed on the basis of brilliant ideas and grow to succeed. These phenomena are mentioned in the literature of management, organization and entrepreneurship theories. A startup is a new, innovative type of business that, unlike traditional business, is a business that does not exist on the market before or has few, offers new innovative solutions, and develops in harmony with technology. Startup business is considered one of the main business trends in our country as well as in the world, due to the fact that it creates more value for the economy, its importance in providing employment, and the wide opportunities to realize the ideas of individuals with new competencies. However, the formation of a start-up business is a difficult, profitable process that requires high investment. For this reason, 80% of new startups are forced to stop their activities in the first 5 years. However, there is no exact description of these institutions. The article examines the main features of startup business, stages of formation, the current state of startups for the Azerbaijani entrepreneurial ecosystem, state support, incubation and acceleration programs and their importance.
**Keywords**: startup, innovative business, entrepreneurship, venture investment

## Startap Biznesinin Əsas Xüsusiyyətləri

Startap şirkəti adətən yeni yaranmış, sürətlə böyüyən biznesdir və innovativ məhsul, proses və ya xidmət hazırlamaq və ya təklif etməklə bazar ehtiyacını ödəməyi hədəfləyən sahibkarlıq müəssisəsidir. Gənclərin təşəbbüsü ilə yaradılan kreativ ideyalar Azərbaycanda startapların sayını artırıb. Startap yaxşı biznes potensialına malik hesab edilir və beləliklə investorları investisiya üçün cəlb edir. Bu investorlar institusional və fiziki şəxslər ola bilər. Öz vəsaitlərini başlanğıc şirkətlərə yatıran fərdi investorlara biznes mələkləri və ya mələk investorları deyilir. Bu kontekstdə investisiya qərarı vermək üçün investisiyanın mümkün olub-olmadığını qiymətləndirmək zamanı nəzərə alınması lazım olan bir neçə şey var. Burada üç xüsusiyyət nəzərə alınmalıdır - təsisçinin xüsusiyyətləri, məhsulun xüsusiyyətləri, bazar xüsusiyyətləri. Müxtəlif tədqiqatların nəticələri göstərir ki, təsisçilərin xüsusiyyətləri, məhsul xüsusiyyətləri, bazar xüsusiyyətləri biznes mələklərinin

investisiya qərarlarına təsir edə bilər.
Startaplar kiçik şirkətlər ola bilər, lakin onlar iqtisadi artımda mühüm rol oynaya bilərlər. Onlar daha çox məşğulluq deməkdir və daha çox məşğulluq inkişaf etmiş iqtisadiyyat deməkdir. Təkcə bu deyil, həm də startaplar innovasiyaları stimullaşdırmaq və rəqabəti gücləndirməklə iqtisadi dinamizmə də töhfə verə bilərlər. Startap biznes potensialın və texniki imkanların inkişafı ilə müşayiət olunan şirkət, tərəfdaşlıq və ya müvəqqəti təşkilat ola biləcək ilkin mərhələdəki firma, eləcə də biznes dəyərlərini və rəqabət qabiliyyətini artırmaq potensialına malik olan müəyyən müddət ərzində yenilikçi və yaradıcı şəkildə sahibkar idarəçiliyi kimi müəyyən edilir. Startapların yaranması internetin geniş istifadəsi və sürətlə inkişaf edən texnologiya ilə başladı. Millennialların yaradıcı ideyaları artan startap biznesinin böyüməsi üçün faydalı məhsullar yaratmaq üçün internetdən maksimum istifadə etməyə imkan verdi.
"Startap" yeni və innovativ təşəbbüs ilə qurulan şirkətlərə verilən addır. Sözsüz ki, bu təşəbbüsün uğur qazanıb qazanmayacağı da əvvəlcədən bəlli olmur. Ehtiyacları görən və öz innovativ fikri ilə həll yolu gətirməyə çalışan təşəbbükar insanlar komanda formalaşdıraraq öz "startap"larını yaradırlar. "Startap"lar əsasən yeni ideyanın inkişafı üçün bir araya gəlmiş komanda üzvlərindən ibarət olur. Komanda bazar araşdırması və inkişaf mərhələsini yaşayır. "Startup" ifadəsi "nöqtə -com" şirkətlərinin ortaya çıxdığı 1990-cı illərin sonlarında beynəlxalq aləmdə məşhurlaşdı. Belə internet şirkətlərindən bu günə kimi uğur qazanaraq ayaqda qala bilən “amazon.com” və "ebay.com" misal ola bilər.
Startap, adətən inkişafın və böyümənin ilkin mərhələlərində olan yeni biznes təşəbbüsüdür. Startaplar tez-tez innovativ məhsullar, xidmətlər və ya texnologiyaların hazırlanması və bazara çıxarılmasına diqqət yetirirlər. Ənənəvi kiçik bizneslərdən fərqli olaraq, startaplar tez-tez yüksək inkişaf potensialı, innovasiyaya diqqət yetirmələri və mövcud sənayeləri pozmaq üçün texnologiyadan istifadə ilə xarakterizə olunur.
Startaplar adətən bazar ehtiyacını və ya fürsətini müəyyən etmiş və bazara yeni məhsul və ya xidmət gətirmək üçün çalışan sahibkarlar və ya kiçik şəxslər qrupları tərəfindən təsis edilir. Bu müəssisələr çox vaxt məhdud resurslar və maliyyə ilə fəaliyyət göstərirlər və onların uğuru investisiya cəlb etmək, güclü komanda yaratmaq və əməliyyatlarını sürətlə genişləndirmək qabiliyyətindən asılıdır. “Startapların və innovativ ekosistemlərin inkişafı cəmiyyət üçün bir çox imkanlardan biri deyil, həm də öhdəlikdir” (Nagy 2020, 11).
Məlum olduğu kimi, startapın yaradılması və inkişafı böyük vəsait tələb edir, çünki adekvat maliyyə startapın həyat qabiliyyətini müəyyən edir. İlkin mərhələdə biznesdə maliyyə mənbəyi rəsmi və qeyri-rəsmi tərəflərdən ola bilər. Birincisi vençur kapitalı şirkətləri, banklar və dövlət qurumları tərəfindən həyata keçirilir, ikincisi isə ailə münasibətləri olan və ya heç bir ailə əlaqəsi olmayan və ya adətən mələk investorları və ya biznes mələkləri adlanan şəxslər tərəfindən həyata keçirilir (Nofsinger & Wang, 2011). Cox və başqaları (2017) tədqiq etdi ki, biznes mələklərinin 75%-dən çoxu başlanğıc mərhələsində startaplar üçün maliyyə mənbəyi kimi xidmət edir. Biznes mələkləri startap biznesinə külli miqdarda pul yatıran investorlardır. İnvestorlar maliyyə yardımı göstərməklə startapla maraqlandıqda, startapın böyük biznes potensialı olmalı və gələcəkdə böyümək üçün böyük imkanları olmalıdır (Dollinger, 1999).
Beləliklə, startap ənənəvi korporativ strukturlardan fərqli olaraq biznesin inkişafının spesifik formasıdır. Startapların fəaliyyət mühitini və onların mühitini formalaşdıran aktorlar orqanik sistemdə bir araya gətirilərək, regionda inkişafı dəstəkləyən, bazar iqtisadiyyatlarının inkişaf səviyyəsinin təsiri altında olan və əsaslandırılan ekosistem yaradır.
Tədqiqatlar göstərdi ki, ekosistem bir neçə ölçüdə inkişaf edir və fəaliyyət göstərir. Milli ölçüdə institusional və dəstək çərçivələri hazırlanır, ərazi/yerli ölçüdə isə yerli aktorların əməkdaşlığı iqtisadi

inkişafı yaradır (Osterwalder & Pigneur, 2010; Ries, 2011). Startapların da bu mühitdə yeri var, lakin onların yerli aktyorlarla əlaqələri fərqlidir. Universitet əməkdaşlığı innovasiya fəaliyyətini stimullaşdırır, ticarət palatası əlaqələri qurur, yerli təchizatda biznes üçün əlaqə şəbəkəsi və yerli hakimiyyət orqanları cəlb edilə bilər.

Müasir şəraitdə startap biznesinə başlamaq həm çətin, həm maraqlı işdir, həm də dövrün tələbinə uyğun məhsul və xidmət istehsal etmək deməkdir. Tədqiqatlar uğurlu startap bizneslərinin bir sıra xüsusiyyətlərini, o cümlədən güclü qurucu komanda, aydın dəyər təklifi, genişlənə bilən biznes modeli və maliyyə və resurslara çıxışı müəyyən etmişdir (Blank, 2013; Timmons & Spinelli, 2009). Startap biznesinə başlamaq üçün bəzi zəruri şərtlər var ki, bu şərtlər bütün dünyada qəbul olunan ümumi tendensiyalardır:

Bazar araşdırması: Hədəf auditoriyanı, onların ehtiyac və üstünlüklərini və rəqabət mənzərəsini anlamaq üçün hərtərəfli bazar araşdırmasının aparılması çox vacibdir. Bu məlumat unikal dəyər təklifi hazırlamağa və biznesini bazardakı digərlərindən fərqləndirməyə kömək edə bilər.

Texnologiya: Texnologiyadan istifadə müasir bazarda startaplar üçün vacibdir. Əməliyyatları sadələşdirmək, səmərəliliyi artırmaq və rəqabətdə qalmaq üçün texnologiyadan istifadə edilməlidir. Texnologiya və innovasiya tez-tez başlanğıc biznes üçün mərkəzi yer tutur. Tədqiqatlar yeni biznes modellərinin yaradılmasında texnologiyanın rolunu, əqli mülkiyyətin qorunmasının vacibliyini və sürətlə dəyişən bazarda innovasiyaların idarə edilməsində çətinlikləri araşdırıb (Chesbrough, 2010; Teece, 2010).

Maliyyələşdirmə: Maliyyə əldə etmək startaplar üçün çətin ola bilər. Müəssisə kapitalı, mələk (angel) investorlar və kraudfanding (kütlə maliyyələşdirməsi) kimi müxtəlif maliyyələşdirmə variantları araşdırılmalıdır. Dəyər təklifini və böyümə potensialınızı nümayiş etdirmək üçün dayanıqlı biznes planı hazırlamaq və potensial investorlara müraciət etmək lazımdır. Maliyyələşdirmə və maliyyəyə çıxış çox vaxt startaplar üçün əsas problemdir. Tədqiqat vençur kapitalı, mələk investorlar, izdihamlı maliyyələşdirmə və bootstrapping kimi müxtəlif maliyyələşdirmə variantlarını, eləcə də maliyyə planlaşdırması və idarəetmənin əhəmiyyətini araşdırmışdır (Mason & Harrison, 2006; Shane & Stuart, 2002).

Çeviklik və uyğunlaşma: Mövcud bazar daim dəyişir və startaplar uğur qazanmaq üçün çevik və uyğunlaşa bilməlidirlər. Dəyişən bazar tələblərinə cavab vermək üçün lazım olduqda strategiyanı, məhsul və ya xidmət təkliflərini və marketinq taktikalarını dəyişdirmək, ümumilikdə elastik idarəetmə tətbiq etmək labüd hesab olunur.

Rəqəmsal mövcudluq: Güclü rəqəmsal mövcudluq startaplar üçün vacibdir. Hədəf auditoriyaya çatmaq və brendi qurmaq üçün veb-sayt hazırlanması, sosial mediadan istifadə və rəqəmsal marketinqə investisiya qoymaq əhəmiyyətli addımlardandır. Güclü və genişlənə bilən biznes modelinin inkişafı startap uğurunun kritik aspektidir. Tədqiqatlar biznes modelinin innovasiyasının, müştərinin yoxlanılmasının və zəruri hallarda dönmə qabiliyyətinin vacibliyini vurğulamışdır (Osterwalder & Pigneur, 2010; Ries, 2011).

Əməkdaşlıq və şəbəkə qurmaq: Digər sahibkarlar, sənaye ekspertləri və potensial müştərilərlə şəbəkə qurmaq və əməkdaşlıq etmək startaplara dəyərli fikirlər əldə etməyə, yeni imkanları müəyyən etməyə və böyüməyə və uğura səbəb ola biləcək əlaqələr qurmağa kömək edə bilər. Dəstəkləyici şəbəkələrin və ekosistemlərin inkişafı da startapın uğuru üçün vacibdir. Tədqiqat mentorluğun, şəbəkələşmənin və digər startaplarla əməkdaşlığın əhəmiyyətini, habelə startapın böyüməsini təşviq etməkdə hökumətin siyasət və proqramlarının rolunu araşdırıb (Stam, 2015; Welter & Smallbone, 2011).

Araşdırmalar göstərib ki, sahibkarlıq düşüncə tərzi və mədəniyyəti startap biznesin uğuru üçün vacibdir. Buraya risk götürmə, yenilik, möhkəmlik və uğursuzluqdan dərs almağa hazır olmaq kimi amillər daxildir (Hmieleski & Baron, 2009; Lumpkin & Dess, 1996).

Biznesin mərhələləri onları təsvir etmək üçün istifadə olunan modeldən asılı olaraq dəyişə bilər. Biznesin tipik mərhələlərini təsvir edən ümumi bir model:




**Şəkil 1. Startap biznesinin həyat dövrü mərhələləri. Müəllif tərəfindən hazırlanmışdır.**

Startapların inkişaf mərhələsi Şəkil 1.də göstərilən minimum investisiyadan-vençur investisiyaya, kiçik dövriyyədən maksimum gəlirə hədəflənən bir yol qət edir. Təbii ki, elmə məlumdur ki, yeni fəaliyyətə başlayan startapların 90%-i ilk 5 il ərzində iflasa məruz qalır. Fəaliyyətə davam edənlər isə daima axtarışda olan, yenilikləri tətbiq edən, cəmiyyətin tələbinə uyğun məhsul və ya xidmət istehsal edən, güclü komandaya malik olan təşkilatlardır. Qeyd etmək vacibdir ki, bütün müəssisələr bu mərhələlərin hər birini keçmir və bəzi müəssisələr sıradan çıxmış mərhələlərlə qarşılaşa və ya müəyyən mərhələləri tamamilə atlaya bilər. Bundan əlavə, hər bir mərhələnin uzunluğu və müddəti sənayedən, bazar şərtlərindən və digər amillərdən asılı olaraq dəyişə bilər (Adler, P., Florida, R., King, K., & Mellander, C.,2019).

Son 10 ildə sürətli böyüməsi ilə bir çox iqtisadiyyatı geridə qoyan qlobal startap iqtisadiyyatları müxtəlif qurumların gündəmində olub və araşdırılır. Bu araşdırmalardan ən əhatəlisi olan Qlobal Startap İqtisadiyyatları Hesabatı hər il dünya üzrə startap ekosistemləri əsasında araşdırma aparır və bu ekosistemlərin yaratdığı iqtisadi və sosial dəyər əsasında həm təhlil, həm də sıralama hazırlayır. 2022-ci ildə dərc olunan hesabatda startap iqtisadiyyatların dünya iqtisadiyyatındakı yeri və ekosistem əsasında istehsal olunan dəyəri açıqlanır və bu dəyərin 6.4 trilyon dollar olması qeyd edilir. Halbuki bu dəyər 2016-2018-ci illərdə 2.8 trilyon dollar idi.

Qlobal ÜDM-in təqribən 90 trilyon dollar olduğunu nəzərə alsaq, bu həcmin 3,5%-nə yalnız startapların uyğun gəlməsi olduqca diqqətəlayiqdir (Dünya Bankı, 2019). İl ərzində edilən investisiyalar qiymətləndirildikdə, yalnız 2019-cu ildə startaplara 300 milyard dollarlıq vençur kapitalı sərmayəsinin reallaşdırıldığı görülür. Sözügedən hesabat bütün dünyada sahibkarlıq ekosistemlərinə əsaslanır, lakin əsasən öz təhlilini 4 milyard dollar və ya daha çox dəyəri olan ekosistemlərə əsaslanır. Bu ayrı-seçkilik tarixi kontekstdə araşdırıldığında iqtisadi böyüklük baxımından öndə gedən ekosistemlər arasında yer alan Boston və Nyu Yorkun 1990-cı illərdə 800 milyon dollar, Londonun isə 200 milyon dollar böyüklüyü olduğu görülür. dollar təşkil edib. Bu gün onlar ümumi dəyəri təxminən 350 milyard dollar olan qlobal iqtisadiyyatı formalaşdırırlar.

Qlobal Sahibkarlıq Monitoruna görə 2019-cu ildə Şimali Amerikada təxminən 27 milyon, Avropada 23,5 mln kiçik biznes və startap var idi. StartupBlink-in hesabatına görə, Asiyada dünya startaplarının təxminən 31%-i yerləşir, Çin və Hindistan regionda ən çox startaplara sahibdir. Həmin hesabata görə Afrika 2020-ci ildə 3500-dən çox startapın olduğu bildirilən startapların sayında əhəmiyyətli artım müşahidə edib. Amerika ölkələrarası İnkişaf Bankının məlumatına görə, 2018-ci ildə Latın Amerikası və Karib hövzəsində 300.000-dən çox startap olub.

**Azərbaycan biznes mühitində startaplar.**

Startaplar Azərbaycanda biznes mühitində getdikcə daha mühüm rol oynayır. Gənc, təhsilli və texnologiyaya yiyələnən sahibkarların sayının artması ilə ölkədə son illərdə startapların sayında artım müşahidə olunur. Hökumət həmçinin startapların iqtisadi artımın aparıcı qüvvəsi kimi əhəmiyyətini dərk edib və sahibkarlar üçün dəstək mühitinin yaradılması istiqamətində addımlar atıb.

Azərbaycanda startapların böyüməsini şərtləndirən əsas amillərdən biri ölkənin Avropa və Asiyanın kəsişməsində yerləşən strateji yerləşməsidir. Bu, onu regionda inkişaf etməkdə olan bazarlara daxil olmaq istəyən investorlar üçün cəlbedici bir məkana çevirdi. Bundan əlavə, ölkədə yaxşı təhsilli işçi qüvvəsi, nisbətən aşağı yaşayış dəyəri və xarici sərmayələri cəlb etməkdə maraqlı olan dəstəkləyici hökumət var.

Son illərdə Azərbaycan startapların böyüməsini təşviq etmək üçün bir sıra təşəbbüslərə başlayıb. Bunlara startap akseleratorlarının və inkubatorlarının yaradılması, sahibkarların maliyyələşdirilməsi və dəstəyinin təmin edilməsi, startapların böyüməsinə şərait yaradan normativ hüquqi bazanın yaradılması daxildir.

Ümumiyyətlə, Azərbaycanda biznes mühitində startapların yeri və rolu sürətlə inkişaf edir və ölkə regionda texnoloji startaplar üçün mərkəzə çevrilmək potensialına malikdir. Dəstəkləyən hökumət, strateji mövqe və artan gənc sahibkarlarla Azərbaycan qlobal startap ekosistemində əhəmiyyətli oyunçu olmağa hazırdır. 2020-ci ildən bəri Azərbaycanda fəaliyyətə başlayan startapların sayında xeyli artım müşahidə olunmuşdur, 2022-ci il isə ən yüksək göstərici ilə qeyd olunur. 2022-ci ildə 26 startap təşkilatı qurulmuşdur ki, bu 2021-ci illə müqayisədə 13% artım deməkdir.

Startap biznesin inkişafına dövlət dəstəyi müxtəlif formalarda ola bilər və konkret proqramlar və təşəbbüslər ölkədən və ya regiondan asılı olaraq dəyişə bilər. Aşağıda ümumi şəkildə verilən dövlət dəstəyi növlərinə bir neçə nümunə verilmişdir:

Maliyyələşdirmə: Startaplara dövlət dəstəyinin ən mühüm formalarından biri maliyyələşdirmədir. Hökumətlər sahibkarlara öz bizneslərini qurmağa kömək etmək üçün qrantlar, kreditlər və ya digər maliyyə stimulları verə bilər. Bəzi ölkələrdə startaplara sərmayə qoyan dövlət vençur kapitalı fondları da var. Maliyyələşdirmə mənbələrinin statistikasına nzər salsaq Azərbaycanda 61 startap təşkilatın fəaliyyətə başlaması üçün 836910 azn vəsait təsisçilərin vəsaiti hesabına, 3833525 azn isə fərqli investisiya mənbələri hesabına baş tutmuşdur.

Vergi güzəştləri: Hökumətlər investisiya və böyüməyi təşviq etmək üçün startaplara vergi güzəştləri təklif edə bilər. Bu təşviqlərə tədqiqat və inkişaf üçün vergi güzəştləri, yeni bizneslər üçün vergi tətilləri və ya startaplar üçün azaldılmış vergi dərəcələri daxil ola bilər. Elə bu deməyə əsas verir ki, 2020-ci ildən AR Prezidentinin fərmanına əsasən Startap fəaliyyətinə başlayan və startap şəhadətnaməsi alan biznes subyektləri 3 il müddətinə gəlir vergisindən və mənfəət vergisindən azad olunur (Kiçik və Orta biznes İnkişaf Agentliyi, 2020).

İnkubatorlar və Sürətləndiricilər: Hökumətlər inkubatorların və akseleratorların inkişafını yarada və ya dəstəkləyə bilər ki, bu da startaplara onların böyüməsinə və uğur qazanmasına kömək etmək üçün resurslar, təlimlər və mentorluq təmin edir. Startap sürətləndiriciləri xüsusilə mentorluq, şəbəkələşmə və maliyyəyə çıxış baxımından sahibkarlara dəyərli dəstək verə bilər (Y.Yusifzadə, R.Allahverdiyev, 2019). Ölkədə startap akseleratorlarının üzləşdiyi bir sıra çətinliklər, o cümlədən təcrübəli mentorların çatışmazlığı və məhdud maliyyə imkanları var.

Tənzimləyici Dəstək: Hökumətlər startaplar üçün dəstəkləyici tənzimləmə mühiti yarada bilər, o cümlədən rasional lisenziyalaşdırma prosesləri və yeni bizneslər üçün giriş maneələrini azaldan sadələşdirilmiş qaydalar.

Təhsil və Təlim: Hökumətlər sahibkarlara uğurlu startapları işə salmaq və idarə etmək üçün lazım olan bacarıq və bilikləri əldə etmələrinə kömək etmək üçün təhsil və təlim proqramlarına sərmayə

qoya bilər. Sahibkarlıq təhsilinə və təliminə daha çox investisiya qoyuluşu, eləcə də daha dəstəkləyici tənzimləyici mühitin inkişafı bu maneələri aradan qaldırmağa və ölkədə startapların böyüməsinə kömək edə bilər (Həsənli, Qasımova, 2018).

Azərbaycanda hökumət startapların inkişafına dəstək üçün bir sıra addımlar atıb. Məsələn, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən startaplara mentorluq, maliyyələşdirmə və resurslara çıxış yolu ilə dəstək verən Startap Ekosisteminin İnkişafı Mərkəzi yaradılıb. Hökumət həmçinin startapların böyüməsini təşviq etmək üçün bir sıra təşəbbüslərə, o cümlədən ilkin mərhələdə startaplara maliyyə və dəstək verən "Startup Azərbaycan" proqramına start verib.

Bütövlükdə, dövlət dəstəyi startapların uğuru üçün çox vacibdir və bütün dünyada hökumətlər sahibkarlar üçün dəstəkləyici mühitin yaradılmasının vacibliyini dərk edirlər. Maliyyələşdirmə, tənzimləmə dəstəyi və resurslara və mentorluğa çıxış təmin etməklə hökumətlər bu prosesdə innovasiya və iqtisadi artıma təkan verərək startapların böyüməsinə və inkişaf etməsinə kömək edə bilər. Qrantlar və ya subsidiyalar kimi dövlət dəstəyi alan startapların dəstək almayanlara nisbətən daha yüksək performans və inkişaf səviyyəsinə malik olduğunu müəyyən edilmişdir (E.H.Mikayıl, G.Cəlilova, 2020). Dövlət dəstəyi proqramlarına daha çox sərmayə qoyulması ölkədə startapların böyüməsinə kömək edə bilər.

"Startup Azerbaijan" proqramı Azərbaycanda startapların inkişafına kömək etmək məqsədi daşıyan hökumət təşəbbüsüdür. Proqram 2017-ci ildə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən həyata keçirilib və məqsəd ölkədə sahibkarlar üçün əlverişli mühitin yaradılması və innovasiyaların təşviq edilməsidir.

Proqram çərçivəsində startaplar bir sıra təşəbbüslər vasitəsilə maliyyə və dəstək ala bilərlər, o cümlədən:

Seed Funding (Toxum kapitalı): Proqram 10,000 AZN-dən 50,000 AZN-ə qədər (təxminən 6,000-29,000 ABŞ dolları) arasında dəyişən qrantlarla erkən mərhələdə olan startaplara toxum maliyyəsini təmin edir. Maliyyələşdirmə məhsulun inkişafı, marketinq və əməliyyat xərcləri daxil olmaqla bir sıra məqsədlər üçün istifadə edilə bilər.

Mentorluq və Təlim: Proqram, əsas diqqəti sahibkarlara uğurlu biznesə başlamaq və inkişaf etdirmək üçün lazım olan bacarıq və bilikləri əldə etməyə kömək etməklə, startaplara mentorluq və təlimlər təqdim edir. Buraya təcrübəli sahibkarlar və sənaye ekspertləri ilə seminarlar, seminarlar və təkbətək mentorluq sessiyaları daxildir.

Resurslara giriş: Proqram startaplara ofis sahəsi, hüquq və mühasibat xidmətləri və şəbəkə imkanları daxil olmaqla bir sıra resurslara çıxış təmin edir. Bu, startaplara əməliyyat xərclərini azaltmağa və potensial tərəfdaşlar və müştərilərlə əlaqə saxlamağa kömək edir.

"Startup Azerbaijan" proqramı fəaliyyətə başladığı gündən texnologiya, kənd təsərrüfatı və turizm də daxil olmaqla müxtəlif sektorlarda 100-dən çox startapı dəstəkləyib. Proqram Azərbaycanda iş yerlərinin yaradılmasına və iqtisadi artımın təmin edilməsinə kömək edib və hökumətin rəhbərlik etdiyi startaplara dəstək proqramları üçün model kimi beynəlxalq diqqəti cəlb edib.

Yarandığı gündən Startap Ekosisteminin İnkişafı Mərkəzi Azərbaycanda startap ekosisteminin böyüməsi və inkişafının təşviqində əsas rol oynamışdır. Mərkəz ölkəyə investisiyaların cəlb edilməsinə, iş yerlərinin açılmasına və Azərbaycanın regionda innovasiya və sahibkarlıq mərkəzi kimi mövqe tutmasına kömək edib.

Bütövlükdə, mərkəz Azərbaycanda startaplar və sahibkarlar üçün dəstəkləyici mühitin yaradılmasına hökumətin sadiqliyini nümayiş etdirən mühüm təşəbbüsdür. Mentorluq, maliyyələşdirmə və resurslara çıxış təmin etməklə, mərkəz ölkədə iqtisadi artıma təkan verə biləcək və innovasiyaları təşviq edə biləcək canlı startap ekosisteminin qurulmasına kömək edir.

2022-ci ildə nəşr olunan Qlobal Startap Ekosistem İndeksi ölkələrin startapla bağlı inkişaflarını 3

təsnifatda aparır. Bunlar kəmiyyət, keyfiyyət və biznes mühiti meyarlarıdır. Azərbaycan da həmin indeks üzrə aparılan meyarlara uyğun gəlmiş, 2021-ci illə müqayisədə 4 addım irəliləyərək 85-ci pillədə qərarlaşmış, kəmiyyət göstəricisinə görə 0.18, keyfiyyət göstərəcisinə görə 0.06, biznes qiymətlərinə görə 0.26 kimi qiymətləndirilmişdir. Bu göstəricilərdən kəmiyyət göstəricilərinə startapların sayı, kovorkinq yerlərin sayı, akselerasiya mərkəzlərinin sayı aid olunur. Keyfiyyət göstəriciləsi isə transmilli korporasiyalar, çoxmillətli təşkilatların növləri, Qlobal Startap tədbirlərinin təşkili səviyyəsi, Unicorn təşkilarlatların sayı və s.lə ölçülür. Biznes mühitinə isə internet sürəti, internet azadlığı, T&İ-lərə çəkilən xərclər, adambaşına düşən patentlərin sayı və s. meyarlar aiddir.
Sahibkarlıq mərkəzi olan Sosial İnnovasiya Mərkəzi 2025-ci ilə qədər Azərbaycanda ilk unicorn startap (çıxış dəyəri 1 milyarddan çox olan startaplar) yaratmağı, həmçinin hər il 50 texnoloji startapın yetişdirilməsinə kömək etməyi hədəfləyir. Bu, nisbətən kiçik bazar ölçüsü olan bir ölkə üçün iddialı məqsəddir.
Startap səhnəsinin povestini formalaşdırmağa kömək edən bəzi diqqətəlayiq ekosistem maraqlı tərəfləri var. Məsələn, Azərbaycan ölkənin yeni başlayan startap ekosistemini innovasiya etmək və inkişaf etdirmək məqsədi daşıyan Azərbaycan 500 ASAN Startap Proqramının təşəbbüskarıdır. Bundan əlavə, dövlət sektoru INNOLAND, inkubator, sürətləndirici və tədqiqat mərkəzi, eləcə də Yüksək Texnologiyalar Parkı (YTP) yaratmaqla öz dəstəyini göstərdi. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN) layihələrin mühüm təşəbbüskarı olub. ASAN çərçivəsində Bakıda və digər şəhərlərdə innovasiyaları artırmaq məqsədi ilə 2021-ci ildə Asiya İnkişaf Bankı ilə əməkdaşlığa başlanılıb. Digər diqqətçəkən təşəbbüs ASAN-ın ölkənin 4 universiteti ilə birgə həyata keçirdiyi Gələcək Bacarıqlar Layihəsidir. Özəl sektorun maliyyələşdirmə, şəbəkələşmə və sürətləndiricilərə ehtiyacı NEXT STEP İnnovasiya Mərkəzi və SUP VC kimi təşəbbüslərlə tamamladığını görmək də müsbət əlamətdir. Sahibkarlığın inkişafına kömək etmək, milli və beynəlxalq startap tərtibatçıları arasında şəbəkə imkanlarını artırmaq və özəl investisiyaları təşviq etmək üçün bu kimi daha çox təşəbbüslərə ehtiyac olacaq .
Regiondakı on bir ölkə bunlardır: Əfqanıstan, Azərbaycan, Çin, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistan.
Qlobal ilk 1000-liyə daxil olan regionda yer alan qalan 7 ekosistem bunlardır: Nur-Sultan, Qazaxıstan (343-cü), Tbilisi, Gürcüstan (382-ci), Bakı, Azərbaycan (443), Monqolustanın Ulan-Bator (472), Almatı, Qazaxıstan (633), Qırğızıstanın Bişkek (732) və Özbəkistanın Daşkənd (746) şəhərləridir.
Azərbaycan startap ekosistemində əhəmiyyətli yer tutan istqiamətlərdən biri olan tech.az mütəmadi olaraq innovasiya, startaplar haqqında müxtəlif araşdırmalar edir. 2023-cü ildə sonuncu edilmiş araşdırmaya əsasən 61 startap şirkətindən müxtəlif formalı sorğular keçirmiş və Azərbaycanda startap bazarının mövcud vəziyyətini təhlil etmişdir. Belə ki, məlumdur ki, ölkədə fəaliyyət göstərən startapların və "düşünən-tətbiq edən" beyinlərin daha çox mərkəzləşdiyi yer paytaxtdır. Təəssüflər olsun ki, regionlar bu çağırışlardan kənarda qalır. 61 startap təşkilatın 54-ü Bakıda, 2-si Gəncədə, 5-i isə digər rayonlardadır. Bu o deməkdir ki, ölkədə fəaliyyət göstərən startap təşkilatların 88.5%-i paytaxtda cəmləşmişdir. Həmin startapların qurucularına baxdıqda isə 86.9%-i kişi, 13.1%-i isə qadınlar təşkil edir (https://tech.az/posts/azerbaycan-startap-ekosistem-xeritesi-2022-2423).
Startaplar müasir, gənc, innovativ biznes olduqları üçün gənclərin bu biznes sahəsinə maraq göstərməsi tendensiyası daha yüksəkdir. Belə ki, startap fəaliyyəti ilə məşğul olanlar arasında 20-29 yaş aralığı üstünlük təşkil edir.
Azərbaycanda startapların uğur qazanmasına çətinlik törədən əsas səbəblər aşağıdakı kimi qeyd edilə bilər (İ.Qasımov, F.Cəbiyev, 2017):
Ailədə təşəbbüskarlığın inkişafını təşviq edən və dəstəkləyən mühitin zəif olması (və ya təşəbbüskar davranışlara mane olan yanaşmaların çoxluğu)

Təşviqedici və dəstəkləyici qanunvericiliyin kompleks formada olmaması,
Yetərli bilik, bacarıq və qabiliyyətlərə malik gənclərin az olması,
İnsanlar arasında komanda çalışması yanaşmasının zəifliyi,
Daxili bazarın kiçik olması,
Biznes ortaqlığı yanaşmasının zəif inkişafı,
İnvestisiya mühitinin ənənəvi metodlara üstünlük verməsi,
Əlavə dəyər gətirən sektorların zəif inkişafı,
Əlavə dəyər gətirən sahələrin qeyri-aktual olması,
Biznesin idarə olunmasında qeyri-professional yanaşmaya üstünlük verilməsi,
İstehsal müəssisələrində kütləvi istehsal marağının aşağı olması,
Biznesdə dərininə inkişafa olan marağın zəif olması ilə innovasiyaya olan ehtiyacın az olması,
Böyük biznesdə uzunmüddtəli strateji yanaşmalara əhəmiyyət verilməməsi,
İxrac potensiallı məhsul istehsalının inkişafını dəstəkləyən mühitin olmaması,
Startapların ən vacib stimulu sayılan və dünyanın sürətlə dəyişməsinə səbəb olan yüksək texnologiyaların sürətli inkişafı fonunda, ölkə vətəndaşlarımızın dünyanın informasiya dinamikasına kütləvi şəkildə inteqrasiyasının yetərincə olmaması,
Potensial ehtiyatların istifadəsində elmi əsası olan starteji yanaşmaların zəifliyi
Mütəxəssis idarəçiliyinə az əhəmiyyət verilməsi,
Dəbdəbə hərisliyi, maddi mülkiyyətə çox əhəmiyyət verilməsi və göstəriş xarakterli davranışlar və s.

Startaplar üçün vençur investisiya platformaları

- Barama
  - İldə iki dəfə ilkin mərhələ startaplar üçün müsabiqə elən edir
  - İnkubasiya, mentorluq və kiçik maliyyə dəstəyi verir
- Təcrübə proqram
  - İnkişaf və startap mərhələləri üçün ildə bir dəfə müsabiqə edir
  - Sürətləndirmə, mentorluq və maliyyə dəstəyi verir
- Vençur dəstəyi
  - Bütün il ərzində startap və viral sıçrayış mərhələləri üçün ərizələr qəbul edir
  - Birgə işləmək üçün yer, vençur kapitalı ilə təmin edir
- “Falcon summit” tədbiri
  - Vençur investorları və startapları bir araya gətirən tədbir
  - Viral sıçrayış və biznes mərhələlərinə böyük investisiyaların təmin edilməsi

**EU4Business**

Aİ Azərbaycanda kiçik və orta sahibkarlara (KOS) özünün təşəbbüsü ilə dəstək olur. Bu platforma vasitəsi ilə KOS-lar kredit və ya qrantın əldə edilməsi, biznes bacarıqlarının inkişaf etdirilməsini öyrənə və yeni bazarlara giriş əldə edə bilirlər.

**Gənc Sahibkarlıq Proqramı** müxtəlif tədris fəaliyyətləri və praktik seminarlar ilə 15-29 yaşında olan gənclərinsahibkarlıq bacarıqları, bilik və münasibətlərinin inkişafına diqqət ayırır. Proqram Azərbaycanda gənclərin rəhbərliyi ilə biznesin inkişafına dəstək olmağı hədəf alır.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Innoland

Dövlət Agentliyi “ASAN” və Agentliyin startap ekosisteminin yaradılmasına dəstək üçün əsası qoyulmuş Innoland innovasiya mərkəzi daxil digər xidmətlərin birgə idarəçiliyini həyata keçirən mərkəzi icra orqanıdır.

Problemin qoyuluşu və öyrənilmə səviyyəsi: Tədqiqatın nəzəri əsasını ümumən, xüsusən də biznesdə müəssisələrin idarəetmə metodlarının tətbiqi sahəsində tədqiqatlar aparan görkəmli yerli və xarici alimlərin əsərləri təşkil edir. Bu problemin inkişafına A.Abbasov, R.Atakişiyev, K.Eyyubov, S.Mustafayev, V.Loşkarev, K.Ryatov və başqa tədqiqatçıların böyük töhfəsi olmuşdur. Belə ki, bu sahədə aparılan tədqiqatlara baxmayaraq, qeyd etmək lazımdır ki, tədqiqat obyektinin inkişafının çoxşaxəli və dinamikliyi genişmiqyaslı tədqiqat işlərinin davam etdirilməsi üçün imkanlar yaradır.
Tədqiqatın məqsəd və vəzifələri: Tədqiqatın məqsədi biznes və idarəetmə metodları arasındakı əlaqəni rasionallaşdırmaq, metodologiyanın inkişafı və biznes sistemində müqayisəli idarəetmə metodlarının tədqiqinin aparılması və biznes sahəsində idarəetmə metodlarının səmərəliliyinin yüksəldilməsi mexanizmlərini müəyyənləşdirməkdir. Aparılan tədqiqatlar aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:
- Biznesin idarə edilməsinin iqtisadi mahiyyəti və müasir konsepsiyalarını qeyd etmək;
- İdarəetmə sistemində müqayisəli idarəetmənin obyektiv zəruriliyini vurğulamaq;
- Müqayisəli idarəetmənin əsas elementi kimi biznes mədəniyyəti barədə məlumat vermək;
- Müxtəlif ölkələrin biznes təcrübəsinin qarşılıqlı zənginləşdirilməsi biznesin rəqabət qabiliyyətinin ehtiyatı kimi xarakterizə etmək;

- Müasir idarəetmənin əsas modellərinin müqayisəli təhlilini aparmaq;
- Qabaqcıl xarici təcrübədən yerli müəssisələrdə istifadə imkanları: sosial-iqtisadi aspektləri qeyd etmək;
- Azərbaycanın xüsusiyyətlərini nəzərə alaraq müqayisəli idarəetmə təcrübəsinin tətbiqi imkanları və formalarını müəyyən etmək;
- Azərbaycan banklarında müqayisəli idarəetmə alətlərinin istifadəsinin fərqli xüsusiyyətləri və effektivliyi barədə məlumat vermək.

Tədqiqatın obyekti və predmeti: Tədqiqat işinin obyekti müqayisəli idarəetmə metodları, predmeti isə biznes və idarəetmə metodları arasında qarşılıqlı əlaqə prosesində yaranan iqtisadi münasibətlərdir.

Tədqiqat metodları: Məqalənin yazılması prosesində bir sıra nəzəri və iqtisadi təhlil metodlarından istifadə olunmuşdur. Burada müqayisəli idarəetmə anlayışının nəzəri aspektlərini öyrənmək üçün faktların toplanması və ümumiləşdirilməsi, eləcə də elmi abstraksiya, analiz və sintez kimi metodlardan istifadə olunmuşdur.

Tədqiqatın informasiya bazası olaraq tədqiqatın aparılması üçün istifadə olunan məlumat bazalarına jurnal və konfrans məqalələri, oxşar mövzular üzrə xüsusi və ümumi iqtisadi ədəbiyyatın əsas sahələri, o cümlədən xarici və yerli alimlərin elmi tədqiqatları daxildir.

Tədqiqat prosesində informasiya bazası kimi Azərbaycan Respublikasının qanunlarından, habelə internet resurslarından və dərsliklərdən də istifadə edilmişdir.

Təşkilatın idarəetmə sistemində mühüm yer idarəetmə obyektinin başqaları ilə müqayisəsidir. Müasir idarəetmədə müxtəlif müqayisəli üsullar mühüm rol oynayır. Bununla belə, müxtəlif metodların tətbiqinin nəzəri, metodoloji və tətbiqi aspektlərində böyük qeyri-müəyyənlik mövcuddur. İlk növbədə, “bençmarkinq”, “müqayisəli təhlil”, “analoq metod” kimi kateqoriyaların müəyyən edilməsində əhəmiyyətli terminoloji uyğunsuzluqlar var. Elmi ədəbiyyatda idarəetmədə müqayisənin prinsipləri, təsnifatları, terminologiyası kimi nəzəri əsaslarının işlənib hazırlanmasına, idarəetmə müqayisələrinin əsas funksiyalarına az diqqət yetirilir. Bu, müqayisələrdən istifadə zamanı yaranan metodoloji və tətbiqi məsələlərin həllində çətinliklərə gətirib çıxarır. Buna görə də, müqayisəli idarəetmə metodlarının nəzəri əsaslarının əlavə işlənməsi və təkmilləşdirilməsi tələb olunur.

Hazırda elmi, xüsusi ədəbiyyatda və praktikada “müqayisəli yanaşma”, “müqayisəli təhlil”, “bençmarkinq”, “analoqlar üsulu” terminlərindən geniş istifadə olunur. Eyni zamanda, bir qayda olaraq, aydın təriflər verilmir, bu terminlər arasında aydın fərq qoyulmur. Terminoloji aparatı aydınlaşdırmaq və təfərrüatlandırmaq üçün qnoseologiyada inkişaf etmiş və yaxşı qurulmuş müqayisələrin başa düşülməsi və tətbiqi üçün metodoloji əsaslara istinad etmək məqsədəuyğundur. Buna görə də “müqayisə” kateqoriyasının fəlsəfi və metodoloji məzmununa əsaslanaraq, idarəedici müqayisələrə aid terminlər arasında fərq qoyacağıq.

Ş.Qafarovun fikrincə, müqayisə “varlığın və idrakın məzmununun təsnif edildiyi, nizamlandığı və qiymətləndirildiyi təfəkkür aktıdır”, “müqayisə aktı isə cisimlərin əlaqələrini müəyyən etmək üçün onların qoşa müqayisəsindən ibarətdir” (Qafarov, 2017). A.Bebaya görə, müqayisə “ətraf aləmin obyektləri arasında mövcud olan həqiqi şəxsiyyət və fərq münasibətlərinin insan şüurunda əks olunması prosesidir” (Беба, 2018). “Fəlsəfə Ensiklopedik Lüğət”də müqayisə “obyektlərin oxşarlığı və ya fərqliliyi haqqında mühakimələrin əsasında duran idrak əməliyyatı” kimi müəyyən edilir. Müqayisənin köməyi ilə cisimlərin kəmiyyət və keyfiyyət xüsusiyyətləri aşkarlanır, varlığın və idrakın məzmunu təsnif edilir, nizamlanır və qiymətləndirilir (Mustafayev, 2019).

Beləliklə, istənilən müqayisənin, o cümlədən iqtisadi və idarəetmənin mahiyyəti müəyyən obyektlər

arasında oxşarlıq və fərqləri müəyyən etməkdir. Eyni zamanda, Q.Hegelin qeyd etdiyi kimi, müqayisə nəinki əşyaların eyniliyini və ya "çılpaq fərqini" təyin etməli, həm də kəmiyyət və keyfiyyət parametrlərini, oxşarlıq və fərqlilik xüsusiyyətlərini müəyyən etməklə onların dərin biliklərinə töhfə verməlidir (Şükürov, 2007). Müqayisənin əhəmiyyəti və dəyəri müqayisə edilən obyektin xüsusiyyətlərinin digərinin hesabına keyfiyyəti və tamlığı ilə dəqiq müəyyən edilir.

Təşkilatların idarə edilməsi sahəsində, bu obyektlərin yüksək mürəkkəbliyinə görə, hər hansı bir müqayisə, bir qayda olaraq, hər hansı bir atribut və ya əmlaka görə deyil, obyektləri xarakterizə etməyə imkan verən kompleksinə görə aparılmalıdır. Bu o deməkdir ki, müqayisə aktında bir və ya bir neçə zəif əlaqəli olan müqayisəli əlaqələr yox, tədqiq olunan obyektlərin ən mühüm xassələrini müqayisə etməyə imkan verən münasibətlər sistemi olmalıdır. Müqayisə əsasını elə götürmək lazımdır ki, o, müqayisəli münasibətlər sisteminin formalaşması üçün zəruri olan bütün xassələri əhatə etsin (Atakişiyev, 2018).

İdarəetmə müqayisələrinin nəzəri əsaslarının formalaşması nöqteyi-nəzərindən olduqca əhəmiyyətli olan müxtəlif müqayisələrin iki əsas üzrə təsnifləşdirilməsidir. Birincisi, müqayisə kəmiyyət və keyfiyyət ola bilər, yəni kəmiyyət və ya keyfiyyət xüsusiyyətlərinin müqayisəsi nəzərdə tutulur. İkincisi, müqayisənin bir və ya bir neçə əsas üzrə aparılmasından asılı olaraq monorelativ və polirelyativ müqayisələr fərqləndirilir. Analogiya müəyyən bir müqayisə növüdür. Hər bir müqayisə növü idrak üsulları arasında özünəməxsus yer tutur.

Yuxarıda qeyd olunanlar idarəetmə müqayisələri ilə bağlı qeyd olunan anlayışların əlaqəsini sadələşdirməyə imkan verir. "Müqayisəli yanaşma" kateqoriyası digər əlaqəli terminlərə münasibətdə ümumi xarakter daşıyır. Belə bir nəticə ondan irəli gəlir ki, yanaşma ənənəvi olaraq fəaliyyətin əsasını təşkil edən ilkin prinsip, əsas mövqe və ya inam, habelə obyektin tədqiqi istiqaməti kimi müəyyən edilir və tədqiq olunan obyektin xarakterik təmsil üsuluna gətirib çıxarır. Buna görə də, müqayisəli yanaşmanın təşkilatın öyrənilməsi və təhlilində onu oxşar tipli digər obyektlərlə müqayisədə xarakterizə etməyə imkan verən istiqamət olduğunu iddia etmək olar. Müqayisəli yanaşma əvvəlcə idarəetmə obyektinin digərləri ilə müqayisədə xüsusiyyətlərinə diqqət yetirməyi, müxtəlif nəticələrin və fəaliyyət xüsusiyyətlərinin digər obyektlərlə daimi əlaqəsini, bu məlumatların məcburi nəzərə alınması ilə qərar qəbul etməyi əhatə edir (Atakişiyev, 2018).

Müqayisəli yanaşma digər tanınmış idarəetmə yanaşmaları ilə ziddiyyət təşkil etmir: sistemli, proses, funksional, situasiya və s. Eyni zamanda, daxili və xarici biznes mühitinin sürətli dəyişməsi, müxtəlif innovasiyaların daim meydana çıxması baş verir (Хоригнер, Фостер, 2006).

İdarəetmədə müqayisəli yanaşma, bir obyektə idarəetmə təsirlərinin həyata keçirilməsi, onun inkişaf trayektoriyasını bəzi mücərrəd ideallara və ya rəqabət qabiliyyətinə, səmərəliliyinə dair fikirlərə görə deyil, xarici mühitin real dinamikasına uyğun olaraq tənzimləmək deməkdir. Başqa sözlə, idarəetmə qərarlarını hazırlayarkən, rəqiblərin və ya parametrlərinə yaxın olan oxşar təsərrüfat subyektlərinin fəaliyyətini izləmək və nəzərə almaq məsləhətdir. Buna görə də, qərarların qəbulu üçün informasiya dəstəyi sənayenin dinamikası, birbaşa rəqiblərin və analoq müəssisələrin xüsusiyyətləri və fəaliyyəti ilə bağlı məlumatları əhatə etməlidir (Mustafayev, 2019).

**Cədvəl 1. Baza və yaxşılaşdırılmış innovasiyaların işlənilməsi proseslərində uyğunluq və fərqlər**

| Mərhələ | İnnovasiya | |
|---|---|---|
| | Baza | Yaxşılaşdırılmış |
| Tədqiqat | Yeni elmi-texniki biliklərin və imkankanların aşkara çıxarılması (fundamental və tətbiqi tədqiqatlar) | Yeni bazar tələbinin aşkara çıxarılması |
| Konstruktiv | Sənaye priototipinin yaradılması (ETİ) | Sənaye nümunəsinin yaradılması |
| Konseptual | İstehsal məhsulları bazarında innovasiyanın kommersiyalaşdırılması (sənaye marketinqi) | İstehlakbazarında innovasiyanın kommersiyalaşdırılması (istehlak marketinqi) |
| Distributiv | Yeni bazarın formalaşması (təklif sferası) | Bazarda yeni məhsulun formalaşması (tələb sferası) |

**Mənbə:** https: //dergipark.org.tr/tr/pub/aujfe (2022)

Müqayisəli yanaşma, digər əlaqəli terminlərə nisbətən daha geniş olduğundan qeyd etmək olar ki, onun tətbiqi müxtəlif növ müqayisələrə əsaslanan bir sıra metodların istifadəsinə əsaslanır. Müqayisəli yanaşma çərçivəsində istifadə edilən müqayisəli metodların təsnifatının əsasını müqayisələrin fəlsəfi-metodoloji ədəbiyyatda qəbul edilmiş növlərə bölünməsi təşkil edir. Bu, hazırda sərhədləri və əlaqəsi dəqiq müəyyən edilməmiş metodlar qrupunu məhdudlaşdırmağa və nizamlamağa imkan verir. Rəqabətin mürəkkəbliyi və iqtisadiyyatın qloballaşması ilə müqayisəli yanaşmanın əhəmiyyəti artır. Müasir iqtisadiyyat yeni idarəetmə keyfiyyətini tələb edir və müqayisəli yanaşma xarici mühitin artan turbulentliyini daha dolğun nəzərə almağa imkan verir, ortaya çıxan problemlərin həllinin adekvat formalarını, üsullarını və vasitələrini təmin edir, informasiyanın keyfiyyətini əhəmiyyətli dərəcədə artırır.

Ardıcıl təriflər əsasında iki "bençmarkinq" və "müqayisəli təhlil" anlayışını ayırmaq istər nəzəri, istərsə də praktiki baxımdan xüsusilə vacibdir. Müqayisəli (və ya fabriklərarası) analiz kateqoriyası 1960-1980-ci illərdə iqtisadiyyat elmində geniş yayılmışdır. "Bençmarkinq" termini xarici menecmentdən götürülmüş və ölkəmizdə müəyyən inkişaf etmişdir. Bunlar eyni şeydən uzaq olsa da, bir çox müəllif müqayisəyə əsaslanan yeganə idarəetmə metodu olduğuna kifayət qədər əsaslı şəkildə inanmır, müqayisəli təhlil və müqayisəli təhlil arasında fərq qoymur. Məsələn, V.Loşkarev iddia edir ki, bençmarkinq "geniş mənada iqtisadi səmərəliliyin müqayisəsi" deməkdir (Лошкарев, 2011). S.Mustafayev eyni zamanda bençmarkinqi işin səmərəliliyinin müqayisəli təhlili kimi başa düşür (Mustafayev, 2019).

## Müqayisəli yanaşmada istifadə olunan metodların təsnifatının təhlili

K.Ryatov hesab edir ki, bençmarkinq təşkilatın ən mühüm fəaliyyət göstəricilərinin rəqiblərin göstəriciləri ilə, eləcə də sənaye göstəricilərinin müqayisəsi nəticələrinə əsaslanır (Рятов, 2021). Bununla belə, müqayisənin sadə identifikasiyası və müqayisəsi düzgün deyil. Çünki, demək olar ki, hər hansı bir müəssisə, ən azı çox məhdud miqyasda, öz fəaliyyətini və nəticələrini digər təşkilatlarla müəyyən müqayisələr aparır (Лошкарев, 2011). Lakin bu, hələ ki bençmarkinqdən istifadə demək deyil. "Bençmarkinq" anlayışının genezisi xarici elm və idarəetmə təcrübəsi ilə bağlı olduğundan onun mahiyyətini, məqsədlərini və xarakterik xüsusiyyətlərini müəyyən etmək üçün Qərbin ilkin mənbələrinə müraciət etmək ən məqsədəuyğundur. Ən mötəbər iqtisadi və idarəetmə lüğətlərində, aparıcı xarici tədqiqatçıların əsərlərində, normativ-metodiki materiallarda müqayisənin tərifinə yanaşmaların təhlili bu kateqoriyanı mümkün qədər aydın şəkildə xarakterizə etməyə imkan verir.

**Şəkil 1: Müqayisəli yanaşmada istifadə olunan metodların təsnifatı**




**Mənbə:** "Экономика, организация и планирование предприятий", 2008 - materialları əsasında müəllif tərəfindən hazırlanmışdır**.**

Klassik iqtisadiyyat və menecment lüğətləri, xüsusən də Oksford Biznes Lüğəti, müqayisəni təşkilatı təkmilləşdirmək üçün bu təcrübədən istifadə etmək məqsədi ilə ən yaxşı təcrübələrin (sənaye daxilində və xaricində) müəyyən edilməsi prosesi kimi müəyyən edir. Oksford İnsan Resurslarının İdarə Olunması Lüğəti müqayisəliliyi ən yaxşı təcrübələri müəyyən etmək, onların hamısını və ya bir hissəsini təşkilata ötürmək üçün təşkilatların müqayisə üsulu kimi müəyyən edir. İnsan Resursları Lüğəti göstərir ki, müqayisə, yüksək performans səviyyəsinə nail olmağa nəyin imkan verdiyini müəyyən etmək üçün təşkilatın məhsullarını, xidmətlərini və təcrübələrini rəqiblərinin, yaxud sənaye liderlərinin məhsulları ilə müqayisə edən sistematik prosesdir (Atakişiyev, 2018).

Beləliklə, iqtisadiyyat və menecment sahəsində ən nüfuzlu Oksford lüğətləri tərəfindən verilən müqayisəli təriflərin açarı "təcrübə" anlayışıdır. Müəyyən bir iş prosesinin həyata keçirilməsində tipik, müntəzəm fəaliyyət kursu (metod) kimi başa düşülür. Bençmarkinq tədqiqat obyekti ilə müqayisədə digər müəssisələrin iş üsullarını xarakterizə edir. Biznes proseslərinin təşkili və idarə edilməsinin xüsusiyyətlərini aşkar edir (Лошкарев, 2011). Onun məqsədi biznesin aparılmasının ən yaxşı yanaşma və üsullarını müəyyən etmək, onları "öz" müəssisəsinin xüsusiyyətlərinə uyğunlaşdırmaqdan ibarətdir. Qeyd etmək lazımdır ki, bir çox Qərb müəllifləri, xüsusən də B.Qallotta sənayenin hüdudlarından kənarda, digər fəaliyyət sahələrindən olan müəssisələrlə müqayisə aparmağı tövsiyə edir (Gallotta, 2016).

Aparıcı xarici tədqiqatçılar ümumiyyətlə müqayisənin bu anlayışı ilə razılaşırlar. R.Radhaşnan və S.Balasubramaniana görə, müqayisəli qiymətləndirmə bütün dünyada təşkilatların ən yaxşı təcrübələrinin müəyyən edilməsi, başa düşülməsi və uyğunlaşdırılması prosesidir (Radhashnan, Balasubramanian, 2008). Demək olar ki, eyni fikri J.Rudden də bölüşür, onun fikrincə, müqayisə performansı yaxşılaşdırmaq üçün ən yaxşı təcrübələri müəyyən etmək, başa düşmək və uyğunlaşdırmaq üçün bir vasitə kimi nəzərdən keçirilməlidir (Rudden, 2007). O, hesab edir ki, müqayisəli yanaşma şirkətlərə mövcud mükəmməllik səviyyələrini anlamağa və gələcək üçün hədəflər qoymağa imkan verən bir vasitədir (Rudden, 2007). J.Rudden 5000-ə yaxın mənbənin məzmun təhlilinə əsaslanaraq müəyyən etmişdir ki, bençmarkinq fəaliyyətdəki çatışmazlıqları aşkar etmək və müəssisənin fəaliyyətini

yaxşılaşdırmaq üçün idarəetmə üsullarını axtarır (Rudden, 2007). Başqa sözlə, müqayisə ən yaxşı və qabaqcıl təcrübələri müəyyən etmək, onları öz səviyyəsi ilə müqayisə etmək və daha yüksək səviyyəyə çatmaq üçün ən yaxşı təcrübələri təşkilatın xüsusiyyətlərinə uyğunlaşdırmaq üçün nəzərdə tutulmuş qərarların əsaslandırılması üsulu kimi başa düşülür. Bençmarkinqin əsas kateqoriyalarından biri "boşluq", yəni müqayisə zamanı aşkar edilmiş fəaliyyətin təşkilində çatışmazlıq, aparıcı müəssisələrin səviyyəsinə (sinifində ən yaxşı) çatmaq üçün bağlanmalı olan bir növ "boşluq"dur. Müqayisə bu çatışmazlıqların diaqnostikasına və qabaqcıl təcrübələrdən yaradıcı istifadə etməklə onların aradan qaldırılmasına diqqət yetirir.

Buna görə də, müqayisənin əsasını müəssisənin - tədqiqat obyektinin biznes proseslərinin aparıcı təşkilatlarla müqayisəsi təşkil edir. Eyni zamanda, müəssisələrin fəaliyyət miqyası və sənaye mənsubiyyəti baxımından müqayisəliliyi heç də zəruri deyil. Əsas odur ki, oxşar biznes prosesləri baş verir. İstər biznes sektoru, istərsə də qeyri-kommersiya strukturları, habelə dövlət orqanları üçün hazırlanmış bir sıra xarici normativ-metodiki materiallar müqayisənin mahiyyətinin müəyyənləşdirilməsinə eyni yanaşmadan çıxış edir.

Mütərəqqi xarici təcrübə göstərir ki, keyfiyyət, qeyd-şərtsiz, rəqabət qabiliyyətinin ən mühüm komponentidir. Eyni zamanda, keyfiyyətlə yanaşı, məhsulların satışının mümkünlüyü, bir qayda olaraq, əhəmiyyətli sayda parametr və şərtlərlə müəyyən edilir. Təkcə son məhsula deyil, həm də müəssisəyə, sənayeyə və hətta dövlətə də aiddir. İdarəetmə İnkişafı İnstitutuna görə (Institute of Management Development) 1996-cı ildən indiyədək dünya ölkələrinin qlobal tədqiqata əsaslanaraq qlobal rəqabətqabiliyyətlilik reytinqi və iqtisadi rəqabətqabiliyyətlilik baxımından dünya ölkələrinin onu müşayiət edən reytinqi ilə bağlı məlumatları öyrənmək imkanı təqdim edilmişdir. Qiymətləndirmə dövlətin iqtisadi vəziyyətinin mühüm aspektlərinin dörd əsas göstəricisi üzrə 333 meyar əsasında aparılır (Рятов, 2021).

**Müqayisəli idarəetmənin əsas elementi kimi biznes mədəniyyətinin təhlili**

Ölkəmizin ortaq dəyərlərini müəyyən etmək və sistemləşdirməkdən, onların mahiyyətini aydınlaşdırmaqdan, Azərbaycan Respublikasının biznes mədəniyyətinin növlərini və xüsusiyyətlərini sistemləşdirməkdən, firmalarda biznes mədəniyyətinin formalaşdırılması təcrübəsini ümumiləşdirməkdən ibarət ölkəmizin biznes mədəniyyətinin öyrənilməsi və şirkətin həyat dövrünün mərhələlərini nəzərə almaqla mədəniyyət mərkəzli yanaşma çərçivəsində şirkət idarəçiliyini təkmilləşdirmək üçün tövsiyələrin hazırlanması - bu günün aktual vəzifələri arasındadır. İqtisadiyyatımızda islahatların otuz illik təcrübəsi göstərdi ki, onun inkişafı üçün makro səviyyədə nisbətən əlverişli xarici şərait yaratmaq kifayət deyil (Atakişiyev, 2018). İdarəetmə nəzəriyyəsini inkişaf etdirmək üçün mikro səviyyədə də ətraflı iş tələb olunur. Onun əsasında praktiki tövsiyələr hazırlamaq, aparıcı firmalarla təcrübə mübadiləsi aparmaq, konkret şirkətlərin səhvlərini və yanlış hesablamalarını təhlil etmək durur. İlk növbədə, biznes mədəniyyətinin mahiyyətini təhlil etmək və Qərb idarəetmə üsullarını ölkəmizin reallıqlarına düzgün uyğunlaşdırmaq lazımdır.

Biznes mədəniyyətinin vahid tipologiyası sistematik məlumat mənbəyi və onun həyat dövrünün mərhələsini nəzərə alaraq şirkət üçün əsaslı tövsiyələrin hazırlanmasıdır. J.Jeston və J.Nelis işi göstərir ki, tədqiqatçılar şirkətin həyat tsiklində inkişafının başlanğıc nöqtəsini müxtəlif üsullarla müəyyən edirlər (Jeston, Nelis, 2006). A.Gömleksiz, daha ağlabatan iqtisadi yanaşma tətbiq edir və hesab edir ki, təsisçilərin biznes ideyası olduğu andan etibarən yeni bir şirkət "başlayır" (Gömleksiz, 2012). Bu seçim şirkətə təkcə müəssisələri deyil, həm də hüquqi şəxs qeydiyyatdan keçməmişdən əvvəl gələcək biznes

ideyasını təklif edən və inkişaf etdirən onların sahiblərini - iş adamlarını əhatə etməsi ilə izah olunur. Qeyd edək ki, əgər şirkətin həyat dövrünün inkişafının başlanğıc nöqtəsini düzgün müəyyənləşdirsək, o zaman tip dəyişikliyinin ardıcıllığı ilə bağlı bütün müəlliflərin fikirləri üst-üstə düşür.

Beləliklə, peşəkarlar mədəniyyəti və adhokrasiya ilə xarakterizə olunan sıfır "prenatal mərhələ" ilə başlayır. Sonra birinci mərhələ, lider mədəniyyəti və avtokratiya ilə "uşaqlıq" mərhələsi gəlir. Bunun arxasında ikinci - bürokratik tip mədəniyyəti və gücü ilə "gənclik" mərhələsi dayanır. Nəhayət, üçüncü mərhələ (firmanın həyat dövrünün inkişafının təbii variantının universal mərhələlər toplusunun sonuncu mərhələsi) sahibkarlıq mədəniyyəti və meritokratiya ilə "yetkinlik" mərhələsidir (Gömleksiz, 2012).

İdarəetmə metodunun əsas məqsədi, nəticələrin əldə edilməsi və strukturun daxili proseslərinin tələblərə cavab verə biləcəyi effektiv sistem yaratmaqdır. İdarəetmə metodlarının müxtəlif variantlarının müqayisəsi zamanı, ən yaxşı variant məqsədlərin etibarlı şəkildə həyata keçirilməsidir, amma bunu sadə şablonlarla həll etmək olmaz. Bu səbəbdən, idarəetmə metodunun informasiya emalının effektivliyi, çevikliyi və xarici mühitə uyğunluğu kimi bütün göstəricilərə diqqət yetirilməlidir. Problemlər yarandıqda, işçilərin sayını tənzimləyərək iqtisadi məhsuldarlıq göstəricisini maksimuma çatdırmaq mümkündür. İdarəetmə aparatının işçilərinin sayı, qarşıya qoyulan məqsədlərin həllini tam təmin etmək üçün əsasən önəmli olan faktordur.

Beləliklə, idarəetmə metodlarının yaradılmasının bütün prosesi aşağıdakılardan ibarətdir:

a) məqsədlərin formalaşdırılması, vəzifələrin müəyyən edilməsi, bölmələrin tərkibini və yerləşdiyi yerləri göstərmək, onları resurslarla təmin etmək;

b) bu təşkilati idarəetmə metodunda müşahidə olunacaq qayda və normaları hazırlamaq (Sommerrock, 2010).

İdarəetmə metodunun strukturunun qurulmasının bütün prosesi aşağıdakı mərhələlərdən ibarətdir:

1. Mərhələ: Əsas struktur diaqramının yaradılması böyük əhəmiyyət kəsb edir, çünki bu, müəssisənin əsas xüsusiyyətlərini, o cümlədən daha ətraflı dizaynın aparılacağı istiqamətləri, həm təşkilati strukturu, həm də sistemin digər vacib komponentlərini (iş qabiliyyətini) müəyyənləşdirir.

2. Mərhələ: Əsas bölmələrin tərkibinin və onlar arasındakı əlaqənin açıqlanması, təkcə strukturun xətti-funksional və proqram-məqsəd elementləri üzrə deyil, həm də idarəetmə aparatının müstəqil bölmələri üzrə idarəetmə qərarlarının həyata keçirilməsindən və onlar arasında konkret vəzifələrin bölüşdürülməsindən ibarətdir.

3. Mərhələ: idarəetmə aparatının kəmiyyət parametrlərinin və idarəetmə fəaliyyətinin əməliyyatlarının yaradılmasını təmin edən idarəetmə strukturunun tənzimlənməsidir. Bu mərhələyə daxildir:

- bölmələrin (vəzifələrin, qrupların və büroların) daxili komponentlərinin tərkibinin işlənməsi;
- vahidlərin sayının tənzimlənməsi;
- icraçılar arasında tapşırıqların verilməsi;
- onların həyata keçirilməsi üçün məsuliyyətin müəyyən edilməsi;
- kiçik biznesin idarə edilməsi üçün effektiv idarəetmə metodunun layihələndirilməsi zamanı idarəetmə xərclərinin hesablamaları və idarəetmə aparatının effektivliyi meyarları (Sommerrock, 2010).

Müxtəlif idarəetmə səviyyələri arasında səmərəli qarşılıqlı əlaqəni təmin etmək üçün orqaniqramlar adlanan xüsusi sənədlər tərtib edilir. Orqanqramma idarəetmə metodlarının həyata keçirilməsi prosesinin, onlara daxil olan işlərin və mərhələlərin qrafik şərhidir. İdarələr, onların struktur orqanları və ayrı-ayrı işçilər arasında təşkilati qərarların qəbulu prosedurlarının bölünməsini təsvir edir. Orqanqramın qurulması texnoloji marşrutların və məlumat axınlarının təkmilləşdirilməsi prosesini idarəetmə

sisteminin struktur komponentləri arasında əlaqəni tənzimləməklə əlaqələndirməyə imkan verir. Onlar idarəetmə prosesinin təşkilini səmərəli idarəetmə qərarlarının işlənib hazırlanması və qəbulu üçün səlahiyyət və vəzifələrin bölgüsü formasında birləşdirir. Yerli kiçik və orta sahibkarlıq subyektləri üçün ən məqbul və sadə olanı tək mülkiyyətdə olan müəssisənin strukturudur. Belə bir müəssisə adətən sahibkarlıq fəaliyyətinin bütün risklərini öz məsuliyyəti altına alan mülkiyyətçi tərəfindən idarə olunur. Müəssisənin direktoru adətən mühasibat uçotu, satış, təchizat və reklam işləri ilə özü məşğul olur. Müəssisənin uğuru onun qətiyyətindən, yaradıcılığından və səmərəliliyindən, şəxsi bacarıq və həvəsdən asılıdır. Ancaq bugünkü bazar şəraitində tək həvəsin kifayət etmədiyi aydındır.

**Nəticə və Təkliflər**

Müqayisə bütövlükdə müəssisələrin müqayisəsi kimi deyil, digər müəssisələrin ən yaxşı təcrübələrini, iş üsullarını və biznes proseslərini müəyyən etməyə və ehtiyaclarınıza uyğunlaşdırmağa yönəlmiş müəyyən müqayisə növü, qərarların əsaslandırılması üsulu kimi başa düşülməlidir. Müqayisə obyektləri biznes prosesləri və fəaliyyət üsullarıdır. Müqayisə nəticələrinə əsasən qəbul edilən qərarlar xüsusi olaraq borc götürülmüş və uyğunlaşdırılmış daha təkmil biznes proseslərinin və müəssisənin işinin təşkili üçün yanaşmaların istifadəsinə aiddir. Təklif olunan təfsir etaloninq sahəsində aparıcı ekspertlərin rəyinə uyğundur.

Beləliklə, Ç.Horigner və J.Foster müqayisəni təşkilatın real effektivliyini artırmaq üçün ən keyfiyyətli məhsulların, xidmətlərin, dizaynların, avadanlıqların, proseslərin və təcrübələrin müəyyən edilməsi, başa düşülməsi və inkişaf etdirilməsinin sistematik yolu kimi başa düşürlər. Buna görə də, müqayisəli yanaşma ilə müqayisəni ümumiləşdirmək düzgün deyil. Müqayisəli yanaşma, ümumi elmi idrak metodu kimi müqayisəyə xas olan metodoloji texnikanın bütün spektrinə əsaslanır. Buna görə də, bu, vasitələr dəstindən yalnız müəyyən texnikaları götürən xüsusi metoddan - müqayisəli metoddan daha geniş olacaqdır.

Bundan əlavə, müəssisələrdə klassik versiyada müqayisənin aktuallığı və tətbiqi sual altındadır. Yerli biznes təcrübəsində müqayisənin istifadəsinə dair bir sıra əhəmiyyətli məhdudiyyətlər var:

1) digər müəssisələrin fəaliyyətinin təşkili və iş üsulları haqqında məlumatın olmaması və ya az olması, onun əldə edilməsi üçün həddindən artıq yüksək xərclər, rəqabətli kəşfiyyatın və müvafiq məlumatların əldə edilməsi üçün digər vasitələrin kifayət qədər hüquqi tənzimlənməməsi;

2) əsas müqayisəli fərziyyələrdən birinin yerinə yetirilməməsi, yəni ən yaxşı iş metodlarının, bir qayda olaraq, gəlirlilik, kapitallaşma, bazar payı baxımından sənaye liderləri olan müəssisələr tərəfindən istifadə edilməsidir. Bu fərziyyə aşağı səviyyəli rəqabət üstünlüklərinin, xüsusən də resurslara əlverişli çıxışın, eləcə də rəqabəti boğmağın qeyri-iqtisadi üsullarının Qərb praktikasında zəif paylanması ilə bağlıdır və bununla əsaslandırılır;

3) müqayisə üzrə layihənin həyata keçirilməsi və onun əsasında fəaliyyətin təkmilləşdirilməsi üçün əhəmiyyətli maliyyə və təşkilati resurslardan istifadə zərurəti;

4) müqayisə obyekti olan müəssisənin prinsipcə olmayan (hələ də tez-tez praktikada rast gəlinən) biznes prosesi modelinə malik olduğu hallarda, iş proseslərinin müqayisəsi ilə əlaqəli üsul kimi müqayisənin tətbiqinin mürəkkəbliyi haqqında məlumat yoxdur.

Aparılan təhlil göstərdi ki, qnoseologiya və məntiqin əsas müddəalarından istifadə əsasında idarəetmə müqayisələrinin terminoloji aparatını səmərələşdirmək və istifadə olunan anlayışları fərqləndirmək mümkündür. Müqayisəli yanaşma bir neçə müqayisəli metodu özündə birləşdirən daha geniş, ümumi kateqoriyadır: müqayisəli təhlil, bençmarkinq, analoq metod, rəqabətli kəşfiyyat və s. Bu üsullar da öz

növbəsində iki əsasa görə təsnif edilir: kəmiyyət və keyfiyyət müqayisələri, həmçinin monorelativ və polirelativ.

**İstifadə Edilmiş Ədəbiyyat Siyahısı**

Abbasov A.B. (2011) "Biznesin təşkili və idarə edilməsi". Bakı, "İqtisad Universiteti", 463 s.

Atakişiyev R. (2018) "Birgə biznesin təşkili və maliyyələşməsi yolları". Bakı, "Nurlar", 48 s.

Eyyubov K.Ş. (2017). "Biznesin təhlükəsizliyi". Bakı, "Bakı Biznes Universiteti", 223 s.

Faccia A., Mosteanu N., Bhatia S., Cavaliere L., (2020), "Digital Technologies'Implementation within Financial and Banking System during Socio DistancingRestrictions". International Journal of Advanced Research in Engineering and Technology 11 (6), p. 307

Gallotta B. (2016). "A conceptual framework for the implementation of sustainability business processes" // Master of Research (MRes) Dissertation, University of Derby, Derby, UK, p.59-67.

Jeston J., Nelis, J. (2006). "Business Process Management Practical Guidelines to Successful Implementations" // Oxford: "Elsevier", p.86-93.

Radhashnan R., Balasubramanian S. (2008). "Business Process Reengineering". PHI Learning Pvt. Ltd., Jun 16, 2008 - Technology & Engineering, p.288

Tamerlan Rüstəmov, Xəyaləddin Tağıyev, (2021), "Rəqəmsal ödənişlər və elektron bankçılıq xidmətləri" Dərslik-  289 s.

Арай Ю.Н. (2015). "Бизнес-модели в социальном предпринимательстве: типология и особенности формирования: Дис. ... к.э.н.: 08.00.05". Санкт-Петербург, 218 с.

Бабенко М. (2020),  Платим онлайн. "Выбираем лучший интернет-банкинг для физлиц". Iнтернет-журнал Focus. p.376

Беба А. (2018). "Прибыльный учебный центр: инструкция к применению". Москва, "Омега-Л", 106 с.

Лошкарев В.Г. (2011). "Организация бизнеса с нуля. Советы практика". Москва, "Питер", 192 с.

Маркидес К. (2010). "Новая модель бизнеса: Стратегии безболезненных инноваций". М.: Альпина Паблишер: Юрайт, 304 с.

# Azərbaycanın Əmək Bazarında Prioritet Peşələrin Müəyyənləşdirilməsi (İş Elanları Saytları Əsasında)

**i.f.d. Elnur Ələkbərov, Əli Tağızadə**

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya**

elnur.alakbarov@sosial.gov.az, ali.taghizade@sosial.gov.az

## Xülasə

Təqdim edilən məqalənin məqsədi iş elanları veb saytlarından toplanmış məlumatları təhlil etməklə Azərbaycanın əmək bazarında prioritet peşələrin müəyyənləşdirilməsidir. Bunun üçün məqalədə 2020-ci ilin may ayından 2022-ci ilin fevral ayınadək olan dövrü əhatə edən vakansiya məlumatları müxtəlif iş elanları saytlarından toplanmış və təhlil edilmişdir. Toplanmış 25 min iş elanınından, 21 min iş elanı kodlaşdırılmış və təhlilə hazırlanmışdır. Məlumatlar arasından təkrar vakansiyalar təmizləndikdən sonra 18600-dən çox unikal məlumatdan ibarət baza ilə təhlil davam etdirilmişdir. Daha sonra hər bir vakansiya üzrə tələb olunan peşə Məşğulluğun Beynəlxalq Standart Təsnifatına uyğun olaraq kodlaşdırılmışdır. Nəticədə, Məşğulluq Təsnifatının ibtidai qrup kodları (4 rəqəmli kodlar) üzrə kodlaşdırılmış vakansiya məlumatlarından çoxluq təşkil edənlər prioritet peşələr olaraq müəyyən edilmişdir. Təhlil nəticəsində məşğulluq təsnifatının ibtidai qrupları üzrə 2411 - mühasiblər, 3322 - kommersiya satışları üzrə agentlər, 2431 - reklam və marketinq üzrə peşəkar mütəxəssislər və s. işəgötürənlər tərəfindən daha çox tələb görmüş peşə sahələri olmuşdur.

**Açar sözlər:** əmək bazarı, vakansiyalar, prioritet peşələr, məşğulluq təsnifatı

## Abstract

The purpose of the presented article is to identify the priority occupations in the labor market of Azerbaijan by analyzing the data collected from job advertisement websites. For this, the article collected and analyzed the vacancy data covering the period from May 2020 to February 2022 from various job advertisement websites. Out of 25,000 collected job advertisement, 21,000 job advertisements were coded and prepared for analysis. After removing duplicates from the data, the analysis was continued with a database of more than 18,600 unique data. Then the occupation required for each vacancy was coded according to the International Standard Classification of Occupations. As a result, the majority of the vacancy data coded according to the unit group codes (4-digit codes) of the Employment Classification were identified as priority occupations. As a result of the analysis, 2411- accountants, 3322 - commercial sales representatives, 2431 - advertising and marketing professionals in the unit groups of occupational classification were the professions that were most in demand by employers.

**Keywords:** labor market, vacancies, priority occupations, occupational classification

## Giriş

Günümüzdə istehsalın strukturu və texnologiyalardakı dəyişmələr nəticəsində qeyri-müəyyənliyin gedərək artdığı son dərəcə dinamik iqtisadi proses və əmək bazarı strukturu müzakirə mövzusudur. Xüsusilə bilik və informasiya əldəetmə texnologiyalarında mövcud olan inkişaf, başqa sözlə rəqəmsal transformasiya nəticəsində texnologiyalardan istifadənin əmək bazarında hər keçən gün daha qiymətli hal aldığı danılmaz bir faktdır. Bu vəziyyət, eyni zamanda məhsul və xidmət istehsalında bilik və bacarıq səviyyəsi yüksək işçi qüvvəsinə tələbi yüksək vəziyyətə gətirib çıxarmışdır.

Hazırda, qlobal əmək bazarlarında bir tərəfdən davamlı yüksək işsizlik, keyfiyyət və bacarıq uyğunsuzluğu ilə mövcud keyfiyyətlərin köhnəlməsi problemləri yaşanmaqdaykən, digər tərəfdən

rəqəmsallaşmayla bağlı tələbin artan keyfiyyət və bacarıq ehtiyacları nəticəsində iqtisadi inkişaf və rəqabətqabiliyyətliliyin müəyyənedici amili olan insan kapitalının əhəmiyyəti getdikcə artmaqdadır. Dünyada gedərək sürətlənən rəqəmsallaşma və texnoloji inkişaf əmək bazarında yeni peşə və ixtisasların yaranmasına səbəb olur ki, bu da öz növbəsində yeni ixtisaslı kadrların hazırlanmasını şərtləndirir.

İnkişaf etməkdə olan ölkə kimi Azərbaycan da qlobal əmək bazarında mövcud olan tendensiyalardan geri qalmamalı, əmək bazarının mövcud və gələcək perspektivlərini nəzərə almaqla yüksək ixtisaslı kadrların hazırlığını həyata keçirməlidir. Bu baxımdan ölkədə iqtisadi fəaliyyət sahələri üzrə prioritet peşələrin müəyyən edilməsi aktuallıq kəsb edir.

Buna görə də, bu məqalənin başlıca məqsədi beynəlxalq təcrübəni nəzərə alaraq ölkədə fəaliyyət göstərən iş elanları internet portallarından əldə edilən məlumatların təhlili əsasında Azərbaycanın əmək bazarında ən çox tələb olunan peşələri müəyyənləşdirməkdən ibarətdir.

**Ədəbiyyat xülasəsi**

İnternet saytları ictimaiətlə ünsiyyətdə ən geniş yayılmış informasiya vasitələrindən biridir. Bu vasitələr əmək bazarının təhlili üzrə xüsusi biliyi olmayan insan üçün istifadəyə rahat formada əmək bazarının vəziyyəti haqqında məlumat verir (Carnevale, Jayasundera and Repnikov, 2014). Texnologiyalar və iqtisadi şərtlər sürətlə dəyişdikcə əmək bazarları haqqında real vaxt rejimində məlumatlar daha əhəmiyyətli olur. Bu baxımdan tədqiqatlar onlayn portalların işçi qüvvəsi sorğuları kimi ənənəvi məlumatları tamamlaya bilən xüsusiyyətlərə sahib olduğunu göstərir. İş elanları portallarının məlumatlarının qəzet və digər ənənəvi məşğulluq resursları ilə müqayisədə geniş iş elanları seçimi və uyğun vakansiyalar tapmaq üçün mürəkkəb üsullar təqdim edir (Kureková, Beblavý and Thum-Thysen, 2015; Mang, 2012).

Bütövlükdə, onlayn əmək bazarları iş uyğunluğunun səmərəliliyini, işçilərin iş məmnunluğunu və işçilərin məhsuldarlığını artırmaq potensialına malikdir. Onlayn əmək bazarı məlumatlarının üstünlükləri olduğu kimi çatışmayan cəhətləri də vardır. Aşağıdakı cədvəldə onlayn əmək bazarı məlumatlarından istifadənin üstün və çatışmayan cəhətləri ifadə edilir:

**Cədvəl 1. Onlayn əmək bazarı məlumatlarının güclü və zəif tərəfləri**

| Güclü tərəfləri | Zəif tərəfləri |
|---|---|
| • Onlayn əmək bazarı məlumatları real vaxt rejimində informasiya təmin edir;<br>• Onlayn iş elanları məlumatları dəyişən əmək bazarı şərtlərinin təhlilini daha detallı təqdim edir<br>• Məlumatlar bacarıqlara olan tələb və təklif barədə təfərrüatlı informasiya təmin edir;<br>• İş axtaranlara əmək bazarında gedən tendensiyaları izləməyə imkan verir; | • Onlayn əmək bazarı məlumatları adətən strukturlaşdırılmamış olur;<br>• Məlumatlarbir yox bir neçə mənbədən toplanması;<br>• Onlayn əmək bazarı məlumatları, bütövlükdə ölkənin əmək bazarının real vəziyyətini əhatə etmir;<br>• Bir sıra sahələrdə (dövlət orta təhsil müəssisələrində, dövlət qulluğu orqanlarında və s.) işə qəbul prosesi fərqli olduğundan bu sahələrdə peşələrə tələbi onlayn iş məlumatları ilə əldə etmək mümkün deyil; |

Mənbə: Bir sıra ədəbiyyatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Onlayn əmək bazarı məlumatlarının təhlil edilməsi yolu ilə əmək bazarında tələb və təklifin öyrənilməsi, mövcud tendensiyaların izlənilməsi, peşələrə olan ehtiyacların müəyyənləşdirilməsi praktikada geniş istifadə olunur. Ədəbiyyatlar onlayn iş elanlarının informasiya xərclərini və işsizlik dərəcələrini azaltdığını və inkişaf etmiş ölkələrdə iş uyğunluğunun keyfiyyətini artırdığını aşkar etmişdir (Beard, Ford, Saba  and Seals, 2012; Mang, 2012). Kuhn və Mansour (2011) internet iş axtarmanın (internet job search) fərdi işçilərin işsizlik müddətini 25% azaltdığını, təsbit etmişlər (Kuhn & Mansour, 2011). Ümumiyyətlə, onlayn iş elanları məlumatlarından istifadə etməklə əmək

bazarının təhlil edilməsi həm də ona görə aktualdır ki, bu məlumatlar real vaxt rejimində təqdim olunur. Dövlət Statistika Komitəsinin məlumatına əsasən Azərbaycanda əhalinin 88,4%-i orta hesabla hər gün internetdən istifadə edir, bu onu deməyə əsas verə bilər ki, onlayn iş elanları əmək bazarının cari vəziyyətini xeyli dərəcədə ifadə etmiş olur. Yəni, internetdən istifadənin yüksək olması işəgötürənlə işaxtaranın onlayn rejimdə uzlaşması ehtimalını artırmış olur.

**Məlumat Bazası və Metodologiya**

Bu tədqiqatın metodologiyasını ölkənin onlayn iş elanları təqdim edilməsi sahəsində həm işəgötürənlər, həm də iş axtaranlar tərəfindən ən çox müraciət edilən *jobsearch.az*, *offer.az*, *boss.az* və s. kimi internet portallarından, o cümlədən, şirkətlərin veb saytlarından və peşəkar mütəxəssislərin toplandığı LinkedIn sosial şəbəkəsindən məlumatları kodlaşdırılmış botlar – "web crawler" proqramları vasitəsilə toplamaq və təhlil etmək təşkil edir.

Aparılan tədqiqatda 2020-ci ilin may ayından 2022-ci ilin fevral ayınadək olan dövrü əhatə edən 25 min iş elanı toplanmış, 21 min iş elanı kodlaşdırılmış və təhlilə hazırlanmışdır. Məlumatlar arasından təkrar vakansiyalar təmizləndikdən sonra 18600-dən çox unikal məlumatdan ibarət baza ilə təhlil davam etdirilmişdir. Bütün elanların ikili kombinasiyası vasitəsilə müəyyən şərtlər yoxlanılmışdır. Belə ki, əgər elanı verən müəssisə, vakant vəzifə və tələblər eynidirsə, habelə bir elanın başlama tarixi ilə digərinin bitmə tarixi arasında 3 aydan az vaxt varsa, bu elanlar eyni hesab olunmuş, son tarixə aid olan saxlanılmaqla digəri silinmişdir. Daha sonra hər bir vakansiya üzrə tələb olunan peşə Məşğulluğun Beynəlxalq Standart Təsnifatına uyğun olaraq kodlaşdırılmış və prioritet peşələr müəyyən olunmuşdur.

**Əmək bazarı və məşğulluq sahəsində qlobal trendlər**

2020-ci ildə bütün dünyada yayılan COVID-19 pandemiyası qlobal iqtisadiyyatı təhdid altında qoymuş, risklərdən qorunmaq məqsədi ilə, investorların inkişaf etməkdə olan iqtisadiyyatlardan sərmayələrini geri çəkmələri maliyyə sabitliyinə təhlükə yaratmışdır. Pandemiya dövründə inkişaf etməkdə olan bazarlarda böyük həcmli kapital çıxışı müşahidə edilmiş və bu da dünya üzrə ciddi iqtisadi geriləmələrə səbəb olmuşdur. Qlobal tələbin zəifləməsi nəticəsində əmtəə qiymətləri aşağı düşmüşdür (Ələkbərov, 2020). Bütün bunlar əmək bazarı və məşğulluğa da təsirsiz ötüşməmişdir. Beynəlxalq Əmək Təşkilatının (BƏT) anlıq təxmin (nowcasting) modelinə görə qlobal iş saatları 2020-ci ilin ilk rübündə pandemiyadan əvvəlki dövrlə (2019-cu ilin IV rübü) müqayisədə 4,5% azalmışdır (təxminən 130 milyon tam ştat işə ekvivalent). O dövrdə, işəgötürənlərin 81%-ni, öz hesabına işləyənlərin isə 66%-ni iş yerləri məcburi və ya tövsiyə xarakterli bağlanmış ölkələrdə yaşayanlar və işləyənlər təşkil etmişdir (ILO Monitor: COVID-19 and the world of work. Third edition). BƏT-in məlumatına görə qlobal səviyyədə işsizlərin sayı 2020-ci ildə 223,7 milyon nəfərə çatmış, məşğulluq isə 54,8% təşkil etmişdir ki, bu da son 30 ilin müvafiq olaraq ən yüksək və ən aşağı rəqəmləridir. Əmək bazarında əlverişsiz vəziyyətdə olan qadınlar, gənclər, yaşlılar və miqrantlar kimi insanlar digər qruplara görə daha yüksək məşğulluq itkiləri ilə üzləşmişdir. Təşkilatın proqnozlarına görə əmək bazarının bərpası 2023-cü ilə qədər zəif qalacaq (World Employment and Social Outlook: Trends 2022). Belə ki, 2022-ci ilin əvvəlində pandemiyadan bərpa olunmağa çalışan əmək bazarları Rusiya-Ukrayna münaqişəsindən qaynaqlanan növbəti sarsıntılardan xüsusilə, əmtəə bazarlarını pozan ərzaq və enerji qiymətlərindəki yüksək artımlardan əziyyət çəkir.

Göründüyü kimi, həm pandemiyanın neqativ təsirləri, həm də qlobal iqtisadi-siyasi mühitdə baş verən qeyri-müəyyənliklər əmək bazarında da daralmalara səbəb olmuş, dünya əmək bazarı hazırda bərpa prosesini davam etdirsə də qiymətləndirmələr tam bərpanın 2023-cüilədək zəif olacağını göstərmişdir.

Qlobal əmək bazarının cari vəziyyətindən danışarkən bu bazarda gələcək gözləntiləri də nəzərdən keçirmək lazımdır. Dünya İqtisadi Forumu (DİF) 2020-ci ildə yayımladığı "İş yerlərinin gələcəyi" sorğusunda sorğuda iştirak edən şirkətlərin yeni texnologiyaları mənimsəmədə sürətlənmə müşahidə

edildiyini, bulud hesablama, böyük verilənlər (big data), e-ticarət kimi sahələrin əvvəlki illərdə formalaşan trendinin davam etdiyini qeyd etmişdir. İş yerlərinin gələcəyi Sorğusundan əldə edilən məlumatlar göstərir ki, şirkətlər yeni texnologiyalara cavab olaraq işçi qüvvəsini yenidən strukturlaşdırmağı gözləyirlər. Xüsusilə, sorğuda iştirak edən şirkətlər göstərirlər ki, onlar da öz dəyər zəncirinin tərkibini dəyişdirmək (55%), əlavə avtomatlaşdırma tətbiq etmək, mövcud işçi qüvvəsini azaltmaq (43%) və ya daha dərin texnoloji inteqrasiya nəticəsində işçi qüvvəsini genişləndirmək niyyətindədirlər (34%). Forumun hesabatında qarşıdakı illərdə tələbat artan və azalan 20 peşə sahəsi göstərilmişdir (DİF, 2020).

**Cədvəl 2. Sektorlar üzrə artan və azalan tələbdə ilk 20 peşə**

| | ↗ **Tələbi artan** | | ↘ **Tələbi azalan** |
|---|---|---|---|
| 1 | Məlumat (data) təhlilçiləri və alimləri | 1 | Məlumatların daxil edilməsi üzrə qulluqçular |
| 2 | Süni intellekt və maşın öyrənmə üzrə mütəxəssislər | 2 | İnzibati və icraçı katiblər |
| 3 | Böyük verilənlər (big data) mütəxəssisləri | 3 | Mühasibatlıq, hesabdarlıq və əmək haqqı üzrə qulluqçular |
| 4 | Rəqəmsal marketinq və strategiya üzrə mütəxəssisləri | 4 | Mühasib və auditorlar |
| 5 | Proseslərin avtomatlaşdırılması üzrə mütəxəssislər | 5 | Montaj və fabrik işçiləri |
| 6 | Biznesin inkişafı üzrə mütəxəssislər | 6 | Biznes xidmətləri və inzibati menecerlər |
| 7 | Rəqəmsal transformasiya üzrə mütəxəssislər | 7 | Müştəri məlumatları və müştəri xidmətləri işçiləri |
| 8 | İnformasiya təhlükəsizliyi təhlilçiləri | 8 | Ümumi və əməliyyatlar üzrə menecerlər |
| 9 | Proqram təminatı və tətbiqçilər | 9 | Mexanik və maşın təmirçiləri |
| 10 | Əşyaların interneti üzrə mütəxəssislər | 10 | Materialların uçotu və ehtiyatların saxlanması üzrə işçilər |
| 11 | Layihə menecerləri | 11 | Maliyyə təhlilçiləri |
| 12 | Biznes xidmətləri və inzibatçı menecerlər | 12 | Poçt xidməti üzrə qulluqçular |
| 13 | Məlumat bazası və şəbəkə üzrə peşəkarlar | 13 | Kommersiya, Texnoloji və elmi məhsulların satışı üzrə satış nümayəndələri |
| 14 | Robot mühəndisləri | 14 | Əlaqələr üzrə menecerlər |
| 15 | Strategiya məsləhətçiləri | 15 | Bank işçiləri və əlaqəli qulluqçular |
| 16 | İdarəetmə və təşkilat təhlilçiləri | 16 | Səyyar satıcılar, küçə satıcıları |
| 17 | Fintek mühəndisləri | 17 | Elektron və telefon quraşdırıcıları və təmirçiləri |
| 18 | Mexaniklər və maşın təmirçiləri | 18 | İnsan resursları üzrə mütəxəssislər |
| 19 | Təşkilati inkişaf üzrə mütəxəssislər | 19 | Təlim və inkişaf üzrə mütəxəssislər |
| 20 | Risklərin idarəedilməsi üzrə mütəxəssislər | 20 | Tikinti fəhlələri |

**Mənbə**: İş yerlərinin gələcəyi Sorğusu, 2020, DİF

Beləliklə, perspektivdə tələbi artacaq peşələr yeni texnologiyaların mənimsənilməsini və innovativ məhsul və xidmətlərə artan tələbi əks etdirir.

## Azərbaycanda Əmək Bazarının Mövcud Vəziyyəti

Əhalinin rifah səviyyəsinin yüksəldilməsi, layiqli məşğulluğun təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə, işsizliyin azaldılması kimi məsələlər ölkənin sosial siyasətinin mühüm prioritetini təşkil edir. Bu baxımdan, digər sahələrdə olduğu kimi, bu sahədə də dövlət tərəfindən ardıcıl və kompleks tədbirlər həyata keçirilməkdədir. Ölkədə əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər) təsdiq edilmiş və Strategiyanın reallaşdırılması istiqamətində 2007-2010 və 2011-2015-ci illər üzrə müvafiq dövlət proqramları təsdiq edilmiş və uğurla icra olunmuşdur. Qeyd olunan Strategiyanın məntiqi davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nı qeyd etmək vacibdir ki, bu Strategiyada da məşğulluq siyasətinin ekstensiv mərhələdən intensiv mərhələyə

keçidini təmin etmək, əhalinin məşğulluq səviyyəsini artırmaq, tam məşğulluğu təmin etmək, layiqli əməyi dəstəkləmək və əmək məhsuldarlığını yüksəltmək kimi məsələlər öz əksini tapmışdır.
Özəl sektor Azərbaycanda məşğulluğun artımının əsas mənbəyi hesab oluna bilər. Məşğulluğun daha da artması üçün özəl sektorun fəallığının artırılması və yüksək iqtisadi artımın təmin edilməsi vacibdir. Bu baxımdan, son illərin iqtisadi artımını təhlil edərkən məlum olur ki, son 10 ildən artıq müddətdə ölkədə ÜDM real ifadədə hər il orta hesabla 1,6% artmış və bu artımın əsas mənbələrindən biri də investisiyalar olmuşdur. 2015-ci ildən başlayaraq əsas kapitala investisiyalarda qeyri-dövlət sektorunun payı yüksəlməyə başlamış 2021-ci ildə 54.4% (9.1 mlrd. manat) təşkil etmişdir. Qeyd edək ki, son illərdə məhsul istehsalı obyektlərinin tikintisinə yönəldilmiş investisiyaların da həcmində artım baş vermişdir. Belə ki, mövcud istehsal sahələrinin genişləndirilməsi və yeni sahələrin yaradılmasının nəticəsi olaraq bu sahəyə yönəlmiş investisiyalar 2015-ci ildə 9,9 mlrd. manatdan 2021-cu ildə 10.9 mlrd. manatadək yüksəlmişdir. Bütün bunlar ölkədə yeni iş yerlərinin yaradılmasına, işsizliyin azaldılmasına öz töhfəsini vermişdir. 2000-ci ildən başlayaraq Azərbaycanda işsizlik azalma ilə səciyyələnir, lakin 2020-ci ildə pandemiyanın neqativ təsirləri nəticəsində işsizlik səviyyəsi 7.2% təşkil etmişdir. 2021-ci ildə kişilər üzrə işsizlik səviyyəsi 4.9%, qadınlar üzrə isə 7% olmuşdur ki, bu da 2020-ci ildə pandemiya nəticəsində artan işsizlik səviyyəsindən müvafiq olaraq 1.1 və 1.4 faiz bəndi azdır.

**Qrafik 1. İşsiz əhalinin sayı**




**Mənbə**: Dövlət Statistika Komitəsi (DSK)

İşçi qüvvəsi təklifi baxımından da, xüsusən də son illərdə əmək qabiliyyətli əhalinin dinamikası və fəallıq səviyyəsi üzrə müsbət tendensiyalar inkişaf etmişdir. Əmək qabiliyyətli əhalinin sayının artması, bütövlükdə əhalinin artımı, həmçinin, qismən də müsbət miqrasiya saldosu ilə əlaqələndirilə bilər. 2021-ci ildə əvvəlki illə müqayisədə əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin sayı təxminən 1.4 %, iqtisadi fəal əhali isə təxminən 1% artmışdır.
2020-ci ildə ölkədə işsizlik səviyyəsinin artması məşğulluq səviyyəsinin 2019-cu illə müqayisədə azalmasına (2020 - 62.1%, 2019 – 63.2%) səbəb olmuş, məşğul əhalinin sayı 4876.6 min nəfər və ya əvvəlki illə müqayisədə 1.3 % azalmışdır. Gender üzrə fərqlərə baxdıqda bu dövrdə məşğul kişilərin sayı 31.7 min nəfər, məşğul qadınların sayı isə 30.2 min nəfər azalmışdır ki, bunun da əsas səbəbinin COVID-19 pandemiyası olduğu artıq vurğulanmışdır. Pandemiya ilə bağlı yaranmış epidemioloji vəziyyətin yaxşılaşması 2021-ci ildə iqtisadiyyatın bərpası ilə nəticələnmiş, iqtisadiyyatda 5.6%-lik artıma nail olunmuş, eyni zamanda məşğul əhalinin sayı artmış (4988.2 min nəfər), işsizlərin sayı isə azalmışdır.

İqtisadi fəaliyyət sahələrində məşğul əhalinin sayı kənd təsərrüfatında digər iqtisadi sahələr ilə müqayisədə daha yüksəkdir ki, bunun da məlum olan səbəbi torpaq mülkiyyətinə sahib olanların məşğul əhali kimi qeydə alınmasıdır. Bu sahədə məşğulluğun daha yüksək olmasına baxmayaraq, burada iqtisadiyyatda yaradılmış əlavə dəyərin təxminən 6-8%-i istehsal olunur. Qeyd etmək lazımdır ki, bənzər problem qonşu Gürcüstan Respublikasında da mövcuddur və orada bu problemin həllini sektorlar arasında işçi qüvvəsinin mobilliyini yaxşılaşdırmaqda görürlər. Məşğul əhalinin payının yüksək olduğu digər iqtisadi fəaliyyət sahələri əsasən, ticarət, sənayə, tikinti və təhsil sahələridir.[1] Tikintidə məşğul əhalinin 2018-ci ildən başlayaraq artım meyli göstərməsi bu sahənin əsas kapitalına investisiyaların anoloji dövrdə 35% artmasının nəticəsidir (qrafik 2).

**Qrafik 2. İqtisadiyyatın sahələrində yaradılmış əlavə dəyər və məşğul əhalinin sayı.**







**Mənbə**: Dövlət Statistika Komitəsi

Əmək bazarını təhlil edərkən onun əsas müəyyənedici amili olan əmək haqqına diqqət yetirilməsi önəmlidir. Bütövlükdə iqtisadiyyat üzrə orta aylıq nominal əmək haqqanın hər il mütəmadi olaraq artması müsbət tendensiya sayılsa da, heç də iqtisadi fəaliyyət sahələrinin hamısında bu artım müşahidə olunmur. Eyni zamanda belə fərqlər genderlər arasında da müşahidə edilməkdədir. Ümumilikdə ölkədə orta aylıq nominal əmək haqqı 2021-ci ildə 732.1 manat təşkil etmişdir. Qrafik 3-dən göründüyü kimi, orta aylıq nominal əmək haqqının 2019-cu ildə digər illərlə müqayisədə daha çox artması həmin dövrdə minimum əmmək haqqı məbləğinin bir ildə iki dəfə artmasının nəticəsidir.

**Qrafik 3. Orta aylıq nominal əmək haqqı.**




**Mənbə**: Dövlət Statistik Komitəsi

[1] Ticarət və təhsil "Digər sahələr"in daxilində qeyd edilmişdir.

İqtisadi fəaliyyət növləri üzrə orta aylıq əmək haqqları arasında kəskin ziddiyyət mövcuddur ki, bu da bəzi sahələrdə aşağı məhsuldarlığı nümayiş etdirir. Azərbaycanda ən yüksək orta aylıq əmək haqqı olan sahələr müvafiq olaraq mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət sahələridir. İqtisadiyyatın digər fəaliyyət sahələrində orta aylıq nominal əmək haqqları aşağıdakı qrafikdə göstərilən kimi olmuşdur (qrafik 4).

**Qrafik 4. İqtisadi fəaliyyət növləri üzrə orta aylıq nominal əmək haqqı.**




Mənbə: Dövlət Statistika Komitəsi

Qeyd olunan ziddiyətlər eyni zamanda onlayn iş elanlarında da müşahidə edilmişdir. Burada təklif olunan maksimum əmək haqqı 5000 manat, minimum əmək haqqı isə 150 manat olmuşdur. Təhlil olunan vakansiyalar üzrə orta aylıq nominal əmək haqqı (571 manat) ölkə üzrə orta aylıq nominal əmək haqqından daha aşağı müəyyən edilmişdir. Eyni zamanda qadınlara təklif olunan orta əmək haqqı (514 manat), kişilərə təklif olunan orta əmək haqqından (691 manat), 177 manat azdır ki, bu da namizədin cinsi ilə əmək haqqının miqdarı arasında assosiasiyanın olduğunu sübut edir.

**Ölkənin əmək bazarında prioritet peşələrə tələbin müəyyənləşdirilməsi (iş elanları saytlarından mövcud vakansiyaların təhlil edilməsi)**

Qeyd edildiyi kimi ölkənin əmək bazarında prioritet peşələrin müəyyənləşdirilməsi istiqamətində aparılan tədqiqatın məlumat bazasını 2020-ci ilin may ayından 2022-ci ilin fevral ayınadək olan dövrün onlayn iş elanlarının məlumatları təşkil edir.

Təhlil olunan bütün vakansiyaların iqtisadi fəaliyyət növləri üzrə bölgüsü cədvəl 3-də göstərilmişdir.

**Cədvəl 3. Onlayn iş elanlarının iqtisadi fəaliyyət növləri üzrə bölgüsü,%-lə**

| İqtisadi fəaliyyət növləri | Bütün iş elanlarında payı, %-lə |
|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 2.0 |
| Mədənçıxarma sənayesi | 0.3 |
| Emal sənayesi | 10.9 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 0.7 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 0.4 |
| Tikinti | 7.1 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 23.4 |
| Nəqliyyat və anbar təsərrüfatı | 4.4 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 5.5 |

| | |
|---|---|
| İnformasiya və rabitə | 5.5 |
| Maliyyə və sığorta fəaliyyəti | 19.7 |
| Daşınmaz əmlakla əlaqədar xidmətlər | 0.4 |
| Peşə, elmi və texniki fəaliyyət | 6.2 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 3.8 |
| Dövlət idarəetməsi və sosial təminat | 0.9 |
| Təhsil | 4.4 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1.1 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 0.4 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 2.8 |
| Yekun | 100.0 |

Mənbə: Onlayn iş elanları məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi, onlayn iş elanlarında işəgötürənlər tərəfindən ən çox tələb olunan peşələrin 64%-i əsasən iqtisadiyyatın 3 fəaliyyət sahəsini - Ticarət; nəqliyyat vasitələrinin təmiri (23.4%), Maliyyə və sığorta fəaliyyəti (19.7%) və Emal sənayesi (10.9%) əhatə edir. İqtisadiyyatın bütün fəaliyyət sahələrində topdan və və pərakəndə ticarətlə məşğul olan bütün subyektlər, həmçinin nəqliyyat vasitələrinin təmiri ilə məşğul olan subyektlər bu fəaliyyət növü altında tövsif olunur. Bu baxımdan, onlayn iş elanlarında ticarətlə bağlı bütün vakansiya məlumatları bu iqtisadi fəaliyyət növündə ümumiləşdirilmişdir. Ümumiyətlə, qeyd etmək lazımdır ki, Ticarət; nəqliyyat vasitələrinin təmiri iqtisadi fəaliyyət sahəsi Mədənçıxarma sənayesindən sonra ən böyük əlavə dəyər yaradan fəaliyyət növüdür (Dövlət Statistika Komitəsi). Maliyyə və sığorta sahəsində tələb olunan peşələrin böyük əksəriyyəti bank sektorunda formalaşır. Bu baxılan bütün vakansiyaların 8%-ni təşkil edir. O cümlədən bank olmayan kredit təşkilatları (BOKT), maliyyə və investisiya şirkətlərinin də payı təhlil olunmuş vakansiyalarda əhəmiyyətli dərəcədədir.

İş elanlarından toplanmış vakansiya məlumatları Məşğulluq Təsnifatına (MT) uyğun olaraq kodlaşdırılmışdır (cədvəl 4). Bunun üçün vakansiya adları MT-nin 4 rəqəmədək genişləndirilmiş ibtidai qrupların adlarına uyğunlaşdırılmış, qeyri-müəyyən vakansiya adlarında isə işəgötürənin fəaliyyət sahəsinə baxılmışdır.

Cədvəl 4-dən göründüyü kimi, MT-in əsas qrupları üzrə baxılan dövrdə ən çox tələb olunan peşələr - peşəkar mütəxəssislər (37.8%), mütəxəssislər və köməkçi heyət (25.5%) və idarə (ofis) qulluqçuları (11.3%) əsas qrupuna aid olan peşələridir.

**Cədvəl 4. Məşğulluq Təsnifatının əsas qrupları (1 rəqəmli ) üzrə iş yerlərinin sayı**

| MT kodu | Əsas qruplar | Vakansiyaların sayı | Ümumi vakansiyalarda payı, % | İxtisas səviyyəsi |
|---|---|---|---|---|
| 1 | İdarəedicilər | 1581 | 9.0 | - |
| 2 | Peşəkar mütəxəssislər | 6652 | 37.8 | 4-cü |
| 3 | Mütəxəssislər və köməkçi heyət | 4482 | 25.5 | 3-cü |
| 4 | İdarə (ofis) qulluqçuları | 1986 | 11.3 | 2-ci |
| 5 | Xidmət sahələrinin və ticarət müəssisələrinin işçiləri | 1156 | 6.6 | 2-ci |
| 6 | Kənd təsərrüfatı, meşəçilik və balıqçılıq sahəsində ixtisaslı işçilər | 23 | 0.1 | 2-ci |
| 7 | Sənayenin ixtisaslı işçiləri və bir-birinə yaxın peşələrin fəhlələri | 624 | 3.5 | 2-ci |
| 8 | Sənaye qurğuları və maşınlarının operatorları və quraşdırıcıları | 377 | 2.1 | 2-ci |
| 9 | İxtisassız işçilər | 727 | 4.1 | 1-ci |
| | **Cəmi** | **17608** | **100%** | |

Mənbə: MT əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 5 daha təfərrüatlı, yəni MBST-nin ibtidai qrupları (4 rəqəmli kodlar) üzrə təhlil edilmiş, hansı peşələrə tələbin daha çox olması, daha dəqiq desək prioritet peşələr müəyyən olunmuşdur. Məqaləyə

olan səhifə məhdudiyyəti baxımından, habelə yığcam olması üçün aşağıdakı cədvəldə işəgötürənlər tərəfindən ən çox tələb olunan və təhlil olunan dövr üçün prioritet hesab edilən peşələr göstərilmişdir.

**Cədvəl 5. Bütün vakansiyalar üzrə çox tələb olunan peşələr (İbtidai qruplar üzrə)**

| MT-nin ibtidai qrupları | İbtidai qruplar üzrə peşələrin adları | Vakansiyaların sayı | Bütün vakansiyalarda payı, % |
|---|---|---|---|
| **2411** | Mühasiblər | 1329 | 7.5 |
| **3322** | Kommersiya satışları üzrə agentlər | 1079 | 6.1 |
| **2431** | Reklam və marketinq üzrə peşəkar mütəxəssislər | 1021 | 5.8 |
| **3323** | Tədarük üzrə agentlər | 862 | 4.9 |
| **2512** | Proqram təminatı yaradıcıları | 619 | 3.5 |
| **3312** | Kreditlərin verilməsi üzrə işçilər | 541 | 3.1 |
| **2166** | Rəssam-tərtibatçılar və multimediya dizaynerləri | 477 | 2.7 |
| **1420** | Topdansatış və pərakəndə ticarətdə rəhbərlər (idarəedənlər) | 431 | 2.4 |
| **3313** | Mühasibat işində köməkçi heyət | 422 | 2.4 |
| **5223** | Mağaza satıcıları | 417 | 2.4 |
| **4226** | Qəbul otaqlarının katibləri (resepşn işçiləri) | 366 | 2.1 |
| **1221** | Satış və marketinq üzrə xidmətlərin rəhbərləri | 346 | 2.0 |
| **4321** | Anbarda idarə qulluqçuları | 312 | 1.8 |
| **1219** | Digər ibtidai qruplara daxil edilməyən biznes və inzibati xidmətlərin rəhbərləri | 297 | 1.7 |
| **4416** | İnsan resursları üzrə qulluqçular | 292 | 1.7 |
| **8322** | Minik avtomobillərinin, taksilərin və furqonların sürücüləri | 259 | 1.5 |
| **9312** | Tikintidə çalışan ixtisassız fəhlələr | 242 | 1.4 |
| **4223** | Telefonçular | 235 | 1.3 |
| **2611** | Hüquqşünaslar | 221 | 1.3 |
| **2413** | Maliyyə təhlilçiləri | 219 | 1.2 |
| **3341** | Ofis nəzarətçiləri | 217 | 1.2 |
| **2421** | İdarəetmə və təşkilati işlər üzrə təhlilçilər | 211 | 1.2 |
| **3343** | İnzibati və icraçı katiblər | 203 | 1.2 |
| | **Sütun üzrə cəmi** | **10618** | **100** |
| | ***Bütün vakansiyalar*** | ***17608*** | **60%** |

Mənbə: Təhlil nəticələri əsasında müəllif tərəfindən tərtib edilmişdir

Cədvəl 5-də MT-nin ibtidai qrupları üzrə vakansiyaların sayı və bütün vakansiyalarda xüsusi çəkisi, eləcə də, bundan çıxış edərək cari dövrdə ölkənin əmək bazarında prioritet peşələrlə bağlı mövcud tendensiyaların nələrdən ibarət olduğunu görmək mümkün olur.

Təhlil olunan vakansiyalar deməyə əsas verir ki, hazırkı dövrdə mühasib **(1329)** peşəsi işəgötürənlər tərəfindən daha çox tələb olunur. Bu ibtidai qrupa mühasiblərlə yanaşı, auditor, vergi məsləhətçiləri kimi peşələr də daxildir. Mühasib peşəsi üzrə tələbin yüksək olması son 3 ildə həyata keçirilən təşviq əsaslı vergi siyasəti ilə izah oluna bilər. Belə ki, bağlanmış əmək müqavilələrinin sayının artması iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun "ağardılması", pərakəndə ticarət, ictimai iaşə və xidmət sahələrində nağdsız hesablaşmaların stimullaşdırılması, idxal və digər təsərrüfat əməliyyatları zamanı şəffaflılığın təmin edilməsi istiqamətində görülən tədbirlər bu əməliyyatları rəsmiləşdirən, maliyyə hesabatları, bəyannamlər tərtib edən və bununla əlaqədar digər spesifik funksiyaları yerinə yetirən mühasiblərə tələbi artırmışdır.

Digər ən çox vakansiya qeydə alınan ibtidai qruplar üzrə kommersiya satışları üzrə agentlər (1079), reklam və marketinq üzrə peşəkar mütəxəssislər **(1021)**, tədarük üzrə agentlər **(862)**, kredit işçiləri **(541)**, mühasibat işində köməkçi işçilər **(422)**, topdansatış və pərakəndə ticarətdə rəhbərlər (idarəedənlər) **(431)** işəgötürənlər tərəfindən daha çox tələb olunan peşələr sırasındadır. Qeyd olunan peşələr ölkə ÜDM-in və məşğulluğun əhəmiyyətli hissəsini formalaşdıran ticarət sahəsi ilə sıx bağlıdır.

Kredit verilməsi sahəsində işçilərə yüksək tələb eyni zamanda kredit təşkilatları tərəfindən kredit qoyuluşlarının həcmi ilə əlaqələndirilə bilər ki, 2020-ci ilin ikinci yarısından sonra kredit qoyuluşlarının artması bu sahədə işçi tələbini də artırmışdır.
Rəqəmsallaşmanın getdikcə artması, informasiya-kommunikasiya texnologiyalarının daha geniş fəaliyyət sahələrinə tətbiq olunması bu sahənin mütəxəssislərinə tələbi günü-gündən daha da artırmaqdadır. Bu baxımdan proqram təminatı yaradıcılarına (developer) **(619)**, həmçinin İKT sahəsində operatorlara **(196)**, şəbəkə və sistem operatorlarına **(115)** tələb daha çoxdur. Ümumiyyətlə, DİF-in də "İşlərin gələcəyi sorğusu 2020" sənədinə əsasən 2025-ci ilədək bu qrupun peşələrinə tələb artmaqda davam edəcək.
Beləliklə, ölkədə fəaliyyət göstərən internet resurslarından 2020-2022-ci illəri əhatə edən dövrdə 18 minə qədər vakansiya məlumatı toplanmış və təhlil edilmişdir. Təhlil göstərmişdir ki, vakansiyaların təhlili son dövrlərdə ölkənin əmək bazarında MT-nin ibtidai qruplarına uyğun olaraq yuxarıda qeyd olunan peşələrin prioritet olduğunu göstərir.

## Nəticə

Tədqiqat işi yalnız onlayn iş elanları məlumatlarına əsaslandığından müəyyən olunan prioritet peşələr bütövlükdə əmək bazarında bu sahədə mövcud vəziyyəti dəqiq əks etdirməsə də ümumi olaraq tendensiyanı görməyə imkan verir.
Tədqiqat işində məqsəd ölkənin əmək bazarında prioritet peşələrin müəyyənləşdirilməsi olsa da, iş elanları məlumatları onunla yanaşı əmək bazarının müxtəlif kəmiyyət və keyfiyyət aspektlərini, o cümlədən namizədlərin bacarıqlarına, yaşlarına, cinslərinə tələbləri, habelə əmək haqqı səviyyəsini təhlil etməyə imkan vermişdir.
İş elanlarında daha çox tələb olunan mühasib (1329) peşələrinin çoxluq təşkil etməsi son 3 ildə həyata keçirilən təşviq əsaslı vergi siyasəti ilə izah oluna bilər. Belə ki, bağlanmış əmək müqavilələrinin sayının artması iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun "ağardılması" və şəffaflılığın təmin edilməsi istiqamətində görülən tədbirlər iş yerlərində bu işləri icra edən mühasiblərə tələbi artırmışdır.
Kommersiya, satış, reklam və marketinq, həmçinin maliyyə və bank sahəsində işçi tələbinin yüksək olması 2021-ci ildə əvvəlki illə müqayisədə ticarət, maliyyə və sığorta fəaliyyəti sahələrində həm muzdla işləyənlərin, həm də məşğul əhalinin sayının digər sahələrlə müqayisədə artmasının nəticəsidir.
İKT-nin daha çox sahələrə tətbiqi, internetləşmənin genişlənməsi, məlumat (data) əsaslı idarəetmə bu sahənin mütəxəssislərinə (proqram təminatı yaradıcılarına, şəbəkə və sistem administratorları, İT texniklər, məlumat bazası təhlilçiləri və s.) tələbi artırmış və bu tendensiyanın təkcə ölkəmizdə deyil bütövlükdə qlobal səviyyədə davam edəcəyi beynəlxalq təşkilatların proqnozlarında əksini tapmışdır.
İşğaldan azad olunmuş ərazilərdə icra olunan layihələr və planlaşdırılan investisiyalar, xüsusilə iqtisadiyyatın real sektorunda yüksək ixtisaslı kadrlara, o cümlədən mühəndis və memarlara ehtiyacı artıracaq.

## İstifadə Olunmuş Ədəbiyyat Siyahısı

"2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"

Beard, T. R., Ford, G. S., Saba, R. P., and Seals Jr, R. A. (2012). "Internet use and job search" Telecommunications Policy, 36(4), 260-273.

Carnevale, A. P., T. Jayasundera, and D. Repnikov. 2014. Understanding online job ads data: A technical report. McCourt School on Public Policy, Center on Education and the Workforce, Georgetown University, Washington, D.C.

European Training Foundation / European Centre for the Development of Vocational Training / International Labour Office. (2016). Using labour market informatıon. Guide to anticipating and matching skills and jobs. Volume 1.

Ələkbərov, E. 2020. Koronavirus (COVID-19) pandemiyasının Azərbaycan iqtisadiyyatına təsirlərinin təhlili. Azərbaycanda İqtisadi İslahatların Həyata Keçirilməsi Xüsusiyyətləri və Problemləri Elmi Əsərlər Toplusu, Xüsusi buraxılış (COVID-19). S.23-44.

Fabo, B., Mýtna Kureková , L. 2022. Methodological issues related to the use of online labor market data, ILO Working Paper 68 (Geneva, ILO).

ILO Monitor: COVID-19 and the world of work. Ninth edition. (May 2022)

ILO Monitor: COVID-19 and the world of work. Third edition.

International Labour Organization. (2022). Report. World Employment and Social Outlook: Trends 2022.

Kuhn, P. and Mansour, H., 2014. "Is internet job search still ineffective?" Economic Journal, 124(581), 1213-1233.

Kureková, L. M., Beblavý, M., and Thum-Thysen, A. 2015. "Using online vacancies and web surveys to analyse the labour market: a methodological inquiry." IZA Journal of Labor Economics, 4(1), 1–20.

Mang, C. 2012. Online Job Search and Matching Quality. Ifo Working Paper No. 147.

World Economic Forum. The Future of Jobs Report 2020.

https://stat.gov.az/ - Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

# Aqrar Sahədə "Sənayeləşmiş Kənd Təsərrüfatı" Fəaliyyətinin "Şəhərdə Kənd Təsərrüfatı" Fəaliyyəti ilə Əvəz Edilməsinin Sosial-İqtisadi və Ekoloji Təsirləri

**Cavad Qocamanov**

**Bakı Dövlət Universiteti**

**cavad.qocamanov@gmail.com**

**ORCID-ID: 0000-0002-9869-7349**

## Xülasə

Bu məqalədə ekoloji böhran və kənd təsərrüfatı arasındakı əlaqə nəticəsində ortaya çıxan sosial-iqtisadi və ekoloji təsirlər müzakirə olunur. Kənd təsərrüfatı istehsalının kapitalist üsulu olan "Sənayeləşmiş kənd təsərrüfatı" fəaliyyəti ekoloji böhranın mühüm səbəblərindən biridir. Tədqiqatda kənd təsərrüfatı istehsalının bu formasının ekoloji böhrana təsiri və onun necə baş verməsi, bu istehsal növünün dayanıqlı olmaması üzə çıxarılır. Eyni zamanda kənd təsərrüfatı istehsalına, təbii ehtiyatlardan istifadəyə və ekoloji böhrana ənənəvi iqtisadiyyatın ziddiyyətli yanaşması qeyd edilir və alternativ istehsal modeli kimi "Şəhərdə kənd təsərrüfatı" fəaliyyəti göstərilir. "Şəhərdə kənd təsərrüfatı" fəaliyyəti şəklində olan kənd təsərrüfatı istehsal strukturu dünyanın qalan hissəsində kapitalist istehsalın dərinləşdiyi kənd-şəhər fərqini aradan qaldırır və daha az həcmdə yanacaq, gübrə və kimyəvi maddələrdən istifadə etmək ilə qida probleminə əhəmiyyətli bir həll yolu göstərir.

Eyni zamanda, "Şəhərdə kənd təsərrüfatı" fəaliyyəti şəhərlərdə yaşayan insanların ərzaq təhlükəsizliyinə, yoxsulluğun azaldılmasına, şəhərlərin davamlı və dayanıqlı iqtisadi inkişafına verdiyi töhfəyə görə dünyanın bir çox ölkələrindəki şəhərlərin sosial-iqtisadi inkişaf siyasətlərində mühüm strategiya kimi qəbul edilir.

**Açar sözlər:** kənd təsərrüfatı, şəhər, sənaye, ekoloji.

## Abstract

In this article the socio-economic and ecological impacts resulting from the relationship between the environmental crisis and agriculture are discussed. One of the important causes of the ecological crisis is "Industrial agriculture" activity which is a capitalist method of agricultural production. In the research, they are revealed the impact of this form of agricultural production on the ecological crisis and how it occurs and the unsustainability of this type of production. At the same time, the contradictory approach of the traditional economy to agricultural production, the use of natural resources and the ecological crisis is noted, and the "Urban agriculture" activity is shown as an alternative production model. The agricultural production structure in the form of "Urban agriculture" activity bridges the rural-urban gap where capitalist production has deepened in the rest of the world and provides a significant solution to the food problem by using less fuel, fertilizer and chemicals.

At the same time, the "Urban agriculture" activity has become recognized as an important policy strategy for urban socio-economic development in many countries around the world due to its contribution to the food security of people living in cities, poverty reduction and sustainable economic development of cities.

**Keywords:** agriculture, urban, industrial, ecological.

## Giriş

Əhalinin sosial-iqtisadi və maddi rifahının yaxşılaşdırılmasında, məşğulluq səviyyəsinin yüksəlməsi və ərazi məskunlaşmasının təmin edilməsində aqrar sahə mühüm rol oynamaqdadır ki, bu da kənd təsərrüfatı məhsullarının istehsalı və istehlakı məsələlərini əhatə edir. Kənd təsərrüfatı

məhsullarının istehsalı yığım mərhələsinə qədər olan fəaliyyətləri özündə birləşdirir. Kənd təsərrüfatı məhsullarının istehlak mərhələsi isə tədarük, nəql olunma, emal, anbar və satış fəaliyyətlərini əhatə edir. Bu mərhələlərin hər birində özünəməxsus iqtisadi davranış xüsussiyyətləri ilə fərqlənən çoxsaylı infrastruktur fəaliyyətləri mövcuddur ki, bunlar da istehsalın növündən asılı olaraq fərqli xərclərə və gəlirlərə malik olma baxımından bir-birindən fərqlənirlər.

Son illərdə sürətli demoqrafik və iqtisadi dəyişikliklər davamlı və dayanıqlı şəhərləşmə (Urbanizasiya) prosesininə mənfi təsir göstərməyə başladı və bu da öz növbəsində ərzaq təhlükəsizliyi ilə bağlı müzakirələrin yaranmasına səbəb oldu. Qida məhsullarının istehsalında və paylanmasında bir çox texnoloji modernləşdirmələrə baxmayaraq, aclıq və qida çatışmazlığı hələ də bütün dünyada milyonlarla insanı təhdid edir. Bu gün qida məhsullarına çıxış adi insan hüququndan daha çox imtiyazlı bir hüquq kimi görünür. Həm təbii sərvətlərin, həm də insan əməyinin istismarına əsaslanan "Sənayeləşmiş kənd təsərrüfatı" (SKT) fəaliyyəti çox etibarlı olsa da, bu balansı dəyişə bilmir, həm də ekoloji tarazlığın pozulmasına səbəb olur. Xüsusilə son on ildə dünyanın qarşılaşdığı ekoloji fəlakətlər və problemlər ekoloji tarazlığın qorunmasını mühüm məsələyə çevirmiş və bir çox anlayışlar da bu perspektivdə yenidən nəzərdən keçirilməyə başlamışdır (Altınok, 2014). Bu məqalədə təbii tarazlıq nəzərə alınmaqla şəhər daxilində və ətrafında baş verən "Şəhərdə kənd təsərrüfatı" (ŞKT) fəaliyyətinin intensiv inkişafa əsaslanan SKT fəaliyyətinin ortaya çıxardığı böhrana qarşı şəhərlərdə ərzaq təhlükəsizliyi və ekoloji tarazlıq baxımından alternativ ola biləcəyi müzakirə edilir.

Biz urbanizasiyanın ən intensiv olduğu, yəni şəhər əhalisinin kənd əhalisini üstələdiyi bir dövrdə yaşayırıq. İnkişaf etmiş ölkələrdə urbanizasiya nisbəti 80% kimi qəbul edilsə də, inkişaf etməkdə olan ölkələrdə bu nisbətin aşağı olduğu, ancaq prosesin sürətinin inkişaf etmiş ölkələrlə müqayisədə beş dəfə yüksək olduğu deyilir (Antrop, 2004; Lopez, 2001). Hazırda Birləşmiş Millətlər Təşkilatının son rəsmi məlumatlarına əsasən dünya əhalisinin sayı 8 milyardı keçib və bunların təxminən yarıdan çoxu yəni 4,4 milyardı (56%) şəhərlərdə yaşayır və eyni zamanda da, 2050-ci ildə dünya əhalisinin ümumi sayının 9,7 milyarda çatacağı, bu rəqəmin isə təxminən hər 10 nəfərdən 7-nin yəni 70%-nin şəhərlərdə yaşayan əhalinin təşkil edəcəyi ehtimal olunur (The World Bank, 2022; United Nations, 2022). Dünyadakı bu sürətli əhali artımı aclıq və qida çatışmazlığına, həmçinin mənzil ehtiyacı və nəqliyyat tələbinə səbəb olur. Bu gün intensiv şəkildə tətbiq olunan SKT fəaliyyəti həm ərzaq problemini həll edə bilmir, həm də torpağın, suyun və ümumilikdə canlı həyatın təhlükə altında olduğu ekoloji böhrana səbəb olur. Bu qeyri-müəyyən mənzərə qarşısında müzakirə edilən həll təkliflərindən biri ŞKT fəaliyyətidir.

ŞKT fəaliyyəti müxtəlif kənd təsərrüfatı fəaliyyətlərini və bir çox funksiyaları birlikdə nümayiş etdirə bilən dinamik bir prosesdir. Qida, iqtisadiyyat və ekologiya sahəsində şəhər sisteminin zəruri hissəsi kimi ŞKT fəaliyyəti kənd yerlərinin şəhər və şəhərətrafı ərazilərə inteqrasiyasında mühüm rol oynayır. Həmçinin, bu fəaliyyət, yerli inkişaf, yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyi, bioloji müxtəlifliyin qorunması, şəhər tullantılarının və çirkab sularının təkrar istifadəsi üçün lazım olan imkanları təmin edir. Bu məqalənin birinci hissəsində SKT fəaliyyəti və onun ortaya çıxartdığı sosial-iqtisadi və ekoloji böhran göstərilir, daha sonra isə ŞKT fəaliyyətinin nə olduğu və onun sosial-iqtisadi və ekoloji təsirləri və tətbiq nümunələri araşdırılır.

**“Sənayeləşmiş Kənd Təsərrüfatı” Fəaliyyəti**

**Kapitalist istehsal üsulunun xarakteristikası**

Dünyanın ekoloji böhran içində olduğu artıq bir çox dünya ölkələri tərəfindən qəbul edilir. Lakin bu böhranın ölçülərinin cəmiyyətin çöküşünə səbəb olub-olmaması bu gün müzakirə mövzusudur. SKT fəaliyyəti intensiv və rəqabətədavamlı əkinçilik modelidir.

SKT fəaliyyəti kimyəvi gübrələrin, herbisidlərin və pestisidlərin ağır istifadəsi ilə ildən ilə eyni məhsul istehsal edən iri təsərrüfatlarla müəyyən edilir. Bu kateqoriyadan olan kənd təsərrüfatlarında əsasən ən vacib olan şey nəyin bahasına olursa olsun maksimum həcmdə məhsul istehsal etməkdir. Belə təsərrüfatlarda torpaq və digər təbii sərvətlər davamlı olaraq tükənir, yerli ekosistemlər və biomüxtəliflik zədələnir və bu da öz növbəsində gələcəkdə bu sahədə fəaliyyət göstərən fermerlərin işinə mənfi təsir göstərir. SKT fəaliyyətinin ekoloji böhrana təsirində iki əsas xətt vardır: urbanizasiya dinamikasının təsirləri və istehsal texnikasının mənfi təsirləri (Kanbir, 2011).

Kapitalist sistem üçün ən əsas anlayış kapitalın toplanması paradiqması ilə irəliləməkdir (Demirer vd., 1999). Kapitalist istehsal üsulunun xarakterinə görə kapital daima artmalı, yığılmalı və genişlənməlidir. Bu proses rentabelliyə əsaslandığı üçün belə genişlənmə daxili dinamikanı aktivləşdirir və kapitalizmi istehsalın davamlı artımından asılı vəziyyətə salır. Bu səbəbdən kapital, mənfəət əldə etmək üçün sanki heç bir maneə və ya məhdudiyyət yoxdur kimi istehsalın ölçülərini və xarakterini daima sosial ehtiyaclardan uzaqlaşdıracaq şəkildə genişləndirir (Foster, 2012). Lakin kapitalizmin bu reallığı böyük israfçılıqla lazımsız bir çox məhsulların ortaya çıxmasını, cəmiyyəti istehlaka indeksləşdirərək təbii sərvətlərin sürətlə məhv edilməsini və ekoloji tarazlığın pozulmasını da özü ilə gətirir. Bu gün bu amillərə insanların səbəb olduğu iqlim dəyişikliyi, ətraf mühitdə zəhərli kimyəvi maddələrin toplanması, enerji qıtlığı və insanların dünyanın fotosintez imkanlarından maksimum dərəcədə istifadə etməsi kimi dörd faktor daha əlavə edilmişdir (Diamond, 2006).

**Ekoloji böhranın əmələ gəlməsində urbanizasiyanın rolu**

Kapitalist inkişaf diskursunun ən fundamental ölçülərindən biri urbanizasiyadır. Ekoloji böhranı şərtləndirən amillərdən biri qlobal şəhərlərdə əhalinin sürətli artımı və şəhərlərin sürətli böyüməsidir. Lakin əhalinin bu sürətli artımı ilə yanaşı, kənd təsərrüfatı ilə məşğul olan əhalinin sayı da azalır və kənd yerlərində istehsal tərzi dəyişir. Kənd təsərrüfatı istehsalının modernləşdirilməsi, yəni sənayeləşmə ilə kapital öz qarşısına yeni hədəflər qoydu. Kənd təsərrüfatı sahələrində kapitalın hökmranlığını gətirən bu prosesdə meydana gələn beynəlxalq şirkətlər istehsalın bütün halqalarını idarə etməyə başladılar. Xüsusilə sənayenin daha az əmək tutumlu texnologiyadan istifadə etməyə başlaması kənddən çıxan fermerlərin şəhərlərdə işlə təmin oluna bilməməsi ilə nəticələnir və bu da öz növbəsində sosial böhrana səbəb olur. Eyni zamanda, şəhərlərdə sürətlə artan istehlak da ciddi tullantı problemini meydana gətirir. Belə olan halda, davamlı və dayanıqlı kənd təsərrüfatı məhsullarının istehsalı üçün torpaqdan alınan məhsulların istehlakından sonra əmələ gələn tullantıların yenidən torpağa qaytarılması lazımdır. Torpağın qidalanmasını təmin edən bu qayıdış istehsalın səmərəliliyini artırır. Lakin urbanizasiyanın sürətlənməsi təbiətin tarazlığını pozur və torpağın münbitliyini itirməsinə səbəb olur.

Kənd təsərrüfatının torpaqdan, sudan və günəşdən asılılığı onun təbii və bioloji proseslərdən tamamilə qopmamasını təmin edir. Bununla belə, kapital təbiətdə yarana biləcək qeyri-müəyyən riskləri azaltmaq və istehsal prosesində uzaqgörənliyi təmin etməklə məhsuldarlığı artırmağa və qazanc əldə etmək məqsədilə kimyəvi maddələrdən istifadə vasitəsilə kənd təsərrüfatının bu

unikallığına müdaxilə edərək təbiətdən asılılığı azaltmağa çalışır. Kənd təsərrüfatının sənayeləşməsini təmin edən bu proseslə qida istehsalı bioloji əsaslarından ayrılaraq metabolik parçalanmaya səbəb olur. İqtisadi, ekoloji və sosial nəticələri olan bu proses şəhərlərdə urbanizasiya dinamikası və qlobal ticarət ilə daha da güclənir (Keyder ve Yenal, 2013).

**"Sənayeləşmiş kənd təsərrüfatı" fəaliyyətinin faydaları və zərərləri**

Kənd təsərrüfatı sistemi öz təbiətinə görə təbii ehtiyatlara əhəmiyyətli dərəcədə təsir etmək gücünə malik bir sahədir. Torpaq, su, enerji və biomüxtəliflik kimi kənd təsərrüfatı ilə bağlı təbii ehtiyatlar kənd təsərrüfatı fəaliyyətlərinin təsirinə məruz qalaraq istifadə şəkillərindən asılı olaraq dəyişir. Süni gübrələr, kimyəvi pestisidlər və neft məhsulları kənd təsərrüfatı istehsalı prosesində SKT fəaliyyətinin istifadə etdiyi istehsal materiallarıdır. Bu istifadə olunanlar nəticəsində kənd təsərrüfatının dayanıqsız hala düşməsi təkcə torpağın təbii resurs səviyyəsinə ziyan vurmur, həm də təbii mühitin yararlılıq qabiliyyətini azaldır (Kanbir, 2011). Bununla belə, kənd təsərrüfatında ən yaxşı müdafiə üsullarından biri biomüxtəlifliyin artırılmasıdır.

SKT fəaliyyətində ən çox istifadə edilən kənd təsərrüfatı üsullarından biri olan monokultura üsulu kənd təsərrüfatında vahid məhsulun yetişdirilməsi deməkdir. Kənd təsərrüfatının standartlaşdırılması və bazarın ixtiyarına verilməsi tətbiqinə əsaslanan bu üsulda kənd təsərrüfatı torpaqları elə şumlanır ki, istehsal olunacaq məhsuldan başqa heç bir bitki və heyvan həyatı həmin torpaqda yetişə və yaşaya bilməz. Torpağın bu şəkildə istifadə olunması bir tərəfdən qida maddələrinin torpağa daxil olmasına mane olur, torpaq qatlarının tarazlığını və üzvi maddələr dövranını pozur, digər tərəfdən isə alaq otlarının və həşəratların çoxalmasına səbəb olur. Belə olan halda isə, kimyəvi pestisidlər alaq otlarını və həşəratları məhv etmək üçün istifadə olunmağa başlayır. Lakin, bəzən həşəratlar və alaq otları bu kimyəvi maddələrə qarşı immunitet qazanaraq və təkamül edərək sağ qalmağın yeni yollarını tapa bilirlər. Bu zaman isə onları məhv etmək üçün daha çox pestisidlərdən istifadə edilməyə başlanılır. Bu fəaliyyət isə zaman keçdikcə torpağın altındakı həyatın məhvinə səbəb olur və torpağın münbitliyini azaldır. Torpağın münbitliyini artırmaq üçün isə tərkibində kimyəvi maddələr olan süni gübrələrdən istifadə olunmağa başlanılır və bu süni gübrələr bitkiləri onlardan asılı vəziyyətə salır. Heyvanların yemlərinin istehsal olunduğu torpaqlardan uzaqlaşdırılması ilə bu proses qida maddələrinin tükənməsini və torpaqda üzvi maddələrin azalmasını sürətləndirmişdir (Foster & Magdoff, 2002). Nəticədə, səmərəliliyi təmin etmək üçün inkişaf etdirilən monokultura üsulu kənd təsərrüfatı sahəsi ilə bağlı xəstəliklərin yayılmasına və bu xəstəliklərlə mübarizənin çətin və baha başa gəlməsinə səbəb olur. Beləliklə, monokultura üsulu daha çox kimyəvi maddələr və neft məhsulları tələb etdiyi üçün cəmiyyətin böyük bir təbəqəsi üçün deyil, yalnız aqrokimya və yanacaq şirkətləri üçün sərfəli fəaliyyət üsuluna çevrilir.

Xammalın tədarükündən, istehsalına, paylanmasına və satışına qədər kənd təsərrüfatı məhsullarının istehsal zəncirinin bütün mərhələlərinə hökmranlıq edən və beləliklə də yoxsulların ucuz və sağlam qidaya çıxışının qarşısını alan beynəlxalq transmilli şirkətlər kənd təsərrüfatı istehsalının əsas aktorlarıdır. Bu, o qədər həlledici amildir ki, iri şirkətlər kənd təsərrüfatı istehsalının əksəriyyətinə sahib olduqları üçün özlərindən kənarda olan kiçik fermerləri də müəyyən etdikləri istehsal vəsaitlərindən istifadə etməyə məcbur edir. Məsələn, toxum istehsalı və satışı sahəsində fəaliyyət göstərən 10 iri şirkət 27 milyard dollardan artıq olan toxum bazarının dörddə üçünə nəzarət edir və belə olan halda da kiçik fermerlər bu şirkətlərin məhsullarını almağa məcbur olur.

Ona görə də dünyada sürətli urbanizasiya nəticəsində kənd təsərrüfatı sahələri azaldığı halda, kimya məhsullarından istifadənin həcmi durmadan artır. Zərərli məhsulların istifadəsi nəticəsində yaranan

qalıqlarla torpağın, qrunt sularının və qida məhsullarının çirklənməsi təbii tarazlığa mənfi təsir göstərən ekoloji problemlər yaradır, fermerləri iri şirkətlərdən asılı vəziyyətə salır və ərzaq təhlükəsizliyini təhdid edir.

Ümumiyyətlə isə SKT fəaliyyətinin faydaları və zərərləri aşağıdakılardır (https://www.maktoloji.com/2018/09/endustriyel-tarmn-faydalar-ve-zararlar.html).:

**1.** Faydaları:

- SKT fəaliyyəti insan əhalisinin artması ilə birlikdə insanların ehtiyac duyduğu qida maddələrinin daha asan istehsalını təmin edir. Beləliklə, istehsal olunan kənd təsərrüfatı məhsulları bir çox insan tərəfindən daha asan və ucuz əldə edilə bilir. Bu vəziyyət ilə bağlı tələb I və II Dünya Müharibələrindən sonra baş verən böhran dövrlərində kifayət qədər hiss olunurdu. Belə olan halda isə, kənd təsərrüfatında baş verən innovasiya və avtomatlaşdırma ilə insanların kənd təsərrüfatı məhsullarına olan tələbatını ucuz və keyfiyyətli şəkildə ödəmək mümkün oldu;

- SKT fəaliyyəti istehsal olunan məhsulların diferensiallaşdırılmasını təmin edir. Böyük miqdarda istehsal edilən kənd təsərrüfatı məhsullarına görə SKT fəaliyyəti ilə məşğul olan insanlar müxtəlif bazarlar axtarmış və müxtəlif məhsullar istehsal etməyə çalışmışlar. Əslində qurulan xüsusi texnologiya sistemləri ilə bir bölgədə yetişdirilməsi qeyri-mümkün olan meyvə-tərəvəzin xüsusi şərtlərlə istehsalı təmin edilmişdir. Beləliklə, kənd təsərrüfatında müxtəliflik və keyfiyyət yüksəldilib;

- SKT fəaliyyəti kənd təsərrüfatı məhsulları üçün zəruri olan su, torpaq, gübrə kimi ehtiyacların ödənilməsini asanlaşdırdığı üçün bu işlərə sərf olunan enerji daha vacib işlərə sərf olunur. Bundan əlavə, insanların bütün vaxtlarını tarlalarda və üzüm bağlarında keçirmələrinin qarşısını alır, özlərinə daha çox vaxt ayıraraq sosiallaşmalarına kömək edir;

- SKT fəaliyyəti istehsal olunan məhsulların saxlanması və daşınmasında müasir texnologiyadan istifadə edir. İstehsal olunan məhsullar soyuducu anbarlarında uzun müddət öz təravətini saxlayır və təzə kimi istehlakçıya çatdırılır. Bundan əlavə, gen texnologiyası ilə aparılan tədqiqatlar nəticəsində çürüməyə və xarab olmağa qarşı daha davamlı olan kənd təsərrüfatı məhsulları istehsal edilir.

**2.** Zərərləri:

- SKT fəaliyyəti ilə məşğul olan sahibkarlar məhsul itkilərini azaltmaq və məhsul məhsuldarlığını artırmaq üçün pestisidlərdən və kimyəvi maddələrdən istifadə edirlər. Ölçmədən, qaydalara əməl etmədən çiləmə və gübrələmə həm məhsulların quruluşunu pozur, həm də torpağın münbitliyini aşağı salır. Bu, gələcək nəsillər üçün torpağın münbitliyinə xələl gətirir;

- SKT fəaliyyəti məhsuldarlığı artırmaq üçün genetik modifikasiya olunmuş (GMO) toxumlardan istifadə edir. Bu toxumlarla istehsal olunan məhsulların sağlamlığa təsiri hələ də müzakirə edilir və bir çox tədqiqatçı və elm adamı geni dəyişdirilmiş məhsulların insan sağlamlığına zərərli olduğunu qeyd edir;

- SKT fəaliyyəti kiçik istehsalçıların iş yerlərini itirməsinə səbəb olur. İstehsalçılar SKT fəaliyyətinin təmin etdiyi ucuz və səmərəli istehsalın üstünlüklərinə qarşı dayana bilmir və kənd təsərrüfatı sahələrinə investisiya qoymağı dayandırırlar. Buna görə də kəndlərdən şəhərlərə miqrasiya sürətlənir və nəticədə kənd təsərrüfatı fəaliyyətlərinə ziyan dəyir. Bu eyni zamanda planlaşdırılmamış urbanizasiyaya və vizual çirklənməyə də səbəb olur;

- SKT fəaliyyəti ətraf mühitin çirklənməsinə də səbəb olur. Daha geniş kənd təsərrüfatı sahələrindən istifadə edilməsi üçün təbiət məhv edilir. Eyni zamanda SKT fəaliyyəti sayəsində qurulan iri heyvandarlıq təsərrüfatlarının tullantıları ətraf mühiti çirkləndirir və təbiətin digər heyvanların yaşayışı üçün yararsız olmasına səbəb olur.

Bu baxımdan qeyd edilə bilər ki, SKT fəaliyyəti istehsalın hər mərhələsində intensiv su və kimyəvi maddələrdən istifadəni zəruri edən, böyük həcmdə texnika və texnologiyadan istifadəni tələb edən, məhsulu və torpağı yararsız hala gətirən, şirkətlərin istehsal etdiyi toxumların, gübrələrin və mono-səpin fəaliyyətinin bir yerdə olduğu və digər insanların mənafeyini nəzərə almaq əvəzinə daha çox mənfəət əldə etməyi hədəfləyən bir kapitalist kənd təsərrüfatı sistemidir. Yuxarıda qeyd olunan bütün zərərlər ümumi qruplaşdırılsa qısa olaraq aşağıdakı kimi olar:

- ailə təsərrüfatını məhv edir;
- torpağı və istehsalı inhisara alır;
- mono-səpin və kimyəvi maddələrdən istifadəni tələb edir;
- torpaq və su çirklənərək istifadəyə yararsız olur;
- yerli məhsul müxtəlifliyi azalır və yox olur;
- istixana effekti yaradır;
- quraqlığa və eroziyaya səbəb olur;
- kənd-şəhər arasındakı miqrasiyada mənfi dəyişikliklərə səbəb olur;
- insan sağlamlığı üçün təhlükə yaradır.

**“Şəhərdə Kənd Təsərrüfatı” Fəaliyyəti**

**“Şəhərdə kənd təsərrüfatı” fəaliyyətinin tarixi və meydana çıxma zərurəti**

Məskunlaşma anlayışını dəyişdirən iki mühüm inqilab qeyd olunur. Bunlardan biri kənd təsərrüfatı, digəri isə sənaye inqilabıdır. Əkinçiliklə məşğul olan ovçu köçəri icmaları ilə oturaq həyata keçid başlamış və belə oturaq cəmiyyətlərin inkişafı ilə də sosial nizam yaranmışdır. Bu qaydada aparılan dəyişikliklərlə ilk şəhərlər qurulmağa başladı. Sonralar bu şəhərlər sənaye inqilabı ilə günümüzün müasir şəhərlərinə çevrildi. Kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan icmalardan sənaye və bugünkü informasiya cəmiyyətinə keçid prosesi nəticəsində məskunlaşma şəklinin məzmunu dəyişərək ənənəvi kənd quruluşundan müasir şəhərlərə doğru inkişaf etmiş bir struktur formalaşmışdır. Bu struktur daxilində şəhərlərin məzmunu da zamanla dəyişmiş və elmi dairələrdə bu dəyişiklik davamlı olaraq müzakirə edilmişdir.

19-cu əsrin birinci yarısından etibarən şəhərlər sənayeləşmə ilə ortaya çıxan problemlərə həll yolları axtarmağa başladılar. Bu dövrdə iqtisadi inkişafa əsaslanan fəaliyyətlər dəstəkləndi. Kapitalist iqtisadiyyatının davamlılığı üçün baş verən bu inkişaflar insan və təbiət arasındakı tarazlığın pozulmasının əsas səbəbi kimi görünürdü. Bu kontekstdə urbanizasiyanın ekoloji problemlərlə yanaşı qida və gəlir təhlükəsizliyi problemlərinin də formalaşmasında təsirli olduğu göründü. 1990-cı illərdə yoxsulluğa qarşı mübarizə, səhiyyə, təhsil, kənd təsərrüfatı, suya çıxış, ətraf mühitin mühafizəsi məsələləri dünya gündəmində müzakirə olunmağa davam etdirilmiş və bu problemlərin həllində davamlı inkişaf yanaşmaları qəbul edilmişdir.

“Şəhərdə kənd təsərrüfatı” fəaliyyəti (Urban Agriculture-UA) elmi ədəbiyyatda yeni bir anlayış deyil. Bu fəaliyyət hələ 1970-ci illərdən başlasa da, daha çox son 30 ildə öz inkişaf xəttini seçmişdir. Hazırda bu fəaliyyət dünyanın müxtəlif ölkələrində, istər inkişaf etmiş istərsə də inkişaf etməkdə olan kasıb ölkələrdə tətbiq olunmaqdadır. Belə ki, şəhərlərdə yaşayan insanların, şirkətlərin və s. təşkilatların şəhər və şəhərətrafı boş ərazilərdən aqrar istiqamətdə istifadə etməklə məhsul və gəlir götürmə təcrübələri getdikcə daha çox genişlənir.

Şəhərlərin davamlı inkişafı baxımından ŞKT fəaliyyətinin üç fərqli ölçüdə əhəmiyyətli faydaları var: 1. Ekoloji, 2. Sosial və 3. İqtisadi (Qocamanov, 2023). Belə ki, bu fəaliyyətin insanların maddi rifahının yaxşılaşdırılmasında, iş imkanlarının genişləndirilməsində, yerli müəssisələrin inkubasiyasında, əlverişli qiymətə sağlam qidalara çıxışın yaxşılaşdırılmasında, ərzaq məhsullarına qənaətin təşviq edilməsində və insanların öz aralarında sosiallaşmasında çoxsaylı faydaları var.

Xüsusilə inkişaf etməkdə olan ölkələrin üzləşdiyi sürətli və planlaşdırılmamış urbanizasiya prosesi nəticəsində ortaya çıxan iqtisadi, ekoloji və sosial problemlərə qarşı təsirli bir vasitə kimi istifadə edilən ŞKT fəaliyyətinin, artıq ekoloji və sosial problemlərin yaşandığı, aclıq və qida çatışmazlığının yaşanmağa başladığı inkişaf etmiş ölkələrdə də əhəmiyyətini artırması müşahidə olunur (Smit, Nasr, and Ratta, 2001).

ŞKT fəaliyyəti ən sadə mənada, şəhər ərazilərində və ətrafında kənd təsərrüfatı fəaliyyətinin həyata keçirilməsidir. Yəni şəhərdəki bütün kənd təsərrüfatı işlərini əhatə edən fəaliyyətdir. Lakin ŞKT fəaliyyəti öz miqyasına və xüsusiyyətlərinə görə geniş fəaliyyət dairəsinə malik olduğundan və tətbiq edildiyi yerə görə fəaliyyət şəklinə görə dəyişdiyindən yalnız onun tərkib hissələri ilə bağlı bir tərif vermək olar. ŞKT fəaliyyəti şəhər əhalisini həm etibarlı ərzaq, həm də müəyyən qədər gəlirlə təmin edir. Şəhərin iqtisadiyyata və ekologiya sisteminə inteqrasiyası konteksti baxımından ənənəvi kənd təsərrüfatı fəaliyyətindən fərqlənən ŞKT fəaliyyəti həm də milli ərzaq təminatını dəstəkləyir və xaricdən ərzaq təminatından asılılığın azaldılmasına kömək edir (Mougeot, 2000). Aztəminatlı ailələrin öz qida ehtiyaclarını ödəmək üçün istehsal etdikləri kənd təsərrüfatı məhsulları, icma və hobbi fəaliyyəti olaraq salınan bağlar və ya iri miqyaslı kənd təsərrüfatı müəssisələri səbəbindən dəyişilən kənd təsərrüfatı sahələri, bu istiqamətdə məhsulun istehsal olunma məqsədi və miqdarı, iqtisadi fəaliyyət növləri və istehsal sistemlərinin növləri kimi bütün elementlər ŞKT fəaliyyətinin tərkib hissələrini təşkil edir. Bu komponentlər əslində ŞKT fəaliyyətini adi kənd təsərrüfatı fəaliyyətindən fərqləndirən əsas xüsusiyyətlərdir (Mougeot, 2000). Ümumiyyətlə, ŞKT fəaliyyəti müəyyən sayda mövcud olan və ərzaq istehsalının aparıldığı istehsal müəssisələrinin çox saylı şəhər sakinlərinə təhvil verilməsini təşviq edən fəaliyyətdir.

ŞKT fəaliyyətləri mövcud torpaq xüsusiyyətlərinə uyğun olaraq insanlar tərəfindən kollektiv icma şəklində salınan bağlardan tutmuş evlərdə salınmış kiçik bağlara, parklarda və yol kənarlarında əkilmiş meyvə ağaclarından evlərin yaşıl damlarında, fasad divarlarında, həyətlərində və boş ərazilərində qurulan istixanalara qədər müxtəlif sahələrdə həyata keçirilə bilər. Ticarət, qeyri-kommersiya və hibrid tətbiqlər olaraq üç qrupda idarə olunan ŞKT fəaliyyətləri şəhər əhalisinin imkanlarına, eləcə də iqlim və coğrafi şəraitə görə dəyişir. Bu fəaliyyətə bu iş ilə məşğul olanlara verilən lazımi avadanlıqlar, materiallar, paylama və satış üçün lazım olan infrastruktur daxildir. Bunlarla yanaşı, bu fəaliyyət qonşuluq əlaqələrini, həmrəylik və ekoloji davamlılıq kimi sosial məsələləri də əhatə edir (Community Food Security Coalition, 2007).

**"Şəhərdə kənd təsərrüfatı" fəaliyyətinin sosial-iqtisadi və ekoloji təsirləri**

Ərzaq təhlükəsizliyinin təmin edilməsi davamlılıq tələb edir. Bununla belə, içində olduğumuz kapitalist kənd təsərrüfatı sistemi təbiəti istehlak edir və davamlılıq problemlərini nəzərə almır. ŞKT fəaliyyəti qidaya əlçatanlığı asanlaşdırdığı üçün bu, ərzaq təhlükəsizliyini təmin etmək üçün istifadə edilən uğurlu strategiyalardan biridir (Armstrong, 2000; Corrigan, 2011; Larsen & Gilliland, 2009). Qidaya daha qısa məsafələrdə çıxışı təmin etməklə, ŞKT fəaliyyəti eyni zamanda daha az nəqliyyat, qablaşdırma və vasitəçilik xərcləri ilə aşağı qiymətə məhsul əldə edərək istehsal edə bilməyən şəhərin yoxsul əhalisinin ərzaq təhlükəsizliyini artırır, daha təzə və yaşıl qidalarla qidalanma keyfiyyətini təşkil edir.

Şəhərlərin inkişafı çox vaxt ekosistemə böyük ziyan vurur və uzunmüddətli perspektivdə özünü saxlamaq qabiliyyətini azaldır. ŞKT fəaliyyəti bu gün zəifləyən iqtisadiyyat, iqlim dəyişikliyi, əhali artımı, təbii fəlakət təhlükəsi, artan tikinti və urbanizasiya tendensiyaları nəticəsində itirilən yaşıl sahə probleminin həll yollarından biri olan davamlı şəhərlərin yaradılması məsələsində mühüm addımdır. Bu mənada o, ətraf mühitin idarə olunmasına və çirklənmiş torpaqların məhsuldar baxımından bərpasına öz töhfəsini verə bilər. Şəhər və şəhərətrafı ərazilərdə kənd təsərrüfatı fəaliyyətlərinin artırılması yağış sularının axınının və havanın çirklənməsinin azalmasına töhfə verərkən, ekoloji böhranın ən mühüm həll sütunlarından biri olan bioloji müxtəlifliyi də artıraraq növlərin davamlı inkişafını təmin edə bilər. Ancaq müasir həyatda təkrar emalın olmaması təbii tarazlığı pozsa da, ŞKT fəaliyyətində məişət tullantıları bağlar və şəhər əraziləri üçün alternativ istifadə materialları seçimi olaraq kənd təsərrüfatı məhsuldarlığını artıra bilər. Bu gün intensiv şəkildə müzakirə edilən mövzulardan biri olan iqlim dəyişikliyi və temperatur artımının əsas səbəbi yaşıllıqları məhv edərək beton tikililərin sayının artmasıdır. Şəhərlərdə ən mühüm problemlərdən biri beton tikililərin sayının artmasının güclü yağışlara və nəticədə sellərə səbəb olmasıdır. Bu kontekstdə, ŞKT fəaliyyəti salınan yaşıllıqlarla şəhərləri soyuq beton görünüşlərdən xilas edərək torpaq eroziyasını azaltmağa kömək edər və artan temperaturun qarşısını ala bilər. Beləliklə, ŞKT fəaliyyəti ətraf mühitin qorunmasından üzvi tullantıların və çirkab sularının təkrar istifadəsinə qədər bütün mərhələlərdə mühüm rol oynayır.

Dünyada yeganə milli ŞKT fəaliyyəti infrastrukturuna malik olan Kubada şəhərdəki boş torpaqlar kənd təsərrüfatı istehsalı və ya heyvandarlıq üçün istifadə olunur. Özünün istehsal mənbələrindən istifadə edərək kiçik fermerlərə dəstək verən və kənd təsərrüfatı istehsalı baxımından kənd və şəhər arasındakı fərqi aradan qaldıran Kubanın həyata keçirdiyi kənd təsərrüfatı siyasətləri davamlı və dayanıqlı kənd təsərrüfatının həyata keçirilməsini təmin etdi (Kanbir, 2011).

Qardaş ölkə Türkiyədə xüsusilə əhalisinin sayına görə ən böyük şəhəri olan İstanbulda ŞKT fəaliyyəti uzun bir tarixə malikdir. Bizans dövründən 20-ci əsrin sonuna qədər İstanbulun tərəvəz ehtiyacını qarşılamağa kömək edən "Yedikule bağları" Türkiyədə ŞKT fəaliyyətinin ilk nümunələrindəndir. Əsrlər boyu İstanbulun bostanları torpaqdan, mövsümi xüsusiyyətlərdən və digər təbii sərvətlərdən səmərəli istifadə sayəsində davamlı kənd təsərrüfatı fəaliyyətinin ən bariz nümunələrindəndir.

Afrika və Şimali Amerikada sıx şəkildə görülən ŞKT fəaliyyəti son illərdə Avropada da insanlar tərəfindən kollektiv şəkildə salınan icma və bələdiyyələrin icarəyə verdiyi ərazilərdə salınan bağlar diqqəti çəkməyə başladı. Berlində 80 000 insan tərəfindən kollektiv şəkildə salınan icma bağları var və daha 16 000 insan bu kollektiv icma bağlarından faydalanmaq üçün növbə gözləyir. Bundan əlavə, bu fermerlər Almaniya siyasətində güclü siyasi qüvvəni təmsil edirlər (Smit, Nasr, and Ratta, 2001). SKT fəaliyyətinin kimyəvi maddələrdən istifadəsi nəticəsində yaranan çirklənmə

problemlərindən qaçmaq üçün Almaniya, Hollandiya və Sloveniyanın bəzi şəhərlərində üzvi əkinçilik təcrübələrinə başlanılıb. Bu istehsal növü kənd təsərrüfatında biomüxtəlifliyin qorunmasının ən güclü yolu kimi qiymətləndirilir.

Kanada da ŞKT fəaliyyətinin intensiv şəkildə aparıldığı ölkələrdən biridir. 2000-ci ildə Monrealda təxminən 11.000 sakinin birgə səyi ilə onlarca ton ekoloji meyvə və tərəvəz istehsal edilmişdir. Bu məhsulların yarısı həmin bağlarda işləyənlər, qalan hissəsi isə məktəb, xəstəxana və yerli təşkilatlar tərəfindən istifadə olunub. Belə bağlarda 150 növ meyvə, tərəvəz və göyərti əkilib və bunların hamısı ekoloji cəhətdən orijinal ekoloji toxumlardan istehsal olunub. Ən əsası, bu toxumlardan sonrakı illərdə də istifadə olunub (Ayman, 2004).

ŞKT fəaliyyəti zamanı istehsalın böyük hissəsi insanlar tərəfindən gündəlik qida ehtiyacları üçün istifadə edildiyindən bu fəaliyyətin iqtisadiyyata təsirinin qiymətləndirilməsi tam həyata keçirilə bilməz. Başqa sözlə, ŞKT fəaliyyətinin bütün formaları eyni iqtisadi təsirə malik deyil. İqtisadi fayda adətən məhsulların bazar yönümlü hissəsi ilə bağlıdır. Fərdi məşğulluq, artıq məhsulun satışından qazanc, ərzaq xərclərinə qənaət, digər iqtisadi malların kənd təsərrüfatı məhsulları ilə barter edilməsi ŞKT fəaliyyətinin əsas iqtisadi perspektivləridir. İqtisadi fəaliyyəti birbaşa yaradan fəaliyyətlərə əsasən özəl investorlar və ya istehsalçı assosiasiyaları tərəfindən idarə olunan iri miqyaslı sahibkarlıq və bəzən də kiçik miqyaslı ailə biznesləri (fermer təsərrüfatları) daxildir. Məhsullar təkcə bitki və heyvan qidalarının istehsalını deyil, həm də çiçək və bəzək bitkiləri kimi qeyri-ərzaq məhsullarını da əhatə edir. ŞKT fəaliyyəti həm də zəruri kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, qablaşdırılması, satışı və daşınması kimi fərdi və kiçik sahibkarlığı da təşviq edir. Yerli və mərkəzi hökumətlər kənd yerlərində yaşayanlarla müqayisədə şəhər cəmiyyətinə daha çox təsir edən ŞKT fəaliyyətlərinin təşviqində mühüm rol oynayırlar.

Yuxarıda qeyd olunanlara əsasən qeyd edə bilərik ki, aclığa və qeyri-kafi qidalanmaya, qida təhlükəsizliyini təmin edən biomüxtəlifliyin məhvinə və qida təhlükəsizliyinə zərər verən kimyəvi maddələrin istifadəsinə səbəb olan dayanıqsız SKT fəaliyyəti əvəzinə, davamlı və dayanıqlı kənd təsərrüfatına və insanları şəhərlərdə yalnız istehlakçı mövqeyində olmaqdan çıxararaq yenidən istehsal etməyə təşviq edəcək təcrübələrə ehtiyac var. Bu baxımdan, davamlı və dayanıqlı kənd təsərrüfatı təcrübələrindən biri olan ŞKT fəaliyyəti həm ekoloji böhranın həlli, həm də ətraf mühitə yönəlmiş sosial inkişafın aşkarlanması baxımından əhəmiyyətli bir dəyərə malikdir (Kanbir, 2011).

**Nəticə**

Kapitalist istehsal üsulu olan SKT fəaliyyəti iki göstərici üzrə ekoloji böhrana təsir edir: urbanizasiya dinamikası və istehsal texnikası. Xüsusilə neoliberal siyasətlər tərəfindən dəstəklənən bu göstəricilər ekoloji böhranı daha da dərinləşdirir. SKT fəaliyyəti zamanı istifadə olunan istehsal üsulları və vəsaitlər kənd təsərrüfatını dayanıqsız edir. Qeyri-dayanıqlı kənd təsərrüfatı fəaliyyəti isə həmçinin ərzaq təhlükəsizliyinə və ekoloji tarazlığın pozulmasına səbəb ola bilər.

Bu baxımdan, SKT fəaliyyətinə əsas alternativ yanaşmalardan biri olan ŞKT fəaliyyəti davamlı və dayanıqlı istehsalı təmin etmək baxımından nəzərə alınmalı olan istehsal formasıdır. Təbii ki, daha çox müzakirə edilməli və öyrənilməli olan ŞKT fəaliyyəti iqtisadi və ekoloji təsirləri ilə şəhər və kənd arasında dərinləşən fərqi aradan qaldırır, eyni zamanda şəhərin özünü təmin edir. Eyni zamanda, ŞKT fəaliyyəti şəhərin ərzaq ehtiyaclarını və cəmiyyətin qidaya əlçatanlığını təmin edərək kənd təsərrüfatı məhsullarının istehsalı sistemlərini də ifadə edir. ŞKT fəaliyyəti kənd təsərrüfatı məhsullarının satışı vasitəsilə yoxsulluğun azaldılmasında, şəhər ekosistemi ilə davamlı şəhər mühitinin təmin edilməsində, ərzaq təhlükəsizliyinin yaradılmasında və nəticədə icma

daxilində mədəni və sosial əlaqələrin artırılmasında fəal rol oynayır. Bundan əlavə, bu, şəhərlərin öz-özünə yenilənən təbii mühitə gətirilməsi və şəhərlərdə kənd və şəhər həyatının harmonik birgə yaşayışını təmin edəcək sosiallaşma anlayışının inkişaf etdirilməsi istiqamətində mühüm addım hesab edilir.

Sonda yuxarıda qeyd olunanlara əsasən qeyd edilə bilər ki, ŞKT fəaliyyəti şəhər daxilində və ətrafında bütün kənd təsərrüfatı fəaliyyətlərini əhatə edərək SKT fəaliyyətinə qarşı alternativ istehsal modeli hesab oluna bilər. Eyni zamanda, bu fəaliyyət şəhərlərdə yaşayan insanların ərzaq təhlükəsizliyini, sosial sağlamlıq və bərabərlik, ətraf mühitin sağlamlığı və təkmilləşdirilməsi, habelə sosial qruplar arasında iqtisadi cəhətdən səmərəli və davamlı iqtisadi fəaliyyət imkanlarını da təmin edəcək.

**Ədəbiyyatlar**

Altınok, M. (2014). Ekolojik Kriz, Kapitalist Birikimin Sürdürülebilirliği, Gelecek ve Ütopya. İktisat Politikası Araştırmaları Dergisi, Journal of Economic Policy Researches, 1(1): 81-98. erişim http://www.journals.istanbul.edu.tr/iuipad/article/ view/1023022267/1023020818.

Antrop, M. (2004). Landscape change and the urbanization process in Europe. Landscape and Urban Planning, 67: 9-26. doi:10.1016/S01692046(03)00026-4.

Lopez, E, Bocco, G, Mendoza, M. Duhau. E. (2001). Predicting Land Cover and Land Use Change in The Urban Fringe: a Case in Morelia City Mexico. Landscape and Urban Planning, 55: 271-285. doi:10.1016/S0169-2046(01)00160-8.

The World Bank, (2022). Urban Development.

https://www.worldbank.org/en/topic/urbandevelopment/overview

United Nations, New York, (2022). World Population Prospects 2022 Summary of Results.

https://www.un.org/development/desa/pd/sites/www.un.org.development.desa.pd/files/wpp2022_summary_of_results.pdf

Kanbir, Ö. (2011). Endüstriyel Tarımın Krizi ve Küba Tarımı, Praksis Dergisi, 25: 49-68.

Demirer, G. N., Demirer, T., Doğmuş, E., Duran, M., Görgün, T., Hünler, K., Özbolat, N. K., Özbudun, S., Orhanagzi, Ö., Yapıcı, K. (1999). YDD Kıskacında Çevre ve Kent. Ankara: Ütopya.

Foster, J. B. (2012). Marksist Ekoloji. B. Baysal(çev). İstanbul: Kalkedon.

Diamond, Jared, (2006) Çöküş, Elif Kıral (çev.), İstanbul: Timaş, 1. Baskı

Keyder, Ç, Yenal, Z. (2013). Bildiğimiz Tarımın Sonu, Küresel İktidar ve Köylülük. İstanbul: İletişim

Foster, John Bellamy ve Fred Magdoff , (2002), "Liebig, Marx ve Toprağın Verimliliğinin Tükenişi", Tarım Bolluk İçinde Yoksulluk, A.Başer Kafaoğlu (çev.), İstanbul: Kaynak

https://www.maktoloji.com/2018/09/endustriyel-tarmn-faydalar-ve-zararlar.html

Qocamanov, C., (2023). "ŞƏHƏRDƏ KƏND TƏSƏRRÜFATI" FƏALİYYƏTİNİN TƏŞKİLİ VƏ İNKİŞAFININ İQTİSADİ SƏMƏRƏLİLİYƏ TƏSİRİ

file:///C:/Users/user/Documents/Downloads/20-ocak-sempozyumu-2023-kars.pdf

Smit, J., Nasr, J., Ratta. A. (2001). Urban Agriculture: Food Jobs and Sustainable Cities, The Urban Agriculture. Network INC.

Mougeot, L. J. A. (2000). Urban Agriculture: Definition,Presence, Potentials and Risks,and Policy Challenges. International Development Research Centre (IDRC). Cities Feeding People Series. Erişim. http://idlnc.idrc.ca/dspace/bitstream/10625/26429/12/117785.pdf. (12.08.2015).

Community Food Security Coalition, (2007). The North American Urban and Peri-Urban Agriculture Alliance. erişim www.foodsecurity.org/NAUPAA_description_Nov_2007.pdf. (13.08.2015)

Armstrong, D. (2000). A survey of community gardens in upstate New York: Implications for health promotion and community development. Health & Place, 6, 319–327, PII: S 1 3 5 3 - 8 2 9 2 ( 0 0 ) 0 0 0 1 3 – 7

Corrigan, M. P. (2011). Growing what you eat: Developing community gardens in Baltimore Maryland. Applied Geography, 31(4), 1232–1241, doi:10.1016/j.apgeog.2011.01.017

Larsen, K, & Gilliland, J. (2009). A Farmers Market in a Food Desert Evaluating Impacts on The Price and Availability of Healthy Food. Health & Place, 15(4). 1158–1162. doi:10.1016/j.healthplace.2009.06.007.

Ayman, D. (2004). Kentte Ekolojik Bahçeler. erişim http://www.bugday.org/portal/haber_detay.php?hid=22. (27.08.2015)

# Investigating the Impact of ICT Use on Per Capita Electricity Consumption

**Askarova Feruza**

**Tashkent State University of Economics**

## Abstract

The Hongkong and Shanghai Banking Corporation (2021). Macro insight: semiconductor chips in short supply. https://www.assetmanagement.hsbc.bm/en/institutional-investor/news-and-insights/semiconductor-chips-in-short-supply (Erişim Tarihi:07.04.2023)

Turan, Haldun (2018). "Küresel Rekabet Ortamında Bilişim Teknolojisinin Tedarik Zinciri Yönetimi Üzerine Etkileri", Uluslararası Sosyal Araştırmalar Dergisi, 11 (61), 1025-1030.

Üstündağ, A., ve Ungan, M. C. (2021). Covid-19 Sürecinde Tedarik Zinciri Risk Yönetimi. İçinde M. Akbolat ve Ö. Ünal (Ed.), COVID-19 Pandemisinde İşletme Yönetiminin Dönüşümü (ss. 107 127). Gazi Kitabevi

Yıldıran, M. (2021). Küresel salgından sonra enflasyon trendleri: Küresel piyasalarda ve Türkiye üzerine gözlemler. U. Sandalcı, İ. Sandalcı ve E. Öz (Ed.), Küresel mali sorunlar ve muhtemel çözümler içinde (s. 483-505). Legal Yayıncılık.

Zhu, S. (2018). Supply Chain Risk Management in Automotive Industry, University of Windsor.

# Reklam Səmərəliliyinin İstehlakçı Perspektivindən Qiymətləndirilməsi və Reklamda Səmərəliliyə Təsir Edən Emosiyalar

**Səma Bayramlı**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**bayramlisema@gmail.com**

## Xülasə

Bu məqalədə reklam səmərəliliyinin istehlakçı tərəfindən qiymətləndirilməsinə nəzər yetirilmişdir. Həmçinin reklam emosiyalarının istehlakçılara necə təsir etdiyinə toxunulmuşdur. Hər bir şirkət rəqabət şəraitində öz davamlılıqlarını qorumaq üçün məhsul və xidmətlərini düzgün şəkildə yerləşdirərək mənfəət əldə etmək istəyirlər. Bu məhsul və xidmətlərin satışı isə artıq istehlakçıların istəklərinə və arzularına görə formalaşır. İstehlakçıların arzu və gözləntilərinə cavab verə bilmək üçün məhsul və xidmətlərin tanınabilirliyini artırmaq lazımdır. Bu tanınabilirlik isə marketinqin ən önəmli silahlarından biri olan reklam vasitəsilə həyata keçirilir. Bu məqalədə də reklamın şirkətin satışlarının artırılmasında nə qədər önəmli olmasına nəzər yetirilmişdir. İstehlakçıların məhsulları alarkən nəyə diqqət yetirdiyi və hər gün qarşılarına çıxan reklamlara necə reaksiya verdiyini öyrənmək reklam səmərəliliyinin artırılmasında mühüm rol oynayır. Məhsul və xidmətlərin tanınabilirliyini artırmaq üçün reklamdan istifadə edilsə də bu üsulun yetərli olacağını demək çətin olacaqdır. Reklam hədəf istehlakçılar tərəfindən bəyənilməli və onları alışa yönləndirməlidir. Reklam səmərəliliyinin artırılması şirkətlərin öz markalarının xatırlanabilinirliyinin artırılması üçün önəmli proseslərdən biridir. Bu araşdırma reklamın istehlakçının satın alma davranışına təsirini və istehlakçı baxımından reklamın məhsul və xidmət alışlarında dəyişən xüsusiyyətə malik olub-olmadığını müəyyən etmək üçün aparılmışdır.

**Açar sözlər**: Reklam səmərəliliyi, istehlakçı perspektivi, emosiyalar, reklam

## Abstract

This article examines consumer evaluation of advertising effectiveness. It was also touched on how advertising emotions affect consumers. Every company wants to profit by positioning their products and services correctly to maintain their sustainability in the competitive environment. The sale of these products and services is already formed according to the wishes and desires of consumers. In order to meet the wishes and expectations of consumers, it is necessary to increase the recognition of products and services. This recognition is carried out through advertising, which is one of the most important weapons of marketing. This article also looks at how important advertising is in increasing the company's sales. Learning what consumers pay attention to when buying products and how they react to the advertisements they encounter every day plays an important role in improving advertising effectiveness. Even if advertising is used to increase the recognition of products and services, it will be difficult to say that this method will be sufficient. The advertisement must be liked by the target consumers and lead them to purchase. Increasing advertising efficiency is one of the important processes for increasing the memorability of companies' brands. This study was conducted to determine the effect of advertising on consumer purchasing behavior and whether advertising has a variable effect on product and service purchases from a consumer perspective.

**Keywords**: Advertising effectiveness, consumer perspective, emotions, advertising

## Giriş

**Aktuallıq**: Müasir dövrdə hər hansı bir şirkəti öz məhsul və xidmətlərini reklamdan istifadə etmədən müştərilərə təqdim etdiyini görmək çətindir. Böyüklüyündən asılı olmayaraq hər bir şirkət öz məhsul və xidmətlərini bir çox marketinq kommunikasiya vasitələrindən istifadə edərək

müştərilərə çatdırmağa çalışır.Bu tələb isə reklamın nə qədər önəmli bir mövzu olaraq dəyələndirməli olduğunun göstəricisidir.

Reklam səmərəliliyinin nə üçün vacib olduğu sualımıza reklamın üstünlükləri və təsirlərindən danışaraq cavab verə bilərik. Reklamın iki faydası var: birincisi şirkət üçün, ikincisi isə istehlakçı üçün. Reklamın əhəmiyyəti və onun şirkətə verdiyi töhfələr dedikdə aşağıdakıları göstərə bilərik:

- Firmaya bazarda rəqabət aparmağa imkan verir.
- Firmaya hədəf istehlakçılara çatmaq imkanı verir.
- Firmalara öz məhsul və xidmətlərinin xüsusiyyətlərini təsvir etməyə imkan verir.
- Firmalara müştəriləri ilə ünsiyyət qurmağa və bağlanmağa imkan verir.
- Brend sadiqliyini artırır.
- Firmanın tanınmasına kömək edir və nüfuzunu artırır.

**Tədqiqatın əsas məqsədi** reklam fəaliyyətinin istehlakçılara təsiri və reklamda istifadə edilən emosiylarla istehlakçıları necə məhsul alışına cəlb etməyi öyrənməkdir.

**Tədqiqatın vəzifələri:**

- Reklamın fərqli istehlakçılara necə təsir etdiyini müəyyən etmək
- Reklamda istifadə edilən emosiyaları müəyyən etmək
- Reklam fəaliyyəti səmərəliliyinin şirkətlər üçün önəmini müəyyən etmək
- İstehlakçıların reklamı hansı xüsusiyyətlərinə görə dəyərləndirməsini müəyyən etmək

**Metodologiya:** Tədqiqatın hazırlanmasında analiz, məntiqi və səbəb-nəticə metodlarından istifadə edilmişdir. Bu mövzuyla bağlı əvvəlki tədqiqatların nəticələri analiz edilmişdir. İstifadə edilən analiz metodunun seçilməsinin əsasını reklam mövzusunda hal-hazırda mövcud olan bir çox tədqiqat işi təşkil edir. Səbəb-nəticə metodunun seçilməsi isə əsasən reklam fəaliyyəti və onun səmərəliliyinin ölçülməsi və yüksəldilməsi ilə bağlıdır.

**Tədqiqatın məhdudiyyətləri:** Reklam fəaliyyətinin səmərəliliyi ilə və reklamda istifadə edilən emosiyalarla bağlı Azərbaycan dilində ədəbiyyatın azlığı məhdudiyyətlər arasındadır.

**Tədqiqat işinin nəzəri-metodoloji əsaslarını** Azərbaycan və xarici ölkə iqtisadçılarının araşdırmaları, bu araşdırmaların nəticələri təşkil edir. Həmçinin reklam haqqında son illər aparılan araşdırmalar təşkil edir. Tədqiqat araşdırması zamanı əsasən 2007-dən 2022-ci illərə qədər yayımlanan məqalələrdən istifadə edilmişdir. Tədqiqat araşdırmasında əsasən reklam fəaliyyəti səmərəliliyi ilə bağlı araşdırma edən Bakır, N.O., Baydaş A., Yaşar M.E., Ahned S., Ogilvy D. və sair tədqiqatçıların əsərlərindən istifadə edilmişdir.

**Reklam və Reklam Fəaliyyəti Səmərəliliyinin Əhəmiyyəti**

Reklam fenomeni dünya miqyasında əhəmiyyət kəsb edən və bütün dünyada sürətlə yayılan məhsula çevrilmişdir. Bu gün kütləvi informasiya vasitələri dünyanın ən ucqar guşələrinə yayılıb və təsir dairəsini genişləndirib. Sahənin bu qədər genişlənməsi bir çox kütləvi informasiya vasitələrini, xüsusən də televiziyanı mədəni yayma vasitəsinə çevirdi. Çünki bugünkü dünyada mesajların ötürülməsi yalnız kütləvi şəkildə həyata keçirilir. Reklam fenomeninin əsas vəzifəsi qlobal kapitalist sisteminin özündən gözlədiyi istehlak meyllərini üzə çıxarmaqdır. Reklamlar kütləvi informasiya vasitələri ilə trendin müəyyən edilməsi prosesini həyata keçirir.

Şirkətlər öz reklam fəaliyyətini planlayarkən hədəf kütləni müəyyən etməli və həmin hədəf kütləyə uyğun reklam hazırlamalıdır. Hazırlanan reklamlar istehlakçıların anlaya biləcəyi şəkildə olmalı,

qarışıq olmamalı, sadə və emosioal həmçinin reklam edilən məhsul haqqında məlumat verməlidir. Yüksək keyfiyyətli və kreativ reklam həmişə satınalma ilə nəticələnməyə bilər. Buna səbəb reklamlara istehlakçı perspektivindən baxılmır və dəyər verilmir. Yəni reklamı hazırlayarkən istehlakçının bu reklama reaksiyasını nəzərə almaq lazımdır. Reklam səmərəliliyinin istehlakçı perspektivindən dəyərləndirilməsi şirkətlərə iqtisadi baxımdan fayda verəcəkdir.

Bu gün firmalar hər bir istehakçı haqqında məlumatı kəşf etmək və bu məlumatlara əsaslanan reklamlarla onlara çatmaq üçün görünməmiş və sürətlə inkişaf edən qabiliyyətə malikdir. İstehlakçılar firmanın məhsulundan yalnız həmin firmadan reklam aldıqda xəbərdar olurlar. Firmalar reklamlarla hansı istehlakçıları hədəf alacaqlarına qərar verirlər. Firma hər bir istehlakçı üçün onun məhsulu ilə həmin istehlakçı arasında uyğunluğun olub-olmaması barədə məlumat alır (Kotler, 2006).

Reklam bugünkü istehlak cəmiyyətinin inkişafı üçün işləyən mühüm alətlərdən birinə çevrilmişdir. Reklam vasitəsilə yaradılacaq əsas tendensiyalardan biri alış meylidir. Bu meyli üzə çıxarmaq üçün fərqli inandırma üsullarından istifadə etmək mümkündür. Ancaq bu alış meylinin üzə çıxması zamanı bir problem ortaya çıxır. Reklamlar insanların həyatını yenidən qurmaq funksiyasını yerinə yetirir. Çünki insanlarda meyil və ya asılılıq yaradarkən, insanların əvvəllər düşündüklərindən, bildiklərindən, hiss etdiklərindən fərqli şərh etmək lazımdır. Ona görə də bir məhsulun alınmasını təmin etmək fərdin fərqli şəkildə düşünməsinə, hiss etməsinə və məlumatlandırılmasına səbəb olacaqdır. Reklamların əsas məqsədi alış meyli yaratmaq ola bilər. Lakin əsas odur ki, reklamlar bunu edərkən insan həyatına və zamanına yenidən anlam verərək onda həmin məhsulları alması üçün həvəs yaratsın (İmanov, 2013).

Reklam effektivliyini artıran ən önəmli faktorlar reklamda keyfiyyət, qiymət, görüntü, reklamın ssenarisi, reklam mətni, reklamda istifadə edilən yumor, reklamda istifadə edilən insanlar (məşhurlar), reklamda istifadə edilən musiqidir.Televiziya və internet reklamı ilə müqayisədə küçə reklamları, radyo reklamları, jurnal və qəzet reklamları daha zəif reklamlardır.

Reklam konsepsiyası; istər sözün mənası baxımından, istərsə də sözün mənşəyi baxımından; oxşar mənaları yanaşmaları ortaya qoyur. “Reklam sözü bir çox dillərdə "Advertisement" sözü ilə işlənir. Bu sözün kökü latınca “advertero” sözüdür; İki əsas hissədən ibarət olan bu sözdə “ad” “bir şeyə/yan tərəfə”, “vertero” isə “dönmək” mənasındadır “ (Bernard,2002 və Cengiz, 2009).

Reklam istehlakçılarda yeni vərdişlər yaradaraq məhsul və xidmətlərin satılması üçün fayda yaradır. Artıq bir müddət içərisində istehlakçılarda yaranan yeni vərdişlər, onların verilən reklamlarla yeni zövqlərinin yaranması rəqiblərin bazarda yerləşə bilməmə və yeni məhsul ilə bazara çıxa bilməmək vəziyyəti ilə qarşılaşırlar (Baydaş və Yaşar, 2019).

Amerika Marketinq Assosiasiyası, reklamı; “fikirlərin, malların və ya xidmətlərin müəyyən bir qiymət ödəməklə təqdim edildiyi qeyri-şəxsi təqdimat forması” kimi müəyyən edir” (Richards və Curran, 2002).

Əslində reklam müasir dövrdə bir çox şirkətin rəqabət apara bilməsi üçün öz məhsulları üzərindən istehlakçılarda böyük gözləntilər yaradır. Ancaq bəzi yazarlara görə (Keane, 2010) reklam şirkətlərin rəqabət aparması üçün yox istehsal və marketinq fəaliyyətlərinin dəyərlərini aşağı saldığı üçün ümumi qiymətlərin də azalmasına təsir edir. Keaneyə görə reklam həmçinin radio, televiziya və digər medya yayımlarına dəstək üçün də bir nömrədir.

Dünyada istehlakçılar üçün məhsul istehsal edən həddindən çox şirkət vardır. Reklam şirkətləri isə böyük şirkətlər olaraq bu sahəni idarə etməyə çalışır. Bəzən reklam o qədər bilinən bir sahə kimi

görünür ki, istehlak malları istehsal edən şirkətlərdən belə daha çox mənfəət qazanan reklam şirkətləri qarşımıza çıxır (Pergelova, Prior və Rialp, 2010).

İnsanlar reklamdan təkcə nə alacağını, nə yeyəcəyini, nə ilə əylənəcəyini və ya nə geyinəcəyini öyrənmir, həmçinin necə düşünəcəyini, necə hiss edəcəyini də öyrənir. Reklamlar həmçinin bir şeyə meyl yaratmaq üçün inandırma fəaliyyətidir. İstehlak mallarını və ya xidmətləri reklam edərkən həmdə insanların məhsullara qarşı münasibətini də dəyişmək mümkündür. Reklamlar insanları istehlakçıya çevirən ünsürdür.

Reklamın xarakteristikasını nəzərdən keçirsək (Axundbəyli, 2016):

- Reklamın məlumat xarakteri. Reklam istehlakçıya məhsullar haqqında məlumat verməklə yanaşı, məhsulu digər rəqiblərin məhsullarından fərqləndirmək bacarığına da malikdir.
- Reklamın təsiretmə xarakteri. Reklam istehlakçılara müxtəlif yollarla təsir edə bilər. Bunlar müxtəlif rənglər, şriftlər, səslər və şəkillərdən istifadə etməklə şirkətin öz məhsullarını əhəmiyyətli dərəcədə təqdim etməsinə yarayır.
- Reklam effektinin ölçülməsi qeyri-müəyyəndir. Reklamın qəbuledilmə müddəti gec olduğundan bu proses də qeyri müəyyən olaraq qəbul edilir.
- Reklam birbaşa əlaqə vasitəsi deyil. Yəni istehlakçı reklam verən firma ilə birbaşa əlaqədə olmur. Şirkət kütləyə fərqli kütləvi informasiya vasitələrindən istifadə etməklə çatmağa çalışır.

“Reklam-fiziki və hüquqi şəxslər, əmtəə, ideya və yeniliklər (reklam informasiyası) haqqında marağı formalaşdırmaq və ya bu marağı saxlamaq, əmtəənin satılmasına, ideya və yeniliklərin həyata keçirilməsinə kömək göstərmək məqsədilə yayılan informasiyadır” (“Reklam haqqında Azərbaycan Respublikasının qanunu”, 1997).

Reklam marketinq sahəsinin ən önəmli hissələrindən biridir. Reklam məhsul və xidmətlər haqqinda istehlakçılara düzgün məlumat verməli, məhsulların xüsusiyyətlərini dəqiq şəkildə təqdim etməlidir. Ancaq reklamın informasiya verərkən həmçinin məhsulun istehlakçılar tərəfindən alınması üçün onlara psixoloji və emosional olaraq təsir də edir. Ona görə də reklama həmdə sənət- inadırma və təsiretmə sənəti də demək olar.

Yayılmasına görə reklamları bir neçə yerə bölə bilərik. Bunlara:

- Radio və televiziya reklamları
- Outdoor- küçə reklamları
- Qəzetlərdə və jurnallarda yayımlanan reklam
- Çap formasında reklam
- İnternet reklamları (sosial media və internet səhifələrində yayımlanan reklamlar.)

Bu reklamların hər birinin izləyici kütləsi fərqli ola bilər. Həmçinin belə fərqli kanallardan yayımlanan reklamların təsiretmə gücü də fərqli olur. Bu yayım vasitələri ilə yayımlanan reklam fəaliyyətinin də səmərəliliyinin ölçülməsi prosesi daha çətin başa gəlir. Çünki bəzi reklamlar- məsələn outdoor reklamları, bu reklamlara neçə şəxs tərəfindən baxıldığını demək olduqca çətindir. Həmin reklamlar sözsüz ki bir çox insana təsir göstərir. Yalnız həmin reklamların təsiretmə gücü də o reklamın yerləşim yerindən asılıdır. Televiziya və radio insanlara ən çox təsir edən yayım vasitələrindən biridir. Azərbaycan üzərindən baxdıqda televiziya reklamları izləyicilərə ən çox təsir edən reklamlardır. Yalnız bu reklamları da səmərəliliyinin ölçülməsi çətin olan reklamlara daxil edə bilərik. Televiziya reklamlarının üstünlüyü onun əhatə dairəsinin çox olmasıdırsa, zəifliyi səmərəliliyin ölçülməsi çətinliyidir. Ancaq internet reklamlarına baxdıqda bu reklamların

səmərəliliyinin ölçülməsinin asan olduğu görüləcəkdir. Çünki internet reklamlarında izləyicilərin yaş ortalamasından, cinsindən, hansı məhsullar qarşısında daha seçici olduğundan belə məlumatımız olur. Bu proses də bizə həmin reklamların səmərəliliyinin ölçülməsində asanlıq verir.

İndi isə reklamın növlərinə nəzər salaq (Aşurov, 2016):

- **Biznes reklamı:** əsasən biznes jurnallarında çap edilən bu reklamlar sənaye müəssisələrinə və topdan pərakəndicilərə və satıcılara məlumat vermə xarakteri daşıyır.
- **Siyasi reklam:** Bu reklam adətən siyasətçilərin özlərinə səs yığa bilməsi üçün reklam agentliklərinə hazırlatdığı reklamlardır. Bu reklamlar insanlar arasinda çox zaman mübahisələrə səbəb olur. Misal olaraq ABŞ-da seçki zamanı namizədlərin reklam edilməsini deyə bilərik
- **Məlumat reklamı**: Bu reklamlar məlumat xarakterli olub bəzi məhsul və xidmətlərin hardan əldə oluna biləcəyi və necə əldə ediləcəyi barədə informasiya verir.
- **Müəssisə reklamı:** Bu reklamlara həmçinin imic reklamı da deyə bilərik. əsasən hər hansı bir təşkilatı tanıtmağa imkan verir.
- **Sosial reklam:** Belə reklamlara adətən siqarət çəkmək ilə bağlı və ya içkili maşın idərəsi ilə bağlı reklamları misal çəkə bilərik. Belə reklamlar əhalinin rifahına pis təsir edəcək proseslərdən yayınmağı vurğulayır.

Reklamlar adətən yayımlanmamışdan öncə bir plan hazırlanır. Hər hansı bir reklam kampaniyası hazırlanarkən həmin reklamın harada, necə, hansı saatlarda, hansı xərclərlə idarə ediləcəyi əvvəlcədən müəyyən edilir. Rəqiblərin analizi, reklamın nə zaman aralığında yayımlanacağı, kimlərin bu reklamı görəcəyi də qurulan planın əsas xüsusiyyətlərindən biridir. Əgər rəqiblər öz reklam fəaliyyətlərini gözlənilməz vəziyyətdə gücləndirəcəksə bu zaman şirkətdə öz planını əlavə resursları ehtiyatda saxlamağa çalışmalıdır. Reklamın strateji olaraq düzgün istiqamətdə verilməsində reklam daşıyıcılarının da önəmi böyükdür (Özkan, 2014).

Reklam səmərəliliyi dedikdə reklamın həm psixoloji həm də iqtisadi səmərəliliyi nəzərdə tutulur. İqtisadi səmərəlilik əsasən məhsul və xidmət satışının artımı ilə- yəni əmtəə dövriyyəsinin artımı ilə müəyyən olunur. Reklamın iqtisadi effektivliyi ölçüməsi çətin proseslərdən biridir. Çünki bu zaman olan satış artımı reklam yayımlandıqdan sonra baş verəcəkdir ki, bu artımın sırf həmin reklamdan olması müəyyən etmək çətindir. Buna görə də reklamın iqtisadi effektivliyini ölçərkən satışlara təsir edəcək hər amili nəzərdən keçirmək lazımdır. Nəticələr heçdə yalnız reklamdan qaynaqlanmayacaqdır. Bunu da qeyd etmək lazımdır ki, reklamın iqtisadi səmərəliliyinə o zaman çatmaq olar ki reklama çəkilən xərclər məhsul və xidmət satışından əldə edilən gəlirdən az olsun. əgər bu rəqəm eynilik göstərərsə bu zaman reklam fəaliyyəti nəticələrinin zərərsiz olduğu deyə bilərik (Paşayev, 2010).

**Reklam Səmərəliliyinin İstehlakçı Perspektivindən Qiymətləndirilməsi.**

Şirkətlər reklam vasitəsi ilə həm indiki həm də yeni gələcək müştərilərə təsir edərək onları həmişəlik istehlakçılara çevirməyə çalışırlar. Ona görə də reklamçılar tərəfindən planlaşdırılan reklam büdcəsi, reklamdan gələn gəlirin hesablanması reklam səmərəliliyinin ölçülməsi üçün vacib addımlardır.

Reklam həmçinin istehlakçıların emosional bağ qura biləcəkləri bir prosesdir. İstehlakçı bir reklamdan özündə nəsə tapırsa bu onun emosional olaraq da təsirlənə biləcəyinin göstəricisidir.

Reklam hədəf kütlənin bir brendin məhsullarını istifadə etməyə və yoxlamağa sövq etməli və kreativ və orjinal məzmuna sahib olmalıdır. Reklam istehlakçıların diqqətini özünə yönləndirməyi

bacarmalıdır. İstehlakçılar həm görüntü olaraq həm də səs olaraq məhsul haqqındakı məlumatları başa düşə bilməlidir. Reklam elə qurulmalıdır ki, brend və şirkətin imicinə zərər verməməli və bu brendi istehlakçılara tanıtmalıdır. Şirkətlər həmişə reklamdan mənfəət əldə etmək üçün və brendin uğur qazanması üçün istifadə edirlər. Həmçinin şirkətlər həmişə ticarətdə uğur qazanmaq üçün də reklamın dəyərini anlayır və onu inkişaf etdirməyə çalışırlar (Bakır, 2007).

Ümumilikdə reklamlar istehlakçıların ətraf aləmdəki dəyişikliklərə necə reaksiya verdiyinə təsir edir. Reklamlar istehlakçıların vəziyyətini, onların sosial aləmdə yerini və yaşayış tərzini müəyyən edərək istehlakçıların satışa yönəlimini artırmağa çalışır. "Reklam adətən televiziya, qəzet, radio, jurnallar, açıq hava reklamları və ya bloqlar, vebsaytlar və mətn mesajları kimi müxtəlif ənənəvi mediaya çatan bəzi sponsorlar tərəfindən ödənilən təşviqat formasıdır" (Ahmed, 2013).

Reklamın necə idarə ediləcəyi illər boyu bir çox marketoloq və reklamçı tərfindən araşdırma mövzusu olmuşdur. Əvvəlcə də qeyd etdiyimiz kimi reklam istehlakçıların satınalma davranışlarına təsir edir. Bu proses isə çox zaman istehlakçının bu reklamı bəyənib bəyənməməsindən asılıdır. Bəzi məhsullara aid olsada bəzən istehakçılar bir məhsulu sırf reklamda gördüyü məlumatlara görə dəyərləndirir.

Hər bir reklam bilindiyi kimi bir "reklam mesajı" verməyi hədəfləyir. Reklam mesajı istehlakçılarda bir reaksiya hədəfləyən reklamda deyilən, görülən və eşidilən hər şeydir. Reklamlarda istifadə edilən rəng, söz, simvol və digər görüntülər reklam mesajıdır. Bu sayılan məhfumlar hər biri hədəf kütləsinə görə seçilməlidir. Reklam mesajı düzgün seçilən reklamlar uğurlu olacaq və hədəf kütlənin diqqətini çəkəcək.

Reklam səmərəliliyinə istehlakçı perspektivindən baxdıqda, istehlakçılar reklamları aşağıdakı xüsusiyyətlər üzrə dəyərləndirə bilər:

- Reklamda keyfiyyət önə çıxdıqda səmərəlilik artar.
- Reklamda brend önə çıxdıqda səmərəlilik artar.
- Reklamda məhsul və xidmətlərin qiymətinin vurğulanması səmərəliliyi artırar
- Reklamda görüntünün ön plana çıxması səmərəliliyi artırar
- Reklamda ssenarinin önə çıxması reklam səmərəliliyini artırar
- Reklamda rahatlıq vurğulanırsa səmərəlilik artar
- Reklamda musiqi varsa bu reklam səmərəliliyini artırar
- Reklamın gülməli olarsa səmərəlilik artar
- Reklamda məhşur insanlar varsa reklam effektivliyi artar
- Reklamın diqqət çəkməsi reklam səmərəliliyini artırar
- Bundan başqa istehlakçılar reklamları dəyərləndirərkən aşağıdakı ifadələrədə önəm verir.
- Reklam ümumiyyətlə bir məhsulu almağa təsir edir
- Reklam məhsul və xidmətlər barədə məlumat verir
- Yaxşı planlanmış reklam cəmiyyətin bir məhsula qarşı fikirlərini dəyişdirə bilər
- Reklamı olan brendlərə insanlar daha çox güvənir
- Reklam axtarılan məhsul haqqında istehlakçılara yol göstərir
- Reklam satın alınma səviyyəsinə və zamanına təsir edir
- Reklam eyni xüsusiyyətə və görünüşə malik olan iki məhsul arasında cəmiyyətdə qarışıqlığa səbəb ola bilər
- Cəmiyyətin ön planda olduğu reklamlar o reklamın inanılır olmasını artırır
- Məhşur tv verilişləri və seriallar arasında verilən reklamlar daha yadda qalıcıdır.

- Reklamlar toplu istehlak qaydalarına təsir edir. (Baydaş və Yaşar, 2020)

**Reklamda Səmərəliliyə Təsir Edən Emosiyalar.**

Reklamda istifadə edilən emosiyalara baxaq. Marketoloqlar emosiyalardan əsasən istehlakçıların diqqətini çəkməsi, məhsul xatırlana bilirliyini artırması, istehlakçıların məhsul haqqında məlumatları digərləri ilə paylaşması və istehlakçıların məhsulu satın alması üçün istifadə edir. Bu emosiyalar adətən istehlakçıların reaksiyasını müəyyən etmək üçün kədər, qorxu, sevinc və qəzəb ola bilir. Reklamda emosiyalar insanlara ürəkləri ilə qərar qəbul etməyə kömək edir. Məsələn xoşbəxtlik və ya sevinc hissi insanları paylaşmağa sövq edir. Buna daha geniş şəkildə baxsaq insanlar xoşbəxt hiss etdiyi hər hansı bir reklamı sosyal medyada və digər yerlərdə paylaşacaq və bu da marka bilinirliyinin artmasına gətirib çıxaracaq. Reklamlarda kədər hissi isə əsasən qeyi-hökumət təşkilatları tərəfindən istifadə edilən emosiyadır. Həmin təşkilatlar öz reklamlarında kədərli musiqilərdən və ya insanları duyğulandıran şəkillərdən istifadə edərək insanlarda kədər hissi yaradır və bu da insanların digərlərinə kömək etmək və ya özlərini onların yerinə qoyma bacarığını tətikləyir. Qorxu isə adətən sosyal reklamlarda qarşımıza çıxır. Bu emosiyalardan istifadə edilərək yaradılan reklamlar insanları nəyisə etməkdən çəkindirə bilir. Bütün bu emosiyalar reklamda istifadə edilərək insanlar üzərində böyük təsirə malik ola bilər (Frijda və Nico, 1987).

Müasir dövrdə istehlakçılar məhsul alışını müəyyən bir ön araşdırma və müəyyən bir vaxt çərçivəsində həyata keçirirlər. İstehlakçıların bir məhsul və ya xidmətin reklamından aldıqları emosiyalara görə satınalma davranışlarının dəyişiklik göstərdiyini demək yalnış olmazdı. İnsanlar bir şey haqqında az məlumata sahibdirsə onların həmin mövzuda emosional olaraq təsirlənmələri daha çox gözə çarpır. Buna misal olaraq pandemiya dövründə çəkilmiş reklam filmlərini göstərə bilərik. Bu filmlərdə emosiyalardan qorxu həmişə ön plana çıxırdı. İnsanlar bir xəstəlik haqqında geniş məlumata sahib olsalar da tibbi baxımdan bəzi ifadələri anlamaqda çətinlik çəkə bilər. Lakin reklamda hər hansı bir emosiyadan istifadə etməklə insanlara təsir edilə bilər. Məsələn pandemiya dövründə göstərilən reklamlardan birində Covid-19 xəstəliyindən əziyyət çəkən bir xəstənin nəfəs almaqda necə çətinlik çəkə biləcəyi göstərilir (TC Sağlık bakanlığı “yoğun bakım” reklam filmi, 2020). Bu proses sadəcə görüntü və səslərdən istifadə edilərək göstərilsədə insanlarda qorxu hissi yarada bilir. Bunu isə insanlara reklamlarda emosiyalarla necə təsir edilə biləcəyi şəklində açıqlaya bilərik. Duyğu belə zamanlarda insanları daha çox inandırma qabilliyətinə sahib olur. Reklamcılar duyğulardan elə istifadə edirlər ki, istehlakçılar təsirlənərək həmin marka ilə bir bağ yaradır. Bunun nəticəsində istehlakçıların satınalma davranışları dəyişir. Reklamcılar insanları və emosiyaları nə qədər yaxşı tanıyarsa həmin insanlara təsir etmək daha asan və səmərəli olacaq. Misallarla aydınlaşdıraq. Azərbaycanda fəaliyyət göstərən kommunikasiya şirkətləri (Bakcell) reklam filmlərində “insanları birləşdirmək” yəni iki uzaq məsafədə yaşayan insanı bir biri ilə daha asan kommunikasiya etməsini təmin etmək kimi emosiyadan istifadə edir ( Bakcell VOLTE-ni təqdim edir reklam filmi, 2022 ).Belə reklam filmləri insanlara duyğusal olaraq təsir edir və həmin markalarla öz aralarında bir bağ yaradır.

İstehlakçılar reklam mesajını dəyərləndirərkən müsbət və ya mənfi emosiyalara uyğun şəkildə hərəkət edirlər.  Bu cür emosional mesajlar adətən insanlarda keçmişdən bir xatirə canlandırdığı üçün daha effektli olur. Məsələn “Azərsun” brendinin “sun” salfetləri reklam filmlərindən birində bir insanın 20 illik həyatında bu məhsulun yerinin önəmini vurğulamışdı (Azərsun Holdinq “SUN PAPER” reklam filmi, 2021). İnsanlar keçmişin də göstərildiyi bu reklamı görərkən , özlərindən nəsə tapıb duyğusal olaraq bu marka ilə bağlarını düşünürlər.

“Gündəlik həyatdan kadrlarla hədəf auditoriyada emosiyalar oyatmaq və ya yaşanan duyğuların yadda qalmasını təmin etmək və beləliklə də marka ilə insanların emosiyası arasında əlaqə qurmaq reklam mesajlarında tez-tez rast gəlinən bir strategiyadır” (Fijda və Nico, 1987). Reklamcılar emosialardan istifadə edərək məqsədlənən auditoriyanı satın almağa həvəsləndirməyə çalışırlar. Bu cəhdlər müştərilərin nə etməli və ya etməməli olduğunu göstərən qorxu və günahkarlıq kimi mənfi mesajlar ola bilər. Bu mesajlar həmçinin sevgi, yumor, qürur və əyləncə kimi müsbət mesajlar da ola bilər. Reklamlarda emosional mesajlardan istifadə bazarda olan rəqabət nəticəsində ortaya çıxır.

Sürətlə dəyişən iqtisadi şəraitdə marketinq anlayışının dəyişdiyi kimi reklam anlayışının da daha fərqli başa düşülsüyünü demək yalnış olmazdı. Əvvəlki illərdə reklamlar sadəcə məhsul haqqında bilinən məlumatları verməyi məqsədləyirdisə, indi artıq reklamlar çox daha geniş kütləyə çata bilmək üçün insan emosiyalarından istifadə edir. Buna görə də reklamcılar satinalma davranışın təsir etmək üçün reklamlarda emosional mesaj verməyi hədəfləyir. Reklam dedikdə ağla gələn ən önəmli adlardan olan David Ogilvy reklamcıların ortaq probleminin inandırmaq olduğunu deyir. Bundan əlavə onun sözlərinə görə inandırmaq probleminin həlli yolu kimi reklam mətnlərində emosionallığın istifadəsini göstərir. Ogilvy-in sözlərinə görə reklam mətnlərini daha güclü etmək üçün “sevgi, qürur, qorxu” və sair kimi emosiyalardan reklam dilinin bir ünsürü kimi istifadə etmək lazımdır (Ogilvy, 1989). Emosiyalar istiqamətləndirilərkən mümkün olduğu qədər ağılda qalıcı mesajlarla bərabərliyin qorunması vacibdir (Anholt, 2003).

**Nəticə və Təkliflər**

Bugün reklamlar sadəcə məhsul və xidmətlər haqqında məlumat verib istehlakçıların marağını çəkən marketinq kommunikasiya vasitəsi olmaqdan çıxıb. Xüsusilə digital texnologiyanın və sosial medianın inkişafı ilə markalar istehlakçıların qəlbinə toxunaraq marka xatırlanabilirliyini artırmaq üçün hekayələr danışmağa çalışır. Artıq markaların hədəfi insanların üzərində uzun müddət danışıb mübahisə edəcəyi reklamlar yaradaraq marka imicini artırmaqdır. Ümumiyyətlə reklam fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi sahəsində müxtəlif metod və üsullarlardan istifadə edilə bilər. Şirkətlərin əsas vəzifələrindən biri də reklam səmərəliliyinin müəyyənləşdirilməsi ilə bağlı bu metodların tapılmasıdır. Reklam səmərəliliyinin iqtisadi və psixoloji qiymətləndirilməsi şirkət və istehlakçı perspektivindən önəmli sahə olub, marketinq kommunikasiya prosesinin mühüm elementi hesab edilir.

Reklam səmərəliliyi mövzusunu bəzi araşdırmaçılar tədqiq etmiş və öz nəticələrini çıxarmışdır. Bu tədqiqatçılardan Baydaş A., və Yaşar M.-nın adını çəkmək olar. Onların bu mövzunu tədqiqindən çıxan nəticəyə görə təsiredici reklam xüsusiyyətləri və reklam funksiyaları istehlakçıların satın alma davranışına önəmli dərəcədə təsir göstərir. Müəssisələr hədəf auditoriyada olan istehlakçıların diqqətini cəlb etməli, onları almağa inandırmalı və reklam və digər tanıtım elementlərindən istifadə edərək, davamlılığa, böyüməyə, cəmiyyətə xidmətə, maliyyə dəyərini artırmağa və ya satın alma qərarlarını verməyə həvəsləndirməlidir. Reklam kütləvi təşviqə töhfə verdiyi üçün hədəf auditoriyanı məlumatlandırmaq, satınalma qərarlarını qəbul etmək üçün ən təsirli marketinq kommunikasiyası elementlərindən biridir.

Reklam fəaliyyəti səmərəliliyinin artırılması üçün bəzi təkliflərə nəzər yetirək.

- Səmərəliliyin artırılması üçün reklamın hədəf kütləsi düzgün seçilməli
- Reklamın yerləşdirilmə zamanı və yerinin düzgün seçilməsi
- Reklamın anlaşılır olması və mürəkkəb məlumatları əhatə etməməsi
- Emosional və rasional reklamlardan istifadə edərək istehlakçıarı məhsul alışına cəlb etmək

- Reklamda istifadə edilən jingl və digər musiqilərlə reklamı həm əyləncəli etmək həm də marka adını təkrar-təkrar istehlakçının yaddaşına yeritmək
- Reklamda sevilən və tanınan məhşurlardan istifadə

Bu araşdırmanın nəticə və təkliflərindən reklam fəaliyyətinin yaxşılaşdırılması, istehlakçıların cəlb olunması, reklam səmərəliliyinin artırılması üçün istifadə edilə bilər. Bundan başqa müəllimələr və tələbələr həmçinin reklam sahəsinə marağı olan hər kəs istifadə edə bilər.

**Ədəbiyyatlar**


"Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1997

Ahmed S. (2013). İmpact of advertising on consumers' buying behavior through persuasiveness, brand image, and celebrity endorsement. Global Media Journal Vol. 6(2):149

Axundbəyli P., (2016), Reklam işinin təşkili və idarə edilməsi, Bakı, "İqtisad Universiteti", 416 səh.

Anholt S.,(2003). Brand New Justice: The Upside of Global Branding. "Butterworth-Heinemann", 180 p.

Bakır, N.O. (2007). Reklam etkinliği açısından tanınmış kişiler ve bir araşdırma. T.C. Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü İşletme Anabilim Dalı Üretim Yönetimi ve Pazarlama Bilim Dalı, İstanbul, s.24

Baydaş A., Yaşar M.E. (2019). Reklam ve etkili reklam unsurlarının belirlenmesine yönelik uygulamalı bir araşdırma. USOBED Uluslararası Batı Karadeniz Sosyal ve Beşeri Bilimler Dergisi, 3(2): 204-217,31

Baydaş A., Yaşar M.E. (2020). Reklam etkinliğinin tüketici perspektifinden değerlenmesi. Bingöl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, sayı 19

Cengiz E., Ayyildiz A., Er B., (2007), "Effects of image and advertising effiency on customer loyalty and antecedents of loyalty", Banks and Bank Systems / Volume 2, Issue 1.

David O.,(1989). Confessions of an Advertising Man. " Atheneum", London, 208 p.

Frijda, Nico H. 2 (1987). Emotion, cognitive structure, and action tendency. Cognition and Emotion, Volume 1, - Issue 2

https://www.youtube.com/watch?v=dxof082Yfz0

https://www.youtube.com/watch?v=EkPWJkG15sM

https://www.youtube.com/watch?v=tDK43kN3NhI

İmanov Ə., (2013), Biznes və reklam, Bakı, "Elm", 296 səh.

Keane J. (2010), The Media and Democracy, Sydney, Polity, 216 səh.

Kotler F.,(2006), Marketinq menecment, İmanov T.İ., Bakı, "İqtisad universiteti", 468 səh.

Özkan A., (2014), Reklam Yönetimi, İstanbul, "Aktif Matbaa ve Reklam Hiz. San. Tic. Ltd. Şti", 226 s.

Paşayev K.P., (2010), Kommersiya fəaliyyətinin əsasları, Bakı, "İqtisad Universiteti", 472 səh.

Paşayev K.P., (2010). Kommersiya fəaliyyətinin əsasları. Bakı, "İqtisad Universiteti", 472 səh.

Pergelova A., Prior D. and Rialp J., (2010), “Assessıng advertising efficiency: does the internet play a role?” Journal of Advertising , Vol. 39, No. 3 pp. 39-54.

Richards J., Curran C., (2013), “Oracles on “Advertising”: Searching for a Definition”, Journal of Advertising 31(2):63-77.

# Vergi Yoxlamalarının Aparılması İstiqamətində Vergi Nəzarətinin Təşkili

**İlkanə İslamova**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**ilkanaislamova@gmail.com**

## Xülasə

Vergi nəzarəti vergi mükəlləfləri ilə vergi orqanlarının vergi qanunları çərçivəsində qarşılıqlı fəaliyyətinə nəzarəti təmin edərək, vergi ədalətinə əsaslanmaqla potensial vergi qaynaqlarının tamamilə vergiyə cəlb olunmasını və vergiləndirmə prosesində mövcud problemlərin həll edilməsi məqsədilə vergi sistemində gərəkli dəyişikliklərin tətbiq edilməsini təmin edə bilməkdədir. Tədqiqat işinin əsas məqsədi vergi nəzarətinin həyata keçirilməsi mexanizminin vergi yoxlamalarının təşkil edilməsi istiqamətində vergidən yayınma hallarının qarşısının alınmasına və büdcəyə vergi daxilolmalarının həcmində artımın təmin olunmasına təsir dərəcəsinin müəyyən edilməsidir. Vergi nəzarəti iqtisadi, sosial və maliyyəvi proses olmaqla, vergi əxlaqı və mədəniyyətinin inkişafı, biznes mühitinin səmərəliliyinin artırılması, vergi cinayətlərinin sayının azaldılması, vergitutma prosesində ədalətlilik və şəffaflığın təmin edilməsi kimi məsələlərin həllində əhəmiyyətli rol oynadığı üçün aktuallığını saxlayan mövzudur. Bu tədqiqat işi vergi yoxlamalarının səmərəli şəkildə həyata keçirilməsi ilə vergi nəzarətinin davamlılığının təmin edilməsi ilə yanaşı, çevik vergi sisteminin qurulması və milli iqtisadi faydanın əldə olunmasının da mümkün olduğunu göstərməklə, vergi nəzarəti mexanizminin təkmilləşdirilməsinə nəzəri dəstək rolunu oynayır.

**Açar sözlər:** Vergi nəzarəti, vergi yoxlamaları, vergi sistemi, büdcə, səmərəlilik

## Abstract

Tax control provides control over the interaction between taxpayers and tax authorities within the framework of tax laws and is able to ensure that potential tax resources are fully taxed based on tax justice and to implement the necessary changes in the tax system in order to solve existing problems in the taxation process. The main goal of the research work is to determine the degree of influence of the tax control implementation mechanism on the prevention of tax evasion and the increase in the amount of tax revenues to the budget in the direction of the organization of tax audits. Tax control, being an economic, social and financial process, is a topic that remains relevant because it plays an important role in solving issues such as the development of tax morals and culture, increasing the efficiency of the business environment, reducing the number of tax crimes and ensuring fairness and transparency in the taxation process. This research work serves as a theoretical support for the improvement of the tax control mechanism by showing that it is possible to establish a flexible tax system and achieve national economic benefits, in addition to ensuring the continuity of tax control with the effective implementation of tax audits.

**Keywords:** Tax control, tax audits, tax system, budget, efficiency

## Giriş

**Mövzunun aktuallığı.** Azad iqtisadi münasibətlərin inkişafı, cəmiyyətdə fəal əhali kütləsinin artması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, dövlətin funksiyalarının icrasında mühüm rol oynayan büdcə vəsaitlərinin səmərəli idarə olunması, ictimai maraqların təmin edilməsinə xidmət edən islahatların həyata keçirilməsi Azərbaycanda aparılan iqtisadi siyasətin başlıca istiqamətlərindəndir. Milli səviyyədə reallaşdırılan islahatlar kompleksinə daxil olan vergi islahatları iqtisadiyyatın modernizasiyası prosesinin fəal iştirakçısıdır. Vergi islahatlarının mühüm istiqamətlərindən olan vergi nəzarətinin həyata keçirilməsi, nəinki Azərbaycanın, eləcə də hər bir dünya ölkəsinin iqtisadi-maliyyə sisteminin dayanıqlılığının təmin edilməsində həll edilməsi zəruri olan məsələlərdəndir. Son dövrlərdə Azərbaycanda da aparılan vergi

yoxlamaları, sadəcə fiskal funksiyaların icrasına xidmət etmir, eyni zamanda ölkədə intensiv və rəqabətqabiliyyətli işgüzar mühitin formalaşdırılmasının zəmini kimi çıxış edir. İcra hədəfləri daim təkmilləşdirilən vergi yoxlamaları qanunvericiliklə müəyyən edilmiş iqtisadi fəaliyyətin müxtəlif sahələrinin dəstəklənməsində tənzimləyici funksiya daşıyır. Vergi ödəyən şəxslərə elektron xidmətlərin göstərilməsi ilə fiziki əlaqə və vizual ünsiyyətin minimumlaşdırılması, vətəndaşları məlumatlandırma vasitələrinin və xidmət kanallarının genişləndirilməsi kimi islahatlar isə informasiya cəmiyyətinin tələblərindən irəli gəlməklə, avtomatlaşdırılmış vergi nəzarətinin inkişafını təmin edir.

**Tədqiqatın məqsədi.** Azərbaycanda iqtisadiyyatın tənzimlənməsi və şəffaflaşdırılması, əlverişli biznes mühitinin dəstəklənməsi,"kölgə iqtisadiyyatı"nın xüsusi çəkisinin azaldılması kimi iqtisadi hədəflərin, sosial müdafiə mexanizmlərinin inkişafı, büdcə gəlirlərinin artırılması, vergilərin ödənilməsində könüllülük prinsipinin inkişaf etdirilməsi, vergidən yayınma hallarının azaldılması kimi sosial hədəflərin reallaşdırılmasına xidmət edən vergi yoxlamalarının əhəmiyyətinin müxtəlif bucaqlardan təhlil edilməsi tədqiqatın məqsədini təşkil edir.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsədinin reallaşdırılmasında sadalanan məsələlərin həlli mühüm rol oynayır:

- vergi yoxlamalarının növlərinin nəzərdən keçirilməsi;
- səyyar və kameral vergi yoxlamalarının təşkil edilməsi mərhələlərinin müəyyən edilməsi;
- vergi yoxlamalarının vergi cinayətlərinin sayının azaldılmasındakı rolunun qiymətləndirilməsi;
- büdcəyə vergi daxilolmalarının dinamikasında aparılan vergi yoxlamalarının əhəmiyyətinin təhlil edilməsi.

**Tədqiqatın obyekti.** Vergi yoxlamaları üzrə tədbirlərin icrası üzrə nəticə və hədəflər tədqiqatın obyektini, vergi sisteminin formalaşmasında vergi yoxlamalarının oynadığı rolun sosial-iqtisadi və siyasi baxımdan araşdırılması tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın işlənmə metodları.** Araşdırma zamanı elmi-abstraksiya metoduna vergi yoxlamalarının nəzəri əsaslarının təhlili, riyazi-statistika metoduna isə bir sıra hesablamaların aparılması, statistik göstəricilər əsasında cədvəl və qrafiklərin qurulması məqsədilə istinad edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqat işində nəzərdən keçirilən elmi-metodoloji müddəalar və aparılan təhlillər Azərbaycanda mövcud olan vergi yoxlamaları istiqamətində vergi nəzarəti sisteminin fəaliyyət şəraitini qiymətləndirməyə imkan verir.

**Tədqiqat işinin strukturu.** Tədqiqat işi giriş, 3 başlıq, nəticə və təkliflər və ədəbiyyatlardan ibarətdir.

**Səyyar və Kameral Vergi Yoxlamalarının Təşkili**

Vergi sisteminin uğurluluğu vergi qanunvericiliyinin təkmil olması ilə yanaşı vergitutma prosesinə birbaşa və ya dolayı şəkildə effektiv nəzarətin tətbiq edilməsi ilə də bağlıdır. Dövlətlərdə iqtisadi və sosial vəziyyətə uyğun qanunların icrası və büdcə gəlirlərinin bölüşdürülməsi prosesləri optimal olsa belə, vergi nəzarətinin mövcud olmaması və ya mövcud nəzarətin lazımi keyfiyyətdə və səmərəlilikdə reallaşdırıla bilməməsi vergi sisteminin işləyişinin zaman içində pozulmasına səbəb olur (Yanpar, 2007).

Vergi nəzarəti vergi ödəyicisi olan subyektlərin həyata keçirdiyi fəaliyyət üzərində qüvvədə olan vergi qanunvericiliyinə riayət olunması, vergidən boyun qaçırma hallarının qarşısının alınması, vergi ödəyicilərinə aid qanunla müəyyənləşdirilmiş hüquq və mənafelərin qorunması, vergi ödəyicisinin

fəaliyyətinə dair yarana biləcək qanun pozuntusu hallarının qarşısının alınması kimi istiqamətlərdə aparılan nəzarətdir (Musayev, 2022).

Vergi sisteminin səmərəli fəaliyyəti vergi nəzarəti ilə birbaşa əlaqəli olduğundan vergi nəzarəti davamlı və aydın şəkildə reallaşdırılmalı, vergi nəzarəti tədbirlərinin təkmilləşdirilməsi zamanı ölkənin inkişaf xüsusiyyətləri və iqtisadiyyatın mövcud vəziyyəti nəzərə alınmalı, vergi siyasətinin rasional və adekvat formada yürüdülə bilməsi və vergiləndirmə prosesinin optimal həddinin müəyyənləşdirilməsi üzrə ciddi nəzarət həyata keçirilməlidir (Musayev, 2022).

Vergi nəzarətinin həyata keçirilməsinin ən səmərəli və optimal forması vergi yoxlamalarıdır. Yoxlama vergi ödəyicilərinin apardığı əməliyyatların vaxtında uçota alınması, vergilərin ödənilməsi ilə bağlı sənədlərin vergi qanunvericiliyinə uyğun olması, ödənilməli olan vergi həcminin düzgün müəyyən edilməsi üzrə nəzarətdir. Yoxlamanın aparılacağı tarix barədə vergi mükəlləflərinə əvvəlcədən məlumat verilməməlidir, yoxlama istənilən vaxtda reallaşdırıla bilər (Oğuztürk ve Ünal, 2015).

Vergi Məcəlləsinin 36-cı maddəsinə əsasən vergi orqanlarının həyata keçirdiyi vergi yoxlamaları kameral və səyyar yoxlamalar ola bilər. Vergi orqanı tərəfindən kameral vergi yoxlaması məsafədən, yəni yerlərə getmədən vergi ödəyicisinin fəaliyyəti üzrə öhdəliyi olan vergilərin hesablanması və ödənilməsini özündə əks etdirən sənədlər, həmçinin həmin fəaliyyətə dair vergi orqanında olan əlavə sənədlər və mənbəyi bəlli olan məlumatlar əsasında həyata keçirilir. Vergi Məcəlləsinin 37-ci maddəsinin müddəaları kameral vergi yoxlamasının təşkili prinsiplərini, şərtlərini və müddətini müəyyənləşdirir.

Kameral vergi yoxlamalarının icrası sadalanan mərhələlər ardıcıllığı ilə təmin olunur:

- vergi hesabatlarının ədalətliliyinin və düzgünlüyünün yoxlanılması üzrə əyani nəzarətin tətbiq edilməsi;
- hesabatların qanunvericiliklə müəyyən olunmuş müddətdə təqdim edilməsinə nəzarət olunması;
- ödənilməli olan vergi məbləğinin hesablanma qaydasının düzgünlüyünün yoxlanması;
- vergilərin toplanması zamanı vergi ödəyicilərinə vergi azadolmaları və güzəştlərinin tətbiq olunub-olunmadığının yoxlanması;
- vergitutma bazasının düzgün və ədalətli təyin olunmasına nəzarət edilməsi (www.taxes.gov.az).

Vergi Məcəlləsinin 38-ci maddəsində nəzərdə tutulan müddəalara əsasən səyyar vergi yoxlamaları vergi orqanının qərarına müvafiq olaraq növbəti və növbədənkənar olmaqla iş günü və yoxlanan vergi ödəyicisinin iş vaxtı müddətində həyata keçirilir. Səyyar vergi yoxlamalarının həyata keçirilməsi zamanı meydana gələn münasibətlərin əsas iştirakçıları vergi ödəyicisi hesab olunan hüquqi və fiziki şəxslər, vergi agenti hesab olunan hüquqi və fiziki şəxslər, yoxlayıcı və ekspertlər, tərcüməçi, mütəxəssislər, müşahidəçilərdir (AR Vergi Məcəlləsi, 2023). Səyyar vergi yoxlamasına ekspertin cəlb olunduğu hallar və ekspertizanın reallaşdırılma şərtləri Vergi Məcəlləsinin 44-cü maddəsi, mütəxəssisin yoxlamaya cəlb edilməsi halları 45-ci maddəsi, yoxlamada tərcüməçinin iştirakının zəruri olduğu hallar 46-cı maddəsi, 2 nəfərdən az olmamaqla müşahidəçilərin dəvəti 47-ci maddəsi ilə müəyyən edilir və tənzimlənir.

Vergi ödəyicisi olan hüquqi və ya fiziki şəxsin səyyar vergi yoxlamasına cəlb edilməsi prosesi aşağıda sadalanan 7 mərhələdən keçir:

- Ayrı-ayrı fəaliyyət sahələri və təsərrüfat subyektləri üzrə vergilərin ödənilməsindən yayınma risklərinin qiymətləndirilməsi ilə səyyar vergi yoxlamasının aparılması məqsədilə vergi ödəyicisinin seçilməsi;
- Səyyar vergi yoxlamasının keçirilməsinə başlanması;
- Yoxlamadan keçiriləcək vergi ödəyicisinin sahibkarlıq fəaliyyətinin məzmun və xüsusiyyətləri ilə tanışlıq, zəruri xarakterik məlumatları toplamaq üçün ilkin araşdırmanın aparılması;
- Yoxlama zamanı məhdudlaşdırıla və ya genişləndirilə bilən planın tərtib edilməsi üçün planlaşdırmanın həyata keçirilməsi;
- Vergilərin ödənilməsindən yayınma risklərinin təhlil olunması və qiymətləndirilməsi (gəlir və xərcin yoxlanması, Vergi Məcəlləsində əks olunan vergi növləri üzrə yoxlama, muzdlu işlə əlaqəli və ya sadəcə ödəmə mənbəyində vergilərin tutulması üzrə yoxlama);
- Səyyar vergi yoxlamasının nəticələrinin müzakirə edilməsi və qiymətləndirilməsi;
- Səyyar vergi yoxlamasının nəticələrinin rəsmiləşdirilməsi (www.taxes.gov.az).

Səyyar vergi yoxlaması zamanı tərtib edilən sənədlər başa düşülən və aydın formada olmalıdır ki, bu sənədlərin istifadəçiləri onların məzmun və məqsədini dəyərləndirə bilmək qabiliyyətində olsunlar. Səyyar vergi yoxlaması zamanı əlavə olaraq hesablanmış vergi məbləğləri düzgün şəkildə müəyyənləşdirilməli, səbəbi əsaslandırılmalı və yoxlanılan vergi ödəyicisinin məlumatlarının konfidensiallığı təmin edilməlidir (www.taxes.gov.az).

**Diaqram 1. 2011-2019-cu illərdə həyata keçirilmiş səyyar vergi yoxlamalarının sayı**




**Mənbə:** Dövlət Vergi Xidmətinin məlumatları (www.taxes.gov.az) (2020)

Diaqram 1-dən göründüyü kimi, respublikada aparılmış səyyar vergi yoxlamalarının sayında 2011-2013-cü illər ərzində azalma, 2013-2015-ci illər ərzində artma, növbəti illərdə isə davamlı olaraq azalma müşahidə edilmişdir. 2019-cu ildə 949 səyyar vergi yoxlaması reallaşdırılmışdır ki, bu göstərici də 2018-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 1,8 dəfə azdır. 2011-ci ildə səyyar vergi yoxlamalarının sayı 18059 olmuşdur ki, 2019-cu ildə bu göstərici 17110 qədər, yəni 19 dəfə azalmışdır.

2014-2019-cu illəri əhatə edən dövrə istinadən 2014-cü ildə aparılan səyyar vergi yoxlamalarının 10464-ü (91%) növbəti, 1056-sı (9%) növbədənkənar, 2015-ci ildə 6338-i (52%) növbəti, 5881-i (48%) növbədənkənar, 2016-cı ildə 1661-i (23%) növbəti, 5427-si (77%) növbədənkənar, 2017-ci ildə 2048-i

(35%) növbəti, 3830-u (65%) növbədənkənar, 2018-ci ildə 528-i növbəti (31%), 1175-i (69%) növbədənkənar, 2019-cu ildə isə 361-i (38%) növbəti və 588-i (62%) növbədənkənar yoxlama olmuşdur.

Vergi yoxlamalarının səmərəli şəkildə həyata keçirilməsi üçün müvafiq metodlar müəyyən edilməli, işin ümumi struktur və həcmi formalaşdırılmalı, vergi ödəyicisi olan subyektin apardığı sahibkarlıq fəaliyyəti ilə geniş şəkildə tanış olunmalı və onunla görüşməzdən qabaq görülməsi nəzərdə tutulan işlər təhlil olunmalıdır. Yoxlama ərzində aparılmış bütün hesablamaların gedişat və nəticələri dəqiq və doğru olmalıdır.

**Vergi Yoxlamalarının Vergidən Yayınma Hallarının Azaldılmasında Rolu**

Vergi və digər yığımlar hər bir dövlətin büdcəsi üzrə maliyyə vəsaitlərinin formalaşmasında əhəmiyyətli rol oynadığına görə iqtisadi sistemin ayrılmaz həlqələrindən, ictimai fəaliyyətin davamlılığının başlıca şərtlərindən biri hesab olunur. Məhz bu səbəbdən vergi yoxlamaları nəticəsində müəyyən edilən vergilərin ödənilməsindən yayınma cinayət əməli olmaqla, ölkənin iqtisadi-sosial inkişafı üçün ciddi təhlükələr yaradır. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 213-cü maddəsi vergilər, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarının (bundan sonra digər yığımlar) ödənilməsindən yayınma əməlinə görə cəza tədbirlərinin mahiyyətini müəyyən edir. Bu cinayət əməli davranışın 2 forması, yəni hərəkət və hərəkətsizlik ilə törədilə bilər.

**Diaqram 2. 2011-2020-ci illər ərzində vergilər, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarının ödənilməsindən yayınma üzrə qeydə alınmış cinayətlərin sayı**




**Mənbə:** Daxili İşlər Nazirliyinin statistik məlumatları (www.mia.gov.az) (2020)

Diaqram 2-dən göründüyü kimi 2018-2020-ci illərdə vergi və digər yığımların ödənilməsindən yayınma üzrə cinayətlərin sayında əvvəlki illərlə müqayisədə qismən də olsa azalma müşahidə olunmuşdur. 2014-cü və 2015-ci illərdə müvafiq cinayət əməlinin törədilməsi hallarının sayı təhlil olunan digər illərlə müqayisədə özünün pik həddini yaşamışdır.

İqtisadi fəaliyyət sahəsi üzrə qeydə alınmış cinayətlərin ümumi sayı 2011-ci ildə 853, 2014-cü ildə 1576, 2015-ci ildə 2553, 2018-ci ildə 1156, 2019-cu ildə isə 1244 olmuşdur. Müvafiq yayınma əməli üzrə cinayətlərin sayı iqtisadi fəaliyyət sahəsi üzrə qeydə alınmış cinayətlərin ümumi sayında 2011-ci ildə

63%, 2014-cü ildə 72%, 2015-ci ildə 79%, 2018-ci ildə 21%, 2019-cu ildə isə 18%-lik paya sahib olmuşdur.

Vergi ödəyicisi olan istənilən subyektin vergi əxlaqı və mədəniyyətinin formalaşmasında ekvivalentlik meyarı başlıca şərtlərdən biridir. Ekvivalentlik meyarının məzmununu, vergi ödəyicisinin ictimai nemətlərin və ödədiyi vergilərin nisbətini mütənasib hesab etməsi, bununla da vergilərin vacibliyi və qaçılmazlığı ilə razılaşması təşkil edir. Belə olduqda vergilərdən yayınmaq və vergi qaçırmaq istəyi son dərəcə zəifləyir və vergilərin könüllü ödənilməsi mexanizmi mümkün olur. Vergi ödəyicisi vergilərin tam həcmində ödənilməsindən əldə etdiyi faydanın vergi tutulması ilə bağlı ortaya çıxan məsrəflərlə müqayisədə aşağı səviyyədə və onun üçün səmərəsiz olduğunu müşahidə etdiyi halda, vergilərdən yayınma halları güclənir, opportunist meyillər meydana gəlir (Bornman and Wassermann, 2020).

Vergi ödəyicilərinin qanunvericiliklə müəyyən edilən vergiləri ödəməkdən boyun qaçırması halları mövcud olduğundan vergi yoxlamalarının həyata keçirilməsi məcburi hal alır. Vergidən yayınma əksər hallarda vergi ödəyiciləri tərəfindən vergi yükünün ağırlığının nəticəsi kimi əsaslandırılır. Vergi ödəyiciləri iqtisadi səmərə əldə etmək yaxud da vergitutmanın texniki cəhətdən ağırlığı, vergilərin hesablanması qaydalarının mürəkkəbliyi səbəbilə vergiləri tamamilə və ya qismən ödəməməklə vergidən yayınırlar. Bu baxımdan vergi nəzarətinə sadəcə vergi ödəyiciləri, vergitutma obyektləri deyil, eyni zamanda vergi sistemi də cəlb edilməlidir (Demir ve Tosuner, 2007).

Son illərdə ölkədə vergi və digər yığımları ödəməkdən yayınma hallarının sayında müşahidə olunan azalma vergi əxlaqının inkişaf etdirilməsi, vergilərin ödənilməsi mexanizminin sadələşdirilməsi, əhəmiyyətli və operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi və vergi nəzarəti sistemi ilə rəqəmsallaşmanın qarşılıqlı əlaqələndirilməsinin nəticəsi kimi qiymətləndirilə bilər.

**Dövlət Büdcəsinə Vergi Daxilolmalarının Dinamikasına Vergi Yoxlamalarının Təsiri**

Vergi sistemi bir dövlətin ərazisində bəlli bir zaman çərçivəsində tətbiq edilən bütün vergi növlərindən ibarət olmaqla vergiləndirmə prosesinin özəyini təşkil edir. Müasir vergi sistemlərinin əsas xüsusiyyəti dövlət büdcəsinə kiçik həcmdə gəlir gətirən çox sayda vergi növünü deyil, böyük həcmdə gəlir gətirən az sayda vergi növünü özündə cəmləşdirməsidir (Quluzadə, 2019). Çağdaş dövrdə vergi sistemləri vergi dərəcələrində artım edilmədən büdcəyə vergi formasında daxil olan vergi gəlirlərinin həcmini yüksəltməyi hədəfləməklə ədalətlilik, səmərəlilik və bərabərlik prinsiplərinə dayanmaqla qurulur. Vergi sistemlərinin formalaşması uzunmüddətli dövr, inkişaf etdirilməsi isə səmərəli vergi islahatlarının həyata keçirilməsini tələb edir. Vergi islahatları, milli səviyyədə gəlirlərin yenidən bölgüsünə əsasən formalaşan təbəqələrin ayrı-ayrılıqda heç birinin üzərinə düşən vergi yükünü ağırlaşdırmadan, ümumi vergi yükünün azaldılmasına yönəldilən tədbirlər sistemi, vergi yükünün vətəndaşlar arasındakı bölgüsünün səmərəliləşdirilməsi üçün edilən cəhdlər kimi nəzərdən keçirilir (Demirli, 2011).

**Diaqram 3. 2011-2020-ci illər ərzində dövlət büdcəsinə fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi və əlavə dəyər vergisi üzrə daxilolmaların dinamikası (milyon manatla)**




**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları (www.stat.gov.az) (2021)

Diaqram 3-dən göründüyü kimi, 2015-2019-cu illərdə təhlil olunan əvvəlki illərə nəzərən dövlət büdcəsinə əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmaların həcmində nəzərəçarpan dərəcədə artım müşahidə edilmişdir. 2019-cu ildə dövlət büdcəsinə 5185,1 milyon manat məbləğində ƏDV daxil olduğu halda, 2020-ci ildə bu göstərici 366,8 milyon manat və ya 7% azalmış, yəni 4818,3 milyon manat təşkil etmişdir. ƏDV üzrə daxilolmaların həcmindəki bu azalmanın başlıca səbəblərindən biri 2019-cu ilin sonlarından etibarən yayılmağa başlayan və bəşəriyyət üçün qlobal miqyasda əhəmiyyətli təhlükə yaradan koronavirusun səbəb olduğu Covid-19 pandemiyası olmuşdur.

2011-2019-cu illər üzrə ƏDV daxilolmalarının həcmi yalnız artan dinamika ilə müşayiət olunmuşdur. 2011-ci ildə ƏDV daxilolmalarının həcmi 2222,7 milyon manat təşkil etdiyi halda, bu göstərici 2011-ci ilin göstəricisi ilə müqayisədə 2019-cu ildə 2,33 dəfə və ya 2962,4 milyon manat, 2020-ci ildə isə 2,17 dəfə və ya 2595,6 milyon manat çox olmuşdur.

Hüquqi şəxslərin mənfəət vergisi üzrə dövlət büdcəsinə daxilolmaların həcmində 2014-2016-cı illərdə azalma müşahidə olunmuşdur. 2019-cu ildə dövlət büdcəsinə 2546 milyon manat məbləğində hüquqi şəxslərin mənfəət vergisi daxil olduğu halda, 2020-ci ildə bu göstərici 194,3 milyon manat və ya 7,6% azalmış, yəni 2351,7 milyon manat təşkil etmişdir.

Fiziki şəxslərin gəlir vergisi üzrə dövlət büdcəsinə daxilolmaların həcmində 2011-2016-cı illərdə yalnız artım, 2016-2019-cu illərdə yalnız azalma və nəhayət, 2020-ci ildə yenidən artım müşahidə olunmuşdur. 2019-cu ildə dövlət büdcəsinə 952,1 milyon manat məbləğində fiziki şəxslərin gəlir vergisi daxil olduğu halda, 2020-ci ildə bu göstərici 198,9 milyon manat və ya 20,8% artmış, yəni 1151 milyon manat təşkil etmişdir.

Vergi yoxlamaları istiqamətində vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi nəticəsində müvafiq dövrlərdə dövlət büdcəsinə daxil olan vergi yığımlarının həcmində nəzərəçarpan dərəcədə artım müşahidə edilmiş, kiçik sahibkarlığın inkişafı stimullaşdırılmış, bir sıra layihələrin icrası ilə vergi ödəyicilərinin maarifləndirilməsi istiqamətində müsbət nəticələr əldə edilmiş, vergitutma mexanizminin texniki baxımdan qarışıq, mürəkkəb tərəfləri aradan qaldırılmış, vergi orqanları ilə vergi ödəyiciləri

arasındakı münasibətlərdə tərəflərin hüquq və mənafelərinin qorunması məqsədilə əhəmiyyətli addımlar atılmışdır.

**Nəticə və Təkliflər**

Tədqiqat işi üzrə aparılan təhlillər göstərir ki, ölkənin iqtisadi, maliyyə baxımından vəziyyətinin yaxşılaşdırılması üçün vergi nəzarəti sistemi müasir və beynəlxalq tələblərə cavab verəcək şəkildə qurulmalı və ya mövcud vergi sistemi təkmilləşdirilməlidir.

Vergi nəzarətinin səmərəliliyinin artırılması nəticəsində dövlət büdcəsinə daxil olmuş vergi yığımlarının ümumi həcmi üzrə 2011-2019-ci illər ərzində yalnız artan tendensiya müşahidə olunmuşdur. Vergi daxilolmaları dövlət büdcəsinin gəlirlərinin əsas formalaşma mənbəyi olduğundan artan dinamika müsbət hal kimi qiymətləndirilir.

2011-ci ildə vergi daxilolmalarının həcmi 6395,3 milyon manat təşkil etdiyi halda, bu göstərici 2011-ci ilin göstəricisi ilə müqayisədə 2019-cu ildə 5359,7 milyon manat və ya 83,8% çox, 2020-ci ildə isə 4756,1 milyon manat və ya 74,4% çox olmuşdur. 2019-cu ildə dövlət büdcəsinə 11755 milyon manat məbləğində, 2020-ci ildə isə Covid-19 pandemiyası səbəbilə bu göstərici ilə müqayisədə 603,6 milyon manat və ya 5,13% az, yəni 11151,4 milyon manat məbləğində vergi daxil olmuşdur.

İşlək vergi nəzarəti sisteminin mövcudluğu aşağıda sadalanan məsələlərin həllini zəruri edir:

- vergi sistemi sadəcə dövlət büdcəsinin gəlirlərinin formalaşmasına xidmət edən mexanizm kimi qəbul edilməməli, onun iqtisadiyyatdakı stimullaşdırıcı və tənzimləyici rolu dərk edilməlidir;
- vergi nəzarəti sistemi dövlət büdcəsinə olan münasibətdə mülkiyyət formasından asılı olmayaraq ayr-ayrı müəssisə və təşkilatlara ədalətli və bərabər şəkildə yanaşmalıdır;
- vergi növlərinin, vergi dərəcələrinin müəyyənləşdirilməsi vahid qaydada, ədalətli və şəffaf şəkildə reallaşdırılmalıdır;
- mövcud vergi nəzarəti mexanizmi təkrar istehsalın inkişafı və davamlılığında həvəsləndirici amil kimi çıxış etməlidir;
- qüvvədə olan vergi qanunvericiliyi vergi yoxlamalarının təşkilinin mövcud vəziyyəti ilə uzlaşan olmalıdır;
- vergi sisteminin proqressivliyi yüksəldilməlidir və s.

Tədqiqat işinin nəticəsinə müvafiq olaraq,

- vergi yoxlamalarının sadəcə vergi bəyannamələrinin təqdimatından sonra deyil, öncə də aparılması;
- yoxlamaların sadəcə mövcud qanun pozuntusu hallarının müəyyən edilməsi istiqamətində deyil, həmçinin bu cür halların aradan qaldırılması üçün cəza və cərimələrin tətbiqindən başqa tədbirlərin görülməsi məqsədilə həyata keçirilməsi;
- yoxlamaların aparılmasında mütəmadilik səviyyəsinin artırılması;
- büdcəyə daxil olan vergi gəlirlərinin istifadəsi üzrə səmərəliliyin artırılması kimi təkliflərin irəli sürülməsi mümkündür.

**Ədəbiyyatlar**


Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (son dəyişiklik və əlavələrlə birgə) (2023). Bakı.

Azərbaycan Respublikasının Vergi Məcəlləsi (son dəyişiklik və əlavələrlə birgə) (2023). Bakı.

Quluzadə E.M. (2019). Azərbaycanın büdcə gəlirlərinin formalaşmasında səmərəli vergi siyasətinin rolu. Azərbaycanın Vergi Jurnalı № 138. 29-38.

Musayev E.M. (2022). Rəqəmsal iqtisadiyyat şəraitində vergi inzibatçılığının təkmilləşdirilməsinin bəzi məsələləri. Azərbaycanın Audit Jurnalı № 2. 24-31.

Demir İ.C. ve Tosuner M. (2007). Toplumsal bir olgu olarak vergi ahlâkı. Gazi Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi № 9.1-20.

Demirli Y. (2011). Gelişmekte olan ülkelerde vergi reformları ve Türkiyede gelir üzerinden alınan vergiler açısından değerlendirme. Ankara. 388.

Oğuztürk B.S. ve Ünal E.K. (2015). Türkiye'de vergi denetiminde yeni dönem. Akademik Araştırmalar ve Çalışmalar Derigisi № 13. 207-237.

Yanpar A. (2007). Gelişmekte olan ülkelerde büyüme yönelimli vergi politikası. Ankara. 181.

Bornman M. and Wassermann M. (2020). Tax knowledge for the digital economy. Article. Journal Of Economic and Financial Sciences. 11.

https://www.mia.gov.az/

https://www.stat.gov.az/

https://www.taxes.gov.az/az

# Ümummilli Lider Heydər Əliyevin Hakimiyyəti Dövründə Naxçıvanın Turizm Əhəmiyyətli Yol-Nəqliyyat Sisteminin Təkmilləşdirilməsi Məsələləri

**Günel İsayeva**

**Naxçıvan Dövlət Universiteti**

**isayeva_g2007@yahoo.com**

**ORCID ID:009-0004-3321-0714**

## Xülasə

Müasir Azərbaycanın qazandığı nailiyyətlərinin banisi, dünya şöhrətli siyasətçi Heydər Əliyevdir. Ümummilli Lider bütün həyatını Azərbaycana həsr etmiş, xalqının firəvan yaşaması üçün əlindən gələni əsirgəməmişdir. Ulu öndər Azərbaycana rəhbərlik etdiyi dövrlərdə bütün dövrlərdə Naxçıvanın sosial-iqtisadi inkişafına ciddi diqqət yetirmiş, gələcəkdə regionda turizmin də inkişafında əsaslı rol oynayacaq yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi üçün tədbirlər həyata keçirmişdir. Qədim diyarın zəngin turizm potensialı və güclü geostrateji mövqeyi burada turizmin inkişafı üçün geniş imkanlar yaradır. Bu məqsədlə də regionda zəruri olan nəqliyyat sisteminin yenilənməsi və gücləndirilməsi də daim diqqət mərkəzində olmuşdur.

Naxçıvanda turizmin inkişafı üçün əlverişli olan yol infrastruktuun yaradılması isə hələ keçmiş SSRİ dövründə ümummilli lider tərəfindən böyük uzaqgörənliklə həyata keçirilməsinə başlanılmış bir məsələ idi. Naxçıvanın tarixi ədalətsizdik nəticəsində Azərbaycanın əsas hissəsindən ayrı düşməsi və bunun gələcəkdə yarada biləcəyi problemlər ötən əsrin yetmişinci illərindən başlayraq respublikamızda həyata keçirilən işlərin tərkib hissəsi olmuş və Azərbaycan Respublikası öz dövlət müstəqilliynə qovuşandan sonra da böyük qətiyyətlə davam etdirilmişdir. Bu məqalədə Ulu Öndərin Azərbaycana rəhbərlik illərində Naxçıvan Muxtar Respublikası ərazisində müxtəlif istiqamətlərdə istifadəyə verilmişi yollar haqqında araşdırmalar aparlımış, bu sahənin inkişafı göstərilmişdir.

**Açar sözlər:** Heydər Əliyev; Naxçıvan Muxtar Respublikası; turizm; yol - nəqliyyat infrastrukturu

## Summary

World-famous politician Heydar Aliyev is the founder of the achievements of modern Azerbaijan. The national leader dedicated his whole life to Azerbaijan and did his all effort for the prosperity of his nation. During his leadership of Azerbaijan, the great leader paid serious attention to the socio-economic development of Nakhichevan and implemented measures to improve the road and transport system, which will play a fundamental role in the development of tourism in the region in the future.

The rich tourism potential and strong geostrategic position of ancient Nakhichevan create large opportunities for the development of tourism here. For this purpose, the renewal and strengthening of the transport system, which is necessary in the region, has always been in focus. The creation of a road infrastructure suitable for the development of tourism in Nakhichevan was an issue that was started to be implemented by the national leader with great foresight even during the former USSR. The separation of Nakhichevan from the main part of Azerbaijan because of historical injustice and the problems that this may cause in the future have been a part of the work carried out in our republic since the seventies of the last century and have been continued with great efforts after the Republic of Azerbaijan got its independence. In this article, the roads put into use in various directions in the territory of the Nakhichevan Autonomous Republic during the years of leadership of the Great Leader in Azerbaijan, and the development of this field were researched.

**Keywords**: Heydar Aliyev; Nakhichevan Autonomous Republic; tourism; road - transport infrastructure

Hər bir dövlətin iqtisadi siyasətində nəqliyyat sahəsi mühüm yer tutur. Belə ki, digər sektorlarla yanaşı nəqliyyatda bir xidmət sahəsi olaraq həm ictimai ehtiyacların ödənilməsi və həm də ölkənin beynəlxalq iqtisadi əlaqələrindəki rolu öz həllini tapır. Nəqliyyat, xüsusən, sərnişin nəqliyyatı

davamlı olaraq müəyyən problemlərin həll olunmasını tələb edən mürəkkəb idarəetmə sahəsidir. Belə ki, tələbata uyğun olaraq yeni nəqliyyat infrastrukturunun yaradılması, yeni nəqliyyat növlərinin tətbiqi, texniki təminatın artması beynəlxalq miqyasda ticarətinin və turizmin inkişafı üçün güclü katalizator və iqtisadi inkişaf üçün zəruri şərtlərdən biri kimi çıxış edir.

Müasir dünyada səmərəli və təhlükəsiz nəqliyyatın təşkili mühüm iqtisadi problemlərdən biridir. İqtisadi artmın sürətlənməsi ilə paralel olaraq yük və sərnişin daşımalarında gözlənilən artım yeni nəqliyyat infrastrukturunun planlaşdırılmasını və tikintisini, habelə nəqliyyat sektorunun davamlı maliyyələşdirmə mexanizmlərinin yaradılmasını tələb edir. Logistika əməliyyatlarında da mühüm rol oynayan sərnişin nəqliyyatı sahəsinin özünəməxsus müxtəlif problemləri vardır. Belə ki, nəqliyyat təkcə təkcə insanları hər hansı bir nöqtədən başqasına çatdırmaqda deyil, həm də mal-material axınlarının yaranma mənbəyindən istehlak yerlərinə qədər hərəkəti zamanı yaranan logistik əməliyyatların böyük hissəsi kimi də başa düşülür. Bu sahədə əməliyyatların sürətlə həyata keçirilməsi, yəni bu zaman vaxta qənaət olunmaqla vəsaitlərdən də səmərəli istifadə olunması mühüm şərtlərdəndir.

Yaxşı işləyən nəqliyyat sektoru bütün ölkələrin iqtisadi və sosial inkişafı, həmçinin regional və qlobal əməkdaşlıq və inteqrasiyanın dəstəklənməsi üçün ilkin şərtdir. Tarixən nəqliyyat sektorunun inkişafı bir ölkənin iqtisadi rifahının və uğurunun göstəricisi olmuşdur. Bu mənada, inkişaf etmiş, səmərəli, təhlükəsiz və yaxşı mühafizə olunan daxili nəqliyyat sistemi yoxsulluğun azaldılması üçün mühüm əhəmiyyət kəsb edən bazarlara, məşğulluq, təhsil və əsas xidmətlər kimi vacib insan sahələrinə çıxışı təmin edə bilər. Eyni zamanda, nəqliyyat qlobal enerji tələbatının artmasının əsas hərəkətverici qüvvəsidir ki, bu da ətraf mühitə ciddi təsir göstərir

Müasir Azərbaycanın dirçəlişi, müstəqil bir dövət kimi var oluşu, inkişafı, bugünki naliyyətlərinin əsası məhz görkəmli siyasətçi Heydər Əliyevin adı ilə bağlıdır. Onun hakimiyyəti illərində ölkəmizin bütün sahələri — sənaye, iqtisadiyyat, turizm, mədəniyyət, idman və s. sürətlə inkişaf etməyə başladı. Bu mənada, dahi rəhbərin Azərbaycana siyasi hakimiyyətə gəldiyi ilk illərdən başlayarq ölkəmizdə, eləcə də onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında həyata keçirdiyi tədbirlər son nəticədə, ümumi sosial-iqtisadi inkişafa və turizmin də inkişaf etdirilməsinə səbəb olmuşdur.

Müasir dünyada səmərəli və təhlükəsiz nəqliyyatın təşkili mühüm iqtisadi problemlərdən biridir. İqtisadi artmın sürətlənməsi ilə paralel olaraq sərnişin daşımalarında gözlənilən artım yeni nəqliyyat infrastrukturunun planlaşdırılmasını və tikintisini, habelə nəqliyyat sektorunun davamlı maliyyələşdirmə mexanizmlərinin yaradılmasını tələb edir. Bu beynəlxalq iqtisadi əlaqələrin mühüm bir forması olan turizm, xüsusən də beynəlxalq turizm üçün də keçərllidir. Turizm sahəsində yüksək nəticələr əldə etmiş ölkələrin təcrübəsi göstərir ki, turizm heç də təkcə zəngin ehtiyatlar hesabına öz-özünə inkişaf edən bir sahə deyildir. “Gözəgörünməz məhsul” ixrac edən bu sahənin inkişafı üçün ilk öncə lazımi infrastruktur, mütərəqqi şərait yaradılmalıdır. Bu infrastrukturun kökündə isə yol-nəqliyyat sistemi dayanır. Hələ 1969-cu ildə Ulu Öndər Azərbaycanın Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi seçildiyi bir dövrdə Azərbaycanının bütün sahələrinin inkişafı üçün fəaliyyətə başlamışdır. O zamanlar iqtisadi cəhətdən geridə qalmış Naxçıvan Muxtar Respublikasının yol - nəqliyyat sisteminin yenilənməsi, yeni yolların salınması Ulu Öndərin diqqət mərkəzində olan məsələlərdən biri idi. Belə ki, hələ 1969-1982-ci illərdə bütün sahələrdə olduğu kimi nəqliyyat sektorundakı irəliləyişlər də Naxçıvanın həyatında müsbət rol oynayırdı. Həmin dövrdə Naxçıvan şəhərindən birbaşa Gəncəyə, Yevlaxa, Qazaxa gedən avtobus marşrutları fəaliyyət göstərirdi. 1974-cü ildə Naxçıvan dəmiryol stansiyasının yenidən qurulması, 1975-ci ildə Culfa şəhərində avtovağzal, Azərbaycan - Naxçıvan - Ordubad yolunda və Biçənək aşırımında 6 körpünün

inşası, 1970-1980-ci illərdə ümumilikdə 422 km-lik yol çəkilməsi, Gilanayçay və Əlincəçay üzərindən, Üstüpü, Çənnəb, Nehrəm kəndlərində körpülər inşa edilməsi, Çeşməbasarla Güznüt arasındakı körpünün əsaslı təmir edilməsi də bu qəbildən olan işlərin siyahısındadır (3).

1991-ci il sentyabrın 3-dən Naxçıvan Muxtar Respublikası Ali Sovetininın Sədri seçilən Ulu Öndərin rəhbərlik etdiyi illərdə (1990-1993) Naxçıvan Muxtar Respublikası blokada şəraitində və çox acınacaqlı bir vəziyyətdə idi. Ümummilli lider Heydər Əliyev Azərbaycanın çox ağır bir dövründə hakimiyyətə gəlməsinə baxmayaraq o, ölkəmizin və həmçinin Naxçıvanın o dövrki vəziyyətinin yaxşılaşdırılması üçün bütün çətinlikləri həll etməyi bacarmışdı. Həmin illərdə Naxçıvanın siyasi sabitliyin təmin edilməsi əsas məsələlrdən biri idi. Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə yalnız hava nəqliyyatı ilə əlaqəsi var idi. Məhz hakimiyyətə gəldiyi ilk dövrlərdə Heydər Əliyevin səyi və yorulmaz fəaliyyəti nəticəsində qonşu ölkələrlə danışıqlar aparılmış və Türkiyə Cumhuriyyəti və İran İslam Respublikası ilə əlaqələr qurulmuş, yol nəqliyyat sistemi bərpa edilmişdir, müxtəlif yükdaşımalar həyata keçirilmişdir. 1990-cı il mayın 28-də dahi şəxsiyyətin iradəsi ilə muxtar respublika ilə Türkiyə Cumhuriyyati arasında “Ümid” körpüsü açılmışdır (4). Bu, Azərbaycanın, xüsusilə Naxçıvanın gələcək sosial - iqtisadi inkişafı üçün çox mühüm hadisə idi. 1992-ci ildə Sədərək-Dilucu körpüsü Türkiyə Cumhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında sərhəd keçid qapısı elan olundu. Əlavə olaraq Qərbi Azərbaycanın Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında körpünün açılması, yüklərin Culfa - Xudafərin körpüsü ilə daşınması həyata keçirilən tədbirlər siyahısındadır (3).

1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazandı. Ümummilli Liderin hakimiyyətə gəlməsi Azərbaycanın siyası və sosial - iqtisadi həyatında yeni bir səhifə demək idi. Hakimiyyətə gəldiyi ilk vaxtlardan müstəqil Azərbaycanın fasiləsiz və sürətli inkişafı məqsədilə bütün sahələrdə əsaslı işlər görülməyə başlanılmışdır, o cümlədən turizmin inkişafı məqsədilə infrasturktur yenilənmiş, yeni turizm ehtiyatlarının istifadəsi üçün müasir standartlara cavab verən komfortlu yollar çəkilmişdir. Ümumilikdə, Naxçıvan Muxtar Respublikası Dövlət Statisika Komitəsinin məlumatlarına görə hazırda muxtar respublikanın əsas magistral yollarından olan, beynəlxalq yük və sərnişin daşımalarında mühüm rol oynayan 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 32,4 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolları yenidən qurulmuşdur. Bundan əlavə, 88,8 kilometr uzunluğunda Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu da yenidən quruları̇q istifadəyə verilmişdir. Uzunluğu 50 kilometr olan Culfa-Ordubad magistral avtomobil yolunun 39 kilometri 2 zolaqlı, 11 kilometri isə 4 zolaqlıdır. Magistral yolda 4 yeni körpü tikilib, 6 körpü isə yenidən qurulub. Ümumilikdə, 1 yanvar 2010-cu ildən 2019-cu ilin sonuna muxtar respublikada 1097 kilometr uzunluğunda avtomobil yolları yenidən qurulmuşdur. Bu dövrdə 69 körpü tikilmiş və ya yenidən qurulmuş, 27 körpü isə təmir olunmuşdur (3).

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti kimi tarixi İpək yolunun bərpası üzrə beyəlxalq konfransın keçirilməsi haqqında imzaladığı 17 iyun 1998- ci il Sərəncamı da Avropa-Qafqaz-Asiya nəqliyyat xəttində yerləşən ölkəmiz üçün çox əhəmiyyətli bir sənəd imzalamışdır (1). Şərqlə Qərbin qovşağında yerləşən Naxçıvanın inkişafı bu sərəncam ilə daha da sürətlənmişdir. Ulu Öndərin Vətəni beynəlxalq səviyyədə tanınmış, əcnəbi turistlərin müxtəlif məqsədli səfərləri üçün mühüm destinasiya məntəqəsinə çevilməsində müstəsna rol oynamışdır. Bu sərəncam muxtar respublikada turizmin inkişafı baxımından əvəzolunmaz olması ilə yanaşı ölkənin nəqliyyat sistemində irəliləyiş, logistik yükdaşımalarla müxtəlif yüklərin daşınması həyata keçirilməsi ilə müşayiət olunmuşdur.

Dahi siyasətçi, əvəzedilməz lider Heydər Əliyev tez- tez Naxçıvana işgüzar səyahətlər edir, görülən işlərlə yaxından tanış olur, müvafiq tapşırıqlar verirdi. 1998-ci il avqustun 5-də Azərbaycan Respublikası Nəqliyyat Naziliyinin təsis edilməsi və ardıcıl olaraq 2001-ci ildə Avtomobil yolları haqqında Azərbaycan Respublikası qanunun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin fərmani ilə Azərbaycanda, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında yol nəqliyyat sisteminin ardıcıl işlərinin daha məqsədyönlü aparılmasına və turizm baxımından daha səmərəli fəaliyyətinə nail olunmuşdur. Məhz həmin fərmana əsasən yol-nəqliyyat kompleksləri yenilənməsi və beynəlxalq standartlara uyğun salınmasına dair təmir və tikinti ilə əlaqədar olan orqanların işlərinə nəzarət gücləndirilmiş, müəyyən vəzifələr verilmişdir. Belə ki, 1998-ci ildə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin tapşırığı və himayəsi ilə dini turizm məqsədli əsas turizm ehtiyatı sayılan Əshabi-Kəhfdə abadlıq-bərpa işləri aparılmışdır. Ziyarətgahın girişində bu haqda məlumat verən kitabə də qoyulmuşdur. Kitabədə deyilir: "Əshabi-Kəhf ziyarətgahında bərpa və abadlıq işləri 1998-ci ildə Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və himayəsi ilə görülmüşdür". Hazırda buraya Azərbaycanın başqa bölgələrindən və xarici ölkələrdən zəvvarlar, turistlər və qonaqlar gəlir. (8)

Məlumdur ki, əcnəbi turistlər muxtar respublikamiza müxtəlif məqsədli turizm səfərləri etmək üçün ilk növbədə əraziyə daxil olurlar. Turistlərin ölkəmizə giriş etdikləri qapılardan biri olan, 1976-cı ildə əsası qoyulan Naxçıvan Beynəlxalq Hava Limanında 1990-cı ildən iritutumlu təyyarələrin qəbul olunması imkanı yaradılmışdır. Uzaqgörən siyasətçi Heydər Əliyev 2002-2004-cü illərdə bərpa işlərindən sonra istifadəyə verilən hava limanının təkcə Naxçıvan üçün deyil, bütün qonşu ölkələr üçün də əhəmiyyətli olduğunu bildirmişdir. Hazırda bu hava limanı saatda 450-500 sərnişin qarşılamaq imkanı ilə yanaşı, vətəndaşlara ölkəmizin paytaxtı Bakı şəhəri, Tükiyə Cumhuriyyətinin İstanbul şəhərinə və Rusiya Federasiyasının paytaxtı Moskva şəhəri vasitəsilə digər regionlara səyahət etmə imkanı yaradılmışdır (4).

Ölkəmizin hər bir guşəsi kimi, onun qədim insan və mədəniyyət məskəni, təbii sərvətlər muzeyi olan, "Şərqin qapısı" adlandırılan Naxçıvan Muxtar Respublikası bu gün də turistlərin ən çox sevdiyi məkanlardandır. Əlverişli coğrafi mövqeyi ilə seçilən muxtar respublikamiz ölkəmizin digər regionlarından səfər edənlərin və xarici ölkə vətəndaşlarının destinasıyasına çevrilmişdir. Bunun səbəbi isə yaradılmış şərait - yeni turizm infrastrukturun yaradılması, istifadədə olan yolların bərpası ilə yanaşı ucqar kəndlərə belə müasir standartlara cavab verən yolların çəkilməsi, körpülərin tikilməsi kimi əvəzolunmaz tədbirlərin görülməsidir.

Ulu Öndərin Azərbaycan qarşısındakı misilsiz xidmətləri sonrakı dövrlərdə də onun siyasətinin layiqli davamçısı, ölkə başçısı İlham Əliyev tərəfindən davam etdirilməkdədir. Prezidentin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı sahəsində həyata keçiridiyi ardıcıl tədbirlər qədim diyarda turizmin də inkişafına mühüm təsir etmişdir.

Yeni tariximizin dönüş nöqtəsi olan 44 günlük II Qarabağ müharibəsindən sonra qazandığımız şanlı zəfər torpaqlarımızın alınması ilə yanaşı, Zəngəzur dəhlizi vasitəsilə Naxçıvanın iqtisadi gücünün artırılmasında, həm Avropaya qapi, həm də Türk dünyası üçün əhəmiyyətinin artırılması ilə yanaşı Muxtar respublikada bütün sahələrin o cümlədən turizmin sürətlə inkişafına zəmin yaradır. Bu mənada, 10 noyabr 2020-ci il tarixdə Azərbaycan, Rusiya və Ermənistanın birgə imzaladığı üçtərəfli razılaşmanın şərtlərinə əsasən bölgədə kommunikasiyaların yenidən açılması bu turizm marşrutunu da yaxın zamanda gerçəyə çevirəcəkdir. Turistlərin Zəngəzur dəhlizindən keçərək Naxçvandan Şuşayadək bütün Zəngəzura və ümumilikdə butun Qərbi Azərbaycana çıxış yolu əldə edəcəklər.

Bütün bunlar isə yeni dövrdə Naxçıvanın ümumi turizm potensialına çox mühüm müsbət təsirlər edəcəkdir(9).

**Nəticə**

Bir zamanlar sırf kapitalist dövlətləri ilə həmsərhəd olması səbəbindən xarici turistlərin üzünə bağlı qalmış Naxçıvanın turizm imkanlarından lazımınca istfiadə olunması məsələsi xalqımızın vətənpərvər insanlarını həmişə düşündürmüşdür. Hazırda isə Naxçıvanda yaradılmış yüksək səviyyəli yol, rabitə, enerji infrastrukturu və sosial-mədəni şərait turizmin bir çox növləri üzrə geniş imkanlar yaradır. İndi Naxçıvan unikal turizm bölgəsi kimi turistlərə ev sahibliyi edir və çox sayda tanınmış turizm ehtiyatlarımız yol-infrastruktur vasitəsilə iqtisadi dövriyyəyə cəlb olunur. Bütün bunlar isə məhz xalqimizin ümummilli lideri Heydər Əliyevin Azərbaycana siyasi hakimiyyətə gəldiyi ilk illərdən başlayarq ölkəmizdə, eləcə də onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında həyata keçirdiyi tədbirlər nəticəsində mümkün olmuş, Naxçıvan Muxtar Respublkası da turistlərin kütləvi səyahət etdiyi məkana çevrilmişdir.

**Ədəbiyyat**

İsayev E. " Böyük ipək yolu və Naxçıvan " Bakı . 2012, səh. 14

Cabbarov Ə. "Naxçıvanın turizm potensialının təbliği " Şərq qapısı" qəzetinin səhifələrində" 23.09.2023 https://serqqapisi.gov.az/xeberler/ulu-onder-heyder-eliyev-ve-naxcivan

Qasımov Ə. "Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969- 2003 - cü illər)" Bakı 2013, səh. 81,195, 202

Kərimova F., Cabbarov Ə., İsayeva G., Babayəli N., Zeynalov H., Abdullayev A. "Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf istiqamətləri". Kollektiv monoqrafiya. Naxçıvan 2022, səh. 87

Bilalov B. Heydər Əliyev və Azərbaycan turizmi. http://www.anl.az/down/meqale/medeniyyet/medeniyyet_may2009/78916.htm

Hacıyev İ. " Naxçıvan Muxtar Respublikasının sosial – iqtisadi və mədəni inkişafı " Naxçıvan -2020, səh. 227

Naxçıvana gələn turistlərin sayı 10 il ərzində 84,1 faiz artıb. 4 mart 2020 https://azertag.az/xeber/1431781

Tarixi abidələr - Naxçıvan Turizm İnformasiya Mərkəzi http://turizm.nakhchivan.az/index.php/template/2015-12-29-06-35-41

Jabbarov A. Abbasova S. Tanriverd H. Zəngəzur-Naxçıvan-İstanbul marşrutu üzrə regional əməkdaşlıq perspektivləri. https://ijtebs.org/index.php/ijtebs/article/download/532/440 Uluslararası Turizm, Ekonomi ve İşletme Bilimleri Dergisi International Journal of Tourism, Economic and Business Sciences E-ISSN: 2602-4411, 6(1)

Mustafayev M. Zəngəzur dəhlizi: inkişaf və əməkdaşlıq layihəsi. 2023.04.13 https://respublika-news.az/news/zengezur-dehlizi-inkisaf-ve-emekdasliq-layihesi

# Sosial-İqtisadi Proseslərin Dövlət Tənzimlənməsinin Güclənməsi İlə Əlaqədar İqtisadi Nəzəriyyənin Rolunun Artması

**Babayev Əlican**

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)**

**ababayev@rambler.ru**

**"İqtisadi və texnoloji elmlər" kafedrasının professoru,**
**iqtisad elmləri doktoru**

Dövlətin iqtisadi proseslərdə iştirakının dərəcəsi və belə iştirakın effektivliyi məsələsi onilliklər boyu siyasətçilər, ekspertlər və iqtisadi nəzəriyyənin nümayəndələri arasında mübahisə mövzusudur. Eyni zamanda, son bir neçə ildə bütövlükdə dünya təsərrüfat sistemində və milli iqtisadiyyatların əksəriyyətində böhranların kəskinləşməsi ilə bağlı hadisələr fonunda iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin daha da gücləndirilməsi məsələsi aktuallaşır. Bu halda söhbət həm iqtisadiyyatın, həm də bütün müasir cəmiyyətin sonrakı inkişafının imperativi kimi, belə tənzimləmənin əsaslı şəkildə gücləndirilməsindən gedir.

Müvafiq olaraq, iqtisadi nəzəriyyə sahəsində mütəxəssislərin vəzifəsi tənzimləmənin gücləndirilməsinin parametrlərini təyin etməkdir. İlk növbədə, iqtisadiyyatın təşkilinin ümumi bazar prinsipləri ilə dövlətin iqtisadiyyata təsir göstərmək siyasəti arasında balansın pozulmasına, lüzumsuz inzibati müdaxilə hallarına yol verilməməlidir.

Hamılıqla qəbul edilmiş ümumi fikrə görə, dövlətin bütün siyasətinin ayrılmaz tərkib hissəsi kimi iqtisadi proseslərin tənzimlənməsi siyasətinin əsasını qoyan ABŞ Prezidenti Franklin D. Ruzvelt olmuşdur. Qərb kapitalist sisteminin əsas xilaskarı sayılan Ruzvelt bu sistemi dərin böhrandan çıxarmaq üçün ona yeni, *daha çox proqnozlaşdırılan* və eyni zamanda *"sosialistləşdirilmiş"* sima verilməsini təklif etmişdir. Həm iqtisadi tarixdə, həm də bütövlükdə bəşəriyyətin tarixində nəzərəçarpacaq iz qoymuş bu siyasətçi, 1932-ci ilin noyabrında Birləşmiş Ştatların Prezidenti vəzifəsinə seçilmiş və (Amerika Konstitusiyasının əvvəlki normalarına əsasən) 4 mart 1933-cü ildə bu vəzifədə fəaliyyətə başlamışdı.

Amerikanın iqtisadi və ictimai-siyasi həyatında o vaxta qədər kapitalist dövlətləri təcrübəsində görünməmiş, "Yeni kurs" adını almış tədbirlər kompleksinin reallaşdırılması məhz həmin vaxtdan başlanır. Bütün bu tədbirlərin ümumi məzmununu yekunlaşdıraraq, onları iki əsas istiqamət üzrə birləşdirmək olar:

- planlaşdırma elementlərindən istifadə edilməklə iqtisadi proseslərin dövlət tənzimləməsi (*qeyri-bazar xarakterli* vasitələrin tətbiqi daxil olmaqla);

- hökumətin iqtisadi siyasətində sosial xarakterli güclü tərkib hissənin mövcudluğu.

"Yeni kurs" siyasətinin uğurlarının təsiri altında əsas (sonradan – praktik olaraq bütün) qərb dövlətlərinin *iqtisadi siyasətində əsaslı dəyişikliklər* başlayır. Bu vaxtdan etibarən belə siyasət *təsərrüfatçılığın bazar metodlarını və dövlət tərəfindən iqtisadi proseslərə planlı-mütəşəkkil və sosial yönümlü təsirin müxtəlif elementlərini birləşdirir*. Bu halda xatırlatmaq yerinə düşər ki, xüsusilə planlı tərkib hissəyə aid olan bir sıra elementlər faktiki olaraq real sosialist ölkələrinin təcrübəsindən alınmışdı.

Əlbəttə, ekspert tövsiyələrinin heç də hamısı ABŞ-ın və daha sonra başqa inkişaf etmiş qərb ölkələrinin iqtisadi siyasətində reallaşdırılmamışdı. Bununla belə, sonralar həm sovet iqtisad elminin nümayəndələri, həm də Qərbdəki iqtisadi nəzəriyyənin təmsilçiləri F.D.Ruzveltin və onun başqa ölkələrdəki faktiki davamçılarının hərəkətlərinin mahiyyətini – əlbəttə, ciddi fərqlərlə - bütövlükdə kapitalist sosial-iqtisadi sisteminə yeni sima vermək cəhdi kimi qiymıtləndirirdilər. Bu halda Sovet İttifaqında həm sosial sahədə, həm də perspektivli planlaşdırmada qazanılmış bir sıra konkret nailiyyətlərdən istifadə edilir, bazar təsərrüfat sisteminin əsasını formalaşdıran mülkiyyət münasibətləri isə, əlbəttə, dəyişməz qalırdı.

Beləliklə, müharibədən sonrakı dövrə bütövlükdə ümumi bazar təsərrüfatı sistemində qalan inkişaf etmiş qərb ölkələrinin iqtisadiyyatı prinsipcə yeni xüsusiyyətlər kəsb edir. Bu xüsusiyyətləri ümumi şəkildə yekunlaşdıraraq deyə bilərik ki, dövlət tənzimləməsi nəzəriyyəsi və praktikasında ən əhəmiyyətli komponentlər aşağıdakılardır:

- iqtisadi inkişafın ən perspektivli və *ümummilli əhəmiyyətli* hesab edilən istiqamətlərinin makroiqtisadi proqnozlaşdırılması və strateji planlaşdırılması;

- elmin, elmi-texnoloji tədqiqatların və elm tutumlu sənaye sahələri kompleksinin prioritetli inkişafının təmin edilməsi;

- yerli istehsalçıların müdafiəsi üzrə geniş və çoxşaxəli proteksionist fəaliyyəti (onlara maliyyə subsidiyaları verilməsi də daxil olmaqla) – bu iş elə təşkil edilməlidir ki, onlar formal-hüquqi baxımdan Ümumdünya Ticarət Təşkilatının sanksiyalarına məruz qalmasınlar;

- səhiyyənin dəstəklənməsini və pulsuz ümumi təhsilin (bir sıra Avropa ölkələrində, həmçinin, ali təhsilin) təşkilini əhatə edən genişmiqyaslı sosial proqramlar, sosial sferanın başqa sektorlarının maliyyələşdirilməsi.

Lakin bu məqalənin başlanğıcında qeyd etdiyimiz mövzuya qayıdaq və 2020-ci ildən başlayaraq dünya iqtisadiyyatında və bütövlükdə dünyada bu gün üzləşdiyimiz böhran hallarının kəskinləşməsinə gətirib çıxarmış səbəblərə nəzər salaq. Bu səbəblər fərqlidir, lakin onların nisbətən qısa zaman kəsiyində praktik olaraq üst-üstə düşməsi faktı milli iqtisadiyyatlara və bütövlükdə dünya təsərrüfat sisteminə ciddi təsir göstərən ümumi neqativ effekt yaradır.

*Birincisi,* ən kəskin dövrü 2020-ci ildə *covid-19* koronavirus pandemiyasının nəticələri hələ də tam aradan qaldırılmamışdır. Bu nəticələr bu və ya digər dərəcədə indiyə qədər hiss olunur. Bir çox ölkələrdə aylar boyu tətbiq edilmiş karantinlərin və sanitar-epidemioloji xarakterli məhdudiyyətlərinin birbaşa nəticələrinə malların çatdırılması üçün nəqliyyat-logistika marşrutlarında vaxtaşırı yaranan nasazlıqlar da əlavə olunur, bu da, öz növbəsində, xammalın və avadanlığın, həmçinin ən zəruri məhsulların çatdırılmasında ciddi kəsirlərə və ümumi daxili məhsulun birbaşa itkilərinə gətirib çıxarır.

*İkincisi,* bir çox ölkələrin, o cümlədən inkişaf etmiş dövlətlərin milli təsərrüfat sistemlərinə və ya ölkələr arasında iqtisadi münasibətlər sisteminə bu və ya digər şəkildə təsir göstərən genişmiqyaslı enerji böhranı təhlükəsi yaranır. Beynəlxalq Valyuta Fondunun məlumatına görə, yaxınlaşmaqda olan böhran səbəbindən, dünya dövlətlərinin əksəriyyətində iqtisadi artım sürəti kəskin şəkildə azalmışdır və 2023-cü *ilin yekunlarına görə bir sıra ölkələrdə resessiya baş verəcəyi proqnozlaşdırılır.*

*Üçüncüsü,* bu əsrin ikinci onilliyinin sonunda inkişaf etmiş ölkələrin çoxunda, ilk növbədə Avropa İttifaqına üzv dövlətlərdə uzunmüddətli perspektivdə inkişafın strateji kursu kimi elan edilmiş

*“yaşıl”, yəni bərpaolunan energetikaya* keçid kursunun makroiqtisadi siyasətdə strateji uğursuzluqla nəticələnməsi bütün dünyada iqtisadi vəziyyətə təsir edir. Ancaq əsasən qeyri-iqtisadi xarakterli bir sıra məlum səbəblərə görə, konkret iqtisadi və texniki reallıqlar nəzərə alınmadan bu kursu vaxtından əvvəl, sürətlə reallaşdırmağa başladılar. Eyni zamanda, yenə də mümkün nəticələr nəzərə alınmadan karbohidrogen yanacağından sürətlə imtina kursunu həyata keçirməyə başladılar, bu isə istehlak bazarında yanacaq qıtlığı təhlükəsi yaradır.

*Nəhayət,* əgər Avropa qitəsi haqqında ayrıca danışmalı olsaq, həm Qərb ölkələri tərəfindən Rusiyaya qarşı tətbiq edilmiş birtərəfli sanksiyalarla, həm də Rusiya tərəfindən görülən cavab tədbirləri ilə əlaqədar, burada ümumi iqtisadi vəziyyət kəskinləşir. Bütün bunlara görə, tamamilə qanunauyğun olaraq, bir sıra qonşu ölkələrin əhalisinin əksəriyyətinin ümumi həyat səviyyəsinin saxlanması problemi yaranır, çünki bu insanların çoxu Rusiya ilə genişmiqyaslı ticari-iqtisadi əlaqələrlə bağlıdır və bu səbəbdən, Rusiya ilə Avropa İttifaqı arasında qarşılıqlı münasibətlər pisləşəcəyi halda neqativ sosiall-iqtisadi nəticələrdən qaçmaq mümkün olmayacaq. Obyektiv səbəblərdən, Azərbaycan da belə ölkələrə aiddir.

Beləliklə, bu gün dünya iqtisadiyyatında və beynəlxalq münasibətlərdə formalaşan, həqiqətən mürəkkəb yeni vəziyyətdə aşağıda sadalanan məsələlər gündəlikdədir:

- böhranlar daha da kəskinləşəcəyi halda daxili və xarici şəraitdən asılı olmayaraq müasir insanın rifahının əldə olunmuş səviyyəsinin saxlanması;

- səhiyyə və təhsil sahəsində əsas sosial nailiyyətlərdən, mədəniyyət, incəsənət elementlərindən istifadə imkanlarının təmin edilməsi, başqa sözlə, həm insanların yaşadığı maddi mühitin, həm də onların qarşılıqlı ünsiyyətdə olduğu bütün mənəvi mühitin qorunub *saxlanması.*

Bir daha vurğulayaq ki, bu məsələlər xüsusi əhəmiyyət kəsb edir, çünki onları *eyni zamanda və sıx qarşılıqlı əlaqəli şəkildə həll etmək lazımdır.*

Bu səbəbdən, yuxarıda sadaladığımız iqtisadi və qeyri-iqtisadi xarakterli hadisələr müasir dövlətin fəaliyyətində sosial tərkib hissənin gücləndirilməsindən ibarət ümumi tendensiyanı dəyişdirmir və üstəlik, bu tendensiyanın davamı və gücləndirilməsi *bütün sonrakı inkişafın imperativinə* çevrilir.

İqtisadiyyatın və bütün ictimai həyatın dərinləşməkdə olan rəqəmsallaşması prosesləri sosial inkişafın bütün istiqamətlərində əhəmiyyətli dərəcədə kömək göstərir. Lakin burada nəzərə almaq lazımdır ki, rəqəmsallaşma imkanları genişləndikdə insanın və vətəndaşın sosial və əmlak təhlükəsizliyinin təminatının yeni səviyyəsi haqqında məsələ yaranır və bu da öz növbəsində, müasir dövlətin qarşısında yeni məsələlərin kompleksini qoyur,

Bu gün hüquqşünaslar rəqəmsal sahədə müasir qanunvericiliyi təkmilləşdirmək imkanlarına malikdirlər. Məsələn, hüquqşünaslar güman edirlər ki, müxtəlif İnternet-platformaların geniş yayılması ilə əlaqədar *hüquqi platforma* yaxşı perspektiv imkanlara malikdir: bu platformanın fəaliyyəti məhz istifadəçilərin hüquqlarının müdafiəsi üçün başqa onlayn-platformalarda əməliyyatların hüquqi müşayiətini təmin etməyə yönəldilmişdir.

Müasir elmin vəzifələri mövzusunun davamı kimi, qeyd etmək istərdik ki, bizim fikrimizcə, son bir neçə onillik ərzində özünü etibardan salmış liberal-monetarist ideyalardan həm nəzəriyyədə, həm də praktikada imtina etmək lazımdır. Xatırladaq ki, bütövlükdə dövlət tənzimləmə sisteminin inkişaf etdirilməsi və təkmilləşdirilməsi nəticəsində bu gün inkişaf etmiş qərb ölkələrində inkişafın aşağıda göstərilən ən əhəmiyyətli ümummilli istiqamətləri üzrə müxtəlif formalarda planlaşdırma həyata keçirilir:

- elmi-texniki;

- məkan;

- energetika;

- nəqliyyat.

Bu halda maliyyə və büdcə-vergi siyasəti bu planları nəzərə alaraq işlənib hazırlanır.

Bununla belə, əlbəttə, nəzərə almaq lazımdır ki, bazar təsərrüfatçılıq sistemi şəraitində belə istiqamətlər üzrə makroiqtisadi göstəricilərin *indikativ planlaşdırılması* qaydası qüvvədə qalır, *direktiv planlaşdırma* isə dövlət sektoru müəssisələrində mümkündür.

Yuxarıda qeyd olunanı nəzərə alaraq müasir elm effektiv təsir edən elə mexanizm yaradılmasına fokuslanmalıdır ki, bu mexanizm *təsərrüfatçılığın ümumi bazar prinsipləri ilə strateji planlaşdırma və proqnozlaşdırmanın müxtəlif elementlərinin uyğunluğunu təmin etsin.* Həm də belə uyğunluq kağız üzərində və bəyannamələr şəklində deyil, dövlətin real surətdə həyata keçirilən iqtisadi siyasəti şəklində mövcud olmalıdır.

Bununla əlaqədar, ayrıca xatırlatmalıyıq ki, daim qüvvədə olan və təkmilləşən sosial siyasətdən söhbət gedir. Yuxarıda vurğuladığımız kimi, böhran hallarının artması və əhalinin real yaşayış keyfiyyətinin pisləşməsi təhlükəsi şəraitində sosial tərkib hissənin gücləndirilməsi, həm ən yaxın, həm də uzunmüddətli perspektivdə bütün iqtisadi siyasətin əsas istiqaməti olmalıdır. Xüsusi halda, bu o deməkdir ki, iqtisadi fəallığın stimullaşdırılmasına yönəlmiş istənilən tədbirlər aşağıda sadalanan elementləri əhatə etməlidir:

- yoxsulluq və işsizlik səviyyələrinə nəzarət;

- sosial infrastrukturun təkmilləşdirilməsi və daha da inkişaf etdirilməsi;

- əhalinin belə infrastruktur obyektləri ilə təminatının dinamikası.

Heç də təsadüfi deyil ki, 2023-cü ilin yanvarında Davosda keçirilmiş növbəti Ümumdünya İqtisadi Forumunda dövlətin təsərrüfat proseslərinə müdaxiləsini gücləndirməyin, xüsusilə elmi tutumlu və yüksək texnologiyalı istehsalların dəstəklənməsi hissəsində, qaçılmaz olması haqqında proqnozlar səsləndi.

Buna görə biz bir daha bu nəticəyə gəlirik ki, yaranmış vəziyyətdə hər konkret ölkənin daxilində baş verən sosial-iqtisadi proseslərin gedişinə dövlətin təsirinin *aktivləşməsi* sonrakı inkişafın təminatının aşkar *alternativsiz variantıdır*. Müvafiq olaraq, belə aktivləşmənin əsas istiqamətlərinin müəyyən edilməsi həm siyasi xadimlərin və maliyyə hakimiyyəti orqanlarının, milli səviyyədə idarəetmə institutlarının, həm də *iqtisadi nəzəriyyənin* əsas vəzifəsidir.

Cəmiyyət iqtisadi nəzəriyyədən, eləcə də bütün iqtisadi elmlər kompleksindən aşağıda sadalanan konkret məsələlərə dair konkret təkliflər gözləyir:

- *Birinci,* dövlətin iqtisadi siyasətində inkişafın əsas sosial-iqtisadi nisbətlərinin strateji planlaşdırma və makroiqtisadi proqnozlaşdırma elementlərindən istifadə edilməsi.
- *İkinci,* bütövlükdə ölkədə və xüsusilə - yüksək texnologiyalar sahəsində elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması sisteminin təkmilləşdirilməsinə dair təkliflər.
- *Üçüncü,* həm ümummilli innovasiyalı-texnoloji proqramların, həm də ayrı-ayrı layihələrin reallaşdırılmasında dövlətlə şəxsi biznesin qarşılıqlı fəaliyyət imkanlarının yaxşılaşdırılması.

- *Dördüncüsü*, bilavasitə yüksək texnologiyaların tətbiqi ilə məşğul olan sahələrdə və ayrı-ayrı müəssisələr səviyyəsində istehsal proseslərinin idarə edilməsinin səmərəliliyinin artırılması.
- *Beşincisi*, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və yenidən hazırlanması sahəsində təhsil siyasətinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi.

Bizim fikrimizcə, *iqtisadi nəzəriyyə bu məsələləri daim diqqət mərkəzində saxlamalıdır*.

Bütövlükdə müasir elmin qarşısında duran məsələlər mövzusuna qayıdaraq bir daha əmin oluruq ki, yuxarıda göstərilən istiqamətlərin hər birində – istər sənayenin qabaqcıl sektorları, istər sosial və ya humanitar sahədə araşdırmalar olsun – *sıçrayışlı* nəticələrə nail olmaq eyni zamanda elmin cəmiyyətdə rolunun daha da artmasını və deməli, həm fundamental, həm də tətbiqi elmlərin inkişafına tamamilə yeni yanaşmaların formalaşmasını nəzərdə tutur.

Dövlətdə və cəmiyyətdə elə sistem yaradılması nəzərdə tutulur ki, o həm müasir sivilizasiyaya yeni innovasiya texnologiyalarının tətbiqini, həm də, daha geniş mənada, *prinsipcə yeni baxışlardan və yanaşmalardan* istifadə olunmasını təmin etsin. Bizim fikrimizcə, iqtisadi nəzəriyyə bilavasitə dövlət tənzimləməsi sisteminin təkmilləşdirilməsi üzərində iş prosesinə *yeni yanaşmalar* təklif edə bilərdi. Belə yanaşmalar, xüsusi halda, aşağıda göstərilən şərtlərə əsaslanır:

- sosial-iqtisadi həyatın müxtəlif aspektləri üzrə dövlət tənzimləməsi təcrübəsinin təkmilləşdirilməsinə aid təkliflər hazırlanması istiqamətində tədqiqat fəaliyyəti üçün həm maddi-texniki, həm də bilavasitə yaradıcılıq baxımından əlverişli mühit formalaşması;

- elmi fəaliyyətin ən müxtəlif sahələrində aparılan tədqiqatların nəticələrinin dövlət hakimiyyəti və bütün səviyyələrdə idarəetmə orqanlarına təqdim edilməsi prosedurlarının maksimal dərəcədə sadələşdirilməsi və belə nəticələrin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi;

- institutlarda, laboratoriyalarda, ali məktəb kafedralarında tədqiqat kollektivləri tərəfindən yaradılan elmi-texniki, texnoloji və idarəçilik yeniliklərinin bilavasitə istehsal proseslərində tətbiqi şərtlərində süründürməçiliyə son qoyulması.

Belə yanaşmaların qəti formada dürüst ifadə edilməsi dövlətin sosial-iqtisadi proseslərə təsirinin gücləndirilməsi mexanizminin, həmçinin ən müxtəlif fəaliyyət sahələrində alınan nəticələrin təkmilləşdirilməsinə iqtisadi nəzəriyyənin mühüm töhfəsi olardı.

Əlbəttə, belə fəaliyyət üçün yüksək ixtisaslı mütəxəssis kadrları tələb olunur, belə kadrları isə yalnız qabaqcıl təhsil sistemi verə bilər. Son onilliklərin təcrübəsi haqqında danışarkən nəzərə almaq lazımdır ki, keçmiş SSRİ-yə daxil olan müttəfiq respublikaların hər biri (hazırda onlar suveren dövlətlərdir) Sovet İttifaqının dağılmasından keçən müddətdə ali təhsilin təşkili sahəsində, daha geniş mənada desək, bütövlükdə *dövlətin təhsil siyasətinin həyata keçirilməsi* sahəsində təcrübə toplamışdır. Əlbəttə, təhsilə dövlət dəstəyinin səviyyəsi mühüm göstəricidir.

Son illərdə Azərbaycan Respublikasında təhsil sahəsinə dövlət dəstəyi məsələsində ciddi nailiyyətlər qazanılmışdır. Məsələn, 2019-cu ilin yekunlarına görə bizim ölkəmizin dövlət büdcəsindən təhsil sahəsinə ayrılmış ümumi xərclər əvvəlki ildəki 1,967 milyard manatdan 2,196 milyard manata çatdırılıb, yəni 11,2 faiz artıb. Növbəti, ən ağır, “COVİD ili” olmuş 2020-ci ildə təhsil xərcləri 2,774 milyard manata qədər artıb, yəni əvvəlki illə müqayisədə 26,3 faiz artım qeydə alınıb. Bu, çox ciddi nəticədir. Burada çox əhəmiyyətli məqam ondan ibarətdir ki, 2020-ci

il dövlət büdcəsində xərclərin ümumi həcmində təhsil xərclərinin payı 2019-cu ildəki 9,0 faiz ilə müqayisədə 10,5 faizə qədər artmışdır (1,s.376-377).

Gördüyümüz kimi, bugünkü Azərbaycan üçün təhsil sahəsi *sözsüz prioritet* olmuşdur. Büdcə siyasəti də bu faktı təsdiq edir və bu sahədə vəziyyətin gələcəkdə də belə qalacağını güman etməyə hər cür əsas var.

İndi də elm sahəsində vəziyyətə rəsmi statistika baxımından nəzər salaq. Dövlət büdcəsindən elmə ayrılan xərclər: 2018-ci ildə 117,8 milyon manat, 2019-cu ildə 122,3 milyon manat olub, 2020-ci ildə isə artırılaraq 143,6 milyona manata çatdırılıb. Bu o deməkdir ki, bizim ölkəmizdə elmə ayrılan xərclərin əvvəlki illə müqayisədə artımı: 2019-cu ildə 3,4 faiz, bütün iqtisadiyyat və cəmiyyət üçün ağır keçmiş 2020-ci ildə isə 18,0 faiz olmuşdur.

Bu məlumatlar Azərbaycan Respublikasında elm sahəsinə ayrılan diqqəti göstərir. Azərbaycan Respublikasının dövlət büdcəsinin məxaric hissəsinin ümumi həcmində elmə ayrılan xərclərin payını götürsək, 2018-ci və 2019-cu illərdə bu pay, müvafiq olaraq, 0,52 faiz və 0,50 faiz olmuş, 2020-ci "karantin" ilində isə 0,54 faizə qədər artmışdır. Həmin göstərici ölkəmizin ümumi daxili məhsulu ilə müqayisədə 2018-ci və 2019-cu illərdə 0,15 faiz olmuş, 2020-ci ilin yekunlarına görə isə 0,20 faizə qədər artmışdır (1,s.235).

Beləliklə, bu məlumatlar aşağıda göstərilən ümumi nəticələrə gəlməyə imkan verir. Bu məlumatlar:

- *birincisi,* inandırıcı şəkildə göstərir ki, hətta bütün iqtisadiyyat üçün ən əlverişsiz dövrlərdə də Azərbaycan dövləti elm sahəsinin inkişafına çox ciddi münasibət bəsləyir, başqa sözlə, Azərbaycan dövlətinin elm və elmi araşdırmaların təşkili sahəsində siyasəti sabitdir;

- *ikincisi,* onu göstərir ki, belə münasibət dövlət tərəfindən bilavasitə maliyyə vəsaitləri ayrılması ilə təsdiqlənir.

Bu məqamda biz yuxarıda toxunulmuş bir məsələyə - indiki ağır vaxtda prioritetli sahələrə *dövlət sərmayə qoyuluşlarının* əhəmiyyəti mövzusuna yenidən qayıtmalı oluruq. Elmi-tədqiqat fəaliyyətinə xərclərin ümumi həcmi kimi kompleks göstərici bu tezisi bir daha təsdiq edir. Bu xərclərin ümumi həcmində *dövlət mənbələrinin* payı, müvafiq olaraq: 2018-ci ildə 85,4 faizə, 2019-cu ildə 82,3 faizə bərabər olmuş, 2020-ci ilin yekunlarına görə yenidən 85,5 faizə qədər qalxmışdır (1, s.235).

İndi isə ölkənin sosial inkişafının bəlkə də ən əhəmiyyətli göstəricisinə – *səhiyyəyə* ayrılan xərclər mövzusuna müraciət edəcəyik. Bu sahəyə dövlət büdcəsindən ayrılan xərclər 2018-ci ildəki 709,9 milyon manatdan 2019-cu ildə 873,6 milyon manata qədər, yəni 23,0 faiz artmışdır. 2020-ci ilin müvafiq göstəriciləri isə Azərbaycanda əhalinin sağlamlığının qorunmasına dövlət dəstəyinin ən böyük, nümunəvi artımına sübutdur. Həmin ildə dövlət büdcəsindən tibb sahəsinə ayrılan xərclər 1,688 milyard manata çatmışdır, yəni bir il ərzində 93 faizdən çox, başqa sözlə desək, təxminən iki dəfə artım olmuşdur. Dövlət büdcəsinin xərclərinin ümumi strukturunda səhiyyəyə ayrılan xərclərin payı təxminən 6,4 faiz təşkil etdi (1,s.376-377).

Nəhayət, daha bir mühüm sosial göstəriciyə – əhalinin *sosial müdafiəsinə* dövlət xərclərinin səviyyəsinə müraciət etməliyik. 2019-cu ilin yekunlarına görə bu istiqamət üzrə büdcə xərclərinin ümumi məbləği əvvəlki, 2018-ci ilin müvafiq göstəricisi (2,12 milyard manat) ilə müqayisədə 5,7 faiz artıb, 2,24 milyard manata bərabər olmuşdur. Böhranlı 2020-ci ildə sosial müdafiə üçün dövlət

büdcəsindən ayrılan xərclərin məbləği təxminən 40,0 faiz artırılaraq 3,11 milyard manata çatdırılmışdır (1,s.376-377).

Gördüyümüz kimi, Azərbaycan dövləti hətta *pandemiya* ilindəki ağır şəraitdə də aparıcı istiqamətlər üzrə sosial xərclərin əhəmiyyətli dərəcədə artmasını təmin etmişdi. Əlbəttə, deyə bilərlər ki, 2020-ci il ümumdünya miqyaslı epidemiya və səhiyyəyə dövlət xərclərinin, həmçinin əhalinin sosial müdafiəsi ilə əlaqədar xərclərin hər yerdə artması ilə bağlı qeyri-adi il idi. Ancaq, bizim fikrimizcə, Azərbaycan hətta bu ümumi tendensiya çərçivəsində də həm əhalinin sağlamlığının qorunmasına, həm də ümumiyyətlə, respublika vətəndaşlarının dəstəklənməsinə investisiyanın yüksək səviyyəsini təmin etmişdi və indi bu yüksək səviyyəni qoruyub saxlamaq gələcək inkişafın xeyrinə olar.

*Yuxarıda deyilənlərə əsasən belə nəticə çıxarmaq olar ki, bizim dövlətimizin iqtisadi siyasəti sayəsində Azərbaycanın sosial sferası çox mürəkkəb şəraitdə öz sabitliyini göstərdi.*

Bu səbəbdən bizə belə gəlir ki, bizim ölkəmizin iqtisadi siyasətini bundan sonra da elə inkişaf etdirmək lazımdır ki:

- *birincisi*, sosial inkişafın aparıcı istiqamətlərində dövlətin iştirakının hətta ağır şəraitdə əldə edilmiş maliyyə göstəricilərinin azalmasına imkan verilməsin;

- *ikincisi*, dövlət xərclərindən istifadənin effektivliyi elə səviyyəyə çatdırılsın ki, sosial sahələrə investisiyalardan yaxın gələcəkdə respublikamızın vətəndaşlarının həyatının və əmək fəaliyyətinin ümumi keyfiyyətinin artması şəklində səmərə təmin edilsin.

Bizim fikrimizcə, respublikamızda investisiya fəaliyyəti ilə bağlı ümumi vəziyyətin yaxşılığa doğru dəyişməsinə nail olmaq da zəruridir. Bəli, yuxarıda vurğuladığımız kimi, indiki çətin şəraitdə ümumi investisiya prosesində aparıcı rol məhz dövlət investisiyalarının payına düşür. Lakin istənilən halda belə rol həm də fərdi investorların fəallaşması ilə müşayiət olunmalıdır.

Bununla əlaqədar qeyd etmək lazımdır ki, son illərdə Azərbaycanda investisiya fəaliyyəti sahəsində işlərin vəziyyətinin sabit olduğunu demək olmaz. Nəinki 2020-ci - böhran ilində, hətta böhran öncəsi illərdə də Azərbaycan iqtisadiyyatına əsas kapital qoyuluşlarının dinamikası əhəmiyyətli tərəddüdlərə məruz qalırdı. Beləki, 2018-ci ilin yekunlarına görə investisiyaların həcmi (sabit qiymətlərlə) əvvəlki, 2017-ci ilin müvafiq göstəriciləri ilə müqayisədə mütləq ifadədə 4,3 faiz azaldığı halda böhranın ərəfəsində, 2019-cu ildə investisiyaların 2018-ci il ilin müvafiq göstəriciləri ilə müqayisədə 5,5 faiz artması qeydə alınmışdı. Lakin təəssüf ki, bu müsbət nəticə tendensiyaya çevrilmədi və növbəti, 2020-ci ildə investisiya fəallığı 2018-ci ildəki ilə müqayisədə daha kəskin şəkildə – 7,3 faiz azaldı (1,s.40).

Bizim fikrimizcə, dövlət bu istiqamətdə özünün tənzimləyici və təşkilatçı funksiyalarını göstərməlidir.

**Ədəbiyyat siyahısı**

Azərbaycanın statistik göstəriciləri 2021. - Azərbaycan Respublikasının Statistika Komitəsi. - Bakı. - S. 40, 235, 376-377.

# The Prerequisites for Successful Privatisation in Azerbaijan

**Nihat Hasanov**

## Abstract

